QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ BAKI İSLAM UNİVERSİTETİ

ŞAHLAR ŞƏRİFOV

İSLAM TARİXİ

“Elm və təhsil”
Bakı - 2017

Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin
29 oktyabr 2013-cü il tarixli DK- 552/ M saylı məktubuna
əsasən çapına icazə verilmişdir.

Kitabın işıq üzü görməsində maddi kömək göstərdiyinə görə
MƏCİDOV HACI QABİL HÜSEYN OĞLUNA
minnətdarlığımızı bildiririk

Elmi redaktoru: **Kamandar Şərifov**
filologiya elmləri doktoru, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri

Elmi məsləhətçilər: **Hacı Fuad Nurullayev**
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, Bakı İslam Universitetinin dekanı

Rəyçilər: **Anar İsgəndərov**
tarix elmləri doktoru, Qafqaz Müsəlmanları İdarəsi Elmi-dini şuranın üzvü, Bakı Dövlət Universiteti, Tarix fakültəsinin kafedra müdiri
Dilavər Əzimli
tarix üzrə fəlsəfə doktoru, AMEA Tarix İnistitunun aparıcı elmi işçi

İlahiyyat korrektoru: Hacı İbrahim Quliyev
Bakı İslam Universitetinin müəllimi

Şahlar Şərifov Şahbaz oğlu İSLAM TARİXİ.
Bakı, "Elm və təhsil", 2017, 640 səh.

"İslam tarixi" kitabı islam dininin meydana gəlməsi və onun təşəkkül tarixindən bəhs edir. Həmçinin kitabda Hz.Məhəmməd peyğəmbərin *(s)* həyatı və onun fəaliyyəti geniş şəkildə araşdırılmışdır.

Peyğəmbərdən *(s)* sonra Raşidi xəlifələri dövrü (632-661), Əməvilər dövrü (661-750), Abbasilər dövrü (750-1258) və həmçinin Abbasilər dövründə meydana gəlmiş feodal dövlətlərin tarixinə və digər İslam dövlətlərinin tarixinə də toxunulmuşdur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN - 978 - 9952 - 460 - 61 - 2 © Şərifov Ş.Ş. 2013

ÖN SÖZ

İslam tarixi islam dininin VII əsrdə ortaya çıxışından və islam dövlətinin qurulmasından başlayaraq müasir zamanlara qədər uzanan müddətdə, islam dini, islam dinini mənimsəyən bölgə və toplumlar ilə bu toplumların islam adı altında ortaya qoyduğu ayinləri saxlayan tarix qoludur. İslam tarixi islam inancını həm bir din həm də bir ictimai müəssisə olaraq araşdırır və nəticədə hadisələri bu məzmunda təqdim edir.

İslam tarixi uzun zamanı əhatə edən, coğrafi baxımdan isə Çinin sərhədlərindən tutmuş Fransanın cənubunadək olan ərazilərin tarixi ilə sıx əlaqədə olan tarixdir. Bu tarixin başlanğıcı ilk vəhyin Məhəmməd bin Abdullaha (s) nazil olmasından başlayır. İslam tarixi təkcə Peyğəmbərimizin (s) həyatını öyrənməklə bitmir. Bu, Raşidilər dövrünü (632-661), Əməvilər dövrünü (661-750) və Abbasilər dövrünü (750-1258) bütövlükdə əhatə etməklə yanaşı, Buveyhilər, İdrisilər, Həmdanilər, Əyyubilər, Səlcuqilər, Osmanlılar (1299-1924) və islam coğrafiyasında meydana gəlmiş digər dövlətlərin tarixini öyrənən müstəqil fəndir.

İslam tarixinin mərkəzini və islam tarixinin qızıl çağını təşkil edən dövr dinin zühur etməsindən Məhəmməd peyğəmbərin (s) ölümünə qədər davam edən və islami qaynaqlarda "Əsri-səadət" (səadət dövrü) olaraq adlandırılan dövrdür. "Əsri-Səadət" iki ana hissədə araşdırılır. Bunlar Məkkə dövrü və Mədinə dövrüdür. Məkkə dövrü daha çox dinin meydana gəlməsi, ilk müsəlman icması, əxlaqi və dini dəyərlərin müsəlman icması tərəfindən mənimsənməsi, mövcud olan dini inanc ilə islamın qarşıdurması və müqavimətlərini ehtiva edir. Bu dövr hicrətlə birlikdə sona çatır. Mədinə dövründə isə, islam dövlətin və cəmiyyətin quruluşu ilə daha siyasi və ictimai bir dövr olub, müxtəlif döyüşlərə və həm siyasi nüfuz həm də ictimai rifah mənasında yüksəliş ifadə edən bir zaman dilimidir. Bu dövrdə bütün Ərəbistan Yarımadası müsəlmanların idarəsinə girmişdir.

Həmin zamanın qüdrətli hakimlərinə məktub yazıb dinə dəvət etməklə yanaşı, həzrət Peyğəmbər (s) müxtəlif bölgələrə təbliğatçılar göndərirdi. Beləliklə, Sasani imperiyasının müstəmləkələrindən biri olan Yəmənə həzrət Peyğəmbər (s) islam dinin təbliği üçün həzrət Əlini (ə) göndərir və yəmənlilər islamı qəbul edirlər. İlk dəfə azərbaycanlılar islam dini ilə yaxından məhz yəmənlilər vasitəsilə tanış olurlar. Bəzi tarixçilərin fikrincə, hətta Azərbaycan əhalisinin bir hissəsi ərəb işğalından öncə islamı qəbul etmişdi.

Eyni imperiyanın tərkibində olan İranla Azərbaycanın tarixi və mədəni bağlılığını nəzərə alsaq, iki ölkədən birində baş verənlər birbaşa digərinə də təsir göstərirdi. İlk dəfə Sasani ordusu ilə müsəlman-ərəb qoşunları xəlifə Əbu Bəkrin dövründə (632-634) qarşılaşırlar. Bu qarşıdurmada hətta nisbətən müstəqil xristian Arran hakimləri Sasanilərin tərəfində döyüşürlər. Xəlifə Əbu Bəkr ərəb fəthlərinin ilk dövründə müsəlman qoşunlarına belə əmr etmişdi: "İnsanları şikəst etməyin, nə kiçik uşaqları, nə qocaları, nə də qadınları öldürməyin; meyvə ağaclarını tələf etməyin, heyvanları tələf etməyin. Siz hücrələrdə dini ayinlə məşğul olan adamların yanından keçəcəksiniz; onları rahat buraxın və ibadətlərinə mane

olmayın. Sizi qəbul edən hər bir şəhər və xalq ilə müqavilə bağlayın, onlara verdiyiniz vədlərə sadiq olun."

Xəlifə Ömərin dövründə Sasani imperiyası məğlub oldu və Azərbaycan digər bölgələr kimi də müsəlmanların tabeçiliyinə keçdi.

Demək olmaz ki, bu fəthdən əhali əziyyət çəkdi. Çünki ərəblər əhalinin əmlakını əllərindən almır, onları islamı qəbul etməyə məcbur etmirdilər. Bütün bunlarla yanaşı yerli adət-ənənələrə hörmətlə yanaşılırdı. Elə bu səbədəndir ki, Azərbaycan xalqı islamdan öncəki adət-ənənələrini bu günə kimi qoruyub saxlayıb. Əhalinin digər hüquqları da pozulmurdu. Əlbəttə müasir meyarlarla yanaşsaq islamlaşma prosesində nöqsan tapmaq olar, ancaq unutmayaq ki, bu hadisələr dünyanın cəhalətə mürtəkib olduğu orta əsrlərin əvvəllərində baş verirdi. Həmin dövrün meyarları ilə müsəlmanlar fəth olunmuş xalqların hüquqlarını qoruyurdu. Bu isə imperiya siyasətindən və sonsuz müharibələrdən bezmiş əhali üçün olduqca mühüm idi və onlar könüllü olaraq xilafətin tabeçiliyinə keçirdi. Bu işdə artıq öncədən Azərbaycan və İran ərazilərində müsəlmanların olması və yerli camaatın islam dinin gözəlliyi ilə tanış olduğu təsir göstərmişdi. Azərbaycan qısa bir zamanda tamamilə müsəlmanlaşdı. Arran ərazisi xristian olaraq qalırdı və xilafətin tərkibinə yalnız xəlifə Osmanın dövründə (644-656) daxil oldu. Artıq həzrət Əlinin (ə) dövründə Azərbaycanın əksəriyyəti müsəlman olmuşdu. Buna baxmayaraq Girdman əmirliyi xrisitian olaraq qalırdı. Sonralar islam hakimiyyəti altında Arran və Azərbaycan vahid vilayətə birləşdi. Bütün bu deyilənləri nəzərə alsaq belə məlum olacaqdır ki, islam tarixinin xalqımızı tarixi ilə sıx bağlılığı və hətta vəhdəti vardır.

İslam tarixi təkcə islam dünyasında baş verən tarixi hadisələri xronoloji ardıcıllıqla izləmir. Bu tarix həm də tarixi təfsir edir, islamda dövlətçilik ənənəsinin mahiyyətini açıqlayır və nəhayət insanların tarixdən ibrət almalarını önə çəkir.

Bu gün məmləkətimizdə İslam dininə qayıdışın vüsət aldığı bir vaxtda bu kitabın nəşr üçün hazırlanması əsərin aktuallığına dəlalət edən cəhətdir. Belə bir əsərin işıq üzü görməsinin vacibliyini şərtləndirən əsas məqamda məhz bununla əlaqədardır: müqəddəs dinimizin tarixinə dair mövcud ədəbiyyat bolluğu fonunda bu mövzuya dair dürüst informasiyaları özündə ehtiva edən, həqiqi islami dəyərləri əks etdirən mənbələr olduqca azdır. Bu baxımdan əsər, İslam tarixini olduğu kimi, dərindən və ətraflı öyrənmək istəyənlər üçün əhəmiyyət kəsb edir.

Təqdim olunan bu kitab əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin sistemindəki dövlət və özəl ali məktəblərində "Dinşünaslıq", "İslamşünaslıq" və "İslam hüququnun əsasları" fənlərindən dərs deyən müəllimlər, bu fənləri öyrənən tələbələr və mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Ümumilikdə, əsərin işıq üzü görməsini təqdir edir və onun geniş oxucu kütləsini maraqlandıracağına, habelə islami maarifləndirmə işinə dəyərli töhfə olacağına inanıram.

Kamandar Şərifov, *filologiya elmləri doktoru, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri.*

GİRİŞ

Millətlərin gələcəyi üçün tarix yazmaq, həyata keçirmək qədər çətindir. Günümüzdə tarix şüurunu daşıyan millətlər, milli qüdrət və mədəniyyət həmlələrində bu xəzinədən faydalandıqca, bir çox dəyər qazanmış olacaqlar. Çünki tarix, bir mədəniyyət və şüur qaynağı olmadıqca torpaq altında qalan qiymətli mədənlər kimi heç bir məna kəsb etməz.

Tarix şüuru çox qədim olub, insanların mənəvi vəsfləri və mədəniyyət səviyyələri nisbətində dərinləşir. Tarixini bilməyən, şüurunu tanımayan millətlər, hafizə və idrakını əldən vermiş kimsələrə bənzəyirlər.

Cəmiyyət və mədəniyyətin yüksək olduğu dövrlərdə maddi-mənəvi qüvvətlər arasında bir tarazlığın olduğunu göstərdiyi kimi, çöküşlərinə də bu tarazlığın pozulmasının səbəb olduğunu tarix araşdırmaları göstərməkdədir.

Ərəbistan çöllərindən çıxan iman və İslam ruhu, qısa zamanda qədim dünyanın böyük bir qismini əhatə etmiş, məchul və sadə insanlar, birdən-birə tarixin qəhrəman və dahiləri olmuşlar. İslamiyyət bu ilahi qüdrət sayəsində, dünyanın iki nəhəng imperatorluğu olan Bizans və Sasani imperatorluqlarına son qoymuş, az bir zaman kəsiyində Atlantik okeanı sahillərindən Çin səddinə, Qafqaz dağlarından Priney dağlarına qədər yeni bir iman, inanc, dünya nizamı, dəyişik bir görüş və həyat gətirmişdir. Bütün bu qüdrət və fəthlər İslamın böyük möcüzələri sayəsində həyata keçmişdir.

İslam tarixini və İslam mədəniyyətini heç olmazsa ümumi xətləri ilə bilmək, milli tarix tərbiyəsi almaq lüzumu bilən hər bir müsəlman üçün vacibdir. İslam tarixi, ümumi tarixin bir qolu olduğu üçün onun ortaya qoyduğu faydalar burada da mövcuddur. Tarix insanın ömrünü keçmişə doğru götürür. Keçmiş ümmətlərin hadisələrini öyrənir, keçmiş əsrləri geri gətirir və hadisələrin nəticələrini bilən kimsənin təcrübə və ehtiyatını artırır. Həqiqətəndə tarixi bilmədən bugünki hadisələri dəyərləndirmək, dövlətlərin davranışını anlamaq mümkün deyildir. Hər çeşidli təbliğatın aparıldığı dünyamızda gənclərə milli mədəniyyəti və tarixini yaxşı öyrətmək önəmli bir vəzifə sayılmalıdır.

İslam tarixi həm də əqidəmizin tarixidir. Bu tarixi doğru-düzgün şəkildə öyrənmədən əqidəmizin doğruluğundan bixəbər olacağıq. Buna görə də bu tədqiqat işində hadislərə təkcə tarixşünaslıq baxımından deyil, eyni zamanda əqidə nöqteyi nəzərdən də baxılmış və araşdırmalar aparılmışdır. Bunun üçün isə erkən xilafət dövründə yazılmış ən mühüm əsərlərdən tutmuş günümüzədək yazılmış mövzu ilə əlaqəli əsərlərə müraciət edilmişdir. Tədqiq etdiyimiz əsərlər müxtəlif istiqamətlidir. Buraya tarix, təfsir, hədis və əqaid elminə aid yazılmış bir çox mənbələr daxildir. Həmçinin istifadə etdiyimiz mənbələr içində azərbaycanlı tədqiqatçıların əsərləri də öz əksini tapmışdır.

Təəssüflər olsun ki, ölkəmiz 70 ilə yaxın bir dövrdə mənfur Sovet hakimiyyətinin əsarəti altında olmuş və bunun da nəticəsində xalqımızın milli-mənəvi dəyərlərinə ciddi ziyan dəymişdir. İslamın ilkin dövrlərindən islama

bağlı olan xalqımızın dini bilgiləri çox təəssüf ki, repressiya dövründə qırılmış, ən məşhur ilahiyyatçı alimlərimiz sürgün olunmuş yaxudda güllələnmişdir. Bunun da nəticəsində Azərbaycanda ilahiyyatşünaslıq sahəsində böyük bir boşluq yaranmışdır. Bu dövrlərdə dinimizin tarixi və mənəvi mədəniyyəti haqqında xalqımızda yalnız cüzi məlumatlar qalmışdı. Amma sevindirici haldır ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanda elmi-dini ocaqlar, mədrəsələr və universitetlər açılmış, burada gənclərimizə İslamın tarixi, əqidə prinsipləri və bir sözlə İslam mədəniyyəti haqqında doğru və faktoloji əsaslara söykənən məlumatlar verilmişdir.

Müasir dövrdə Azərbaycanda islamşünaslığın geniş və səmərəli şəkildə öyrənilməsinə şərait əlbəttə ki, Ümumilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmışdır. O, 1998-ci ilin dekabr ayının 9-11-də Bakıda keçirilən **"İslam sivilizasiyası Qafqazda"** mövzusunda beynəlxalq simpoziumdakı dərin məzmunlu məruzəsində demişdir ki, Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək üçün çox işlər görmək lazımdır.

"...Azərbaycan islamşünaslıq sahəsində XX əsr demək olar ki, tamamilə itirilmişdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi tədqiqat institutları, bəlkə də bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun."[1]

Ümummili liderimiz gənc nəslin tərbiyəsində dini maarifin əhəmiyyətindən danışmış, o cümlədən ali məktəblərdə dini elmlərin tədqiqi və tədrisi məsələlərinə xüsusi diqqət yetirmişdir. Bu dediklərimizin hamısı onun aşağıdakı ifadəsində öz əksini tapmışdır: "İslam dini bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən istifadə etməli və xüsusən, cəmiyyətdə, davranışda islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir... Gənclərimizin islam dinini mənimsəmələri üçün tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhvali-ruhiyyəsi aşılamaq istəyirlər."[2]

Bu kitabın işıq üzü görməsində mənə dəstək olduqları üçün başda Bakı İslam Universitetinin rektoru Hacı Sabir Həsənliyə və Bakı İslam Universitetinin dekanı Hacı Fuad Nurullaha öz dərin minnətdarlığımı bildirirəm.

[1] Azərbaycan qəzeti, 10 dekabr 1998-ci il
[2] Gənclərin birinci respublika toplantısının materialları, Bakı, 1996, səh. 7

I FƏSİL

MƏKKƏ VƏ MƏDİNƏ DÖVRÜ

1. İslam tarixi haqqında ümumi məlumat

Müxtəlif xalqların necə yaşadıqlarını, onların həyatında hansı hadisələrin baş verdiyini, insanların necə və nə üçün dəyişib indiki şəklə düşdüyünü öyrənən elmə tarix elmi deyilir. Tarix elminin bir neçə qolu vardır ki, onlardan birini də islam tarixi təşkil edir. İslam tarixi ümumilikdə on dörd əsrlik bir dövrü əhatə edir, islam Peyğəmbərinin *(s)* və məsum İmamların *(ə)* həyatını, Hz.Peyğəmbərdən *(s)* sonrakı xəlifələrin dövrünü və ümumilikdə islamla bağlı hadisələri araşdırır. İslam tarixi aşağıdakı dövrlərə ayrılır:

1. Hz.Peyğəmbərin *(s)* həyatı (570-632-ci illər)
2. Raşidilər dövrü (632-661-ci illər)
3. Əməvilər dövrü (661-750-ci illər)
4. Abbasilər dövrü (750-1258-ci illər)
5. Əndəlüs Əməvi xilafəti (754-1032-ci illər)
6. Misirdə Abbasi xilafəti (1261-1517-ci illər)
7. Osmanlı Türk imperatorluğu (1299-1924-ci illər).

Müsəlmanların tarix mövzusunda qələmə aldıqları ilk kitablar "siyər" və "məğazi" kitabları olmuşdur. Bu kitablarda Hz.Muhəmmədin *(s)* tərcümeyihalı, doğumundan başlayaraq vəfatına kimi həyatı araşdırılır, apardığı müharibələr təsvir edilir. İlk mükəmməl siyərin müəllifi Urvə ibn Zubeyr və ya Məhəmməd ibn İshaq hesab edilir. Sonralar bu alimlər sırasına Vəhb ibn Münəbbih və Məhəmməd ibn Müslim də qoşulmuşdur.

İslam tarixi haqqında yazılan əsərlər dörd yerə bölünür:

1. Ümumi tarixlər – Hz.Adəmin yaranışından başlayaraq bir neçə dövlətlərdən və daha çox islam dövlətlərindən və millətlərindən bəhs edən əsərlərə deyilir. Bu növ əsərlərə Təbərinin "Tarix", Məsudinin "Tarix" və Yəqubinin "Tarix"əsərləri aiddir.

2. Xüsusi tarixlər – Bir dövrün, hökmdarın, sülalənin, məmləkətin tarixindən bəhs edən əsərlərə deyilir. Vaqidinin "Futuhuş-Şamı", Bəlazurinin "Futuhul-Buldanı", "Tarixi-Dəməşqi", "Tarixi-Bağdadi" və s. əsərlər bu növ əsərlərə daxildir.

3. Təbaqat və Hal tərcümələri – Bu növ əsərlərin başında İbn Sədin "Təbaqatus-səhabə" və İbn Qutəybənin "Təbaqatuş-Şüara" əsərləri gəlir.

4. Məsləklərə aid əsərlər – Bu əsərlər dinlərə, məzhəblərə, siyasətə, dövlət idarəsinə aid olan əsərlərdir. Dinlər və məzhəblərə aid Əbdulqadir əl-Bağdadi ilə Tahib ibn Muhəmməd əl-İsfərainin "Milәl vən Nihalla"rı, siyasətə, idarəyə aid əsərlərdən imam Əbu Yusifin "Kitabul-Xəracı", İbn Əbdi Rəbbihin "İqdul-Fərid" əsəri aiddir.

İslam tarixi üzrə mənbələr ilahi və bəşəri olmaqla iki yerə ayrılır:

1) İlahi mənbələr uca Allahın vəhy etdikləri və peyğəmbərlər vasitəsilə insanlara bildirdikləridir. Peyğəmbərlərə verilən kitablarda Tövrat, Zəbur, İncil və Quranda insanlıq tarixi geniş göstərilmişdir. Bunlardan xüsusilə Qurani-Kərim Hz.Muhammәddən *(s)* əvvəlki peyğəmbərlər zamanında meydana gələn hadisələri geniş şəkildə bildirməkdədir.

2. Bəşəri mənbələr özlüyündə ikiyə ayrılır:

1) Nəbəvi xəbərlər – yəni peygəmbərlərin söylədikləri hədislər və kəlamlar;

2) İnsanların ələ aldığı əsərlər – bu əsərlər rəvayət və dirayət əsasında olmuşdur. Rəvayət əsərlərində əsasən Quran ayələri əsas götürülür. Müəllif bu əsərlərə öz fikrini əlavə edə bilməz. Dirayət tipli əsərlərdə isə müəllif ayə və hədislərə müraciət etməklə bərabər həmin ayə və hədislər haqqında öz fikirlərini də qeyd edə bilər.

Ən qədim islam tarixçiləri aşağıda adları sadalananlardır:

1. Urvə ibn Zubeyr (644-713)
2. Kabul Əhbar (v. 652) – əsərləri "Sirətu-İsgəndər", "Vəfatu-Musa", "Hədisu-Zilkifl".
3. Vəhb ibn Munəbbih (v.728) – "əl-Mübtəda risaləsi";
4. Sihab-əz-Zühri (670-741) – "Kitabul-Məğazi";
5. İbn İshaq (704-789) – "Kitabul-Məğazi";
6. İbn Quteybə (813-889) – "Kitabul-Məğazi";
7. Əbu Hənifə Dinəvəri (v.895) – "Kitabul-Əhbarut-Tival";
8. Bəlazuri (v.897) – "Futuhul-Buldan".

Dinlər haqqında ümumi məlumat

İnsanları dünya və axirətdə xoşbəxtliyə çatdıran ilahi bir qanuna din deyilir. Dinlər başlıca olaraq üç yerə bölünür:

1. Haqq din – Allah tərəfindən göndərilən, peyğəmbərlər vasitəsilə insanlara bildirilən və heç bir dəyişikliyə məruz qalmayan dindir. Bu xüsusiyyətə malik İslam dinidir.

2. Təhrif edilmiş dinlər – Allah tərəfindən göndərilən, peyğəmbərlər vasitəsilə insanlara bildirilən və sonralar insanlar tərəfindən dəyişdirilən dinlərə deyilir. Xristianlıq və yəhudilik kimi.

3. Batil dinlər – İnsanlar tərəfindən uydurulan və peyğəmbərlərin təbliğ etdiyi dinlərlə heç bir əlaqəsi olmayan dinlərə deyilir. Budduizm, Hinduizm, Şintoizm, Sabiilik və s. bu qəbildəndir.

İlk insan olan Hz.Adəmdən Hz.İsaya qədər gələn bütün peyğəmbərlər Allahın birliyi inancını təbliğ etmiş və Allaha necə ibadət ediləcəyini öyrətmişlər. Lakin bu peyğəmbərlərin təbliğ etdiyi iman əsasları və dini hökmlər zaman keçdikcə pozulmuş və təhrif olmuşdur. Bundan sonra Allah son peyğəmbər olan Hz.Muhəmməd *(s)* vasitəsilə bütün insanlara son və mükəmməl din olan İslamı göndərdi. Allah yanında tək və məqbul olan din İslamdır. Bu həqiqət Allah tərəfindən Qurani-Kərimdə belə bildirilir: **"Allah qatında din, şübhəsiz ki, İslamdır".**[3] Başqa bir ayədə belə deyilir: **"Kim islamdan başqa bir din ardınca gedərsə, (belə bir din) heç vaxt ondan qəbul olunmaz və o axirətdə zərər çəkənlərdən olar!".**[4]

İslam dininin hökmləri üçdür:

1. İman – insan imanın əsaslarına inanmaqla mənəvi cəhətdən qidalanmış olur. O, bununla yalnış inanclardan uzaqlaşır və əsl həqiqəti dərk edir. İman iki yerə ayrılır:

a) icmali iman, yəni kəlmeyi-şəhadət,

b) təfsili-iman, yəni Allaha, peyğəmbərlərə, mələklərə, kitablara və axirətə ayrı-ayrılıqda inanmaqdan ibarətdir.

2. Əməl – əməl insanların gördüyü işlərdir. Əməl də iki yerə bölünür:

a) Allaha ibadət, b) İnsanların öz aralarındakı əlaqələri nizamlayan hökmlər.

3. Əxlaq – insanlara qarşı davranış və düşüncələrimizi nizamlayan hökmlər.

İslam dininin özəllikləri:

1. İslam axırıncı dindir.
2. İslam bəşəri bir dindir.
3. İslam dininin hökmləri bütün insanların ehtiyaclarını yerinə yetirəcək şəkildə mükəmməldir.
4. İslam dini özündən əvvəl Allah tərəfindən göndərilən peyğəmbərləri və ilahi kitabları təsdiq edir.
5. İslam dini əvvəlki peyğəmbərlərin təbliğ etdiyi dinlərin fəaliyyətini dayandırmışdır.

İslam dininə bəşərilik qazandıran özəlliklər bunlardır:

1. İslam bütün insanlığa göndərilən bir dindir.
2. İslam ağıl və elm dinidir.
3. İslam həm dünya, həm də axirət dinidir.
4. İslam dininin hökmləri asanlıqla yerinə yetirilir.
5. İslamda həddi aşmaq yoxdur.
6. İslam sülh və sevgi dinidir.

---

[3] **Ali-İmran surəsi, ayə 19.**
[4] **Ali-İmran surəsi, ayə 85.**

Milli və ilahi dinlər

İnsanlar tərəfindən uydurulan, bir qəbiləyə və ya millətə aid olan dinlərə milli dinlər deyilir. Bu dinlərə misal olaraq Konfiyusçilik, Taoizm, Şintoizm, Hinduizm, Cayniizm, Sihizm, Zərdüştlik, Sabiilik və s. qeyd edə bilərik.

Allah tərəfindən, peyğəmbərlər vasitəsilə insanlıq aləminə göndərilən, vəhy məhsulu olan dinlərə ilahi dinlər deyilir. İlahi dinlər üçdür: yəhudilik, xristianlıq və islam.

Yəhudilik Musa *(ə)* peyğəmbərin təbliğ etdiyi dinə verilən addır. Yəhudiliyin müqəddəs kitabı sayılan Tövrat iki yerə ayrılır: 1. Tanah-yazılı dini ədəbiyyat. 2. Talmud-sözlü dini ədəbiyyat.

Tanah özlüyündə Tora, Neviim və Ketuvim olmaqla üç yerə ayrılır.

Tora yazılı və sözlü olaraq ikiyə ayrılır. Yazılı Tora yəhudilərə görə Yəhuvanın Sina dağında Musaya *(ə)* verdiyi kitabdır. Sözlü Tora isə yazılı Toranın açıqlaması olaraq nəsildən-nəslə keçir. Torada yer alan beş kitab bunlardır:

1) Təkvin-yaradılış, 2) Çıxış – İsrail oğullarının Firiondan çəkdikləri, Musanın ortaya çıxışı və Misirdən Sinaya gedişləri yer alır. 3) Levililər – burada kahinlər ilə yardımçılarının çadır məbədlərindəki işləri yer alır. 4) Sayılar – İsrail oğullarının çöldəki həyatından bəhs edir. 5) Təsniyə – burada Musanın ölmədən qabaq din barəsində verdiyi öyüdlər qeyd olunur.

2. Neviim (peyğəmbərlər) – bu bölmədə peyğəmbərlərdən bəhs olunur.

3. Ketuvim – kitablar anlamına gələn ketuvim yəhudi müqəddəs kitabının üç bölümünü təşkil edir.

Talmud (sözlü ədəbiyyat) öyrənmək anlamına gəlir və Tövratın təfsiridir. Talmud iki yerə bölünür: Mişna və Gimara.

Mişna (təkrar edərək öyrənmək) yəhudiliyin dini, əxlaqi qanunlarını öyrənir. Gimara (son olaraq gözdən keçirmə) isə Mişnanın açıqlamasıdır. Yəhudilər ibadətlərini sinaqoqlarda keçirir. Yəhudilərdə dini bayramlar olduqca çoxdur: 1) Roşhəşnəd – il başlanğıcı; 2) Kippur – yəhudilər kəffarə və ya tövbə hesab olunan bu gündə öz günahlarını iqrar edib oruc tutur və Allahdan bağışlanma diləyirlər. 3) Sukkot – səkkiz gün davam edən bu bayramda yəhudilərin Musanın zamanında səhrada yaşadıqları dövrü xatırlanır. 4) Fisəh – bu bayram Misirdən köçməni xatırladır, mart və apreldə qeyd olunan qurbanlıq mərasimidir. 5) Şavut – Allaha un hədiyyə etməklə keçirilən bu bayram ilahi nemətlərə şükr etmək və əkinçilik mərasiminin xatırlanmasıdır. 6) Hənukəh – bu bayram Mekabirun məbədində yunanlarla müharibə zamanında qalan yeganə çırağın bir günlük yağa malik olduğu halda səkkiz gün yanmasını canlandırır. 7) Purim – bu ibrani peyğəmbərlərindən olan Əstərin əli ilə miladdan beş əsr əvvəl baş verən möcüzəni xatırladır. 8) Simha Tora – Tövratın xətim bayramıdır.

Müqəddəs kitabı İncil olan xristianlıq Hz.İsanın *(ə)* təbliğ etdiyi dinə verilən addır. Hal-hazırda dörd İncil mövcuddur: Matta, Markos, Luka, Yuhanna. Xristianlarda ibadət kilsələrdə camaatla papanın nəzarəti altında keçirilir və simvolu xaçdır. İbadətlər günlük, həftəlik və illikdir. 1) Noel – İsanın doğuşu,

2) Epifani – İsanın üzə çıxması, 3) Pasxa – İsanın dirilməsi, 4) Məryəm günü – Məryəmin günahsızlığını başa salır.

Müqəddəs kitablara iman

İmanın beş şərtindən üçüncüsünü Allahın kitablarına inanmaq təşkil edir. Allah qullarına peyğəmbərlər vasitəsilə kitablar göndərmişdir. Bu kitablarda Allahın əmr və qadağaları, dünya və axirətdə xoşbəxt olmağın yolları göstərilmişdir. Müsəlmanlar Allah tərəfindən peyğəmbərlərə göndərilən kitabların hamısına inanır. Lakin Qurani-Kərimdən başqa digər ilahi kitabların sonradan insanlar tərəfindən dəyişildiyi bilindiyi üçün müsəlmanlar bu kitabların indiki şəklinə yox, vaxtilə peyğəmbərlərə göndərilən dəyişilməmiş şəklinə inanır. Allah tərəfindən aşağıdakı peyğəmbərlərə dörd böyük kitab göndərilmişdir:

1. Hz.Musaya *(ə)* Tövrat
2. Hz.Davuda *(ə)* Zəbur
3. Hz.İsaya *(ə)* İncil
4. Hz.Muhəmmədə *(s)* Qurani-Kərim.

Bu kitablardan başqa Allah tərəfindən bəzi peyğəmbərlərə səhifələr (suhuf) göndərilmişdir. Bu səhifələrdə də Allahın birliyindən, cənnət və cəhənnəmin haqq olduğundan danışılır. Suhuf verilən peyğəmbərlər bunlardır:

1. Hz.Adəmə *(ə)* 10 səhifə
2. Hz.Şisə *(ə)* 50 səhifə
3. Hz.İdrisə *(ə)* 30 səhifə
4. Hz.İbrahimə *(ə)* 10 səhifə.

Bəzi mənbələrin qeyd etdiyinə görə Hz.Nuha *(ə)* da 20 səhifə göndərilmişdir.

Peyğəmbərlərə iman

İmanın beş şərtindən dördüncüsünü peyğəmbərlərə inanmaq təşkil edir. Peyğəmbərlik Allahla insanlar arasında bir elçilik vəzifəsidir. Allah bu vəzifəyə layiq olan ən yaxşı qullarını seçir. Peyğəmbərlər insanlara yol göstərici kimi göndərilmişdir. Çünki, insanlar öz ağılları ilə Allahin varlığını başa düşsələr də Onun yüksək sifətlərini qavraya bilməzlər. Peygəmbərlər düzgün bir şəkildə insanlara Allahı tanıtmış, onlara inanc əsaslarını, ibadət şəkillərini öyrətmişlər. Onlar dini hökmləri və gözəl əxlaqi prinsipləri açıqlamış, özləri də söylədiklərini yerinə yetirərək insanlara nümunə olmuşlar. Peyğəmbərlərə məxsus sifətlər bunlardır:

1. Sidq – düzgünlük deməkdir. Peyğəmbərlər əsla yalan söyləməzlər, oldu dedikləri olmuş, olacaq dedikləri də zamanı gəldikdə mütləq olacaq.
2. Əmanət – etibarlı olmaq deməkdir
3. Fətanət – ağıllı və ayıq olmaq
4. İsmət – günahsızlıq

5. Təbliğ – çatdırmaq, açıqlamaq

Allah tərəfindən yer üzünə 124 min peyğəmbər göndərilmişdir. Əbuzər Ğəffari deyir: "Dedim: Ey Allahın Rəsulu! Peyğəmbərlər nə qədərdir? Həzrət buyurdu: "Yüz iyirmi dörd min". Dedim: Onlardan neçə nəfər mürsəldir? Həzrət buyurdu: "Üç yüz on üç nəfər". Dedim: İlk peyğəmbər kimdir? Həzrət buyurdu: "Adəm". Dedim: O, mürsəl peyğəmbərlərdən idimi? Hərət buyurdu: "Bəli, Allah onu öz əli ilə yaratmış və ona öz ruhundan üfürmüşdür..."[5] Bunlardan 313 rəsul, qalanları isə nəbidir. Kitab və səhifə verilənlərə rəsul, kitab və səhifə verilməyənlərə isə nəbi deyilir. Qurani-Kərimdə 28 peyğəmbərin adı çəkilir, bunlardan üçünün (Zülqərneyn, Loğman, Üzeyir) peyğəmbərliyi haqqında ixtilaflar mövcuddur. Qurani-Kərimdə adı çəkilən peyğəmbərlər bunlardır:

Adəm *(ə)*, İdris *(ə),* Nuh *(ə)*, Saleh *(ə),* Hud *(ə),* Lut *(ə),* İbrahim *(ə),* İsmail *(ə),* İshaq *(ə),* Yəqub *(ə)*, Yusif *(ə),* Şueyb *(ə),* Harun *(ə),* Musa *(ə),* Davud *(ə),* Süleyman *(ə),* Əyyub *(ə),* Zülkifl *(ə),* Yunis *(ə)*, İlyas *(ə),* Əlyasa *(ə),* Zəkəriyyə *(ə),* Yəhya *(ə),* İsa *(ə)* və Muhəmməd *(s).*

Yeddi ərəb peyğəmbəri bunlardır:

İbrahim *(ə),* İsmail *(ə)*, Lut *(ə),* Hud *(ə),* Saleh *(ə),* Şueyb *(ə)* və Hz.Muhəmməd *(s)*.

Ululəzm peyğəmbərlər bunlardır:

Nuh *(ə),* İbrahim *(ə),* Musa *(ə)*, İsa *(ə),* Hz.Muhəmməd *(s)*. Bu haqda İmam Baqir (ə) buyurur: "İmam Baqir (ə) buyurub:

"Ulul-əzm olan peyğəmbərlər beşdir: Nuh, İbrahim, Musa, İsa və Muhəmməd (s)..."[6]

Şəriət verilən peyğəmbərlər bunlardır:

Adəm *(ə),* Nuh *(ə),* İbrahim *(ə),* Musa *(ə),* İsa *(ə),* Hz.Muhəmməd *(s)*.

Cihad əmr olunmuş peyğəmbərlər bunlardır: Şis *(ə),* İdris *(ə),* İbrahim *(ə),* Musa *(ə)* və Hz.Muhəmməd *(s)*. Bəqərə surəsinin 190, Nisa surəsinin 84, Həcc surəsinin isə 39-cu ayələri ilə cihad müsəlmanlara vacib buyurulmuşdur. Cihad iki yerə bölünür: 1) Cihadi-əsğər yəni, Allah və dini uğrunda vuruşmaq, 2) Cihadi-əkbər yəni, insanın öz nəfsinə qalib gəlməsi.

Peyğəmbərlərin təbliğ etdikləri dinlərdə eyni olan əsaslar üçdür:iman əsasları, ibadətlər və əxlaqi qayda-qanunlar.

İslamiyyətdən əvvəl Ərəbistan

Ərəbistan yarımadası üç əsas hissəyə ayrılır:

1. "Hicaz" adlanan Şimal-Qərb hissəsi. Hicaz əkinçiliyə yararlı olmayan səhralardan ibarət bir yer olub Ərəbistanın Şimal və Qərb hissəsini təşkil edir. Bu ərazi bütünlüklə Fələstindən tutmuş Yəmənədək Qırmızı dənizin sahilində

[5] Biharul-ənvar, XI cild, səh-525; Xisal, II cild, səh-104

[6] Biharul-ənvar, XI cild, səh-531.

yerləşir. Ən mühüm şəhərləri Məkkə, Mədinə və Taifdir. Burada iki məşhur liman yerləşir. Məkkəlilərin istifadə etdiyi "Cəddə", mədinəlilərin istifadə etdiyi "Yənbu" limanı.

2. "Ərəb" səhrası adlanan Mərkəzi və Şərq hissəsi. Nəcd məntəqəsində yerləşən bu ərazi azsaylı abadlıqlardan ibarətdir.

3. "Yəmən" adlanan Cənub hissəsi. Bu ərazinin uzunluğu Şimaldan Cənuba doğru 750 km, Qərbdən Şərqə doğru isə 400 km uzanır. Ən məhşur şəhərlərindən Səna, limanlarından isə Qırmızı dəniz sahilində yerləşən "Əl-Hədidə " limanını qeyd etmək olar.

Ərəbistan şimaldan Fələstin, Suriya, İordaniya və İraq ilə, şərqdən Dəclə-Fərat çayları, Bəsrə və İran körfəzi, Ərəb və Oman dənizi, cənubdan Hind okeanı və Ədən körfəzi, qərbdən isə Qırmızı dəniz ilə həmsərhəddir. Ərəbistan üç tərəfdən beş dənizlə əhatə olunsa da ölkənin daxili hissəsi canlı aləmin yaşayışı üçün lazım olan sudan məhrumdur. Yalnız Həcər vadisində uzunluğu 100 km-ə çatan (Yəməndə yerləşir) bir çay axır. Yarımadanın şimal sərhədləri quru torpaqlardır. Sina yarımadasından başlayaraq Qırmızı dəniz boyunca İran körfəzinə çatan hündür sıra dağlar yerləşir. Vadilərin əhəmiyyətlisi Sirhan, Rummə, Dəvasir və Həzra-mautdan ibarətdir. İslamdan öncə bu vadilər, o cümlədən Sirhan ticarət yolu olmuşdur. Şimalda Fələstindən başlayaraq İraqın cənub-qərbinə qədər uzanan Badiyətuş-şam düzənliyi yerləşir. Yarımadanın cənubundan şərqə doğru Rubəl-xari səhrası yerləşir.

İslamdan öncə yarımadanın əhalisi iki yerə bölünürdü: xalis və qeyri-xalis ərəblər. Cənub məntəqəsində yaşayan əhali özlərini Qəhtanın oğlu Yərəbin nəslindən bilirlər ki, o da öz növbəsində Nuh *(ə)* peyğəmbərin beşinci oğludur. Mərkəz və Şimalda yaşayan əhali özlərini Ədnanın nəslindən hesab edirlər ki, o da İsmail *(ə)* peyğəmbərin nəvələrindən biridir. Qəhtanilər xalis, Ədnanilər isə qeyri-xalis ərəblər hesab edilir.

Coğrafi baxımdan Ərəbistan beş hissəyə ayrılır:

1. Təhamə – Qırmızı dənizin sahilində yerləşən Yənbudan başlayaraq Nəcrana qədər uzanan düzənlik bir ərazidir.

2. Hicaz – Yəmənin şimalı ilə Təhamənin şərq tərəfində yerləşib onları birbirindən ayırır.

3. Nəcd – Cənubdan Yəmənə, şimaldan isə Badiyətus-səmavəyə qədər uzanır.

4. Yəmən – Cənubda Nəcddən Hind okeanına qədər, qərbdə isə Qırmıza dənizə qədər uzanan bir ərazidir.

5. Həzrə-maut – bu ərazi Yəmamə, Oman, Bəhreynə şamil olunur.

Ərəbistanda islamdan əvvəl bir çox dövlətlər qurulmuşdur. Bu dövlətlərin ən qədimi Muin, Səba, Qətban və Həzrə-mautdan ibarətdir.

Paytaxtı Qərnu olan Muinilər dövləti eradan əvvəl 600-1200-ci illərdə meydana gəlmişdir. Bu dövlətin ticarət dairəsi İran körfəzindən Aralıq dənizinə qədər olan ərazini əhatə etmişdir.

Paytaxtı Təmnə şəhəri olan Qətban dövləti isə yarımadanın cənub qərbində Həzrə-Mautun qonşuluğunda qurulmuşdur. Bu dövlət eradan əvvəl birinci minillikdə yaranmış və eramızın ikinci yüz ilinə qədər davam etmişdir. Bəzi mənbələrə görə isə eradan əlli il əvvəl süqüt etmişdir. Qətban dövlətinin varlığına Səba dövləti son qoymuşdur. Hər iki dövləti idarə edən şahların ləqəbi "mükərrəb" olmuşdur.

Paytaxtı Məyəb şəhəri olan Səba dövləti yarımadanın cənub-qərbində qurulmuşdur. Muinilərin zəifləməsindən istifadə edən Səba dövləti bu dövləti də ələ keçirmişdir. Səbailərin hakimiyyəti eradan əvvəl 115-ci ilə qədər davam etmişdir. Qurani-Kərimin "Nəml" və "Səba" surələrində Səba dövlətindən bəhs olunur.

Səba dövlətinin süqutundan sonra onun yerində Həmirilər dövləti qurulmuşdur. Həmirilərin hakimiyyəti iki dövrə bölünür:

1. Səba dövlətinin süqutundan 300-cü ilə qədər olan dövr;
2. Həbəşilərin bu məntəqəyə hücumuna qədər olan dövr;

Şahları "tübbə" adlanan Həmirilər dövlətinə 525-ci ildə Həbəşilər son qoymuşdur.

Paytaxtı Petra olan Nibtilər dövləti yarımadanın şimalında qurulmuşdur. Bu dövlətin hakimiyyəti miladi ikinci yüzilliyə qədər davam etmişdir.106-cı ildə Rumlar bu ərazini işğal edərək öz torpaqlarına qatmışdır. Yarımadanın cənubunda isə Qəssanilər və Ləxmilər dövləti mövcud olmuşdur. Qəssani dövləti İslamın şimaldakı ilk qələbələrinə və Suriyanın müsəlmanlar tərəfindən fəth olunmasına qədər mövcud olmuşdur. Ləxmilər dövlətinin sonuncu başçısı Münzər ibni Nömanın hakimiyyət dövrü Xalid ibn Vəlidin Hiyrəyə gələn vaxtına təsadüf edir. Xəlifə Əbu Bəkrin dövründə Hirəyə doğru hərəkət edən Xalid ibn Vəlid 633-cü ildə Qəssanilər dövlətinə son qoymuşdur.

İslamdan öncə Ərəbistanda səmavi din olan yəhudilik və xristianlıqla bərabər bütpərəstlik də geniş şəkildə yayılmışdır. Tarixi mənbələrə əsasən Ərəbistana ilk bütü gətirən şəxs Əmr ibn Qusey (və ya Əmr ibn Luhey) olmuşdur. Mənbələrə görə Əmr ibn Qusey bütpərəstliyi Şam əhlindən öyrənmiş və oradan özü ilə bir büt gətirərək Kəbə evinin yaxınlığında yerləşdirmişdir. Cahiliyyət ərəblərinin ibadət etdikləri bütlər üç növdür:

1) Sanəm – undan hazırlanmış insan şəkilli bütlər.
2) Vəsən – taxtadan və daşdan hazırlanmış insan şəkilli bütlər.
3) Nusup – heç bir surəti olmayan bütlər.

Ərəblərin ibadət etdiyi ən məşhur bütlər bunlar idi:

1) Lat – Taif məntəqəsində idi.
2) Uzza – Məkkə əhlinin ibadət etdiyi büt.
3) Mənat – Mədinə əhlinin ibadət etdiyi büt.
4) Vedd – Kəlb qəbiləsinin ibadət etdiyi büt.
5) Suvay – Hüzeyl qəbiləsinin ibadət etdiyi büt.
6) Yəqus – Məzhic qəbiləsinin ibadət etdiyi büt.

Qureyş qəbiləsinin də Kəbə daxilində və ətrafında bütləri var idi ki, onların ən böyüyü Hubəl bütü idi.

Xristianlıq cənubdan Həbəşistan vasitəsilə oraya daxil olmuşdur. Rəvayətlərə görə, şimalda ilk dəfə Tağlib, Quzaə və Qəssan qəbilələri Rum imperiyası vasitəsilə qüvvətlənərək bu dini qəbul etmişdilər. Hiyrə İrana yaxın olduğuna görə orada zərdüştlik yayılmışdır.

Zilqədə, zilhiccə, rəcəb və məhərrəm aylarını haram sayan ərəblər bu aylarda bir-birləri ilə müharibə etməzdilər.

İslamdan əvvəl Ərəbistanda bir qrup insanlar var idi ki, onlar hənif dininə etiqad edirdilər. Hənif sözünün mənası batildən haqqa meyl etmək deməkdir. Həniflik Hz.İbrahimin dininə verilən addır. Bu ad Hz.İbrahimin *(ə)* dininin vəsfi olmaqla bərabər yalnız ona məxsus olmayıb, bütün peyğımbərlərin təbliğ etdikləri dinin adıdır. Qurani-Kərimdə İbrahim *(ə)* üçün hənif buyurulması onun haqqa yönəlməsinə görədir. Qurani-Kərimin Ali-İmran surəsinin 67-ci ayəsində İbrahim *(ə)* haqqında belə buyurulur: **"İbrahim nə yəhudi nə də xristian idi, o hənif bir müsəlman idi".**

Bütpərəstliyə nifrət edən bir neçə adamın həqiqi din axtarması, islamdan əvvəl tövhid əsasında olan dinin mövcud olması demək deyildir. Lakin Məkkə və Mədinə əhalisindən bir çox adam Hz.İbrahimin *(ə)* dinin kamilləşdirib, cəhalət buludlarını dağıdacaq bir peyğəmbərin gəlişini gözləyirdilər.

Məkkə şəhərinin qanunu qəbilələr arasında bağlanan əhd-peymandan ibarət idi. Bu qanun əsasında hər qəbilənin və ona qohum olanların hüququna ayrı qəbilələr tərəfindən hörmət edilirdi. Əgər bir nəfərin hər hansı bir qəbilə ilə qohumluğu olmasaydı, heç bir qanun onu zülmkar qarşısında müdafiə etməzdi.

Əshabi-uxdud hadisəsi

İslamdan əvvəl baş verən mühüm hadisələrdən biri də Əshabi-uxdud hadisəsidir. Bu hadisə 525-ci ildə Yəməndə baş vermişdir. Tarixi mənbələrə görə Zunuvasın hökmranlığı zamanında yəhudilərlə xristianlar arasında ixtilaflar olduqca şiddətləndi. Roma imperatoru hər yerdə yəhudilərə əzab və işgəncə verirdi. Bu vaxt Yəmənə gələn Zunuvas yəhudiliyi qəbul edib xristianları da öz dinindən döndərməyə çalışdı. Lakin onların öz dinlərindən dönmədiyini görən Zunuvas xəndək qazdıraraq xristianları faciəli şəkildə odda yandırdı.Yalnız onlardan bir nəfər Roma sarayına gəlib baş verən faciəni imperatora danışaraq Zunuvasa qarşı ondan yardım istədi. İmperator belə cavab verdi: "Sizin ölkəniz mənim ölkəmdən uzaqdadır və mənim ora birbaşa qarışmağım mümkün deyildir. Lakin sizin qonşunuz olan Həbəşistan kralına məktub yazaram ki, bu işi icra etsin". Sonra Roma imperatoru Həbəşistan kralı Nəcaşiyə məktub yazdı və həmin adamla göndərdi. İmperator məktub vasitəsilə Nəcaşidən xahiş etdi ki, xristianların intiqamını Zunuvasdan alsın. Buna əsasən Nəcaşi Əbrəhəni 70 min nəfərlik ordu ilə Yəmənə göndərdi.

Bu vaxt Yəmən əmirləri Zunuvasla düz gəlmirdilər. Çunki Zunuvas bir neçə Roma taciri ilə o qədər qaba rəftar etmişdi ki, xristian tacirləri əlacsız qalıb Yəmənlə əlaqələrini kəsmişdilər. Buna görə də camaat İduc adlı bir bütpərəstin ətrafında toplanıb Zunuvasa qarşı qiyam qaldırdı. Aydındir ki, bu qiyam Yəmənin daxili vəziyyətini pisləşdirdi, camaatda hökumətə qarşı bədbinlik yaratdı.

Buna görə də Həbəşistan qoşununun hücumu zamanı camaat Zunuvasa kömək etməkdən boyun qaçırdı. Zunuvas təkcə öz qoşunu ilə həbəşlərə müqavimət göstərə bilməyərək döyüş meydanını qoyub dənizə tərəf qaçdı və orada boğuldu.

Qurani-Kərimin "Buruc" surəsinin əvvəlinci ayələrində Uxdud səhabələri haqqında məlumat verilir.

Yalançı peyğəmbərlər hərəkatı

Hz.Peyğəmbərin *(s)* vəfatına yaxın Ərəbistanın bəzi yerlərində peyğəmbərlik iddiasında olan yalançı peyğəmbərlər olmuş, bir çox cahili inandırıb öz fikirlərini yaymaq üçün çalışmış və islam dövlətinin başına bəla olmuşlar. Bunların özlərini peyğəmbər elan etməkdə məqsədləri peyğəmbərlik adından istifadə edərək varlanmaq olmuşdur. Yalançı peyğəmbərlərin məhşurları bunlardır:

Əsvədul-Ans:

Yalançı peyğəmbərlərin ən təhlükəlisi olan Əsvəd Yəmən tərəflərində Ans qəbiləsinə mənsub olmuşdur. Əsl adı Əbhələ ibn Kəbdir. Əvvəllər kahinliklə məşğul olan Əsvəd çox gözəl danışıq nitqinə malik olduğu üçün cahil xalqı aldadardı. Ans və Məzhic qəbilələrini ətrafına toplayaraq böyük bir ordu təşkil etmişdir. Əvvəlcə Nəcranı ələ keçirən Əsvəd sonra Yəmənin paytaxtı Səna şəhərinə doğru hərəkət edərək şəhərin valisi Şehr ibn Bazanı öldürüb şəhəri ələ keçirdi. Hz.Peyğəmbərdən *(s)* sonra xəlifə olan Əbu Bəkr Əsvədin üzərinə Muaz ibn Cəbəli göndərdi. Lakin baş verən döyüşdə məğlub olan Muaz geri çəkildi. Sonda Yəmən bölgəsinin sərkərdələri Kays, Firuz və Dazaveyh hiyləyə əl ataraq Əsvədi yeni arvadına boğduraraq öldürdülər.[7]

Museylimətul-Kəzzab:

Bəkr ibn Vail qəbiləsinin bir qolu olan Bəni Hənifə rəisliyinə mənsub Museylimə hicrətin VIII ilində Mədinəyə gəlib İslamiyyəti qəbul edərək Bəni Hənifə rəisliyini əldə etmişdir.[8] Hz.Peyğəmbərin *(s)* xəstələndiyini eşitdikdə özünü peyğəmbər elan etmişdir. Öz-özünə ayələr uydurardı. Hətta Hz.Peyğəmbərə *(s)* belə bir məktub göndərmişdir. "Allahın elçisi Museylimədən Allahın Rəsulu Muhəmmədə salam. Mən sənin ortağınam, mülk aramızda bölünməlidir. Mülkün yarısı sənin, yarısı mənim olsun. Ancaq siz Qureyşilər ədalət nədir bilməzsiniz".

---

[7] Nuri Ünlü, İslam tarixi, I cild

[8] Nuri Ünli, İslam tarixi, I cild

Hz.Peyğəmbər *(s)* ona bu cavabı göndərdi: "Allahın Rəsulu Muhəmməddən yalançı Museyliməyə. Doğru yolda olanlara salam. Mülk Allahındır. Onu istədiyi qullarına ehsan edər. Xeyirli aqibət müttəqilərindir".

Bəni Hənifə və Yəmaməliləri ətrafına toplayan Museylimə böyük bir ordu təşkil etmişdir. Hz.Peyğəmbərdən *(s)* sonra xəlifə olan Əbu Bəkr Museylimənin üzərinə əvvəlcə İkrimə ibn Əbu Cəhli göndərdi. Lakin baş verən döyüşdə İkrimə məğlub olaraq geri çəkildi. Onun məğlubiyyətindən sonra xəlifə Əbu Bəkr Xalid ibn Vəlidi Museylimənin üzərinə göndərdi. 633-cü ildə baş verən Yəmamə döyüşündə Xalidin başçılığı altında olan islam ordusu Museylimənin ordusunu məğlub etdi, Museylimənin özü isə Uhud döyüşündə Hz.Həmzəni şəhid edən Vəhşi tərəfindən öldürüldü.

Tuleyha ibn Xuveylid:

Nəcddə yerləşən Əsəd qəbiləsinə mənsub olan Tuleyha hicrətin V ilində (miladi 627) baş verən Xəndək döyüşündə müsəlmanlara qarşı vuruşmuş, hicrətin IX ilində Mədinəyə gəlib islamiyyəti qəbul etmiş, hicrətin X ilində isə özünü peyğəmbər elan etmişdir. Zunnun adlı bir mələyin ona vəhy gətirdiyini iddia edirdi. Bəni Əsəd, Bəni Qətəvan və bir çox qəbilələri ətrafına yığaraq böyük bir ordu təşkil etmişdir. Xəlifə Əbu Bəkr Xalid ibn Vəlidi göndərərək Tuleyhanı məğlub etmişdir. Tuleyha sonralar yenidən islamı qəbul edərək ikinci xəlifə Ömər ibn Xəttabın dövründə İraq fəthlərinə qoşulmuşdur.

Səccah:

Əslən Mesopatomiyalı olan Səccah ata tərəfdən Bəni Yərbu qəbiləsinə, ana tərəfdən isə Bəni Tağlib qəbiləsinə mənsubdur. Özünü peyğəmbər elan edərək ətrafına xeyli adam toplamışdır. Xalid ibn Vəlid tərəfindən məğlub edilən Səccah digər yalançı peyğəmbər Museylimənin yanına gedərək onunla evlənmişdir.[9] 633-cü ildə baş verən Yəmamə döyüşündə Museylimənin ölümündən sonra Səccah qəbiləsinə qayıdaraq yenidən islamı qəbul etmişdir.

Həzrəti Peyğəmbərin ataları

Hz.Muhəmməd *(s)* ibn Abdullah ibn Əbdülmüttəlib (əsl adı Şeybədir) ibn Haşim (Əmr) ibn Əbdul Mənaf ibn Qeys (Quseyy) ibn Kilab ibn Mürrə ibn Kəb ibn Lüvey ibn Qalib ibn Fihr ibn Malik ibn Nəzr ibn Kənanə ibn Xəzimə ibn Müdrikə ibn İlyas ibn Muzər ibn Nəzar ibn Məd ibn Ədnan ibn Əddəd ibn Humeysə ibn Nəbt ibn Qeydar ibn İsmail ibn İbrahim.

Hz.Peyğəmbərin *(s)* babası Əbdülmüttəlibin on oğlu olmuşdur:

Haris, Həmzə, Abdullah, Abbas, Əbu Talib, Zübeyr, Qiydaq, Məğum, Zirar və Əbu Ləhəb. Abdullah və Əbu Talib eyni xanımdan dünyaya gəlmiş, qalanları isə digər xanımlardan doğulmuşdur. Hz.Peyğəmbərin *(s)* doqquz əmi-

[9] Həmin mənbə

sindən Əbu Ləhəbi çıxmaq şərtilə qalan səkkizi sonralar islamı qəbul etmişdir. Əbu Ləhəb Hz.Peyğəmbərin *(s)* əmisi olmasına baxmayaraq onun qatı düşmənlərindən olmuşdur. İslamiyyətdən əvvəl Əbu Ləhəbin oğlanları Utbə və Uteybə Hz.Peyğəmbərin *(s)* qızları Ümmü Gülsüm və Ruqiyyə ilə evlənmişdir. Lakin Peyğəmbərə *(s)* risalət verildikdən sonra Əbu Ləhəb Hz.Peyğəmbərə *(s)* əzab vermək üçün onun qızlarını boşatdırmışdır. Bununla da sakitləşməyən Əbu Ləhəb daim Allah Rəsulunu izləyir, ona insanlar arasında Allahın əmrlərini açıqlamağa imkan vermirdi. Əbu Ləhəbin arvadı Ümmü Cəmil də Hz.Peyğəmbərin *(s)* getdiyi yollara tikan düzməklə bərabər Allah Rəsulunun başına zibil tökərdi. Əl-Hicr surəsinin 94-95-ci ayələrinin nazil olmasından sonra Allahın Rəsulu Səfa təpəsinə çıxaraq insanları Allahın dininə dəvət etmək istədikdə Əbu Ləhəb Hz.Peyğəmbərə *(s)* qarşı çıxaraq ona daş atmışdır. Bu zaman Allah qatından Qurani-Kərimin Məsəd (Təbbət) surəsi nazil olmuş və Əbu Ləhəb ilə arvadının cəhənnəm əhli olduğu bildirilmişdir.

Hz.Peyğəmbərin (s) həyatı

Hz.Peyğəmbər *(s)* Amul-fil ilindən iki ay sonra, miladi tarixi ilə 570-ci il əhli-sünnəyə görə rəbiül-əvvəl ayının 12-si, əhli-şiəyə görə isə rəbiül-əvvəl ayının 17-də Məkkədə dünyaya gəlmişdir. Atası Abdullah ibn Əbdülmüttəlib, anası isə Aminə binti Vəhbdir. Hz.Muhəmmədin (s) atası Abdullah Aminə ilə evləndikdən bir neçə ay sonra ticarət üçün Suriyaya getmiş və geri dönərkən yolda xəstələnib vəfat etmişdir.[10]

Atası Abdullahın vəfatından üç ay sonra dünyaya gələn Hz.Peyğəmbər (s) doğma anası Aminədən cəmi üç gün süd əmdi. Bundan sonra isə islami mənbələrə görə iki xanım Subiyə və Həlimə adlı şəxslər Hz.Məhəmmədə (s) süd vermişlər.

Hz. Peyğəmbərin (s) əmisi Əbu Ləhəbin kənizi olan Subiyə həzrətə dörd ay süd vermişdir. İslami mənbələrə görə Subiyə həmçinin Hz. Peyğəmbərin (s) əmisi Hz. Həmzəyə də süd vermişdir.[11] Subiyənin bu yaxşılığını unutmayan Hz. Peyğəmbər (s) onu alıb azad etmək istəsə də əmisi Əbu Ləhəb razı olmamışdır.

Bəni-Səd qəbilənsindən olan Həlimə binti Əbu Züeyb Hz. Peyğəmbərə (s) süd verən ikinci xanımdır. Tarixi mənbələrə görə Hz. Peyğəmbər (s) təxminən beş il Bəni Səd qəbiləsində qalır. Bu müddət ərzində Həlimə Hz. Peyğəmbəri (s) iki, ya da üç dəfə anası Aminəni ziyarətə gətirir. İlk dəfə südəmərlik dövrü başa çatdıqdan sonra onu Məkkəyə gətirən Həlimə, bir neçə gündən sonra yenidən özü ilə Bəni Səd qəbiləsinə qaytarır. Hz. Peyğəmbərin (s) ikinci dəfə Məkkəyə gətirilməsinə səbəb Həbəşistan ruhanilərinin Bəni-Səd qəbiləsinə

[10] Möhsin əl-Əmin, Əyanuş-şiə, I cild, səh-218; İbn Səd, Təbəqat, I cild, səh-99-100
[11] Cəfər Sübhani, Həzrət Muhəmməd, səh-97

gəlmələri olmuşdur. Onlar Hz. İsadan (ə) sonra gələcək sonuncu peyğəmbərin nişanələrini Hz. Peyğəmbərdə (s) gördükdə onu özləri ilə Həbəşistana aparmaq istəmişlər.[12] Beş ildən sonra Həlimə xanım Hz. Peyğəmbəri (s) Məkkəyə gətirərək anası Aminəyə qaytarır. Anasına qovuşan Hz. Peyğəmbər (s) anası ilə birlikdə babası Əbdülmüttəlibin himayəsinsində yaşamağa başlayır.[13]

Bir müddət sonra vəfat etmiş əri Abdullahın qəbrini və qohumlarını ziyarət etmək məqsədilə Əbdülmüttəlibdən icazə alan Aminə Hz. Peyğəmbəri (s) və köməkçisi Ümmü Əyməni də götürərək Yəsribə (Mədinəyə) səfər edir. Lakin bu səfər Hz. Peyğəmbərin (s) yaddaşında acı xatirələrlə qalır. Çünki bu səfərdə Hz. Peyğəmbər (s) atası Abdullahın qəbrini və dayılarını ziyarət edib geri qayıdarkən Əbva adlı məntəqədə anası Aminəni də itirir. Beləliklə, Hz. Peyğəmbər (s) altı yaşında olarkən hər iki valideynini itirmiş olur. Ümmü Əymənin köməkliyi ilə Məkkəyə gəlib çatan Hz. Peyğəmbər (s) altı yaşından səkkiz yaşınadək babası Əbdülmüttəlibin himayəsində yaşamağa başlayır.

Miladi tarixi ilə 578-ci ildə babası Əbdülmüttəlibi də itirən Hz. Peyğəmbər (s) səkkiz yaşından əlli yaşınadək əmisi Əbu Talibin himayəsində yaşamışdır. Bu illər Hz. Peyğəmbərin (s) həyatında əlamətdar hadisələrlə doludur.

Tarixi mənbələrə görə Hz. Peyğəmbər (s) on beş və ya iyirmi yaşında olarkən Qureyş və Həvazin qəbilələri arasında baş verən Ficar döyüşündə iştirak etmişdir. Lakin bu döyüşdə Hz. Peyğəmbər (s) tərəfindən kimsə öldürülməmişdir. Ümumiyyətlə islamiyyətdən əvvəl ərəblərin tarixində dörd Ficar döyüşü baş vermişdir və bu döyüşlərin yalnız sonuncusunda Hz. Peyğəmbər (s) iştirak etmişdir. Bu döyüşlər haram aylarda baş verdiyindən belə adlanmışdır.[14]

Gənclik yaşlarında olarkən Hz. Peyğəmbərin (s) həyatında baş verən önəmli hadisələrdən biri də "Hilful-Füzul" adlı ittifaqın bağlanmasıdır. İbn Əsirə görə ittifaqı bağlayanların hər üçünün adı Fəzl olduğu üçün bu ittifaq belə adlanmışdır.

Qureyşlilərin də bir-biri ilə bağladığı ittifaqın məzmunu eyni olduğundan, o da Hilful-Fizul adlandırılmışdır. Məzlumların hüquqlarının qorunmasına xidmət edən bu mərasimdə Hz. Peyğəmbər (s) da iştirak etmişdir. Sonralar Həzrət (s) bu ittifaq barəsində belə buyurmuşdur: "Abdullah ibn Cədanın evində bağlanmış ittifaqa məni indi də dəvət etsələr, yenə qəbul edərəm."

Əmisi Əbu Talibin himayəsi altında boya-başa çatan Hz. Peyğəmbər (s) uşaqlıq illərində çobanlıq etmiş, yeniyetmə yaşlarına dolduqda isə əmisi Əbu Taliblə birlikdə ticarətlə məşğul olmuşdur. Yalanla arası olmayan, əmanətə xəyanət etməyən Hz. Peyğəmbər (s) hələ iyirmi yaşına yetməmiş Məkkədə

---

[12] Həmin mənbə, səh-102

[13] Sireyi ibn Hişam, I cild, səh-167

[14] Cəfər Sübhani, Həzrət Məhəmməd, səh-112-113; Tarixi ibn Əsir, I cild, səh-358-359; Sireyi ibn Hişam, I cild, səh-184-187.

“Əmin” ləqəbi ilə məşhurlaşmışdı. İyirmi beş yaşına çatan zaman əmisi Əbu Talibin məsləhətilə Əsəd qəbiləsindən olan Xədicə bint Xuveylid adlı zəngin bir qadının ticarət karvanına qoşulan Hz. Peyğəmbər (s) Şama yola düşdü. Bu haqqda böyük islam alimi Əllamə Məclisi deyir: “Əbu Talib Peyğəmbərin (s) yanına gəlib dedi: “Ey Muhəmməd (s) səni evləndirmək istəyirəm, amma bunun üçün mənim heç bir malım yoxdur. Xədicə bizim yaxınlarımızdandır. O, hər il Qureyşə öz malından verib onlarla ticarət edir. Onlar ondan yük dəvələri götürüb səfərə çıxırlar. Sən də ticarət etmək istəyirsənmi? Həzrət buyurdu: Bəli. Əbu Talib Xədicənin yanına gəlib əhvalatı ona danışdı. Xədicə bundan sevinib xidmətçisi Meysərəyə dedi: Sən və bu malların hamısı Muhəmmədin (s) ixtiyarındasınız.... Muhəmməd (s) həmin səfərə çıxdı və çoxlu gəlirlə geri döndü. Meysərə Peyğəmbərə (s) dedi: Ey Muhəmməd əgər icazə versən miniyimi səndən tez Məkkəyə yetişdirər və Xədicəyə çoxlu gəlirimiz haqqında xoş xəbər verərəm. Muhəmməd (s) onu qabağa saldı. Onlar Məkkəyə yetişəndə Xədicə öz otağında qadınlarla oturmuşdu. O, Muhəmmədi (s) minikdə, başı üstündə bir parça bulud, sağ tərəfində bir, sol tərəfində də digər bir mələk gördü və heyrətlə dedi: bu minik əhli böyük əzəmət sahibidir.... Sonradan o, Peyğəmbərə (s) evlənmək təklifini verdi. Əbu Talib bu təklifi qəbul etdi və nigah əqdini oxudu. Muhəmməd (s) əmisi ilə evə dönmək istədikdə Xədicə dedi: Evinizə gedirsinizmi? Mənim evim sənin evindir və mən sənin xidmət-çinəm”.[15]

Mənbələrin verdikləri məlumatlara görə Xədicə Muhəmmədlə (s) evlənən zaman artıq iki dəfə ərdən boşanmış və 40 yaşlı dul bir qadın idi. Bu müqəddəs evlilikdən onların altı övladı olmuşdu. Onlardan dördü qız (Zeynəb, Ümmü Gülsüm, Ruqiyyə və Fatimə), ikisi isə oğlan (Qasim və Təyyib ya Tahir ləqəbli Abdullah) olmuşdur.[16]

Peyğəmbərin (s) Fatimədən (s.ə) başqa bütün uşaqları onun sağlığında vəfat etmişdilər. Sonralar onun Mariya Qibtidən İbrahim adli bir oğlu da olmuşdur ki, o da peyğəmbərin sağlığında on səkkiz aylığında vəfat etmişdi.[17]

Hz. Peyğəmbər (s) ömrünün 40 yaşınadək olan hissəsini Hira mağarasında Allaha ibadətlə keçirmiş və miladi 610-cu ildə Allah tərəfindən ona vəhy nazil olmuşdur. Əhli-beytdən gələn xəbərlərə görə o, qırx yaşında ikən rəcəb ayının 27-ci günündə peyğəmbərliyə vəzifələndirilmişdir.

Mənbələrin verdikləri məlumatlara görə ona nazil olan ilk ayələr “Ələq” surəsinin aşağıdakı ayələridir:

“Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə öyrətdi. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi”.[18]

---

[15] Biharul-ənvar, XV cild, səh-274-275
[16] Əyanuş-şiə, I cild, səh-223
[17] Həmin mənbə

Bu ayələr Hira mağarasında ona nazil olarkən Həzrət qorxu içərisində evə -Xədicənin yanına gəlmiş və yatağına girərək üstünün örtülməsini istəmişdi.[19] Beləliklə Allah tərəfindən peyğəmbər seçilən Muhəmmədə (s) ilk iman gətirən Xədicə oldu. Hz. Muhəmmədin (s) peyğəmbər seçilməsi ilə Allah peyğəmbərliyə son qoymuş, əvvəlki peyğəmbərlərin gətirdikləri şəriətlərin hökmünü aradan qaldırmış (nəsx etmiş) və bununla da irqindən, millətindən, sosial vəziyyətindən asılı olmayaraq bütün insanları vahid bir dinə -İslama girmələrini vacib buyurmuşdur. Həmçinin Allah onun vasitəsi ilə bütün yer üzündə olan xurafatın, əqidəsizliyin, pozğunluğun kökünü kəsmişdir. O zamankı dünyanın bütün bölgələrinə car çəkib xəbərlər göndərən Peyğəmbər (s) insanları imana, sonuncu kamil din olan islama dəvət etdi. O, tez bir zamanda ətrafında olan insanların böyük əksəriyyətini təkallahlıq formulası olan "Allahdan başqa Allah yoxdur və Muhəmməd Onun rəsuludur" kəlməsi altında birləşdirərək Qiyamətədək əbədiyaşar İslam dinini qurmuşdu. O, bütün mömin-lərin qardaş olduğunu, onların bir-birlərindən yalnız təqvaya görə üstün olduğunu bəyan edərək qanuni, ədalətli və azad bir cəmiyyət yaratdı. On iki ilə yaxın bir müddət ərzində islam dinini Məkkədə yayan Peyğəmbər (s) sonda Yəsribə (Mədinəyə) hicrət etdi. 622-ci ilin ortalarında Yəsribə gələn peyğəmbər orada tarixdə heç vaxt misli görünməmiş federativ bir dövlət qurdu. Tarixdə peyğəmbərlik missiyasından başqa böyük bir dövlət xadimi kimi də yad edilən Muhəmmədin (s) etdiyi bütün əməlləri, atdığı bütün addımları ilahi vəhyə dayanmışdı.

Məşhur islam alimlərindən olan Muhəmməd Həmdullah Peyğəmbərin (s) qurduğu dövlətin 47 maddədən ibarət konstitutsiyasının olduğunu deyir.[20]

Mədinə şəhərində on il islamı təbliğ edən Muhəmməd (s) çox qüvvətli bir dövlət yaratmış, pərakəndə olan ərəb qəbilələrini bir araya gətirmiş, bir sözlə Ərəbistan yarımadasında güclü vahid cəmiyyət yaratmışdı. Bundan əlavə o, qonşu dövlət başçılarına məktublar göndərmiş və onları islama dəvət etmişdir. Həmçinin Peyğəmbər (s) müxtəlif döyüşlərdə iştirak etmiş və əsgəri bir həyat yaşayaraq bacarıqlı bir sərkərdə kimi Allah yolunda cihad etmişdir.

Mənbələrin verdikləri məlumatlara görə peyğəmbərin şəxsən iştirak etdiyi döyüşlərin sayı 27 və 28 olmuşdur. Daha doğru məlumat isə 28-dir.[21] Lakin onun şəxsən göstərişi ilə yaradılan, amma müəyyən səbəblər üzündən orada iştirak etmədiyi döyüşlərin (səriyyə) sayı 45 (47) olmuşdur.[22]

Həqiqətən islam Peyğəmbərinin (s) bütün qəzvə və səriyyələrinə, ümumiyyətlə bütün həyatına nəzər salınsa, məlum olacaqdır ki, həzrətin islama

---

[18] 1-5-ci ayələr
[19] Əyanuş-Şiə, I cild
[20] İslam peyğəmbəri, I cild
[21] Əyanuş-şiə, I cild, səh-245
[22] Həmin mənbə

dəvəti heç də müharibələr və qətl üzərində qurulmayıbdır. Onun islama olan dəvəti ilahi hikmətə və gözəl moizəyə əsasən yayılmışdı. Bəlkə də elə bu səbəbdəndir ki, o həzrətin səsini (dəvətini) eşidən toplumun böyük əksəriyyəti toplum halında islama daxil olmuş, öz əqidələrini bu ilahi dinin vasitəsilə təmizə çıxarmışlar.

Beləliklə 40 yaşında peyğəmbər olan Muhəmməd (s) təxminən 23 il Allahdan aldığı vəhy hesabına islam dinini təbliğ etmiş və ilahi əmrə tabe hesabına islam dinini təbliğ etmiş və ilahi əmrə tabe olaraq 63 yaşında vəfat etmişdir. Mənbələr onun vəfat tarixini müxtəlif göstərsələr də daha doğru və məşhur görüş onun Səfər ayının 28-də, hicrətin 11 ilində (miladi 632) vəfat etməsidir.[23]

Hz. Peyğəmbər (s) dünyadan gedərkən ümmət içərisində iki ağır əmanəti – Quran və Əhli-beyti yadigar qoyaraq ümmətin yalnız bu iki şeyə tabe olmasını vacib buyurdu.

Gizli və açıq dəvət

Hz. Peyğəmbərin (s) insanları islama təbliğ etmə mərhələləri gizli və açıq dəvət olmaqla iki qismə ayrılır. Miladi tarixi ilə 610-cu ildə Allah tərəfindən peyğəmbərlik vəzifəsi ilə yüklənən Hz. Peyğəmbər (s) üç il boyunca öz dəvətini gizli şəkildə həyata keçirmişdir. Bu üç il müddətində Xədicə, Hz. Əli, Zeyd ibn Haris, Zübeyr ibn Əvvam, Əbdürrəhman ibn Ovf, Səd ibn Əbu Vəqqas, Təlhə ibn Ubeydullah, Əbu Ubeydə əl-Cərrah, Əbu Sələmə, Ərqəm ibn Ərqəm, Abdullah ibn Məzun, Ubeydə ibn Haris, Qədamə ibn Məzun, Səid ibn Zeyd, Xəbbab ibn Zeyd, Əbu Bəkr ibn Əbu Quhafə, Osman ibn Əfvan və s. şəxslər islamı qəbul etmişdir.[24] Bu illər ərzində Hz. Peyğəmbər (s) Ərqəm ibn Əbu Ərqəmin evində məskunlaşaraq islamı təbliğ etmişdir və Əmmar ibn Yasir, Süheyb ibn Sənan kimi məşhur səhabələr bu evdə islamı qəbul etmişlər.

Gizli dəvət dövründə başda Əbu Süfyan ibn Hərb olmaqla Qureyş müşrikləri Hz. Peyğəmbərin (s) dəvətinə istehza ilə yanaşaraq deyirdilər: "O da tezliklə Vərəqə və Umeyyə kimi sakitləşər". Bu müddət ərzində Hz. Peyğəmbər (s) bütləri açıq şəkildə tənqid etməyib, yalnız öz gizli dəvəti ilə məşğul olduğu üçün müşriklər də Həzrətə hörmətsizlik etməyib onun hörmətini saxlayırdılar. Lakin qohumları və camaatı İslama dəvət etməyə, bütləri, müşriklərin insanlığa zidd olan əməllərini aşkar şəkildə pislədikdən sonra müşriklər başa düşdülər ki, Hz. Peyğəmbərin (s) dəvəti əvvəlki iki nəfərdən (Vərıqə və Umeyyə) fərqlidir.

"Və ən yaxın qohumlarını qorxut. Sənə tabe olan möminləri qanadın altına al!"[25] ayəsi nazil olduqdan sonra Hz. Peyğəmbər (s) Bəni-Haşimdən

---

[23] Əyanuş-şiə, I cild

[24] Cəfər Sübhahi, Həzrət Məhəmməd, səh-157

[25] Şüəra surəsi, ayə-214-215

olan qırx nəfəri evinə dəvət edib, onları öz gizli dəvətindən xəbərdar etmək istəyir. Həzrət gələnlər üçün süfrə açmışdı. Yemək yeyiləndən sonra Həzrət Allahın əmirlərini Bəni-Haşim övladlarına çatdıqmaq istədikdə əmisi Əbu Ləhəb bu işə mane olduğu üçün Hz. Peyğəmbər (s) söhbətini növbəti günə saxladı. Növbəti gün yeni ziyafət təşkil edən Hz. Peyğəmbər (s) yenə də Bəni-Haşim övladlarını evinə dəvət etdi. Yeməkdən dərhal sonra söhbətə başlayan Hz. Peyğəmbər (s) belə buyurdu: "Mən bir olan Allah tərəfindən sizə və bütün bəşəriyyətə göndərilmiş bir peyğəmbərəm. Mən sizin üçün dünya və axirət xeyrini gətirmişəm. İslamı qəbul edin və doğru yola yönəlmək üçün mənə tabe olun! Bu yolda sizlərdən mənimlə qardaş olmağa, mənə kömək etməyə, məndən sonra da əhli-əyalım arasında vəsim və canişim olmağa, dinimi yaymağa kim hazırdır?"[26] Hz. Peyğəmbər (s) bu sözləri üç dəfə təkrar etsə də Hz. Əlidən (ə) başqa kimsə cavab vermədi. Hz. Əli (ə) ayağa qalxaraq buyurdu: "Ey Allahın Rəsulu, mən bu işdə sizə kömək etməyə hazıram!" Hz. Əlinin (ə) bu sözlərindən sonra üzünü qohumlarına tutan Hz. Peyğəmbər (s) buyurdu: "Bu şəxs mənim qardaşım və sizin aranızda canişinimdir. Onun sözlərinə qulaq asıb dediklərinə tabe olun!" Həzrətin bu sözlərindən sonra məclis əhli gedərkən istehza ilə Əbu Talibə belə deyirdi: "Get, oğlun Əliyə itaət et. Çünki Məhəmməd (s) onu sənin əmirin seçdi."[27] Bu hadisə İslam tarixi və hədis elmində "Yavmul-inzar" adı ilə məşhurdur.

Gizli dəvət dövrü başa çatdıqdan sonra Allah qatından bu ayələr nazil oldu: **"(Ya Rəsulum!) Sənə əmr olunanı (Quranı) açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər! Şübhəsiz ki, istehza edənlərə qarşı Biz sənə kifayət edərik.**"[28] Bu ayələrin nazil olmasından sonra Hz. Peyğəmbər (s) insanları açıq şəkildə islama dəvət etməyə başladı. Açıq dəvətdən sonra İslamı qəbul edib müsəlman olduqlarını gizlədənlər islamı qəbul edənlərlə yaxından tanış olurdular. Açıq dəvət nəticəsində müsəlmanların sayı gündən-günə çoxalmağa başladı. Bu da öz növbəsində Məkkə müşriklərini narahat etməyə bilməzdi.

İslamiyyətin qarşısını almaq məqsədilə Məkkənin seçilmişlərindən olan Əbu Süfyan ibn Hərb, Əbu Cəhl, Umeyyə ibn Xələf, Mütim ibn Ədiyy və başqaları Hz. Peyğəmbərin (s) himayədarı Əbu Talibin yanına gəlib, onunla danışıqlar aparsalar da bunun heç bir nəticəsi olmadı. Əksinə, qısa müddət sonra Həmzə ibn Əbdülmüttəlib və Ömər ibn Xəttab kimi cəngavərlər də İslamı qəbul etdilər.

Buna qarşılıq olaraq müşriklər müsəlmanlara əzab-əziyyət verməyə başladılar. Nəticədə Bilal Həbəşi, Əmmar ibn Yasir və ata-anası, Abdullah ibn Məsud və Əbuzər kimi məşhur səhabələr ağır işgəncələrə düçar oldular. Bu

---

[26] Tarixi ibn Əsir, II cild, səh-40-41; Tarixi-Təbəri, II cild, səh-62-63
[27] Təfsiri-Təbəri, XIX cild, səh-74; Cəfər Sübhani, Həzrət Məhəmməd, səh-160
[28] əl-Hicr surəsi, ayə-94-95

işgəncələr nəticəsində dünyasını dəyişən Əmmarın atası Yasir və anası Sümeyyə islamın ilk şəhidləri adını aldılar. Müsəlmanlara əsasən Hz. Peyğəmbərin (s) və İslamın qatı düşmənləri olan Əbu Ləhəb, Əsvəd ibn Əbduyəğus, Vəlid ibn Muğeyrə, Umeyyə ibn Xələf və onun qardaşı Ubeyy, Əbdulhəkəm ibn Hişam, As ibn Vail, Əqəbə ibn Əbu Muit, Əbu Süfyan ibn Hərb və başqaları işgəncə verirdilər. Bütün bu işgəncələrin nətəsi olaraq müsəlmanlar Məkkəni tərk etmək məcburiyyətində qalmışlar.

Müşriklərin İslamiyyətə düşmən olmasının səbəbləri

1.Hz. Peyğəmbərə (s) həsəd aparmaları: Cahil ərəblərin düşüncəsinə görə peyğəmbər seçiləcək şəxs mütləq yaş, mal-dövlət və oğul-uşaq baxımından seçilmiş biri olmalıdır. Bunlara misal olaraq Vəlid ibn Muğeyrəni və Umeyyə ibn Əbu Siləti qeyd edə bilərik. Bu şəxslər qeyd etdiyimiz şərtləri Hz. Peyğəmbər (s) də görmədikləri üçün onun peyğəmbərliyini qəbul etməmişlər.

2.Müşriklərin mövqe və nüfuzlarının aradan getməsi: İslam dini sinfi ayrıseçkiliyi aradan aparıb, insanları bərabər hüquqlu elan edirdi. Bundan narahat olan müşriklər mövqelərini əldən verməmək üçün var qüvvələri ilə islamiyyətə qarşı mübarizə aparırdılar.

3.Axirət əzabını xatırladan ayələrin nazil olmasından sonra qorxuya düşən müşriklər İslama qarşı mübarizə aparırdılar.

4.Məkkə əhlinin həyatı ticarətdən asılı idi. Müşriklərin əsas gəlir mənbəyi də bütlər idi. Ərəbistanın bir çox məntəqələrindən gələn nümayəndələr Kəbədə yerləşən 360 bütün adına bəxşişlər gətirirdilər. İslamiyyətin bütləri yox etməsi ilə ticarət həyatının sona çatacağını hesab edən müşriklər İslama qarşı mübarizə aparırdılar.

Bütün bunları nəzərə alan müşriklər müsəlmanları bu yoldan döndərmək üçün onlarla bütün əlaqələri kəsmişlər. Bu hadisəyə İslam tarixində "İqtisadi blokada" adı verilmişdir və bu hadisə miladi tarixi ilə 616-619-cu illərdə baş vermişdir. Blokadanın şərtləri bunlar idi:

1)Müsəlmanlarla bütün alış-veriş qadağandır.

2)Onlarla ünsiyyət qurulmayacaq.

3)Onlardan qız alıb onlara qız vermək qadağandır.

4)Bütün hallarda İslamın müxalifləri dəstəklənməlidir.

Lakin üç il davam edən bu mühasirə də sonda müsəlmanların xeyrinə nəticələnmiş və müsəlmalar "Şib Əbu Talib" dərəsindəki sıxıntıdan xilas olmuşlar.

Əbu Talibin imanı

Bəzi mənbələrin qeyd etdiyinə görə Hz.Peyğəmbərin *(s)* əmisi və himayədarı olan Əbu Talib islamı qəbul etmədən dünyadan getmişdir. Dəlil olaraq "Tövbə"surəsinin 113-cü ayəsini qeyd edirlər. Guya Əbu Talib vəfat etdikdə Hz.Peyğəmbər *(s)* onun üçün Allahdan bağışlanmaq diləmək istədikdə bu ayə

nazil olmuş və Allah Hz.Peyğəmbəri *(s)* bu işdən çəkindirmişdir. Ayənin mənası belədir:

"Müşriklərin cəhənnəmlik olduqları (müsəlmanlara) bəlli olduqdan sonra onlarla qohum olsalar belə, Peyğəmbərə və iman gətirənlərə onlar üçün bağışlanma diləmək yaraşmaz!"

Amma bu ayənin təfsirinə nəzər saldıqda hər şey məlum olur. Əksər təfsirçilərin rəyinə əsasən bu ayənin şəni-nüzulu belədir: "Bir gün islamı yeni qəbul etmiş səhabələr Hz.Peyğəmbərin *(s)* yanına gələrək belə dedilər: Ey Allahın Rəsulu! Sən bilirsən ki, bizim ata-babalarımız islamiyyətdən qabaq müşrik olaraq dünyadan getmişlər. Bizim səndən istəyimiz budur ki, onların bağışlanması üçün Allaha dua edəsən. "Hz.Peyğəmbər *(s)* onların istəyini həyata keçirmək istədikdə bu ayə nazil olmuş və Allah Peyğəmbəri *(s)* bu işdən çəkindirmişdir." Buradan məlum olur ki, ayə Əbu Talibin yox, müşriklərin barəsində nazil olmuşdur.

Bundan başqa bəzi hədislərdə də Əbu Talibin cənnət əhli olduğu bildirilir:

1) Hz.Peyğəmbər *(s)* barmaqlarını birləşdirərək belə buyurdu: "Mən və yetimə himayə edən (Əbu Talib) bu iki barmağım kimi cənnətdə mənimlə birlikdə olacaq".[29]

2) Hz.Peyğəmbər *(s)* buyurdu: "Cəbrail *(ə)* nazil olaraq məni bu kəlmələrlə müjdələdi: "Şübhəsiz ki, Allah səni endirən sülbə, daşıyan bətnə, süd verən döşə və səni himayə edən qucağa cəhənnəm odunu haram buyurdu."[30] Bu hədisdə endirən sülb deyəndə Peyğəmbərin *(s)* atası Abdullah, daşıyan bətn deyəndə anası Aminə, süd verən şəxs deyəndə Həlimə və səni himayə edən qucaq deyəndə Əbu Talib nəzərdə tutulmuşdur.

Şeyx Səduq nəql edir ki, bir şəxs ibn Abbasa dedi: "Ey Peyğəmbərin əmisi oğlu! Əbu Talib müsəlman oldumu!" İbn Abbas dedi: "Müsəlman olmayan şəxs belə deyərdimi: "Məkkə müşrikləri bilirdilər ki, biz öz övladımız Muhəmmədi qəbul edirik və o boş sözlərə etina etmir". Əbu Talib Kəhf səhabələri kimidir. O öz imanını gizli saxladı və zahirən müşrik kimi göründü. Allah ona iki savab verdi. İmam Sadiq *(ə)* buyurmuşdur: "Əbu Talib Kəhf səhabələri kimidir. Qəlbində iman vardı, zahirən müşrik kimi görünürdü. Allah ona iki mükafat verdi: Birini imanına, o birini isə təqiyyəsinə görə."[31]

Hicrətlər

Hicrət sözünün mənası bir yerdən başqa yerə köç etmək deməkdir. Müsəlmanların öz doğma yerlərindən başqa yerlərə hicrət etmələrinin səbəbi Məkkə müşriklərinin onlara əzab vermələri olmuşdur. Müşriklərin təzyiqinə tab gətir-

---

[29] İbn Əbil Hədid, "Nəhcül-Bəlağənin şərhi" 4-cü cild, səh–312.

[30]Təbəqati-ibn Səd, 1-ci cild, səh-202-203; "Sireyi-ibn Hişam", 1-ci cild, səh 373; "Tarixi-ibn Kəsir " 2-ci cild, səh 42; "Sireyi-Hələbi" 1-ci cild, səh 351-352; "Nəhcül-Bəlağənin şərhi" 14-cü cild, səh 83.

[31]Şeyx Səduq "Əmali" 89-cu məclis,12-13-cü hədis.

məyən müsəlmanlar Hz.Peyğəmbərə *(s)* müraciət etdikdə Allah Rəsulu vəhy gəlmədiyi üçün hicrətə izn vermirdi. Lakin "Ənkəbut" surəsinin 56-cı ayəsi nazil olduqdan sonra Hz.Peyğəmbər *(s)* hicrətə izn vermişdir. Ayədə deyilir: **"Ey iman gətirən bəndələrim! (Əgər hər hansı bir yerdə islamiyyətə görə sizi incidib əziyyət verirlərsə, orada sizi ölüm təhlükəsi gözləyirsə, yaxud dini vəzifələrinizi lazımınca yerinə yetirə bilmirsinizsə, başqa şəhərlərə və ölkələrə hicrət edə bilərsiniz. Mən oralarda da sizə ruzi verərəm.) Şübhəsiz ki, mənim yerim genişdir. Buna görə də yalnız mənə ibadət edin!"** İslamda üç hicrət olmuşdur.

İlk hicrət besətin 5-ci ili miladi tarixi ilə 615-ci ildə Hz.Peyğəmbərin *(s)* göstərişi ilə Məkkədən Qırmızı dəniz vasitəsilə Həbəşistana edilmişdir. Həmin vaxt Həbəşistanı adil hökmdar Nəcaşi idarə edirdi. Osman ibn Məzunun başçılığı ilə edilən ilk hicrətdə dördü qadın on biri kişi olmaqla on beş nəfər iştirak etmişdir. Həmin on beş nəfər bunlardır:

1) Osman ibn Məzun
2) Osman ibn Əfvan
3) Hz.Peyğəmbərin *(s)* qızı və Osman ibn Əfvanın arvadı Ruqiyyə
4) Əbu Hüzeyfə ibn Utbə
5) Əbu Hüzeyfənin arvadı Səhlə
6) Zübeyr ibn Əvvam
7) Musab ibn Umeyr (Hz.Peyğəmbər *(s)* tərəfindən Mədinədə islamı təbliğ etmək üçün göndərilən ilk səhabədir və Uhud döyüşündə şəhid olacaq).
8) Əbdürrəhman ibn Ovf
9) Əbu Sələmə Məhzumi
10) Əbu Sələmənin arvadı Ümmü Sələmə
11) Amir ibn Rəbiə
12) Amirin arvadı Leyla
13) Xətib ibn Əmr
14) Səhl ibn Beyza
15) Abdullah ibn Məsud.

Müsəlmanların Həbəş kralı Nəcaşi (əsl adı Əshamədir) tərəfindən yaxşı qarşılanıb sığınacaq verilməsindən sonra Allah Rəsulu ikinci hicrətə icazə verdi.

İkinci hicrət besətin altıncı ili miladi tarixi ilə 616-cı ildə Hz.Peyğəmbərin *(s)* göstərişilə Məkkədən Qırmızı dəniz vasitəsilə Həbəşistana edilmişdir. Cəfər ibn Əbu Talibin başçılığı altında olan bu hicrətdə 120-yə yaxın adam iştirak etmişdir. Müsəlmanların Həbəşistanda yaxşı qarşılanmasından narahat olan Məkkəlilər onları geri qaytarmaq üçün Abdullah ibn Rəbiəni və Əmr ibnAsı bahalı hədiyyələrlə Həbəşistana göndərdilər. Lakin ədalətli kral olan Nəcaşi müsəlmanları dinlədikdən sonra Məkkə heyətini əliboş geri qaytardı. Bundan narahat olan Məkkə müşrikləri vaxtı ilə Hz.Peyğəmbərin *(s)* babası Qusey ibn Kilabın tikdirdiyi Darun-Nədvədə toplanaraq belə qərara gəldilər ki, Hz.Peyğəmbəri *(s)*

öldürsünlər. Lakin uca Allah "Ənfal" surəsinin 30-cu ayəsini nazil edərək Hz.Peyğəmbəri *(s)* onların çirkin planından xəbərdar etdi. Ayədə deyilir: **"(Ya Rəsulum). Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxarıb qovmaq üçün (Darun-Nədvədə) sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökürdü. Allah (gizli hiylə quranlara, məkr edənlərə qarşı) tədbir tökənlərin (onlara gözləmədikləri yerdən qəfil bəla göndərib cəzalandıranların, məkri pozanların, məkrə tədbirlə cavab verənlərin) ən yaxşısıdır!"**

Üçüncü hicrət besətin on ikinci ili rəbiül-əvvəl ayının əvvəllərində miladi 622-ci il Hz.Peyğəmbərin *(s)* Məkkədə Mədinəyə getməsilə baş vermişdir. Həmin gecə Hz.Peyğəmbərin *(s)* yatağında Hz.Əli *(ə)* yatmış və bu gecə islam tarixində "Leylətul-məbid" gecəsi adlanır. Bu hadisə ilə əlaqədar Hz.Əlinin *(ə)* şəninə "Bəqərə" surəsinin 207-ci ayəsi nazil olmuşdur. Ayədə deyilir: **"İnsanların eləsi vardır ki, Allahın razılığını qazanmaq üçün öz canını satar (canından keçər). Allah öz bəndələrinə çox mehribandır!"** Aşağıdakı İslami qaynaqlara görə bu ayə Hz. Əli (ə) haqqında nazil olmuşdur:

1) İmam Qəzzali "Ehyaul-Ulum" 3-cü cild, səh 273;
2) Yusif Gənci Şafei "Kifayətul-Talib" səh 114;
3) İbn Səbbağ Maliki "əl-Fisulul-Muhimmə" səh 33;
4) Cövzi Hənəfi "Təzkirətul-Xəvass" səh 21;
5) Şəbləci "Nurul-Əbsar" səh 82;
6) Hakim Həsqani "Şəvahidut-Tənzil" 1-ci cild, səh 98-100;
7) "Müstədrəki-Hakim" 3-cü cild, səh 4;
8) "Müsnədi-Əhməd" 1-ci cild, səh 347;
9) "Təfsiri-Burhan" 1-ci cild, səh 206-207;
10) Əllamə Məclisi, Biharul-ənvar;
11) Şeyx Təbərsi, Məcməul-bəyan;
12) Şeyx Tusi, Təhzibul-əhkam;
13) Əllamə Təbatəbai, Əl-mizan;
14) Şeyx Müfid, Əl-İrşad;
15) Əllamə Əmini, Əl-Qədir.

Hz.Peyğəmbər *(s)* hicrət etdiyi zaman Əbu Bəkrlə birlikdə Sur (Saur) mağarasında üç gün qaldıqdan sonra Mədinəyə doğru hərəkət edərək Mədinə yaxınlığında Quba adlı məntəqədə on dörd gün qalmış və bu müddət ərzində islamın ilk məscidi olan Quba məscidi inşa edilmişdir. Hz.Əlidə *(ə)* Hz.Peyğəmbərin *(s)* tapşırıqlarını yerinə yetirdikdən üç gün sonra Hz.Peyğəmbərin qızı Hz.Fatiməni *(ə)*, öz anası Fatimə binti Əsədi və Fatimə binti Zübeyri götürərək Quba adlı məntəqədə Hz.Peyğəmbərə *(s)* çatdı. Quba məntəqəsindən sonra Hz.Peyğəmbər *(s)* Mədinəyə daha yaxın olan Ranuna adlı məntəqəyə çatdıqda ilk cümə namazını qıldıqdan sonra ilk xütbəsini də burada söylədi. Sonralar burada Cümə məscidi inşa edilmişdir. Hz.Peyğəmbər *(s)* Mədinəyə çatdıqdan sonra isə burada Məscidun-Nəbi inşa edilmişdir. Hicrətdən əvvəl Mədinənin adı Yəsrib olmuş,

hicrətdən sonra isə Peyğəmbərin *(s)* şərəfinə Mədinətur-Rəsul yəni Peyğəmbər şəhəri adlandırılmışdır. Sonralar sadəcə Mədinə deyilmişdir.

Məscidun-Nəbinin yaxınlığında kimsəsizlər üçün sığınacaq yeri olan Suffa inşa edilmiş və buranın sakinlərinə Əshabi-Suffa (suffa əhli) deyilmişdir. Suffa əhli bütün günü Hz.Peyğəmbərin *(s)* yanında olur, nazil olan ayələri və Hz.Peyğəmbərin *(s)* söylədiyi hədisləri əzbərləyirdilər. Peyğəmbərə *(s)* gətirilən yeməklərlə qidalanır, bəzi vaxtlar isə odun sataraq pul qazanırdılar. Eyni zamanda Suffa islamda ilk məktəb kimi də götürülür. İslamda ilk müəllim Hz.Peyğəmbərin *(s)* özü hesab olunur. Suffa əhlinə Hz.Peyğəmbərdən *(s)* başqa Hz.Əli *(ə)*, Abdullah ibn Abbas, Abdullah ibn Məsud, Ubeyy ibn Kəb, Əbu Musa Əşəri (Abdullah ibn Qeyss), Miqdad ibn Əsvəd də Suffa əhlinə dərs demişdi. Məscidun-Nəbiyə birləşik olaraq Hz.Peyğəmbərin *(s)* xanımları üçün tikilmiş yerlərə hücrə deyilir.

Hicrətdən on yeddi il sonra miladi tarixilə 639-cu ildə ikinci xəlifə Ömər ibn Xəttabın xilafəti dövründə Hz.Əlinin *(ə)* təklifi ilə Hz.Peyğəmbərin *(s)* hicrət etdiyi il yəni 622-ci il islam təqviminin başlanğıcı kimi götürülmüşdür. Başlanğıc ay olaraq isə məhərrəm ayı götürülmüşdür.

Lakin İslami mənbələrə müraciət etdikdə məlum olur ki, hicrəti ilk tarix kimi məhz Hz. Peyğəmbərin *(s)* özü istifadə etmişdir. Hz. Peyğəmbər *(s)* qəbilə və dövlət başçılarına göndərdiyi məktublara hicrətə əsasən tarix qoymuşdur. Həmin məktublardan bəzilərini qeyd edirik:

1)Məşhur islam tarixçisi Bəlazuri Hz. Peyğəmbərin *(s)* Məqna yəhudiləri ilə müqaviləsini qeyd edərək bildirir ki, müqavilənin mətnini misirli bir şəxs köhnə qırmızı parçada görüb mənim üçün oxumuşdu. Həmin müqavilənin sonunda deyilir: "Sizin üçün özünüzdən və Rəsulullahın Əhli-beytindən gözəl başçı ola bilməz. Əli ibn Əbutalib hicrətin doqquzuncu ilində yazmışdır."[32]

2)Peyğəmbərin *(s)* göstərişi ilə Əlinin *(ə)* Nəcran xaçpərəstlərinə yazdığı sülh məktubunda hicrətin beşinci ilində yazıldığı göztərilir. Məktubda deyilir: "Peyğəmbər *(s)* Əliyə sülh məktubunun hicrətin beşinci ilində yazılmasını göstərməsini əmr edir."[33]

3)Hədis alimləri Zühəridən belə nəql edirlər: "Peyğəmbər Mədinəyə gələn kimi tarix təyin edilməsinə göstəriş verir. Tarix rəbiul-əvvəl (hicrətin ilk ayı) ayından təyin edilir."[34] Hicrətin tarixin başlağıncı kimi götürülməsi barədə daha ətraflı məlumat əldə etmək üçün bu mənbələrə müraciət edə bilərsiniz: Əbu Nəim, Əxbari İsfahan, I cild, səh-52-53; Bəlazuri, Futuhul-Buldan, səh-72; əl-Əmval, səh-297; Məcməuz-zəvaid, IX cild, səh-190; Tarixul-Xəmis, I cild, səh-367-369; Məğazeyi-Vaqidi, II cild, səh-531, 534; Tarixi-Təbəri, II

[32] Cəfər Sübhani, Həzrət Muhəmməd, Bakı-2010, səh-276
[33] Həmin mənbə
[34] Həmin mənbə, səh-277

cild, səh-388; Müstədrəki-Hakim, III cild, səh-13-14; Cəfər Sübhani, Həzrət Muhəmməd, səh-276-278.

Merac və İsra hadisələri

Merac hadisəsi besətin onuncu ili şiə alimlərinə görə rəbiül-əvvəl ayının on ikisi, sünni alimlərinə görə rəcəb ayının iyirmi yeddisi miladi tarixilə 620-ci ildə baş vermişdir. Hz.Peyğəmbərin *(s)* Məscidul-Həramdan Məscidul-Əqsaya aparılmasına isra (yəni gecə gəzintisi) deyilir. Hz.Peyğəmbərin *(s)* Məscidul-Əqsadan Cəbraillə *(ə)* Buraq adlı minikdə ərşə qalxmasına merac (yüksəlmə) deyilir. Qurani-Kərimin "İsra" və "Nəcm" surələrində meracdan bəhs olunur. Meracda olarkən Hz.Peyğəmbər *(s)* ərşin birinci qatında Hz.Adəmlə *(ə)*, ikinci qatında Hz.Yəhya *(ə)* və Hz.İsa *(ə)*, üçüncü qatında Hz.İdris *(ə)* və Hz.Yusif *(ə)*, dördüncü qatında Hz.Harun *(ə)*, beşinci qatında Hz.Musa *(ə)*, altıncı qatında Hz.İbrahimlə *(ə)* görüşdükdən sonra öz məqamı olan göyün yeddinci qatı "Sidrətül-Müntəhaya"qalxmışdır.

Meracda olarkən Hz.Peyğəmbər *(s)* Allahın üzünü görmədən onunla pərdə arxasından danışmış və Allah tərəfindən üç şey Peyğəmbərə *(s)* hədiyyə edilmişdir:

1) Namaz;

2) Ümmətindən Allaha şərik qoşmayanların cənnətə gedə biləcəyi müjdəsi;

3) Bəqərə surəsinin son ayələri.

Bəziləri Hz.Peyğəmbərin *(s)* Meracda ruhən və ya cismən olması barədə ixtilafa düşmüşlər. Lakin biz Qurana müraciət etdikdə görürük ki, Hz.Peyğəmbər *(s)* Meracda cismən olmuşdur. Çünki "İsra" surəsinin birinci ayəsində "biəbdihi" (yəni özünü) deyə müraciət olunur. Əgər Hz.Peyğəmbər *(s)* Meracda ruhən olsaydı o zaman "biruhihi" (yəni onun ruhunu) deyə müraciət olunardı.

Qəzvələr və səriyyələr

Hz.Peyğəmbərin *(s)* Məkkədən Mədinəyə hicrətindən sonra müsəlmanlarla müşriklər arasında bir çox müharibələr baş vermişdir. Bu müharibələrin bəzisinə Hz.Peyğəmbər *(s)* şəxsən başçılıq etmiş, bəzisində isə işrirak etməmişdir. Hz.Peyğəmbərin *(s)* başçılığı altında gedən döyüşlərə qəzvə, Hz.Peyğəmbərin *(s)* iştirak etmədiyi döyüşlərə isə səriyyə deyilir. İslam tarixində iyirmi yeddi qəzvə və qırx beş səriyyə baş vermişdir .

Hicrətin I ili baş verən hadisələr (miladi 623)

1. Məscidun-Nəbi inşa edildi:

Hz.Peyğəmbərin *(s)* Məkkədən çıxıb Mədinəyə nə vaxt çatması tarixçılər arasında ixtilaflıdır. Məşhur görüş budur ki, Həzrət *(s)*, besətin on ikinci ili rəbiül-əvvəl ayının on ikisində (miladi 622, 4 sentyabr) Mədinə yaxınlığında yerləşən Quba məntəqəsinə çatmışdır.[35] Quba adlı məntəqədə Hz.Peyğəmbəri *(s)* bö-

[35] Seyyid Cəfər Şəhidi, İslam tarixi və təhlillər, səh-68.

yük coşqu ilə qarşılayan Mədinə qəbilələrindən hər biri onun onlarda qalmasını istəyərək onu öz evinə dəvət edirdi. Hz.Peyğəmbər *(s)* dəvətçilərin çoxluğunu görüb onların qəlblərini qırmamaq üçün dedi: "Dəvəmi sərbəst buraxın. O harada əyləşsə, orada qalacam". Dəvə Bəni Malik ibn Nəccar əhalisinin evləri qarşısında yerə əyləşdi. O ərazi iki yetim uşağa məxsus idi. Hz.Peyğəmbər *(s)* həmin ərazini Məaz ibn Ərafdan on dinara satın alıb, orada bir məscid tikdi. Hz.Peyğəmbərə *(s)* məxsus əşyaları isə Əbu Əyyub Ənsari öz evinə apardı. Çünki onun evi bura çox yaxın idi. Məscidin inşasında Hz.Peyğəmbərin *(s)* özü də iştirak edirdi. Məscid tikiləndə ona bir eyvan da əlavə etdilər ki, evsiz-eşiksiz səhabələr orada yaşasınlar. Orada yaşayan səhabələrə İslam tarixində "əshabi-suffa" (suffa-əhli) deyilir. Onlara yazıb-oxumağı Ubadət ibn Samit öyrədirdi. İnşası başa çatan məscidə "Məscidun-Nəbi" deyildi.

2. İlk cümə namazı qılındı: Mədinəyə hicrət zamanı Ranuna adlı məntəqəyə çatdıqda ilk cümə namazı qılındı.

3. Mühacir və ənsarlar arasında qardaşlıq əqdi imzalandı: Tarixi mənbələrdən alınan məlumatlar onu göstərir ki, Hz.Peyğəmbər *(s)* Mədinəyə gələrkən oranın vəziyyəti çox mürəkkəb olmuşdur. Burada yaşayan qəbilələr arasında olan vuruşmalar insanlararası münasibətləri korlamış, idarəçilik sistemi isə qəbilə üstünlüyü ilə ölçülürdü. Hz.Peyğəmbəri *(s)* böyük bir şəxsiyyət kimi qarşılayan mədinəlilər hakimiyyət cəhətdən ərəblərin icma başçılarından asılı idilər. Onların sayı da hələlik kifayət qədər deyildi. Məkkədən gələn mühacirlər isə təxminən yüz nəfərə yaxın idi. Onlara yerli camaat sığınacaq vermiş və öz evlərində qonaq etmişdilər. Bu da təbii ki, çox uzun çəkə bilməzdi. Çox böyük təmkinlə hərəkət edən Hz.Peyğəmbər *(s)*, mühacir və ənsarın qarşılıqlı münasibətinə xüsusi diqqət yetirirdi. Çünki cüzi ehtiyatsızlıq hər iki qrupun arasında toqquşmaya gətirib çıxara bilərdi. Hz.Peyğəmbərin *(s)* səbr və təmkininin nəticəsi olaraq Mədinədə mühacirlə ənsarlar arasında ilk saziş imzalandı. Beləliklə ərəblərə xas olan qəbilə və tayfa birliklərindən fərqli olaraq Hz.Peyğəmbər *(s)* yaratdığı dini icmanı dini qanunlar əsasında qurdu və özü də bu icmanın rəhbəri oldu.

4. Yəhudilərlə (Ovs və Xəzrəc yəhudiləri nəzərdə tutulur) müsəlmanlar arasında müqavilə imzalandı: Həmin nizamnamədə yəhudilərin din və mal-dövlətlərinə müəyyən şərtlər çərçivəsində toxunulmazlıq hüququ verilir. Nizamnamənin tam mətni tarix kitablarında öz əksini tapmışdır. Lakin hər bir peyğəmbərin dövründə olduğu kimi Hz.Peyğəmbərin *(s)* dövründə də verdiyi sözlərə əməl etməyən yəhudilər özlərinin layiq olduğu cəzaya çatmışdılar.

5. Hz.Peyğəmbər *(s)* Əbu Bəkr ibn Quhafənin qızı Aişə ilə evləndi.

Hicrətin ikinci ili baş verən hadisələr (miladi 624)

1. "Bəqərə" surəsinin 144-cü ayəsinin nazil olması ilə müsəlmanların qibləsi Məscidul-Əqsadan Məscidul-Hərama çevrildi. Ayədə deyilir: **"(Ya Rəsulum!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı ol-**

duğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidul-Hərama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız (namaz vaxtı) üzünüzü oraya döndərin! Kitab verilmişlər bunun onların öz Rəbbi tərəfindən bir həqiqət olduğunu yaxşı bilirlər, Allah onların əməllərindən qafil deyildir."

2. "Bəqərə" surəsinin 183-cü ayəsi ilə Ramazan orucu müsəlmanlara vacib buyuruldu. Ayədə deyilir: **"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacub buyurulduğu kimi, sizə də vacib buyuruldu ki, (onun sayəsində pis əməllərdən) çəkinəsiniz!"**

3. Fitrə vacib oldu.

4. İlk bayram namazı qılındı.

5. "Bəqərə" surəsinin 110, "Həcc" surəsinin 78, "Nur" surəsinin 56 və "Muzəmmil" surəsinin 20-ci ayəsi ilə zəkat vacib oldu. Ümumiyyətlə zəkat Qurani-Kərimdə 32 yerdə namazla birlikdə zikr edilmişdir.

6. Əbva qəzvəsi:

Bu qəzvə hicrətin ikinci ili miladi tarixilə 624-cü ildə baş vermişdir. Bəni Həmrə qəbiləsi Məhəş ibn Amirin başçılığı ilə Mədinəyə hücum etmək istəyirdi. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* Səd ibn Ubadəni Mədinədə öz yerində qoyub əshabın bir hissəsi ilə Bəni Həmrə qəbiləsinin üzərinə hərəkət etdi. Mədinə ilə Məkkə yolunun ortasında yerləşən Əbva adlı məntəqəyə çatdıqda Bəni Həmrənin rəisi Məhəş ibn Amir Hz.Peyğəmbərin *(s)* yanına gələrək sülh təklif etdi. Hz.Peyğəmbər bu təklifi qəbul etdiyi üçün iki tərəf arasında müharibə baş vermədi. Bu qəzvə Hz.Peyğəmbərin *(s)* iştirak etdiyi ilk qəzvədir. Əbva məntəqəsi Vəddan kəndinə yaxın yerləşdiyi üçün bu qəzvəyə İslam tarixində Vəddan qəzvəsidə deyilir.

7. Buvav qəzvəsi:

Buvav qəzvəsidə hicrətin ikinci ili miladi tarixilə 624-cü ildə baş vermişdir. Bu qəzvə Hz.Peyğəmbərin *(s)* iştirak etdiyi ikinci qəzvədir. Müşrik karvanını qarşılamaq üçün Hz.Peyğəmbər *(s)* Səd ibn Osman ibn Məzunu Mədinədə öz yerinə qoyub əshabdan 200 nəfərlə hərəkət etdi. Lakin Hz.Peyğəmbər *(s)* Rudəvi məhəlləsinə qədər gəlsə də heç bir karvanla rastlaşmayıb Mədinəyə qayıtdı.

8. Zil-əşirə qəzvəsi:

Uşeyrə qəzvəsidə deyilən bu qəzvə hicrətin ikinci ili miladi tarixilə 624-cü ildə baş vermişdir. Müşriklərin Əbu Süfyanın başçılığı altında Şama böyük bir karvan yola saldıqlarını öyrənən Hz.Peyğəmbər *(s)* Əbu Sələməni Mədinədə öz yerində qoyub 150-200 nəfərlik dəstə ilə yola çıxdı. Bu qəzvədə islam bayrağını Hz.Həmzə tutmuşdu. Lakin Əşirə adlı məntəqəyə çatdıqda məlum oldu ki, Əbu Süfyanın başçılığı altında olan müşrik karvanı qabaqcadan buradan keçib getmişdir. Hz.Peyğəmbər *(s)* Əşirə ətrafında yerləşən Bəni Mədləc qəbiləsilə sülh bağlayaraq Mədinəyə qayıtdı.

9. Birinci Bədr qəzvəsi:

Quruz ibn Cabir müşrikləri ətrafına toplayaraq Mədinə yaxınlığına qədər gəlib kəndlərdən birinə hücum edərək mal-qaranı yığıb apardı. Bundan xəbər

tutan Hz.Peyğəmbər *(s)* Zeyd ibn Harisi Mədinədə qoyub mühacirlərin bir hissəsilə yola çıxdı. Bu qəzvədə islam bayrağını Hz.Əli *(ə)* tutmuşdu. Müsəlmanların Səfvan adlı məntəqəyə çatdığını eşidən Quruz ibn Cabir götürdüyü qənimətləri buraxaraq qaçdı. Səfvan Bədr quyuları yaxınlığında yerləşdiyi üçün bu qəzvəyə islam tarixində birinci Bədr qəzvəsi deyilir.

10. Böyük Bədr qəzvəsi və ya II Bədr döyüşü:

Böyük Bədr döyüşü hicrətin ikinci ili ramazan ayının 17-də baş vermişdir. İki dəstə hicrətin ikinci ili ramazan ayının on yeddisində Məkkə və Mədinə arasında yerləşən Bədr quyuları kənarında üz-üzə gəldilər. Bu döyüşdə Allah öz mələkləri vasitəsilə möminlərə yardım etdi. Qurani-Kərimin "Ali-İmran"surəsinin 123-cü ayəsində belə buyurulur**: "Həqiqətən siz Bədrdə az və zəif olduğunuz halda, Allah sizə yardım etdi".** Müşriklər tərəfindən Utbə ibn Rəbiə (Müaviyənin babası),Vəlid ibn Utbə (Müaviyənin dayısı) və Şeybə ibn Rəbiə (Müaviyənin anası Hindənin əmisi) meydana çıxıb qarşı tərəfdən mübariz istədi. Hz.Peyğəmbərin *(s)* göstərişi ilə Hz.Həmzə, Hz.Əli *(ə)* və Hz.Ubeydə ibn Haris (Peyğəmbərin əmisi oğlu) meydana çıxaraq müşrik qəhrəmanları öldürdülər. Bədr döyüşü müsəlmanların qələbəsilə başa çatdı. Düşmənin yetmişdən çox döyüşçüsü qətlə yetirildi, yetmişdən çoxu isə əsir alındı. Bədr döyüşündə məhşur müşriklərdən Əbu Cəhl, Umeyyə ibn Xələf, Hənzələ ibn Əbu Süfyan (Müaviyənin qardaşı, Yezidin əmisi), As ibn Səid və Umeyr ibn Osman və s. cəhənnəmə vasil oldular. Qurani-Kərimin Ənfal surəsində də Bədr döyüşündən bəhs olunur.

11. Bəni Qaynuqa qəzvəsi:

Bəni Qaynuqa Mədinədə yaşayan yəhudi qəbiləsi idi. Hicrətin birinci ilində bağlanan müqaviləyə əsasən Bəni Qaynuqa qəbiləsi də müsəlmanlara təzyiq etməməli idilər. Lakin sülhün şərtlərinə əməl etməyən Qaynuqa yəhudiləri dükana gələn müsəlman bir xanıma təzyiq edərək onu məcbur edirlər ki, hicabını açsın. Müsəlman qadının fəryadını eşidən müsəlman bir kişi dükana gələrək yəhudini öldürür. Bunu görən yəhudilərdə həmin müsəlman kişini öldürürlər. Bu xəbər Hz.Muhəmmədə çatdıqda öz dəstəsilə Bəni Qaynuqa yəhudilərinin üzərinə hərəkət etdi. Hicrətin ikinci ilində iki tərəf arasında baş verən döyüşdə yəhudilər məğlub edilərək öz torpaqlarından çıxarıldı və onların torpaqları ənsar və mühacirlər arasında bölüşdürüldü .

12. Hz.Həmzə səriyyəsi:

Əbu Cəhlin başçılığı altında olan üç yüz nəfərlik müşrik karvanın Şamdan çıxdığını öyrənən Hz.Peyğəmbər *(s)* Hz.Həmzəni otuz nəfərlik dəstə ilə onların üzərinə göndərdi. Tərəflər Qırmızı dəniz sahilində yerləşən Eys adlı məntəqədə qarşılaşır. Heç bir qarşıdurma baş vermədən tərəflər Məcdi ibn Əmrin vasitəsilə bir-birindən ayrılır.[36]

[36] Cəfər Sübhani, Hz. Məhəmməd, səh-299

13. Ubeydə ibn Haris səriyyəsi:

Əbu Süfyanın başçılığı altında olan iki yüz nəfərlik müşrik karvanının üzərinə Hz.Peyğəmbər *(s)* Ubeydə ibn Harisi altmış nəfərlik dəstə ilə göndərir. Tərəflər Səniyyətul-Məzra adlı məntəqədə qarşılaşır. Lakin iki tərəf arasında heç bir döyüş baş vermədən bir-birindən ayrılır. Sadəcə Səd ibn Vəqqasın atdığı ox nəticəsində Qureyş karvanında olan iki müsəlman Ubeydə ibn Harisin dəstəsinə qoşulur.

14. Səd ibn Əbu Vəqqas səriyyəsi:

Hz.Peyğəmbər *(s)* Səd ibn Əbu Vəqqasın başçılığı altında olan iyirmi nəfərlik dəstəni Qureyş karvanını qarşılamaq üçün göndərdi. Lakin Xərrar adlı məntəqəyə qədər gələn bu dəstə heç bir Qureyş karvanı ilə rastlaşmadan Mədinəyə qayıdır.

15. Bətən-Nəxləyə səriyyəsi:

Hicrətin ikinci ilində Hz.Peyğəmbər *(s)* xalası oğlu Abdullah ibn Cahşı səksən nəfərlik dəstə ilə Qureyş karvanını izləmək üçün göndərir. Abdullah ibn Cahşın başçılığı altında olan dəstə Mədinədən çıxarkən Hz.Peyğəmbər *(s)* Abdullaha məktub verərək belə deyir: "Mədinədən çıxandan iki gün sonra məktubu açıb oxuyarsan və orada yazılanlara əməl edərsən. Məkkə ilə Taif arasında yerləşən Nəxlədə dayanarsan. Orada Qureyşin karvanını gözləyin və onların barəsində məlumat toplayın. Adamlarından səninlə getmək istəyənlər yoluna davam etsin, getmək istəməyənlər isə Mədinəyə qayıtsın. Heç kimi nəyəsə məcbur etmə!"

Məktubda yazılanlara əməl edən Abdullah adamları ilə birlikdə Bətən-Nəxlə məntəqəsinə gəlir. Bu vaxt Əmr Xəzrəminin başçılığı altında olan müşrik karvanı Taifdən Məkkəyə qayıdırdı.

Hz.Peyğəmbərin *(s)* göstərişindən fərqli olaraq Abdullah və adamları karvana hücum edib karvanbaşı Əmr Xəzrəmi öldürməklə bərabər iki əsir və qənimətlərlə birlikdə Mədinəyə qayıdır.[37]

Onların bu işindən narahat olan Hz.Peyğəmbər *(s)* belə buyurur: "Mən haram ayda döyüşməyi sizə əmr etməmişdim."

Müsəlmanların bu işindən xəbər tutan Məkkə müşrikləri hər yerə yayırlar ki, Muhəmməd haram ayın hörmətini pozmuşdur. Digər tərəfdən də Hz.Peyğəmbər *(s)* Abdullahın gətirdiyi qənimətləri qəbul etməyib Allahın əmrini gözləyirdi. Bu zaman Qurani-Kərimin Bəqərə surəsinin 217-ci ayəsi nazil oldu. Ayədə deyilir: **"(Ya Rəsulum!) Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) bağlamaq, onu inkar etmək, Məscidul–hərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha betərdir"! (Ey möminlər! Məkkə müşrikləri) əgər bacarsalar, sizi dininiz-**

[37] Həmin mənbə, səh-301-302

dən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər. Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"

Bu ayənin nazil olmasından sonra Hz.Peyğəmbər *(s)* qənimətləri müsəlmanlar arasında bölüşdürdü.

16. Zeyd ibn Haris səriyyəsi:

Səfvan ibn Umeyyənin başçılığı altında olan böyük müşrik karvanının Şama doğru hərəkət etdiyini öyrənən Hz.Peyğəmbər *(s)* Zeyd ibn Harisi yüz nəfərlik ordu ilə Qirədə adlı məntəqəyə göndərdi. Səfvan ibn Umeyyə müsəlman dəstəsinin gəldiyini gördükdə ətrafındakı adamlarla birlikdə karvanı buraxaraq qaçdı. Zeyd ibn Harisdə karvandakı qənimətləri götürərək Mədinəyə qayıtdı.

17. Hz.Peyğəmbərin *(s)* qızı Ruqiyyə vəfat etdi.

603-cü ildə Məkkədə anadan olan Ruqiyyə, əvvəlcə Əbu Ləhəbin oğlu Utbə ilə evlənmişdir. Lakin sonra Hz.Peyğəmbərin *(s)* peyğəmbərliyini qəbul etməyən Əbu Ləhəb Həzrətə əzab vermək üçün Ruqiyyəni oğlu Utbədən ayırmışdır. Bu ayrılıqdan sonra Ruqiyyə gələcək xəlifə Osman ibn Əfvan ilə evlənmişdir.

18. Hz.Əli *(ə)* ilə Hz.Fatimə (s.ə) zilhiccə ayının birində ailə qurmuşdur.

Bu izdivac nəticəsində Hz.Əlinin *(ə)* İmam Həsən *(ə)*, İmam Hüseyn *(ə)*, Hz.Zeynəb və Hz.Ümmü Gülsüm adlı övladları dünyaya gəlmiş, Möhsün adlı övladı isə ana bətnində altı aylıq olarkən siqt olaraq düşmüşdür.[38]

Hicrətin üçüncü ili baş verən hadisələr (miladi 625)

1. Məhəmməd ibn Məsləmə səriyyəsi:

Yəhudi bir şair olan Kəb ibn Əşrəf öz şeir və qəzəllərində Hz.Muhəmmədi *(s)* və müsəlmanları təhqir edərək onlara əzab verirdi. Hz.Peyğəmbər *(s)* bunun qarşısını almaq üçün belə buyurdu: "Kəb ibn Əşrəfi öldürənə cənnət vacib olmuşdur." Buna əsasən Məhəmməd ibn Məsləmə kiçik bir dəstə ilə Kəbin qardaşı Əbu Nailə ilə əlbir olaraq onu öldürüb, şərini müsəlmanların üzərindən götürdü.

2. Hz.Peyğəmbər *(s)* Ömər ibn Xəttabın qızı Həfsə və Huzeymənin qızı Zeynəb ilə evləndi. Lakin bu iki xanımdan Hz.Peyğəmbərin *(s)* heç bir övladı dünyaya gəlməmişdir.

3. Osman ibn Əfvan Ruqiyyənin vəfatından sonra Hz.Peyğəmbərin *(s)* digər qızı Ümmü Gülsüm ilə evləndi. Bu evliliyə görə Osmana islami mənbələrdə "Zunnu-reyn" (iki nur sahibi) deyilir.

4. Suyuq qəzvəsi:

Müşriklərin Bədr döyüşündəki məğlubiyyətindən sonra Əbu Süfyan and içmişdi ki, müsəlmanlardan intiqam almayınca hamamlanmayacaq, bədəninə yağ

[38] İbn Quteybə, Tarixul-Xuləfa (əl-İmamətu vəs-Siyasət), Darul-Əzva nəşriyyatı və mətbəətu əmir, Qum-1413 h/q, səh-211; Şeyx Abbas Qumi, Müntəhal-amal, Hz. Fatimənin həyatı fəsli

sürtməyəcək və arvadlarına yaxınlaşmayacaq. Bunları nəzərə alan Əbu Süfyan kiçik bir dəstə ilə Mədinə kəndlərindən birinə hücum edib bir-iki nəfəri öldürdükdən sonra mal-qaranı yığıb aparır. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* kiçik bir dəstə Əbu Süfyanın üzərinə hərəkət etdi. Müsəlmanların gəldiyini öyrənən Əbu Süfyan və ordusu özləri ilə götürdükləri qovrulmuş unu ataraq qaçdılar. Ərəb dilində qovrulmuş una suyuq deyildiyi üçün bu qəzvə islam tarixində Suyuq qəzvəsi adlandı.

5. Uhud döyüşü:

Bədr döyüşünün intiqamını almaq üçün Məkkə müşrikləri Əbu Süfyanın başçılığı altında olan 3000 min nəfərlik ordu ilə Mədinəyə doğru hərəkət etdi. Müşriklərin ordusunda olan qadın dəstəsinə Əbu Süfyanın arvadı Hində başçılıq edirdi. Hindin atası Utbə, əmisi Şeybə, qardaşı Vəlid, oğlu Hənzələ Bədr döyüşündə öldürüldüyü üçün and içmişdi ki, Uhud döyüşündə Hz.Peyğəmbər *(s)*, Hz.Həmzə və Hz.Əlidən *(ə)* intiqam alsın. Buna görə Həbəşli qul olan Vəhşiyə göstəriş verir ki, əgər bu üç nəfərdən biri öldürülsə onu sərbəst buraxacaq.

Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* səhabələrlə məşvərət etdi. Bəziləri Mədinədə qalıb müdafiə olunmağı üstün tutsa da, əksəriyyət şəhərdən kənarda döyüşməyə üstünlük verdi. Buna görə iki ordu Uhud dağı kənarında qarşılaşdı. Hz.Peyğəmbər *(s)* düşmən ordusu arxadan hücum etməsin deyə Uhud dağında yerləşən Eyneyn keçidinə Abdullah ibn Cübeyrin başçılığı ilə 50 oxçu yerləşdirərək onlara göstəriş verdi ki, onun əmri olmadan kimsə yerini tərk etməsin.

Döyüş başladıqdan sonra həmin keçidin əhəmiyyətli bir yer olduğu məlum olur. Müsəlmanların qazanılmış qələbəni əldən verməsinin də səbəbi oxatanların həmin mövqeyi tərk etməsi olmuşdur.

Üç hissəyə ayrılmış düşmən ordusunun bayrağını Əbduddar oğulları tuturdu. Qureyş bayraqdarlarının hamısı Hz.Əli *(ə)* tərəfindən öldürüldükdən sonra düşmən ordusu qaçmağa başladı. Qaçan düşməni qovmaq əvəzinə müsəlmanların əksəriyyəti qənimət toplamağa başladılar. Bu mənzərəni müşahidə edən keçiddəki oxçular da başçıları Abdullah ibn Cübeyri dinləməyib qənimət toplamaq üçün dağdan aşağı endilər. Bu məqamı gözləyən Xalid ibn Vəlid ətrafında olan 200 nəfərlik dəstə ilə hücuma keçib keçiddə qalan on nəfər oxçunu şəhid edərək islam ordusunu arxadan vurmağa başladı. Nəticədə qaçan düşmən ordusu da qayıdıb döyüşməyə başladı. Güclü hücuma məruz qalan islam ordusu məğlub şəkildə döyüş meydanını tərk edərək Uhud dağına sığındı.

Qureyş qadınları zahiri qələbə ilə kifayətlənməyib müsəlman şəhidlərinin burun, qulaq və s. əzalarını kəsməyə başlayırlar. Əbu Süfyanın arvadı Hind müsəlmanların bədən üzvlərindən özü üçün boyunbağı düzəldir. Hz.Peyğəmbərin *(s)* əmisi Hz.Həmzənin ciyərini çıxarıb yeməyə çalışsa da bacarmır. Hindin bu hərəkəti onun müsəlmanlar arasında ciyəryeyən qadın kimi tanınmasına səbəb olur. Hətta onun övladlarına da ciyəryeyənin oğlu deyilirdi.

Döyüşdən sonra bu mənzərəni görən Hz.Peyğəmbər *(s)* əhd edir ki, bir də müşriklərə qalib gəlsə eyni aqibəti onların başına gətirəcək. Bu zaman aşağıda-

kı ayə nazil oldu: **"(Ey möminlər! İntiqam almaq məqsədilə birinə) cəza verəcək olsanız, sizə nə cəza verilibsə, eyni cəzanı verin. Əgər (onlardan intiqam almayıb) səbr etsəniz, bu səbr edənlər üçün daha xeyirlidir."**[39]

Bu ayənin nazil olmasından sonra Hz.Peyğəmbər *(s)* verdiyi andı geri götürdü. Hətta Məkkənin fəthində Hz.Həmzənin qatili Vəhşini də öldürmədi. Eyni zamanda bu ayə İslam dininin intiqam dini olmadığını sübut edir. Hətta insanın bütün vücudunu qəzəb bürüdüyü zaman da ədalət unudulmamalıdır.

Uhud şəhidlərinin dəfnindən sonra Hz.Peyğımbər *(s)* və müsəlmanlar Mədinəyə qayıtdı.

6. Həmraul-Əsəd qəzvəsi:

Uhud döyüşündəki məğlubiyyətdən sonra müsəlmanlar Mədinəyə qayıtdı. Bu vaxt bəzi mənbələrə görə Allah tərəfindən, bəzilərinə görə isə Mədinəyə gələn bir şəxs tərəfindən Hz.Peyğəmbərə *(s)* bildirilir ki, Əbu Süfyanın başçılığı altında olan 3000 nəfərlik müşrik ordusu yenidən Mədinəyə hücum etmək üçün geri qayıdır. Hz.Peyğəmbər bu hücumun qarşısını almaq üçün yalnız Uhudda iştirak edən mücahidlərlə Mədinədən çıxaraq Həmraul-Əsəd adlı məntəqəyə getdi.

Uhudda iştirak etməyənlərə orduya qoşulmaq icazə verilməməsinin səbəbi bunlar idi:

1) Bu, Uhudda iştirak etməyənlərə bir növ etiraz idi. Hz.Peyğəmbər *(s)* bununla onlara başa salır ki, onların cihadda iştirak etmək ləyaqəti yoxdur.

2) Uhudda iştirak edənləri tənbeh etmək. Çünki məhz onların səhvi ucbatından müsəlmanlar məğlub olmuşlar. İndi də bunun əvəzini özləri çıxmalı idilər ki, birdə belə səhvə yol verməsinlər.

Hz.Peyğəmbərin *(s)* göstərişinə əsasən Möbəd Xuzai Rəvha adlı məntəqəyə gedərək Əbu Süfyanla görüşür. Onun yenidən Mədinəyə qayıtmaq istədiyini öyrəndikdə Möbəd onu fikrindən döndərmək üçün deyir: "Müsəlmanlar hal-hazırda böyük bir ordu ilə Həmraul-Əsəddə dayanıb. Uhud döyüşündə iştirak etməyənlər də bu gün Muhəmmədin ətrafındadır". Bunu öyrənən Əbu Süfyan yenidən Mədinəyə hücum etmək fikrindən daşınır.

Bütün gecəni Həmraul-Əsəddə keçirən müsəlmanlar Hz.Peyğəmbərin *(s)* göstərişi ilə müxtəlif yerlərdə tonqal qalayırlar ki, düşmən onların sayının qat-qat artıq olduğunu zənn etsin.

Bu mənzərəni müşahidə edən Səffan ibn Umeyyə Əbu Süfyana deyir: "Müsəlmanlar çox qəzəblidirlər. Nə qədər ki, əldə etdiyimiz qələbəni əldən verməmişik, Məkkəyə qayıdaq".

7. Qərqərətəlkədr qəzvəsi:

Bu məntəqə Mədinənin üç mənzilliyində yerləşən bir çeşmənin adıdır. Bəni-Süleym və Bəni-Qətvan qəbilələri bu məntəqədə toplaşıb Mədinəyə hücum etmək istəyirdilər. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* Abdullah ibn Məktumu Mədinədə öz yerində qoyub 200 nəfərlik ordu ilə həmin məntəqəyə yola

[39] "Nəhl" surəsi, ayə-126

düşdü. Müsəlmanların gəldiyini öyrənən Bəni-Süleym və Bəni-Qətvan qəbilələri dağılışdılar.

8. Ənmar qəzvəsi:

Bu qəzvəyə İslam tarixində Zil-əmr qəzvəsi də deyilir. Ənmar Nəcd əyalətindən olan bir yerin adıdır. Dəsur ibn Haris adlı bir müşrik Bəni Sələbə, Bəni Müharib və Bəni Qətvan qəbilələrini ətrafına toplayıb Mədinəyə hücum etmək istəyirdi. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* dörd yüz nəfərlik dəstə ilə həmin məntəqəyə getdi. Bunu öyrənən Dəsur ibn Hasir adamları ilə birlikdə dağlara qaçaraq gizləndi.

9. Bəhran qəzvəsi:

Bəhran For məntəqəsində yerləşən bir məntəqənin adıdır. For da Rəbəzədə olan bir kəndin adıdır. Bəni Süleym əhalisinin Bəhranda toplanıb Mədinəyə hücum etmək istəmələri Hz.Peyğəmbərə *(s)* çatdırıldı. Bu hücumun qarşısını almaq üçün Hz.Peyğəmbər *(s)* üç yüz nəfərlik dəstə ilə həmin məntəqəyə getdi. Bunu eşidən Bəni Süleym əhalisi dağılışdı.

10. 625-ci il ramazan ayının 15-də İmam Həsən *(ə)* anadan oldu.

Hicrətin dördüncü ili baş verən hadisələr (miladi 626)

1. Bəni Əsəd səriyyəsi:

Bəni-Əsəd qəbiləsinin Xuveylid oğullarından olan Təlhə və Səlmənin başçılığı altında Mədinəyə hücum edəcəyini öyrənən Hz.Peyğəmbər *(s)* Əbu Sələməni 150 nəfərlik dəstə ilə göndərərək onları məğlub etdi.[40]

2. Rəci faciəsi:

Əzəl və Qarə tayfalarının başçısı Süfyan ibn Xalid müsəlmanlara qarşı belə bir plan hazırladı. O Mədinəyə heyət göndərərək Hz.Peyğəmbərə *(s)* bildirdi: "Bizim qəbilələr İslamı yenicə qəbul etdiyi üçün onun hökmlərini yaxşı bilmir. Sən səhabələrindən on nəfərini bizim qəbiləyə göndər ki, bizə islamı öyrətsin."[41] Buna əsasən Hz.Peyğəmbər *(s)* on nəfərlik səhabəni Asim ibn Sabitin başçılığı ilə həmin məntəqəyə göndərdi. Lakin səhabələr Rəci adlı məntəqəyə çatdıqda müşriklər onların hamısını şəhid etdilər.

3. Biri-Maunə faciəsi:

Nəcd qəbiləsindən olan Amir ibn Malik Hz.Peyğəmbərin *(s)* yanına gələrək belə dedi: "Ya Peyğəmbər! Bizim qəbiləmiz İslamı qəbul etsə də onun hökmlərini dərindən bilmir. İslamı onlara öyrətmək üçün səhabələrindən bəzilərini bizim qəbiləyə göndər." Hz.Peyğəmbər *(s)* Nəcd qəbiləsindən arxayın olmadığını bildirdikdə Amir ibn Malik dedi: "Mən sənin səhabələrinə zamin dururam. Onlar geri qayıdana qədər mən sənin yanında Mədinədə qalacağam". Bu sözlərdən sonra Hz.Peyğəmbər *(s)* qırx bəzi mənbələrə görə isə yetmiş sə-

[40] Məğazeyi Vaqidi, 1-ci cid, səh-340-346.
[41] Təbəqati ibn Səd, 2-ci cild, səh-354.

habəni Nəcd qəbiləsinə göndərdi. Biri-Maunə adlı məntəqəyə çatdıqda Amir ibn Malikin qardaşı oğlu Amir ibn Tufeyl öz dəstəsilə səhabələrə hücum edərək onları şəhid etdi. Səhabələrdən yalnız iki nəfər Kəb ibn Zeyd və Əmr ibn Ümeyyə sağ qalmışdır.[42]

4. Üçüncü Bədr qəzvəsi:

Uhud döyüşündəki qələbəsilə öyünən Əbu Süfyan üzünü Hz.Peyğəmbərə *(s)* tutaraq belə dedi: "Gələn il biz yenə də sizi Bədr quyuları kənarında gözləyəcəyik."

Növbəti il Qureyş bir çox problemlərlə üzləşmişd. Həm müsəlmanlarla, həm də Məkkə müşrikləri ilə yaxınlığı olan Nuaym ibn Məsuddan Əbu Süfyan xahiş edir ki, Mədinəyə gedib Hz.Peyğəmbəri *(s)* Bədr quyularına tərəf gəlməkdən çəkindirsin.

Nuaym ibn Məsud Mədinəyə gəlib Hz.Peyğəmbərlə *(s)* görüşərək Məkkə rəisi Əbu Süfyanın sözlərini ona çatdırır. Lakin onun sözlərinə əhəmiyyət verməyən Hz.Peyğəmbər *(s)* 1500 nəfərlik ordu ilə zilqədə ayının əvvəli Bədr məntəqəsinə gəlir.

Müsəlmanların Bədrə gəlməsi xəbəri Məkkəyə çatdıqda Qureyş başçıları öz hörmətlərini qorumaq üçün Məkkədən çıxmaqdan başqa çıxış yolu görmürlər. Onlar şəhərdən Bədr adı ilə çıxsalar da, Mərruz–zəhran adlı məntəqəyə çatdıqda Əbu Süfyan qəhətliyi bəhanə gətirərək yenidən ordu ilə birlikdə Məkkəyə qayıdır. Bu zaman Səffan ibn Umeyyə Əbu Süfyana etiraz edərək deyir: "Bu geriləmə ilə bütün hörmətimizi itirdik. Sən keçən il döyüş vədəsi verməsəydin, indi belə rüsvayçılıqla qarşılaşmazdıq. [43]

5. Bəni Nəzir qəzvəsi:

Mədinədə yaşayan Bəni Nəzir yəhudilərinin sayı 1000 nəfərdən ibarət idi. Biri – Maunə faciəsindən sağ çıxan Əmr ibn Umeyyə Mədinəyə qayıdarkən yolda Bəni-Amir qəbiləsindən olan iki nəfəri Hz.Peyğəmbərin *(s)* amanında olduğunu bilmədən onları öldürür. Bu hadisədən kədərlənən Hz.Peyğəmbər *(s)* belə qərara gəlir ki, öldürülən hər iki nəfərin qan bahası ödənilsin.

Bəni-Amir qəbiləsi həm Hz.Peyğəmbərlə *(s)*, həm də Bəni-Nəzr yəhudiləri ilə müqavilə bağlamışdı. Buna əsasən Hz.Peyğəmbər *(s)* ölən iki nəfərin qan bahasını Bəni-Nəzir yəhudilərindən almaq üçün onların qalasına doğru gedir. Yəhudilər Hz.Peyğəmbərin *(s)* istəyini üzdə qəbul edərək onun qalaya daxil olmasını istəyirlər. Lakin qalaya daxil olmayan Hz.Peyğəmbər *(s)* divarın kölgəsində oturub gözləməyə üstünlük verir. Bəni-Nəzir yəhudilərinin Həzrəti *(s)* qalaya çağırmaqda məqsədləri onu öldürməkdən ibarət idi. Vaqidinin fikrincə bu zaman Hz.Cəbrail *(ə)* nazil olub onların çirkin planını Hz.Peyğəmbərə *(s)* çatdırdı. Bundan xəbərdar olan Hz.Peyğəmbər *(s)* dərhal Mədinəyə qayıdaraq Məhəmməd ibn Məsləməni Bəni-Nəzir yəhudilərinin yanına göndərdi. Yəhudi-

[42] Məğazeyi Vaqidi, 1-ci cild, səh-364-369.
[43]Məğazeyi Vaqidi, 1- ci cild,səh 390.

lərin yanına gələn Məhəmməd ibn Məsləmə onlara Hz.Peyğəmbərin *(s)* tapşırığını çatdırır: "On gün ərzində buraları tərk edin. Çünki öz əhdinizi pozub hiylə işlətmisiniz. On gün ərzində buradan çıxıb getməsəniz, qanınız axıdılacaq."

Bu xəbərdarlıqdan narahat olan yəhudilər Məhəmməd ibn Məsləməyə dedilər: "Ey Məhəmməd, sən Ovs qəbiləsindənsən, İslam peyğəmbəri Mədinəyə gəlməzdən qabaq bizim sizinlə müdafiə sazişimiz var idi. İndi nəyə görə bizimlə döyüşmək istəyirsən!" Onların fikrini bəyənməyən Məhəmməd cavab verir ki, o günlər keçdi, indi qəlblər tamam dəyişib.

Müsəlmanların yəhudilərlə müharibə edəcəyini eşidən Abdullah ibn Ubeylə Malik ibn Ubeyy yəhudilərə bildirirlər ki, heç yerə getməsinlər. Biz iki min nəfərlik ordu ilə yanaşı, dindaşlarımız olan Bəni-Qureyzə və Qətəvan yəhudi qəbilələri ilə sizə köməyə gələcəyik.

Bu yalan vədlərə aldanan Bəni-Nəzir yəhudiləri qala qapılarını bağlayaraq müsəlmanlara qarşı müharibə elan etdilər. Lakin Bəni-Nəzir başçılarından olan Səllam ibn Mişkəm Abdullah ibn Ubeyyin verdiyi vədin yalan olduğunu bildirib deyir ki, gəlin buralardan köçək. Amma bundan fərqli olaraq Həyy ibn Əxtab camaatı müqavimətə səslədi.

Abdullah ibn Ubeyyin yəhudilərə kömək edəcəyindən xəbər tutan Hz.Peyğəmbər *(s)* hərəkətə keçib ordunu Bəni-Nəzirlə Bəni-Qureyzə arasındakı ərazidə yerləşdirərək iki qəbilə arasındakı əlaqəni kəsdi.

On beş gün davam edən mühasirənin sonunda yəhudilər təslim olub daşınan əmlakı aparmaq şərtilə köçməyə razılıq verirlər. Hz.Peyğəmbər *(s)* də silahdan başqa istədiklərini aparmağa onlara icazə verir. Bütün əşyalarını yığan Bəni-Nəzir yəhudilərinin bəzisi Xeybərə, bəzisi də Şama köçdü. Onlardan yalnız ikisi İslam dinini qəbul etdi.

Hz.Peyğəmbər *(s)* ənsarın razılığı ilə əldə edilən qənimətləri mühacirlər arasında bölüşdürdü. Ənsardan yalnız həddən artıq kasıb olan Səhl ibn Huneyflə Əbu Dəccanəyə pay düşdü. Otlaq, əkin yerləri və yəhudilərin su quyuları və çaylarını Hz.Əliyə *(ə)* bağışladı.

Əksər tarixçilər bu döyüşdə qan axıdılmamasını qeyd etsə də, Şeyx Mufid on yəhudinin öldüyünü qeyd edir.

6. Hz.Peyğəmbərin *(s)* xanımı Zeynəb binti Hüzeymə vəfat etdi.

7. Hz.Peyğəmbər *(s)* Ümmü Sələmə ilə evləndi.

8. Əmirəlmöminin Hz.Əlinin *(ə)* anası Fatimə binti Əsəd vəfat etdi.

9. "Bəqərə" surəsinin 219, "Nisa" surəsinin 43 və "Maidə" surəsinin 90-91-ci ayələri ilə içki haram buyuruldu.

10. 626-cı il şəban ayının üçündə Hz.İmam Hüseyn *(ə)* anadan oldu.

Hicrətin beşinci ili baş verən hadisələr (miladi 627)

1. Bəni Müstəliq qəzvəsi:

Bəni Müstəliq Qureyşin qonşuluğunda yerləşən Xuzaə qəbiləsinin bir qolu idi. Bu qəzvəyə İslam tarixində Mureysə qəzvəsi də deyilir. Qəbilənin başçısı

Haris ibn Əbu Zirar Mədinəyə hücum edərək islamiyyəti yox etmək üçün ətrafına böyük bir ordu toplayır. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* bu xəbərin doğru olduğunu yoxlamaq üçün Bureydəni Bəni Müstəliq qəbiləsinə göndərir. Bəni Müstəliq qəbiləsinə gələn Bureydə özünü elə göstərir ki, guya o da Hz.Peyğəmbərdən *(s)* qaçan şəxslərdən biridir. Bunu görən Haris ibn Əbu Zirar onu öz tərəfinə çəkmək üçün dedi: "Əgər sən də Məhəmmədi öldürərək islamiyyəti yox etmək istəyirsənsə adamlarınla birlikdə bizə qoşul." Bunu eşidən Bureydə Mədinəyə gələrək həqiqəti Hz.Peyğəmbərə *(s)* çatdırdı. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* öz dəstəsilə Bəni Müstəliq qəbiləsinə gedərək onları məğlub edib xeyli əsir ələ keçirdi. Əsirlər içərisində olan Haris ibn Əbu Ziranın qızı Cuveyriyyəni əsirlikdən azad edən Hz.Peyğəmbər *(s)* onunla evləndi. Bu evlilikdən sonra bütün Bəni Müstəliq qəbiləsi qohumluq əlaqəsini nəzərə alaraq islamı qəbul etdi. Eyni zamanda müsəlmanlar da Bəni Müstəliq qəbiləsini Hz.Peyğəmbərin *(s)* qohumu olduğu üçün əsirlikdən azad etdilər.

Bu qəzvədən qayıdarkən ilk dəfə olaraq ənsarla mühacirlər arasında mübahisə yarandı. Bu mübahisənin yaranmasına səbəb mühacirlərdən olan Cəhcah ibn Məsudla ənsardan olan Sinan ibn Cuhani arasında su üstündə yaranan anlaşılmazlıq olur. Qalmaqalı daha çox şişirtmək istəyən münafiqlərin başçısı Abdullah ibn Ubeyy belə dedi: "Əgər biz Mədinəyə qayıtsaq, ən əziz olanlar, ən zəlilləri oradan çıxaracaqlar."

O bununla demək istəyirdi ki, mən əzizəm, Hz.Peyğəmbər *(s)* isə zəlildir. Zeyd ibn Ərqəm onun sözlərini eşidib Hz.Peyğəmbərə *(s)* çatdırdı. Eyni zamanda Abdullahda Hz.Peyğəmbərin *(s)* yanına gəlib and içdi ki, mən bu sözü deməmişəm, Zeyd yalan deyir. Bu zaman "Münafiqun" surəsinin nazil olmasından sonra Zeydin doğruçu, Abdullahın isə yalançı və münafiq olması aşkar oldu.

Bəni Müstəliq qəzvəsində Hz.Peyğəmbər *(s)* xanımlarından Ümmü Sələmə ilə Aişəni özü ilə götürmüşdü. Bu qəzvədən qayıdarkən Aişə karvandan geri qalmış və bunu bəziləri belə başa düşmüşlər ki, guya xanım Aişə karvandan geri qalaraq Allah Rəsuluna *(s)* xəyanət etmişdir. Lakin Allah qatından nazil olan "Nur" surəsinin 10-16-cı ayələri Aişənin Hz.Peyğəmbərə *(s)* xəyanət etmədiyini üzə çıxartmışdır. Bu hadisə İslam tarixində "İfq" yəni böhtan hadisəsi adlanır.

2. Hz.Peyğəmbər *(s)* Zeyd ibn Harisin arvadı Zeynəb binti Cahşla evləndi. Bu evlilikdən də Hz.Peyğəmbərin *(s)* heç bir övladı dünyaya gəlməmişdir.

3. "Maidə" surəsinin 6 və "Nisa" surəsinin 43-cü ayəsi ilə təyəmmüm vacib olmuşdu.

4. "Nur" surəsinin 30-31 və "Əhzab" surəsinin 59-cu ayəsi ilə hicab vacib oldu.

5. Hz.Əlinin *(ə)* qızı Hz.Zeynəb cəmadiəl-əvvəl ayının 5-də Mədinədə anadan oldu.

6. "Nisa" surəsinin 102-ayəsi ilə "xof" namazı vacib oldu.

7. Xəndək qəzvəsi:

Hicrətin beşinci ilində baş verən Xəndək qəzvəsinə Əhzab qəzvəsi də deyilir. Çünki bu qəzvədə bütün ərəb qəbilələri Qureyş müşriklərinə kömək etmişdir. Hicrətin dördüncü ilində baş verən Bəni Nəzir qəzvəsində məğlub olan yəhudilər Xeybər qalasında toplanaraq müsəlmanlardan intiqam almaq istəyirdilər. Bu məqsədlə Bəni-Nəzir qəbiləsinin başçıları Huyeyy ibn Əxtab, Səllam ibn Əbulhuqeyq, Kənan ibn Rəbiə, Hövzə ibn Qeys və Əbu Amir Məkkəyə gedərək Əbu Süfyanla görüşüb belə dedilər: "Biz bilirik ki, Siz də bizim kimi islamiyyəti yox etmək istəyirsiniz. Bizim istəyimiz budur ki, sizdə bizimlə əlbir olub böyük bir ordu toplayaraq Mədinəyə hücum edək." Əbu Süfyan onların sadiqliyini yoxlamaq üçün belə dedi: "Siz kitab əhlisiniz, səmavi kitabınız var, haqla batil şəriətləri bir-birindən ayırd edə bilirsiniz. Bilirsiniz ki, bizim Muhəmmədlə düşmənçiliyimizin yeganə səbəbi gətirdiyi dinin bizim adətlərimizlə uyğun gəlməməsidir. Sizcə bizim ibadət etdiyimiz 360 büt üstündür yoxsa Muhəmmədin ibadət etdiyi bir Allah." Bu zaman yəhudilər utanmadan belə cavab verdilər: "Bütpərəstlik Muhəmmədin dinindən daha üstündür. Siz öz dininizdə qalın və onun dininə qətiyyən meyl göstərməyin."[44]

Yəhudilərin bu əməlinə görə Uca Allah "Nisa" surəsinin 51-52-ci ayələrini nazil edərək onların lənətlənmiş qövm olduqlarını bildirdi. Ayədə deyilir: **"(Ya Rəsulum!) Kitabdan (Tövratdan və ya yazıb oxumaqdan) bir pay (az bir şey) verilənləri (yəhudiləri) görmürsənmi! Onlar Cibt və Tağuta (bu adda iki bütə, Cibt adlı bütə və Tağut deyilən Şeytana) inanır və kafirlər üçün də: "Bunlar möminlərdən daha doğru yoldadırlar",- deyirlər. Onlar Allahın lənət etdiyi kimsələrdir. Allahın lənət etdiyi kimsəyə isə heç bir kömək edən tapa bilməzsən".**

Yəhudilərin bu sözündən sonra Əbu Süfyan və Qureyş başçıları onlarla əhd-peyman bağladılar ki, nə qədər sağdılar, Peyğəmbərlə müharibədən çəkinməsinlər və öz sinələrini Kəbənin divarına yapışdırıb and içdilər .

Məkkədən xoş xəbərlə qayıdan yəhudilər Nəcdə doğru gələrək İslamla qatı düşmən olan Qətavan qəbiləsini də döyüşə təhrik etdilər. Qətəvan qəbiləsindən Bəni-Fəzarə, Bəni-Mürrə və Bəni-Əşcə tayfaları qələbədən sonra Xeybərin bir illik məhsulunun onlara çatacağı şərtilə yəhudilərə müsbət cavab verdilər. Digər tərəfdən Qureyş də öz müttəfiqləri Bəni-Səlimlə, Qətəvan da müttəfiqi Bəni-Əsədi bu döyüşdə iştirak etməyə razı salır. On min nəfərlik ordu toplandıqdan sonra müttəfiqlər Mədinəyə doğru hərəkət edir.[45]

Müşriklərin böyük bir ordu ilə Mədinəyə doğru hərəkət etdiyini öyrənən Hz.Peyğəmbər *(s)* səhabələri ilə məşvərət etdi. Bu zaman İran əsilli Salman Farisi ayağa qalxaraq belə dedi: "İranda hansısa düşmən hücuma keçdikdə şəhərin ətrafında xəndək qazılır və bununla da düşmənin hücumunun qarşısı alınır.

---

[44]"Tarixi-Təbəri" 2-ci cild, səh-233

[45]Məğazeyi Vaqidi 2-ci cild, səh-443

İndi biz də Mədinənin ətrafında böyük bir xəndək qazmaqla düşmənin qarşısını ala bilərik. Düşmən xəndəyi keçə bilməsin deyə, ətrafında nəzarətçilər qoyar, özümüz də şəhər divarının müdafiə-müşahidə dəliklərindən düşmənə ox, daş atmaqla xəndəyi keçməkdə onlara mane ola bilərik."[46]

Salmanın verdiyi fikri bəyənən Hz.Peyğəmbər *(s)* və səhabələr belə qərara gəldilər ki, Uhuddan Raticə qədər olan ərazidə xəndək qazılsın.

Xəndək qazılma işi bir ay ərzində tamamlandı və orada səkkiz keçid qoyuldu. Hz.Peyğəmbərin *(s)* göstərişinə əsasən hər keçiddə bir nəfər mühacirli və bir nəfər ənsarlı bir neçə əsgərlə dayandı.

Mədinəyə çatmış müşrik ordusu xəndəyin ətrafında dayanmalı olur. Xəndək döyüşü baş verən zaman Mədinədə qış fəsli olsa da quraqlıq hökm sürürdü. Müşrik ordusunun ərzaq tədarükü az olduğu üçün onlar uzun müddət Mədinə kənarında qala bilməzdilər. Buna görə də belə qərara gəlirlər ki, Bəni Qureyzə yəhudilərindən kömək istəsinlər.

Bu məqsədlə Əbu Süfyan Huyeyy ibn Əxtabı çağırıb dedi: "Əgər Bəni Qureyzə qəbiləsini Muhəmməddən döndərə bilsən, çox yaxşı olar." Buna əsasən Huyeyy ibn Əxtab Bəni Qureyzə qəbiləsinin başçısı Kəb ibn Əsədin yanına gəlib söhbətə başladı. Uzun sürən müzakirədən sonra Huyeyy Kəbi müqaviləni pozmağa razı salır.[47]

Bundan narahat olan Hz.Peyğəmbər *(s)* dərhal Səd ibn Məazla Səd ibn Ubadəni Bəni Qureyzə qəbiləsinə göndərir ki, dəqiq məlumat öyrənsinlər. Onlar Bəni Qureyzə qəbiləsinə gəlib qəbilənin başçısı Kəb ibn Əsədlə danışmaq istədikdə o, Hz.Peyğəmbəri *(s)* və nümayəndələri söyməyə başlayır.

Nümayəndələr Hz.Peyğəmbərin *(s)* yanına qayıdıb əhvalatı olduğu kimi ona çatdırırlar. Bu zaman Hz.Peyğəmbər *(s)* uca səslə "Allahu əkbər, ey müsəlmanlar, qələbə yaxındadır" deyə buyurdu.

Bir gün Əmr ibn Əbdəvid, Nofəl ibn Abdullah, Zirar ibn Xəttab, Hubeyrə ibn Vəhəb və İkrimə ibn Əbu Cəhl kimi müşrik qəhrəmanları xəndəyi keçərək özləri ilə döyüşmək üçün mübariz istədilər.

"Farisi Yəlyəl" (Yəlyəl atlısı) ləqəbli Əmr ibn Əbdəvid bir qədər də irəli gələrək dedi: "Döyüşmək istəyən varmı!" Müsəlmanların onunla döyüşməkdən qorxduğunu görən Əmr daha da cürətlənərək belə dedi: "Siz müsəlmanlar deyirsiniz ki, bizim ölülər cəhənnəmə, sizinkilər isə cənnətə gedir. Məni cəhənnəmə göndərmək istəyən yoxdurmu! Və yaxud kimsə istəmirmi onu cənnətə göndərim !"

Əmrin səsini eşidən Hz.Peyğəmbər *(s)* buyurdu: "Kim istəyir bu düşmənin şərini bizim üstümüzdən dəf etsin!" Lakin Hz.Əlidən *(ə)* başqa kimsə cavab vermədi. Hz.Peyğəmbər *(s)* özünün Zatul-füzul adlı zirehini Əliyə *(ə)* geyindirdi və özünün Səhab adlı əmmaməsini onun başına bağlayaraq onu meydana göndərdi.

---

[46]Tarixi–Təbəri, 2-ci cild, səh-234

[47]Biharul-ənvar 20-ci cild, səh-223.

Hz.Əli *(ə)* getdikdən sonra Hz.Peyğəmbər *(s)* onun haqqında belə dua etdi: "İlahi, Əlini pisliklərdən qoru! Allahım Bədrdə Ubeydə ibn Harisi, Uhudda da Həmzəni məndən almışdın. İlahi, özün Əlini düşmən şərrindən qoru!" Sonra "Ənbiya" surəsinin 89-cu ayəsini oxudu: **"Ey Rəbbim! Məni tək buraxma!"**[48]

Hz.Əliylə *(ə)* Əmr üz-üzə gəldikdə Hz.Peyğəmbər *(s)* söylədi: "İndi imanla küfr üz-üzə gəldi". Hz.Əli *(ə)* Əmri üç işdən birinə dəvət etdi; Ya İslamı qəbul etsin, ya müharibədən əl çəksin, ya da atdan düşüb piyada döyüşsün. Əmr üçüncü şərti qəbul edərək Hz.Əliyə *(ə)* hücum etdi. Qısa döyüşdən sonra Hz.Əlinin *(ə)* təkbir səsi ucaldı. Müsəlmanlar Həzrətin *(ə)* təkbirindən başa düşdülər ki, Əmr artıq öldürülmüşdür.

Hz.Əli *(ə)* Peyğəmbərin *(s)* yanına qayıtdıqda onun vurduğu zərbə haqqında Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Əlinin Xəndək günündəki vurduğu zərbə bütün insanlar və cinlərin Qiyamət gününə qədərki ibadətindən üstündür." Həqiqətən də düşmənin ən böyük qəhrəmanının öldürülməsi ilə bütün müsəlmanlar izzətə çatır, kafirlər isə xar olur.[49] Müşrik ordusunda vuruşan əsgərlərin hər birinin məqsədi var idi. Yəhudilər İslamın artan inkişafından narahat olduqları üçün vuruşurdu. Qureyş müşrikləri İslam və müsəlmanlarla köhnə ədavətlərinə görə vuruşurdu. Qətəvan, Fəzarə və digər qəbilələr isə Xeybər məhsulunun tamahı ucubatından döyüşə gəlmişdi.

Maddi məqsədə görə vuruşanları ordudan ayırmaq üçün Hz.Peyğəmbər *(s)* onların başçılarının yanına nümayəndələr göndərərək bildirir ki, qoşundan ayrılsalar müsəlmanlar Mədinə məhsulunun üçdə birini sizə verməyə hazırdırlar. Baş verən bu kimi hadisələr Əhzab ordusunun dağılmasına səbəb olmuşdur.

Beləliklə, hicrətin beşinci ili zilqədə ayının iyirmi dördündə baş verən Xəndək döyüşü müsəlmanların qələbəsilə başa çatmışdır.

8. Bəni Qureyzə qəzvəsi:

Hicrətin birinci ilində Mədinəyə gələn Hz.Peyğəmbər *(s)* daxili asayişi qorumaq üçün bütün qəbilələrlə müqavilə imzalayır. Bundan əlavə Hz.Peyğəmbər *(s)* Mədinədəki üç yəhudi qəbiləsilə də xüsusi bir müqavilə imzalayır. Müqaviləyə əsasən yəhudi qəbiləsindən hər biri Peyğəmbərə və ya müsəlmanlara zərər yetirərsə, yaxud müsəlmanların düşməninə silah-sursatla, minik vasitəsilə kömək edərsə, onda Hz.Peyğəmbərin *(s)* onların barəsində ölüm hökmü çıxarmağa, əmlakını müsadirə və arvad-uşaqlarını əsir etməyə haqqı olduğu bildirilirdi. Zaman keçdikcə hər üç qəbilə müqaviləni müxtəlif formalarda pozduqları üçün Hz.Peyğəmbər *(s)* hər üç qəbiləni Mədinədən uzaqlaşdırır. Bəni Qureyzə də müşrik və yəhudi ordusu ilə əlbir olub İslama zərbə vurmaq istəyirdi. Bu səbəbdən Hz.Peyğəmbər *(s)* onları da cəzalandırmaq qərarına gəlir.

Hz.Peyğəmbər *(s)* bu xəyanətin əvəzini çıxmaq üçün Xəndək müharibəsindən sonra Bəni Qureyzə qəbiləsinin üzərinə hərəkət etdi. Bu qəzvədə İslam

---

[48]Kənzul-fəvaid, səh-137.

[49]Müstədrəki-Hakim, 30-cu cild, səh-32.

bayrağını Hz.Əli *(ə)* tutmuşdu. Müsəlmanların qalaya yaxınlaşdığını görən yəhudilər qala qapılarını bağlayaraq mübarizəyə başladılar.

Lakin uzun sürən mühasirənin sonunda yəhudilər Hz.Peyğəmbərlə *(s)* danışıqlar aparmağa razı oldular. Bu məqsədlə Şas ibn Qeys Hz.Peyğəmbərin *(s)* yanına gəlib xahiş edir ki, Bəni Qureyzəyə də digər yəhudilər kimi daşınan əmlakını götürüb Mədinəni tərk etməyə icazə versin. Lakin bunu qəbul etməyən Hz.Peyğəmbər *(s)* cavab verir ki, Bəni Qureyzə qeydsiz-şərtsiz təslim olmalıdır.

Sonda Bəni Qureyzə yəhudiləri onların barəsində Səd ibn Məazın qərar çıxaracağı təqdirdə təslim olmağa razılıq verirlər. Onların ümid yeri olan Səd ibn Məaz yəhudilərin müqəddəs kitabı Tövrata əsaslanaraq belə bir qərar çıxarır: "Bəni Qureyzə kişiləri edam, arvad-uşaqları əsir, əmlakı da müsadirə olunmalıdır."

Yəhudilərdən əldə edilmiş qənimətin xumsu çıxarıldıqdan sonra müsəlmanlar arasında bölüşdürülür. Süvarilərə üç, piyadalara isə bir pay verilir. Beləliklə, hicrətin beşinci ili zilhiccə ayının on doqquzunda Bəni Qureyzə döyüşüdə başa çatdı.

9. Dumətul-Cəndəl qəzvəsi:

Dumətul-Cəndəl Şamdan aralı Təyy dağının yaxınlığında yerləşir. Oradan Mədinəyə on altı günlük yoldur. Binası daşdan olduğu üçün belə adlandırılıb. Çünki "cəndəl" daş deməkdir.

Bu məntəqədə yaşayan bir qrup insanlar əlbir olub yoldan keçən karvanları və insanları soyurdular. Həmçinin Mədinəyə hücum edib İslamiyyəti yox etmək fikirləri də var idi. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* rəbiül-əvvəl ayının 25-də min nəfərlik dəstə ilə Dumətul-Cəndəl məntəqəsinə doğru hərəkət etdi. Müsəlmanların gəlişindən xəbər tutan soyğunçular dağılışır. Hz.Peyğəmbər *(s)* geri qayıdarkən Fəzar qəbiləsindən olan bir nəfərlə müqavilə bağlayır. Müqaviləyə əsasən həmin şəxs Mədinə otlaqlarından istifadə edə bilərdi.[50]

Hicrətin altıncı ili baş verən hadisələr (miladi 628)

1. Zatur-Riqa qəzvəsi:

Bəni-Ənmar, Bəni-Sələbə, Bəni-Müharib və Bəni-Qətvan qəbilələri böyük bir ordu toplayıb Mədinəyə hücum edərək islamiyyəti yox etmək istəyirdilər. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* Əbuzər Ğəffarini Mədinədə öz yerində qoyaraq ordunu hazır vəziyyətə gətirib Nəcd istiqamətinə doğru irəliləyir. İslam ordusunun gəlişindən xəbər tutan düşmən ordusu dağılır.

Zatur-Riqa qəzvəsində Hz.Peyğəmbərin *(s)* müsəlman döyüşçülərlə birlikdə vacib namazı qorxu namazı şəklində qılmasından və Nisa surəsinin 102-ci ayəsinə əsasən bu namazı müsəlmanlara öyrətməsindən məlum olur ki, düşmən kifayət qədər təhlükəli və vəziyyət olduqca gərgin idi.

[50]Sireyi-ibn Hişam, 2-ci cild, səh-213

2. Bəni-Ləhyan qəzvəsi:

Bəni-Ləhyan qəbiləsi "Əzəl və Qarə" tayfalarının birləşməsindən təşkil olunmuşdur. Bu qəbilə hicrətin dördüncü ilində baş verən Rəci faciəsində Süfyan ibn Xalidin göstərişi ilə Asim ibn Sabit və Xubeyb ibn Ədiyy kimi Hz.Peyğəmbərin *(s)* məhşur səhabələrini şəhid etmişlər. Bunları unutmayan Hz.Peyğəmbər *(s)* hicrətin altıncı ilində bu qəbilələri məğlub edərək səhabələrinin intiqamını almışdır. Bu səfərin müddəti on dörd gün olmuşdur.

3. Zi-Qərəd qəzvəsi:

Bu qəzvəyə İslam tarixində Qabə qəzvəsidə deyilir. Qabə Mədinənin yaxınlığında yerləşən bir çeşmənin adıdır. Bu məntəqədə Hz.Peyğəmbərin *(s)* iyirmi dəvəsi otlayırdı və Əbuzər Ğəffari bu dəvələrin keşiyini çəkirdi. Hz.Peyğəmbərin *(s)* Mədinədə olmamasından istifadə edən Uyeynə ibn Hisn Fəzari bir dəstə müşriklə Qabə məntəqəsinə hücum edərək Hz.Peyğəmbərin *(s)* dəvələrini götürməklə bərabər Əbuzərin oğlunu da şəhid etdilər. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* 700 nəfərlik dəstə ilə həmin məntəqəyə gedərək Uyeynəni məğlub etmiş və dəvələri geri almışdır. Bu döyüşdə İslam bayrağını Miqdad ibn Əsvəd tutmuşdur.

4. Məhəmməd ibn Müslim səriyyəsi:

Bəni-Bəkr qəbiləsinin ordu toplayaraq Mədinəyə hücum edəcəyini öyrənən Hz.Peyğəmbər *(s)* Məhəmməd ibn Müslimi göndərərək onları məğlub etdi.

5. Hz.Əli *(ə)* səriyyəsi:

Bəni-Səd qəbiləsinin və Xeybər yəhudilərinin Mədinəyə hücum edəcəyindən xəbər tutan Hz.Peyğəmbər *(s)* Hz.Əlini *(ə)* kiçik bir dəstə ilə göndərərək onları məğlub etdi.

6. Hüdeybiyyə sülhü:

Hicrətin altıncı ili Hz.Peyğəmbər *(s)* Məkkəni ziyarət etmək məqsədilə 1400 nəfərlik səhabə ilə Mədinədən Məkkəyə doğru hərəkət etdi. Bundan xəbər tutan Məkkə müşrikləri müsəlmanları Məkkəyə buraxmamaq üçün böyük bir ordu topladılar. Hz.Peyğəmbər *(s)* və səhabələr Hüdeybiyyə quyusu ətrafına çatdıqda Hz.Peyğəmbərin *(s)* dəvəsi hərəkət etməyərək yerə çökdü. Dəvənin üzünü Məkkəyə tərəf çevirdikdə çökür, Hüdeybiyyəyə tərəf çevirdikdə isə hərəkət edirdi. Bunun bir hikmət olduğunu anlayan Hz.Peyğəmbər *(s)* Hüdeybiyyəyə tərəf hərəkət edərək belə dedi: "Müşriklər məndən nə istəsə, istər bizim ziyanımıza, istərsə də xeyrimizə olsun qəbul edəcəyəm."

Bu zaman müşriklər tərəfindən nümayəndə olaraq göndərilən Urvə ibn Məsud Səqəfi Hz.Peyğəmbərin *(s)* yanına gələrək belə dedi: "Siz yaxşı olar ki, buradan geri qayıdasınız. Onsuzda müşriklər sizə Məkkəyə buraxmayacaqlar." Onun sözlərinə cavab olaraq Hz.Peyğəmbər *(s)* məqsədlərinin yalnız Kəbə evini ziyarət etmək olduğunu Urvədən Əbu Süfyana çatdırmasını istədi. Əbu Süfyandan cavabın gec gəldiyini görən Hz.Peyğəmbər *(s)* Osman ibn Əfvanı Məkkəyə göndərdi. Bu zaman belə bir şayiə yayıldı ki, guya Osman ibn Əfvan müşriklər tərəfindən öldürülmüşdür. Buna əsasən Hz.Peyğəmbər *(s)* və səhabələr Rizvan

ağacı altında toplanaraq Osmanın intiqamını almayana qədər geri qayıtmayacaqlarına and içdilər. Bu hadisə İslam tarixində "Beyəti-Rizvan" adlanır.

Bundan xəbər tutan Əbu Süfyan Süheyl ibn Əmri Hz.Peyğəmbərin *(s)* yanına göndərərək sülh təklif etdi. Sülh Hüdeybiyyə quyusu ətrafında bağlandığı üçün bu sülhə İslam tarixində Hüdeybiyyə sülhü deyilmişdir. Sülhün şərtlərini Süheyl ibn Əmr demiş və Hz.Peyğəmbərin *(s)* göstərişi ilə Hz.Əli *(ə)* yazmışdır. Hüdeybiyyə sülhünün şərtləri aşağıdakılardır:

1. Müsəlmanlar bu il Məkkəni ziyarət etmədən geri qayıdacaqlar.
2. Gələn il müsəlmanlar Məkkəni ziyarət edə bilərlər, yalnız Məkkədə üç gündən artıq qalmamaq şərtilə.
3. Əgər Məkkə əhlindən bir nəfər islamı qəbul edib Mədinədə müsəlmanlara sığınarsa, müsəlmanlar dərhal onu Məkkəyə geri qaytaracaqlar. Əksinə Mədinə əhlindən bir nəfər Məkkəyə gedib müşriklərə sığınsa, geri qaytarılmayacaq.
4. Sülhün müddəti on il davam edəcək.
5. İstənilən qəbilə hər hansı bir tərəflə müttəfiq olmaqda azaddır. Buna əsasən Bəni-Bəkr və Kənanə qəbilələri müşriklərlə, Bəni-Xüzaə isə müsəlmanlarla müttəfiq oldu.

7. Xeybərin fəthi:

Xeybər məntəqəsi Mədinənin şimalında yerləşirdi. Xeybər yeddi qaladan ibarət idi: 1) Nəim, 2) Qamus, 3) Kətibə, 4) Şiq, 5) Nəstat, 6) Vətih, 7) Səlalim. Xeybərin bol sulu və torpağının münbit olmasına görə yəhudilər əkinçiliklə məşğul olur, qazandıqları pulla silah-sursat alıb toplayırdılar. Xeybərdə təxminən iyirmi min yəhudi yaşayırdı.[51]

Aşağıdakı amillər səbəb oldu ki, Hz.Peyğəmbər *(s)* Xeybər yəhudilərinin üzərinə hərəkət etdi.

Xeybər yəhudilərinin birinci günahı o idi ki, ərəb qəbilələrini İslama qarşı təhrik edirdilər. Məlum olduğu kimi Xəndək döyüşündə müşriklər məhz Xeybər yəhudilərinin maddi dəstəyi ilə Mədinəyə qədər gəlib çıxmışlar. Onların bu hərəkətinə görə Hz.Peyğəmbər *(s)* onları tərki-silah etmək qərarına gəlir. Çünki onlar xeyli pul xərcləyib yenidən ərəb qəbilələrini müsəlmanlara qarşı qaldıra bilərdilər ki, bu da Xəndək döyüşünün təkrarlanması demək idi. Həmçinin yəhudilər islamı qəbul etməkdə daha çox inad edidilər. Buna görə də minlərlə müşrik iman gətirdiyi halda, bir yəhudi iman gətirmirdi.

İkinci amil bundan ibarət idi ki, Hz.Peyğəmbər *(s)* əksər ölkə başçılarına məktub göndərərək, onları İslama dəvət etmişdi. İndi ola bilərdi ki, İran və Bzans yəhudilərdən İslama qarşı istifadə edə bilərdilər. Və yaxud yəhudilər İran və Bizans imperatorlarını İslama qarşı təhrik etsinlər.

---

[51]Tarixi–Yəqubi 2-ci cild, səh-46

Bütün bu amillər səbəb oldu ki, Hz.Peyğəmbər *(s)* Ərəbistan yarımadasındakı son yəhudi mərkəzinə hücum etmək üçün müsəlmanlara hazırlaşmağı tapşıraraq buyurur: Yalnız Hüdeybiyyədə iştirak edən şəxslər bu döyüşə gedə bilərlər. Hüdeybiyyədə olmayanlar da könüllü olaraq iştirak edə bilərdilər, ancaq onlara döyüş qənimətindən pay çatmayacaqdı.

Hicrətin altıncı ilində Hz.Peyğəmbər *(s)* Qiylə Leysini Mədinədə öz yerində qoyub 1500 nəfərlik ordu ilə Xeybərə doğru hərəkət etdi. Bundan xəbər tutan yəhudilər qalalara daxil olub mübarizəyə başladılar.

Yəhudilərin ürəklərinə qorxu düşdüyündən arvad-uşaqlarını Kətibə qalasına yerləşdirdilər. Nəim qalasının içində yemək-içmək toplayıb anbara yığdılar. Döyüşçülər isə məsləhətləşməkdən ötrü Nəstat qalasına toplandılar. Belə qərara gəldilər ki, hər qalanın döyüşçüləri qalanın üstündən ox, daş və digər vasitələrlə qalanı müdafiə etsinlər. Yəhudi döyüşçüləri sonadək bu plana sadiq qalırlar. Bu səbəbdən bir aya yaxın müqavimət göstərə bilirlər. Müsəlmanlar bəzən bir qalanı ələ keçirmək üçün on gündən çox vaxt sərf edir, amma bir nəticə əldə olunmurdu.

Tarixi mənbələrdən məlum olur ki, İslam ordusu qalaları tək-tək mühasirə edir, bir qalanın digər qalalarla əlaqəsini kəsdikdən sonra onu ələ keçirir, növbəti qalanın mühasirəsinə başlayırdılar. Bəzi tarixçilər belə hesab edirlər ki, böyük çətinliklərdən sonra müsəlmanların ilk ələ keçirdikləri qala Nəim qalası olmuşdur. Qalanın fəthi İslam sərkərdəsi Mahmud ibn Məsləmə Ənsarinin qətli və əlli döyüşçünün yaralanması bahasına başa gəlir.

Nəim qalasının fəthindən sonra Hz.Peyğəmbər *(s)* Kətibə qalasını mühasirə etməyi əmr edir. Bir qədər sonra müsəlman döyüşçülərin fəallığı nəticəsində qala fəth edilir və sonralar Hz.Peyğəmbərin *(s)* xanımı olmaq şərəfinə nail olmuş Səfiyyə binti Huyeyy əsir düşür.

Bu iki qalanın fəthindən sonra müsəlmanlar daha möhkəm qala olan Qamus qalasını mühasirəyə alırlar. Daha güclü müqavimətə rast gələn İslam ordusu nə qədər çalışsa da ağır itkilər verib nəticəsiz geri dönür.

Səhər açılan kimi bütün səhabələr Hz.Peyğəmbərin *(s)* yanına gəlir. Əvvəlki iki gündə məğlub olmuş sərkərdələr də yeni təyin olunacaq sərkərdənin kim olacağını səbirsizliklə gözləyirdilər. Sükutu pozan Hz.Peyğəmbər *(s)* buyurdu: "Əli haradadır!" Həmin vaxt Hz.Əli *(ə)* gözləri ağrıdığı üçün bir az kənarda istirahət edirdi. Hz.Peyğəmbərin *(s)* göstərişi ilə Hz.Əlini *(ə)* bir dəvəyə mindirib onun yanına gətirirlər. Hz.Peyğəmbər *(s)* mübarək əlini onun gözlərinə sürtərək dua edir. Bu dua o qədər təsirli olur ki, Hz.Əli *(ə)* ömrünün sonuna qədər göz ağrısı nədir bilmədi. Bundan sonra Hz.Peyğəmbər *(s)* Hz.Əliyə *(ə)* hücum əmri verərək tapşırır ki, döyüşdən qabaq qaladakıları İslama dəvət etsin. Əgər qəbul etməsələr, cizyə ödəməklə İslam bayrağı altında yaşaya biləcəklərini çatdır. Yox əgər buna da razı olmasalar, onda onlarla vuruş! Hz.Peyğəmbərin *(s)* Əlini

yola salarkən buyurduğu son cümlə belə olur: “Allah sənin vasitənlə bir nəfərə hidayət etsə, bu, qırmızıyunlu dəvələrə sahib olmağından daha yaxşıdır.”[52]

Hz.Əli *(ə)* İslam bayrağını əlinə alıb Qamus qalasına yaxınlaşır. İlk olaraq Hz.Əlinin *(ə)* qarşısına məhşur pəhləvanlardan olan Haris çıxsa da Hz.Əlinin bir zərbəsilə cəhənnəmə vasil olur. Onun ölümündən sonra qardaşı Mərhəb Hz.Əlinin *(ə)* qarşısına çıxsa da o da qardaşının aqibətilə rastlaşır. Haris və Mərhəbin ölümündən sonra yəhudilərin digər tanınmış şəxslərindən olan Rəbi ibn Əbulhuqeyq, Əntər, Mürrə və Yasir də Hz.Əli *(ə)* tərəfindən öldüldü. Onların ölümündən sonra on gün ərzində alınmayan Qamus qalası Hz.Əli *(ə)* tərəfindən fəth edildi .

Hz.Peyğəmbər *(s)* Xeybərin fəthindən sonra onlara qarşı mehriban davranaraq yəhudilərin xahişini qəbul edir. Onlar Həzrətdən *(s)* xahiş edirlər ki, Xeybərdə qalıb öz işləri ilə məşğul olsunlar və illik məhsulun yarısını müsəlmanlara ödəsinlər.[53]

8. Fədəkin Hz.Fatiməyə *(ə)* verilməsi:

Fədək torpağı Hz.Peyğəmbərin *(s)* şəxsi mülkü idi. Çünki bu torpağın fəthində islam ordusu iştirak etməmişdir. İslam fiqhinə görə islam ordusunun iştirakı olmadan əldə olunan torpaqlar Hz.Peyğəmbərə *(s)* məxsusdur. Hz.Peyğəmbər *(s)* də onu istədiyi şəxsə verə bilərdi. Fədək torpağı yəhudilər tərəfindən Hz.Peyğəmbərə *(s)* verildiyi zaman “İsra” surəsinin 26-cı ayəsi nazil oldu. Ayədə deyilir: **“Qohum-əqrəbaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) yolçuya da haqqını ver, amma (əlindəkini lüzumsuz yerə) dağıdıb səpələmə!”.** Hz.İmam Sadiq *(ə)* buyurur: “Və əti zəl qurba” ayəsi nazil olanda Hz.Peyğəmbər *(s)* Cəbraildən soruşdu: Zəl qurba deyildikdə kimlər nəzərdə tutulur? Cəbrail dedi: Sənin qohumların. Bu vaxt Hz.Peyğəmbər *(s)* Hz.Fatiməni və onun övladlarını çağırıb, Fədəki onlara bağışlayaraq buyurdu: “Allah mənə əmr etmişdir ki, Fədəki sizə bağışlayım”.[54]

9. Hz.Peyğəmbər *(s)* Xeybər döyüşündə əsir düşən yəhudilərin rəisi Harisin qızı Səfiyyə və əmisi Abbasın baldızı Meymunə ilə evləndi.

10. Hz.Peyğəmbər *(s)* Hüdeybiyyə sülhündən sonra Misir, İran, Bizans və Həbəşistan kimi böyük dövlətlərə islama dəvət məktubu göndərdi.

11. Qadınlara iddə təyin olundu.

12. Vadi əl-Qura qəzvəsi:

Hicrətin altıncı ilində Xeybərin fəthindən sonra Hz.Peyğəmbər *(s)* Vadiəl-Qura yəhudilərinin üzərinə hərəkət etdi. Bir neçə günlük mühasirədən sonra Hz.Peyğəmbər *(s)* Xeybər yəhudiləri ilə bağladığı müqavilənin oxşarını Vadiəl-Qura yəhudiləri ilə də bağlayaraq bütün Hicazı yəhudi fitnəsindən təmizlədi.

Hz.Peyğəmbərin *(s)* ümumbəşər peyğəmbər olduğunu sübut edən ayələr: “Əraf” 158, “Səba” 28, “Qələm” 52, “Yasin” 70 və “Tövbə” 33.

---

[52]Səhihi-Buxari ,5-ci cild ,səh-18

[53]Sireyi ibn Hişam, 1-ci cild, səh-331.

[54]Təfsiri-Əyyaşi, II cild, səh-287.

Hicrətin yeddinci ili baş verən hadisələr (miladi 629)

1. Umrə ziyarəti:

Hicrətin altıncı ilində bağlanan Hüdeybiyyə sülhünün şərtlərindən biri də bu idi ki, müsəlmanlar bu il Məkkəni ziyarət etmədən geri qayıdacaq. Gələn il ziyarət etdikdə isə Məkkədə üç gündən artıq qalmayacaqlar. Bu şərtə əsasən Hz.-Peyğəmbər *(s)* umrə ziyarətinin qəzasını yerinə yetirmək üçün hicrətin yeddinci ilində 1500 nəfərlik səhabə ilə Məkkəyə gedib umrə ziyarətini yerinə yetirdi.

2. Hüdeybiyyə sülhündən sonra məşhur müşrik sərkərdələr Əmr ibn As və Xalid ibn Vəlid Mədinəyə gələrək islamı qəbul etdi.

3. Mutə döyüşü:

Hüdeybiyyə sülhündən sonra Hz.Peyğəmbər *(s)* bir çox dövlət başçılarına məktub göndərərək onları İslama dəvət etdi. Həmin məntəqələrdən biri də Bizansa aid Busra məntəqəsi idi. Busra məntəqəsinə Hz.Peyğəmbər *(s)* Haris ibn Umeyr vasitəsi ilə məktub göndərmişdi. Haris ibn Umeyr Busra məntəqəsinə çatdıqda Şurahbil (və ya Şərcil) ibn Əmr adlı Bizans sərkərdəsi tərəfindən öldürüldü. Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* Cörf adlı məntəqədə üç min nəfərlik ordu toplayır.[55]

Hz.Peyğəmbər *(s)* ordunun qarşısında dayanaraq belə buyurur: "İndi İslam qasidi Haris ibn Umeyrin öldürüldüyü yerə gedirsiniz. Gedin oranın əhalisini bir daha İslama dəvət edin. Əgər qəbul etsələr, intiqam fikrindən çəkinin, əks təqdirdə Allahdan kömək diləyib onlara qarşı vuruşun."

Hz.Peyğəmbərin *(s)* göstərişinə əsasən orduya başçı olaraq Cəfər ibn Əbu Talib, əgər o şəhid olarsa Zeyd ibn Haris, o da şəhid olarsa Abdullah ibn Rəvaha başçı təyin edildi. Əgər baş verən döyüşdə Abdullah ibn Rəvaha da şəhid olarsa, o zaman müsəlmanlar öz aralarından istədiyi şəxsi İslam ordusuna başçı seçsinlər.

Müsəlman ordusunun Bizansa doğru hərəkət etməsindən xəbər tutan Şurahbil Rum hökmdarından yardımçı qoşun istədi. Buna əsasən yüz min nəfərlik ordu Şurahbilin köməyinə göndərildi. İki ordu Mutə adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə Cəfər ibn Əbu Talib, Zeyd ibn Haris və Abdullah ibn Rəvaha şəhid edildi. Bunların şəhadətindən sonra müsəlmanlar özlərinə yenicə islamı qəbul etmiş Xalid ibn Vəlidi başçı təyin etdilər. Məhz Xalidin seçdiyi taktika əsasında islam ordusu tam məğlub olmadan Mədinəyə qayıtdı.[56]

4. Hz.Peyğəmbər *(s)* Əbu Süfyanın qızı Ümmü Həbibə ilə evləndi. Ümmü Həbibə Abdullah ibn Cahşla ailə qurub, islamiyyəti qəbul etdikdən sonra əri ilə birlikdə Həbəşistana hicrət etmişdir. Sonra Abdullah islamdan çıxıb xristianlığı qəbul etsə də, Ümmü Həbibə sona qədər islamda qalıb Hz.Peyğəmbərlə *(s)* evlənmək şərəfinə nail olmuşdur.

5. Zatus-səlasil döyüşü:

---

[55]Təbəqati ibn Səd, 2-ci cild, səh-218.

[56]Məğazeyi Vaqidi, 2-ci cild, səh-763; Sireyi ibn Hişam, 2-ci cild, səh-381-389.

Döyüşün baş verdiyi yer daşlı-qayalı olduğu üçün bu səriyyəyə İslam tarixində Vadiəl-Rəmlə səriyyəsi də deyilir. Yabis məntəqəsində toplanan 12000 nəfərlik ordu belə qərara gəlirlər ki, Mədinəyə hücum edib Hz.Peyğəmbəri *(s)* və Hz.Əlini *(ə)* öldürməklə islamiyyəti yox etsinlər.

Əli ibn İbrahim Qummi yazır: "Bu vaxt Hz.Cəbrail Hz.Peyğəmbərin *(s)* yanına gələrək buyurur: "Ya Peyğəmbər! Dörd min nəfərlik ordu toplayıb Əbu Bəkrin başçılığı altında Yabis məntəqəsinə göndər ki, düşmən ordusunu məğlub etsin."[57] Şeyx Müfidə görə isə Yabis əhlinin Mədinəyə hücum edəcəyi xəbərini Hz.Peyğəmbərə *(s)* müsəlmanlardan biri çatdırmışdır.[58]

Bu məlumatı öyrənən Hz.Peyğəmbər *(s)* dörd min nəfərlik ordu toplayaraq Əbu Bəkrin başçılığı altında Yabis məntəqəsinə göndərdi.

Bu döyüş Hz.Əlinin *(ə)* vasitəsilə həyata keçdiyindən və müsəlmanlar bu döyüşdə qalib çıxdıqlarından Allah tərəfindən Hz. Əlinin (ə) şəninə "Əl Adiyat" surəsinin ilk beş ayəsi nazil oldu**: "And olsun (cihad zamanı) tövşüyə-tövşüyə qaçan atlara! And olsun (dırnaqları ilə daşdan) qığılcım qoparan atlara! And olsun sübh çağı hücum edən atlara! And olsun o vaxt (və ya: o yerdə) toz-duman qoparan atlara! Sonra da onunla (tozanaqla) dəstəyə (düşmən dəstəsinə) təpinən atlara ki!"**

Surədə içilən andlar İslam mücahidlərinin qəhrəmamlığına həsr edilmişdir.

6. Mübahilə ayəsi və ya Ali-İmran surəsi 61-ci ayə:

"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair sənինlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənətini diləyək!" Təfsir və hədis alimlərinin nəql etdikləri rəvayətlərdə buyurulur: Mübahilə ayəsi nazil olandan sonra Hz.Peyğəmbər *(s)* Nəcran xristianlarını mübahiləyə çağırdı. Onlar Hz.Peyğəmbərdən *(s)* fikirləşmək üçün bir gün möhlət istədilər. Xristianların başçısı və alimi Aqib dedi: "Əgər sabah Məhəmməd öz ailəsi və övladları ilə birgə mübahiləyə gəlsə, onunla mübahilə etmədən geri qayıdarıq. Amma öz səhabələrini gətirsə, onunla mübahilə edərik."

Ertəsi gün Hz.Peyğəmbər *(s)* Əli *(ə)*, Fatimə (s.ə), Həsən *(ə)* və Hüseynlə *(ə)* birlikdə xristianların qarşısına çıxdı. Xristianların başçısı onlara dedi: "Mənim gördüyüm kişi öz qərarında möhkəmdir, mübahiləyə şücaətlə gəlmişdir. Qorxuram ki, haqq olsa, ağır bəlaya düçar olaq!" Sonra üzünü Peyğəmbərə tutub dedi: "Ey Muhəmməd! Biz qərara gəldik ki, sənինlə mübahilə yox, sülh edək!" Bəzi rəvayətlərdə isə onun belə dediyi nəql olunmuşdur:" Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki, əgər onlar Allahdan istəsələr, dağ yerindən qopar! Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız!" Fəxrəddin Razi bundan sonra yazır:

---

[57]Təfsiri-Qummi, 2-ci cild, səh-434.
[58]Əl-İrşad, səh-86

“Həm keçmişdə, həm də indinin özündə şiələr bu ayəyə istinad edərək, Əlini *(ə)* Peyğəmbərin *(s)* nəfsi və özü kimi bilirlər. Buna əsasən, Hz.Əli *(ə)* hamıdan fəzilətli sayılır.”[59] Bu ayədə oğullarımız deyəndə Hz.Həsən və Hz.Hüseyn, qadınlarımız deyəndə Hz.Fatimə, özümüz deyəndə isə Hz.Əli nəzərdə tutulmuşdur. Bu hadisə aşağıdakı islami mənbələrdə də azacıq fərqlə qeyd olunmuşdur:

1. Təfsiri-Qirtəbi, II cild, səh-1346
2. Ruhul-bəyan, II cild, səh-44
3. Şəhabuddin Alusi, Ruhul-məani, III cild, səh-188
4. İbn Həyyan Əndəlusi, Bəhrul-muhit, II cild, səh-472
5. Səhihi-Müslim, IV cild, səh-1871, VII cild, səh-130
6. Sünəni-Tirmizi, II cild, səh-166
7. Müsnədi-Əhməd, I cild, səh-185
8. Qunduzi Hənəfi, Yənabiul-məvəddət, səh-281
9. Müstədrəki-Hakim, I cild, səh-193
10. Əddurrul-mənsur, III cild, səh-38
11. Qazi Beyzavi, Ənvarut-tənzil, II cild, səh-22
12. Şəfqani, Fəthul-qədir, I cild, səh-524.
13. Əllamə Məclisi, Biharul-ənvar
14. Şeyx Təbərsi, Məcməul-bəyan
15. Şeyx Tusi, Təhzibul-əhkam
16. Şeyx Səduq, Mən la yəhziruhul-fəqih
17. Əllamə Təbatəbai, Əl-mizan
18. Əllamə Əmini, əl-Qədir.

7. Hz.Peyğəmbər *(s)* Misir hökmdarı Müqəfkisin cariyə olaraq göndərdiyi Mariya əl-Qibtiyyə ilə evləndi. Bu izdivacdan Hz.Peyğəmbərin *(s)* İbrahim adlı oğlu dünyaya gəlmişdir.

8. Hz.Əlinin *(ə)* qızı Ümmü Gülsüm Mədinədə anadan oldu.

Hicrətin səkkizinci ili baş verən hadisələr (miladi 630)

1. Məkkənin fəthi:

Hicrətin altıncı ilində bağlanan Hüdeybiyyə sülhünün şərtlərindən biri də bu idi ki, tərəflər arasında on il müharibə olmayacaq və qəbilələr istədikləri tərəflə müttəfiq olmaqda azad olacaqlar. Bu müqaviləyə əsasən Bəni Bəkr və Bəni Kənanə Məkkə müşrikləri ilə Bəni Xuzaə isə müsəlmanlarla müttəfiq olmuşdu.

Lakin hicrətin səkkizinci ilində Bəni Bəkirlilər Qureyşilərlə əlbir olaraq müsəlmanların müttəfiqi olan Bəni Xuzaə qəbiləsinə hücum edib xeyli sayda insanı şəhid etdilər. Bəni Xuzaə qəbiləsinin başçısı Əmr ibn Salim Mədinəyə gələrək baş verən hadisəni və Qureyşilərin özbaşınalıqlarını Hz.Peyğəmbərə *(s)*

[59]Təfsiri-Kəbir, VIII cild, səh-81.

çatdırdı. Bununla da iki tərəf arasında bağlanan Hüdeybiyyə müqaviləsi qüvvədən düşdü.

Bu hadisədən sonra Hz.Peyğəmbər *(s)* ətraf məntəqələrə məktub yazaraq onların Məkkənin fəthinə hazırlaşmalarına göstəriş verdi. Eyni zamanda Hz.Peyğəmbər *(s)* yollarda və keçidlərdə gözətçilər qoymuşdu ki, heç kəs bu xəbəri Məkkəyə çatdırmasın.

Lakin buna baxmayaraq Hz.Peyğəmbərin *(s)* səhabələrindən olan Xətib ibn Bəltəə Məkkədəki qohumlarını qorumaq üçün Məkkə əhlini Peyğəmbərin səfərindən xəbərdar etmək niyyətilə bir məktub yazıb onu Ümmü Sara adlı qadınla Məkkəyə göndərdi.

Bu zaman Cəbrail *(ə)* Hz.Peyğəmbəri *(s)* bu işdən xəbərdar etdi. Hz.Peyğəmbər *(s)* dərhal Hz.Əlini *(ə)*, Zubeyr ibn Əvvamı və Miqdad ibn Əsvədi Ümmü Sara adlı qadını ələ keçirmək üçün göndərdi. İslam mücahidləri Rövzeyiçax (və ya Xuleyqə) adlı məntəqədə Ümmü Saraya çataraq onu məktubla birlikdə Hz.Peyğəmbərin *(s)* yanına gətirdilər.

Hz.Peyğəmbər *(s)* məktubu Xətib ibn Bəltəənin yazdığını bildikdə onu çağırtdıraraq məktub yazmasının səbəbini soruşdu. O Allaha and içərək belə deyir: "Bu məktubu yazmaqda mənim yeganə məqsədim Məkkədə ki, qohumlarımı müşriklərin şərindən qorumaq olmuşdur. Hz.Peyğəmbər *(s)* Xətib ibn Bəltəənin məqsədini bildikdən sonra onu bağışladı.

Belə bir hadisə bir də baş verməsin deyə Mumtəhinə surəsinin ilk doqquz ayəsi nazil oldu: **"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də öz düşmənlərinizi dost tutmayın. Onlar (kafirlər) sizə gələn haqqı (Quranı, Məhəmməd əleyhissəlamı) inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz (mehribanlıq göstərirsiniz). Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi (Məkkədən) çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim rizamı qazanmaq üçün cihada çıxmısınızsa (Mənim düşmənlərimi dost tutmayın). Siz onlarla gizlində dostluq edirsiniz (dostluq üzündən onlara sirr verirsiniz). Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi bilirəm. Sizdən kim (bir daha) bunu etsə (düşmənlərlə dostluq edib onlara sirr versə), o, şübhəsiz ki, haqq yoldan azmışdır."**

Bütün hazırlıqlarını görən Hz.Peyğəmbər *(s)* hicrətin səkkizinci ili Ramazan ayında 10000 nəfərlik ordu ilə Məkkəni fəth edərək vahid ərəb dövlətinin əsasını qoydu. Məkkənin fəthindən sonra Hz.Peyğəmbər *(s)* Mumtəhinə surəsinin 12-ci ayəsi əsasında Məkkə qadınlarının beyətini qəbul etdi. Ayədə deyilir: **"Ya Peyğəmbər! Mömin qadınlar Allaha şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkləri, övladlarını öldürməyəcəkləri (qız uşaqlarını diridiri torpağa gömməyəcəkləri), özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!"** Beyətin şərtləri bundan ibarət idi: Allaha şərik

qoşmasınlar, oğurluq etməsinlər, pozğunluq etməsinlər, uşaqlarını öldürməsinlər, başqa kişilərdən olan uşaqları öz ərlərinə nisbət verməsinlər və yaxşı işlərdə Peyğəmbərə *(s)* qarşı çıxmasınlar. Həmçinin Hz.Peyğəmbər *(s)* Yusif surəsinin 92-ci ayəsi əsasında Məkkə əhlini azad buraxdı. Ayədə deyilir: **"Bu gün sizə heç bir günah yoxdur. Allah sizi bağışlayar, O, çox rəhimlidir."** Vaxtilə bu sözü Hz.Yusif *(ə)* qardaşlarına demişdir.

Sonra onların günahlarını bağışladı və buyurdu: "Öz peyğəmbəriniz üçün necə də pis qövm idiniz. Onu təkzib edib yanınızdan qovdunuz və Məkkədən çıxın dediniz. Hər cür zərər və əziyyəti əsirgəmədiniz və bununla da qane olmayıb Mədinəyə hücum edib mənimlə müharibə etdiniz. Bütün bunlarla belə, sizi bağışladım. Gedin, siz azad olunmuşlarsınız."[60]

Hz.Peyğəmbər *(s)* Məkkəni fəth edib Mədinəyə qayıdarkən İtab ibn Useydi Məkkəyə vali və pişnamaz təyin etdi. Hz.Peyğəmbər *(s)* tanınmış ağsaqqallar qala-qala iyirmi yaşlı bir gənci vali təyin etməklə bütün fikirləri, ehtimalları alt-üst edir. O bununla sübut edir ki, yüksək mövqelərə sahib olmaq üçün yaş çoxluğu şərt deyil. Bu işə layiq olan şəxs seçilməlidir. Muaz ibn Cəbəl isə dini işlər üzrə nümayəndə təyin olundu.[61]

2. Hüneyn döyüşü:

Məkkənin fəthindən sonra islamiyyət demək olar ki, bütün Ərəbistanda yayılmağa başladı. Məkkədə yaşayan iki məhşur qəbilə Həvazin və Səqif qəbilələri qorxuya düşdülər ki, Hz.Peyğəmbər *(s)* bunlarında qəbiləsinə gəlib bütlərini sındırar. Bu iki qəbiləyə Malik ibn Ovf başçılıq edirdi. İki qəbilə arasındakı danışıqlardan sonra belə qərara gəlirlər ki, Hz.Peyğəmbər *(s)* onların üzərinə gəlməzdən qabaq onlar Məkkəyə hücum edib müsəlmanları məğlub etsinlər. Malikin başçılığı ilə dörd min nəfərlik ordu toplanır. Orduda olan əsgərlər döyüşü tərk etməsin deyə, Malikin göstərişi ilə onların arvad-uşaqları ordunun arxasında yerləşdirilir. Bütün hazırlıqları başa çatdıran Malik ordunu Hüneyn dərəsində yerləşdirir.

Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* on iki min nəfərlik dəstə ilə Məkkədən çıxaraq Hüneyn dərəsinə doğru hərəkət etdi. Bu zaman səhabələrdən biri ordunun çoxluğu ilə öyünərək belə dedi: "Sayımız düşməndən qat-qat çoxdur. Bu ordu ilə biz heç vaxt məğlub olmarıq."[62] Bu məsələ ilə bağlı Qurani-Kərimin Tövbə surəsinin 25-ci ayəsində belə buyurulur: **"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsədə, bir faydası olmadı, gen dünya sizə dar oldu (yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi), sonra dönüb qaçdınız."** Hüneyn dərəsinə çatdıqda ilk olaraq dərəyə Xalid ibn Vəlidin başçılığı altında olan Bəni Səlim qəbiləsi daxil oldu. Lakin Həvazin ordusunun hücumuna məruz qalan Xalid və ordusu geriyə çəkildə.

---

[60]Biharul-ənvar , 21-ci cild ,səh-106-107
[61]Təbəqati ibn Səd, 2-ci cild , səh-137.
[62]Təbəqati-İbn Səd, 2-ci cild, səh-150.

Meydanda bir qrup səhabələr qaldı ki, onlardan da Hz. Əli (ə), Abbas və başqalarını qeyd etmək olar. Sonda Hz.Peyğəmbərin *(s)* göstərişi ilə əmisi Abbas müsəlmanlara xitab edərək belə buyurdu: "Ey ənsar, ey ağac altında Peyğəmbərə beyət edənlər, Allahın Rəsulunu qoyub hara qaçırsınız! Peyğəmbər buradadır." Abbasın səsini eşidən müsəlmanlar "Allahu Əkbər" deyərək yenidən meydana qayıtdı.

Müsəlmanların yenidən hücuma keçməsi düşmən ordusunun qaçmasına səbəb oldu. Onlar arvad-uşaqlarını meydanda qoyub Ovtas, Nəxlə və Taif qalalarına sığındılar.

Hüneyn döyüşündə qalib gələn müsəlmanlar altı min əsir, 24 min baş dəvə, 40 min baş qoyun qənimət götürür.

Əldə olunan qənimətləri Hz.Peyğəmbər *(s)* səhabələr arasında bərabər bölüşdürür. Qənimətin ona məxsus xumsunu isə təzəcə müsəlman olmuş şəxslər arasında paylayır. Onlar bu mükafata görə İslama daha çox bağlanırlar. İslam fiqhində bu şəxslərə "müəlləfətul-qulub" (yəni İslama daha çox bağlanmaları üçün zəkat verilən şəxslər) deyilir.[63]

3. Taifin mühasirəsi:

Hicaz məntəqəsinin ən məşhur şəhərlərindən biri olan Taif Məkkənin on iki fərsəxliyində (bir fərsəx 5,5 km) yerləşir. Güclü ərəb qəbilələrindən olan Səqif qəbiləsi burada yaşayırdı. Hüneyn döyüşündə məğlub olan Səqiflilər yenidən bu qalaya sığınmışdılar. Hüneyn döyüşündəki qələbərini tam rəsmiləşdirmək istəyən Hz.Peyğəmbər *(s)* əvvəlcə Ovtasa sığınanları təqib etmək üçün Əbu Amir Əşəri və Əbu Musa Əşərini böyük bir dəstə ilə göndərir. Ovtas məntəqəsində baş verən döyüşdə Əbu Amir şəhid edilir. Əbu Amirin şəhadətindən sonra onu əvəz edən qardaşı oğlu Əbu Musa Əşəri düşmən ordusunu məğlub edərək Taifə qayıdaraq İslam ordusuna qoşulur.[64]

Taif qalası uzun müddət müsəlmanlar tərəfindən mühasirədə saxlanılsa da heç bir nəticə əldə olunmur. Çünki Hz.Peyğəmbərin *(s)* gələcəyini qabaqcadan bilən Səqiflilər bir illik azuqələrini qalaya yığmışdılar. Bütün bunları nəzərə alan Hz.Peyğəmbər *(s)* mühasirəyə son verərək Məkkəyə gedib umrə ziyarətini yerinə yetirdikdən sonra zil-qədə ayının sonunda Mədinəyə qayıdır.

Mədinəyə qayıdan Hz.Peyğəmbər *(s)* Malik ibn Ovfa belə bir xəbər göndərir: "Əgər gəlib İslamı qəbul etsə, onun əsir düşmüş adamlarını azad edəcək, özünə də yüz baş dəvə bağışlayacağam." Bundan xəbər tutan Malik ibn Ovf İslamı qəbul edib müsəlmanlara qoşulmaq qərarına gəlir. Bu məqsədlə Ciranə məntəqəsinə gələrək İslamı qəbul edir. Hz.Peyğəmbər *(s)* də verdiyi sözə əməl edir və onu Nəsr, Səmalə və Sələmə qəbilələrindən olan müsəlmanların başçısı təyin edir.

4. Ovtas döyüşü:

---

[63]Sireyi ibn Hişam, 3-cü cild ,səh-493

[64]Məğazeyi Vaqidi, 3-cü cild, səh-915-916.

Ovtas məntəqəsinə sığınan Səqif qəbiləsini məğlub etmək üçün Hz.Peyğəmbər *(s)* Əbu Amir Əşərini göndərdi. Baş verən döyüşdə Əbu Amir şəhid edildikdən sonra onu qardaşı oğlu Əbu Musa Əşəri əvəz etdi. Əbu Musanın başçılıq etdiyi ordu Səqif qəbiləsini məğlub etdikdən sonra Taifə, Hz.Peyğəmbərin *(s)* yanına qayıtdı.

5. Hz.Peyğəmbərin *(s)* oğlu İbrahim anadan oldu.

6. Hz.Peyğəmbərin *(s)* qızı Hz.Zeynəb (600-630) vəfat etdi. Zeynəbin Əli adlı oğlu və Ümamə adlı qızı dünyaya gəlmişdir. Əli kiçik yaşlarında vəfat etmişdir. Zeynəbi dəfn etmək üçün Hz.Peyğəmbərin *(s)* göstərişi ilə tabut düzəldilmişdir. Eyni zamanda bu islamda düzəldilən ilk tabut idi.

7. Yəhudi şair Kəb ibn Züheyr islamı qəbul etdi.

8. Hz.Peyğəmbər *(s)* umrə ziyarətini yerinə yetirdi.

Hicrətin doqquzuncu ili baş verən hadisələr (miladi 631)

1. Təbuq qəzvəsi:

Təbuq Suriya sərhədi ilə Hicr və Şam arasında yerləşən bir bulağın adıdır. Şamdan gələn bir nəfər Hz.Peyğəmbərə *(s)* xəbər verdi ki, Bizans ordusu böyük bir ordu ilə Mədinəyə hücum edib islamiyyəti yox etmək istəyir. Həmin ordu hal-hazırda Mədinə yaxınlığında olan Bəlqa məntəqəsinə çatmışdır. Bu orduda Ləxim, Amilə, Qəssan və Cəzzam qəbilələri də iştirak edirdilər.[65]

Bundan xəbər tutan Hz.Peyğəmbər *(s)* dərhal göstəriş verir ki, Bizansa qarşı döyüşmək üçün ordu toplansın. Həmin vaxt Mədinədə məhsul yığımı vaxtı olduğu üçün Hz.Peyğəmbər *(s)* ordu toplamaqda çətinlik çəkirdi. Təbuq döyüşünə İslam tarixində "fazihə" döyüşü də deyilir. Çünki bu döyüşdə münafiqlərin çoxu rüsvay olmuşdur. Təbuq döyüşünün digər bir adı isə "ceyşul-uşrət"dir. Çünki bu döyüşdə iştirak edən əsgərlər çətinlik və qıtlıqdan əziyyət çəkmişlər. Eyni zamanda Təbuq döyüşü əsl möminləri münafiqlərdən ayırmaq üçün gözəl bir fürsət idi. Çünki bu döyüşdə bəzi şəxslər müxtəlif bəhanələr gətirərək ordudan yayınmağa çalışırdı.

Təbuq döyüşündə iştirak etməyənlər bir neçə qrupa bölünür:

1) Şəhvətpərəstlər: Hz.Peyğəmbər *(s)* münafiqlərdən olan Cədd ibn Qeysi döyüşə çağırdıq da o, qadınpərəst olduğunu bəhanə gətirərək ordudan yayınır. Bu zaman Qurani-Kərimin Tövbə surəsinin 49-cu ayəsi nazil olur. Ayədə deyilir: **"Onlardan (münafiqlərdən): "Mənə (döyüşə getməməyə) izn ver, məni fitnəyə salma!" – deyənlər də var. Bilin ki, onlar (özləri) fitnəyə düşmüşlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri qaplayacaqdır!"**

2) Münafiqlər: Bəzi münafiqlər də özləri döyüşə getməməklə yanaşı digərlərini də döyüşə getməkdən yayındırmağa çalışırdılar. Onlar havanın isti olmasını bəhanə gətirərək ordudan yayınırdılar. Onların bəhanəsinə cavab olaraq Qurani-Kərimin Tövbə surəsinin 81-ci ayəsi nazil oldu. Ayədə deyilir: **"(Tə-**

[65]Təbəqati ibn Səd, 2-ci cild, səh-165

buq döyüşündə iştirak etməyib) arxada qalanlar (münafiqlər) Allahın Rəsuluna qarşı çıxaraq (evdə) oturub qalmalarına sevindilər, Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər və (bir-birlərinə): "Bu istidə döyüşə çıxmayın!" – dedilər. (Ya Peyğəmbər!) De: "Cəhənnən odu daha istidir!" Kaş biləydilər!"

Bəzi münafiqlər də bizanslıların həddən artıq güclü olduğunu deyərək müsəlmanları döyüşə getməkdən çəkindirirdilər.[66]

3) Ağlayanlar: Bəzi səhabələr də var idi ki, onlar həqiqətən döyüşdə iştirak etmək istəsələr də heç bir vəsaitləri olmadığı üçün döyüşə gedə bilmirdilər. Bu şəxslərə İslam tarixində "ağlayanlar" deyilir və onlar haqqında Qurani-Kərimin Tövbə surəsinin 92-ci ayəsində belə buyurulur: **"(Döyüşə getməyə minikdən ötrü) gəldikdə: "Sizin minməyiniz üçün bir heyvan tapmıram", – deyərkən (cihad yolunda) sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərə də heç bir günah yoxdur!"**

4) Məhsul yığanlar: Səmimi qəlbdən İslamı qəbul edən Kəb, Hilal və Mürarə kimi bəzi səhabələr də məhsullarını toplamadıqları üçün belə qərara gəlirlər ki, məhsulu toplayıb qurtardıqdan sonra Mədinədən çıxıb orduya qoşulsunlar. Qurani-Kərimin Tövbə surəsinin 118-ci ayəsində onlar haqqında belə buyurulur: **"Həmçinin (Təbuq döyüşündən) geri qalmış üç nəfərin də (tövbələrini qəbul etdi). Belə ki, dünya onlara dar olmuş, ürəkləri (qəm-qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara (əvvəlki hallarına) qayıtmaq üçün tövbə nəsib etdi və tövbələrini qəbul buyurdu. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir."**

Döyüşdən qayıtdıqdan sonra Hz.Peyğəmbər *(s)* və müsəlmanlar bir müddət onlarla danışmırlar.

5) Fədakar möminlər: Bəzi möminlər özləri döyüşə gedə bilməsələr də, onlar ordunun toplanmasında yaxından iştirak etmişlər.

Bütün bu çətinliklərə baxmayaraq Hz.Peyğəmbər *(s)* 30000 nəfərlik ordu toplayaraq Mədinədən Bizansa doğru hərəkət etdi. Hz.Peyğəmbər *(s)* Mədinədən çıxarkən Hz.Əlini *(ə)* Mədinədə qoydu ki, Mədinə münafiqlərinin çevriliş cəhdinin qarçısını alsın. (Hz.Peyğəmbərin *(s)* iştirak etdiyi döyüşlərdən yalnız Təbuqda Hz.Əli *(ə)* iştirak etməmişdir).

Hz.Əlinin *(ə)* Mədinədə qalmasından narahat olan münafiqlər belə şayiə yaydılar ki, guya Hz.Əli *(ə)* ilə Hz.Peyğəmbərin *(s)* arası pozulduğu üçün onu özü ilə döyüşə aparmamışdır. Bundan narahat olan Hz.Əli *(ə)* arxadan Hz.Peyğəmbərə *(s)* çataraq Mədinədə baş verənləri ona çatdırır. Bu zaman Hz.Peyğəmbər *(s)* buyurdu: "Ya Əli! Mədinəyə qayıt. Çünki Mədinənin işlərinə nəzarət etməyə mən və səndən başqa layiqli bir şəxs yoxdur. Sən mənim qohum-

[66]Məğazeyi Vaqidi, 3-cü cild, səh-1003

larım arasında qəyyumumsan. İstəmirsənmi mənə olan nisbətin Harunun Musaya olan münasibəti kimi olsun? Bircə fərq odur ki, məndən sonra peyğəmbər gəlməyəcək. Əgər gəlmiş olsaydı o mütləq sən olardın. Harun Musadan bilavasitə sonra onun canişini olduğu kimi sən də məndən sonra bilavasitə mənim canişinimsən."[67] Hz.Peyğəmbər *(s)* 30000 nəfərlik ordu ilə Təbuq adlı məntəqəyə gəlsə də heç bir Bizans ordusuna rast gəlməyib ordu ilə məşvərət etdikdən sonra Mədinəyə qayıtdı.

Hz.Peyğəmbər *(s)* Təbuqdan qayıdarkən Bizans sərhəddində yerləşən "İlə", "Əzrə" və "Cərba"nın xaçpərəst hökmdarları ilə müqavilə bağladı ki, onlar Bizansla əlbir olub müsəlmanlara qarşı mübarizəyə qalxmasınlar.[68] Təbuq döyüşü Hz.Peyğəmbərin *(s)* iştirak etdiyi son qəzvə idi.

2. Bətni-Əqəbə hadisəsi:

Müslim bin Həccac Nişapurinin verdiyi məlumata görə, bəzi münafiqlər Təbuq döyüşündən qayıdarkən Bətni-Əqəbə (və ya Əqəbeyi-Hərşa) adlı məntəqədə Hz.Peyğəmbərə *(s)* sui-qəsd təşkil edib öldürmək istəsələr də istəklərinə nail ola bilmədilər.[69]

3. Ali-İmran surəsinin 96-97-ci ayələri ilə həcc vacib oldu.

4. Məşhur münafiq Abdullah ibn Ubey vəfat etdi.

5. Ədalətli hökmdar Həbəşistan kralı Nəcaşi vəfat etdi.

6. Hz.Peyğəmbərin *(s)* oğlu İbrahim vəfat etdi.

7. Məscidul-Ziranın uçurulması:

Məşhur münafiq Əbu Amir bu məscidi toplantı yeri məqsədilə tikdirmişdi. Bu məsciddə münafiqlər cümə günü toplanaraq müsəlmanların əleyhinə plan təşkil etməli idilər. Lakin Allah "Tövbə" surəsi vasitəsilə bu məscidin hansı məqsəd güddüyünü Hz.Peyğəmbərə bildirdikdən sonra Həzrət bu məscidin uçurulmasına göstəriş verdi.

8. Tövbə (Bəraət) surəsinin 1-10-cu ayələri nazil oldu:

"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığınız müşriklərə (onlarla olan əhdlərin pozulması, əlaqələrin kəsilməsi barədə) bir xəbərdarlıq! (Ey müşriklər!) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz (Allaın əzabından qaçıb canınızı qurtara bilməzsiniz). Allah kafirləri (dünyada və axirətdə) rüsvay edəcəkdir! Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər imandan üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. (Ey Peyğəmbərim!) Kafir olanları şiddətli bir əzabla müjdələ! Müqavilə bağlandıqdan sonra sizə qarşı bir əskiklik etməmiş və sizin əleyhinizə heç kəsə

---

[67] Sireyi ibn Hişam, 2-ci cild, səh-520

[68] Sireyi Hələbi, 3-cü cild, səh-160.

[69] Səhihi-Müslim, sifatul-münafiqin babı.

bir yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri sevər! Haram aylar çıxınca müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs edin və bütün yollarını-keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını dinləsin. Sonra onu əmin-amanlıq içərisində olacağı yerinə çatdır. Çünki onlar haqqı bilməyən bir tayfadır! Məscidul-həramın yanında (Hüdeybiyyədə) müqavilə bağladığınız kəslər (Bəni Zəmirə və Kənanə qəbilələri) istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri yanında necə əhdi ola bilər? Onlar sizinlə doğru-düzgün davrandıqca siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri sevər! Necə ola bilər ki, onlar sizə qalib gəlsələr, nə bir anda, nə bir əhdə əməl edərlər? Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salmağa çalışarlar. Onların əksəriyyəti fasiqdirlər! Onlar Allahın ayələrini ucuz qiymətə satdılar, sonra da insanları Onun yolundan döndərdilər. Həqiqətən, onların gördükləri iş necə də pisdir! Onlar bir mömin barəsində nə bir anda, nə də bir əhdə əməl edərlər. Onlar həddi aşanlardır!"

9. Hz.Əlinin *(ə)* iştirakı ilə Teyy müharibəsi:

Hz.Peyğəmbər *(s)* Hz.Əlini *(ə)* 150 nəfərlik dəstə ilə Teyy qəbiləsinə göndərir ki, onların ibadət etdiyi Fəls adlı bütü sındırsın. Bütxanaya səhər tezdən hücum edən Hz.Əli *(ə)* bütxananı dağıdıb bütü sındırır, müqavimət göstərən bir neçə şəxsi də götürüb Mədinəyə qayıdır.

Hicrətin onuncu ili baş verən hadisələr (miladi 632)

1. Vida həcci:

Hz.Peyğəmbər *(s)* həcc əməlini yerinə yetirmək üçün hicrətin onuncu ilində 125 min nəfərlik səhabə ilə Məkkəyə doğru hərəkət etdi. Hz.Peyğəmbər *(s)* Məkkədə həcc əməllərini yerinə yetirdikdən sonra camaata xitab edərək Allahın birliyini, özünün Allahın rəsulu olduğunu, cənnət və cəhənnəmin, axirətin haqq olduğunu bildirdi. Eyni zamanda riba və sələmin böyük günah olduğu açıqlandı.

2. Usamə bin Zeydin böyük bir ordu ilə Bizansa qarşı göndərilməsi.

3. Hicrətin onuncu və ya on birinci ili səfər ayının 28-də cümə günü Hz.Peyğəmbər *(s)* rehlət etdi. Müqəddəs məzarı Mədinədədir.

Vəhylər

Vəhy sözünün hərfi mənası "gizli səs", "gizli danışıq", "gizli işarə", "pıçıltı" və "ilham" deməkdir. Uca Allahın seçdiyi peyğəmbərlərinə vəhy dörd yolla nazil olur:

1) Sadiq röya (yuxu) – yəni Allah istədiyi hər bir şeyi düzgün bir yuxu ilə peyğəmbərlərinə bildirir.

2) İlham yolu ilə – yəni Allahın istədiyi şeyləri vasitəsiz olaraq peyğəmbərlərinə çatdırmasıdır.

3) Pərdə (hicab) arxasından gələn vəhy – yəni arada heç bir vasitə olmadan və söyləyəni görmədən Allah kəlamının eşidilməsidir.

4) Elçi (mələk) vasitəsilə gələn vəhy – yəni Allahın istədiyi hər bir şeyi vəhy mələyi olan Hz.Cəbraillə peyğəmbərlərinə çatdırması.

Bəqərə surəsinin son iki ayəsi istisna olmaqla Qurani-Kərim Hz.Peyğəmbərə *(s)* Allahın əmri ilə vəhy mələyi Cəbrail vasitəsilə nazil olmuşdur. Bu son iki ayə meracda Hz.Peyğəmbərə *(s)* bilavasitə Allah tərəfindən vəhy edilmişdir. Mələyin əsas vəzifəsi Allahın əmrlərini peyğəmbərlərə olduğu kimi çatdırmaq, onları oxutduraraq öyrətmək və əzbərlətməkdir. Hz.Cəbrail tərəfindən peyğəmbərlərə çatdırılan vəhy heç vaxt unudulmur və sonra peyğəmbərlər həmin əmrləri öz ümmətlərinə təbliğ edirlər. Beləliklə, peyğəmbərlər Allahla insanlar arasında elçi olduqları kimi, mələk də Allahla peyğəmbərlər arasında elçidir.

Qurani-Kərim

Quran sözünün mənası "oxumaq", "tələffüz etmək", daha doğrusu, Allahdan Hz.Peyğəmbərə *(s)* nazil olan sözlərin oxunması, tələffüz edilməsi deməkdir. Qurana, həmçinin Zikr (xəbərdarlıq, xatırlatmaq), Furqan (haqla batili ayırd edən), Müshəf (səhifələnmiş kitab) və s. də deyilir.

Qurani-Kərim digər səmavi kitablardan fərqli olaraq bəzən ayə-ayə, bəzəndə surələr halında hissə-hissə nazil olaraq iyirmi üç ilə tamamlanmışdır. Ayələrin nazil olmasına səbəb olan sual və hadisələrə "səbəbi-nüzul" deyilir. Qurani-Kərim 114 surə, 6206 yaxud 6236 ayədən və 77934 sözdən ibarətdir. Quranın ən uzun surəsi Bəqərə 286 ayədən, ən qısa surəsi Kövsər isə 3 ayədən ibarətdir. Əhli-sünnəyə görə Quranın son nazil olan ayəsi Bəqərə surəsinin 281-ci ayəsidir. Ayədə deyilir: **"Allaha tərəf qaytarılacağınız gündən qorxun! Sonra da hər kəsə gördüyü əməlin əvəzi veriləcək və onlara (heç bir) haqsızlıq edilməyəcəkdir!"** Əhli-şiəyə görə isə Quranın son nazil olan ayəsi isə Maidə surəsinin 3-cü ayəsidir. Ayədə deyilir: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizə din olaraq islamı bəyənib seçdim."**

Qurani-Kərimin ayələri nazil olduqca Hz.Peyğəmbər *(s)* vəhy katiblərini yanına çağırır, ayələrin hansı surədə yazılacağını göstərirdi. Nazil olan ayələri əshabi-kiram (Peyğəmbərin yaxın adamları) oxuyur və bir çoxunu əzbərləyirdilər.

Qurani-Kərim Hz.Peyğəmbərin *(s)* sağlığında onun göstərişi ilə Hz.Əli *(ə)* tərəfindən toplanaraq kitab halına salınmışdır. Quranın Peyğəmbərin *(s)* dövründə yazılıb kitab formasına salınmasına dair birinci dəlil "Əl-Bəyan" təfsirinin müəllifi seyid Əbulqasim Xoyinin sözüdür. O yazır: "Təbərani və İbn Əsakir Şəbinin belə nəql etdiyini deyir: "Peyğəmbərin dövründə altı nəfər Quranı yığıb kitab halına saldı: Ubeyy ibn Kəb, Zeyd ibn Sabit, Muaz ibn Cəbəl, Əbu

Dərda, Səd ibn Ubeyd və Əbu Zəyd.” Qutadə rəvayət edir ki, Ənəs ibn Malikdən Peyğəmbərin dövründə kimlərin Quranın bir yerə yığdığını soruşdular. O dedi: “Hamısı ənsardan olan dörd nəfər: Ubeyy ibn Kəb, Zeyd ibn Sabit, Əbu Zeyd və Muaz ibn Cəbəl.”

Bəzi mənbələrə görə Hz.Peyğəmbərin *(s)* vəfatından sonra Qurani-Kərimin vahid bir kitab şəklində tərtibinə ilk dəfə Yəmamədə baş verən bir döyüşdə Allah kəlamını əzbər bilən yetmişə qədər əshabə şəhid olduqdan sonra, Ömər ibn Xəttabın təşəbbüsü ilə Əbu Bəkrin xəlifəliyi zamanında başlanmış, sonra bu iş Osman ibn Əfvanın xəlifəliyi dövründə davam etdirilmişdir. Xəlifə Əbu Bəkr bu işi Hz.Peyğəmbərin *(s)* əsas vəhy katiblərindən olan Zeyd ibn Sabit olmaqla, Quranı əzbər bilən bir neçə səhabəyə tapşırmışdı. Onlar Hz.Peyğəmbərin *(s)* dövründə dəri, sümük, daş və xurma ağacınınm qabıqları üzərində yazılmış, həmçinin bir çox səhabənin yaddaşına həkk olunmuş ayələrin hər birini Allah kəlamını əzbər bilən iki mötəbər şəxsin şahidliyi ilə qeydə aldıqdan sonra bunları cild halına saldılar. Tərtib edilmiş nüsxə əvvəlcə Əbu Bəkrin, sonra isə Ömərin yanında saxlanıldı. Ömər vəfat edərkən həmin nüsxənin qızı Həfsədə qalmasını vəsiyyət etmişdi.

Xəlifə Osmanı yenidən bu işə sövq edən hadisə isə belə olmuşdur. Hüzeyfə ibn əl-Yəman hicrətin 35-ci ilində suriyalı və iraqlı əsgərlərdən ibarət ordu ilə Azərbaycanda döyüşən zaman şamlılar Ubeyy ibn Kəbin, kufəlilər Abdullah ibn Məsudun, bəsrəlilər isə Əbu Musa Əl-Əşərinin tərtib etdiyi Quranı oxuyur və hərə öz oxuduğu nüsxənin düz olduğunu iddia edirdi. Mədinəyə qayıdan Hüzeyfə Azərbaycanda baş verən hadisələri Osmana çatdırdı. Buna görə Osman Hz.Peyğəmbərin *(s)* yanında katiblik edən məşhur səhabələri bir yerə yığıb Əbu Bəkrin dövründə tərtib edilmiş Quranı onlara vermiş, oradakı ayələri yenidən nəzərdən keçirib dəqiq düzəlişlərlə vahid bir mətn tərtib etməyi tapşırmışdı. Qısa müddət sonra Zeyd ibn Sabitin başçılığı altında olan heyət Quranın vahid mətnini tərtib etdi. Xəlifə Osman həmin mətni dörd, yaxud altı nüsxədə yazdırıb, birini Mədinədə saxladı, digərlərini Şam, Kufə və Bəsrəyə göndərdi. Əvvəlki nüsxələr isə yandırıldı.

Qurani-Kərimin surələri nazil olduğu məkana görə iki yerə bölünür:

1) Məkki surələr – Quranın təxminən 90 surəsi Məkkədə nazil olmuşdur. “Yə eyyuhənnas” (ey insanlar) ifadəsilə başlayan surələr Məkki surələr adlanır. Məkkədə nazil olan surələr nisbətin qısadır. Bu surələrdə Allahın birliyindən, cənnət və cəhənnəmdən, qiyamət günündən və olülərin dirilməsindən bəhs edilir. Məkki surələr özlüyündə üç mərhələyə ayırılır:

1) Birinci Məkkə dövrü (48 surə) – Burada, əsasən, Allahın vəhdaniyyətindən, qiyamət günündən, ölülərin dirilməsindən bəhs edilir. Ulu tanrı çox vaxt Allah, Rəbb deyə adlanır. Həmin surələrdə fəsahət və bəlağət güclü, onların dili şairanədir.

2) İkinci Məkkə dövrü (21 surə) – Bu surələrdə də təkallahlılıqdan, qiyamətdən geniş bəhs olunur.

3) Üçüncü Məkkə dövrü (21 surə) – Bu dövrdə ayrı-ayrı peyğəmbərlərin hekayətləri mühüm yer tutur və surələrin həcmi getdikcə artır.

2) Mədəni surələr – Quranın 24 surəsi Mədinədə nazil olmuşdur. "Yə ey-yuhəlləzinə əmən" (ey iman edənlər) ifadəsilə başlayan surələrə Mədəni surələr deyilir. Bu surələrdə ayrı-ayrı firqələrə, o cümlədən nadir hallarda bütpərəstlərə və xaçpərəstlərə də müraciət olunur, xaçpərəstlərin bəzi ehkamlarına etiraz edilsə də, onlara dost mövqedən yanaşılır. Yəhudilərə və Mədinədəki münafiqlərə isə tez-tez etiraz edilir. Mədinə surələri müsəlman icmasının bir çox dini, hüquqi və əxlaqi ehkamlarını özündə ehtiva etdiyinə görə burada rəsmi üslub üstünlük təşkil edir.

Qurani-Kərimdə hökmü qalxan ayəyə "mənsux", o ayənin hökmünü qaldıran ayəyə isə "nasix" deyilir.

Qurani-Kərimin ayələri başa düşülmə baxımından iki yerə bölünür:

1) Möhkəm ayələr – yəni oxunub əksəriyyət tərəfindən başa düşülən ayələrə deyilir.

2) Mütəşabih ayələr – yəni oxunub əksəriyyət tərəfindən başa düşülməyən ayələrə deyilir.

Qurani-Kərimin surələri ayələrinin çoxluğuna görə dörd yerə bölünür:

1) Əssəbi-əttüvəl – Bu surələrin ayələrinin sayı iki yüzdən yuxarıdır və bu surələr yeddidir: Bəqərə, Ali-imran, Maidə, Ənam, Əraf, Nisa, yeddinci surəni bəziləri Yunis, bəziləri isə Kəhf hesab edirlər.

2) Əl-Məul – Ayələrinin sayı yüzdən yuxarı iki yüzdən aşağı olan surələrə deyilir. Tövbə, Nəhl, İsra, Hud, Yusif, Ənbiya, Taha, Muminin, Saffat.

3) Məsani – Ayələrinin sayı əllidən yuxarı yüzdən aşağı olan surələrdir. Bu surələrin sayı təqribən iyirmidir.

4) Müfəssəl – Qurani-Kərimin sonundakı kiçik surələrə deyilir.

Quran hafizləri bunlardır: Hz.Əli *(ə)*, Abdullah ibn Məsud, Ubey ibn Kəb, Zeyd ibn Sabit, Əbu Dərda, Əbu Əyyub Ənsari, Səd ibn Ubeyd, Əbu Zeyd, Abdullah ibn Abbas (r.a) və s. Qurani-Kərim hicri dördüncü əsrin axırlarına qədər kufi, ondan sonra isə nəsx xətti ilə yazılmışdır. Qurani-Kərim ilk dəfə Hz.Əlinin *(ə)* göstərişi ilə şagirdi Əbu Əsvəd əd-Duəli tərəfindən hərəkələnmişdir.

Sünnə

Sünnə dedikdə Hz.Peyğəmbərin *(s)* sözü və əməli nəzərdə tutulur. Hz.Peyğəmbərin *(s)* Əhli-beytindən olan məsum imamlar Peyğəmbər sünnəsini müstəqil şəkildə nəql edənlər və onun elminin xəzinədarları hesab olunurlar. Sünnə üç yerə bölünür:

1) Qavli – Hz.Peyğəmbərin *(s)* sözləri;

2) Feli – Hz.Peyğəmbərin *(s)* əməlləri;

3) Təqriri – Hz.Peyğəmbərin səhabələr bir iş görəndə onu təsdiqləməsi və ya susması və ya onu təsdiqləməməsi.

Təfsir elmi

Qurani-Kərimin ayələrini izahlı şəkildə açıqlayan elmə təfsir elmi deyilir. Təfsir elmi Hz.Peyğəmbər *(s)* dövründə təşəkkül tapmağa başlamışdır. Bütün faktlar göstərir ki, Allah kəlamının ilk təfsirçisi də elə Hz.Peyğəmbərin *(s)* özü olmuş, izahları ilə təfsir elminin əsasını qoymuşdur. "Qurani-Kərimin mənasını yalnız Muhəmməd *(s)* anlayar" hədisi bunu açıq-aydın sübut edir. Səhabələr Quranda yazılmış ayrı-ayrı sözlərin və gizli məqamların təfsirini Hz.Peyğəmbərdən *(s)* xahiş edir, özlərinin həyatında onun cavablarından istifadə edirdilər. İlk təfsirçi Hz. Peyğəmbərdən (s) sonra Abdullah ibn Abbas sayılır. O, "Tərcümanul-Quran" təfsirinin müəllifi kimi tanınmış, miladi tarixi ilə 686-cı ildə vəfat etmişdir.

Hicri təqviminin ilk iki əsrində müsəlman aləmində yazılı Quran təfsiri demək olar ki, yox idi. Ayrı-ayrı səhabələr və tabeindən olan şəxslər tərəfindən Quranın bəzi ayələrinə şərhlər verilsədə, bunlar bütöv Quranı əhatə etməməklə yanaşı, həm də şifahi formada idi. Hz.Əli *(ə)* ibn Əbu Talib, Abdullah ibn Abbas, Abdullah ibn Məsud, Ubeyy ibn Kəb, Cabir ibn Abdullah, Həsən Bəsri və b.-nın dilindən rəvayət edilən və Quranın seçmə ayələrini əhatə edən təfsirlər çox sonralar toplanaraq qələmə alındı. Təfsirlə adətən, mühəddislər-hədis alimləri məşğul olurdular.Təfsirin mənbəyi olaraq Quran, Peyğəmbərin hədisləri və səhabələrin sözləri əsas götürülürdü. Yəhya ibn Ziyad Fərra hicri 3/miladi 9-cu əsrin ortalarına kimi yaşamış alimlər arasında bəlkə də yeganə şəxsdir ki, Quran təfsirində kamil və müstəqil kitab yazmağa müvəffəq olmuş və həmin kitab günümüzə qədər gəlib çatmışdır. IX əsrin ikinci yarısından başlayaraq, sırf təfsir kitabları yazılmağa başlandı. Artıq Quran tədqiqatçıları bu və ya digər ayənin nazil olma səbəblərini, möhkəm ya mütəşabih olduğunu, nəsx olub-olmadığını müstəqil şəkildə araşdırmağa başladılar.

X əsrin əvvəllərindən etibarən, təfsirçilik inkişaf etməyə başladı. Yazılan təfsirlər əsasən iki hissəyə bölünürdü:

1) Rəvayət təfsirləri – belə təfsirlərdə yalnız hər bir ayə haqqındakı hədis və rəvayətlər toplanırdı. Müəllif yalnız bu və ya digər ayənin barəsində Peyğəmbərdən, səhabədən və imamlardan rəvayət olunmuş hədisləri, səhabə və tabeinin əxbarını qeyd etməklə kifayətlənir, özündən heç bir şərh vermirdi.

2) Dirayət təfsirləri – belə təfsirlərdə isə müəllif yeri gəldikcə hədislərə müraciət etsədə, öz ictihadından faydalanmağı da unutmurdu. Bu dövrün təfsirləri arasında "Təfsiri-Təbəri", "Təfsiri-Təbərsi" əsərləri xüsusi yer tutur. Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsi Qaraqoyunlu dövründə başlanmış[70], lakin təəssüf ki, bu tərcümələr əlyazma şəklində qalıb nəşr edilməmişdir. Quranın Azərbaycan dilində "Kəşf əl-həqaiq ən nukət əl-ayati vəd-dəqaiq" adı altında nəşr edilmiş ilk tərcümə və təfsiri Bakı qazisi Mir Məhəmməd Kərim Ağaya məxsusdur. Üç cilddən ibarət olan bu tərcümə-təfsir "Kaspi" qəzetinin

[70] Əzizə Cəfərzadənin araşdırması

Buxariyyə mətbəsində I-II cildlər 1904; III cild isə 1906-cı ildə nəşr olunmuşdur.

Bundan iki il sonra Şeyxülislam Məhəmməd Həsən Mövlazadə Şəkəvinin "Kitabul-bəyan fi təfsir əl-Quran" adlı iki cildlik tərcümə-təfsiri 1908-ci ildə Tiflisin "Qeyrət" mətbəsində çap olundu. Şəkəvi orijinal yolla gedərək Quran ayələrinin tərcüməsini əsasən dırnaq içində, təfsirini isə dırnaqdan kənarda vermişdir.

Hədis elmi

Peyğəmbər və məsumlardan bizə gəlib çatan kəlamlara hədis deyilir. Hədislərin yazılması Peyğəmbərin (s) vəfatından sonra qadağan edilmişdir. Bu qadağa əməvi xəlifəsi Ömər ibn Əbdüləziz tərəfindən götürülmüşdür. Abbasilər xilafətinin ilk dövründə yaşamış məhşur hədis alimlərinin fəaliyyəti yalnız bir sahə ilə məhdudlaşmır, onlar hər tərəfli biliyə malik, hədis, rical, təfsir, ərəb qrammatikası və s. elmləri mükəmməl mənimsəmiş insanlar idi. Hicri ikinci əsrin ortalarında yaşamış bu şəxslər bir növ "rəvayət körpüsü" rolunu oynayırdılar. Bunların ən məşhurları Süleyman ibn Mehran, Əməş (v.765), Əbdürrəhman ibn Ovzai (v. 774) və Süfyan Səvri (v. 779) idi. Təsadüfi deyildir ki, hədis kitablarının əksəriyyəti hicrətin I əsrinin sonlarından V əsrədək olan dövrlərdə tərtib edilmişdir.[71]

Əhli-sünnənin "Kitabus-sittə" adlandırılan altı hədis toplusu bunlardır:

1) "Səhihi-Buxari" (810-870)
2) "Səhihi-Müslim" (821-875)
3) "Sünəni-Əbu Davud" (817-889)
4) "Sünəni-Tirmizi" (815-893)
5) "Sünəni-ibn Mace" (824-887)
6) "Sünənin-Nəsai" (829- 915)

Bunlardan başqa aşağıdakı əhli-sünnə alimlərini də qeyd edə bilərik:

1) Malik ibn Ənəs – "Əl-Müvətta"
2) Abdullah ibn Mübarək – "Kitabus-sünən"
3) Təyalisi – "əl-Müsnəd"
4) Əhməd ibn Hənbəl – "əl-Müsnəd"

Əhli-şiənin "Kitabu-ərbəə" adlanan dörd məşhur hədis toplusu bunlardır:

1) Şeyx-Küleyni (878-941) – "Üsuli-Kafi"
2) Şeyx Səduq (928-992) – "Mən lə yəhziruhul fəqih"
3) Şeyx Tusi (998-1067) – "Əl-İstibsar"
4) Şeyx Tusi – "Təhzibul-Əhkam"

Bunlardan əlavə aşağıdakı alimləri də qeyd edə bilərik:

[71] Geniş məlumat üçün bax: İbrahin Quliyevin "Hədisşünaslığın əsasları" Bakı, Elm-2013, əsərinə

1) Əbu Abdullah Məhəmməd ibn Xalid Bərqi. O İmam Kazim *(ə)*, İmam Rza *(ə)* və İmam Təqinin *(ə)* səhabəsi olmuşdur. Onun təfsir, hədis, tarix, rical, kəlam və s. sahədə kitabları olsa da günümüzə gəlib çatmamışdır. Müəllif öz kitablarının bir çoxunu "Məhasin" adı altında birləşdirmişdir.

2) Əbul Həsən Əli ibn Hüseyn ibn Babiveyh. O İmam Həsən Əskərinin *(ə)* səhabəsi olmuşdur. Məhşur şiə alimi Şeyx Səduqun atasıdır.

3) İbn Qövliveyh. Əsl adı Əbul Qasim Cəfər ibn Məhəmməd Qummidir. Məşhur əsəri "Kamil-üz-ziyarət" kitabıdır.

4) Kəşşi. Əsl adı Məhəmməd ibn Ömərdir. Məhşur əsəri "Mərifətu-əxbar-ir-rical" kitabıdır.

5) Əhməd ibn Məhəmməd Bazanti. İmam Kazim *(ə)*, İmam Rza *(ə)* və İmam Təqinin *(ə)* səhabəsi olmuşdur. Məhşur əsərləri "Came" və "Məsail"-dir.

6) Əbu Cəfər Məhəmməd ibn Həsən Qummi. İmam Həsən Əskərinin *(ə)* səhabəsi olmuşdur. "Əl-əşrəbə" (içkilər), "Əl-əyman vən-nüzur " (andlar və nəzirlər), "Əl-Hüdud" (şəriət cəzaları), "Əs-səlat" (namaz) və s. kitabların müəllifidir.

Mübarək gün və gecələr

1) Cümə günü – Cümə önəmli hadisələrin meydana gəldiyi çox xeyir və fəzilətli bir gündür. Hz.Peyğəmbər *(s)* buyurmuşdur: "Üstünə günəşin doğduğu ən xeyirli gün cümə günüdür. Adəm *(ə)* həmin gün xəlq edilmiş, həmin gün cənnətə qoyulmuş və həmin gün cənnətdən çıxarılmışdır. Cümə günündə bir saat vardır ki, hansı mömin həmin saatda Allahdan bir şey istəsə Allah onun istədiyini qəbul edər." İslamda dörd dini bayram var:

1) Ramazan bayramı,

2) Fitr bayramı,

3) Qurban bayramı,

4) Qədiri-Xum bayramı;[72]

2) Mövlud gecəsi – Bu gecə Hz.Peyğəmbərin *(s)* mövludu ilə bağlıdır. İnsanların qurtuluşu üçün göndərilən Hz.Muhəmməd *(s)* 570-ci il rəbiul-əvəl ayının 17-si, əhli-sünnəyə görə isə 12-si Məkkədə anadan olmuşdur.

3) Rəqaib gecəsi – Rəcəb ayının ilk cümə gecəsi "Rəqaib gecəsi" adlanır. Bu gecə Allahın rəhmət və bağışlanmasının bol olduğu, duaların qəbul edildiyi mübarək bir gecədir. Hz.Peyğəmbər *(s)* buyurur: "Beş gecə vardır ki, onlarda edilən dualar geri qaytarılmaz. Bunlar: rəcəb ayının ilk cümə gecəsi, şəban ayının 15-ci gecəsi, cümə gecələri, ramazan bayramı gecəsi və qurban bayramı gecəsidir."

4) Merac gecəsi – Merac besətin onuncu ili şiə alimlərinə görə rəbiül-əvvəl ayının 12-si, sünni alimlərinə görə isə rəcəb ayının 27-si miladi tarixi ilə 620-ci ildə baş vermişdir.

---

[72] Bax: Seyid Əli Sistani, İzahlı şəriət məsələləri

5) Bəraət gecəsi – Şəban ayının 15-ci gecəsi "Bəraət gecəsi" adlanır. Borcdan, cinayət və cəzadan qurtulmaq mənasını daşıyan Bəraət günahlardan təmizlənmək deməkdir. Eyni zamanda bu gecə on ikinci İmam Hz.Mehdi *(ə)* hicrətin 255-ci ili Samirədə anadan olmuşdur.

6) Qədr gecəsi – Dinimizin müqəddəs kitabı Qurani-Kərim bu gecə nazil olmağa başlamış, Hz.Muhəmməd *(s)* bu gecə peyğəmbər seçilmiş və İslam günəşi bu gecə doğmuşdur. Hz.Peyğəmbər *(s)* bu gecənin fəziləti haqqında belə buyurur: **"Kim ki, fəzilətinə inanaraq və mükafatını Allahdan gözləyərək Qədr gecəsini ibadətlə keçirərsə, onun keçmiş günahları bağışlanar.**

Hz.Peyğəmbərin *(s)* xanımları

1) Xədicə binti Xuveylid;–Peyğəmbərdən *(s)* əvvəl Əbu Haleyi Təmimi və Ətiq ibn Aidi ilə ailə qurmuşdur. Birincidən Hind adlı oğlu, ikincidən isə Hind adlı qızı dünyaya gəlmişdir. Hz.Peyğəmbər *(s)* Xədicə ilə 595-ci ildə ailə qurmuşdur. Bu zaman Hz.Peyğəmbərin *(s)* iyirmi beş, Xədicənin isə qırx yaşı olmuşdur. Bu evlilikdən Hz.Peyğəmbərin *(s)* dörd qızı, iki oğlu dünyaya gəlmişdir. Qızları Zeynəb, Ruqiyyə, Ümmü Gülsüm və Hz.Fatimə (s.ə), oğlanları isə Qasim və Abdullah olmuşdur. Hz.Fatimədən (s.ə) başqa Peyğəmbərin *(s)* bütün övladları onun sağlığında vəfat etmişdir. Hz.Fatimə (s.ə) Hz.Peyğəmbərdən *(s)* yetmiş beş gün sonra vəfat etmişdir. Hz.Xədicə isə besətin onuncu ili miladi tarixi ilə 620-ci ildə vəfat etmişdir. Hz.Xədicə vəfat edənə qədər Hz.Peyğəmbər *(s)* heç bir xanımla evlənməmişdir.[73]

2) Sevda binti Zəma – Səqran ibn Əmrin arvadı olmuş, islamı qəbul edib əri ilə Həbəşistana hicrət etmişdir. Ərinin ölümündən sonra qoca olmasına baxmayaraq Hz.Peyğəmbər 623-cü ildə onunla evlənmişdir.[74]

3) Aişə binti Əbu Bəkr – Hz.Peyğəmbər *(s)* onunla altı yaşında nişanlanmış, doqquz yaşında 624-cü ildə evlənmişdir.[75]

4) Həfsə binti Ömər – Hüneys ibn Hüzafənin arvadı idi. Əri ilə birlikdə Mədinəyə hicrət etmiş, 625-ci ildə ərinin ölümündən sonra Hz.Peyğəmbər *(s)* onunla evlənmişdir.[76]

5) Zeynəb binti Hüzeymə – Əri Ubeydə ibn Harisin vəfatından sonra Hz.Peyğəmbər *(s)* 625-ci ildə onunla evlənmişdir.[77]

6) Ümmü Sələmə – Əsl adı Hind binti Əbu Umeyyədir. Əri Əbu Sələmə 626-cı ildə öldükdən sonra Hz.Peyğəmbər *(s)* onunla evlənmişdir.[78]

---

[73] Muhəmməd Həmidullah, Peyğəmbərimizin (s) həyatı; A.Köksal, İslam tarixi; Salih Suruç, Peyğəmbərimizin həyatı

[74] Həmin mənbə

[75] Həmin mənbə

[76] Muhəmməd Həmidullah, Peyğəmbərimizin (s) həyatı; Salih Suruç, Peyğəmbərimizin həyatı

[77] Həmin mənbə

[78] Həmin mənbə

7) Reyhanə binti Zeyd – Bəni-Nəzir qəzvəsində əsir düşüb islamı qəbul etdikdən sonra Hz.Peyğəmbər *(s)* 626-cı ildə onunla evlənmişdir.[79]

8) Cüveyriyyə binti Haris – Bəni-Müstəliq qəzvəsində əsir düşüb islamı qəbul etdikdən sonra Hz.Peyğəmbər *(s)* 627-ci ildə onunla evlənmişdir. Bu evliliyə İslam tarixində "xeyir-bərəkətli" evlilikdə deyilir. Çünki bu evlilik sayəsində bütün Bəni-Müstəliq qəbiləsi islamı qəbul etmişdir.[80]

9) Zeynəb binti Cahş – Peyğəmbərin *(s)* oğulluğu Zeyd ibn Haris onu boşadıqdan sonra Allahın əmri ilə (Əhzab surəsinin 4-6, 36-40-cı ayələri əsasında) Hz.Peyğəmbər *(s)* 627-ci ildə onunla evlənmişdir.[81]

10) Səfiyyə binti Huyeyy – Xeybər döyüşündə əsir düşüb islamı qəbul etdikdən sonra 628-ci ildə Hz.Peyğəmbər *(s)* onunla evlənmişdir.[82]

11) Meymunə binti Haris – Hüdeybiyyə sülhündən sonra Hz.Peyğəmbər *(s)* 628-ci ildə onunla evlənmişdir.[83]

12) Ümmü Həbibə binti Əbu Süfyan – Hz.Peyğəmbər *(s)* 629-cu ildə onunla evlənmişdir.[84]

13) Mariyya əl-Qiptiyyə – Misir hökmdarı Müqəfqis onu cariyə kimi Peyğəmbərə göndərmiş, islamı qəbul etdikdən sonra Hz.Peyğəmbər *(s)* 629-cu ildə onunla evlənmiş və bu evlilikdən Hz.Peyğəmbərin *(s)* İbrahim adlı oğlu dünyaya gəlmişdir.[85]

---

[79] Şeyx Abbas Qumi, Rəsulullah
[80] Həmin mənbə
[81] Həmin mənbə
[82] Muhəmməd Həmidullah, Peyğəmbərimizin (s) həyatı
[83] Həmin mənbə
[84] Həmin mənbə
[85] Salih Suruç, Peyğəmbərimizin (s) həyatı

II FƏSİL

RAŞİDİLƏR DÖVRÜ (632-661)

Hz.Peyğımbərin *(s)* vəfatından sonrakı dövr İslam tarixində Raşidilər dövrü adlanır. Bu dövr hicri tarixi ilə on birinci ildən qırxıncı ilə, miladi tarixi ilə 632-ci ildən 661-ci ilə qədər davam etmişdir. Raşidi xəlifələri aşağıdakılardır:

1) Əbu Bəkr 632-634
2) Ömər ibn Xəttab 634-644
3) Osman ibn Əfvan 644-656
4) Hz.Əli ibn Əbu Talib 656-661
5) İmam Həsən *(ə)* 661(altı ay).

Əbu Bəkr ibn Əbu Quhafə (632-634)

Əbu Bəkr ibn Əbu Quhafə Osman ibn Amirin oğludur. Hz.Peyğəmbərdən *(s)* iki il sonra 572-ildə Məkkədə anadan olmuşdur. Anası Ümmül Xeyr Süləmi binti Səxr ibn Amirdir. Əsl adı Əbdüluzza və ya Əbdül Kəbə olmuş, islamiyyətdən sonra Hz.Peyğəmbər *(s)* adını dəyişərək Abdullah qoymuşdur. Künyəsi Əbu Bəkr, ləqəbi isə Ətiqdir.

Hicrət zamanı Hz.Peyğəmbərlə *(s)* birlikdə Məkkədən Mədinəyə hicrət etmişdir. Bu hadisə ilə əlaqədar Tövbə surəsinin 40-cı ayəsi nazil olmuşdur: *"(Ey möminlər!) Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna (Əbu Bəkrə): "Qəm yemə, Allah bizimlədir! – dediyi zaman (göstərmişdi). O vaxt Allah ona arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə dəstəkləmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"*

Təfsir kitablarında qeyd olunduğuna görə ayə Əbu Bəkrin hicrət zamanı müşriklərin yaxınlaşmasından qorxaraq həyacan keçirdiyi zaman nazil olmuşdur. Hicrətdən sonra Mədinədə Hz.Peyğəmbərin *(s)* iştirak etdiyi bütün döyüşlərdə iştirak etmişdir.

Hz.Peyğəmbərin *(s)* vəfatından sonra Bəni-Saidə eyvanında toplanan bir dəstə ənsar və mühacirin iştirak etdiyi məclisdə Əbu Bəkr İslam xəlifəsi təyin edilmişdir. İslami hökumət məsələsilə əlaqədar olan ixtilaf Hz.Peyğəmbərin *(s)* vəfatının ilk günlərindən başlamışdır. Hz.Peyğəmbər *(s)* vəfatından bir az əvvəl Usamə ibn Zeydi romalılarla müharibə aparmaq üçün orduya sərkərdə təyin edib buyurdu ki, bütün mühacir və ənsar böyükləri bu orduda iştirak etsinlər. Bu

ordu Mədinədən üç mil məsafədə yerləşən Cörf məntəqəsində düşərgə saldı. Bəzi səhabələr Hz. Peyğəmbərin (s) xəstəliyinin şiddətləndiyini görüb Mədinədə qalmağı üstün tutdular.

Səqifə hadisəsi və Əbu Bəkrin xəlifə seçilməsi

Bir qrup səhabələr Hz.Peyğəmbərin *(s)* vəfatından sonra Bəni Səqifədə toplanaraq xəlifə seçmək işi ilə məşğul oldular. Eyvan altına toplaşanların fikri bu idi ki, müsəlmanların xəlifəsi ənsar və mühacirlərin arasından seçilsin. Hər iki dəstə-mühacir və ənsar özlərini digərindən üstün hesab edirdilər. Məkkə əhalisi İslamın Məkkədə zühur etməsi, Peyğəmbərin onlardan olması, özlərinin Peyğəmbərin qohumu olması ilə öyünərək deyirdilər ki, müsəlmanların hakimi gərək mühacirlərdən olsun. Ənsar isə belə deyirdi: Məkkə bütövlikdə Peyğəmbərin dəvətini qəbul etmədi. Onunla mübarizə apardı. Ona olmazın əziyyətini verdilər ki, məcbur olub Məkkəni tərk edərək bizim yanımıza, Yəsribə gəldi. Ənsar ona yardım göstərib İslama dəstək verdi. Bütün bunlara görə müsəlmanların xəlifəsi gərək ənsardan seçilsin. Bu fikirlə razılaşmayan bəzi ənsar nümayəndələri belə dedilər: "Bir nəfər sizdən, bir nəfər də bizdən hakim seçilsin." Lakin bu fikirlə razılaşmayan Əbu Bəkr dedi: "Belə bir addım müsəlmanların birliyinə ziyandır." Sonda bu hədisi söylədi: "İmamlar Qureyşdəndir." Onun belə mühüm bir yerdə söylənməsinin böyük təsiri oldu və ənsarın iddiasına son qoydu.

Bu hədisdən əlavə, bu işdə Ovs və Xəzrəc qəbilələri arasında olan keçmiş düşmənçilikdə mühacirlərin qələbə çalmasında az rol oynamamışdı. Belə ki, əgər ənsar hakimiyyətə gəlsəydi, bu iki qəbilədən heç biri digərinin hakim olmasına razı olmayacaqdı.

Xəzrəc qəbiləsindən olan Bəşir ibn Sədin Əbu Bəkrin sözünü təsdiq etməsi, mühacirlərin hökumətinə razılıq verməsi bu narazıçılığın ən bariz nümunəsidir. Mühacirlərin hakimiyyəti aydınlaşdıqdan sonra hakim olacaq şəxs barədə söhbət ortaya çıxdı. Məclisi idarə edən iki-üç nəfər bu işi bir-birinin üzərinə qoydular. Lakin sonda Ömər ibn Xəttab və Əbu Ubeydə əl-Cərrah Əbu Bəkrin hakimliyini qəbul edib onunla beyət etdilər. Məclisdə iştirak edənlərin əksəriyyəti onların gördüyü işi təkrar etdilər.

Növbəti gün onlar Peyğəmbər məscidinə gəldikdən sonra Ömər Əbu Bəkrin fəzilətli olması haqda, İslamı ilk vaxtlar qəbul etməsi, dinə yardımçı olması və Peyğəmbəri Məkkədən Mədinəyə gələn zaman müşayiət etməsi haqda xütbə oxuyaraq xalqın onunla beyət etməsini istədi. Məsciddə iştirak edənlərdən Peyğəmbərin *(s)* yaxın qohumlarını və ənsarın kiçik bir hissəsini çıxmaq şərti ilə qalanlar Əbu Bəkrə beyət etdilər və Əbu Bəkr İslamın ilk xəlifəsi seçildi.

Həmin məclisdə çıxış edən Əbu Bəkr belə dedi: "Məni hakim təyin etməyinizə baxmayaraq, sizin içərinizdə ən yaxşısı deyiləm, bu məsuliyyəti öhdəmdən götürməyə hazıram. Mən müsəlmanların işinin idarə olunmasında Allah kitabına və Peyğəmbər sünnəsinə əməl edəcəyəm."

Əbu Bəkrin xilafəti dövründə baş verən hadisələr

Riddə hadisələri: Məlum olduğu kimi, öz qəbilələrinin müqəddaratını həll edən bir dəstə şeyxlər qorxudan və tamahdan İslamı qəbul etmişdilər. Onlardan bəziləri Peyğəmbərlə görüşmüş, bəziləri isə Peyğəmbəri görməməklə bərabər onun dediklərindən də xəbərsiz idilər. Beləliklə, onlar İslam şəriətinin əsasları ilə tanış deyildilər. Bir sıra qəbilələr İslamın vacib qanunlarından sayılan zəkatı ödəməkdə çətinlik çəkirdilər. Onlar Peyğəmbərin vəfat xəbərini eşitdikdən sonra baş qaldırıb əmrdən çıxmağa başladılar. Bir neçə yalançı peyğəmbərlər də xalqı aldadaraq öz ətraflarına toplamışdılar.

Məkkədə yaşayan Qureyş, Taifdə yaşayan Səqif qəbiləsi İslam dinində qaldılar. Peyğəmbərin vəfatı xəbəri Məkkəyə çatdıqda Məkkənin hakimi İtab ibn Useyd qorxusundan qaçıb gizləndi. Məkkə əhlinin də dindən dönəcəyindən hamı qorxurdu. Elə bu an Süheyl ibn Əmr Kəbənin qarşısında dayanıb dedi: "Ey Məkkə əhalisi! Məbada siz sonuncu müsəlman və ilk olaraq dindən üz döndərənlərdən olasınız! And olsun Allaha ki, İslam dininin işləri düzələcək. Peyğəmbərin vədəsi yerinə yetəcəkdir." Süheylin bu çıxışı Məkkənin İslam dinindən çıxmasının qarşısını aldı. Bu həmin Süheyl idi ki, Hüdeybiyyə sülhü imzalandıqda "Rəhman" kəlməsini müqavilədən çıxartdırmışdır. Lakin qısa müddət ərzində dərk etmişdi ki, yeni dinin müqabilində müqavimət göstərmək faydasız və imkansızdır. Qureyşdən olan bəziləri imanlı müsəlman olmuş, qəbilə başçılarının bir çoxu isə öz xeyrlərini müsəlmançılıqda görüb xəlifə ilə həmkarlıq edirdilər. Nəcd, Yəmamə və Bəni-Tağlib qəbilələri yalançı peyğəmbərlərin ətrafına toplaşdıqdan sonra bu peyğəmbərlərin fəaliyyəti daha da genişlənmişdi.

Əbu Bəkrin xilafəti dövründə hər an dindən çıxanların Mədinəyə hücumu gözlənilirdi. Bütün bunları nəzərə alan xəlifə, Usamənin qoşununu Mutəyə göndərmək istəmədi. Lakin Usamə və bəzi böyük səhabələr xəlifəyə bildirdilər ki, nəyin bahasına olursa-olsun, gərək bu iş yerinə yetirilə. Çünki Peyğəmbər *(s)* ömrünün son anlarında bu qoşunu yola salmaq istəyirdi. Sonda xəlifənin göstərişinə əsasən Usamənin qoşunu hərəkət etdi. Sonrakı hadisələrdə üsyançıların məğlub edilməsində bu işin nə qədər təsirli olduğunu göstərdi.

Usamənin qoşununu yola saldıqdan sonra xəlifə və onun müşavirləri iğtişaşları bir-birinin ardınca yatırmağa başladılar. Ərəbistanda sakitlik yaratmaq üçün Xalid ibn Vəlidin rolu böyük olmuşdur. Nəhayət peyğəmbərlik iddiası edənlər, o cümlədən Tuleyha ibn Xuveylid, Səccah, Müseylimətul-Kəzzab və Əsvədül-Ans bir-birinin ardınca ya tutuldular, ya da qaçıb aradan çıxdılar. Cənub və şərqdə yerləşən şəhər və qəbilələr yenidən Mədinəyə tabe oldular. Həzrə-Maut sakitləşdi, Yəmən də kiçik müqavimətdən sonra təslim oldu.

Bu qalmaqallar yatırıldıqdan sonra baş vermiş ən mühüm hadisə bu oldu ki, artıq bədəvilər və qəbilə başçıları başa düşdülər ki, müqavimət göstətməyin və daxili münaqişələrin sonu gəlib çatmışdır. İslam hökumətinə tabe olub Əbu

Bəkrə itaət etmələrinin onların xeyrinə olduğunu hiss etmişdilər. Böyük çətinliklə də olsa Riddə hadisələri xəlifə Əbu Bəkrin qələbəsilə sona çatdı.

Əbu Bəkrin xilafəti dövründə Sasanilərə qarşı edilən döyüşlər

Xəlifə Əbu Bəkr Sasani imperiyasının əlində olan İraq bölgəsini fəth etmək üçün Bəhreyndə mürtədlərlə vuruşan Əla ibn Hədraminin yanında vuruşan Bəni Şeyban ibn Sələbə qəbiləsinə mənsub Müsənna ibn Harisi kiçik bir dəstə ilə şimala göndərdi. Şimala doğru hərəkət edən Müsənna yürüşə davam edərək Şəttul-Ərəbə qədər irəliləyib bu bölgədə olan İran orduları ilə bir neçə döyüş apardı. Bundan xəbər tutan xəlifə Əbu Bəkr Xalid ibn Vəlidi İraq tərəfə Sasani sərkərdəsi Hörmüzə qarşı göndərdi. Bəsrədə Suveyd ibn Qutbə ilə birləşən Xalid ibn Vəlid iranlılara qarşı döyüşməyə başladı. Daha sonra Hirəyə gələn Xalid, Hirə xalqı ilə hər il 90 min dirhəm cizyə ödəmək, İranlılara qarşı müsəlmanların tərəfini tutmaq şərti ilə sülh bağladı.[86]

Hirənin fəthindən sonra Əbu Bəkr Xalid ibn Vəlidi İraqdan çağırıb Şama göndərdi. Bu ərəfədə Xalid icazəsiz olaraq həccə getmiş, bu işə görə Əbu Bəkr onu danlamış və cəza olaraq İraq ordusuna rəhbərlik vəzifəsindən azad etmişdir. Lakin bu heçdə məntiqi səbəb ola bilməz. Çünki Əbu Bəkr və onun tərəfdarları çox uzaqgörən olmuşlar və bilirdilər ki, belə çətin anda layiqli sərkərdəni işindən uzaqlaşdırmaq olmaz. Həqiqət bundan ibarətdir ki, Hirədə bağlanan sülhü ilə Ənbar və Aynut-təmir şəhərləri tutulduqdan sonra müsəlmanların şərq bölgəsindəki mövqeləri möhkəmləndi. Digər tərəfdən də göndərilmiş qoşunun Rum imperiyası tərəfindən məğlub edilməsi təhlükəsi olduğundan Əbu Bəkr Xalidi Şama göndərir. Şamda baş verən hadisələrdən də məlum olur ki, Xalidin vəzifəsinin dəyişilməsi müsəlmanlar üçün faydalı olmuşdur.

Xəlifə Əbu Bəkr yardım olaraq İraq bölgəsinə İyaz ibn Qanəmi ilə Kaka ibn Əmri göndərdi. Ubullaya yaxınlaşan Xalid ordusunu üç yerə ayırıb bir hissəsini Müsənna ibn Harisin başçılığı ilə irəliyə göndərdi. Müsənnanın ardınca Ədiyy ibn Hatəmi, onun ardınca da özü hərəkət etdi. İslam ordusu Xəfir adlı məntəqədə Hörmüzün başçılığı altında olan İran ordusu ilə qarşılaşdı. Baş verən döyüşdə sərkərdə Hörmüzün ölümü ilə əlaqədar olaraq İran ordusu məğlub edildi.[87]

Vəlәcə və Ulleysdə baş verən döyüşlər

İran ordusunun bu məğlubiyyətindən sonra müsəlmanlar Qubaz və Ənuşəcanın başçılığı altında olan iran ordularını da məğlub etdilər. İslam ordusundan intiqam almaq istəyən sasanilər yenidən Vəlәcə adlı məntəqədə toplandılar. Lakin 633-cü ildə baş verən Vəlәcə döyüşündə də Xalidin başçılığı altinda olan İslam ordusu sasaniləri məğlub etdi. Vəlәcə döyüşündə Bəkr ibn Vail qəbi-

[86]Tarixi-Təbəri, II cild, səh-307.
[87]Tarixi-Təbəri, II cild, səh-309-310.

ləsinə mənsub olan xristian ərəblərin öldürülməsi ilə əlaqədar olaraq intiqam almaq istəyən Bəni Bəkrlilər Ulleys adlı məntəqədə toplandılar. Bundan xəbər tutan İran Kəsrası yardım olaraq Cabanın başçılığı altında olan ordunu Ulleysə göndərdi. Buna əsasən Ulleysə gələn Xalid ərəb rəislərindən olan Malik ibn Qeysi öldürməklə iran ordusunu məğlub etdi. Ulleysdəki qələbədən sonra İslam ordusu Əmgişiyanıda ələ keçirdi.[88]

Hirə şəhərinin fəthi

Vəlәcə və Ulleys hadisələrindən sonra Əmgişiyanı ələ keçirən Xalid ibn Vəlid Hirəyə doğru hərəkət etdi. Hirənin mərzbanı Azazbeh Xalidlə döyüşməyə çalışsa da məğlub oldu. Mühasirədə olan Hirəlilər başqa çarə qalmadığını görüncə Xalid ibn Vəlidə cizyə verməyə razı oldular. Nəticədə 190 min dirhəm cizyə vermək şərtilə sülh bağlandı. Hirənin fəthindən sonra ətrafdakı qəbilə rəisləri Hirəyə gəlib təslim oldular və vergilər təsbit edildikdən sonra Xalid Zirar ibn Əzvarı, Zirar ibn Xəttabı, Kaka ibn Əmri və Müsənna ibn Harisi Dəcləyə qədər İrana aid olan torpaqlara vali təyin etdi. İranlıları İslama dəvət etdikdən sonra Xalid ibn Vəlid Ənbar şəhərinə doğru hərəkət etdi. Şəhərin valisi Şirzad özünə toxunmamaq şərtilə Ənbar şəhərini müsəlmamlara təslim etdi.[89]

Zibriqan ibn Bədri Ənbara vali təyin edən Xalid Aynut-təmir qalasına doğru hərəkət etdi. Qalanın əmiri olan Mehranın tabeliyində iran əsgərlərindən əlavə Aqqanın başçılığı altında olan Bəni-Nəmr, Bəni-Tağlib və s. qəbilələrdən ibarət olan ərəb əsgərləri də var idi. İlk öncə Aqqa ilə döyüşən Xalid onu məğlub edərək xeyli əsir ələ keçirdi. Aqqanın məğlubiyyətindən xəbər tutan qalanın əmiri Mehran əsgərləri ilə birlikdə qalanı buraxaraq qaçdı. Ələ keçən əsirlər Aqqa ilə birlikdə Xalidin əmrilə edam edildilər.[90]

İyaz ibn Qənəmə kömək məqsədilə Dumətul-Cəndələ gələn Xalid ibn Vəlid burada xristian ərəb sərkərdəsi Ükeydir ibn Əbdülməlikin sülh istəməsinə baxmayaraq onu öldürdü. Xalidin Dumətul-Cəndəldə olduğunu öyrənən xristian ərəblər ilə iranlılar İslam ordusuna arxadan zərbə vurmaq üçün Husayd və Hənəfisdə toplandılar. Bunu öyrənən Xalid Husayda Kaka ibn Əmri, Hənəfisə isə Əbu Leylanı göndərərək düşmən ordusunu məğlub etdi.

Müsənna ibn Harisin İraqdakı fəaliyyəti

Xəlifə Əbu Bəkrin göstərişinə əsasən Xalid ibn Vəlid Müsənna ibn Harisi İraqda qoyub Suriyaya doğru hərəkət etdi. Bundan xəbər tutan İran Kəsrası Hörmüz Cazaveyhin başçılığı altında olan on min nəfərlik ordunu Müsənnanın üzərinə göndərsə də İran ordusu məğlub edildi. Dəcləyə qədər bütün əraziləri ələ keçirən Müsənna yardım istəmək məqsədilə Mədinəyə xəlifə Əbu Bəkrin

[88]Tarixi-Təbəri, II cild, səh-310-315; Tarixi ibn Əsir, II cild, səh-384-389.
[89]Tarixi-Təbəri, II cild, səh-323.
[90]Tarixi-Təbəri, II cild, səh-324.

yanına gəldi. Lakin həmin gün hicrətin 13-cü ili cəmadiəs-sani ayının 21-də (miladi 634, 22 avqust) xəlifə Əbu Bəkr vəfat etmişdir.[91]

Əbu Bəkrin Bizansa qarşı apardığı mübarizə

Yərmuq döyüşü 634-cü il- Xəlifə Əbu Bəkr Xalid ibn Vəlidi İraqın fəthinə göndərdikdən sonra Şam və ətrafı üçün ayrı bir ordu hazırladı. 634-cü ildə hazırlanan bu orduya Əmr ibn As, Yezid ibn Əbu Süfyan, Əbu Ubeydə əl-Cərrah və Şurahbil ibn Həsənə başçı təyin edildi. Bunlardan ilk üçü Qureyşli, sonuncusu isə Qəhtanlı idi. Qələbə qazanılacağı təqdirdə hansı sərkərdənin hansı məntəqəyə vali təyin ediləcəyi qabaqcadan deyilmişdi. Əmr ibn As Fələstinə, Yezid ibn Əbu Süfyan Şama, Şurahbil ibn Həsənə də Ürdündə vali olacaqdı.

İslam ordusunun Şama doğru hərəkət etdiyini öyrənən Bizans imperatoru Herakli Xımsa gələrək döyüş hazırlığına başladı. İslam ordusunu dörd sərkərdənin idarə etdiyini öyrənən Herakli məmnun oldu. Çünki Herakliyə görə bu ordunu ayrı-ayrı məğlub etmək daha asan olacaqdı. Heraklinin Şam, Cəzirə və Ərməniyyədən topladığı orduya Teador başçılıq edirdi. İslam ordusunu məğlub etmək istəyən bu ordu döyüş yeri olaraq Yərmuqu seçdi. Bunu öyrənən müsəlmanlarda birləşərək Yərmuqa doğru hərəkət etdilər. Eyni zamanda Bizans ordusunun da Yərmuqda toplanmasından xəbər tutan xəlifə Əbu Bəkr Xalid ibn Vəlidə göstəriş verdi ki, Müsənna ibn Harisi İraqda öz yerində qoyub Yərmuqa getsin. Yərmuqa gələn Xalid İslam ordusunun vahid sərkərdəsi oldu. 634-cü ildə baş verən Yərmuq döyüşündə çətinliklə də olsa müsəlmanlar qalib gəldi. Bizans ordusunun məğlub olduğunu öyrənən Herakli "Əlvida Suriya əbədiyyən əlvida" deyərək Suriyanı tərk etdi.[92] Yərmuq döyüşü davam edərkən Xalid ibn Vəlid Mədinədən Əbu Bəkrin vəfat etdiyini, onun yerinə Ömər ibn Xəttabın xəlifə seçildiyini xəbər almışdı. Xəlifə olan Ömər, dərhal Xalidin yerinə Əbu Ubeydə əl-Cərrahı ordu başçısı təyin etdi. Lakin orduda parçalanma olmasın deyə Xalid bütün bu xəbərləri qələbədən sonra orduya açıqlamışdı.

Birinci xəlifə Əbu Bəkr ibn Əbu Quhafə 634-cü ildə vəfat edib və qəbri Hz.Peyğəmbərin *(s)* qəbrinin şərq tərəfindədir.[93] Cənazə namazını Ömər ibn Xəttab qılmışdır.

Əbu Bəkrin ailəsi

1) Əbduluzzanın qızı Qatilə ilə evlənmiş və bu evlilikdən Abdullah adlı oğlu və Əsma adlı qızı dünyaya gəlmişdir.

2) Amirin qızı Ümmü Rüman ilə evlənmiş və bu evlilikdən Əbdürrəhman adlı oğlu Aişə adlı qızı dünyaya gəlmişdir.

---

[91]Tarixi ibn Əsir, II cild, səh-415-418.
[92]Tarixi-Təbəri, II cild, səh-335-345.
[93]Tarixi-Təbəri, II cild, səh-348-350.

3) Cəfər ibn Əbu Talibdən dul qalan Əsma ilə evlənmiş və Məhəmməd adlı oğlu dünyaya gəlmişdir.

4) Xaricə ibn Zeydin qızı Həbibə ilə evlənmiş və Əbu Bəkrin vəfatından sonra Ümmü Gülsüm adlı qızı dünyaya gəlmişdir.

Ömər ibn Xəttab 634-644 (h. 13-23)

Ömər ibn Xəttab fil ilindən on üç il sonra 583-cü ildə Məkkədə anadan olmuşdur. Atası Xəttab, anası isə Haşim ibn Muğeyrənin qızı Hənitməədir. Besətin altıncı ilində (miladi 616) İslamı qəbul etmişdir. Onun iman gətirmə hadisəsi müxtəlif cür qeyd olunmuşdur. İbn Əsir yazır: "Ömər müsəlmanlara qarşı kəskin mübarizə apardığı üçün heç kəs onun İslamı qəbul edəcəyinə inanmırdı. Ümmü Abdullah binti Əbi Hintəmə deyir: Mən və ərim Amir ibn Rəbnə İslamı qəbul etdikdən sonra özümüzü qorumaq məqsədilə Həbəşistana getmək qərarına gəldik. Yolda Ömərlə rastlaşdıq. O ərimə dedi: Abdullah getmək istəyirsən? Dedim ki, bəli, biz Allahın geniş ölkəsinə üz tutmuşuq ki, bəlkə Allah bizə sizin əziyyət və işgəncələrinizdən nicat verə. Ömər dedi: Allah amanında. Ərim Amirlə qayıtdıqdan sonra bu hadisə barəsində onunla danışdıqda, ərim dedi: Sən elə düşünürsən ki, Ömər müsəlman olar? Dedim, bəli, mən ümidvaram. Bu deyilənlərin əksinə olaraq Ömər iman gətirdi, onun müsəlman olmasına səbəb bacısı Fatimənin və əri Səid ibn Zeydin müsəlman olması idi. Lakin onlar müsəlman olmalarını Ömərdən gizlədirdilər. Müsəlmanlardan olan Xəbbab ibn Ərət onlara Quranı öyrədirdi.

Bir gün Ömər ibn Xəttab qılıncını götürüb Hz.Peyğəmbəri *(s)* öldürmək üçün evdən çıxdı. Həmin günlərdə Hz.Peyğəmbər *(s)* və müsəlmanlar Səfa yaxınlığında Beytul-Ərqəmdə yaşayırdılar. Yolda müsəlmanlardan olan Nuaym ibn Abdullah onunla rastlaşdı və ondan məqsədini soruşdu. Ömər dedi: Gedirəm Qureyşi bir-birinə vurub onların dinini təhqir edən Muhəmmədi öldürməyə və onu öldürməyincə bu işdən əl çəkməyəcəyəm.

Nuaym dedi: Ömər, nəfsi istəklərin səni aldatmışdır, sənə elə gəlir ki, sən Muhəmmədi öldürsən, Əbdülmüttəlibin övladları səndən əl çəkəcəklər? Sən əvvəl öz ailənin qarşısını al! Çünki sənin bacın Fatimə və onun həyat yoldaşı Səid ibn Zeyd Muhəmmədin dinini qəbul edərək müsəlman olmuşlar.

Bu sözlərdən narahat olan Ömər bacısıgilə getdi. Həmin vaxt Xəbbab ibn Ərət onların evində Ouran təlimi ilə məşğul idi. Ömərin yaxınlaşdığını görən Fatimə Xəbbabı gizlətməklə bərabər Quran səhifələrini gizlətdi. Evə daxil olan Ömər dedi: eşitmişəm Muhəmmədin ardıcılı olmusunuz. Bu sözü deyərək Səid ibn Zeydi döyməyə başladı. Ömərin bacısı ərinə kömək etmək məqsədilə onlara yaxınlaşdıqda Ömər onu da vuraraq başını yardı. Bu zaman Fatimə həqiqəti deyərək buyurdu: Bəli, müsəlman olmuşuq və Muhəmmədə *(s)* iman gətirmişik, nə istəyirsən elə! Ömərin gözü bacısının qana bulaşmış başına sataşdıqda etdiyi işdən peşman olaraq dedi: O vərəqləri mənə ver görüm Muhəmməd nə deyir. Fatimə dedi: Sən murdar və napaksan, Qurana yalnız pak şəxslər to-

xunmalıdır. Ömər yuyunduqdan sonra Quranı götürüb Taha surəsini oxumağa başladı. Onları oxuduqda dedi: Bunlar necə də gözəldir! Bu hadisədən sonra Peyğəmbərin *(s)* yanına gedən Ömər İslamı qəbul etdi."

İslamı qəbul etdikdən sonra Mədinəyə hicrət edən Ömər islami döyüşlərdə iştirak etmışdir.

Xəlifə Əbu Bəkrin yazılı vəsiyyətinə əsasən 634-cü ildə onun vəfatından sonra Ömər ibn Xəttab islam ümmətinin ikinci xəlifəsi təyin edilmişdir.

Ömərin dövründə Sasanilərə qarşı baş verən döyüşlər

1) Körpü (Cisr) döyüşü – 634-cü il

Bu dövrdə İranın kəsrası III Yəzdəgird idi. Hakimiyyəti ələ keçirən III Yəzdəgird qısa müddət ərzində dağınıq Sasani sarayına əl gəzdirdi. Bu vaxt Hirə ətrafında baş verən döyüşdə Müsənnaya məğlub olan İran sərkərdəsi Calinus Mədainə qayıdıb vəziyyəti III Yəzdəgirdə danışdı. Vəziyyətdən xəbərdar olan III Yəzdəgird özünə məxsus Drəfşi-Qaviyan adlı bayrağı Bəhmən Cazaveyhə verərək onu böyük bir ordu ilə Müsənna ibn Harisin üzərinə göndərdi. İran ordusunda bir neçə fil də var idi. İki ordu Fərat çayı sahilində qarşılaşdı. Bu iri cüssəli filləri görən ərəb atları irəli getmək əvəzinə geri qaçırdı. Bunu görən İslam sərkərdəsi Əbu Ubeydə əs-Səqəfi qılınc çəkib fillərə hücum etsə də, fillərin ayaqları altında qalaraq öldü. Başçılarının öldüyünü görən müsəlmanlar qaçmağa başladılar. Müsəlmanlardan biri qoşunun düşmən müqabilində qaçdığını görüb körpünü sındırıb onları hücum etməyə çağırdı. Lakin bunun da bir nəticəsi olmadı. Qaçanlardan bir hissəsi özlərini çaya atdı, az qalmışdı ki, qoşun bütövlikdə tələf olsun. Lakin bacarıqlı sərkərdə Müsənna ibn Haris qoşunu tam surətdə həlak olmaqdan qoruyaraq sağ qalanları Fərat çayının o biri sahilinə keçirtdi. Bu döyüşdə qalib gələn İran ordusu İslam ordusunu təqib etmədən Tisfunda baş verən qalmaqalla əlaqədar olaraq geri qayıtdı.[94]

2) Büveyb döyüşü – 635-ci il

Körpü müharibəsindən sonra bir il müddətincə müsəlmanlar İraqda heç bir hərbi əməliyyat aparmadılar. 635-ci ildə Cərir ibn Abdullah əl-Bəcəlinin başçılığı altında olan İslam ordusu Mədinədən İraqa hərəkət etdi. İraqda Müsənna İbn Harisin qüvvələri də bu orduya qoşuldu. Bu ordu hicri 14/ miladi 635-ci ilin yayında Fərat çayı hövzəsində yerləşən Büveyb adlı bir məntəqədə İran ordusunu darmadağın etdi. Bu dəfə ən qabaq sıraya düzülmüş fillər də Sasani ordusunun köməyinə çatmadı. Döyüş meydanında çoxlu sayda iranlı əsgərin cəsədi qalmışdı. Öldürülənlər arasında iranlı sərkərdə Mehran Mehrbəndzadə də

[94]Bəlazuri, Futuhul-buldan; Tarixi-Təbəri,II cild, səh-366-369; Tarixi ibn Əsir, II cild, səh-438-440.

var idi. Büveyb zəfərindən sonra ərəb süvariləri Fərat çayı sahili boyunca Hirədən tutmuş Kəsgər və Aynut-Təmrə qədər olan ərazilərdə reydlər keçirdilər.[95]

3) Qadisiyyə döyüşü – 636-cı il

III Yəzdəgirdin hakimiyyətə gəlişindən sonra daxili iğtişaşlara son qoyan Sasanilər Fərat çayı hövzəsində hərbi əməliyyatlar apararaq itirilmiş bəzi şəhər və qalaları müsəlmanlardan geri ala bilmişdilər. Bu xəbərlər Mədinəyə çatanda xəlifə Ömər ibn Xəttab çox narahat olmuşdu.

Bu hadisədən sonra xəlifə Ömər ibn Xəttabın göstərişi ilə müxtəlif ərəb qəbilələrindən toplanan ordunun başçısı məşhur sərkərdə Səd ibn Əbu Vəqqas təyin olunaraq Mədinədən İraqa göndərildi. Təmim, Bəni Əsəd, Quzaə, Bəcilə, Bəni Bəkr, Teyy və s. ərəb qəbilələrindən toplanan 25 min nəfərlik ordu İraqın Qadisiyyə adlı məntəqəsində Rüstəm və Firuzanın başçılığı altında olan İran ordusunu məğlub etmişdir. Dörd gün çəkən döyüşdə İslam ordusundan 6000 mücahid şəhid olmuşdu. Sasanilər isə bu döyüşdə 10 mindən çox canlı qüvvə itirmişdilər. İranlı sərkərdə Rüstəm də döyüşdə öldürülmüşdü.[96] Döyüş vaxtı Sasanilərə köməyə gələn ermənilər gözlənilmədən qaçmağa başladılar. Qaçanları təqib edən müsəlmanlar onlardan bir çoxunu qılıncdan keçirdi. Erməni sərkərdələri Muşeq Mamikonyan və Qriqori də öldürüldülər. Alban knyazı Varaz Qriqor da III Yəzdəgirdin tələbi ilə İran ordusunda müsəlmanlara qarşı vuruşmaq üçün İraqa kiçik bir dəstə göndərmişdi. Bu dəstəyə Cavanşir başçılıq edirdi. Döyüşdə üç dəfə yaralanan Cavanşir Fərat çayını keçib qurtula bilmişdi.[97]

4) Mədainin fəthi – 637-ci il

Qadisiyyədə qalib gələn İslam ordusu Səd ibn Əbu Vəqqasın başçılığı ilə Dəclə çayını keçib Sasanilərin paytaxtı Mədaini mühasirəyə aldılar. Şəhərdə kiçik hərbi dəstədən başqa heç kim qalmamışdı. Müsəlmanlar Mədaini demək olar ki, heç bir müqavimətə rast gəlmədən ələ keçirdilər. Mədainin təslim olduğunu eşidən III Yəzdəgird Hulvana qaçdı. İranlıların Bəyaz sarayı məscid halına gətirildi və orada ilk cümə namazı qılındı. Bu İraqda qılınan ilk cümə namazı idi. Səd ibn Əbu Vəqqas saraya daxil olarkən Duxan surəsinin 25-28-ci ayələrini oxumuşdur: **"Onlar neçə-neçə bağlar, çeşmələr qoyub getdilər. Neçə-neçə əkinlər, gözəl yerlər. Və zövq aldıqları neçə-neçə nemətləri tərk etdilər. Bu belədir və onlara başqa bir milləti varis etdik."**

---

[95]Tarixi-Təbəri, II cild, səh-369-370; İbn Kəsir, Əl-bidayətu vən-nihayə, VII cild, səh-56.
[96]İbn Kəsir, Əl-bidayətu vən-nihayə, VII cild, səh-54-55.
[97]Tarixi-Təbəri, II cild, səh-382; Tarixi-Məsudi, II cild, səh-321-328; Tarixi ibn Əsir, II cild, səh-448.

5) Cəlula döyüşü – 637-ci il

Döyüşdən sağ çıxan İran əsgərləri İslam ordusuna ağır zərbə vurmaq üçün Mehran ər-Razinin başçılığı altında yenidən Cəlulu adlı məntəqədə toplandılar. Bundan xəbər tutan xəlifə Ömər Haşim ibn Utbənin başçılığı ilə Səd ibn Əbu Vəqqasa yardım etmək üçün ordu göndərdi. On iki min nəfərdən ibarət olan İslam ordusu çətinliklə də olsa bu döyüşdə qalib gəldi. Bunu eşidən III Yəzdəgird Hulvandan Reyə qaçdı. Hulvana qədər irəliləyən müsəlmanlar buranı da fəth etdilər.[98]

6) Cəzirənin fəthi – 637-ci il

Hicri 17/ miladi 637-ci ildə Səd ibn Əbu Vəqqas, Əbu Musa Əşəri və İyaz ibn Ğanəmin başçılıq etdikləri hərbi dəstələr əl-Cəzirəni fəth etdilər. Xəlifə Ömərin əmri ilə əl-Cəzirə qəsəbəsi əyalət mərkəzi və İyaz ibn Ğanəm də bu əyalətə vali təyin edildi. Malatya şəhərindən Şimali Afrikaya qədər olan məmləkətlər bu əyalətə daxil edildi. İyaz ibn Ğanəm Yərmuq döyüşünün qəhrəmanlarından idi. O, valiliyə başlayandan sonra müxtəlif istiqamətlərdə fəth hərəkatını davam etdirmiş, Diyarbəkir, Urfa, Hərran kimi Şimali Mesopatamiyanın bir sıra şəhərlərini fəth etmişdi. Bu şəhər əhaliləri ilə sülh bağlanmış və yerli əhali cizyə ödəmək şərtini qəbul etmişdi.[99] Daha sonra İyaz ibn Ğanəm Osman ibn Əbul Ası Ərməniyyənin fəthi üçün göndərdi. Qısa müddət ərzində təslim olan ermənilər hər ev başına ildə bir dirhəm cizyə ödəmək şərtini qəbul etdilər.[100] Ardından Ərzurum, Əhlat və Bitlisi fəth edən müsəlmanlar Azərbaycan torpaqlarına daxil oldular.[101]

638-ci ildə iqlim dəyişikliyini nəzərə alan xəlifə Ömər ibn Xəttab müsəlman əsgərlərinə uyğun yerlərin seçilib şəhərlər salınmasını Səd ibn Əbu Vəqqasa göstəriş verdi. Xəlifənin göstərişinə əsasən o da Salman Farisi və Hüzeyfə ibn Yəmanın məsləhətinə əsasən Fərat və Ənbar arasında Kufə və Bəsrə şəhərlərini inşa etdirdi.

7) Əhvazın fəthi – 638-ci il

Əhvaz Bəsrəyə yaxın bir çox İran şəhərlərinin yerləşdiyi böyük bir məntəqə idi. Oranın hakimi iran liderlərindən olan Hörmüzan idi. III Yəzdəgird 638-ci ildə Əhvaz və Fars əyalətlərinin əhalisinə müraciət edərək, onları müsəlmanlarla müharibədə lazımi şəkildə iştirak etmədikləri üçün danladı. Bundan sonra həmin əyalətlər müharibə üçün ciddi hazırlıqlar görməyə başladılar. Bundan xəbər tutan xəlifə Ömər ibn Xəttab dərhal Kufə valisi Səd ibn Asa belə bir məktub yazdı: "Nöman ibn Müqərrinin əmrinə böyük bir ordu ver və Əhvaz əmiri Hörmüzanla döyüşmək üçün göndər." Bu əmrə əsasən Səd ibn As Nömanı böyük bir ordu ilə Əhvaza yola saldı. Bundan əlavə Ömər ibn Xəttab Bəsrədə

[98]Bəlazuri, Futuhul-buldan, səh-377-379; Tarixi-Təbəri, II cild, sən-468-473.
[99]Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqidi, Futuhuş-Şam, Beyrut, tarixsiz, səh-175-181.
[100]İbn Kəsir, Əl-bidayə vən-nihayə, VII cild, səh-126.
[101]Vaqidi, Futuhuş-Şam, səh-175-181.

olan Əbu Musa Əşəriyə də məktub yazaraq yanındakı mücahidlərlə Əhvaza, Nöman ibn Müqərrinə köməyə getməsini əmr etdi. Hörmüzanin sərkərdəlik etdiyi ordunu Nöman ibn Müqərrin Əhvaz ətrafında məğlub etdi. Qaçaraq Tustər qalasına sığınan Hörmüzan qalanın müdafiəsini möhkəmlətdi. Qala müsəlmanlar tərəfindən mühasirəyə alındı və bir müddət sonra qaladakılardan biri Əbu Musa ilə əlaqə quraraq şəhərin gizli girişini ona bildirdi. Gizli girişdən şəhərə daxil olan müsəlmanlar Tustəri fəth etdilər. Çoxlu sayda iran əsgəri, o cümlədən sərkərdə Hörmüzan da əsir alındı. Əsirlikdə olarkən İslamı qəbul edən Hörmüzanı Ömər ibn Xəttab azad edərək özünün müşaviri vəzifəsinə təyin etmişdi.[102]

8) Bəhreyndən İrana açılan cəbhə – 639-cu il

Bəhreyn valisi olan Əla ibn Hədrami Səd ibn Əbu Vəqqasın qazandığı uğurları görüb onunla rəqabət aparmaq üçün xəlifə Ömər ibn Xəttabın xəbəri olmadan Bəhreyn sahillərindən Sasanilarə qarşı bir cəbhə açdı. Gəmilərlə qarşı sahilə çıxan Əla ibn Hədrami İstərx sahillərinə qədər irəlilədi. Lakin çox keçmədən o iranlılar tərəfindən mühasirəyə alındı. Bundan xəbər tutan xəlifə Ömər Utbə ibn Qəzvanı 12 min nəfərlik ordu ilə göndərərək onu azad etdi.

9) Nəhavənd döyüşü – 642-ci il

Cəlula döyüşündən sonra Hulvandan qaçan III Yəzdəgird yenidən əsgər toplamağa başladı. Bu məqsədlə Rey, Kuməs, İsfəhan, Həmədan və Mahan əhalisi ilə məktublaşan III Yəzdəgird böyük bir ordu topladı və bu orduya Firuzanı başçı təyin etdi.[103] Bu əsnada Kufə valisi olan Əmmar ibn Yasir Mədinəyə məktub yazaraq III Yəzdəgirdin fəaliyyətlərindən Ömər ibn Xəttabı xəbərdar etdi. Bundan xəbər tutan xəlifə Ömər ibn Xəttab Sasanilərlə vuruşmaq üçün böyük bir ordu toplanmasını və ordunun sərkərdəliyini Nöman ibn Müqərrinə tapşırdı. Bununla yanaşı xəlifə Ömər Bəsrə, Şam və Ommandakı ordu sərkərdələrinə də göstəriş verdi ki, Cindi Şapura gedib Nöman ibn Müqərrinin ordusuna birləşsinlər. Beləcə bu müəzzəm ordunun baş komandanlığına Nöman ibn Müqərrin, avanqard qüvvələrin başına onun qardaşı Nuaym ibn Müqərrin, digər qardaşı Suveyd ibn Müqərrin sağ cinah qüvvələrin başına, Hüzeyfə ibn Yəman sol cinah qüvvələrin başına, ordunu arxadan qoruyan dəstənin başına isə Mucaşi ibn Məsud təyin edildilər. Bu orduda Müğeyrə ibn Şubə, Cərir ibn Abdullah, xəlifə Ömərin oğlanları Abdullah ibn Ömər və Ubeydullah ibn Ömər, Əmr ibn Madikərb və digər bir çox səhabələr də qoşulmuşdu. Sasanilərin birləşmiş ordusuna isə sərkərdə Mərdanşah Hörmüzd başçılıq edirdi.[104]

---

[102]İbn Kəsir, əl-Bidayətu vən-nihayə, VII cild, səh-140-143.
[103]Tarixi-Təbəri, II cild, səh-518-519.
[104]İbn Kəsir, əl-Bidayətu vən-nihayə, VII cild, səh-180-187.

Hicri 21, miladi 642-ci ilin yayında iki ordu Həmadanla İsfəhan arasında yerləşən Nəhavənd şəhəri yaxınlığında qarşılaşdı. Çərşənbə günü başlayan döyüş üç gün davam etmişdir. Cümə günü döyüş müsəlmanların parlaq qələbəsi ilə başa çatmışdır. Baş verən döyüşdə baş sərkərdə Nöman ibn Müqərrin öldürülmüş, onu Hüzeyfə ibn Yəman əvəz etmişdir.[105] Nəhavənddəki məğlubiyyətdən sonra Sasani ordusu bir daha özünə gələ bilmədi və imperiya sürətlə yıxılmağa başladı. Qalalara çəkilən iranlılar fərdi qaydada müqavimət göstərməyə başladılar.

İslam tarixində Nəhavənddə qazanılmış zəfər "Fəth-ul-futuh" (fəthlər-fəthi) adlandırılmışdır. Belə ki, bu zəfərdən sonra müsəlmanlar İranı başdan-başa, demək olar ki, ciddi bir maneəyə rast gəlmədən fəth etmişdilər. Ömər ibn Xəttab III Yəzdəgirdin müqavimət göstərmək üçün yenidən əsgər toplamasının qarşısını almaq üçün müsəlman hərbi dəstələrinə İranın müxtəlif əyalətlərinə yürüşlər təşkil edərək əhalini itaət altına almaq və Yəzdəgirdə kömək etməkdən çəkindirməyi əmr etmişdi. Qaçan İran ordusu Həmədana getsə də bura Nuaym ibn Müqərrin və Kaka ibn Əmr tərəfindən mühasirəyə alındı. Nəticədə illik vergi vermək şərtilə Həmədan müsəlmanlara təslim edildi.

Bu qələbədən sonra Abdullah ibn Budeyl xəlifənin əmrinə əsasən İsfəhana doğru hərəkət etməyə başladı. İsfəhan hakimi Fədusfan qaladan çıxıb Abdullahın düşərgəsinə gəldi və sülh bağlayaraq İsfəhanı müsəlmanlara təslim etdi. Sülhə görə şəhər əhalisindən kim istəsə köçüb gedəcək, istəməyən isə şəhərdə qalacaqdı. Qalanların canları və mallarının toxunulmazlığına, cizyə ödəmələri şərtilə, zəmanət verilmişdi. Köçüb gedənlərin daşınmaz əmlakı isə müsəlmanlara veriləcəkdi.[106]

Abdullah ibn Budeyl İsfəhanı aldıqdan sonra Yəzdəgirdi təqib etsədə ələ keçirə bilmədi. İsfəhandan Kirmana, oradan da Xorasana gələn Yəzdəgird Mərvdə öldürüldü.[107] Qısa müddət sonra fəth edilmiş Həmədan şəhərinin əhalisi Kaka ibn Əmr ilə bağladıqları əhdi pozaraq üsyan etdilər. Bunu öyrənən xəlifə Ömər Nuaym ibn Müqərrinə Həmədana getməyi əmr etdi. Nuaym qardaşı Suveyd ibn Müqərrinlə birlikdə 12 min nəfərlik ordu ilə Həmədana yürüş etdi. Şəhər əhalisi yenidən sülh bağlamaq istədiklərini bildirdilər. Onların istəyini yerinə yetirən Nuaym sülhü təzələyərək şəhərə daxil oldu. Bu hadisələr baş verərkən Deyləm, Rey və Azərbaycan əhalisi müsəlmanlarla vuruşmaq üçün öz qüvvələrini birləşdirmiş və müharibəyə hazırlaşmışdılar. Azərbaycanlı əsgərlərə Qadisiyyədə öldürülən Rüstəmin qardaşı İsfəndiyar ibn Fərruxzad komandanlıq edirdi. 643-cü ildə Vaci-Ruz adlı məntəqədə baş verən döyüşdə İslam ordusu qalib gəldi. İsfəndiyardan sonra qardaşı Bəhram mübarizəni davam etdirsə də o da məğlub olmuşdur. Sonda İsfəndiyar 644-cü ildə müqavilə bağlamağa razı olmuşdur. Müqaviləyə görə azərbaycanlılar

[105]İbn Kəsir, əl-Bidayə vən-nihayə, VII cild, səh-196-199.
[106]Tarixi-Təbəri, V cild, səh-1966.
[107]Tarixi-Məsudi, II cild, səh-331-334; Tarixi ibn Əsir, III cild, səh-5-16; Tarixi-Təbəri, II cild, səh-531-539.

müsəlmanlara tabe olmalı, vergi verməli, müsəlman əsgərlərini bir gecə gündüz evində saxlamalı idilər. Vaci-Ruz döyüşündən sonra xəlifə Ömərin əmri ilə Nuaym ibn Müqərrin Rey şəhərini mühasirəyə alaraq fəth etmişdi.[108]

644-cü ildə İsfəhan Abdullah ibn Utbənin, Dərbənd Süraqa ibn Əmrin, Xorasan isə Əhnəf ibn Qeysin başçılığı ilə fəth edildi. 642-644-cü illərdə İsfəhan, Təbəristan, Fars, Kirman, Sistan və Xorasan əyalətlərinin fəth edilməsi ilə İran demək olar ki, tamamilə müsəlmanların əlinə keçmiş, beləcə qocaman Sasani imperiyası süqut etmişdir.

643-cü ildə xəzərlərlə müsəlmanlar arasında baş verən Bələncər döyüşündə müsəlmanlar məğlub olmuş və sərkərdə Əbdürrəhman ibn Rəbiə öldürülmüşdür.

Ömərin dövründə Bizansla edilən döyüşlər

1) Əcnadeyn döyüşü – 634-cü il

Bizanslıların Teodorun başçılığı altında Fələstində Cillik adlı məntəqədə 80 min nəfərlik ordu topladığını öyrənən Əmr ibn As xəlifə Ömərdən kömək istədi. Buna görə Xalid ibn Vəlidə İraqdan Suriyaya getməsi əmr olundu. Xalid Hirədən çıxıb Aynut-Təmir çölünü keçdikdən sonra Mərci-Raxit adlı məntəqədə Qəssaniləri məğlub edib Kanat adlı məntəqədə İslam ordusu ilə birləşdi. İlk Suriya şəhəri olan Bustranı ələ keçirən İslam ordusu Əmr ibn Asa köməyə gəldi. Bunu öyrənən Bizans ordusu Cillikdən çıxaraq Əcnadeynə gəldi. Əcnadeyndə baş verən döyüşdə İslam ordusu Teodorun başçılığı altında olan Bizans ordusunu məğlub etmişdir.[109]

2) Fihl (və ya bataqlıq) döyüşü – 635-ci il

Əcnadeyndə məğlub olan Bizans əsgərləri İslam ordusuna zərbə vurmaq üçün Beysan keçidini bataqlıq halına gətirərək Yuxarı Ürdündə Fihl adlı məntəqədə toplandılar. Onların məqsədi müsəlmanları bataqlığa salıb məğlub etmək idi. Lakin baş verən Fihl döyüşündə məğlub olan Bizans ordusu Şama çəkildi. Bahanın başçılığı altında olan Bizans ordusu yenidən Şam yaxınlığında məğlub oldu və Şam müsəlmanlar tərəfindən mühasirəyə alındı.[110]

3) Şamın fəthi – 635-ci il

İslam ordusu Şam üzərinə hərəkət edərək ətrafındakı məntəqələri fəth edib Şamı mühasirəyə aldı. İslam sərkərdələri Əmr ibn As, Xalid ibn Vəlid, Əbu Ubeydə əl-Cərrah, Şurahbil ibn Həsənə və Əbu Dərda idi. Dörd ay davam edən mühasirədən sonra Şam müsəlmanlar tərəfindən fəth edildi.

---

[108]İbn Kəsir, VII cild, səh-200-220.
[109]Tarixi-Təbəri, II cild, səh-447-448.
[110]Futuhul-buldan, tər, səh-166.

4) Mərc əl-Rum döyüşü – 635-ci il

Şamın fəthindən sonra Əbu Ubeydə ilə Xalidin başçılığı altında olan İslam ordusu Mərc əl-Rum adlı məntəqədə Teodorun başçılığı altında olan Bizans ordusunu məğlub etdi.

5) Xımsın fəthi – 635-ci il

Mərc əl-Rumdakı qələbədən sonra müsəlmanlar Xımsa doğru hərəkət etdilər. Xımsın fəthindən sonra Əbu Ubeydə əl-Cərrah Xalid ibn Vəlidi Kinnəsrinə göndərdi. Əl-Xazıra gələn Xalid burada Herakliusdan sonra Bizansın ən böyük sərkədələrindən oln Minasın hücumuna məruz qalsa da, onu məğlub edərək öldürdü. Bu arada Müaviyə ibn Əbu Süfyan Qeysəriyyəni, Əmr ibn As isə Əcnadeni fəth etdi.

6) Fələstinin fəthi – 637-ci il

Fələstin valisi olan Əmr ibn As Qəzzə, Sebastiyə və Nablusu fəth etdikdən sonra fəthlərini davam etdirib Yafa və Refahıda ələ keçirdi. Buranın ardınca Kinnəsrini də alan Əmr ibn As Qüdsü mühasirəyə aldı. Bizans sərkərdəsi Artaban Qüdsə sığındı. Mühasirə uzanınca Qüds əhli xəlifədən amannamə istədikdə, xəlifə Ömər bunu imzalamaq üçün Qüdsə getdi. Xəlifənin imzaladığı amannamədən sonra Qüds müsəlmanlar tərəfindən fəth edildi.

Fələstinin fəthi istər hərbi, istərsə də təbliğat baxımından böyük əhəmiyyət kəsb etmişdir. Çünki müsəlmanların ilk qibləsi olan Əqsa məscidi bu məntəqədə yerləşirdi. Elə bu səbəbdən də xəlifə Ömər şəxsən özü Dəməşqin 80 kilometrliyində yerləşən Cabiyə kəndinə səfər edərək xaçpərəstlərlə möhtərəm davranmış və onların hüquqlarını müəyyən edə biləcək bir saziş bağlamışdı. Şam və Fələstin əhalisi illər boyu Bizans hökumətinin cah-cəlalını gördükdən sonra İslam ordusunun adiliyi, sadəliyi və müsəlman xəlifəsinin mülayim rəftarı ilə üzləşdikdə heyrətə gəldilər.

7) Hicazda qıtlıq

639-cu ildə Hicaz bölgəsində qıtlıq baş verdi. Əhali böyük sıxıntıya məruz qaldı. Buna əsasən xəlifə Ömər valilərə yazdığı əmrnamədə Hicaz xalqına kömək etmələrini onlardan istədi. Əbu Ubeydənin gətirdiyi dörd min dəvə müsəlmanlar arasında paylandı. Əmr ibn As da Qırmızı dəniz yolu ilə yardım göndərdi. Bu sırada xəlifə Ömər müsəlmanlarla yağış duasına çıxdı. Allaha yalvardılar və bol yağış yağdı.[111] Buxari öz "Səhih" kitabında nəql edir ki, quraqlıq illərində Ömər ibn Xəttab, Əbdul Müttəlibin oğlu Abbasın vasitəsilə yağış istəyib belə deyirdi: "Ey Allah, biz Sənə Peyğəmbərimizin vasitəsilə təvəssül edirdik, Sən də yağış göndərirdin. İndi biz Sənə Peyğəmbərimizin əmisinin vasitəsilə təvəssül edirik. Bizə yağış göndər!" Bu zaman yağış yağırdı.[112]

---

[111]Tarixi ibn Əsir, II cild, səh-556-558.
[112]Səhihi-Buxari, II cild, səh-32.

8) Amaves taunu – 639-cu il

Suriyada baş verən bu xəstəlik nəticəsində xeyli sayda insan ölmüşdür. Ölənlərin sırasında Suriyanın ümumi valisi Əbu Ubeydə əl-Cərrah, Yezid ibn Əbu Süfyan, Haris ibn Hişam, Süheyl ibn Əmr və Muaz ibn Cəbəl də var idi.

9) Misirin fəthi – 641 ci il

Suriya, Fələstin və Ürdün bölgələrinin fəthindən sonra Əmr ibn As əmrindəki 3500 nəfərlik əsgərlə Misirə getmək üçün xəlifədən icazə istədi. Misirdəki vəziyyət də eynilə Suriya və İrandakı kimi idi. Bu ölkə miladi tarixinin ilk əsrində Rum imperiyasının tərkibinə daxil edilmişdi. Şərqi Roma imperiyası yarandıqdan sonra paytaxtın Konstantinopola köçməsi ilə xaçpərəstlik bu diyarda geniş surətdə yayılmışdı. Digər tərəfdən də yüz illər əvvəl Fələstini tərk etmiş yəhudilər də Misirdə məskunlaşmışdı. Beləliklə, Misirdə qibtilər, xaçpərəstlər və yəhudilər arasında ixtilaf üçün zəmin yaranmışdı.

615-ci ildə Xosrov Pərviz tərəfindən göndərilən Şəhrburaz 619-cu ildə Misiri ələ keçirdi. Nəticədə Misir əhalisinin vəziyyəti daha da ağırlaşdı.

Misirin özünü müdafiə etmək qüdrətində olmadığını anlayan Əmr ibn As Misirə doğru hərəkət etdi və heç bir müqavimətə rast gəlmədən Biblisə qədər irəlilədi. Orada kiçik bir döyüş oldu və ondan sonra Ummu Dunəyn adlı yerə qədər irəlilədi. Burada onunla imperiya qoşunları arasında döyüş baş verdi. Xəlifə Ömər on dörd min nəfərlik bir qoşunu onun köməyinə göndərdi. Bu qoşuna böyük səhabələrdən Zübeyr ibn Əvvam, Miqdad ibn Əsvər və Ubadə ibn Samit kimi səhabələr də daxil idi. Bu qüvvənin köməyi ilə Bizans ordusunu məğlub edən Əmr ibn As onlarla sülh bağladı. Lakin Herakl bu sazişi bir xəyanət kimi qəbul etdi. 641-ci il Heraklın ölümündən bir neçə ay sonra oğlunun da ölümü ilə 11 yaşlı nəvəsinin hakimiyyətə gəlməsi nəticəsində Misirin müdafiəsi daha da zəiflədi. Bundan istifadə edən Əmr ibn As Ayn-Şəms adlı məntəqədə Bizans ordusunu məğlub edərək Misiri fəth etdi.

10) İsgəndəriyyənin fəthi 642-ci il

Misirin fəthindən sonra Babilyonu ələ keçirən Əmr ibn As xəlifə Ömərə məktub yazaraq İsgəndəriyyənin üzərinə getmək üçün ondan icazə istədi. Xəlifə Ömərin icazəsindən sonra Əmr ibn As 642-ci ildə İsgəndəriyyəyə doğru hərəkət etdi. Babilyon ilə İsgəndəriyyə arasında toplanan Bizans ordusu onun qarşısını almaq istəsələr də Karbun adlı məntəqədə baş verən döyüşdə məğlub oldular. İsgəndəriyyə hakimi Muqəfqis cizyə ödəmək şərtilə təslim olmaq istəsə də imperatorun qorxusundan bunu etmədi. Lakin buna baxmayaraq üç aylıq mühasirədən sonra İsgəndəriyyə də müsəlmanlar tərəfindən fəth edildi. Eyni ildə Əmr ibn Asın təşəbbüsü ilə Fustat şəhərinin əsası qoyulmuşdur.

Problemlərin meydana çıxması

Əbu Bəkrin xəlifə olduğu dövrdə əsgərlər bir tərəfdən dindən xaric olmuşların üsyanını yatırmaqla məşğul olmuş, digər tərəfdən də xəzinəyə az gəlir gəldiyindən müsəlmanların ictimai həyatında köklü dəyişiklik meydana gəlmişdi. İctimai problemlərin Ömərin dövründə meydana gəlməsinə baxmayaraq, Ömər onun qarşısını müəyyən qədər ala bildi. Ən mühüm problemlər bunlar idi:

1. Ömərin on illik xilafəti dövründə müxtəlif millətlər İslam dinini qəbul etdilər. Mədəniyyət və adət-ənənə baxımından təkcə Ərəbistan əhalisi deyil, müsəlman olmuş bütün xalqlar bir-biri ilə kəskin şəkildə fərqlənirdilər. Nəticədə bu adətlər yavaş-yavaş əhalinin sadə həyatına daxil olmağa başladı. Ömər çalışırdı ki, ərəblərin əcnəbi adət-ənənələrini öyrənməsinin qarşısını alsın və o, bu məsələdə yeri gəldikdə onlarla sərt rəftar edirdi. Bəzən Qureyş qəbiləsinin böyüklərindən bir neçəsi onun yanına gəlib cihad etmək bəhanəsilə Ərəbistandan xaricə səfərə getmələrini istəmişlər. Ömər onların əxlaqlarının dəyişməsindən ehtiyat edərək belə demişdi: "Peyğəmbər *(s)* zamanında etdiyin cihad sənə kifayət edər, yaxşısı budur ki, evində otur, nə sən bir nəfəri gör və nə də bir kəs səni görsün."

2. Fəth olunmuş ölkələrin hər biri özünəməxsus məhsuldar əraziyə malik olduğundan bu torpaqlardan lazımınca istifadə etmək zərurəti meydana çıxdı. Bu ərazilərdən faydalı surətdə bəhrələnmək üçün təcrübəli və iş bacaran insanlara ehtiyac duyulurdu, lakin Mədinədə belə təcrübəli adamlar çox az idi.

3. Sülh yolu ilə əldə olunmiş ərazilərin idarə olunması hökumət üçün çətinlik törətmirdi. Çünki sülh müqaviləsinə əsasən onlar İslam hökumətinə vergi ödəyirdilər. Lakin əsgərlərin hücum edərək fəth etdikləri ərazilərin idarə olunması yeni problemlər yaradırdı. Fəth olunmuş ərazilər əsgərlər arasında bölünməli idi. Aydındır ki, Hicazda yaşayan müsəlmanların hər il gəlib bu əraziləri əkib-becərib məhsulunu toplaması və sonradan geri dönməsi mümkün deyildi. Ömərin məsləhəti ilə həmin ərazilər orada çalışan əkinçilərə verildi və onlarla bunun müqabilində hər il vergi ödəmələri haqqında müqavilə bağlandı. İlk başlanğıcda belə bir addımın problem doğuracağı elə də nəzərə çarpmadı, lakin sonralar Osmanın xilafəti dövründə bu məsələ böyük bir çaxnaşmaya səbəb oldu.

4. Hakimlərin, şahzadələrin, zadəganların və torpaq sahiblərinin qoyub qaçdıqları ərazilər, beytul-mala aid olundu və ondan əldə olunan gəlir də xəzinəyə daxil edildi.

Xəlifə Ömər məsləhət gördü ki, fəth olunmuş ərazilərin siyasi cəhətdən idarə edilməsi əvvəldən orada hakim olan məmurların öhdəsində qalsın, lakin onlar da öz növbəsində xəlifə tərəfindən göndərilmiş hakimin nəzarəti altında bu vəzifəni yerinə yetirməli idilər.

İrandan Mədinəyə yetişən qənimətlər o qədər çox idi ki, müsəlmanlar o günəcən bu qədər qənimət görməmişdilər. Xəlifə Ömər qənimətlərin bölünməsi ilə bağlı səhabələr ilə məşvərət etdi. Bəziləri əldə olunmuş qənimətlərin xalq

arasında birdəfəlik bölünməsini dəstəklədi. Sonda qərara gəldilər ki, idarə yaradılsın və buradan müsəlmanlara müəyyən miqdarda pay ayrılsın.

İstişarə-məclisi: Nə zaman mühüm bir məsələ haqqında qərar vermək lazım olurdusa, İstişarə-məclisi toplanır və sərbəst müzakirə, çoxluğun razılığı olmadan heç bir məsələ haqqında qərar verilməzdi. Bu cəmiyyətə mühacir və ənsarların lideri başçılıq edirdi.

Ömərin xilafəti dövründə dövlət Məkkə, Mədinə, Kufə, Bəsrə, Suriya, Fələstin, Cəzirə və Misir olmaqla səkkiz vilayətə ayrılmışdı. Hər vilayətdə vali, baş katib, sahibul-xərac, sahibul-əhdas (polis), sahibul-beytul-mal və qazi yəni, din məmurları fəaliyyət göstərirdi. Dövlət gəlirini xərac və üşürdən (əldə olunan məhsulun onda biri) başqa zəkat, cizyə xumus təşkil edirdi. Eyni zamanda ilk pul və ilk həbsxana da Ömərin dövründə təşkil edilmişdir.

Xəlifə Ömər ibn Xəttab fars əsilli Əbu Lölö ləqəbilə tanınmış Firuz tərəfindən öldürülmüşdür. Qəbri Mədinədə Hz.Peyğəmbərin *(s)* qəbri yanındadır. Cənazə namazını Süheyb Rumi qılmışdır.[113]

Ömər ibn Xəttabın ailəsi

1) Zeynəb binti Mənzun ilə evlənmiş, Abdullah, Əbdürrəhman adlı oğlanları və Həfsə adlı qızı dünyaya gəlmişdir.

2) Muləykə binti Cərvəl ilə evlənmiş və Ubeydullah adlı oğlu dünyaya gəlmişdir.

3) Ümmü Həkim ilə evlənmiş və bu evlilikdən Fatimə adlı qızı dünyaya gəlmişdir.

4) Cəmilə binti Qeyslə evlənmiş və Asim dünyaya gəlmişdir.

5) Hz.Əlinin qızı Ümmü Gülsüm ilə evlənmiş və bu evlilikdən Zeyd adlı oğlu, Rüqəyya adlı qızı dünyaya gəlsə də yaşamamışlar. Bu evlilik barədə tarixi mənbələrdə qeyd olunan fikirlər ixtilaflıdır.

6.Yəməndən olan Lihyə ilə evləndi və Əbdürrəhman adlı oğlu dünyaya gəldi.

Osman ibn Əfvanın xilafəti hicri 24-35, miladi 644-656

Osman ibn Əfvan ibn Əbul As ibn Umeyyə ibn Əbdu-Şəms ibn Əbdul Mənaf əl-Əməvi əl-Qureyşidir. Anası Ərva binti Qureyz ibn Rəbiə ibn Əbdu-Şəms ibn Əbdul Mənafdır. Hz.Peyğəmbərin *(s)* doğumundan beş il sonra miladi tarixi ilə 575-ci ildə Məkkədə dünyaya gəlmişdir. İslamı qəbul etdikdən sonra əvvəlcə Hz.Peyğəmbərin *(s)* qızı Ruqiyyə ilə evlənmiş, 624-ci il (hicrətin ikinci ili) onun vəfatından sonra Hz.Peyğəmbərin *(s)* digər qızı Ümmü Gülsüm ilə evlənmişdir. İslami mənbələrə görə bu evlilikdən sonra ona Zunnu-reyn yəni, "İki nur sahibi" ləqəbi verilmişdir. Həyat yoldaşı Ruqiyyənin xəstələnməsi ilə əlaqədar olaraq hicrətin ikinci ilində baş verən Bədr döyüşündə iştirak etməsədə, digər döyüşlərdə iştirak etmişdir.

---

[113]Tarixi-Təbəri, II cild, səh-559-561; Tarixi ibn Əsir, III cild, səh-52.

Hicrətin 23-cü ili (miladi 644) II xəlifə Ömər ibn Xəttab vəfat etdi. Lakin vəfatından qabaq Hz.Peyğəmbərin *(s)* səhabələrindən olan altı nəfərə – Hz.Əliyə *(ə)*, Osman ibn Əfvana, Zübeyr ibn Əvvama, Səd ibn Əbu Vəqqasa, Əbdürrəhman ibn Ovfa və Təlhə ibn Ubeydullaha tapşırıq verir ki, üç gün ərzində əyləşib məşvərət edərək öz aralarından birini xəlifə seçsinlər.

Əvvəldən məlum idi ki, xilafət ya Əliyə *(ə)*, ya da Osmana çatacaq. Lakin Bəni-Umeyyə tayfası Hz.Əlinin *(ə)* xilafətinə razı deyildi. Şura üzvlərindən olan Əbdürrəhman ibn Ovf da, öz səsini Osmana verdi.

Ötən bəhslərimizdə İraqın cənub və şimalında məskunlaşmış ərəblər haqqında məlumat verdik. Ərəbistanda müxtəlif ərəb tayfalarının və qəbilələrinin yaşaması barədə də şərh verdik. Onlar Ədnanilər və Qəhtanilər olmaqla iki dəstəyə bölünürdü. Sonrakı dövrdə isə cənublular Yəmani, şimallılar isə Qeysi adlandırılmışdır. Qəbilələr arasında düşmənçilik və ixtilaf təbii hal sayılmış, bu düşmənçilik hələ İslamın zühurundan bir neçə əsr qabaq da mövcud olmuşdur. Dinin yayılması, Peyğəmbər təlimləri, xüsusilə o Həzrətin göstərişi ilə ənsar ilə mühacir arasında qardaşlığın bərpa edilməsi, İslami bərabərlik, tayfa üstünlüklərinin ləğv edilməsi sayəsində özünüöymə və fəxr etmə halları müvəqqəti də olsa aradan getmişdi. Ancaq zaman keçdikcə, xüsusilə Qureyş qəbiləsinin müsəlmanlara hakim olacağı aydın olduqdan sonra bu öyünmə və fəxr etmək yenidən dirçəldi. Osmanın xilafətinin ikinci yarısında hər şey yeni rəngə boyandı. Bir tərəfdən əhalinin Peyğəmbər zamanından və Əbu Bəkr dövrünün sadəliyindən uzaqlaşmalarından iyirmi il keçmişdi, digər tərəfdən isə Ömərin Qureyşə qarşı olan sərt rəftarı yox idi. Başlıca məsələ budur ki, belə dövrlərdə rəhbərlik etmək hər əzab-əziyyətə qatlaşmaq, Allaha xatir məsuliyyət hiss etmək tələb etdiyi halda, təmtəraqlı və cah-cəlallı mənsəbə malik olmaq adi hala çevrilirdi ki, bunu da əldə etmək istəyənlər çox idi. Bəni Saidə eyvanı altında Yəmani tayfasından sayılan ənsarın xilafət barəsindəki öz iddialarını mühacirlərin xeyrinə geri götürmələrinə baxmayaraq, onların övladları və yeni müsəlman olmuşlar Misir, Bəsrə, Kufə və Şamın da hakimiyyətindən əl çəkib bütün bu şəhərlərin gəlirlərini Qeysi tayfasına təslim etməyə razı olmazdılar.

Ömər xilafəti dövründə Yəmanilərlə Qeysilər arasında ədalətə riayət etməyə çalışırdı. Əgər bir şəhərə Yəmanilərdən hakim təyin etsəydi, digər şəhərə də Qeysilərdən hakim təyin edərdi. Osman xəlifə olanda Ömər kimi davranacağına və onun təyin etdiyi hakimləri işdən çıxarmayacağına söz vermişdi.

Osman ibn Əfvan Kufənin hakimi Səd ibn Əbu Vəqqası vəzifədən kənar edib yerinə Vəlid ibn Uqbəni vali təyin etmişdi.

Ömərin xilafəti dövründə müsəlmanların xəzinəsinə külli miqdarda gəlirin gəlməsinə, əhaliyə müəyyən miqdarda məvacib təyin edilməsinə baxmayaraq, bir tərəfdən xəlifənin sadə həyat tərzi, digər tərəfdən də onun Qureyşin böyüklərinə və dini ilk əvvəl qəbul edənlərə nəzarət etməsi onların külli miqdarda sərvət toplamalarına imkan vermirdi.

Ömər məvacib paylanması üçün idarə təşkil edən zaman, bir tərəfdən əsgərlərin hüququnu onların neçə müharibədə iştirak etdiklərinə əsasən müəyyən edər, digər tərəfdən isə ənsarla mühacirləri başqalarından üstün tutardı. Ömər vəfat etdikdən sonra Qureyş rahat nəfəs almağa başlayıb yenidən sərvət toplamaqla məşğul oldu. Bir müddət keçdikdən sonra əsgərlər gördülər ki, onlar daim din düşmənləri ilə ön cəbhədə döyüşdükləri halda, bir dəstə adam Mədinədə xoşgüzəran keçirərək beytul-maldan yüksək məbləğdə məvacib alır. Həmçinin yeni müsəlman olmuşlar, onlardan bir neçə il qabaq müsəlman olduqlarına görə, ümumi büdcədən əlavə yardımlar da alırlar.

Ötən fəsillərdə işarə olunduğu və İslam fiqhində də qeyd olunduğu kimi müsəlman olmayan ölkələr müsəlmanlarla sülh bağlamış olsalar onlardan cizyə alınaraq xəzinəyə təhvil verilirdi. Qoşunun döyüşərək əldə etdiyi ərazilər isə fatehlər arasında bölünürdü.

Hicazdan kənarda yerləşən fəth olunmuş ərazilərin məhsulunu toplamaq müsəlmanlar üçün çətin idi. Onlar həmin ərazilərə şəxsən nəzarət etmək istəsəydilər və ya məhsulu toplamaq üçün oraya səfər etməli olsaydılar, bu iş orada çoxlu sayda əhali toplanmasına səbəb olardı.

Xəlifə Osman minbərə çıxaraq camaata belə dedi: "Mənim nəzərim budur ki, sizin payınızı özünüzə qaytarım; belə ki, hər kəs öz evində öz torpağına sahib olsun." Ondan bu işin necə mümkün olacağını soruşduqda belə dedi: Əsgərləri çıxmaq şərtilə bu torpaqların sahibləri öz ərazilərini Hicazda, Yəməndə və başqa yerlərdə əraziləri olanlarla dəyişdirə bilərlər." Bu sözləri eşidən Mədinə əhli sevindi. Çünki, belə olan halda hər kəs özünə yaxın olan ərazidə qalacaqdı. Beləliklə, ərazilərin dəyişdirilməsi prosesi başlandı. Təlhə ibn Ubeydullah, Mərvan ibn Həkəm, Əşəs ibn Qeys və başqaları öz torpaqlarını kiçik ərazi sahibləri ilə dəyişdirdilər və çox keçmədən Hicazda böyük torpaq sahibləri meydana gəldi. Onlar bir tərəfdən məhsuldar torpaqlardan kifayət qədər gəlir əldə edir, digər tərəfdən isə İslamı ilk qəbul etdiklərinə görə başqalarından artıq məvacib alırdılar. Bundan əlavə, onlar xəlifənin də verdiyi hədiyyələrə yiyələnirdilər.

Sonda baş verən narazılıqlar səbəbilə Bəsrə, Kufə və Misir qiyamçıları xəlifənin sarayını mühasirəyə alaraq onu qətlə yetirdilər. Bu hadisə hicratin 35-ci ilində (miladi 656) baş verdi. Xəlifə Osman Xəşşi-Kovkəb (indiki Bəqi) adlı yerdə dəfn edilmiş və cənazə namazını Cübeyr ibn Mutim qılmışdır.[114]

Osmanın dövründə baş verən fəthlər

Xəlifə Əbu Bəkrin dövründə başlayan İraq, İran, Suriya və Misir fəthləri davam etmişdir. Kufə valiliyinə bağlı olan sərkərdələr Azərbaycanda baş qaldıran üsyanları yatırıb Dəmirqapıya qədər irəliləyib bu bölgədə sülhü yenidən bərpa etmişlər. Digər tərəfdən Təbəristan, Xorasan və Sind bölgələrində yeni

[114]Tarixi ibn Əsir, III cild, səh-180; Tarixi-Təbəri, II cild, səh-687-689.

torpaqlar İslam məmləkətinə qatılmışdır. Şərqi Anadoluda Ərzurum, Qars, Gürcüstan və Azərbaycan bölgələrinə səfərlər edilmişdir. Şam valisi Müaviyə ibn Əbu Süfyan Antakya və Tarsus bölgələri ilə Kapadokya və Amuriyyəyə qədər irəliləyib Çukurovada əsgər yerləşdirmişdir.[115]

Şimali Afrikanın fəthi 648 – 648-ci ildə Misir valiliyindən Əmr ibn Ası kənarlaşdıran xəlifə Osman onun yerinə süd qardaşı Abdullah ibn Səd ibn Sərəhi təyin etdi. Daha öncə 646-cı ildə Şimali Afrikaya vali təyin edilən Abdullah bəzi yerləri alaraq illik vergi bağlamışdır. Misirə vali təyin olunduqdan sonra xəlifədən icazə alaraq Şimali Afrikaya keçmiş və köməkçi qoşun istəmişdir. Buna əsasən xəlifə Osman əshabın seçilənlərindən Abdullah ibn Abbas, Abdullah ibn Zübeyr, Abdullah ibn Ömər və Abdullah ibn Əmrin olduğu ordunu Abdullah ibn Sədə köməyə göndərdi. Bərqaya gələn ordu burada Uqbə ibn Nafe ilə birləşdi. Oradan Trablusqərbə (Tripoli) gələn İslam ordusu burada Bizans valisi Qreqorsun hazırladığı ordu ilə Subeytilada qarşılaşdı. Abdullah ibn Səd əvvəlcə Qreqorsu İslama dəvət etmiş, qəbul etməsə cizyə verməyi, bunu da qəbul etməsə müharibə edəcəyini bildirmişdir. Qreqors bu təklifləri rədd etdikdə iki tərəf arasında müharibə başlamış və Bizanslı sərkərdənin ölümü ilə İslam ordusu qalib gəlmişdir. Bu qələbədən sonra Subeytila da müsəlmanlar tərəfindən fəth edilmişdir.[116]

Kiprin fəthi 653 – Suriya valisi Müaviyə ibn Əbu Süfyan xəlifə Ömərin dövründə dəniz donanması yaratmaq istəsə də Ömər buna razı olmamışdır. Xəlifə Osmanın dövründə isə onun razılığı ilə Müaviyə ibn Əbu Süfyan Suriya sərhədlərində dəniz donanması yaratdı. 648-ci ildə Osmanın dövründə Müaviyə Kipri fəth etmək üçün icazə istəmiş və Osman buna razılıq vermişdir. Müaviyə ilə Misir valisi Abdullah ibn Səd gəmiləri hazırlayıb Kipr üzərinə hərəkət etdilər. 649-cu ildə edilən bu səfərdə Kipr fəth edilməsə də illik vergi verməyə razı olmuşdur.[117] 653-cü ildə edilən səfərdə isə müsəlmanlar Kiprlə yanaşı Radosu da ələ keçirmişlər.

Yelkənlər döyüşü 655 – Müsəlmanlar Bizansı Şimali Afrika, Kipr və Anadoluda sıxışdırdığından Bizans imperatoru müsəlmanların dəniz donanmasını yox etmək üçün böyük bir donanma hazırlayıb Ağ dənizə Suriya və Misir sahillərinə göndərdi. Bu donanmanın gəmilərinin sayı beş yüzdən çox olduğu və dəniz üzərində yelkən meşəsi meydana gətirdiyi üçün bu döyüşə "əs-Səvari" yəni Yelkənlər döyüşü deyilmişdir. Bizans donanmasının başında imperator Konstantin, İslam donanmasının başında isə Abdullah ibn Səd du-

---

[115]Tarixi-Təbəri, II cild, səh-591-593; Futuhul-buldan, səh-467-489; Əbdulvəhhab Nəccar, əl-Xuləfau-Raşidin, səh-270-287.
[116]Tarixi ibn Əsir, III cild, səh-88-93.
[117]Futuhul-buldan, səh-218-226; Tarixi-Təbəri, II cild, səh-600-602; Tarixi ibn Əsir, III cild, səh-95-98.

rurdu. Baş verən döyüşdə Bizans donanması məğlub olmuş və imperator yaralanmışdır.[118]

II Bələncər döyüşü 653 – Azərbaycana ilk basqından sonra (639-cu il xəlifə Ömərin dövründə) 646-cı ildə Arrana hücum edən islam ordusuna sərkərdə Salman ibn Rəbiə başçılıq edirdi. Onun ordusu Naxçıvandan çıxaraq Şəki və Gorus istiqamətində hərəkət etdi. Arran ərazisinə daxil olub Beyləqanı fəth edən islam ordusuna yerli əhali cizyə və xərac verməyə razı oldu. Beyləqanın fəthindən sonra Bərdəyə gələn müsəlmanlar Tərtər çayı sahilində düşərgə saldılar. Bərdə əhalisi bir neçə gün müqavimət göstərsə də sonda xərac və cizyə vermək şərtilə müqavilə bağladı. Şəmkirin fəthindən sonra şərq istiqamətində hərəkət edən müsəlmanlar bir-birinin ardınca Qəbələni, Şəkini, Şirvanı, Şabranı da fəth edərək əhalini xərac və cizyə verməyə razı etdilər. Sonra Dərbəndə yetişən müsəlmanlar Xəzərlərlə üz-üzə gəldi. 653-cü ildə İslam ordusu ilə Xəzərlər arasında baş verən II Bələncər döyüşündə də müsəlmanlar məğlub oldu və sərkərdə Salman ibn Rəbiə öldürüldü.

Xəlifə Osmanın ailəsi

1) Hz.Peyğəmbərin *(s)* qızı Ruqiyyə ilə evlənmiş, Abdullah adlı oğlu dünyaya gəlsə də yaşamamışdır.

2) Ruqiyyənin vəfatından sonra Hz.Peyğəmbərin *(s)* digər qızı Ümmü Gülsümlə evlənsə də övladı olmamışdır.

3) Fəhitə binti Qəzvan ilə evləndi və Abdullah adlı oğlu doğulmuşdur.

4) Ümmü Əmr binti Cundəblə evləndi və Ömər, Xalid, Əban, Əmr və Məryəm adlı övladları dünyaya gəldi.

5) Fatimə binti Vəlidlə evlənmiş və Vəlid, Səid və Ümmü Səid adlı övladları dünyaya gəlmişdir.

6) Ümmül-Bənin binti Uyeynə ilə evlənmiş və Əbdülməlik adlı oğlu doğulmuşdur.

7) Rəmlə binti Şeybə ilə evləndi və Aişə, Ümmü Əban və Ümmü Ömər adlı övladları dünyaya gəlmişdir.

8) Nailə binti əl-Qarafisə ilə evləndi və Məryəm adlı qızı doğuldu.

Hz.Əli ibn Əbu Talib 656-661 (hicri 35-40)

Hz.Əlinin mübarək ömrü beş hissəyə bölünür:

1) Hz.Əlinin doğumundan Hz.Peyğəmbərin *(s)* besətinə qədər

2) Hz.Peyğəmbərin *(s)* besətindən hicrətinə qədər

3) Hicrətdən Hz.Peyğəmbərin *(s)* vəfatına qədər

4) Hz.Əli *(ə)* xəlifələr dövründə

5) Hz.Əlinin *(ə)* xilafət dövrü

[118]Tarixi-Təbəri, II cild, səh-618-620.

Tarixi mənbələrə görə Hz.Əli *(ə)* Amul-filinin otuzuncu ilində, rəcəb ayının on üçü, miladi tarixi ilə 599 və ya 600-cü il cümə günü Məkkədə Allahın evi Kəbənin içində anadan olmuşdur. Atası Bəni-Haşim böyüklərindən olan Məkkənin rəisi Əbu Talib ibn Əbdüllmüttəlib, anası isə Fatimə binti Əsəddir. Hz.Əli həm ata, həm də ana tərəfdən Haşimi soyundandır. Əbu Talibin Hz.Əlidən başqa üç oğlu və iki qızı olmuşdur: Talib, Cəfər və Əqil, Ümmü Hani ləqəbilə tanınan Faxinə və Cəmanə. Hz.Əlinin anası Fatimə binti Əsəd allahpərəst olmuş və Hz.İbrahimin *(ə)* hənif dinində həyat sürmüşdür. Hz.Əliyə hamilə olan Fatimə daim Allah dərgahına münacat etmiş və qarşıdakı doğuşun asan olması üçün Allaha yalvarmışdır. Şeyx Səduq və Qəttal Nişapuri Yezid ibn Qənəbdən belə nəql edirlər: "Mən, Abbas ibn Əbdülmüttəlib və Əbdül Uzza tayfasından bir neçə nəfər Kəbənin ətrafında oturmuşduq. Hz.Əlinin anası Fatimə binti Əsəd doqquz aylıq körpəyə hamilə vəziyyətdə ağrı çəkə-çəkə deyirdi: "İlahi. Mən sənə, peyğəmbərlərindən gələnə, Sənin tərəfindən nazil olmuş kitablara iman gətirmişəm. Cəddim İbrahimin sözlərini təsdiq edirəm. Bu evin bünövrəsini qoyan o olmuşdur. Səni and verirəm bu evi tikənin və bətnimdə olanın haqqına bu doğuşu mənim üçün asan et." Yezid ibn Qənəb deyir: "Biz öz gözümüzlə gördük ki, Kəbənin divarı arxadan yarıldı və Fatimə binti Əsəd Kəbəyə daxil oldu. Fatimə gözdən itdikdən sonra divar yenə də əvvəl ki, kimi birləşdi. Biz çox çalışsaqda Kəbənin qapısını açа bilmədik. Üç gün sonra Fatimə qucağında Hz.Əli bayıra çıxdı və belə dedi: "Mən keçmişdəki bütün qadınlardan üstünəm. Çünki Asiya binti Məzahim Allaha elə bir yerdə gizlin pərəstiş edirdi ki, o yerdə yalnız çarəsizlikdən pərəstiş edilməsi mümkün idi. İmran qızı Məryəmi Beytul-Müqəddəsdə döğuş sancısı tutduqda ona nida edilir ki, bayıra çıxsın. Mən isə Allahın evinə daxil oldum, behişt meyvələrindən yedim, bayıra çıxmaq istədikdə nida gəldi ki, ey Fatimə onun adını "Əli" qoy. Nida gəldi ki, "Mən ona öz adımdan götürdüyüm ad qoydum, onu Öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərimdən agahlıq verdim, odur mənim evimdə bütləri sındıran, odur evimin damında azan deyən, məni pak bilən, xoş olsun o kəsin halına ki, onu dost tutar, ona itaət edər, vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar."[119] Hz.Əlinin dünyaya Kəbədə göz açmaqla qazandığı iftixar nə keçmişdə kimsəyə nəsib olub, nə də gələcəkdə kiməsə nəsib olasıdır. Hz.Əlinin Kəbədə dünyaya gəlməsi əhli-sünnənin də qəbul etdiyi bir həqiqətdir. Məşhur əhli-sünnə alimi İbn Səbbağ Maliki "Fisulul-muhimmə" kitabında yazır: "Hz.Əlidən qabaq kimsə Kəbə evində dünyaya göz açmamışdı. Bu fəziləti Allah yalnız Əliyə aid etmiş və bununla da xalqa onun uca məqamını göstərmişdir."[120]

---

[119]Şeyx Səduq, Əmali, 27-ci məclis, 9-cu hədis; Tarixi-Məsudi, II cild, səh-349; Təzkirətul-xəvass, səh-10.
[120]Fisulul-muhimmə, səh-14.

Abbas ibn Əbdülmüttəlibdən belə nəql olunur: “Fatimə binti Əsəd körpəni dünyaya gətirdikdən sonra ona atası Əsədin adını qoyur. Lakin Əbu Talib onunla razılaşmayaraq deyir ki, axşam Əbu Qubeys dağına qalxıb Allahdan istəyək ki, ona ad seçməkdə bizə yardımçı olsun. Əbu Qubeys dağına qalxıb Allaha dua etdikdən sonra Əbu Talib bu beyti oxudu: “Ey zülmət gecənin və parlaq ayın Rəbbi! Öz qəti hökmünlə bizə bu körpənin adını bəyan et!” Bu vaxt “Sizə gözəl, pak, seçilmiş bir uşaq verilib. Onun adı Əlidir və bu ad Əliyyul-Əlanın (Allahın) adından götürülmüşdür” sözləri yazılmış bir lövhə peyda oldu.”[121] Fatimə binti Əsədlə Əbu Talibin allahpərəstliyi və müsəlman olması aşağıdakı məşhur islami mənbələrdə də öz təsdiqini tapmışdır:

1) “Təbəqati ibn Səd”, I cild, səh-202-203
2) İbn Əbil Hədid, “Nəhcül-bəlağənin şərhi”, XIV cild, səh-84
3) “Sireyi ibn Hişam”, I cild, səh-373
4) “Tarixi ibn Kəsir”, II cild, səh-42
5) “Sireyi-Hələbi”, I cild. səh-351-352

Fatimə binti Əsəd Hz.Peyğəmbər *(s)* üçün ana kimi olmuşdur. O, ilk iman gətirənlərdən və Mədinəyə hicrət edənlərdəndir. O, dünyasını dəyişdiyi vaxt Hz.Peyğəmbər *(s)* öz köynəyini onun üçün kəfən etmiş, cənazəsinə namaz qılmış, qəbir sıxıntısından qurtarmaq üçün qəbrinə enmış, ona təlqin buyurmuş və dua etmişdir.[122]

Əbu Talibdə tək Allaha sitayiş etmiş, Hz.Peyğəmbərin *(s)* besətindən sonra ona iman gətirmişdir. Qureyşin şeyxi və rəisi olduğu üçün öz imanını gizli saxlamışdır. Şeyx Səduq nəql edir ki, bir nəfər Abdullah ibn Abbasa dedi: “Ey Peyğəmbərin əmisi oğlu, mənə de görüm, Əbu Talib müsəlman oldumu?” İbn Abbas belə cavab verdi: “Müsəlman olmayan şəxs belə deyərdimi: “Məkkə müşrikləri bilirdilər ki, biz öz övladımız Muhəmmədi qəbul edirik və o, boş sözlərə etina etmir.” Əbu Talib Kəhf səhabələri kimidir. O öz imanını gizli saxladı və zahirən müşrik kimi göründü. Buna görə Allan ona iki savab verdi. İmam Sadiq *(ə)* buyurmuşdur: “Əbu Talib Kəhf səhabələri kimidir. Qəlbində iman vardı, zahirən müşrik görünürdü. Allah ona iki mükafat verdi: Biri imanına, o birini isə təqiyyəsinə görə.”[123] İbn Səbbağ “Fisulul-muhimmə”, mərhum Məclisi “Biharul-ənvar” kitablarında yazırlar: “Bir vaxt Məkkədə qıtlıq oldu. Hz.Peyğəmbər *(s)* var-dövlət sahibi olan əmisi Abbas ibn Əbdülmüttəlibə təklif etdi ki, Əbu Talibi maddi sıxıntıdan çıxarmaq üçün hərəsi onun oğlanlarından birini himayəyə götürsünlər. Onlar Əbu Taliblə görüşdülər və öz təkliflərini ona bildirdilər. Əbu Talib dedi: “Əqil mənimlə qalsın, başqa nə bilirsinizsə onu da edin.” Abbas Cəfəri, Həmzə Talibi, Hz.Peyğəmbər *(s)* isə Hz.Əlini öz himayəsinə götürdü.[124]

---

[121]Əllamə Qunduzi, Yənabiul-məvəddət, səh-260.
[122] (Üsuli-Kafi, II cild, tarix babı).
[123]Şeyx Səduq, Əmali, 89-cu məclis, 12-13-cü hədis.
[124]Fisulul-muhimmə, səh-15.

Hz.Əli Hz.Peyğəmbəri *(s)* addım-addım izləmiş, birbaşa onun tərbiyəsi altında ərsəyə çatmışdır. O Peyğəmbərin əqidə və adətlərinin ardınca getmişdir. Hz.Əli səkkiz yaşınadək Peyğəmbərin himayəsində olmuşdur. Sonra atasının yanına qayıtsa da, bu qayıdış onun Peyğəmbərlə ünsiyyətinə mane olmamışdır. Beləcə, Hz.Əlinin həyatının ilk on ili Peyğəmbərin himayəsində keçmişdir.

Hz.Muhəmməd *(s)* peyğəmbərliyə çatdığı ilk andan on yaşlı Hz.Əli islamı qəbul etmiş, Hz.Peyğəmbərə *(s)* muti olmuşdur. Hz.Əli Peyğəmbərin dəvətini ilk qəbul edən şəxsdir. Bütün islam tarixçiləri və mühəddisləri bu həqiqəti təsdiq edirlər. Muhibbəddin Təbəri "Zəxairul-uqbə" əsərində Ömər ibn Xəttabın dilindən belə nəql edir: "Əbu Ubeydə ibn əl-Cərrah, Əbu Bəkr və başqaları ilə birlikdə oluğum vaxt Hz.Peyğəmbər *(s)* əlini Hz.Əlinin çiyninə qoyub buyurdu: "Ya Əli! Möminlər arasından iman gətirmiş ilk şəxs sənsən. Müsəlmanlardan birincisisən ki, İslamı seçdin. Harun Musa üçün hansı məqamda idisə, sən də mənim üçün o məqamdasan."[125] Təbəri "Tarix" kitabında belə qeyd edir: "Hz.Peyğəmbər *(s)* bazar ertəsi günü peyğəmbərliyə məbus oldu və Əli bir gün sonra İslamı qəbul etdi."

Süleyman Bəlxi "Yənabiul-məvəddət" əsərinin on səkkizinci fəslində Ənəs ibn Malikdən nəql edir ki, Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Mələklər yeddi il mənə və Əliyə salam göndərdilər. Çünki həmin yeddi ildə yalnız mənim və Əlinin dilindən Allahın birliyinə şəhadət kəlmələri səmaya ucalırdı."

"Və ən yaxın qohumlarını qorxut" (əş-Şüəra surəsi, ayə 214) ayəsi nazil olduğu üçün Hz.Peyğəmbər *(s)* Əbdülmüttəlib övladlarını Əbu Talibin evində bir yerə topladı. Hz.Püyğəmbər *(s)* sözə başlayıb buyurdu: "Ey Əbdüllmüttəlib övladları! Allah məni bütün xalqlar üçün, xüsusilə sizin üçün Peyğəmbər göndərmişdir. Mən sizi iki sözə dəvət edirəm. Bu sözləri demək asan, əməl etmək isə çətindir. Bu sözləri deməklə ərəb və əcəmə hakim olarsınız və bütün millətlər sizə tabe olar. Bu söz vasitəsilə behiştə daxil olur, cəhənnəm odundan qurtularsınız. Bu iki söz Allahın birliyinə və mənin Onun Rəsulu olmağıma şəhadət vermənizdir. Mənim bu dəvətimi qəbul edib peyğəmbərliyimə yardım göstərən və ayağa qalxan hər bir kəs mənim qardaşım, canişinim, vəzirim və varisimdir." Kimsə cavab vermədi. Yalnız Hz.Əli *(ə)* ayağa qalxıb şəhadət kəlmələrini izhar edərək dedi: "Dəvətini qəbul edirəm və çağırışına qəlbən cavab verirəm." Hz.Peyğəmbər *(s)* buyurdu: "Ya Əli əyləş!" Hz.Peyğəmbər *(s)* öz sözlərini üç dəfə təkrarladı. Amma Əlidən *(s)* başqa kimsə onun dəvətinə cavab vermədi. Həmin an Hz.Peyğəmbər *(s)* Əbu Talibin evində olanlara buyurdu: "Bu Əli, sizin aranızda mənim qardaşım, canişinim və xəlifəmdir." Bəzi mənbələrdə bildirilir ki, Peyğəmbər *(s)* Əlinin özünə belə buyurdu: "Sən mənim, qardaşım, vəzirim və varisimsən. Məndən sonra xəlifəmdə sənsən."[126]

---

[125]Zəxairul-uqbə, səh-68.
[126]Tarixi-Təbəri, II cild, sən-217.

Bu hadisə İslam tarixində "Yavmul-inzar" və ya "Yavmud-dar" adlandırılmışdır.

Məhəmməd ibn Yusif Gənci və digər alimlər Hz.Peyğəmbərin *(s)* belə buyurduğunu nəql edirlər: "Ümmətlər arasında üç şəxs iman baxımından başqalarından öndədirlər: Bu üç nəfər Əli ibn Talib, Yasin sahibi və Ali-Firon möminidir. Onlar öz zamanlarında doğruçudurlar."[127]

Salman Farisi deyir: "Axirətdə bu ümmətdən Kövsər hovuzunun başında Peyğəmbərə ilk qoşulacaq şəxs İslamı ilk qəbul edən şəxs olacaq. O da Əli ibn Əbu Talibdir."[128]

Bir çox mənbələrin qeyd etdiyinə görə Hz.Peyğəmbər *(s)* ölüm yatağında olarkən üç şeyi vəsiyyət etdi:

1) Əlini ümmətin vəlisi və başçısı bilsinlər

2) Müşrikləri ərəb yarımadasından xaric etsinlər

3) Mədinəyə müxtəlif qəbilələr tərəfindən ezam olunan dəstə və heyətləri özü kimi mükafatlandırsınlar.

Hicrət gecəsi (Leylətul-məbit)

Hz.Peyğəmbərin *(s)* Məkkədən Mədinəyə hicrət etməsi üçün şərait yaradan amillərdən biri də həmin şəhərdə İslamın yayılması idi. Mədinədə İslam dininin yayılmasından, eləcə də bir qrup müsəlmanın həmin şəhərə hicrət etməsindən xəbər tutan Məkkə müşrikəri qorxdu ki, İslam dini həmin şəhərdə qüvvətlənib, sonradan onlar üçün təhlükə mənbəyinə çevrilə. Ona görə də bu təhlükələri aradan qaldırmaq üçün Hz.Peyğəmbəri *(s)* öldürmək qərarına gəldilər. Amma onların çirkin planından Allah Hz.Peyğəmbəri *(s)* "Ənfal" surəsinin otuzuncu ayəsi ilə xəbərdar etdi. Ayədə deyilir: **"(Ya Rəsulum!) Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxardıb qovmaq üçün (Darun-Nədvədə) sənə qarşı hiylə qurdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökürdü. Allah (gizli hiylə quranlara, məkr edənlərə qarşı) tədbir tökənlərin (onlara gözləmədikləri yerdən qəfil bəla göndərib cəzalandıranların, məkri pozanların, məkrə tədbirlə cavab verənlərin) ən yaxşısıdır!"** Bu ayənin nazil olmasından sonra Hz.Peyğəmbər *(s)* Hz.Əlini çağırıb buyurdu: "Ya Əli, Allahın əmri budur ki, Məkkəni tərk edərək Mədinəyə üz tutaq. Amma bu gizli olmalıdır ki, müşriklər bundan xəbər tutmasın. Onları qəflətdə qoymaq üçün mənim yatağım boş olmamalıdır. Allahın əmri budur ki, mənim yatağımda yatasan və mən gizli şəkildə hicrət edim." Hz.Əli buyurdu: "Dediklərini səmimi qəlbdən yerinə yetirməyə hazıram, ya Rəsulallah." Hz.Əlinin haqq və həqiqət yolundakı canfəşanlığını görən Hz.Peyğəmbərin *(s)* mübarək gözləri yaşardı. Elə bu halda Hz.Əlini qucaqlayıb öpdü, sonra onunla vidalaşıb ayrıldı. Hz.Peyğəmbər *(s)*

[127]Kifayətut-talib, 24-cü bab, səh-123.
[128]İhqaqul-həqq, IV cild, səh-153.

besətin on ikinci ilinin rəbiül-əvvəl ayında, miladi tarixi ilə 622-ci ildə Məkkədən Mədinəyə hicrət etmişdir.

Hz.Əlinin bu fədakarlığı müqabilində Hz.Peyğəmbərə *(s)* Qurani-Kərimin "Bəqərə" surəsinin 207-ci ayəsi nazil oldu. Ayədə deyilir: **"İnsanların eləsi vardır ki, Allahın razılığını qazanmaq üçün öz canından keçər. Allah öz bəndələrinə çox mehribandır!"** Təfsirçi və tarixçilərinin rəyinə əsasən bu ayədə Hz.Əli nəzərdə tutulmuşdur. Bu mənbələrdən bəziləri bunlardır:

1) İmam Qəzzali "Ehyaul-ulum", III cild, səh-237
2) Məhəmməd ibn Yusif Gənci Şafii "Kifayətut-Talib", səh-114
3) İbn Səbbağ Maliki "Fisulul-muhimmə", səh-33
4) Cövzi Hənəfi "Təzkirətul-xəvass", səh-21
5) Şəblənci "Nurul-əbsar", səh-82
6) Hakim Həsqani "Şəvahidut-tənzil", I cild, səh-96
7) Əhməd ibn Hənbəl "Müsnəd", I cild, səh-347
8) "Təfsiri-Burhan", I cild, səh-206-207

Həmin gecə İslam tarixində "Leylətul-məbid" gecəsi adlanır. Tarixi mənbələrə görə Hz.Əli Məkkədə üç gün qaldıqdan sonra Hz.Fatiməni (s.ə), öz anası Fatimə binti Əsədi və Fatimə binti Zübeyri götütüb onlarla birlikdə Məkkədən Mədinəyə doğru hərəkət etdi. Hz.Əlinin Qubaya çatdığını öyrənən Hz.Peyğəmbər *(s)* özü onun qabağına getmiş və Hz.Əlinin ayaqlarının şişdiyini, yaralarından qan axdığını gördükdə ağlamağa başlamışdır.

Hicrətdən sonra Hz.Əli

Mədinəyə gələn Hz.Peyğəmbər *(s)* Məscidun-nəbinin inşasından sonra mühacirlərlə ənsarlar arasında qardaşlıq elan etdi. Bu əhd-peymana əsasən biri ənsardan, digəri isə mühacirlərdən olmaqla bütün müsəlmanlar bir-biri ilə qardaş oldular. Hz.Peyğəmbərin *(s)* özü isə Hz.Əlini özünə qardaş edərək belə buyurdu: "Sən mənim, dünya və axirət qardaşımsan."[129]

Hicrətin ikinci ilində Hz.Əli Hz.Peyğəmbərin *(s)* qızı Hz.Fatimə (s.ə) ilə evlənmiş və bu evlilikdən Hz.Həsən, Hz.Hüseyn, Hz.Zeynəb və Hz.Ümmü Gülsüm (və ya Zeynəbi-Suğra) adlı övladları dünyaya gəlmiş, Möhsün adlı övladı isə ana bətnində olarkən siqt olaraq düşmüşdür. Hz.Fatiməni Hz.Əliyə ərə verərkən Hz.Peyğəmbər *(s)* belə buyurmuşdur: "Ya Əli! Allah mənə göstəriş vermişdir ki, Fatiməni (s.ə) sənə ərə verim. Mən onu sənə dörd yüz misqal gümüş mehriyyə müqabilində verirəm."[130]

Mədinəyə hicrətdən sonra Hz.Peyğəmbərlə *(s)* müşriklər arasında bir çox döyüşlər baş vermişdir. Bu döyüşlərin iyirmi yeddisində Hz.Peyğəmbər *(s)* şəxsən özü iştirak etmiş və bu döyüşlər İslam tarixində "qəzvə" adlanır. Bu döyüşlərin yalnız birində , Hz.Peyğəmbərin son qəzvəsi olan Təbuq qəzvəsində

[129]Yənabiul-məvəddət, səh-57, Fisulul-muhimmə, səh-22.
[130]Usuli-Kafi, III cild, səh-360.

Hz.Əli iştirak etməmişdir. Bu döyüşdə Hz.Əli Hz.Peyğəmbərin *(s)* göstərişinə görə Mədinədə qalmışdı ki, münafiqlərin çevriliş cəhdinin qarşısını alsın. Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Hz.Əliyə "Zəyğəmul-ğəzavat" (yəni döyüşlər şiri) deyirdilər. Hz.Əlinin qəhrəmanlıq göstərdiyi döyüşlərə Bədr, Uhud, Bəni-Nəzir, Əhzab, Xeybər, Məkkənin fəthi, Hüneyn və Taif döyüşlərini göstərmək olar. Biz bu döyüşlərdən yalnız ikisi Bədr və Uhud haqqında qısa məlumat verməyə çalışacağıq.

Hz.Əli Bədr döyüşündə

Müşriklərdən üç nəfər Utbə ibn Rəbiə, Şeybə ibn Rəbiə və Vəlid ibn Utbə meydana çıxıb qarşı tərəfdən mübariz istədi. Hz.Peyğəmbərin *(s)* göstərişi ilə müsəlmanlar tərəfindən Hz.Əli, Hz.Həmzə və Ubeydə ibn Haris meydana çıxdı. Hz.Əli Vəlidi öldürdükdən sonra yoldaşlarının köməyinə gedərək onları da öldürdü. Utbə, Şeybə və Vəlidin ölümü ilə müşrik ordusu məğlub şəkildə Məkkəyə qayıtdı. Düşmənin yetmişdən çox döyüşçüsü qətlə yetirildi, bir o qədəri də əsir alındı. Tarixçilərin yazdığına görə düşmənlərin yarıdan çoxu Hz.Əlinin qılıncı ilə cəhənnəmə vasil olmuşdur. Hz.Əlinin qətlə yetirdiyi şəxslər arasında As ibn Səid, Hənzələ ibn Əbu Süfyan, Umeyr ibn Osman, Nofəl ibn Xuveylid, Tueymə ibn Ədiyy kimi Qureyş başçıları da var idi.[131]

Hz.Əli Uhud döyüşündə

Uhud Mədinənin yaxınlığında yerləşən bir dağın adıdır. Bu döyüş hicrətin III ili şəvval ayının yeddisində Uhud dağının ətəyində baş vermişdir. Qureyşin hörmətinin aradan getməsi ilə nəticələnən Bədr məğlubiyyəti yeni bir döyüş üçün şərait yaratmışdı. Bədrdə qətl edilənlərin ailələri, İkrimə ibn Əbu Cəhl, Səfvan ibn Umeyyə kimiləri hələ də Məkkədə yas içində idilər. Bunlar Məkkə əhlini müsəlmanlarla döyüşə təhrik edirdilər. Qureyş kafirlərinə başçılıq edən Əbu Süfyan ibn Hərb xalqı ətrafına toplayıb onları müharibəyə səsləyirdi.

Bu məsələdən xəbərdar olan Hz.Peyğəmbər *(s)* səhabələri ətrafına toplayaraq onlarla məşvərət etdi. Uzun söhbətdən sonra yeddi yüz nəfərlik İslam ordusu Uhud dağı ətrafında öz yerini tutdu. Hz.Peyğəmbər *(s)* arxadan edilən hücumun qarşısını almaq üçün Eyneyn adlı keçidə Abdullah ibn Cubeyrin başçılığı ilə 50 nəfərlik oxçu yerləşdirdi. Baş verən bu döyüşdə də Qureyş döyüşçülərinin çoxu Hz.Əlinin qılıncı ilə dünyasını dəyişmişdir. Müşriklərin bayraqdarı olan Təlhə ibn Əbu Təlhə olduqca güclü bir adam idi və ona Nəbşul-Kəsibə (döyüşçülərin qoçu) deyirdilər. Təlhə də daxil olmaqla müşriklərin doqquz bayraqdarı Hz.Əli tərəfindən qətlə yetirildi. Qureyş döyüşçülərinin ardıcıl olaraq qətlə yetirilməsi düşmən ordusunda qorxu yaratdı. Müşrik ordusu qaçmağa başladı. Bu vaxt Peyğəmbərin *(s)* keçiddə qoyduğu dəstə onun göstərişinə zidd olaraq Abdullahın əmrindən çıxıb qənimət toplamaq üçün keçidi

[131]əs-Sirətun-nəbəviyyə, II cild, səh-273; Tarixi ibn Əsir, II cild, səh-125.

tərk etdi. Bu məqamı gözləyən Xalid ibn Vəlid müsəlmanlara arxadan hücum etdi. Qaçmaqda olan düşmən ordusu yenidən döyüşə başladı. Müsəlmanlar iki tərəfdən hücuma məruz qaldığı üçün qaçmağa başladılar. Döyüşdə Hz.Həmzə Əbu Süfyanın arvadı Hindənin göstərişinə əsasən Vəhşi tərəfindən şəhid edildi. Uhud döyüşündə Hz.Əli və iki nəfərdən başqa Hz.Peyğəmbəri qoruyan yox idi. Hz.Əlinin Uhud döyüşündəki qəhrəmanlığı onun həyat tarixçəsində parlaq bir səhifədir. Bu səhifənin qızılı sətirlərindən Hz.Cəbrailin Hz.Əli haqqındakı nidaları ucalır: "Zülfüqardan başqa qılınc, Əlidən başqa igid yoxdur."[132] Hz.Əlinin və bir neçə nəfərin dözümü sayəsində müşriklər gözlərini Mədinədən çəkib Məkkəyə qayıtdılar. Hz.Əli özü ağır yaralansa da Peyğəmbəri gözdən qoymurdu. Hz.Əli Peyğəmbərin yaralarını təmizlədikdən sonra Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Öz Peyğəmbərinin üzünü qana bulaşdıran qövm Allahın qəzəbinə gəlsin." (Tarixi Yəqubi). Mədinəyə qayıtdıqdan sonra Hz.Peyğəmbər *(s)* Hz.Fatiməyə *(s.ə)* buyurdu: "Ey Fatimə! Götür qılıncı, ərin öz borcunu əda etdi. Allah onun qılıncı vasitəsilə Qureyş böyüklərini məğlub etdi."[133]

Bütün tarixçilərin yazdığına görə Hz.Əli Uhud döyüşündən alnıaçıq çıxmışdır. Bədr döyüşündə olduğu kimi, Uhud döyüşündə də Hz.Əlinin təkbaşına öldürdüklərinin sayı digər müsəlmanlar tərəfindən qətlə yetirilənlərin sayından artıq idi.[134] Görkəmli sünni tarixçilərindən olan İbn İshaq yazır: "Uhud döyüşündəki qalibiyyət Əlinin səbr və dözümü sayəsində əldə olundu."[135]

Hz.Əlinin imaməti haqqında

Hicrətin onuncu ilində Hz.Peyğəmbər *(s)* həcc əməllərini yerinə yetirmək üçün 120 min səhabə ilə Məkkəyə yola düşdü. Bu həcc mərasimi Hz.Peyğəmbərin *(s)* sonuncu həcc ziyarəti olduğu üçün İslam tarixində "Həccətul-vida" (vida həcci) adlanır. Hz.Peyğəmbər *(s)* əməllərini başa vurub Mədinəyə qayıdarkən zilhiccə ayının on səkkizinci günü "Qədiri-xum" adlı məntəqədə dayandı. Çünki ona çox mühüm bir vəhy nazil olmuşdu. Hz.Peyğəmbər *(s)* Allahın əmri ilə Hz.Əlinin vilayət və xilafətini xalqa çatdırmalı idi. Bununla bağlı olaraq Qurani-Kərimin "Maidə" surəsinin 67-ci ayəsi nazil olmuşdu. Ayədə deyilir: **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirməmiş olarsan. Allah səni insanların şərrindən qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"** Bu ayə İslam tarixində və hədis elmində "Təbliğ" ayəsi də adlanır. Bu ayənin nazil olmasından sonra Hz.Peyğəmbər *(s)* göstəriş verdi ki, bütün hacılar bir

[132]Sireyi ibn Hişam, II cild, səh-100; Tarixi ibn Əsir, II cild, səh-107; Nəhcül-bəlağənin şərhi, XIV cild, səh-251.
[133]Kəşful-ğummə, səh-54.
[134]İhqaqul-həqq, VIII cild, səh-359
[135]İhqaqul-həqq, VIII cild, səh-374.

yerə toplansın. Hamı bir-birindən nə baş vermişdir deyə soruşurdu. Hacılar bir yerə toplandıqdan sonra Hz.Peyğəmbər *(s)* göstəriş verdi ki, onun üçün minbər düzəldilsin. Hz.Peyğəmbər *(s)* hamının görə biləcəyi və səsini eşidə biləcəyi minbərə çıxdı. Həzrət uzun bir xütbə söylədikdən sonra Quran və əhli-beyti haqqında belə buyurdu: "Mən Allah tərəfindən dəvət olunmuş və bu dəvəti qəbul etmişəm. Tezliklə sizin aranızdan gedəcək və dünyamı dəyişəcəyəm. Buna görə də, sizin aranızda iki qiymətli əmanət qoyuram. Biri digərindən daha böyük olan Allahın kitabı, o biri isə mənim itrətim, yəni Əhli-beytimdir. Bunlardan möhkəm yapışın ki, yolunuzu azmayasınız. Bunlar Qiyamətə qədər bir-birindən ayrılmaz. Baxın, görün məndən sonra onlarla necə rəftar edəcəksiniz? Kövsər hovuzu kənarında mənə yetişəcək ilk varlıq da bunlardır." Bu hədis İslam tarixində və hədis elmində "Səqəleyn" hədisi adlanır. Səqəleyn sözünü iki cür oxumaq olar: 1. "Səqələyen", onun tək forması "səqəldir", qiymətli və dəyərli, eləcə də müsafirin əmtəəsi mənasın verir. 2. "Siqleyn", onun tək forması "siql"dir, bu da ağır şey mənasını verir. Səqəleyn hədisi aşağıdakı islami mənbələrdə öz təsdiqini tapmışdır.

1. Sünəni-Tirmizi, XIII cild. səh-199
2. Müttəqi Hindi, Kənzul-ummal, I cild, səh-48
3. Səhihi-Müslim, fəzailu Əli ibn Əbu Talib babı
4. Müsnədi-Əhməd, IV cild, səh-336
5. Sünəni-Darəmi, II cild, səh-431
6. Sünəni-Beyhəqi, II cild, səh-148
7. Təhavim, Müşkilül-asar, IV cild, səh-368
8. Usdul-ğabə, II cild, səh-12
9. Əd-Durrul-mənsur, məvəddət ayəsinin təfsirində
10. Müstədrəki-Hakim, III cild, səh-109
11. Xəsaisu-Nəsai, səh-30
12. Təbəqati ibn Səd, II cild, səh-2
13. Tarixi-Bağdadi, VIII cild, səh-442
14. Məcməüz-zəvaid, IX cild, səh-163-164
15. Sireyi-Hələbi, III cild, səh-274
16. Xarəzmi, Mənaqib, səh-93

Səqəleyn hədisindən sonra Hz.Peyğəmbər *(s)* səsini ucaldaraq buyurdu: "Ey camaat! Möminlərə onların özlərindən daha artıq ixtiyar sahibi kimdir? Dedilər: "Allah və Rəsulu daha yaxşı bilir!" Hz.Peyğəmbər *(s)* buyurdu: "Allah mənim mövlam və rəhbərim, mən də möminlərin mövlası və rəhbəriyəm. Onlar üzərində özlərindən daha artıq ixtiyar sahibiyəm!" Sonra buyurdu: "Mən kimin mövlası və rəhbəriyəmsə, Əli də onun mölası və rəhbəridir." Hz.Peyğəmbər *(s)* bu sözü üç dəfə təkrar etdi. Sonra səmaya baxaraq belə buyurdu: "İlahi! Onun dostunu Sən də dost bil, onun düşmənini Sən də düşmən bil. Onu sevəni Sən də sev, onu qəzəbləndirənə Sən də qəzəbli ol, dostlarına kömək et, onu tək qoyub xar edənləri Sən də xar və zəlil et. Haqqı həmişə onunla qərar ver və onu haq-

dan ayırma!" Sonra buyurdu: "Hazır olanlar bu xəbəri burada olmayanlara çatdırsınlar!" Hz.Peyğəmbərin *(s)* söylədiyi bu hədis İslam aləmində "Qədiri-xum" hədisi adlanır. Sonra Həzrət *(s)* göstəriş verdi ki, müsəlmanlar dəstə-dəstə Peyğəmbərin xeyməsi ilə üzbəüz xeyməyə daxil olub, Hz.Əlini canişinlik məqamına görə təbrik etsinlər. Hz.Əlini bu məqamına görə təbrik edənlərdən biri də Ömər olmuşdur. O zaman Ömər ibn Xəttab belə dedi: "Afərin sənə, afərin sənə, ey Əbu Talibin oğlu! Sən mənim, bütün mömin kişi və qadınların mövlası və rəhbəri oldun." Bu zaman İbn Abbas dedi: "Allaha and olsun! Bu əhd-peyman hamının boynunda qalacaqdır."[136] Aşağıdakı islami mənbələr də bu hədisin Hz.Əlinin xəlifəliyi haqqında olduğunu təsdiqləmişlər:

1. Təfsiri-Razi, XI xild, səh-139
2. Müsnədi-Əhməd, IV cild, səh-281
3. Tarixi-Bağdadi, VII cild, səh-290
4. Şeyx Əbdur-Rauf Mənavi Misri, Feyzul-qədir, VI cild, səh-217
5. İbn Hacər, əs-Səvaiq, səh-107
6. Təfsiri-Sələbi, IX cild, səh-6757
7. Xarəzmi, Mənaqib, səh-217
8. Şeyx Təbərsi, Məcməul-bəyan
9. Əllamə Əmini, Əl-Qədir

Əhli-Sünnə tarix və təfsirçiləri də bu barədə azacıq fərqlə məlumat vermişlər. Onlar da təbliğ ayəsinin zilhiccə ayının 18-də Qədir-xumda Hz.Əli haqqında nazil olmasını təsdiqləyirlər. Əbu Səid Xudri deyir: "Peyğəmbər *(s)* camaatı Əliyə itaət etməyə səslədi. Onun qolundan tutub yuxarı qaldırdı. Onlar hələ bir-birlərindən ayrılmamışdılar ki, "əl-yovm" (Maidə surəsi, ayə 3) ayəsi nazil oldu. Hz.Peyğəmbər *(s)* buyurdu: "Allahu-Əkbər, Allahu-Əkbər! Allah öz dinini kamil etdi, nemətini bizə tamamladı. Mənim risalət və peyğəmbərliyimdən, məndən sonra isə Əlinin vilayətindən razıdır!"[137]

Hz.Peyğəmbərin *(s)* "mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" buyuruğu sünni mənbələrində nəql olunmuşdur. Amma "mövla" kəlməsi müxtəlif mənalara malik olduğundan bəzi alimlər hədisdə mövla kəlməsinin dost mənasında işləndiyini bildirmişlər. Onlar uyğun hədisi "mən kimin dostuyamsa Əli *(ə)* də onun dostudur" mənasında qəbul edirlər. Bu mənanı ibn Səbbağ Maliki də öz "Fisulul-muhimmə" kitabında bəyan etmişdir. Təəssüb üzündən həqiqəti görə bilməyənlərə cavab olaraq "mövla" kəlməsinin müxtəlif mənalarını açıqlamağa çalışacağıq. Mövla sözünün aşağıdakı mənaları vardır:

1) İxtiyar sahibi, bəndə, azad olmuş, azad edən, qonşu, həmpeyman, dost, yardımçı. Bu mənalardan bəziləri Allahın kitabı olan Quranda da işlənmişdir. "Duxan" surəsində qohum mənasını; "Muhəmməd" surəsində dost mənasını;

[136]İrşad, I cild, II bab, 50-ci fəsil.
[137]Hakim Həsqani, Şəvahidut-tənzil, 212-ci hədis.

“Nisa” surəsində həmpeyman; “Əhzab” surəsində isə azad etmiş mənasında işlənmişdir.

Mövla kəlməsinin dostluq mənasında təbir olunması dəlil tələb edir. Əks təqdirdə, belə bir mənalandırma üsul elminə ziddir. Bu baxımdan yalnız “ixtiyar sahibi” mənasının dəlilləri vardır. Allahın Peyğəmbərin *(s)* bu işi görməsini onun risaləti üçün şərt bilməsi məsələnin ciddiliyindən danışır. “Mövla” kəlməsinin yalnız “ixtiyar sahibi” mənası ciddi mahiyət daşıyır. Əgər bu kəlməni ixtiyar sahibi kimi qəbul etsək, söhbətin Peyğəmbərdən sonra kimin onun canişini olacağından getməsi aydınlaşar. Ayə Cöhfə yaxınlığındakı Qədiri-xumda nazil olmuşdur. Cöhfəyə çatan hacılar bir-birindən ayrılaraq öz vətənlərinə gedirdilər. Artıq onların bir yerə toplanması mümkünsüz olurdu. Hz.Peyğəmbər *(s)* yaxşı bilirdi ki, Hz.Əli döyüşlərdə bir çox düşmənlərin həyatına son qoyduğu üçün onların qohumları Hz.Əliyə qarşı kinlidir. “Allah səni insanların şərrindən qoruyacaq” vədi də Əliyə qarşı kinin mövcudluğundan danışır.

İkincisi, Hz.Peyğəmbər *(s)* mövla mövzusunda danışmazdan qabaq “mən sizin ixtiyar sahibiniz deyiləmmi”, deyə soruşur. Hamı Həzrətin bu məqama malik olduğunu təsdiqləyir. “Mövla” kəlməsinin ixtiyar sahibi mənasında olması həmin bu cümlədən aydın görünür.

Üçüncüsü, Hz.Peyğəmbər *(s)* Hz.Əlinin mövlalıq məsələsinə toxunduqdan sonra göstəriş verir ki, Əliyə əmir ünvanında salam verilsin. Əgər məqsəd dost olsaydı, Hz.Peyğəmbər *(s)* buyurardı ki, ona bir dost olaraq salam verin. Ömər ibn Xəttabın “mənim mövlam hər bir kişi və qadının mövlasıdır ” deməsi də Hz.Əlinin *(ə)* vilayətini təsdiqləyir.

Dördüncüsü, ən məşhur sünni kitablarında da yazılmışdır ki, ilahi fərmanın bəyanından sonra bu ayə nazil olmuşdur: **“Bu gün dininizi kamil etdim və sizə olan nemətimi tamamladım. Sizə din olaraq İslamı seçdim.” (Maidə surəsi, 3-cü ayə).** Hz.Peyğəmbər *(s)* buyurur: “Dininin kamilləşməsi, nemətlərinin tamamlanması, mənim risalətimə və məndən sonra Əlinin vilayətinə Allahın razılığına təkbir!”

Beşincisi, haqqında danışılan ayədən qabaq Allah buyurur: “Kafirlər dininizdən əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun.”

Hz.Əlinin xəlifə seçilməsi

Osmanın qətlindən sonra müsəlmanlar Peyğəmbər məscidində toplanıb gələcək xəlifənin kimliyi barədə söhbətə başladılar. Əmmar ibn Yasir, Malik ibn Haris Əştər, Rəfaə ibn Rafe və digər Əli aşiqləri xalqı həzrətə beyət etməyə çağırdılar. Nəticədə, həm mühacirlər, həm də ənsar yekdil olaraq Hz.Əliyə beyət etməyə hazır oldular. Bu məqsədlə onlar Hz.Əlinin evinə gələrək dedilər: “Ya Əli, Osman qətlə yetirildi və müsəlman ümməti xəlifəsiz qaldı. Əlini ver sənə beyət edək. Bu məqama səndən layiqli birisi yoxdur. Bütün müsəlmanlar səmimi qəlbdən sənə beyət etməyə hazırdırlar.” Hz.Əli onların məsciddə toplanmasını istədi.

Hz.Əli xəlifəliyinin əvvəlində üç böyük çətinliklə qarşılaşdı. 1) Abdullah ibn Ömər, Səd ibn Əbu Vəqqas kimi tanınmış şəxslərdən bir qrupu Həzrətə beyət etmədilər. 2) Osmanın Müaviyə ibn Əbu Süfyan kimi valilərindən hər biri istədikləri kimi iş aparırdılar. Onları hakimiyyətdən uzaqlaşdırmaq çətin idi. 3) Osmanın qətli yenicə baş verdiyindən itaətsizliyə əl atanlar bu işi bəhanə gətirirdilər.

Hz.Əli xalqın beyətindən sonra qərara gəldi ki, ləyaqətsiz hakimləri işdən uzaqlaşdırsın. Bunların yerinə saleh adamlar təyin olunmalı idi. Bu məqsədlə Hz.Əli Cərir ibn Abdullah vasitəsilə Müaviyə ibn Əbu Süfyana məktub göndərib onu öz xilafətindən xəbərdar edib beyət etməsini istədi. Lakin özü xəlifəlik arzusunda olan Müaviyə Hz.Əlinin məktubunu Şam əhlindən gizlədi və xalqdan özü üçün beyət aldı. Hətta Həzrətin məktubuna cavab da vermədi. O, cavabı yubandırmaqla öz məqsədlərini həyata keçirmək üçün fürsət əldə etdi. Planlarını həyata keçirmək üçün daha çox fürsət əldə etmək istəyən Müaviyə Hz.Əliyə qarşı başqalarını qaldırıb onun başını qatmaq istədi. Bu məqsədlə Zübeyr ibn Əvvama məktub yazıb bildirdi ki, Şam əhlindən Təlhə və Zübeyrin növbə ilə xilafəti üçün beyət alıb, Müaviyə onlara tövsiyə edirdi ki, Əlidən qabaq Bəsrə və Kufəni ələ keçirsinlər və Osmanın qanını almaq bəhanəsilə Hz.Əliyə qarşı müharibəyə başlasınlar. Müaviyənin məktubuna aldanan Zübeyr dərhal Təlhə ilə görüşərək ona məlumat verdi.[138] Bəzi mənbələrə görə isə Müaviyə Zübeyr ibn Əvvama məktub yazdı ki, Şam əhlindən öz xəlifəliyim üçün beyət almışam. Məndən sonra sən, səndən sonra isə Təlhə xəlifə olacaq.[139] Təlhə və Zübeyr Müaviyənin məsləhətinə qulaq asaraq bu işdə Osmanın qətlini bəhanə gətirmək qərarına gəldilər. Onlar Mədinədən çıxıb Məkkəyə getdilər və orada Hz.Əlinin düşmənləri, o cümlədən Mərvan ibn Həkəm, Abdullah ibn Həzrəmi, Yəli ibn Umeyyə, Abdullah ibn Amir və digərləri ilə bir araya gələrək Cəməl döyüşünün planını hazırladılar.

Naqisin (və ya Cəməl) döyüşü miladi 656-cı il

Hz.Əlinin hakimiyyətə gəlməsindən sonra Zübeyr ibn Əvvam və Təlhə ibn Ubeydullah Həzrətə qarşı mübarizəyə başladılar. Cəməl döyüşünün səbəbi bu idi ki, Təlhə və Zübeyr Hz.Əliyə beyət etdikdən sonra ondan Bəsrə və Kufə valiliyini istədik də, Hz.Əli onların bu istəyini rədd etdi. Bu zaman onlar Məkkədə umrə əməllərini yerinə yetirmək bəhanəsilə Hz.Əlidən Mədinədən çıxmaq üçün icazə istədilər. Hz.Əli buyurdu: "İstədiyiniz yerə gedə bilərsiniz. Amma sizin bu səfərinizdə bir hiylə var. Siz öz planlarınızı Mədinədə həyata keçirə bilmədiyiniz üçün Məkkəyə gedirsiniz."[140]

---

[138]Kitabi-Cəməl, səh-29.
[139]Muntəxəbut-təvarix, səh-177.
[140]Məsudi, İsbatul-vəsiyyə.

Təlhə və Zübeyr Məkkəyə gələndə Peyğəmbər xanımı Aişə binti Əbu Bəkr artıq orada idi. Osmanın evi mühasirəyə alındıqdan sonra və onun öldürüləcəyinə heç bir şübhə qalmadığı vaxt Aişə Məkkəyə üz tutdu. Məkkədə həcc mərasimi başa çatdıqdan sonra Mədinəyə qayıdan Aişə yolda Hz.Əlinin xilafətə çatdığını eşidib yenidən Məkkəyə qayıtdi. Həmin vaxt Məkkədə Osmanın tərəfdarı, Hz.Əlinin qatı düşmənlərindən olan Abdullah ibn Həzrəmi hakim idi. Aişədən əlavə, Məkkə hakimi, Təlhə və Zübeyr, Mərvan və başqaları bir araya gəldilər. Yəməndən gəlmiş Yəli ibn Umeyyə, Bəsrədən gəlmiş Abdullah ibn Amir də onlara qoşuldu. Sonda böyük bir ordu toplayan Zübeyr və Təlhə xanım Aişəni bu orduya başçı təyin etdilər. Şama gedib Müaviyəni də Hz.Əliyə qarşı qaldırmaq istəyən Zübeyr və Təlhə, Müaviyəyə o qədər də inanmadıqları üçün belə qərara gəldilər ki, Bəsrəyə getsinlər. Çünki Bəsrə və Kufədə Təlhə ilə Zübeyrin tərəfdarı çox idi.

Bəsrə yaxınlığına çatdıqda Zübeyr ibn Əvvam Bəsrə böyüklərinə məktub yazıb onları Osmanın qanını almaq məqsədilə Hz.Əliyə qarşı döyüşməyə çağırdı. Bəsrə böyükləri belə cavab verdilər ki, Osmanın qatilləri Mədinədədir və sizin buraya gəlməniz məntiqsizdir. Amma müxalif dəstə şəhərə hücum edib xeyli adam qətlə yetirdikdən sonra Hz.Əli tərəfindən Bəsrə hakimi təyin edilmiş Osman ibn Hüneyfi təslim olmağa məcbur etdilər.

Bunu öyrənən Hz.Əli Səhl ibn Hüneyfi Mədinədə öz yerində qoyub ordusu ilə birlikdə Bəsrəyə doğru hərəkət etdi. İmam Həsən, Malik Əştər və Məhəmməd ibn Əbu Bəkr Kufəyə qoşun toplamaq üçün göndərildi. Həmin vaxt Kufə valisi Əbu Musa Əşəri idi. O bu vəzifəyə Osman tərəfindən təyin olunmuşdu. O, Hz.Əlinin yazdığı məktub əsasında Kufə əhlindən Həzrətin adına beyət almalı idi. Amma o bunun əksinə olaraq Kufə xalqını Təlhə və Zübeyri müdafiə etməyə çağırdı. Lakin bütün bu çətinliklərə baxmayaraq İmam Həsənin *(ə)* bəlağətli xütbələri əsasında Kufədə toplanan on iki min nəfərlik ordu Zi-qar adlı məntəqədə Hz.Əlinin ordusuna qoşuldu. İki ordu Bəsrənin şimalında yerləşən Zaviyə adlı məntəqədə qarşılaşdı.

Hz.Əli qoşundan ayrılıb silahsız Bəsrə qoşununa doğru hərəkət etdi. Cəməl ordusunun qarşısında dayanıb Zübeyri səslədi. Zübeyr Hz.Əli ilə üzbəüz dayanıb onun nə deyəcəyini gözləyirdi. Hz.Əli buyurdu: "Etdiyiniz bu azğınlığın səbəbi nədir?" Zübeyr cavab verdi: "Xəlifə Osmanın qanını almaq istəyirik". Hz.Əli buyurdu: "Əgər düz deyirsinizsə, onda qollarınızı bağlayıb özünüzü Osmanın valisinə təslim edin. Məgər onu qətlə yetirən siz deyildiniz?" Zübeyrin susduğunu görən Hz.Əli buyurdu: "Mən gəlmişəm ki, səni yarı yoldan qaytarım. Peyğəmbərin *(s)* sənə dediyi sözləri unutmusan. Ey Zübeyr, yadındadır ki, bir gün Peyğəmbərin sorağı ilə Əmr ibn Ovfun evinə gəldiyim vaxt Həzrət *(s)* qabağa düşüb mənə salam verdi. Sən dedin ki, ey Əli, nə üçün təkəbbür edirsən və Peyğəmbərə *(s)* birinci salam vermirsən? Həmin vaxt Həzrət buyurdu: "Ey Zübeyr, Əli təkəbbürlü deyil. Sən gələcəkdə onunla vuruşacaqsan və sənin savaşın zalimanə olacaq." Ey Zübeyr, xatırlayırsanmı, bir gün

Peyğəmbər sənə belə buyurdu: "Əlini sevirsənmi?" Dedin ki, bəli, o mənim dayım oğlu və qardaşımdır. Həzrət *(s)* buyurdu: "Lakin buna baxmayaraq onunla vuruşacaqsan".[141] Bu sözlərdən xəcalət çəkən Zübeyr Hz.Əlidən üzr istəyərək dedi: "Söz verirəm ki, indicə Bəsrə qoşunundan ayrılacaq və zərrəcə bu işə qarışmayacağam". Zübeyr ibn Əvvam Cəməl qoşunundan ayrılaraq Vadiussəba deyilən yerə getdi və orada Əmr ibn Cumruz tərəfindən öldürüldü.

Hz.Əli növbəti dəfə müxalifləri hidayət etmək məqsədilə Müslim adlı bir gənci Quranla onların yanına göndərdi. Amma bu gənc Cəməl ordusuna yaxınlaşdığı vaxt onların qılınc zərbələri altında qollarını itirdi və şəhadət dərəcəsinə çatdı.

Bu səhnəni müşahidə edən Hz.Əli döyüş əmri verdi və oğlu Məhəmməd Hənəfiyyəni düşmən üzərinə göndərdi. Hz.Əlinin Malik Əştər, Əmmar ibn Yasir kimi sərkərdələri hər biri öz növbəsində rəşadət göstərib düşmən ordusunu məhv edirdilər. Təlhə də öz növbəsində pərakəndə olmuş Cəməl ordusunu müqavimətə çağırırdı. Bu məqamda Təlhədən heç də xoşlanmayan Mərvan ibn Həkəm zəhərli bir oxla Təlhəni vuraraq öldürdü. Təlhənin ölümündən sonra məğlub olan Cəməl qoşunu qaçmağa başladı.

Hz.Əli Aişəyə yaxınlaşıb belə dedi: "Ey Aişə, Allahın Rəsulu sənə beləmi hərəkət etməyi tapşırmışdı?" Aişə dedi: "Ey Əli, qazanmısan, yaxşılıq et, malik olmusan, bağışla."[142] Bundan sonra Hz.Əli Aişəni qardaşı Məhəmməd ibn Əbu Bəkrlə Mədinəyə yola saldı.

Üç gün davam edən Cəməl döyüşündə Hz.Əlinin iyirmi minlik qoşunundan min yeddi yüzü şəhadətə çatdı. Otuz minlik Cəməl qoşunundan isə on üç minə yaxın döyüşçü qətlə yetirildi. Bu döyüş Təlhə və Zübeyr tərəfindən törədilmiş böyük bir fitnə idi. Bəsrədə asayişi bərpa edən Hz.Əli oraya Abdullah ibn Abbası hakim təyin edərək Kufəyə qayıtdı. Malik Əştər isə Nasibinə vali göndərildi.

Cəməl döyüşü nəticəsində İslamın mənəvi əsaslarına zərbə vuruldu, ərəblər arasında kin-küdurət artdı, ixtilaf və ədavətin əsasları möhkəmləndi. Əlli min nəfərin iştirak etdiyi bu döyüşdə on beş minə yaxın adam tələf oldu.

Siffeyn döyüşü (və ya Qasitin döyüşü) miladi 657

Kufəni fəaliyyət mərkəzi qərar verən Hz.Əli Şama hücum üçün qoşunu hazırlamağa başladı. Nasibinə vali təyin olunmuş Malik Əştər yolda Müaviyə tərəfindən Hərrana vali təyin olunan Zəhhaq ibn Qeysələ qarşılaşaraq onu məğlub etdi. Zəhhaqın məğlubiyyətindən sonra Müaviyə Əbdürrəhman ibn Xalid ibn Vəlidi Malikin üzərinə göndərsə də, o da məğlub edildi.

Baş verən bu hadisələr Müaviyənin ürəyincə olmadığı üçün o, bir müddət dərin düşüncələrə qərq oldu. O öz məqsədlərinə çatmaq üçün münasib yol ax-

[141]Tarixi-Təbəri; Tarixi-Məsudi.
[142]Muntəxəbut-təvarix, səh-179.

tarırdı. Müaviyənin dərin düşüncələrdə qərq olduğunu görən qardaşı Utbə ibn Əbu Süfyan dedi: “Bu məsələnin yeganə həll yolu Əmr ibn Ası bu işə qatmaqdır. Çünki o siyasət və hiylə baxımından ərəblər arasında məşhurdur.” Müaviyə dedi: “Əmr ibn As mənim dəvətimi qəbul etməz.” Utbə cavab verdi: “Sən Əmri pul və vəd ilə aldat, o da xalqı aldatsın!”

Qardaşının fikrini bəyənən Müaviyə dərhal Fələstində vali olan Əmr ibn Asa məktub yazdı. Məktubun məzmunu belə idi: “Mən Osman tərəfindən Şamda hakiməm. Osman da Peyğəmbərin xəlifəsi idi. O evində susuz və məzlum halda öldürüldü. Müsəlmanlar onun qətlinə görə qəmlidirlər. Mən səni Osmanın qanını almağa dəvət edirəm. Bu işdə böyük mükafat və savabın olacaq!”

Müaviyə ibn Əbu Süfyanın məktubu Əmr ibn Asa çatdıqdan sonra o oğlanları Abdullah və Məhəmmədlə məsləhətləşdi. Abdullah bu işə qarşı çıxsa da, Məhəmməd Müaviyəni dəstəklədi. Bu zaman Əmr ibn As dedi: “Abdullah mənim axirətimi fikirləşdiyi halda, Məhəmməd dünyamı fikirləşdi.” Hz.Əlinin haqlı olduğunu hamıdan yaxşı anlayan Əmr ibn As buna baxmayaraq axirətini unudaraq Müaviyəyə qoşuldu. Halbuku onun ömründən altı il qalmışdı. Əmr ibn As hicri 42-ci ildə (miladi 663) Misir valisi olarkən dünyasını dəyişmişdi.

Əmr ibn Asın Şama gəldiyini öyrənən Müaviyə onu yanına çağırıb öz çətinlikləri haqqında ona məlumat verdi. Müaviyənin əsas müşküllərindən biri, onun qatı düşmənlərindən biri olan Məhəmməd ibn Əbu Hüzeyfənin zindandan qaçması idi. Ona görə də Əmr ibn Asa dedi: “Əgər mən Əli ilə döyüşə getsəm, Məhəmməd arxadan hücum edib Şamı ələ keçirəcək. Bundan da çətini Əli ilə döyüşdür. Çünki o, mənim yanıma adam göndərib beyət istəmişdir. Rum dövləti də bu ixtilaflardan istifadə edib Şama hücum etmək istəyir.” Müaviyəni sona qədər dinləyən Əmr ibn As dedi: “Ən əsası Əli ilə döyüşdür. Məhəmməd ibn Əbu Hüzeyfə qorxulu deyil. Rum dövlətinə gəldikdə isə onu qiymətli hədiyyələrlə müvəqqəti də olsa sakitləşdirmək mümkündür. Sən bütün gücünü Əli ilə döyüşə sərf etməlisən.” Müaviyə onunla razılaşdıqdan sonra Əmr ibn As bir dəstə göndərərək Məhəmməd ibn Əbu Hüzeyfəni qətl etdirdi. Sonra Rum imperatoruna qiymətli hədiyyələr göndərib onun başını qatdı. Nəhayət bu iki şəxs bütün güclərini Hz.Əli ilə döyüşə sərf etdilər. Tarixi mənbələrə əsasən onlar Hz.Əliyə qarşı üç yüz min nəfərlik ordu topladılar.

Müaviyə ibn Əbu Süfyan

Müaviyə İslamın qatı düşmənlərindən olan Əbu Süfyan ibn Hərb və Hində binti Utbənin övladıdır. Atası Əbu Süfyan haqqında Qurani-Kərimin “Tövbə” surəsinin 12-ci ayəsində belə buyurulur: **“Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr, (sözlərinin üstündə durmayan) küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları yoxdur (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur). Ola bilsin ki, (bu yaramaz işlərdən) əl çəkələr!”** O, Məkkənin fəthindən sonra qorxudan zahirən İslamı qəbul etsə də, daxilən ömrünün sonuna qədər kafir və büt-

pərəstliyində qaldı. Anası Hində Uhud döyüşündə Hz.Həmzənin ciyərini yemiş və bu əməlinə görə İslam tarixində ona "ciyəryeyən qadın" deyilmişdir. Hində cahiliyyət dövründə öz əxlaqsızlığı ilə məhşur idi. Oğlu Müaviyədə həmin vaxtlarda dünyaya gəlmişdi. Məşhur əhli-sünnə alimi Zəməxşəri "Rəbiül-əbrar" adlı əsərində nəql edir ki, həmin vaxtlar dörd kişi Müaviyənin atası sayılırdı: Əbu Əmr ibn Müsafir, Abbas ibn Əbdülmüttəlib, Əmarə ibn Vəlid və Səbbah adlı qara bir şəxs."[143] Öz atası Əbu Süfyanla birlikdə Müaviyə beş kişinin oğlu sayılır.

Tarixi mənbələrə əsasən Hz.Peyğəmbər *(s)* belə buyurmuşdur: "Əgər Müaviyəni mənim minbərimdə görsəniz onu öldürün."[144] Təbərinin yazdığına görə, Əbu Süfyan ulağın belində, Müaviyə onun cilovundan tutmuş, qardaşı Yezid isə arxalarınca gələn halda Peyğəmbər *(s)* onların haqqında buyurdu: "Allah hər üçünə lənət etsin." Aşağıdakı islami mənbələrdə Müaviyənin şərab içdiyi qeyd olunur:

1. Əl-İsabə, V cild, səh-424-425
2. Əl-İstiyab, III cild, səh-247-250
3. Sünəni-Beyhəqi, IX cild, səh-241-243
4. Əl-Mühəlla, XI cild, səh-369
5. Tarixi-Bağdadi, V cild. səh-455
6. Təhzibut-təhzib, XI cild, səh-126
7. Müsnədi-Əhməd, V cild, səh-347
8. Tarixi-Dəməşqi, XXVII cild, səh-127.

Əmr ibn As

Əmr ibn As da Müaviyə kimi əsil-nəsəb baxımından çirkin bir şəxsdur. Zəməxşərinin yazdığına görə anası Nabiğə əvvəlcə Abdullah ibn Cədanın kənizi olmuş, sonra ağası tərəfindən azad edilmişdir. Belə bir vaxtda Əmrə hamilə olmuşdur. Tarixi mənbələrə görə Əmrin də beş atası olmuşdur: Əbu Ləhəb ibn Əbdülmüttəlib, Umeyyə ibn Xələf, Əbu Süfyan ibn Hərb, As ibn Vail və Hişam ibn Muğeyrə. Uşağa ata seçimi anaya tapşırıldıqda o Ası daha sərvətli görüb uşağına ata seçmişdir. Amma Əmr daha çox Əbu Süfyan ibn Hərbə oxşayırdı.[145] Əmr ibn As da Müaviyə kimi Peyğəmbər və Əhli-beyti ilə düşmən olmuşdur.

Ərəblər arasında məşhur olan bu iki şəxs dünya malına sahib olmaq üçün Hz.Əliyə qarşı bayraq qaldırdılar. Siffeyn adlı məntəqəyə gələn Müaviyə və onun ordusu Fəratın sahilində düşərgə qurdu. Siffeynə Hz.Əlidən qabaq çatan Müaviyə Fəratın yolunu bağlayıb Hz.Əlini və onun ordusunu sudan məhrum etmək istədi. Lakin Hz.Əlinin göstərişi ilə Malik Əştər şamlıları məğlub edərək

---

[143]Rəbiül-əbrar, I cild, səh-111; İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, I cild, səh-111-112.
[144]Tarixi-Təbəri; Tarixi-Dəməşqi, 59-cu cild, səh-155, 156, 157.
[145]İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, II cild, səh-100.

Fəratın yolunu açdı. Amma Müaviyədən fərqli olaraq Fəratın yolunu şamlıların üzünə bağlamadı.

Müaviyə şamlıların ruhiyyəsini qaldırmaq üçün tanınmış sərkərdə Səhmini Malik Əştərlə döyüşə göndərsədə o Malik tərəfindən öldürüldü. Onun məğlubiyyətindən sonra Müaviyə Ubeydullah ibn Öməri bir dəstə döyüşçü ilə kufəlilərin üzərinə göndərdi. Hz.Əli də Ubeydullahla döyüşə Məhəmməd ibn Əbu Bəkri göndərdi. Bu iki dəstə arasındakı döyüş günün sonunadək davam etdi.

Hz.Əli bütün döyüşlərdə olduğu kimi, bu döyüşdə də çalışırdı ki, az qan axıdılsın. Nəhayət, hicrətin 37-ci ili məhərrəm ayı olduğu üçün hər iki tərəf döyüşü saxlamaq qərarına gəldi. Bu ay ərzində Hz.Əli çox çalışdı ki, hansısa razılığa gəlinsin. Amma inadkar Müaviyə sülhlə razılaşmırdı. Məhərrəm ayından sonra səfər ayının ilk günündən döyüş başladı və səfər ayının on yeddisinə kimi davam etdi.

On səkkiz ay davam edən Siffeyn döyüşü ərəblər arasında ən qanlı döyüş olmuşdur. Döyüşün ilk günlərində Hz.Əli təkbətək döyüşə üstünlük verirdi. Amma Əmmar ibn Yasir və Uveys Qərəni kimi səhabələrin şəhadətindən sonra Hz.Əli ümumi hücuma göstəriş verdi. Səfər ayının dördündə Əbu Əyyub Ənsari bir dəstə döyüşçü ilə Şam qoşununa doğru hərəkət etdi. Əbu Əyyubu çadırının yaxınlığında görən Müaviyə qaçıb şamlılar arasında gizləndi. Onun hücumundan qorxuya düşən Müaviyə öz ordusunu danladı. Öz ordusunu məkr və hiylə ilə həvəsləndirən Müaviyə, eyni zamanda çalışırdı ki, Hz.Əlinin ordusu arasında da ixtilaf yaratsın.

Müaviyənin hiylələrinin ilk qurbanı Hz.Əlinin ordusunda döyüşən tanınmış sərkərdə Xalid ibn Müəmmər oldu. Müaviyənin göndərdiyi adam Xalidə yaxınlaşaraq belə dedi: “Bu döyüş nəyə lazımdır? Əgər sən Müaviyənin xilafətə gəlməyinə yardımçı olsan, o da sənə Xorasan hakimliyini verər?” Bu təklifi eşidən Xalid İbn Müəmmər döyüşdən əl çəkərək, sakitcə öz düşərgəsinə qayıtdı. Xalidin qəlbindəki hisslər Hz.Əlinin sərkərdələrinin arasında Müaviyənin səpdiyi ilk nifaq toxumu idi. Xalidin ardınca Əşəs ibn Qeysə də əmirlik vəd edildi. Məhz bu şəxslər Hz.Əlinin ardıcıllarını ona qarşı qaldırdılar.

Tarixi mənbələrə görə, Kufə qoşunu iki ümumi həmləyə keçdi. Birinci hücum Hz.Əlinin Əmmar ibn Yasir, Uveys Qərani kimi səhabə və yaxınlarının şəhadətindən sonra baş verdi. Hz.Əlinin başçılığı ilə edilən bu hücum nəticəsində bütün Şam döyüşçüləri, o cümlədən Müaviyə qaçdı.

İkinci döyüş isə “Leylətul-hərir” də baş verdi. Soyuq qış gecələrində itlər, adətən, hürmək əvəzinə ulaşırlar. Ərəb dilində bu sayaq ulaşma və zingiltiyə “hərir” deyilir. Leylətul-hərir döyüşündə o qədər yaralı var idi ki, gecənin qaranlığındakı zarıltılar qış gecələrindəki it ulaşmalarını xatırladırdı.

Leylətul-hərir gecəsindən sonra bütün gücünü itirən Müaviyə və onun yaxın dostu Əmr ibn As Hz.Əlinin ordusuna qalib gəlmək üçün hiyləyə əl atdılar. Müaviyə Əmrin hiyləsilə qoşuna göstəriş verdi ki, Quran səhifələrini

nizələrə keçirib ordunun qarşısında dayansınlar. Şamlılar İraq döyüşçüləri qarşısında uca səslə fəryad çəkib dedilər: “Ey ərəb qəbiləsi, bu qədər ölüm nə üçündür? Qoy aramızda Allah kitabı mühakimə yürütsün!”

İraq əsgərləri arasında olan Əşəs ibn Qeys dedi: “Artıq qarşımızdakı qövmlə döyüşmək olmaz. Çünki onlar bizi Quranın mühakiməsinə dəvət edirlər.” Əşəsin ardınca Xorasan əmərliyi vədini almış Xalid ibn Muəmmərdə Əşəsin sözlərini təsdiqlədi. Sonda iki tərəf arasında “Həkəmiyyət” (hakimlər) sülhü bağlandı. Bu sülh “Dumətul-Cəndəl” qalasında bağlanmışdır. Hz.Əli tərəfindən Əbu Musa Əşəri, Müaviyə tərəfindən isə Əmr ibn As nümayəndə seçildi.

Hicri 38-ci il səfər ayının 17-də (miladi 658) Hz.Əlinin, Müaviyənin və hər iki tərəfdən olan şahidlərin imzası ilə belə bir sülh imzalandı:

1. Hakimlər hirci 38-ci il ramazan ayınadək (altı ay ərzində) tərəflər arasındakı ixtilafları Quran əsasında həll edəcək və ilahi göstərişlərin pozulmasına yol verməyəcək.

2. Bu iki şəxsin İraq və Şam dövlətləri tərəfindən siyasi toxunulmazlığı var.

3. Müəyyən edilmiş vaxt başa çatdıqdan sonra hakimlərin hökmü Quran əsasında olsa, xalq onu dəlil kimi qəbul edəcək, Allahın hökmünün əksinə olsa xalq onu qəbul etməyəcək.

4. Əgər təyin olunmuş vaxt çatmamış hakimlərdən biri ölsə, onu göndərmiş dövlət başqasını təyin edəcək və bu təyinatda əvvəlki şərtlər əsas götürüləcək.

5. Əgər hakimlər razılaşa bilməsələr, İraq və Şam arasında yenidən döyüş başlayacaq.

Həkəmiyyət nəticəsində Hz.Əlinin ordusunda parçalanma baş verdi və on iki min nəfərdən ibarət xəvaric dəstəsi meydana çıxdı. Hz.Əli nəticədə Nəhrəvanda bu dəstə ilə döyüşməyə məcbur oldu.

Nəhrəvan (və ya Mariqin) döyüşü miladi 658-ci il (hicri 38)

Mariqin yolunu azmışlar deməkdir. Hz.Əli Siffeyn döyüşündən Kufəyə qayıtdıqdan şəhadət gününə qədər pərişan halında oldu. Dörd bir yandan hücum çəkən uğursuzluqlar onun qəlbini və ruhunu incidirdi. Hz.Əlini daha çox incidən ordusunun vəfasızlığı idi. Həkəmiyyət sülhündən sonra Hz.Əlinin qoşunundan olan bəzi şəxslər “Bəs ölənlərin qanı hara getdi” deyə sual verirdilər. Onlar Həzrətə etiraz edərək dedilər: “Biz Allahın hökmünü istədik, Əbu Musa ilə Əmr ibn Asın hakimliyini yox.” Hətta hər iki tərəfə qarşı çıxanlarda oldu. Bu adamlar elə düşünürdülər ki, həm Müaviyənin, həm də Hz.Əlinin hakimiyyəti batildir və hökm yalnız Allaha məxsusdur.

Hz.Əlinin qoşunundan ayrılan bu adamlar Abdullah ibn Vəhəbin başçılığı altında bir yerə toplandılar. Xəvaric adlandırılan bu qrupun şüarı “Allahın hökmündən başqa hökm yoxdur” buyuruğu idi. Bunlar zahirən abid idilər. Uzun səcdələr nəticəsində alınları qabar olmuşdu. Amma onlar küfr həddinə çatmış, axmaqlıqları səbəbindən nə edəcəklərini bilmirdilər. Hz.Əli onlar haqqında buyurmuşdu: “Bu adamlar həqiqəti batil zülmətində axtarırlar.” Xəvariclərin ən

mühüm iradı bu idi ki, Hz.Əli şamlılarla döyüşdüyü halda, nə üçün onların mülkünün qarət olunmasına icazə vermədi? Onların ikinci iradı Həkəmiyyət məsələsinin Əbu Əşəri ilə Əmr ibn Asa tapşırılması idi. Hz.Əlinin sülh müqaviləsini "Əmirəl-möminin" adı ilə başlamaması xəvariclərin üçüncü iradı idi. Onlar deyirdilər ki, əgər Əli sülhü Əmirəl-möminin adı ilə başlamayıbsa, öz xilafətinə əmin deyil. Xəvariclərin iddiasına görə bu müharibədə ölənlərin qanı hədər getmişdir.

Bundan fərqli olaraq hakimlərin rəyindən razı qalan Müaviyə öz mövqelərini möhkəmlədirdi. O İraqlılar arasındakı ixtilaflardan istifadə edərək Hz.Əlinin üstünə hücuma hazırlaşırdı. O, məqsədlərinə çatmaq üçün Zəhhaq ibn Qeysi dörd min nəfərlik ordu ilə İraqa basqına göndərdi. İmansız bir şəxs olan Zəhhaq Müaviyənin göstərişlərini layiqincə yerinə yetirdi. Hz.Əli Hücr ibn Ədini Zəhhaqın üzərinə göndərərək onu məğlub etdi. Zəhhaqın məğlubiyyətindən sonra Busr ibn Ərtat Müaviyənin göstərişi ilə Hicaz və Yəmənə hücum edib bir çox Əli şiəsini qətlə yetirib Şama qayıtdı. Həmin vaxt Ubeydullah ibn Abbas Hz.Əli tərəfindən Yəmənə vali təyin olunmuşdu. Busrun qarşısında aciz olduğunu görən Ubeydullah Əmr ibn Ərakəni yerinə qoyub Kufəyə gəldi. Yəmənə daxil olan Busr Əmr ibn Ərakəni və Ubeydullahın iki oğlunun qətlə yetirdi.[146] Busrun ardınca Müaviyə Süfyan ibn Ovfu altı min nəfərlik dəstə ilə İraqa göndərdi. Süfyan Ənbar şəhərinə daxil olub şəhərin hakimi Həssan ibn Həssanı öldürüb, xalqı çapıb-taladı. Eyni zamanda Misirdə vali olan Məhəmməd ibn Əbu Bəkrin Müaviyə tərəfindən sıxışdırıldığını eşidən Hz.Əli Cəzirə əyalətində olan Malik Əştəri Misirə göndərdi. Hz.Əlinin göstərişinə əsasən Malik Əştər Kufədən çıxıb Misirə üz tutdu. Yolda Müaviyə tərəfindən öyrədilmiş Osmanın qulamı Nafeni öz dəstəsinə qatdı. Misir yaxınlığında olan Qəlzəm şəhərinə çatdıqda Nafe baldan düzəldilmiş şərbətə bir qədər zəhər qatıb onu Malikə verdi. Bir neçə saat yol getdikdən sonra Malik vəfat etdi və ordu onun cənazəsi ilə birlikdə Kufəyə qayıtdı. Malikin ölümündən sonra Misir yenidən Məhəmməd ibn Əbu Bəkrə tapşırıldı. Lakin Müaviyə ibn Xudeycin başçılığı altında olan Şam ordusu Məhəmməd ibn Əbu Bəkrin ordusunu məğlub edərək onun özünü də öldürdü. Bu hadisələrdən sonra Hz.Əli iyirmi min nəfərlik ordu ilə Şama getmək istədikdə xəvaric üsyanı baş verdi.

Xəvaric firqəsi Abdullah ibn Vəhəbin başçılığı ilə yenidən fitnə yaradıb, əvvəlki əqidələrini gündəmə gətirdilər. Belə görünürdü ki, əgər Hz.Əlinin ordusu Şama hücum üçün Kufədən çıxsa, xəvaric dəstəsi Kufəni ələ keçirəcək. Buna görə də Şama hücumdan əvvəl xəvariclərlə olan qarşıdurma həll olunmalı idi.

Hz.Əlidən ayrılan xəvariclər Kufənin Hərura adlı kəndində toplanaraq özlərinə Şibs ibn Rəbini ordu başçısı, Abdullah ibn Kəvvanı isə imam seçdilər. Hz.Əli Abdullah ibn Abbası onlarla münazirə etmək üçün göndərdi. Xəvaricdən

[146]Nasixut-təvarix, səh-643.

olan İtab ibn Əhvərlə Abdullah ibn Abbas arasında olan münazirə nəticəsiz qaldı və onlar Hz.Əlinin özü ilə mübahisə etmək istədiklərini bildirdilər. Hz.Əli səhabədən yüz nəfərlə Həruraya gedib Abdullah ibn Kəvva ilə mübahisə etdi və nəticədə Abdullah ibn Kəvva on nəfər yoldaşı ilə Hz.Əlinin tərəfinə keçdi. Bundan sonra xəvaricler Nəhrəvanda Şureyh ibn Ovfun evində toplanıb özlərinə Abdullah ibn Vəhəbi və Hərqus ibn Zuheyri başçı seçərək Bəsrədəki köməkçilərinə məktub göndərib onları da Nəhrəvana dəvət etdilər. Bəsrədəki xəvaricler də Musər ibn Fədəki özlərinə başçı seçərək Nəhrəvana yola düşdülər. Onlar yolda Peyğəmbər *(s)* səhabəsi və Əlinin köməkçilərindən olan Abdullah ibn Xəbbabı, onun həyat yoldaşını və onunla səfər edən bir neçə qadını öldürdülər. Xəvaricin müharibəyə hazırlıq xəbəri Hz.Əliyə çatdıqda Haris ibn Murrəni göndərdi ki, bu xəbərin düzgün olub-olmamasını araşdırsın. Amma Haris Nəhrəvana çatdıqda xəvaricler tərəfindən öldürüldü. Bundan sonra Nuxeylədə düşərgə quran Hz.Əli Şama getmək fikrindən daşınıb Nəhrəvana üz tutdu. Hz.Əli höccəti tamamlamaq üçün xəvariclərlə üzbəüz dayanıb Abdullah ibn Vəhəblə söhbətə başladı. Söhbətdən sonra Hz.Əli öz ordusuna belə buyurdu: "Ağ bayrağı Nəhrəvanın kənarında yerə taxın. Xəvaricin tövbə edənləri onun ətrafında toplansın." Azğın qövmün səkkiz mini tövbə edib ağ bayrağın altında toplandı. Dörd min xəvaric və onların başçısı Abdullah ibn Vəhəb Hz.Əlini kafir adlandırdılar. Hz.Əli çarəsiz qalıb onlarla döyüşə başladı. Döyüşdən qabaq Hz.Əli belə buyurdu: "Xəvaricdən on nəfəri sağ qalacaq, sizdən isə ondan da az şəhid olacaq." Bu Hz.Əlinin möcüzələrindən sayıla bilər. Çünki, Hz.Əli necə demişdisə elə də oldu. Bütün xəvaric qılıncdan keçirildi. Yalnız on nəfər qaça bildi. Həzrətin ordusundan da yeddi nəfər şəhid oldu. Döyüşdən sonra Hz.Əli Kufəyə qayıtdı. Aradan çıxmış on nəfərdən biri olan Əbdürrəhman ibn Mülcəm Muradi Məkkəyə qaçdı.

Xəvaricin səkkiz əsas firqəsi bunlardır:

1. Muhəkkimə və ya Həruriyyə – bu firqə Həkəmiyyət zamanı Hz.Əlinin qarşısında dayanan və ondan sonra Həruraya yığışan şəxslərdir. Abdullah ibn Vəhəb, Urvət ibn Cəzir, Yezid ibn Asim, Hərqus ibn Zuheyr və İtab ibn Əhvər bu qrupun rəhbəri idi.
2. Əzariqə – bu firqə Əbu Raşid ibn Əzrəq Hənəfinin ardıcıllarıdır.
3. Nəcdat – bu firqənin üzvləri Nəcdan ibn Amir Hənəfinin ardıcıllarıdır.
4. Mucaridə – Əbdulkərim ibn Əcrudun vasitəsilə yaradılıb. Bu firqənin qəribə əqidələrindən biri bu idi ki, "Yusif " surəsinin Quranın bir hissəsi olmasını qəbul etmirdilər.
5. Sufriyyə – Ziyad ibn Əsfərin davamçılarıdır.
6. Beyhəsiyyə – Heysəm ibn Cabirin davamçılarıdır.
7. Sualibə – Sələbə ibn Amirin davamçılarıdır.
8. Əbaziyyə – Abdullah ibn Əbaz Təmimin davamçılarıdır. Əbaziyyə firqəsi Xəvaricdən qalan yeganə firqədir ki, indiyə qədər gəlib çatmış və onun ardıcılları Ommanda, Tanzaniyada, Liviyada, Əlcəzairdə və Tunisdə yaşayırlar.

Hz.Əlinin şəhadəti

Nəhrəvan döyüşündən sonra Kufəyə qayıdan Hz.Əli Şama hücum haqqında düşünməyə başladı. Hicri 40-cı il şəban ayının axırlarında əyalətlərdən göndərilən qüvvələr Kufəyə daxil olub, Nuxeylə düşərgəsinə qatıldılar. Ramazan ayının ikinci yarısında döyüşçülərin qarşısında geniş bir xütbə söyləyən Hz.Əli onları Şama doğru hərəkət üçün hazırladı. Amma Həzrətin şəhadəti bu hücumu həyata keçirməyə macal vermədi. Xəvariclərdən olan Əbdürrəhman ibn Mülcəm, Bərk ibn Abdullah və Əmr ibn Bəkir Məkkədə görüşərək belə qərara gəldilər ki, əgər bu üç nəfər, yəni Hz.Əli, Müaviyə ibn Əbu Süfyan və Əmr ibn As aradan götürülsə Ərəbistanda sakitlik hökm sürər. Bu məqsədlə Əbdürrəhman ibn Mülcəm Hz.Əlini vurmaq üçün Kufəyə, Bərk ibn Abdullah Müaviyə ibn Əbu Süfyanı vurmaq üçün Şama, Əmr ibn Bəkir isə Əmr ibnAsı vurmaq üçün Misirə yola düşdü.

Bərk ibn Abdullah Qədr gecəsi Şam məscidində səcdəyə getmiş Müaviyəni yalnız yaralaya bildi. Bərk ibn Abdullahı onun yanına gətirdikdə Müaviyə ona dedi: "Səni bu işi görməyə vadar edən nə oldu?" İbn Abdullah dedi: "Əgər məni bağışlasan sənə müjdə verərəm." Müaviyənin icazəsindən sonra Bərk dedi: "İndicə Əlini də öldürdülər." Müaviyə bu xəbərin düzgünlüyünü yoxlayanadək onu zindanda saxladı. Verilən xəbərin həqiqət olduğunu bildikdən sonra Müaviyə onu azad etdi. Bəzi rəvayətlərə görə isə onu edam etdirdi. Əmr ibn Bəkir də öz növbəsində Misirdə Əmr ibnAsı yox, onun əvəzində qazini öldürdü. Çünki həmin gecə Əmr ibn As qızdırmalı olduğu üçün məscidə getməmişdi. Əmr ibn Bəkri Əmr ibn Asın yanına gətirdikdə Əmr onun boynunu vurdurdu. Beləcə Müaviyə ilə Əmr ibn Asın qətli baş tutmadı.

Bunlardan fərqli olaraq Kufəyə gələn Əbdürrəhman ibn Mülcəm xəvaricdən olan Qutam ilə rastlaşdı. Bu qadının atası və qardaşı Nəhrəvan döyüşündə öldürüldüyü üçün Hz.Əliyə və onun şiələrinə kin bəsləyirdi. İbn Mülcəm onunla evlənmək istədiyini bildirdikdə Qutam ona dedi: "Mənə mehriyyə olaraq nə verəcəksən?" İbn Mülcəm hər nə istəsən onu verəcəyəm deyə cavab verdi. Bu zaman Qutam dedi: "Mənim mehriyyəm üç min dirhəm pul, bir kəniz, bir qulam və Əli ibn Əbu Talibin qanıdır." Əbdürrəhman Hz.Əlini öldürmək üçün ondan kömək istədi. Qutam ibn Mülcəmi öz qəbiləsindən olan xəvaric əqidəli Vərdan ibn Məcalidin yanına göndərdi. İbn Mülcəmdə öz növbəsində Əşcəə qəbiləsindən olan Şəbib adlı xəvarici köməkçi götürdü. Onlar bu işdən məhşur xəvaric Əşəs ibn Qeysi də xəbərdar etdilər. Nəhayət Ramazan ayının 19-cu gecəsi İbn Mülcəm öz yoldaşları ilə məscidə gəlib Hz.Əlini gözləməyə başladılar.

Öz şəhadətindən xəbərdar olan Hz.Əli Ramazan günlərinin birində minbərdə olarkən əlini saqqalına çəkərək buyurdu: "İnsanların ən zalımı bu tükləri başımın qanına boyayacaq." Buna görə də Hz.Əli ömrünün son günlərini övladlarının birinin yanında keçirirdi. Həmin gecə qızı Ümmü Gülsümün qonağı idi.

Hz.Əli sübh azanını verdikdən sonra mehraba yaxınlaşdı. Səcdəyə getdiyi vaxt məlun Əbdürrəhman ibn Mülcəm zəhərli qılınc ilə Həzrətin mübarək başına zərbə vurdu. Onun vurduğu zərbə vaxtı ilə Xəndək döyüşündə Əmr İbn Əbdəvidin vurduğu zərbənin yerinə düşdü. Həzrət aldığı bu zərbədən yatağa düşdü. Hz.Əli yatağda olduğu vaxt belə buyurdu: "Ey Əbdülmüttəlib övladları, məbada "Əmirəlmöminin" öldürüldü deyə xalqın qanını tökəsiniz. Mənə görə, yalnız məni öldürən qətlə yetirilə bilər. Elə ki, mən onun zərbəsindən öldüm, siz də əvəzində ona bir zərbə vurun. Onun meyitini təhqir etməyin. Hz.Peyğəmbər *(s)* buyurub ki, müslə (yəni ölünü təhqir etmək) etməkdən çəkinin."

Hz.Əli hicrətin 40-cı ili Ramazan ayının 19-cu gecəsi Əbdürrəhman ibn Mülcəm tərəfindən zərbətləndi və Ramazan ayının 21-ci gecəsi aldığı zərbədən şəhadətə qovuşdu. Hz.Əli vəfat etdikdə Hz.Həsən qardaşı Hz.Hüseynlə birlikdə atalarını Kufə yaxınlığındakı Qəriyy (indiki Nəcəf) adlanan məntəqədə dəfn etdilər.

Aişənin etirafı: İki qadın Aişəyə dedi: "Ey Aişə! Əlidən bizim üçün danış. Aişə dedi: "Nə soruşursunuz? Elə bir kişi barəsində soruşursunuz ki, öz əlini Peyğəmbər *(s)* üçün söykənəcək verdi. Həzrətin ruhu onun əlində cərəyan etməyə başladı və onu öz üzünə çəkdi!" Qadınlar dedi: "Bəs nə üçün onun əleyhinə qiyam etdiniz?" Aişə dedi: "Bu olub keçən bir işdir. Onun əvəzini çıxmaq üçün yer üzündə olan hər bir şeyi vermək istərdim."[147]

Hz.Əlinin künyələri: Əbəl Həsən, Əbəl Həsəneyn, Əbus-Sibteyn-əkizlərin atası, Əbu Turab.

Hz.Əlinin ləqəbləri: Mürtəza, İmamul-müttəqin-yəni Allahdan qorxanların imamı, Babul-mədinə, Zülqərneyn, Siddiqi-əkbər, Əxur-Rəsul, Zövcul-Bətul, Lisanus-sidq, Hadi, Validul-əimmə, Sahibul-liva, Əmirul-qəzavət, Əmirəlmöminin.

Hz.Əlinin üzüyündə bu yazı yazılmışdır: "Əl-mulku lil-lahil-vahidul-qəhhar" – Mülk və Səltənət Vahid və Qəhhar Allaha məxsusdur.

Hz.Əlinin ailəsi

1. Hz.Fatimə (s.ə) – Hz.Əli ilə Hz.Fatimə (s.ə) hicrətin ikinci ili zilhiccə ayının biri (miladi 624) ailə qurmuş və bu izdivacdan Hz.Əlinin İmam Həsən *(ə)*, İmam Hüseyn *(ə)*, Hz.Zeynəb, Hz.Ümmü Gülsüm adlı övladları dünyaya gəlmiş, Möhsün adlı övladı isə ana bətnində altı aylıq olarkən siqt olaraq düşmüşdür.

2. Ümmül-Bənin binti Hizam – Əsl adı Fatimədir. Hz.Əbul-Fəzl Abbas, Abdullah, Cəfər və Osmanın anasıdır. Bunların dördü də Kərbəla faciəsində Hz.Hüseynin *(ə)* qarşısında şəhid olmuşlar.

3. Xavlə binti Cəfər əl-Hənəfiyyə – Məhəmməd Hənəfiyyənin anasıdır.

4. Leyla binti Məsud – Abdullah və Əbu Bəkrin anasıdır.

---

[147]Tarixi ibn Əsakir, III cild, səh-15.

5. Əsma binti Umeys – Yəhya və kiçik Məhəmmədin anasıdır.
6. Səhbə binti Rəbiə – Ömər və Ruqəyyanın anasıdır.
7. Umama binti Əbul As – Ortancıl Məhəmmədin anasıdır.
8. Ümmü Səid binti Məsud – Ümmül Həsən və Rəmlənin anasıdır.
9. Mehyad binti Qeys – kiçik yaşda ölən Cariyənin anasıdır.

Ümumiyyətlə tarixi mənbələrdə imamların övladları müxtəlif saylarda göstərilir. Bəzi mənbələrin qeyd etdiyinə görə Hz.Əlinin on səkkiz oğlu, on doqquz qızı olmaqla otuz yeddi övladı olmuşdur. Hz.Əlinin oğlanları bunlardır:

1) İmam Həsən *(ə)*, 2) İmam Hüseyn *(ə)*, 3) Məhəmməd Hənəfiyyə, 4) Hz.Abbas, 5) Abdullah, 6) Cəfər, 7) Osman, 8) Məhəmmədül-əsğər, 9) Abdullah-əsğər, 10) Abdullah Əbu Əli, 11) Ovn, 12) Yəhya, 13) Məhəmmədül-ovsət, 14) Osmanul-əsğər, 15) Abbasul-əsğər, 16) Cəfərul-əsğər, 17) Ömərul-əsğər, 18) Ömərul-əkbər.

Həzrətin qızları bunlardır: 1) Hz.Zeynəbi-Kubra, 2) Zeynəbi-Suğra (Ümmü Gülsüm), 3) Rəmlətul-kübra, 4) Ümmül-Həsən, 5) Nəfisə, 6) Ruqəyyətul-kübra, 7) Ruqəyyatul-suğra, 8) Rəmlətul-suğra, 9) Meymunə, 10) Zeynəbi-suğra, 11) Ümmi-Hani, 12) Fatimeyi-suğra, 13) Umamə, 14) Xədiceyi-suğra, 15) Ümmü Gülsüm, 16) Ümmü Sələmə, 17) Ümmi-Kiram, 18) Ümmül-Hüseyn, 19) Xədiceyi-kübra.

Hz.Əli Qurani-Kərimdə

Cəlaləddin Siyutinin "Əddurrul-mənsur" əsərində "Fatihə" surəsinin birinci ayəsi olan "Bismillahir-rəhmanir-rəhim"in bəyanında Hz.Əlidən belə bir hədis nəql olunur: "Bilin ki, bütün səmavi kitabların sirləri Qurandadır və Quranda olan bütün sirlər də Fatihədədir. Fatihədə olan bütün sirlər Bismillahdadır. Bismillahda olan bütün sirlər isə ondakı "bə" hərfində və "bə"də olan bütün sirlər də onun altındakı nöqtədədir. Mən "bə"nin altındakı nöqtəyəm."

Ümumiyyətlə hər iki məzhəb alimləri qeyd edirlər ki, Hz.Əli haqqında üç yüzdən çox ayə nazil olmuşdur. Onlardan bəzilərini qeyd edirik:

1."Maidə surəsi 67-ci ayə və ya "Təbliğ" ayəsi: **"Ya Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı bəyan et. Əgər etməsən, Allahın risalətini yerinə yetirməmiş olarsan. Allah səni insanların şərindən qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz."** Bu ayə Qədiri-xum adlı məntəqədə Hz.Əlinin xilafəti ilə əlaqədar olaraq nazil olmuşdur. Bu həqiqəti aşağıdakı islami mənbələrdə təsdiqləyir:

1. Tarixi ibn Əsakir, II cild, səh-298
2. Fəxrəddin Razi, Məfatihul-ğeyb, III cild, səh-636
3. Siyuti, Əd-Durrul mənsur, II cild, səh-298
4. Alusi, Ruhul-məani, VI cild, səh-172
5. Qunduzi-Hənəfi, Yənabiul-məvəddət, səh-120
6. Təfsiri-Sələbi
7. Təfsiri-Təbəri
8. İbn Səbbağ Maliki, Fisulul-muhimmə

9. Əllamə Əmini, Əl-Qədir
10. Əllamə Qazi Nurullah Şuştəri, Ehqaqul-həqq.
14. Əllamə Məclisi, Biharul-ənvar.

2. "Maidə" surəsi 55-ayə və ya "Vilayət" ayəsi: **"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər."** Məhşur əhli-sünnə alimi Fəxrəddin Razi Əbuzər Ğəffaridən belə nəql edir: "Bir gün Hz.Peyğəmbərlə *(ə)* birgə günorta namazı qılırdım. Bu zaman bir yoxsul məscidə girib kömək istədi və heç kəs ona kömək etmədi. Yoxsul əlini göyə qaldırıb dedi: "İlahi, şahid ol! Mən Peyğəmbərin məscidində kömək istədim, lakin heç kim mənə kömək etmədi." Hz.Əli namaz halında ikən o yoxsula sağ əli ilə kiçik barmağındakı üzüyü götürməsini işarə etdi. O, Peyğəmbərin *(s)* gözü önündə gedib üzüyü Hz.Əlinin barmağından çıxartdı. Hz.Peyğəmbər *(s)* dedi: "İlahi! Qardaşım Musa Səndən sinəsinin genişlənməsini, qardaşı Harunun onun peyğəmbərliyinə şərik olmasını istəyəndə, ona buyurdun: "Mən tezliklə səni qardaşın vasitəsilə gücləndirəcək, sizə qüvvət və qələbə bəxş edəcəyəm." İlahi! Mən Məhəmməd, Sənin peyğəmbərin və elçinəm. Mənim də sinəmi genişləndir, işləri mənə asanlaşdır, mənim üçün Əhli-Beytimdən bir vəzir təyin et, məni onun vasitəsilə güclü və qüvvətli et!" Əbuzər deyir: "Allaha and olsun! Allahın Rəsulu *(s)* hələ sözünü qurtarmamışdı ki, Cəbrayıl nazil olub dedi: "Ey Muhəmməd! Oxu: "İnnəma vəliyyukumullahu və Rəsuluhu"[148] Bundan başqa aşağıdakı mənbələrdə də bu həqiqət öz əksini tapmışdır:

1. Siyuti, Əddurrul-mənsur, II cild, səh-293
2. Zəməxşəri, Təfsiri-Kəşşaf, I cild, səh-649
3. Təfsiri-Təbəri, VI cild, səh-186
4. Müttəqi Hindi, Kənzul-ummal, VI cild, səh-391
5. Hakim Həsqani, Şəvahidut-tənzil, səh-161-168
6. Əllamə Məclisi, Biharul-ənvar

3. "Nisa" surəsi 59-cu ayə və ya "Ulul-əmr" ayəsi: **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır."** Məhşur təfsirçi Hakim Həsqani Hz.Əlidən belə nəql edir: "Peyğəmbər *(s)*: "Mənim (ümmətə rəhbərlikdə) şəriklərim o kəslərdir ki, Allah onları Özünə və mənə yaxın etmişdir" deyə buyurduğu zaman, **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"** ayəsi nazil oldu. Mən Həzrətdən soruşdum: "Ya Peyğəmbər! Onlar kimlərdir?" Hz.Peyğəmbər *(s)* buyurdu: "Sən onların birincisisən!"[149] Bu hədis aşağıdakı mənbələrdə də təsdiqlənmişdir:

---

[148]Təfsiri-Kəbir, XII cild, səh-26.
[149]Şəvahidut-tənzil, I cild, səh-148-151.

1. Qunduzi Hənəfi, Yənabiul-məvəddət, səh-116
2. Əbu Həyyan Əndəlusi, Əl-Bədrul-muhit
3. İbn İshaq, Ehqaqul-həqq, III cild, səh-425
4. Təfsiri-Burhan, I cild, səh-381-387
5. Şeyx Təbərsi, Məcməul-bəyan
6. Şeyx Tusi, ət-Tibyan
7. Əllamə Əmini, əl-Qədir.
8. Əllamə Məclisi, Biharul-ənvar.

4. "Ali-imran" surəsi 61-ci ayə və ya "Mübahilə" ayəsi: **"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) sənə göndərilən elmdən (məlumatdan) sonra buna (İsanın əhvalatına) dair sənինlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü (bura) çağıraq! Sonra (Allaha) dua edib yalançılara Allahın lənətini diləyək!"** Təfsir və hədis alimlərinin nəql etdikləri rəvayətlərdə buyurulur: Mübahilə ayəsi nazil olandan sonra Hz.Peyğəmbər *(s)* Nəcran xristianlarını mübahiləyə çağırdı. Onlar Hz.Peyğəmbərdən *(s)* fikirləşmək üçün bir gün möhlət istədilər. Xristianların başçısı və alimi Aqib dedi: "Əgər sabah Məhəmməd öz ailəsi və övladları ilə birgə mübahiləyə gəlsə, onunla mübahilə etmədən geri qayıdarıq. Amma öz səhabələrini gətirsə, onunla mübahilə edərik."

Ertəsi gün Hz.Peyğəmbər *(s)* Əli *(ə)*, Fatimə (s.ə), Həsən *(ə)* və Hüseynlə *(ə)* birlikdə xristianların qarşısına çıxdı. Xristianların başçısı onlara dedi: "Mənim gördüyüm kişi öz qərarında möhkəmdir, mübahiləyə şücaətlə gəlmişdir. Qorxuram ki, haqq olsa, ağır bəlaya düçar olaq!" Sonra üzünü Peyğəmbərə tutub dedi: "Ey Muhəmməd! Biz qərara gəldik ki, sənինlə mübahilə yox, sülh edək!" Bəzi rəvayətlərdə isə onun belə dediyi nəql olunmuşdur:" Ey xristianlar! Mən elə nurlu simalar görürəm ki, əgər onlar Allahdan istəsələr, dağ yerindən qopar! Onlarla mübahilə etməyin, yoxsa həlak olarsınız!" Fəxrəddin Razi bundan sonra yazır: "Həm keçmişdə, həm də indinin özündə şiələr bu ayəyə istinad edərək, Əlinin Peyğəmbərin *(s)* nəfsi və özü kimi bilirlər. Belə ki, bu ifadə onun Hz.Peyğəmbərin *(s)* bütün xüsusiyyətlərinə malik olduğunu və bütün səhabələrdən üstünlüyünü göstərir. Buna əsasən, Hz.Əli hamıdan fəzilətli sayılır."[150] Bu hadisə aşağıdakı islami mənbələrdə də azacıq fərqlə qeyd olunmuşdur:

1. Təfsiri-Qirtəbi,II cild, səh-1346
2. Ruhul-bəyan, II cild, səh-44
3. Şəhabuddin Alusi, Ruhul-məani, III cild, səh-188
4. İbn Həyyan Əndəlusi, Bəhrul-muhit, II cild, səh-472
5. Səhihi-Müslim, IV cild, səh-1871, VII cild, səh-130
6. Sünəni-Tirmizi, II cild, səh-166
7. Müsnədi-Əhməd, I cild, səh-185

[150]Təfsiri-Kəbir, VIII cild, səh-81.

8. Qunduzi Hənəfi, Yənabiul-məvəddət, səh-281
9. Müstədrəki-Hakim, I cild, səh-193
10. Əddurrul-mənsur, III cild, səh-38
11. Qazi Beyzavi, Ənvarut-tənzil, II cild, səh-22
12. Şəfqani, Fəthul-qədir, I cild, səh-524

5. "Əhzab" surəsi 33-cü ayə və ya "Təthir" ayəsi: **"Ey Əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) aparmaq və sizi paktan pak etmək istər!"** Hz.Peyğəmbərin *(s)* bəzi zövcələrindən nəql olunmuş rəvayətlərdə deyilir: Təthir ayəsindən söz salıb Peyğəmbərdən *(s)* soruşduq: "Bu ayə bizə də aiddirmi?" Həzrət buyurdu: "Sizdə yaxşısınız, lakin bu ayə sizə aid deyil!" Əhməd Əbu İshaq Sələbi öz "Təfsir"ində Hz.Peyğəmbərin *(s)* zövcəsi olan Ümmü Sələmədən belə nəql edir: Bir gün Fatimə Peyğəmbərə yemək gətirdi. Həzrət buyurdu: "Həyat yoldaşını, övladların Həsən və Hüseyni çağır." Onlar gəldilər və yeməkdən sonra Hz.Peyğəmbər *(s)* əbasını onların üstünə atıb buyurdu: "İlahi! Bunlar mənim Əhli-beytim və itrətimdir, çirkinliyi onlardan uzaqlaşdır və onları pak-pakizə et!" Bu zaman "Təthir" ayəsi nazil oldu. Mən "Ey Allahın Rəsulu! Mən də sizdənəmmi?" deyə soruşdum. O buyurdu: "Sən də yaxşısan, amma Əhli-beytimdən deyilsən!" [151] Sələbi başqa bir rəvayətdə Hz.Peyğəmbərin *(s)* zövcəsi Aişədən "Cəməl" müharibəsi və onun müharibəyə qatılması haqqında soruşduqda, dedi: "Bu, ilahi bir təqdir idi!" Ondan Hz.Əli *(ə)* haqqında soruşduqda dedi: "Hz.Peyğəmbərin *(s)* yanında ən sevimli şəxsin kim olduğunu Həzrətin ən sevimli zövcəsindən soruşursan?! Mən öz gözümlə gördüm ki, Hz.Peyğəmbər *(s)* Əli, Fatimə, Həsən və Hüseyni libasının altına alıb buyurdu: "İlahi! Bunlar mənim Əhli-beytim və himayəçilərimdir, çirkinliyi onlardan uzaqlaşdır və onları pak-pakizə et!" Mən " Ey Allahın Rəsulu! Mən də onlardanammı?" deyə soruşduqda buyurdu: "Xeyr, sən yaxşısan, amma Əhli-beytimdən deyilsən!"

Bu həqiqət aşağıdakı islami mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Siyuti, Əl-İtqan, II cild, səh-563
2. Fəxrəddin Razi, Məfatihul-ğeyb, VI cild, səh-71
3. Tarixi-Bağdadi, X cild, səh-278
4. Təfsiri-Zəməxşəri, I cild, səh-369
5. Buxari, Fəthul-bəyan, II cild, səh-265
6. Siyuti, Əddurrul-mənsur, V cild, səh-198
7. Nəsai, Xəsaisul-Əli, səh-46
8. Təbərsi, Məcməul-bəyan

6. "Tövbə" surəsi və ya "Bəraət" ayəsi: **"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığınız müşriklərə (onlarla olan əhdlərin pozulması, əlaqələrin kəsilməsi barədə) bir xəbərdarlıq! (Ey müşriklər!) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz**

[151] Məcməül-bəyan, Təthir ayəsinin təfsirində.

(Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz). Allah kafirləri (dünyada və axirətdə) rüsvay edəcəkdir! Allahdan və Onun Peyğəmbərindən böyük həcc günü insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər imandan üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. (Ey Peyğəmbərim!) Kafir olanları şiddətli bir əzabla müjdələ! Müqavilə bağlandıqdan sonra sizə qarşı bir əskiklik etməmiş və sizin əleyhinizə heç kəsə bir yardım göstərməmiş müşriklə istisnadır. Onlarla əhdinizə axıra qədər vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri sevər! Haram aylar çıxınca müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs edin və bütün yollarını – keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını dinləsin. Sonra onu əmin-amanlıq içərisində olacağı yerinə çatdır. Çünki onlar haqqı bilməyən bir tayfadır! Məscidul-həramın yanında (Hüdeybiyyədə) müqavilə bağladığınız kəslər (Bəni Zəmirə və Kənanə qəbilələri) istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri yanında necə əhdi ola bilər? Onlarr sizinlə doğru-düzgün davrandıqca siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri sevər! Necə ola bilər ki, onlar sizə qalib gəlsələr, nə bir anda, nə bir əhdə əməl edərlər? Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salmağa çalışarlar. Onların əksəriyyəti fasiqdirlər! Onlar Allahın ayələrini ucuz qiymətə satdılar, sonra da insanları Onun yolundan döndərdilər. Həqiqətən, onların gördükləri iş necə də pisdir! Onlar bir mömin barəsində nə bir anda, nə də bir əhdə əməl edərlər. Onlar həddi aşanlardır!" Bu ayələr də Hz.Əlinin Hz.Peyğəmbərdən *(s)* sonra ən üstün şəxs olduğunu göstərir. Bütün tarixçi və təfsirçilərin rəyinə əsasən bu ayələr hicrətin doqquzuncu ilində nazil olmuşdur. Hz.Peyğəmbər *(s)* nazil olan ayələri Əbu Bəkrə verib, Məkkəyə göndərdi ki, onu Məkkə əhlinə çatdırıb desin: "Bu ildən heç bir müşrik Allah evi Kəbəni ziyarət etmək hüququna malik deyil. Heç kəs çılpaq halda Kəbəni təvaf edə bilməz" Əbu Bəkr ayələri götürüb Məkkəyə yola düşdükdən sonra Hz.Cəbrail *(ə)* nazil olub Hz.Peyğəmbərə *(s)* deyir: "Allah sənə salam göndərərək bildirir ki, bu cür xəbərləri ancaq ya sən özün, ya da səndən olan (əhli-beytindən olan) birisi çatdırmalıdır." Hz.Peyğəmbər *(s)* dərhal Hz.Əlini yanına çağırıb buyurur ki, mənim dəvəmi götür və tez özünü Əbu Bəkrə çatdır. Ayələri ondan al, get Məkkə müşriklərinə oxu və onlara bildir ki, aramızdakı əhd-peyman artıq ləğv edilir. Əbu Bəkrə də de ki, istərsə sənlə Məkkəyə getsin, istərsə də mənim yanıma qayıtsın. Hz.Əli özünü Əbu Bəkrə çatdırır. Əbu Bəkr Hz.Əlidən soruşur ki, ey Əbəl Həsən, nədən ötrü gəlmisən? Hz.Əli buyurdu: "Hz.Peyğəmbər *(s)* mənə tapşırdı ki, gəlib ayələri səndən alım və özüm gedib onları Məkkə müşriklərinə oxuyum. Sən də ixtiyar sahibisən, istəsən mənimlə Məkkəyə gedə və ya Peyğəmbərin *(s)* yanına qayıda bilərsən."

Əbu Bəkr Mədinəyə qayıdaraq Hz.Peyğəmbərdən *(s)* soruşdu: "Ya Peyğəmbər, siz məni elə bir iş ardınca göndərdiniz ki, hamı mənə həsəd aparırdı, bu böyük şərəf mənə nəsib oldu. Ancaq yarı yolda ikən nə etdim ki, məni geri çağırdınız? Yoxsa mənim barəmdə Allah hansısa bir ayəmi nazil etdi?" Hz.Peyğəmbər *(s)* buyurdu: "Xeyir, sənin barəndə heç bir ayə nazil olmayıb. Lakin sən getdikdən sonra Hz.Cəbrail *(ə)* nazil olub bildirdi ki, bu ayələri mütləq ya özüm, ya da məndən olan birisi Məkkə əhlinə oxumalıdır." "Bəraət" hədisi aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Müsnədi-Əhməd, I cild, səh-3
2. Sünəni-Tirmizi, V cild, səh-275, hədis 3090-3091
3. Əddurrul-mənsur, III cild, səh-209-230
4. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-232, 243, hədis-309, 318, 323.
5. Ruhul-məani, IX cild, səh-47
6. Sireyi ibn Hişam, VI cild, səh-545
7. Şərəfuddin Amuli, əl-Müraciət

7. "Şura" surəsi, 23-cü ayə və ya "Qurba" ayəsi: **"Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara məhəbbətdən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını artırarıq!" Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir!"** Hz.Peyğəmbər *(s)* belə buyurmuşdur: "Allah peyğəmbərləri müxtəlif ağaclardan, mənimlə Əlini isə eyni bir ağacdan yaratdı. Mən həmin ağacın köküyəm, Əli budaqlarıdır, Fatimə o ağacın bar verməsi üçün bir vasitə, Həsən və Hüseyn meyvələridir, şiələrimiz isə yarpaqlarıdır. Onun hər bir budağından yapışan kəs nicat tapar, ayrı düşən isə zəlalətə uğrayar. Allaha Səfa və Mərvə arasında min illər boyu belə ibadət edib, nəticədə tuluq kimi köhnəlib quruyan, lakin mənim əhli-beytimi sevməyən bəndəni Allah üzü üstə cəhənnəmə atar." Sonra Həzrət şahid və sübut olaraq bu ayəni tilavət etdi: "(Ya Peyğəmbər!) De ki, mən sizdən bunun (peyğəmbərlik və risalətimin) müqabilində ən yaxınlarımı sevməkdən başqa bir şey istəmirəm." Bu hədis aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-130-131
2. Siyuti, Əddurrul-mənsur, VI cild, səh-7
3. İhqaqul-həqq, III cild, səh-2
4. Əbu Nəim İsfəhani, Hilyətul-övliya, III cild, səh-201
5. Muhibbəddin Təbəri, Zəxairul-uqbə, səh-138
6. İbn Hacər, Əs-səvaiq, səh-101
7. Təfsiri-Təbəri, XXV cild, səh-16
8. Müttəqi Hindi, Kənzul-ummal, I cild, səh-118
9. Təfsiri-Zəməxşəri, IV cild, səh 220-221
10. Təfsiri-Razi, XXVII cild, səh-165-166
11. Təfsiri-Qurtubi, səh-5843

12. Alusi, Ruhul-Məani, XXV cild, səh-32

8. "Rəd" surəsi, 43-cü ayə: **"(Ya Rəsulum!) Kafirlər: "Sən peyğəmbər deyilsən!" deyirlər. (Onlara) belə cavab ver: "Mənimlə sizin aranızda (doğruluğuma) Allahın və kitabı bilənlərin şahid olması yetər!"** Əbu Səid Xudri deyir: Hz.Peyğəmbərdən *(s)* kitabı bilən kəsin kim olduğunu soruşdum. Həzrət buyurdu: "Həmin şəxs qardaşım Əli ibn Əbu Talibdir."

9. "Rəd" surəsi, 7-ci ayə və ya "Hidayət" ayəsi: **"Kafir olanlar: "Məgər ona Rəbbindən bir möcüzə endirilməli deyildimi?" deyirlər. Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın bir rəhbəri vardır!"** İbn Abbas belə deyir: "Bu ayə nazil olanda Hz.Peyğəmbər *(s)* mübarək əlini sinəsinə qoyub buyurdu: "Mən qorxudanam!" Sonra isə əlini Hz.Əliyə tərəf uzadaraq buyurdu: "Ya Əli! Sən isə hidayət edənsən. Məndən sonra doğru yolu tapanlar, sənin vasitənlə hidayət olacaq." Bu hədis aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Təfsiri-Təbəri, VII cild, səh-343-344
2. Ğaraibul-Quran, XIII cild, səh-68
3. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-301-302
4. Təfsiri ibn Kəsir, II cild, səh-52
5. Müstədrəki-Hakim, III cild, səh-129-130
6. İbn Şəhr Əşvab, Mənaqib, III cild, səh-83
7. Təfsiri-Razi, XIX cild, səh-14
8. Siyuti, Əddurrul-mənsur, IV cild, səh-45
9. Mir Qiyasəddin, Həbibus-seyr, II cild, səh-12
10. Əllamə Əmini, əl-Qədir

10. "Bəqərə" surəsi, 207-cü ayə və ya "Leylətul-məbit" ayəsi: **"İnsanların elə vardır ki, Allahın razılığını qazanmaq üçün öz canından keçər. Allah öz bəndələrinə çox mehribandır!"** Hz.Peyğəmbər *(s)* Mədinəyə hicrət zamanı Hz.Əlini camaata olan əmanətlərini qaytarmaq üçün Məkkədə qoymalı oldu. Özü isə gecə yola düşmək istəyərkən, müşriklər tərəfindən evin mühasirəyə alındığını gördü və Hz.Əliyə onun öz yerində yatmağını göstəriş verib buyurdu: "Mənim yaşıl rəngli örtüyümü üstünə atıb, mənim yerimdə yatarsan. Allahın köməyi ilə sənə heç bir zərər dəyməyəcəkdir!" Hz.Əli də Hz.Peyğəmbərin *(s)* dedikləri ilə razılaşıb onun yatağında uzandı.

Bu zaman Allah Cəbrail *(ə)* və Mikailə *(ə)* vəhy etdi: "Mən sizin aranızda qardaşlıq peymanı bağladım və ikinizdən birinizin ömrünü uzatdım. İndi sizin hansı biriniz digərinin uzun ömürlü olmasını istəyir?" Onların hər biri bunu özü üçün istədikdə, Allah buyurdu: "Nə üçün siz Əli ibn Əbu Talib kimi deyilsiniz? Mən onunla Məhəmməd arasında qardaşlıq peymanı bağladım. O, Peyğəmbərin yatağında yatdı və onun həyatını öz həyatından üstün bildi. Yerə enin və onu düşmənlərdən qoruyun!" Onlar yerə endilər. Cəbrail *(ə)* Əlinin başı üstə, Mikail isə ayaq tərəfində durdu. Cəbrail dedi: "Afərin, afərin! Ya Əli, kim sənin kimi ola bilər?! Allah mələklərin yanında sənin ilə fəxr edir!"

Hz.Peyğəmbər *(s)* Mədinəyə tərəf yola düşdüyü zaman bu ayə nazil oldu: **"İnsanlardan bəzisi Allahın razılığını qazanmaq yolunda öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!"** Bu hədis aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. İmam Qəzzali, Ehyaul-ulum, III cild, səh-237
2. Yusif Gənci Şafei, Kifayətut-Talib, səh-114
3. İbn Səbbağ Maliki, Fisulul-muhimmə, səh-33
4. Cövzi Hənəfi, Təzkirətul-xəvass, səh-21
5. Şəbləncı, Nurul-əbsar, səh-82
6. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-196
7. Müstədrəki-Hakim, III cild, səh-4
8. Müsnədi-Əhməd, I cild, səh-347
9. Təfsiri-Burhan, I cild, səh-206-207
10. Əllamə Məclisi, Biharul-ənvar
11. "Bəqərə" surəsi, 274-cü ayə və ya "İnfaq" ayəsi (sədəqə, xərc): **"Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Rəbbi yanında böyük mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər."** İbn Abbas deyir: "Bu ayə Əli ibn Əbu Talib haqqında nazil olmuşdur. Bir dəfə Hz.Əlinin cəmi dörd dirhəm pulu var idi. Onun bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini aşkar, bir dirhəmini isə gizli şəkildə Allah yolunda ehsan etdi. Allahın Peyğəmbəri *(s)* ondan "Ya Əli! Səni bu işə nə vadar etdi?" soruşduqda, Hz.Əli belə cavab verdi: "Allahın mənə vəd etdiklərini qazanmaq istəyim!" Hz.Peyğəmbər *(s)* buyurdu: "Agah ol ki, sən həmin vədlərə nail oldun!" Bu zaman yuxarıdakı ayə nazil oldu." Hədisin mənası budur ki, Hz.Əli öz var-dövlətini xərcləməkdə Allahın razılığını qazanmaq üçün heç nəyini əsirgəməmişdir. Birincisi, malik olduğu malı Allah yolunda xərc etmiş, ikincisi, bu işi həm gecə, həm gündüz, həm aşkar, həm də gizli yerinə yetirmişdir. Allahın razılığını qazanmaq üçün sevinclə yanaşı, ixlas və fədakarlıq Onun dərgahında qəbul edilmiş və bu ayə nazil olmuşdur. Bu hədis aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-109-115
2. Siyuti, Əddurrul-mənsur, I cild, səh-363
3. Muhibbəddin Təbəri, Zəxairul-uqbə, səh-88
4. İbn Cövzi, Təzkirətul-xəvass, səh-17
5. Təfsiri-Qurtubi, II cild, səh-1115
6. Şəbləncı, Nurul-əbsar, səh-105
7. Süleyman Qunduzi, Yənabiul-məvəddət, səh-92
8. İbn Əsir, Usdul-ğabə, I cild. səh-21
9. Vahidi, Əshabun-nüzul, səh-64
10. Fəzailul-xəmsə, I cild, səh-321-322

12. “Tövbə” surəsi, 119-cu ayə və ya “Sadiqin” ayəsi: **“Ey iman gətirənlər! Allahdan qorxun (imanında, sözündə, işində) doğru olanlarla olun!”** Bütün sünni təfsirçi və mühəddisləri İbn Abbasdan nəql etmişlər ki, yuxarıda qeyd olunan ayə Əli ibn Əbu Talibə məxsusdur. İbn Abbasın belə dediyi nəql olunur: “Sadiqlərlə birgə olun” ifadəsindən məqsəd, Əli ibn Əbu Talib və onun səhabələri ilə birgə olmaqdır![152] seyid Haşim Bəhrani “Təfsiri-Burhan”ında “Nəhcül-bəyan” kitabından belə nəql edir: “Rəvayət olunmuşdur ki, Hz.Peyğəmbərdən *(s)* “sadiqlər” barəsində sual olunduqda, “Onlar Qiyamətə qədər Əli, Fatimə, Həsən, Hüseyn və onların məsum, günahsız övladlarıdır”, deyə buyurmuşdur.[153] Siyutinin “Əddurrul-mənsur”, Xarəzminin “Mənaqib” səh-189, Süleyman Qunduzinin “Yənabiul-məvəddət” səh-115-də əsərlərində də bu həqiqət təsdiqlənmişdir.

13. “Beyyinə” surəsi, 7-8-ci ayələr və ya “Xeyrul-Bəriyyə” ayəsi: **“İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır. Onların öz Rəbbi yanındakı mükafatı (ağacları) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan. Bu nemətlər Rəbbindən qorxanlar üçündür!”** Bu ayələr vasitəsilə ən pis və ən yaxşı məxluqların kim olduğu açıqlanır. Allah Haqq nurunu söndürmək istəyən, həm özlərini, həm də başqalarını azğınlığa sürükləyən kafirləri və kitab əhlindən olan müşrikləri “şərrul-bəriyyə” (yaradılmışların ən pisi), bunun müqabilində isə iman nuru sayəsində haqq yol seçən, yaxşı əməllər edən, həm özlərini, həm də başqalarını doğru yola çağıranları “xeyrul-bəriyyə” (yaradılmışların ən yaxşısı) adlandırır.

Cabir ibn Abdullah Ənsaridən belə nəql olunur: “Biz Hz.Peyğəmbərlə *(s)* bir yerdə idik. Bu vaxt Əli bizə tərəf gəlirdi. Hz.Peyğəmbər *(s)* onu görən kimi buyurdu: “Canım əlində olan Allaha and olsun ki, bu kişi və onun tərəfdarları Qiyamət günü nicat tapanlardandır!” Bundan sonra “İman gətirib saleh iş görənlər yaradılmışların ən yaxşılarıdır.” ayəsi nazil oldu. Bu ayənin nazil olmasından sonra Hz.Əli gələrkən Peyğəmbərin *(s)* səhabələri ona “Yaradılmışların ən yaxşısı gəlir!” dedilər.” Bu hədis aşağıdakı mənbələrdə təsdiqlənmişdir:

1. Siyuti, Əddurrul-mənsur, VI cild, səh-379
2. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, 357, 359-364
3. İbn Hacər, Əs-səvaiqul-muhriqə, səh-96
4. Şəblənci, Nurul-əbsar, səh-70, 101
5. Əllamə Əmini, əl-Qədir

14. “Bəqərə” surəsi, 269-cu ayə və ya “Hikmət” ayəsi: **“Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər!”** Abdullah ibn Abbasdan belə nəql olunur: “Biz Peyğəm-

[152]Təfsiri-Sələbi, III cild, səh-297.
[153]Təfsiri-Burhan, II cild, səh-170.

bərin *(s)* yanında idik və Həzrətdən Əlinin haqqında soruşulduqda, buyurdu: "Elm və hikmət on qismdir, onun doqquzu Əliyə, biri isə camaata verilmişdir!" Başqa bir yerdə isə Əbil-Həmradan belə nəql edir: "Biz Peyğəmbərin *(s)* yanında idik və Əli bizə tərəf gəlirdi. Bu vaxt Peyğəmbər *(s)* buyurdu: "Hər kəs Adəmin elmini, Nuhun düşüncəsini və İbrahimin Allahla dostluğunu müşahidə edib sevinmək istəyirsə, Əli ibn Əbu Talibə baxsın!"

Bu rəvayətlər açıq-aydın göstərir ki, Hz.Peyğəmbərdən *(s)* sonra İslam ümməti arasında elm, bilik və hikmətdə Hz.Əliyə çatan bir kəs yoxdur. İmamətin əsas və mühüm şərti elm və hikmət olduğundan, İslam Peyğəmbərindən *(s)* sonra imamət və xilafət məqamına ən layiq şəxs, yalnız Əli ibn Əbu Talibdir. Bu həqiqət aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-79, hədis: 116; səh-105, hədis: 146; səh-106, hədis: 147
2. Sünəni-Tirmizi, V cild, səh-637
3. Xarəzmi, Mənaqib, bölüm:Əli ibn Əbu Talibin *(ə)* fəzilətləri, hədis: 3723
4. Təbərsi, Məcməul-bəyan
5. Şeyx Müfid, əl-İrşad
6. Təbatəbai, əl-Mizan
7. Məkarim Şirazi, İmamət haqqın dili ilə.

15. "İnsan" surəsi, 5-22-ci ayələr: **"Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri (Cənnətdə) kafur qatılmış (şərabla dolu) qədəhdən içəcəklər. O (kafur) elə bir çeşmədir ki, Allahın bəndələri ondan içəcək və onu (istədikləri yerə) asanlıqla axıdacaqlar. Onlar (Cənnətə nail olacaq müttəqilər) elə kimsələrdirlər ki, verdikləri sözü (etdikləri nəziri) yerinə yetirər və dəhşəti (aləmi) bürüyəcək (şəri hər tərəfə yayılacaq) gündən (qiyamət günündən) qorxarlar. Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. (Və sonra da o kimsələrə belə deyərlər:) "Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən (bu ehsan müqabilində) nə bir mükafat, nə də bir təşəkkür istəyirik. Həqiqətən, biz çox sərt, çətin bir gündə Rəbbimizdən qorxuruq!" Allah da onları o günün şərrindən qoruyacaq, onlara gözəllik və sevinc bəxş edəcəkdir. Və onları etdikləri səbr müqabilində Cənnətlə və ipəklə mükafatlandıracaqdır. Onlar orada taxtlara söykənəcək, orada nə günəş, nə də sərt soyuq görəcəklər. (Cənnət ağaclarının) kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır. (Cənnətdəki xidmətçilər) onların ətrafında gümüş qablar və büllur qədəhlərlə dolanacaqlar. Gümüşdən olan elə büllur qədəhlər ki, xidmətçilər onları sahiblərinə münasib ölçüdə etmişlər. Orada onlara zəncəfil qatılmış badə də içirdiləcəkdir. (Zəncəfil) orada (Cənnətdə) bir çeşmədir ki, (suyu boğazdan çox rahat keçdiyi üçün) Səlsəbil adlanır. Onların dövrəsində həmişəcavan (xidmətçi) oğlanlar olacaqdır. Onları gördükdə, sanki səpilmiş inci olduqlarını zənn edərsən. (Orada) hara baxsan, nemət və böyük bir mülk görərsən. (Cənnət**

əhlinin) əyinlərində tafdadan və atlazdan yaşıl libaslar olacaq, onlara gümüşdən bilərziklər taxılacaqdır. Rəbbi onlara çox pak bir şərab içirdəcəkdir. (Onlara belə deyiləcəkdir:) "Bu sizin (dünyada etdiyiniz yaxşı əməllərə görə) mükafatınızdır. Zəhmətiniz (Allah yanında) məqbuldur (təqdirəlayiqdir)!" İbn Abbasdan belə nəql olunur: "Bir gün Həsən və Hüseyn xəstə idilər. Hz.Peyğəmbər *(s)* və bəzi səhabələr onları ziyarətə gəlmişdilər. Onlar Hz.Əliyə belə dedilər: "Ey Əbul Həsən! Övladlarının sağalması üçün nəzir etsəydin yaxşı olardı. Bundan sonra da Hz.Əli, Fatimə, xidmətçiləri Fizzə Həsən və Hüseynin sağalması üçün dua edib üç gün oruc tutacaqlarını nəzir etdilər. Nəzirlərini yerinə yetirmək üçün Hz.Əli məndən üç nəfərlik yemək üçün buğda aldı. Onlar üç gün ardıcıl oruc tutmağa qərar vermişdilər. Hz.Fatimə onun üçdə bir hissəsini una çevirib çörək bişirdi. Onlar iftar açacaqları bir zamanda qapılarını bir fəqir döyüb dedi: "Salam olsun sizə, ey Muhəmmədin Əhli-beyti! Müsəlmanların fəqirlərinin ən fəqiriyəm. Sizdən bir parça yemək verməyinizi xahiş edirəm. Allah sizə mərhəmət edib, cənnət nemətlərindən bəxş etsin!"

Qapılarına gələn miskin şəxsin bu istəyini öz nəfslərinin istəklərindən üstün tutduqları üçün hər kəs öz payına düşən hissəni fəqirə verdi və o axşam yalnız su ilə iftar etdilər. İkinci gün yenə nəzir oruclarını tutub, iftar yeməyinə hazırlaşdıqları bir zamanda qapılarını bir yetim döydü. Yetim ona kömək edərək təam verələrini istədi. Əhli-beyt yenə fədakarlıq göstərib həmin günün iftarı üçün hazırladıqları yeməyi yetimə verdilər. Üçüncü gün yenə iftar vaxtı öz yeməklərini qapılarına gələn bir əsirə verdilər. Özləri əvvəlki kimi su ilə iftar etdilər.

Səhər olduqda Hz.Əli Həsən və Hüseynin əlindən tutaraq Hz.Peyğəmbərin *(s)* yanına getdi. Hz.Peyğəmbər *(s)* onların acından titrədiklərini və rənglərinin saraldığını gördü. Hz.Peyğəmbər *(s)* onlarla birlikdə Fatimənin yanına gəldikdə onu mehrabında ibadətlə məşğul olduğunu gördü. Qızının da aclıqdan halının olmamasını görən Hz.Peyğəmbərə Cəbrayıl nazil olaraq belə buyurdu: "Ey Muhəmməd! Bu surəni al. Şübhəsiz ki, Allah sənin Əhli-beytinlə iftixar etməkdədir." Daha sonra Cəbrail Peyğəmbərə "İnsan" surəsini oxudu." Bu hadisə aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Təfsiri-Qurtubi, IX cild, səh-6922
2. Təfsiri-Zəməxşəri, IV cild, səh-670
3. Fəxrəddin Razi, Əl-Vəsit, III cild, səh-244
4. Alusi, Ruhul-məani, XXIX cild, səh-158
5. Şəbləncı, Nurul-əbsar, səh-62
6. Təlhə Şafei, Mətalibus-sual, səh-8
7. Ruhul-bəyan, IX cild, səh-269
8. Zəncani, Tarixul-Quran, səh-55
9. Təbərsi, Məcməul-bəyan
10. Əllamə Məclisi, Biharul-ənvar

16. “Tövbə” surəsi 19-cu ayə və ya “Siqayətul-həcc” (Hacılara su vermə ayəsi): **“(Ey müşriklər!) Məgər siz hacılara su verməyi və Məscidul-Hərəmi təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalim tayfanı doğru yola yönəltməz!”** Hədis və təfsir mənbələrinin əksəriyyətində bu ayənin Hz.Əli haqqında nazil olduğu bildirilmişdir. Hz.Peyğəmbərin *(s)* məşhur səhabələrindən olan Ənəs ibn Malikdən belə nəql olunur: “Hz.Peyğəmbərin *(s)* əmisi Abbas ilə Şeybə (Kəbənin qaravulçusu) hər biri özünün üstün və fəzilətli olduğunu deyəndə, Hz.Əli onlarının yanına gəldi. Abbas Hz.Əliyə dedi: “Qardaşoğlu, dayan, sənə sözüm var!” Hz.Əli dayandıqdan sonra Abbas dedi: “Şeybə mənə deyir ki, mən səndən üstün və fəzilətliyəm!” Əli buyurdu: “Ey əmi, bəs ona nə cavab verdin?” Abbas dedi: “Dedim ki, mən Peyğəmbərin *(s)* əmisi, onun atasının vəsisi və hacıları su ilə təmin edənəm! Buna görə də mən səndən üstünəm.” Sonra Hz.Əli Şeybədən Abbasa nə dediyini soruşdu. Şeybə dedi: “Dedim ki, mən səndən şərafətliyəm; çünki mən Kəbəni qorumaqla Allaha əmanətdarlıq edirəm. Onun evinin qapısını açıb-bağlamaq mənim öhdəmdədir. Əgər Abbas şərafətli olsaydı, bu iş ona tapşırılardı!”

Bunlara cavab olaraq Hz.Əli buyurdu: “Mən isə fəxr edirəm ki, bu ümmətin içərisində Hz.Peyğəmbərə *(s)* iman gətirən, hicrət edən və cihad edən birinci şəxsəm!”

Sonra onların hər üçü Hz.Peyğəmbərin *(s)* yanına gedərək öz sözlərini ona ərz etdilər. Hz.Peyğəmbər *(s)* onlara heç bir cavab vermədi. Bir neçə gündən sonra bu haqda ayə nazil oldu. Bu zaman Hz.Peyğəmbər *(s)* onların yanına gedib, yuxarıdakı ayəni (Tövbə 19) tilavət etdi. “Bəzi mənbələrdə qeyd olunur ki, Abbas bu ayənin nazil olduğunu eşitdikdə, üç dəfə “Biz təslimik!” – dedi!”. Bu həqiqət aşağıdakı mənbələrdə də təsdiqlənmişdir:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-249
2. Təfsiri-Təbəri, IX cild, səh-59
3. Vahidi, Əsbabun-nüzul, səh-182
4. Təfsiri-Qirtəbi, VIII cild, səh-91
5. Fəxrəddin Razi, Məfatihul-ğeyb, IV cild, səh-422
6. Təfsiri-Xazin, II cild, səh-22
7. Təfsiri-Nəsəfi, II cild, səh-221
8. İbn Səbbağ Maliki, Fisulul-muhimmə, səh-123
9. Siyuti, Əddurrul-mənsur, III cild, səh-218-219

17. “Təhrim” surəsi, 4-cü ayə və ya “Sahibul-muminin” (əməli saleh möminlə) ayəsi: **“(Ey Həfsə, ey Aişə!) Əgər ikiniz də (bu hərəkətinizə görə) Allaha tövbə etsəniz (çox yaxşı olar). Çünki qəlbləriniz (ona əziyyət verməklə haqdan) sapmışdı (batilə meyl etmişdi). Əgər ona (Peyğəmbərə) qarşı birbirinizə kömək etsəniz, (bilin ki, sizə qələbə çalmaqda) onun mövlası (dostu, hamisi) Allah, yardım göstərənləri isə Cəbrail, əməlisaleh möminlər və**

bundan sonra da (bütün) mələklərdir. (Yaxud onun dostu və yardımçıları Allah, Cəbrail, əməlisaleh möminlərdir. Bunlardan sonra da mələklər onun yardımçısıdır)" Bir çox rəvayətlərdə bu ayədə qeyd olunmuş "əməlisaleh möminlər" ifadəsi birbaşa Hz.Əliyə aid edilmişdir. Bu sözün "Cəbrail" sözünün kənarında yerləşməsinə diqqət yetirdikdə, Hz.Əlinin məqamının böyüklüyü və bu fəzilətin əhəmiyyəti aydın olur. Hz.Peyğəmbərin *(s)* həyatında baş verən hadisələrə nəzər saldıqda da məlum olur ki, Allah və Cəbraildən sonra İslam Peyğəmbərinin *(s)* ən yaxın köməkçisi və hamisi İmam Əli olmuşdur. Bu ayənin nazil olması haqqında Əmmar ibn Yasirdən belə nəql olunur: "Hz.Əli *(ə)* deyirdi ki, Hz.Peyğəmbər *(s)* məni çağırıb buyurdu: "Sənə bir müjdə verimmi?" Dedim: "Bəli, ey Allahın Rəsulu! Sən həmişə xeyirli müjdə verənsən." Allahın Rəsulu buyurdu: "Uca Allah sənin haqqında bir ayə nazil etmişdir." Dedim: "O hansı ayədir?" Həzrət buyurdu: "Sən Cəbraillə eyni səviyyədə tutulmusan!" Sonra bu ayəni (Təhrim 4) oxudu." Hədislərin bəzisində Hz.Peyğəmbər *(s)* belə buyurub: "Əməli saleh mömin Əli ibn Əbu Talibdir!" Buna oxşar hədislər aşağıdakı mənbələrdə də qeyd olunmuşdur:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-255, 256, 258, 259,263, hədis: 982, 987, 989
2. Bursui, Ruhul-bəyan, IX cild, səh-53
3. Əllamə Əmini, əl-Qədir
4. Əhməd ibn Hacər Əsqəlani, Fəthul-bari
5. Məkarim Şirazi, İmamət haqqın dili ilə
6. Müttəqi Hindi, Kənzul-ummal
7. Təbərsi, Məcməul-bəyan

18. "Taha" surəsi, 29-32-ci ayələr və ya "Vəzirlik" ayəsi: **"Və mənə öz ailəmdən bir vəzir (köməkçi) ver. Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir. Onu işimə ortaq et (ona da peyğəmbərlik ver)!"** Əsma binti Umeysdən belə nəql olunur: "Hz.Peyğəmbər *(s)* belə buyurdu: "İlahi! Mən səndən qardaşım Musanın *(ə)* istədiyini istəyirəm: İlahi! Mənim Əhli-beytimdən bir nəfəri, qardaşım Əlini mənə vəzir qərar ver! Onunla arxamı möhkəmləndir, onu işimə şərik et ki, Sənə çoxlu həmd-səna edim, Səni çoxlu yad edim. Həqiqətən, Sən bizi görürsən və bizim vəziyyətimizdən xəbərdarsan!" Məlum olduğu kimi, Hz.Peyğəmbərin *(s)* işlərinə şərik olmaq nübuvvət və risalət yox, xalqa rəhbərlik vəzifəsidir. Bu və buna oxşar hədislər aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-77, hədis: 115; səh-368, hədis: 510; səh-370, hədis: 511; səh-374, hədis: 516
2. Əbu Nəim, Mulhəqati Ehqaqul-həqq, XX cild, səh-128
3. Təbərsi, Məcməul-bəyan
4. Əllamə Məclisi, Biharul-ənvar

19. "Əhzab" surəsi, 23-25-ci ayələr: **"Möminlər içərisində elələri vardır ki, Allaha etdikləri əhdə sadiq qalarlar. Onlardan kimisi (bu yolda) şəhid**

olmuş, kimisi də (şəhid olmasını) gözləyir. Onlar (verdikləri sözü) əsla dəyişməzlər ki, Allah (bununla) doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə əzab versin, yaxud onların tövbələrini qəbul buyursun. Həqiqətən, Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir! Allah kafirləri öz qeyzləri ilə (qəzəbləri içində boğula-boğula) dəf etdi. Onlar heç bir xeyir (qənimət) əldə edə bilmədilər. Döyüşdə (zəfər çalmağa) Allah möminlərə kifayət etdi. Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!" Abdullah ibn Abbasdan belə nəql olunur: "Möminlərdən bəziləri Allahla əhdlərinə sadiqdirlər." – ayəsi Hz.Əli, Hz.Həmzə və Hz.Cəfər haqqında nazil olmuşdur. Ayədə qeyd olunan "Bəzisi də intizardadır." cümləsi Allah yolunda şəhadət intizarı çəkən Əliyə işarədir. Allaha and olsun ki, şəhadət ona nəsib oldu!" Qeyd etdiyimiz bu hədisi və bu ayələrin Hz.Əlinin şəninə nazil olmasını aşağıdakı mənbələr təsdiqləmişdir:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, 1-2, hədis: 627-628
2. Siyuti, Əddurrul-mənsir, V cild, səh-192
3. Süleyman Qunduzi Hənəfi, Yənabiul-məvəddət, səh-94
4. Təbərsi, Məcməul-bəyan
5. Məkarim Şirazi, İmamət haqqın dili ilə
6. Nişapuri, Əl-Kəşfu vəl-bəyan
7. Əliyyun fil-kitabi vəs-sünnə, səh-218

20. "Hədid" surəsi, 19-cu ayə və ya "Siddiqun" ayəsi: **"Allaha və peyğəmbərlərinə iman gətirənlər – məhz onlar öz Rəbbi dərgahında olan siddiqlər (özündə-sözündə doğru olanlar) və şəhidlərdir. Onların (qiyamət günü) öz mükafatları və (qıl körpüsü üstündə onlara yol göstərəcək) öz nurları vardır. Kafir olub ayələrimizi yalan sayanlara gəldikdə isə, onlar cəhənnəmlikdirlər."** İbn Əbi Leylinin belə dediyi nəql olunur: "Hz.Peyğəmbər *(s)* belə buyurub: "Sadiqlər (düzdanışanlar) üç nəfərdir: Ali-Yasin mömini Həbib Nəccar, Ali-Firon mömini Hizqil və onların fəzilətlisi olan Əli ibn Əbu Talib." Bu və digər hədislər İslam ümməti arasında "siddiq" məqamını İmam Əliyə aid edir. Bu, bir fəzilətdir və başqaları ilə müqayisədə o Həzrətin üstünlüyünü göstərir. Bu haqda olan hədislər aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-223, hədis: 937, 939, 942
2. Süleyman Qunduzi Hənəfi, Yənabiul-məvəddət
3. Müttəqi Hindi, Kənzul-ummal, XI cild, səh-601, hədis: 32897
4. Ehqaqul-həqq, III cild, səh-243
5. Əllamə Əmini, əl-Qədir

21. "Hud" surəsi, 17-ci ayə və ya "Şahid" ayəsi: ***"Məgər Rəbbindən açıq-aydın bir dəlilə (Qurana) istinad edən, ardınca Allahdan bir şahid (Cəbrail) gələn, ondan da əvvəl Musanın (öz ümməti üçün) bir rəhbər və mərhəmət olan kitabının (Tövratın) təsdiq etdiyi kimsə (dünyaya meyl edənlər, ona bel bağlayanlar kimi ola bilərmi)?! Bunlar (bu dəlilləri təsdiq edən müsəl-***

manlar) Qurana inanırlar. (Ya Rəsulum!) Quranı inkar edən zümrənin (bütün müşriklərin və kafirlərin) vəd olunduğu yer Cəhənnəmdir. Artıq sən də onun barəsində şübhəyə düşmə. O sənin Rəbbindən (gələn) haqdır, lakin insanların (Məkkə əhlinin) əksəriyyəti (buna) inanmaz!" Bir nəfər "Ya Əmirəl-möminin! Quranda sənin haqqında bir ayə nazil olubmu?" soruşduqda, o Həzrət buyurdu: "Məgər Allahdan açıq-aydın bir dəlilə istinad edən, ardınca Allah tərəfindən bir şahid gələn kimsə (başqaları kimi ola bilərmi?!) ayəsində "Allah tərəfindən açıq-qydın dəlilə istinad edən Muhəmməddir *(s)*, ona şahid və onun ardınca qədəm götürən şəxs isə mənəm!" Bu və buna bənzər hədislər aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-380, hədis: 383-384; səh-282, hədis: 387
2. Siyuti, Əddurrul-mənsur, III cild, səh-324
3. Alusi, Ruhul-məani, XII cild, səh-28
4. Məkarim Şirazi, İmamət haqqın dili ilə
5. Təfsiri-Təbərsi

22. "Hədid" surəsi, 28-ci ayə və ya "Nur" ayəsi: **"Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (qıl körpüsü üstündə) getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!"** İbn Abbas Hz.Peyğəmbərdən *(s)* belə nəql edir: "Ayədə qeyd olunan "Allah sizə Öz mərhəmətindən iki pay versin" cümləsindən məqsəd, Allahın Əliyə mərhəmət etdiyi Həsən və Hüseyn *(ə)*, "Sizə yol getməyiniz üçün nur bəxş etsin" cümləsindən məqsəd, İslam ümmətinin nuru və hidayət nişanəsi Əli ibn Əbu Talibdir."[154] Hz.Əli buyurdu: "Allahın bəndəsi, Peyğəmbərin qardaşı və böyük siddiq mənəm! Bu sözü məndən sonra yalançılardan başqa kimsə iddia etməz. Mən camaatdan yeddi il qabaq Peyğəmbərlə birlikdə namaz qılırdım."[155]

23. "Əş-Şüəra" surəsi, 214-215-ci ayələr və ya "İnzar" ayəsi: **"Və ən yaxın qohumlarını qorxut! Sənə tabe olan möminləri qanadın altına al! (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!)** Bərra ibn Azibdən belə nəql edilir: "Ən yaxın qohumlarını qorxut." ayəsi nazil olandan sonra Hz.Peyğəmbər *(s)* qırx nəfərdən ibarət Əbdül-Müttəlib övladlarını bir yerə yığaraq buyurdu: "Ey Əbdül-Müttəlib övladları! Allah məni bütün xalqlar üçün, xüsusilə də sizin üçün peyğəmbər olaraq göndərmişdir. Mən sizi iki sözə dəvət edirəm. Bu sözləri demək asan, əməl etmək isə çətindir. Bu sözləri deməklə ərəb və əcəmə hakim olarsınız və bütün millətlər sizə tabe olar. Bu söz vasitəsilə behiştə daxil olub cəhənnəm odundan qurtularsınız. Bu iki söz Allahın birliyinə və mənim Onun Rəsulu olmağıma şəhadət vermənizdir. Mənim bu dəvəti-

---

[154]Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-227, hədis: 943; səh-228, hədis: 944, 946, 947.
[155]Müttəqi Hindi, Kənzul-ummal, XIII cild, səh-122, hədis: 36389; səh-164, hədis: 36497.

mi qəbul edib peyğəmbərliyimə yardım göstərən və ayağa qalxan hər bir kəs mənim qardaşım, canişinim, vəzirim və məndən sonra xəlifəmdir."

Məclisə sakitlik çökdü. Hz.Peyğəmbər *(s)* bu sözü üç dəfə təkrarladıqdan sonra yalnız Hz.Əli ayağa qalxıb şəhadət kəlmələrini izhar edərək dedi: "Dəvətini qəbul edirəm və çağırışına qəlbən cavab verirəm." Bu zaman Hz.Peyğəmbər *(s)* camaata buyurdu: "Bu Əli, sizin aranızda mənim qardaşım, canişinim və məndən sonra da sizin xəlifənizdir." Məclisdə iştirak edənlər durub gedərkən, istehza ilə Əbu Talibə deyirdilər: "Get oğlun Əliyə itaət et. Muhəmməd *(s)* onu sənin əmirin seçdi." Bu hadisə Hz.Əlinin həm üstünlüyünü, həm də on üç yaşında ikən Hz.Peyğəmbərin *(s)* xəlifəsi təyin olunduğunu sübut edir. Bu məşhur tarixi hadisə aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-420
2. Tarixi-Təbəri, II cild, səh-63, 217
3. Təfsiri-Təbəri, XIX cild, səh-75
4. Alusi, Ruhul-məani, XIX cild, səh-135
5. Əhməd ibn Hənbəl, Müsnəd, I cild, səh-111
6. İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, XIII cild, səh-210
7. Tarixi-ibn Əsir, II cild, səh-63
8. Təbərsi, Məcməul-bəyan
9. Şeyx Səduq, Mən la yəhzirihul-fəqih
10. Şeyx Tusi, ət-Tibyan

24. "Ər-Rəhman" surəsi, 19-22-ci ayələr və ya "Mərəcəl-Bəhreyn" ayəsi: **"(Suları şirin və acı olan) iki dənizi O qovuşdurdu. Amma onların arasında maneə vardır, bir-birinə qatışmazlar (özləri üçün müəyyən edilmiş həddi aşmazlar). Elə isə Rəbbinizin nemətlərindən hansı birini təkzib edə bilərsiniz? Onlardan (o iki dənizdən) inci və mərcan çıxar."** Quran ayələrinin zahiri və batini mənaları olduğundan, bəzən ayələr həm zahiri, həm də batini baxımdan təfsir edilir. İslami mənbələrdə bu "iki dənizin" batini təfsiri Hz.Əli və Hz.Fatimə (s.ə), ayədə qeyd olunan inci və mərcan sözlərinin təfsiri Hz.Həsən və Hz.Hüseyndir. Hakim Həsqani "O, iki dənizi bir-birinə qovuşdurdu" ayəsinin təfsirində məşhur səhabə Salman Farisidən belə nəql edir: "Məqsəd, Əli və Fatimeyi-Zəhradır (s.ə). Sonra əlavə edərək Hz.Peyğəmbərin *(s)* belə buyurduğunu yazır: "O iki dənizdən inci və mərcan çıxır" ayəsindən məqsəd, Həsən və Hüseyndir *(ə)*."[156] Qeyd olunan bu ayələrdə Hz Əli, Hz.Fatimə *(ə)*, Hz.Həsən *(ə)* və Hz.Hüseynin *(ə)* böyük fəzilətlərini sübuta yetirən dəlillərdən biridir. Çünki Hz.Əli *(ə)* və Hz.Fatimə (s.ə) Alusinin yazdığı kimi, iki böyük dəryaya bənzəyirlər. Onlar Allahın əzəmətli nişanələri, xeyir-bərəkət mənbəyi, elm və biliklərin başlanğıcı, ismət, paklıq və səxavət göstəriciləridir. Alusi onların

[156]Şəvahidut-tənzil, II cild, səh-209, hədis: 919.

övladlarını elm və təqvada, fəzilət və paklıq baxımından dəryanın tayı-bərabəri olmayan ləl-cavahiratına bənzədir.[157]

25.“Mücadilə” surəsi, 12-13-cü ayələr və ya “Nəcva” (pıçıltı) ayəsi: **“Ey iman gətirənlər! Peyğəmbərlə (hər hansı bir iş barəsində) məxfi danışacağınız zaman bu danışıqdan əvvəl (ona hörmət əlaməti olaraq yoxsullara) sədəqə verin. Bu (əməl) sizin üçün (Allah yanında) daha xeyirli, daha pakdır. Əgər (sədəqə verməyə) bir şey tapmasanız (ürəyinizi qısmayın). Çünki Allah bağışlayandır, rəhm edəndir! Məgər siz (Peyğəmbərlə) məxfi danışmazdan əvvəl sədəqə verməkdən qorxdunuzmu? Madam ki, siz (bunu) etmədiniz (sədəqə vermədiniz) və Allah da tövbənizi qəbul buyurdu, onda namaz qılıb zəkat verin, Allaha və onun Peyğəmbərinə itaət edin. Allah nə etdiyinizdən xəbərdardır!”** Təfsir və hədisçilərin rəyinə əsasən bu ayələr də Hz.Əlinin *(ə)* fəzilətini təsdiqləyir. Çünki bu ayədə gələn əmri Hz.Əlidən *(ə)* başqa kimsə yerinə yetirmədi. Hakim Həsqani Mücahiddən İmam Əlinin *(ə)* belə dediyini nəql edir: “Quranda bir ayə var ki, məndən qabaq və məndən sonra ona əməl edən bir kəs olmayıb və olmayacaqda. Bu, Qurani-Kərimin “Nəcva” ayəsidir. Mənim bir dinar pulum var idi, onu on dirhəmə satdım. Bununla da nə vaxt Hz.Peyğəmbərlə *(s)* məxfi danışmaq istəsəydim, bir dirhəm sədəqə verərdim. Lakin bir müddətdən sonra o ayənin hökmü sonrakı ayənin vasitəsilə ləğv oldu.” Bu həqiqəti qeyd edən məşhur mənbələr bunlardır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-231, hədis: 951; səh-240, hədis: 946.
2. Siyuti, Əddurrul-mənsur, VI cild, səh-185
3. Bursui, Ruhul-bəyan, IX cild, səh-406
4. Təfsiri-Zəməxşəri, IV cild, səh-494
5. Məhəmməd ibn Əhməd Ənsari Qirtəbi, Əl-Cameul-əhkamil-Quran, IX cild, səh-6472.
6. Məkarim Şirazi, İmamət haqqın dili ilə
7. Təfsiri-Təbərsi

26.“Vaqiə” surəsi 10-14-cü ayələr və ya “Sabiqun” (öndə olanlar) ayəsi: **“Və (dünyadakı yaxşı əməllərinə, kamil imanlarına, yaxud Peyğəmbərə uyduqlarına görə axirətdə də) öndə olanlar, öndə olanlar. Onlar (Allaha) yaxın olan kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar. Onların çoxu keçmiş ümmətlərdən, az bir qismi də sonrakılardandır.”** Hakim Həsqani İbn Abbasın belə dediyini nəql edir: “Hz.Peyğəmbərdən *(s)* bu ayənin təfsirini soruşduqda Həzrət buyurdu: “Mən bu ayənin təfsirini Hz.Cəbraildən *(ə)* soruşdum. O, dedi: “Ayə Əli və onun tərəfdarlarına aiddir, onlar hamıdan öncə Cənnətə girəcəklər!”[158] Başqa bir hədisdə İbn Abbas belə nəql edir: “İmanda

[157]Alusi, Ruhul-məani, XXXVII cild, səh-93; Siyuti, Əddurrul-mənsur, VI cild, səh-193.
[158]Şəvahidut-tənzil, II cild, səh-215-216, hədis: 927.

öndə olanlar üç nəfərdir: Musaya iman gətirən Yuşə ibn Nun, İsaya iman gətirən Sahibi-Nəccar (Həbib Nəccar) və Hz.Peyğəmbərə *(s)* ilk iman gətirən Hz.Əli *(ə)*!"[159]

Ömər ibn Xəttabın belə dediyi nəql olunur: "Əlini pis adla çağırmayın. Mən onun haqqında peyğəmbərdən bəzi fəzilətlər eşitmişəm ki, əgər onların biri Xəttab övladlarında olsaydı, mənim üçün Günəşin saçdığı hər bir şeydən sevimli olardı. Əbu Bəkr, Əbu Ubeydə və bir qrup səhabə ilə Ümmü Sələmənin evinə getdik. Əlini onun evinin kandarında görüb dedik: "Hz.Peyğəmbəri *(s)* görmək istəyirik!" Əli buyurdu: "İndi gələcək." Peyğəmbər gələrkən, biz də o Həzrətə tərəf getdik. Hz.Peyğəmbər *(s)* Hz.Əliyə *(ə)* söykəndi və əli ilə onun çiyninə vurub buyurdu: "Sənin lə müxalifətə qalxacaqlar. Halbuki, sən iman gətirən ilk möminsən, ruzigardan hamıdan çox xəbərdarsan, ilahi əhd-peymana ən vəfalısan, ədalətlə bölgüdə hamıdan dəqiqsən, rəiyyətə qarşı hamıdan mehribansan və sənin müsibətin də hamının müsibətindən böyükdür!"[160] Bu həqiqət qeyd edəcəyimiz islami mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Siyuti, Əddurrul-mənsur, VI cild, səh-154
2. Əbu Nəim, Hilyətul-övliya, I cild, səh-66
3. İbn Əsakir, Tarixi-Dəməşqi, I cild, səh-244
4. Şəhabəddin Hüseyni, Tövzihud-dəlail, səh-171
5. Məkarim Şirazi, İmamət haqqın dili ilə
6. Müsnədi-Əhməd, V cild, səh-26
7. Təbərsi, Məcməul-bəyan

27. "Haqqə" surəsi, 12-ci ayə və ya "Uzunun-vaiyə" (eşidib yadda saxlayan qulaq) ayəsi: **"Ona görə ki, bunu (möminlərə nicat verib kafirləri məhv etməyimizi) sizə bir ibrət dərsi edək və yadda saxlayan (öyüd-nəsihəti diqqətlə dinləyən) qulaq bunu eşidib yadda saxlasın!"** Məşhur səhabə Büreyrədən belə nəql olunur: Hz.Peyğəmbər *(s)* Hz.Əliyə *(ə)* belə buyurdu: "Allah mənə əmr etdi ki, səni özümə yaxın bilim və özümdən uzaqlaşdırmayım, sənə təlim verim və səni saxlayım. Sən buna layiqsən!" Elə bu zaman bu ayə nazil oldu: "Dərk edən qulaq bunu eşidib yadda saxlayacaq!"[161] Başqa bir hədisdə Hz.Əlidən *(ə)* belə nəql olunur: "Dərk edən qulaq bunu eşidib yadda saxlayacaq!" ayəsi nazil olduqdan sonra Hz.Peyğəmbər *(s)* mənə buyurdu: "Ya Əli! Mən Allahdan istəmişəm ki, o qulaq sənin qulağın olsun ki, eşitdiklərini yadda saxlayıb, başqalarına çatdırasan."[162] Buna oxşar hədislər aşağıdakı mənbələrdə də qeyd olunmuşdur:

1. Təfsiri-Zəməxşəri, IV cild, səh-600

---

[159]Şəvahidut-tənzil, II cild, səh-213, hədis: 924.
[160]Müttəqi Hindi, Kənzul-ummal, XIII cild, səh-117, Müəssisətur-Risalət, Beyrut.
[161]Siyuti, Əddurrul-mənsur, VI cild, səh-260.
[162]Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-271.

2. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-277, hədis: 1015; səh-280, hədis: 1019.

3. Fəxrəddin Razi, Məfatihul-ğeyb, XXX cild, səh-107

4. Alusi, Ruhul-məani, XXIX cild, səh-43

5. Bursui, Ruhul-bəyan, IX cild, səh-136

6. Təfsiri-Qirtəbi, IX cild, həmin ayənin təfsirində

7. Təfsiri-Təbəri, XXIX cild, səh-35

8. Təbərsi, Məcməul-bəyan

28. "Məryəm" surəsi, 96-cı ayə və ya "Məvəddət" ayəsi: **"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (ürəklərdə) bir sevgi yaradacaq. (Allah həm Özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır)"** Əhli-sünnə mənbələrində nəql olunan rəvayətlərdə bu ayənin Hz.Əli *(ə)* haqqında nazil olduğu bildirilir. Əbu Səid Xudridən nəql olunan hədisdə deyilir ki, Hz.Peyğəmbər *(s)* Hz.Əliyə *(ə)* buyurdu: "Ya Əbəl Həsən de ki: "İlahi! Yanında əhd-peymanımı qəbul et və məhəbbətimi möminlərin qəlbinə sal." Bu zaman "Həqiqətən, iman gətirən və saleh iş görənlər üçün Allah (möminlərin ürəklərində) bir məhəbbət yaradacaqdır." ayəsi nazil oldu və Peyğəmbər buyurdu: "Buna görə də, elə bir mömin tapılmaz ki, onun qəlbində Əli ibn Əbu Talib məhəbbəti olmasın!"[163] Buna oxşar hədislər bu mənbələrdə də qeyd olunmuşdur:

1. Siyuti, Əddurrul-mənsur, IV cild, səh-278

2. Təfsiri-Zəməxşəri, III cild, səh-47

3. Təfsiri-Qirtəbi, VI cild, həmin ayənin təfsiri

4. İbn Cövzi Hənəfi, Təzkirətul-xəvass, səh-20

5. Muhibbətdin Təbəri, Zəxairul-uqbə, səh-89

6. İbn Səbbağ Maliki, Fisulul-muhimmə, səh-106

7. İbn Hacər, Əs-səvaiqul-muhriqə, səh-170

8. Təbərsi, Məcməul-bəyan

29."Muhəmməd" surəsi, 30-cu ayə və ya "Münafiqun" ayəsi: **"Ya Peyğəmbər! Əgər biz istəsəydik, onları (münafiqləri) mütləq sənə göstərər, sən də onları mütləq üzlərindən tanıyardın (amma, bəlkə, tövbə edib dində səmimi olsunlar deyə, onları heç kəsə tanıtmadıq). Sən onsuz da onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin (bütün) əməllərinizi bilir!"** Əhli-beytin *(ə)* sahib olduğu məqam və fəzilətləri bəyan etmə baxımından nazil olan bu ayənin digər ayələrə nisbətdə xüsusi yeri vardır. Xüsusilə bu ayə Hz.Əlinin *(ə)* fəzilətlərinə dair diqqət edilməli çox vacib və həssas dəlillərdən biridir. Hz.Peyğəmbər *(s)* Xeybər günü Hz.Əli *(ə)* haqqında geniş söhbəti əsnasında belə buyurmuşdur: "Ey camaat! Övladlarınızı Əli məhəbbəti ilə sınaqdan keçirin. Həqiqətən, Əli heç kimi azğınlığa dəvət etməz və hidayətdən uzaqlaşdırmaz. Onu sevən sizdəndir, ona kin-küdurət və ədavət bəsləyən isə

[163]Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-365, hədis: 504.

sizdən deyil!”[164] Tirmizi öz “Sünən”ində Əbu Zərdən belə nəql edir: “Biz Hz.Peyğəmbərin *(s)* dövründə münafiqləri, ancaq üç yolla tanıyırdıq: Allahı və Peyğəmbəri təkzib etdikdə, namazdan boyun qaçırdıqda və Əli ibn Əbu Talibə *(ə)* ədavət bəslədikdə.”[165] Bu ayə ilə əlaqədar daha artıq məlumat əldə etmək istəyənlər bu mənbələrə müraciət edə bilərlər:

1. Heysəmi, Məcməüz-Zəvaid, VI cild, səh-174, Qahirə çapı
2. Qunduzi Hənəfi, Yənabiul-məvəddət, sən-7, İstanbul çapı
3. Həbib Əbu Bəkir ibn Şəhabəddin, Rəşfəzus-Sadi, səh-24, Misir çapı
4. Müttəqi Hindi, Kənzul-ummal, Fəzailu Əli bölümündə, VI cild, səh-294
5. Yusif Gənci Şafii, Kifayətut-Talib, səh-111
6. Müstədrəki-Hakim, III cild, səh-129
7. Əhməd ibn Hənbəl, Müsnəd, VI cild, səh-292
8. Siyuti, Əddurrul-mənsur, VII cild, səh-504
9. Məkarim Şirazi, İmamət haqqın dili ilə

30. “Əhzab” surəsi, 57-ci ayə və ya “İyza” (əziyyət) ayəsi: **“Allahı və Onun Peyğəmbərini incidənlərə Allah dünyada və axirətdə lənət eləmiş və onlar üçün həqarətli bir əzab hazırlamışdır!”** “Allaha əziyyət vermək” dedikdə, təfsir alimlərinin qeyd etdikləri kimi, Allahın qəzəbinə səbəb olan küfr və dinsizlik nəzərdə tutulur. Hz.Peyğəmbəri *(s)* və möminləri incidən kəslərin cəzalanacağı xatırlanır və onları incidən kəs, şübhəsiz, Allahı incitmiş olur. Ayənin təfsirində əhli-sünnə vasitəsilə nəql olunan rəvayətlərdə Hz.Peyğəmbərin *(s)* belə buyurduğu nəql olunur: “Ya Əli! Hər kəs səni incitsə, şübhəsiz, məni incitmişdir!”[166] Başqa bir hədisdə isə Hz.Əlidən *(ə)* belə nəql edilir: “Allahın Peyğəmbəri *(s)* öz tükündən tutub, mənə belə buyurdu: “Hər kəs sənin bir tükünü incitsə, məni incitmişdir. Hər kəs məni incitsə, şübhəsiz, Allahı incitmişdir. Hər kəs Allahı incitsə, ona Allahın lənəti olsun!”[167] Daha ətraflı məlumat üçün bu mənbələrə müraciət edə bilərsiz:

1. Müstədrəki-Hakim, III cild, səh-121, Beyrutun “darul-mərifət” çapı
2. Siyuti, Əddurrul-mənsur, V cild, səh-220
3. İbn Əsakir Dəməşqi, Təlxisut-tarix, XVII cild, səh-352
4. Məkarim Şirazi, imamət haqqın dili ilə
5. Əllamə Əmini, əl-Qədir

31. “Maidə” surəsi, 54-cü ayə və ya “Məhəbbət” ayəsi: **“Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, (bilsin ki) Allah (bunun müqabilində) elə bir qövm gətirər ki, O onları sevər, onlar da Onu sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı sərt olar, Allah yolunda vuruşar və heç kəsin qınağından qorxmazlar. Bu, Allahın lütfüdür, onu istə-**

[164]Təlxisu tarixid-Dəməşq, XVII cild, səh-370-371.
[165]Sünəni-Tirmizi, V cild, səh-635, hədis: 3717.
[166]Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-98, hədis: 777.
[167]Şəvahidut-tənzil, II cild, səh-97, hədis: 776.

diyinə verər. Allah (Öz lütfü ilə) genişdir, (O hər şeyi) biləndir!" Məşhur təfsir alimi Fəxrəddin Razi bu ayənin təfsirində yazır: "Bu ayə Hz.Əli *(ə)* haqqında nazil olmuşdur. Sonra bu ayənin Hz.Əli *(ə)* haqqında nazil olduğunu sübut etmək üçün iki dəlil gətirir: birincisi, Peyğəmbərin *(s)* Xeybər müharibəsində bayrağı Hz.Əliyə *(ə)* verib belə buyurduğunu nəql edir: "Sabah bayrağı elə bir kəsə verəcəyəm ki, həm o, Allah və Peyğəmbəri, həm də Allah və Peyğəmbəri onu sevir." Sonra əlavə edir: "Bununla yuxarıdakı ayənin kimə aid olduğu başa düşülür. İkinci dəlil isə Əlinin *(ə)* haqqında nazil olan sonrakı ayədir. Orada buyurulur: **"Həqiqətən, sizin vəliniz və rəhbəriniz Allah, Peyğəmbəri və namaz qılıb ruku halında zəkat verənlərdir"** Buna əsasən, öncəki ayənin də onun haqqında nazil olduğunu deməyimiz daha münasib olar!"[168]

Başqa bir hədisdə Səd ibn Əbu Vəqqasın oğlu Amirdən belə nəql olunur: "Bir gün Müaviyə ibn Əbu Süfyan atam Səddən soruşdu: "Niyə Əlini *(ə)* söymürsən?" Atam dedi: "Peyğəmbərin *(s)* onun haqqında buyurduğu üç fəzilət yadımda ikən onu söyməkdən çəkinirəm. Əgər bu üç fəzilətin biri məndə olsaydı, qırmızı tüklü dəvələrə sahib olmağımdan daha üstün olardı." Müaviyə soruşdu: "Onlar hansılardır?" Səd dedi: "Birincisi "kisa" (əba) hədisi, ikincisi "mənzilət" hədisi, üçüncüsü isə Əlinin *(ə)* "Xeybər" müharibəsindəki şücaəti və Hz.Peyğəmbərin *(s)* buyurduğu bu kəlamdır: "Sabah bayrağı elə bir kəsə verəcəyəm ki, həm o, Allahı və Peyğəmbərini, həm də Allah və Peyğəmbəri onu sevir. Allah onun vasitəsilə Xeybər qalalarını fəth edəcək." Sonra Əlini *(ə)* çağırdı və öz ağız suyunu onun gözlərinə sürtdü. Əlinin *(ə)* göz ağrısı kəsildi. Bundan sonra bayrağı ona verdi. Bu üç fəzilətə görə Əlini *(ə)* söyə bilmirəm. Bu zaman Müaviyə susub, bir söz demədi"[169] Aşağıda qeyd edəcəyimiz mənbələr də bu ayənin Hz.Əli *(ə)* haqqında nazil olduğunu qeyd edirlər:

1. Müstədrəki-Hakim, III cild, səh-132
2. Sələbi, Mənaqib, səh-60
3. Əhməd ibn Müvəffəq, Mənaqib, səh-67
4. Sünəni-Tirmizi, XIII cild, səh-170
5. Yusif Gənci Şafii, Kifayətut-Talib,səh-59
6. Nəsai, Xəsais, səh-5
7. İbn Əsir, Usdul-ğabə, IV cild, səh-30
8. Təbərsi, Məcməul-bəyan
9. Şeyx Müfid, əl-İrşad

32. "Saffat" surəsi, 24-cü ayə və ya "Məsulun" (sorğu-suala tutulanlar) ayəsi: **"Onları (zülmkarları) tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"** Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Qiyamət günü mən və Əli Sirat körpüsünün üstündə duracağıq və bizim yanımızdan keçən hər kəsdən Əlinin vilayəti

[168]Məfatihul-ğeyb, XII cild, səh-20.
[169]Təlxisul-Müstədrək, III cild, səh-108-109.

haqqında soruşacağıq. Kim bəraət alsa, Siratdan keçəcək, bəraət almayanı Cəhənnəmə atacağıq! "Onları (zülmkarları) saxlayın, çünki onlar sorğu-suala tutulacaqlar!" ayəsinin mənası məhz budur!" Bu və buna oxşar hədislər aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, II cild, səh-106-107, hədis: 786, 787. 788
2. İbn Hacər, Əs-Səvaiq, səh-89
3. İzzəddin Hənbəli, Kəşful-ğummə, səh-92
4. Alusi, Ruhul-məani, həmin ayənin təfsiri
5. Səbt ibn Cövzi, Təzkirətul-xəvass, səh-21
6. Əhməd ibn Abdullah İsfahani Əbu Nəim, Kifayətul-xisam, səh-361
7. Süleyman Qunduzi Hənəfi, Yənabiul-məvəddət, səh-257
8. Təbərsi, Məcməul-bəyan

33. "Əhzab" surəsi, 56-cı ayə və ya "Salavat" ayəsi: **"Həqiqətən, Allah və onun mələkləri Peyğəmbərə salavat (rəhmət, xeyir-dua) göndərirlər. Ey iman gətirənlər! Siz də ona salavat göndərib layiqincə salamlayın!"** Əbu Səid Xudri belə nəql edir: "Biz Peyğəmbərə *(s)* dedik: Ya Rəsulullah! Sənə necə salam verməyin qaydası aydındır. Necə salavat göndərməyi isə bilmirik. Hz.Peyğəmbər *(s)* buyurdu: "Belə deyin: Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd" Bu barədə ətraflı məlumat əldə etmək üçün aşağıdakı mənbələrə müraciət edə bilərsiniz:

1. Səhihi-Buxari, VI cild, səh-151
2. Səhihi-Müslim, I cild, səh-305, hədis: 65
3. Siyuti, Əddurrul-mənsur, V cild, səh-517
4. Müstədrəki-Hakim, III cild, səh-147
5. Təfsiri-Təbəri, XXII cild, səh-32
6. Sünəni-Beyhəqi, II cild, səh-146-147
7. İbn Hacər, Əs-səvaiq, səh-144
8. Abdullah Səmhudi, Əl-İşrafu əla fəzlil-əşraf, səh-28
9. Məkarim Şirazi, İmamət haqqın dili ilə

34. "Nur" surəsi, 36-38-ci ayələr və ya "Buyut" ayəsi: **"İlahi nur Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izn verdiyi o evlərdədir ki, orada səhər-axşam Onu təqdis edib şəninə tərif deyərlər. Onu o kəslər təqdis edər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən (qiyamət günündən) qorxarlar. (Onların vaxtlı-vaxtında, lazımınca ibadət etmələri, Allahdan qorxub pislikdən çəkinmələri ona görədir ki) Allah onlara etdikləri əməllərin ən gözəl mükafatını versin, onlara olan lütfünü artırsın. Allah dilədiyinə saysız-hesabsız ruzi verər."** Bu ayələrdə elə şəxslər nəzərdə tutulur ki, dünyanın maddi ləzzətləri, qızıl-gümüşü onları Allah zikrindən, namazdan və zəkatdan ayırmır. Onlar Qiyamət, hesab-kitab günündən qorxurlar və bu qorxu ümidlə yanışıdır.

Bu ayənin təfsiri ilə əlaqədar Ənəs ibn Malik və Bureydədən belə nəql olunur: "Hz.Peyğəmbər *(s)* bu ayəni tilavət edərkən, bir nəfər ayağa qalxıb soruşdu: "Ya Rəsulallah! Bu ayədəki evlər kimlərindir? Həzrət *(s)* buyurdu: "Peyğəmbərlərin evləridir." Əbu Bəkr ayağa qalxıb dedi: "Bu evlər məlum oldu. Bəs Əli və Fatimənin evi necə?" Hz.Peyğəmbər *(s)* buyurdu: "Bəli, bu o evlərin ən üstünüdür!"[170]

35. "Fatihə" surəsi, 6-cı ayə və ya "Sirati-müstəqim" (doğru yol) ayəsi: **"İlahi! Bizi doğru yola hidayət et!"** Şiə və sünni mənbələrində bu ayənin Əhli-beytə aid olduğu qeyd olunur. Cabir ibn Abdullah Ənsaridən nəql olunan bir hədisdə Hz.Peyğəmbər *(s)* belə buyurur: "Allah Əlini, onun zövcəsini və övladlarını məxluqlar üzərində ilahi höccət seçmişdir. Onlar ümmətimin içərisində elm qapılarıdır. Hər kəs onlar vasitəsilə hidayət olunsa, doğru yolu tutar."[171] Müfəzzəl ibn Ömər İmam Sadiqdən *(ə)* "siratəl-mustəqim" haqqında soruşduqda bu cavabı almışdır: "Sirat yolu Allahın mərifətini tanıdan yoldur. Sirat iki dənədir – biri dünyada, digəri isə axirətdədir. Dünyadakı sirat-itaətin vacib olduğu məsum imamlardır. Demək hər kəs onu tanıyıb və ona itaət edərsə siratəl-mustəqimə hidayət olmuşdur. Axirətdəki sirat isə Cəhənnəmin üzərindən keçmək üçün atılmış körpüdür."[172]

36."Ali-imran" surəsi, 103-cü ayə: **"Hamılıqla Allahın ipinə möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!"** Bir çox təfsir və hədis alimlərinin rəyinə əsasən "Allahın ipinə sarılın"dan məqsəd Əhli-Beytdir. Məşhur əhli-sünnə alimi Qunduzi Sələbiyə əsaslanaraq İmam Sadiqdən *(ə)* nəql etdiyi hədisində "Bizik Allahın ipi. O ip ki, Allah bu ayəni bizim haqqımızda nazil etmişdir (hamınız Allahın ipinə möhkəm sarılın)" buyurulur.[173] "Mənaqib" adlı kitabda Mazandarani qeyd etdiyimiz ayə haqqında ibn Abbasdan belə nəql edir: "Biz Hz.Peyğəmbərin *(s)* yanında olduğumuz bir vaxtda bədəvi ərəblərdən bir nəfər gəldi və ondan soruşdu: "Ya Rəsulallah! "Hamınız Allahın ipinə möhkəm sarılın" deyildiyini eşitdik. Allahın ipi nədir ki, ona sarılaq?" Bu zaman Hz.Peyğəmbər *(s)* Hz.Əlinin *(ə)* əlindən tutaraq buyurdu: "Bu Allahın sağlam ipidir, ona sarılın ki, yolunuzu azmayasınız."

37. "Nəml" surəsi, 89-cu ayə: **"Hər kəs (Rəbbinin hüzuruna) yaxşı əməllə gəlsə, onu bunun müqabilində daha yaxşı bir mükafat (Cənnət) gözləyir.**

---

[170]Siyuti, Əddurrul-mənsur, V cild, səh-50; Hakim həsqani, Şəvahidut-tənzil, I cild, səh-410, hədis: 566, 567, 568.

[138]Hakim Həsqani, Şəvahidut-tənzil, I cild. səh-58, hədis: 87, 88, 89; Şeyx Ubeydullah Hənəfi, Ərcəhul-mətalib, səh-58, Lahur çapı.

[172]Təfsiri-Burhan, I cild, həmin ayənin təfsiri.

[173]Yənabiul-məvəddət, I cild, səh-118-119.

Belələri o gün dəhşətli qorxudan da əmin olarlar." Bir çox təfsir kitablarında yaxşı əməl Əhli-beytlə əlaqələndirilmişdir. Əbu Abdullah Cədəli deyir ki, Hz.Əli *(ə)* mənə buyurdu: "İstəyirsənmi sənə "Hər kəs saleh iş görsə, onu bu əməldən də yaxşı bir mükafat gözləyəcək." ayəsinin təfsirini deyim?" Dedim: "Bəli, sənə qurban olum!" Həzrət buyurdu: "Yaxşı əməl biz Əhli-beytə məhəbbət, pis əməl isə bizə kin-küdurət və ədavət bəsləməkdir!" Sonra Həzrət bu ayəni tilavət etdi."[174]

Hz.Adəmin *(ə)* tövbəsi

"Bəqərə" surəsinin 37-ci ayəsində buyurulur: **"(Nəhayət) Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir."** Allahın Adəmə *(ə)* tövbə üçün öyrətdiyi "kəlmələr"in nədən ibarət olması ilə bağlı təfsirçilər arasında ixtilaflar vardır. Bəzilərin rəyinə əsasən bunlar dualar, raz-niyazlar, o cümlədən, balığın qarnında həbs olunan Hz.Yunisin *(ə)* duasından ibarətdir: "Ey mənim Rəbbim! Həqiqətən, mən özümə zülm etdim, məni bağışla. Çünki Sən bağışlayanların ən yaxşısısan!" Amma Hz.Peyğəmbər *(s)* və səhabələrdən nəql olunan rəvayətlərdən məlum olur ki, Allah Hz.Adəmin *(ə)* tövbəsini Hz.Muhəmmədin, Hz.Əlinin, Hz.Fatimənin, Hz.Həsənin və Hz.Hüseynin haqqına and verdikdən sonra qəbul etmişdir.

Məşhur təfsir alimi Cəlaləddin Siyuti İbn Abbasdan belə nəql edir: "Mən Hz.Peyğəmbərdən *(s)* soruşdum: "Adəm peyğəmbərin Allahdan öyrəndiyi və onun vasitəsilə tövbə etdiyi kəlmələr nə idi?" Həzrət *(s)* buyurdu: "O, Allahı Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseynin haqqına and verərək tövbə etdi və Allah da onun tövbəsini qəbul etdi."[175] Bu haqda daha geniş məlumat əldə etmək üçün İbn Məğazəlinin "Mənaqib", Əllamə Qunduzinin "Yənabiul-məvəddət", Beyhəqinin "Dəlailun-nubuvvət", Bədəxşinin "Miftahun-nicah", Deyləminin "Musnədul-firdovs" və Abdullah Şafeinin "Mənaqib" kitablarına müraciət edə bilərsiniz.

Hz.Əli haqqında Peyğəmbər *(s)* hədisləri

1. "Qədiri-Xum" hədisi: Hicrətin onuncu ili zilhiccə ayının 18-ci günü Hz.Peyğəmbər *(s)* vida həccindən qayıdarkən Qədiri-Xum adlı məntəqədə belə buyurdu: "Mən kimin mövlası və rəhbəriyəmsə, Əli də onun mövlası və rəhbəridir." O Həzrət *(s)* bunu üç dəfə təkrar etdi. Sonra başını səmaya qaldırıb belə dua etdi: "İlahi! Onun dostunu Sən də dost bil, onun düşmənini Sən də düşmən bil. Onu sevəni Sən də sev, onu qəzəbləndirənə Sən də qəzəbli ol, dostlarına kömək et, onu tək qoyub xar edənləri Sən də xar və zəlil et, haqqı həmişə

[174]Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-425, hədis: 581.
[175]Əddurrul-mənsur, I cild, səh-60.

onunla qərar ver və onu haqdan ayırma!" Sonra buyurdu: "Burada olanlar bu xəbəri burada olmayanlara çatdırsınlar!"

Hz.Peyğəmbərin *(s)* xütbəsi sona yetdi. Hələ camaat dağılışmamışdı ki, vəhy mələyi nazil olub, Hz.Peyğəmbərə *(s)* bu ayəni çatdırdı: **"Bu gün dininizi kamil etdim, sizə olan nemətimi tamamladım"**

Hz.Peyğəmbər *(s)* buyurdu: "Allahu Əkbər! Allah öz dinini kamil etdi, nemətini bizə tamamladı. Mənim risalət və peyğəmbərliyimdən, məndən sonra isə Əlinin vilayət və xilafətindən razıdır!" Bundan sonra hacılar Hz.Əliyə *(ə)* doğru gəlməyə başladılar və onu bu məqama nail olduğuna görə təbrik etdilər. Onu təbrik edən tanınmış şəxslərdən Ömər ibn Xəttab cəmiyyətin qarşısında belə dedi: "Afərin sənə, ey Əbu Talibin oğlu! Sən mənim, bütün mömin kişi və qadınların mövlası və rəhbəri oldun." Bu zaman İbn Abbas dedi: "Allaha and olsun! Bu əhd-peyman hamının boynunda qalacaqdır." Bu mütavatir hədis aşağıdakı islami mənbələrdə də təsdiqlənmişdir:

1. Fəxrəddin Razi, Məfatihul-ğeyb, XI cild, səh-139
2. Əhməd ibn Hənbəl, Müsnəd, IV cild, səh-281
3. Tarixi-Bağdadi, VII cild, səh-290
4. İbn Hacər, Əs-səvaiq, səh-107
5. Təfsiri-Sələbi, IX cild, səh-6757
6. Xarəzmi, Mənaqib, səh-217
7. Şeyx Əbdur Rauf Mənavi, Feyzul-qədir, VI cild, səh-217
8. Təfsiri-Əbis-Səud, VIII cüz, səh-148
9. Şəmsuddin Məhəmməd ibn Əhməd Şərbini, Əs-siracul-munir, IV cild, səh-310

2. "Mənzələt" hədisi: Hz.Peyğəmbər *(s)* Təbuq döyüşünə gedərkən Hz.Əlini *(ə)* Mədinədə qoyub belə buyurdu: "Ya Əli! Harun Musa üçün hansı nisbətdə idisə, sən də mənim üçün o nisbətdəsən. Lakin bir şərtlə ki, məndən sonra peyğəmbər olmayacaq. Əgər gəlmiş olsaydı o mütləq sən olardın!"[176]

3. "Yəvmul-inzar" hədisi: "Bərra ibn Azibdən belə nəql edilir: "Ən yaxın qohumlarını qorxut" ayəsi nazil olandan sonra Hz.Peyğəmbər *(s)* qırx nəfərdən ibarət Bəni-Haşim övladlarını bir yerə yığaraq buyurdu: "Mən sizə dünya və axirət xeyri gətirmişəm. İslamı qəbul edin və doğru yola yönəlmək üçün mənə tabe olun!" Sonra əlavə edərək buyurdu: "Sizlərdən mənimlə bu yolda qardaş olmağa, mənə kömək etməyə, məndən sonra da əhli-əyalım arasında vəsim və canişinim olmağa, dini yaymağa kim hazırdır?" Bu vaxt on üç yaşı olan Əlidən *(ə)* başqa kimsə Hz.Peyğəmbərim *(s)* sözlərini təsdiqləmədi. Hz.Peyğəmbər *(s)* buyurdu: "Ya.Əli! Sən mənim dünya və axirət qardaşım olmaqla bərabər həmçinin məndən sonra mənim vəsim və xəlifəm olacaqsan!" Bu rəvayətlər aşağıdakı mənbələrdə də öz təsdiqini tapmışdır:

1. Hakim Həsqani, Şəvahidut-tənzil, I cild, səh-420
2. Tarixi-Təbəri, II cild, səh-63, Beyrut çapı

[176]Sireyi ibn Hişam, II cild, səh-520.

3. Müsnədi-Əhməd, I cild, səh-111
4. İbn Əbil Hədid, XIII cild, səh-120
5. Tarixi ibn Əsir, II cild, səh-63, "darus-sadir", Beyrut
6. Şərəfuddin Amuli, əl-Müraciət
7. Məkarim Şirazi, İmamət haqqın dili ilə

4. "Səqəleyn" hədisi: "Hicrətin onuncu ili Hz.Peyğəmbər *(s)* vida həccindən qayıdarkən Qədiri-Xum adlı məntəqədə Quran və Əhli-beyt haqqında belə buyurdu: "Mən sizin aranızda iki əmanət qoyuram: biri Qurani-Kərim, digəri isə Əhli-beytimdir. Məndən sonra onlardan möhkəm yapışın ki, yolunuzu azmayasınız. Onlardan önə keçməyin, onlardan geri də qalmayın, hər iki halda zəlil olarsınız. Onlara elm öyrətməyə çalışmayın çünki onlar sizdən qat-qat elmlidirlər. Baxın görün məndən sonra onlarla necə rəftar edəcəksiniz." Səqəleyn sözü iki cür oxunur: a)"Səqəleyn", onun tək forması "səqəl"dir, "qiymətli" və "dəyərli", eləcə də "müsafirin əmtəəsi" mənasını daşıyır. b) "Siqleyn", onun tək forması "siql"dir, bu da "ağır şey" mənasını verir. Hz.Peyğəmbərin *(s)* Əhli-Beyti *(ə)* iki ağır və qiymətli əmanətdən biri kimi Qurani-Kərimlə yanaşı tutması və onlara qarşı ilahi məsuliyyətin unudulmaması ilə bağlı bunu üç dəfə təkrarlaması göstərir ki, bu iş, müsəlmanların müqəddəratı, hidayəti və İslamın əsasları ilə sıx əlaqəlidir. Bu isə onların Qurani-Kərimlə yanaşı qeyd edilməsindən başa düşülür. Bu mütavatir hədis aşağıdakı mənbələrdə təsdiqlənmişdir:

1. Sünəni-Tirmizi, XIII cild, səh-199
2. Müttəqi Hindi, Kənzul-ummal, I cild, səh-48
3. Səhihi-Müslim, fəzailu Əli ibn Əbu Talib
4. Müsnədi-Əhməd, IV cild, səh-336
5. Sünəni-Darəmi, II cild, səh-431
6. Sünəni-Beyhəqi, II cild, səh-148
7. Təbərsi, Məcməul-bəyan
8. İbn Əsir, Usdul-ğabə, II cild, səh-12
9. Siyuti, Əddurrul-mənsur, Məvəddət ayəsinin təfsirində
10. Müstədrəki-Hakim, III cild, səh-109
11. Xəsaisun-Nəsai, səh-30
12. Təbəqati ibn Səd, II cild, səh-2

5. "Səfinə" hədisi: Məşhur səhabə Əbuzər Ğəffaridən belə nəql olunur: "Məni tanıyanlar mənim kim olduğumu yaxşı bilir, tanımayanlar da bilsinlər ki, mən Əbuzər Ğəffariyəm! Allahın Rəsulu Hz.Muhəmməddən *(s)* belə eşitmişəm: "Mənim Əhli-beytimin məsəli Hz.Nuhun *(ə)* gəmisinə bənzəyir. Ona minən hər kəs Allahın izni ilə nicat tapar, onu tərk edən hər kəs isə həlak olar." Səfinə hədisi bu kitablarda nəql olunmuşdur:

1. Hafiz Təbərani, Mucəmul-Kəbir, səh-78, Dehli-çapı
2. Əbu Məhəmməd ibn Abdullah ibn Müslim ibn Əmr Bahili Dinəvəri, Uyunul-əxbar, I cild, səh-212, Misir çapı
3. Hakim Nişapuri, Əl-Müstədrək, III cild, səh-150

4. Hafiz Şəmsəddin Məhəmməd ibn Əhməd Osman Dəməşqi Şafii, Mizanul-etidal, I cild, səh-224

5. Cəlaləddin Siyuti, Tarixul-xuləfa, səh-573

6. Məkarim Şirazi, İmamət haqqın dili ilə

7. Şərəfuddin Amuli, əl-Müraciıt

Bəzi rəvayətlərdə də göstərilmişdir ki, Hz.Əli *(ə)* Hz.Peyğəmbərdən *(s)* "Nicat əhli olan firqə hansıdır?" – deyə soruşduqda, buyurmuşdur: "Sənin, tərəfdarlarının və səhabələrinin yolundan yapışanlar!"[177]

6. "Nücum" hədisi: İbn Abbasın Hz.Peyğəmbərdən *(s)* belə buyurduğu nəql olunur: "Ulduzlar yer əhli üçün əmin-amanlıq və dəryada qərq olmaqdan qurtuluşa səbəb olduğu kimi, mənim əhli-beytim də ümmətim üçün ixtilaflarda əmin-amanlıq və nicat yeridir. Ərəb qəbilələrindən hansı biri onlara qarşı çıxsa, ümmətin arasında ixtilaf yaranar. Bilin ki, müxalifətçilik edənlər Şeytanın qoşunundandır!" Bu hədis aşağıdakı mənbələrdə qeyd olunmuşdur:

1. Müstədrəki-Hakim, III cild, səh-141, Heydərabad çapı

2. Ehqaqul-həqq, IX cild, səh-294-296

3. Siyuti, Camius-səğir, səh-587, Misir çapı

4. Əhməd ibn Abdullah Təbəri Şafei, Zəxairul-uqbə, səh-7, Muəssisətul-qudsi, Qahirə.

5. Şərəfuddin Amuli, əl-Müraciət

Əhli-Beyt *(ə)* səma ulduzları kimi insanları küfr, fitnə-fəsad, günahın zülmətindən qoruyub, ali məqsədə yönəldir və Allah yolunun yolçularını azğınlıq dalğalarında boğulmaqdan xilas edirsə, digər tərəfdən də insan və cinlərdən olan şeytanların İslam hüdudlarına nüfuzunun, Quranın hökmləri və sünnəni təhrif etməsinin qarşısını alır. Səma ulduzlarından birinin batıb, digərinin çıxması, bir qisminin üfüqdə itib, digər bir qisminin yenidən parlaması xüsusiyyəti Peyğəmbər *(s)* Əhli-beytində *(ə)* də var. Hz.Əli *(ə)* bu məsələni "Nəhcül-bəlağədə"də aydın bəyan edərək buyurmuşdur: "Agah olun! Məhəmməd *(ə)* Əhli-beyti səma ulduzlarına bənzəyir, onların biri batdıqda, digəri çıxır!"[178]

7. "Mədinə" hədisi: Hz.Peyğəmbər *(s)* buyurmuşdur: "Mən elmin şəhəriyəm, Əli də onun qapısı. Elm öyrənmək istəyən qapıdan girməlidir." Bu hədis aşağıdakı mənbələrdə öz təsdiqini tapmışdır:

1. Hakim Nişapuri, Əl-Müstədrək, III cild, səh-126-128

2. İbn Əsir, Usdul-ğabə, IV cild, səh-22

3. Tarixi-Təbəri, I cild, səh-129

4. Muhibbətdin Təbəri, Zəxairul-uqbə, səh-77

5. Zəhəbi, Təzkirətul-huffaz, IV cild, səh-28

6. İbn Hacər Əsqəlani, Təhzibut-təhzib, VII, səh-337

7. Müttəqi Hindi, Kənzul-ummal, VI cild, səh-156

---

[177]Ehqaqul-həqq, VII cild, səh-185.

[178]Nəhcül-bəlağə, xütbə: 100.

8. Tarixi-Bağdadi, II cild, səh-377
9. Məkarim Şirazi, İmamət haqqın dili ilə
10. Şərəfuddin Amuli, əl-Müraciət

8. Hz.Peyğəmbər *(s)* buyurdu: "Adəmin elmini, Nuhun təqvasını, İbrahimin helmini, Musanın heybətini, İsanın ibadətini görmək istəyən Əliyə *(ə)* baxsın."[179]

9. İbn Abbas Hz.Peyğəmbərdən *(s)* belə nəql edir: "Hər kim mənim kimi yaşayıb, mənim kimi ölmək və Rəbbinin saldığı "Ədn" bağında məskunlaşmaq istəyirsə, məndən sonra Əlini *(ə)*, onun vəlisini sevsin və məndən sonra gələn imamlara tabe olsun. Çünki onlar mənim Əhli-beytimdirlər."[180]

10. "Teyr" (qızardılmış quş əti) hədisi: Hz.Peyğəmbərin *(s)* uzun həyat sürən Ənəs adlı xidmətçisi xəstələndiyi zaman Məhəmməd ibn Həccac bir neçə nəfərlə onun görüşünə getmişdi. Söhbət Hz.Əlidən *(ə)* düşdükdə, Həccacın oğlu o Həzrət barəsində nalayiq sözlər deməyə başladı. Ənəs narahat olub dedi: "Bu kimdir, belə danışır? Məni qaldırın!" Onu qaldırıb oturtduqdan sonra Ənəs dedi: "Ey Həccacın oğlu! Nə üçün Əli ibn Əbu Talib *(ə)* haqqında pis fikirdəsən? Hz.Məhəmmədi *(s)* peyğəmbərliyə seçən Allaha and olsun! Mən Peyğəmbərin *(s)* xidmətçisi olmuşam. Hər gün ənsarın cavanlarından biri kimi o Həzrətin qulluğunda dururdum. Növbə mənə çatan gün Ümmü-Əymən Hz.Peyğəmbər *(s)* üçün qızardılmış quş gətirib, o Həzrətin qarşısına qoydu. Həzrət buyurdu: "Ey Ümmü-Əymən! Bu quşu haradan gətirmisən?" Ümmü-Əymən dedi: "Onu özüm ovlamış və sizin üçün bişirmişəm!" Bu zaman Hz.Peyğəmbər *(s)* buyurdu: "İlahi! Sənin və mənim yanımda yaradılmışların ən sevimlisi olan şəxsi yetir ki, mənimlə birlikdə bu quşun ətindən yesin!"

Bu vaxt evin qapısı döyüldü. Hz.Peyğəmbər *(s)* buyurdu: "Ey Ənəs, gör qapının arxasındakı kimdir?" Mən öz-özümə dedim: "Kaş, qapının arxasında ənsardan biri olaydı. Lakin qapını açdıqda Əlini *(ə)* gördüm və ona dedim: "Peyğəmbərin *(s)* işi var və sənlə görüşməyə vaxtı yoxdur. Bunu deyib, qayıtdım və öz yerimdə oturdum. Yenidən qapı döyüldü. Hz.Peyğəmbər *(s)* buyurdu: "Ey Ənəs! Hər kimdirsə, icazə ver, qoy gəlsin! Öz tayfasını sevən təkcə sən deyilsən və o da ənsardan deyil!" Mən qapını açdım. Hz.Əli *(ə)* içəri daxil oldu. Hz.Peyğəmbər *(s)* buyurdu: "Ey Ənəs! Quş ətini ona yaxın qoy." Mən quş ətini Hz.Peyğəmbərlə *(s)* Hz.Əlinin *(ə)* qarşısına qoydum və hər ikisi ondan yeməyə başladılar.

Məhəmməd ibn Həccac dedi: "Ey Ənəs! Sən bu hadisəni öz gözünləmi gördün?" Ənəs dedi: "Bəli!" Bu vaxt Həccacın oğlu dedi: "Mən Allahla əhdpeyman bağlayıram ki, bundan sonra heç vaxt Hz.Əlinin *(ə)* haqqında pis fikirdə olmayım və ona irad tutanı alçaldım!" "Teyr" adı ilə məşhur olan bu hədis bir çox kitablarda, İslamın müxtəlif mənbələrində nəql olunmuşdur:

---

[179]İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, II cild, səh-449; Fəxrəddin Razi, Məfatihul-ğeyb, VIII cild, səh-81.
[180]Əbu Nəim İsfəhani, Hilyətul-övliya, səh-86.

1. Hakim Nişapuri, Əl-Müstədrək, III cild, səh-131, Darul-mərifət, Beyrut.
2. Əhməd ibn Müvəffəq, Mənaqib, səh-67
3. Sünəni-Tirmizi, XIII cild, səh-170, Əs-savi, Misir.
4. Zəhəbi, Təzkirətul-huffaz, səh-965-966
5. Məkarim Şirazi, İmamət haqqın dili ilə
7. Əllamə Məclisi, Biharul-ənvar

11. "Şəkva" hədisi: Yəməndən qayıdan Bureydə Hz.Əlidən *(ə)* Hz.Peyğəmbərə *(s)* şikayət etdikdə Allah Rəsulu buyurdu: "Əlidə eyb axtarma, çünki, o məndəndir, məndə ondan. O məndən sonra sizin vəlinizdir "

1. Ənməd ibn Hənbəl, Əl-Müsnəd, V cild, səh-356
2. Xəsaisun-Nəsai, səh-24
3. Hakim Nişapuri, Əl-Müstədrək, III cild, səh-110
4. Heysəmi, Məcməüz-Zəvaid, IX cild, səh-127
5. Müttəqi Hindi, Kənzul-ummal, XII cild, səh-207

12. "Rayət" hədisi: Xeybər döyüşündə məşhur səhabələr Əbu Bəkr və Ömərin məğlub şəkildə geri qayıtmasından sonra Hz.Peyğəmbər *(s)* buyurdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o dəfələrlə hücum edər, amma geri qayıtmaz. O Allah və Onun Rəsulunu sevir, eyni zamanda Allah və Rəsuluda onu sevir." Səhər olduqda Hz.Peyğəmbər *(s)* bayrağı Hz.Əliyə *(ə)* verdi və Hz.Əli *(ə)* alınmaz Qamus qalasını fəth etdi.[181]

Başqa bir hədisdə Hz.Peyğəmbər *(s)* buyurdu: "Ey Əbəl Həsən! Əgər dəryalar mürəkkəb, ağaclar qələn, insanlar yazar, cinlər hesablayıcı olsa, yenə də sənin fəzilətlərini sayıb qurtara bilməzlər!"

13. "Xəndək" hədisi: Xəndək döyüşündə Hz.Əli *(ə)* Əmr ibn Əbdəvidi öldürdükdən sonra Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Əlinin Xəndəkdə vurduğu bir qılınc zərbəsi qiyamətədək insanların və cinlərin etdiyi ibadətdən üstündür."[182]

14. Hz.Peyğəmbər *(s)* buyurdu: "Mənim Əhli-beytimi incidib zülm edənlərə cənnət haramdır."[183] Fəxrəddin Razi öz təfsirində belə deyir: "Əhli-beyt beş şeydə Hz.Peyğəmbərlə *(s)* bir cərgədədir: 1) salamda, 2) namazın təşəhhüdündə (salavatda), 3) paklıqda, 4) məhəbbətdə, 5) onlara sədəqə verilməyin haramlığında."

15. Hz.Peyğəmbər *(s)* buyurdu: "Mən gələcəkdə görürəm ki, qardaşım və əmim oğlu Əli *(ə)* mənim məscidimdə bir neçə nəfər əshabı ilə oturarkən bir dəstə cəhənnəm əhli oraya gəlib onu və tərəfdarlarını qətlə yetirmək istəyəcəklər."[184]

İslam və İman: İmam Sadiq *(ə)* buyurur: "İslamiyyət Allahın vahidliyini və Hz.Məhəmmədin *(s)* peyğəmbərliyini iqrar və etiraf etmək, namaz qılmaq,

---

[181]Sireyi-Hələbi, II cild, səh-37; Sireyi-Hişam, III cild, səh-354.
[182]Hakim Nişapuri, Əl-Müstədrək, XXX cild, səh-32.
[183]Fəxrəddin Razi, Məfatihul-ğeyb; Zəməxşəri, Təfsiri-Kəşşaf.
[184] Ehticaci-Təbərsi.

oruc tutmaq, zəkat vermək və həccə getməkdir ki, xalqın əksəriyyəti bunu yerinə yetirir. Lakin imana gəlincə bunlara əlavə olaraq həm də Əlinin *(ə)* vilayətini və Əhli-beyti tanımaq, sevmək və Onlara inanmaqdır."[185]

İbn Məğazali "Mənaqib" kitabında rəvayət edir: Osman Hz.Peyğəmbərin *(s)* belə buyurduğunu deyir: "Mən və Əli Adəm yaradılmamışdan on dörd min il əvvəl bir nur idik. Allah Adəmi yaratdıqda bu nuru onun sülbündə qərar verdi. Əbdülmüttəlibə qədər bir nur idik. Əbdülmüttəlibin sülbünə çatdıqda məndə nübuvvəti, Əlidə isə xilafəti qərar verdi."

Corc Cordaq deyir: "Dünyada olan dəniz və okeanların suları tələtümə gələ bilər, amma dünyada heç nəyin və heç kimin vasitəsilə tələtümə gəlməyən yeganə dərya Hz.Əlinin *(ə)* vücududur."

Abdullah ibn Məsud deyir: "Allah Quranda xilafət məsələsini üç nəfərə aid etmişdir: 1) Adəm peyğəmbərə: **"Yada sal ki, o zaman Rəbbin mələklərə dedi: "Mən yer üzündə xəlifə qərar verəcəyəm."**[186] 2) Davud peyğəmbərə: **"Biz səni yer üzündə xəlifə qərar verdik."**[187] 3) Hz.Əliyə *(ə)*: **"Ondan əvvəl (Adəm və Davudu) xəlifə etdiyim kimi, yenə də yer üzündə xəlifə qərar verəcəyəm."**[188]

Hz.Peyğəmbər *(s)* ölümündən qabaq Hz.Əliyə dedi: "Ey Əli! Mənim bu qövmün sənə qarşı bəslədiyi kindən xəbərim var. Məndən sonra kinlərini sənə aşkar bildirəcəklər. Əgər onlar sənə beyət etsələr qəbul et, əks təqdirdə məzlum olaraq mənimlə görüşəcəyin günə qədər səbr et!"[189]

16. Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Ya Əli, sən Kəbə kimisən, xalqın sənə doğru gəlməsi lazımdır, sənin xalqa doğru getməyin yox!"[190]

Təbəri Ömər ibn Xəttabdan belə nəql edir: "Peyğəmbər buyurdu: "Əgər yeddi göyü tərəzinin bir gözünə, Əlinin imanını isə digər gözünə qoysalar, Onun imanı ağır gələr."[191] Cabir ibn Abdullah belə deyir: Hz.Peyğəmbər *(s)* bir gün xütbə oxudu: Ey insanlar! Hər kim biz Əhli-beyti düşmən sayarsa Allah onu Qiyamətdə yəhudilərlə birlikdə məhşur edəcəkdir." Cabir dedi: Ya Rəsulallah! Namaz qılıb, oruc tutsa da belə olacaq?" Həzrət buyurdu: "Bəli, namaz qılıb, oruc tutsa da, özünü müsəlman sayıb, canını, malını qorusada."[192]

Ərşi-Əlada Allah və Peyğəmbərin *(s)* adından sonra Əlinin *(ə)* adının yazılması:

Siyuti "Xəsaisul-kübra"nın I cildinin 10-cu səhifəsində və "Əddurrul-mənsur"da "İsra" surəsinin əvvəlində İbn Ədiyy və İbn Əsakirdən nəql edərək

---

[185]Üsuli-Kafi, II cild, səh-24.
[186]Bəqərə surəsi, 30-cu ayə.
[187]Sad surəsi, 26-cı ayə.
[188]Nur surəsi, 55-ci ayə.
[189]Tarixi-Təbəri, babi-fəzaili Əli ibn Əbu Talib.
[190] İbn Əsir, Usdul-ğabə.
[191]Tarixi-Təbəri, II cild, səh-226.
[192]Heysəmi, Məcməüz-Zəvaid, IX cild, səh-172.

Ənəs ibn Malikdən Hz.Peyğəmbərin *(s)* belə buyurduğunu nəql edir: "Merac gecəsində ərşin sütununda belə yazıldığını gördüm: "Lə iləhə illallah, Muhəmmədun Rəsulullah, Əyyədtuhu bi-Əliyyin" (Allah birdir, Muhəmməd onun elçisidir və onu Əli ilə gücləndirdim). Əlavə məlumat üçün bu mənbələrə müraciət edə bilərsiniz:

1. Təfsiri-Təbəri
2. Tarixi ibn Əsakir
3. Əbu Nəim İsfəhani, Hilyətul-övliya
4. Süleyman Bəlxi Hənəfi, Yənabiul-məvəddət
5. Muhibbətdin Təbəri, Zəxairul-uqbə
6. İbn Məğazəli, Mənaqib

Mirseyid Əli Həmədani Şafei "Məvəddətul-qurba" kitabının VIII məvəddəsində Hz.Peyğəmbərin *(s)* Əliyə *(ə)* belə buyurduğunu nəql edir: "Dörd yerdə sənin adını öz adımın yanında gördüm: 1) Merac gecəsi Beytul-müqəddəsə çatdıqda, orada daşa yazıldığını gördüm: Allahdan başqa tanrı yoxdur, Muhəmməd Allahın Rəsuludur və onu vəziri olan Əli ilə təyid etdim. 2) Sidrətul-müntəhaya çatdıqda orada belə qeyd edildiyini gördüm: Mən Allaham, Məndən başqa tanrı yoxdur. Muhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdi. 3) Rəbbul-aləmin ərşinə çatdıqda, sütunlarına belə yazıldığını gördüm: Mən Allaham, Məndən başqa tanrı yoxdur, Muhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdim. 4) Cənnətə çatdıqda qapısında belə yazıldığını gördüm: Mən Allaham, Məndən başqa tanrı yoxdur, təkəm, Məhəmməd mənim həbibimdir. Xalq arasında ona vəziri olan Əli ilə yardım etdim."

Hz.Cəbrayilin möhürlənmiş kitabı Hz.Peyğəmbərin *(s)* vəsisi Hz.Əli *(ə)* üçün gətirməsi

Əbul Həsən Əli ibn Hüseyn əl-Məsudi "İsbatul-vəsiyyət" kitabının 92-ci səhifəsində belə rəvayət edir: "Allah göydən yazılı bir kitab endirdi. Cəbrail bu kitabı əmin mələklərlə Hz.Peyğəmbərə *(s)* endirdi. Cəbrail Hz.Peyğəmbərin *(s)* yanına gəlib dedi: "Vəsindən başqa məclisdə olan hər kəs vəsiyyət kitabını sizə təqdim etməyim üçün bayıra çıxsın." Hz.Peyğəmbər Əli, Fatimə, Həsən və Hüseyndən başqa hər kəsə bayıra çıxmasın əmr etdi. Cəbrail dedi: "Ya Peyğəmbər, Allahın sənə salamı var; buyurur: "Bu sənin lə anlaşdığım və mələklərin də şahidlik etdiyi bir anlaşmadır. Allah da şahid olaraq yetər." Bunu eşidən Hz.Peyğəmbər *(s)* titrəyərək buyurdu: "O Salamdır, salam Ondandır və salam Ona qayıdar." Sonra kitabı Cəbrayildən alıb Hz.Əliyə *(ə)* verdi. Oxuduqdan sonra buyurdu: "Bu Rəbbimin mənə göndərdiyi bir qərar və Onun bir əmanətidir. Mən də Onun bəyanının haqqını əda etdim." Hz.Əli *(ə)* Peyğəmbərin *(s)* dediklərinə şəhadət verdi. O kitabda Hz.Əli *(ə)* üçün belə şərt qoyulmuşdu: Allahın dostları ilə dost olmaq, zülmə, qəzəbə, haqqının alınmasına, xumsun

mənimsənilməsinə, hörmətinin tapdalanmasına və saqqalının başının qanına boyanmasına görə səbr etmək."

Əhli-beyt haqqında nazil olmuş aşağıdakı ayələrə baxmaq olar: "Bəqərə" surəsi, ayə: 124; "Əhzab" surəsi, ayə: 6, 33; "Tövbə" surəsi, ayə: 119; "Rəd" surəsi, ayə: 7; "Ənam" surəsi, ayə: 153; "Əraf " surəsi, ayə: 181; "Ali-İmran" surəsi, ayə: 33, 34, 103; "Nəhl" surəsi, ayə: 43; "Fatir" surəsi, ayə: 32; "Nur" surəsi, ayə: 35,55; "Ənbiya" surəsi, ayə: 106; "Hud" surəsi, ayə: 86; "Qəsəs" surəsi, ayə: 6.

On iki İmamın adı qeyd edilən məşhur islam mənbələri:

1. Süleyman Qunduzi, Yənabiul-məvəddət, 76-cı bab
2. Səhihi-Müslim, III cild, səh-1453
3. Səhihi-Buxari, III cild, səh-101
4. Sünəni-Tirmizi, IV cild, səh-501, bölüm: Ma caə fil – xuləfa, hədis: 22223
5. Sünəni-Əbu Davud, IV cild, bölüm: Əl-Mehdi
6. Muntəxəbul-əsər, səh-12.

Hz.Əlinin *(ə)* İslamı vəsf etməsi: İmam Əli *(ə)* həqiqi İslam barəsində buyurmuşdur: "İslam Allah və Peyğəmbərin göstərişlərinə təslim olmaqdır. Təslim olmaq onlara inanmaqdır. İnanmaq onları qəbul etməkdir. Qəbul etmək onları etiraf və təsdiq etməkdir. Etiraf və təsdiq etmək onları yerinə yetirməyə hazır olmaqdır. Yerinə yetirmək onlara əməl etməkdir.[193]

Qəzavü-qədər: Hz.Əlidən *(ə)* qəzavü-qədər haqqında sual soruşdular. O Həzrət onun barəsində düşünməkdən çəkindirərək belə buyurdu: "O qaranlıq bir yoldur, onunla getməyin ki, şübhələr nəticəsində onların həllində aciz qalar, yolunuzu azarsınız. Dərin bir dənizdir, ona daxil olmayın ki, müxtəlif düşüncələrdə qərq olarsınız. Allahın sirridir, özünüzü onda onu aydınlaşdırmaq üçün əziyyətə salmayın ki, xeyir görməz və bir yerə çatmazsınız."[194]

Əhli-Beytin altı fəziləti: 1) Elm, 2) Helm, 3) Səxavət, 4) Fəsahət, 5) Şücaət, 6) Qəlblərdə məhəbbət.

Əhli-Beytin yeddi üstünlüyü: 1) Allahın seçilmiş peyğəmbəri onlardandır, 2) Doğru danışan Hz.Əli *(ə)* onlardandır, 3) Cənnətdə mələklərlə uçan Cəfəri-Təyyar onlardandır, 4) Allahın şiri Hz.Həmzə onlardandır, 5-6) Bu ümmətin iki böyük rəhbəri Həsən və Hüseyn onlardandır, 7) Hz.Fatimə və ya Hz.Mehdi *(ə)* onlardandır.

Hz.İmam Həsən (ə)

Həzrətin adı Həsəndir və bu ad ona aləmlərin rəbbi, ulu Tanrı tərəfindən verilmişdir. İmam Zeynul-Abidin *(ə)* buyurmuşdur: "İmam Həsən *(ə)* dünyaya gələn zaman Cəbrail *(ə)* Hz.Peyğəmbərin *(s)* yanına nazil olaraq Allahın buyuruğunu belə çatdırdı: Əlinin *(ə)* sənə olan nisbəti eynilə Harunun Musaya olan nisbəti kimidir. Harunun oğlunun adı Şəbbər (Həsən) olduğuna görə, ey

[193]Nəhcül-bəlağə.
[194]Nəhcül-bəlağə.

Allahın rəsulu, sən də bu uşağın adını Həsən qoy."[195] Hz.Əli ibn Əbu Talibdən rəvayət edildiyinə görə Hz.Peyğəmbər *(s)* Hz.Həsən və Hz.Hüseynin əlindən tutdu və belə buyurdu: "Kim məni, bu iki uşağı, bunlarının atalarını və analarını sevərsə, qiyamət günü yüksək dərəcələrdə mənimlə birlikdə olacaqdır."[196]

İmam Həsən *(ə)* hicrətin üçüncü ili ramazan ayının 15-də (miladi 625) Mədinədə anadan olmuşdur. Atası əmirəlmöminin Hz.Əli ibn Əbu Talib *(ə)*, anası isə dünya və axirət xanımlarının ağası Hz.Fatimə binti Muhəmməddir *(s)*. İmam Həsən *(ə)* yeddi yaşında olarkən babası Hz.Peyğəmbər *(s)*, ondan yetmiş beş gün sonra isə anası Hz.Fatimə (s.ə) vəfat etmişdir. İmam Həsən *(ə)* təxminən otuz il atası Hz.Əli *(ə)* ilə birlikdə olmuş, atasının xilafəti dövründə baş vermiş Cəməl, Siffeyn və Nəhrəvan döyüşlərində yaxından iştirak etmişdir.

Hz.Əli *(ə)* vəfat edən zaman öz tərəfdarlarını yanına çağırıb Hz.Həsəni *(ə)* özündən sonra imam və xəlifə təyin etdikdən sonra İlahi elmin sirlərini, Hz.Peyğəmbərin vədlərini və digər mirasları ona təslim etmişdir. Şeyx Tusinin rəvayətinə görə bu mirası və kitabları Hz.Əli *(ə)* İraqa gedərkən Mədinədə Hz.Peyğəmbərin *(s)* xanımı Ümmü-Sələməyə tapşırmışdı. Sonralar İmam Həsən *(ə)* Mədinəyə gedərkən bu mirasları ondan təhvil almışdır.

Hz.Əli *(ə)* vəfat edəndən sonra ramazan ayının 21-də İmam Həsən *(ə)* Kufə məscidində minbərə çıxıb geniş bir xütbə söylədikdən sonra özünü camaata təqdim edərək belə buyurdu: "Ey camaat mən sizin iman gətirdiyiniz Peyğəmbərin nəvəsiyəm. Biz Əhli-Beyt o Həzrətə *(s)* hamıdan yaxınıq, biz bir olan Allahın buyuruğuna əsasən bütün günahlardan və bəd əməllərdən pak və məsumuq. (Burada İmam Həsən *(ə)* Qurani-Kərimin "Əhzab" surəsinin 33-cü ayəsinə işarə etmişdir. Ayədə deyilir: **Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) aparmaq və sizi pakdan pak etmək istər!").**

İndi mən sizə xəbərdarlıq edirəm ki, mən o Həzrətin *(ə)* itrəti (əhli-beyti) və Allahın əmri ilə xalqa təyin edilmiş imamıyam, sizin mənə itaət etməyiniz vacibdir. Hz.Peyğəmbərdən sonra dünyanın ən üstün adamı olan Hz.Əli *(ə)* bu gecə vəfat edib, onun yerində İslama rəhbərlik etmək üçün Allahın təyin etdiyi vəsiy mənəm. Mənəm Fərzəndi-Bəşir (cənnətə bəşarət verən), mənəm Fərzəndi-Nəzir (cəhənnəmdən qorxudan), mənəm Fərzəndi-Siraci-munir."

Bu xütbədən sonra camaat Hz.İmam Həsənə *(ə)* beyət edərək onu xəlifə kimi tanıdı. Bu hadisə ramazan ayının 21-i, hicrətin qırxıncı ili baş verdi. Beyətdən sonra ətraf məntəqələrə valilər təyin edən İmam Həsən *(ə)*, Abdullah ibn Abbası da Bəsrəyə hakim göndərdi. Bu hadisədən xəbər tutan Müaviyə ibn Əbu Süfyan dərhal Bəsrəyə və Kufəyə casuslar göndərdi ki, o yerlərdə baş verən hadisələrdən xəbərdar olsun. Casusları ələ keçirərək boyunlarını vurduran İmam Həsən *(ə)* Müaviyə ibn Əbu Süfyana məktub yazaraq ondan beyət etməsini istədi. Bu məktubun cavabında Müaviyə nalayiq sözlər yazmaqla bə-

[195]Şeyx Tusi, Təhzibul-əhkam.
[196]Tirmizi, Mənaqib-21.

rabər İmam Həsənə *(ə)* müharibə elan etdi. Bu zaman Kufədə olan bəzi münafiqlər də Müaviyə ibn Əbu Süfyanla əlbir olub İmam Həsənin *(ə)* əleyhinə təbliğat aparır və xalqı imama qarşı qaldırırdılar.

Müaviyənin müharibə etməkdə ciddi olduğunu görən İmam *(ə)* ona qarşı on iki min nəfərlik ordu topladı. İmamın *(ə)* göstərişinə əsasən bu orduya əmisi oğlu Ubeydullah ibn Abbas başçı təyin edildi. Qeys ibn Səd və Səid ibn Qeys isə Ubeydullaha canişin təyin edildilər. Şam ordusu ilə Kufə ordusu Məskin adlı məntəqədə qarşı-qarşıya gəldi. Qısa müddət ərzində Müaviyə İmam Həsənin ordu başçısı olan Ubeydullah ibn Abbasa bir milyon dirhəm verərək onu səkkiz min tərəfdarı ilə birlikdə öz tərəfinə çəkdi. Qalan dörd min nəfərə isə Qeys ibn Səd başçılıq etməyə başladı. Ubeydullah ibn Abbası ələ almaqla kifayətlənməyən Müaviyə İmamın *(ə)* ordusunu zəiflətmək və ordu arasında şayiə yaymaq üçün öz casuslarını imamın başçılıq etdiyi orduya göndərdi. Onlar İmamın *(ə)* başçılıq etdiyi orduda belə bir şayiə yaydılar ki, Qeys ibn Səd Müaviyə ilə müqavilə bağlayıb, eyni zamanda Qeysin də ordusu arasında şayiə yaydılar ki, İmam Həsən *(ə)* Müaviyə ilə sülh bağlamışdır.

Həmin vaxt Mədaində olan İmam Həsən *(ə)* topladığı ordu ilə birlikdə Səbata doğru hərəkət edirdi. Səbat yolunda olarkən əslən xəvaricdən olan Cərrah ibn Sənan tərəfindən ağır yaralanan İmam Həsən *(ə)* yenidən Mədainə qayıtdı. Baş verən hadisələrdən istifadə edən Müaviyə vəziyyəti tam olaraq ələ aldı. Ordusunu itirib tək qalan İmam Həsən *(ə)* Müaviyə ibn Əbu Süfyanın sülh təklifini qəbul etməyə məcbur oldu.[197] Deməli, əgər İmam Həsən *(ə)* sülhü qəbul edibsə, bundan başqa çarəsi olmayıb. Necə ki, Təbəri və digər tarixçilər yazırlar: "Həsən ibn Əli *(ə)* yalnız ordusu onun başından dağılıb tək qaldığı halda sülhü qəbul etməyə razı oldu."[198] İmam Həsənlə *(ə)* Müaviyə arasında bağlanan sülhün şərtləri bunlardır:

1) Xilafət Müaviyə ibn Əbu Süfyana bu şərtlə verilir ki, o, hökuməti Allahın kitabı və Peyğəmbərin sünnəsi əsasında idarə edəcək.

2) Müaviyə özündən sonra canişin təyin etməyəcək və ondan sonra hakimiyyət İmam Həsənə *(ə)* məxsusdur. Əgər onun başına bir iş gələrsə İmam Hüseyn *(ə)* xəlifə olacaq. Yəni, bu sülh müvəqqətidir, İmam Həsən *(ə)* demədi ki, biz xilafəti tərk etdik və hökumət sənin olsun, istədiyin işləri gör. Bu müqavilə Müaviyənin vaxtında etibarlıdır və ondan sonra öz mahiyyətini itirir. Bununla Müaviyə gələcək dövr üçün plan hazırlaya bilməz. Yəni, Müaviyə başqasını özünə canişin seçə bilməz.

3) Müaviyə o vaxta qədər Şamda Hz.Əliyə lənət deyib, təhqiramiz sözlər söyləməyi qanuni etmişdi. Müqavilədə qeyd olundu ki, "Bu pis əməl tərk edilməlidir. Müaviyə namazlarda Hz.Əliyə lənət deməyi və o Həzrətin haqqında nalayiq sözlər söyləməyi tərk etməli və onu hörmətlə xatırlamalıdır."

---

[197]Tarixi-Yaqubi, II cild, səh-205.

[198]Tarixi-Təbəri, II cild, səh-95; Usdul-ğabə, II cild, səh-14.

4) Kufə beytül-malında olan beş milyon dirhəm pul Müaviyənin hökumətinə verilməkdən istisna olunur və həmin pulu İmam Həsənin *(ə)* özü lazımı yerlərə sərf edəcək. Həmçinin, Müaviyə beytül-maldan ayrılan payda Bəni Haşimi Bəni Ümeyyədən üstün tutmalıdır. Eləcə də Müaviyə Darabegərd şəhərinin xəracının bir milyon dirhəmini Hz.Əlinin *(ə)* rəhbərliyi altında Cəməl və Siffeyn döyüşlərində şəhid olanların ailələri arasında bölüşdürməlidir.[199]

5) Müaviyə ibn Əbu Süfyan bütün əhaliyə, istər Şam, istər İraq, istərsə də Hicaz əhalisinə hər hansı millətdən olursa olsun, bir daha təqib etməməsi və əzab-əziyyət verməməsi barədə zəmanət verməlidir. Onları Müaviyənin hökumətinə qarşı keçmişdəki fəaliyyətlərinə görə axtarışa məruz qoymamalı, xüsusilə keçmiş kin-küdurətə görə İraq əhalisinə əzab-əziyyət verməməlidir. Bundan əlavə, Müaviyə ibn Əbu Süfyan Hz.Əlinin *(ə)* tərəfdarlarını harada olmaqlarından asılı olmayaraq amanda saxlamalı və onların heç birinə əziyyət verməməlidir. Hz.Əlinin *(ə)* tərəfdarlarının canı, malı və pulunun hörməti qorunmalıdır. Onlar əsla axtarışa məruz qalmamalı və onlara zərrə qədər də narahatçılıq yetişməməlidir. Hər kəsin haqqı özünə çatmalıdır. Hz.Əlinin *(ə)* şiələrindəki beytül-mal onların özündə qalmalıdır. Həmçinin, Həsən ibn Əli *(ə)* və qardaşı Hüseyn ibn Əli *(ə)* və eləcə də, Hz.Peyğəmbərin *(s)* ailəsindən olan hər hansı bir şəxs üçün Müaviyə tərəfindən heç bir xətər icad olmamalı, heç bir yerdə onlar üçün qorxu hissi yaranmamalıdır.

Müqavilənin sonunda Müaviyə maddələrin hamısına əməl edəcəyinə söz verərək Allahı bu işdə şahid tutdu, bütün Şam əyan-əşrafı buna şəhadət verdilər. Bu müqaviləni bağlamaqla Hz.Həsən *(ə)* qabaqcadan Hz.Peyğəmbərin *(s)* onun haqqında verdiyi xəbəri həyata keçirdi. Hz.Peyğəmbər *(s)* İmam Həsəni *(ə)* minbərin başına çıxmış görüb buyurdu: "Mənim bu övladım müsəlmanların ağasıdır. Allah onun vasitəsilə müsəlman dəstə arasında sülh yaradacaq."[200]

Sülh bağlandıqdan sonra Kufəyə gələn Müaviyə minbərə çıxaraq belə dedi: "Mən sizinlə namaz qılıb həcci yerinə yetirmək, zəkatı vaxtlı-vaxtında ödəmək üçün vuruşmadım. Mən bilirəm ki, onsuz da siz bunları yerinə yetirirsiniz. Mən sizinlə ona görə vuruşdum ki, sizi özümə tabe edib hökuməti ələ keçirim."

Daha sonra dedi: "Bunu bilin ki, Həsən ibn Əliylə *(ə)* bağladığım sülh müqaviləsinin bütün maddələrini ayaqlarım altına qoyub tapdalayıram və heç birinin dəyəri yoxdur."[201]

Bu hadisədən sonra İmam Həsən *(ə)* Kufədə qala bilməyib, Əhli-beytlə birlikdə öz doğma vətəni olan Mədinəyə köçdü.

Lakin İmamdan əl çəkməyən Müaviyə onu burada da rahat buraxmadı. İmam Həsənin *(ə)* xanımlarından biri də Əsma (Codə) binti Əşəs idi. Əsmanı min cür hiylələrlə ələ alan Müaviyə onu başa saldı ki, əgər İmam Həsəni *(ə)* öl-

---

[199]Biharul-ənvar, 44-cü cild, səh-10.

[200]Təzkirətul-xəvas, səh-194; Usdul-ğabə, II cild, səh-12; Nurul-əbsar, səh-121; Təbəqati ibn Səd, I cild, səh-26, Ənsabul-əşraf, III cild, səh-42.

[201]İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, XVI cild, səh-15.

dürsən, səni öz cavan oğlum Yezid üçün nigahlayıb sarayıma gətirərəm. Bu cür vədlərlə bərabər Müaviyə ona çoxlu qızıl və zəhər də göndərdi. Nəhayət, Əsma hicrətin əllinci ili səfər ayının 28-də (miladi 670 və ya 672) İmam Həsəni *(ə)* zəhərləyərək şəhid etdi. İmam Hüseyn *(ə)* o Həzrəti qüsl və kəfən edib, babası Hz.Peyğəmbərin yanında dəfn etmək üçün oraya apardılar. Bundan xəbər tutan Mərvan ibn Həkəm və Osman ibn Əfvanın digər qohumları silahlanıb bu işə mane oldular. Hətta o Həzrətin tabutuna ox atdılar. İmam Həsənin (ə) cənazəsinin Peyğəmbərin (s) yanında dəfn edilməsi istənilsə də buna maneçilik törədilmiş və fitnə çıxmasın deyə cənazə Bəqiyə aparılaraq orada dəfn edilmişdir.

Künyəsi Əbu Muhəmməd olan İmam Həsənin *(ə)* ləqəbləri bunlardır:

1) Zəki – yəni eyblərdən pak-pakizə
2) Turi-siyniyn – yəni haqq nurunun doğan yeri
3) Əvvəlüs-sibteyn – yəni əkizlərin birincisi
4) Əvvəli-Ali-Əba – yəni kisa örtüyünün birincisi
5) Müctəba – yəni seçilmiş

İmam Həsənin *(ə)* zövcələri bunlardır:

1) Ümmü-Bəşir. İmam Həsənin *(ə)* bu xanımla izdivacından Zeyd adlı oğlu, Ümmül-Həsən və Ümmül Hüseyn adlı qızları dünyaya gəlmişdir.
2) Xulə binti Mənzuri. Həsən ibn Həsənin anasıdır.
3) Ümmü İshaq. Hüseyn və Fatimənin anasıdır.
4) Əsma binti Əşəs.
5) Əsma binti Əbdürrəhman ibn Əbu Bəkr.

Tarixi məlumatlara görə İmam Həsənin *(ə)* on beş oğlu və yeddi qızı olmuşdur. Oğlanları bunlardır: 1) Zeyd, 2) Həsən ibn Həsən. Ona Həsəni-Müsənna da deyirlər. İmam Hüseynin *(ə)* Fatimə adlı qızı ilə evlənən Həsəni-Müsənna Kərbəla faciəsində çoxlu yaralar alsa da, sonradan sağalmışdır. 3) Ömər, 4) Qasim, 5) Abdullah. Bunların üçüdə Kərbəla faciəsində əmiləri Hz.Hüseynin *(ə)* qabağında şəhid olmuşlar. 6) Əbdürrəhman. O da İmam Hüseynlə *(ə)* birlikdə Mədinədən Məkkəyə getsə də, orada həcc ehramında vəfat etmişdir. 7) Hüseyn, 8) Abdullah-əsğər, 9) İsmail, 10) Məhəmməd, 11) Yəqub, 12) Cəfər, 13) Təlhə və ya Cavad, 14) Həmzə, 15) Əbu Bəkr.

Qızları isə bunlardır: 1) Ümmül-Həsən, 2) Ümmül-Hüseyn, 3) Fatimayi-Kübra, 4) Fatimeyi-Suğra, 5) Ümmü-Abdullah, 6) Ümmü-Səlmə, 7) Ruqiyyə.

İmam Həsənin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Əl-izzəti lillah" – İzzət və qüdrət yalnız Allaha məxsusdur.

III FƏSİL

ƏMƏVİLƏR XİLAFƏTİ
hicri 41-132 (miladi 661-750)

Bəni Ümeyyənin soyu

Allah "İsra" surəsinin 60-cı ayəsində Bəni-Umeyyəni "Şəcərətul-məlunə" lənətlənmiş ağac olaraq tanıtdırır. Bu səbəbdən Fəxrəddin Razi, Təbəri, Qirtəbi, Nişapuri, Siyuti, Alusi, Xətib Bağdadi və Beyhəqi kimi məhşur əhli-sünnə alimlərindən bir çoxu zikr edilən bu ayənin təfsirində İbn Abbasdan belə nəql etmişlər: "Quranda "lənətlənmiş ağac"dan məqsəd Bəni-Umeyyədir. Çünki Rəsulullah yuxuda onları minbər və mehrabına daraşan meymunlar şəklində gördü. Həzrət yuxudan oyandıqdan sonra Cəbrail zikr olunmuş ayənin nazil olduğunu xəbər verdi: "Röyada gördüyün meymunlar Bəni-Umeyyədir. Onlar səndən sonra xilafəti qəsb edəcəklər və minbərin min ay onların idarəsi altında olacaqdır."

Əməvilər Qureyş qəbiləsinə mənsubdur. Əbdul-mənaf oğullarından Haşim ilə Əbduş-Şəms Qureyşin iki qolunu təşkil edir. Haşim Əbduş-Şəms ilə əkiz doğulmuş və Haşim böyük olduğundan qəbilənin Haşimiyyə qolu daha etibarlı sayılmışdır. Daha sonra Hz.Peyğəmbərin *(s)* Haşimiyyə qolundan olması Bəni Haşimə daha çox şərəf qazandırmışdır. Əbduş-Şəms isə Bəni Haşimin qardaşı uşaqları olduğu üçün Qureyş qəbiləsində ikinci dərəcəli olmuşlar. Qureyşin iki qolu olan Bəni Umeyyə ilə Bəni Haşim arasında cahiliyyə dövründən rəqabət var idi. Əvvəlcə bu rəqabət Umeyyə ilə Haşim arasında başlamış, sonralar bu rəqabəti Əbu Süfyan Hz.Peyğəmbərə *(s)* qarşı davam etdirmişdir. III xəlifə Osmanın dövründə bu rəqabət daha da artmışdır. Bundan istifadə edən Müaviyə ibn Əbu Süfyan Hz.Əlinin *(ə)* şəhadətindən sonra hicrətin 41-ci ili rəbiül-əvvəl ayının 25-də miladi tarixi ilə 661-ci ilin iyununda Əməvilər xilafətinin əsasını qoymuşdur. Bu xilafət hicri 41-ci ildən 132-ci ilə qədər (miladi 661-750) davam etmişdir. Əməvilər xilafətini on dörd xəlifə idarə etmiş, bunlardan üçü Müaviyə ibn Süfyan, Yezid ibn Müaviyə və Müaviyə ibn Yezid süfyaniyyə qolundan, qalan on bir xəlifə isə Mərvaniyyə (Mərvan ibn Həkəmin nəslindən) olmuşdur.

Əməvilər dövründə İslam dövlətinin sərhəddi şərqdə Hindistan və Türk dövlətlərinə, qərbdə Afrika və Əndəlüsə, şimalda isə Azərbaycan, Ermənistan və Bizans ölkələrinə qədər genişlənmişdir.

I Müavıyə ibn Əbu Süfyan hicri 41-60 (miladi 661-680)

Müaviyə ibn Əbu Süfyan ibn Hərb ibn Umeyyə hicrətdən 17 il əvvəl (miladi 605) Məkkədə anadan olmuşdur. Atası İslam peyğəmbəri Hz.Muhəmmədin qatı düşmənlərindən olan Əbu Süfyan, anası isə Uhud döyüşündə Hz.Həmzənin ciyərini yeyən Hində binti Utbədir. Bu hərəkətinə görə Hindəyə İslam tarixində "ciyəryeyən" ləqəbi verilmişdir. Atası və anasından geri qalmayan Müaviyənin özü də Hz.Peyğəmbər *(s)* və onun Əhli-Beytinin qatı düşməni olmuşdur. Hicrətin ikinci ilində baş verən Bədr döyüşündə müsəlmanlara qarşı vuruşmuşdur. Hicrətin səkkizinci ilində Məkkə müsəlmanlar tərəfindən fəth ediləndən sonra mala-mülkə yiyələnmək məqsədilə 25 yaşında islamı qəbul etmişdir. Məlum olduğu kimi Məkkənin fəthindən sonra Hz.Peyğəmbər *(s)* bütün beytul-malı səhabələr arasında bərabər bölüşdürdü. Onlardan bəzilərinə bir qədər artıq pay ayırdı. Bunlardan Əbu Süfyan, oğlu Müaviyə, Hukeym ibn Həzam, Haris ibn Haris, Haris ibn Hişam, Süheyl ibn Əmr, Huveytib ibn Əbdüluzza və Əla ibn Cariyənin hər birinə yüz baş, nisbətən zəif mövqeyi olanlara isə əlli baş dəvə verir. Onlar bu böyük bəxşişə görə İslama daha çox bağlanırlar. İslam fiqhində belə şəxslərə "müəlləfətul-qulub" (yəni, İslama daha çox meyllənmələri üçün zəkat verilən şəxslər) deyilir. Müaviyə və atası bu qrupdan hesab olunarlar.

Müaviyə xəlifə Əbu Bəkrin zamanında qardaşı Yezid ilə Suriyaya gedib orada baş verən fəthlərdə iştirak etmişdir. Xəlifə Ömər ibn Xəttabın dövründə 638-ci ildə qardaşı Yezidin ölümündən sonra Suriya valisi təyin edilmişdir. Xəlifə Osmanın dövründə isə İordaniya, Xıms və ətraf məntəqələr də daxil olmaqla Suriyanın ixtiyarı tamamilə Müaviyəyə verilmişdir. Osmanın vəfatına qədər bu vəzifədə qalıb, gələcəkdə hakimiyyətə gəlmək üçün bütün hazırlıqlarını görmüşdür. Hz.Əlinin *(ə)* xəlifə seçilməsindən sonra xəlifə Osmanın intiqamını almaq bəhanəsilə Hz.Əliyə *(ə)* beyət etməyib ona qarşı müharibə elan etmişdir. Uzun müddət Suriya valisi olduğu üçün buranın əhalisini tez bir zamanda ətrafına toplayıb xəlifə Osmanın qanlı köynəyini və arvadı Nailənin kəsik barmaqlarını Şam məscidində nümayiş etdirərək "Osmanın qanını tələb edin" şüarı ilə böyük bir ordu topladı. Yanına siyasət dahilərindən olan Muğeyrə ibn Şöbə və Əmr ibnAsı alan Müaviyə Siffeyn döyüşündə tam məğlub olarkən Əmr ibn Asın hiyləsi ilə Quran səhifələrini nizələrə keçirərək qurtulmuş, Həkəmeyn hadisəsi və ardından Kufə əhalisinin zəifliyindən istifadə edib Əbdürrəhman ibn Mülcəmin Hz.Əlini *(ə)* şəhid etməsindən sonra xəlifə olan Hz.İmam Həsəni *(ə)* xilafəti ona verməyə məcbur etmiş və bununlada hicrətin 41-ci ili rəbiül-əvvəl ayının 25-də Əməvilər xilafətinin əsasını qoymuşdur.

Müaviyənin İslama zidd olan hərəkətləri

1. İslamla bərabər Hz.Peyğəmbərin *(s)* adının yaddaşlardan silinməsini istəməsi: Muğeyrənin oğlu Mütərrifdən belə nəql olunur: "Bir gün Müaviyənin sarayından qayıdan atam Muğeyrənin bərk narahat olduğunu gördüm. Narahatlığının səbəbini soruşduqda belə dedi: "Oğlum, indi dünyanın ən çirkin ada-

mının yanından gəlirəm. Müaviyə ilə tək oturmuşduq, ona dedim: "İndi ki, öz arzuna çatıb hökuməti ələ keçirmisən, heç olmasa ömrünün axırlarında camaatla ədalət və yaxşılıqla davran, Bəni-Haşimlə bu qədər sərt davranma. Axı onlar necə olsa, yenə sənin qohumlarındırlar, bundan da əlavə, onlar indi elə bir haldadırlar ki, daha onlardan sənə bir xətər yetişməz". Müaviyə cavab verdi: "Xeyr! Əbu Bəkr xəlifə oldu, ədalətlə davrandı, ölümündən sonra təkcə adı qaldı. Ömər də on il xəlifə oldu, zəhmət çəkdi, ancaq ölümündən sonra təkcə qalan adı oldu. Sonra şərafətdə heç kəsin ona çata bilmədiyi qardaşımız Osman xəlifə oldu. O ölən kimi adı da özü ilə birlikdə dəfn olundu. Ancaq İslam aləmində hər gün bu Haşimi kişinin adını beş dəfə çəkərək "əşhədu ənnə Muhəmmədən Rəsulullah" deyirlər. İndi bu vəziyyət də onun adını itirib batırmaqdan başqa hansı yol var?"[202]

2. Əmmar ibn Yasirin şəhid edilməsi: Hicrətin birinci ilində Məscidun-Nəbinin inşasında bəzi səhabələrin təzyiqindən şikayətlənən Əmmar ibn Yasir Hz.Peyğəmbərə *(s)* belə dedi: "Ey Allahın Rəsulu! Səhabələriniz mənim qəsdimə dayanıblar. Özləri daşları bir-bir apardıqları halda mənə üç-üç yükləyirlər. Onun toz-torpağını təmizləyən Hz.Peyğəmbər *(s)* tarixi bir cümlə buyurdu: "Onlar səni öldürməzlər. Sən öyüd-nəsihət edib haqqa çağırdığın halda səni azğın (zalım) dəstə öldürəcək."[203]

Həqiqətən də Hz.Peyğəmbərin *(s)* buyurduğu kimi Əmmar Hz.Əlinin *(ə)* xilafəti dövründə baş verən Siffeyn döyüşündə Müaviyə və onun zalım dəstəsi tərəfindən şəhadətə yetişdi. Əmmar Siffeyn döyüşündə Hz.Əlinin *(ə)* ordusunda şəhid olduqdan sonra Müaviyə adam aldadan hiyləsi ilə Şam ordusu arasında xəbər yaydı ki, Əmmarın qatili Əlidir. Çünki onu döyüş meydanına Əli *(ə)* göndərmişdir.[204] Müaviyənin sözlərindən belə çıxır ki, onda Hz.Həmzənində qatili elə Peyğəmbərin *(s)* özüdür. Çünki onu Bədr döyüşünə gətirən Hz.Peyğəmbər *(s)* olmuşdur.

3. Atası bilinməyən Ziyad ibn Əbihini İslam fiqhinin ziddinə olmasına baxmayaraq özünə qardaş elan edir.

4. Özündən sonra oğlu Yezidi xəlifə təyin edib, Məkkə və Mədinə əhalisini ölümlə hədələyərək sağlığında Yezid üçün beyət aldı.[205]

5. Müaviyənin göstərişi ilə Busr ibn Ərtat Yəmənə gedərək otuz min Əli *(ə)* tərəfdarını qılıncdan keçirdi.

6. Allahın layiqli bəndələri olan İmam Həsənin *(ə)*, Hücr ibn Ədiyyin, Əmr ibn Həmaq Xuzainin Müaviyə tərəfindən öldürülməsi. Əmr ibn Həmaqın başı İslamda möminlər arasında kəsilən və başqasına göndərilən ilk başdır.

---

[202]Tarixi-Məsudi, III cild, səh-454.
[203] Sireyi-Hələbi, II cild, səh-76-77.
[204]Bəlazuri, Ənsabul-əşraf, səh-317.
[205]Tarixi ibn Əsir, III cild, səh-503-511.

7. Müaviyənin Hz.Peyğəmbərin *(s)* dünya və axirət qardaşı olan Hz.Əli *(ə)* ilə düşmənçiliyi.

8. Müaviyənin Hz.Əlinin *(ə)* əleyhinə saxta hədislər düzəltməsi. Müaviyə səhabə və tabeindən bir qrupunu vadar edirdi ki, Hz.Əlinin *(ə)* əleyhinə dəlalət edən hədislər düzəltsinlər. Bu iş üçün onlara müəyyən məbləğdə pul təyin etmişdir.

Müaviyənin Hz.Əlinin *(ə)* tərəfdarları ilə sərt davranması

Hakimiyyəti ələ keçirən Müaviyə bir tərəfdən öz nümayəndələrinə yazıb bildirdi ki, Əlinin şiələrinə işgəncə verməkdən çəkinməsinlər, digər tərəfdən isə xətiblərə minbərdə Hz.Əlini təhqir etmələrini tapşırdı. Muğeyrəni Kufəyə hakim təyin edən zaman ona dedi: "Sənə bir neçə tapşırıq vermək istəyirəm! Əlini söyməkdən və Osmana rəhmət oxumaqdan çəkinmə, həmçinin bacardıqca Əlinin tərəfdarlarında eyib tut."[206] Ondan sonra xətiblər hər namazdan sonra Hz.Əlinin *(ə)* adını hörmətsizcəsinə yad edir, dinini dünyaya satmış hədis rəvayətçiləri də onu razı salmaq üçün Hz.Əlinin *(ə)* barəsində məzəmmətedici, Əməvilərin isə fəziləti barədə hədis qoşmaqdan usanmadılar.

Hz.Əlinin *(ə)* şəhadətindən sonra İraqın ağsaqqalları Müaviyənin yanına gedəndə onları təhqir edər, onların aşağı nəsildən olduqlarını və ağır yaşayış tərzlərini başlarına qaxınc edərdi. Müaviyənin Hz.Əli *(ə)* şiələrinə qarşı ən çirkin rəftarı Hücr ibn Ədiyyi öldürməsi olmuşdur. Çünki zahid və dindar olan bu şəxs bir məsciddə xətibin Əliyə *(ə)* söyüş söydüyünə etiraz etmişdir. Ziyad ibn Əbihi ondan Müaviyəyə şikayət etmiş və Müaviyə də onu Şama göndərməyi əmr etmişdi. Ziyad Hücr ilə bir neçə nəfəri qandallayıb Şama yollayarkən onların yolda boyunlarını vurmuşdular.

Müaviyənin atası bəlli olmayan Ziyad ibn Əbihini özünə qardaş seçməsi

Ziyadın anası Süməyyə Haris ibn Kəldənin kənizi idi. Cahiliyyət zamanında digər ailələrdə olduğu kimi bu kəniz də öz sahibi üçün "gəlir mənbəyi" sayılırdı. Sonralar Haris onu rumlu qul olan Ubeydə ərə vermiş və Ziyad dünyaya gəlmişdir. Camaat bəzən Ziyadı atası Ubeydin, bəzən isə anası Sümeyyənin adı ilə çağırırdılar. İslam fiqhinə görə də nigah olunmuş qadından dünyaya gəlmiş uşaq ataya məxsusdur. Muğeyrənin vasitəçiliyi ilə Ziyadı öz tərəfinə çəkən Müaviyə onun ürəyini ələ almaq üçün dedi: "Ziyad atam Əbu Süfyanın oğlu və mənim qardaşımdır!" Ardından bir yığıncaq təşkil edərək şahidləri çağırıb onlara Ziyadın Əbu Süfyanın oğlu olmasını demələrini tapşırdı. Məşhur tarixçi Təbəri bu hadisəni qısaca olaraq belə şərh edir: "Ziyad Kufə camaatından onun Müaviyənin qardaşı olmasına şəhadət vermələrini istədikdə onlar boyun qaçırdılar, lakin Bəsrə camaatından bir nəfər şahidlik etdi."[207] Yəqubi, ibni Əb-

[206]Tarixi-Təbəri, İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi.
[207]Tarixi-Təbəri, III cild, səh-196-201.

dirəbbih və Məsudi bu əhvalatı çox geniş şəkildə şərh etmişlər. Yəqubu yazır: Müaviyə şahidlərdən onun Ziyadla qohumluq əlaqəsi olması haqda şahid durmalarını istədikdə Əbu Məryəm Səluli dedi: Mən Taifdə şərab satdığım zaman Əbu Süfyan səfərdən qayıdarkən mənim yanıma gəlib bir qadın istədi. Mən də Sümeyyəni onun üçün gətirdim və onların yaxınlığından Ziyad dünyaya gəldi. Bu söhbətdən sonra Müaviyə Ziyadı özünə qardaş elan etdi."[208] Hələ Hz.Peyğəmbərin *(s)* vəfatından otuz il keçməmiş, yenicə şəhid edilmiş təqvalı, abid və məsum xəlifənin xatirəsi zehinlərdən silinməmiş peyğəmbər canişinliyi iddiasında olan bir şəxs onun sünnəsini necə də oyuncağa çevirir.

O günün müsəlman icması da tamahkarlıqdan və ya qorxudan onun bu çirkin əməlinin doğruluğunu təsdiq edərək susurdular. Halbuki, həmin vaxt Şamda Hz.Peyğəmbəri *(s)* görüb onun sözlərini eşidən əlli nəfər səhabə yaşayırdı.

Əldə etdiyi qardaşlıq peymanından sonra Ziyad tam surətdə Müaviyəyə tabe oldu. İlk olaraq Bəsrənin, ardından da şərq əraziləri daxil olmaqla Kufənin də hakimi olan Ziyad buranın əhalisi ilə layiq olduqları tərzdə rəftar etdi.

Hicrətin 45-ci ili (miladi 665) Bəsrəyə daxil olan Ziyad "Bətra" adlı məşhur xütbəsini oxuyaraq belə dedi: "And olsun Allaha, qul günah etmiş olsa əvəzinə ağasını, səfərdə olan adamın günahı olsa əvəzində qalanını, xəstənin yerinə sağlamı tutacağam, hətta o dərəcəyə qədər qəddar olacağam ki, məni görəndə qorxudan nəfəs çəkə bilməyəsiniz. Axşam evindən bayıra çıxanların qanını tökəcəyəm. Əlimdən və dilimdən amanda qalmaq istəsəniz, əlinizi və dilinizi məndən qoruyun." Bu xütbədən sonra hər kəs öz canının qorxusundan başqaları üçün qoruqçu olmuşdu. Camaatın təbiəti ilə uyğun olan bu acı siyasət Bəsrəyə, Kufəyə hətta bu şəhərlərlə əlaqəsi olan yollara belə rahatlıq gətirirdi.

Miladi 670 (və ya 672) Muğeyrə ibn Şöbənin ölümündən sonra Müaviyə Kufənin də hakimliyini Ziyad ibn Əbihiyə tapşırdı. O ilin yarısını Bəsrədə, yarısını da Kufədə keçirirdi. Onun Kufədə törətdiyi cinayətlər heç də Bəsrədən geri qalmamışdır. Ziyadın şərqdə topladığı qoşunun biri Xorasandan Lahura qədər irəliləmiş, o biri isə Amudəryanın o biri sahilinə qədər getmişdir. İlk dəfə türklərlə vuruşan da bu qoşun olmuşdur.[209]

Müaviyə ibn Əbu Süfyanın oğlu Yezidi özündən sonra vəliəhd təyin etməsi islamdan kənar bir adət idi.

Müaviyənin xalqla rəftarı

Məlum olduğu kimi İslam dövləti Mədinədə təsis olunandan Hz.Əlinin *(ə)* xilafətinin sonuna qədər müsəlmanların hakimləri hər hansı məsələnin həlli zamanı mühacir və ənsarın başçıları ilə məşvərət edər və onlar çəkinmədən öz nəzər və rəylərini bəyan edərdilər. Hz.Peyğəmbərin *(s)* qoyduğu ənənəyə sadiq

[208]Tarixi-Yəqubi, II cild, Tarixi ibn Əsir, III cild, səh-422-423.

[209]Tarixi-Yəqubu, II cild, səh-218; Tarixi ibn Əsir, III cild, səh-422-451; İbn Kəsir, Əl-bidayətu vən-nihayə, VIII cild, səh-29.

qalan xəlifələr qarşıya çıxan problemin cavabını Quran və sünnədə tapmadıqda Peyğəmbərin *(s)* səhabəsindən nə etmək lazım olduğunu soruşardılar. Xəlifənin də çıxardığı qərar da Quran və sünnəyə birbaşa zidd olmamalı idi.

Müaviyə hakimiyyətə gəldikdən sonra isə xəlifə və onun məmurlarına irad tutmaq yığışıldı. Xəlifənin məmurlarına irad tutan şəxslər tənbih edilir və yaxud işgəncə və ölümə məruz qalırdılar. Əvvəldə qeyd etdiyimiz kimi Hücr ibn Ədiyy və dostları Hz.Əlini *(ə)* söymədikləri üçün ölümə məhkum olunmuşdular. Müaviyənin hakimiyyəti dövründə camaat Allahın bəyəndiyi sözləri yox, xəlifənin xoşuna gələn sözlər danışırdılar. Dinə azacıq hörməti olan şəxslər də hakimlərin hərəkətləri qarşısında sakit otururdular. Rəvayətə görə Müaviyə camaatdan Yezidin vəliəhd olması haqda rəylərini öyrənmək istədikdə Əhnəf ibn Qeys sakit oturmuşdu. Bunu görən Müaviyə dedi: "Niyə danışmırsan?" Əhnəf dedi: "Əgər düz danışsam sən inciyəcəksən, yox əgər yalan desəm Allahı qəzəbləndirəcəyəm."[210]

Ənsar, mühacir və mömin müsəlmanların sayı azaldıqca, hökmlərin icrasına nəzarətin zəifləməsi daha çox gözə çarpırdı. Hicrətin qırxıncı ilindən sonra iş başına gəlmiş cavanların nə Peyğəmbər *(s)* dövründəki İslamdan xəbərləri var idi, nə də ki, ondan sonrakı hakimlərin sərt rəftarlarını görmüşdülər. Bu nəsil iğtişaşlı dövrdə boya-başa çataraq, sərt zəmanədə yaşadıqlarından, təbiidir ki, həqiqi İslamdan və bu dinin əsas dayağı olan ədalətdən xəbərləri yox idi. Ancaq bu dəyişikliklər İslamın sadə dövründə yaşamış insanlar üçün ağır gəlirdi, onlar təəssüf hissi keçirsələr də bir iş görə bilmirdilər.

Müaviyənin dövründə birini məzəmmət, digərini isə tərif edən bir çox saxta hədislər meydana gəldi. Hədis kitablarında "Fəzilətlər" adlı fəslə rast gəlirik ki, orada ancaq hansısa bir şəxsin və ya ailənin tərifləmməsindən söhbət gedir. Belə rəvayətlərə şübhə ilə yanaşmalı, bəzən isə rədd etməliyik.

Müaviyənin dövründə baş verən fəthlər

Xilafəti ələ keçirən Müaviyə ibn Əbu Süfyan dərhal Kufəyə Muğeyrə ibn Şöbəni, Bəsrəyə isə Abdullah ibn Əmri vali təyin etdi. Ziyad ibn Əbihini özünə qardaş elan etdikdən sonra 665-ci ildə onu Bəsrəyə vali təyin etdi. Qısa müddət sonra bu vilayəti Kufə ilə birləşdirərək hər iki şəhərə Ziyad ibn Əbihini vali təyin etdi. 662-ci ildə Misir valisi Əmr ibn Asın ölümündən sonra oğlu Abdullah, sonra isə Müaviyə ibn Xudeyc Misirə vali təyin edilmişdir. Şimali Afrikaya Uqbə ibn Nafe, Mədinəyə isə Mərvan ibn Həkəm vali təyin edildi. Hakimiyyətdə yerini möhkəmlədən Müaviyə üç istiqamətdə fəthlər həyata keçirdi.

1. Türkistan fəthləri

Əbdürrəhman ibn Səmurə Sicistan valisi olduğu müddətdə bir çox yerləri, o cümlədən Kabili fəth etmişdir. Kabilin fəthindən sonra hücumlarını davam

[210]Tarixi ibn Əsir, III cild.

etdirən Əbdürrəhman Bust və Zəranı da ələ keçirdikdən sonra Qəznəyə qədər irəliləyib əhalini cizyə verməyə məcbur etmişdir. Lakin onun geri qayıtmasından sonra burada yenidən üsyanlar başlamışdır.

Abdullah ibn Əmir tərəfindən Hind sərhədlərinə göndərilən Abdullah ibn Səvvar hindlilərə qarşı bir çox səfərlər edərək xeyli qənimət ələ keçirsə də bu bölgədə öldürülmüşdür.[211]

665-ci ildə Abdullah ibn Əmr Bəsrə valiliyindən alındıqdan sonra onu Ziyad ibn Əbihi əvəz etmişdir. Ziyad ibn Əbihi əvvəllər Hz.Əli *(ə)* və Hz.Həsənin *(ə)* tərəfində idi. Lakin Müaviyənin tərəfinə keçən Ziyad ibn Əbihi Bəsrədə Hz.Əlinin *(ə)* tərəfdarlarına təzyiq göstərməyə başladı. Muğeyrə ibn Şöbənin vəfatından sonra Kufə valisi təyin edilən Ziyad, Ərəbistan və İranın daxil olduğu şərq vilayətinin ümumi valisi oldu. İdarə etdiyi ərazilərdə dörd min nəfərlik cəsusla Hz.Əli *(ə)* tərəfdarlarını təqib edərək, Əməvilərin nüfuzunu qorumuşdur.[212]

671-676-cı illər arasında Əfqanıstan və Türküstana səfərlər edən əməvilər Kabil və Buxaranı alaraq orada islamı yaymağa çalışdılar. Hindistan üzərinə göndərilən Muhəlləb ibn Əbu Sufra Multan və Kabil bölgələrinə qədər irəliləmişdir.

Şimal bölgəsinin idarəsi Xıms valisi Əbdürrəhman ibn Xalid ibn Vəlidin əlində idi. Onun qazandığı uğurları görən Müaviyə ibn Əbu Süfyan miladi tarixi ilə 666-cı ildə (hicri 46) onu zəhərləyərək öldürdü.[213]

667-ci ildə Gur dağlarına qədər irəliləyən Həkəm ibn Əmr Muhəlləb ibn Əbu Sufranın köməyi ilə xeyli qənimət ələ keçirmişdir.

674-cü ildə Xorasan valisi təyin edilən Ubeydullah ibn Ziyad Nəsəf və Bəykənd şəhərlərini ələ keçirdikdən sonra Türkləri məğlub edib xeyli qənimət ələ keçirmişdir. 675-ci ildə Bəsrə valisi təyin edilən Ubeydullah qısa müddət sonra yenidən Xorasan valisi təyin edilmişdir.

2. Anadolu və İstanbul səfərləri

Müaviyənin xilafəti dövründə Şimali Afrika və Şərqə səfərlər edilməklə bərabər Bizansın əlində olan Anadoluya da səfərlər edilirdi. Bizans imperatoru II Konstantinin ölkədə olmamasından istifadə edən Müaviyə 663-cü ildə Anadoluya səfər edərək Kadıköyə qədər gəlmişdir. Bundan bir il sonra Anadoluya yenidən səfər edən Əməvilər Busr ibn Ərtatın başçılığı ilə Üsküdara qədər irəliləyib xeyli qənimət ələ keçirdilər.

Növbəti dəfə Süfyan ibn Ovfun başçılığı altında İstanbul üzərinə böyük bir ordu təşkil edən Müaviyə ibn Əbu Süfyan bu səfəri qabaqcadan elan etmişdir. Bu orduda məşhur səhabələrdən Abdullah ibn Abbas, Abdullah ibn Zübeyr, Əbu Əyyub Ənsari kimi şəxslər olmuşdur. 670-ci ildə (hicri 50) edilən bu səfərdə İstanbul uzun müddət mühasirə olunsa da fəth

---

[211]Tarixi ibn Əsir, III cild, səh-436-438.
[212]Tarixi-Yəqubi, II cild, səh-218.
[213]Tarixi ibn Əsir, III cild, səh-453.

edilməmişdir. Səfər əsnasında Əbu Əyyub Ənsari vəfat etmiş və Eyup adlı məntəqədə dəfn edilmişdir.[214]

Müaviyə ibn Əbu Süfyan valiliyi zamanında başladığı dəniz səfərlərinə on il ara verdikdən sonra yenidən başlayıb Kipr, Rados və Egey adalarını ələ keçirdikdən sonra eyni donanmanı Mərmərəyə göndərərək Qapıdağ yarımadasını da ələ keçirmişdir. 672-ci ildə (hicri 52) isə Çukurova sahillərinə donanma göndərərək İzmiri zəbt etmişdir. 673-cü ildə (hicri 53) Müaviyə ibn Xudeyc Seysil adasını fəth etmişdir. 674-cü ildə (hicri 54) İslam donanması yenidən İstanbulu mühasirəyə almış və bu mühasirə 678-ci ilə qədər davam etsədə yenə də İstanbul müsəlmanlar tərəfindən fəth edilməmişdir.[215]

3. Şimali Afrikanın fəthi

Şimali Afrikaya vali təyin edilən Uqbə ibn Nafe bəzi yerləri ələ keçirməklə yanaşı bərbəriləri də İslama gətirməyə çalışmış və ordugah şəhəri olan Qayravanı inşa etdirmişdir. Uqbə valiliyi zamanında özünə mərkəz olaraq Bərqanı seçmişdir.

Bundan əvvəl Abdullah ibn Səd Bizansın Şimali Afrika valisini məğlub edərək Tablusqərbi (indiki Tripoli) ələ keçirmişdir. Sudan üzərinə göndərdiyi ordu isə heç bir nəticə əldə etmədən geri qayıtmışdır.

Uqbə ibn Nafenin Şimali Afrikada qazandığı uğurları görən Müaviyə 675-ci ildə (hicri 55) onu Şama geri çağırıb Əbul Mühaciri bu bölgəyə vali təyin etmişdir. Uqbə ibn Nafe Şama gəldikdə Müaviyə söz verdi ki, yenidən onu Şimali Afrikaya vali təyin edəcək. Lakin o, Müaviyənin ölümünə qədər Şamda qalmışdır. Yezid ibn Müaviyənin dövründə Uqbə ibn Nafe yenidən Şimali Afrikaya vali təyin edilmişdir. Qayravana gələn Uqbə Əbul Mühaciri həbs edərək yerinə Zuheyr ibn Qaysı vəkil təyin etmişdir. Sonra böyük bir ordu ilə qərbə doğru irəliləyən Uqbə ibn Nafe bu bölgədəki Bizans əsgərləri ilə bərabər onlara yardım edən Bərbəriləri də məğlub edərək Tahərtə qədər irəliləmişdir. Daha sonra okean sahillərinə çatan Uqbə ibn Nafe atını dənizə sürüb belə demişdir: "Ya Rəbb! Şahid ol ki, əgər qarşıma dəniz çıxmasaydı İsmi-Cəlalını çox uzaqlara götürərdim."

Uqbə ibn Nafe Qayravana döndükdən sonra bərbərilər Quseylə ibn Kəmrəmin başçılığı ilə üsyan etdilər. Həmin vaxt həbsdən azad edilən Əbul Mühacirdə Uqbə ilə bərabər Qayravanı müdafiə etməyə çalışdı. Lakin baş verən döyüşdə Uqbə ilə birlikdə Əbul Mühacirdə şəhid olmuşdur. Onların ölümündən sonra Zuheyr ibn Qays bərbərilərin qarşısında dayana bilməyib Qayravanı tərk edərək Bərqaya gəlmişdir.[216]

---

[214]Tarixi ibn Əsir, III cild, səh-458-459; İbn Kəsir, Əl-bidayətu vən-nihayə, VIII cild, səh-32.
[215]İslam tarixi, Nuri Ünlü, səh-163, İstanbul-1997.
[216]Tarixi ibn Əsir, IV cild, səh-105-108; İbn Cavad Əfdaluddin, İslam tarixi, səh-218-220.

Xəvaric üsyanı

Əvvəlcədən Müaviyə ilə düşmən olan xəvariclər onun xilafətə gəlməsilə ona olan düşmənçiliklərini daha da artırdılar. Rey ətrafında hazırlığa başlayan xəvariclər Muğeyrə ibn Şöbənin valiliyi zamanında Kufəyə gəlib 663-cü ildə Hosərinin başçılığı ilə üsyan edəcəklərinə söz verdilər. Bu şəxs İmam Əlinin *(ə)* şəhadətindən sonra Nuxeyləni özünə mərkəz seçib xəvaricləri ətrafına toplamışdır. Bunu öyrənən Müaviyə İmam Həsənə *(ə)* xəbər göndərdi ki, Mədinəyə getməzdən əvvəl xəvaric üsyanını yatırsın. İmam Həsən *(ə)* bunu qəbul etməyib Müaviyəyə belə bir xəbər göndərdi: "Mən müsəlmanların qanı tökülməsin deyə səninlə müqavilə bağladım. Əgər döyüşmək istəsəydim ilk öncə səninlə döyüşərdim." Bu cavabdan sonra Müaviyə məcbur olub əksəriyyəti Kufəlilərdən ibarət olan böyük bir ordunu Muğeyrənin başçılığı ilə xəvariclərin üzərinə göndərdi. Baş verən döyüşdə xəvariclər məğlub edildi və onların başçıları Hosəri öldürüldü.[217]

Xilafəti 19 il üç ay davam Müaviyə ibn Əbu Süfyan hicrətin 60-cı ili (miladi 680) rəcəb ayında Şamda ölmüş və Bab-əl-Cabiyə ilə Bab-əl-Səğir arasında dəfn edilmişdir.

I Yezid ibn Müaviyə hicri 60-63 (miladi 680-683)

Yezid hicrətin 25-ci ili miladi tarixi ilə 645-ci ildə Şamda anadan olmuşdur. Atası İslamın və Əhli-beytin qatı düşməni Müaviyə ibn Əbu Süfyan, anası isə Kəlb qəbiləsindən olan Meysun binti Bəcdəl ibn Uneyf adlı bir qadın idi.[218]

Müaviyə ibn Əbu Süfyan ölən zaman Yezid Huvvarində yaşayırdı. Şamın darğası Zəhhaq ibn Qeys onun ölümünü Yezidə xəbər verdi. Bu xəbərdən sonra 680-cı ildə Şama gələn Yezid ümumi beyətdən sonra əməvi xəlifəsi təyin edildi. Məşhur tarixçi Məsudi yazır: "Yezidin xəlifə olmasından sonra etdiyi pozğunçuluqlar onun hakimlərinə də keçdi. Onun dövründə oxuyub çalmaq meydana çıxdı, kef məclisləri quruldu və camaat açıq-açığına şərab içməyə başladı."[219]

Mənbələrə əsasən Müaviyə oğlu Yezidə belə vəsiyyət etmişdir: "Oğlum! Hicaz xalqını qoru, çünki sənin əslin və soyun onlardandır. Onlardan sənin yanına gələnləri hörmətlə qarşılayıb yanında otuzdur. Bunlarla bərabər İraq xalqını da qoru. Əgər onlar bir valinin işdən çıxarılmasını istəsələr dərhal həmin valini vəzifəsindən kənarlaşdır. Çünki bir valinin işdən çıxarılması, sənə qarşı yüz min qılıncın çəkilməsindən daha yaxşıdır.

Müsibətin kimin başına gələcəyi bilinməz. Suriya xalqını da qoruyaraq onları özünə sirdaş et. Hər hansı bir təhlükə hiss etdikdə onu Şamlıların vasitəsilə özündən uzaqlaşdır. Vəzifələri başa çatınca onları öz yerlərinə göndər, başqa yerlərdə yaşamasınlar, yoxsa əxlaqları dəyişər. Sənə qarşı çıxan üç kişidən qorxuram. Bunlar: Hüseyn ibn Əli, Abdullah ibn Zübeyr və Abdullah ibn Ömərdir. Hüseyn ibn Əli haqqında Allah sənə kafi gələcəkdir. Abdullah ibn Zübeyrə gə-

---

[217]Şəhristani, Əl-Miləl vən-Nihəl, I cild, səh-114-138; Tarixi ibn Əsir, III cild, səh-326-329.
[218]Tarixi Yəqubi, II cild, səh-252.
[219]Tarixi-Məsudi, III cild, səh-67.

lincə o, hiyləgər bir tülküdür, əlinə keçsə aman vermədən öldür. Abdullah ibn Ömərə gəlincə, onu axirəti ilə baş-başa buraxsan o da səni sərbəst buraxar."[220]

Xilafəti ələ keçirdikdən sonra Yezidin görəcəyi əsas işlərdən biri xalq arasında nüfuza malik olub onunla beyət etməyənlərin əlindən yaxa qurtarmaq idi. Bunlar Qureyşdən olan aşağıdakı şəxslər idi: Abdullah ibn Ömər, Abdullah ibn Zübeyr və Hz.Hüseyn ibn Əli *(ə)* idi. Abdullah ibn Ömər inqilabçı şəxs deyildi. Abdullah ibn Zübeyr isə cəsarətli və tədbirli idi, xəlifə olmaq eşqi ilə yaşasa da əsil-nəsəb və ictimai mövqe baxımından ətrafına adam toplaya bilməmişdi. Yezidin yeganə qorxduğu şəxs Mədinədə yaşayan Hüseyn ibn Əli *(ə)* idi. Hz.Hüseyn həm Peyğəmbər *(s)* qızının, həm də Hz.Əlinin *(ə)* oğlu idi. Bütün bunları nəzərə alan Yezid Mədinə valisi əmisi oğlu Vəlid ibn Utbəyə yazır ki, Hüseyndən beyət almayınca ondan əl çəkməsin və əgər beyət etməsə başını kəsib Şama göndərsin. Çıxılmaz vəziyyətdə qalan Vəlid öz müşaviri Mərvan ibn Həkəmlə məsləhətləşmək istədikdə Mərvan dedi: "Nə qədər ki, camaat Müaviyənin ölümündən xəbər tutmayıb, Abdullah ibn Zübeyri və Hüseyn ibn Əlini çağırıb hər ikisindən beyət al, əgər beyət etməsələr onları öldür! Yezidin fərmanından xəbər tutan Abdullah ibn Zübeyr gecə ikən Mədinədən Məkkəyə qaçdı.

Mədinə valisi Vəlidin yanına gələn Hz.Hüseyn *(ə)* də Yezidə beyət etməyəcəyini bildirərək məclisi tərk etdi. Məclisdən çıxdıqdan sonra İmam *(ə)* da Məkkəyə səfər etmək üçün hazırlıq gördü. Hz.Hüseynlə *(ə)* Abdullahın Məkkəyə gəlişi ilə bu şəhər Yezidin əleyhinə olan bir mərkəzə çevrildi.

Hz.Hüseynin *(ə)* Yezidə beyət etməyərək Məkkəyə getdiyini öyrənən Kufə xalqı Süleyman ibn Suradın evində toplanaraq İmama *(ə)* məktub yazıb onu Kufəyə dəvət etdilər. Məktub yazanlar İslam ayinlərinin və şəriət hökmlərinin dəyişdirilməsinə təəssüf hissi keçirdiklərini yazmaqla yanaşı, yazırdılar ki, biz Yezidi xəlifə saymırıq, yalnız səni imam olaraq qəbul edirik və Yezid tərəfindən Kufəyə hakim təyin olunan Nöman ibn Bişri hakim olaraq qəbul etmir və onun arxasında namaz qılmırıq. Kufədə yüz min nəfər sənə kömək etməyə hazırdır. Əgər onların dəvətini qəbul etməyib dini himayə etmək üçün ayağa qalxmasan, Allah yanında cavabdeh olacaqsan." İmam *(ə)* məktubda yazılanların həqiqət olduğunu öyrənmək üçün əmisi oğlu Müslim ibn Əqili Kufəyə göndərdi.

Müslim ibn Əqilin Kufəyə gəldiyini öyrənən Kufə əhlindən 18000 nəfər İmamın *(ə)* adından Müslimə beyət etdi. Beyətdən sonra Müslim ibn Əqil İmama *(ə)* məktub yazaraq onun Kufəyə gəlməsini məsləhət bildi. Digər tərəfdən də Kufədə baş verənlərdən xəbər tutan Yezid rumlu müşaviri Sərcunla məşvərət edərək Nöman ibn Bişrin yerinə Ubeydullah ibn Ziyadı Kufə valisi təyin etdi.

Hz.Hüseynin *(ə)* İraqa yola düşməsi

Müslim ibn Əqilin məktubu İmama *(ə)* çatdıqdan sonra öz ailəsi və yaxın adamları ilə birlikdə İraqa tərəf yollandı. Digər tərəfdən də Yezidin göstərişinə

[220]İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, VIII cild, səh-115-118; Tarixi-Təbəri, III cild, səh-263-269; Siyuti, Tarixul-xüləfa, səh-194-205.

əsasən Kufəyə gələn Ubeydullah ibn Ziyad qorxu və rüşvət gücünə əhalini, bacarıqlı şəxsləri ələ aldı və onların vasitəsilə başqalarını susdurdu. Qısa müddət ərzində casuslar vasitəsilə Müslimin yerini öyrənən Ubeydullah onu və ona sığınacaq verən Hani ibn Urvəni edam etdirdi.[221]

İmam Hüseyn *(ə)* yolda olarkən Müslimin ölüm xəbərini və Kufə xalqının vəfasızlığını eşitdikdə bu xəbəri yanındakılara da çatdırdı. Onları özü ilə gedib getməməkdə sərbəst buraxdı. Bəzilərinin onu tərk etməsinə baxmayaraq, yaxın qohum-əqrəbası ilə bir neçə imanlı şəxslər onunla qaldılar.[222]

İmam Kufəyə yaxınlaşan zaman Ubeydullahın keşikçi dəstəsi ilə rastlaşdı. Bu dəstəyə Hürr ibn Yezid Riyahi başçılıq edirdi. İmam Hüseyn *(ə)* məcbur olaraq Kərbəla düzündə xeymələr quraraq əhli-əyalını burada yerləşdirdi. Bundan xəbər tutan Ubeydullah Ömər ibn Sədin başçılığı altında olan böyük bir ordunu Kərbəlaya göndərdi. Ubeydullahın Yezidə beyət təklifini qəbul etməyən Hz.Hüseyn *(ə)* döyüşə hazırlaşdı.

Hicrətin 61-ci ili məhərrəm ayının 10-da (miladi 661) baş verən döyüşdə İmam Hüseyn *(ə)* və onunla birlikdə olanlar susuz halda şəhid edildilər. Başda Zeynul-Abidin *(ə)* olmaqla Əhli-Beyt əsirləri əvvəlcə Kufəyə İbn Ziyadın hüzuruna, oradan da Şama məlun Yezid ibn Müaviyənin hüzuruna aparıldılar.

Həmin gün Əhli-Beytdən ilk şəhid olan, Hz.Hüseynin *(ə)* böyük oğlu Əli Əkbər olmuşdur. O, qəhrəmanlıqla vuruşaraq şəhid olmuşdur. Sonra Hz.Hüseynin *(ə)* digər oğlu Abdullah, Hz.Həsənin *(ə)* Əbu Bəkr və Qasim adlı oğlanları, Hz.Əlinin *(ə)* Ümmül-Bənin adlı xanımdan doğulmuş Abbas, Cəfər, Abdullah, Osmanla yanaşı digər xanımlardan doğulmuş Məhəmməd və Əbu Bəkr adlı oğlanları, Abdulah ibn Cəfər ibn Əbu Talibin iki oğlu Ovn və Məhəmməd, Əqil ibn Əbu Talibin Cəfər, Əbdürrəhman, Abddullah, Abdullah ibn Müslim və digərləri qəhrəmanlıqla vuruşaraq şəhid oldular.[223]

Məkkə və Mədinədə üsyanlar

Bu acınacaqlı faciə İslam dünyasında narazılığa səbəb oldu. Bu vaxt Məkkədə yaşayan Abdullah ibn Zübeyr fürsətdən istifadə edib Kərbəla faciəsini əldə əsas tutub Yezidi və onun tərəfdarlarını lənətlədi. Kufə əhlini xəyanətkar, əhdi-peymanı pozan adlandırıb camaatın onunla beyət etməsini istədi. Ubeydullah ibn Ziyadın sərt rəftarına baxmayaraq Kufə əhli də öz narazılığını bildirdi. Ubeydullah minbərdə Yezidi və onun nəslini tərif edib Hz.Hüseynə *(ə)* və atalarına nalayiq sözlər deyəndə Əzd qövmündən təqvalı, eyni zamanda kor

---

[221]Tarixi-Məsudi, III cild, səh-66-69; Tarixi-Təbəri, III cild, səh-274-275.

[222]Tarixi ibn Əsir, IV cild, səh-14-42; Xudari Dövləti-Əməviyyə, II cild, səh-124-127.

[223]Ətraflı məlumat üçün bax: İbn Tavus, Kitabul-məlfuh ala qatlət-tufuf; Əbu Mihnəf, Məqtəlul-Huseyn və Masrau əhli-beytihi və Ashabihi fi Kərbəla, səh-20-21,74-80, 84-88-89; Şeyx Müfid, əl-İrşad fi Mərifəti Hucəcillahi alәl-İbad, (Muəssəsətu Əhli-Beyt), II cild, səh-67-68, 96-101, Beyrut 1993; İbn Şəhr Aşub, Mənaqibu Ali Əbu Talib, IV cild, səh-97-110, Beyrut 1985.

olan Abdullah ibn Əfif ayağa qalxıb onun sözünü kəsib, Hz.Peyğəmbərin *(s)* ailəsinə verdiyi söyüşləri onun özünə qaytardı.

Abdullah ibn Zübeyrin özünü Məkkədə xəlifə elan etməsindən cürətlənən Nəcdə ibn Amir ən-Nəhai də Yəmamədə Əməvilərə qarşı üsyan edərək idarəni ələ keçirdi.

Hicazda baş verən hadisələri sakitləşdirmək istəyən Yezid ibn Müaviyə əmisi oğlanlarından olan Osman ibn Məhəmməd ibn Əbu Süfyanı bu məntəqəyə vali təyin etdi. Yeni vali Mədinədən bir qrupu Yezidi tanımaq üçün Şama göndərdi. Bu dəstəyə Uhud döyüşündə şəhid olmuş və "mələklər tərəfindən yuyulmuş Hənzələnin" (Qəsaisul-məlaikə) oğlu Abdullah başçılıq edirdi.

Yezid Mədinədən gəlmiş nümayəndələrə hörmət göstərib onlara saysız-hesabsız hədiyyələr bağışladı. Hətta onlardan birinə Munzər ibn Zubeyrə yüz min dirhəm verdi. Lakin onun ləyaqətsizliyi və alçaq tərbiyəsi Mədinə əhlinə gizlin qalmadı. Onlar geri qayıtdıqdan sonra Peyğəmbər məscidində fəryad edərək Yezidin haqqında yaramaz sözlər danışmağa başladılar. Onlar "biz dini olmayan, şərab içən, it oynadan, gecələri kənizlər və musiqiçilərlə keçirən bir şəxsin yanından gəlirik" dedilər. Bu söhbətdən sonra şəhər əhli Abdullah ibn Hənzələyə beyət edərək üsyan etdi. Bundan xəbər tutan Yezid Nöman ibn Bişri üsyanı yatırmaq üçün Mədinəyə göndərsə də bir nəticəsi olmadı. Beləliklə İslam dünyasının iki müqəddəs şəhəri Məkkə və Mədinə Yezidə qarşı üsyan bayrağını qaldırdı.[224]

Hərrə faciəsi

Kərbəla faciəsinin ardınca xəlifə Yezidin əxlaqsızlığından xəbər tutan Mədinəlilər Abdullah ibn Hənzələyə beyət edərək Bəni Umeyyədən olan min nəfəri ilk olaraq Mərvan ibn Həkəmin evində mühasirəyə aldılar. Bu çətin günlərdə Mərvan ibn Həkəm ailəsini Abdullah ibn Ömərin yanına qoymaq istəsə də Abdullah bunu qəbul etmədi. Abdullahın himayəsindən məyus olan Mərvan Hz.Zeynul-Abidinin *(ə)* yanına gedib dedi ki, mənim də ailəm sənin ailənlə birlikdə olsun. Hz.Zeynul-Abidin *(ə)* onun xahişini özünəməxsus bir böyüklüklə qəbul edib Mərvanın yaxın adamlarını özünün xanımı və övladı ilə birgə Yənbu adlı bir yerə göndərdi. Mərvan daim bu yaxşılıqdan razılıq edirdi.

Mədinədə baş verənlərdən xəbər tutan xəlifə Yezid Müslim ibn Əqəbəni on iki min nəfərlik dəstə ilə Mədinəyə göndərərək belə bir tapşırıq verdi: "Mədinə əhlini üç gün beyətə çağır, qəbul etməsələr axıra qədər döyüş və şəhəri üç gün talan etdir, ələ keçənlər sənin və əsgərlərinin olsun." Müslim ibn Əqəbə Mədinəyə "Hərrə" qapısından daxil olduğu üçün bu hadisə İslam tarixində Hərrə faciəsi adlanır.

Müslim ibn Əqəbə Mədinəyə hücum edib Hz. Peyğəmbərin (s) hərəmini öz qoşununun ixtiyarına qoydu. Onlar qız-gəlinlərin namusuna təcavüz etdilər. Bu əməl nəticəsində on minlərlə uşaq dünyaya gəlmişdir. Miladi tarixilə 682-ci

[224]Tarixi Təbəri, III cild, səh-349-351.

ildə baş verən bu faciədə doğulan uşaqlara İslam tarixində "Bəni Hərrə əhli" deyilir. Müsəlmanların var-dövlətləri qarət edildi, çoxlu günahsız insanın qanı isə Hz. Peyğəmbərin (s) pak qəbrinin kənarında nahaq yerə axıdıldı.[225]

Məkkənin mühasirəsi hicri 64 (miladi 683)

Mədinədə baş verən faciə Məkkəyə çatınca əhali xəlifə Yezidə öz etirazını bildirib üsyan etdi. Məkkədə baş verən üsyanı yatırmaq istəyən Yezid göstəriş verdi ki, Müslim ibn Əqəbə Mədinədən çıxaraq Məkkəyə doğru hərəkət etsin. Mədinə faciəsi sona çatdıqdan sonra Müslim dedi: "İlahi, Sənin təkliyinə və Muhəmmədin *(s)* peyğəmbərliyinə verdiyim şəhadətdən sonra Mədinə əhalisinin qırğınına səbəb olan işdən başqa heç bir işi sevmirəm və qiyamətdə bu işin müqabilində veriləcək əvəzdən başqa heç bir işin savabına göz dikməmişəm." Müslim, Yezidə göstərdiyi xidmətə görə tarixdə "müsrif" (qantökən) ləqəbini almışdır.[226] Yezidin əmri ilə Mədinədən Məkkəyə yola düşən Müslim ibn Əqəbə yarıyolda cəhənnəmə vasil oldu və onu digər sərkərdə Husayn ibn Numeyr əvəz etdi.[227] O həmçinin Kərbəla faciəsində İmam Hüseynin *(ə)* şəhid edilməsində yaxından iştirak etmişdir.

683-cü ildə Məkkəyə daxil olan Husayn ibn Numeyr güclü müqavimətə rast gəldi. Məkkə hakimi olan Abdullah ibn Zübeyr şəhəri yaxşı müdafiə etdiyi üçün Məkkənin mühasirəsi bir aya yaxın davam etmişdir. Bu mühasirə nəticəsində Kəbədə daxil olmaqla Məkkənin yarısı yandırıldı. Mühasirənin sonuna yaxın xəlifə Yezidin ölümü ilə əlaqədar olaraq Husayın döyüşü dayandırıb Abdullah ibn Zübeyrə xəbər göndərdi ki, onun beyətini qəbul etməyə razıdır. Ancaq Abdullah onunla birlikdə Məkkədən çıxıb Şama getməlidir. Əgər hakimiyyəti möhkəmlənsə onunla işim yoxdur, yox əgər belə olmazsa elə oradaca Şam əhlinin köməyi ilə onun işini bitirəcək. Abdullah ibn Zübeyr bu şərtləri qəbul etmədiyi üçün Husaynın qoşunu Mədinədə yaşayan Əməvilərlə birlikdə Şama qayıtdı.[228]

Yezidin xilafəti dövründə Türkistan valisi Salim ibn Ziyad fəthlərini davam etdirərək Buxara ilə Xarəzmi Əməvi torpaqlarına qatmışdır.

Yezid ibn Müaviyə üç il altı ay xəlifə olduqdan sonra hicrətin 63-cü ili (və ya 64) rəbiül-əvvəl ayının 14-də, miladi tarixilə 683-cü ildə Şamda cəhənnəmə vasil olmuşdur.[229]

İmam Hüseyn (ə)

İmam Hüseyn *(ə)* hicrətin dördüncü ili şəban ayının 3-də cümə axşamı Mədinədə anadan olmuşdur. Məşhur islam alimi Şeyx Tusi belə rəvayət edir:

---

[225]Tarixi Təbəri, VII cild, səh-6, III cild, səh-352-359; Sibt ibn Cövzi, Təzkirətul-xəvass, səh-163; Tarixi ibn Əsir, IV cild, səh-102-103; Siyuti, Tarixul-xüləfa, səh-209.
[226]Bəlazuri, Ənsabul-əşraf, səh-30-46.
[227]Tarixi Təbəri, III cild, səh-360-361.
[228]Tarixi Təbəri, III cild, səh-361-362; Tarixi Məsudi, III cild, səh-78-81; Tarixi Yəqubi, II cild, səh-250-253.
[229]Tarixi Təbəri, III cild, səh-362.

“İmam Həsən Əskəridən *(ə)* onun vəkili Qasim ibn Əla Həmdaniyə məktub yetişdi. Orada yazılmışdı: “İmam Hüseyn *(ə)* cümə axşamı şəban ayının üçündə anadan olub. Sən həmin gün oruc tutub bu duanı oxu: “Əllahumə inni əs-əlukə bihəqqil məvludi fi hazəl yəvm” (İlahi səni bu gündə doğulmuş körpəyə and verirəm).

Şeyx Tusi və digər alimlər mötəbər sənədlərlə İmam Rzadan *(ə)* nəql ediblər ki, İmam Hüseyn *(ə)* dünyaya gələndən sonra Hz.Peyğəmbər *(s)* Əsma binti Umeysə buyurdu: “Ey Əsma, oğlumu mənim yanıma gətir.” Əsma deyir: Mən o Həzrəti ağ parçaya büküb Hz.Peyğəmbərin yanına apardım. Həzrət onu qucağına alıb sağ qulağına “azan”, sol qulağına isə “iqamə” oxudu. Elə bu vaxt Allah qatından nazil olan Hz.Cəbrail *(ə)* belə buyurdu: “Ya Peyğəmbər, Allah sənə salam göndərib və buyurur ki, Əlinin *(ə)* nisbəti sənə Harunun Musaya olan nisbəti kimidir. Buna görə də sən bu körpəni Harunun kiçik oğlunun adı ilə adlandır. Onun adı Şübeyrdir, amma sənin dilin ərəb dili olduğu üçün sən onu Hüseyn adlandır.” Hz.Peyğəmbər *(s)* uşağı öpüb ağladı və dedi: “Hüseyn, səni qabaqda böyük müsibət gözləyir. İlahi, onu öldürənlərə lənət elə.” Sonra Həzrət mənə dedi: “Əsma, bunu qızım Fatiməyı demə”. Elə ki, yeddinci gün oldu, Hz.Peyğəmbər *(s)* dedi: “Oğlumu mənim yanıma gətir.” Mən İmam Hüseyni *(ə)* qundaqda o Həzrətin yanına apardım. Hz.Peyğəmbər *(s)* İmamın qundağını qucağına aldıqdan sonra buyurdu: “Ey Əbu Abdullah, sənin öldürülməyin mənə nə qədər ağırdır. Həzrət bu sözləri dedikdən sonra ağlamağa başladı.” Əsma dedi: “Ey Allahın rəsulu, bu nə xəbərdir? Birinci gündə bunu dediniz, bu gün də deyir və ağlayırsınız? Hz.Peyğəmbər *(s)* buyurdu: “Bu əziz balam üçün ağlayıram ki, Bəni Ümeyyədən olan bir dəstə kafir və zülmkar onu öldürəcəklər. Allah etdiyi əməllərinə görə mənim şəfaətimi onlara nəsib etməsin. Onu dini məhv etmək istəyən bir adam öldürəcək və kafir olacaq. İlahi, Hz.İbrahimin *(ə)* səndən öz uşaqları üçün istədiyi şeyi (imamlığı) mən də səndən bu iki oğlum (Həsən və Hüseyn) üçün istəyirəm. İlahi, sən bu iki balamı və onları sevənləri sev. İlahi, hər kəs onlara düşmən olsa, ona yer-göy dolana qədər lənət elə.”

İbn Şəhr Aşub rəvayət edib: İmam Hüseyn *(ə)* dünyaya gələndə Hz.Fati-mə (s.ə) xəstələndi və südü qurudu. Hz.Peyğəmbər *(s)* dayə axtardı tapılmadı. Həzrət özü Fatimənin otağına gəlib baş barmağını İmamın ağzına qoydu. İmam Hüseyndə *(ə)* o Həzrətin barmağını sovuraraq qidalandı.

Müəzzinin “Ərbəin”, Xətib Bağdadinin “Tarixi-Bağdadi” kitabında və digər kitablarda Cabir ibn Abdullahdan nəql olunub ki, Hz.Peyğəmbər *(s)* buyurub: “Allah hər bir peyğəmbərin övladını onun öz belindən dünyaya gətirib, amma mənim övladlarımı Əlinin *(ə)* belindən dünyaya gətirib. Hər bir ananın uşaqlarını onların atalarına nisbət verərlər. Yalnız Fatimənin övladları müstəsnadır və mən onların atasıyam.”

Hz.Əli *(ə)* Siffeyn döyüşündə Həsən *(ə)* Müaviyə ilə döyüşə can atanda buyurdu: "Həsənin qarşısını alın, qoymayın döyüş meydanına getsin. Çünki mən qorxuram ki, Həsən və Hüseyn öldürülsün və Hz.Peyğəmbərin *(s)* nəsli kəsilsin."[230]

Bəzi əhli-sünnə alimlərinin kitablarında rəvayət olunub ki, Hz.Peyğəmbər *(s)* Həsən və Hüseynin əllərindən tutub səhabələrin toplaşdığı bir yerdə dedi: "Ey camaat, bu iki nəfəri və onların ata-anasını özünə dost tutan adam qiyamət günündə mənimlə cənnətdə olacaq."[231]

İbn Şəhr Aşub Salman Farisidən belə nəql edib: "İmam Hüseyn *(ə)* Hz. Peyğəmbərin *(s)* dizi üstündə oturmuşdu. Həzrət onu öpüb deyirdi: "Sən ağa oğlu ağasan. Ağaların atasısan. Sən İmam oğlu İmamsan və imamların atasısan. Sən Hüccət oğlu Hüccət və Allahın Hüccətlərinin atasısan. Sənin belindən doqquz İmam dünyaya gələcək və onların doqquzuncusu Ali Muhəmmədin Qaimidir."

İmam Hüseynin *(ə)* şəhadəti haqqında hədislər

Şeyx Cəfər ibn Qövliveyh Salman Farisidən rəvayət edir: "Asimanda elə bir mələk qalmadı ki, İmam Hüseynin *(ə)* müsibəti üçün Hz.Peyğəmbərə *(s)* baş sağlığı verməsin. Mələklər o Həzrətə İmam Hüseynin *(ə)* şəhadəti ilə əlaqədar Allahın ona əta etdiyi savabdan xəbər verdilər. Hər bir mələk Həzrətin *(s)* hüzuruna gələndə İmam Hüseynin üzərində zülm və sitəmlə öldürüləcəyi torpaqdan onun üçün gətirirdi. Hər kəs gələndə Peyğəmbər *(s)* buyururdu: "İlahi, Hüseyni xar edəni xar et. Hər kəs Hüseynə kömək etməsə, Allah ona kömək etməsin. İlahi, onu öldürəni öldür. Hər kəs onun başını kəssə onun başını kəs. İlahi, onları arzularına çatdırma."

Digər bir rəvayətdə İmam Sadiqdən *(ə)* nəql edilir ki, İmam Sadiq *(ə)* buyurdu: "Bir gün İmam Hüseyn *(ə)* Hz.Peyğəmbərin *(s)* qucağında oturmuşdu. Həzrət onunla oynayıb onu güldürürdü. Aişə dedi: "Ya Peyğəmbər, bu uşağı nə çox istəyirsən?!" Həzrət buyurdu: "Vay olsun sənə! Necədə mən onu istəməyim və ondan xoşum gəlməsin? Halbuki bu balamı mənim ümmətim öldürəcək. Hər kəs onun şəhadətindən sonra onu ziyarət etsə Allah onun üçün mənim həccim kimi bir həcc yazar." Aişə təəccüblənərək soruşdu: "Sənin həccin kimi bir həcc?". Hz.Peyğəmbər *(s)* buyurdu: "Hətta iki həcc." Aişə yenə təəccüblə dedi: "İki həcc?" Hz.Peyğəmbər *(s)* buyurdu: "Hətta dörd həcc." Aişə hey təəccüb edir, Hz.Peyğəmbər *(s)* də həccin sayını artırırdı. Axırda bu yerə yetişdi ki, Hz.Peyğəmbər *(s)* buyurdu: "Mənim həccim kimi 90 həcc və hər bir həcc ilə ümrə də yazacaq."

Digər bir hədisdə isə İmam Sadiqdən *(ə)* belə nəql edilir: "Cəbrail *(ə)* Muhəmmədə *(s)* nazil olub dedi: ey Muhəmməd! Allah səni Fatimənin *(ə)* dünyaya gətirəcəyi bir oğlan övladı ilə müjdələyir, amma ümmətin səndən sonra onu öldürəcəklər. Peyğəmbər *(s)* dedi: ey Cəbrail! Rəbbimə salam de və Fatimənin *(ə)*

---

[230]Vəqətu-Siffeyn, səh-113; İbn Əbil Hədid, Nəhcül-bəlağnin şərhi, XI cild, səh-25, xütbə 200.
[231]Tirmizi, "Mənaqib" 21.

belə dünyaya gətirəcəyi və məndən sonra ümmətimin öldürəcəyi uşağa ehtiyacım yoxdur. Cəbrail *(ə)* qalxdı və bir azdan nazil olaraq həmin xəbəri təkrar etdi. Peyğəmbər *(s)* bayaq dediyi cavabı təkrarladı. Cəbrail *(ə)* bu dəfə də qalxıb bir azdan yenidən gəldi və dedi: ya Muhəmməd! Rəbbin sənə salam deyir və salamdan sonra belə müjdələyir: O uşaq sənin zürriyyətin içərisində İmam, Vəli və Vəsi olacaqdır. Peyğəmbər *(s)* buyurdu: indi razı oldum. Sonra O, Fatimənin *(ə)* evinə sifariş yollayıb ona dedi: Allah məni dünyaya gətirəcəyin bir oğlanla müjdələdi. Amma məndən sonra onu ümmətim öldürəcəkdir. Fatimə *(ə)* Peyğəmbərə *(s)* sifariş yollayaraq dedi: mənim dünyaya gətirəcəyim və səndən sonra öldürüləcək belə uşağa ehtiyacım yoxdur! Peyğəmbər *(s)* ona sifariş yollayıb dedi: Allah onu İmam, Vəli və Vəsi edəcəkdir. Bundan sonra Fatimə *(ə)* buna razı oldu. Bununla əlaqədar olaraq Allah bu ayəni nazil etdi: **"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun daşınma və süddən kəsilmə müddəti otuz aydır. Nəhayət kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Pərvərdigara! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükr etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməli saleh et. Mən sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam."**[232]

İmam *(ə)* buyurdu: Onun, "mənim zürriyyətimi də salehlərdən et" deməsi, zürriyyətinin hamısının imam olmasına səbəb oldu. Hüseyni *(ə)* nə Fatimə *(ə)* nə də digər qadınlardan heç kimsə əmizdirməmişdir. Peyğəmbər *(s)* gəlib şəhadət barmağını onun boğazına salmış və Hüseyn *(ə)* üç gün ondan qidalanmışdır. Beləliklə də Hüseynin *(ə)* əti-qanı Peyğəmbərin *(s)* əti-qanından əmələ gəlmişdir. O, altı aylıq doğulmuşdur."[233]

Digər bir hədisdə deyilir: "Hüseyn ibn Əli *(ə)* doğulan zaman onu Peyğəmbərin *(s)* yanına gətirdilər. Həzrət dilini onun ağzına saldı. Hüseyn *(ə)* onun dilini qəbul edib ondan qidalandı. Səfiyyə deyir: mən elə güman etdim ki, Peyğəmbər *(s)* ona bal və yaxud da süd yedizdirdi. Hüseyn *(ə)* onun üstünü sidiklə batırdı. Peyğəmbər *(s)* onun alnından öpdü, sonra da mənə qaytardı. Bu zaman o, ağladı və dedi: Allah sənin qatillərinə lənət etsin ay oğlum! O, bunu üç dəfə təkrar etdi. Dedim: Atam-anam sənə qurban ey Allahın Rəsulu! Onu kim qətlə yetirəcək? Həzrət buyurdu: onu Bəni Ümməyyədən olan azğınlar qətlə yetirəcəklər. Allah onlara lənət etsin!"[234]

İbn Abbasdan belə bir rəvayət nəql edilir: "Hüseyn ibn Əli *(ə)* cümə günü doğulduqda Allah Cəhənnəmin gözətçisinə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulmasına görə Cəhənnəmin odunu orada olanlara qarşı yüngülləşdir. Sonra Cənnətin gözətçisi Rizvana vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulması

---

[232] əl-Əhqaf-15.

[233] Şeyx Kuleyni, Üsuli-Kafi, I cild, səh-280-281, hədis-1264; Əllamə Hairi, Dairətul-Məarif, VIII cild, səh-244-245-246.

[234] Əllamə Hairi, Dairətul-Məarif, VIII cild, səh-247-248.

hörmətinə cənnətlər bəzədilsin. Sonra Hurilərə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulması hörmətinə bəzənsinlər və bir-birlərini ziyarət etsinlər. Sonra mələklərə vəhy etdi ki, Muhəmmədin *(s)* oğlunun doğulması hörmətinə səf-səf durub Allaha təsbih və təkbir desinlər. Sonra Cəbrailə *(ə)* vəhy etdi ki, hər dəstədə Ruhanilər adlanan və nur saçan min mələk olmaqla min dəstə ilə Peyğəmbərə *(s)* müxtəlif rəngli zinət əşyaları və yaqutla ensin və onu təbrik edib göz aydınlığı versinlər. Sonra ona xəbər ver ki, uşağın adını Hüseyn *(ə)* qoydum. Onu ümmətinin ən pis adamları öldürəcəklər. Vay olsun onun qatilinə, bu işə sövq edənə və bu işə rəhbərlik edənə! Mən ondan o da məndən uzaqdır. Qiyamət günü Hüseynin *(ə)* qatilindən daha ağır günahlı bir şəxs məhşərə gəlməyəcək. Hüseynin *(ə)* qatili Allahdan başqa Allah olduğunu iddia edənlərlə birlikdə Qiyamət günü Cəhənnəmə daxil olacaqdır. Cənnət Allaha itaət edənlərin həsrətində olduğu kimi Cəhənnəm də Hüseynin *(ə)* qatilinin həsrətindədir."[235]

Digər bir hədisdə isə deyilir: "Cəbrail *(ə)* Peyğəmbərə *(s)* nazil olub dedi: sənin nəvən Hüseyn *(ə)* bir qrup insanlar tərəfindən zürriyyətin və əhli-beytindən olan şəxslərlə birlikdə Fəratın sahilində Kərbəla adlı yerdə qətlə yetiriləcəkdir. Allah onların ruhlarını öz əli ilə alacaqdır. Göyün yeddinci təbəqəsindən əllərində həyat suyu ilə dolu olan yaqut və zümrüd qablarda mələklər enəcəklər. Cənnət suyu və Cənnət ətiri ilə qarışdırılmış bu sularla onların cəsədlərini yuyacaq, onlara Cənnətdən gətirilmiş parça geydirəcək və o ətirlə onlara hənut sürtəcəklər. Sonra mələklər səf-səf dayanıb onlara namaz qılacaqlar."[236]

Məşhur əhli-sünnət alimi Əhməd ibn Hənbəl rəvayət edir: "Əli *(ə)* Siffeyn döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər: bura Neynəvadır. Əli *(ə)* dedi: səbr et ey Əba Əbdillah! Səbr et ey Əba Əbdillah! Ona dedilər: nə baş verir? O, dedi: bir gün Peyğəmbərin *(s)* yanına daxil oldum və onu gözü yaşlı gördüm. Dedim səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir ya Rəsulallah? Dedi: Cəbrail *(ə)* mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni *(ə)* Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi? Dedim: bəli. O, əlini uzadıb o torpaqdan götürdü mənə verdi. Buna görə gözlərim yaşarıb."[237]

Bu və ya buna bənzər bir çox hədisi-şəriflərdən bəlli olur ki, Kərbəla hadisəsinin baş verməsi qabaqcadan Allah tərəfindən peyğəmbərə *(s)* xəbər verilmişdir. Deməli bu hadisənin törədilməsi əzəldən ilahi elmdə təsbit olunmuş və Allah əhatəli elmi ilə bunu əvvəlcədən bilmişdir. Necə ki, Quran buyurur: ***"O, bütün yaradılmışların keçmişini və gələcəyini bilir. Onun elmi göyləri və yeri əhatə etmişdir."***[238] Amma bu hədislərin mənası o demək deyildir ki, Kərbəla hadisəsi Allah tərəfindən yazılmış və ondan qaçmaq heç cürə mümkün deyildir. Təəssüf-

---

[235]Şeyx Səduq, Kəmaluddin və Təmamun-Nimət, səh-165.
[236]əl-Qumi, Nəfsul-Məhmum, səh-206.
[237]Müsnədi-Əhməd, I cild, səh-86, hədis-648.
[238] Bəqərə-255.

lər olsun ki, bu növdən olan hədislər bəzi insanların təfəkküründə çaşqınlıq yaratmış və nəticədə onlar əzəli ilahi elmlə cəbəriyyə əqidəsini bir-birinə qarışdırmışlar. Çünki cəbəriyyə əqidəsinə görə insan ixtiyar sahibi deyil, o nə edirsə, ilahi yazı əsasında edir. Hətta insanın günah etməsini Allah tərəfindən olduğunu iddia edən cəbərilər Kərbəla hadisəsində Yezidin bu işi özbaşına deyil, ilahi təqdir əsasında etdiyini deyirlər. Bu əqidə isə əlbəttə ki, həqiqi islam əqidəsi deyil və ola da bilməz. Çünki hər şey bu əqidə sahiblərinin dedikləri kimi olsaydı, onda Allahın bu qədər peyğəmbərlər və kitablar göndərib insanları pis yoldan çəkindirib doğru yola çağırmasının nə mənası olardı?! Əgər onların əqidəsi doğru olsaydı, onda bütün günahların hamısı qanuniləşmiş olardı və bununla da günahkarlar üçün nəzərdə tutulmuş ilahi əzab öz əhəmiyyətini itirərdi. Necə ki, Yezid və onun tərəfdarları bu əqidəni dəstəkləməklə özlərini "təmizə" çıxardırdılar. Halbuki Qurani-Kərim buyurur: ***"Kim zərrə qədər yaxşı iş görsə, onun xeyrini görəcəkdir. Kim zərrə qədər pis iş görsə, onun zərərini görəcəkdir."***[239] Deməli Yezid ibn Müaviyə İmam Hüseyni *(ə)* öldürməklə özünü əbədi ilahi əzaba düçar etmişdir. Peyğəmbər *(s)* buyurur: "Cənnət mənim əhli-beytimə zülm edənə və ailəmə əziyyət edənə haram olmuşdur. Hər kəs Əbdülmüttəlib övladlarından birinə yaxşılıq etsə, amma mükafatlanmasa, Qiyamət günü mən Rəbbimlə görüşəndə onu mükafatlandıracağam."[240]

İmam Hüseynin *(ə)* Mədinədən Məkkəyə gəlməsi

Şiə və sünni alimlərinin kitablarında bu dəhşətli hadisə müxtəlif şəkillərdə qeyd olunmuşdur. İmam Həsənin *(ə)* şəhadətindən sonra hərəkətə gələn İraqdakı şiələr İmam Hüseynə *(ə)* məktub yazaraq ona bildirdilər ki, biz Müaviyə ibn Əbu Süfyanı xilafətdən kənar edib sənə beyət edirik. Lakin İmam Hüseyn *(ə)* bunun məsləhətə uyğun olmadığını görüb onları Müaviyənin xilafətinin başa çatmasına qədər səbr etməyə dəvət etdi.

Nəhayət hicrətin 60-cı ili rəcəb ayının 15-də (miladi 680) Müaviyə ibn Əbu Süfyan vəfat etdi və onun vəsiyyətinə əsasən oğlu məlun Yezid xilafət işlərini idarə etməyə başladı. Tarixi məlumatlara görə Müaviyə ölümündən qabaq oğlu Yezidə belə vəsiyyət etmişdi: "Oğlum sənin hakimiyyətə gəlməyin üçün bütün hazırlıqları görmüşəm. Yalnız Mədinədə üç nəfər var ki, onlardan beyət almayınca sənin xilafətin heç vaxt möhkəm olmayacaq. Onların birincisi Hüseyn ibn Əlidir. Onunla mübarizə apar, məğlub elə, amma əzab vermə. Çünki xalq onun nəslini tanıyır. Əgər əzab versən camaat səndən üz döndərəcək. İkincisi, Abdullah ibn Zübeyrdir. Əlinə imkan düşən kimi onu aradan götür, yoxsa o səni məhv edəcək. Üçüncüsü Abdullah ibn Ömərdir. Onunla işin olmasın, o sən deyəni edəcək."[241]

---

[239] əl-Zilzal-7-8.

[240] Cərullah Zəməxşəri, əl-Kəşşaf, IV cild, səh-213.

[241] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, VIII cild, səh-115-118; Tarixi-Təbəri, III cild, səh-263-269; Tarixi-Yəqubi, II cild, səh-240.

Ümumi beyətdən sonra rəsmi olaraq Əməvi xəlifəsi təyin edilən Yezid ibn Müaviyə Mədinə valisi olan əmisi oğlu Vəlid ibn Utbə ibn Əbu Süfyana belə bir məktub yazdı: "Mənim üçün Hüseyn ibn Əlidən, Abdullah ibn Zübeyrdən, Əbdürrəhman ibn Əbu Bəkrdən və Abdullah ibn Ömərdən beyət almalısan. Hər kəs beyət etməkdən imtina etsə başını bədənindən ayırıb tezliklə mənim hüzuruma Şama göndər." Bu məktub Mədinə valisi Vəlid ibn Utbəyə çatan kimi əhlibeytin qatı düşmənlərindən olan Mərvan ibn Həkəmi çağırıb onunla məsləhətləşdi. Mərvan ibn Həkəm dedi: "Nə qədər ki, onlar Müaviyə ibn Əbu Süfyanın ölümündən xəbər tutmayıblar, onları tez yanına çağırıb Yezid üçün beyət al. Hər kəs beyət etməyi qəbul etməzsə, onu dərhal öldür."

Həmin axşam Vəlid ibn Utbə onları öz yanına çağırdı. Vəlidin dəvəti onlara yetişəndə İmam Hüseyn *(ə)* buyurdu: "Mən evə gedəndən sonra Vəlidə öz cavabımı bildirəcəyəm." Vəlidin qasidi qayıdandan sonra Abdullah ibn Zübeyr dedi: "Ya Əbu Abdullah, Vəlidin gecənin bu vaxtında bizi öz yanına çağırması məni narahat edir." İmam Hüseyn *(ə)* buyurdu: "Güman edirəm ki, Müaviyə ibn Əbu Süfyan ölüb və Vəlid bizi Yezidə beyət etmək üçün yanına çağırır." Vəlidin məqsədindən xəbərdar olan Abdullah ibn Zübeyr gecə ikən gizli yolla Mədinədən Məkkəyə qaçdı. İmam Hüseyn *(ə)* isə Əhli-beytindən və dostlarından ibarət olan otuz nəfər silahlı ilə Vəlidin yanına getdi. Vəlid Yezidin beyət alma barəsində yazdığı məktubu İmam Hüseyn *(ə)* üçün oxudu. İmam Hüseyn *(ə)* buyurdu: "Vəlid, mən güman etmirəm ki, sən mənim gizlində Yezidə beyət etməyimə razı olasan. Bəlkə sən mənim aşkar surətdə camaatın hüzurunda beyət etməyimi istəyəcəksən ki, bu işdən camaatda xəbərdar olsun." Vəlid ibn Utbə həzrətin fikrini təsdiqlədikdə İmam Hüseyn *(ə)* əlavə etdi: "Elə isə bu işi sabaha qədər təxirə sal." Bununla razılaşmayan Mərvan ibn Həkəm etiraz edərək Vəlid ibn Utbəyə dedi: "Ondan əl çəkmə. Əgər indi ondan beyət almasan, hər iki tərəfdən çoxlu qanlar tökülməyincə bir daha onu ələ keçirə bilməyəcəksən. Əgər o, Yezidə beyət etmədən buranı tərk etmək istəsə, onun boynunu vur." Mərvan ibn Həkəmin sözlərindən qəzəblənən İmam Hüseyn *(ə)* buyurdu: "And olsun Allaha ki, nə sən, nə də o, məni öldürməyə qadir deyilsiniz." Sonra üzünü Mədinə valisi Vəlid ibn Utbəyə tutan İmam Hüseyn *(ə)* belə davam etdi: "Ey əmir, Peyğəmbər Əhli-beyti və risalət mədəni bizik. Mələklər bizim evimizə gəlib gedirlər. Allah xəlq edəndə bizi hamıdan əvvəl xəlq edib və bizimlə də xətm edəcəkdir. Sizin xəlifəliyə layiq gördüyünüz və məndən beyətini tələb etdiyiniz Yezid ibn Müaviyə şərab içən və haqsız adam öldürəndir. O açıq-aşkar cürbəcür fəsad və günahları əncam verir. Mənim kimi bir adam heç vaxt ona beyət etməz."

Bu hadisə təxminən rəcəb ayının axırına üç gün qalmış çərşənbə axşamı baş verdi. Səhəri gün İmam Hüseynlə *(ə)* rastlaşan Mərvan ibn Həkəm dedi: "Ey Hüseyn, mən sənə məsləhət görürəm ki, mənə qulaq asıb beyət edəsən." İmam *(ə)* buyurdu ki, sənin məsləhətin nədir? Mərvan dedi: "Mən sənə əmr edirəm ki, Yezidə beyət edəsən. Çünki ona beyət etməyin sənin dinin və dünyan üçün yaxşıdır." İmam *(ə)* buyurdu: "İslama salam olsun o gündə ki, ümmət Yezid kimi xəlifəyə

düçar olar. Mən cəddim Peyğəmbərdən *(s)* eşitdim deyirdi: "Xilafət Əbu Süfyanın övladlarına haramdır." Həmin gün Vəlid ibn Utbə yenə də İmam Hüseynin *(ə)* yanına adam göndərərək təkid etdi ki, Yezid ibn Müaviyəyə beyət etsin. Baş verən hadisələrdən sonra İmam Hüseyn *(ə)* Məkkəyə getmək qərarına gəldi. Bu məqsədlə babası Hz.Peyğəmbərin *(s)*, anası Hz.Fatimənin (s.ə) və qardaşı Hz.Həsənin *(ə)* qəbirlərini ziyarət edib, onlarla vidalaşdıqdan sonra uşaqlarını, qardaşlarını, qardaşı uşaqlarını və Əhli-beytini götürüb Məkkəyə doğru hərəkət etdi.[242]

Qütb Ravəndinin rəvayətinə əsasən, İmam Hüseynin *(ə)* Mədinədən gedəcəyindən xəbər tutan Hz.Peyğəmbərin *(s)* zövcəsi Ümmü Sələmə onun hüzuruna gələrək belə dedi: "Oğlum, İraqa getməklə məni qəmli etmə. Çünki mən cəddin Peyğəmbərdən *(s)* eşitdim ki, deyirdi: "Oğlum Hüseyni İraq torpağında Kərbəla adlı yerdə öldürəcəklər." Bu hədisi eşidən İmam Hüseyn *(ə)* buyurdu: "And olsun Allaha, mən də bunu bilirəm, amma çarə yoxdur, gərək mən öldürüləm və Allahın buyurduğuna əməl edəm. And olsun Allaha, hansı gündə öldürüləcəyimi bilirəm və öz qatilimi yaxşı tanıyıram. İstəyirsən sənə öldürüləcək və dəfn olunacaq yerimi göstərim?"

Sonra Həzrət Kərbəlaya doğru işarə etdi və o həzrətin möcüzəsi sayəsində Kərbəla torpağı göründü. Ümmü Sələmə İmam Hüseynin *(ə)* şəhadət yerini, dəfn olunacaq yeri və xeymələrin yerini görüb ağladı. İmam Hüseyn *(ə)* buyurdu: "Əgər mən İraqa getməsəm də, məni öldürəcəklər." Ümmü Sələmə dedi: "Məndə bir az torpaq var ki, onu mənə Hz.Peyğəmbər *(s)* verib və mən onu şüşəyə tökmüşəm. İmam Hüseyn *(ə)* bu sözlərdən sonra əlini uzadıb Kərbəla torpağından bir ovuc götürüb Ümmü Sələməyə verdi və buyurdu: "Bu torpağı da cəddimin sənə verdiyi torpaqla bir yerdə saxla. Hər vaxt gördün ki, bu torpaqlar qan olublar, onda bil ki, mən Kərbəlada düşmənlər tərəfindən şəhid edilmişəm."[243]

Sonda İmam Hüseyn *(ə)* Qurani-Kərimin ***"Harada olursunuz olun, hətta uca qalalar içərisində olsanız belə, ölüm sizi haqlayacaq."[244] və De: "Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər mütləq çıxıb əbədi yatacaqları (öləcəkləri) yerlərə gedərdilər ki, Allah (bununla) sizin ürəklərinizdə olanları yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları təmizləsin. Allah ürəklərdə olanları biləndir!"***[245] ayələrinə əməl edərək Mədinədən Məkkəyə doğru hərəkət etdi.

İmam Hüseynin *(ə)* Məkkəyə daxil olması və Kufə əhlindən gələn məktublar

Şəban ayının üçündə Məkkəyə daxil olan İmam Hüseyn *(ə)* bu ayəni tilavət etdi: "O, (Həzrəti Musa *(ə)* Mədyən tərəfə yönəldiyi zaman dedi: ***"Ola bilsin ki, Rəbbim mənə (Mədyənə aparıb çıxaran) doğru yolu göstərsin!"***[246] İmam

[242]Tarixi ibn Əsir, IV cild.
[243]Şeyx Abbas Qummi, İmam Hüseynin (ə) həyatı, səh-53-54.
[244] "Nisa" surəsi, ayə-78.
[245]"Ali-imran" surəsi, ayə-154.
[246]"əl-Qəsəs" surəsi, ayə-22.

Hüseyndən *(ə)* sonra Abdullah ibn Ömər də Vəlidin istəyinə əhəmiyyət verməyərək Mədinədən Məkkəyə getdi. Məkkə əhlindən və ətrafdan gələn möminlər də umrə həccini yerinə yetirmək üçün Məkkəyə yığışmışdılar.

İmam Hüseynin *(ə)* Məkkədə olduğundan xəbər tutan möminlər o həzrətin hüzuruna gəldilər. Bu vaxt Məkkədə olan Abdullah ibn Zübeyrdə Kəbə ətrafında qalırdı. Camaatı öz ətrafında toplamaq istəyən Abdullah ibn Zübeyr Kəbənin yanında namaz qılır və iki gündən bir İmam Hüseynin *(ə)* hüzuruna gəlirdi. İmam Hüseynin *(ə)* Məkkədə olmasından narahat olan Abdullah ibn Zübeyr yaxşı bilirdi ki, İmam Hüseyn *(ə)* nə qədər Məkkədədir, Hicaz əhlindən kimsə ona beyət etməyəcək.

Bu arada Müaviyə ibn Süfyanın ölümünü və Yezidin xəlifə seçildiyini öyrənən Kufə şiələri Süleyman ibn Suradın evində toplandılar. Süleyman ibn Surad onlara dedi: "Ey şiələr, bilin və agah olun ki, zülmkar Müaviyə vəfat etdi və şərab içən oğlu Yezid onun yerinə xəlifə təyin edildi. İmam Hüseyn *(ə)* da Yezidə beyət etməyərək Mədinədən Məkkəyə gedib. Əgər ona kömək edib onun düşmənləri ilə cihad edəcəyinizə əminsinizsə, məktub yazıb onu bura dəvət edin. Amma əgər qorxu və zəiflik sizə qələbə çalıb ona kömək etməkdən çəkindirəcəksə və ona qarşı xeyirxah olmayıb əmrinə tabe olmayacaqsınızsa, onu aldadıb həlakətə vadar etməyin." Süleyman ibn Suradın bu sözlərindən sonra Kufə şiələri dedilər: "Əgər imam bizə tərəf gəlsə, onda biz hamımız əlimizi beyət üçün ona uzadacağıq." Sonra İmam Hüseynə *(ə)* Süleyman ibn Surad, Museyyib ibn Nəcəbə, Rəfaət ibn Şəddad Bəcəli, Həbib ibn Məzahir və s. şiələrin adından məktub yazdılar. Məktubda deyilirdi: "Ey Peyğəmbər *(s)* övladı, indi bizim rəhbərimiz və imamımız yoxdur. Bizə tərəf gəl ki, bəlkə bununla Allah Öz bərəkətini bizə zahir edər. Kufə valisi Nöman ibn Bəşir zillət içində oturub özünü camaata əmir bilir. Amma biz onu əmir kimi tanımırıq. Onun qıldığı cümə namazlarına getmirik. Əgər Mövlamızın bizə tərəf gəlmək xəbəri bizə yetişsə, onda biz onu Kufədən çıxardacağıq. Vəssalam." Sonra məktubu Abdullah Məsmə Həmdani və Abdullah ibn Val ilə Məkkəyə İmam Hüseynə *(ə)* göndərdilər. Bundan iki gün sonra Kufə əhli Qeys ibn Müsəhhər Seydavini, Abdullah ibn Şəddad və Əmarət ibn Abdullah Səlulini yüzdən yuxarı məktubla İmamın *(ə)* hüzuruna göndərdilər.[247] Növbəti göndərişdə Kufənin böyükləri Hani ibn Hani Səbiini və Səid ibn Abdullah Hənəfini o Həzrətin hüzuruna göndərdilər. Onların apardıqları məktubun məzmunu belə idi: "Bismillahir-rəhmanir-rəhim. Bu, Hüseyn ibn Əliyə onun şiələri və fədailəri tərəfindən yazılmış bir məktubdur. Ağa, özünü tez öz dostlarına və tərəfdarlarına yetir. Bu vilayətin bütün insanları sizin qədəmlərinizin intizarındadır. Sizdən başqa heç kimə göz dikməyiblər. Tələs, sürətlə özünü sənin yolunu gözləyənlərə yetir." Sonra Şibs ibn Rəbi, Nəccar ibn Əbsər, Yezid ibn Haris ibn Rüveym, Urvə ibn Qeys, Əmr ibn Həccac Zübeydi və Məhəmməd ibn Əmr Teymi İmama *(ə)* bu məz-

[247]Şeyx Müfid, əl-İrşad, səh-203.

munda məktub yazdılar: “Səhralar göyərib və meyvələr yetişib. Əgər bizə tərəf gəlmək istəsən gəl, çoxlu qüvvələr sənə kömək etməyə hazırdırlar.”

Kufə əhlindən İmam Hüseynə *(ə)* on iki min məktubun gəlməsinə baxmayaraq İmam *(ə)* hələ də səbr edir və onların cavablarını yazmırdı.[248]

İmam Hüseynin *(ə)* Müslim ibn Əqili Kufəyə göndərməsi

Kufədən gələn məktublarının sayının gündən-günə artdığını görən Hz.Hüseyn *(ə)* məcbur olub Kufə şiələrinə belə bir məktub yazdı: “Bu, Hüseyn ibn Əli tərəfindən Kufə müsəlmanlarından və ya möminlərindən bir dəstəsinə olan məktubdur. Həqiqətən Hani və Səid sizin göndərdiyiniz qasidlərin sonuncusu idi ki, yazdıqlarınız məktubları mənə çatdırdılar. Sizdən mənə çatan məktublara baxdım. Onların hamısının hasili bu idi ki: “Bizim imamımız yoxdur, tez bizim yanımıza gəl. Ümidvarıq ki, Allah sizin bərəkətinizlə bizi haqq və hidayət yoluna cəm edə.” İndi mən əmim oğlu və Əhli-beytimin etibarlı adamı olan Müslim ibn Əqili sizin yanınıza göndərirəm. Əgər Müslim mənə yazsa ki, sizin rəyiniz yazdığınız məktublardakı mətləblərlə birdir, onda mən inşallah tezliklə sizə tərəf gələcəyəm. And olsun Allaha, İmam yalnız camaat arasında Allahın kitabına əsasən hökm edib ədalətlə iş görən və ayağını müqəddəs şəriətin yolundan kənara qoymayan, camaatı haqq dində sabit saxlayan şəxs ola bilər.” Sonra İmam Hüseyn *(ə)* Müslim ibn Əqili yanına çağırıb Kufə əhlindən beyət almaq üçün Qeys ibn Müsəhhər Seydavi, Əmarət ibn Abdullah Səluli və Əbdürrəhman ibn Abdullah Ərhəbi ilə Kufəyə göndərdi. İmam *(ə)* Müslimə təqvalı olmağı, müxaliflərdən sirrini gizlətməyi, tədbirli və mehriban olmağı tövsiyə edərək buyurdu: “Əgər Kufə əhalisi mənə beyət etsələr, həqiqəti mənə yaz.”

Seyyid ibn Tavus, Şeyx ibn Nüma və digər alimlər yazıblar ki, İmam Hüseyn *(ə)* Kufə və Bəsrə böyüklərinə, o cümlədən Əhnəf ibn Qeysə, Münzir ibn Caruda, Yezid ibn Məsud Nəhşəliyə və Qeys ibn Heysəmə məktub yazdı. Məktubun məzmunu belə idi: “Bu, Hüseyn ibn Əli tərəfindən yazılan məktubdur. Həqiqətən Allah Muhəmmədi *(s)* haqq olaraq peyğəmbər seçdi. O Həzrət camaata nəsihət edib Rəbbinin risalətini təbliğ etdi. Sonra Allah onu öz dərgahına apardı. O Həzrətin əhli-beyti onun yerinə layiqli idilər. Lakin bir dəstə adam bizdən irəli keçib haqqımızı əlimizdən aldılar. Biz fitnə düşməsin və qanlar axmasın deyə sükut etdik. İndi bu məktubu sizə yazıb sizi Allaha və Peyğəmbərə tərəf çağırıram. Həqiqətən şəriət və Peyğmbərin *(s)* sünnəti məhv olubdur. Əgər mənim dəvətimi qəbul edib əmrimə itaət etsəniz, sizi zəlalət yolundan qaytarıb düz yola hidayət edərəm.” Sonra məktubu Süleyman Əbu Rəzinə verən İmam Hüseyn *(ə)* onu Bəsrə böyüklərinə çatdırmağı əmr etdi. İmam Hüseynin *(ə)* məktubu Bəsrədə Münzir ibn Caruda yetişəndə o, qorxdu ki, bu məktub Ubeydullah ibn Ziyadın məkrlərindən biri ola. İstəyir ki, camaatın fikrini öyrənib, sonra da onları cəzalandırsın. Münzirin qızı Bəhriyyə Ubeydul-

[248] əl-Luhuf, səh-15.

lah ibn Ziyadın arvadı idi. Buna görə də Münzir məktubu onu gətirənlə birlikdə Ubeydullahın yanına apardı. Məktubu oxuyub Süleyman Əbu Rəzini edam etdirən Ubeydullah ibn Ziyad Bəsrədə minbərə çıxıb camaatı hədələdi. Sonra qardaşı Osman ibn Ziyadı öz yerində qoyub Kufəyə getdi.

Müslim ibn Əqilin Kufəyə gəlməsi və camaatın onunla beyəti

İmam Hüseynin *(ə)* əmrinə əsasən Kufə səfərinə hazırlaşan Müslim ibn Əqil, rəvayətlərə əsasən ramazan ayının ortalarında Məkkədən çıxdı və şəvval ayının beşində Kufəyə çatdı. Əvvəlcə Mədinəyə gələn Müslim ibn Əqil Peyğəmbər məscidində namaz qılıb Hz.Peyğəmbərin *(s)* qəbrini ziyarət etdi. Sonra evinə gedərək əhli-əyalı ilə vidalaşıb Qeys qəbiləsindən olan iki nəfərlə Kufəyə tərəf yola düşdü. Lakin yolda iki bələdçinin ölümündən sonra bütün çətinliklərə sinə gələn Müslim özünü Məziq ərazisində olan suya çatdırdı. Oradan Qeys ibn Müsəhhərin vasirəsilə İmam Hüseynə *(ə)* məktub yazaraq bu işdən geri çəkildiyini bildirdi. İmam Hüseyn *(ə)* onun istefasını qəbul etməyib Kufəyə doğru hərəkət etməyi əmr etdi. İmamın *(ə)* məktubu Müslim ibn Əqilə çatan kimi dərhal Kufəyə doğru hərəkət etdi. Kufəyə gələn Müslim ibn Əqil Muxtar ibn Ubeydə əs-Səqəfinin evinə sığındı. Məşhur tarixçi Məhəmməd ibn Cərir ət-Təbərinin rəvayətinə görə isə Kufəyə gələn Müslim ibn Əqil Müslim ibn Ovsəcənin evinə sığınmışdır. Bundan xəbər tutan Kufə əhli dəstə-dəstə Müslimin yanına gedərək İmam Hüseynin *(ə)* adından ona beyət edirdilər. On səkkiz min nəfərin beyətindən sonra Müslim İmama *(ə)* məktub yazaraq onun Kufəyə gəlməyini məsləhət gördü.

Müslimin Kufəyə gəlməsinin və Kufəlilərin ona beyət etmələrinin xəbəri Kufəyə yayılandan sonra şəhərin valisi Nöman ibn Bəşir camaatı hədələyib cəzalandıracağını bildirdi. Camaatdan tələb etdi ki, Müslimdən əl çəksinlər və onun yanına get-gəl etməsinlər. Bəni Ümeyyə tərəfdarlarından olan Abdullah ibn Müslim Rəbiə Nömanın zəifliyini görüb xəlifə Yezidə məktub yazaraq Kufədə baş verənləri ona çatdırdı. Bundan əlavə Ömər ibn Səd və başqaları da bu məzmunda məktub yazaraq Yezidi Kufə hadisələrindən xəbərdar etdilər. Kufədə baş verən hadisələrdən xəbər tutan xəlifə Yezid qulamı Sərcunun məsləhəti ilə Bəsrənin hakimiyyətindən əlavə, Kufənin də hakimiyyətini Ubeydullah ibn Ziyada verərək ona belə bir məktub yazdı: "Ey ibn Ziyad, mənim tərəfdarlarım Kufədən mənə yazıblar ki, Əqilin oğlu Müslim Kufəyə daxil olub və Hüseyn üçün qoşun yığır. Elə ki, mənim məktubum sənə yetişdi, yubanmadan Kufəyə get və nəyin bahasına olursa-olsun İbn Əqili ya zindana sal, ya da Kufədən çıxart. Yezidin məktubuna əsasən Kufəyə doğru hərəkət edən ibn Ziyad qardaşı Osmanı öz yerində Bəsrə hakimliyinə canişin təyin etdi. Kufəyə daxil olan ibn Ziyad minbərə çıxıb Kufəliləri hədələyərək onları Yezidə qarşı üsyan etməkdən çəkindirdi.

İbn Ziyadın Kufəyə gəldiyini öyrənən Müslim Muxtarın evindən çıxıb Haninin evinə sığındı. Gizli şəkildə Haninin evinə gələn Kufəlilər Müslimə beyət

edirdilər. Müslimin harada olduğunu bilməyən İbn Ziyad onun yerini öyrənmək üçün casuslar təyin etdi. Sonda ibn Ziyad qulamı Məqəlin vasitəsilə Müslimin Haninin evində olduğunu öyrəndi. İbn Ziyad Məhəmməd ibn Əşəs, Həssan ibn Əsma ibn Xaricə, Əmr ibn Həccac və Haninin qayınatasının vasitəsilə onu öz hüzuruna gətizdirdi. Haninin vasitəsilə Müslim ibn Əqili ələ keçirmək istəyən İbn Ziyad, istəyinə nail olmadıqda onu şəhid etdirdi. Haninin şəhid olduğunu öyrənən Müslim və tərəfdarları döyüş hazırlığına başladı. İbn Ziyad qorxusundan "Darul-İmarə" sarayına pənah aparıb onun qapılarını bağlatdırdı. Sarayda ibn Ziyadla birlikdə əlli nəfər oxçu qalmışdı. Kəsir ibn Şəhabı yanına çağıran ibn Ziyad ona dedi: "Sənin Məzhic qəbiləsində çoxlu dostların var. Saraydan çıxaraq onları Yezidin verəcəyi əzabdan qorxut və Müslimə kömək etməkdən çəkindir. Məhəmməd ibn Əşəsi Kində qəbiləsinə göndərib onlara aman verəcəyini bildirdi. Qəqa Zühəlinin, Şibs ibn Rəbinin, Həccac ibn Cəbrinin, Şimr ibn Zilcövşənin səyləri ilə yanaşı Şam ordusunun yaxınlaşdığını öyrənən vəfasız Kufə camaatı Müslimin ətrafından dağılmağa başladılar. Şam namazından sonra Müslimin ətrafında yalnız otuz nəfər qalmışdı. Müslim kufəlilərin vəfasızlığını görüb məsciddən çıxmaq istəyəndə Kində qapısına çatmamış onunla on nəfər qalmışdı. Az sonra onu on nəfərdə tərk etdi. Təhna qalan Müslim ibn Əqil Bəni Bəcilə qəbiləsindən olan Tovənin evinə sığındı. Bundan xəbər tutan Tovənin oğlu Bilal İbn Ziyadın qapısına gəlib Müslimin xəbərini Məhəmməd ibn Əşəsin oğlu Əbdürrəhmana verdi. (Sonralar əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın (685-705) xilafəti dövründə 701-703-cü illərdə üsyan edən Əbdürrəhman ibn Məhəmməd Kufə valisi Həccac ibn Yusif tərəfindən öldürülmüşdür.) Baş verənlərdən xəbər tutan ibn Ziyab Əbdürrəhmanın atası Məhəmmədə əmr etdi ki, dərhal Müslimi onun hüzuruna gətirsin.

Əllamə Məclisi "Cəlalul-uyun" kitabında yazır: "Elə ki, Müslim atların ayaq səslərini eşitdi, başa düşdü ki, onun dalınca gəliblər və dedi: **"*İnna lillah və inna ileyhi raciun*."**[249] Sonra onlara hücum edərək 45 nəfəri cəhənnəmə vasil etdi. Sonda Bəkr ibn Həmran onun mübarək üzünə qılıncı vurdu. İbn Əşəs onu asanlıqla ələ keçirə bilməyəcəyini görüb dedi: "Ey Müslim ibn Əqil, niyə özünü ölümə verirsən? Biz sənə aman veririk və səni İbn Ziyadın yanına aparacağıq. Onun səni öldürmək məqsədi yoxdur." Müslim bərk yorulduğu üçün çarəsiz qalıb bunu qəbul edərək ağlamağa başladı. Bunu görən Abdullah ibn Abbas Sələmi dedi: "Ey Müslim niyə ağlayırsan?" Müslim cavab verdi: "Mən özüm üçün yox, o məzlum Ağam Hüseyn *(ə)* və onun əhli-beyti üçün ağlayıram ki, bu vəfasız münafiqlərin hiyləsi nəticəsində öz el-obasından ayrılıb bu tərəfə gəlməkdədir." Sonra üzünü İbn Əşəsə tutub dedi: "Bilirəm ki, sizin amanınıza etibar yoxdur və məni öldürəcəklər. Amma mənim tərəfimdən bir nəfəri İmam Hüseynin *(ə)* hüzuruna göndər ki, o Cənab kufəlilərin yalan vədlərinə aldanıb öz diyarından çıxmasın. Qoy o məzlum İmam *(ə)* qərib əmisi oğlunun başına gələnlərdən xəbərdar

[249]"Bəqərə" surəsi, ayə-156.

olsun. Çünki bilirəm ki, o Həzrət bu gün, ya sabah bu tərəflərə gələcək. Ona desin ki, bu səfərdən geri qayıtsın." İbn Əşəs söz verdi ki, onun vəsiyyətini yerinə yetirəcək. Sonra Müslimi sarayın qapısına qədər apardı. Bu vaxt İbn Ziyadın səfiri gəlib Müslimi çağırdı. İbn Ziyadın hüzuruna gəldikdə Müslim ona dedi: "Əgər məni öldürəcəksənsə, onda qoy məclisdə olanlardan birini özümə vəkil edim ki, məndən sonra mənim vəsiyyətlərimə əməl etsin." İbn Ziyadın icazəsindən sonra Müslim ibn Əqil məclisdə olanlardan Ömər ibn Sədə (məşhur səhabə Səb ibn Əbu Vəqqasın oğlu) üzünü tutub dedi: "Mənimlə sənin aranda qohumluq əlaqəsi var. Ona görə də səndən bir istəyim var. Mənim vəsiyyətimi qəbul et. Məlun Ömər ibn Səd İbn Ziyadın xoşuna gəlmək üçün onun sözünə qulaq asmadı." Müslim dedi: "Birincisi budur: Mənim bu şəhərdə 700 dirhəm borcum var. Qılıncımı və zirehimi satıb mənim borcumu ver. İkincisi: Məni öldürəndən sonra İbn Ziyaddan icazə alıb bədənimi dəfn et. Üçüncüsü: İmam Hüseynə *(ə)* yaz ki, bu tərəfə gəlməsin. Çünki mən ona yazmışam ki, Kufə camaatı onunladır. Güman edirəm ki, buna görə də Kufəyə tərəf gəlir."

Sonra İbn Ziyad Bəkr ibn Həmranı çağırıb ona əmr etdi ki, Müslimi sarayın damına apararaq boynunu vursun. Müslim dedi: "And olsun Allaha, əgər mənimlə sənin aranda qohumluq əlaqəsi olsaydı, mənim qətlimə fərman verməzdin." Müslimin bu sözü deməkdən məqsədi Ubeydullah ibn Ziyadın və atası Ziyad ibn Əbihin zinadan doğulduqlarını və onların Qureyş qəbiləsi ilə nəsil cəhətdən heç bir əlaqələri olmadıqlarını bildirmək idi.

Müslim ibn Əqili qəsrin damına aparan Bəkr ibn Həmran onu çarıqçılar bazarına tərəf olan yerdə saxlayıb mübarək başını bədənindən ayırdı. Məzlumun başını və cəsədini qəsrin damından yerə tullayan Bəkr ibn Həmran Ubeydullahın yanına qayıtdı. Müslimin qətlindən sonra onun qulamı Rəşid Türkü və Müslimin tərəfini saxlayan Əbdul-Əla Kəlbi ilə Əmarət ibn Sələxt də İbn Ziyadın əmri ilə şəhid edildilər. Sonra İbn Ziyad Müslim ibn Əqilin və Haninin başlarını Şama xəlifə Yezidə göndərdi. İbn Ziyadın işlərini bəyənən məlun Yezid ona cavab məktubu yazaraq işlərini tərif etdi.

Zilhiccə ayının ikisində qiyam edən Müslim ibn Əqil zilhiccə ayının doqquzunda da şəhid edildi. Qəbri Kufə məscidinin kənarındadır. Anası Əlyə adlı kənizdir ki, Əqil ibn Əbu Talib onu Şam şəhərində almışdı. Əldə olunan məlumatlara əsasən Müslim ibn Əqilin beş övladı olduğu bildirilir. Birinci övladı Abdullahdır ki, Əli Əkbərdən sonra Kərbəlada birinci şəhid olub. Anası Hz.Əlinin *(ə)* qızı Rüqəyyadır. İkinci övladı Məhəmməd Kərbəlada Abdullahdan sonra şəhid oldu. Məhəmməd və İbrahim adlı oğlanları isə Müslimin şəhadətindən sonra Kufədə şəhid edilmişlər. Tarixi mənbələrdə adı qeyd olunmayan on üç yaşlı qızı isə Əsəm Kufinin nəql etdiyi rəvayətə görə İmam Hüseynin *(ə)* qızları ilə birlikdə Kərbəlaya gedib.

İmam Hüseynin *(ə)* Kərbəlaya tərəf yola düşməsi

Hz.Hüseyn *(ə)* hicrətin 60-cı ili şəban ayının üçündə Mədinə müxaliflərinin şərrindən amanda qalmaq üçün Məkkəyə getdi və şəban ayının qalan hissəsini, ramazan, şəvval və zilqədə aylarını o mübarək şəhərdə keçirdi. Zilhiccə ayı daxil olanda İmam *(ə)* həcc üçün ehram bağladı. Zilhiccə ayının səkkizində Əmir ibn Səid ibn As xəlifə Yezidin əmrinə əsasən öz adamları ilə Məkkəyə daxil oldu. Xəlifənin əmrinə əsasən Əmr ibn Səid ya İmamı *(ə)* tutub Yezidin yanına aparmalı, ya da qətlə yetirməli idi. Onların niyyətindən xəbər tutan İmam Hüseyn *(ə)* həcc ehramından ümrə ehramına keçib, ümrə həccinin əməllərini yerinə yetirdikdən sonra ehramdan çıxaraq, elə həmin gündə İraqa tərəf yola düşdü.

İmam Hüseyn *(ə)* İraqa tərəf səfər etmək istəyəndə xütbə oxumaq üçün ayağa qalxdı. O Allaha həmd-səna edib Peyğəmbərə *(s)* salavat göndərəndən sonra dedi: "Ölüm Adəm övladından ayrılmazdır, necə ki, cavan qadının boynu boyunbağıdan ayrılmazdır. Yəqub *(ə)* oğlu Yusifi görmək arzusunda olduğu kimi, məndə dünyadan gedənlərimi görmək arzusundayam. Mənim üçün bir qətlgah təyin olunub ki, gərək mən ora gedəm. Elə bil ki, səhrada canavarların mənim bədənimi parçaladığını öz gözlərimlə görürəm. Yəni Kufənin qoşunları mənim bədənimi Nəvavis və Kərbəla arasında parça-parça edəcəklər. Qəza və qədər yazılan gündən qaçmaq olmaz. Biz əhli-beyt Allahın qəzasına razı olmuşuq və onun bəlalarına səbr etmişik. Allah səbr edənlərin muzdunu bizə verəcək. Rəsulullahın bədəninin parçası ondan uzaq düşməz və cənnətdə onunla birləşəcək. Rəsulullahın gözü onu görməklə nurlanacaq və onun verdiyi vədə düz olacaqdır. İndi hər kəs bizim yolumuzda canından keçməyə hazırdır mənimlə köç etsin."

İmam Sadiqdən *(ə)* belə nəql edilir: "Hz.Hüseyn *(ə)* Məkkədən gedən günün axşamı qardaşı Məhəmməd ibn Hənəfiyyə (Hz.Əlinin *(ə)* Xavlə binti Cəfər əl-Hənəfiyyə adlı xanımla izdivacından dünyaya gəlmişdir) o Həzrətin yanına gəlib ərz etdi: "Qardaş, Kufə əhli həmin şəxslərdir ki, vaxtilə sənin atana və qardaşına qarşı hiylə işlətdilər. Mən qorxuram ki, sənə qarşı da o cür rəftar etsinlər. Əgər Məkkədə qalmaq qərarına gəlsən yaxşı olar, çünki bura Allahın hərəmidir. Burada əziz və şərəfli olarsan." İmam *(ə)* buyurdu: "Qardaş, mən qorxuram ki, Yezid məni Məkkədə şəhid etsin və bu səbəbdən bu evin hörməti aradan getsin." (Vaxtilə Hz.Əli *(ə)* da Yezidin atası Müaviyə ibn Əbu Süfyanın şərrini Mədinədən kənar etmək üçün Kufəyə getmişdir.) Məhəmməd dedi: "Əgər belədirsə, onda Yəmənə tərəf get, yaxud səhraya yollan heç kim səni ələ keçirə bilməz." İmam *(ə)* buyurdu: "Bu haqda fikirləşəcəyəm." Səhər olanda İmam *(ə)* Məkkədən getmək qərarını verdi. Bundan xəbər tutan Məhəmməd ibn Hənəfiyyə İmamın *(ə)* dəvəsinin cilovundan tutaraq dedi: "Qardaş, axı sən dünən mənə söz verdin ki, bu haqda fikirləşəsən?" İmam Hüseyn *(ə)* buyurdu: "Dünən sən yanımdan gedəndən sonra Peyğəmbər *(s)* yuxuda mənim yanıma gəldi və buyurdu ki; "Hüseyn, Məkkədən çıx. Allah sənin onun yolunda öldürüldüyünü görmək istəyir." Məhəmməd dedi: "Əgər şəhid olmaq məqsədilə gedirsənsə, bəs

bu qadınları özünlə niyə aparırsan?" Bu sözlərdən sonra Məhəmməd ibn Hənəfiyyə İmamla *(ə)* vidalaşıb geri qayıtdı."[250]

Məhəmməd ibn Yəqub Küleyni "Rəsail" kitabında Həmzə ibn Həmrandan belə nəql edir: "Biz İmam Hüseynin *(ə)* Məkkədən getməsi və Məhəmməd ibn Hənəfiyyənin o həzrətlə getməməyi haqqında söhbət edirdik. İmam Sadiq *(ə)* da o məclisdə idi və mənə buyurdu: "Ey Həmzə, sənin üçün bir hədis deyirəm, daha bu məclisdən sonra Məhəmməd ibn Hənəfiyyə haqqında bir də sual etmə: İmam Hüseyn *(ə)* Məkkədən gedən zaman kağız istədi və həmin kağızda yazdı: Bismillahir-rəhmanir-rəhim. Bu məktub Hüseyn ibn Əli *(ə)* tərəfindən Bəni-Haşim tayfasınadır. Hər kəs mənimlə gəlsə şəhid olacaq və hər kəs mənimlə gəlməsə nicat tapmayacaq. Vəssalam."[251]

İraqa doğru hərəkət edən İmam Hüseyn *(ə)* Zatul-irq adlı məntəqədə Bişr ibn Qaliblə qarşılaşdı. İmam *(ə)* İraq əhalisinin nə ilə məşğul olduğunu ondan soruşdu. Bişr dedi: Qəlblərində səni sevirlər, lakin qılıncları Bəni Ümeyyə ilədir. İmam *(ə)* buyurdu: "Düzdür, Allah hər nə istəsə, həyata keçirir və hər nəyi iradə etsə, hökm edir."

İmam Hüseynin *(ə)* İraqa tərəf hərəkət etdiyini öyrənən Ubeydullah ibn Ziyad Həsin ibn Nəmiri böyük bir ordu ilə o həzrətin yolunu kəsmək üçün Qadisiyyə adlı məntəqəyə göndərdi. Hacirə adlı məntəqəyə çatan Hz.Hüseyn *(ə)* Qeys ibn Müsəhhər Seydavini Kufəyə səfir göndərdi. Hələ bu vaxt Müslim ibn Əqilin şəhadət xəbəri İmama *(ə)* çatmamışdı. İmam *(ə)* Kufə əhlinə bu məzmunda məktub yazdı: "Allahın adı ilə. Bu, Hüseyn ibn Əli tərəfindən mömin və müsəlman qardaşlarına olan məktubdur. Əmim oğlu Müslim ibn Əqilin məktubu mənə yetişdi və məktubda yazılıb ki, siz mənə kömək etmək üçün ittifaq etmisiniz. Allahdan istəyirəm ki, bizə verdiyi ehsanı tamamlasın, sizə yaxşı niyyətlərinizin və əməllərinizin müqabilində ən yaxşı mükafatlarını versin. Bilin və agah olun ki, mən zilhiccə ayının səkkizində Məkkədən çıxıb sizə tərəf gəlirəm. Mənim səfirim sizə yetişən kimi tabe olma kəmərini belinizə bağlayıb mənə kömək etməyə hazır olun."

Qeys ibn Müsəhhər Qadisiyyəyə yetişəndə Həsin ibn Nəmir onu ələ keçirərək məktubla birlikdə İbn Ziyadın hüzuruna apardı. İbn Ziyad ondan soruşdu: Sən kimsən və nə üçün əlində olan məktubu cırdın?" Qeys cavab verdi: Əlinin şiələrindən olan bir nəfərəm. Məktubu ona görə cırdım ki, sən onun məzmunundan xəbərdar olmayasan." İbn Ziyad dedi: Məktub kimin tərəfindən idi və kimə çatmalı idi?" Qeys cavab verdi: "İmam Hüseyn *(ə)* tərəfindən Kufə əhlindən olan bir sıra adamlara yazılmışdı ki, mən onların adlarını bilmirəm." İbn Ziyad qəzəblənərək dedi: Mən səndən əl çəkməyəcəyəm, ya gərək onların adlarını deyəsən, ya da minbərə çıxıb Hüseynə, onun atasına və qardaşına nalayiq sözlər deyəsən. Əgər bunu etməsən, səni parça-parça edəcəyəm. Qeys de-

[250]Şeyx Səduq, Cəlalul-Uyun.
[251]"əl-Luhuf" səh-42.

di: “Adamların adlarını deməyəcəyəm, amma ikinci mətləbi yerinə yetirəcəyəm.”

İbn Ziyadın icazəsindən sonra minbərə çıxan Qeys ibn Müsəhhər, Allaha həmd-səna etdikdən sonra Hz.Peyğəmbər *(s)*, Hz.Əli *(ə)*, Hz.Həsən *(ə)* və Hz.Hüseynə *(ə)* çoxlu salavat göndərdi. İbn Ziyada, atasına və Bəni Ümüyyəyə lənət göndərdikdən sonra dedi: “Ey Kufə əhli, mən İmamın *(ə)* sizə göndərdiyi səfiriyəm. O Həzrəti Hacirə yerdə qoyub gəlmişəm. Hər kəs ona kömək etmək istəsə, ona tərəf getməyə tələssin”. Bundan xəbər tutan İbn Ziyad dərhal Qeysi sarayın damından atdıraraq şəhid etdirdi. Qeysin şəhadəti Hz.Hüseynə *(ə)* çatdıqda ixtiyarsız olaraq mübarək gözlərindən yaş axmağa başladı və Qurani-Kərimin bu ayəsini tilavət etdi: **“Onlardan bəziləri əhdinə vəfa edib şəhid oldu və bəziləri isə şəhid olmasını gözləyir.”**[252]

Hacirdən İraqa doğru hərəkət edən Hz.Hüseyn *(ə)* yolda Abdullah ibn Muti ilə qarşılaşdı və o İmamdan *(ə)* bu diyara niyə gəldiyinin səbəbini soruşdu. İmam *(ə)* buyurdu: “Müaviyə ibn Əbu Süfyan ölüb və bundan xəbər tutan İraq əhli məktub yazıb məni istəyirlər.” Abdullah dedi: Səni and verirəm Allaha, özünü həlakətə vermə, İslamın, Qureyşin və ərəbin hörmətini aradan aparma. Çünki bütün bunların hörməti sənin hörmətinə bağlıdır. And olsun Allaha, əgər Bəni Ümeyyənin səltənətini onlardan almaq istəsən səni öldürəcəklər və səni öldürəndən sonra heç bir müsəlmanı öldürməkdən çəkinməyəcəklər. Qayıt bu yoldan, Kufəyə getmə və Bəni Ümeyyəyə toxunma.” İmam *(ə)* onun sözlərinə əhəmiyyət verməyib bu ayəni oxudu: **“Yalnız Allahın bizim üçün təyin etdiyi əcəl yetişər.”**

İmam Hüseynin *(ə)* Kufəyə doğru hərəkət etdiyindən xəbər tutan İbn Ziyad Vəqisədən Şama qədər və oradan da Bəsrəyə qədər olan ərazini mühasirəyə aldı ki, heç bir xəbər Kufədən kənara çıxmasın. Buna görə də baş verən hadisələrdən xəbərsiz olan İmam Hüseyn *(ə)* Kufəyə doğru hərəkət edirdi.

Fəzarə və Büceylə qəbiləsindən olan bir dəstə belə nəql edirlər ki, biz Məkkədən Züheyr ibn Qeynlə qayıdırdıq. Nahar vaxtı İmam *(ə)* tərəfindən bir qasid gəlib salam verdi və Züheyrə dedi: “Əbu Abdullah səni istəyir.” Züheyrin zövcəsi Deyləm binti Ömər dedi: “Sübhanəllah! Peyğəmbərin övladı səni yanına çağırır, amma sən onun yanına getməkdə tərəddüd edirsən?” İmamın *(ə)* yanına gedən Züheyr az sonra şad və xürrəm şəkildə geri qayıdaraq fərman verdi ki, onun xeyməsini İmamın *(ə)* xeyməsinin yanında qursunlar. Sonra Züheyr ibn Qeynin yoldaşlarına xitab edib dedi: “Hər kəs istəyir mənimlə gəlsin. Hər kəs istəmir, bu mənim onunla sonuncu görüşümdür.” Bu sözlərdən sonra yoldaşları ilə vidalaşan Züheyr İmamın *(ə)* hüzuruna gəldi.

Zobalə adlı məntəqəyə çatdıqda Abdullah ibn Süleyman Əsədi və Münzir ibn Muşməil Əsədi Kufədə baş verən hadisələri yəni Müslim ibn Əqilin, Hani ibn Urvənin, Qeys ibn Müsəhhərin və Abdullah ibn Yəqtirin şəhadət xəbərlə-

[252]“Əhzab” surəsi, ayə-23.

rini o Həzrətə çatdırdılar. Bu dəhşətli xəbərdən sonra İmam *(ə)* əshabını ətrafına cəm edib belə buyurdu: "Həqiqətən Müslim ibn Əqilin, Hani ibn Urvənin, Qeys ibn Müsəhhərin və Abdullah ibn Yəqtirin şəhadət xəbərləri mənə yetişdi. Bizim tərəfdarlarımız bizə kömək etməkdən əl çəkiblər. Hər kəs bizdən ayrılmaq istəsə, ona heç bir etiraz yoxdur." Hz.Hüseynin *(ə)* bu sözlərindən sonra mal-dövlət, qənimət və dünya malına tamahlanıb o Həzrətlə birlikdə hərəkət edənlər onun ətrafından dağılışdılar.

İmam Hüseynin *(ə)* Hürr ibn Yezid Riyahi ilə görüşməsi

Hz.Hüseyn *(ə)* və əshabı Bətni-Əqəbədən hərəkət edərək Zu-Husəm dağına tərəf getdi ki, əgər döyüşə ehtiyac olsa, o dağı özünə arxa qərar versin. Xeymələrin qurulmasından qısa vaxt sonra Hürr ibn Yezid Riyahi Təmimi min nəfərlik dəstə ilə onların müqabilində dayandı. Bunu görən İmam Hüseyn *(ə)* ondan soruşdu: Sən bizə kömək etmək məqsədilə gəlmisən, ya mübarizə etmək niyyətin var? Hürr cavab verdi: Ey Hüseyn *(ə)* sənինlə vuruşmağa gəlmişik. İmam *(ə)* buyurdu: Əgər sizin nəzəriniz göndərdiyiniz məktub və nümayəndələrinizin dedikləri ilə müxalif olsa, elə buradan da gəldiyim yerə qayıdaram. Bu vaxt Hürr və onun dəstəsi İmamın *(ə)* qayıtmasına mane oldular. Hürr dedi: "Ey Peyğəmbərin övladı, elə yollarla hərəkət edin ki, nə Mədinəyə gedib çıxsın, nə də sizi Kufəyə aparsın. Mən də İbn Ziyadın yanında üzrlü olaraq deyərəm: Hüseyn *(ə)* elə bir yolla gedib ki, mən onu görə bilmədim."

İmam *(ə)* Qadisiyyə və Üzeyb yolundan dönüb sol tərəfə getdi. Hürr də öz qoşunu ilə o Həzrətlə birlikdə hərəkət etməyə başladı. Onlar Uzeybul-Həcanat məntəqəsinə çatdıqda İbn Ziyadın məktubunu Hürrə verdilər. Məktubun məzmunu ilə tanış olan Hürr ibn Yezid dərhal İmamın *(ə)* əshabının qarşısını alıb, miniklərdən düşmələrinə göstəriş verdi. İmam buyurdu: "Qoy yaxın məhəllələrdə ki, Neynəva, Qaziriyyə və ya sair abad yerlərin birində düşək." Hürr dedi: And olsun Allaha ki, bu qasid yanımda olan yerdə ibn Ziyadın hökmü ilə müxalif ola bilmərəm. Onu mənə nəzarətçi təyin edib." Züheyr ibn Qeyn dedi: "Ey Peyğəmbər övladı, əmr et onlarla vuruşaq. İndi onlarla vuruşmaq asandır. Saysız-hesabsız qoşun bura töküləndən sonra çətin olacaq." İmam buyurdu: "Mən istəmirəm onlarla birinci müharibəyə başlayım."

Sonda onlar atlarından düşüb ismət və cəlalət Əhli-beyti üçün xeymələr qurdular. Bu hadisə cümə axşamı günü məhərrəm ayının ikisində baş verdi.

İmam Hüseynin *(ə)* Kərbəlaya daxil olması

Hz.Hüseynin *(ə)* Kərbəlaya hansı gündə daxil olması barədə ixtilaflar vardır ki, onlardan ən səhihi hicrətin 61-ci ili məhərrəm ayının ikisində daxil olmasıdır. İmam *(ə)* o əraziyə çatanda soruşdu: "Bu torpağın adı nədir." Dedilər: "Bura Kərbəla deyirlər." İmam *(ə)* bu adı eşidəndə buyurdu: "İlahi, sənə pənah aparıram kərb (qəm) və bəladan."

İmam Hüseyn *(ə)* və əshabı burada mənzil saldılar. Səhəri gün dörd min nəfərlik ordu ilə Kərbəlaya yetişən Ömər ibn Səd İmamın *(ə)* müqabilində düşərgə saldı. İmama *(ə)* qarşı vuruşmaqdan ötrü ibn Ziyad Ömər ibn Sədə Rey vilayətinin valiliyini vermişdi. Kərbəlaya gələn Ömər ibn Səd Urvə ibn Qeysi yanına çağırıb onu İmamın *(ə)* yanına göndərmək istədi ki, İmamdan *(ə)* soruşsun ki, bu tərəflərə niyə gəlib və nə istəyir. Urvə Hz.Hüseynə *(ə)* məktub yazmış şəxslərdən olduğu üçün İmamın *(ə)* yanına getməkdən imtina etdi. Urvənin bu işdən imtina etməsindən sonra Kəsir ibn Abdullah ayağa qalxıb dedi: Mən bu işi görməyə hazıram. Əgər istəyirsən qəflətən onu qətlə yetirim." Ömər ibn Səd dedi: "Bunu istəmirəm, amma get onun yanına soruş ki, bu diyara nə üçün gəlib?"

Kəsir ibn Abdullah İmamın *(ə)* hüzuruna gəlib salam verdikdən sonra üzərinə düşən vəzifəni yerinə yetirdi. İmam *(ə)* onun cavabında dedi: "Sizin camaatın mənə yazdıqları çoxlu məktublara görə mən bu diyara gəlmişəm. Onlar mənim bu diyara gəlməyimə çox israr ediblər. İndi ki, onlar mənim gəlməyimdən narazıdırlar, mən qayıdıram." Bu zaman Həbib ibn Məzahir üzünü Kəsir ibn Abdullaha tutaraq dedi: "Ey Kəsir, vay olsun sənə! Bu haqq olan İmamdan *(ə)* üz döndərirsən və zalımlara tərəf gedirsən? Gəl bu İmama kömək et, çünki onun əcdadlarının bərəkəti ilə hidayət olmusan." Kəsir dedi: "Qoy Ömərin cavabını aparım, ondan sonra fikirləşərəm ki, hansı məsləhətdir." O, İmamın *(ə)* cavabını Ömər ibn Sədə söylədikdə dedi: "Ümidvaram ki, Allah onunla müharibə etməkdən mənə nicat verər." Sonra Ubeydullah ibn Ziyada məktub yazaraq vəziyyəti ona bildirdi. (Bəzi mənbələrə görə Ömər ibn Səd tərəfindən İmamın *(ə)* yanına Qürrə ibn Qeys Hənzələ göndərilmişdir). İbn Ziyad Ömər ibn Sədə belə bir məktub yazdı: "Hüseynə dedi ki, o və onun əshabı Yezidə beyət etsinlər. O vaxta qədər mən də görüm onun haqqında nə qərara gəlirəm."

Bu məktubdan sonra İbn Ziyad Ömər ibn Sədə ikinci bir məktub yazaraq bildirdi: "Ey Sədin oğlu, Hüseyn və əshabı ilə Fərat çayı arasında bir sədd qur ki, qoy onlar Fəratın suyundan dada bilməsinlər. Necə ki, onlar Osman ibn Əfvanı mühasirəyə aldıqları gündə o məzlumla su arasında sədd çəkdilər."

Ubeydullah ibn Ziyadın məktubu məlun Ömər ibn Sədə çatan kimi o, Əmir (və ya Ömər) ibn Həccacı beş yüz nəfərlik bir dəstə ilə Fəratın sahilinə göndərib, o Həzrətin çaydan su götürməsinə mane oldu. Bu hadisə Hz.Hüseynin *(ə)* şəhid olmasına üç gün qalmış baş verdi. Digər tərəfdən də Ömər ibn Səd Kərbəlaya gələn gündən İbn Ziyad onun üçün qoşun göndərirdi. seyid ibn Tavusun nəql etdiyinə görə məhərrəm ayının altısına qədər otuz min qoşun məlun Ömər ibn Sədin ətrafında cəm olmuşdu.

Qoşunun gündən-günə artdığını görən İmam *(ə)* Ömər ibn Sədə xəbər göndərərək onunla görüşmək istədiyini bildirdi. Axşam tərəfi baş tutan görüşdə onlar xeyli söhbət etdilər. Görüşdən sonra öz ordusunun yanına qayıdan Ömər ibn Səd Ubeydullah ibn Ziyada belə bir məktub yazdı: "Əmir, Allah bizimlə Hüseynin *(ə)* arasında qalanmış odu söndürdü və ümmətin işlərini islah etdi. Hüseyn mənə söz verdi ki, ya gəldiyi yerə qayıtsın, yaxud ölkənin sərhədləri-

nin birinə getsin. Xeyir və şər işlərdə onun hökmü sair müsəlmanların hökmü kimi olsun. Yaxud Yezidin yanına getsin və əlini onun əlinə qoysun. Onda Yezid necə istəsə hökm edər. Əlbəttə bu işdə sizin razılığınız və ümmətin xeyri var."

Tarixi mənbələrdə Hz.Hüseynin *(ə)* zövcəsi Rübabın qulamı Uqbə ibn Səmandan belə nəql olunur: Mən İmamın *(ə)* Mədinədən Məkkəyə və Məkkədən İraqa qədər etdiyi bütün səfərlərdə onunla bir yerdə olmuşam. Həzrət şəhid olana qədər ondan bir addım belə ayrılmamışam. İmam hər yerdə nə deyibdirsə, hətta bir kəlmə olsun belə, istər Mədinədə, istər Məkkə yolunda, istərsə də İraq yolunda, mən orada olmuşam və onu eşitmişəm. Amma bu ki, deyirlər, Həzrət buyurdu: "Mən əlimi Yezid ibn Müaviyənin əlinə qoyacağam, yalandır və İmam belə bir söz deməyib." Belə məlum olur ki, Ömər ibn Səd bu kəlməni məktubda özündən çıxarıb ki, bəlkə bu yolla sülh yaratsın və iş müharibə etməyə çatmasın. Çünki Ömər ibn Səd əvvəldən İmamla *(ə)* müharibə etmək istəmirdi.[253]

Ömər ibn Sədin məktubu ibn Ziyada yetişəndə dedi: "Bu, öz tayfasına mehriban olan və onlara nəsihət verən bir şəxsin məktubudur. Gərək bunu qəbul edək." Bunu eşidən məlun Şimr ibn Zilcövşən ayağa qalxaraq dedi: "Ey əmir, sən bunu Hüseyndən qəbul edirsən? And olsun Allaha, əgər o, özünü sənə təslim etməyib öz işinin dalınca getsə, daha onu aradan götürə bilməyəcəksən. İndi isə sənin əlində giriftar olub. Onun haqqında istədiyin hər bir iş icra olunar. Əmr et ki, sənə itaət edib hökmünə tabe olsun. Sonra onu və onun əshabını istəsən cəzalandırarsan, ya da ki, əfv edərsən."

Şimr ibn Zilcövşənin sözlərini bəyənən İbn Ziyad dedi: "Mən bu haqda Ömər ibn Sədə bir məktub yazıram və onu sənin lə göndərirəm. Gərək o məktubu Ömər ibn Səd Hüseynə və onun əshabına çatdırsın. Əgər itaət etməyi qəbul etsələr, onda onları salamat halda mənim yanıma göndərsin və əgər qəbul etməsələr, onlarla müharibə etsin. Əgər İbn Səd Hüseynlə müharibə etməkdən imtina etsə, onda sən qoşunun sərkərdəsi olarsan, onların və Ömər ibn Sədin başını kəsib mənə göndərəsən."

Sonra İbn Ziyad bu məzmunda bir məktub yazdı: "Ey Ömər, əgər Hüseyn və əshabı mənə itaət edib mənim hökmümün müqabilində müti olsalar, onda onları salamat halda mənim yanıma göndər. Amma əgər imtina etsələr, onda öz qoşununla onları mühasirə edib onları öldürənə qədər müharibə et. Sonra onları tikə-tikə et. Çünki onlar bu işə layiqdirlər. Əgər sənə əmr etdiyim bütün işləri əncam versən, onda sənə eşidənin və qəbul edənin mükafatını verəcəyəm, amma əgər əmrimdən boyun qaçırsan, mükafatdan məhrum olacaqsan və qoşunun əmirliyini Şimr ibn Zilcövşənə verəcəksən."[254]

Sonra İbn Ziyad yazdığı məktubu Şimrə verərək onu Kərbəlaya göndərdi.

---

[253]Tarixi ibn Əsir, IV cild.

[254]Tarixi ibn Əsir, IV cild.

Tasua gününün hadisələri və Şimr ibn Zilcövşənin Kərbəlaya daxil olması

Məhərrəm ayının 9-da Kərbəlaya daxil olan Şimr ibn Zilcövşən İbn Ziyadın yazdığı məktubu Ömər ibn Sədə verdi. Məktubun məzmunu ilə tanış olan Ömər Şimrə dedi: "Vay olsun sənə! And olsun Allaha ki, İbn Ziyada yazdığım mətləbdən onu sən döndərmisən. Arzuladığım sülhü sən pozmusan. Hüseyn elə adam deyil ki, təslim olsun və Yezidə beyət etsin. Çünki atası Əlinin canı onun qabırğaları arasındadır." Şimr dedi: "İndi ya əmirin əmrinə tabe olub Hüseynlə vuruşasan, ya da qoşunu mənə təhvil verəsən." Vəzifəsini itirmək istəməyən Ömər İmam Hüseynlə vuruşmağa razı olub, Şimri piyadaların sərkərdəsi təyin etdi. Sonra İmamla *(ə)* müharibə etmək üçün hazırlığa başladı.

Hazırlıq başa çatdıqdan sonra Ömər ibn Səd öz qoşununa əmr edərək dedi: "Ey Allahın süvariləri, atlara minin və cənnətə daxil olmaq müjdəsi verin." Axirətini bu dünyaya satan Ömərin qoşunu süvari halında İmamın əshabına doğru hərəkət etdilər. Hz.Zeynəb qoşunun səsini eşidib İmama *(ə)* xəbər verdi. Hz.Hüseyn *(ə)* qardaşı Hz.Abbası yanına çağırıb buyurdu: "Qardaşım Abbas, canım sənə fəda olsun ata minib o qoşunun qarşısına get. Onlardan soruş ki, nə baş verib ki, belə üstümüzə qoşun çəkiblər?"

Hz.Abbas İmamın *(ə)* göstərişinə əsasən iyirmi süvari ilə gedərək onların məqsədini soruşdu. Dedilər: "Əmirdən hökm gəlib ki, sizə ona itaət etməyə təklif edək. Qəbul etməsəniz sizinlə müharibə edəcəyik." Hz.Abbas buyurdu: "Tələsməyin mən sizin sözünüzü qardaşıma çatdırım."

Qoşun dayandıqdan sonra Hz.Abbas İmamın *(ə)* yanına gələrək onların sözünü Həzrətə çatdırdı. Bu zaman Hz.Hüseyn *(ə)* buyurdu: "Onların yanına qayıt və sabaha qədər onlardan möhlət istə." Hz.Abbas qoşunun yanına qayıdaraq onlardan möhlət istədi.

Ömər ibn Səd imtina etmək istədikdə Əmr ibn Həccac Zübeydi dedi: "Əgər onlar Deyləm əhli olsaydılar və bizdən bunu xahiş etsəydilər, biz onların xahişini qəbul edərdik, qalmışdı Hz.Peyğəmbərin Əhli-beyti belə bir xahiş etsin". Bu sözlərdən sonra Ömər ibn Səd Hz.Abbasın yanına adam göndərərək dedi: Sizə yalnız bir axşam möhlət veririk. Əgər əmrimizə itaət etsəniz, sizi İbn Ziyadın yanına aparacağıq, əgər itaət etməsəniz, sizdən əl çəkməyəcəyik və işin taleyini qılıncın öhdəsinə qoyacağıq."

Həmin gecə yəni Aşura gecəsi İmam *(ə)* əshabını bir yerə yığıb buyurdu: "Mən Allahıma çətinliyə və rahatlığa görə şükürlər edirəm. Ey Rəbbim, bizi nübüvvət şərəfi ilə əzizlədiyin üçün sənə şükür edirəm. İlahi, sən bizə eşidən qulaq, görən göz və agah ürək verdin. İlahi, bizi sənə şükür edənlərdən qərar ver." Sonra üzünü əshabına tutaraq belə buyurdu: "Mən sizdən vəfalı və sizdən yaxşı əshab tanımıram. Öz əhli-beytimdən yaxşı əhli-beyt tanımıram. Allah sizə xeyir versin. İndi isə bilin və agah olun ki, mən bu camaat haqqında ayrı cür güman edirdim. Mən elə güman edirdim ki, onlar mənə itaət edib tabe olacaqlar. İndi isə o xəyal alt-üst olub. Ona görə də, öz beyətimi sizdən geri götü-

rürəm və sizi öz ixtiyarınıza qoyuram. İstədiyiniz yerə gedə bilərsiniz. Çünki bu camaat məni axtarır və məni ələ keçirəndən sonra heç kimlə işləri olmaz."

İmamın *(ə)* bu sözlərindən sonra Zəhhaq ibn Abdullah Məşriqi İmamı və onun səhabələrini tərk etdi. Digər səhabələrin hamısına xeyir-dua verən İmam Hüseyn *(ə)* onlara cənnətdə olan yerlərini göstərdi.

Elə ki, Ömər ibn Sədin qoşunu atlara minib döyüşə hazırlaşdılar, İmam Hüseyn *(ə)* Büreyr ibn Xəziri onlara tərəf göndərdi ki, moizə etsin. Lakin onlar Büreyrə qulaq asmayıb, onun sözlərindən faydalanmadılar. Sonra İmam *(ə)* özü atına minib onların müqabilində dayandı. Hz.Hüseyn *(ə)* Allaha həmd səna edib Hz.Peyğəmbərə, mələklərə, digər peyğəmbərlərə və mürsəllərə salavat göndərdikdən sonra vəfasız Kufə xalqına buyurdu: "İndi bilin və agah olun, zinazadə oğlu zinazadə, yəni İbn Ziyad məni iki yol arasında qoyub; ya qılıncımı çəkib mübarizə meydanında vuruşum, ya da zillət paltarını əynimə geyim. Zillət biz əhli-beytdən uzaqdır. Allah və Rəsulu buna razı olmaz. İndi mən sizə höccətimi tamamladım. And olsun Allaha, məndən sonra piyadanın ata mindiyi zaman qədər diri qalmayacaqsınız. Əgər mənə möhlət verməyib üstümə hücum etsəniz, mən də Allahıma təvəkkül etmişəm. Allah mənim və sizin Rəbbinizdir. Hər bir canlının taleyi onun qüdrəti altındadır." Sonra İmam *(ə)* sözlərinə belə davam etdi: "Ey mənim Rəbbim, səmanın yağışını bu camaatdan kəs. Onlara elə bir qıtlıq göndər ki, Hz.Yusifin *(ə)* zamanında misirliləri onunla imtahan etdin. Onlara Səqif qulamını hakim et. Qoy onlara ölümün acı şərbətini dadızdırsın. Çünki onlar bizi aldatdılar və bizə kömək etməkdən boyun qaçırdılar." Bu xütbədən sonra İmam Hüseyn *(ə)* Ömər ibn Sədi yanına çağırıb buyurdu: "Ey Ömər, sən məni qətlə yetirmək istəyirsən və belə güman edirsən ki, bunun müqabilində zinazadə oğlu İbn Ziyad səni Rey və Curcan məmləkətinə hakim təyin edəcək. And olsun Allaha, sən öz məqsədinə çatmayacaqsan və o iki məmləkətin təbrik gününü görməyəcəksən. Sanki mən sənin başını görürəm Kufədə ağacın başına keçiriblər və uşaqlar ona daş atırlar."

Hz.Hüseynin *(ə)* bu sözlərindən qəzəblənən Ömər ibn Səd qoşununa tərəf qayıdıb dedi: "Nə vaxta qədər gözləyəcəksiniz? Hüseynə və onun əshabına yaxşıca həmlə edin.

Bu mənzərəni görən Hürr ibn Yezid Ömər ibn Sədə yaxınlaşaraq soruşdu: "Sən Hüseynlə müharibə etmək fikrindəsən?! Ömər dedi: "Bəli, and olsun Allaha elə bir müharibə edəcəyəm ki, ən azı başlar və qollar bədəndən ayrılacaq. Bu sözlərdən sonra dostlarından ayrılan Hürr ibn Yezid, İmam Hüseynin *(ə)* qaldığı xeyməyə yaxınlaşaraq əllərini başına qoyub dedi: "İlahi, Sənin dərgahına tövbə edirəm, mənim tövbəmi qəbul et!" Sonra üzünü İmam Hüseynə *(ə)* tutaraq dedi: "Mən həmin şəxsəm ki, sizin Mədinəyə qayıtmağınıza mane oldum. İndi tutduğum əməlimdən peşmanam, Allah dərgahına tövbə etmək istəyirəm. Görəsən tövbəm qəbul olunacaqmı? Həzrət buyurdu: Bəli, Allah sənin tövbəni qəbul edəcək, düş atdan. Hürr dedi: Sənin yolunda at üstündə vu-

ruşmaq piyada vuruşmaqdan daha yaxşıdır. İmam *(ə)* buyurdu: "Allah sənə rəhm eləsən, istədiyini et."

Hz.Hüseynin *(ə)* icazəsindən sonra döyüş meydanına gedən Hürr ibn Yezid düşmənin bir neçə əsgərini öldürdü. Bu zaman Həsin ibn Təmim üzünü Yezid ibn Süfyana tutub dedi: "Ey Yezid, bu həmin Hürrdür ki, sən onu öldürmək istəyirdin. İndi o, meydandadır, onunla mübarizəyə çıx." Bu sözlərdən sonra Yezid döyüşə çıxsa da Hürr tərəfindən cəhənnəmə vasil edildi. Bunu görən Ömər ibn Səd Həsin ibn Təmimə əmr etdi ki, İmamın *(ə)* əshabını oxa tutsunlar. Nəticədə onların atlarını həlak etdilər və süvarilər piyada qaldılar. Bu vaxt Ömər ibn Sədin qoşunundan bir dəstə Hürrə həmlə edərək onu şəhid etdilər. Onun yanına gələn İmam Hüseyn *(ə)* buyurdu: "Ey Hürr, doğrudan da sən adlandırıldığın kimi Hürrsən. Sən dünya və axirətdə azadsan."

Hürrün şəhadətindən sonra meydana çıxan Büreyr ibn Xüzeyrdə Rəzi ibn Munqiz Əbdi və Kəb ibn Cabir tətəfindən şəhid edildi.

Hürr ibn Yezidin şəhadətindən əvvəl İmamın *(ə)* əshabından şəhid olanların adları belədir: Nüeym ibn Əclan, İmran ibn Kəb ibn Haris Əşcəi, Hənzələ ibn Əmr Şeybani, Qasit ibn Züheyr, Muqsit ibn Züheyr, Kənanə ibn Ətiq Tağlibi, Əmr ibn Zübeyə ibn Qeys Təmimi, Zərcamə ibn Malik Tağlibi, Amir ibn Müslim Əbdi, Seyf ibn Abdullah ibn Malik Əbdi, Əbdürrəhman ibn Abdullah Ərhəbi Həmdani, Hübab ibn Amir Teymi, Əmr Cundui, Hulas ibn Əmr Əzdi Rasibi, Nöman ibn Əmr Əzdi Rasibi, Səvvar ibn Əbu Ümeyr Nəhmi, Əmmar ibn Əbu Səlamət, Əmir ibn Həmiq, Məsud ibn Həccac və oğlu Əbdürrəhman, Züheyr ibn Bişr Xəsəmi, Əmmar ibn Həssan, Müslim ibn Kəsir Əzdi, Züheyr ibn Süleym Əzdi, Condəb ibn Hücr Kindi, Cənadə ibn Kəb Ənsari, Salim ibn Əmr, Qasim ibn Həbib Əzdi, Bəkr ibn Həyy Teymi, Ümeyyə ibn Səd Tai, Abdullah ibn Bişr, Bişr ibn Əmr, Həccac ibn Bədr, Qənəb ibn Əmr, Aiz ibn Mücəmmi, Əsləm ibn Əmr, Müncih ibn Səhm, Səd ibn Hərs, Həsr ibn Əbu Neyzər və Hərs ibn Nəbhan.

Vəhəb ibn Abdullah və Müslim ibn Ovsəcənin şəhadəti

Vəhəb ibn Abdullah anasının təhriki ilə atını döyüş meydanına sürüb kafirlərdən bir neçəsini öldürdü. Sonra anasının yanına qayıdaraq soruşdu: "Məndən razısanmı?" Anası belə cavab verdi: "İmamın *(ə)* qarşısında şəhid olmayana qədər səndən razı olmaram." Anasının bu sözlərindən sonra meydana qayıdan Vəhəb 19 süvari və 12 piyadanı qətlə yetirdi və sonda onun hər iki əlini kəsdilər. Bu mənzərəni görən anası döyüş meydanına gedərək dedi: "Ey Vəhəb, nə qədər qüdrətin var, Hz.Peyğəmbərin *(s)* hərəmini düşməndən qoru." İmamın *(ə)* göstərişi ilə qadın geri qayıtdıqdan sonra Vəhəb döyüş meydanında şəhid oldu.

Vəhəb ibn Abdullahın şəhadətindən sonra Müslim ibn Ovsəcə döyüş meydanına getdi. Bütün qüvvəsi ilə vuruşduqdan sonra atdan yerə düşdü. Bu vaxt İmam Hüseyn *(ə)* və Həbib ibn Məzahir onun yanına gəldilər. İmam *(ə)* Müslimin bağışlanmasını Allahdan istəyib bu ayəni oxudu: **"Onların bəziləri öz**

əhdlərinə vəfa etdilər (şəhid oldular) və bəziləri şəhadətə yetişmək üçün intizar çəkirlər, onlar əhdlərinə vəfa edib sözlərindən dönmədilər."[255] Həbib irəli gəlib dedi: "Sənin ölümün mənim üçün çətindir, amma şəhid olub cənnətə getdiyinə görə səni təbrik edirəm. Müslim zəif səslə dedi: "Allah səni sevindirsin. Sonra İmam Hüseynə işarə edib Həbibə dedi: "O həzrətə kömək etməyi və onun yolunda vuruşub şəhid olmağı sənə vəsiyyət edirəm. Bu sözlərdən sonra Müslim şəhadətə qovuşdu. Onun qatili Müslim Zübabi və Əbdürrəhman Bəcəlidir.

Müslimdən sonra döyüş meydanına gedən Əmr ibn Qurtə də şəhadət şərbətini içdi.

Həbib ibn Məzahir və Səid ibn Abdullahın şəhadəti

Həsin ibn Təmimin döyüş meydanında olduğunu görən Həbib ibn Məzahir irəli gedərək onu lənətlədi. Bu vaxt Həsin və adamları Həbibə hücum etdilər. Bəni Təmim qəbiləsindən olan Büdeyl ibn Süreym ona həmlə edib qılıncla onun başına vurdu. Həmin qəbilədən olan digər bir şəxs isə nizə ilə vurub Həbibi atdan saldı. Həsin ibn Təmim qılıncı Həbibin başına vurub onu şəhid etdi. Sonra atdan düşərək onun başını bədənindən ayırdı.

Bu arada namaz vaxtı olduğu üçün İmam Hüseyn *(ə)* Züheyr ibn Qeynə və Səid ibn Abdullaha buyurdu: "Mənim qarşımda dayanın ki, zöhr namazını qılım." Onlar İmamın göstərişinə əsasən özlərini düşmənlərin oxlarına və nizələrinə hədəf qərar verdilər. İmam *(ə)* əshabın yarısı ilə zöhr namazını xof namazı kimi (iki rükət) qıldı. Bu vaxt Səid ibn Abdullah qılınc, nizə və ox zərbələri nəticəsində yıxılaraq dedi: "İlahi, bu camaata Ad və Səmud tayfalarına lənət etdiyin kimi lənət et. Ey mənim Rəbbim, mənim salamımı Peyğəmbərə yetir. Mənə yetişən bu qılınc və ox yaralarının ağrısını ona bəyan et."Səid bu sözləri deyib şəhadətə qovuşdu.

Züheyr ibn Qeynin, Nafe ibn Hilalın, Əbdürrəhman və Abdullah Qifarinin şəhadəti

Səid ibn Abdullahın şəhadətindən sonra döyüş meydanına gedən Züheyr ibn Qeyn, Məhəmməd ibn Əbu Talibin nəql etdiyinə görə düşmən dəstəsindən 12 nəfəri cəhənnəmə göndərdi. Bunu görən Kəsir ibn Abdullah Şuəbi, Mühacir ibn Ovs Təmimi ilə birlikdə həmlə edərək onu şəhid etdilər. Züheyr yıxılanda İmam *(ə)* buyurdu: "Allah səni öz nəzərindən uzaq etməsin və səni öldürənlərə lənət etsin."

Züheyrin şəhadətindən sonra Nafe ibn Hilal döyüş meydanına gedərək döyüşməyə başladı. Şimr ibn Zilcövşənin adamları onun qolunu sındırıb əsir olaraq Ömər ibn Sədin yanına apardılar. Ömər ibn Səd dedi: "Vay olsun sənə ey Nafe! Səni nə vadar etdi ki, özünə rəhm etmədin?" Nafe dedi: "Allah bilir ki, mən nə iradə etmişəm və özümü sizinlə müharibə etdiyimə görə məzəmmət etmirəm. Əgər mənim qollarım salamat olsaydı məni əsir edə bilməzdilər." Ömərin əmri ilə Şimr onu öldürmək istəyəndə Nafe dedi: "And olsun Allaha, əgər sən müsəlman

[255]"Əhzab" surəsi, ayə-23.

olsaydın Allahın dərgahına bizim qanımıza bais olduğun halda gəlməyin sənə ağır gələrdi. Şükr olsun Allaha, bizim ölümümüzü öz məxluqundan ən pis və rəzil olanın əlində qərar verib." Bu sözlərdən sonra Şimr onu şəhid etdi.

İmam Hüseynin *(ə)* əshabının çoxu şəhid olandan sonra Urvə Qifarinin oğlanları Abdullah və Əbdürrəhman da mərdlik göstərərək şəhid oldular.

Hənzələ ibn Əsəd Şibaminin, Şuzəbin, Abbasın və Əbu Şəsə Bəhdəli Kindinin şəhadəti

Hənzələ ibn Əsəd İmamın qarşısında dayanıb, onu atılan oxlardan və nizələrdən qoruya-qoruya düşmənlərə nida edib deyirdi: "Ey camaat, qoruxuram ki, siz Allahın əzabına düçar olasınız və qorxuram ki, keçmiş ümmətlərə yetişən əzab sizə də yetişsin. Nuh, Ad, Səmud və onlardan sonra küfr yolu ilə gedən tayfalara yetişən əzab sizə də nazil olsun. Ey camaat, Allah bəndələrinə zülm etmək istəmir. Mən sizə görə qiyamət günündən qorxuram. Ey camaat, Hüseyni öldürməyin. Allah sizi ona görə məhv edəcək. Hər kəs Allaha iftira və böhtan atsa, Allahın rəhmətindən uzaq düşər." Hənzələ bu sözlər ilə Ali Firondan olan mömin kişinin onlara etdiyi nəsihətə işarə edirdi. Sonra İmamla *(ə)* vidalaşıb döyüş meydanında bir neçə düşməni öldürdükdən sonra şəhid oldu.

Hənzələnin şəhadətindən sonra Şuzəb, Abbas və Əbu Şəsə Bəhdəli də İmamın *(ə)* icazəsindən sonra döyüş meydanında mərdliklə vuruşaraq şəhid oldular. İmam Hüseyn *(ə)* onların hər üçünün cənnətdə özü ilə birlikdə olacaqlarını vurğuladı.

Covnun, Həccac ibn Məsruqun və Əmr ibn Qərəzə ibn Kəb Ənsari Xəzrəcinin şəhadəti

Əbuzər Qəffarinin qulamı olan Covn Kərbəlada İmam Hüseynin *(ə)* ordusunda yer alanlardan biri idi. O, İmamın *(ə)* icazəsindən sonra döyüş meydanına gedib, iyirmi beş nəfəri cəhənnəmə göndərəndən sonra özü də şəhid oldu. Hz.Hüseyn *(ə)* onun cənazəsinin yanında dayanıb belə dua etdi: "İlahi, Covnun üzünü ağ və iyini ətirli et. Onu saleh adamlarla məşhur et. Onunla Məhəmməd və Ali Məhəmməd arasında dostluq yarat."

Covnun şəhadətindən sonra döyüş meydanına gedən İmamın *(ə)* müəzzini Həccac ibn Məsruq da iyirmi beş nəfəri öldürəndən sonra şəhid oldu.

Sonra Əmr ibn Qərəzə İmamdan *(ə)* icazə aldıqdan sonra döyüş meydanına gedib, İbn Ziyadın ordusundan bir neçə nəfəri öldürdü. Aldığı yaralardan vəziyyəti ağırlaşanda İmam Hüseynə *(ə)* buyurdu: "Ey Peyğəmbər övladı, əhdimə vəfa etdimmi?" Hz.Hüseyn *(ə)* buyurdu: "Bəli, sən məndən qabaq cənnətə gedəcəksən. Hz.Peyğəmbərə *(s)* məndən salam yetir və ona xəbər ver ki, mən də sənin dalınca gəlirəm." Bu sözlərdən sonra Əmr şəhid oldu.

Əmrin atası Qərəzə Hz.Peyğəmbərin *(s)* səhabələrindən və Hz.Əlinin *(ə)* əshabından idi. Hicrətin 24-cü ilində Əbu Musa ilə birlikdə Rey vilayətini fəth etmişdi. Siffeyn döyüşündə Hz.Əli *(ə)* tərəfindən Ənsarın ələmdarı olan Qərəzə hicrətin 51-ci ilində vəfat etmişdi.

Aşura günü Haşimi övladlarının şəhadəti

Cənab Əli ibn Hüseynin (Əli Əkbərin) şəhadəti: Anası Leyla binti Urvə ibn Məsud Səqəfidir. Urvə ibn Məsud məşhur səhabələrdən olub və onun İsa ibn Məryəmə oxşadığını nəql ediblər. Hz.Əli *(ə)* kimi şücaətli olan Əli Əkbər camaat arasında Hz.Peyğəmbərə *(s)* ən çox oxşayan şəxs idi.

Hz.Əli Əkbər atasından icazə alıb döyüş meydanına getdikdən sonra Hz.Hüseyn *(ə)* üzünü səmaya tutub buyurdu: "İlahi, camaatın əməlinə Sən şahid oldun ki, onlarla mübarizəyə yer üzündə camaat arasında Sənin Peyğəmbərinə yaradılış və əxlaq baxımından ən çox oxşayan bir cavan gedir. Biz Sənin Peyğəmbərini görməyi arzulayanda o cavana baxırdıq. İlahi, torpağın bərəkətini onlardan saxla. İlahi, onların hökumətini onlardan razı etmə. Çünki onlar bizi çağırdılar və bizə kömək edəcəklərini vədə verdilər. Amma biz onların dəvətini qəbul edəndən sonra bizimlə ədavətə başladılar." Sonra Hz.Hüseyn *(ə)* uca bir səslə bu ayəni tilavət etdi: **"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etdi. Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!"**[256]

Digər tərəfdən meydana gedən Əli Əkbər, rəvayətə görə düşmən dəstəsindən 120 nəfəri qətlə yetirdi. Bu vaxt susuzluğun şiddətindən əldən düşmüş Əli Əkbər atasına tərəf qayıdaraq ərz etdi: "Ata, susuzluq məni həlak etdi. Mümkündürmü ki, mənə bir içim su verəsiniz? Hz.Hüseynin *(ə)* gözlərindən yaş axmağa başladı və buyurdu: "Oğlum, bir az döyüş, tez bir zamanda cəddin Peyğəmbərin *(s)* görüşünə gedəcəksən və səni elə bir şərbətlə sirab edəcək ki, heç vaxt susuz olmayacaqsan." Atasının sözlərindən sonra meydana qayıdan Əli Əkbər Münqəz ibn Mərrət (və ya Mərrə ibn Münqiz) tərəfindən şəhid edildi.

O məzlum şəhidin yanına gələn Hz.Hüseyn *(ə)* üzünü onun üzünə qoyaraq buyurdu: "Allah səni öldürənləri öldürsün. Onları nə belə ürəkləndirib qorxmaz edib ki, onlar Allahdan və Peyğəmbərdən qorxmayıb onun hörmət pərdəsini yırtdılar." Sonra əlavə edərək buyurdu: "Ey oğul, səndən sonra bu dünyanın başına kül olsun."

Abdullah ibn Müslim ibn Əqilin şəhadəti

Məhəmməd ibn Əbu Talib buyurub: İmam Hüseynin *(ə)* əhli-beytindən birinci meydana gedən Abdullah ibn Müslim oldu. Bir neçə nəfəri qətlə yetirdikdən sonra onu Əmr ibn Səbih şəhid etdi. Anası Hz.Əlinin *(ə)* qızı Ruqəyyədir.

Şeyx Müfid və Təbəri rəvayət ediblər ki, Əmr ibn Səbih Abdullaha ox atıb onu yaraladıqdan sonra nizəni onun ürəyinə vurub şəhid etdi. Onun şəhadətindən sonra Əbu Talib övladlarının hamısı bir yerdə düşmənə həmlə etdilər. Hz.Hüseyn *(ə)* onları belə görəndə buyurdu: "Ölümün müqabilində səbr edin ey mənim əmim oğlanları!" Onlar meydandan qayıtmamışdılar ki, Məhəmməd ibn Müslim şəhid oldu. Onun qatilləri Əbu Mərhəm Əzdi və Ləqi ibn Əyas Cəhni oldular.

---

[256] "Ali-İmran" surəsi, ayə-33-34.

Abdullah ibn Müslimin şəhadətindən sonra meydana gedən Məhəmməd ibn Abdullah ibn Cəfər döyüş meydanına gedib on nəfəri qətlə yetirdikdən sonra Amir ibn Nəhşəl tərəfindən şəhid edildi. Anası Xovsa binti Həfsdir.

Qardaşının şəhadətindən sonra meydana gedən Ovn ibn Abdullah ibn Cəfər on səkkiz nəfəri qətlə yetirdi. Sonda o da Abdullah ibn Qutnə tərəfindən şəhid edildi. Anası Hz.Əlinin və Hz.Fatimənin qızı Hz.Zeynəb idi.

Kərbəla hadisəsində Əqilin övladlarından Əbdürrəhman ibn Əqil Osman ibn Xalid, Cəfər ibn Əqil Buşr ibn Sovt, Abdullah Əkbər ibn Əqil Osman ibn Xalid Həmdani, Məhəmməd ibn Əbu Səid ibn Əqil isə Ləqiq ibn Yasir Cuhəni tərəfindən şəhid edilmişdir.

Qasim ibn İmam Həsənin *(ə)* şəhadəti

Cənab Qasim əmisi Hz.Hüseynin *(ə)* icazəsindən sonra döyüş meydanına gedərək 35 nəfəri cəhənnəmə göndərdi. Sonda o, Əmr ibn Səd Füzeyl Əzdi tərəfindən şəhid edildi.

Cənab Qasimin Kərbəlada İmam Hüseynin *(ə)* qızı Fatimə ilə evlənməsi həqiqətə uyğun deyil. Çünki mötəbər kitablarda bu məsələ qeyd olunmayıb və digər tərəfdən isə İmam Hüseynin *(ə)* iki qızı var idi. Onlardan biri Səkinə idi. Şeyx Təbərsinin rəvayətinə görə İmam *(ə)* onu Abdullaha ərə vermişdi. Lakin Səkinə ər evinə getməmiş Abdullah şəhid oldu. İmamın *(ə)* ikinci qızı Fatimə idi. O, İmam Həsənin *(ə)* oğlu Həsəni-Müsənnanın zövcəsi idi. Əgər qeyri-mənbələrə əsasən deyilsə ki, İmamın *(ə)* Fatimə adlı ikinci qızı var idi, bu zaman deyərik ki, o, Fatimeyi-Suğra idi və Mədinədə qalmışdı. Onu Qasim ibn Həsənlə *(ə)* əlaqələndirmək olmaz. Ən doğrusunu Allah bilir.

Cənab Qasimin şəhadətindən sonra qardaşı Abdullah ibn Həsən *(ə)* döyüş meydanına gedib on dörd nəfəri qətlə yetirdi və sonda Hani ibn Sabit tərəfindən şəhid edildi. İmam Həsənin *(ə)* digər oğlu Əbu Bəkri isə Abdullah ibn Uqbə Qənəvi şəhid etmişdir.

Onların şəhadətindən sonra meydana gedən Hz.Əlinin *(ə)* dörd oğlu Abdullah ibn Əli və Cəfər ibn Əli Hani ibn Səbt Həzrəmi, Osman ibn Əli Yezid ibn Əsbəhi, Əbu Bəkr ibn Əli isə Zəhr ibn Bədr (və ya Uqbə Qənəvi) tərəfindən şəhid edildi. İmam Baqirdən *(ə)* nəql olunan rəvayətə görə Cəfər ibn Əlini Xuli şəhid etmişdir.

Hz.Əbülfəzl Abbas ibn Əlinin *(ə)* şəhadəti

Hz.Abbas Hz.Əlinin *(ə)* Ümmül-Bənin adlı xanımından doğulan dördüncü oğludur. Künyəsi Əbülfəzl, ləqəbi Səqqa və Ələmdardır. Həddən artıq gözəl olduğu üçün ona Qəməri-Bəni Haşim (Bəni-Haşimin ayı) deyərdilər. Qardaşlarının şəhadətindən sonra İmam Hüseynin *(ə)* tək qaldığını görən Hz.Abbas İmamın *(ə)* hüzuruna gəlib buyurdu: “Qardaş mənə izn ver canımı sənə fəda edim.” Hz.Abbasın sözlərindən kövrələn İmam Hüseyn *(ə)* buyurdu: “Qardaş, sən mənim ələmdarımsan, əgər sən sağ qalmasan onda mənimlə heç kim qalmayacaq.” Hz.Abbas buyurdu: “Qardaş, istəyim budur ki, bu camaatdan qardaşları-

mın intiqamını alım.” İmam Hüseyn *(ə)* buyurdu: “İndi ki, axirət səfərinə hazırlaşmısan, onda bu uşaqlar üçün bir az su gətir.”

Hz.Abbas düşmənlərin qarşısında dayanıb onları nəsihət etsə də heç bir nəticəsi olmadı. Qardaşı Hüseynin *(ə)* yanına qayıdıb vəziyyəti ona danışdı. Uşaqların ucalan nalələrinə dözə bilməyən Hz.Abbas nizə ilə tuluğu götürüb Fərata tərəf yollandı. Fərat çayının sahilində yerləşdirilmiş dörd min nəfər Hz.Abbası mühasirəyə alaraq ox atmağa başladılar. Çətinliklərə əhəmiyyət verməyən Hz.Abbas tuluğu su ilə doldurub tez çaydan çıxdı ki, özünü qardaşına yetirsin və uşaqları susuzluğun əzabından qurtarsın. Düşmənlər hər tərəfdən onun yolunu bağlayıb ona hücum etməyə başladılar. Zeyd ibn Rəqqad Hz.Abbasın sağ qolunu, Hökm ibn Tüfeyl isə sol qolunu kəsdi. Sonra isə Həzrəti sinəsindən vuraraq onu atdan saldılar. Sonra məlunlardan biri dəmir toppuzu onun başına vuraraq onu şəhadətə çatdırdı.

İmam Səccaddan *(ə)* nəql olunan rəvayətdə deyilir: “Hz.Abbas qardaşını özündən üstün tutub canını onun yolunda fəda etdi və qardaşına kömək etdiyi halda qollarını bədənindən ayırdılar. Allah o iki əlin əvəzində ona iki ədəd qanad verdi ki, cənnətdə mələklərlə birlikdə pərvaz edir. Allah yanında Hz.Abbasın elə bir məqamı var ki, qiyamət günündə bütün şəhidlər ona qibtə edərlər bütün şəhidlər onun məqamına çatmağı arzulayarlar.” Rəvayətə görə Hz.Abbas şəhid ediləndə 34 yaşı var idi.

İmam Hüseynin *(ə)* şəhadəti

Əhli-beytindən və yavərlərindən 72 nəfərin şəhid olduğunu görən İmam Hüseyn *(ə)* meydana gedib o məlunlarla cihad etmək qərarına gəldi. Hz.Hüseyn *(ə)* öz əhli-beyti ilə vidalaşmaq üçün xeymələrin qarşısında dayanıb buyurdu: “Ey Səkinə, ey Fatimə, ey Zeynəb, ey Ümmü Gülsüm, sizə məndən salam olsun!” Səkinə dedi: “Atacan, ölüməmi hazırlaşırsan?” İmam *(ə)* buyurdu: “Yavər və köməyi olmayan şəxs necə də ölümə könül verməsin?” Səkinə dedi: “Ata, elə isə bizi cəddimiz Peyğəmbərin *(s)* hərəminə qaytar.” İmam *(ə)* onun cavabında buyurdu: “Əgər bu qoşun məndən əl çəksəydi, sizi bir yerə aparardım. Lakin bunlar məndən əl çəkməyəcəklər.”

Kərbəla müsibəti ürəkləri yandırıb gözləri ağladır, lakin Həzrətin vida müsibəti hamısından təsirlidir. Xüsusən o vaxt ki, İmamın uşaqları və qohumlarının uşaqları ki, ona övlad yerində idilər. İmam Baqirdən *(ə)* rəvayət olunub ki, İmam *(ə)* Aşura günü böyük qızı Fatiməni yanına çağırıb, ona əskiyə bükülmüş bir kitab və açıq şəkildə bir vəsiyyətnamə verdi. O vaxt Əli ibn Hüseyn *(ə)* (İmam Səccad) xəstə idi. Sonralar Fatimə o kitabı Əli ibn Hüseynə verdi və o kitab ondan sonra bizə yetişdi.

“İsbatul-vəsiyyə” kitabında yazılıb: İmam Hüseyn *(ə)* oğlu Əli ibn Hüseyni *(ə)* yanına çağırdı. O vaxt Hz.Əli ibn Hüseyn *(ə)* xəstə idi. İmam Hüseyn *(ə)* ona İsmi-Əzəmi və Peyğəmbərdən irs qalmış şeyləri vəsiyyət etdi. İmam oğlunu bütün elmlərə, Allah tərəfindən göndərilmiş bütün kitablara və Ümmü Sələ-

mənin yanında əmanət qoyduğu peyğəmbərlərdən ona irs olaraq yetişən silaha agah etdi. İmam *(ə)* Ümmü Sələməyə tapşırmışdı ki, İmam Səccad *(ə)* qayıdandan sonra o silahı ona versin.

Ravəndi "Dəəvat" kitabında İmam Səccaddan *(ə)* nəql edib ki, buyurub: "Atam şəhid olan günü məni qucaqlayıb bağrına basdı. Bu vaxt qan onun damarlarından fəvvarə kimi axırdı. Atam mənə buyurdu: "Oğlum, anam Fatimənin *(ə)* mənə təslim etdiyi duanı sən də hifz et. Bu duanı anama Hz.Peyğəmbər *(s)* öyrədib və ona da Hz.Cəbrail *(ə)* öyrədib. Bu duanı Hz.Cəbrail *(ə)* mühüm işlərdən ötrü, qəmləri və böyük bəlaları aradan aparmaqdan ötrü Hz.Peyğəmbərə *(s)* öyrədib: "İlahi, Səni and verirəm Yasin və hikmətli Quranın ehtiramına. İlahi, Səni and verirəm "Taha"ya və əzəmətli Quranın şərəfinə. Ey hacətlilərin hacətini yerinə yetirməyə qadir olan, ey batindəki niyyətlərə agah olan, ey qəmlilərin qəmini dağıdan, ey qüssəliləri qüssədən azad edən, ey qocaya rəhm edib körpəyə ruzi verən və ey şərhə ehtiyacı olmayan, Məhəmməd və ali Məhəmmədə salavat göndər. Mənim üçün bu işləri əncam ver."

İmam *(ə)* meydana getdikdən sonra atasının tənha və köməksiz olduğunu görən İmam Səccad *(ə)* zəiflikdən qılıncı götürməyə qüdrəti olmadığına baxmayaraq meydana getdi. Bunu görən Hz.Hüseyn *(ə)* bacısı Ümmü Gülsümə buyurdu: "Onu geri qaytar. Qoyma onun ölümü ilə Ali Muhəmmədin nəsli yer üzündən kəsilsin."

Sonra xeymələrin qarşısına gələn İmam Hüseyn *(ə)* bacısı Zeynəbə buyurdu: "Körpə balamı mənə verin, qoy onunla vidalaşım." İmam *(ə)* körpəni qucağına alıb üzünü dodaqlarına tərəf aparmaq istəyirdi ki, bu vaxt məlun Hərmələ ibn Kahil Əsədi oxu ataraq o məzlum körpəni boğazından vuraraq şəhid etdi. İmam *(ə)* körpəni bacısı Zeynəbə verdi və əllərini onun boğazından axan qanın altına tutdu. Ovucu qan ilə dolandan sonra onu səmaya atıb buyurdu: "Mənə üz verən hər müsibət mənim üçün asan olur, çünki Allah özü bunu istəmir."

Bu sözlərdən sonra düşmən dəstəsinə hücum edən İmam Hüseyn *(ə)* onlardan bir neçəsini cəhənnəmə vasil etdi. Bu vaxt Ömər ibn Səd başa düşdü ki, yer üzündə İmamla *(ə)* mübarizə etməyə qadir adam yoxdur və belə getsə bütün qoşun onun qılıncına yem olacaq. Ona görə də qoşuna dedi: "Vay olsun sizə! Heç kiminlə mübarizə etdiyinizi bilirsiniz? Bu qaliblərin qalibi Əli ibn Əbu Talibin oğludur. Hamınız bir yerdə dörd tərəfdən ona hücum edin." Dörd min nəfərlik ordu İmamı mühasirəyə alıb onunla xeymələr arasına girdilər. Kafirlərin xeymələrə tərəf getdiyini görən İmam *(ə)* buyurdu: "Ey Əbu Süfyanın davamçıları, əgər dindən əl çəkib qiyamət günündən qorxmursunuzsa, heç olmazsa dünyada qeyrətli və azad olun. Öz əsil-nəsəbinizə qayıdın. Çünki siz ərəbsiniz. Ərəbin qeyrəti var." Məlun Şimr dedi: "Ey Fatimənin oğlu, nə demək istəyirsən?" İmam *(ə)* buyurdu: "Mən sizinlə müharibə edirəm və siz də mənimlə. Qadınların nə günahı var?" Şimr dedi: "Ay camaat, xeymələrdən uzaqlaşın ki, onlar kərim adamın Əhli-beytidir."

Əhli-beytinin yanına qayıdan İmam Hüseyn *(ə)* onlarla ikinci dəfə vidalaşıb meydana qayıtdı. İmam Baqirin *(ə)* buyurduğuna görə, İmam Hüseyn *(ə)* bu döyüşdə yüzdən yuxarı yara almışdı. Bu vaxt İmam *(ə)* yaraların çoxluğundan, susuzluğun şiddətindən və yorğunluğun təsirindən dayandı ki, bir qədər istirahət etsin. Birdən bir zalım İmama daş atdı. Daş İmamın *(ə)* alnına dəydi və qan Həzrətin mübarək üzünə axmağa başladı. İmam Hüseyn *(ə)* axan qanı silmək istədikdə zəhərlənmiş üç başlı ox onun mübarək ürəyinə dəydi. Hz.Hüseyn *(ə)* o halda buyurdu: "Ey mənim Allahım, Sən bilirsən ki, bu camaat elə bir adamı öldürürlər ki, yer üzündə Peyğəmbərin ondan başqa oğlu yoxdur."

İmam Hüseynin *(ə)* taqətsiz vəziyyətdə dayandığını görən Şimr ibn Zilcövşən qoşunun üstünə qışqırdı ki, niyə Hüseynin *(ə)* işini bitirmirsiniz?" Məlunun bu sözündən sonra Həsin ibn Təmim İmamın mübarək ağzına ox vurdu. Məlun Əbu Əyyub Qənəvi Həzrətin hulqumuna ox vurdu. Məlun Zərə ibn Şərik Həzrətin sol əlini kəsdi. Məlun Ömər ibn Səd onun sağ tərəfində dayanmış bir nəfərə dedi: "Düş atdan, get Hüseyni rahat et." Məlun Xuli ibn Yezid bunu eşidib, İmamın başını bədənindən ayırmaq istəyəndə onu titrəmə bürüdü və bu işi bacarmadı. Bunu görən Şimr ibn Zilcövşən irəli gəlib İmamın *(ə)* müqəddəs başını bədənindən ayırdı. (Seyyid ibn Tavusa görə isə İmamın başını Sənan ibn Ənəs kəsmişdir).

İmam Hüseyn *(ə)* hicrətin 61-ci ili məhərrəm ayının onunda şənbə günü zöhr namazından sonra şəhid oldu. Şəhid olarkən 58 yaşı var idi. Hz.Peyğəmbər *(s)* buyurub: "Hər kəs Hüseyni *(ə)* onun şəhadətindən sonra ziyarət etsə, ona cənnət vacibdir." İmam Sadiq *(ə)* buyurub: "Hüseynin *(ə)* ziyarəti yüz ədəd qəbul olunmuş həcc və umrəyə bərabərdir."[257]

İmam Hüseynin *(ə)* şəhadətindən sonra baş verən hadisələr

Vəfasız Kufəlilər Hz.Hüseyni *(ə)* şəhid edəndən sonra onun paltarlarını oğurlamaq üçün Həzrətin cənazəsinə hücum etdilər. İmamın köynəyini məlun İshaq ibn Həyyat Həzrəmi götürərək geyindi. Bunun müqabilində onun bədənini qara yaralar tutdu, üzünün və başının tükləri töküldü. Həzrətin əmmaməsini götürən məlun Əxnəs ibn Mərsəd (digər bir rəvayətə görə Cabir ibn Yezid Əzdi) dəli olub çöllərə düşdü. Həzrətin başmaqlarını Əsvəd ibn Xalid oğurladı. Həzrətin üzüyünü məlun Bəhdəl ibn Səlim onun barmağı ilə bir yerdə kəsib oğurladı. Muxtar əs-Səqəfi İmamın qisasını ondan alanda onun əllərini və ayaqlarını kəsib buraxdı. İmamın xəz qətifəsini Qeys ibn Əşəs, zirehini Ömər ibn Səd, qılıncını isə Cəmi ibn Xəlq Udi və ya Əsvəd ibn Hənzələ Təmimi götürdü. Məlun Hökm ibn Tüfeyl Hz.Abbasın silahını və paltarlarını oğurladı.

Sonra xeymələrə hücum edən qoşun dəvələrin boyunduruqlarını və qadınların zinət əşyalarını da qarət etdilər.

---

[257] İbn Qəvləviyyə, Kamiliz-ziyarət; Əllamə Məclisi, Biharul-ənvar; Əllamə Nuri, Müstərəkülvəsail

Şəhidlərin başlarının Kufəyə göndərilməsi

Ömər ibn Səd İmamı *(ə)* şəhid edəndən sonra birinci İmamın *(ə)* başını Xuli ibn Yezidə və Həmid ibn Müslimə verib Aşura günü Ubeydullah ibn Ziyadın hüzuruna göndərdi. Həmin gün İbn Ziyadla görüşə bilməyən Xuli sübh tezdən müqəddəs başı götürüb onun yanına apardı.

Ömər ibn Səd İmamın *(ə)* başını Xuliyə tapşırdıqdan sonra əmr etdi ki, 72 nəfərdən ibarət olan qalan şəhidlərin başlarını qaldırıb təmizləsinlər. Ömər o başları Şimr ibn Zilcövşənə, Qeys ibn Əşəs və Əmr ibn Həccaca verib İbn Ziyada göndərdi. Digər bir rəvayətə görə isə məlun Ömər ibn Səd başları Kində, Həvazin, Bəni Təmim, Bəni Əsəd, Məzhəc və sair qəbilələr arasında bölüb İbn Ziyada göndərdi. Özü isə qoşunundan ölənlər üçün namaz qılıb onları dəfn etdi.

İki gün sonra əmr etdi ki, Peyğəmbər balalarını üzü-açıq, çadrasız, yəhərsiz dəvələrə mindirsinlər. İmam Səccadın *(ə)* qollarına qandal vurub boynundan asdılar. Kafirlər Əhli-beyti Bizans əsirləri kimi yola saldılar. Əsirləri qətlgahdan aparanda qadınlar İmamın *(ə)* cənazəsini gördükdə nalə edib üzlərinə vurmağa başladılar. Hz.Əlinin *(ə)* qızı Hz.Zeynəb *(ə)* qardaşı üçün nalə edib həzin səslə və qəmli ürəklə deyirdi: "Ya Məhəmməd, bu sənin Hüseynindir ki, onun başını daldan kəsiblər, əmmaməsini və əbasını oğurlayıblar. Atam fəda olsun o kəsə ki, hərəmini dağıdıb hörmətini sındırdılar. Atam fəda olsun o kəsə ki, qəm-qüssə ilə dünyadan getdi və susuz halda şəhid oldu."

Kəfəmi "Misbah" kitabında yazır: Səkinə dedi: Atam şəhid olandan sonra o mübarək bədəni qucaqlayıb huşumu itirdim. O halda eşitdim ki, atam buyurdu: "Ey mənim şiələrim, hər vaxt ləzzətli bir su içsəniz, onda məni də yada salın. Hər vaxt bir qərib və ya bir şəhid haqqında eşitsəniz, onda mənim üçün nalə edib ağlayın."

Sonra məlun Kufə əhli Əhli-beyti yalın dəvələrə mindirib Kufəyə göndərdilər.

Şəhidlərin dəfni

Ömər ibn Sədin ordusu Kərbəladan Kufəyə getdikdən sonra Qaziriyyədə yaşayan Bəni-Səd tayfasından olan bir dəstə adam qətlgaha gəlib şəhidlərin cənazələrinə namaz qılıb onları dəfn etdilər. Onlar İmamı *(ə)* indiki yerində və oğlu Əli Əsğəri ayaq tərəfində dəfn etdilər. Hz.Abbası Qaziriyyə yolunda halhazırda məqbərəsi olan yerdə dəfn etdilər.

İslam alimlərinə görə İmama yalnız İmam qüsl verib dəfn edə bilər. Buna görə də baxmayaraq ki, Hz.Hüseyni *(ə)* zahirdə Bəni-Əsəd tayfası dəfn etdi, amma əslində İmam Səccad *(ə)* gəlib İmam Hüseyni *(ə)* dəfn etdi. "Bəsairuddəracat" kitabında İmam Təqidən *(ə)* nəql olunmuş rəvayətdən məlum olur ki, Peyğəmbər *(s)*, Hz.Əli *(ə)*, İmam Həsən *(ə)*, İmam Səccad, Cəbrail, Qədr gecəsi nazil olan bütün mələklər İmam Hüseynin *(ə)* dəfnində iştirak etdilər.

“Mənaqib”də Abdullah ibn Abbasdan belə nəql olunur: Hz.Hüseyn *(ə)* şəhid olandan sonra Hz.Peyğəmbəri *(s)* yuxuda gördüm. O ayaqyalın, torpağa bulaşmış və ağlar halda idi. Hz.Peyğəmbər *(s)* ətəyinə bir şey yığmış adam kimi köynəyini köksünə sıxmışdı və bu ayəni oxuyurdu: “Allahı zalımların etdiyi işlərdən qafil bilmə.” Hz.Peyğəmbər buyurdu: “Kərbəlaya getmişdim və Hüseynin qanını yerdən götürüb yığdım. İndi o qanlar mənim ətəyimdədir və mən Kəbənin hüzuruna gedirəm. Onun yanında Hüseyni öldürənlərlə mücadilə edəcəyəm.”

Tirmizinin “Came” və Səmaninin “Fəzailus-səhabə” kitabında nəql olunub ki, Ümmü Sələmə Hz.Peyğəmbəri *(s)* yuxuda gördü ki, Həzrət başına torpaq tökmüşdü. Ümmü Sələmə ərz etdi: Ya Rəsulullah, bu nə haldır? Həzrət buyurdu: “Kərbələdan gəlirəm.”

Əhli-beyt əsirlərinin İbn Ziyadın sarayına daxil olması

Əhli-beyt əsirlərinin Kufəyə daxil olduğunu öyrənən Kufə əhli ibn Ziyadın sarayına doğru tələsirdi. Hz.Hüseynin *(ə)* mübarək başı İbn Ziyadın yanına qoyulmuşdu və o məlun əlindəki çubuqla İmamın *(ə)* qabaq dişlərinə vuraraq istehza ilə deyirdi: “Hüseynin gözəl dişləri var imiş.” Həmin məclisdə Hz.Peyğəmbərin *(s)* səhabələrindən olan Zeyd ibn Ərqəm onun hərəkətinə dözməyərək dedi: “Ey Ziyadın oğlu, çubuğu o mübarək dodaqlardan götür. And olsun Allaha, sənin çubuq vurduğun o dodaqları Hz.Peyğəmbərin *(s)* öpdüyünü mən dəfələrlə görmüşəm.” Bu sözlərdən sonra Zeyd ibn Ərqəmin ağladığını görən İbn Ziyad dedi: “Allah sənin gözlərini ağlar qoysun, ey Allahın düşməni! Allah bizə qələbə nəsib etdiyi üçün ağlayırsan? Əgər qocalıb ağlını əldən vermiş olmasaydın əmr edərdim ki, sənin başını bədənindən ayırsınlar. Vəziyyəti belə görən Zeyd məclisi tərk edib evinə getdi. Bu vaxt İmamın *(ə)* əhli-əyalını o məlunun sarayına daxil etdilər.

İbn Ziyad əsirlər arasında olan Hz.Zeynəbə üzünü tutub dedi: “Şükr olsun Allaha ki, sizi rüsvay edib öldürdü və sizin yalanınızı aşkar etdi.”

Hz.Zeynəb dedi: “Allaha şükr ki, bizi öz Peyğəmbəri Məhəmməd *(s)* vasitəsilə əzizlədi. Bizi bütün rəzalət və napaklıqlardan uzaq etdi. Həqiqətən fasiq adam rüsvay olar və facir adam yalan danışar. Allaha şükr ki, biz onlardan deyilik və onlar başqalarıdırlar.” İbn Ziyad dedi: “Kərbəlada Allahın səninlə və sənin əhli-beytinlə işini necə gördün? Xanım Zeynəb buyurdu: “Mən Allahdan yaxşılıq və gözəllikdən başqa bir şey görmədim. Çünki Ali Muhəmməd elə adamlar idilər ki, Allah onların məqamını uca etmək üçün onlara şəhid olmağı vacib etmişdi. Onlar da Allahın onlara verdiyi məqama çatmaq üçün o əməli yerinə yetirdilər. Tez bir zamanda Allah səni onlarla bir yerdə sual-cavab meydanına gətirəcək və onlar onda səninlə kimin haqq, kimin nahaq olması barədə bəhs edəcəklər.” Bu sözləri eşidən İbn Ziyad Hz.Zeynəbi öldürmək istədikdə Əmr ibn Həris buna imkan vermədi. İbn Ziyad dedi: Allah sənin üsyankar qardaşının və Əhli-beytinin ölümü ilə mənim ürəyimə şəfa verdi.”

Hz.Zeynəb buyurdu: "Təəccüb edirəm o kəsdən ki, onun ürəyi İmamlarını öldürməklə şəfa tapır, halbuki bilir o biri dünyada ondan intiqam alacaqlar." Bu vaxt İmam Səccada *(ə)* tərəf baxan İbn Ziyad onun kimliyini soruşdu. Onun Əli ibn Hüseyn *(ə)* olduğunu öyrəndikdə dedi: "Məgər Əli ibn Hüseyni Allah öldürmədi?" İmam Səccad *(ə)* buyurdu: "O mənim böyük qardaşım idi, onu öldürdülər." İbn Ziyad dedi: "Onu Allah öldürdü." İmam Səccad *(ə)* buyurdu: "Allah hər kəsi əcəli çatanda öldürür."

Bu sözlərdən qəzəblənən İbn Ziyad İmamın *(ə)* ölümünə fərman versə də, buna imkan verməyən Hz.Zeynəb qollarını İmamın *(ə)* boynuna salıb dedi: "And olsun Allaha, ondan əl çəkməyəcəyəm. Əgər onu öldürürsənsə, məni də onunla birlikdə öldür." Bu fikrindən əl çəkən İbn Ziyad əmr etdi ki, İmam Səccadı *(ə)* əhli-beyti ilə birlikdə Cümə məscidinin yanındakı evdə həbs etsinlər.

Əhli-beyti həbs edən İbn Ziyad Yezidə məktub yazaraq bütün əhvalatı ona bildirdi. O Yeziddən əsirlərlə və kəsilmiş başlarla nə cür rəftar etməsi barədə məsləhət istədi. İbn Ziyada məktub yazan Yezid ibn Müaviyə ona bildirdi ki, kəsilmiş başları onların malları ilə birlikdə mənim hüzuruma Şama göndər.

Əsirlərin Şama daxil olması

Tarixi məlumatlara əsasən səfər ayının birində Hz.Hüseynin *(ə)* müqəddəs başını Şama daxil etdilər. Həmin gün Bəni Ümeyyə üçün bayram, İmam əhli üçün isə hüzn və qəmin təzələndiyi gün idi. Şama yaxınlaşanda Ümmü Gülsüm məlun Şimr ibn Zilcövşənə dedi: "Mənim səndən bir istəyim var. İndi Şam şəhərinə çatmışıq. Əgər bizi şəhərə daxil etmək istəyirsənsə, elə yerdən daxil edin ki, orada bizə tamaşa edən az olsun. Əmr et ki, nizələrə vurulmuş başları kəcavələrin arasından çıxarıb irəli aparsınlar ki, camaat onlara tamaşa etməyə məşğul olsunlar və bizə az baxsınlar. Çünki biz camaatın bizə bu qədər baxmağından rüsvay olduq."

Bütün deyilənlərin əksinə olaraq Şimr əmr etdi ki, nizələrdə olan başları kəcavələrin arasında saxlasınlar və onları Şamın izdihamlı Saat darvazasından şəhərə daxil etsinlər. Bununla da qoy onlara çoxlu adamlar tamaşa etsinlər.

Əsirləri Şama daxil etdikdən sonra cümə məscidində həbs etdilər. Bu vaxt qoca bir kişi gəlib dedi: Şükr olsun Allaha ki, sizi öldürdü və bizim şəhərimizə sizin kimilərdən nicat verdi. Yezidi sizə hakim etdi." Qoca sözünü tamamladıqdan sonra İmam Səccad *(ə)* buyurdu: "Sən heç Quran oxumusan?" Qoca "bəli" deyə cavab verdi. İmam Səccad *(ə)* buyurdu: "Bu ayəni oxumusan: **"(Ya Peyğəmbər) de ki: mən risalətimin müqabilində sizdən heç bir muzd istəmirəm. Yalnız sizdən istəyirəm ki, mənim əhli-beytimə məhəbbət göstərəsiniz."**[258] Qoca "bəli oxumuşam" deyə cavab verdi. İmam Səccad *(ə)* buyurdu: "Əhli-beyt bizik ki, Allah bizim məhəbbətimizi risalətin muzdu qərar verib." Sonra buyurdu: "Bu ayəni oxumusan: **"(Ya Peyğəmbər) əqrəbanın haq-**

[258]"Şura" surəsi, ayə-23.

qını ödə."[259] Qoca "bəli oxumuşam" deyə cavab verdi. İmam Səccad *(ə)* buyurdu: "Allahın Peyğəmbərə əmr etdiyi əqrəba bizik və bizim haqqımızı əta etmək Peyğəmbərə əmr olunub." Sonra İmam Səccad *(ə)* buyurdu: "Bu ayəni oxumusan: **"Ey möminlər qazandığınız hər bir şeyin beşdə bir hissəsi Allahın, Peyğəmbərin və onun qohumlarınındır."**[260] Qoca yenə də eyni cavabı verdikdə İmam Səccad *(ə)* buyurdu: "Ayədə ki, qohumlar bizik və Hz.Peyğəmbərin ən yaxın adamları bizik." Daha sonra İmam *(ə)* buyurdu ki, bu ayəni oxumusan: **"Ey Əhli-beyt, həqiqətən Allah istəyir ki, sizdən hər bir eyb və nöqsanı uzaqlaşdırıb sizi pak etsin."**[261] Qoca "bəli" deyə cavab verdikdən sonra İmam *(ə)* buyurdu: "Peyğəmbərin Əhli-beyti bizik və Allah bizim paklığımıza şəhadət verib."

Bu sözləri eşidən qoca etdiyi əməllərdən peşman olaraq tövbə etdi. Bundan xəbər tutan məlun Yezid dərhal qocanı edam etdirdi.

Əhli-beytin Yezidin məclisinə daxil olması

Əhli-beytin Şama daxil olmasından xəbər tutan Yezid özünün zinət içində olan taxtında oturdu. Şam kafirləri məclisə daxil olduğu halda, Peyğəmbərin *(s)* Əhli-beyti şəhidlərin başları ilə qapıda dayanıb içəri daxil olmaq üçün icazə gözləyirdilər. Birinci Hz.Hüseynin *(ə)* başını gətirməyə məmur olan Xuliyə daxil olmaq üçün icazə verildi. Yezid ondan soruşdu: "Vay olsun sənə nə xəbər var?" Xuli dedi: "Ey möminlərin əmiri, sənə müjdə olsun. Allah sənə fəth və kömək əta edib, Hüseyn ibn Əli on səkkiz nəfər Əhli-beyti və altmış nəfər şiələri ilə bizə tərəf gəldilər. Biz ona sülh təklif etdik. Biz ona İbn Ziyadın əmrinə tabe olmağın məsləhətə uyğun olduğunu bildirdik və dedik ki, əgər qəbul etməsə onunla müharibə edəcəyik. Onlar İbn Ziyada itaət etməyi qəbul etmədilər və müharibə etməyi seçdilər. Nəticədə biz onlara hücum edərək başlarını bədənlərindən ayırdıq. Kərbəla düzündə onların bədənləri çılpaq və qana bulaşan halda yerə düşüb qalıb. Qartallar və çölün yırtıcı quşları onların bədənlərini didirdilər." Bu sözləri eşidən məlun Yezid bir anlıq başını aşağı salaraq susdu. Sonra başını qaldırıb dedi: "Əgər Hüseyni öldürməsəydiniz, onda mən sizdən daha çox razı olardım. Əgər mən orada olsaydım, Hüseyni bağışlayardım. Onu həlak etməzdim."

Tarixi mənbələrə əsasən Əhli-beytin Şama daxil olması Yezidə yetişəndə o məlun Cirun sarayının bağında gəzirdi. Uzaqdan nizələrə taxılmış başları görəndə fərəh içində dedi: "Bu kəcavələr zahir olanda Cirun bağındakı qəsrləri işıqlandırdılar. Qarğalar qarıldamağa başladılar. Dedim ki, fəryad etsən də, etməsən də, həqiqətən mən borclu olduğum kəsə borcumu qaytardım." Yezidin bu sözləri deməkdən məqsədi küfrünü izhar etməkdir və Hz.Peyğəmbərdən *(s)* intiqam aldığını bəyan etməkdir. Yəni Hz.Peyğəmbər *(s)* mənim babalarımı və

[259]"İsra" surəsi, ayə-26.
[260]"Ənfal" surəsi, ayə-41.
[261]"Əhzab" surəsi, ayə-33.

qohumlarımı Bədr müharibəsində öldürdü. Mən də onların qisasını onun övladlarından aldım.

Şeyx Əli ibn İbrahim Qumi İmam Sadiqdən *(ə)* belə nəql edir: "İmam Hüseynin *(ə)* başını İmam Səccadla *(ə)* və əsirlərlə Yezidin sarayına daxil edəndə İmam Səccadın *(ə)* əllərini qandallayıb boynundan asmışdılar. Yezid İmam Səccada *(ə)* dedi: "Ey Əli ibn Hüseyn, şükr olsun Allaha ki, sənin atanı öldürdü." İmam *(ə)* buyurdu: "Allahın lənəti olsun o kəsə ki, atamı öldürdü."

Bu sözlərdən qəzəblənən Yezid İmamın *(ə)* qətlinə fərman verdi. Həzrət buyurdu: "Əgər məni öldürsən, onda Peyğəmbərin *(s)* qızlarını onların vətənlərinə kim qaytaracaq? Çünki məndən başqa onlara bir məhrəm yoxdur." İmamın *(ə)* bu sözlərindən sonra Yezid bu ayəni oxudu: **"Düçar olduğunuz hər bir müsibəti öz əllərinizlə qazanmısınız. Allah sizin çoxlu günahlarınızı əfv edir."**

Məlun Yezidin cavabı olaraq İmam Səccad *(ə)* buyurdu: "Sənin güman etdiyin kimi deyildir. Bu ayə bizim haqqımızda nazil olmayıb. Bizim haqqımızda nazil olan bu ayədir: **"Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl Lövhi-məhfuzda yazılmamış olsun. Bu, Allah üçün çox asandır. Bu sizin əlinizdən çıxana təəssüflənməməyiniz və sizə verilənə də sevinməməyiniz üçündür. Allah özünü bəyənən, özü ilə fəxr edən heç bir kəsi sevməz!"**[262]

Bu söhbətdən sonra Yezid yenə də əlindəki bambuk ağacı ilə Hz.Hüseynin *(ə)* mübarək dişlərinə vurmağa başladı. Bunu görən Peyğəmbər *(s)* səhabələrindən olan Əbu Bərzə dedi: "Vay olsun sənə ey Yezid!. Hüseynin dişlərinə bambuk ağacı ilə vurursan? Mən şəhadət verirəm ki, gördüm, Hz.Peyğəmbər *(s)* onun və qardaşı Həsənin dişlərini öpüb sorurdu. Hz.Peyğəmbər *(s)* onlara deyirdi: "Siz cənnət cavanlarının ağalarısınız. Allah sizi öldürənləri öldürsün və sizin qatillərinizə lənət eləsin. Allah cəhənnəmi sizin qatillərinizüçün hazır etsin."

Bu sözlərdən qəzəblənən Yezid göstəriş verdi ki, onu məclisdən çıxartsınlar. Bu vaxt ayağa qalxan Hz.Zeynəb belə buyurdu: "Həmd və sitayiş bütün aləmlərin Rəbbi olan Allaha məxsusdur. Həqiqətən Allah düz buyurub: **"Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu."**[263] Hz.Zeynəb bu ayə ilə bildirdi ki, Yezid və onun tərəfdarları Allahın əmrindən boyun qaçırıb onun ayələrini inkar ediblər. Onların yeri cəhənnəmdir. Sonra Hz.Zeynəb üzünü Yezidə tutub dedi: "Bəli, Yezid, elə güman edirsən ki, yeri-göyü bizə dar etmisən? Bizi şəhərdən-şəhərə əsirlər kimi dolandırmaqla bizim məqamımızdan və şərafətimizdən azaldıb Allah müqabilində öz kəramətinə əlavə etmisən? Bir anlıq şadlanıb fərəhləndin ki, bütün dünya sənin üçün cəm olub və bizim səltənətimiz sənin üçün boşalıb? Məgər Allahın buyurduğunu yaddan çıxartmısan? Allah buyurb: **"Kafirlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar. Bizim on-**

[262]"Hədid" surəsi, ayə-22-23.
[263]"Rum" surəsi, ayə-10.

lara verdiyimiz möhlət yalnız günahlarını daha da artırmaları üçündür. Onlara zəlil edici bir əzab veriləcək."[264]

Ey azad olunmuşların oğlu! Bu ədalət üzündəndir ki, kənizlərini və qadınlarını pərdə arxasında saxlayasan, amma peyğəmbərin qızlarını əsirlər kimi, şəhərbəşəhər gəzdirirsən? Sən onların hörmətini sındırdın. Onları düşmənlərlə bir yerdə çöllərdə dolandırdın. Bir halda ki, onların kişilərindən və xidmətçilərindən onlarla heç kim yox idi. Azadpərvər insanların ciyərlərini çeynəyib yerə atan, şəhidlərin qanı ilə böyüyüb-başa çatan bir adam onları necə qoruyar? Əlindəki ağacla cənnət cavanlarının ağasının dişlərinə vurursan. Nə üçün də bu beyti oxumayasan? "Əgər Bədrdə ölən babalarım sağ olsaydı, sevincdən əl çalıb deyərdilər: "Ay Yezid! Əllərin ağrımasın." Ey Yezid, sən yalnız öz dərini yırtıb ətini doğradın. Tez bir zamanda Hz.Peyğəmbərin *(s)* hüzuruna gedəcəksən. Onda onun övladlarının qanını tökdüyün və onun hörmətini sındırdığın üçün əzab çəkəcəksən. Allah onların pərakəndə olmuş cənazələrini bir yerə yığıb onların haqqını səndən alacaq. Yezid, Allah yolunda şəhid olanları ölü hesab etmə, əksinə onlar diridirlər və Rəbbi yanında ruzi alırlar. Allahın hakim olması sənə kifayətdir. Sənin lə düşmənçilik üçün Hz.Muhəmməd *(s)* və ona kömək etməyə Cəbrail bəsdir. Ətrafında olanlar dağılacaq və günlərin keçib sona yetəcəkdir. Haqqın carçısının: "Allahın lənəti zülmkarlara olsun." – deyə nida edəcəyi gün gəlib çatacaqdır. Odur rəhimli və mehriban Allah. Hər işdə O, bizə kifayətdir və O, yaxşı vəkildir."

Bu vaxt Şamlı bir kişi Hz.Hüseynin *(ə)* qızı Fatiməyə baxıb Yezidə dedi: "Ey Əmirəl-möminin! Bu kənizi mənə bağışla! Fatimə bibisi Zeynəbə dedi: Bibi can, atamı öldürdülər, indi isə məni kəniz kimi aparmaq istəyirlər. Hz.Zeynəb buyurdu: Yox, bu günahkar belə bir iş görə bilməz. Şamlı kişi soruşdu: Bu qız kimdir? Yezid dedi: Bu Hüseynin qızı Fatimə, o isə Əli ibn Əbu Talibin qızı Zeynəbdir. Şamlı kişi dedi: Allah sənə lənət eləsin ey Yezid! Öz Peyğəmbərinin itrətini öldürüb övladlarını əsir edirsən? And olsun Allaha, mən onların Bizans əsirləri olduqlarını güman edirdim." Şamlı kişinin sözlərindən qəzəblənən Yezid onun boynunu vurdurdu.

Əllamə Məclisi "Cəlalul-uyun" kitabında şamlı kişinin əhvalatından sonra yazır: Yezid əmr etdi Əhli-beyti zindana salsınlar. İmam Səccadı *(ə)* özü ilə məclisdə saxlayıb bir xətib çağırdı və onu minbərə çıxartdı. Hz.Əliyə və İmam Həsənə nalayiq sözlər deyən xətib Yezidi və Müaviyəni tərifləndi. Bu vaxt İmam Səccad *(ə)* xətibə buyurdu: "Vay olsun sənə! Məxluqun razılığını qazanıb, Allahın qəzəbinə səbəb oldun. Cəhənnəmdə sənin yerin hazırdır. Sonra İmam Səccad *(ə)* minbərə çıxmaq üçün Yeziddən icazə istədi.

İmam Səccadın *(ə)* istəyi ilə razılaşmaq istəməyən Yezid, sonda camaatın israrı ilə İmamın *(ə)* minbərə çıxmasına razılıq verdi. Minbərə çıxan İmam Səccad *(ə)* buyurdu: "Ey camaat, Allah bizi altı üstünlük, yeddi fəzilətlə digər

[264]"Ali-imran" surəsi, ayə-178.

məxluqlardan üstün edib. Allah bizə elm, səbr, mərdlik, fəsahət, şücaət və möminlərin qəlbində bizə qarşı məhəbbət əta edib. Bizə bununla fəzilət verib ki, Hz.Peyğəmbər *(s)* bizdəndir. Dahi Siddiq Hz.Əli *(ə)* bizdəndir. Cənnətdə mələklərlə birlikdə uçan Cəfəri-Təyyar bizdəndir. Allahın və Peyğəmbərin şiri Hz.Həmzə bizdəndir. Cənnət cavanlarının ağası Həsən və Hüseyn bizdəndir. Hz.Peyğəmbərin *(s)* son canişini Hz.Mehdi *(ə)* bizdəndir. Hər kəs məni tanıyırsa tanıyır, hər kəs tanımırsa, mən ona özümü tanıtdıraram. Ey camaat! Məkkə və Minanın oğlu mənəm. Zəmzəm və Səfanın oğlu mənəm"

Bu tərifləri eşidən Yezid camaatın ondan üz döndərəcəyindən qorxub müəzzinə işarə etdi ki, azan desin. Müəzzin "Allahu əkbər" deyəndə İmam *(ə)* buyurdu: "Allah böyükdür, böyük", "Əşhədu ən la ilahə illəllah" deyəndə İmam *(ə)* buyurdu: "Buna mənim dərim, ətim və qanım şəhadət verir". Müəzzin: "Əşhədu ənnə Muhəmmədən Rəsulallah" deyəndə İmam *(ə)* buyurdu: "Ey Yezid, adını bu cür əzəmətlə çəkdiyin Muhəmməd sənin cəddindir, yoxsa mənim? Əgər desən ki, mənim cəddimdir, bəs onda nəyə görə onun itrətini öldürdün və övladlarını əsir etdin?" İmam Səccada *(ə)* cavab verə bilməyən məlun Yezid namaz qılmağa başladı.

Kərbəla hadisəsi ilə bağlı kitabları araşdırdıqda məlum olur ki, Yezid fitnə düşəcəyindən qorxduğu üçün Əhli-beytin müsibətinə şadlıq edib onları incitməkdən əl çəkdi. Onlarla mehribanlıqla rəftar etməyə başladı və təyin etdiyi nəzarətçiləri onların üstündən götürdü. Bəzən İmam Səccadı *(ə)* yanına çağırıb Hz.Hüseynin *(ə)* qətlini İbn Ziyadın boynuna ataraq ona lənət deyirdi. Yezid bütün bunları camaatın ürəklərini ələ alıb səltənətini hifz etmək üçün edirdi, amma həqiqətdə peşman olmamışdı. Çünki bəzi kitabların nəql etdikləri rəvayətlərə görə Yezid İmam Hüseyni *(ə)* şəhid edəndən sonra dəfələrlə onun müqəddəs başının süfrəyə gətirilməsini tələb edirdi.

Yezidin Əhli-beyti Mədinəyə yola salması

Məlun Yezidin etdiyi cinayətlərdən xəbərdar olan Şam əhlinin üzündə hüzn nişanəsi zahir oldu. Yezid bunu hiss etdiyi üçün daim çalışırdı ki, özünü İmamın *(ə)* qətlindən kənara çıxarıb, bütün baş verənləri Mərcanənin oğlu İbn Ziyadın boynuna atsın. Buna görə də İmam Səccadı *(ə)* yanına çağırıb dedi: "Nə istəyin var, de yerinə yetirim." İmam Səccad *(ə)* buyurdu: "Birinci istəyim budur ki, atamın başını mənə ver qoy onunla axırıncı dəfə vidalaşım. İkinci istəyim budur ki, əmr et, hər nə bizdən qarət ediblər, bizə qaytarsınlar. Üçüncü istəyim budur ki, əgər məni öldürmək məqsədin varsa, onda əmin bir adamı Peyğəmbərin *(s)* əhli-beytinə ver, qoy onları babalarının hərəminə çatdırsın."

Məlun Yezid dedi: "Sənin birinci istəyinə gəldikdə, sən atanın başını heç vaxt görməyəcəksən. Amma səni öldürməyə gəldikdə, mən səni əfv etdim və qadınları səndən başqa heç kim Mədinəyə aparmayacaq. Sizdən qarət olunmuş şeylərə gəldikdə isə mən öz malımdan artıqlaması ilə onların qiymətini verəcəyəm." İmam *(ə)* buyurdu: "Biz sənin malından heç nə istəmirik. Sənin malın özünə qalsın. Biz öz malımızı istəyirik."

Sonra Yezid əmr etdi ki, İmam Səccada *(ə)* paltar versinlər və Əhli-beyti geyindirsinlər. Əhli-beyti Nöman ibn Bəşirlə yola salan Yezid onlara tapşırdı ki, onları gecələr hərəkət etdirsinlər. Hər yerdə Əhli-beyt qoşundan irəlidə getsin. Qoşun onlardan o qədər arxada getsin ki, onları gözdən salmasın. Oturaq etdikləri yerlərdə qoşun onların ətrafında pərakəndə olub gözətçi kimi dolansınlar. Yol boyu əgər onlardan birinin dəstəmaz almağa və yaxud digər işlərə ehtiyacı olsa, piyada olandan sonra qoşun dayansın, təki adam öz istəyini yerinə yetirsin. Süvar olandan sonra hərəkət etsinlər. Xidmətçilər və mühafizəçilər Mədinəyə yetişənə qədər bu cür hərəkət etsinlər.

Yezidin göstərişinə əsasən Nöman ibn Bəşir Əhli-beyti xoş rəftarla Mədinəyə çatdırdı.

Şeyx İmaduddin Əbul-Qasim Təbəri Amulu "Buşarətul-Mustafa" kitabında Ətiyyə ibn Səd Cənadə Ovri Kufiyə isnad edərək nəql edib: Ətiyyə demişdir: "Biz Cabir ibn Abdullah Ənsari ilə Hz.Hüseynin *(ə)* qəbrini ziyarət etmək üçün yola düşdük. Kərbəlaya daxil olanda Cabir Fərat çayına gedib qüsl etdikdən sonra köynəyini özünə fitə etdi və ikinci bir köynəyi çiyninə saldı. Ondan sonra qəbrə tərəf hərəkət etdi və hər qədəmində Allahı zikr edirdi. Üç dəfə "Ya Hüseyn" deyəndən sonra dedi: "Mən şəhadət verirəm ki, sən peyğəmbərlərin ən yaxşısının və möminlərin Ağasının oğlusan. Şəhadət verirəm ki, sən təqvanın həmpeymanının, hidayət sülaləsinin oğlusan və Ali Əbanın beşincisisən. Həqiqətən möminlərin ürəkləri səndən ayrılığa görə rahat deyildir. Sənə Allahın salamı olsun. Mən şəhadət verirəm ki, sən qardaşın Yəhyanın *(ə)* getdiyi yolu getdin."

Cabir Ənsarinin İmam Hüseyni *(ə)* Ali Əbanın beşincisi adlandırmağından məlum olur ki, bu ləqəb İmamın *(ə)* məşhur ləqəblərindən biri olub. Beş pak vücudun Əba altında cəm olmasına dəlalət edən hədisi şiə və sünni alimləri nəql ediblər. Hədislərdə onların bir yerə cəm olmasından sonra "Təthir" ayəsinin nazil olması bəyan olunub.

Cabirin öz kəlamında: "Sən Yəhya ibn Zəkəriyyənin keçdiyi yolu keçdin." – dediyi sözü Hz.Hüseynlə *(ə)* Hz.Yəhyanın *(ə)* arasındakı oxşarlığa işarədir. İmam Sadiqdən *(ə)* yetişən rəvayətdə İmam Sadiq *(ə)* buna açıq şəkildə işarə edib və buyurub: "Hz.Hüseyni *(ə)* ziyarət edin. Ona cəfa etməyin, çünki o, cənnət cavanlarının ağasıdır və Yəhya ibn Zəkəriyyəyə oxşardır."

Həqiqətən bu iki məzlumun həyatına nəzər saldıqda onların həyatının bir neçə cəhətdən bir-birinə oxşar olduğunun şahidi oluruq:

1) Bunlardan öncə onlarla bir adda olan adam olmayıb. Bir çox rəvayətlərdən məlum olur ki, Yəhya və Hüseyn adlarını onlardan öncə heç kimə qoymayıblar.
2) Onların hər ikisi hamiləlik dövründə ana bətnində altı ay qalıblar.
3) Hər ikisi dünyaya gəlmədən öncə, onların sərgüzəştləri haqqında asimandan vəhy yetişdi.
4) Hər ikisinin şəhadətində asiman qan ağlayıb.
5) Hər ikisinin qatili zinadan əmələ gəlmiş idi.

6) Hər ikisinin başını qızıl teştə qoyub zinakarlar və zinazadələr üçün hədiyyə apardılar. Amma onlar arasında fərq bu idi ki, Hz.Yəhyanın başını teştə kəsdilər ki, onun qanı yerə tökülməsin və Allahın qəzəbinə səbəb olmasın. Lakin Kufə kafirləri və Bəni Ümeyyənin tərəfdarları bunu İmam Hüseyn *(ə)* haqqında riayət etmədilər.
7) Hz.Yəhyanın başının daşınması.

Əhli-beytin Mədinəyə daxil olması

Bəşir ibn Cəzləm deyir: Biz Mədinəyə çatanda Hz.Səccad *(ə)* uyğun bir yerdə xeymələri qurduqdan sonra mənə buyurdu: "Ey Bəşir, Allah sənin atana rəhmət eləsin. Get Mədinəyə daxil ol və Hz.Hüseyn *(ə)* haqqında bir mərsiyə de ki, qoy camaat onun şəhadətindən və bizim gəlişimizdən xəbərdar olsun." İmamın *(ə)* göstərişi ilə Mədinəyə gələn Bəşir Peyğəmbər məscidinin qarşısında belə buyurdu: "Ey Mədinə əhli! Daha Mədinədə qalmağa sizə yer yoxdur. Hüseyn ibn Əli öldürüldü. Onun bədəni qana qəltan olub, başı isə nizələr üstündə şəhərlərdə dolandırılır. İndi Hz.Əli ibn Hüseyn *(ə)* bibiləri və bacıları ilə sizin yanınıza gəlib. Onlar şəhərin kənarında xeymə qurublar. Mən onun qasidiyəm, sizi o Həzrətə tərəf aparmağa gəlmişəm."

Bəşirin fəryadını eşidən Mədinə əhli Əhli-beytə tərəf qaçaraq İmam Səccadın *(ə)* ətrafında cəm oldular. İmam Səccad *(ə)* üzünü Mədinə əhlinə tutaraq buyurdu: "Şükr və səna aləmlərin Rəbbi, rəhman, rəhim, qiyamət gününün hökmdarı və bütün məxluqların xaliqi olan Allaha məxsusdur. O Allah ki, ağıllar onu dərk etməkdən acizdir. Gizli sirrlər onun yanında aşkardır. Biz əzəmətli xütbələrlə, böyük müsibətlərlə, qəm gətirən çətinliklərlə Allaha şükr edirik. Ey camaat, şükr olsun o Allaha ki, bizi böyük müsibətlərə düçar etməklə və İslam dininə vurulan böyük zərbələrlə imtahan etdi. Yəni dinə vurulan zərbələri aradan aparmaq İmamların üzərinə düşür.

Ey camaat, Hz.Hüseyni *(ə)* və onun itrətini öldürdülər. Onun qadınlarını və uşaqlarını əsir etdilər. Onun başını nizələrə keçirib şəhərlərdə dolandırdılar. Bu elə bir müsibətdir ki, onun tayı-bərabəri yoxdur.

Biz hamımız Allaha məxsusuq və hamımız ona tərəf qayıdacağıq. Bizim bu müsibətimiz nə qədər böyük və yandırıcı idi. Biz bu müsibətimizin müqabilində istəyirik ki, Allah bizə rəhmət və əcr əta etsin. Bizim düşmənlərimizdən intiqamımızı və biz məzlumların haqqını zülmkarlardan alsın." Bu sözlərdən sonra İmam *(ə)* Əhli-beyti ilə Mədinəyə tərəf hərəkət etdi.

İmam Sadiqdən *(ə)* nəql olunub ki, İmam Səccad *(ə)* qırx il atasına ağladı. Bu müddət ərzində gündüzlər oruc tutardı və axşamlar ibadətlə məşğul olardı.

İmam Hüseynin *(ə)* ləqəbləri:

1) seyidüş-şühəda – şəhidlər ağası; 2) Əş-şəhidu bi-Kərbəla – Kərbəla şəhidi; 3) Xamisi Ali-Əba – Ali Əbanın beşincisi 4) Nurul-xəliqeyn – dünyanın iki tərəfinə nur saçan;

İmam Hüseynin *(ə)* zövcələri:

1) Şəhrəbanu və ya Şahzənan binti III Yəzdəgird – İmam Səccadın *(ə)* anasıdır.
2) Rübabə binti Umrəul-Qeys – Səkinə və Abdullahın anasıdır.
3) Leyla (və ya Rübab) binti Əbu Mürrə ibn Urvə ibn Məsud Səqəfi. Onun anası Meymunə ibn Əbu Süfyandır. Leyla Hz.Əli Əkbərin anasıdır. Əli Əkbər ata tərəfdən Haşimi, ana tərəfdən isə Səqəf və Umeyyə tayfaları ilə qohum idi. Elə buna görə də Müaviyə demişdi ki, Əli Əkbər xilafətə layiqdir.
4) Ümmi İshaq binti Təlhə ibn Ubeydullah – Fatimənin anasıdır.

İmam Hüseynin *(ə)* övladları:

1) Hz.Əli ibn Hüseyn (Əli Əkbər); 2) Hz.Əli ibn Hüseyn (İmam Səccad *(ə)* və ya Əli Övsət); 3) Əli ibn Hüseyn (Əli Əsğər) – anasının adı məlum deyil; 4) Cəfər ibn Hüseyn – anası Bəni Qüzaə qəbiləsindən olan bir qadındır; 5) Abdullah ibn Hüseyn – anası Rübabə binti Umrəl Qeysdir. 6) Məhəmməd ibn Hüseyn – anasının adı məlum deyil; 7) Səkinə – anası Rübabə binti Ümrəl Qeys; 8) Fatimə – anası Ümmi İshaq; 9) Rüqəyya; 10) Zeynəb – anasının adı məlum deyil.
Hz.Hüseynin *(ə)* üzüyündə bu yazı yazılmışdır: Ya huva ya mən la huva illə huva.

İmam Hüseynin *(ə)* inqilabının səbəbləri

1) İmam Hüseyndən *(ə)* Yezid üçün beyət almaq və bu məqsədlə İmama *(ə)* təzyiqlər göstərmək.

2) Kufə camaatının İmamı *(ə)* Kufəyə dəvət etməsi.

3) Əmr be-məruf və nəhy əz-münkər amili.

Zaman nöqteyi nəzərindən Hz.Hüseynin *(ə)* inqilabının ilk səbəbi Yezidin tərəfindən İmamdan beyət istəmək və İmamın bununla müxalif olmasıdır. Müaviyə öldükdən sonra Yezid Mədinənin valisi Vəlid ibn Utbə ibn Əbu Süfyana məktub yazdı ki, İmamdan *(ə)* onun üçün beyət alsın və bu işi əsla yubatmasın.[265] Yezid İmamdan *(ə)* zor gücünə beyət almaq istəsə də İmam *(ə)* buna razı olmayıb Mədinədən Məkkəyə getdi.

Birinci amil baxımından İmam *(ə)* müdafiə rolunu oynayırdı. Çünki ondan zorla beyət istəyirdilər, o da bundan imtina edirdi.

İkinci amil baxımından İmam *(ə)* köməkçi rolunu ifa edirdi. Çünki onu Kufə camaatı həmkarlığa dəvət etmiş, o da bu dəvətə müsbət cavab vermişdi.

Üçüncü amil baxımından isə İmam *(ə)* etiraz edərək hücuma keçmişdi. Çünki İmamdan *(ə)* heç beyət istəməsəydilər də o, hökumətə qarşı inqilab edib onu qeyri-İslami hökumət adlandıracaqdı.

Kufə camaatının dəvətini qəbul etmək amilinin özünəməxsus əhəmiyyəti var. Çünki İmam *(ə)* Yezidin qanunsuz hakimiyyətinə etiraz edib İmamı rəhbər olmağa dəvət edən camaata öz razılığını bildirdi. Lakin İmamın *(ə)* Yezidə beyət etməkdən imtina etməsi amili bundan daha çox əhəmiyyət daşıyır. Çünki İmam *(ə)* dəfələrlə elan etmişdi ki, necə olursa olsun Yezidə beyət etməyəcək.

---

[265] "Əl-İrşad", səh-200.

Bunlardan daha çox əhəmiyyətlisi əmr be məruf və nəhy əz-münkərdir. Çünki burada İmamın hərəkəti nə hökumətə qarşı bir reaksiya, nə müdafiə, nə də köməklik və dəvətə qarşı idi.

İmam Hüseyn *(ə)* öz vəsiyyətnaməsində dörd şeyi öz inqilabının əsas səbəbi kimi qeyd etmişdir: 1) Ümməti islah etmək; 2) Əmr be məruf; 3) Nəhy əz-münkər; 4) Babası Hz.Peyğəmbərin, atası Hz.Əlinin sünnəsinə itaət etmək və onların sünnəsini dirçəltmək.

Aşura inqilabının nəticələri: 1) Hakim dairələrin rüsvayçılığı; 2) Şəhadət sünnəsinin dirçəlməsi; 3) İslam ümmətində qiyamların başlanması; 4) Bəni Ümeyyənin süqutu.

Hədisi-Şəriflərdə İmam Hüseynə *(ə)* ağlamağın savabı

Bütün islami qaynaqlarda İmam Hüseynə *(ə)* ağlamağın savabı haqqında hədislər vardır. Buna görə də alimlərimiz İmam Hüseynə *(ə)* ağlayıb matəm saxlamağı caiz bilmiş və bu işin müstəhəbb olduğu görüşündədirlər. Çünki Peyğəmbər *(s)* öz əmisi Həmzə Uhud döyüşündə şəhid olduqda ona ağlamış və ona əza saxlamışdır.

Hz.Hüseynə *(ə)* ilk ağlayan şəxs Peyğəmbər *(s)* və Cəbrail *(ə)* olmuşdur. Məşhur əhli-sünnət alimi Əhməd ibn Hənbəl rəvayət edir: "Əli *(ə)* Siffeyn döyüşünə gedərkən Kərbəla ərazisində dayandı. O, buranın hara olduğunu soruşduqda dedilər: bura Neynəvadır. Əli *(ə)* dedi: səbr et ey Əba Əbdillah! Səbr et ey Əba Əbdillah! Ona dedilər: nə baş verir? O, dedi: bir gün Peyğəmbərin *(s)* yanına daxil oldum və onu gözü yaşlı gördüm. Dedim səni kim qəzəbləndirib ki, gözlərindən belə yaş gəlir ya Rəsulallah? Dedi: Cəbrail *(ə)* mənim yanımda idi. O, mənə dedi ki, Hüseyni *(ə)* Fəratın sahilində öldürəcəklər. Onun türbəsindən iyləmək istəyirsənmi? Dedim: bəli. O, əlini uzadıb o torpaqdan götürüb mənə verdi. Buna görə gözlərim yaşarıb.[266]

Digər bir hədis xanım Aişədən rəvayət olunur: "Peyğəmbərə vəhy nazil olan zaman Hüseyn ibn Əli *(ə)* Peyğəmbərin *(s)* yanına daxil olub onun kürəyinə çıxdı. Cəbrai *(ə)* dedi: ya Muhəmməd! Onu çox istəyirsənmi? Peyğəmbər *(s)* buyurdu: ey Cəbrail! Ondan sevimli mənim üçün heç nə yoxdur. Cəbrail *(ə)* dedi: Onu səndən sonra ümmətin öldürəcəkdir. Sonra Cəbrail *(ə)* əlini uzadıb ona ağ torpaq verdi və dedi: bu torpaq Tif ərazisindədir, sənin oğlunu bu torpaqda öldürəcəklər. Cəbrail *(ə)* getdikdən sonra Peyğəmbər *(s)* evdən çıxdı. O, əlindəki torpağa baxıb ağlayırdı. O, deyirdi: ey Aişə! Cəbrail *(ə)* mənə xəbər gətidi ki, Tif adlı yerdə oğlumu öldürəcəklər. Sonra Peyğəmbər *(s)* ağlaya-ağlaya səhabələrin yanına getdi. Orada Əli *(ə)*, Əbu Bəkr, Ömər, Huzeyfə, Əmmar və Əbu Zər var idi. Onlar dedilər: sənə nə olub ey Allahın Rəsulu! Peyğəmbər *(s)* buyurdu: Həqiqətən oğlum Hüseyn *(ə)* məndən sonra Tif adlı yerdə qətl ediləcəkdir, bu da onun torpağındandır. Mənə xəbər verildi ki, o, orada düşüb qalacaqdır".[267]

---

[266]Müsnədi-Əhməd, I cild, səh-86, hədis-648.

[267]Məcməuz-Zəvaid, IX cild, səh-187.

Şübhəsiz ki, Peyğəmbərin *(s)* Hüseynə *(ə)* ağlaması və onun müsibətinə qəmgin olması bu işin ümmət içərisində caiz olması ilə yanaşı sünnətə çevrilməsini də qanuniləşdirir. Çünki Quran: **"Peyğəmbər *(s)* sizə nəyi verirsə onu götürün və nədən çəkindirirsə ondan çəkinin"** deyir.[268] Deməli bu ayənin hökmünə əsasən İmam Hüseynə *(ə)* ağlamaq və onun matəmində qəmgin olmaq dolayı yolla Qurani-Kərimin göstərişlərindəndir. Buna görə də hər il məhərrəm ayında Əhli-beytə yas saxlamaq və əzadarlıq etmək təkid olunmuş müstəhəbb əməllərdən hesab olunur.

İmam Sadiq *(ə)* digər bir hədisdə buyurur: "Ey Zurarə! Hüseyn ibn Əliyə *(ə)* 40 sabah göylər qan ağladılar. Yer ona 40 sabah qara ağladı. Günəş ona 40 sabah batmaqla qırmızı ağladı. Dağlar aralanıb silkələndi. Dənizlər təlatümə gəldi. Mələklər 40 gün Hüseynə ağladılar. Biz Əhli-beytdən heç kimsə Ubeydullah ibn Ziyadın başı bizə gətirilənədək xına qoymadı. Heç bir qadınımız bəzənib sürmə çəkmədi və heç bir yerə getmədi. Ondan sonra bizə belə bir hadisə baş verməyib. Babam bu müsibətə saqqalı islananadək ağlayardı. Onun ağlamağı digərlərini də ağladardı

Onun qəbri kənarında olan mələklər ağlayırlar və həm də havada və səmada olan mələkləri ağladırlar. Hüseynin *(ə)* ruhu bədənindən çıxanda Cəhənnəm elə ah çəkdi ki, az qaldı yer onun ahından parça-parça olsun. Ubeydullah ibn Ziyadla Yezid ibn Müaviyənin canı çıxanda isə Cəhənnəm elə dərindən nəfəs aldı ki, əgər Allah onu öz yerində tutub saxlamasaydı, yer üzündə onun havasından yanmamış varlıq qalmazdı. O Hüseynin *(ə)* qatilinin eşqindəydi. Əgər yer üzündə Allahın höccəti olmasaydı yer üzü məhv olardı və onun üstündəkilər alt-üst edilərdi.

Allaha Hüseynə *(ə)* ağlayan gözdən sevimli göz yoxdur. Elə bir ağlayan şəxs yoxdur ki, onun tökdüyü göz yaşı Fatiməyə (s.ə) və Peyğəmbərə *(s)* yetişməsin O, şəxs dirildilib məhşərə gətirilərkən onun gözü aydın, xoş xəbərlə gələr. Onun sevinci üzündən bilinər. Onun pis hesabdan heç bir qorxusu olmaz. Belə şəxslərə deyilər: Cənnətə daxil olun!"[269]

İmam *(ə)* digər hədisində buyurur: "Allah yetmiş min mələk Hüseynin *(ə)* qəbrinə təyin etmişdir ki, Qiyamətədək başlarına torpaq ələyib ağlasınlar və orada namaz qılsınlar. Onların qıldıqları bir namaz Adəm övladının qıldığı min namazdan üstündür. Onların qıldıqları namazların savabı oranı ziyarət edənlər üçündür".[270]

II Müaviyə ibn Yezid hicri 64-65 (miladi 683-684)

Xəlifə Yezidin ölümündən sonra əməvilər onun oğlu II Müaviyəyə beyət edərək onu Əməvi xəlifəsi təyin etdilər. Ləqəbi Əbu Əbdürrəhmandır. Əbu Yezid, Əbu Yala kimi ləqəbləri də vardı. Qureyşli olub Umeyyə oğullarındandır. Anası Ümmü Haşim binti Əbu Haşim ibn Utbə ibn Rəbiədir. Lakin o atası Yezidin və babası Müaviyənin törətdiyi cinayətlərə görə son dərəcə əzab çəkirdi

[268] əl-Həşr surəsi, ayə-7.
[269] İbn Qəvləviyyə, Kamiluz-Ziyarət, səh-166-167-168, hədis-219.
[270] İbn Qəvləviyyə, Kamiluz-Ziyarət, səh-176, hədis-237.

və xəlifə olmağa razı deyildi. Odur ki, təyin etdiyi bir gündə camaatı toplayıb minbərə çıxaraq dedi:

– Ey camaat! Babam Müaviyə ibn Əbu Süfyan xilafətə yiyələnmək üçün, Allahın Rəsuluna yaxın olduğuna görə bu məqama daha layiq olan Hz.Əli *(ə)* ilə müxalifətçilik etdi. Onun sizləri hansı işlərə məcbur etdiyini daha yaxşı bilirsiniz. Nəhayət onun əcəli çatdı, indi o axirətdə etdiyi günahların əsiri olmuşdur. Onun ardınca atam Yezid hakimiyyətə layiq olmadığı bir halda hakimiyyəti ələ aldı. Allahın fərmanlarına deyil, öz nəfsinə itaət etdi, lakin ömrü qısa olduğu üçün arzularına çatmamış dünyadan getdi. İndi o da etdiyi əməllərə görə öz cəzasını çəkəcəkdir.

Daha sonra ağlayaraq sözlərinə belə davam etdi:

– Onun taleyindən xəbər tutmaq bizim üçün çətindir. Hz.Peyğəmbərin *(s)* Əhli-Beytini öldürməsinə, Mədinəyə hörmətsizlik etməsinə və Kəbəni viran qoymasına görə onun başına nələr gələcəyini biz bilmirik. İndi isə mən sizin dediyinizlə razı deyiləm, özünüzə istədiyiniz şəxsi xəlifə seçə bilərsiniz.[271]

Hakimiyyəti 90 gündən artıq davam etməyən II Müaviyə istefa verdikdən qısa müddət sonra iyirmi yaşında olarkən vəfat etdi (və ya öldürüldü) və Şamda dəfn olundu.

II Müaviyənin ölümündən sonra əməvilər arasında xilafət məsələsi canlandı. Əməvilərdən bəziləri onun qardaşı Xalidin xəlifə olmasını istəyərkən, bəziləri də Abdullah ibn Zübeyri xəlifə kimi görmək istəyirdilər ki, bunların da başında Zəhhaq ibn Qeys dayanırdı. Bütün bu qalmaqallara son qoymaq istəyən Əməvi ağsaqqalları Cabiyə adlı məntəqədə toplanıb Mərvan ibn Həkəmə beyət edərək onu rəsmi surətdə Əməvi xəlifəsi təyin etdilər. Bu arada Şamda Himyərilər Mərvanın xilafətini dəstəkləyərkən Müzarilər də Abdullah ibn Zübeyri dəstəklədi. Nəticədə 684-cü ildə Zəhhaq ibn Qeysin başçılığı altında olan Abdullah ibn Zübeyrin tərəfdarları ilə Ubeydullah ibn Ziyadın başçılığı altında olan Mərvanın tərəfdarları "Mərci-Raxit" adlı məntəqədə qarşılaşdı. Bu döyüşdə qalib gələn Mərvan Şama daxil olub ümumi beyətdən sonra Əməvi xəlifəsi elan edildi.[272]

I Mərvan ibn Həkəm hicri 64-65 (miladi 684-685).

Mərvan ibn Həkəm xəlifə olduqdan sonra qərara alındı ki, ondan sonra Xalid ibn Yezid Əməvi xəlifəsi olacaq. Mərvanın hakimiyyətə gəlməsilə əməvi xilafətində Süfyaniyyə qolu sona çatmış və Mərvanilərin hakimiyyəti başlamışdır. Qısa müddət ərzində bütün Suriyaya hakim olan Mərvan Şam və Fələstini özünə tabe edib, hazırladığı ordu ilə 684-cü ildə Misir və Şimali Afrikanı da ələ keçirərək oğlu Əbdüləzizi Misirə vali təyin etdi.

---

[271]Tarixi-Məsudi, III cild, səh-82; Tarixi-Yəqubi, II cild, səh-254; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, VIII cild, səh-237-238.

[272]Tarixi-Məsudi, III cild, səh-93-96; Tarixi-Yəqubi, II cild, səh-255-256.

Təvvabin üsyanı

"Təvvabin" tövbə edənlər deməkdir. Təvvabinlər əvvəlcə İmam Hüseynə *(ə)* məktub yazıb onu Kufəyə dəvət etmiş, onun başçılığı altında məlun Yezidə qarşı vuruşacaqlarına söz verdikləri halda, İmam Hüseyni *(ə)* Kərbəla düzündə tənha qoymuş və İmam *(ə)* Yezidin ordusu tərəfindən vəhşicəsinə şəhid edilmişdir. Kərbəla faciəsindən sonra etdikləri əməllərindən peşman olan Təvvabinlər İmam Hüseynin *(ə)* müqəddəs məzarı üstünə gedərək and içdilər ki, İmamın *(ə)* intiqamını almayınca qılıncı qınına qoymayacaqlar. Təvvabin dəstəsinə Süleyman ibn Surad, Abdullah ibn Val Təmimi, Rifaə ibn Şəddad Bəcəli, Abdullah ibn Səd Əzdi və Abdullah ibn Nəcbə Fəzari başçılıq edirdi.

Kufədə "Ya ləsaratil-Hüseyn" şüarı altında qiyam edən Təvvabinlər Kərbəla hadisəsinə qoşulanlardan ələ keçirdiklərini öldürdükdən sonra Şama doğru hərəkət etdilər. Bundan xəbər tutan xəlifə Mərvan ibn Həkəm üsyançıların üzərinə Ubeydullah ibn Ziyadın başçılığı ilə otuz min nəfərlik ordu göndərdi. İki ordu 685-ci ildə (hicri 65) "Aynul-vərd" adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə Təvvabin ordusu məğlub edildi və başçıları Süleyman ibn Surad öldürüldü. Sağ qalanlar isə Əbdülməlikin dövründə baş vermiş Muxtar əs-Səqəfinin qiyamına qoşuldu.[273]

Əvvəldə qeyd etdiyimiz kimi Mərvan ibn Həkəm hakimiyyətə gələrkən ondan sonra Xalid ibn Yezid vəliəhd təyin edilmişdi. Lakin hakimiyyəti tam ələ alan Mərvan Xalid ibn Yezidi vəliəhdlikdən kənarlaşdırıb onun yerinə özündən sonra oğlu Əbdülməliki, ondan sonra isə digər oğlu Əbdüləzizi vəliəhd təyin etdi. Mərvanın bu işindən əsəbləşən Xalidin anası 685-ci ildə (hicri 65) kənizləri ilə birləşərək Mərvanı boğaraq öldürdü.[274]

Əbdülməlik ibn Mərvan hicri 65-86 (miladi 685-705)

685-ci ildə Mərvan ibn Həkəmin ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu Əbdülməlik əməvi xəlifəsi təyin edildi. O hakimiyyətə gəlməzdən qabaq Mədinə şəhərinin fəqihlərindən hesab olunurdu.[275] O, zahidlik, ibadət və dindarlıqla məşhur olmuşdu. Vaxtının çoxunu məsciddə keçirdiyi üçün ona "məscidin göyərçini" ləqəbi verilmişdi.[276] Tarixi rəvayətlərə görə Əbdülməlik atası Mərvan öldükdən sonra hakimiyyətə gələrkən Quran oxuyurdu. Bu xəbəri eşitcək Quranı bağlayıb dedi: "Daha mənimlə sənin aranda ayrılıq düşdü. Artıq mənim sənin**lə** işim yoxdur."[277] İslam tarixində Əbdülməlik əhdini danan və xəyanət edən, camaatı xəlifənin hüzurunda söz deməkdən məhrum edən və əmr be-mərufun qarşısını alan ilk şəxs olmuşdur.[278]

---

[273]Tarixi-Təbəri, III cild, səh-390; Tarixi ibn Əsir, IV cild, səh-136-154.
[274]Tarixi-Məsudi, III cild, səh-97-98; Tarixi-Yəqubi, II cild, səh-257.
[275]İbn Təqtəqa, əl-Fəxri, səh-122.
[276]Təcaribus-səlәf, səh-76.
[277]Siyuti, Tarixul-Xüləfa, IV cild, səh-100.
[278]Siyuti, Tarixul-Xüləfa, səh-218; Tarixi ibn Əsir, IV cild, səh-252.

Əbdülməlik ibn Mərvan əməvi taxtına çıxdığı zaman İslam dünyasını üç xəlifə idarə edirdi: İraqı Muxtar əs-Səqəfi, Hicazı Abdullah ibn Zübeyr, Misir və Suriyanı isə Əbdülməlik ibn Mərvan.

Muxtar əs-Səqəfinin qiyamı 685-687 (hicri 65-67)

Muxtar ikinci xəlifə Ömər ibn Xəttabın xilafəti dövründə 634-cü ildə baş verən Körpü döyüşündə öldürülən Əbu Ubeyd əs-Səqəfinin oğludur. Kərbəla faciəsindən qabaq o, Ubeydullah ibn Ziyad tərəfindən zindana salınmışdı. İmam Hüseyn *(ə)* şəhid olduqdan sonra Muxtar zindandan xilas olmaq üçün bacısı Səfiyyənin əri Abdullah ibn Ömərin yanına adam göndərdi. Abdullah ibn Ömər Yezidə məktub yazaraq vasitəçilik etdi. Yezid onun azad edilməsi əmrini Kufədə üç gündən artıq qalmamaq şərti ilə Ubeydullah ibn Ziyada verdi. Muxtar əvvəlcə Hicaza gedib Abdullah ibn Zübeyrə sığındı. Lakin Abdullahdan istədiyi münasibəti görməyincə yenidən Kufəyə qayıdıb təvvabindən sağ qalanları ətrafına toplayaraq qiyama başladı. Muxtar özünü Hz.Əlinin *(ə)* oğlu Məhəmməd Hənəfiyyənin naibi olduğunu bildirərək and içdi ki, Hz.Hüseynin *(ə)* intiqamını almayınca qılıncı qınına qoymayacaq.[279] Bunu görən digər müsəlmanlar da onun ətrafına toplandı. Muxtarın dostlarının əsasını İranlılar təşkil edirdi. Bundan istifadə edən Muxtar 685-ci ildə Kufəyə hücum edib şəhərin valisi Abdullah ibn Mutini qaçmağa məcbur etdi.

Kufənin hakimiyyətini bütünlüklə ələ keçirən Muxtar rəsmən öz hökumətini elan etdi. O, hər şeydən əvvəl əsgərlərini ruhlandırmaq üçün onlara hədiyyə payladı. Eyni zamanda Malik Əştərin oğlu İbrahim və qəbiləsinin Muxtara qoşulması ilə onun ordusu daha da gücləndi. Bu vaxt Ubeydullah ibn Ziyadın başı Züfər ibn Harislə döyüşlərə qarışmışdı. Lakin Züfərə bir şey edə bilməyən Ubeydullah Mosula doğru hərəkət etdi. Həmin vaxt Muxtar Mosula vali olaraq Əbdürrəhman ibn Səidi təyin etmişdi.

Ubeydullah ibn Ziyadın Mosula doğru hərəkət etdiyini öyrənən Muxtar Yezid ibn Ənəsi üç min nəfərlik ordu ilə Mosula göndərdi. Lakin döyüş meydanında Yezid ibn Ənəsin xəstələnərək ölməsilə əlaqədar qoşun geri çəkilməyə başladı. Bundan xəbər tutan Muxtar dərhal İbrahim ibn Əştəri yeddi min nəfərlik qoşunla Ubeydullahın üzərinə göndərdi.

Bu arada Muxtar Kufə ətrafında baş verən döyüşdə Kərbəla faciəsində ordu başçısı olan Ömər ibn Sədi, İmam Hüseynin *(ə)* başını kəsən Şimr ibn Zilcövşəni və İmamın *(ə)* kəsik başını nizədə əvvəlcə Kufəyə Ubeydullah ibn Ziyadın hüzuruna, oradan da Şama Yezidin hüzuruna aparan Xavlə ibn Yezidi öldürmüşdür.[280]

---

[279]Tarixi-Təbəri, III cild, səh-433-440; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, VIII cild, səh-249-250.

[280]Tarixi-Təbəri, III cild, səh-470-482; Tarixi-Məsudi, III cild, səh-104-105.

686-cı ildə İbrahim Əştərin başçılığı altında olan ordu ilə Ubeydullah ibn Ziyad arasında baş verən döyüşdə Şam ordusu məğlub edildi və Ubeydullah ibn Ziyad ilə Yezidin xilafəti dövründə Məkkəni dağıdan Husayn ibn Numeyr öldürüldü. Beləliklə Muxtar əs-Səqəfi və İbrahim ibn Malik Əştər İmam Hüseynin *(ə)* qatillərindən intiqam almış oldular.

Lakin İraq bölgəsinin Muxtarın nəzarəti altında olması ilə razılaşmayan Abdullah ibn Zübeyr bu bölgəni ələ keçirmək üçün qardaşı Musab ibn Zübeyri Bəsrəyə vali təyin etdi. Musab Bəsrədə vali olduğu müddətdə Muxtarın tərəfində olan Kufə liderlərinin əksəriyyəti ondan ayrılaraq Musaba sığındı. Bundan istifadə edən Musab Xorasan valisi Muhəlləb ibn Əbu Sufra əl-Əzdinin köməyi ilə Kufəyə hücum edərək 687-ci ildə (hicri 67) Muxtarın ordusunu məğlub edərək onu öldürdü. Bu vaxt Muxtarın 63 yaşı var idi.[281]

Muxtarın ölümündən sonra İraq bütünlüklə Abdullah ibn Zübeyrə tabe edildi. Lakin Muxtarın ölümü ilə Əbdülməlik ibn Mərvan mənəvi zəfər qazanmış oldu. Suriya bölgəsində bütün rəqiblərini məğlub edən Əbdülməlik Musab ibn Zübeyrin üzərinə hərəkət etdi. 690-cı ildə (hicri 71) Dəclə çayı sahilində Deyri-Casəlik adlı məntəqədə baş verən döyüşdə Musabın ordusu məğlub edildi, özü isə öldürüldü. Musabın ölümündən sonra İraqı özünə tabe edən Əbdülməlik Abdullah ibn Zübeyri məğlub etmək üçün Həccac ibn Yusif əs-Səqəfini Məkkəyə göndərdi.

Həccac ibn Yusif əs-Səqəfinin Məkkə səfəri

Hər il minlərlə hacının ziyarət etdiyi Kəbənin yerləşdiyi Məkkə Abdullah ibn Zübeyrin əlində idi. Şam camaatı həcc ziyarətinə getmək istədikdə, bir neçə gün Məkkədə qalmalı olur, bu da Abdullah ibn Zübeyr üçün Əbdülməlikin əleyhinə təbliğat aparmağa kifayət edirdi. Əbdülməlik Şam hacılarının bu təbliğatdan uzaq olmaları üçün həcc səfərinin qarşısını aldı. Əhali bununla bağlı xəlifəyə şikayət etdikdə o dedi: "İbn Şəhab Zühri Hz.Peyğəmbərdən *(s)* rəvayət edir ki, "ancaq üç məscidə getmək üçün səfərə çıxmaq olar: Məscidul-Həram, mənim məscidim və Məscidul-Əqsa. Məscidul-əqsa sizin üçün eynilə Məscidul-Həram hökmündədir və Peyğəmbərin merac gecəsi ayağını üzərinə qoyduğu daş da Kəbənin hökmündədir." Bu hadisədən sonra Əbdülməlikin əmri ilə həmin daşın üstündə bir günbəz ucaldıldı, oradan ipək parçalar asıldı və xadimlər təyin edildi. Beləliklə camaat oranı təvaf etməyə başladı. Bu adət Bəni-Umeyyə sülaləsinin bütün hakimiyyəti dövründə davam etmişdir.[282] Bunları nəzərə alan Əbdülməlik ibn Mərvan Həccac ibn Yusif əs-Səqəfinin başçılığı altında olan böyük bir ordunu Məkkəyə göndərdi.

Bütün hazırlıqlarını görən Həccac 692-ci ildə (hicri 72) Kəbəni mühasirəyə aldı. Əbu Qubeys təpəsində mancanaqlar quraraq Məkkənin üzərinə daş yağ-

[281]Tarixi-Təbəri, III cild, səh-483-492; Tarixi ibn Əsir, IV cild, səh-267-278.
[282]Tarixi-Yəqubi, III cild, səh-8.

dırmağa başladı. Mühasirə uzandıqca Məkkədə aclıq və qıtlıq baş verdiyi üçün Abdullahın adamları Həccaca sığınırdı. Abdullah azsaylı adamları ilə hücuma keçib vuruşsa da 692-ci ildə öldürüldü. Həccacın göstərişi ilə onun cəsədini Həcun adlı məntəqədə dar ağacından asdılar.[283] Həccac bu əmri yerinə yetirdiyi zaman əlindən gələn bütün ləyaqətsizliyə əl atdı.

Abdullah ibn Zübeyri məğlub etdikdən sonra Əbdülməlik Həccacı iki illik Hicaza vali təyin etmişdi. O Mədinədə olduğu müddətdə Hz.Peyğəmbərin *(s)* məşhur səhabələri olan Cabir ibn Abdullah Ənsari, Ənəs ibn Malik, Səhl ibn Saidi kimi şəxsləri rüsvay etmək üçün onların boynuna damğa vurdu. Bəhanəsi də bu oldu ki, guya bunlar xəlifə Osmanın qatilləridirlər![284] Mədinədən çıxıb gedərkən belə dedi: "Allaha şükr edirəm ki, məni bu çirkin şəhərdən qırağa aparır. Bu şəhər bütün şəhərlərdən çirkindir. Buranın əhalisi Əmirəl-möminin (yəni Əbdülməlikə) qarşı münasibətdə çox hiyləgər, həyasız və tənbəldir. Əgər Əmirəl-möminin sifarişi olmasaydı, bu şəhəri alt-üst edərdim.[285] Bunun əksinə olaraq Hz.Peyğəmbər *(s)* Mədinənin fəziləti haqqında belə buyurmuşdur;

"Hər kəs Mədinənin sıxıntısına və istisinə səbr etsə, ona qiyamət günü şəfaətçi və şahid olaram".[286]

Başqa bir hədisdə Allahın Rəsulu belə buyurur: "Həqiqətən İbrahim *(ə)* Məkkəni özünə hərəm etmişdi və oranın əhalisinə dua etmişdir. Mən də Mədinəni hərəm etdim, necə ki, İbrahim *(ə)* Məkkəni hərəm etmişdi. Mən də Mədinənin sakinlərinə İbrahimin *(ə)* Məkkənin sakinlərinə etdiyi duanı etdim".[287]

Həccac Kufədə söylədiyi xütbəsində isə Mədinədə Hz.Peyğəmbərin *(s)* müqəddəs qəbrinin ətrafında fırlanaraq onu ziyarət edənləri təhqir edərək belə demişdi: "Vay olsun onlara! Elə fırlanırlar ki, lap qoca mal-qaranın yerişlərinə bənzəyir. Niyə gedib əmirəl-möminin Əbdülməlikin qəsrinin ətrafında təvaf etmirlər! Məgər onlar bilmirlər ki, adamın xəlifəsi onun peyğəmbərindən üstündür?!"[288]

Həccacın məğlub etdiyi Abdullah ibn Zübeyr hicrətdən on ay sonra Mədinədə doğulan ilk müsəlman oğlan uşağıdır. O, Hz.Peyğəmbər *(s)* və Əhli-beytinin qatı düşmənlərindən olmuşdur. Abdullah ibn Zübeyr xütbələrin əvvəlində Hz.Peyğəmbərə *(s)* salam göndərməyi qadağan etmişdir. Səbəb olaraq da bunu gətirirdi: "Peyğəmbərin bəzi pis qohumları onun adı gələndə başlarını yuxarı tuturlar."[289]

Abdullah ibn Zübeyri məğlub edən Həccac Kəbəni yenidən təmir etdi. Onun gördüyü işləri bəyənən Əbdülməlik Həccacı Kufə valisi təyin etdi. O İraqda olduğu müddətdə vəhşilik siyasəti həyata keçirirdi. Günahsız yerə bir neçə təqvalı insanları və Kufə böyüklərini qətlə yetirdi. Həccac camaatın ürə-

---

[283]Tarixi-Məsudi, III cild, səh-119-122; Tarixi-Yəqubi, III cild, səh-266-268.
[284]Tarixi-Yəqubi, III cild, səh-18.
[285]Tarixi ibn Əsir, IV cild, səh-359.
[286]Səhihi-Müslim, kitabul-həcc, hədis:1377.
[287]ər-Rihabut-Tahirə, səh-49.
[288]İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, IV cild, səh-242.
[289]Tarixi-Yəqubi, III cild, səh-8.

yinə elə bir qorxu salmışdı ki, nəinki İraqda, hətta Xuzistan və bütövlikdə şərq bölgəsində sakitlik yaranmışdı. Kufədə günahsız insanları edam etdiyi üçün Abdullah ibn Carudun başçılığı altında Həccaca qarşı 695-696-cı illərdə üsyan baş versədə üsyan yatırılmış və Abdullah ibn Carud edam edilmişdir. Eyni ildə Həccac ibn Yusif əs-Səqəfi Saleh ibn Mərvan ilə Şəbib Şeybaninin başçılığı altında olan xəvaric ordusunu da məğlub etmişdir.[290]

Şimali Afrika hadisələri

Xəlifə Yezidin zamanında Quseylə ibn Kəmrəmin başçılığı altında üsyan edən bərbərilərin üzərinə xəlifə Əbdülməlik ibn Mərvan Züheyr ibn Qeysi Afrika valisi təyin edərək onu böyük bir ordu ilə Afrikaya göndərdi. 688-689-cu illərdə Züheyr ibn Qeys Quseylə üzərinə hərəkət edərək onu məğlub etdi və Quseylə öldürüldü. Bərbəri və Bizanslıları təqib edən müsəlmanlar ələ keçirdiklərini qətlə yetirdilər. Quseyləni məğlub edən Züheyr əvəllcə Qayravana oradan da Bərqaya gəldi. Züheyrin Qayravanda Quseylə ilə vuruşduğunu öyrənən Bizans İstanbuldan göndərilən donanma ilə Bərqaya hücum edərək xeyli əsir ələ keçirmişdi. Buna qarşılıq olaraq Züheyr Bizans üzərinə hərəkət etdi. 689-cu ildə (hicri 69) baş verən döyüşdə Züheyr öldürüldü.[291] Bununlada Şimali Afrika əməvilərin əlindən çıxmışdır. Misir valisi Əbdüləziz ibn Mərvan baş verənləri xəlifə Əbdülməlikə bildirsə də, həmin vaxt əsas fikri Abdullah ibn Zübeyrə yönəldən xəlifə Şimali Afrikanı öz başına buraxmışdı.

Abdullah ibn Zübeyrin məğlubiyyətindən sonra Əbdülməlik Həssan ibn Numanı Şimali Afrika valisi təyin edərək 693-694-cü illərdə onu böyük bir ordu ilə Şimali Afrikaya göndərdi. Bu qoşun ilk olaraq Qayravana gedib orada vəziyyəti sabitləşdirdikdən sonra Qərtacana qədər irəliləyərək buranı da ələ keçirdi. Bizanslıların bir qismi Siciliyaya bir qismi isə İspaniyaya qaçdı. Həssanın yenidən Qayravana dönməsindən istifadə edən bərbərilər Kəhinənin başçılığı ilə üsyan etdilər. Kəhinəyə qarşı baş verən döyüşdə Həssanın məğlub olduğunu eşidən Əbdülməlik yardımçı qoşun göndərdi. Yardımçı qoşun gələnə qədər Kəhinə bütün Afrikaya sahib olmuşdu. Yardımçı qoşunun köməyi ilə 698-ci ildə Bizans ordusunu məğlub edən Həssan Qərtacanıda ələ keçirdikdən sonra Kəhinəni də məğlub etdi. Şimali Afrikada sakitliyi bərpa etdikdən sonra Həssan Misir valisi Əbdüləziz ibn Mərvan tərəfindən vəzifəsindən kənarlaşdırılmış və 699-cu ildə (hicri 80) 80 yaşında ölmüşdür.[292] Bu qələbədən sonra Şimali Afrika bütünlüklə İslam idarəsinə daxil olmuş və islamiyyət burada sürətlə yayılmağa başlamışdır.

Bizansla müharibələr

Əbdülməlik taxta çıxdığı zaman islam dünyasındakı qarışıqlıqdan istifadə edən Bizans bir çox müsəlman şəhərlərinə basqın edərək xeyli qənimət ələ ke-

[290]Tarixi-Təbəri, III cild, səh-550-551.
[291]Tarixi ibn Əsir, IV cild, səh-107-110.
[292]Tarixi ibn Əsir, IV cild, səh-369-372.

çirdi. İslam dünyasındakı qarışıqlığı nəzərə alan Əbdülməlik Bizansla sülh bağlamaq məcburiyyətində qalmışdır. Sülhə görə Kipri Bizansa verməklə yanaşı xəracda ödənməli idi. Əbdülməlik Bizansa olan xəracı özünün kəsdirdiyi qızıl pullarla ödəmək istədikdə Bizans bunu qəbul etməmiş və iki tərəf arasında yenidən döyüş başlamışdır. 692-ci ildə (hicri 72) Çukurova adlı məntəqədə baş verən döyüşdə Məhəmməd ibn Mərvanın başçılığı altında olan əməvi ordusu Bizanslıları məğlub etmiş və əməvilərdə vergi verməkdən azad olmuşlar.

700-cü ildə (hicri 81) Ərzurum tərəflərini ələ keçirən Ubeydullah ibn Əbdülməlik ibn Mərvan xeyli qənimət əldə etmişdir.[293] 703-cü ildə (hicri 84) Abdullah ibn Əbdülməlik Məsis, Məhəmməd ibn Mərvan isə Ərməniyyə bölgəsinə səfər etmişdir.

Əbdürrəhman ibn Məhəmməd ibn Əşəsin qiyamı 701-703 (hicri 82-84)

Əbdürrəhman və ailəsinin Əhli-beytlə arası çoxda yaxşı deyildi. İmam Sadiqin *(ə)* dili ilə desək Əşəs Hz.Əlinin *(ə)*, Codə İmam Həsənin *(ə)* və oğlu Məhəmməd isə İmam Hüseynin *(ə)* şəhid edilməsində yaxından iştirak etmişdir.[294]

Həccac ibn Yusif Əbdürrəhman ibn Məhəmmədi Sistanı fəth etmək üçün iraqlılardan təşkil olunmuş böyük bir qoşuna başçı təyin etdi. Sistana doğru hərəkət edən Əbdürrəhman bu bölgənin bir qismini fəth etdikdən sonra əməliyyatı dayandırmaq qərarına gəldi. O bu məsələ barədə Həccaca xəbər verdi. Lakin Həccac onun fikrini bəyənməyib irəli getməsinə göstəriş verdi. Həccacın fikrini bəyənməyən İraq əsgərləri dərhal Əbdürrəhmana beyət edərək Həccac və Əməvi xilafətinə qarşı qiyam etdilər. İraqa daxil olan Əbdürrəhman camaatı Allahın kitabına, Peyğəmbərin sünnəsinə, yolundan çıxmış rəhbərləri mənsəbindən kənarlaşdırmağa və dinsizlərə qarşı cihad etməyə dəvət etdi.[295] Onun ordusu 701-ci ildə (hicri 82) Bəsrəyə soxuldu. Bəsrədə Həccacın zülmündən cana doymuş əhali Əbdülməliki xilafətdən kənar etdilər. Bəsrənin ardınca Kufə əhlidə Əbdürrəhmana qoşuldu. 701-ci ildə Duceyl kənarında Tustər adlı məntəqədə baş verən ilk döyüşdə Əbdürrəhman Həccacın ordusunu məğlub edərək Kufəyə getdi. Onun bu hərəkətindən qorxuya düşən Əbdülməlik sakitliyi bərpa etmək üçün Həccacı işdən kənar etməyə hazır olduğunu onlara bildirdi. Lakin Əbdürrəhman və onun tərəfdarları qələbə qazanacaqlarına inanıb xəlifənin verdiyi vədi qəbul etmədilər. Onlar Bəni-Umeyyənin əleyhinə təbliğat aparıb onların etdiyi zülmlər, o cümlədən zəifləri öldürmələrinə və namazı aradan aparmalarına etirazlarını bildirdilər.

Əbdürrəhmanın mübarizəsi 703-cü ilə qədər davam etmişdir. Deyrul-Cəmacim döyüşündə məğlub olan Əbdürrəhman Sistana qayıtdı. Xorasan yolunda tərəfdarlarının əksəriyyəti ondan ayrıldı. Herata gedən Əbdürrəhman Kabil hökmdarı Rutbilə sığındı. Bundan xəbər tutan Həccac onu Rutbildən tələb etdi.

---

[293] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, IX cild, səh-34, 52.
[294] Rozeyi-Kafi, səh-245.
[295] Tarixi-Təbəri.

Buna əsasən Rutbil Əbdürrəhmanı elçilərlə birlikdə Həccaca göndərdi. Lakin Həccacın əlinə keçmək istəməyən Əbdürrəhman 703-cü ildə özünü uçurumdan ataraq öldürdü.[296]

704-cü ildə (hicri 85) qardaşı Əbdüləzizin ölümündən sonra Əbdülməlik özündən sonra oğlanları Vəlid və Süleymanı bir-birinin ardınca vəliəhd elan etdi. Əbdülməlikin özü isə hicrətin 86-cı ili şəvval ayının 14-də (miladi 705) Şamda vəfat etmişdir.

Əbdülməlikin dövründə Həccac tərəfindən Vasit şəhəri inşa edilmişdir. Eyni zamanda onun dövrünə qədər bölgələrdə dinar və dirhəmlərlə yanaşı Bizans və İran pulları işlədilirdi. Xəlifə bunların yerinə qızıl dinarlar və gümüş dirhəmlər kəsdirərək digər pulları dövriyyədən çıxarmışdır. Həmçinin divan dəftərləri hər bölgədə müxtəlif dillərdə tutulurdu. Xəlifənin əmri ilə bütün bu dəftərlər hər yerdə ərəbcə tutuldu və poçt təşkilatı da İslam dünyasının hər yerinə yayılmışdır.[297]

I Vəlid ibn Əbdülməlik hicri 86-96 (miladi 705-715)

705-ci ildə Əbdülməlik ibn Mərvanın ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu Vəlid ibn Əbdülməlik Əməvi xəlifəsi təyin edildi. O öz hakimiyyəti dövründə məscidlər və müqəddəs yerlər tikdirməkdə, onları artırmaqda, təmir etməkdə böyük addımlar atmış və öz valilərini də bu işə cəlb etmişdi. Buna misal olaraq İslam incəsənəti və memarlıq tarixinin ən gözəl nümunəsi olan Dəməşq şəhərində tikilmiş Əməvi məscidini, həmçinin Suriya və İordaniyada tikilən qış və yay saraylarını misal gətirmək olar ki, bu da Vəlidin hakimiyyəti dövründə abadlıq və tikintinin böyük əhəmiyyətə malik olduğunu göstərir.[298] Həmçinin Peyğəmbər məscidini və eləcə də, Beytul-müqəddəsi genişləndirmişdir. Bir çox şəhərlərdə namaz qılmaq üçün məscidlər inşa edildi. Vəlidin göstərişi ilə ölkənin müxtəlif yerlərində su quyuları qazıldı, mədrəsə və xəstəxanalar inşa edildi, sədəqə və pərakəndə köməkliklər ləğv edildi və əlillər, xəstələr və ehtiyacı olanlar üçün müəyyən maaş təyin edildi. Yetim və sahibsiz uşaqların tərbiyə olunması üçün uşaq evləri tikildi. İlk Daruş-şifa (xəstəxana) da 706-cı ildə xəlifə Vəlidin dövründə tikilmişdir. Vəlid xəlifə seçildiyi zaman İslam məmləkətinin hər yerində sakitlik olduğu üçün dərhal üç istiqamətdə fəthlərə başladı.

1. Türkistan və Qərb fəthləri

Həccac ibn Yusif Quteybə ibn Müslimi Xorasan valisi təyin etdikdən sonra qohumu Məhəmməd ibn Qasimi də Hindistan fəthinə göndərdi. Quteybənin Talakana gəldiyini öyrənən Bəlx sakinləri ona təslim oldular. 708-ci ildə Azərbaycana səfər edən Quteybə Dəmirqapıya qədər irəliləyib bir çox qalaları ələ

[296]Tarixi-Təbəri, III cild, səh-617-619, 622-629; Tarixi-Məsudi, III cild, səh-138-140; Tarixi ibn Əsir, IV cild, səh-461.
[297]Tarixi ibn Əsir, IV cild, səh-495-496; Bəlazuri, Futuhul-buldan, tər. M. Fayda, səh-277.
[298] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, IX cild, səh-142-156; Tarixi-Təbəri, IV cild, səh-34-40.

keçirməklə xeyli qənimət əldə etdi. 708-ci ildə Buxaranın başçısı Vərdan Hudanın ölümündən sonra Quteybə yenidən şəhəri mühasirəyə alsa da Səmərqənd hakimi Tarkan fidyə qarşılığında onunla müqavilə bağladı.[299] 713-cü ildə yenidən Buxaraya səfər edən Quteybə şəhərə hakim olub əsgərlərini əhalinin evində yerləşdirdi və burada islamiyyət yayılmağa başladı. Elə həmin il Buxarada ilk məscid inşa edildi.[300]

Quteybə ibn Müslim 712-ci ildə Xarəzm, Səmərqənd, Nəsəf və Kişi, 714-cü ildə isə Fərqanə və Kaşğarı itaət altına almışdır. Lakin xəlifə Vəlid ibn Əbdülməlik və Həccacın ölümü ilə əlaqədar olaraq bu fəthlər dayandırılmışdır.

Hindistan fəthinə göndərilən Məhəmməd ibn Qasim İrandan keçərək Sind əyalətinə daxil oldu. 708-ci ildə Zahər adlı Sind hökmdarını məğlub edərək Məkranı ələ keçirdi. Bundan sonra Hindistana daxil olan Məhəmməd ibn Qasim 712-ci ildə Dehli şəhərini fəth etdi. Bütünlüklə Sind əyalətini itaət altına almaq istəyən Məhəmməd Deybulu ələ keçirərək burada məscid inşa etdirdikdən sonra 713-cü ildə Multanı da ələ keçirmişdir. Əldə etdiyi uğurlara görə Məhəmməd ibn Qasimə "Hindistan fatehi" ləqəbi verilmişdir.[301] Lakin Həccacın ölümü ilə əlaqədar olaraq bu səfərlərə də son qoyulmuşdur.

2. Anadolu səfərləri

707-708-ci illərdə (hicri 88-89) Cəzirə valiliyinə təyin edilən Məsləmə ibn Əbdülməlik Bizansa dəfələrlə səfər edərək Ankara və Bursa sərhədlərinə gələrək Bizanslıları qorxu içində saxlayırdı. Bizansın zəifləməsindən istifadə edən Əməvi orduları 709-cu ildə Bizansın əsas qalalarından olan Tyananı ələ keçirdilər. Bundan bir il əvvəl isə Məsləmə ibn Əbdülməlik Amorionu ələ keçirmişdir. 710-711-ci illərdə Qilikya da heç bir müqavimətsiz əməvilərə təslim oldu. 711-712-ci illərdə Əməvi orduları Trabzon və Amasya daxil olmaqla Üsküdara qədər bütün Anadolunu talan etdilər. Bu səfərdə Məsləmənin qəza yoldaşı Battal Qazi adı ilə məşhur olan Əbul-Hüseyn Abdullahi-Antaki böyük qəhrəmanlıqlar göstərmiş və adına əfsanələr qoşulmuşdur.

Anadolu səfərlərində Məsləmə ilə birlikdə xəlifə Vəlidin oğlu Abbas da iştirak edirdi. Məhz onun başçılığı altında olan Əməvi ordusu 712-713-cü illərdə Antalyanı ələ keçirmişdir. Altı il (707-713) davam edən Bizans səfərlərindən sonra I Vəlid ibn Əbdülməlik Bizansla müqavilə bağlamışdır.[302]

Şimali Afrika və İspaniyanın fəthi

699-cu ildə Həssan ibn Nömanın Şimali Afrika valiliyindən alınmasından sonra Misir valisi Əbdüləziz ibn Mərvan Musa ibn Nusayrı Şimali Afrikaya vali təyin etdi. Vəzifə dəyişikliyindən istifadə edən Bərbərilər, yenidən üsyan

[299] Tarixi-Təbəri, III cild, səh-673-677; Tarixi-Yəqubi, II cild, səh-286.
[300] Tarixi ibn Əsir, IV cild, səh-544-547; İbn Kəsir, əl-Bidayə vən-Nihayə, IX cild, səh-72-84.
[301] Bayur, Hindistan tarixi, Ankara, 1946, I cild, səh-93-95; Tarixi ibn Əsir, IV cild, səh-536-537.
[302] Tarixi ibn Əsir, IV cild, səh-531-535.

etdilər. Musa ibn Nuseyr isə bu üsyanları yatıraraq Bizansı tamamilə Afrika torpaqlarından geri çəkilməyə məcbur etdi. Bundan sonra o bərbərilər arasında İslamı yaymaq üçün imamlar və müəllimlər göndərdi. 709-710-cu illədə Şimali Afrikanı itaət altına alan Musa ibn Nuseyr oraya vali olaraq Tariq ibn Ziyadı təyin etdi. Səbtə yarımadasından başqa Şimali Afrikanın Ağdəniz sahillərindən Atlantik okeanına qədər bütün yerləri müsəlmanların əlinə keçmişdir.[303]

İspaniyanın fəthi

Əndəlus, Preney dağlarına qədər uzanan yarımadaya Ərəblərin verdiyi addır. Bu yarımadaya əski Yunanlar "İberia", Romalılar "Hispania" deyərdilər. German tayfası olan Vandallar tərəfindən buraya Vandalisia və ya Vandalosya deyilməsinə qarşılıq olaraq Ərəblər "Əl-Əndəlus" adını vermişlər.[304]

Vandallardan sonra İspaniyanı istila edən Qotlar burada öz krallıqlarını qurmuşdular. Lakin VIII əsrdən etibarən bu krallıq zəifləməyə başlamışdır. Əhali sıxıntı içərisində boğularkən məmurlar zövq və əyləncədən ayrılmırdı. Yerli xalqla yanaşı yəhudilər də əziyyət çəkirdi. Musa ibn Nusayr Şimali Afrika valisi olduğu müddətdə Teodorikin oğlu Rodrik üsyan edərək taxtı ələ keçirmişdir. Bununla razılaşmayan Səbtə valisi Kont Juluyan müsəlmanları İspaniyanı fəth etməyə təşviq etdi.

Bu məqamı gözləyən Musa ibn Nusayr xəlifənin icazəsindən sonra bu bölgəyə Tarif ibn Malikin başçılığı ilə kəşfiyyat dəstəsi göndərdi. Kəşfiyyat nəticəsində İspaniyanın həddən artıq zəiflədiyini öyrənən Musa ibn Nusayr Tariq ibn Ziyadı yeddi min nəfərlik dəstə ilə İspaniyaya göndərdi. Tariq Səbtə boğazını keçərək İspaniyaya daxil oldu.

Kont Juluyanın vasitəsilə qarşı tərəfə keçən Tariq bu gün onun adı ilə anılan Cəbəllü-Tariq boğazını ələ keçirdi. Bundan xəbər tutan kral Rodrik Teodemirin başçılığı altında olan ispan ordusunu Tariq ibn Ziyadın üzərinə göndərdi. İki ordu 711-ci ildə Vadi-Ləkkə adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə İspanların məğlub olması ilə müsəlmanlar İspaniyanın yarısını ələ keçirmiş oldular.[305]

Tariq ibn Ziyad İspaniyaya daxil olaraq qələbə xəbərini Musa ibn Nusayra çatdırdı. Lakin Tariqin daha çox şöhrət qazanmasını istəməyən Musa ona göstəriş verdiki irəli getmədən onu olduğu yerdə gözləsin. Sonra oğlu Abdullahı Qayravanda öz yerinə buraxaraq böyük bir ordu ilə İspaniyaya doğru hərəkət etdi. Lakin Tariq öz əsgərləri ilə məşvərət etdikdən sonra digər şəhərlərin fəthinə başladı.

---

[303] Tarixi ibn Əsir, IV cild, səh-539-540.
[304] Ziya Paşa, Tarixi-Əndəlus, səh-11-13.
[305] Tarixi-Yəqubi, II cild, səh-285.

Musa ibn Nusayr ərəb və bərbərilərdən təşkil olunmuş böyük bir ordu ilə İspaniyaya daxil olub bir neçə şəhəri fəth etdikdən sonra özünü Tariqa çatdırdı. Onu tənbih edib qamçı vurduqdan sonra həbsə atdı. Bundan xəbər tutan xəlifə Vəlid Musaya məktub göndərib onu azad edərək əvvəlki vəzifəsinə təyin etməsini əmr etdi. Bundan sonra Musa Tariqi zindandan azad etdi və hər iki sərkərdə birlikdə İspaniyanın şimalına hücum etdi. Əbdüləziz ibn Musa şərq və cənub, Tariq isə Tajo istiqamətində hərəkətə keçdi. Musa ibn Nusayr isə Saraqosa şəhərini fəth etdi.[306]

İspaniyanın fəthindən sonra Əndəlus və Mərakeşə vali təyin olunan Əbdüləziz ibn Musa mərkəz olaraq Sevilya şəhərini seçdi. Eyni zaman aralarında ixtilaf olan iki məşhur sərkərdə Musa ibn Nusayr və Tariq ibn Ziyad xəlifə Vəlidin əmrinə əsasən Şama çağırıldı.[307]

Həccacın ölümü

Həccac ibn Yusif əs-Səqəfi 714-cü ildə xəlifə Əbdülməlikin dövründə tikdirdiyi Vasit şəhərində 54 yaşında ölmüşdür. 694-714-cü illərdə Kufə və Bəsrə şəhərlərinin valisi olmuşdur. Bu valiliyi zamanında 120 min nəfəri öldürmüş, öldüyü zaman isə həbsxanalarda 50 min kişi və 30 min qadının olduğu rəvayət olunur.[308] Əməvi taxtının möhkəmlənməsi üçün çalışan Həccac heç bir günahdan çəkinməmişdir. Onun həyatı bütünlüklə pislik və cinayətlərlə doludur.

Lakin buna baxmayaraq Həccacın tökdüyü qanlar Əməvi dövlətini xüsusilə xəlifə Əbdülməlikin hökumət və taxtını möhkəmləndirmişdir. Onun ən son öldürdüyü şəxslərdən biri tabiun alimlərindən olan Səid ibn Cübeyr olmuşdur.[309]

Əməvi xəlifəsi I Vəlid ibn Əbdülməlik isə hicrətin 96-cı ili (miladi 715) 45 yaşında Şamda ölmüşdür. O, Hz.Peyğəmbər *(s)* və Əhli-beytinin qatı düşmənlərindən olmuşdur. Hicrətin 94-cü ili məhərrəm ayının 12-si, miladi tarixi ilə 712-ci ildə məhz xəlifə I Vəlidin əmri ilə dördüncü imam Hz.Zeynul-Abidin *(ə)* Mədinədə şəhid edilmişdir. Müqəddəs məzarı Mədinədə Bəqi qəbiristanlığındadır.

Hz.İmam Zeynul-Abidin (ə)

İmamın *(ə)* adı Əli ucalıq mənasında olan "əla" sözündən götürülmüşdür. Atası seyidüş-şühəda Hz.İmam Hüseyn *(ə)*, anası isə İran kəsrası III Yəzdəgird ibn Şəhriyarın qızı Şəhrəbanudur. Əsl adı isə Cahanşah və Şahizənandır.

İmam Zeynul-Abidin *(ə)* hicrətin 38-ci ili şəban ayının beşində (bəzi rəvayətlərə görə cəmadiəl-əvvəl ayının 15-də) miladi tarixi ilə 658-ci ildə Mədinədə anadan olmuşdur.[310] Uşaqlıq illərini peyğəmbər şəhəri olan Mədinədə ke-

---

[306] Ziya Paşa, Tarixi-Əndəlüs, səh-17-22.
[307] Ziya Paşa, Tarixi-Əndəlus, səh-22-24.
[308] Tarixi-Məsudi, III cild, səh-175-176, Tarixi-Təbəri, IV cild, səh-26-27.
[309] Tarixi-Təbəri, IV cild, səh-23-25.
[310] Əl-İrşad, səh-253.

çirmişdir. İmam *(ə)* təxminən iki il babası Əmirəlmöminin Hz.Əlinin *(ə)* hakimiyyət illərini görmüşdür. Babasının şəhadətindən sonra on il əmisi Hz.İmam Həsənin *(ə)* imamət dövrünü görmüş, onun şəhadətindən sonra isə Müaviyə ibn Əbu Süfyanın hakimiyyətinə qarşı mübarizə aparan atası Hz.Hüseynlə *(ə)* on il birlikdə olmuşdur. Hicrətin 61-ci ili məhərrəm ayının onunda baş verən Kərbəla faciəsində iştirak etmişdir. Kərbəla faciəsindən sonra Əhli-beyt əsirləri ilə birlikdə əvvəlcə Kufəyə məlun Ubeydullah ibn Ziyadın hüzuruna, oradan da Şama məlun Yezid ibn Müaviyənin hüzuruna aparılmışdır. Şamda öz bəlağətli xütbələri ilə Yezidin hakimiyyətini rüsvay etdikdən sonra Mədinəyə qayıtmışdır.

Tarixdən də məlumdur ki, Kərbəla faciəsində bir çox Bəni Haşim gəncləri şəhid edilsə də İmam Səccad *(ə)* ilahi xəstəlik nəticəsində sağ qalmışdır. Buna baxmayaraq savadsız müsəlmanların əksəriyyəti İmam Səccadı *(ə)* xəstə kimi yad edir və o Həzrəti çox zəif və əldən düşmüş bir şəxs kimi canlandırırlar. Amma bu fikir həqiqətdən çox uzaqdır. Çünki İmam Səccad *(ə)* Kərbəlada çox qısa bir müddət xəstə olmuşdur. Faciədən sonra sağalmış və təxminən otuz beş il digər imamlar kimi sağlam şəkildə imamlıq etmişdir. İmamın Kərbəladakı xəstəliyi Allahın bir məsləhəti olmuşdur. Allah onu bu yolla cihaddan azad etmişdir ki, İmamət xətti davam etsin və ümmət ilahi höccətsiz qalmasın. Əgər İmam Səccad *(ə)* da cihadda iştirak etsəydi o da atasının başqa oğul və dostları kimi şəhid olar və beləliklə də, İmamət nuru birdəfəlik sönmüş olardı.

Məhəmməd ibn Səd "ət-Təbəqatul-kubra" əsərinin V cildinin 221-ci səhifəsində yazır: "Əli ibn Hüseynin Kərbəla faciəsi baş verən gün iyirmi üç, ya iyirmi dörd yaşı var idi. Onun o vaxt azyaşlı uşaq olduğunu söyləyənlər tamamilə əsassızdırlar. O, həmin gün xəstə olmuş, buna görə də döyüşdə iştirak edə bilməmişdir."

İmamət silsiləsi Hz.Peyğəmbərin *(s)* vəfatından sonra dörd dövrə bölünür:

1) İmamın səbr etməsi və ya dövrün hakimləri ilə yola getməsi mərhələsi. Bu mərhələ Hz.Əlinin *(ə)* Peyğəmbərin *(s)* vəfatından Hz.Əlinin *(ə)* zahiri xilafətinə qədərki (hicri 35-ci il) dövrünü əhatə edir.

2) Hz.Əlinin *(ə)* xilafət başına gəlməsi mərhələsi. Bu mərhələ Hz.Əlinin *(ə)* dörd il doqquz ay, ondan sonra isə İmam Həsənin *(ə)* bir neçə aylıq xəlifəliyini əhatə edir. Bu mərhələ İslam hökumətinin ən parlaq mərhələsi hesab olunur.

3) Həqiqi İslam hökuməti qurmaq üçün aparılan az müddətli səylər mərhələsi. Bu mərhələ Hz.Həsənin *(ə)* sülhündən (hicri 41) İmam Hüseynin *(ə)* şəhadətinə qədər (hicri 61) olan iyirmi ili əhatə edir.

4) Bu mərhələ həmin məqsədin və proqramların uzun müddət davam etməsi mərhələsi adlanır. Bu mərhələnin iki əsrə yaxın davam edən müxtəlif sahələrində bir sıra müvəffəqiyyətlər və uğursuzluqlar əldə olmuş, ideoloji işlərdə, yüzlərlə münasib taktikalarda minlərlə ixlas və şücaətlə dolu işlərdə qəti uğurlar əldə edilmişdir.

İmam Səccadın *(ə)* həyatı dördüncü dövrə təsadüf edir. Yəni, silahlı mübarizə yolu ilə qələbədən naümid olmaq; Peyğəmbər ailəsi vasitəsilə uzun müd-

dətli İslam hökuməti yaratmaq uğrunda səy göstərmək; bu məqsədə çatmaqdan ötrü zəminə yaratmaq üçün mədəni tədbirlər vasitəsilə münasib insani qüvvələri tərbiyə etmək; əsl İslami fikirləri bəyan etmək, mövhumat və bidətləri üzə çıxarmaq.

Məşhur İslam tarixçisi Məsudi yazır: "İmam Səccad *(ə)* İmaməti gizli və təqiyyə şəklində və çox çətin bir vaxtda öhdəsinə götürmüşdür."[311]

İmam Sadiq *(ə)* bu haqda buyurur: "Camaatın üç nəfəri istisna olmaqla hamısı Hz.Hüseynin *(ə)* şəhadətindən sonra döndü; Əbu Xalid Kabili, Yəhya ibn Ummut-Təvil və Cübeyr ibn Mutim."[312]

Cəmiyyət arasında hökm sürən qorxu və zalım Əməvi hökumətinin camaat üzərindəki güclü nüfuzu hər hansı bir hərəkat və silahlı mübarizəni məğlubiyyətə məhkum edirdi. Kiçik hərəkatlar belə Əməvi casuslarının gözündən yayınmırdı. Bir gün xəlifə Əbdülməlik ibn Mərvanın (685-705) Mədinədəki casusu ona xəbər verdi ki, İmam Səccad *(ə)* kənizlərindən biri ilə evlənmişdir. Xəlifə Əbdülməlik İmama *(ə)* yazdığı məktubda bu işi İmam üçün nöqsan saymış və etiraz etmişdi ki, niyə özünə tay olan bir qüreyşli qadınla evlənməmişdir? İmam *(ə)* onun cavabında belə yazdı: "Peyğəmbərdən böyük və üstün şəxs yox idi. O, öz kənizi ilə evlənmişdir. Allah hər bir kiçikliyi İslamın sayəsində ucaldır və hər bir nöqsanı İslam vasitəsilə aradan götürür. Hər bir alçaq şəxs İslam sayəsində əzizlənir. Müsəlman olan heç bir şəxs alçaq deyil. Alçaqlıq ancaq cahiliyyət alçaqlığıdır."[313] Xəlifə Əbdülməlik bununla bildirmək istəyirdi ki, İmamın *(ə)* hər bir işi onun nəzarəti altındadır. Belə bir şəraitdə necə qiyam etmək mümkün ola bilər?

İmam Səccadın *(ə)* dövrü diktatura mühitinə təsadüf etdiyi üçün o Həzrət öz fikir və məqsədlərinin çoxunu dua və münacat şəklində camaata çatdırırdı. İmamın *(ə)* dualar toplusu Səhifeyi-Səccadiyə adlanır. Bu kitab Quran və Nəhcül-bəlağədən sonra ən böyük və ən mühüm ilahi maarif xəzinəsi sayılır. Nəhcül-bəlağa "Əxul-Quran" yəni Quranın qardaşı, Səhifeyi-Səccadiyə isə "Uxtul-Quran" yəni Quranın bacısı adlanır.[314] Səhifeyi-Səccadiyəyə "İncilu-Əhli-beyt" və "Zəburu-Ali-Məhəmməd" ləqəblərini də vermişlər.[315] Səhifeyi-Səccadiyə təkcə Allahın dərgahına dua etmək və hacət istəməkdən ibarət deyil. Bu kitab eyni zamanda İslami elmlər və maarif dəryasıdır. Onun içində əqidəvi, mədəni, ictimai, siyasi və bir sıra təbiət və şəriət qayda-qanunları vardır ki, dua şəklində bəyan olunmuşdur. Səhifeyi-Səccadiyə əlli dörd duadan ibarətdir.

Kərbəla faciəsindən sonra İmam Səccad *(ə)* iyirmi il, başqa bir rəvayətə görə isə qırx il ağlamışdır. Həmişə yemək yeyəndə gözünün yaşı yeməyə tökülər, su içmək istəyəndə isə o qədər ağlayardı ki, gözünün yaşından su müzaf olardı. Rə-

---

[311] İsbatul-vəsyyə, səh-167.
[312] Qamusur-Rical, IX cild, səh-399.
[313] Firui-kafi, V cild, səh-344.
[314] "Əz-Zəriətu ila təsanifiş-şiə" XV cild, səh-18.
[315] "Riyazus-salihin", səh-4-5.

vayətə görə, hər gecə-gündüzdə min rükət namaz qılan İmam Səccad *(ə)* bir neçə dəfə Məkkəyə həcc ziyarətinə piyada getmişdir.

İmam Səccad *(ə)* hicrətin 94-cü ili (və ya 95) məhərrəm ayının 12-si, miladi 712-ci ildə Əməvi xəlifəsi Vəlid ibn Əbdülməlikin (705-715) əmri ilə Mədinədə şəhid edilmiş və Bəqi qəbiristanlığında əmisi Hz.Həsənin *(ə)* yanında dəfn edilmişdir. Künyəsi Əbu Muhəmməddir.

İmam Səccadın *(ə)* ləqəbləri

1) Zeynul-Abidin – abidlərin zinəti, 2) Səccad – daim səcdədə olan,

3) Varisu elmin-nəbiyyin – peyğəmbər elminin varisi, 4) Züssəfanat – səcdə etməkdən alnı pinə bağlayan, 5) İbnul-xeyrəteyn – iki yaxşının oğlu

İmam Səccadın *(ə)* zövcələri

İmam Səccadın *(ə)* bir nigahlı zövcəsi olub o da İmam Həsənin *(ə)* qızı Ümmi Abdullah künyəsi ilə tanınan Fatimədir. Bu xanım İmam Baqirin *(ə)* anasıdır. Digər övladları isə xüsusi kənizlərindən doğulmuşdur.

Səhih hesab edilən məlumatlara görə İmamın *(ə)* on bir oğlu, dörd qızı olmuşdur:
1) İmam Baqir *(ə)*; 2) Zeyd-bu şəxs Əməvi xəlifəsi Hişam ibn Əbdülməlkin (724-743) xilafəti dövründə 739-740-cı illərdə Kufədə əməvi zülmünə qarşı qiyam etsə də şəhid edilmişdir. 3) Əmr; 4) Abdullah; 5) Həsən; 6) Hüseyni-Əkbər; 7) Hüseyni-Əsğər; 8) Əbdürrəhman; 9) Süleyman; 10) Məhəmmədül-Əsğər; 11) Əli-Əsğər; 12) Xədicə; 13) Fatimə; 14) Əliyyə; 15) Ümmi-Gülsüm.

İmam Səccadın *(ə)* üzüyündə bu yazı yazılmışdı: "Həsbiyəllahu likulli həmmin" – Allah hər bir müsibətdə mənə kifayətdir.

İmam Səccadın *(ə)* müasiri olmuş xəlifələr:

1) Müaviyə ibn Əbu Süfyan (661-680)
2) Yezid ibn Müaviyə (680-683)
3) II Müaviyə ibn Yezid (683-684)
4) I Mərvan ibn Həkəm (684-685)
5) Əbdülməlik ibn Mərvan (685-705)
6) I Vəlid ibn Əbdülməlik (705-715)
7) Abdullah ibn Zübeyr (680-695).

Süleyman ibn Əbdülməlik hicri 96-99 (miladi 715-717)

705-ci ildə qardaşı Vəlid öldüyü zaman Rəmlədə olan Süleyman Şama gəlib ümumi beyətdən sonra Əməvi xəlifəsi təyin edildi. O, əyyaşlıqla məşğul olan, dövlət işlərini idarə etməyə etinasız yanaşan bir şəxs olmuşdur. Süleyman ibn Əbdülməlik çox acgöz, qarınqulu, kefcil və gözəllikpərəst bir insan olmuşdur. Onun üçün açılan süfrələr həmişə təmtəraqlı olmuşdur. O, ləl-cəvahiratla bəzədilmiş, qıraqları zərli saplarla bəzədilmiş paltarlar geyər və bu işdə o qədər ifrata yol verərdi ki, hətta onun aşpazxana işçilərinin onun yanına adi paltarda

gedib-gəlməsinə icazə verməzdi. Qeyd edilənlərə əsasən, onun söz-söhbətinin əsas hissəsini qadın və yeyib-içmək təşkil edərdi.

Hakimiyyətə gəldiyi ilk vaxtlarda əhali ilə mülayim davranmış, Həccac tərəfindən həbs edilmiş minlərlə insanı azad buraxmışdır. Vaxtilə xəlifə I Vəlidin dövründə Quteybə ibn Müslimin Həccacın əmrilə həbs etdiyi Yezid ibn Muhəlləb həbsdən qaçaraq xəlifə Süleymana sığındı. Xəlifə Süleyman ibn Əbdülməlik onunla birlikdə Əməvi dövlətində çoxdan unudulmuş qəbilələr arası düşmənçiliyi yenidən canlandırıb Əməvi dövlətinin yıxılmasını daha da tezləşdirdi. Süleymanın Kufə valisi təyin etdiyi Yezid ibn Muhəlləb Həccac ibn Yusif əs-Səqəfi ilə düşmən idi. Buna görə də o Həccacın qohumlarından intiqam almaq üçün hərəkətə keçdi. İlk olaraq 715-ci ildə Sind fatehi Məhəmməd ibn Qasimi Həccacın qohumu olduğu üçün heç bir günahı olmadan həbs etdirdi. 716-cı ildə isə Türkistan fatehi Quteybə ibn Müslimi və qardaşlarını edam etdirib, kəsik başlarını Şama xəlifə Süleymana göndərdi.[316] Bunların ardınca xəlifə Süleyman I Vəlidin dövründə Şama çağırılan iki Əndəlüs fatehi Musa ibn Nusayr və Tariq ibn Ziyadı da heç bir günahları olmadan edam etdirdi. Musa ibn Nusayrın ardınca Mərakeş və Əndəlüsdə vali olan oğlu Əbdüləzizdə edam olunmuşdur.[317]

İstanbulun mühasirəsi hicri 97-99 (miladi 715-718)

Süleymanın xilafəti dövründə baş verən əhəmiyyətli hadisələrdən biri də İstanbulun mühasirəsidir. 715-ci ildə Süleyman ibn Əbdülməlik qardaşı Məsləmə ibn Əbdülməlikin başçılığı altında olan böyük bir ordu və donanmanı İstanbula göndərdi. Çanaqqala boğazını keçən müsəlmanlar 716-cı ildə İstanbula yaxınlaşdı. Həmin vaxt III Teodorsun ölümündən sonra Bizans taxtını ələ keçirən Leon (717-741) şəhəri yaxşı müdafiə etdiyi üçün şəhərin mühasirəsi uzanır və İstanbul 718-ci ilə qədər müsəlmanlar tərəfindən mühasirədə qalır. Bu müddət ərzində xəlifədən heç bir yardım almayan İslam ordusu aclıq və vəba xəstəliyi nəticəsində xeyli itki verdi. Eyni vaxtda Bulqarların hücumuna məruz qalan İslam ordusu daha çox itki verdi. Bundan xəbər tutan xəlifə Süleyman müsəlman ordusuna yardım etmək üçün 717-ci ildə yola düşür. Lakin həmin ildə Mərci-Dabıq adlı məntəqədə çox yemək yeməkdən ölür və onun yerinə Ömər ibn Əbdüləziz Əməvi xəlifəsi təyin edilir.[318]

Xəlifə Süleyman ibn Əbdülməlikin dövründə Kufə valisi olan Yezid ibn Muhəlləb Curcan və Təbəristanı fəth etmişdir.[319] Süleyman ibn Əbdülməlik oğlanları öldüyü üçün ölümündən əvvəl yerinə əmisi oğlu Ömər ibn Əbdüləzizi vəliəhd təyin etmiş, ondan sonra da qardaşları Yezid ibn Əbdülməlik və Hişam ibn Əbdülməliki bir-birinin ardınca vəliəhd təyin etmişdir.[320]

---

[316] Tarixi-Yəqubi, II cild, səh-294-296.
[317] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, IX cild, səh-171-174.
[318] Tarixi-Təbəri, IV cild, səh-48; Tarixi-Yəqubi, II cild, səh-294-299.
[319] Tarixi-Təbəri, IV cild, səh-49-56; Tarixi ibn Əsir, V cild, səh-29-36.
[320] Tarixi-Təbəri, IV cild, səh-59-61.

Ömər ibn Əbdüləziz hicri 99-101 (miladi 717-720)

Ömər ibn Əbdüləziz hicrətin 99-cu ili səfər ayının 19-da miladi 717-ci ilin noyabrında Süleymanın vəfatından sonra Əməvi xəlifəsi təyin edilmişdir. Ömər qısa müddət ərzində xeyli işlər görmüşdür. O, xalqa zülm edən valiləri dəyişmiş, özünün təyin etdiyi valiləri də daim nəzarətdə saxlayırdı ki, xalqa zülm etməsinlər. Zalım vali və məmurları vəzifəsindən azad edərək yerlərinə ədalətli məmurlar təyin edirdi. Məşhur fəqihlərdən Şabini Kufəyə, Həsən Bəsrini də Bəsrəyə qazi təyin etmişdi.

Xəlifə Süleymanın dövründə Kufə, Xorasan və Maveraunnəhr valisi olmuş Yezid ibn Muhəlləbi vəzifəsindən çıxararaq həbs etmişdir. Çünki Yezid ibn Muhəlləb, İraq valisi olarkən fəth etdiyi ərazilərin qənimətlərindən beytul-mala pay ayırmamış, hökumətə hesabat verməmişdir.

Müaviyə ibn Əbu Süfyan tərəfindən birləşdirilən Bəsrə və Kufə valiliyini yenidən iki vilayətə ayırmışdır. Eyni zamanda xəlifə Süleymanın xilafəti dövründən İstanbulu mühasirədə saxlayan Məsləmə ibn Əbdülməlikin başçılığı altında olan İslam ordusunu 718-ci ildə geri çağırmışdır.

Xəlifə Ömərə görə İslam dövlətinin əldə etdiyi torpaqlar kifayətdir, yeni torpaqlar qazanmaqdansa, bu torpaqlarda adil bir idarə təşkil etmək lazımdır. Ömər ibn Əbdüləziz I Yezidin xilafəti dövründə Mədinədə anadan olmuşdur. 704-cü il atası Əbdüləziz ibn Mərvanın ölümündən sonra Şama gəlib əmisi Əbdülməlik ibn Mərvanın qızı Fatimə ilə evlənmişdir. Sonralar xəlifə I Vəlid tərəfindən Mədinəyə vali təyin edilsə də, qısa müddət sonra 712-ci ildə Həccac ibn Yusifin israrı ilə vəzifəsindən kənarlaşdırılmışdır. Çünki Həccacın zülmündən cana doymuş insanlar qaçaraq əmin-amanlıq yeri olan Mədinəyə sığınırdılar.

Ömər ibn Əbdüləzizin həyata keçirdiyi islahatlar

1. Hədislərin yazılıb və camaat arasında söylənməsi üzərində qoyulmuş qadağanın qaldırılması: Hz.Peyğəmbərin *(s)* hədis və buyuruqlarının Qurandan sonra ikinci yerdə olduğuna, asimani kitabdan sonra İslam mədəniyyətinin ən böyük mənbəyi sayılmasına və bu iki şeyin bir-birindən ayrılmasının qeyri-mümkün olmasına baxmayaraq, Əbu Bəkr və Ömər hədis toplamağın əleyhinə çıxıb əsassız bəhanələrlə, həqiqətdə isə siyasi məqsədlərlə müsəlmanlara hədis yazıb söyləməyi qadağan etdilər. Xəlifə Əbu Bəkr belə dedi: "Allahın Rəsulundan heç bir şey söyləməyin! Əgər sizlərdən bir nəfər bir məsələ barədə sual etsə, ona deyin ki, Allahın kitabı olan Qurani-Kərim bizim və sizin aranızdadır, onun halalını halal, haramını da haram sayın."[321] Əbu Bəkrdən sonra Ömər ibn Xəttab Hz.Peyğəmbərin *(s)* hədislərinin yazılmasına qadağan qoymaq məqsədilə İslam dövlətinin bütün ərazilərinə belə yazdı: "Kim Pey-

[321] Zəhəbi, Təzkirətul-huffaz, I cild, səh-3.

ğəmbərdən *(s)* bir hədis belə yazıbsa, onu yandırsın."[322] Bununlada kifayətlənməyən Ömər ibn Xəttab səhabələrlə yanaşı hədis əzbər bilənlərə ciddi xəbərdarlıq etdi ki, hədis söyləmək və yazmaqdan çəkinsinlər.

Xəlifələr tərəfindən hədislərin yazılması və əzbərlənməsi üzərində qoyulan bu qadağa sonrakı xəlifələr vasitəsilə əməvi xəlifəsi Ömər ibn Əbdüləzizin dövrünə qədər davam etmiş və hədis elminin inkişafını ən azı iki yüz il dala atmışdır. Ömər ibn Əbdüləziz təqdirə layiq bir addım ataraq bu acınacaqlı bidəti aradan götürməklə camaatı hədis söyləmək, yazmaq və toplamağa həvəsləndirdi. Ömər ibn Əbdüləzizin dərc etdiyi bəyannamədə deyilirdi: "Hz.Peyğəmbərin *(s)* hədislərini toplayaraq yazın. Çünki mən qorxuram alim və hədisçilərin dünyadan getməsilə o Həzrətin elm çırağı sönə."[323]

2. Hz.Əlini *(ə)* söyməyin qadağan edilməsi: Bu bidət məlun xəlifə Müaviyə ibn Əbu Süfyanın qoyduğu bir miras idi ki, onun varisləri tərəfindən davam etdirilirdi. Müaviyə hakimiyyəti ələ keçirdikdən sonra Hz.Əli *(ə)* haqqında yalançı hədislər yazdırmaqla bərabər göstəriş verdi ki, bütün xilafət ərazisində cümə günləri minbərə çıxıb xütbə oxuyarkən xütbənin sonunda Hz.Əlini *(ə)* söyməkdə xütbəyə əlavə olunsun. Bu çirkin bidət xəlifə Ömər ibn Əbdüləzizin dövrünə qədər davam etmişdir.[324] Ömər ibn Əbdüləziz hakimiyyətə gəldikdən sonra bu bidəti aradan götürərək dedi: "Bundan sonra minbərlərdə Hz.Əlini *(ə)* lənətləməyin əvəzinə "Nəhl" surəsinin 90-cı ayəsi oxunulsun! Ayədə deyilir: **"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara haqqını verməyi buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. Allah sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!"** Bu iş camaat tərəfindən yaxşı qarşılandığı üçün bu bidət aradan qaldırıldı."[325]

3. Fədəkin Hz.İmam Baqirə *(ə)* qaytarılması: Bildiyimiz kimi hicrətin altıncı ili miladi tarixi ilə 628-ci ildə Hz.Peyğəmbər *(s)* "İsra" surəsinin 26-cı ayəsi əsasında Fədəki Hz.Fatiməyə (s.ə) və onun övladlarına əta etmişdir. Lakin Hz.Peyğəmbərin *(s)* vəfatından sonra Fədək Hz.Fatimədən (s.ə) alınıb beytul-malın torpaqları sırasına qatılmışdır. O vaxtdan sonra xəlifələr bu bağı bir-birinə ötürmüş və nəhayət, Müaviyə ibn Əbu Süfyan öz hakimiyyəti dövründə onu Mərvana, Mərvan da oğlu Əbdüləzizə bağışlamışdır. Əbdüləziz öldükdən sonra Fədək oğlu Ömər ibn Əbdüləzizə çatmışdır. Ömər də onu xanım Zəhranın (s.ə) övladlarından olan Hz.İmam Baqirə *(ə)* qaytararaq deyir: "Fədək onlarındır və Bəni-Umeyyənin onda heç bir haqqı yoxdur." Ancaq onun ölümündən sonra II Yezid ibn Əbdülməlik hakimiyyətə gəlib Fədəki yenidən Hz.Fatimənin (s.ə) övladlarından alaraq Bəni-Umeyyənin tiyulu

---

[322] Əzvaun ələs-sünnətil-Muhəmmədiyyə, səh-43.
[323] Əs-Sünnətu qablət-tədvin, səh-309.
[324] İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi, III cild, səh-57.
[325] Tarixi ibn Əsir, V cild, səh-42.

qərar verir.[326] Şeyx Səduq nəql edir ki, Ömər ibn Əbdüləziz Mədinəyə səfəri zamanı İmam Baqirlə *(ə)* görüşüb Fədəyi o Həzrətə qaytardı.[327] İmam Baqir *(ə)* Ömər ibn Əbdüləzizin bu xeyirxah əməlini nəzərə alaraq belə buyurmuşdur: "Ömər ibn Əbdüləziz Bəni-Umeyyənin ən nəcib adamıdır ".[328]

Abdullah ibn Əta Təmimi deyir: Mən məsciddə Hz.Zeynul-Abidinin *(ə)* yanında idim. Bu vaxt Ömər ibn Əbdüləziz bizim yanımızdan keçdi. Onun geyindiyi ayaqqabının bağı gümüşdən olub zahiri görünüşü də olduqca gözəl idi. İmam *(ə)* onu başdan ayağa süzüb buyurdu: "Abdullah Əta! Bu inadkar israfkarı görürsən? O, ölməzdən qabaq hakimiyyətə gələcək, lakin uzun ömür sürməyəcək. O, dünyadan gedəndə yer əhli onun üçün ağladığı halda, göy əhli onu lənətləyəcək."[329]

4. Ömər ibn Əbdüləzizin xilafəti zamanı atdığı müsbət addımlardan biri də İslam hakimiyyəti altında yaşayan yəhudi və xristianların hüquqlarının qorunması olmuşdur. Əvvəlki dövrlərdə müsəlmanların əldə etdikləri ərazilərdə əhali müsəlman olmaqda və ya İslamı qəbul etməkdə sərbəst buraxılırdı. Ancaq onlar müsəlmanlar tərəfindən himayə olunduqları üçün cizyə ödəməli idilər. İslamı qəbul etməyib cizyə ödəməyi qəbul edən şəxslər öz dini adət-ənənələrini yerinə yetirməkdə tam sərbəst idilər. İslamı qəbul edənlər isə cizyədən azad olmaqla bərabər adam başına verilən vergi və torpaq üçün alınan vergidən də azad olurdular.

Lakin Əməvilər dövründə, xüsusilə Həccacın zamanında dövlət gəliri aşağı düşdüyündən İslamı qəbul etmiş yəhudi və xristianlardan da cizyə alınırdı. Bu isə açıq-aşkar zülm və ədalətsizlik idi. Ömər ibn Əbdüləziz xəlifə olduqdan sonra camaatı dinə gətirmək üçün bu bidəti ləğv etdi. Bu yolla Maverənnəhr xalqının çoxu İslamı qəbul etdi, islamiyyət Sində də yayıldı.

Əməvilər dövründə hakimlər müttəhim və günahkarlarla İslam qanunu çərçivəsində deyil, öz istədikləri kimi rəftar edirdilər. Ömər bunun qarşısını alaraq onlara heç bir kəsə layiq olmadığı cəzanı verməyə icazə vermirdi. Eyni zamanda vəzifələri də iki qəbilə Qəhtani və Kəlbilər arasında bərabər səviyyədə bölməklə daxili iğtişaşların qarşısını ala bildi.

Ömər ibn Əbdüləzizin həyata keçirdiyi islahatlardan qorxuya düşən Əməvi məmurları onu hicrətin 101-ci ili rəcəb ayının 25-də miladi tarixilə 720-ci ildə zəhərləyərək öldürdülər. O, Deyru-Simanədə dəfn edilmişdir.[330]

---

[326] Tarixi-Yəqubi, III cild, səh-50.
[327] Əl-Xisal, III bölmə.
[328] Siyuti, Tarixul-xüləfa, səh-230.
[329] Əllamə Məclisi, Biharul-ənvar, XI cild, səh-234.
[330] Tarixi-Məsudi, III cild, səh-92.

II Yezid ibn Əbdülməlik hicri 101-105 (miladi 720-724)

720-ci ildə Ömər ibn Əbdüləzizin ölümündən sonra Süleyman ibn Əbdülməlikin vəsiyyətinə əsasən II Yezid ibn Əbdülməlik əməvi xəlifəsi təyin edildi. O, çox əyyaş, kefcil, laqeyd bir adam olub əxlaqi və dini qaydalara əsla riayət etmirdi. Buna görə də, onun hakimiyyət dövrü Bəni Umeyyənin hakimiyyətdə olduğu ən pis və azğınlıq dövrü hesab olunur. Onun hakimiyyəti dövründə İslam tarixində heç bir fəth baş verməmişdir. O, musiqiyə o qədər həvəs göstərirdi ki, Şama hətta uzaq şəhərlərdən xanəndələr dəvət edirdi. O, öz vaxtını eyş-işrət, musiqi məclislərində keçirməyi ilə tarixdə məşhurdur.

Xəlifə Ömər ibn Əbdüləzizin vəfatını eşidən xəvariclər Şəvzəbin başçılığı altında üsyan edərərək Əməvi ordularını bir-birinin ardınca məğlub etdilər. Bundan xəbər tutan xəlifə II Yezid qardaşı Məsləmə ibn Əbdülməliki Kufə valisi təyin etməklə bu üsyanı yatırmışdır.

Muhəlləbilər

Xəlifə Süleyman ibn Əbdülməlikin dövründə Kufə, Maverənnəhr və Xorasanın ixtiyarı tamamilə Yezid ibn Muhəlləbə verilmişdi. Süleymandan sonra xəlifə olan Ömər ibn Əbdüləziz ondan bu bölgələrin vergisini istədikdə Yezid ibn Muhəlləb xəlifənin əmrini rədd etdiyi üçün xəlifə tərəfindən həbs edilmişdir. Ömərin xəstə olduğu ərəfədə həbsxanadan qaçan Yezid ibn Muhəlləb Bəsrəyə qaçaraq oraya sığındı. 720-ci ildə üsyan edən Yezid ibn Muhəlləb Bəsrəni bütünlüklə ələ keçirdi. Bəsrə valisi Ədi ibn Ərtar bir şey edə bilmədiyi üçün Əzd və Rəbiə qəbilələri də Yezid ibn Muhəlləbə qoşuldu. Bundan cürətlənən Yezid ibn Muhəlləb İran, Kirman, Əhvaz və Sinddi də ələ keçirdi. Bundan narahat olan xəlifə II Yezid qardaşı Məsləmə ibn Əbdülməliki Yezid ibn Muhəlləbin üzərinə göndərdi. 720-ci ildə Kufə yaxınlığında baş verən döyüşdə Yezid ibn Muhəlləb və qardaşı öldürüldü. Muhəlləbiləri təqib edən Məsləmə ibn Əbdülməlik bu sülalənin axırına çıxdı.[331]

Maverənnəhrdəki vəziyyət

Yezid ibn Muhəlləb üzərindəki qələbədən sonra nüfuzu artan Məsləmə ibn Əbdülməlik xəlifə II Yezid tərəfindən İraq və şərq hissəsinin valisi təyin edildi. Məsləmə də kürəkəni Səid ibn Əbdüləzizi Xorasana vali təyin etsə də, o, Maverənnəhrdən gələn türk qoşunlarının qarsını ala bilmədi. 722-ci ildə Kufə valisi olan Əmr ibn Hubeyrə Səid ibn Əbdüləzizin yerinə Səid ibn Hərəşini Xorasan valisi təyin etdi.

Səid ibn Hərəşi dərhal Mavərənnəhrə hücum edərək Hocənd, Nəsəf və Kəş şəhərlərini ələ keçirdi. Lakin qələbə xəbərini validən qabaq xəlifə II Yezidə çatdırdığı üçün o, Əmr ibn Hubeyrə tərəfindən 723-cü ildə vəzifəsindən kənarlaşdırılmışdır. Ondan sonra Müslim ibn Səid əl-Kilabi Xorasan valisi təyin edilmişdir.

---

[331]Tarixi-Təbəri, IV cild, səh-75-91; Tarixi-Yəqubi, II cild, səh-314.

İslam ordusunun Mərcul-Hicarə adlı məntəqədə xəzər türkləri tərəfindən məğlub edildiyini öyrənən xəlifə II Yezid Cərrah ibn Abdullahı Van valisi təyin etdi. 722-ci ildə Kür çayı sahilində türkləri məğlub edən Cərrah ibn Abdullah Bələncər və Əlivənzər şəhərlərini ələ keçirdi.[332]

Əvvəldə qeyd etdiyimiz kimi xəlifə II Yezid içki və qadın düşkünü idi. Onun Xubabə və Səllamə adlı iki kənizi var idi ki, həqiqətdə ölkənin siyasi işləri bu iki qadının əlində idi. II Yezidin ən çox bağlandığı Xubabə adlı kəniz öldükdə həddən artıq narahat olan xəlifə, bir neçə gün onun cənazəsinin yanında əyləşib onu dəfn etməyə icazə verməmişdi. Kənizin cəsədi iy verən zaman xəlifənin qardaşı onun yanına gəlib icazə aldıqdan sonra Xubabənin cəsədi dəfn olunmuşdur. Həddən artıq sevdiyi kənizinin ayrılığına dözə bilməyən xəlifə II Yezid iki həftədən sonra özü də vəfat etmişdir.[333] Vəfatından qabaq qardaşı Hişam ibn Əbdülməliki, ondan sonra isə öz oğlu Vəlidi vəliəhd təyin etmişdir.

Hişam ibn Əbdülməlik hicri 105-125 (miladi 724-743)

724-cü ildə xəlifə II Yezid ibn Əbdülməlikin ölümündən sonra onun vəsiyyətinə əsasən qardaşı Hişam ibn Əbdülməlik əməvi xəlifəsi təyin edildi. Bəni-Umeyyənin içində ən siyasi xadimlərdən biri olan Hişam əxlaqca paxıl, həris, tündxasiyyət, daşürəkli, rəhimsiz və kobud adam olmuşdur. Rəhimsiz və zalım olduğundan onun dövründə camaatın vəziyyəti ağırlaşdı, insani hisslər demək olar ki, aradan getdi. O, öz hakimiyyətini yalnız daxildəki çəkişmələri və xarici döyüş alovlarını söndürdükdən sonra möhkəmlədə bilmişdi. Hişam hakimiyyətə gəldiyi vaxt Şimal istiqamətindən türkmən tayfaları və Xəzərlər mərkəzi hökumətə hücum edirdilərsə, Şərqdə də Abbasilər Əməviləri hakimiyyətdən salmaq üçün gizli təbliğat aparırdılar. Abbasilərin təbliğatı bundan əvvəl xəlifə Ömər ibn Əbdüləzizin dövründən 718-719-cu illərdə Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbasın vasitəsilə başlamışdır. Ölkə daxilində isə xarici üsyanlarının ardı-arası kəsilmirdi. Hakimiyyəti əldə edən Hişam dərhal İraqda baş qaldıran Abbasi təbliğatlarının qarşısını almaq üçün Ömər ibn Hubeyrənin yerinə Xalid ibn Abdullah əl-Qəsrini İraq valisi təyin etdi.[334]

Türkistan hadisələri

Xəlifə II Yezidin dövründə Müslim ibn Səid əl-Kilabinin Türkistan türkləri ilə başladığı düşmənçilik Hişamın dövrünü tamamilə əhatə etmişdi. İraq valiliyinə gətirilən Xalid ibn Abdullah əl-Qəsri qardaşı Əsədi Xorasana vali göndərdi. Bu vaxt Müslim ibn Səid Fərqanə tərəflərində türklərlə döyüşü davam

[332] Tarixi-Təbəri, IV cild, səh-94-108.
[333] Tarixi-Təbəri, IV cild, səh-109-111; Tarixi ibn Əsir, V cild, səh-67-123; Siyuti, Tarixul-xüləfa, səh-246-247.
[334]Tarixi-Təbəri, III cild, səh-112.

etdirirdi. Lakin Xorasanda Əsədin xalqa zülm etdiyini öyrənən xəlifə Hişam onu 727-ci ildə Əşrəs ibn Abdullah əs-Süləmi ilə əvəz etdi.[335]

Əldə etdiyi vəzifədə özünü doğrultmağa çalışan Əşrəs ibn Abdullah Səmərqənd və Maverənnəhr əhalisinə elçilər göndərib onları İslama dəvət etdi və İslamı qəbul edərlərsə onlardan cizyə alınmayacağını bildirdi. Bu xəbərdarlıqdan sonra qısa müddət ərzində Səmərqənd əhalisi İslamı qəbul etdi. Səmərqənd əhlinin İslamı qəbul etməsindən sonra Əşrəs ibn Abdullah xəracı ikiqat artırdı. Hətta İslamı qəbul edən türklərdən belə cizyə alınmağa başlandı. Bu da həmin məntəqədə yenidən üsyana səbəb oldu və üsyan Maverənnəhri də bürüdü. Cizyə vermək istəməyən müsəlman türklər Səmərqənd ətrafında toplanaraq cizyə toplamağa gələnlərlə döyüşə başladılar. Üsyanın genişləndiyini görən türk hökmdarı Qurək də üsyançılara dəstək oldu. Bunun sayəsində türklər Səmərqənd və Buxaraya qədər irəlilədi. Bundan xəbər tutan xəlifə Hişam dərhal Əşrəs ibn Abdullahın yerinə 729-cu ildə Cuneyd ibn Əbdürrəhmanı Xorasan valisi təyin etdi.[336]

Ceyhunu keçən Cuneyd Türk xaqanlarını məğlub edərək 729-cu ildə (hicri 111) Səmərqəndi, 731-ci ildə (hicri 113) isə Buxaranı türklərdən geri aldı. 734-cü ildə Cuneyd ibn Əbdürrəhmanın ölümündən sonra Asim ibn Abdullah Xorasan valisi təyin edildi.[337]

Bəlx yaxınlığında Haris ibn Sureycin ordusuna məğlub olan Asim Mərvə gəldi. Mərvdə baş verən döyüşdə isə Asim Harisi məğlub etdi. Asimdən sonra ikinci dəfə Xorasan valiliyinə 735-ci ildə Xalid ibn Abdullah əl-Qəsrinin qardaşı Əsəd ibn Abdullah gətirildi. Əsəd ibn Abdullah 738-ci ilə qədər Xorasanda vali olsa da burada sakitliyi bərpa edə bilmədi. Yalnız 738-ci ildə Əsəd ibn Abdullahın ölümündən sonra Xorasan valiliyinə gətirilən Nəsr ibn Səyyar bu bölgədə sakitliyi təmin etmişdir.[338] Eyni zamanda Nəsr ibn Səyyar Xorasanda son Əməvi valisi olmuşdur.

Xəzər türkləri ilə mübarizə

Cəzirə valisi olan Cərrah ibn Abdullahı xəlifə Hişam ibn Əbdülməlik Xəzərlərə qarşı göndərsədə baş verən döyüşdə Cərrah məğlub oldu. Bundan xəbər tutan Hişam Cərrahın yerinə qardaşı Məsləmə ibn Əbdülməliki Cəzirə valisi təyin etdi. 725-726-cı illərdə Səid ibn Əmrlə birlikdə hərəkət edən Məsləmə ibn Əbdülməlik əl-Babı ələ keçirdi.

Bir il sonra Azərbaycana basqın edən Xəzərlər məğlub olaraq geri çəkildilər. 729-cu ildə yenidən Cəzirə valisi təyin edilən Cərrah ibn Abdullah Tiflis üzərindən Bələncərə gələrək Xəzərlərin mərkəzi şəhəri olan əl-Beydaya qədər gəlsə də qışın gəlməsilə geri dönmüşdür. 730-cu ildə yenidən Ərdəbilə qədər

[335] Tarixi-Təbəri, III cild, səh-127.
[336] Tarixi-Təbəri, III cild, səh-129-138; Tarixi ibn Əsir, V cild, səh-147-165.
[337] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, IX cild, səh-312; Xudari, Devletul-Uməviyyə, səh-193.
[338] Tarixi ibn Əsir, V cild, səh-226-228; Tarixi-Təbəri, IV cild, səh-153-158.

gələn xəzər türkləri Cərrah ibn Abdullahı məğlub etdilər. Son olaraq Cəzirə bölgəsinə vali təyin edilən Mərvan ibn Məhəmməd Xəzərləri məğlub edərək onlarla sülh bağlamışdır.[339]

İspaniyanın vəziyyəti

Xəlifə Süleymanın dövründə Əndəlus fatehi Musa ibn Nusayrın qətlindən sonra İspaniyanı bir müddət onun qohumu Əyyub ibn Həbibi idarə etmişdir. 715-ci ildə isə İspaniyaya əl-Hürr ibn Əbdürrəhman vali təyin edildi. Şimal istiqamətində səfərlər edən əl-Hürr xəlifə Ömər ibn Əbdüləzizin dövrünə qədər burada vali olaraq qalmışdır.

719-cu ildə xəlifə Ömər tərəfindən Yəmanilərdən olan Səmih ibn Malik İspaniyaya vali olaraq göndərildi. Qısa müddət ərzində bu bölgədə idarəni ələ alan Səmih ibn Malik Saraqosada böyük bir məscid və xeyli sayda körpülər tikdirdi. Şimal bölgəsində üsyan halında olanları məğlub edib Asturya dağ ərazilərini istila etdi. Narbonuda ələ keçirən Səmih 721-ci ildə Aqutanın mərkəzi olan Tulozu mühasirəyə alsa da baş verən döyüşdə öldürüldü və onun ölümündən sonra əməvi ordusu geri çəkildi.

Səmihin ölümündən sonra İspaniya valisi təyin edilən Ənbəsə ibn Suheym Fransa fəthlərini davam etdirərək Qarqazonu və Nimi ələ keçirib Ron vadisinə qədər irəlilədi. 725-ci ildə Franklarla müqavilə bağlayan Ənbəsə ibn Suheym həmin ildə də öldü. Ənbəsənin ölümündən sonra 726-cı ildə Bişr ibn Səfvan Əndəlus valisi təyin edildi. Ondan sonra vali təyin edilən Yəhyanın, Hüzeyfənin, Osmanın və Heysəmin valiliyi dövründə də Əndəlusda qalmaqallar davam etmişdir. Bu qalmaqallar xəlifə Hişamın dövrünə qədər davam etmişdir. Yalnız xəlifə Hişam tərəfindən 728-cu ildə İspaniyaya vali təyin edilən Əbdürrəhman ibn Abdullah bu bölgədə sakitliyi bərpa etmişdir. Bütün Avropanı keçib Bizansa daxil olmaq və Ağdənizi İslam gölü halına gətirmək istəyən Əbdürrəhman ibn Abdullah Fransaya doğru hərəkət etdi. Lakin 732-ci ildə (hicri 114) baş verən məhşur Puatye döyüşündə Çarless Martellin başçılığı altında olan fransız ordusu əməvi ordusunu məğlub etdi və İslam sərkərdəsi Əbdürrəhman öldürüldü. Puatye döyüşü İslam ordusunun qərb istiqamətindəki ən son nöqtəsi olmuşdur. Bu tarixdən sonra müsəlmanlar İspaniyada zəifləməyə başladılar.

Artıq Əməvi sarayından gələn əmrlərə əhəmiyyət verməyən İspaniya əmirləri 742-ci ildə bu bölgəyə Uqbə ibn Nafenin nəvələrindən olan Yusif ibn Əbdürrəhmanı hakim təyin etdilər. Əməvi xəlifəsi Hişam ibn Əbdülməlik də məcburən onun hakimiyyətini təsdiqlədi.

Anadolu döyüşləri

Hişam ibn Əbdülməlikin dövründə Bizanslarla bir sıra döyüşlər edilmişdir. Xəzər türklərinin təcavüzünə qarşılıq olaraq Anadoluya hücum edən Məsləmə

[339] Tarixi-Yəqubi, II cild, səh-317-318.

ibn Əbdülməlik Kayserini ələ keçirmişdir. 727-ci ildə isə xəlifə Hişamın oğlu Müaviyə ibn Hişam Amasyanı ələ keçirmişdir. Müaviyə ibn Hişam Kastamonu tərəflərinin valisi olduqdan sonra Bizans imperatoru Leonla sülh bağlayaraq döyüşə son qoymuşdur. Elə həmin ildə Anadolu düzündə ov edən Müaviyə ibn Hişam atdan yıxılaraq ölmüşdür. 736-cı ildə Gürcülər və Ermənilərdə Əməvilərə tabe edilmişdir. Bizansa qarşı baş verən döyüşlərdə seyid Battal Qazi ləqəbi ilə məhşurlaşan Əbul-Hüseyn Abdullah Antaki 740-cı ildə Afyon yaxınlığında baş verən döyüşdə öldürülmüşdür. Bundan bir il sonra 741-ci ildə Bizans ordusu Malatya üzərinə hücum etsədə xəlifə Hişamın köməyə gəlməsilə geri çəkilmişdir.[340] Eyni zamanda xəlifə Hişam ibn Əbdülməlikin dövründə 724-cü ildə ilk dəfə olaraq İslam dini Dağıstanda ləzgilər arasında yayılmışdır.

724-cü ildən İraqda vali olan Xalid ibn Abdullah əl-Qəsrinin yerinə 738-ci ildə xəlifə Hişamın göstərişi ilə Yusif ibn Ömər əs-Səqəfi İraq valisi təyin edildi. Yusif ibn Ömər İraqa gələn kimi Xalid ibn Abdullahı və onun oğlanlarını həbs etdirdi. On səkkiz ay həbsdə qalan Xalid və oğlanları ağır işgəncələrə məruz qalmışdır. Nəhayət 744-cü ildə Yusifin əmri ilə Xalid ibn Abdullah edam edilmişdir.[341]

Zeyd ibn Əlinin qiyamı 739-740

Zeyd ibn Əli *(ə)* İmam Baqirin *(ə)* qardaşı, Peyğəmbər *(s)* ailəsinin ən fəzilətli şəxslərindən olmuşdur. O hicrətin 80-cı ilində Mədinədə anadan olmuşdur. Tarixi məlumatlara əsasən Zeyd zəmanəsinin görkəmli alim, fəqih və müfəssirlərindən olmuşdur. Məşhur şiə alimi Şeyx Müfid onun barəsində deyir: "Zeyd ibn Əli ibn Hüseyn, qardaşları arasında Hz.Baqirdən *(ə)* sonra ən bacarıqlı və istedadlı şəxs hesab olunurdu. O, olduqca abid, pəhrizkar, zahid, səxavətli, fəqih və şücaətli bir şəxs idi. Xeyirli işlərə dəvət, pis işlərdən çəkindirmək və cəddi Hüseyn ibn Əlinin intiqamını almaq məqsədilə qiyam etdi. Quranla çox ünsiyyətdə olduğu üçün ona "Həliful-Quran" (Quranla əhd-peyman bağlayan) ləqəbi verildi."[342]

Şeyx Bəhaəddin Amili onun barəsində deyir: "Zeydin haqqında yaxşılıqdan başqa heç bir şey xatırlaya bilmirəm. İmam Sadiq *(ə)* hər zaman onu xatırlayarkən deyərdi: "Allah əmimə rəhmət etsin."[343] Zeyd ibn Əli qiyam etməzdən qabaq İmam Sadiqlə *(ə)* məşvərət etmiş və İmam *(ə)* da belə buyurmuşdur: "Ey Zeyd! Əgər qətlə yetirilib zibillikdə dar ağacından asılmağa razısansa qiyam et!" Zeyd o Həzrətlə vidalaşıb getdiyi zaman İmam Sadiq *(ə)* belə buyurmuşdur: "Vay o kəslərin halına ki, qiyam harayını eşidib ona yardımçı olmasınlar!"[344]

---

[340] Tarixi-Təbəri, IV cild, səh-122, 149, 164.
[341] Tarixi-Təbəri, IV cild, səh-183-189, 247-252.
[342] əl-İrşad.
[343] Əyanüş-şiə, I cild.
[344] Biharul-ənvar, 46-cı cild.

İmam Rzadan *(ə)* nəql olunan rəvayətdə deyilir: "Zeyd ibn Əli Peyğəmbər sülaləsinin böyük alimlərindən biri olmuşdur. O, Allahın razılığı üçün Allah düşmənləri ilə cihad etdi və Allah yolunda da şəhid oldu."[345]

Zeyd Əməvi xəlifələrinin özbaşınalıq, zülm və haqsızlıqlarını görüb narahat olur, belə fikirləşirdi ki, silahlı mübarizə yolu ilə Əməvi hakimiyyətini devirmək olar. Bundan xəbər tutan xəlifə Hişam əvvəlcə Zeydi Şama çağırıb boynuna oğurluq ataraq Kufə valisi Yusif ibn Ömərin yanına göndərir. Böhtan bundan ibarət idi ki, guya Yusif ibn Ömərdən əvvəl Kufə valisi olan Xalid ibn Abdullah Zeydə altı yüz min dirhəm pul verib.

Zeyd ibn Əlinin Kufəyə gəldiyini eşidən Kufə əhli ona beyət edərək onun başçılığı altında əməvilərə qarşı sonadək vuruşacaqlarına söz verdilər. Tarixi mənbələrdə qeyd olunur ki, on beş min nəfərdən ibarət olan könüllü dəstə Zeydə birləşərək qiyamda iştirak etmələrinə hazır olduqlarını bildirdilər. Lakin o zaman Kufənin valisi olan Yusif ibn Ömər Səqəfi, Zeydin qiyam edəcəyindən xəbərdar olub təcili olaraq döyüşə hazırlıq gördü. Zeydin ordusu tam hazırlaşmamış onlara qarşı hücum başlanır. Baş verən döyüşdə Zeyd ibn Əli iki yüz nəfərlik dəstəsilə birlikdə şəhid edildi. Zeydin adamları onu gizli yerdə dəfn etsələrdə, onun dəfn olunduğu yer xəlifənin adamları tərəfindən müəyyən olundu. Onun cəsədini qəbirdən çıxarıb başını kəsərək xəlifə Hişama göndərdilər, cəsədini isə Kufə darvazasından asdılar.[346]

Bəziləri belə düşünürlər ki, Zeyd ibn Əli qiyamı İmam Sadiqin *(ə)* razılığı olmadan etmişdir. Lakin bir çox fakt və sübutlar göstərir ki, o İmam Sadiqin *(ə)* razılığı ilə qiyam etmişdir. Bu faktlardan biri də, İmam Rzanın *(ə)* abbasi xəlifəsi Məmunun sualına verdiyi cavabdır. İmam Rza *(ə)* Məmunun cavabında buyurur: "Atam Musa ibn Cəfər atası Cəfər ibn Məhəmməddən eşitmişdir ki, İmam Sadiq *(ə)* buyurub: "Zeyd qiyam etmək üçün mənimlə məsləhətləşdi. Mən ona dedim ki, əmi can, əgər Kufənin girəcəyindən asılacaq şəxs olmaq istəyirsənsə, sənin yolun elə budur." Zeyd İmam Sadiqin *(ə)* hüzurundan getdikdən sonra İmam *(ə)* buyurdu: "Vay o şəxsin halına ki, onun dəvət sədasını eşidə, lakin ona cavab verməyə."[347] Başqa bir hədisdə İmam Sadiq *(ə)* Zeydin ordusunda vuruşaraq Əməvi ordusundan altı nəfəri öldürmüş şəxsə buyurur: "Allah məni bu qanlara şərik etsin. And olsun Allaha ki, əmim Zeyd eynilə Hz.Əli *(ə)* və onun səhabələrinin yolu ilə hərəkət etmişdir."[348] Digər bir rəvayətdə İmam Sadiq *(ə)* Zeyd barədə belə buyurur: "Allah ona rəhmət eləsin, mömin, arif, bilikli və düzdanışan bir adam idi. Qalib gələrdisə, verdiyi vədə əməl edər, hakimiyyəti ələ alsaydı, onu kimə verəcəyini yaxşı bilirdi."[349]

---

[345] Biharul-ənvar, 28-ci cild.
[346] Tarixi-Təbəri, IV cild, 193-200, 204-208.
[347] Uyuni-əxbarir Rza, I cild, səh-225.
[348] Qamusur-rical, IV cild, səh-570.
[349] İxtiyari-mərifətir-rical, səh-285.

Zeydin şəhadətindən sonra oğlu Yəhya Xorasana qaçıb 743-cü ildə qiyam etsə də, Xorasan valisi Nəsr ibn Səyyar tərəfindən şəhid edilmiş və kəsik başı xəlifə Hişamın hüzuruna göndərilmişdir. Başsız bədən isə Cuzcanda asılmış və Əbu Müslim Xorasani buraya gələnə qədər aslı vəziyyətdə qalmışdır.[350]

Əhli-beytin *(ə)* qatı düşməni olan xəlifə Hişamın ən böyük günahı isə beşinci İmam Muhəmməd Baqiri *(ə)* şəhid etməsilə bağlıdır. Hişam hicrətin 114-cü ili zilhiccə ayının 7-də miladi 732-ci il İmam Baqirə *(ə)* zəhər verdirərək onu şəhid etdirmişdir. Müqəddəs məzarı Mədinədə Bəqi qəbiristanlığındadır.

Hişamın xilafətinin sonlarında vergilərin çox olmasından narazı olan əhali ayağa qalxaraq türklərlə birləşdilər. Hişam bu hərəkatı yatırmaq üçün Nəsr ibn Səyyarı oraya göndərdi. İğtişaşları yatıran Nəsr Mərvdə məskunlaşdı. Lakin Əbu Müslimin qiyamından sonra Nişapura getmişdir. Əbu Müslimin göndərdiyi sərkərdə Qəhtəbə ibn Şəbib Tai ilə Nəsr ibn Səyyar arasında baş verən döyüşdən sonra Savədə gələn Nəsr 749-cu ildə vəfat etmişdir.

Hicrətin 124-cü ili (miladi 742) Xorasandan Məkkəyə doğru həkət edən bir qrup Abbasi təbliğatçıları Kufədən keçərkən vali Yusif ibn Ömər tərəfindən həbsə atılmış məhbuslarla görüşərək onları beyətə dəvət etdilər. Abbasilərin dəvətini qəbul edən məhkumlar onlara beyət etdilər. Onlara beyət edən məhkumlardan biri də Əbu Müslim Xorasani idi. O, İsa ibn Muqbil əl-Əcli adlı bir məhkuma hizmət edirdi. Onun qüvvətli və şücaətli olduğunu bəyənən təbliğatçılardan olan Bəkir ibn Mahan Əbu Müslimi İsa ibn Muqbildən 400 dirhəmə satın alaraq Məkkəyə doğru hərəkət etdilər. Abbasilərə bütün vücudu ilə bağlı olan Əbu Müslim onların hakimiyyətə gəlməsi üçün əlindən gələni əsirgəməmişdi. Onun həyata keçirdiyi zülm və haqqsızlıqlar barədə gələcək fəsillərdə geniş məlumat verəcəyik.

Eyni ildə vəfat edən Abbasi imamı Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbas yerinə oğlu Əbul-Abbas Səffahı buraxmışdır.

Onuncu Əməvi xəlifəsi Hişam ibn Əbdülməlik hicrətin 125-ci ili rəbiülaxir (miladi 743) ayının 6-da özünün tikdirdiyi Rüsafə şəhərində vəfat etmiş və orada basdırılmışdır.[351]

Hz.İmam Məhəmməd Baqir (ə)

Adı Muhəmməd, atası İmam Səccad *(ə)*, anası isə İmam Həsənin *(ə)* qızı Ümmü Abdullah künyəsi ilə tanınan Fatimədir. Buna görə də İmam Baqir *(ə)* həm ata, həm də ana tərəfdən Hz.Əliyə və Hz.Fatiməyə yetişən ilk imamdır. Künyəsi Əbu Cəfərdir.

İmam Baqir *(ə)* hicrətin 57-ci ilində səfər ayının üçündə (və ya rəcəbin biri) miladi tarixi ilə 674-cü ildə əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyanın xilafəti dövründə Mədinədə anadan olmuşdur. İmam Səccad *(ə)* vəfat edəndə ilahi elmin

[350]Tarixi-Təbəri, IV cild, səh-232-234; Tarixi-Yəqubi, II cild, səh-332.
[351]Tarixi-Məsudi, III cild, səh-216-217; Tarixi ibn Əsir, V cild, səh-261-263.

sirlərini, Hz.Peyğəmbərin *(s)* və digər peyğəmbərlərin mirasını İmam Baqirə *(ə)* təslim etmişdir. İmam Baqirin *(ə)* imam və məsum olmasına Hz.Peyğəmbərin *(s)* Cabir ibn Abdullah Ənsariyə söylədiyi hədis kifayət edər. Hədis belədir: Hz.Peyğəmbər *(s)* buyurdu: "Ey Cabir, sən mənim nəslimdən olan elə bir şəxsi görəcəksən ki, onun adı mənim adıma, özü də mənə oxşayacaq. O, elm qapılarını camaatın üzünə açacaq. Mənim salamımı ona çatdırarsan."[352] Bundan əlavə hələ peyğəmbər zamanında Hz.Cəbrailin Hz.Peyğəmbərə gətirdiyi səhifələrdə və Hz.Fatimənin Cabirə göstərdiyi yaşıl lövhədə o Həzrətin adının İmam Səccaddan *(ə)* sonra yazılması sübut edir ki, İmam Baqir *(ə)* atasından sonra onun yerində zəmanə imamıdır. İmam Baqirin *(ə)* həyatında baş verən maraqlı hadisələrdən biri əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin sarayında baş verən ox atma yarışı, digəri isə xristian yepiskopu ilə etdiyi münazirədir.

İmam Baqir *(ə)* öz imaməti dövründə İlahi maarifi nəşr edib meydana çıxarmağa başladı. İmam *(ə)* elmi çətinlikləri həll etməklə sonradan oğlu İmam Sadiqin *(ə)* imaməti dövründə təşkil edilən böyük İslam məktəbinin yaranmasına şərait yaratdı. İmam Baqir *(ə)* elm, fəzilət və əzəmətdə bütün Bəni-Haşimi böyüklərini üstələmişdi. İmamdan *(ə)* İslami hökmlər, təfsir, İslam tarixi və başqa elmlər haqqında çoxlu hədis və rəvayətlər yadigar qalmışdır. O dövrün böyük elmi şəxsiyyətləri və Peyğəmbər səhabələrindən sağ qalanlar İmam Baqirin *(ə)* elmindən istifadə edirdilər. Cabir ibn Yezid, Sicistani, İbn Mübarək, Zühri Uzai, Əbu Hənifə, Malik ibn Ənəs, Şafei kimi fəqihlər İmam Baqirin *(ə)* elmi əsərlərindən bəhrələnmişlər. Sünni məzhəbinin ən mötəbər müəlliflərindən hesab edilən Təbəri, Bəlazuri, Xətib Bağdadi, eləcə də mötəbər qaynaqlardan olan "Müvəttəil-Malik", "Sünəni-Əbu Davud", "Müsnədi Əbu Hənifə", "Təfsiri-Zəməxşəri" və s. bu kimi kitablar İmam Baqirin *(ə)* mənalı sözləri ilə doludur.

İmam Baqirin *(ə)* elmi sədası İslam məmləkətinin hər yerinə yayıldığı üçün ona "Baqirul-ulum" yəni elm qapılarını açan ləqəbi verilmişdir. İmam Baqir *(ə)* məktəbinin yetirmələri bunlardır: Məhəmməd ibn Müslim, Zürarə ibn Əyun, Əbu Bəsir, Büreyd ibn Müaviyə Əcli, Cabir ibn Yezid, Həmran ibn Əyan, Hişam ibn Salim və s. Bunları nəzərə alan İmam Sadiq *(ə)* belə buyurmuşdur: "Bizim məktəbi və atamın hədislərini dörd nəfər dirçəltdi. O dörd nəfər Zürarə ibn Əyun, Əbu Bəsir, Məhəmməd ibn Müslim və Büreyd ibn Müaviyə Əcli olmuşdur. Əgər bunlar olmasaydı, bir nəfər din təlimatı və Peyğəmbər məktəbindən istifadə edə bilməzdi. Bu neçə nəfər dinin gözətçiləri olmuşdur. Onlar dövrümüzdə yaşayan şiələrimiz arasında bizim məktəblə tanış olan ilk şəxslər olmuş, Qiyamətdə də hamıdan qabaq bizə qovuşanlar məhz onlar olacaqlar.[353] İmamın *(ə)* şagirdləri elmi mübarizə meydanında qeyri-şiə fəqihlərindən üstün idilər. Məhəmməd ibn Müslim şiə məzhəbinin böyük şəxsiyyətlərindən, yüksək dərəcəli

[352] Biharul-ənvar, 46-cı cild, səh-226.
[353] İxtiyari-mərifətir-rical, səh-136-137.

hədisçilərindən, İmamın *(ə)* fiqh və hədis sahəsində ən qabaqcıl şagirdlərindən olmuşdur. O, İmam Baqirdən *(ə)* otuz min, İmam Sadiqdən *(ə)* isə on altı min hədis öyrənmişdir. Onun məşhur kitabı "Ərbəə miətu-məsələtin" (Dörd yüz məsələ) kitabıdır.

İmam Baqir *(ə)* məktəbinin yetirmələrindən biri də Cabir ibn Yezid Cufidir. O da Kufədə anadan olmuş, İmam Baqirin *(ə)* elmindən faydalanmaq üçün Mədinəyə köçmüşdür. Cabirin yazdığı kitablar bunlardır: 1) Təfsir kitabı, 2) Cəməl kitabı, 3) Siffeyn kitabı, 4) Nəhrəvan kitabı və s.

İmam Baqir *(ə)* hicrətin 114-cü ili zilhiccə ayının 7-də, miladi 732-ci il əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin əmri ilə Mədinədə şəhid edilmişdir. Müqəddəs məzarı Bəqi qəbiristanlığındadır.

İmam Baqirin *(ə)* ləqəbləri

1) Baqirul-ulum – elmləri yaran;
2) Şahirul-ulum – elmləri aşkara çıxaran;
3) Zakir – zikr edən;
4) Şakir – şükr edən;
5) Cami – elmləri cəm edən;
6) Hazir – hazırcavab;

İmam Baqirin *(ə)* zövcələri

1) Ümmü Fərvə binti Qasim ibn Məhəmməd ibn Əbu Bəkr. Bu xanım İmam Sadiqin *(ə)* və Abdullahın anasıdır, 2) Ümmi Həkim binti Əsəd ibn Müğeyrə. İbrahim və Abdullahın anasıdır, 3) Leyli - Zeynəb və Əlinin anasıdır.

İmam Baqirin *(ə)* övladları

1) Əbu Abdullah İmam Sadiq *(ə)*, 2) Abdullah, 3) İbrahim, 4) Ubeydullah, 5) Rəca, 6) Əli, 7) Zeynəb, 8) Ümmi Sələmə.

İmam Baqirin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Əl-izzətu lillahi cəmiən" – Bütün izzət və qüdrət Allaha məxsusdur.

İmam Baqirin *(ə)* müasiri olmuş xəlifələr:

1) I Vəlid ibn Ədülməlik (705-715); 2) Süleyman ibn Əbdülməlik (715-717); 3) Ömər ibn Əbdüləziz (717-720); 4) II Yezid ibn Əbdülməlik (720-724); 5) Hişam ibn Əbdülməlik (724-743).

II Vəlid ibn II Yezid hicri 125-126 (miladi 743-744)

743-cü ildə II Yezidin vəsiyyətinə əsasən Hişamın vəfatından sonra II Vəlid əməvi xəlifəsi təyin edildi. II Vəlidin bütün əməllərində küfr və dinsizliyi görmək mümkün idi. Rəvayətlərə əsasən onun əmri ilə Zeyd ibn Əlinin cəsədini dörd ildən sonra dar ağacından endirib yandırmışlar. Tarixi mənbələrə görə bir gün xəlifə II Vəlid müqəddəs Qurani-Kərimlə fala baxdıqda bu ayə gəldi:

“İtaət etməyən və haqqı qəbul etməyən naümid oldu”[354] Bundan əsəbiləşən II Vəlid Quranı oxla nişan alıb tikə-tikə olana kimi oxladı və ona xitab edərək dedi: “Hər bir itaət etməyib haqqı qəbul etməyəni qorxudursan? İtaət etməyən və haqqı qəbul etməyən şəxs mənəm. Qiyamət günü Allahla görüşdükdə Allaha de ki, Vəlid məni tikə-tikə etdi.” Hətta o, Hz.Peyğəmbərə *(s)* vəhyin gəlməsini də inkar edirdi.[355]

Məşhur şiə alimi seyid Mürtəza “Əmali” əsərində II Vəlid haqqında belə yazır: “O, dinə qarşı etinasızlıq etməkdə heç kimdən çəkinmirdi. O, Kəbənin üzərində günbəz tikdirib orada oturaraq şərab içib camaatın təvafını ələ salmaq istəyirdi.”

İslam məmləkətinin hər yerində üsyan və hadisələr davam edərkən II Vəlid əmisi Hişamın ailəsinə zülm etməklə məşğul idi. Çünki Hişam xilafəti dövründə onu vəliəhdlikdən kənarlaşdıraraq oğlu Süleymanı özündən sonra vəliəhd təyin etmək istəyirdi.

Əndəlus və Xorasında üsyanların bir-birini əvəz etməsinə baxmayaraq II Vəlid vaxtını eyş-işrətdə keçirirdi. Bundan narahat olan əmisi oğlu III Yezid ibn I Vəlid 744-cü ildə (hicri 126) üsyan edərək onu öldürüb Əməvi taxtını ələ keçirdi.[356] Ölümündən qabaq oğulları Hakim və Osman üçün camaatdan beyət almışdır.

III Yezid ibn I Vəlid hicri 126 (miladi 744)

III Yezid ibn Vəlid ibn Əbdülməlik ibn Mərvan ibn Həkəm ibn Əbul As ibn Umeyyə ibn Əbdişəms ibn Əbdimənaf ibn Quseyə ilk olaraq Şama bağlı Mizzə məntəqəsində beyət edildi. III Yezid ana tərəfdən İran Kəsrasına bağlıdır. Onun anası Şahfərənd binti Feyruz ibn Yəzdəgird ibn Şəhriyardır. Kiçik beyətdən sonra Şama daxil olan III Yezid 744-cü ildə əmisi oğlu II Vəlidin üzərinə ordu göndərərək onu öldürüb Əməvi xilafətini ələ keçirmişdir. Hakimiyyəti ələ keçirdikdən sonra camaatla Ömər ibn Əbdüləziz kimi davranacağına söz verərək belə dedi: “Əgər söylədiklərimi yerinə yetirsəm, siz də əmrimi dinləyin, itaət edin və mənə dəstək olun. Söylədiklərimi etməsəm məni vəzifədən uzaqlaşdırın, yaxud məni tövbəyə dəvət edin. Tövbə edərsəm qəbul edin. Saleh və dindar bir kimsə varsa və mənim sizə verdiklərim qədərini verirsə, siz də ona beyət etmək istəyirsinizsə xəbərdar olun ki, ona ilk beyət edəcək və itaəti altına girəcək olan şəxs mən olacağam.” Lakin verdiyi sözlərə əməl etməyərək camaatın maaşını azaltdığı üçün ona “Naqis” yəni verdiyi sözə əməl etməyən ləqəbi verilmişdir. Rəvayətlərə əsasən ona ilk olaraq bu ləqəbi Mərvan ibn Məhəmməd vermişdir.

---

[354] İbrahim surəsi, 15-ci ayə.

[355] Təbsirətul-əvam.

[356] Tarixi-Təbəri, IV cild, səh-235-241; Tarixi ibn Əsir, V cild, səh-264-291; Siyuti, Tarixul-xüləfa, səh-250-252.

III Yezid hakimiyyətə gəldikdən sonra Kəlbi qəbiləsinə üstünlük verərək Qeysi qəbiləsini sıxışdırmağa başladı. Bu da çoxdan bəri unudulmuş qəbilələr arası düşmənçiliyi yenidən canlandırdı. Nəticədə ölkənin hər tərəfində toqquşmalar baş verdi. Eyni zamanda II Vəlidin ölümündən sonra onun tərəfdarı olan Xıms xalqı ilə bərabər Fələstinlilər də III Yezidin xilafətinə qarşı üsyan etdilər. Bu vaxta qədər baş verən üsyanlar Şam və Suriya əsgərləri tərəfindən yatırılırdı. Bütün bu üsyanlar nəticəsində ölkə gündən-günə zəifləyirdi. Hətta əyalətlərdə olan valilər də əmrlərə əhəmiyyət vermirdilər. Yəmamə və İraqda üsyanlar başladıqda İraq və Xorasan valisi olan Nəsr ibn Səyyar vəzifəsindən uzaqlaşdırılmasına baxmayaraq öz vəzifəsini davam etdirirdi. Xəlifə də məcburiyyət qarşısında qalaraq onunla razılaşmışdır.

Eyni vaxtda Cəzirə valisi olan Mərvan ibn Məhəmməd də III Yezidə qarşı üsyan etdi. Çünki II Vəlidin ölümü ilə barışmayan Mərvan xəlifədən intiqam almaq istəyirdi. Buna görə o, II Vəlidin qardaşı Ömər ibn Yezidə məktub yazaraq onu qardaşının intiqamını almağa təhrik edirdi. Bütün bu ixtilaflara son qoymaq istəyən III Yezid Mərvanla sülh bağladı. Bunun ardınca Mənsur ibn Cumhuru İraq valisi təyin edən III Yezid qısa müddət sonra onu Abdullah ibn Ömər ibn Əbdüləzizlə əvəz etdi.

Çox yaşamayan Əməvi xəlifəsi III Yezid hicrətin 126-cı ili zillhiccə ayının 12-də miladi 744-cü ilin yayında xəlifəliyinin 162-ci günündə ölmüşdür.[357] Ölümündən qabaq özündən sonra qardaşı İbrahim ibn Vəlid üçün, ondan sonra isə Əbdüləziz ibn Həccac ibn Əbdülməlik üçün beyət almışdır.

İbrahim ibn I Vəlid hicri 126-127 (miladi 744)

744-cü il III Yezidin ölümündən sonra onun vəsiyyətinə əsasən qardaşı İbrahim əməvi xəlifəsi təyin edildi. Lakin onun xəlifəliyi əksəriyyət tərəfindən qəbul olunmadı. Cəzirə valisi Mərvan ibn Məhəmməd yerinə Abdullahı qoyub Cəzirə ordusu ilə birlikdə Şama doğru hərəkət etdi. Kinnəsrinə çatdıqda onu xəlifə İbrahimin qardaşları Bişr və Məsruq qarşıladı. Lakin Kinnəsrin əhli onları tutaraq Mərvana təhvil verdilər. Kinnəsrindən sonra Mərvan Xımsa doğru hərəkət etdi. Bundan xəbər tutan Xıms valisi Əbdüləziz ibn Həccac Şama qaçdı. Mərvanın Xımsa gəldiyini öyrənən əhali ona beyət etdilər. Kinnəsrin və Xımsın fəthindən sonra ətrafında 80 min əsgər olan Mərvan ibn Məhəmməd Şama doğru hərəkət etdi.

Bundan xəbər tutan xəlifə İbrahim Süleyman ibn Hişamın başçılığı altında olan ordunu Mərvanın üzərinə göndərdi. İki ordu Buqa yaxınlığındakı Aynul-Cərdə adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə məğlub olan Süleyman Şama qaçdı. Eyni vaxtda Mərvanında Şama daxil olduğunu öyrənən xəlifə İbrahim və Süleyman da Şamdan qaçdı.

[357]Tarixi-Təbəri, IV cild, səh-252-273.

II Mərvan ibn Məhəmməd hicri 127-132 (miladi 744-749)

Rəqiblərini bitərəf edən II Mərvan 744-cü ildə Şamda ümumi beyətdən sonra Əməvi xəlifəsi təyin edildi. Şama bir nəfəri vali təyin edən II Mərvan Hərrana gələrək buranı Əməvilərin paytaxtı elan etdi. Bunu eşidən İbrahim və Süleyman da Hərrana gələrək ona beyət etdilər.

II Mərvan xəlifə seçildiyi zaman Əməvi xilafəti tamamilə zəifləmiş və məmləkətin hər yerində üsyanlar bir-birini əvəz edirdi. 745-ci ildə Suriyada II Mərvana qarşı qalxan üsyan əvvəlcə Fələstini, sonra isə Xımsı da əhatə etdi. Bununla əlaqədar 745-ci ildə Xımsa gələn II Mərvan Şam və Tədmurdakı üsyanları qanbahasına yatırdı.[358] Eyni vaxtda Rüsafədə üsyan edən Süleyman ibn Hişam Kinnəsrini ələ keçirsədə II Mərvan Kinnəsrinə gələrək bu üsyanı yatırdı.[359]

Daxili üsyanlar nəticəsində xaricə səfərlər edilmirdi. Xorasanda Haris ibn Sureycin, Mosulda Zəhhaq ibn Qeys xaricinin və onun xələfi Şeybani ibn Əbdüləziz Hərurinin üsyanları 745-746-cı illərdə bir-birini əvəz edirdi. Abdullah ibn Yəhya Hədraminin Məkkədə çıxardığı ixtilafda bunlardan biri idi. Bütün bu üsyanlar çoxlu qan tökməklə yatırılsa da bu, Əməvi xilafətini daha da zəiflədirdi. Əməvilərin zəifləməsindən istifadə edən Abbasilər 750-ci ildə (hicri 132-ci il cəmadiəl-axir ayının 11) Böyük Zab çayı sahilində baş verən döyüşdə əməviləri məğlub etmiş və II Mərvanın öldürülməsi ilə Əməvi xilafətinə son qoyulmuşdur.

Bildiyimiz kimi İslam dövləti Hz.Peyğəmbərin *(s)* Mədinəyə hicrətindən sonra qurulmuşdur. Raşidilər dövründə beytul-mal tamamilə əhalinin hizmətində idisə, Əməvilər dövründə isə dövlət xəzinəsi xəlifənin xüsusu gəlir yeri sayılır və xəlifələr ondan istədikləri kimi istifadə edirdilər. Dövlət gəlirləri xəlifənin təyin etdiyi "sahibul-xərac" adlanan maliyyə məmurlarının əlində idi. "Sahibul-şurta" adlanan zəbtiyə dəstəsi isə valinin əmrinə tabe idi. Hz.Peyğəmbərin *(s)* zamanında ordunun sayı otuz min, Raşidilər dövründə yüz min, Əməvilər dövründə isə iki yüz min olmuşdur.

Dəniz qüvvələri inkişaf etmiş, Bəsrə körfəzi, Suriya və Tunis sahillərində yerləşən gəmilərlə Kipr və Rados adaları alınmış, Bizans məğlub edilmiş və İstanbul sahillərinə qədər donanma göndərilmişdir. Donanmanın başçısına "əmiri-bəhr" deyilirdi.

Əməvi xilafətinin təhlili

Əməvi xilafətinin İslam dinində gördükləri əsaslı dəyişikliklər qısaca olaraq bunlardan ibarətdir:

1. Hz.Peyğəmbərdən *(s)* sonra camaatın nisbi beyəti əsasında qurulan İslam hökuməti mütləq monarxiya və miras olaraq bir-birinə ötürülən hakimiyyətlə əvəz olundu.

---

[358]Tarixi-Təbəri, IV cild, səh-281-283.
[359]Tarixi-Təbəri, IV cild, səh-287-291.

2. Bu dövrdə İslam hökumətinin əsas bünövrələrindən biri hesab edilən bərabərlik aradan getmişdi. Bildiyimiz kimi Quran və Peyğəmbər sünnəsi bütün üstünlükləri ləğv etmiş və Allah yanında ən uca meyar təqvalı olmaq sayılırdı. Buna baxmayaraq Əməvilər ərəb soy kökünü ən uca millət hesab edir və İslam peyğəmbərinin də ərəb olduğunu deyirdilər. Özlərini ərəb olduğu üçün üstün hesab edən Əməvilər ərəb olmayanları aşağı təbəqədən hesab edirdilər.

3. Ölkənin gəliri ümumi işlərə xərclənmir, müharibədən əldə olunmuş qənimətlər, fəth olunmuş ərazilərdən gələn gəlir cihadda iştirak edən əsgərlər arasında bölünmür və hökumət bu gəlirləri özlərinin gözəl və təmtəraqlı həyat sürmələri üçün xərcləyirdilər.

4. Raşidilər dövründə bir mövzu haqqında hökm çıxarmaq üçün ilk növbədə Qurana və Peyğəmbər sünnəsinə müraciət olunurdu. Burada bir sənəd əldə etmədikdə fiqh elmində güclü olanlar öz ictihadları əsasında hökm çıxarardılar. Ancaq verilən hökm Quranın zahirinə və Peyğəmbərin sünnəsinə tam zidd olmasın. Amma Əməvilər dövründə xəlifələrin verdikləri hökmlərin Quran və Peyğəmbər sünnəsilə ziddiyyət təşkil etməsində heç bir maneə yox idi. Bunun bariz nümunəsi Müaviyə ibn Əbu Süfyanın Hz.Peyğəmbərin *(s)* sünnəsinin əksinə olmasına baxmayaraq atası məlum olmayan Ziyad ibn Əbihini özünə qardaş elan etməsidir.

5. İslam fiqhində günahkar və müttəhimi cəzalandırmaq üçün "həddlər" (yəni hər hansı bir günahkarı cəzalandırmaq üçün tətbiq olunan cəza tədbirləri) və "diyələr" (yəni hər hansı bir günah müqabilində ödənilən cərimə, qanbahası) termini ilə tanınmış hökmlər mövcuddur. Hər bir günahkar bu hökmlərə əsasən cəzalandırılmalıdır. Lakin Əməvilər dövründə günahkarlar İslam qanunu əsasında yox, hakimlərin öz şəxsi qərarları əsasında cəzalandırılırdı.

6. İslamın əsaslarından sayılan yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə unuduldu. Heç kəsin xəlifə və ya onun müxtəlif yerlərdə olan nümayəndələrini pis işlərdən çəkindirməyə cürəti çatmırdı.

7. İslam və müsəlmanların müqəddəs saydıqları şeylər təhqir olunurdu. Qeyd etdiyimiz kimi Kəbə və Məscidul-həram viran edildi. Hz.Peyğəmbərin *(s)* məzarı, minbəri və məscidi təhqir olundu. Peyğəmbər şəhəri olan Mədinə əhalisi xəlifə I Yezidin dövründə qaniçən sərkərdə Müslim ibn Əqəbə tərəfindən üç gün kütləvi şəkildə təcavüzə məruz qaldı.

8. İslam tarixində ilk dəfə olaraq Peyğəmbər övladlarını qətlə yetirib arvad-uşaqlarını əsir alaraq şəhərbəşəhər gəzdirdilər.

9. Cahiliyyət dövrünün şüarları və Hz.Peyğəmbərin *(s)* dövründə qadağan edilən yersiz mədhlər yenidən canlandı. Əməvi dövrünün şairləri xəlifə və ya onların nümayəndələrini layiq olmadığı xüsusiyyətlərlə tərif edir, onlarda olan mənfi xüsusiyyətləri isə müsbət keyfiyyət kimi qiymətləndirirdilər.

10. Hakimlərin razılığını əldə edib, Allahı qəzəbləndirən dünyapərəst alimlər iş başına gəlirdilər. Bunlar Quran ayələrini və Hz.Peyğəmbərin *(s)* hədislərini öz istədikləri kimi təfsir edir, hakimlərin sözlərini və rəftarlarını onların xeyrinə izah edirdilər.

11. Sərxoşluq, əyyaşlıq və rəqqasə kənizlərin alınması geniş surətdə yayılmışdı. Qeyd etdiyimiz kimi Əməvi xəlifələrindən Süleyman ibn Əbdülməlik çox yeməklə, II Vəlid ibn II Yezid isə çox şərab içməklə ad çıxarmışdı.

Yarımadanın şərqindən və şimalından xaric olub fəth olunmuş ərazilərdə İslamı yayan ərəblər iki dəstəyə bölünür: Allaha görə işləyən dəstə, biri də din adı ilə Allah yolunda cihad edən dünyapərəst dəstə. Birinci dəstə yalnız xalqa Quranı, namazı və İslam hökmlərini öyrətmək istəyirdi, ikinci dəstə isə vergi toplayaraq var-dövlətini artırmaq fikrində idi. Dövlət idarələrini fars dilindən ərəb dilinə çevirən əslən İranlı olan Saleh ibn Əbdürrəhman olmuşdur.

Əməvilər dövründə bir sıra məzhəblər meydana çıxmışdı ki, onların əsas mərkəzi İraq sayılırdı. İlk mübahisə insanların bir işi görməkdə ixtiyarlı və ya məcbur olmaları barədə düşmüşdür. Hər iki nəzəriyyənin tərəfdarları "qədəriyyə" və "cəbriyyə" adlanırlar. Başqa bir əqidəvi məktəb isə "Murciə" adlanırdı. Əməvilər etdikləri əməllərə bəraət qazandırmaq üçün bu məktəbdən istifadə edirdilər.

Cəbriyyə, qədəriyyə və murciədən fərqli olaraq özünə orta mövqe seçmiş "Mötəzilə" məktəbi də meydana çıxdı. Bu məktəbin yaranmasının səbəbi bu idi ki, Həsən Bəsri böyük günaha batmış şəxsi kafir sandığı halda şagirdlərindən biri Vasil ibn Əta isə deyirdi: "Belə bir şəxs nə mömin, nə də kafirdir. O şəxs imanla küfr arasındakı mövqedə qərar tutmuşdur. Vasil ibn Əta öz müəllimindən ayrıldıqdan sonra Həsən Bəsri dedi: "Qəd etəzələ minna" (yəni, o, bizdən uzaqlaşdı).

Mötəzilə məktəbi Abbasilər dövründə daha da inkişaf etmiş və bir çox əqidə məsələlərində fikir irəli sürmüşlər.

İslam memarlığındakı dəyişkənlik də Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyanın xilafəti dövründə Şamda başlamışdır. Onun Şamda tikdirdiyi "Xəzra" sarayının tikilməsinə Əbuzər Ğəffarinin irad tutması tarixdə məşhur hadisələrdən sayılır. Bu gün bu saraydan heç bir əsər-əlamət qalmamışdır. Eyni zamanda xəlifə Əbdülməlikin dövründə vali olan Həccac ibn Yusif tərəfindən Vasitdə inşa edilən Qubbətus-Xəzra sarayından da heç bir əsər-əlamət qalmamışdır. Ona görə də hicrətin birinci əsrinin birinci yarısında incəsənətin nə dərəcədə inkişaf etdiyinə və bu sarayın tikilməsində hansı memarlıq üslubundan istifadə olunmasına dair mühakimə yürütmək mümkün deyildir. Lakin Suriya və İordaniyanın ayrı-ayrı yerlərində Mərvanilər dövründə tikilmiş yay və qış sarayları hal-hazırda qalmaqdadır. Bunlara misal olaraq xəlifə Əbdülməlik ibn Mərvanın Qüdsdə tikdirdiyi Qubbətus-Səhra sarayını, I Vəlid ibn Əbdülməlikin tikdirdiyi Əməvi Məscidini qeyd edə bilərik.

Əməvilər xilafətini yıxan səbəblər

Miladi VIII əsrin ortalarına doğru Əməvilər xilafəti ciddi surətdə zəifləməyə başladı. Bu zəifləmənin tarixi səbəbləri bunlardır:

1. Raşidi xəlifələrindən fərqli olaraq Əməvi xəlifələrinin təyin etdiyi valilər daha çox gəlir əldə etmək üçün əhalidən alınan vergiləri demək olar ki, hər gün

artırırdılar. Vergilərin artması xalqın narazılığına səbəb olmaqla bərabər üsyanların sayını da artırırdı.

2. Xilafətin sonlarına doğru Əməvilərin hərb meydanındakı fəaliyyətləri də uğursuzluqla nəticələnirdi. Valilərin zülmündən və ağır vergilərdən cana doymuş İspaniya və Şimali Afrika xilafətdən ayrılaraq üsyan etdi. Bundan xəbər tutan xəlifə Hişam 741-ci ildə onların üzərinə 30 min nəfərlik ordu göndərdi. Lakin baş verən döyüşdə xilafət orduları Şimali Afrikanın bərbər tayfaları tərəfindən məğlub edildi.

3. Əməvilər əvvəlcə Suriya əhalisinin əksəriyyətini təşkil edən Kəlbi tayfalarını yəni, cənub ərəblərini müdafiə edirdilər. Lakin xəlifə Hişam və sonuncu əməvi xəlifəsi Mərvan ibn Məhəmməd bu siyasəti dəyişərək Qeysi tayfalarını yəni, şimal ərəblərinə üstünlük verməyə başladılar. Bu da öz növbəsində Əməvilərin daxili siyasətində sabitliyin pozulmasına və cənub ərəblərinin xilafətə qarşı çıxmasına səbəb oldu. Son Əməvi xəlifələri xilafətin paytaxtı Şamda özlərinə dayaq tapa bilmədikləri üçün paytaxtı dəyişərək başqa şəhərlərə sığınırdılar. Bunlardan xəlifə Hişam Şamı tərk edərək Rüsafəyə, Mərvan isə Hərrana köçmüşdür.

4. Əməvilər İslam dinini yeni qəbul etmiş xalqlarla münasibətlərində də ciddi nöqsanlara yol verərək ayrı-seçkiliyə səbəb olurdular. Fəth olunmuş ərazilərdə əhalinin islamı qəbul etməsi Əməvilərə sərf etmirdi. Çünki İslam dinini qəbul edənlər cizyədən azad edilir xəzinəyə vergi ödəmirdilər. Buna görə də Əməvi xəlifələri öz valilərinin yerli əhalini islamlaşdırma siyasətini bəyənmir və buna mane olmağa çalışırdılar. Bəzən elə olurdu ki, hətta İslamı qəbul edənlərdən zorla cizyə alırdılar.

5. Əməvi xilafətinin süqut edərək, yerinə Abbasilərin keçməsinin ən böyük və mühüm səbəblərindən biri Əməvilərə qarşı şiə faktorunun qabardılması olmuşdur. Peyğəmbər nəsli hakim sülalə ilə cahiliyyət dövründən düşmənçilik halında idi. Vaxtilə Haşimlə Umeyyənin qarşıdurmasından qaynaqlanan, Hz.Muhəmmədlə *(s)* Əbu Süfyanın, Hz.Əli *(ə)* Müaviyənin, İmam Hüseynlə *(ə)* Yezidin düşmənçiliyi formasında yaşanan bu müxalifət gündən-günə inkişaf edirdi. Buna görə də onların xilafət taxtında oturması əksəriyyət tərəfindən birmənalı olaraq qəsbi kimi qiymətləndirilirdi.

6. Xəvariclər də Əməvi xilafətini doğru saymadıqları üçün onlara qarşı tez-tez üsyan edirdilər.

7. Əməvi xəlifələrinin bir-birinin ardınca iki vəliəhd təyin etmələri bu ailə arasındakı birliyi pozmuş, daxili düşmənçiliyi artırmışdır. Raşidilər dövründə şura yolu ilə davam edən xəlifə seçimi aradan götürülmüş və bunu sülalələlik əvəz etmişdir. Bu kimi hadisələr sonda Əməvilər xilafətinin yıxılmasına səbəb olmuşdur.

IV FƏSİL

ABBASİLƏR XİLAFƏTİ
hicri 132-640 (miladi 750-1258)

Bəni-Abbasın soyu

Abbasilər sülaləsinin kökü Hz.Muhəmmədin *(s)* əmisi Abbas ibn Əbdülmüttəlibə bağlıdır. Abbas islam dininin inkişafı üçün xeyli yardım göstərmiş, Hz.Peyğəmbərin *(s)* hörmət və məhəbbətinə layiq olmuşdur. 718-745-ci illər Abbasilərin gizli dəvət dövrü adlandırılır. Çünki bu müddət ərzində Abbasi sülaləsinin böyükləri Əməvilərə qarşı açıq çıxış etmir, yalnız ətraf məntəqələrdə təbliğat apararaq özlərinə tərəfdar toplayırdılar. Abbasilərin arxalandığı əsas qüvvə Xorasanlılar idi. Çünki farslar özlərini Əməvilərin qeyri-ərəblərə qarşı olan ədalətsiz siyasətinin qurbanı hesab edirdilər. Dövlət vəzifələrindən uzaqlaşdırılan Xorasan əhalisi özlərini alçalmış hesab edirdilər. Həmçinin Xorasan vilayəti coğrafi baxımdan da üsyan etmək üçün əlverişli idi. Əməvilərin paytaxtı Şamdan uzaq olduğu üçün, hakim sülalə bu məntəqəyə tam olaraq nəzarət edə bilmirdi. Xorasandan fərqli olaraq Kufə ciddi nəzarət altında olduğu üçün burada təbliğat aparmaq mümkün deyildi. Abbasilərin təbliğat dəstəsi üç əsas məntəqə olan Kufə, Hümeymə və Xorasanda toplanmışdı. Abbasi lideri Hümeymədə yaşayırdı. Onun göndərdiyi dəvətçilər isə Kufədən keçərək Xorasana gedir və camaata yeni xəbərləri çatdırırdılar. Kufə təbliğatçıların görüş yeri idi. Dəvət proqramının əsas mövzuları ərəblərlə qeyri-ərəblərin bərabərliyi, Əhlibeytin fəzilətləri, onların qəsb olunmuş hüquqlarının geri qaytarılması və Əməvi xəlifələrinin İslama zidd olan hərəkətlərinin ifşası idi.

Abbasilər xilafəti 749-cu ildən 1258-ci ilə qədər hakimiyyətdə olmuş və bu sülaləyə 37 xəlifə hakimlik etmişdir. 749-847-ci illərdə Əndəlusu çıxmaqla demək olar ki, bütün müsəlman torpaqları Abbasi xəlifələrinin hakimiyyəti altında idi. Bu dövrün sonunda Abbasi xəlifələri zəiflədiyi üçün müsəlman aləmi üzərindəki siyasi nüfuz ayrı-ayrı qruplaşmaların əlinə keçdi. 847-ci ildən etibarən Abbasilər əsasən üç iri qüvvənin təsiri altına düşdü:

1. 847-945-ci illər ərzində Abbasi xilafətində ki, siyasi güc türk sərkərdələrinin əlinə keçmiş, xəlifənin özü isə ordudan asılı olan hakimə çevrilmişdi. İqtidar sahibi olan türklər istədikləri zaman siyasi intriqa quraraq, bir xəlifəni hakimiyyətdən salaraq yerinə başqasını gətirirdilər.

2. 945-1055-ci illər ərzində böyük hərbi və siyasi gücə malik şiə təmayüllü Büveyhilər sülaləsi Bağdadı ələ keçirərək, xəlifəni özlərindən asılı vəziyyətə saldılar. Beləliklə yüz on il hakimiyyət Büveyhilərin əlində qaldı.

3. 1055-1194-cü illər ərzində Səlcuq hökmdarı I Toğrul bəy Bağdadı istila edərək şəhəri Büveyhilərdən alaraq xilafəti özlərindən asılı vəziyyətə saldılar. Xilafət zahirdə Abbasi xəlifələrinə qaytarılsa da, əslində hakimiyyət Səlcuqların əlində idi.

1194-1258-ci illərdə Səlcuqların zəifləməsindən istifadə edən Abbasilər Bağdad və ətrafını yenidən ələ keçirdilər. Lakin tezliklə 1258-ci ildə Hülakinin başçılığı altında olan monqol qoşunu hücuma keçərək Bağdadı ələ keçirdi və Abbasilərin beş əsirlik xilafətinə son qoyuldu.

Xorasan üsyanı və Abbasilərin hakimiyyətə gəlməsi

Bütün hazırlıqlarını görən Abbasi imamı İbrahim 746-cı ildə Əbu Müslimi Xorasana yollayaraq silahlı qiyama son hazırlıq işlərini tamamlamaq və hərbi çıxışlara rəhbərlik etməyi ona tapşırdı. Bununlada Abbasilərin gizli təbliğat dövrü sona çatmış, onu açıq dəvət əvəz etmişdir. Xorasanın mərkəzi olan Mərvə gələn Əbu Müslim dərhal müharibəyə başladı. Əbu Müslim və onun azsaylı dəstəsi Mərv ətrafındakı Səfidənc kəndində məskunlaşdı. Qısa hazırlıqdan sonra 747-ci ilin iyununda altmışdan çox kəndin əhalisi Mərvə toplandı. Abbasi imamı İbrahimin göndərdiyi "züll" (kölgə) və "səhab" (bulud) adlı iki qara bayraq üsyançıların başı üzərində dalğalanırdı. Abbasi tərəfdarları qara paltar geyinmişdi. Bu üsyanın qarşısını almaq istəyən Xorasan valisi Nəsr ibn Səyyar Əbu Müslimə qarşı mübarizədə ərəb faktorundan istifadə etməyi qərara aldı. Bununla əlaqədar olaraq bütün qəbilələrə göstəriş verildi ki, düşmənlə mübarizə aparmaq üçün birləşsinlər. Lakin Əbu Müslim öz dərin zəkasından istifadə edərək qəbilələr arasında ixtilafa nail oldu. Nəticədə ərəb qəbilələri iki yerə bölündü: bir hissəsi Nəsr ibn Səyyarın, digəri isə Əbu Müslimin tərəfini tutdu.

Xorasan valisi Nəsr ibn Səyyarın Yezidin başçılığı altında göndərdiyi ordu Əbu Müslimin yanında vuruşan Malik ibn Heysəm tərəfindən məğlub edildi və sərkərdə Yezid əsir götürüldü. Əbu Müslimlə bacarmayacağını görən Nəsr ibn Səyyar Mərvi tərk edərək qərbə doğru Savədə adlı məntəqəyə çəkildi. Həmin vaxtlarda Nəsr ibn Səyyar xəlifə II Mərvan ibn Məhəmmədə və İraq valisi Yezid ibn Ömər ibn Hübeyrəyə məktub yazaraq onlardan kömək istəsədə heç bir nəticəsi olmadı.

Nəsr ibn Səyyarın qərbə sığındığını öyrənən Əbu Müslim məşhur sərkərdələrdən olan Qəhtəbə ibn Şəbib Taini qərb istiqamətinə göndərdi. Qərb fəaliyyətində uğur qazanan Qəhtəbə İranın məhşur şəhərlərindən olan Nişaburi, Gürgani, Reyi, Həmədanı və İsfəhanı Əməvi qoşunlarından azad etdi. 749-cu il (hicri 131) Nəhavənd yaxınlığında baş verən döyüşdə Qəhtəbənin başçılığı altında olan Abbasi ordusu Əməvilərin ordusunu məğlub etdi.

İranı bütünlüklə ələ keçirən Qəhtəbənin başçılığı altında olan Abbasi ordusu Kufəyə doğru hərəkət etdi. İraq valisi Yezid ibn Ömər ibn Hübeyrə böyük bir ordu ilə Abbasi ordusunun qarşısını almağa çalışsa da məğlub olaraq geri

çəkilmişdir. Baş verən bu döyüşdə məhşur sərkərdə Qəhtəbə ibn Şəbib Tai öldürülmüş, onu oğlu Həsən ibn Qəhtəbə əvəz etmişdir.

Həsən ibn Qəhtəbənin başçılığı altında olan Abbasi ordusu Kufəyə çatmamış Məhəmməd ibn Xalid ibn Abdullah əl-Qəsri qiyam edib Abbasilərin adına beyət aldıqdan sonra Əməvi valisi Ziyad ibn Saleh əl-Harisini şəhərdən qovdu. Üç gündən sonra Kufəyə daxil olan Həsən ibn Qəhtəbə Əbu Sələmə Həfs ibn Süleyman Xəllalı Kufəyə başçı təyin etdi.

Eyni ildə ilk Abbasi xəlifəsi olaraq Əbul-Abbas əs-Səffah Abdullah ibn Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbas ibn Əbdülmüttəlibə beyət edildi. Beləliklə həmin gün yəni, hicrətin 132-ci ili rəbiül-axir ayının 13-də ilk Abbasi xəlifəsi hakimiyyətə gəldi və beş əsirdən artıq davam edən Abbasilər dövlətinin əsası qoyuldu.

Əbul-Abbas Səffah hicri 132-136 (miladi 749-754)

Əbul-Abbas 722-ci ildə Hümeymədə anadan olmuşdur. Anası Ubeydullah ibn Abdullah ibn Əbdülmədan ibn Dəyyanın qızı Reytə adlı bir qadın idi. Beyət edildiyi zaman iyirmi yeddi yaşı var idi. Əbul-Abbasa xəlifə kimi ilk salam verən şəxs Əbu Sələmə Həfs ibn Süleyman Xəllal olmuşdur. Ulu Məsciddə qılınan camaat namazından sonra minbərə çıxan Əbul-Abbas ilk xütbəsində belə dedi: "İslamiyyəti özü üçün bir din olaraq seçən, İslamı ucaldıb şərəfləndirən, onu bizlər üçün bir din olaraq seçən, onu bizimlə təyid edən, bizləri müsəlman edən, bizləri İslamı saxlayıb himayə və müdafiə edicilər edən, təqva sözünə bağlı edən və təqvaya ən layiq kəslər edən, bizləri Hz.Peyğəmbərin *(s)* qohumları etməklə digərlərindən üstün edən, bizləri və müsəlmanları yüksək bir mövqeyə yerləşdirən, beləcə İslam əhlinə oxunan bir kitab endirən Allaha həmd olsun. Uca Allah belə buyurur:

"Ey Peyğəmbərin ev əhli! Şübhəsiz Allah sizdən qüsuru aradan qaldırıb sizi tərtəmiz etmək istəyir!"[360]

"(Ya Peyğəmbər!) De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlarıma məhəbbətdən (əhli-beytimə sevgidən) başqa bir şey istəmirəm."[361]

"Və ən yaxın qohumları qorxut!"[362]

"Allahın Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, (Muhəmməd əleyhissəlama yaxın olan) qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) yolçulara məxsusdur."[363]

---

[360] Əhzab surəsi, ayə 33.
[361] əş-Şura surəsi, ayə 23.
[362] əş-Şüəra sursi, ayə 214.
[363] əl-Həşr surəsi, ayə 7.

Quran ayələrinə müraciət etməklə Əhli-beytin üstünlüyünü bir daha xatırladan Əbul-Abbas sözlərinə belə davam etdi: "Ey insanlar! Allah, bizim vasitəmizlə insanları azğınlıqdan sonra hidayətə çatdırdı. Haqqı bizimlə üzə çıxardı. Onlardakı fəsadı bizimlə düzəldib islah etdi. Alçaqları bizim vasitəmizlə ucaltdı. Nöqsanlığı tamamladı. Dağınıqlığı yığışdırdı. Nəhayət insanlar daha əvvəl bir-birləri ilə düşmən olduqları halda bir-birlərinə şəfqət göstərməyə, bir-birlərinə yaxşılıq etməyə başladılar. Allah, bu lütfünü bizlərə Hz.Muhəmməd *(s)* vasitəsilə bəxş etdi. Onun vəfatından sonra bu işi səhabələri icra etdi. Onlar öz aralarında məşvərət etdilər. Sonra Hərb oğulları ilə Mərvanilər bu mirasa atıldılar. Bunu özlərinə götürüb öz aralarında böldülər. Haqsızlıq edərək haqq sahiblərinə zülm etdilər. Allah da onlara bir müddət möhlət verdi. Sonra onların əllərindəkini alıb bizə təslim etdi. Allah haqqımızı bizə qaytardı. Ümmətimizin işlərini bizim vasitəmizlə yoluna qoydu. İdarəni bizə verdi. İslamiyyət işini bizim vasitəmizlə açdığı kimi bu işi yenə bizimlə yoluna qoyub düzəltdi. Ey Kufə xalqı, siz bizim sevgimizin mərkəzisiniz. Dostluğumuzun mərkəzisiniz. Sizlər bizim vasitəmizlə insanların ən xoşbəxtləri olacaqsınız və insanlar arasında ən çox sizə qiymət verəcəyik. Aylıqlarınıza yüz dirhəm əlavə etdim. Hazır olun. Mən çox qan tökücüyəm və məhvedici bir intiqamçıyam yəni, Səffaham."

Xütbədən də məlum olduğu kimi Əbul-Abbas xəlifə olduqdan sonra özünə "Səffah" ləqəbini götürmüşdür. "Səffah" sözü ərəb dilindən tərcümədə üç məna verir: 1) qan tökən; 2) bol bəxşiş verən; 3) yaxşı nitq söyləyən. Əbul-Abbas xilafəti dövründə bu mənaların üçünü də doğrultmuşdur.

Əbul-Abbasdan sonra minbərə çıxan əmisi Davud ibn Əli belə dedi: "Həmd Allaha məxsusdur. Düşmənlərimizi məhv edib mirasımızı bizə geri verən Allaha həmd olsun. Ey insanlar! Bu anda dünyanın qaranlıqları sıyrıldı. Üzərindəki örtü açıldı. Göy və yer parladı. Xilafət günəşi üfüqdə doğdu.

Ey insanlar! Allaha and olsun ki, biz bu işləri qızıl-gümüş toplamaq, arxlar qazdırıb qəsrlər tikdirmək üçün başlamadıq. Biz, haqqımızın əlimizdən alınmasına qızaraq, əmi uşaqlarımız adına hirslənərək Əməvilərin sizinlə pis rəftar etmələrinə, sizi alçaltmalarına, qənimət və sədəqələri sizə verməyib özlərinə götürmələrinə dözməyərək bu işə girişdik. Allahın endirdiyi hökmlərlə sizə hökm etmək, Allahın kitabı ilə rəftar etməyi qarşımıza məqsəd qoymuşuq. Allah Əməviləri və Mərvaniləri etdiyi əməl və cinayətlərə görə cəzalandırdı. Onlar Allahın haram buyurduqlarını halal bildilər. Zalımlar birliyi Allahın rəhmətindən uzaq olsun.!

Ey Kufəlilər, xəbəriniz olsun ki, Hz.Peyğəmbərdən *(s)* sonra bu minbərə Hz.Əlidən və hal-hazırda xəlifəniz olan Əbul-Abbasdan başqa xəlifə çıxmamışdır. Bunu da bilin ki, xilafət işi bizdə qalacaq, bizimlə davam edəcək və sonda bizim tərəfimizdən Məryəm oğlu İsaya *(ə)* təslim ediləcək. O zamana kimi xilafət bizim ailədən kənara çıxmayacaqdır. Bizə verdiyi möhnətlərə və bizi seçdiyi üçün aləmlərin Rəbbi Allaha həmd olsun".

Bundan sonra Əbul-Abbas ilə əmisi Davud ibn Əli minbərdən enərək hökumət evinə getdilər və günortaya qədər xalq ona beyət etdi. Kufə kənarında özünə ordugah quran Səffah şəhərə əmisi Davud ibn Əlini hakim buraxdı.

Əbul-Abbasın Əməvilərdən intiqam alması

Əhli-beytin intiqamını Əməvilərdən almağı qarşılarına məqsəd qoyan Abbasilər dərhal bunu həyata keçirməyə başladılar. Buna əsasən xəlifə Əbul-Abbas Əməvilərin kökünü kəsmək üçün fəaliyyətə başladı. Əməvilərin iki qoşun birliyi Abbasiləri narahat edirdi. Bu qoşunun biri Əməvi xəlifəsi II Mərvan ibn Məhəmmədin başçılığı altında əl-Cəzirədə, digəri isə Yezid ibn Ömər ibn Hübeyrənin başçılığı altında Vasitdə toplanmışdı. Əbul-Abbas əvvəlcə əmisi Abdullah ibn Əlini II Mərvan ibn Məhəmmədin üzərinə göndərdi. 750-ci ildə Böyük Zab çayı sahilində baş verən döyüşdə Əməvi ordusu məğlub edildi və xəlifə II Mərvanın başı Kufəyə Abbası xəlifəsi Əbul-Abbas Səffahın hüzuruna göndərildi. Əbul-Abbas əməvi xəlifəsi II Mərvanın başını görəndə səcdəyə gedərək Allaha həmd etdi: "Allaha şükr ki, səndən və sənin nəslindən intiqamımı aldım. Hüseyn ibn Əlinin əvəzində 200 nəfər əməvini qətlə yetirdim. Zeyd ibn Əlinin əvəzinə xəlifə Hişamın sümüklərini qəbirdən çıxarıb yandırdım. Qardaşım İbrahimin əvəzində isə Mərvanı öldürdüm. Daha ölümdən qorxum yoxdur."[364]

Əməvi xəlifəsi II Mərvanın ölümündən sonra Abbasi vəziri Əbu Sələmə, Yezid ibn Ömər ibn Hübeyrənin üzərinə Həsən ibn Qəhtəbə ilə Əbu Cəfər Mənsuru göndərdi. Yezid ibn Ömər uzun müddət Vasit şəhərini müdafiə etsədə sonda xəlifə Mərvanın ölüm xəbərini eşitdikdə təslim oldu. Lakin qısa müddət sonra Yezid ibn Ömər ibn Hübeyrənin nüfuzundan qorxan Əbul-Abbas onu ailəsi ilə birlikdə edam etdirdi.[365]

Əbul-Abbasın hakimiyyət illəri demək olar ki, Əməvilərin axtarılması və məhv edilməsi ilə bağlıdır. Əməvilərdən yalnız bir nəfər "Daxil" ləqəbli Əbdürrəhman ibn Müaviyə ibn Hişam Əndəlusa qaçaraq gələcəkdə Kordova əmirliyi kimi tanınacaq dövlətin əsasını qoydu.[366]

Əməvilərin tam məğlubiyyətindən sonra Əbul-Abbas ilk Abbasi vəziri olan Əbu Sələmə Həfs ibn Süleyman Xəllalı 750-ci ildə Əbu Müslimin əli ilə qətlə yetirdi. Tarixi mənbələrə əsasən Əbu Sələmənin qətlinə səbəb xilafəti Abbasilərdən alıb Əhli-beytə qaytarmaq istəməsi olmuşdur. Hətta bu məqsədlə Hz.Əlinin *(ə)* nəslindən olan İmam Sadiqə *(ə)*, Abdullah Məhz ibn Həsən ibn İmam Həsən *(ə)* və Ömər ibn Zeynul-Abidinə *(ə)* məktub da yazmışdır.

---

[364]Tarixi-Təbəri, IV cild, səh-280-356; Tarixi-Yəqubi, II cild, səh-340-351; Tarixi-Məsudi, III cild, səh-257-265; Tarixi ibn Əsir, V cild, səh-416-430.

[365] Tarixi ibn Əsir, V cild, səh-437-442; Tarixi-Yəqubi, II cild, səh-353-354.

[366]Tarixi-Yəqubi, II cild, səh-354-357; Tarixi ibn Əsir, V cild, səh-429-432; Tarixi-Təbəri, IV cild, səh-356.

Abbasilər xilafətinə qarşı üsyanlar

Abbasilərin etdiyi cinayətlər nəticəsində xilafətin müxtəlif bölgələrində onların əleyhinə üsyanlar baş verdi. Şamda Əbul-Vərd ibn Kövsərin başçılığı ilə Abbasilərə qarşı üsyan qalxdı və üsyançılar Bəni-Umeyyə nəslindən olan Əbu Məhəmməd Yezid ibn Abdullah ibn Yezid ibn Müaviyəni xəlifə kimi görmək istəyirdilər. Onlarla eyni zamanda Hərranda Məhəmməd ibn Məsləmə ibn Əbdülməlik üsyan etdi. Lakin Əbu Cəfər Mənsur və Abdullah ibn Əli tərəfindən hər iki üsyan yatırıldı. Bunların ardınca II Mərvanın məğlubiyyət xəbərini eşidən Əməvi sərkərdəsi İshaq ibn Müslim əl-Cəzirədə qiyam etdi. Həmin vaxt Həvranda üsyan edən Həbib ibn Mürrəni mühasirəyə alan Əbu Cəfər Mənsurla Abdullah ibn Əli İshaq ibn Müslimin qiyamından xəbər tutan kimi Həbiblə sülh bağlayaraq Cəzirəyə getdilər. Bu vaxt II Mərvanın ölüm xəbərini eşidən İshaq ibn Müslim dərhal təslim oldu.

Hicrətin 133-cü ili (miladi 751) Əbul-Abbas Səffah qardaşı Yəhya ibn Məhəmmədi Mosula vali təyin etdi. Onun valiliyi ilə razı olmayan Mosul xalqı üsyan etsədə qısa müddət ərzində bu üsyan Yəhya tərəfindən yatırıldı.[367] Eyni ildə Buxarada Şüreyk ibn Şeyx əl-Mehri Əbu Müslim Xorasaniyə qarşı üsyan edərək belə dedi: "Biz qan axıtmaq və insanları öldürmək üçün Məhəmməd ailəsinə beyət etmədik." Bu fikrinə görə ona otuz mindən artıq adam tabe olmuşdur. Bununla əlaqədar olaraq Əbu Müslimin göndərdiyi sərkərdə Ziyad ibn Saleh onu məğlub edərək öldürdü.

Hicrətin 134-cü ili (miladi 751-752) Mədaində Bəssam ibn İbrahim ibn Bəssam xəlifə Əbul-Abbasa qarşı üsyan etdi. Lakin xəlifənin Həzzim ibn Hüzeymənin başçılığı altında göndərdiyi ordu Bəssamı məğlub edərək üsyanı yatırdı.[368] Hindistanda Mənsur ibn Cumhurun üsyan etdiyini öyrənən xəlifə Səffah Musa ibn Kəbi üç min nəfərlik dəstə ilə onun üzərinə göndərərək məğlub etdi.

Bəsrə və Omanda isə Culəndinin başçılığı ilə xəvaric üsyanı baş verdi. Bu üsyan xəlifənin əmisi Süleyman ibn Əli və Həzzim ibn Hüzeymə tərəfindən yatırılmışdır. Baş verən döyüşdə Culəndin başda olmaqla on minə yaxın xəvaric öldürülmüşdür.[369] Digər tərəfdən Qərbi Afrikada bərbərlər üsyan etsələrdə, bütün bu üsyanlar Abbasilər tərəfindən zor gücünə yatırılmışdır.[370]

Talas döyüşü hicri 133 (miladi 751)

Əbul-Abbasın xilafəti dövründə baş verən önəmli hadisələrdən biri müsəlmanlarla çinlilər arasında baş verən Talas döyüşü olmuşdur. İslam ordusu hələ səkkizinci əsrin əvvəllərində Əməvi xəlifəsi I Vəlidin (705-715) xilafəti dövründə Qutüybə ibn Müslimin başçılığı ilə 708-ci ildə Buxara, Səmərqənd, Fərqanə

[367] Yəqubi-tarixi, II cild, səh-357; Tarixi ibn Əsir, V cild, səh-443-444.
[368] Tarixi ibn Əsir, V cild, səh-450-451.
[369] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə.
[370]Tarixi-Yəqubi, II cild, səh-357; Tarixi ibn Əsir, V cild, səh-443-456.

və Daşkəndi fəth etmişdilər. Həmin vaxtlar müsəlman ordusu qarşısında tab gətirməyən Türkistandakı Türk bəyləri Ərəblərə qarşı qonşuları Çindən kömək istədilər. Bundan istifadə edən Çinlilər 748-ci ildə (hicri 130) Şərqi Türkistanı işğal edərək İşıqgöl bölgəsinə qədər irəliləyib Tokmaq şəhərini talan etdikdən sonra on min əsirlə geri qayıtdılar. Göytürk imperatorluğunun zəifləməsindən istifadə edən Çinlilər Qərbi Türkistanı ələ keçirmək üçün fürsət axtarırdı.

Çində uzun müddət hakimiyyətdə olmuş Tan sülaləsinə mənsub imperator Hyuantsanq Qərbi Türklərin zəifləməsindən istifadə edərək qərbə doğru yürüşə əmr verdi. İmperatorun bu əmrinə əsasən Kuçay hakimi Kaosiençi böyük bir ordu ilə türk torpaqlarına doğru hərəkət etdi. Çıxılmaz vəziyyətdə qalan Qərbi Türk xaqanlığı yenicə qurulmuş Abbasilər xilafətindən yardım istədi. Xəlifə Əbul-Abbas Səffahın əmrinə əsasən Xorasan valisi Əbu Müslim məşhur sərkərdələrdən olan Ziyad ibn Salehi Çinlilərə qarşı göndərdi. Hicrətin 133-cü ili (miladi 751) Talas şəhəri yaxınlığında baş verən döyüşdə Abbasi ordusu Çin ordusunu məğlub etdi. Kaosiençi min nəfərdən ibarət dəstəsi ilə döyüş meydanından qaçdı. Talas meydan müharibəsində həm İslamiyyət, həm də Türklər zəfər qazanmış oldu.[371] Talas məğlubiyyətindən sonra daxili böhranlara düçar olan Çin bir daha Orta Asiyaya və Türklərə müdaxilə edə bilmədi.

Talas döyüşü nəticəsində müsəlmanlar əsir düşən Çinlilərdən kağız emalının sirrini öyrəndilər. Həmin dövrə qədər müsəlman aləmində yazılar papirus və heyvan dərisindən hazırlanan perqament üzərində yazılırdı. Qısa müddət ərzində kağız emalı nəticəsində papirus və perqament dövriyyədən çıxdı. Artıq X əsrdə müsəlman aləmində kağızdan istifadə olunduğu halda Avropa hələ XIII əsrdə kağız emalının qaydaları ilə tanış olurdu.

Eyni zamanda Talas döyüşü Türklərində dini və siyasi həyatında böyük əhəmiyyətə malikdir. Birincisi bu döyüşdən sonra türklər İslam dini ilə daha yaxından tanış oldular. Seyhun çayının şimalındakı Oğuz və Qarluqların müsəlmanlarla təmas qurması, onların İslamı qəbul etməsi ilə nəticələndi. İkincisi müsəlman türklər Abbasilərin güc mənbəyinə çevrildilər. Türklərin hakimiyyətdə iqtidar sahibi olması gələcək xəlifələrin dövründə daha çox özünü büruzə verəcək. Üçüncüsü Türklərin qərbə axınları Talas döyüşündən sonra başladı.

Paytaxtın Haşimiyyəyə köçürülməsi

Hicrətin 134-cü ili (miladi 752) xəlifə Əbul-Abbasın göstərişi ilə Bağdadın qərbində Haşimiyyə şəhəri inşa edildi. Şəhərin adı Haşimilərin ulu babası olan Haşim ibn Əbdimənafın adından götürülmüşdür. 752-ci ilin iyun-iyul aylarında tikintisi başa çatan bu şəhər xəlifə Əbul-Abbas tərəfindən Abbasilərin ilk paytaxtı elan olunmuşdur. Əbul-Abbasın Əməvilərdən fərqli olaraq Şamı deyil, Haşimiyyəni paytaxt seçməsi üç amillə bağlıdır:

[371] Büyük İslam Tarihi, Çağ yayınları, III cild, səh-52-58.

1. Şam uzun müddət Əməvilərin paytaxtı olmuşdu. Əməvi tərəfdarlarının fitnə-fəsadından ehtiyat edən Abbasilər burada qalmağı məsləhət bilmədilər.

2. Şam Abbasilərin dayaq qüvvələrinin yerləşdiyi Xorasandan uzaqda idi.

3. Şam Bizans imperiyasının sərhəddinə yaxın idi. Buna görə də başı daxili müharibələrə qarışan Əbul-Abbas Bizansın müdaxiləsindən ehtiyat edirdi.

Xəlifə Səffah ölümündən bir qədər əvvəl özündən sonra qardaşı Əbu Cəfər Mənsuru, onun başına bir iş gələrsə, qardaşı oğlu İsa ibn Musanı vəliəhd elan etdi.

Hicrətin 136-cı ili xəlifənin əmri ilə Əbu Cəfər Mənsurla Əbu Müslim Xorasani həcc karvanına başçı təyin edilərək qafilə ilə birlikdə Məkkəyə doğru yola düşdülər. Bunların Məkkəyə doğru yola düşməsindən qısa müddət sonra ağır xəstəliyə tutulan Əbul-Abbas Səffah hicrətin 136-cı ili zilhiccə ayının 12-də (miladi 754) 34 yaşında vəfat etdi və onu Haşimiyyədə tikdirdiyi qəsrində dəfn etdilər.[372]

Əbu Cəfər Mənsur Dəvaniqi hicri 136-158 (miladi 754-775)

Əbu Cəfər Mənsur Abdullah ibn Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbas hicrətin 101-ci ili (və ya 95-ci il) miladi tarixi ilə 720-ci il zilhiccə ayında Hümeymədə anadan olmuşdur. Anası bərbər vilayətindən olan Səlamə adlı bir qadındır. Qeyd etdiyimiz kimi xəlifə Əbul-Abbas Səffah vəfat edən zaman Əbu Cəfər Məkkədə həcc ziyarətində idi. Hümeymədə olan qardaşı oğlu İsa ibn Musa camaatdan onun adına beyət alaraq vəziyyəti Mənsura bildirdi. Qardaşı Səffahın vəfatını öyrənən Əbu Cəfər Mənsur başda Əbu Müslim Xorasani olmaqla digər Abbasi liderlərindən hicrətin 136-cı ilinin zilhiccə ayında (miladi 754) öz adına beyət aldı.

Abdullah ibn Əlinin üsyanı hicri 136 (miladi 754)

Həcc ziyarətindən qayıdan Mənsur ilk olaraq Kufəyə gəldi. Cümə namazından sonra uzun bir xütbə oxuyub camaatın beyətini qəbul etdi. Kufədən sonra Ənbar şəhərinə gələn xəlifə İraqlılardan və Şam xaricindəki əyalətlərdən də öz adına beyət aldı. Sonra xilafətin paytaxtı Hümeyməyə gələn xəlifə bütün dövlət işlərini ələ aldı.

Əməvilərə qarşı məğlub edilməz sərkərdə sayılan Abdullah ibn Əli xəlifə Səffah tərəfindən Şam valisi təyin edilmişdi. Şam valisi olan Abdullah ibn Əli xəlifənin əmrinə əsasən ildə iki dəfə Bizans üzərinə yürüş edirdi. Hicritin 136-cı ili (miladi 754) Abdullah böyük bir ordu ilə Bizansın əlində olan Anadolu üzərinə hərəkət edərkən yolda xəlifə Əbu Cəfər Mənsur qardaşı Səffahın ölüm xəbərini ona çatdırdı. Bundan xəbər tutan Abdullah dərhal Şama qayıdıb uzun bir xütbə söyləyərək özünün Mənsurdan daha çox xilafətə layiq olduğunu bildirdi. Abdullahın xilafət iddiasında olmasının digər səbəbi bu idi ki, vaxtilə Əbul-Abbas Səffah Əməvi xəlifəsi II Mərvani Himarın üzərinə qoşun göndərmək istəyəndə söz vermişdi ki, kim bu qoşuna sərkərdəlik etməyi öhdəyə alsa,

[372]Tarixi-Məsudi, III cild, səh-266; Tarixi ibn Əsir, V cild, səh-459-460.

özüdən sonra onu vəliəhd təyin edəcək. Həmin vaxt Abdullah ibn Əli II Mərvanın üzərinə gedərək onu məğlub etmişdir.

Bu söhbətlərdən sonra bütün sərkərdələr o cümlədən Hümeyd ibn Qəhtəbə ona beyət etdi. Şam və Cəzirə əhli də ona beyət etdi. Ordusunun gücünə arxalanan Abdullah ibn Əli ordusu ilə birlikdə Hərrana doğru hərəkət etdi. Qırx günlük mühasirədən sonra xəlifə Mənsur tərəfindən Hərrana vali təyin edilən Muqatil əl-Atiki öldürüldü və Hərran Abdullaha tabe edildi.

Abdullahın qiyam etdiyini öyrənən xəlifə Əbu Cəfər Mənsur 754-cü ildə Əbu Müslim Xorasanini bir neçə sərkərdə ilə onun üzərinə göndərdi. Əbu Müslim Xorasani məhşur sərkərdələrdən olan Malik ibn Heysəm əl-Xuzai ilə birlikdə Abdullahın üzərinə hərəkət etdi. Bundan xəbər tutan Abdullah ibn Əli ordusunda iştirak edən İraqlı əsgərlərin Əbu Müslimin tərəfinə keçəcəyindən ehtiyat edərək onlardan 17 min nəfərini qətlə yetirdi. Digər tərəfdən ona xəbər vermişdilər ki, yaxın sərkərdələrindən olan Hümeyd ibn Qəhtəbə onun yerinə göz dikib. Hümeydi hiylə ilə aradan götürmək istəyən Abdullah onu Hələb valisi təyin etdiyini bildirərək yazdığı məktubla Hələbə yolladı. Lakin Abdullahın hiyləsindən xəbər tutan Hümeyd ondan ayrılaraq Əbu Müslimin tərəfinə keçdi.

Hərrandan ayrılan Abdullah öz ordusunu Nuseybində yerləşdirdi. Abdullahın ardınca Nuseybinə gələn Əbu Müslim ona belə dedi: "Mənim sənlə döyüşmək fikrim yoxdur. Mən xəlifə tərəfindən Şama vali təyin olduğum üçün oraya gedirəm." Əbu Müslimin sözlərindən qorxuya düşən Şamlılar Abdullaha dedilər: "Arvad-uşaqlarımıza, mallarımıza zərər verilməsindən qorxuruq. Biz Şama gedirik. Əbu Müslimə qarşı arvad-uşağımızı, evlərimizi və mallarımızı müdafiə edəcəyik." Abdullah bunun bir hiylə olduğunu əsgərlərinə anlatsa da, heç bir nəticəsi olmadı. Onun sözlərinə əhəmiyyət verməyən əsgərlər öz mövqelərini tərk edərək Şam yoluna üz tutdular. Əbu Müslim dərhal onların yerini tutaraq hücuma başladı. Nuseybində baş verən döyüşdə məğlub olduğunu görən Abdullah qardaşı Əbdussəməd ibn Əli ilə birlikdə döyüş meydanından qaçdılar. Qələbə xəbərini eşidən xəlifə Mənsur qənimətləri toplamaq üçün Əbul-Hasibi Nuseybinə göndərdi.

Abdullah və qardaşı Rüsafəyə gəldikdə Əbdussəməd Nuseybində qaldı. Qənimətləri toplayıb geri qayıdan Əbul-Hasib onu xəlifə Mənsurun yanına apardı. Lakin İsmail ibn Əli onun üçün aman istədikdə xəlifə onu bağışladı.

Bəsrəyə gələn Abdullah ibn Əli isə qardaşı Süleyman ibn Əliyə sığındı. Abdullahın Bəsrədə olduğunu öyrənən xəlifə Mənsur hicrətin 139-cu ili (miladi 757) onu bünövrəsi duz üzərində qoyulmuş Bəni Usamənin evində həbs etdirdi. Sonra su arxının istiqamətini evin altına yönəltdilər. Bir müddət sonra su duzu yuduğu üçün ev uçuldu və hicrətin 149-cu ili (miladi 764) Abdullah ibn Əli xarabalıq altında qalaraq öldü.[373]

---

[373]Tarixi-Təbəri, IV cild, səh-377-380; Tarixi-Məsudi, III cild, səh-302; Tarixi-Yəqubi, II cild, səh-364-366; Tarixi ibn Əsir, V cild, səh-464-467, 581-582.

Əbu Müslim Xorasaninin öldürülməsi hicrətin 137-ci ili (miladi 755)

Əbu Müslimin əsl adı barədə məlumatlar ziddiyyətlidir. Bəziləri onu İbrahim ibn Osman ibn Yəsar, bəziləri isə Vəndadhürmüzd oğlu Behzadan kimi təqdim etmişlər. Doğumu, ailəsi, nəsli dəqiq məlum deyildir. Əbu Müslim haqqında bilinən həqiqət budur ki, Bəkr ibn Mahan tərəfindən İsa ibn Muqbildən satın alınaraq Məhəmməd ibn Abdullah ibn Əliyə hədiyyə edilmişdir. Təqribən hicrətin 100-cü ili miladi 719-cu ildə Mərvdə və ya İsfəhanda dünyaya gəlmişdir. Əməvi ordularını məğlub edən Əbu Müslim Abbasi dövlətinin qurulmasında böyük rol oynamışdır. 754-cü ildə Abdullah ibn Əlinin üsyanını yatıran Əbu Müslim Əbu Cəfər Mənsurun taxtını təhlükədən qurtarmışdır.

Getdikcə şöhrəti artan Əbu Müslim xəlifə Mənsuru daha çox narahat edirdi. Əbu Müslimi aradan götürmək istəyən xəlifə Mənsur yaxşı bilirdi ki, onu yalnız Xorasandan kənarlaşdırmaqla bu işi həyata keçirə bilər. Həcc səfərində iştirak etmək üçün Əbu Müslimin Xorasandan çıxması, həccdən qayıtdıqdan sonra isə Abdullah ibn Əlinin üzərinə getməsi Mənsurun işinə yaradı.

Abdullah ibn Əlini məğlub edən Əbu Müslim xəlifə Mənsurun əmrinə baxmayaraq qənimətləri ona verməyərək Xorasana doğru hərəkət etdi. Əbu Müslimin Xorasana daxil olmasını istəməyən xəlifə hiyləyə əl ataraq ona bildirdi ki, onu Misir və Suriya valisi təyin etmişdir. Lakin xəlifənin təklifini rədd edən Əbu Müslim belə cavab verdi: "Onsuzda Xorasan mənimdir və xəlifənin valilik təyinatına ehtiyacım yoxdur."

Sonda bir çox dəvətlərdən sonra Əbu Müslim xəlifənin hüzuruna gəlməyə razılıq verdi. Ehtiyatı əldən verməyən xəlifə Mənsur Əbu Müslimi Haşimiyyəyə buraxmayıb onu Rumiyyədə qarşıladı. Nəhayət hicrətin 137-ci ili şəban ayının sonunda (miladi 755) Mənsurla söhbət zamanı Əbu Müslim xəlifənin muzdurları tərəfindən qətlə yetirildi.[374]

Əbu Müslimin qətlindən sonra Xorasanı, İranı və Maveraunnəhri üsyan bürüdü. Bu üsyanların ən məşhuru Sindibadın etdiyi üsyan olmuşdur. Nişapurda baş verən bu üsyan tezliklə Reyi də bürümüşdür. Hicrətin 137-ci ili (miladi 755) Həmədanı da ələ keçirmək üçün hərəkət edən Sindibad xəlifənin göndərdiyi ordu tərəfindən məğlub edilərək öldrürüldü.[375] Elə həmin ildə Maveraunnəhrdə türk mənşəli İshaq üsyan etsə də, bu üsyan xəlifənin oğlu Mehdi tərəfindən yatırıldı.

Bir müddət sonra 767-ci ildə Ustadsız ləqəbli şəxs Herat və Sistanda üsyan edərək Xorasanın bir neçə şəhərini ələ keçirdi. Bir ildən sonra 768-ci ildə bu üsyanı da yatıran Mehdi Ustadsızı həbs etdi.

Ravəndilər üsyanı hicri 141 (miladi 758)

Xəlifə Mənsura qarşı üsyan edən digər bir dəstəyə də Ravəndilər deyilirdi. Bu dəstə də Xorasandan olan Əbu Müslimin tərəfdarları idilər. Onlar tənasüxə

---

[374]Təbəri-Tarixi, IV cild, səh-380-388; Tarixi-Məsudi, III cild, səh-302-305; Tarixi-Yəqubi, II cild, səh-366-368; Tarixi ibn Əsir, V cild, səh-468-478.

[375] Tarixi ibn Əsir, V cild, səh-481-482.

inanaraq belə iddia edirdilər ki, guya Allah xəlifə Mənsurda hülul edibdir. Bundan əlavə onlar Hz.Adəmin *(ə)* ruhunun Osman ibn Hüneykə keçdiyini, Heysəm ibn Müaviyənin isə Cəbrayil olduğunu iddia edirdilər. Məşhur tarixçi Təbəri belə nəql edir: Bir gün xəlifə Mənsurun sarayına gələn Ravəndilər sarayı təvaf edərək belə deyirdilər: "Bura bizim rəbbimizin sarayıdır". Ravəndilərin bu hərəkətini bəyənməyən xəlifə onlardan iki yüz nəfərini həbs etdirsə də, yenidən toplanan Ravəndilər dostlarını həbsdən azad etdilər. Sonda məşhur sərkərdə Maan ibn Zaidə Şeybaninin gəlməsilə Ravəndi üsyanı yatırılmış və xəlifənin əmrinə əsasən onların hamısı qılıncdan keçirilmişdir."[376]

Ravəndilər üsyanının yatırılmasında böyük rol oynayan Maan ibn Zaidəyə xəlifə Mənsur öz təşəkkürünü bildirdikdən sonra Maan belə dedi: "Ey möminlərin əmiri, Allaha and olsun ki, mən oraya gələrkən çox qorxurdum. Amma sənin onları heçə saydığını və üzərlərinə cəsarətlə getdiyini görüncə ürəyim qüvvətləndi və özümə güvənməyə başladım. Heç bir kimsənin döyüşdə belə cəsarətli olacağını sanmırdım. Sənin bu hərəkətin məni cəsarətləndirdi ey möminlərin əmiri."[377] Maan ibn Zaidədən razı qalan xəlifə Mənsur ona on min dinar verməklə bərabər onu Yəmən valisi təyin etdi.

Hicrətin 138-ci ili (miladi 756) Mənsurun dövründə baş verən hadisələr

Bu il Bizans imperatoru Konstantin böyük bir ordu ilə Malatyaya hücum etdi. Şəhərin qala qapılarını yıxan Bizanslılar qarşılarına çıxanları əsir olaraq Bizansa apardılar. Buna cavab olaraq Misir valisi Saleh ibn Əli Anadoluya yürüş edib Bizanslılar tərəfindən dağıldılan Malatya qala qapılarını təmir etdi.

Eyni ildə Sinbazı məğlub edib mallarını ələ keçirən, bundan əlavə Əbu Müslimin də mallarına sahib olub, bunun sayəsində özünü gücləndirən və heç kimin özünü məğlub edə bilməyəcəyi zənninə qapılan Cövhər ibn Mürrər əl-Əcli xəlifə Mənsura qarşı üsyan qaldırdı. Bundan xəbər tutan xəlifə Mənsur onun üzərinə Məhəmməd ibn Əşəs əl-Xuzainin başçılığı altında olan böyük bir ordunu göndərdi. İki tərəf arasında baş verən döyüşdə Cövhərin ölümü ilə ordusu məğlub edildi.

Eyni ildə üsyan edən xəvaric əsilli Muləbbəd Həzzim ibn Şəmalin tərəfindən öldürüldü. Bunun ardınca xəlifənin əmrinə əsasən Fəzl ibn Əli insanlara həcc etdirdi.

Hicrətin 139-cu ili (miladi 756-757) baş verən hadisələr

Bu ildə Saleh ibn Əli Malatya şəhərinin yenidənqurma təmir işlərini tamamladı. Sonra da Hədəs yolu ilə Anadoluya hücum edərək Bizansın daxilinə qədər irəliləyib bəzi yerləri ələ keçirdi. Onun bu döyüşdə bacıları Ümmü İsa binti Əli və Lübabə binti Əli də iştirak edirdi. Bunun ardınca xəlifə Mənsurla Bizans imperatoru arasında bağlanan sülhə görə bir çox əsirlər azad buraxıldı.[378]

---

[376]Tarixi-Təbəri, IV cild, səh-395-396; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-75-76.
[377] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə.
[378]Tarixi ibn Əsir, V cild, səh-488, İbn Kəsir, əl-Bidayətu vən-Nihayə.

Eyni ildə xəlifə Mənsur İmam İbrahimin qardaşı Əbdulvəhhabla Həsən ibn Qəhtəbənin başçılığı altında olan 70 min nəfərlik ordunu Anadoluya göndərdi. Anadoludan sonra Malatyaya gələn bu dəstə şəhəri yenidən təmir edərək burada əsgər yerləşdirdi. Bunun ardınca Masis şəhərini ələ keçirən müsəlmanlar burada məscid inşa etdilər. Bundan sonra hicrətin 146-cı ilinə qədər (miladi 764) Anadoluya səfər edilmədi.

Bu il həccə gedənlər Məscidul-həramın sahəsinin kiçik olmasından xəlifəyə şikayət etdilər. Buna əsasən xəlifə Mənsur Məscidul-həramın ərazisini böyütməyə əmr verdi. Bu məqsədlə Məkkə valisinə göstəriş verildi ki, məscidin ətrafındakı evləri alıb, məscidin ərazisinə qatsın. Lakin evlərinin sökülməsilə razılaşmayan Məkkə əhli xəlifəyə öz etirazlarını bildirdilər. Belə bir çətinliklə üzləşən xəlifə dərhal zamanın imamı Hz.Sadiqə *(ə)* müraciət edərək bu çətinliyi aradan qaldırdı. Yalnız bundan sonra ətraf evlər sahiblərinin razılığı ilə sökülərək məscidin ərazisinə qatıldı. Bunun hesabına məscidin ərazisi ikiqat artırıldı. Tikinti işləri hicrətin 140-cı ili (miladi 758) tamamlanmışdır.

Bu il xəlifə Mənsur əmisi Süleymanı Bəsrə valiliyindən kənarlaşdırdı. Abdulah ibn Əli adamları ilə birlikdə başlarına pislik gəlməsindən qorxaraq gizləndilər. Bununla əlaqədar olaraq xəlifə Mənsur Bəsrə valisi Süfyan ibn Müaviyəyə Abdullah ibn Əlini yanına göndərməsini əmr etdi. O da Abdullah ilə adamlarını xəlifənin yanına göndərdi. Abdullah ibn Əlini həbs edən Mənsur adamlarının bir qismini öldürərək qalanlarını da Xorasan valisi Əbu Davudun yanına göndərərək onun vasitəsilə edam etdirdi.

Hicrətin 140-cı ili (miladi 757-758) baş verən hadisələr

Bu il bəzi əsgərlər Xorasan valisi Əbu Davuda qarşı qiyam etdilər. Öz adamlarını köməyə çağırmaq məqsədilə evin damına çıxan Əbu Davud oradan yıxılaraq öldü. Yeni valinin gəlişinə qədər onun işini Əsam icra etdi. Xəlifənin əmri ilə Əbdülcəbbar ibn Əbdürrəhman əl-Əzdi Xorasan valisi təyin edildi. Xorasana gələn yeni vali dərhal bəzi komandirləri öldürdü. Çünki onlar, xilafətin Hz.Əli *(ə)* ailəsinə verilməsilə əlaqədar təbliğat aparırdılar. Digərlərini isə həbs etdirdi.

Bu il Hirədə ehrama girib həccə gedən xəlifə Mənsur həcc əməllərini tamamladıqdan sonra Mədinəyə gələrək Məscidun-nəbini də ziyarət edərək oradan da Qüdsə gedib Məscidul-Əqsanı ziyarət etdi. Sonra Şam yolu ilə Riqqəyə gələn xəlifə oradan da Haşimiyyəyə qayıtdı.

Hicrətin 141-ci ili (miladi 758) baş verən hadisələr

Bu il xəlifə Mənsur Xorasan valisi Əbdülcabbar ibn Əbdürrəhmanın yerinə oğlu Mehdini vali təyin etdi. Çünki Əbdülcabbar xəlifənin tərəfdarlarının bir çoxunu öldürmüşdü. Lakin vəzifəsini itirməklə razılaşmayan Əbdülcabbar xəlifəyə öz etirazını bildirdi. Bu narazılığı aradan qaldırmaq istəyən Mehdi Həzzim

ibn Xuzeyməni göndərərək onu əsir götürdü. Əbdülcabbar xilafət sarayına gətirildikdə xəlifə Mənsurun əmri ilə onun boynu vuruldu.

Xorasan valiliyini əldə edən Mehdi atasının əmri ilə Təbəristanda üsyan edən İsbahbazın üzərinə göndərildi. Təbəristanda baş verən döyüşdə məğlub olan İsbahbaz məcburiyyət qarşısında müsəlmanlarla sülh bağlayaraq Deyləmə getdi və bir müddət sonra orada öldü. Bunun ardınca Mehdi əmrindəki ordu ilə Masmağan adlı Türk hökmdarını məğlub edərək Təbəristanı fəth etdi. Bu Təbəristanın ilk fəthi idi.

Hicrətin 142-ci ili (miladi 759) baş verən hadisələr

Bu il Sind valisi Uyeynə ibn Musa ibn Kəb xəlifəyə qarşı üsyan etdi. Xəlifə Mənsur Ömər ibn Həfs ibn Əbu Sufranı Uyeynənin üzərinə göndərməklə bərabər onu Sind və Hind əyalətinə vali təyin etdi. Uyeynəni məğlub edən Ömər Sindi onun əlindən aldı.

Bu il Təbəristanda müsəlmanlarla müqavilə imzalayan İsbahbaz müqaviləni pozaraq Təbəristandakı müsəlmanların bir qismini öldürdü. Bundan xəbər tutan xəlifə Mənsur Həzzim ibn Xuzeymə ilə Rəvh ibn Xəttimin başçılığı altında olan böyük bir ordunu onun üzərinə göndərdi. Baş verən döyüşdə çıxılmaz vəziyyətdə olduğunu görən İsbahbaz zəhər içərək özünü öldürdü.

Hicrətin 143-cü ili (miladi 760-761) baş verən hadisələr

Bu il xəlifə Mənsur insanları Deyləm üzərinə yürüşə göndərdi. Çünki üsyan edən Deyləmlilər bir çox müsəlmanı öldürmüşdülər. Xəlifənin əmrinə əsasən Bəsrədən və Kufədən 10 min nəfər Deyləmə getməyə hazır olduğunu bildirdi. Eyni zamanda bu il Kufə valisi İsa ibn Musa insanları həccə apardı.

Hicrətin 144-145-ci ili (miladi 762-763) baş verən hadisələr

Nəfsüz-zəkiyə Məhəmməd ibn Abdullah və qardaşı İbrahimin qiyamı: Hicrətin 140-cı ili (miladi 758) həccə gələn Mənsuru əhali Məkkə yolunda qarşıladı. Xəlifəni qarşılayanlar arasında Abdullah ibn Həsən ibn Əli ibn Əbu Talib də var idi. Onunla söhbətə başlayan xəlifə Mənsur ondan oğlanları Məhəmmədlə İbrahimin niyə digər insanlarla birlikdə ziyarətinə gəlmədiklərini soruşdu. Abdullah ibn Həsən and içərək onların yerini bilmədiyini söylədi.

Məhəmməd ibn Abdullah ibn Həsən, əməvi xəlifəsi II Mərvan ibn Məhəmmədin xilafətinin sonlarında Hicaz xalqının bəzisindən öz adına beyət almışdı. Ona beyət edənlər arasında Əbu Cəfər Mənsur Dəvaniqi də var idi. Bu hadisə, Əməvi hakimiyyətinin Abbasilərə keçməsindən əvvəl olmuşdu.

Xəlifəlik Əbu Cəfər əl-Mənsura keçincə o, Məhəmməd ibn Abdullah ibn Həsən ilə qardaşı İbrahimdən qorxmağa başladı. Çünki Mənsur, onların II Mərvana qarşı qiyam qaldırdıqları kimi özünə qarşı da qiyam edəcəklərindən ehtiyat edirdi. Bu məqsədlə onları ələ keçirmək istəyən Mənsur çox çalışsa da onları tuta bilmədi. Bu zaman xəlifənin ətrafında olan adamlar Mənsura, Həsənin

oğlanlarının hamısını həbs etməsini məsləhət gördülər. Onların hamısını həbs edən xəlifə Məhəmmədlə İbrahimi ciddi şəkildə axtarmağa başladı.

Qohumlarının həbs edildiyini öyrənən Məhəmməd ibn Abdullah anasının yanına gələrək belə dedi: "Anacan, ailəmin, atam və əmimin başına pis bir iş gələcəyindən qorxuram. Gedib xəlifəyə təslim olmaq istəyirəm ki, ailə üzvlərimi rahat buraxsın. Bu barədə sənin fikrin nədir?" Anası zindana gedib onun sözlərini atası və əmisinə dedikdə onlar bu cavabı verdilər: "Xeyr, qətiliklə olmaz. Təslim olmasın. Biz onun üçün səbr edəcəyik. Bəlkə Cənab Allah, onun əli ilə xeyr qapılarını açacaq. Biz çəkdiyimiz hər bir əzaba dözəcəyik. Allah istəsə bizi genişliyə qovuşdurar, istəsə bizi darda buraxar."[379]

Bu il xəlifə Mənsur növbəti həcc səfərindən qayıdarkən, Rəbəzə adlı çöllükdə düşərgə qurub, Mədinədəki məhbusları hüzuruna gətirməyi əmr etdi. Xəlifənin gözləri qarşısında ağır işgəncələr verildikdən sonra, imam nəslindən olanlar Kufəyə aparıldılar. Kufə həbsxanasında İmam Həsən *(ə)* övladlarına ağır işgəncələr verilirdi. İşgəncələrə tab gətirməyən məhbuslar bir-bir Allahın rəhmətinə qovuşurdular.

Məhbuslar içində hamıdan əvvəl İbrahim Ğəmər ibn Həsən ibn İmam Həsən *(ə)* vəfat etdi (hicri 145, rəbiül-əvvəl; miladi 762, iyun). Bunun ardınca digər məhbuslar da ağır işgəncələrə dözməyərək, canlarını tapşırdılar. Ən axırda Abdullah ibn Həsən bir neçə nəfərlə sağ qalmışdı. Oğulları Məhəmməd Nəfsüzzəkiyyə və İbrahimin qətlə yetirilməsi xəbərini eşidəndən sonra o da Allahın rəhmətinə qovuşmuşdur.

Hicrətin 145-ci ili kiçik bir dəstə ilə qiyama başlayan Məhəmməd ibn Abdullah qısa müddət ərzində Mədinəni ələ keçirərək həbsdə olanları sərbəst buraxdı. Həmin vaxt Mədinə valisi olan Riyah ibn Osmanı isə Mərvanın evindəki zindana atdı. Mədinənin ardınca Məkkə və Yəməndə də hakimiyyət onun əlinə keçdi. Mədinə xalqı Maliki məzhəbinin banisi Malik ibn Ənəsdən Məhəmmədə beyət etməyin caiz olub-olmadığını soruşdular. O da fətva verdi ki, Məhəmmədə beyət edə bilərsiniz. Çünki Mənsura zorla beyət etdiyinizdən ona sadiq qalmağa borclu deyilsiniz. Bu fətvadan sonra bütün Mədinə əhli Məhəmmədə beyət etdi.

Mədinəni ələ keçirən Məhəmməd ibn Abdullah buraya vali olaraq Osman ibn Məhəmməd ibn Xalid ibn Zübeyri, qazi olaraq Əbdüləziz ibn Muttəlib ibn Abdullah əl-Məhzumini, təhlükəsizlik sərkərdəsi olaraq Osman ibn Abdullah ibn Ömər ibn Xəttabı, maaş divanının müdiri olaraq Abdullah ibn Cəfər ibn Abdullah ibn Misvər ibn Məhrəməni təyin etdi.

Məhəmmədin qiyam etdiyini öyrənən xəlifə Mənsur narahat olaraq böyük sərkərdələri çağıraraq yığıncaq təşkil etdi. Məcburən silaha əl atan xəlifə Mənsur qardaşı oğlu İsa ibn Musanı böyük bir qoşunla Mədinəyə göndərdi. Xəlifə Səffahın vəsiyyətinə əsasən İsa ibn Musa Mənsur Dəvaniqinin vəliəhdi sayılırdı. Amma xilafəti özündən sonra oğlu Mehdiyə ötürmək istəyən Mənsur İsa ibn

[379] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə.

Musanı xoşlamırd. Buna əsasən xəlifə üçün İsa ibn Musanın və ya Məhəmmədin hansı birinin öldürülməsi maraqlı deyildi.

Xəlifənin əmrinə əsasən İsa ibn Musa öz ordusu ilə Mədinəni mühasirəyə aldı. Həmin vaxt Məhəmmədin ətrafında 100 min əsgər var idi. Lakin xilafət əsgərlərini görən Mədinə əhli Məhəmmədin ətrafından dağılışdı. Ətrafında cəmi 316 nəfərin qalmasına baxmayaraq Məhəmməd mübarizəni dayandırmadı. İki tərəf arasında baş verən döyüşdə Məhəmməd ibn Abdullah və tərəfdarları hamılıqla qətlə yetirildi. Məhəmməd ibn Abdullahın kəsilmiş başı xəlifə Mənsurun hüzuruna Kufəyə göndərildi.[380]

Nəfsüz-zəkiyənin qətlindən sonra qardaşı İbrahim Bəsrədə xilafət əleyhinə qiyam etdi. Bundan xəbər tutan xəlifə Mənsur yenə də İsa ibn Musanı iki min nəfərlik ordu ilə onun üzərinə göndərdi. Hicrətin 145-ci ili (miladi 763) Kufə yaxınlığında Baxümra adlı məntəqədə baş verən döyüşdə İbrahimin öldürülməsilə ordusu da məğlub oldu. İbrahim ibn Abdullahın da başı qardaşı Məhəmmədin başı kimi xəlifə Mənsurun hüzuruna Kufəyə göndərildi.

Əhli-beytə qarşı zülmləri bununlada bitməyən xəlifə Mənsur Nəfsüz-zəkiyə Məhəmmədin oğlu Abdullahı Hindistanda şəhid etdirmişdir. Bunun ardınca İbrahim Ğəmərin oğlu Məhəmməd Əsğəri isə iki divarın arasında qoyub hördülər.

Əbu Cəfər Mənsurun ən böyük cinayəti İmam Sadiqi *(ə)* şəhid etməsidir. İmam Sadiq *(ə)* hicrətin 148-ci ili şəvval ayının 25-də (miladi 765-ci ilin dekabrında) xəlifə Mənsurun əmri ilə Mədinədə zəhərləndirilərək şəhid edilmişdir. Müqəddəs məzarı Mədinədə Bəqi qəbiristanlığındadır.

Hicrətin 146-cı il (miladi 763) baş verən hadisələr

Bu il Mədinətus-səlam (Bağdad) şəhərinin inşası tamamlandı. Əvvəlcə xəlifə Səffahın tikdirdiyi Haşimiyyədə yaşayan Mənsur bu ilin səfər ayında buraya yerləşmişdir.

Bağdad şəhərinin tikilməsinin səbəbi bu idi: Hicrətin 141-ci ili (miladi 758) baş verən Ravəndilər üsyanından sonra xəlifə Mənsur Haşimiyyədə qalmağa qorxurdu. Buna görə də paytaxtı dəyişmək qərarına gəlmişdir. Bu məqsədlə xeyli axtarışdan sonra xəlifənin göstərişinə əsasən şəhər Dəclə çayının kənarında münasib bir yerdə salınmışdır.

Bağdad şəhəri tikilərkən münəccimlər bu şəhərin uğurlu və mübarək olacağı barədə xəbər verərək bildirmişdilər ki, bu şəhərdə Abbasi xəlifələrindən kimsə öldürülməyəcəkdir. Tarixədə nəzər saldıqda məlum olur ki, həqiqətən Bağdad divarı daxilində heç bir Abbasi xəlifəsi vəfat etməmişdir. Xəlifə Mənsur da həcc səfərində olarkən dünyasını dəyişmişdir. Ondan sonrakı xəlifələr Mehdi, Hadi, Harun, Əmin və Məmun ya Bağdaddan çox-çox uzaqlarda, ya da

[380]Tarixi-Təbəri, IV cild, səh-414-421; Tarixi-Məsudi, III cild, səh-306-308; Tarixi-Yəqubi, II cild, səh-376-379; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-81-95.

şəhərin kənarında vəfat etdilər. Bundan sonra paytaxt Samirəyə köçürülmüş və bir neçə xəlifə orada vəfat etmişdir.[381]

Hicrətin 147-ci ili (miladi 764) xəlifə Mənsur qardaşı Əbul-Abbasın vəsiyyətini pozaraq, İsa ibn Musanı birinci vəliəhdlikdən uzaqlaşdırıb oğlu Mehdini özündən sonra vəliəhd təyin etdi. Əvvəlcə bununla razılaşmayan İsa ibn Musa sonda müəyyən səbəblərə görə Mehdinin vəliəhdliyini qəbul etmişdir.[382]

Eyni zamanda hicrətin 147-ci ili (miladi 764) xəlifə Mənsur Yezid ibn Useyd Süləmiyə göstəriş verdi ki, xəzərlərin hücumunun qarşısını kəssin. Sakitlik yaratmaq istəyən Yezid ibn Useyd xəzər xaqanının qızlarından biri ilə evlənərək, xəzərlərlə ittifaq yaratdı. Lakin qısa müddət sonra xaqanın qızı doğuş zamanı öldü və qızının öldürüldüyünü güman edən xəzər xaqanı Tarxan böyük bir ordu ilə müsəlman torpaqlarına soxuldu. Tiflisə qədər irəliləyən xəzərlər xeyli əsir ələ keçirdilər. Xəlifə Mənsurun göndərdiyi köməkçi qoşunda Yezid ibn Useydlə birləşsə də, xəzərlərin qarşısında davam gətirə bilmədilər.

Bundan bir il sonra hicrətin 148-ci ill (miladi 765) Hümeyd ibn Qəhtəbənin başçılığı altında olan böyük bir ordu Ərməniyyə vilayətinə qədəm bassa da, xəzərlərlə rastlaşmadılar. Çünki qışın yaxıınlaşması ilə əlaqədar olaraq xəzərlər geri çəkilməyə məcbur olmuşlar.

Afrika və Əndəlusda fəthlər

Əbu Cəfər Mənsurun xilafəti dövründə Qərbi Afrika müstəqilliyini elan etdiyi üçün burada xəlifənin adına xütbə oxunmurdu. Bundan istifadə edən xarici məzhəbli bərbər tayfalar qısa müddət ərzində Qeyravan və Fası ələ keçirdilər. Qərbi Afrikadakı özbaşınalığa son qoymaq istəyən xəlifə Mənsur hicrətin 143-cü ili (miladi 760) Məhəmməd ibn Əşəs Xuzaini Afrikaya vali təyin etdi. Böyük bir ordu ilə hücuma keçən Məhəmməd ibn Əşəs Trablis və Qeyrəvanı bərbərlərdən geri aldı. Bu qarışıqlıqdan istifadə edən xəvaric məzhəbli Əbdürrəhman ibn Rüstəm Tahərtə qaçaraq Rüstəmilər dövlətinin əsasını qoydu. Bu dövlət miladi tarixilə 761-ci ildən 909-cu ilə kimi Tahərtdə hakimiyyətdə olmuşdur. Rüstəmilər dövlətinin varlığına 909-cu ildə şiə təmayüllü Fatimilər tərəfindən son qoyulmuşdur.

Hicrətin 153-154-cü illərində (miladi 770) Qeyrəvan yenidən xəvariclərin əlinə keçdi. Bu dəfə xəlifə Mənsurun əmri ilə Yezid ibn Hatim Afrikaya göndərildi. Afrikaya gələn Yezid Qeyrəvan daxil olmaqla digər şəhərləri də xilafətə qaytararaq xəvaric üsyanına son qoymuşdur.

Xəlifə Mənsur xilafəti dövründə özünə vəzir olaraq əvvəlcə Əbu Əyyub Muriyani, onun ölümündən sonra isə Rəbi ibn Yunisi götürmüşdür.

İkinci Abbasi xəlifəsi Əbu Cəfər Mənsur Dəvaniqi hicrətin 158-ci ili zilhiccə ayının altısında (miladi 775) həcc səfərində olarkən Məkkədə vəfat etmiş

[381]Tarixi-təbəri, IV cild, səh-457-481.
[382]Tarixi-Təbəri, IV cild, 483-491.

və Babul-Muəlladakı Kəda qəbiristanlığında dəfn edilmişdir.[383] Xəlifə Mənsur hicri 101-ci ilin zilhiccə ayında doğulmuş, 136-cı ilin zilhiccə ayında xəlifə seçilmiş və 158-ci ilin zilhiccə ayında da ölmüşdür.

Hz.İmam Cəfəri Sadiq (ə)

İmamın *(ə)* mübarək adı Cəfər, Sadiq isə ləqəbidir. Cəfər ərəb dilində axan çay mənasındadır. Künyəsi Əbu Abdullahdır. Atası İmam Baqir *(ə)*, anası isə Qasim ibn Məhəmməd ibn Əbu Bəkrin qızı Ümmi Fərvə künyəsi ilə tanınan Qəribədir. Bu qadının anası Əsma binti Əbdürrəhman ibn Əbu Bəkrdir. Bu qadın həm ata, həm də ana tərəfdən xəlifə Əbu Bəkrin nəvəsidir. Bu da o deməkdir ki, İmam Sadiqin *(ə)* ana tərəfdən babası xəlifə Əbu Bəkrdir. İmam Sadiq *(ə)* hicrətin 83-cü ili rəbiül-əvvəl ayının 17-də, miladi 700-cü il əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın xilafəti dövründə Mədinədə anadan olmuşdur.

İmamlar arasında İmam Sadiqin *(ə)* dövrü özünəməxsus bir yer tutur. Çünki həmin dövr Bəni-Ümeyyə dövlətinin zəiflədiyi, Bəni-Abbasın isə gücləndiyi bir dövr olmuşdur. Bu iki dəstə həmin dövrdə bir-biri ilə mübarizə aparırdılar. Əməvi xəlifəsi Hişam ibn Əbdülməlikin (724-743) dövründən etibarən Abbasilərin siyasi təbliğatı başlamış, sonra silahlı mübarizəyə çevrilmiş və Abbasilərin qələbəsi ilə başa çatmışdır. Bu qarışıqlığa görə Bəni Ümeyyə İmam Sadiq *(ə)* və şiələrə təzyiq göstərə bilmirdi. Eyni zamanda Abbasilər də Peyğəmbər ailəsinin tərəfdarı və onların intiqamını almaq şüarı altında hərəkət etdikləri üçün onlar da İmam Sadiq *(ə)* və tərəfdarlarına təzyiq göstərə bilmirdilər. Ona görə də bu dövr İmam Sadiqin *(ə)* və tərəfdarların nisbi rahatlıq dövrü adlanır. İmam Sadiq *(ə)* yaranmış vəziyyətdən istifadə edib atası İmam Baqirin *(ə)* elmi yolunu davam etdirərək böyük məktəb təşkil etdi. O dövrün dini və dəqiq elmləri sahəsində sayı dörd minə yaxın qeyd edilmiş Hişam ibn Həkəm, Məhəmməd ibn Müslim, Əban ibn Tağlib, Hişam ibn Salim, Mömin Taq, Müfəzzəl ibn Ömər, Cabir ibn Həyyan kimi seçilmiş şagirdlər yetişdirdi. Onlardan Hişam ibn Həkəm otuz bir cild, Cabir ibn Həyyan isə müxtəlif elmlər sahəsində iki yüz cilddən artıq kitab yazmış və "kimyanın atası" ləqəbini almışdır. İmam Sadiqin *(ə)* özü də təbii elmlər sahəsində bir sıra elmi bəhslər aparmışdır. Bunun aşkar nümunəsi Tövhidi Müfəzzəldir. İmam Sadiq *(ə)* onu dörd gün ərzində imla etmiş, Müfəzzəl ibn Ömər Kufi də onu qələmə almış, nəticədə "Tövhidi Müfəzzəl" adlı kitab meydana gəlmişdir.

İmam Sadiqin *(ə)* elmindən təkcə şiələr deyil, eləcə də sünni məzhəbinin alimləri də faydalanırdılar. Sünni məzhəbinin tanınmış rəhbərləri o Həzrətin şagirdləri olmuşlar. Bunların önündə Əbu Hənifə gəlir. O, iki il İmam Sadiqin *(ə)* şagirdi olmuşdur. Əbu Hənifə bu iki ili öz elminin bünövrəsi kimi qeyd edərək deyir: "Əgər o iki il olmasaydı, Nöman (Əbu Hənifə) həlak olardı."[384]

---

[383]Tarixi-Təbəri, IV cild, səh-514-518.

[384]əl-İmamus-Sadiq vəl-məzahibul-ərbəə, I cild. Səh-70.

İmam Sadiqin *(ə)* kəlamlarından

Hz.Əli *(ə)* övladının xilafətini inkar edən birinin cavabında İmam *(ə)* buyurdu: "Qabir, Mərmuz, qəlblərdə nikət, nüqirr, Cəfri-Əhmər, Cəfri-Əbyəz, Müshəfi-Fatimə və Camiə biz Əhli-beytin yanındadır." Deyilən sözlərin mənasını İmamdan *(ə)* soruşduqda buyurdu: "Qabir gələcəkdə vaqe olacaq işlərdir. Mərmuz dünyanın əvvəlindən indiyə qədər olan işlərdir. Nikət qəlblərə yetişən ilhamdır. Nüqirr mələklərin sözləridir ki, biz imamlar onları görmür, amma səslərini eşidirik. Cəfri-Əhmər Hz.Peyğəmbərin silahı saxlanan zərfdir ki, bizim yanımızdadır və heç kəsin ona yetməyə imkanı yoxdur. Yalnız İmam Zaman *(ə)* onu qınından çıxardar. Cəfri-Əbyəz bir zərfdir ki, Tövrat, İncil, Zəbur, Suhufu-İbrahim və digər asimani kitablar orada saxlanılır. Müshəfi-Fatimə elə bir kitabdır ki, Qiyamət gününə qədər olacaq hadisələr, dünyada hakimlik edəcək kəslərin adları orada qeyd edilmişdir. Camiyə isə yetmiş zira olan bir kitabdır, o Hz.Peyğəmbərin *(s)* imlası, Hz.Əlinin *(ə)* xətti ilə yazılmışdır. Bu deyilənlərin hamısı biz Əhli-beytə məxsus olan şeylərdir."

İmam Sadiq *(ə)* hicrətin 148-ci ili şəvval ayının 25-də, miladi 765-ci il Abbasi xəlifəsi Mənsur Dəvaniqinin (754-775) əmrilə Mədinədə şəhid edilmişdir. Müqəddəs məzarı Mədinədə Bəqi qəbiristanlığındadır.

İmam Sadiqin *(ə)* ləqəbləri:

1) Sadiq – doğruçu deməkdir, 2) Müsəddiq – inanılmış; 3) Mühəqqiq – təhqiqat ilə əşyanın mahiyyətini öyrənib bilən; 4) Kəşful-həqayiq – həqiqəti kəşf edən; 5) Rahim – rəhm edən; 6) Fazil – fəzilətli, bilikli;

İmam Sadiqin *(ə)* zövcələri:

1) Həmidə – İmam Kazimin *(ə)* anası; 2) Fatimə binti Həsən ibn Hz.Səccad *(ə)*;

İmam Sadiqin *(ə)* övladları:

1) İsmail; 2) Abdullah Əftəh; 3) İmam Kazim *(ə)*; 4) İshaq; 5) Məhəmməd Dibac; 6) Abbas; 7) Əli; 8) Fatimə; 9) Əsma; 10) Ümmü Fərvə.

İmam Sadiqin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Allahu xaliqu kulli şeyin" – Allah hər bir şeyin xaliqidir.

İmam Sadiqin *(ə)* müasiri olmuş xəlifələr: Əməvi xəlifələrindən aşağıdakılar İmam Sadiqin *(ə)* müasiri olmuşdur:

1) Hişam ibn Əbdülməlik (724-743);
2) II Vəlid ibn Yezid (743-744);
3) III Yezid ibn Vəlid (744);
4) İbrahim ibn Vəlid (744);
5) II Mərvan ibn Məhəmməd (744-750);

Abbasi xəlifələrindən isə bunlar İmam Sadiqin *(ə)* müasiri olmuşdur:

1) Abdullah ibn Məhəmməd Səffah (750-754);
2) Əbu Cəfər Mənsur Dəvaniqi (754-775).

Əbu Abdullah Məhəmməd Mehdi hicri 158-169 (miladi 775-785)

Əbu Abdullah Mehdi hicrətin 126-cı ili (miladi 745) Hümeymədə anadan olmuşdur. Atası Mənsurun xilafəti dövründə hərbi səfərlərə başçılıq edən Mehdi qələbə qazanmışdır. O, 761-ci ildə əmisi Əbul-Abbas Səffahın qızı Reytə ilə evlənmişdir. Atasından fərqli olaraq səxavətli olan Mehdi qısa müddət ərzində atasının yığdığı pulları ehtiyacı olanlara payladı.

Atası Mənsur, hicrətin 158-ci ili (miladi 775) zilhiccə ayının altısında Məkkədə vəfat edincə, dəfndən qabaq Bəni-Haşim rəislərindən və Mənsurla birlikdə həccdə olan sərkərdələrdən Mehdinin adına beyət alındı. Vəzir Rəbi ibn Yunis bu beyət xəbərini Bağdadda olan Mehdiyə çatdırdı. Bu xəbərdən sonra Bağdad və ətraf məntəqələr də Mehdiyə beyət etdilər.

Hicrətin 159-cu ili (miladi 776) baş verən hadisələr

Bu il Bizans imperatoru IV Lev İsavri tərəfindən göndərilmiş Bizans qoşunu Sumeysat şəhərini ələ keçirib, xeyli müsəlmanı əsir etdilər. Elə həmin il bu hücuma cavab olaraq xəlifə Mehdi Abbas ibn Məhəmmədi böyük bir ordu ilə Bizansa qarşı yürüşə göndərdi. Abbas ibn Məhəmmədin başçılığı altında olan bu qoşun Bizans sərhəddini keçərək Anqaraya qədər irəliləyib xeyli qənimət ələ keçirdi.

Bu il Xorasan valisi Həmid ibn Qəhtəbə vəfat etdi. Xəlifə Mehdi tərəfindən onun yerinə Əbu Ovn Abdülməlik ibn Yezidi vali təyin edildi. Eyni zamanda Həmzə ibn Maliği Sicistan, Cəbrayıl ibn Yəhyanı da Səmərqənd valisi təyin etdi. Bunun ardınca Sind valisi Məbəd ibn Xəlil vəfat etdi və Əbu Abdullahın təklifi ilə xəlifə Mehdi onun yerinə Ravh ibn Xəttimi vali təyin etdi.

Bu il xəlifə Mehdi qan iddiasından, fəsadçılıqdan və ya başqasının haqqını qəsb edənlərdən savayı bütün məhbusları sərbəst buraxdı. Sərbəst buraxılanlar arasında Yəqub ibn Davud və Həsən ibn İbrahim ibn Abdullah Məhz ibn Həsən də var idi. Bir çox şəhərlərin valilərini yeniləri ilə əvəz etmişdir. İlk dəfə olaraq, xəlifə Mehdinin vaxtında fövqəladə cinayət işlərinə baxılması üçün xəlifənin iştirakı ilə təcili məhkəmələr quruldu. Xəlifə şəxsən bu məhkəmələrə qatılır, hökmün düzgün çıxarılmasına və icra olunmasına nəzarət edirdi. Ziyarətçilərin dincəlməsi və mühafizə edilməsi üçün Məkkə yolu üzərində qonaq evləri tikildi. Onun xilafəti dövründə Bağdadla başqa şəhərlər arasında nizamlı poçt əlaqə sistemi yaradıldı. Mehdinin əmri ilə məcburi vergi məzənnəsi ləğv edildi, rəiyyətdən vergi alarkən toplanmış məhsulun həcmi və bazar qiymətləri nəzərə alınmağa başladı. Vəzir Əbu Ubeydullahın məsləhəti ilə həyata keçirilən bu islahat daha ədalətli olduğu üçün, xalq arasında böyük razılıqla qarşılandı.

Hicrətin 160-cı ili (miladi 777) baş verən hadisələr

Bu il Yusif əl-Bərəmin başçılığı ilə Xorasanda xəlifə Mehdiyə qarşı qiyam baş verdi. Əbu Abdullah Mehdi bu üsyanı yatırmaq üçün Yezid ibn Məzyədi böyük bir ordu ilə Xorasana göndərdi. Baş verən döyüşdə məğlub olan Yusif bir neçə tərəfdarı ilə Bağdada xəlifə Mehdinin hüzuruna göndərildi. Xəlifənin

əmrinə əsasən Hərsəmə ibn Əyən Yusif və tərəfdarlarını edam edərək Dəclə çayı üzərindəki körpüdən asdı.[385]

Bu ilin sonlarında xəlifə Mehdi həcc ziyarətinə getdi. Kəbənin xidmətçiləri ona xəbər verdilər ki, üzərindəki kisvələrin (örtüklərin) ağırlığından Kəbə evi uçmaq üzrədir. Mehdinin dövrünə qədər Kəbənin əvvəlki, örtüklərini çıxarmır, hər il yeni örtüyü köhnənin üzərindən örtürdülər. Mehdinin əmri ilə köhnə örtükləri Kəbənin üzərindən götürərək onu yenisilə əvəz etdilər.

Eyni ildə xəlifənin əmri ilə Məscidul-həramda təmir və tikinti işləri aparıldı. Ətraf evlər sahiblərindən satın alınaraq söküldü və məscidin ərazisi genişləndirildi. Həcc ziyarətindən sonra Mədinəyə gələn xəlifə Mehdi Peyğəmbər məscidi olan Məscidun-Nəbidə də tikinti və genişləndirmə işləri apardı. O, Peyğəmbər məscidini daş və mərmər sütunlarla bəzədi, tavanla örtdü və Hz.Peyğəmbərin *(s)* məzarına çöldən mərmər üzlük çəkdirdi. Hətta xəlifə tərəfindən Məkkə və Mədinə əhalisinə xeyli bəxşişlər verildi.[386]

Hicrətin 161-ci ili (miladi 777-778) baş verən hadisələr

Bu il xəlifə Mehdinin əmrinə əsasən Anadoluya yürüş edən Sümamə ibn Vəlid Dabıq məntəqəsinə qədər irəliləsə də şəhəri ələ keçirə bilməmişdir.

Xəlifə Mehdinin oğlu Musa əl-Hadi insanları həccə apardı.

Müqənnenin üsyanı

Əbu Abdullah Mehdi "din islahatçılarına" (İslam daxilində bidət yaradanlara) qarşı mübarizə aparan bir xəlifə kimi tarixə düşmüşdür. Həmin şəxslər tarixi mənbələrdə "zindiq" adı ilə qeyd olunur. Xəlifə Mehdi onlarla mübarizəni əsaslı şəkildə aparmaq üçün xüsusi məhkəmə "divan-üz-zənadiqə" təşkil etmişdi. Bu məhkəmə vasitəsilə zindiqlər üzə çıxarılır, onların küfrü isbat olunur və barələrində hökm çıxarılırdı.

Xəlifə Mehdinin dövründə zindiqlərin ən məşhuru Mərvdə baş qaldıran Müqənne olmuşdur. Əsl adının Əta və ya Həkim olduğu bildirilir. Onun qısa boylu, təkgöz, son dərəcə yaraşıqsız bir şəxs olduğu bildirilir. Gözündəki nöqsana görə, həmişə üzünü ağ niqabla örtdüyü üçün ona "müqənne", yəni üzü örtülü ləqəbi verilmişdir.

Müqənnenin dini təlimlərinin kökündə İslamla məzdəkiliyin qarışığı dayanırdı. O, tənasüxə (ruhun bədəndən bədənə köçməsi) inanırdı. Onun iddialarına görə Allah, Hz.Adəmin ruhunda zühur etmiş və bu səbəbdən də mələklər ona səcdə etmişlər. Sonra isə Allah, Nuh peyğəmbərin surətində zühur etmiş, ondan sonra da bütün peyğəmbərlərin surətində insanlara görünmüşdür. Sonda Əbu Müslimin, ondan sonra da özünün bədəninə girdiyini iddia edirdi. Qısa müddət

[385] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild.
[386] Tarixi-Təbəri, IV cild, səh-558.

ərzində Maveraunnəhr əhlinin əksəriyyəti onun fikirlərini qəbul edərək Müqənnenin tərəfinə keçdi.

Xəlifə Mehdi bu üsyanı yatırmaq üçün Muaz ibn Müslimi və Səid ibn əl-Hərəşini böyük bir ordu ilə Xorasan vilayətinə göndərdi. Bundan xəbər tutan Müqənne Kiş şəhəri yaxınlığında tikdirdiyi Sənam adlı qalaya sığındı. Uzun sürən mühasirədən sonra məğlub olduğunu görən Müqənne ailə üzvləri ilə birlikdə zəhər içərək özünü öldürdü. Qalanın təslim edilməsindən sonra Müqənnenin kəsik başı Bağdada xəlifə Mehdinin hüzuruna göndərildi.[387]

Hicrətin 162-ci ili (miladi 778-779) baş verən hadisələr

Bu il xəlifə Mehdinin xilafətinə qarşı Kinnəsrində Əbdüssəlam ibn Haşim əl-Yəşkərinin başçılığı ilə xəvaric qiyamı baş verdi. Xilafətin bir neçə sərkərdəsi onunla döyüşsə də, məğlub oldular. Sonda xəlifənin göndərdiyi muzdlu qoşun hissələri xəvaricləri məğlub edərək Əbdüssəlamı öldürmüşlər.

Bu il Bizans qoşunu Hədəs şəhərinin divarlarını dağıdaraq, xilafət torpaqlarına hücum etdilər. Bu hücum nəticəsində xeyli müsəlman öldürüldü və yaşayış məntəqələri dağıntıya məruz qaldı. Buna cavab olaraq Həsən ibn Qəhtəbə 80 min nəfərlik ordu ilə Anadoluya hücum edərək xeyli əsir ələ keçirdi. Hətta imperator Həsən ibn Qəhtəbənin qorxusundan onun qarşısına qoşun çıxarmadı. Yezid ibn Useyd əs-Süləmi də Qalikula qapısına qədər irəliləyib xeyli qənimət ələ keçirdi.

Cürcanda xilafətə qarşı Abdülqəhharın başçılığı ilə üsyan baş versə də, Əmr ibn Əli Təbəristandan hərəkət edərək Abdülqəhharı məğlub edib adamlarını öldürdü. Üsyançılar qırmızı paltar geyindikləri üçün bu üsyana "Muhəmmərlər" də deyilir.

Hicrətin 163-cü ili (miladi 780) baş verən hadisələr

Bu il xəlifə Mehdi oğlu Harunun sərkərdəliyi altında Bizansa qoşun yolladı. Harun Bizans qalalarından birini 38 gün mühasirədə saxladıqdan sonra ələ keçirdi. Bu yürüşdən müsəlmanlar böyük qənimətlə geri dönmüşlər. Bu orduda Harunla birlikdə Hüseyn ibn Qəhtəbə, Hacib ər-Rəbi, Xalid ibn Bərməki və Harunun katibi olan Yəhya ibn Xalid də iştirak edirdi.[388]

Hicrətin 164-cü ili (miladi 781) baş verən hadisələr

Bu il xəlifənin əmri ilə Əbdülkəbir ibn Əbdülhəmid ibn Əbdürrəhman ibn Zeyd ibn Xəttab Bizans üzərinə yürüş etdi. Onun qarşısına Mixailin başçılığı altında olan 90 min nəfərlik Bizans ordusu çıxdı. Mixailin əmri altında sərkərdə erməni Tazaz da var idi. Bizans ordusu ilə döyüşməkdən qorxan Əbdülkəbir geri qayıtdı. Onun bu hərəkətini bəyənməyən xəlifə Mehdi onu öldürmək istəsə də, bir çox müraciətlərə görə bu fikrindən daşınıb Əbdülkəbiri həbs etdirdi.

---

[387]Tarixi-Təbəri, IV cild, səh-560; Tarixi ibn Əsir, VI cild, səh-38-39, 52-53.
[388]Tarixi-Təbəri, IV cild, səh-566-567.

Bu ilin zilqədə ayının sonlarında xəlifə Mehdi İsabazda kərpicdən bir saray tikdirdikdən sonra həccə getmək qərarına gəldi. Lakin yola çıxdıqdan sonra qızdırmaya tutulduğu üçün geri döndü. Geri qayıdarkən insanların çoxu susuzluqdan əziyyət çəkdi. Xəlifənin göstərişinə əsasən bu il insanları həccə Muhəlləb ibn Saleh apardı.

Hicrətin 165-ci ili (miladi 782) baş verən hadisələr

Bu il xəlifə Mehdi oğlu Harunu 95800 nəfərlik ordu ilə Bizansa yürüşə göndərdi. Macidə şəhərinin kənarında Bizans ordusunu məğlub edən müsəlmanlar xeyli qənimət ələ keçirdilər. Yürüşü davam etdirən Harun Üsküdara qədər irəlilədi. İmperiyanın paytaxtı Konstantinopoldan onu bir neçə yüz kilometrlik Bosfor boğazı ayırırdı. Müsəlman ordusunun bu qədər güclü olacağını gözləməyən Bizanslılar imperiyanı xilas etmək üçün yollar axtarmağa başladılar. Həmin vaxt Bizans taxtını mərhum kral İlyonun arvadı kraliça Aqusta idarə edirdi. O, ölən ərindən qalan oğlunu qucağına götürüb Harunun yanına gələrək 700 yüz min dinar vermək şərtilə müsəlmanlarla sülh bağlamaq istədiyini bildirdi.

Nəticədə kraliça Aqusta ilə Harun arasında üç illik müqavilə imzalandı. Müqaviləyə əsasən Bizans xilafətə ildə iki dəfə, hər dəfə 70 və ya 90 min dinar həcmində cizyə verməli, Harunun geri qayıdacağı yollar üstündə bazarlar tikdirməlidir. Müqavilə bağlandıqdan sonra tərəflər əllərindəki əsirləri mübadilə etdilər. Bu hərbi yürüşdən Harun 20 min at qənimət gətirdi. Bağdada qayıdarkən Harunun uğurlarından razı qalan atası xəlifə Mehdi ona "Rəşid" (qalib) ləqəbini verdi. Bundan sonra o, Harun ər-Rəşid kimi tanınmağa başladı. Həmin il Mehdi Harunu Hadidən sonra özünə ikinci vəliəhd təyin etdi.[389]

Hicrətin 168-ci ili (miladi 785) Bizanslılar Harun ər-Rəşidlə bağladıqları üç illik müqavilənin sonunu gözləməyərək, müqaviləni pozdular. əl-Cəzirə valisi Əli ibn Süleyman böyük bir ordu göndərib Bizanslıları məğlub edərək xeyli əsir ələ keçirdi.

Mehdi və Əhli-beyt

Atası Mənsurdan fərqli olan xəlifə Mehdi Əhli-beytə olan düşmənçiliyini açıq-aşkar nümayiş etdirmir, öz hisslərini gizlətməyi bacarırdı. Hz.İmam Kazim Musa ibn Cəfərin *(ə)* imamət müddətinin bir hissəsi xəlifə Mehdinin dövrünə düşür. İmam Kazimə *(ə)* müsbət münasibəti olmayan xəlifə Mehdi İmamı *(ə)* Mədinədən Bağdada sürgün edərək bir müddət nəzarət altında saxlamışdır. İmam Kazimi *(ə)* öldürmək fikrində olan xəlifə Mehdi məşhur sərkərdə Hümeyd ibn Qəhtəbəni yanına çağıraraq bu işi ona tapşırır. Lakin yuxuda görür ki, Hz.Əli *(ə)* ona işarə edərək bu ayəni oxuyur: **"Əgər (Muhəmməddən *(s)*) üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və (cahiliyyət dövrün-**

[389]Ostroqorski, Bizans Devleti Tarihi, səh-164-173; Tarixi-Təbəri, IV cild, səh-566-567, 572-574; Tarixi-ibn Əsir, VI cild, səh-60-67.

də olduğu kimi) qohumluq tellərini qırmaq gözlənilməzmi?!"[390] Yuxudan ayıldıqdan sonra etdiyi əməldən peşman olan xəlifə Mehdi dərhal Hümeyd ibn Qəhtəbəyə tapşırır ki, dediyi işi yerinə yetirməsin. Sonra İmam Kazimi *(ə)* zindandan çıxararaq Mədinəyə yola salır.[391]

Xəlifə Mehdi xilafətinin əvvəllərində Nəfsüz-zəkiyyə Məhəmmədin qardaşları Musa və Həsənə aman verərək onları bağışladı. Hətta Həsənə Hicazdakı Səvafi məntəqəsində mülk bağışladı.[392]

Mehdinin dövründə xilafət iddiasında olan digər Əhli-beyt nümayəndəsi Əli ibn Abbas xəlifənin əmri ilə həbs edildi. Lakin Hüseyn ibn Əli ibn Həsəni Müsəllasın xahişi ilə onu sərbəst buraxdılar. Əlini öldürmək fikrindən əl çəkməyən xəlifə Mehdi ona zəhər verərək Mədinəyə yola saldı. Zəhərin təsirindən əti tökülən Əli Mədinəyə çatdıqdan üç gün sonra vəfat etdi.

Mənsurun xilafətindən fərqli olaraq xəlifə Mehdinin dövründə vəzirlər dövlət idarəçiliyində mühüm rol oynayırdılar. Onun zamanında vəzirlərin dövlət işlərinə nüfuzu hiss olunacaq qədər artmışdı. Mehdinin ən çox etibar etdiyi vəzirlər Əbu Ubeydullah Müaviyə ibn Yəsar, Rəbi ibn Yunis və Yəqub ibn Davud olmuşdur.

Mehdi hakimiyyətinin sonuna yaxın Harun ər-Rəşidi özündən sonra hakimiyyətə gətirmək fikri ilə oğlu Hadini razı salmaq üçün 785-ci ildə (hicri 169) Bağdaddan çıxıb Curcana doğru hərəkət etdi. Lakin Masabazan şəhərinin Ruzz kəndinə çatdıqda vəfat etdi və orada qoz ağacının altında dəfn edildi.[393]

Musa ibn Məhəmməd Hadi hicri 169-170 (miladi 785-786)

Əbu Məhəmməd Musa ibn Məhəmməd hicrətin 146-cı ili (miladi 763) xəlifə Mənsurun xilafəti dövründə Hümeymədə anadan olmuşdur. Anası Xeyzəran adlı bir qadındır. Rəvayətlərə əsasən Mehdi onu qul alverçilərindən alıb onunla evlənmiş və bu evlilikdən Musa ilə Harun dünyaya gəlmişdir. Hicrətin 169-cu ili (miladi 785) atası Mehdinin ölümündən sonra onun vəsiyyətinə əsasən xəlifə seçilən Musa ibn Məhəmməd özünə Hadi ləqəbini götürdü. Atasının vəfatı ərəfəsində Curcanda olan Hadi üsyanı yatırdıqdan səkkiz gün sonra Bağdada gələrək ümumi beyəti qəbul etmişdir.

Fəxx şəhidi Hüseyn ibn Əlinin qiyamı

Fəxx Məkkə ilə Mədinə arasında yerləşən bir məntəqənin adıdır. Fəxx şəhidi Hüseynin atası Əli, anası Zeynəb İmam Həsənin *(ə)* nəvələrindəndir.

Xilafəti əldə edən Hadi dərhal İshaq ibn İsanı Mədinə valisi təyin etdi. Qısa müddət sonra İshaqın bu vəzifəni tərk etməsilə əlaqədar olaraq, xəlifənin əmrinə əsasən Mədinəyə Raşidi xəlifəsi Ömər ibn Xəttabın nəslindən olan Əbdüləziz ibn Abdullah vali təyin edildi. Əhli-beytə qarşı mənfi münasibətdə olan Əbdüləziz ibn Abdullah daim onları təhqir edərək gözdən salmağa çalışır-

[390] Muhəmməd surəsi, ayə-22.
[391] İbn Şəhraşub, Mənaqibu Ali-Əbutalib, IV cild, səh-325.
[392] Tarixi-Təbəri, IV cild, səh-459-550.
[393] Tarixi-Təbəri, IV cild, səh-583-585.

dı. Onun göstərişinə əsasən İmam Həsənin *(ə)* nəslindən üç nəfər seçilmişdi ki, Mədinə valisinin istədiyi zaman bu üç nəfər Ələvilərin hər hansı birini onun yanına gətirsin. Əbdüləziz ibn Abdullah tərəfindən zamin seçilmiş üç nəfər Əhli-beyt nümayəndəsi bunlar idi:

1. Hüseyn ibn Əli ibn Həsəni-müsəllas ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)*;
2. Yəhya ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)*;
3. Həsən ibn Məhəmməd ibn Abdullah Məhz.

Hicrətin 169-cu ili (miladi 786) Hz.Əlinin *(ə)* nəslindən olan yetmiş nəfər xilafətin müxtəlif yerlərindən həcc ziyarəti üçün Mədinəyə gəlib Hüseyn ibn Əlinin ətrafına yığışmışdılar. Hüseyn ibn Əli belə qənaətə gəldi ki, əgər Peyğəmbər *(s)* nəsli öz haqqını tələb etmədən sakit dursa, qarşı tərəfin zülmləri daha da artacaq. O, dərk edirdi ki, Mədinə valisi Əbdüləziz ibn Abdullah Ələviləri alçatmaq üçün heç nədən çəkinməyəcək. Onun məqsədi Əli *(ə)* övladlarını aradan götürməkdir. Bu zülmlərin qarşısını almağın yolunu Hüseyn ibn Əli yalnız Ələvilərin birləşməsində görürdü. Bu məqsədlə Hüseyn ibn Əli yaxın qohumlarını və sadiq dostlarını yanına çağıraraq öz fikrini onlara açıqladı.

Nəhayət növbəti gün Mədinə müəzzini azan verəndə Ələvilər onu məcbur etdilər ki, azanda "Həyyə əla xeyr-il-əməl" cümləsini də söyləsin. Mədinə valisi Əbdüləziz ibn Abdullah azandakı dəyişikliyi eşidəndə başa düşdü ki, Ələvilər qiyam qaldırıb. Ona görə də Mədinədən qaçdı.

Hüseyn ibn Əlinin qiyamına Əli *(ə)* nəslinin böyüklərindən yalnız Həsən ibn Cəfər ibn Həsəni-müsənna və zamanın imamı Hz.Museyi Kazim *(ə)* qoşulmadı. İmam Kazim *(ə)* Hüseyn ibn Əliyə beyət etməyərək belə buyurdu: "Baxmayaraq ki, sən şəhid olacaqsan, ancaq cihad və mübarizədə möhkəm ol! Bunlar çox pis adamdırlar. Zahirdə özlərini imanlı göstərir, həqiqətdə isə kafirdirlər. Bu yolda mən sənin əcr və savabını Allahdan istəyirəm."[394]

Hüseyn ibn Əli üç yüz nəfər tərəfdarı ilə birlikdə Mədinədən çıxıb, həcc məqsədilə Məkkəyə doğru hərəkət etdi. Digər tərəfdən də nəzarəti ələ keçirmək məqsədilə xəlifə Hadi Süleyman ibn Mənsurun başçılığı ilə dörd min nəfərlik ordunu Mədinəyə göndərdi. İki ordu Fəxx məntəqəsində qarşılaşdı. Baş verən döyüşdə Hüseyn ibn Əli, onun silahdaşlarının əksəriyyəti həlak oldu, bir hissəsi də əsir edildi. Şəhidlərin başı kəsilərək əsirlərlə birlikdə Bağdada xəlifə Hadinin hüzuruna göndərildi. Cəsədləri isə hamarda buraxdılar ki, qurda-quşa yem olsun. Bu faciə hicrətin 169-cu ili zilhiccə ayının 8-də (miladi 786-cı il iyunun 10-da) baş vermişdir.[395]

Bu faciə haqqında İmam Təqi *(ə)* belə buyurmuşdur: "Biz Əhli-beyt üçün Kərbəladan sonra Fəxxdən böyük qətlgah yoxdur".[396]

---

[394] Biharul-ənvar, 48-ci cild, səh-169.

[395] Tarixi-Təbəri, IV cild, səh-596-601; Tarixi ibn Əsir, VI cild, səh-90-94; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə.

[396] Şeyx Abbas Qummi, Müntəhal-amal, II cild, səh-313.

Hicrətin 170-ci ili xəlifə Hadi, qardaşı Harunu vəliəhdlikdən uzaqlaşdıraraq onun yerinə oğlu Cəfəri təyin etmək istədi. Lakin Harun ilə Hadinin anası Xeyzəran buna qarşı çıxdı. Çünki o Hadidən çox Harunun xəlifə olmasını istəyirdi. Atası Mehdidən fərqli olaraq Hadi xilafətə gəldikdən sonra anasının dövlət işlərinə qarışmasının qarşısını almışdı. Sərkərdələrinin və digər şəxslərin anasının evinə tez-tez getdiyini görən Hadi onlara belə demişdi: "Hər hansı bir əmir və sərkərdə əgər anamın qapısına gedərsə, boynunu vuraram və onun üçün şəfaət də qəbul etmərəm." Bundan sonra heç bir söz deməyən Xeyzəran Hadi ilə bir də danışmayacağına söz verərək onun evini tərk edib başqa yerə daşındı.

Harunu vəliəhdlikdən uzaqlaşdırmaq fikrindən əl çəkməyən Hadi Harunun tərəfini tutan və böyük sərkərdələrdən olan Yəhya ibn Xalid ibn Bərməkini yanına çağıraraq ondan soruşdu: "Harunu vəliəhdlikdən çıxarıb onun yerinə oğlum Cəfəri təyin etməyimə nə deyirsən?" Yəhya ibn Xalid belə cavab verdi: "Belə etsən, insanların əhdlərə əhəmiyyət verməmələrindən qorxuram. Məncə ən uyğun olanı Cəfəri Harundan sonrakı dövr üçün vəliəhd təyin etməyindir. Eyni zamanda Harunu vəliəhdlikdən uzaqlaşdırdıqdan sonra səni ölüm haqlasa, xilafət azyaşlı Cəfərə qalacaq. Bu zaman xilafətdən narazı olanlar asanlıqla dövlət çevrilişi edib, hakimiyyəti Cəfərdən alacaq. Buna görə də ən yaxşı yol budur ki, vəziyyət necədirsə, qoy elə də qalsın. Cəfər həddi-büluğa çatdıqdan sonra Harun özü könüllü surətdə vəliəhdlikdən uzaqlaşıb Cəfərə beyət edər". Yəhyanın bu sözləri qarşısında onu həbs edə bilməyən Hadi müvəqqəti olaraq sərbəst buraxdı. Lakin qısa müddət sonra Yəhya barəsində fikrini dəyişən Hadi onu həbsə atdırdı və o Hadinin ölümünə qədər həbsdə qaldı.

Xəlifə Hadi hicrətin 170-ci ili rəbiül-əvvəl ayının ortalarında (miladi 786) iyirmi üç yaşında İsabadda anası Xeyzəranın göstərişi ilə zəhərləndirilərək ölmüşdür. Onun vəfat etdiyi gecə bir xəlifə ölmüş, başqa bir xəlifə (Harun ər-Rəşid) taxta çıxmış, digər bir xəlifə də Məmun anadan olmuşdur.[397]

Cəsur, öz məqsədini həyata keçirməyə çalışan və inadkar bir şəxs olan Hadi, ona qarşı çıxmayanlara münasibətdə səxavətlə davranar, qiymətli hədiyyələr paylayırdı. Lakin birindən mənfi münasibət gördükdə amansız şəkildə cəzalandırırdı.[398]

Əbu Cəfər Harun ər-Rəşid hicri 170-193 (miladi 786-809)

Harun ər-Rəşid miladi tarixi ilə 762 və ya 765-ci ildə (hicri 145,148) Reydə anadan olmuşdur.[399] Qardaşının vəfat etdiyi gecə, yəni hicrətin 170-ci ili rəbiül-əvvəl ayının ortalarında cümə gecəsi Haruna xəlifə olaraq beyət edilmişdir. Beyətdən dərhal sonra Harun xəlifə Hadi tərəfindən həbs edilən Yəhya ibn Xalid ibn Bərməkini həbsdən azad edərək onu özünə vəzir təyin etdi.

---

[397] Tarixi-Təbəri, IV cild, səh-608-609.

[398] Tarixi-Təbəri, IV cild, səh-593-617; Tarixi-Yəqubi, II cild, səh-404-406; Siyuti, Tarixul-xüləfa, səh-279-283; İbn Kəsir, əl-Bidayəti vən-Nihayə, X cild, səh-157-160.

[399] Tarixi-Təbəri, IV cild, səh-618.

Rəvayət edildiyinə görə Hadi vəfat edən gecə Yəhya ibn Xalid Harunun yanına gələrək onun yuxuda olduğunu görüb belə demişdi:

– Qalx ey möminlərin əmiri.

Yuxudan oyanan Harun ər-Rəşid belə cavab verdi:

– Məni nə qədər qorxudursan! Əgər Hadi sənin bu dediklərini eşitsəydi, bu onun yanında mənim üçün çox böyük günah sayılardı, elə deyilmi?

Harunun həyacanlı olduğunu görən Yəhya ibn Xalid xəlifə Hadinin öldüyünü Haruna çatdırdı. Yəhyanın bu sözlərindən sonra Harun qalxıb oturdu və: "Rəhbərlik barəsində vilayətlərlə əlaqədar olaraq mənə fikirlərini söylə," dedi. Yəhya da ölkənin vilayətlərini bir-bir izah etdi. Onlara kimləri təyin edəcəyini bildirdi. Harunun, adını verdiyi adamları, həmin vilayətlərin valiliyinə təyin etməsini istədi. Onlar bu barədə danışdıqları vaxt bir nəfər Harunun yanına gələrək dedi: "Müjdə ey möminlərin əmiri, sizin bir oğlunuz doğuldu." Harun tərəfindən yeni doğulan uşağın adı Abdullah Məmun qoyuldu.

Səhəri gün qardaşı Hadinin cənazə namazını qıldıran Harun onu İsabadda dəfn etdirdi. Cənazə işləri tamamlandıqdan dərhal sonra Hadinin yaxın sərkərdələrindən olan Əbu İsmətin boynunu vurdurdu. Çünki o, Cəfər ibn Hadi ilə bərabər olmuşdu. Hadinin xilafəti dövründə Harun Dəclə körpüsünü keçərkən izdiham meydana gəlmiş və sərkərdə Əbu İsmət ona belə demişdi: "Bir az gözlə, vəliəhd Cəfər ibn Hadi keçsin." Harun da qəzəbini boğaraq geri çəkilmiş və belə cavab vermişdi: "Əmirin sözünə tabe oluram". Nəhayət xilafəti əldə edən Harun Əbu İsmətin boynunu vurdurduqdan sonra İsabaddan Bağdada getmişdi.

Bağdad körpüsünə çatdıqda dalğıcları çağıtdıraraq onlara belə demişdi: "Mənim burada bir üzüyüm düşüb itdi. O üzüyü mənə atam Mehdi yüz min dirhəmə almışdı. Aradan bir müddət keçdikdən sonra Hadi o üzüyü məndən istədi. Mən də göndərdiyi elçiyə təslim etdim. Lakin elçi üzüyü apararkən çaya düşdü." Harun körpüdən keçib getdikdən sonra dalğıclar üzüyü taparaq onu Haruna təqdim etdilər. Üzüyün tapılmasına sevinən Harun bunu öz hakimiyyətinin uğurlu olacağı barədə ilahi əlamət kimi yozdu.

Xəlifə seçilən Harun ər-Rəşid, Yəhya ibn Xalidi özünə vəzir seçərək ona belə dedi: "Xalqın rəhbərlik işini sənə buraxdım. Bu məsuliyyətli işi öz çiyinlərimdən götürüb sənin çiyinlərinə yüklədim. İstədiyin adamı vəzifəyə təyin et, istədiyini də vəzifədən uzaqlaşdır. Sonra öz hakimiyyət üzünü ona verdi."[400] Bunun ardınca Harun Yəhya ibn Xalidə, anası Xeyzəranla məsləhətləşmədən heç bir məsələdə qəti qərar verməməsini əmr etdi.

Hakimiyyətinin ilk ilində Harun Əhli-beytdən alınmış əmlakı onlara qaytardı. Siyasi səbəblər üzündən ölkədən qaçanlara aman verdi. Mədinənin zalım valisi Əbdüləziz ibn Abdullah vəzifəsindən uzaqlaşdırıldı, onun yerinə Abbasi sülaləsindən olan İshaq ibn Süleyman ibn Əli vali təyin edildi.

Təbərinin qeyd etdiyinə görə, Harun hakimiyyətinin ilk illərində anası Xeyzəranın tam nəzarəti altında idi. O bütün işlərə nəzarət edirdi. Yəhya ibn

[400] Tarixi-Təbəri, IV cild.

Xalid ona vəziyyət barədə hesabat verir və Xeyzəran hansı yolu göstərirdisə, ona əməl edirdi. Üç il sonra Xeyzəran vəfat etdi və Yəhya ibn Xalid idarəçilikdə tam müstəqillik qazandı.

Xilafətinin əvvəlində həcc ziyarətinə gedən Harun Məkkə və Mədinə əhalisinə ənamlar verdi. Həccdən qayıdarkən Masabazana gedib atası Mehdinin qəbrini ziyarət etdi. Harunun hakimiyyət illərini "xilafətin qızıl əsri" adlandırırlar. Onun dövründə dünyanın ən böyük şəhərlərindən birinə çevrilən Bağdadın mərkəzində xəlifənin "Qəsrul-xuld" adlı sarayı yerləşirdi. Sarayın ətrafında əyanların və dövlət adamlarının sarayları yerləşirdi. Xəlifənin əmisi Süleyman ibn Mənsurun, həyat yoldaşı Zibeydənin və Bərməkilərin sarayları yerləşirdi.

Harunun sarayında məşhur şəriət alimləri o cümlədən, Hənəfi məzhəbinin banisi Əbu Hənifənin şagirdi Əbu Yusif (v. hicri 182/miladi 798) xidmət edirdilər. Harunun şeir və sənət aşiqi olduğunu bilən o dövrün məşhur şairləri Bağdada gəlib burada yaşayıb-yaradırdılar. Əbul-Ətahiyə, Əbu Nüvas, Mərvan ibn Əbu Həfsə kimi məşhur şairlər Harunun sarayına gedib onun verdiyi ənamlardan faydalanırdılar. Ərəb dilinin məşhur bilicisi Əli ibn Həmzə Kisai (v. hicri 189 / miladi 805) isə Harunun yanında o qədər hörmətə sahib idi ki, xəlifə öz oğulları Əminlə Məmunun tərbiyəsini ona tapşırmışdı.

Hicrətin 170-ci ili (miladi 786-787) xəlifə Harunun göstərişi ilə Kiçik Asiyada, Bizans imperiyası ilə sərhəddə türk əsilli Usta Fərəc tərəfindən Tarsus şəhərinin inşası tamamlandı.

Hicrətin 171-ci ili (miladi 787) Harun, Cəzirə valisi Məhəmməd ibn Fərruxu Xuld sarayında edam etdirdi. Eyni ildə Fəzl ibn Səid əl-Həruri üsyan etsə də, xəlifənin göndərdiyi ordu tərəfindən məğlub edilərək öldürüldü. İfriqiyyə valisi Ravh ibn Xəttim xəlifənin ziyarətinə gələrək ona beyət etdi. Xəlifənin əmisi Əbdüssəməd ibn Əli insanları həccə apardı.

Hicrətin 172-ci ilində (miladi 788) Mədinə valisi İshaq ibn Süleyman ibn Əli Anadoluya yürüş edərək xeyli qənimət ələ keçirdi.

Hicrətin 173-cü ili (miladi 789) Məhəmməd ibn Süleyman ibn Əli ibn Abdullah ibn Abbas əlli bir yaşında Bəsrədə vəfat etdi. Anası Ümmü Həsən binti Cəfər ibn Həsən ibn Həsən ibn Əlidir. Xəlifə Mənsur tərəfindən Bəsrə və Kufə valiliyinə təyin edilmiş, Mehdinin xilafəti dövründə isə xəlifənin qızı Abbasiyə ilə evlənmişdir. Həddən artıq sərvətli olan Məhəmməd ibn Süleymanın gündəlik gəliri yüz min dirhəm idi.

Bundan qısa müddət sonra xəlifə Harun ər-Rəşidin anası Xeyzəran da vəfat etmişdir. Əvvəlcə xəlifə Mehdinin sarayında qul kimi işləyən Xeyzəran sonralar onun xanımı olmuş və Hadi ilə Harunu dünyaya gətirmişdir.

Hicrətin 174-cü ili (miladi 790) baş verən hadisələr

Bizans-ərəb müharibələri tarixi boyunca ilk dəfə olaraq xəlifə Harunun dövründə müsəlmanlar hərbi gəmilərdən istifadə etmiş və tərəflər arasında dəniz döyüşləri baş vermişdir. Hicrətin 174-cü ilində xəlifə Harunun göstərişinə əsasən Əbdülməlik ibn Salehin başçılığı altında olan İslam ordusu hərbi gəmi-

lər vasitəsilə Misir istiqamətindən Anadoluya yürüş edərək Bizansa daxil oldu. Antalya sahilləri yaxınlığında baş vermiş dəniz döyüşündə Bizans donanması məğlub edildi və Bizans admiralı əsir götürüldü. Eyni ildə xəlifə Harunun başçılığı ilə insanlar həccə getdilər. Bundan bir il sonra hicrətin 175-ci ili (miladi 791) xəlifə Harun oğlu Məhəmmədi özündən sonra vəliəhd təyin edərək ona Əmin ləqəbini verdi. Həmin vaxt Əminin beş yaşı var idi.

Hicrətin 176-cı ili (miladi 792) Yəhya ibn Abdullahın qiyamı və Harunun əhli-beytə münasibəti

786-cı il xəlifə Hadinin dövründə baş verən Fəxx faciəsindən sağ çıxan Yəhya ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən Abbasilərin zülmündən İranın Deyləm vilayətinə qaçdı. Yəhya Deyləmdə Əhli-beyt nümayəndəsindən olduğunu açıqladıqda əhali onun ətrafına toplanaraq onu özlərinə lider seçdilər. Qazandığı uğurlardan ilhamlanan Yəhya ibn Abdullah xilafətə qarşı mübarizə aparmağa başladı.

Deyləmdə baş verən hadisələrdən narahat olan xəlifə Harun ər-Rəşid Fəzl ibn Yəhya ibn Xalid ibn Bərməkini əlli min nəfərlik ordu ilə Deyləmə göndərməklə bərabər Cibal, Rey, Cürcan, Təbəristan, Kuməs, Dimavənd, Azərbaycan və ətraf məntəqələrin ixtiyarını ona tapşırdı. Əli *(ə)* övladı ilə münasibətləri korlamaq istəməyən Fəzl Bərməki Yəhya ibn Abdullah ilə qarşıdurmanı sülh yolu ilə həll etməyə çalışdı. Lakin bunun bir hiylə olacağından qorxan Yəhya Fəzllə danışığa getməyə qorxurdu. Sonda Deyləm hakiminin işə qarışması ilə Yəhya ibn Abdullah Fəzllə görüşüb, təslim olmağa razı olduğunu bildirdi. Amma şərt qoydu ki, xəlifə Harun ona qazıların, fəqihlərin və Bəni-Haşim böyüklərinin şahidliyi ilə təsdiq olunmuş amannamə versin.

Bunu öyrənən Harun çox sevindi. Sonra Yəhya üçün amannamə yazan xəlifə Harun bu amannaməyə fəqihləri və Haşimi böyüklərini şahid tutdu. Şahidlər arasında Əbdüssəməd ibn Əli də var idi. Harun bu amannaməni, bir çox hədiyyələrlə birlikdə Fəzl və adamlarına Yəhya ibn Abdullaha təslim etmələri üçün göndərdi. İstədiyi məzmunda amannamə alan Yəhya ibn Abdullah Fəzl ibn Yəhya ilə birlikdə Bağdada gəldi. Əvvəlcə Yəhyanı mehriban qarşılayan Harun ona bahalı hədiyyələr verdi və ona nəzarət etməyi Fəzl ibn Yəhya ibn Xalid ibn Bərməkiyə tapşırdı. Fəzl ibn Yəhya da öz növbəsində Əhli-beytə bəslədiyi məhəbbət üzündən Yəhya ibn Abdullahı sərbəst buraxdı. Bundan xəbər tutan xəlifə Harun Yəhyanı həbsə atdırdı. Bu arada Mədinə valisi Bəkkar ibn Musab Zübeyri araya girərək belə dedi: "Ey möminlərin əmiri! Yəhya hələ də sənin əleyhinə qiyam qaldırmaq istəyir."

Bu zaman sözə başlayan Yəhya dedi: "Ey möminlərin əmiri! Qardaşım Məhəməməd ibn Abdullah öldürüldüyü zaman bu adam yanıma gələrək belə dedi: "Sənin qardaşını öldürənə Allah lənət etsin!" və bu mövzuda iyirmi beytə qədər şeir oxudu. Sonra da əlavə olaraq belə dedi: "Əgər sən intiqam almaq məqsədilə qiyam etsən sənə ilk beyət edəcək şəxs mən olaram. Biz sənə dəstək olduğumuz halda niyə Bəsrəyə getmirsən?"

Yəhya ibn Abdullahın belə deməsindən sonra Harunun qorxusundan Bəkkar ibn Musabın rəngi qaçdı. Bəkkar böyük andlar edərək Yəhyanın yalan dediyini iddia etdi. Bu vəziyyəti görən Harun Yəhyaya belə dedi: "Bəkkarın o zaman sənə söylədiyi mərsiyədən yadında qalan varmı?"

Harunun bu sözlərindən sonra Yəhya həmin mərsiyənin bir qismini oxusa da, Bəkkar ibn Musab bunu inkar etdi. Bunu görən Yəhya ibn Abdullah ona belə dedi: "Əgər yalan danışıramsa, Allahın güc və qüdrətindən uzaq olum. Allah məni öz gücümlə və qüvvətimlə baş-başa buraxsın." Bəkkar ibn Musabın Yəhyanın ardınca and içmədiyini görən Harun ona məcburən and içdirdi. Bəkkar ibn Musab doğru olması barədə yalandan and içdiyi üçün Harunun yanından ayrılmamış Allah onu iflic etdi və o saatda öldü. Başqa bir rəvayətə görə isə Bəkkar ibn Musab Zübeyri gecə yatarkən arvadı tərəfindən öldürülmüşdür.[401]

Lakin Yəhyanın haqlı olmasına baxmayaraq xəlifə Harunun ona olan münasibəti dəyişmişdi. Yəhyanı aradan götürməyə çalışan Harun ona gizli şəkildə zəhər verməyə başladı. Bir müddət sonra zəhərin təsirindən hicrətin 176-cı ili (miladi 792) Yəhya dünyasını dəyişdi.

Bəkkar ibn Musab Zübeyri Yəhya ilə mübahiləyə gəlməzdən qabaq onun Mədinədəki oğlu Məhəmməd ibn Yəhyanı da həbsdə öldürtdürmüşdür.

Siyasətcil adam olan Harun ər-Rəşid özünü üzdə Əhli-beytin tərəfdarı, Hz.Əlinin *(ə)* və övladlarının aşiqi kimi göstərir, lakin əlaltıları vasitəsilə bu mübarək nəslin nümayəndələrinə qarşı əsl soyqırımı törədirdi.

Seyyid ibn Tavusun "Təraif" kitabında məhşur əhli-sünnə alimi Hakim Nişapurinin "Tarixi-Nişapur" əsərinə istinadən məlumat verilir ki, Harunun yanında Əbutalib övladından söhbət düşəndə belə demişdi: "Eşitmişəm, camaat elə düşünür ki, mən Əliyə *(ə)* və onun övladlarına kin bəsləyirəm. Allaha and olsun ki, məsələ onların düşündüyü kimi deyil. Allah özü şahiddir ki, mən Əlini, Həsən və Hüseyni *(ə)* nə qədər sevirəm, onların üstünlüklərini tanıyır və qəbul edirəm. Biz onların intiqamını almaq üçün mübarizə apardıq. Nəhayət, Allah hakimiyyəti bizə verdi. Biz də onları özümüzə yaxın tutduq. Amma onlar bizim xilafətimizi qəbul etməyib bizə paxıllıq etdilər, bizim nail olduqlarımızı əlimizdən almaq istədilər, yer üzündə fəsad törətdilər."[402]

Harun ər-Rəşidin xilafəti dövründə şəhid edilmiş seyidlərdən biri Hüseyn ibn Abdullah ibn İsmail ibn Abdullah ibn Cəfəri-Təyyar idi. Mədinə valis Bəkkar ibn Musab Zübeyri onu ələ keçirib şallaqladı və zərbələrə tab gətirməyən Hüseyn vəfat etdi. İmam Həsənin *(ə)* nəticəsi İshaq ibn Həsən ibn Zeyd ibn İmam Həsən *(ə)* də Harunun zindanında şəhid olmuşdur.

Ələvi seyidlərindən Abbas ibn Məhəmməd ibn Abdullah Bahir ibn İmam Səccad *(ə)* şəxsən xəlifə Harunun əli ilə şəhid edilmişdir. Abbası cəzalandırmaq üçün xəlifə onu təhqir edərək, "zinakar qadının oğlu" adlandırdı. Harun-

---

[401] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild.

[402] Təraif, səh-233.

dan çəkinməyən Abbas ona belə cavab verdi: "Zinakar sənin kəniz anan idi ki, qulsatanlar dalbadal onun yatağına gedib-gəlirdilər!" Bu sözlərdən qəzəblənən Harun, gürzlə Abbasın başına vurub onu öldürdü.

İmam Səccadın *(ə)* nəslindən olan Abdullah ibn Həsən Əftəs ibn Əli Əsğər ibn İmam Səccadı *(ə)* Harunun vəziri Cəfər ibn Yəhya ibn Xalid ibn Bərməki xəlifənin əmri olmadan şəhid etmişdir. Harun onun özbaşına hərəkətini unutmadı. Bir neçə ildən sonra Cəfərin boynunu vurmaq üçün cəlladı göndərəndə Harun ona tapşırmışdı: "Cəfərə deyərsən ki, əmimoğlu Abdullah ibn Həsəni qətlə yetirdiyinə görə səni öldürürəm".

Şübhəsiz Harunun ən böyük cinayəti VII İmam Musa Kazimi *(ə)* şəhid etməsidir. Onun əmri ilə İmamı Mədinədən Bağdada gətizdirərək, həbsxanaya saldılar. Sonda Harunun əmri ilə Sindi ibn Şahək adlı zindan rəisi İmama zəhər verərək hicrətin 183-cü ili rəcəb ayının 25-də (miladi 799) onu şəhid etdi.

Həmçinin bir tərəfdən Hz.Əlinin *(ə)* məzarı üstə məqbərə tikən Harun, digər tərəfdən İmam Hüseynin *(ə)* xatirəsini yaddaşlardan silmək üçün onun qəbrini uçurmağa fərman vermişdi. Xəlifənin əmrinə əsasən İmamın *(ə)* qəbri üzərindəki kölgəlik, ətrafda ziyarətçilərin qalması üçün tikilmiş evlər də dağıldıldı.

Eyni ildə Şamda Müzarilər (Qeys qəbiləsindən idilər) ilə Yəmanilər arasında fitnə yarandı. Həmin vaxt Şam bölgəsinin valisi xəlifənin əmisi oğlu Musa ibn İsa idi. Dəməşq şəhərinin valisi isə Cəfər əl-Mənsurun kölələrindən olan Sindi ibn Səhl idi. Şam valisi Qeys qəbiləsinin rəisi Əbul-Heyzam əl-Məzzinin Dəməşq şəhərinə hakim olmasından qorxaraq qalalarını yıxdı. Fitnənin böyüdüyünü görən xəlifə Harun Musa ibn Yəhya ibn Xalid ibn Bərməkini Şam bölgəsinə göndərdi. Şama gələn Musa ibn Yəhya iki qəbilə arasındakı düşmənçiliyə son qoyaraq onları barışdırdı.

Eyni ildə xəlifə Harun, Qitfir ibn Ətanı Xorasan valiliyindən çıxarıb onun yerinə Arus ləqəbilə tanınan Həmzə ibn Malik ibn Heysəmi təyin etdi. Bunun ardınca Misir valisi Musa ibn İsanın xilafətə qarşı üsyan edəcəyini öyrənən xəlifə Harun onu vəzifəsindən çıxararaq yerinə Ömər ibn Mihranı təyin etdi.

Hicrətin 176-cı ili (miladi 792) Bizansa səfər edən Əbdürrəhman ibn Əbdülməlik xeyli qənimətlə geri qayıtdı. Bu ilin sonunda Harun ər-Rəşid arvadı Zibeydə ilə birlikdə həccə getdi. Həcc əmiri, xəlifənin əmisi Süleyman ibn Əbu Cəfər əl-Mənsur idi.

Hicrətin 177-ci ili (miladi 793) baş verən hadisələr

Bu il xəlifə Harun, Cəfər ibn Yəhya ibn Xalid ibn Bərməkini Misir valiliyindən çıxararaq yerinə İshaq ibn Süleymanı təyin etdi. Həmzə ibn Maliki də Xorasan valiliyindən kənarlaşdırıb, Rey və Sistan valiliyinə Misir valiliyini də əlavə edərək oraya Fəzl ibn Yəhya İbn Xalid ibn Bərməkini vali təyin etdi.

Hicrətin 178-ci ili (miladi 794) baş verən hadisələr

Bu il Qeys və Xüzəa qəbilələrindən bir qrup Misir valisi İshaq ibn Süleymana qarşı üsyan etdilər. Harun xilafətin məhşur sərkərdələrindən olan Fələstin

valisi Hərsəmə ibn Əyəni Misir valisi İshaqa köməyə göndərdi. Hərsəmənin köməkliyi ilə qısa müddət ərzində qiyam yatırıldı və Misir xilafətin tabeçiliyinə qaytarıldı. Hərsəmə İshaqın yerinə Misirdə bir ay valilik etdi. Sonra xəlifə Harun tərəfindən Əbdülməlik ibn Saleh Misir valisi təyin edildi. Bunun ardınca İfriqiyyə xalqı qiyam qaldıraraq Fəzl ibn Ravh ibn Xəttimi öldürdülər. Xəlifənin əmri ilə İfriqiyyəyə gedən Hərsəmə ibn Əyən bu üsyanıda yatırdı.

Eyni ildə xəvaricdən olan Vəlid ibn Tərif əl-Cəzirə vilayətində xilafətə qarşı üsyan qaldırdı. Növbəti il Vəlidin başçılıq etdiyi üsyan daha da gücləndi. Nuseybin şəhərini özlərinə mərkəz seçən xəvaric dəstələri əl-Cəzirə valisini Riqqə şəhərində mühasirəyə aldılar. Xəlifənin göndərdiyi iki sərkərdə də xəvariclər tərəfindən məğlub edildi. Sonda məşhur sərkərdə Yezid ibn Məzyəd Şeybani əl-Cəzirəyə gəldi. Baş verən döyüşdə Vəlid ibn Tərifin öldürülməsi ilə xəvaric üsyanı yatırıldı. Harun ər-Rəşid qələbə münasibətilə Allaha şükr edib, həmin il piyada halda ümrə və həcc ziyarətlərini yerinə yetirdi. (hicri 179/miladi 795). Bu il xəlifə Harun tərəfindən Fəzl ibn Yəhya Xorasan valisi təyin edildi. Həmçinin Məkkə valisi Məhəmməd ibn İbrahim ibn Məhəmməd ibn Abdullah ibn Abbas insanları həccə apardı.

Hicrətin 179-cu ili (miladi 795) baş verən hadisələr

Bu il Fəzl ibn Yəhya yerinə Ömər ibn Cəmili vəkil buraxaraq Xorasana gəldi. Bunun ardınca Harun ər-Rəşid oraya Mənsur ibn Yezid ibn Mənsur əl-Himyərini vali təyin etdi.

Eyni ildə Xorasanda Həmzə ibn Abdullah Ətrük Sicistani üsyan etdi. Qısa müddət ərzində böyük uğurlar qazanan Həmzə otuz min nəfərlik qoşun toplayaraq, Xorasan valisinin əsgərlərini məğlub etdi. Herat və Sistanı ələ keçirən Həmzə, Fars vilayətini tutmağa cəhdlər göstərdi. Harun şəxsən onun əleyhinə yürüşə çıxdı. Lakin yolda Bizansın hücum xəbərini eşidib, sərhəd bölgəsinə üz tutdu. Həmzənin qiyamı bir neçə ildən sonra, Məmunun hakimiyyəti dövründə yatırıldı.

Hicrətin 180-ci ili (miladi 796) baş verən hadisələr

Bu il yenidən Şamda Qeysilərlə Yəmanilər arasında qəbilə çəkişmələri canlandı. Bu dəfə Harun məsələnin həllini Cəfər ibn Yəhya ibn Xalid ibn Bərməkiyə tapşırdı. Xəlifə Şam vilayətinin ixtiyarını Cəfərə tapşırandan sonra ona belə dedi: "Gərək Şama ya özüm gedim, ya da sən gedəsən". Cəfərin başçılıq etdiyi orduda Abbas ibn Məhəmməd, Şəbib ibn Hümeyd ibn Qəhtəbə kimi bacarıqlı sərkərdələr də onun tabeliyində idilər. Şama gələn Cəfər qısa müddət ərzində orada asayişi bərpa etdi. Qəbilələrin hamısı tərkisilah olundu.

Bu il Cürcanda qırmızı paltar geyinən və özlərinə muhəmmirə deyilən bir dəstə üsyan etdi. Onlar zindiqlərdən olan Əmr ibn Məhəmməd ibn Əmrəki özlərinə başçı seçdilər. Harunun göstərişinə əsasən Cürcan naibi Əmr ibn Məhəmmədi öldürərək bu üsyana son qoydu.

Eyni ildə Bizansa yürüş edən Züfər ibn Asam xeyli qənimətlə geri qayıtdı. Bunun ardınca Musa ibn Məhəmməd ibn Əli ibn Abdullah ibn Abbas insanları həccə apardı.

Hicrətin 181-ci ili (miladi 797) baş verən hadisələr

Bu il xəlifə Harun ər-Rəşid böyük bir ordu ilə Bizansa qarşı yürüşə çıxdı. Orta Anadoluya daxil olan Harun möhkəm müdafiə sisteminə malik olan Safsaf qalasını ələ keçirdi. Xilafət sərkərdələrindən olan Əbdülməlik ibn Saleh Anqaraya qədər irəliləyib xeyli ərazini ələ keçirdi. Bizans imperatoru İrina sülh bağlamaq xahişi ilə müraciət etdi və tərəflər arasında barışıq sənədi imzalandı.[403]

Bu il xəlifə tərəfindən təyinat almış vali Səid ibn Səlm ibn Quteybə Bahili yerli zadəganlar tərəfindən narazılıqla qarşılandı. Dərbənd ona tabe olmaqdan boyun qaçırdı. Bu zaman Səid ibn Səlm dərbəndliləri cəzalandırmağı qərara aldı. O, Dərbənd qiyamının rəhbəri Nəcm ibn Haşimi ələ keçirib öldürdü. Nəcmin oğlu Həyyun isə atasının intiqamını almaq üçün xəzərlərlə birləşib, onları müsəlman torpaqlarına hücum etməyə həvəsləndirdi. Bu ilin sonunda xəlifə Harun insanları həccə apardı və təşri günlərinin bitməsini gözləməyərək Minadan Məkkəyə getdi.

Hicrətin 182-ci ili (miladi 798) baş verən hadisələr

Bu il xəlifə Harun həcc səfərindən qayıdarkən bir müddət Riqqədə qaldı və burada Məhəmməd əl-Əmindən sonra digər oğlu Abdullah əl-Məmunu ikinci vəliəhd elan etdi. Beyət mərasimindən sonra Məmuna Xorasan torpaqlarının (Həmədana qədər) valiliyi verildi.

Bizans hakimi olmaq istəyən İrina kiçik oğlu VI Konstantin ibn İlyonun gözlərini çıxararaq Bizans taxtını ələ keçirib beş il Bizansı idarə etdi. Bu ilin sonunda Musa ibn İsa ibn Abbas insanları həccə apardı.

Hicrətin 183-cü ili (miladi 799) baş verən hadisələr

Bu il xəzərlər Dərbənddən keçib müsəlman torpaqlarına qədəm basdılar. Demək olar ki, heç bir müqavimətə rast gəlməyən xəzərlər Kür çayının sahillərinə qədər irəliləyib xeyli qənimət ələ keçirdilər. Bundan xəbər tutan xəlifə Harun bacarıqsız vali Səid ibn Səlmi işdən azad edərək, əvvəllər bu vəzifəni daşımış Yezid ibn Zaidə Şeybani ilə Xuzeymə ibn Xazim Təmimini böyük bir qoşunla oraya yolladı. İslam ordusunun gəldiyini öyrənən xəzərlər geri çəkildilər.[404]

Müsəlmanların xəzərlərə qarşı son hərbi əməliyyatı beləcə keçdi. Hicri 183/miladi 799-cu ildən sonra bu iki qüvvə bir daha hərb meydanında üz-üzə gəlmədi.

Eyni ildə Xorasan vilayətində Əbul-Xəsib Nisai xəvaric şüarı altında üsyan etdi. Bir ildən sonra xilafət qoşunları ilə döyüşdə məğlub olan Əbul-Xəsib aman istədi və ona aman verildi. İki il sonra hicri 185-ci ildə (miladi 801) o, yenidən xilafətə

[403] Tarixi-Təbəri, IV cild, səh-645.
[404] Tarixi ibn Əsir, VI cild, səh-263.

qarşı çıxaraq Tus, Nişapur və Əbivərdi ələ keçirdi. Bunun ardınca Mərvi mühasirəyə aldı, lakin tuta bilməyib Sərəxsə doğru hərəkət etdi. Bu dəfə Xorasan valisi Əli ibn İsa ibn Mahan üsyanı yatırmaq üçün hərəkətə keçdi. Hicrətin 186-cı ili (miladi 802) Əbul-Xəsib Nisainin qüvvələri məğlub edildi, özü öldürüldü, ailə üzvləri əsir edildi. Bu ilin sonunda Abbas ibn Musa əl-Hadi insanları həccə apardı.

Bu ilin rəcəb ayının 25-də xəlifə Harunun əmri ilə İmam Musa Kazim *(ə)* Sindi ibn Şahək tərəfindən Bağdad həbsxanasında şəhid edilmişdir. Müqəddəs məzarı Kazimeyn şəhərindədir.

Hicrətin 184-cü ili (miladi 800) Cəzirədə Əbu Əmr Şari üsyan etdi. Xəlifə onun üzərinə İsa ibn Əli ibn İsanı göndərərək məğlub etdi. Sonra Həmzə ibn Abdullahın arxasınca Kabil və Zabulistana qədər getdi. Bu ilin sonunda İbrahim ibn Məhəmməd əl-Abbasi insanları həccə apardı.

Hicrətin 185-ci ili (miladi 801-802) Təbəristan xalqı narazı olduqları vali Mehrəveyh ər-Razini öldürdülər. Onun ölümündən sonra Harun Təbəristana Abdullah ibn Səid əl-Hərəşini vali təyin etdi. Əbdürrəhman əl-Ənbari isə Mərcül-əl-Əkada xəvaricdən olan Əban ibn Qəhtəbəni öldürdü. Bu ilin sonunda Mənsur ibn Məhəmməd ibn Abdullah ibn Əli ibn Abdullah ibn Abbasın başçılığı ilə insanlar həccə getdi.[405]

Hicrətin 186-cı ili (miladi 802-803) baş verən hadisələr

802-ci ildə Bizans taxtını ələ keçirən I Nikaforun (802-811) dövründə Bizansla müsəlmanlar arasında döyüşlər daha da sürətləndi. İrina dövründə Abbasilərə verilən xəracı ləğv edən I Nikafor eyni zamanda xəlifə Haruna belə bir məktub yazdı: "Bizans hökmdarı Nikafordan, Ərəb hökmdarı Haruna: "Məndən əvvəl hökmdar olan İrina öldü və sərvətinin bir qismini sənə buraxdı. Bu məktubum sənə çatan kimi ondan aldığın bütün xəracı mənə qaytarmalısan. Yoxsa aramızdakı problemi qılınc həll edəcək."

Bundan qəzəblənən Harun, imperatora belə bir məktub göndərdi: "Müsəlmanların xəlifəsi Harundan, Bizans köpəyi Nikafora. Məktubunu oxudum. Cavabını eşitməyəcəksən, fəqət görəcəksən!"[406]

Bunun ardınca Harun ər-Rəşid hicrətin 187-ci ili (miladi 803-804) böyük bir ordu ilə İstanbul üzərinə hərəkət etdi. Orta Anadoluda Bizans ordusu ilə qarşılaşan Harun onları ağır məğlubiyyətə uğratdı. İslam ordusu qarşısında tab gətirməyən I Nikafor sülh təklif etdi. İki tərəf arasında bağlanan sülhə görə Bizans iri məbləğdə cizyə ödəməli oldu və xəlifə Harun Rəqqəyə qayıtdı.

Qışın sərt keçməsi ilə əlaqədar olaraq Harunun geri qayıtmayacağını zənn edən I Nikafor sülhü pozaraq müsəlman torpaqlarına hücum etdi. Bundan xəbər tutan Harun Herakliya bölgəsində Bizans ordusunu qarşılayaraq hicrətin

[405] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild.
[406] Tarixi-Təbəri, IV cild, səh-668-669; Ostraqoriski, Bizans Devleti Tarihi, səh-173-174.

188-ci ili (miladi 804) onları yenidən məğlub etdi. Yenə də I Nikaforun təklifi ilə iki tərəf arasında sülh bağlandı. Eyni ildə Harunun oğlu Qasim Bizans torpaqlarına daxil olaraq, Qərrə və Sinan qalalarını bir müddət mühasirədə saxladıqdan sonra geri qayıtmışdır.

Lakin növbəti il hicrətin 189-cu ili (miladi 805) Harunun Xorasandakı qarışıqlıqla əlaqədar Reyə getməsindən istifadə edən I Nikafor hücuma keçib Tarsusu ələ keçirərək bir neçə şəhərciyi dağıtdı. Bu dəfə də Harunun Kiçik Asiyaya vali təyin etdiyi oğlu Qasim Bizans ordusunu məğlub etdi.[407]

Hicrətin 190-cı ili (miladi 806) Harun 135 min nəfərlik ordu ilə Bizansa hücum etdi. Bir aylıq mühasirədən sonra Bizansın iri şəhərlərindən olan Herakliya, Tuvana, Məsis, Konya, Efes və Ankara fəth edildi. Bu arada Bizansın şimal sərhədlərini bulqar tayfaları hədələməyə başladı. I Nikafor Harunla tələsik müqavilə bağlayaraq, böyük cizyə verməyə razı oldu.[408]

Hicrətin 187-ci ili (miladi 803-804) baş verən hadisələr

Bu ilin əvvəlində xəlifə Harun ər-Rəşid Bərməki ailəsinin xöşbəxtliyinə son qoydu. Bu nəslin banisi Xalid Bərməki sayılır. "Bərmək" sözü tərcümədə məbəd xidmətçisi deməkdir. Bərməkilərin ulu əcdadları buddist məbədində xidmət etdikləri üçün bu ləqəbi daşıyırdılar. Osman ibn Əfvanın xilafəti dövründə İslam sərkərdəsi Əxnəf ibn Qeys Bərməkilərdən birini Mədinəyə gətirmiş, o da İslamı qəbul edərək özünə Abdullah adını götürmüşdür. Xalid Bərməki həmin Abdullahın nəvəsi sayılır.

Əvvəlcə Əməvilərə katiblik edən Xalid Bərməki sonralar Abbasilərə xidmət etməyə başlamış və nəhayət 750-ci ildə Əbu Sələmənin ölümündən sonra ilk Abbasi xəlifəsi Əbul-Abbas Səffahın vəziri olmuşdur. 781-ci ildə Xalid Bərməkinin ölümündən sonra oğlu Yəhya ibn Xalid Harun ər-Rəşidin məsləhətçisi olmuşdur. Bir müddət sonra xəlifə olan Harun Yəhyanı özünə vəzir seçərək xilafətin idarə işlərini bütünlüklə ona tapşırmışdır. Dövləti idarə etməkdə Yəhyaya oğlanları Fəzl və Cəfər köməklik edirdi. 766-cı ildə doğulan Fəzl xəlifə Harunun süd qardaşı sayılırdı. Yəhyanın digər oğlu Cəfər isə 767-ci ildə (hicri 150) anadan olmuşdur.

Bərməkilər sülaləsinin Harun tərəfindən məhv edilməsi barədə müxtəlif rəvayətlər vardır. İbn Cərir Təbəri və başqaları bu rəvayətləri nəql etmişlər. Rəvayətlərə əsasən Deyləmdə qiyam edən Yəhya ibn Abdullah ibn Həsəni həbs etməyi xəlifə Harun Fəzl ibn Yəhyaya tapşırmışdı. Yəhyanın Fəzldən mərhəmət diləməsi nəticəsində onu sərbəst buraxmışdı. Bundan xəbər tutan Fəzl ibn Rəbi hadisəni Haruna xəbər verdikdə Harun əvvəlcə buna inanmamışdır. Lakin sonralar Fəzl ibn Yəhya bunun doğru olduğunu xəlifəyə demiş və xəlifə buna qızaraq Bərməkilər sülaləsinə son qoymuşdur.

---

[407]Tarixi-Təbəri, IV cild, səh-673-674.

[408]Tarixi-Təbəri, IV cild, səh-677; Tarixi ibn Əsir, VI cild, səh-184-196; Hitti, İslam Tarihi, tər. S.Tuğ. İstanbul.1980, II cild, səh-460-462.

Digər bir məlumata əsasən Harunun onları öldürməsinin səbəbi bu idi: Harun hansı şəhərə, hansı bölgəyə, hansı bağçaya rast gəlirdisə, bura Cəfər ibn Yəhyanındır deyilirdi. Başqa bir rəvayətə görə isə Bərməkilər Harunu xilafətdən salmaq istəmiş və bundan xəbər tutan xəlifə onları aradan götürmüşdür. Bərməki sülaləsinin aradan götürülməsinə əsas səbəb kimi, xəlifə Harunun bacısı Abbasə ilə Cəfər ibn Yəhya arasında olan yaxınlıq qeyd olunur.

Harun bacısı Abbasəni istədiyi qədər Cəfəri də istəyirdi. Onların ikisinin də bir məclisdə oturmasını istəyən Harun Cəfərlə Abbasənin kəbinini kəsdirdi. Amma Cəfərlə şərt kəsdi ki, bu kəbin formal olaraq qalacaq. Kəbin ona görə kəsilirdi ki, Cəfərlə Abbasə bir-birinə məhrəm olsunlar və hər ikisi xəlifənin hüzurunda eyni vaxtda otura bilsin. Bu şərtlər əsasında Abbasə ilə Cəfər əvvəlki kimi ayrı-ayrılıqda öz saraylarında qalır, yalnız xəlifənin hüzurunda bir-birinin üzünü görürdülər.

Sonda Abbasə hiylə ilə Cəfərin anasını öz tərəfinə çəkdi. Qadın Abbasəyə söz verdi ki, Cəfər içkili vəziyyətdə olanda onu Cəfərlə görüşdürəcək. Həmin gün evə içkili gələn Cəfər anasından cariyə istədi. O da Abbasəni çağırıb Cəfərin otağına saldı. Həddən artıq sərxoş olan Cəfər Abbasəni tanımayıb onunla yaxınlıq etdi və Abbasə həmin gecə hamilə oldu. Vaxt çatanda Abbəsənin bir oğlu oldu və xəlifənin qorxusundan uşağı dayə ilə birlikdə Məkkəyə göndərdilər.

Eyni zamanda Cəfərin atası Yəhya xəlifə Harunun hərəmxanasına nəzarət edirdi. Yəhyanın hərəmlərlə kobud rəftarını görən xəlifənin baş hərəmi Zibeydə Yəhyadan Haruna şikayət etdi. Bunun cavabında xəlifə Yəhyanın ədəb və qeyrətinə inandığını bildirdi. Xəlifənin cavabından qəzəblənən Zibeydə Cəfərlə Abbasə arasında baş verənlərin hamısını ona danışdı.

Bütün baş verənləri dərindən öyrənmək istəyən xəlifə həmin il həccə gedərək uşağında yerini öyrənib tapdı. Xəlifə intiqam almaq fikrində olsada, Bərməkilərin kifayət qədər güclü olduğunu bildiyi üçün ehtiyatlı davranaraq öz məqamını gözləməyə başladı.

Bərməkilərə qarşı əks-təbliğat son dərəcə uğurla həyata keçirilirdi. Nəhayət, hicrətin 187-ci ili (miladi 803) Harun Bərməkiləri aradan götürmək qərarına gəldi. Həcc səfərindən qayıdan Harun Ənbar şəhərində dayanaraq xidmətçisi Məsrura göstəriş verdi ki, Cəfərin qaldığı yerə gedib başını kəsərək onun yanına gətirsin. Xəlifənin verdiyi əmri icra edən Məsrur Cəfərin başını onun hüzuruna gətirdi. Eyni gecədə Cəfərin atası Yəhya, qardaşları Fəzl, Məhəmməd və Musa həbs edildilər. Qısa müddət sonra Məhəmməd və Musa dövlət işlərinə qarışmadıqları üçün sərbəst buraxıldı. Ağır işgəncələrdən sonra hiicrətin 190-cı ili (miladi 806) Yəhya, ondan üç il sonra isə Fəzl dünyasını dəyişdi.

Bərməkilər sülaləsi Abbasi xilafətində on yeddi il (786-803) vəzirlik etdilər. Onlardan sonra Harun vəzirliyə Fəzl ibn Rəbi ibn Yunisi gətirdi.[409]

Hicrətin 188-ci ili (miladi 804) Əbdükməlik ibn Saleh ibn Əli Abbasi oğlunun və nökərinin xəbərçiliyi ilə xəlifəyə xəyanətdə təqsirli bilinərək, həbsə atıldı (Vaxtilə hicrətin 181-ci ili (miladi 797) Bizansa qarşı edilən yürüşdə Anqaraya qədər irəliləyən şəxs). Harunun ölümünə qədər həbsdə qalan Əbdülməlik, sonrakı xəlifə Əmin dövründə Şam valisi təyin edildi.

Hicrətin 189-cu ili (miladi 805) Kirmanda dincələn Harun üçüncü oğlu Qasimi "Mütəmin" ləqəbi ilə Məmundan sonra vəliəhd elan edərək camaatdan beyət aldı. Bundan əlavə xilafətə tabe olan adaların, sərhəd bölgələrinin və Bizansla sərhəd ərazilərin idarəsini ona tapşırdı.

Aralıq dənizində hökmranlığı qorumaq istəyən müsəlman donanması Hümeyd ibn Məyufun başçılığı ilə Kipr adasına həmlə edərək bol qənimət və əsir ələ keçirdi. Sonra iki tərəf arasında müqavilə bağlandığı üçün müsəlmanlar adanı tərk etdilər.

Hicrətin 190-cı ili (miladi 806) Rafe ibn Leysin üsyanı

Bu il Səmərqənd valisi Rafe ibn Leys ibn Nəsr ibn Səyyar əhalini ətrafına toplayaraq xilafətə qarşı üsyan etdi. Yəqubunin rəvayətinə görə Rafe əvvəllər Əli ibn İsaya xidmət edirmiş. Həmin vaxt xəlifə Harun Əli ibn İsaya tapşırmışdı ki, Rafeni nəzarəti altında saxlamaq üçün ona ucqar şəhərlərin hakimliyini tapşırmasın. Lakin buna əhəmiyyət verməyən Əli onu Səmərqənd hakimi təyin etmişdi.[410]

Təbəriyə görə isə Rafe Səmərqənddə olarkən, əyanlardan birinin arvadını aldadaraq, özünə arvad etdi. Bundan xəbər tutan xəlifə Rafenin cəzalandırılması üçün əmr verdi. Lakin həbsdən qaçan Rafe Xorasan valisi Əli ibn İsaya sığındı. Əli ibn İsa öz oğlunun vəsatəti ilə onu bağışlayıb Səmərqəndə göndərdi. Rafe ibn Leys Səmərqəndə çatan kimi şəhər valisini öldürərək hakimiyyəti ələ keçirdi. Tezliklə bütün Mavəraunnəhr əhalisi Rafe ibn Leysə beyət etdi.[411]

Xorasan valisi Əli ibn İsa oğlunu Rafe ilə döyüşə göndərsə də Xorasan ordusu məğlub edildi. Bundan bir il sonra Rafenin adamları Əli ibn İsanın oğlunu mühasirəyə alaraq öldürdülər. Oğlunun ölüm xəbərini eşidən Xorasan valisi Əli ibn İsa ibn Mahan qorxudan Bəlxi tərk edib Mərvə qaçdı. Xəlifə Harun Əli ibn İsanın acizliyini görüb, onu valilikdən azad etdi və onun yerinə məhşur sərkərdə Hərsəmə ibn Əyəni Xorasan valisi təyin etdi. Xorasana gələn Hərsəmə onun əmlakını müsadirə etdi, özünü də zəncirləyib Bağdada xəlifə Harunun hüzuruna göndərdi. Harun ər-Rəşid də Əli ibn İsanı Bağdaddakı evində həbs etdi.

---

[409]Bərməkilər haqqında daha geniş məlumat üçün bu mənbələrə müraciət edə bilərsiniz: Bartold, Bərməkilər, II cild, səh-560-562; Tarixi-Təbəri, IV cild, səh-657-664; İbn Kəsir, əl-Bidayə vən-Nihayə, X cild, səh-204-212.

[410] Tarixi-Yəqubi, II cild.

[411] Tarixi-Təbəri, IV cild.

Hicrətin 192-ci ili (miladi 808) xəlifə Harun Rafe ibn Leys üsyanını yatırmaq üçün Xorasana üz tutdu. Oğlu Məmun, vəzirləri Fəzl ibn Rəbi və Fəzl ibn Saleh onu müşayiət edirdilər. Yolda səhhəti pisləşən xəlifə, yoluna davam edə bilməyib Tus şəhərinin Sənabad kəndində qaldı. Oğlu Məmunu isə Xorasana Rafe ibn Leyslə döyüşə göndərdi. Tusda olarkən xəlifənin yanına Buxara uğrunda gedən döyüşlərdə Rafenin əsir düşmüş qardaşı Bəşir ibn Leysi gətirdilər. Xəlifənin əmri ilə onu diri-diri doğradılar.[412]

Hicrətin 190-cı ili (miladi 806) Kiprlilər sülhü pozaraq xilafətə qarşı çıxdılar. Xəlifənin göstərişi ilə Kiprlilər üzərinə gedən Məyuf ibn Yəhya onların bir qismini öldürməklə bərabər bir qismini də əsir götürdü.

Hicrətin 191-ci ili (miladi 807) baş verən hadisələr

Bu il İraqın Səvad bölgəsində Sərvan ibn Seyf xilafətə qarşı üsyan etsə də, bu üsyan Tavq ibn Malik tərəfindən yatırılmışdır. Bunun ardınca Şamda Əbinüdə adlı şəxs üsyan etdi və bu üsyanda Yəhya ibn Muaz tərəfindən yatırıldı.

Yezid ibn Muhəlləd əl-Hubeyri on min nəfərlik ordu ilə Bizansa qarşı səfər etsə də, Tarsus yaxınlığında baş verən döyüşdə öldürüldü və onun ölümü ilə ordusu da məğlub şəkildə geriyə qayıtdı. Buna cavab olaraq xəlifə Hərsəmə ibn Əyəni və Həddim ibn Məsruru otuz min nəfərlik ordu ilə Bizansa qarşı göndərdi. Özüdə bunlara yaxın olmaq üçün Hədəsə gedib kilsə və monastırların sökülməsinə göstəriş verdi.

Bu ilin şəvval ayında Herakliyanı fəth edən Harun şəhəri yandıraraq əhalini əsir götürdü. Bu il xəlifə Harun Hümeyd ibn Məyufu Şam sahillərinə və Misirə qədər uzanan ərazilərə vali təyin etdi.

Hicrətin 192-ci ili (miladi 808) baş verən hadisələr

Sərhəd bölgəsinə vali təyin olunan Sabit ibn Nəsr ibn Maliki Bizansa daxil olaraq Matmurəni fəth etdi. Bunun ardınca Sabit ibn Nəsr tərəfindən, Bizanslılarla müsəlmanlar arasında barış haqqında müqavilə imzalandı.

Cəbəl və Azərbaycan tərəflərində xürrəmilər üsyanı baş verdi. Bundan xəbər tutan xəlifə Harun xürrəmilərin üzərinə Abdullah ibn Malik ibn Heysəm əl-Xuzaini on min nəfərlik ordu ilə göndərdi. Baş verən döyüşdə qalib gələn Abdullah ibn Malik xürrəmilərin bir qismini öldürdü, bir qismini də arvad-uşaqları ilə birlikdə əsir olaraq Bağdada gətirdi. Harun kişilərin öldürülməsinə, arvad və uşaqların isə qul kimi satılmasına göstəriş verdi. Bundan əvvəl Mehdinin xilafəti dövründə xürrəmilərlə İsfəhan yaxınlığında Xuzeymə ibn Qəmlisin döyüşərək onları məğlub etmişdir.

Yenidən Kipr üzərinə gedən müsəlman donanması Kiprlə yanaşı Rodosu da mühasirəyə aldı. Lakin tərəflər arasında razılaşma sənədi imzalandığı üçün müsəlmanlar adaları tərk etdilər.

---

[412] Tarixi-Təbəri, IV cild.

Şimali Afrikada vəziyyət

Abbasilərin zülmündən qaçaraq Afrika qitəsinə sığınan Əhli-beyt nümayəndələrindən biri də İdris ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)* idi. O, Şimal-qərbi Afrikada, indiki Tunis ərazisində məskunlaşmış bərbər tayfaları arasında təbliğat aparmış və nəticədə bərbərlər İdrisi özlərinə hökmdar seçmişlər. İlk öncə xəvaricləri məğlub edən İdris Şimali Afrikada İdrisilər dövlətinin əsasını qoymuş və özü də I İdris adı ilə bu dövlətin ilk hökmdarı olmuşdur. İdrisilər dövləti hicri 172-314/miladi 789-926-cı illərdə mövcud olmuşdur. I İdris öz dövləti üçün paytaxt olaraq Fas şəhərini inşa etdirdi.

İdrisilər dövlətini yıxmağa çalışan xəlifə Harun ər-Rəşid öz casuslarından birini Fasa göndərərək I İdrisi zəhərləyərək öldürdü. I İdris vəfat edərkən kənizi hamilə idi. Dörd aydan sonra doğulan uşağa atasının adını qoydular və o, II İdris (793-828) adı ilə hökmdar təyin edildi. Harunun səylərinə baxmayaraq şiə təmayüllü olan İdrisilər dövləti Şimal-qərbi Afrikada 130 ildən artıq hakimiyyətdə oldu.

Xəlifə Harun ər-Rəşid Şimali Afrikada baş verən üsyanlardan çox narahat idi. Bu zaman Zab valisi İbrahim ibn Əğləb xəlifəyə bu üsyanları yatıra biləcəyini, üstəlik hər il xilafətə qırx min qızıl göndərə biləcəyini söylədi. Bundan əlavə İbrahim ibn Əğləb Şimali Afrika valiliyinin onun vəfatından sonra oğullarına keçməsini istəmişdi. Əvvəlki vali Hərsəmə Harundan bu təklifi qəbul etməsini istədi.

Xəlifə Harun bu şərti qəbul edərək, hicrətin 184-cü ili (miladi 800) İbrahim ibn Əğləbi İfriqiyyə valisi təyin etdi. Qısa müddət ərzində üsyanları yatıran İbrahim ibn Əğləb 800-cü ildə İfriqiyyə vilayətində Əğləbilər dövlətinin əsasını qoydu. Əğləbilər dövləti hicri 184-296/miladi 800-909-cu illərdə mövcud olmuşdur. Əğləbilər öz ərazilərini Abbasilərin adından idarə etsələr də, istənilən qərarı qəbul etməkdə müstəqil idilər.[413]

Avropa ilə əlaqələr

Abbasi xəlifəsi Harun ər-Rəşidin xilafətindən danışarkən, onun Avropanın ən güclü dövləti sayılan Frank dövlətinin başçısı Böyük Karlla (768-814) olan əlaqələrinə toxunmadan keçmək olmur. Bu iki böyük hökmdarı Bizans dövlətinə qarşı olan maraq bir-birinə daha yaxın edirdi. Böyük Karl Harunun Bizansla müharibələrini diqqətlə izləyirdi. Franklarla müsəlmanları Bizansa qarşı ümumi maraq birləşdirirdi. Buna görə də, Böyük Karl Abbasilərlə dostluq əlaqələri qurmaq və Bizansa qarşı güclü müttəfiq əldə etmək istəyirdi.

Harunu isə Əndəlusda müstəqil dövlət qurmuş Əməvi əmirləri narahat edirdi. Aradakı məsafənin uzaqlığı üzündən onlara qarşı lazımi şəkildə mübarizə aparmağa hazır olmayan xəlifə Haruna öz rəqibini neytrallaşdırmaq üçün Frank krallığı ilə mehriban əlaqələr qurmaq sərf edirdi. Əgər Əndəlus Əməvi-

[413]Tarixi-Təbəri, IV cild, səh-621-625; Tarixi ibn Əsir, VI cild, səh-154-157.

ləri Şimali Afrikadakı Abbasi torpaqlarına hücum etsəydilər, Harun Franklar vasitəsilə bu təhlükəni aradan qaldıracaqdı.

797-806-cı illər arasında Böyük Karl Bağdada iki dəfə elçi göndərmiş və onlar bahalı hədiyyələrlə geri qayıtmışlar.

İyirmi üç ilə yaxın hakimiyyətdə olan Abbasi xəlifəsi Harun ər-Rəşid hicrətin 193-cü ili cəmadiəl-axir ayının dördündə (miladi 809) Tusun Sənabad kəndində vəfat etmişdir.[414]

Hz.İmam Musa Kazim (ə)

O Həzrətin mübarək adı Musa, Kazim isə ləqəbidir. Atası İmam Cəfəri Sadiq *(ə)*, anası isə bərbər vilayətindən olan Həmidə xanımdır. İmam Kazim *(ə)* hicrətin 128-ci ili səfər ayının yeddisində, miladi 745-ci il Əməvi xəlifəsi II Mərvan ibn Məhəmmədin xilafəti dövründə Mədinənin Əbva adlı kəndində anadan olmuşdur. İmam Sadiq *(ə)* şəhid olarkən, İlahi elmin sirlərini, Hz.Peyğəmbərin və digər peyğəmbərlərin miraslarını İmam Kazimə *(ə)* təslim etmişdir.

İmam Kazim *(ə)* atasının tutduğu elmi yolu davam etdirərək böyük elmi ocaq yaradıb tanınmış elmli və fəzilətli şəxsiyyətlər yetişdirmişdir. Lakin İmam Kazimin *(ə)* yaratdığı elmi məktəb İmam Sadiqin *(ə)* təşkil etdiyi elm ocağından kiçik idi. İmam Kazim *(ə)* öz dövrünün bütün alimlərini heyrətə gətirməklə yanaşı, həm də əxlaqi dəyər və insani sifətlər baxımından da ad çıxarmışdır. İmam Kazimin *(ə)* həyatı ilə tanışlığı olan alimlərin hamısı onun əxlaqi qarşısında baş əyirlər.

Görkəmli islam alimi və hədisçisi İbn Hacər Heytəmi yazır: "İmam Kazim *(ə)* atasının elm və biliyini irs aparmış, atasının fəzilət və kamalına malik olmuşdur. O, cahil və nadan insanlarla güzəşt və səbrlə davrandığına görə "Kazim" yəni qəzəbini boğan ləqəbini almış, onun dövründə heç kim ilahi maarif və bilik baxımından ona çatmamışdır."[415]

Seyyid ibn Tavus yazır: "İmam Kazimin *(ə)* xüsusi dostlarından böyük bir qismi və həmçinin Bəni-Haşim qəbiləsinin böyük şəxsiyyətləri o Həzrətin ətrafına yığışaraq onun kəlamlarını, suallara verdiyi cavabları və irəli çıxan məsələlər haqqında verdiyi hökmləri qeyd edirdilər."[416]

İmam Sadiqin *(ə)* təşkil etdiyi məktəbdə getdikcə sayı çoxalan şiələr İmam Kazimi *(ə)* qanuni xəlifə hesab edirdilər. Bu da öz növbəsində Abbasi xəlifələrini narahat edirdi. İmam Kazimin *(ə)* imamətinin əvvəli xəlifə Mənsur Dəvaniqinin xilafətinin axırlarına təsadüf edir. O, İmamın *(ə)* atasını şəhid etdiyi üçün ona əziyyət vermədi. Mənsurdan sonra hakimiyyətə gələn oğlu Mehdi İmam Kazimi *(ə)* Mədinədən xilafətin paytaxtı Bağdada gətirərək həbs etdi. Mehdi ilahi möcüzələr sayəsində İmam Kazimi *(ə)* şəhid edə bilməyərək yenidən Mədinəyə qaytarmışdır. Mehdidən sonra hakimiyyətə gələn oğlu Hadi, İmam Kazimə *(ə)* əzab vermə-

---

[414] Tarixi ibn Əsir,VI cild, səh-211-214.
[415] Əs-səvaiqul-muhriqə, səh-203.
[416] Əl-ənvarul-bəhiyyə, səh-170.

sə də, tarixdə ən böyük cinayətlərdən birinə imza atmışdır. Hadi "Fəxx" adlı məntəqədə İmam Həsənin *(ə)* nəslindən olan Hüseyn ibn Əlini və onun üç yüz nəfər tərəfdarını vəhşicəsinə şəhid etmişdir. Hadidən sonra hakimiyyətə gələn Harun ər-Rəşid dərhal İmam Kazimi *(ə)* Bağdada gətirib həbs etdi. Harun İmamı *(ə)* zindana saldıqda onun ibadəti nəinki zəifləmədi, əksinə artdı və İmam *(ə)* Allaha belə bir şükr etdi: "Ey Allahım, bilirsən ki, Sənə ibadət etməkdən ötrü mənim üçün vaxt ayırmağını istəmişdim və Sənə şükr olsun ki, bunu mənim üçün etdin!"

İmam Kazim *(ə)* zindanı məscidə çevirib orada namaz qılır, oruc tutur, dua edirdi və nə bir azan səsi eşitmədiyindən, nə də bir işıq görmədiyindən namazın vaxtını zindanban: "Ağam namaz vaxtıdır" deyə xəbər verirdi. Harun sarayında içki içən əxlaqsız bir kənizini İmama *(ə)* qulluq etmək bəhanəsilə zindana göndərir və elə düşünür ki, o, İmamın *(ə)* ibadətinə mənfi təsir göstərəcək. Bir müddət sonra nə baş verdiyini öyrənmək üçün Harun qulluqçusunu zindana göndərdi və qulluqçu qadını səcdə halında görüb Haruna xəbər verdi. Qadın bütün həyatını Allahın ibadətinə, namaza, duaya və Quran tilavətinə həsr edən İmamın *(ə)* şəxsiyyətindən təsirlənərək, çirkin əməlləri buraxıb dünyadan köçənədək öz imanında qaldı.

Bütün bunlardan narahat olan Harun sonda Sindi ibn Şahək vasitəsilə Hz.İmam Kazimə *(ə)* zəhərli xurma verərək hicrətin 182-ci ili (və ya 183) rəcəb ayının 25-də, miladi 799-cu ildə şəhid etdi. Müqəddəs məzarı Kazimeyndədir. İmam Kazimin *(ə)* künyəsi Əbul-Həsəni-sanidir.

İmam Kazimin *(ə)* ləqəblər:

1) Kazim – qəzəbini boğan; 2) Siqə – doğruçu, etibarlı; 3) Əmin – etibarlı; 4) Zarib – vuran; 5) Babul-həvaic – hacətlər qapısı.

İmam Kazimin *(ə)* nigahlı zövcəsi olmamış və onun övladları kənizlərindən doğulmuşdur. Bu kənizlərin ən məşhuru İmam Rzanın *(ə)* anası Nəcmədir.

Tarixi mənbələrə görə İmam Kazimin *(ə)* otuz yeddi övladı olmuş və bunlar aşağıdakılardır:

1) Hz.Əli ibn Musa *(ə)* (İmam Rza); 2) İbrahim; 3) Abbas; 4) Qasim; 5) İsmail; 6) Cəfər; 7) Harun; 8) Həsən; 9) Əhməd; 10) Məhəmməd; 11) Həmzə; 12) Abdullah; 13) İshaq; 14) Ubeydullah; 15) Zeyd; 16) Həsən; 17) Fəzl; 18) Hüseyn; 19) Süleyman; 20) Fatimeyi-Kübra (Məsumə); 21) Fatimeyi-Suğra; 22) Rüqəyya; 23) Hökümə; 24) Ümmi-Əbiha; 25) Rüqəyyatus-Suğra; 26) Ümmi-Cəfər; 27) Lübabə; 28) Zeynəb; 29) Xədicə; 30) Əliyyə; 31) Aminə; 32) Həsənə; 33) Aişə; 34) Ümmü Sələmə; 35) Ümmü Gülsüm; 36) Rəhimə; 37) Məsumə.

İmam Kazimin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Kun məallahu hərzən"– Allah ilə birlikdə ol.

İmam Kazimin *(ə)* müasiri olmuş xəlifələr:

1) Mənsur Dəvaniqi (754-775); 2) Mehdi (775-785);

3) Hadi (785-786); 4) Harun ər-Rəşid (786-809).

Əbu Abdullah Məhəmməd Əmin hicri 193-198 (miladi 809-813)

Əbu Abdullah Məhəmməd Əmin hicrətin 170-ci ili (miladi 786-787) Bağdadda anadan olmuşdur. Anası Zibeydə xanımdır. Həm Hz.Peyğəmbərdən *(s)* sonrakı dörd xəlifə, həm də Əməvi və Abbasi xəlifələri arasında yalnız üç nəfər ata və ana tərəfdən Bəni-Haşim soyuna mənsubdur: Hz.Əli *(ə)*, Hz.Həsən *(ə)* və Əmin ibn Harun. Harun vəfat etdiyi zaman Əmin Bağdadda, Məmun Xorasanda, Qasim isə Kinnəsrində idi. Xəlifənin vəfatından sonra xəlifəlik əlamətləri olan əsa, üzük və qılınc Bağdada Əminə göndərildi. Elə həmin gün hicrətin 193-cü ili cəmadiəl-axir ayının 15-də (miladi 809) ümumi beyətdən sonra Əmin Abbasi xəlifəsi təyin edildi.[417]

Harun Xorasan səfərində olarkən onu müşayiət edən əyanlara vəsiyyət etmişdi ki, başına bir iş gələrsə, əyanların hamısı Xorasana gedib, Məmuna tabe olsunlar. Lakin bu əyanların bəzisi Harunun vəsiyyətinə əməl etməyərək Fəzl ibn Rəbinin başçılığı ilə Bağdada gedərək Əminə sığındı. Fəzl ibn Səhlin başçılığı altında olan əyanlar isə Xorasanda Məmunun yanında qaldı.

Eyş-işrət düşkünü olan Əmin, xəlifə olduqdan sonra da, vaxtının çoxunu kef məclislərində keçirirdi. Ordunun iki illik maaşını qabaqcadan verdiyi üçün əsgərlərin də hörmətini qazanmışdı. Onun bu düşüncəsiz xərcləmələri xəzinənin boşalmasına və ətrafındakıların da zövqə aludə olmasına səbəb olurdu. Dövlət işlərini də Fəzl ibn Rəbi idarə edirdi. Hətta hakimiyyətin böhranlı anlarında belə, Əmin bu xüsusiyyətindən əl çəkmir və baş verən hadisələrə laqeyd yanaşırdı.[418]

Tarixçi Məsudi yazır: "Xəlifə Əmin xilafət sarayında mühasirədə olarkən, əmisi İbrahim ibn Mehdi onun yanına gələrək, müdafiə planı barədə fikrini öyrənmək istəyir. Lakin görür ki, xəlifə xidmətçiləri ilə əl-ələ verib, saray hovuzunu Dəclə çayı ilə birləşdirən kanalı balıqçı tilovu ilə yoxlamaqla məşğuldur. İbrahim ibn Mehdi saray mühasirəsindən söhbət açmaq istərkən, Əmin onun sözünü ağzında qoyub qışqırır: "Mənə mane olma! Görürsən ki, sevimli balığım itib, onu axtarıram".[419]

Əminin qardaşlarını vəliəhdlikdən uzaqlaşdırması

Xilafəti ələ keçirən Əmin dərhal qardaşlarını vəliəhdlikdən kənarlaşdırma haqqında fikirləşməyə başladı. Bu məqsədlə əvvəlcə qardaşı Qasimin ixtiyarında olan ərazilərin bir qismini ondan geri aldı. Əvvəlcə əl-Cəzirə məntəqəsinin böyük bir hissəsi Qasimdən alındı. Hicrətin 194-cü ilində (miladi 810) isə Qasim ixtiyarında olan bütün ərazilərin hakimliyindən uzaqlaşdırıldı. Bununla da kifayətlənməyən Əmin, Qasimin Bağdaddan kənara çıxmasına da qadağa qoydu.

Bu vaxta kimi demək olar ki, xəlifə Əminlə Məmun arasında ciddi gərginlik müşahidə olunmurdu. Hətta Məmun qardaşının xilafətini tanıyıb ona beyət

---

[417] Tarixi-Təbəri, V cild, səh-26-31.
[418] Tarixi-Təbəri, V cild, səh-122-127; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-244-245.
[419] Murucuz-Zəhəb, III cild, səh-394.

etmiş və idarə etdiyi ərazilərin xəracını da vaxtında Bağdada göndərirdi.[420] Lakin Qasimin başına gələn hadisələrdən sonra Məmun anladı ki, əgər vaxtında mübarizə aparmasa eyni aqibət onun da başına gələcək. Bu məqsədlə Məmun Xorasan ərazisində ciddi təbliğat işləri aparmağa başladı. O, Xorasanda məskunlaşmış qəbilələrin böyüklərini yanına çağıraraq, həmkarlığa dəvət etdi. Vilayətin tanınmış şəxsləri Məmundan vəzifə və sərvət aldıqdan sonra onu müdafiə edəcəklərinə söz verdilər. Bundan əlavə Məmun Xorasan əhalisinin xəracının dörddə birini ləğv etdi. Məmun yanında olan dəyərli sərkərdələr Hərsəmə ibn Əyən, Tahir ibn Hüseyn və vəziri Fəzl ibn Səhlin vasitəsilə işləri yoluna qoymağa çalışdı.[421]

İki qardaş arasında münasibətlərin gərginləşməsinə əsas səbəbkar Fəzl ibn Rəbi olmuşdur. Xorasandan Harunun ölümündən sonra Fəzl Bağdada qayıtsa da, Məmun sarıdan narahat idi. Fəzl, başa düşürdü ki, Məmun bu hərəkətinə görə ondan mütləq intiqam alacaq. Buna görə də Fəzl daim Əmini Məmuna qarşı qızışdırırdı. Onun məqsədi Əminin əli ilə Məmunu aradan götürmək idi. Bu işdə Fəzl ibn Rəbinin ən yaxın köməkçiləri Əli ibn İsa ibn Mahan və Sindi ibn Şahək (hicrətin 183-cü ili (miladi 799) xəlifə Harunun əmri ilə İmam Kazimi *(ə)* zəhərləyən şəxs) idilər.[422]

Məmunun Xorasanda mövqeyinin möhkəmlənməsinə səbəb olan amillərdən biri də Rafe ibn Leysin qiyamını yatırması oldu. Qiyam Harunun dövründən davam edirdi. Məmun və xilafət sərkərdəsi Hərsəmə ibn Əyən bu qiyamı yatırmaq üçün Xorasana ezam olunmuşdu. 809-cu ildə Rafe ibn Leys öz istəyi ilə Məmuna təslim oldu. Onun qiyamının yatırılması Əminin Məmuna olan nifrətini daha da artırdı.

Baş verən hadisələrdən sonra Əmin bütün vilayətlərə xəbər göndərdi ki, xütbələrdən Məmunun adını çıxarıb, yalnız öz oğlu Musanın adına xütbə oxusunlar. Beləliklə hicrətin 194-cü ili (miladi 810) Əmin Məmunu vəliəhdlikdən uzaqlaşdırıb, Musanı vəliəhd təyin etdi. Musaya hamilik Əli ibn İsa ibn Mahana tapşırıldı. Musanın azyaşlı olmasına baxmayaraq, Əmin onu İraq torpaqlarının hakimi təyin etdi.

Bunun ardınca xəlifə Əmin Məmunu tamamilə özündən asılı vəziyyətə salmaq üçün onun Bağdada gəlməsini tələb etdi. Çıxılmaz vəziyyətdə qalan Məmun dərhal sadiq vəziri Fəzl ibn Səhllə məşvərət etdi və vəzir onun Xorasanda qalmasını məsləhət gördü. Məmunun bu hərəkətindən sonra daha da qəzəblənən xəlifə Əmin hicrətin 195-ci ili (miladi 811) fərman verdi ki, Xorasanda Məmunun adına kəsilən bütün pullar dövriyyədən çıxarılsın.[423]

---

[420] Tarixi ibn Əsir, VI cild, səh-222-225.
[421] Tarixi-Təbəri, V cild, səh-32-39.
[422] Tarixi ibn Əsir, VI cild.
[423] Tarixi ibn Əsir, VI cild, səh-227-235.

Xilafət uğrunda mübarizə

Baş verən hadisələrdən sonra xəlifə Əmin Məmuna qarşı Əli ibn İsa ibn Mahanın başçılığı altında böyük bir ordu toplamaqla bərabər onu İran torpaqlarının valisi təyin etdi. Cəbəl, Nəhavənd, İsfəhan, Həmədan, Qum və digər şəhərlərin də ixtiyarı ona verildi.

Hicrətin 195-ci ili (miladi 811) Əli ibn İsa əlli min nəfərlik ordu ilə Bağdaddan çıxaraq Deyləm və Təbəristan hakimlərini hədiyyələrlə ələ aldıqdan sonra Rey vilayətinə yaxınlaşdı. Bundan xəbər tutan Məmun Tahir ibn Hüseyni 4800 nəfərlik ordu ilə Əli ibn İsaya qarşı göndərdi. Xorasan ordusu ilə Bağdad ordusu Rey yaxınlığında qarşı-qarşıya gəldi.

Miladi tarixi ilə 811-ci ildə (hicri 195) baş verən döyüşdə Əli ibn İsanın öldürülməsi ilə Bağdad ordusu məğlub oldu. Tarixçilər bu döyüşdə Tahir ibn Hüseynin göstərdiyi qəhrəmanlığı xüsusilə qeyd edirlər. Bu döyüşdən sonra Tahir ibn Hüseynə "zul-yəmineyn" (iki sağ əli olan; yəni sol əlindən də sağ əl kimi məharətlə istifadə edən) ləqəbi verilmişdir. Xorasan ordusunun qalib gəldiyini öyrənən əhali Məmunu xəlifə kimi salamlamışdır.[424]

Əli ibn İsanın Rey vilayətində məğlub olduğunu eşidən Bağdaddakı bəzi sərkərdələr xəlifə Əminə etiraz edərək bir neçə aylıq maaşlarının qabaqcadan verilməsini tələb etdilər. Bundan xəbər tutan Əmin, orduya dörd aylıq məvacibin ödənilməsini, maaşı az olan əsgərlərin isə məvacibinin artırılmasını əmr etdi. Bağdad ordusunun məğlubiyyətindən sonra sərkərdələrin də etirazını müşahidə edən Əminin sədaqətli vəziri Fəzl ibn Rəbi onu tənha qoyaraq qaçdı.

Lakin bütün bunlara baxmayaraq Bağdadda sakitliyi bərpa edən xəlifə Əmin Əbdürrəhman ibn Cəbələ əl-Ənbarinin başçılığı ilə iyirmi minlik ordunu Xorasana göndərməklə yanaşı onu Həmədan valisi təyin etdi. 811-ci ildə Həmədan yaxınlığında baş verən döyüşdə də Bağdad ordusu məğlub edildi və sərkərdə Əbdürrəhman öldürüldü. Bunun ardınca Tahir ibn Hüseynin başçılığı altında olan Xorasan ordusu Qəzvin şəhərini və dağlıq vilayətləri ələ keçirdi.[425]

Bu məğlubiyyətdən sonra hələ də qələbə ümidini itirməyən xəlifə Əmin, bu dəfə qırx minlik ordunu Əhməd ibn Müzəyyəd və Abdullah ibn Humeyd ibn Qəhtəbənin başçılığı ilə Xorasana göndərdi. Bağdad ordusu ilə Xorasan ordusu Hulvan yaxınlığında Xaniqan adlı məntəqədə qarşılaşdı və bu döyüşdə də Tahirin başçılığı altında olan Xorasan ordusu qalib gələrək Hulvanı ələ keçirdi.

Həmin il (812) vəziri Fəzl ibn Səhli şərq torpaqlarının valisi təyin edən Məmun, ona "zur-rəyasəteyn" (iki hökm sahibi) ləqəbini verdi. Tahir ibn Hüseyn isə Məmunun əmrinə əsasən ixtiyarında olan torpaqları Hərsəmə ibn Əyənə təhvil verib Əhvaza doğru hərəkət etdi.[426]

---

[424] Tarixi-Təbəri, V cild, səh-39-44.

[425] Tarixi ibn Əsir, VI cild, səh-218-219.

[426] Tarixi-Təbəri, V cild, səh-40-56; Tarixi ibn Əsir, VI cild, səh-239-246, 252-256; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-236-237.

Hicrətin 188-ci ili (miladi 804) xəlifə Harun tərəfindən həbs edilən Əbdülməlik ibn Saleh beş il sonra 809-cu il Əmin tərəfindən azad edilmişdir. Bağdad ordusunun ard-arda məğlub olduğunu görən Əbdülməlik xəlifə Əminin yanına gəlib Şamda tərəfdarlarının çox olduğunu söyləyərək təklif etdi ki, həmin məntəqənin valiliyi ona verilsin. Bununla razılaşan Əmin, onu Şam və əl-Cəzirə torpaqlarının valisi təyin etdi.

Riqqə şəhərində məskunlaşan Əbdülməlik ibn Saleh tezliklə Tahir ibn Hüseynə qarşı böyük bir ordu topladı. Lakin qəflətən Əbdülməlikin ölümü ilə əlaqədar olaraq ordu iki hissəyə parçalandı. Tərəflərdən biri Əminin, digəri isə Məmunun tərəfini tutdu. Məmunun tərəfində olan Hüseyn ibn Əli ibn İsa ibn Mahan hicrətin 196-cı ili (miladi 812) Bağdada daxil olaraq Əmini taxtdan salıb, Məmunun adına camaatdan beyət almağa başladı. Lakin ordunun məvacib tələbinə Hüseynin laqeyd yanaşması ona baha oturdu. Cəmi bir neçə günlük həbsdən sonra yenidən hakimiyyəti ələ keçirən Əmin Hüseyni edam etdirdi.

Tahir ibn Hüseynin və Hərsəmə ibn Əyənin Bağdadı ələ keçirməsi

Şərqi Ərəbistandakı ərəblərin (Əhvaz, Yəmamə, Bəhreyn, Oman, Vasit, Mədain) Məmuna beyət etməsi digər bölgələrə də öz təsirini göstərdi. Şərqi Ərəbistanın ardınca Bəsrə, Mosul, Kufə, Mədinə və Məkkə əhalisindən də xəlifə olaraq Məmunun adına beyət alındı.

Hicrətin 196-cı ili (miladi 812) Tahir ibn Hüseynin ordusu qərbdən, Hərsəmə ibn Əyənin ordusu isə şərqdən Bağdadı mühasirəyə aldı.[427] Xilafət ordusuna Əli ibn Məhəmməd Nəhiki başçılıq edirdi. Nəhrəvan yaxınlığında baş verən döyüşdə Hərsəmə ibn Əyən qalib gəldi və Əli ibn Məhəmməd Nəhiki əsir olaraq Məmunun hüzuruna göndərildi.[428]

Bir illik mühasidən sonra, əvvəlcə Bağdadın qərb hissəsi Tahir ibn Hüseynə tabe oldu. Bunun ardınca xilafət sərkərdələrindən Xuzeymə ibn Xazim və Məhəmməd ibn Əli ibn İsa Tahir ibn Hüseynə qoşuldu. Onların köməyi ilə hicrətin 198-ci ili (miladi 813) Bağdadın şərq hissəsi də Hərsəmənin əlinə keçdi. Çıxılmaz vəziyyətdə qalan xəlifə Əmin təslim olmaq istədiyini bildirərək Hərsəmə ibn Əyəndən aman istədi. Əminin fikrini qəbul edən Hərsəmə onunla gizlin şəkildə görüşmək qərarına gəldi.

Lakin bundan xəbər tutan Tahir ibn Hüseynin əsgərləri Əmini ələ keçirərək başını bədənindən ayırıb Tahirə göndərdilər. Tahir ibn Hüseyn Əminin başını Məmuna göndərsə də, Məmun başı geri qaytararaq bədənlə birlikdə basdırılmasına göstəriş verdi.[429]

---

[427] Tarixi-Təbəri, V cild, səh-57-88; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-238-239.
[428] Tarixi-Təbəri, V cild, səh-90-93.
[429] Tarxi-Təbəri, V cild, səh-93-100; Tarixi-Yəqubi, II cild, səh-433-443; İbn Kəsir, əl-Bidayə, X cild, səh-241-243.

Əbul-Abbas Abdullah Məmun hicri 198-218 (miladi 813-833)

Abdullah Məmun əvvəldə deyildiyi kimi, Harun ər-Rəşidin xilafətə gəldiyi il, yəni hicrətin 170-ci ili rəbiül-əvvəl ayının 15-də (miladi 786) Bağdadda anadan olmuşdur. Anası fars mənşəli cariyə Məracildir. Qardaşı Əmindən fərqli olaraq yüksək elmi biliyə malik olan Məmun ədəbiyyat, fəlsəfə, kəlam, nücum və digər elmlərdə saray alimləri ilə elmi mübahisələr aparırdı. Hakimiyyətinin əvvəlində (hicri 199/miladi 814) Həsən ibn Səhli xilafətin böyük bir hissəsinin hakimi təyin edən xəlifə Məmun, Tahir ibn Hüseyni Riqqəyə göndərməklə yanaşı Hərsəmə ibn Əyəni də Bağdaddan Xorasana çağırdı.

Əbu-Səraya və Əbu Abdullah Məhəmməd ibn Təbatəbanın üsyanı

Əbus-Səraya ləqəbli Səriyy ibn Mənsur əvvəlcə Əminin tərəfində olsa da, sonralar yüksək məvacib qarşılığında Məmunun tərəfinə keçmişdir. Lakin Əminin məğlubiyyətindən sonra gözlədiyi məvacibi almayan Əbus-Səraya əl-Cəzirə və Şam bölgəsinə qaçaraq xilafətə qarşı üsyan etdi.[430] Başçılıq etdiyi dəstə ilə Ənbar şəhərini ələ keçirən Əbu-Səraya Riqqə valisi ilə əlbir oldu. Bu arada ətrafına daha çox adam toplamaq istəyən Əbus-Səraya Hz.Əlinin *(ə)* nəslindən olan "İbn Təbatəba" ləqəbli Əbu Abdullah Məhəmməd ibn İbrahim ibn İsmail ibn İbrahim ibn Həsən ibn İmam Həsənlə *(ə)* əlaqə yaratmağa başladı. Onun ulu babası İbrahim Ğəmər miladi 762-ci il Mənsurun xilafəti dövründə Kufə zindanında həlak olmuşdur.

Hicrətin 199-cu ili (miladi 815) Kufədə üsyan edən İbn Təbatəba özünü xilafətin qanuni sahibi elan etdi. O, Quran və sünnə əsasında hökm verəcəyinə, Əhlibeyt şəhidlərinin intiqamını alacağına söz verdi. Kufəlilərin onun ətrafında toplanmasından qorxuya düşən vali Bağdada qaçaraq Həsən ibn Səhlə sığındı.

Bundan xəbər tutan Həsən ibn Səhl qiyamçıların üzərinə Züheyr ibn Museyyibi göndərdi. Lakin Fərat çayı sahilində baş verən döyüşdə qalib gələn Əbus-Səraya xeyli qənimət ələ keçirdi. Əldə etdiyi qələbədən ruhlanan Əbus-Səraya İbn Təbatəbanı zəhərləyərək öldürdü və bütün işləri özü idarə etməyə başladı. Qısa müddət ərzində uğur qazanan Əbus-Səraya Yəmən, Əhvaz, Məkkə, Bəsrə, Vasit və ətraf məntəqələri özünə tabe etdi. Kufədə yeni sikkələr kəsdirərək Məmunun adını pulların üstündən pozdurdu.

Baş verən hadisələrdən narahat olan Bağdad valisi Həsən ibn Səhl məşhur sərkərdə Hərsəmə ibn Əyəndən kömək istədi. Məmunun əmisi Mənsur ibn Mehdinin xahişi ilə Hərsəmə ibn Əyən otuz min nəfərlik ordu ilə Kufəyə doğru hərəkət etdi.

İki ordu hicrətin 199-cü ili (miladi 815) Sərsər çayı sahilində qarşılaşdı və baş verən döyüşdə məğlub olan Əbus-Səraya bir neçə silahdaşı ilə birlikdə Həsən ibn Səhlin yanına göndərildi. Bir müddət sonra hicrətin 200-cü ili (miladi 815-816)

---

[430] Tarixi ibn Əsir, VI cild, səh-302-307.

Əbus-Səraya və onun nökəri Əbuş-Şövq Həsən ibn Səhlin əmri ilə edam edildilər. Əbus-Sərayanın başı Xorasana xəlifə Məmunun hüzuruna göndərildi.[431]

Bu üsyanın yatırılmasından sonra Məkkədə xilafətə qarşı qiyam edən İbrahim ibn Musa ibn Cəfər Yəmənə qaçdı. İrandan Yəmənə qədər uzanan bir ərazidə xilafətə qarşı üsyanlar bir-birini əvəz edirdi.[432]

Bunun ardınca bir qrup insanlar hicrətin 200-cü ili (miladi 815) Məhəmməd ibn Cəfəri Bağdadda xəlifə elan edərək ona beyət etdilər. Lakin bir neçə ay sonra ətrafındakıların insanlarla pis rəftarını görən Məhəmməd ibn Cəfər hakimiyyətdən əl çəkdi.

Məhəmməd ibn Cəfər Sadiqin *(ə)* qiyamı

Hicrətin 199-cu ili (miladi 814-815) Mədinədə özünü xəlifə elan edən İmam Sadiqin *(ə)* oğlu Məhəmməd Dibac tərəfdarları ilə birlikdə Məkkəyə doğru hərəkət etdi. Məhəmməd Dibacın ədalətli şəxs olduğunu görən Məkkə əhli də ona beyət edərək şəhərin valisi Harun ibn Museyyiblə döyüşə başladılar. Bu vaxt Məkkə valisi Harun ibn Museyyib bu üsyanı zamanın imamı Hz.Rzanın *(ə)* vasitəsilə yatırmaq istəsə də, Məhəmməd Dibac İmamın *(ə)* vasitəçiliyinə mənfi cavab verib müqaviməti davam etdirdi. Buna qarşılıq olaraq Məkkə yaxınlığında Məhəmməd Dibacın dəstəsi xəlifənin qoşunu tərəfindən mühasirəyə alındı. Üç günlük mühasirədən sonra aclıq və susuzluqdan korluq çəkən Məhəmməd ibn Dibacın tərəfdarları onun ətrafından dağılışdı. Nəticədə təslim olan Məhəmməd Dibac bir neçə silahdaşı ilə birlikdə Xorasana xəlifə Məmunun hüzuruna göndərildi. Məmun onların günahından keçib əfv etsə də, kənara buraxmayıb, nəzarət altında saxladı. Bir müddət sonra Məhəmməd Dibac Xorasanda vəfat etdi və onun dəfnində şəxsən iştirak edən xəlifə Məmun, cənazə namazını qılaraq borclarını ödəmişdi.

Hərsəmə ibn Əyənin edamı hicrətin 200-cü ili (miladi 816)

Fəzl ibn Səhl tərəfindən Suriya və Misir valiliyinə təyin edilən Hərsəmə ibn Əyən bununla razılaşmayıb xilafətin paytaxtı Mərvə gələrək, Bağdadda baş verənlərin hamısını, hətta Məhəmməd ibn Cəfərin xəlifə elan olunması haqqında olan məlumatları da xəlifə Məmuna danışdı. Lakin Hərsəmənin Xorasana gəlməsindən qabaq vəzir Fəzl ibn Səhl saxta məlumatlarla onu xəlifənin gözündən salmışdı. Nəticədə Hərsəmə ibn Əyənin xilafətə qarşı çevriliş edəcəyindən ehtiyat edən Məmun onu saraydan çıxmamış edam etdirdi. Hərsəmə ibn Əyənin edamından sonra Bağdad əhli Həsən ibn Səhlin nümayəndəsini şəhərdən qovaraq xəlifə Məmunun əmisi Mənsur ibn Mehdini vali seçdilər. Bunun ardınca Bağdadda yaxşılığa əmr və pisliklərdən

[431]Tarixi-Təbəri, V cild, səh-122-127; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-244-245.
[432] Tarixi-Təbəri, V cild, səh-127; Tarixi ibn Əsir, VI cild, səh-311-317.

çəkindirmə adlı bir qrup meydana çıxdı. Bunlar əsasən əhalini incidən və yol kəsənlərə qarşı mübarizə aparırdılar.[433]

Xəlifə Məmunun Bağdada qayıtması

Bir müddət sonra Hz.Rzanın *(ə)* xəlifə tərəfindən vəliəhd elan olunması xəbəri Bağdada çatdı (Bu haqda məlumat veriləcək). Bundan narahat olan Abbasi əyanları hicrətin 201-ci ili (miladi 817) xəlifə Məmunun digər əmisi İbrahim ibn Mehdini xəlifə elan edərək ona beyət etdilər. Saray böyüklərinin əksəriyyəti, o cümlədən, keçmiş xəlifə Məhəmməd Əminə vəzirlik etmiş Fəzl ibn Rəbi də İbrahimə beyət etdi. Beləliklə, İslam məmləkətində iki xəlifə hökmdarlıq etməyə başladı: Xorasanda Abdullah Məmun və Bağdadda İbrahim ibn Mehdi.

Bu qarışıqlıqdan istifadə edən xəvaric əsilli Mehdi ibn Hulvan üsyan edərək xeyli ərazini ələ keçirdi. İbrahim ibn Mehdi üsyanı yatırmaq üçün Əbu İshaq Məhəmməd ibn Harunu (gələcək xəlifə Mütəsim) göndərdi. Baş verən döyüşdə məğlub olan Mehdi ibn Hulvan qaçdı. Bu hadisədən sonra İbrahim ibn Mehdi daha bir neçə qiyamı yatıraraq, Bağdad ətrafındakı torpaqlara sahib oldu.[434]

Bağdadda baş verən qarışıqlıqlara son qoymaq istəyən xəlifə Məmun hicrətin 202-ci ilinin ortaları (miladi 817-ci ilin sonu) böyük bir ordu ilə hərəkətə keçdi. Bu səfərdə xəlifə Məmun yeni vəliəhd İmam Rzanı *(ə)* və vəzir Fəzl ibn Səhli də götürmüşdü. İki il davam edən səfərdə bir neçə mühüm hadisə baş verdi.

Birincisi hicrətin 202-ci ili şəban ayının 2-də (miladi 818-ci ilin fevralında) vəzir Fəzl ibn Səhl xəlifənin göstərişi ilə qətlə yetirildi. Fəzlin qətlindən sonra Məmun onun qardaşı Həsən ibn Səhlin könlünü almaq üçün onu özünə vəzir təyin etdi.[435]

İkincisi Tus şəhərinə çatarkən yenə də hicrətin 203-cü ili səfər ayının 30-da (miladi 818-ci ilin yayı) xəlifə Məmun tərəfindən İmam Rza *(ə)* zəhərləndirilərək şəhadətə qovuşdu.[436]

Məmunun Bağdada doğru hərəkət etməsi xəbəri şəhərə çatınca hərbi çəkişmələr daha da qızışdı. İbrahim ibn Mehdi ordunun tələb etdiyi məvacibin ödənilməsinə razılıq vermədiyi üçün, əsgərlər ona tabe olmaqdan boyun qaçırdılar. Bəzi sərkərdələrin müdaxiləsindən sonra Bağdadda xütbələr yenidən Məmunun adına oxundu. Bundan sonra mövqeyi zəifləyən İbrahim ibn Mehdi bir il on bir ay hakimiyyətdə olduqdan sonra hicrətin 204-cü ili (miladi 819) şəhərdən qaçdı.

819-cu ilin avqustunda xəlifə Məmunun Bağdada daxil olması ilə şəhərdə olan qarışıqlığa son qoyuldu. Şəhərdə asayişi bərpa edən Məmun ətraf məntəqələrə yeni valilər təyin etdi.[437]

---

[433] Tarixi ibn Əsir, VI cild, səh-324-326.

[434]Tarixi ibn Əsir, VI cild, səh-346-348; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, 248-249.

[435]Tarixi-Məsudi, nəşr. Muhəmməd Muhyiddin, Misir, 1965, IV cild, səh-28.

[436]Tarixi-Təbəri, V cild, səh-145-147; Tarixi-Məsudi, IV cild, səh-28; Tarixi ibn Əsir, VI cild, səh-351; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-250.

[437] Tarixi-Təbəri, IV cild, səh-147-151.

Tahirilər

Xəlifə Məmun Bağdada qayıdışından dərhal sonra məhşur sərkərdə Tahir ibn Hüseyni Xorasan valisi təyin etdi və beləcə Bağdadın şərqindəki bütün vilayətlərin ümumi valisi oldu. İki illik valilikdən sonra Tahir ibn Hüseyn hicrətin 207-ci ili (miladi 823) vəfat etdi və onun yerinə oğlu Təlhə ibn Tahir Xorasana vali təyin edildi. Xorasanı yeddi il idarə edən Təlhə ibn Tahirin vəfatından sonra qardaşı Abdullah ibn Tahir Xorasan valisi təyin edilmişdir. Xorasandan əvvəl Misir və Suriya valisi olan Abdullah ibn Tahir üsyanları yatıraraq Cəziräni də itaət altına almışdır.

Nəsr ibn Şibs əl-Uqeylənin üsyanı hicrətin 199-210-cu illəri (814-825)

Əbul Abbas Abdullah Məmunun hakimiyyətə gəlişindən sonra xilafətin mühüm vəzifələrinə əsasən qeyri-ərəb mənşəli şəxslər təyin edilirdi. Bu da ərəblər tərəfindən narazılıqla qarşılandığı üçün müxtəlif bölgələrdə xilafətə qarşı üsyanlar baş verirdi. Bu üsyanlardan biri də əl-Cəzirə bölgəsində Nəsr ibn Şibs əl-Uqeylənin başçılığı ilə baş vermişdir.

Bundan xəbər tutan xəlifə Məmun məhşur sərkərdə Tahir ibn Hüseyni Nəsrin üzərinə göndərdi. Lakin baş verən döyüşdə qiyamçılar xilafət odusunu məğlub etdilər. Bundan cürətlənən qiyamçılar Urfa şəhərini mühasirəyə alsalar da ələ keçirə bilmədilər.

Həmin ərəfələrdə xəlifənin başı Hz.Rzanın *(ə)* vəliəhdlik məsələsinə və İbrahim ibn Mehdinin Bağdaddakı çevrilişinə qarışdığından Nəsrə qarşı ciddi müqavimət göstərilmədi. Bəzi qüvvələr də bu qiyamdan bəhrələnmək məqsədilə, Nəsrə təklif etdilər ki, iki tərəfdən birinin ya Əməvilərin, ya da Ələvilərin tərəfinə keçsin.

Bağdadda asayiş bərpa edildikdən sonra Məmun Tahir ibn Hüseyni əl-Cəzirə, Şam və Misir vilayətlərinin hakimi təyin edərək Nəsr ibn Şibsin üzərinə göndərdi. Lakin orduda baş verən narazılıq üzündən geriyə qayıdan Tahir xəlifə tərəfindən Bağdad darğası təyin edildi və bu müddət ərzində oğlu Abdullah ibn Tahir Nəsr ibn Şibsə qarşı mübarizə apardı.

Bir müddət sonra Xorasan valiliyinə təyin edilən Tahir ibn Hüseynin yerinə oğlu Abdullah ibn Tahir Bağdad darğası oldu. Yuxarıda da qeyd etdiyimiz kimi iki il sonra Tahirin ölümündən sonra oğlu Təlhə ibn Tahir Xorasan valisi təyin edilmişdir.

Nəsr ibn Şibsin başçılığı altında olan qiyamın əl-Cəziräni başdan-başa bürüməsindən narahat olan Məmun, hicrətin 206-cı ili (miladi 822) Abdullah ibn Tahiri yenidən Nəsrin üzərinə göndərməklə bərabər, onu əl-Cəzirə, Misir və Şam bölgələrinin valisi təyin etdi.

On iki min nəfərlik ordu ilə Nəsr ibn Şibsi təqib edən Abdullah ibn Tahir bir-birinin ardınca Balis və Kinnəsrin şəhərlərini ələ keçirərək, qiyamçıların sığındığı Keysum şəhərini mühasirəyə aldı. Uzun mühasirədən sonra təslim olan Nəsr ibn Şibs hicrətin 210-cu ili (miladi 825) Bağdada

xəlifə Məmunun hüzuruna gətirildi. Beləliklə, on dörd ildən sonra əl-Cəzirədə sakitlik bərpa olundu.

Məmun tərəfindən şəhid edilmiş Əhli-Beyt nümayəndələri

Məmunun xilafəti dövründə şəhid edilmiş Əhli-beyt nümayəndələri bunlardır:

1. Həsən ibn Hüseyn ibn Zeyd ibn İmam Zeynul-Abidin (ə). Kufə yaxınlığında Əbus-Sərayanın ordusu ilə Hərsəmə ibn Əyənin ordusu arasında baş verən döyüşdə şəhid edilmişdir.

2. Hüseyn ibn İshaq ibn Hüseyn ibn Zeyd ibn İmam Zeynul-Abidin (ə). Hicrətin 200-cü ili (miladi 815) Şuş yaxınlığında Əbus-Səraya və xilafət ordusu arasında baş verən döyüşdə şəhid olmuşdur.

3. Məhəmməd ibn Hüseyn ibn Həsən ibn Əli ibn İmam Zeynul-Abidin (ə). Əbus-Sərayanın nümayəndəsi olaraq Yəmənə göndərilmiş və orada xilafət nümayəndələri tərəfindən şəhid edilmişdir.

4. Əli ibn Abdullah ibn Məhəmməd ibn Abdullah ibn Məhəmməd ibn Əli ibn Abdullah ibn Cəfəri-Təyyar. Yəməndə Əbus-Sərayanın nümayəndəsi olaraq qiyam qaldırmış və şəhid edilmişdir.

5. Abdullah ibn Cəfər ibn İbrahim ibn Cəfər ibn Həsəni-müsənna. Məmunun xilafəti dövründə Fars bölgəsinə gedərkən, yolda xəvariclər tərəfindən şəhid edilmişdir.

6. Məhəmməd ibn Abdullah ibn Həsən Əftəs ibn Əli ibn İmam Zeynul-Abidin (ə). Xəlifə Harun ər-Rəşidin dövründə Cəfər ibn Yəhya ibn Xalid ibn Bərməkinin əmri ilə şəhid edilmiş Abdullah ibn Həsən Əftəsin oğludur. Məhəmməd ibn Abdullah xəlifə Məmunun qardaşı və gələcək xəlifə Mutəsim tərəfindən şəhid edilmişdir.[438]

Xəlifə Məmunun dövründə şəhid edilmiş Bəni-Haşim seyidlərinin ən məşhuru Hz.İmam Rzadır *(ə)*. Xilafəti dövründə baş verən Əhli-beyt üsyanlarını İmam Rza *(ə)* vasitəsilə yatırmaq istəyən xəlifə Məmun İmamı *(ə)* Mədinədən Mərvə gətirmək qərarına gəldi.

Xəlifənin göstərişinə əsasən İmam Rzanı *(ə)* gətirən karvanın yolu Bəsrə, Bağdad, Qum, Nişapur və digər şəhərlərdən keçirdi. Nişapur şəhərinə çatdıqda insanların xahişi ilə İmam Rza *(ə)* "silsilət-uz-zəhəb" (qızıl zəncir) hədisi kimi məşhur olan bu hədisi onlara söyləyir: "Atam Musa ibn Cəfər öz atası Cəfər ibn Məhəmməddən, o da öz atası Məhəmməd ibn Əlidən, o da öz atası Əli ibn Hüseyndən, o da öz atası Hüseyn ibn Əlidən, o da Allahın Rəsulu Hz.Muhəmməddən *(s)*, o da Hz.Cəbraildən, o isə bir olan Allahdan rəvayət edib: "La ilahə illəllah kəlməsi mənim möhkəm qalamdır, hər kim bu qalaya daxil olsa, əza-

[438] Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-118-119.

bımdan amanda qalar". İmamın *(ə)* sözləri bitib, karvan yola düşəndə, o Həzrət bu cümləni də əlavə edir: "Bunun şərtləri var və mən həmin şərtlərdənəm".[439]

Bu hədisin əhəmiyyəti bundadır ki, İmam Rza *(ə)* Allahı düzgün şəkildə tanımağın və ilahi əzabdan amanda qalmağın şərtlərindən biri kimi Əhli-beyt imamlarının imamət və vilayətini qəbul etməyi vacib bilmişdir. İmamət elə mühüm məsələlərdəndir ki, onsuz tövhidi düzgün anlamaq, dünya və axirət səadəti qazanmaq mümkün deyildir.

İmam Rza *(ə)* Mərvə çatdıqdan sonra xəlifə Məmun əvvəlcə xilafəti o həzrətə təhvil vermək istədikdə İmam *(ə)* bunu qəbul etmədi. Bundan narahat olan Məmun İmama *(ə)* vəliəhdliyi vermək istədi. İmam Rza *(ə)* vəliəhdliyi də qəbul etmək istəmədikdə, Məmun o həzrəti ölümlə hədələyərək hicrətin 201-ci ili (miladi 817) vəliəhdliyi ona qəbul etdirdi və Abbasilərin milli rəngi olan qaranın yerinə şiələrin milli rəngi olan yaşıl rəngli paltar geyindi.[440]

Xəlifə Məmunun İmam Rzanı *(ə)* istər xəlifə, istərsə də vəliəhd kimi hakimiyyətə gətirməkdə bir neçə məqsədi var idi:

1. İmam Rzanı *(ə)* yüksək dövlət məqamına gətirməklə, xilafət əleyhinə baş verən Əhli-beyt üsyanlarını yatırmaq mümkün olacaqdı. Həqiqətən bundan sonra Əhli-beytin haqqının qəsb olunması barədə olan iddialar qüvvədən düşəcəkdi.

2. İmam Rza *(ə)* siyasi hakimiyyətə gətiriləndən sonra, istər-istəməz ölkədə baş verən ədalətsizliklərə cavabdeh olacaqdı. Eyni zamanda İmama *(ə)* hakimiyyət hərisi və dünya malına aldanmış bir şəxs kimi baxılacaqdı.

3. İmam Rza *(ə)* Mərvdə bu vəzufəyə təyin edilməklə, daim xəlifənin nəzarəti altında qalacaq, sərbəst fəaliyyət imkanından məhrum olacaqdı.

Məmunun hiylələrini qabaqcadan başa düşən İmam Rza *(ə)* da müəyyən şərtlər əsasında vəliəhdliyi qəbul etmişdir. İmam Rzanın *(ə)* şərtləri bundan ibarət idi: vəliəhd olduqdan sonra heç bir mühüm qərarın qəbul edilməsində iştirak etməyəcək, dövlət vəzifələrinə təyin olunma, eyni zamanda vəzifədən azad edilmə fərmanlarına imza atmayacaq, xilafət ərazisində aparılan heç bir islahata qarışmayacaq.

Məmun bu şərtlərlə razılaşdıqdan sonra hicrətin 201-ci ili (miladi 817) Mərv şəhərində İmam Rzaya *(ə)* beyət mərasimi keçirildi. Məmunun əmri ilə bütün saray əyanları və sərkərdələr İmamı *(ə)* vəliəhd kimi tanıdıqlarını elan etdilər. İmama *(ə)* ilk beyət edən şəxs xəlifə Məmunun oğlu Abbas oldu.

Beyət mərasimindən sonra İmam Rzanın *(ə)* bütün fəaliyyətindən xəbərdar olmaq istəyən xəlifə Məmun qızı Ümmü-Həbibəni İmama *(ə)* ərə verdi. Digər tərəfdən bu qohumluq əlaqəsini yaratmaqda Məmunun əsas məqsədi bu idi ki, qızı ilə İmam Rzanın *(ə)* övladı doğulsun və xəlifə özündən sonra hakimiyyəti ona buraxsın. Bu uşaq bir tərəfdən Abbasilərə, digər tərəfdən Əhli-beyt ailəsinə mənsub olacağı üçün, hər iki tərəf onun hahimiyyəti ilə razılaşacaqdı.

---

[439] Şeyx Səduq, Məaniyy-ul-əxbar, səh-370-371.

[440] Tarixi-Məsudi, IV cild, səh-28.

İmama *(ə)* qarşı həyata keçirdiyi hiylələrin heç bir nəticə vermədiyini görən xəlifə Məmun hicrətin 203-cü ili səfər ayının 30-da (miladi 818) Xorasanın Tus şəhərində Hz.Rzaya *(ə)* zəhər verərək onu şəhid etdi.[441]

Bu əməlindən sonra xilafətə qarşı baş verən Ələvi üsyanlarını yatırmaq istəyən xəlifə Məmun hicrətin 210-cu ili (miladi 826) Fədək torpağını Hz.Fatimənin (s.ə) nəslindən olan seyidlərə qaytardı. Hicrətin altıncı ilində baş verən (miladi 628) Xeybər döyüşündəki qələbədən sonra Hz.Peyğəmbər *(s)* "İsra" surəsinin 26-cı ayəsi əsasında Allahın əmri ilə Fədək torpağını Hz.Fatimə (s.ə) və onun övladlarına bağışlamışdı.

Əməvilərin hakimiyyətə gəlişinə qədər Fədək əldən-ələ gəzdi. Hicrətin 41-ci ili (miladi 661) xilafəti əldə edən məlun Müaviyə Fədək torpağını üç hissəyə bölüb, bir hissəsini Mərvan ibn Həkəmə, o biri hissəsini Osman ibn Əfvanın oğlu Əmrə, üçüncü hissəni isə oğlu Yezidə bağışladı. Sonralar o biri iki nəfərin də payını ələ keçirən Mərvan ibn Həkəm xilafəti dövründə Fədəki oğlu Əbdüləziz ibn Mərvana bağışladı. Əməvi xəlifələri içində nisbətən ədalətli olan Ömər ibn Əbdüləziz xilafəti dövründə atasından ona qalan Fədək torpağını Hz.Fatimənin (s.ə) nəslindən olan seyidlərə qaytardı. Lakin ondan sonra xəlifə olan Yezid ibn Əbdülməlik Fədəki yenidən Fatimə (s.ə) övladlarından geri aldı.

Abbasilər hakimiyyətə gəldikdən sonra ilk xəlifə Əbul-Abbas Səffah Hz.Peyğəmbərin *(s)* nəslindən olanlarla münasibəti qaydaya salmaq üçün Fədəki İmam Həsənin *(ə)* nəslindən olan Abdullah ibn Həsəni-müsənna ibn İmam Həsənə *(ə)* qaytardı. Səffahdan sonra xəlifə olan Mənsur Dəvaniqi Fədəki yenidən Fatimə övladlarının əlindən aldı. Mənsurdan sonra xəlifə olan oğlu Mehdi Fədəki Hz.Fatimənin (s.ə) nəslinə qaytarsa da, ondan sonra hakimiyyətə gələn oğlu Hadi Fədəki yenidən qəsb etdi. Məmunun dövrünə qədər Fədək Fatimə övladlarına verilmədi. Hicrətin 198-ci ili (miladi 813) xəlifə olan Məmun Fədək torpağını Hz.Fatimənin (s.ə) nəslindən olan Məhəmməd ibn Yəhya ibn Hüseyn ibn Zeyd ibn İmam Zeynul-Abidinə *(ə)* qaytardı. Abbasi xəlifəsi Mütəvəkkilin hakimiyyətə gəlişinə qədər Fədək Hz.Fatimənin (s.ə) övladlarında qalmışdır.[442]

Xilafət əleyhinə üsyanlar və Krit adasının fəthi

Harunun vəfatından sonra xilafət uğrunda gedən mübarizələr, Misirdə də qarışıqlığın yaranmasına səbəb oldu. Misirdəki müzarilər qəbiləsi Əmini, yəmənlilər isə Məmunu müdafiə etməyə başladılar. Bu işə Əndəlus Əməvi əmirlərinin qarışması vəziyyəti daha da gərginləşdirdi. Əndəlus əmiri I Həkəm (h. 180-206/m. 796-822) miladi tarixilə 813-814-cü illərdə on beş min ailəni İspaniyadan qovdu. Onların da Misirə gəlməsilə vəziyyət daha da gərginləşdi. Əv-

[441]Tarixi-Təbəri, V cild, səh-145-147; Tarixi-Məsudi, IV cild, səh-28; Tarixi ibn Əsir, VI cild, səh-51; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-250.

[442]Əmini, əl-Qədir, VII cild, səh-195-197; Şəhid Məhəmməd Baqir Sədr, Fədək fit-tarix, səh-39-40; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-124.

vəlcə Yəmən əsilli qəbiləyə sığınan gəlmələr sonralar müstəqillik elan edərək İsgəndəriyyə şəhərini ələ keçirdilər. Bu arada Abbasilərin Misir valisi Səriyy ibn Həkəm hicri 205-ci ildə (miladi 820-821) vəfat etdi. Onun ölümündən sonra hakimiyyəti ələ keçirən oğlu Ubeydullah ibn Səriyy müstəqillik elan edərək Bağdadla bütün əlaqələri kəsdi.

Bu üsyanı yatırmaq istəyən xəlifə Məmun böyük bir ordunu Misirə göndərsə də, xilafət qoşunu Ubeydullah tərəfindən məğlub edildi. Beləliklə, Ubeydullah ibn Səriyy Misir torpaqlarının tam hakimi oldu.

Nəhayət, hicri 210-cu il (miladi 825-826) xəlifə Məmunun əmrinə əsasən Abdullah ibn Tahir böyük bir ordu ilə Misirə göndərildi. Hicri 211-ci ildə (miladi 826) baş verən döyüşdə məğlub olan Ubeydullah ibn Səriyy təslim oldu və Bağdada göndərildi.

İsgəndəriyyənin də Abbasilərin hakimiyyəti altına keçməsindın narahat olan Əndəlus Əməviləri, II xəlifə Ömərin nəslindən olan Əbu Ömər Həfs ibn İsa Bəlutinin başçılığı ilə şəhəri tərk edib 826-cı ildə Bizansın əlində olan Krit adasını fəth edərək orada məskunlaşdılar.

Qısa müddət sonra Əğləbilərin (800-909) yaratdığı hərbi donanma Kritdəki müsəlmanların köməyi ilə Siciliya adasına hücum etməyə başladılar. Hicri 212-ci ildə (miladi 827) Saraqozada Bizans valisinə qarşı üsyan baş verdi və üsyançılar Əğləbi hökmdarı I Ziyadətullahdan (817-838) kömək istədi. Əğləbi hökmdarı da Əsəd ibn Furatın başçılığı ilə on min nəfərlik ordunu köməyə göndərdi.

827-ci ildə Afrikadan çıxan Əğləbi ordusu yürüşü davam etdirərək 831-ci ildə Palermonu, 843-cü ildə Mussinanı, 878-ci ildə Saraqozanı və 902-ci ildə Taorminanı ələ keçirərək Siciliyanın fəthini tamamlamışlar.

Əbdus Fihrinin üsyanı hicri 216-217-ci illər (miladi 831-833)

Abdullah ibn Tahirin Azərbaycana vali göndərilməsindən sonra Misirdə yenidən qəbilə qarşıdurmaları canlandı. Misir və Şam valisi təyin edilən gələcək xəlifə Mutəsim üsyanı yatırmaq üçün böyük bir ordunu Misirə göndərdi. Lakin 829-cu ildə (hicri 214) baş verən döyüşdə qalib gələn misirlilər Mutəsimin nümayəndəsini də öldürdülər. Bundan sonra Misirə gələn Mutəsim üsyançıları məğlub edərək onları cəzalandırdı.

Lakin iki il sonra hicrətin 216-cı ili (miladi 831-832) Əbdus Fihrinin başçılığı ilə Misirdə yenidən üsyan baş verdi. Bundan narahat olan xəlifə Məmun Bizansa qarşı hərbi yürüşü dayandırıb, Şamdan Misirə doğru hərəkət etdi. Hicrətin 217-ci ili (miladi 832) Misirə daxil olan Məmun üsyançıları məğlub edərək Əbdus Fihrini edam etdirdi. Əbdus Fihrinin edamından sonra Misirdə asayiş bərpa olundu.

Xəlifə Məmun və Bizansla aparılan müharibələr

Abbasilərlə Bizans arasında son döyüşlər (797, 804, 805 və 806-cı illər) xəlifə Harunun dövründə baş vermiş və bu döyüşlərin hamısında müsəlmanlar qalib gəlmişdir. Məmunun hakimiyyətə gəlişindən sonra Bizansla müsəlmanlar arasında müharibə yenidən canlanmışdır. Tarixi mənbələrə görə bu müharibələrə səbəb Babəkin Bizansla əlaqə yaratmaq istəməsi olmuşdur.

Hicrətin 215-ci ili məhərrəm ayının 27-də (miladi 830) xəlifə Məmun böyük bir ordu ilə Bizans üzərinə yürüşə çıxdı. O, Təkrit, Mənbic, Dabıq, Antakya, Məsis, Mosul və Urfadan keçib Tarsusa gələrək Bizans ərazisinə daxil oldu. Eyni vaxtda xəlifə Məmunun oğlu Abbas uğur qazanaraq Malatyaya daxil olmuşdu. Bizansın möhkəm qalalarından olan Macidə və Qurrə qalaları xilafət ordusu qarşısında tab gətirməyib təslim oldu. Bizansa qarşı edilən bu yürüşdə xəlifə Məmunla birlikdə məhşur sərkərdələrdən Əşnas, Uceyf ibn Ənbəsə və Cəfər ibn Dinar (ləqəbi Xəyyat) da iştirak edirdi. Məmunun əmri ilə Əşnas Sindus qalasını, Uceyf ilə Cəfər isə Sinan qalasını fəth etmişdir. Lakin qışın gəlməsi ilə əlaqədar olaraq xəlifə Məmun yürüşü dayandırıb Anadoluya, oradan da Şama gələrək qışı burada keçirdi.[443]

İslam ordusunun geri qayıtmasından xəbər tutan Bizans imperatoru Feofil böyük bir ordu ilə Tarsus və Məsis şəhərlərinə hücum edərək minlərlə insanı qətlə yetirib xeyli əsirlə geri qayıtdı. Buna cavab olaraq xəlifə Məmun hicrətin 216-cı ili (miladi 831) böyük bir ordu ilə yenidən Bizans torpaqlarına daxil olaraq Antioxiya və Herakliya şəhərlərini ələ keçirdi. Məmunla yanaşı qardaşı Əbu İshaq Mutəsim Bizansın otuz qalasını, sərkərdə Yəhya ibn Əksəm isə Tuvana şəhərini alaraq, xeyli əsir ələ keçirdi. Digər tərəfdən Bizansın bir neçə qalasını ələ keçirən xəlifə Məmunun oğlu Abbas, imperator Feofilin başçılıq etdiyi ordunu da məğlub etmişdir. Lakin yenə də havaların soyuması ilə əlaqədar olaraq Məmun Şama qayıtmışdır.[444]

Bu arada 832-ci ildə Misirə gedən xəlifə Məmun Əbdus Fihrinin üsyanını yatırdıqdan sonra yenidən Bizansla müharibəyə başlamışdır.

Misir səfərindən sonra Bizansın Lölə qalasını mühasirəyə alan xəlifə Məmun və qardaşı Mutəsimin başçılığı altında olan islam ordusu qalanı fəth etmişdir.[445]

Hicrətin 218-ci ili (miladi 833) xəlifə Məmunun əmrinə əsasən oğlu Abbas Tuvanada qalalar tikdirdi. Həmin il xəlifə Məmun Bizansın iri şəhərlərindən olan Amuriyyəni ələ keçirmək məqsədilə Anadoluya daxil oldu. Lakin Tarsus şəhərinə çatdıqda Bədəndun adlı məntəqədə xəstələnərək öldü.[446]

---

[443]Tarixi-Təbəri, V cild, səh-181; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-369.
[444]Tarixi-Təbəri, V cild, səh-182; İbn Kəsir, əl-Bidayə, X cild, səh-270.
[445]Tarixi-Təbəri, V cild, səh-185.
[446] Tarixi-Təbəri, V cild, səh-195.

Xürrəmilər hərəkatının başlanması

Ümumiyyətlə, Azərbaycanda azadlıq hərəkatının parlaq səhifələrindən biri də IX əsrin əvvəllərində ərəb xilafətinə qarşı altmış ildən artıq davam etmiş Xürrəmilər hərəkatıdır. Əslində, Xürrəmilər onları əhatə edən cəmiyyətdəki, bütün ədalətsizliklərin kökünü məhz sosial bərabərsizlikdə görürdülər.

Tarixi mənbələrə görə, xürrəmilər hərəkatı Əbu Müslim Xorasaninin 755-ci ildə ölümündən dərhal sonra, onun intiqamını almaq şüarı altında meydana çıxmışdır. V-VI əsrlərin böyük mütəfəkkiri olan Şərq tarixşünası Əbu Müzəffər İsfərani yazır ki, adətən xürrəmilər iki təriqətə bölünürlər. Biri islamın VII əsrin əvvəllərində meydana gəlməsindən əvvəl mövcud idi və bunlar "Məzdəkilər" adlanırdılar. İkinci təriqəti isə VII əsrin əvvəllərində yaranmış İslam dövləti dövründə meydana gəlmişdir ki, bunları da "Babəkilər" adlandırırdılar.

Ümumiyyətlə, Azərbaycanın istiqlaliyyətini qorumaq, bərpa etmək, onu yadellilərin tapdağından qorumaq Xürrəmilərin əsas idealı idi. Xürrəmilər belə güman edirdilər ki, dünya daimi və əbədi olduğu kimi, insanların ruhu da toxunulmaz və əbədidir. Xürrəmilər tarixdə ilk dəfə olaraq, yadelli zülmkarlara qarşı mübarizədə azadlıq rəmzi kimi qırmızı bayraq qaldırmış və qırmızı paltar geymişlər. Son zamanlara qədər çox saylı müəlliflərin əsərlərində Xürrəmilər hərəkatının məqsədi, mahiyyəti və onun rəhbəri Babəkin şəxsiyyəti kimi, "Xürrəm" sözünün mənası da müxtəlif cür verilmişdir. Bu sözün mənası ilə əlaqədar bir neçə fikir və fərziyyələr irəli sürülmüşdür.

IX-X əsr müəlliflərindən bir neçəsinin fikrinə əsasən, bu söz Ərdəbil yaxınlığında olan Xürrəm adlı yaşayış məntəqəsinin adı ilə bağlıdır.

Guya üsyan ilk dəfə yadellilərə qarşı yerli əhali tərəfindən məhz burada başlandığından, onun iştirakçıları Xürrəmilər adlanmışdır. Ümumiyyətlə, "Xürrəm" sözünün Məzdəkin qadını Xürrəmənin adı ilə bağlı olduğunu söyləyənlər də vardır.

Belə ki, Məzdəkin ölümündən sonra onun zövcəsi Xürrəmə Mədaindən Rey vilayətinə qaçmış, burada ərinin təlimini təbliğ etmiş və bununla da onun ətrafına toplananlar Xürrəmilər adlandırılmışlar. "Xürrəm" sözü fars dilində "şad-xürrəm, yaxşı, qayda" kimi də izah edilir.

Şərqşünas Səid Nəfisinin yazdığına görə, Bəzz dağlarında və ona yaxın ərazilərdə yaşayan Xürrəmilərə rəhbərlik üstündə Cavidan ibn Şəhrək və Əbu İmran yazda və yayda bir-biri ilə vuruşar, qışda isə döyüşü dayandırıb, təsərrüfatları ilə məşğul olardılar.

Cavidan Bəzz qalasının sahibi və Ərdəbil ətrafındakı xürrəmilərin başçısı idi. Çoxlu qoyun sürüsü olan Cavidan, hər il Zəncan bazarında artırdığı qoyunların müəyyən bir hissəsini satıb icmanın cari ehtiyacını təmin edirdi. Gələcək sərkərdə Babəklə də ilk tanışlığı bu səfərlərin birində baş vermişdir. O, bura gətirdiyi iki min qoyunu satıb, geri qayıdarkən Babəkgildə gecələməli olur. Cavidan həmin gecə söhbət zamanı müəyyən edir ki, Babəkin güclü mühakiməsi

və olduqca saf idrakı var. Məhz elə ona görə də anasının razılığı ilə o, Babəki özü ilə Bəzz qalasına gətirir. Qısa müddət ərzində Xürrəmilərin təlimini öyrənən Babək Cavidanın ən yaxın köməkçisi və məsləkdaşı olur.

Tarixi mənbələrin rəsmi məlumatlarına görə, Xürrəmilərin Ərəblərə qarşı azadlıq mübarizələri təxminən altmış bir il davam etmişdir. Onun üçdə iki hissəsini Babəkə qədərki dövr təşkil edir ki, onun da xeyli hissəsinə Cavidan başçılıq etmişdir. Ümumiyyətlə, Xürrəmilər o dövrlərdə Cavidana Allah qədər inanıb ona sadiq idilər.

Hicrətin 200-cü ili (miladi 816) bu məlum, tayfa başçıları arasında gedən döyüşlərin birində Cavidan Əbu İmranı öldürür. Bundan üç gün sonra isə Cavidan Əbu İmrandan döyüş zamanı aldığı yaradan özü də ölür.

Cavidanın ölümündən sonra arvadı onun vəsiyyəti əsasında on səkkiz yaşlı Babəki xürrəmilərin başçısı elan edir. Cavidanın vəsiyyətini arvadının dilindən dinləyən Xürrəmilər icmanın rəhbərliyini olduqca cavan Babəkə verməklə bərabər, eyni zamanda, hamılıqla ona sadiq qalacaqlarına and içdilər. Beləliklə Babək Cavidan səltənətinin sahibi və eyni zamanda, Xürrəmilərin başçısı oldu.

Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi olmaqla bərabər o, olduqca geniş təfəkkürə malik olan icma başçısı idi. Haqqında yazılmış saysız-hesabsız əsərlərin heç birində onun tərcümeyi-halı, şəxsiyyəti və fəaliyyəti haqqında indiyə kimi düzgün məlumat verilməmişdir.

Şübhəsiz ki, bu, heç də təsadüfü deyildir. O mənada ki, cəmisi qırx il ömür sürmüş bu cəsur insan təxminən tarixçilərin yazdığına görə 796-798-ci illərdə Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur.

Səid Nəfisi yazır ki, mədainli kiçik yağ alverçiliyi ilə məşğul olan Abdullah Ərdəbil yaxınlığındakı Bilalabad kəndinə gəlir. O, burada yerli həkim İbn ər-Rəvvadın qulluqçusu Bəruməndlə evlənir. Abdullahın bu qadından ilk doğulan övladı Babək olur.

Abdullah Savalan dağlarına səfəri zamanı tarixə məlum olmayan bir səbəbdən, orada naməlum bir şəxs tərəfindən öldürülür. Bu zaman Babəkin bir yaşı var idi. Ailənin başçısı Abdullahın ölümündən sonra, Bərumənd oğlu Babəklə birlikdə Səraba köçür.

Bu kimsəsiz ailənin maddi vəziyyəti günü-gündən çətinləşdiyi üçün, balaca Babəkin anası Bərumənd özgə qapılarda qulluqçuluq etməkdən başqa eyni zamanda o, döşündə südü olmayan varlı qadınların körpələrinə Babəkin əmdiyi süddən qənaət edib onu satmaqla əldə etdiyi cüzi bir məbləğlə özünü, eyni zamanda körpəsini birtəhər dolandırmaqla olduqca çətin və dözülməz bir şəraitdə Babəki boya-başa çatdırır.

İllər bir-birini əvəz edikdən sonra, Babək qismində olsa böyüdüyü üçün, anasına kömək məqsədilə bir neçə il özgə qapısında çobanlıqla məşğul olur.

Artıq kifayət qədər yaşlaşmış Babək, anasını müəyyən bir müddətə tək qoyub Təbrizə gedir. Burada təxminən iki il sənətkar yanında şagirdlik etdikdən sonra yenidən anasının yanına qayıdır.

Elə bu ərəfələrdə, Cavidanla tanış olan Babək, Xürrəmilərin məskəni olan Bəzz qalasına gedir.

Babəki və onun rəhbərlik etdiyi xürrəmilər hərəkatının üzvlərini İslamdan kənar kimi təqdim etmək həqiqətə uyğun deyildir. Onların İslami əqidəsinin nə qədər düzgün olub-olmadığını dəqiqliklə söyləmək çətin olsa da, tamamilə, İslamdan kənar olduqlarını iddia etmək da yanlışdır.

Bəzi mənbələrdə qeyd olunduğu kimi, Babəkin əsl adı Həsən, atasının adı isə Abdullah imiş. Babəklə birlikdə ələ keçirilib, Bağdadda edam olunmuş qardaşının adı da tarixi mənbələrdə Abdullah olaraq qeyd olunur. Qeyd etdiyimiz bu adların müsəlman mənşəli olması Babəkin müsəlman olmasına əsas verir. Məhşur tarixçi alim Təbəri yazır: "Babək bir vaxt İslam dinini qəbul etmiş və bu münasibətlə Hz.Muhəmmədin *(s)* qızı Hz.Fatimədən (s.ə) olan nəvəsi Həsənin şərəfinə öz doğma adını dəyişib Həsən qoymuşdur."[447]

Babək hicri 201-ci ildə (miladi 816-817) xilafətə qarşı Bəzz qalasını mərkəz seçərək üsyan etmişdir.[448] Babəkin hərbi əməliyyata başladığı vaxt xilafət torpaqları başdan-başa üsyanlara qərq olmuşdu. Əbus-Sərayanın (814-815) başçılq etdiyi üsyan yenicə yatırılmışdı. Əl-Cəzirə Nəsr ibn Şibsin (814-825) tərəfdarlarının əlində idi. Misir də öz növbəsində üsyançıların əlində idi. Qeyd etdiyimiz bu üsyanlar anti-İslam xarakteri daşımırdı. Əksinə, Məhəmməd ibn Cəfər Dibacın və Əbus-Sərayanın qiyamları şiə təmayüllü idi. Nəsr ibn Şibs və Misir qiyamçıları da müsəlman olduqlarını inkar etmirdilər. Həmçinin, xəlifə Məmunu hicrətin 201-ci ili (miladi 817) İmam Rzanı *(ə)* özünə vəliəhd seçməyə məcbur edən səbəblərdən biri də Bəni-Haşim üsyanlarını zərərsizləşdirmək olmuşdur. Mümkündür ki, xəlifəni qorxuya salan və şiələrə güzəştə getməyə məcbur edən amillərdən biri də Babəkin üsyanı olmuşdur.[449]

Müasir dövrdə yazılan bəzi mənbələrdə də Babəkin ifrat şiələrdən olduğu göstərilir. Abdullah Mübəlliği Abadani Babək və onun tərəfdarları haqqında yazır: "Babək Xürrəmdinin firqəsi. Onlar Babəkin dostları və tərəfdarlarıdır; "babəkiyyə" adı ilə tanınırlar və ifrat şiələrdəndirlər. Babək xürrəmdin firqəsinin ən böyük rəhbəri idi; pəhləvi dilində ona "Papək", ərəb dilində "Babək" deyirdilər.[450]

Tarixi mənbələrə görə xürrəmilər hərəkatı Əbu Müslim Xorasaninin 755-ci ildə (hicri 137) ölümündən dərhal sonra, onun intiqamını almaq adı altında başlamışdır. Fars mənşəli kütlələrdən ibarət olan ilk xürrəmilər Xorasandan Reyə kimi irəliləyərək xeyli ərazini ələ keçirdilər. Əbu Müslimin intiqamını almaq adı ilə

---

[447] Tarixi-Təbəri, V cild.
[448] Tarixi-Təbəri, V cild, səh-139.
[449] Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-133.
[450] Tarixi ədyan və məzahibi-cahan, III cild, səh-1386.

baş verən Reydəki üsyana Sindbad, Maveraunnəhrdəki üsyana İshaq, Herat və Sistandakı üsyana isə Ustadsız ləqəbli şəxs başçılıq edirdi. Lakin xəlifə Mənsurun qılınc gücünə yatırdığı bu üsyanlarda altmış mindən artıq qiyamçı öldürülmüşdür.

Xürrəmilər ikinci dəfə Abbasi xəlifəsi Mehdinin hakimiyyəti dövründə hicrətin 162-ci ili (miladi 778) İsfəhan ətrafında qiyam etmişlər. Şərqşünas Səid Nəfisi "Siyasətnamə" əsərində qeyd edir ki, xəlifə Mehdi dövründə "Qızıl bayraqlılar" Xürrəmilərlə birləşərək Reyə qədər gəlib, xəlifə Mehdini çıxılmaz vəziyyətə saldılar. Ətraf əyalətlərin köməyi ilə xəlifə Mehdi çətinliklə də olsa bu üsyanı yatıra bilmişdir.

Bu tarixi hadisədən otuz il sonra yəni hicrətin 192-ci ili (miladi 808) Xürrəmilər ikinci dəfə xəlifə Harun ər-Rəşidin xilafəti dövründə üsyan etdilər. İsfəhanda başlayan bu üsyan tezliklə bir çox əyalətləri də əhatə etdi.

Reydən, Həmədandan, Girədən və bir sıra şəhər və əyalətlərdən gələn on minlərlə adi əhali və şəhər sənətkarları üsyançılara qoşularaq yadelli düşmənə, daha doğrusu, işğalçılara qarşı mübarizə aparırdılar. Tarixi mənbələrə görə üsyançıların sayı yüz mindən artıq olmuşdur.

Bu hadisədən xəbər tutan Xorasandakı xəlifə Harun ər-Rəşid, sərkərdə Abdullah ibn Malikin başçılığı altında olan on min nəfərlik dəstəni Xürrəmilərin üzərinə göndərdi. Bütün imkanlardan istifadə edən Abdullah ibn Malik, üsyançıların bir çox hissəsini qılıncdan keçirir, qadınları və uşaqları əsir edərək xəlifənin hüzuruna göndərir.

Xəlifə Harunun əmrinə əsasən əsir düşmüş kişilərin hamısı qılıncdan keçirilir, qadınlar və uşaqlar isə bazarda qul kimi satılır.

Lakin xəlifənin amansız cəza tədbirləri Xürrəmilərin azadlıq uğrunda mübarizə əzmini məhv edə bilmədi. Onların sıraları seyrəlsə də, yadelli düşmənə qarşı döyüş təcrübələri bütün bu məğlubiyyətin əksinə olaraq zənginləşdi.

Ərəblərə qarşı üsyanlar arasında on illərlə yaranmış fasilələr üsyanın demək olar ki, zəifləməsinin əsas səbəblərindən biri idi. Tarixi mənbələrə görə, Babəkə qədər xürrəmilər xilafət qüvvələrini çox da ciddi təhlükə altına ala bilmirdilər. Babək xürrəmilər icmasında rəhbərliyi ələ aldıqdan sonra, icmada vəziyyət tamamilə dəyişdi. O, xürrəmiləri özünə yaxınlaşdırmaq məqsədilə onlara silah paylayıb, göstərişlər verdikdən sonra, əlverişli məqam çatana kimi gözləməli olduqlarını tapşırdı.

Eyni zamanda, Babək özünə yaxın olan adamlarını Azərbaycanın hər tərəfinə göndərərək, ölkəni yadellilərdən qorumaq üçün onları bir bayrağın altına toplaşmağa və müqəddəs azadlıq mübarizəsinə çağırırdı. Hər tərəfdən gələn minlərlə vətənpərvər bu müqəddəs haraya qoşularaq silaha sarılıb Babəkin bayrağı altına toplaşdılar.

Bir çox tarixi mənbələrdə deyilirdi ki, bu ərəfələrdə Babəkin silahdaşlarının sayı artıq iyirmi min nəfəri keçmişdi. Etiraf etmək lazımdır ki, Babək orduda olduqca ciddi nizam-intizam yaratmışdı. Adətən döyüş zamanı xürrəmilərlə yanaşı xalqın ən cəsur və cəngavər övladları iştirak edirdilər. O cümlədən, Babəkin doğma qardaşları olan Müaviyə və Abdullah, daha sonra Babəkə yaxın

olan Tərxan, Adin, Rütəm, İsma əl-Kürdi kimiləri həmişə döyüşün ön sıralarında döyüşürdülər.

Baxmayaraq ki, bu mövcud azadlıq ordusunun əsas tərkib hissəsini kəndlilər təşkil edirdi. Amma bununla belə orada şəhərdə yaşayan müxtəlif təbəqələrə mənsub olanlar da az deyildi.

Xürrəmilərdə bu şücaətləri görən Azərbaycanda mövcud olan əyalətlər, o cümlədən, Cibal, Ərməniyyə, Xorasan, Rey, Həmədan, İsfəhan, Masabazan, Deyləm, Astrabad və bir sıra başqa əyalətlərin əhalisi xürrəmilərin sırasına qoşularaq onların sayını artırmaqda idilər.

Ərəb tarixçisi Bağdadinin verdiyi məlumatlara əsasən, təkcə Azərbaycanın cənubunda və şimalında Babək tərəfdarlarının sayı üç yüz min nəfərə çatmışdı. Xürrəmilər tərəfindən Babəkin başçılığı ilə yaradılmış bu azadlıq mübarizəsi bir çox əraziləri bürüsə də, bütün tarixi mənbələr təsdiq edir ki, Babəkin başçılıq etdiyi Xürrəmilərin vətəni məhz Azərbaycan olmaqla yadellilərə qarşı, ərəb xilafətinə qarşı azadlıq mübarizəsi yalnız buradan başlamışdır.

Ancaq onu da yaddan çıxarmaq olmaz ki, Xürrəmilər mütəşəkkil döyüşlərə başlamamışdan çox-çox əvvəl Azərbaycanın bir çox şəhər və kəndlərində yadelli istilaçılar minlərlə günahsız yerli əhalini qılıncdan keçirərək məhv etmişdilər. Məhz elə ona görə də bu xalqı olduqca məzlum xalq kimi qəbul edərək və hələ Babəkin və onun yenilməz ordusu Xürrəmilər barədə kifayət qədər məlumatı olmayan Abbasi xəlifəsi Məmun Babəkin başçılq etdiyi qüvvəyə bir o qədər də əhəmiyyət verməyərək, azərbaycanlılara qarşı yalnız 819-cu ilə qədər, daha doğrusu Xürrəmilərə qarşı nizami ordu göndərməyi özü üçün vacib hesab etmirdi. O, yalnız Azərbaycan ərazisində daimi hərəkətdə olan ərəb hərbi qüvvələrindən istifadə edirdi.

Lakin Xürrəmilər hərəkatının getdikcə genişlənib təhlükəli bir qüvvəyə çevrildiyini görən Abbasi xəlifəsi Məmun narahat olmağa başladı. Bu ərəfələrdə Xürrəmilər demək olar ki, yadellilərin xeyli miqdarda hərbi sursatlarını ələ keçirməklə bərabər, canlı qüvvələrini də döyüş meydanında darmadağın etdilər. Xürrəmilərin Ərəblər üzərindəki hərbi uğurları xilafəti bir növ qarşıda duran təhlükəyə ciddi fikir verməyə məcbur etdi.

Məhz ona görə də, xəlifə Məmun hicrətin 204-cü ili (miladi 819) sərkərdə Yəhya ibn Muazın başçılığı ilə Xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Lakin baş verən döyüşdə Yəhyanın ordusu Xürrəmilər tərəfindən məğlub edildi.[451]

Yəhya ibn Muazın uğursuzluğunu görən xəlifə Məmun, onu bu vəzifədən azad edib, əl-Cəzirəyə vali təyin etdi. Azərbaycan və Ərməniyyə torpaqlarına Əbu Musa İsa ibn Məhəmməd ibn Əbu Xalid vali təyin edildi.

İsa ibn Məhəmməd ixtiyarında olan böyük bir ordu ilə Babəkin nəzarəti altında olan ərazilərə daxil oldu. Rəvvadilər sülaləsinin əcdadı olan Məhəmməd ibn Rəvvad Əzdi və digər yerli zadəganlar da ona tabe olaraq yardım etdilər.

[451]Tarixi-Təbəri, V cild, səh-151.

Hicrətin 206-cı ili (miladi 821-822) baş verən bu döyüşdə də Babəkin başçılığı altında olan xürrəmilər xilafət ordusunu məğlub etdi.[452] Bu döyüşdə qalib gələn Xürrəmilər, Sunini, Arxası, Utini, Beyləqanı, Qarabağı və Arranın bir sıra əyalət və şəhərlərini azad etdilər.

Məmun İsa ibn Məhəmmədin də uğursuzluğunu görüb 824-825-ci illərdə (hicri 209) "Züreyq" ləqəbli Sədəqə ibn Əli Əzdini Azərbaycan və Ərməniyyə valisi təyin etdi. Züreyqin ardınca Əhməd ibn Cüneyd İskafi adlı sərkərdə də onun köməyinə göndərildi. Xürrəmilərə qarşı baş verən döyüşdə Əhməd ibn Cüneydin əsir düşməsi ilə xilafət ordusu yenə də meydanı məğlub şəkildə tərk etdi.

Xilafət ordusunun yenə də məğlub olduğunu öyrənən xəlifə Məmun, bu dəfə Azərbaycan və Ərməniyyəyə İbrahim ibn Leysi vali təyin etdi. Lakin vəzifəsini itirməklə barışmayan Züreyq İbrahim ibn Leysə qarşı mübarizəyə başladı. Təhlükəni aradan qaldırmaq istəyən Məmun, 827-ci ildə (hicri 212) məhşur sərkərdə Məhəmməd ibn Hümeyd Taini (Qəhtəbə ibn Şəbib Tainin nəvəsi) böyük bir ordu ilə Azərbaycan və Ərməniyyə vilayətinə göndərdi. Azərbaycana daxil olan Məhəmməd əvvəlcə Züreyqi məğlub edərək onu xəlifə Məmunun hüzuruna göndərdi.

Təxminən iki illik ciddi hazırlıqdan sonra, nəhayət hicrətin 214-cü ili (miladi 829) Həştadsər dağı ətrafında Xürrəmilərlə xilafət ordusu arasında həlledici bir döyüş baş verdi.

Ərəblərin və eləcə də xəlifənin böyük ümid etdiyi bu döyüşdə əsas məqsəd Bəzz qalasını ələ keçirmək və bununla da Babəkin müqavimətini birdəfəlik sındırmaq idi. Lakin Babəkin hərbi şücaəti və səriştəsi, eyni zamanda sərkərdəlik məharəti nəticəsində düşmənin nəzərdə tutduğu niyyəti baş tutmadı.

Belə ki, ərəblərin döyüşdə iştirak edən 150 minlik ordusundan 30 min nəfəri döyüş meydanında məhv edildi. Eyni zamanda, baş verən bu döyüşdə ərəb sərkərdəsi Məhəmməd ibn Hümeyd Taidə öldürüldü. Sərkərdənin qohumlarından biri rəhbərliyi öhdəsinə alaraq, ordunun qalıqlarını çətinliklə döyüş meydanından çıxara bildi.

Məhəmməd ibn Hümeydin xürrəmilərlə döyüşdə öldürüldüyünü eşidən Məmun, Misirdə olan Abdullah ibn Tahiri Azərbaycana göndərdi. Lakin bu arada Xorasan valisi qardaşı Təlhə ibn Tahirin ölümü ilə əlaqədar olaraq o, xəlifə tərəfindən Xorasana vali təyin edildi. Bunun ardınca hicrətin 214-cü ili (miladi 829) Əli ibn Hişam böyük bir ordu ilə Azərbaycana göndərildi. Eyni zamanda Azərbaycan, Cibal, Qum və İsfəhan bölgələrinin ixtiyarı Əli ibn Hişama verildi. Lakin yeni valinin insanlarla pis rəftarını öyrənən xəlifə Məmun, onu cəzalandırmaq üçün Üceyf ibn Ənbəsəni onun üzərinə göndərdi. Hicrətin 217-ci ili (miladi 832) Əli ibn Hişamı məğlub edən Üceyf ibn Ənbəsə onunla birlikdə qardaşını da edam etdirdi.

Bu müddət ərzində Babək xilafət sərkərdələri arasındakı qarışıqlıqdan istifadə edərək, üsyanın sərhədlərini daha da genişləndirdi. Hicrətin 215-ci ili (mi-

[452] Tarixi-Təbəri, V cild, səh-153.

ladi 830) ərəbləri məğlub edən Xürrəmilər olduqca böyük strateji əhəmiyyətə malik Həmədan şəhərini tutdular. Eyni ildə Babək İbrahim ibn Leysin başçılıq etdiyi xilafət ordusunu da məğlub etdi.

Həmədanın Babək tərəfindən tutulması xilafətə olduqca ağır zərbə idi. O mənada ki, xilafətin paytaxtı olan Bağdadı, imperiyanın şərq torpaqları ilə birləşdirən yeganə yol məhz buradan, daha doğrusu, Həmədandan keçirdi.

Məhz bu baxımdan IX əsrin 30-cu illərinin əvvəlləri, azadlıq müharibəsinin ən uğurlu dövrü qəbul olunmuşdur. Babəkin rəhbərliyi altında hərəkət edən üsyançılar Abbasilər xilafətini demək olar ki, əsaslı surətdə lərzəyə salmışdılar.

Ərəb tarixçisi Dinəvərinin yazdığına görə, bu ərəfələrdə Babəkin bu müqəddəs işi olduqca böyük vüsət aldığı üçün, ərəblər artıq ondan sözün əsl mənasında qorxmağa başlayırdılar. O mənada ki, onunla nə qədər vuruşurdularsa, nə qədər hiylələrə əl atırdılarsa, lakin ona, Xürrəmilərə, azadlıq hərəkatının başçısı Babək əl-Xürrəmiyə qalib gələ bilmirdilər. Babək xilafət qoşunlarını döyüş meydanında məğlub edir, qoşun sərkərdələrini öldürür, sağ qalanlarını isə əsir götürürdü.

Ərəb mənbələri Xürrəmilərin xilafət qoşunları üzərindəki bu üstünlüklərinin əsas səbəblərini üsyanın xilafət sarayında mövcud hakimiyyət tərəfindən düzgün qiymətləndirilməməsi ilə izah edirdilər. Eyni zamanda, üsyançılarla birgə döyüşmək əvəzinə hakimiyyət üstündə çəkişmələrlə məşğul idilər.

Halbuki onlar bütün bu mövcud səbəbləri gizlədərək, guya Xürrəmilərlə döyüşlərin ərəb əsgərlərinin vərdiş etmədiyi dağlarda, keçilməz dar yollarda və soyuq hava şəraitində aparılmasında görürdülər. Baxmayaraq ki, bu məlum məğlubiyyətlərin səbəbini bu sayaq izah etməklə, siyasətlə məşğul olan saray əyanları xəlifəni bir növ sakitləşdirmək məqsədilə edirdilər, halbuki, bütün bunların heç biri ərəb ordularının məğlubiyyəti üçün real səbəb ola bilməzdi.

Məşhur tarixçi Səid Nəfisi öz yazılarında obyektiv olaraq Xürrəmilərin, başda Babək olmaqla əldə etdikləri müvəffəqiyyətləri Azərbaycan xalqının mövcud ərəb ordularına qarşı apardığı milli azadlıq mübarizəsi kimi qiymətləndirərək bir daha qeyd edirdi ki, Babəkin ərəb orduları üzərindəki qələbələrinin əsas səbəbini xalqın birliyində axtarmaq lazımdır.

Bütün bunlara sübut olaraq 821-ci ildə Xürrəmilər, başda Babək olmaqla ərəb sərkərdəsi İsa ibn Məhəmmədin ordusunu, 824-cü ildə ərəb sərkərdəsi Züreyq ibn Əlinin ordusunu əsaslı surətdə məğlub edərək, eyni zamanda, sərkərdə Əhməd ibn Cüneydi əsir götürmüşdülər.

Bu ərəfələrdə Bizansla müharibə, Suriya və Misirdəki üsyanlar, bir yandan da Xürrəmilərin azadlıq uğurundakı müharibəsi bir vaxtda düşdüyündən xilafəti bir növ çaşdırmışdı.

Sadəcə olaraq, ərəblər Xürrəmilərin qarşısını heç cür ala bilmirdilər. Babəkin başçılığı ilə yaradılmış azadlıq hərəkatı, demək olar ki, Azərbaycanı ərəblərdən tam azad etmişdilərsə də, buna baxmayaraq, hələ Azərbaycan torpaqlarının bəzi qalalarında düşmənin hərbi dəstələri fəaliyyət göstərməkdə idi. Amma

bununla belə, üsyan davam edirdi. O cümlədən, üsyan İranın bir çox əyalətlərini də bürümüşdü.

Xəlifə Məmun üsyanın bu qədər geniş vüsət aldığı dövrdə bütün bu qeyriadi üsyanlara və döyüşlərdəki bir-birinin arxasınca məğlubiyyətlərə dözə bilməyib, 833-cü ildə vəfat etdi. Vəfat edərkən vəliəhdi Mutəsimə öz vəsiyyətində, əsasən Xürrəmilərə və onların başında duran Babəkə qarşı olduqca amansız olmağı tələb etmişdi. Bu barədə tarixçi Təbəri yazır ki, ömrünün axır anlarını yaşayan xəlifə Məmun vələhdi Mutəsimdən qəti olaraq tələb edirdi ki, o, Xürrəmilərin öhdəsindən tam gəlmək üçün onlara qarşı növbəti müharibəyə qətiyyətli və olduqca rəhmsiz bir sərkərdə tapıb göndərsin.

Ümumiyyətlə, Məmunun xilafət dövrünə təsadüf edən on yeddi il ərzində (hicri 201-218/ miladi 816-833) xürrəmilər xilafətin altı böyük ordusunu məğlub etdilər. (819-cu il Yəhya ibn Muaz, 821-ci il İsa ibn Məhəmməd, 824-cü il Sədəqə ibn Əli Züreyq və Əhməd ibn Cüneyd İskafi, 829-cu il Məhəmməd ibn Hümeyd və 830-cu il İbrahim ibn Leysin başçılığı altında olan ordular xürrəmilər tərəfindən məğlub edilmişdir.)

Məmun və elm

Abbasilər zamanında yunan, hind (sanskrit), fars (pəhləvi), siryani, qibti və s. dillərdə olan ədəbiyyat nümunələri daha geniş həcmdə tərcümə olunmağa başladı. Xəlifə Mənsurun (754-775) dövründə yaşamış fars əsilli Əbu Məhəmməd Abdullah ibn Müqəffe hind dilində yazılmış, sonralar fars dilinə tərcümə olunmuş "Kəlilə və Dimnə" kitabını və Aristotel ilə Porfirinin əsərlərini ərəb dilinə tərcümə etdi. Bunlardan başqa xəlifə Mənsur Hippokrat, Qalen, Aristotel kimi qədim dünya alimlərinin bir neçə əsərini, o cümlədən, Ptolemeyin "Almagest" ("əl-Məcəsti") və Evklidin "Əsaslar" kitablarını ərəb dilinə tərcümə etdirdi.

"Xilafətin qızıl dövrü" adlandırılan xəlifə Harunun dövründə yunan, fars və hind irsi üzərində tədqiqat işləri daha da sürətləndi. Harunun göstərişi ilə paytaxt Bağdadda "Xəzanət-ül-hikmə" adlı böyük bir kitabxana inşa edildi. Bu kitabxanada yalnız müsəlman alimlərin əsərləri deyil, qədim dünya filosoflarının da kitabları saxlanılırdı. "Xəzanət-ül-hikmə" yalnız kitabxana kimi deyil, həm də elm mərkəzi kimi fəaliyyət göstərirdi. Xəlifə kitabxananın yüksək səviyyəli fəaliyyətini təmin etmək üçün buraya bir neçə fars, yəhudi və yunan mənşəli alimlər cəlb etmişdi. Bunların sırasında bacarıqlı təbib kimi ad qazanmış, Harunun və sonrakı bir neçə xəlifənin saray həkimi olmuş siryani mənşəli Yuhənna ibn Masiveyh və fars əlyazmalarını ərəb dilinə tərcümə etmiş, eyni zamanda Harunun saray münəccimi işləmiş fars mənşəli Əbu Səhl Fəzl ibn Novbəxt öndə gedirdilər.

Məmunun hakimiyyət illərində "Xəzanət-ül-hikmə" daha da inkişaf etdi. Məmun zamanında bu elm mərkəzini "Dar-ul-hikmə" və "Beyt-ul-hikmə" (yəni "Hikmət evi") adlandırmağa başladılar. "Dar-ul-hikmə" iki bölmədən ibarət idi: "Xəzanət-ül-hikmə" adını qoruyub saxlamış birinci bölmə xəlifə Harunun

dövründə yaradılmış kitabxananın fondu üzərində qurulmuşdu. "Dar-ut-tərcümə" adlı ikinci bölmə isə yunan, pəhləvi və hind mənbələrinin ərəbcəyə tərcümə mərkəzi kimi fəaliyyət göstərirdi.

"Dar-ül-hikmə"nin hansı ilə qədər fəaliyyət göstərməsi dəqiq bilinmir. Məlum olan budur ki, "əl-Fihrist" kitabının müəllifi İbn Nədimin (v. 995) sağlığında mərkəz öz işini davam etdirirmiş. Ehtimala görə, bu möhtəşəm elm və maarif mərkəzi monqolların Bağdada hücumuna qədər (hicri 656/ miladi 1258) mövcud olmuşdur.

Abbasi xəlifəsi Əbul-Abbas Abdullah Məmun hicrətin 218-ci ili rəcəb ayının 18-də (miladi 833-cü il avqustun 9-da) Tarsus şəhəri yaxınlığında olan Bədəndun adlı məntəqədə vəfat etmişdir. Cənazəsini Tarsusa gətirərək orada dəfn etmişlər.[453]

Hz.Əli ibn Musa Rza (ə)

Həzrətin mübarək adı Əli, Rza isə onun ləqəbidir. Rza – razılıq mənasındadır, yəni Allah, Hz.Peyğəmbər *(s)* və digər imamlar ondan razı qalıblar. Bu keyfiyyət digər imamlarda da olmuşdur, lakin Hz.Rzanın *(ə)* xüsusiyyəti odur ki, həm onunla müvafiq olanlar, həm də müxalif olanlar ondan razı qalıblar. İmam Rza *(ə)* hicrətin 148-ci ili zilqədə ayının 11-də (və ya 15-də) miladi 763-cü il Abbasi xəlifəsi Mənsur Dəvaniqinin xilafəti dövründə Mədinədə anadan olmuşdur. Atası Hz.Musayi Kazim *(ə)*, anası isə Zəngibar əhlindən olan Nəcmə adlı bir kəniz idi ki, zöhd və təqva baxımından misilsiz bir qadın idi. Tarixi mənbələrdə onun adını Əsma, Səmanə, Ərva, Tuktəm və Xeyzəran kimi də qeyd edirlər. Rəvayətlərdə deyilir ki, İmam Kazimin *(ə)* anası Həmidə Nəcmə adlı kənizi yenicə almışdı ki, yuxuda Hz.Peyğəmbəri *(s)* gördü. O Həzrət *(s)* buyurdu: "Ey Həmidə, Nəcməni oğlun Musaya bağışla, ondan yer əhlinin ən yaxşı adamı doğulacaq."

Həmidə bu əmrə əməl edib, Nəcməni İmam Kazimə *(ə)* bağışladı. O pakizə qadın İmam Rzanı *(ə)* dünyaya gətirəndən sonra Həmidə ona Tahirə yəni pakizə qadın adını verdi.

İmam Rza *(ə)* ilə Mədinədən Tusa qədər yol yoldaşı olan İbrahim ibn İsmail deyir: "Onun kiməsə zülm etdiyini, danışanın sözünü kəsdiyini, möhtacı rədd etdiyini, kiminsə yanında ayağını uzatdığını, bizimlə birlikdə oturarkən belini nəyəsə söykədiyini və kimisə təhqir etdiyini görmədim."

İmam Rza *(ə)* imam olduğu müddətin on ilini Harun ər-Rəşidlə bir dövrdə yaşamışdır. Bu müddət Harunun özbaşınalıq, azğınlıq mühiti olması ilə yanaşı, həm də İmam Rzanın *(ə)* nisbətən azad yaşadığı və elmi fəaliyyəti dövrü hesab edilir. Çünki Harun bu müddət ərzində o Həzrətə toxunmamış və İmam *(ə)* açıq şəkildə fəaliyyət aparmışdır. Harunun İmam Rzanı *(ə)* nisbətən azad buraxmasının səbəbi bəlkə də, onun İmam Kazimin *(ə)* qətlindən yaranan narahatçılı-

[453]Tarixi-Təbəri, V cild, səh-195-197; Tarixi-Məsudi, IV cild, səh-42-45; Siyuti, Tarixul-xüləfa, səh-312-313.

ğıdır. Harun bu böyük cinayətin üstünü örtməyə çalısa da bacarmamışdır. Məhəmməd ibn Sənandan rəvayət olunur ki, Harun xəlifə olduğu vaxt İmama *(ə)* dedim: "Harunun qılıncından hələ də qan damcıladığı halda, siz İmamət məqamınızı aşkar edərək atanızın yerinə keçmisiniz." İmam Rza *(ə)* buyurdu: "Babam Peyğəmbərin *(s)* sözü mənə qüvvət verərək məni qüvvətləndirir. O Həzrət *(s)* buyurmuşdur: "Əgər Əbu Cəhl mənim başımdan bir tük əskik edərsə, onda mən heç Peyğəmbər deyiləm". Məndə sizə deyirəm ki, əgər Harun mənim başımdan bir tük əskik edərsə, onda mən heç İmam deyiləm."[454]

Harundan sonra hakimiyyətə gələn oğlu Əminin dövründə İmamla *(ə)* dövlət məmurları arasında heç bir toqquşma tarixi mənbələrdə qeyd olunmayıb. Bu dövrdə Abbasi xəlifələri daxili ixtilaflara, Əminlə Məmun arasındakı münaqişələrə, Məmunun vəliəhdlikdən çıxarılıb Əminin oğlu Musanın vəliəhd seçilməsi kimi çəkişmələrə məruz qaldıqları bir müddətdə İmam Rza *(ə)* və ümumiyyətlə Hz.Əlinin *(ə)* nəslindən olanlara əziyyət etməyə vaxt tapa bilməmişdilər. Bu dövr İmam Rzanın *(ə)* nisbi azadlıq və mədəniyyət təbliğləri apardığı dövr hesab edilir.[455]

Əmindən sonra Məmunun hakimiyyətə gəlişi ilə İmam Rzanın *(ə)* həyatında yeni bir səhifə açılır. Bu elə bir səhifə idi ki, başdan-başa İmamın *(ə)* qəmli-qüssəli illəri ilə dolu idi. Xəlifəliyi qəsb edənlərin ən çox qorxduqları şəxslər Hz.Əlinin *(ə)* övladları olmuşdur. Çünki, camaatın böyük bir qismi xilafəti onların haqqı bilirdi. Elə bu səbəbdən də, Hz.Əli *(ə)* övladları daim işgəncələrə məruz qalır, sonda da xəlifələrin əli ilə şəhid edilirdilər.

Bütün bunları götür-qoy edən xəlifə Məmun belə qərara gəlir ki, İmama *(ə)* yaxın olmaq üçün onu Mərv şəhərinə gətirib onunla mülayim rəftar etsin və onun elmi-ictimai mövqeyindən istifadə etməklə yanaşı bütün işlərini nəzarət altına alsın. Məmunun təkidindən sonra İmam Rza *(ə)* Mərvə doğru hərəkət etdi.[456] Məmun İmam Rzanın *(ə)* karvanını gətirməyi İsa ibn Cəludi və Rəca ibn Zəhhaqa tapşırmışdı. Xəlifə Məmunun göstərişinə əsasən İmam Rzanın *(ə)* karvanının Mərvə gəldiyi yol Bəsrə, Əhvaz və Fars şəhərlərindən keçirdi.[457] Xəlifə bu yolu seçmişdi ki, karvan şiələrin mərkəzi olan Cəbəl, Kufə, Kirmanşah və Qum şəhərindən keçməsin.

İmam Rzanın *(ə)* keçdiyi şəhərlərdən biri də Nişapur oldu. Nişapurda yaşayan bütün şiələr İmamın *(ə)* oradan keçəcəyini biləndə onu qarşılamağa çıxdılar. Onlar imamla *(ə)* qarşılaşarkən İmam *(ə)* başını kəcavədən çıxarıb buyurdu: Atam Musa ibn Cəfər öz atası Cəfər ibn Məhəmməddən, o öz atası Məhəmməd ibn Əlidən, o öz atası Əli ibn Hüseyndən, o öz atası Hüseyn ibn Əlidən, o Allahın Rəsulundan, o Cəbraildən, o da Allahdan rəvayət edib: "La ilahə illəllah kəlməsi mənim qalamdır, hər kim bu qalaya daxil olsa əzabımdan amanda

[454] Biharul-ənvar, 49-cu cild, səh-155.
[455] Mühəqqiq Seyyid Əli, İmam Rzanın (ə) həyatı, səh-60.
[456] Kəşful-ğummə, III cild, səh-65; əl-İrşad, səh-309.
[457] Uyuni əxbarir-Riza, II cild, səh-194.

qalar.” Bir neçə addım getdikdən sonra İmam *(ə)* əlavə edib buyurdu: “Amma bunun şərtləri vardır ki, mən özüm onun şərtlərindənəm.”[458] Bu hədis İslam tarixində və hədis elmində “silsilətuz-zəhəb” (qızıl zəncir) adlanır. Ravilərin hamısı məsum olduğu və birbaşa Allahdan rəvayət edildiyi üçün qızıla bərabər tutulmuş və belə adlandırılmışdır. Rəvayətin digər bir əhəmiyyəti də budur ki, İmam Rza *(ə)* Allahı düzgün şəkildə tanımağın və ilahi əzabdan amanda qalmağın şərtlərindən biri kimi onun imamətini və deməli bütün Əhli-beyt imamlarının vilayətini qəbul etməyi vacib bilmişdir. İmamət elə mühüm məsələdir ki, onsuz tövhidi düzgün anlamaq, dünya və axirət səadəti qazanmaq mümkün deyildir. “La ilahə illəllah” kəlməsi həqiqətdə Quran deməkdir və bu hədisdən belə çıxır ki, Quran Əhli-beytsiz səadət yolunu göstərmir.

Allah Hz.Əlini *(ə)* vilayət məqamına seçən zaman “İkmal” ayəsində buyurmuşdur: **“Bu gün sizin dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və İslamı sizə din olaraq seçdim.”**[459]

Allah Hz.Əlini *(ə)* canişin seçməzdən əvvəl nazil etdiyi təbliğ ayəsində belə buyurur: **“Ey Peyğəmbər! Sənə nazil olanı insanlara təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirməmiş olarsan.”**[460]

“Vilayətin” həqiqətini anlamaq mühüm məsələdir. Vilayət sözünün müxtəlif mənaları vardır ki, biri də dost deməkdir. Yəni, bütün müsəlmanlar Əhli-beyti sevməlidirlər. Əhli-beytin sevgisi böyük nemət və onlarla düşmənçilik isə zəlalətdir. Sünni və şiə mənbələrində Peyğəmbərdən *(s)* bu rəvayət nəql olunmuşdur: “Agah olun! Ali-Muhəmmədin sevgisi ilə ölənlər şəhiddirlər. Agah olun! Ali-Muhəmmədin sevgisi ilə ölənlər bağışlanmışlar. Agah olun! Əhli-beyt sevgisi ilə ölənlər tövbə ilə ölmüşlər. Agah olun! Əhli-beytin sevgisi ilə ölənlər kamil imanla dünyadan getmişlər. Agah olun! Əhli-beytə nifrət bəsləyərək ölənlər kafir kimi ölmüşlər. Agah olun! Əhli-beytə nifrət bəsləyərək ölən şəxsin burnuna behiştin qoxusu dəyməyəcəkdir.[461]

Vilayət sözünün ifadə etdiyi mənalardan biri də başçıdır. Yəni, vilayət əhli o kəsdir ki, onun qəlbən başçısı Əlidir *(ə)*. İmam Səccad *(ə)* bu haqda buyurur: “Vilayət və məhəbbət Əhli-beytə itaət olmadan mənasızdır.” Allah Quranda buyurur: **“Allah (ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə tağutdur (şeytan). Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar.”**[462]

İmam Rzadan *(ə)* nəql etdiyimiz hədisin mənası bu olur ki, “la ilahə illəllah” qalasına daxil olan şəxsin başçısı Allah olmalı, əqidəsi, əməli, danışığı və rəftarında Allahdan başqa heç bir varlığın təsir bağışlaya bilməyəcəyinə inan-

---

[458] Şeyx Səduq, Məaniyyul-əxbar, səh-370-371.
[459] Maidə surəsi, ayə-3.
[460] Maidə surəsi, ayə-67.
[461] Təfsiri-Zəməxşəri.
[462] Bəqərə surəsi, ayə-257.

maqdır. Bu vilayəti qəbul edənlər möhkəm qalada məskunlaşırlar. İmam *(ə)* bu hədislə imanın bütün dərəcələrini, səadətin bütün mərhələlərini, Quranın bütün mənasını və sünnənin bütün incəliklərini vurğulamışdır.

İmam Rza *(ə)* Mərvə çatdıqdan sonra Məmun hakimiyyəti qəbul etməyi İmama *(ə)* təklif etsə də İmam *(ə)* bu təklifi rədd etdi.[463] Bunu qabaqcadan bilən Məmun dedi: "Onda vəliəhdliyi qəbul et." İmam *(ə)* bu təklifidə rədd etdikdə Məmun bu dəfə İmamı *(ə)* üzürlü hesab etməyib hirsli halda bu cümləni dedi: "Ömər ibn Xəttab vəfat edərkən altı nəfərdən ibarət şura təyin etdi. Şuranın üzvlərindən biri də Hz.Əli *(ə)* idi. Ömər həmçinin demişdi ki, kim müxalif olsa, boynu vurulsun. İndi səndə mənim təklifimi qəbul etməlisən! Çünki mən bundan başqa çarə görmürəm."[464] Sonra Məmun İmamı *(ə)* təhdid edərək dedi: "Sən həmişə mənim fikrimin əksinə hərəkət edirsən. And olsun Allaha ki, əgər vəliəhdlikdən imtina etsən səni öldürəcəyəm."[465] İmam Rza *(ə)* məcbur olub Məmunun təklifini qəbul edərək buyurdu: "Mən vəliəhdliyi bu şərtlə qəbul edirəm ki, ölkə işlərində bir dənə də olsun, hökm verməyim və hakimiyyət orqanlarında da hakim təyin edib çıxartmaq, hökm və fətva vermək kimi işlərə qarışmayım."

Məmun İmam Rzanı *(ə)* istər xəlifə, istərsə də vəliəhd kimi hakimiyyətə gətirməkdə bir neçə məqsəd güdürdü: 1) İmam Rzanı *(ə)* yüksək məqama əyləşdirməklə, xilafət ərazisində baş qaldırmış Əhli-beyt üsyanlarını yatırmaq mümkün olacaqdı. Həqiqətən İmam Rza *(ə)* xəlifə və ya vəliəhd olduqdan sonra Əhli-beytinin haqqının qəsb olunması barədə iddialar qüvvədən düşəcəkdi. 2) İmam Rza *(ə)* siyasi hakimiyyətə gətirilməndən sonra ölkədə baş verən ədalətsizliklərə cavabdeh olacaqdı. 3) İmam *(ə)* Mərvə gətirilərək, yüksək dövlət məqamına təyin edilməklə, daim Məmunun nəzarəti altında qalacaq, sərbəst fəaliyyət imkanından məhrum olacaqdı. Bütün bunlardan sonra hicri 201/miladi 817-ci ildə Mərv şəhərində İmam Rzaya *(ə)* beyət mərasimi keçirildi. Məmunin əmri ilə bütün saray əyanları və qoşun başçıları İmamı *(ə)* vəliəhd kimi tanıdılar. İmama beyət edən ilk şəxs Məmunun oğlu Abbas oldu.[466]

İmamla *(ə)* bağlılığını daha da sıx etmək istəyən Məmun qızı Ümmi Həbibəni İmama *(ə)* verdi. Məmunun məqsədi bu idi ki, qızı ilə İmamın *(ə)* övladı olsun və Məmun özündən sonra hakimiyyəti ona buraxsın. Bu uşaq bir tərəfdən Abbasilərə, digər tərəfdən imamət sülaləsinə mənsub olduğu üçün hər iki tərəf onun hakimiyyətini qəbul edəcəkdi.

İmam Rza *(ə)* hicrətin 203-cü ilində səfər ayının 30-u, miladi 818-ci ilin sentyabrında Xorasanın Tus şəhərində Məmunun göndərdiyi zəhərli üzümü yeyərək şəhid oldu və həmin şəhərdə Harunun qəbri yanında dəfn edildi. Künyəsi Əbəl-Həsəndir.

---

[463] Kəşful-ğummə, III cild, səh-66.
[464] əl-İrşad, səh-310.
[465] İləluş-şəraye, I cild, səh-226.
[466] İmam Rzanın həyatı, səh-82-87.

İmam Rzanın *(ə)* ləqəbləri:
1) Rza – razılıq mənasındadır;
2) Siracullah – Allahın nur saçan yolu;
3) Sabir – çox səbr edən;
4) Fazil – fəzilətli;

İmam Rzanın *(ə)* zövcələri:
1) Ümmi Həbibə binti Məmun; 2) Reyhanə – Hz.Təqinin *(ə)* anası;

İmam Rzanın *(ə)* övladları:
1) Məhəmməd Təqi *(ə)*; 2) Qane; 3) Həsən; 4) Cəfər; 5) Hüseyn; 6) Aişə.

İmam Rzanın *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Maşaallahu la qüvvətə illa billah" – Hər nə Allah istəsə; Allahdan başqa heç bir qüvvə və qüdrət sahibi yoxdur.

İmam Rzanın *(ə)* müasiri olmuş xəlifələr:
1) Harun ər-Rəşid (786-809);
2) Əmin (809-813);
3) Məmun (813-833).

Əbu İshaq Məhəmməd Mutəsim hicri 218-227 (miladi 833-842)

Əbu İshaq Məhəmməd Mutəsim ibn Harun hicrətin 179-cu ili şəban ayında (miladi 795, oktyabr) Bağdadda anadan olmuşdur. Anası türk cariyələrindən olan Maridə adlı bir xanım idi.[467] Mutəsimin türk əsilli qadından doğulduğunu söyləyənlər, onun xilafəti dövründə türklərin təsiri altına düşməsini sübut kimi qeyd edirlər. Hətta bəzilərinə görə, Mütəsimin xəlifə seçilməsində də türklərin əvəzsiz xidməti olmuşdur.

Böyük qardaşı Məmundan fərqli olaraq, Mutəsim elm və biliyə yox, fiziki hazırlıq tələb edən oyunlara və hərbi təlimlərə daha çox maraq göstərirdi. Elmdən uzaq halda böyüyən, hətta yazıb-oxumağı bacarmayan Mutəsim, bunların əvəzində fiziki cəhətdən güclü, hərb sənətini yaxşı bilən, ağır döyüşlərdən və uzun müharibələrdən çəkinməyən bir hökmdar idi.

Harunun vəfatından sonra Əminlə Məmun arasında gedən xilafət uğrunda mübarizəyə qarışmayan Mutəsim, eyni zamanda onlardan heç birini müdafiə etmir. Xəlifə Məmunun xilafəti dövründə hicrətin 200-cü ili (miladi 816) Bağdadda çevriliş edərək özünü xəlifə elan edən İbrahim ibn Mehdiyə qarşı mübarizə aparmayan Mutəsim, eyni zamanda onun əlaltısınada çevrilmir. Məmunun Bağdadı ələ keçirməsindən sonra fiziki cəhətdən daha güclü olan Mutəsim xəlifənin ən yaxın sərkərdələrindən birinə çevrilir. Məmunun xilafəti dövründə hərbi

[467] Tarixi-Təbəri, V cild, səh-205.

cəhətdən özünü doğruldan Mutəsim 829-cu ildə (hicri 214) Misir qiyamlarını yatırmaqla yanaşı, Bizansa qarşı edilən səfərlərdə də qəhrəmanlığı ilə fərqlənir.

Mutəsimin ən böyük xətalarından biri Mötəzilə məzhəbində olması ilə bərabər, bu məzhəbi əhli-sünnə alimlərinə zorla qəbul etdirməyə çalışmasıdır. Mutəsimdə qardaşı Məmun kimi Quranın hadis (yaranma) olmasına inanır və bu əqidəni qəbul etməyənlərə əzab verirdi. Əzaba məruz qalanlardan biri də məhşur əhli-sünnə alimi Əhməd ibn Hənbəl olmuşdur. O da Quranın hadis yox, əzəli olduğu əqidəsində idi.

Hicrətin 218-ci ili (miladi 833-cü il) xəlifə Məmunun vəfatından sonra, onun vəsiyyətinə əsasən qardaşı Mutəsim xəlifə təyin edildi. Lakin onun xəlifəliyi ilə razılaşmayan əyanların və ordu başçılarının bir qismi Məmunun oğlu Abbası xəlifə kimi görmək istədilər. Bundan xəbər tutan Mutəsim dərhal Abbas ibn Məmunu yanına çağırıb ondan beyət aldı. Abbas ibn Məmunun beyətindən sonra müxalif dəstə də Mutəsimə beyət etdi.

Qardaşı Məmunun vəsiyyətinə əməl edən Mutəsim, Xorasan valisi Abdullah ibn Tahirə, Bağdad valisi İshaq ibn İbrahim ibn Musəbə və qazi İbn Əbu Duada böyük ehtiram göstərərək, keçmiş qazi Yəhya ibn Əksəmi vəzifədən kənarlaşdırdı.

Xilafəti əldə edən Mutəsim, dərhal ölkə daxilində gedən üsyanları yatırmağa başladı. O, yaxşı başa düşürdü ki, bu üsyanları yatırmayınca xariclə müharibə aparmağın faydası yoxdur. Buna görə də Mutəsim, Məmun tərəfindən başlanmış Tuvana şəhərində qurulan istehkamların tikintisini dayandırdı. Bizansla sərhəd məntəqələrə köçürülən əhali yenidən öz yaşayış yerlərinə qaytarıldı.

Bütün lazımi göstərişləri yerinə yetirən Mutəsim xilafətin paytaxtı Bağdada qayıtdı. Onunla birlikdə son Bizans yürüşündə Məmunu müşayiət edən bütün əyanlar, o cümlədən, Abbas ibn Məmun da Bağdada qayıtdı. Hicrətin 218-ci ili (miladi 833) Bağdada daxil olan Mutəsimə paytaxt əhalisi yekdilliklə beyət etdi.[468]

Xəlifə Mutəsimin xilafəti dövründə Mavəraunnəhr, Misir və digər bölgələrdən gələn əsgərlərdən əməkhaqqı müqabilində muzdlu ordu yaradılmışdır. Mavəraunnəhrdən gələnlərə Fəraqinə, Afrika və Yəməndən gələnlərə isə Məğaribə deyilirdi.[469]

Həmədanın xürrəmilərdən geri alınması

Mutəsimin hakimiyyətə gəldiyi il Cibal, Həmədan və İsfəhan bölgələrində yenidən baş qaldıran xürrəmilər karvanları qarət etməyə başladılar. Xorasanla paytaxt arasındakı rabitənin kəsilmə təhlükəsi yarandı. Bundan narahat olan xəlifə Mutəsim, üsyançıların üzərinə Haşim ibn Baticuru göndərsə də, xilafət ordusu üsyançılar tərəfindən məğlub edildi. Haşim ibn Baticurun məğlubiy-

[468]Tarixi-Təbəri, V cild, səh-205-206; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-280-281.
[469] Tarixi-Məsudi, IV cild, səh-53, Misir, 1965.

yətindən sonra Bağdad valisi İshaq ibn İbrahim böyük bir ordu ilə Həmədan xürrəmilərinin üzərinə göndərildi. Hicrətin 219-cu ili (miladi 834) baş verən döyüşdə xilafət ordusu qalib gəldi və Həmədan xürrəmilərindən altmış min nəfər öldürüldü. Sağ qalanlar isə Azərbaycan ərazisindən keçib, Bizansa qaçdılar. Bu bölgədə sakitliyi bərpa edən İshaq ibn İbrahim yenidən Bağdada qayıtdı.

Samirə şəhərinin inşası və paytaxt elan olunması

İslam mədəniyyətinin inkişafı istiqamətində xəlifə Mutəsimin göstərdiyi ən böyük xidmət məhşur Samarra (Samirə) şəhərinin salınmasıdır. Xəlifə Mutəsim tərəfindən paytaxt Bağdadda təşkil olunan türk əsgərlərinin özbaşınalıqları gündən-günə artır və bu da əhalinin narazılığına səbəb olurdu. Bütün bu narazılıqlara son qoymaq istəyən xəlifə Mutəsim, türk əsgərlərinin təhlükəsini paytaxtdan uzaqlaşdırmaq üçün yeni paytaxt şəhəri saldırmaq fikrinə düşdü. Bu məqsədlə Dəclə çayının şərq sahilində yeni şəhərin salınmasına göstəriş verdi.

Samarra ərazisi lap qədimlərdən yaşayış məskəni olmuşdu. Rəvayətlərə görə, bu yerdə vaxtilə Hz.Nuhun *(ə)* oğlu Sam böyük bir şəhər salmışdı. Farslar Samın adı ilə bu yerləri "Samrah" (Samın torpağı) adlandırırdılar.[470]

Xəlifə Mutəsimin göstərişinə əsasən vəzir Əhməd ibn Xalid hicrətin 219-cu ili (miladi 834) şəhərin tikintisi ilə əlaqədar olaraq hazırlıq işləri görməyə başladı. İki illik hazırlıqdan sonra hicrətin 221-ci ili (miladi 836) Samirə şəhərinin tikintisinə başlandı.

Bağdad şəhərini tərk etmək istəməyən türk əsilli ordular, Samirə şəhərinin tikintisini razılıqla qarşılamadılar. Lakin Samirə şəhərinə yerləşdikdə, şəhər onların elə xoşuna gəldi ki, Samirəyə "Surra mən raa" (onu görən sevindi) adını verdilər. Şəhər abadlığını itirdikdə, ona "Saə mən raa" (onu görən kədərləndi) deməyə başladılar. Sonralar bu ad daha da qısalaraq, "Samarra" və "Samirə" şəklinə düşdü.

Samirə şəhəri təqribən altmış il (836-cı ildən 890-cı ilə qədər) Abbasilərin paytaxtı oldu. Abbasi xəlifəsi Mötəmidin (870-892) xilafətinin sonlarında paytaxt yenidən Bağdada qaytarılmışdır. Həmçinin altmış illik bu dövr tarix elmində "Samirə dövrü" adlanır. Paytaxtın Bağdaddan Samirəyə köçürülməsi türk təsirinin başlanması, Samirədən Bağdada qaytarılması isə türk təsirinin sona çatmasını göstərir.[471]

Məhəmməd ibn Qasimin qiyamı

Hicrətin 219-cu ili (miladi 834) Hz.Hüseynin *(ə)* nəslindən olan Əbu Cəfər Məhəmməd ibn Qasim ibn Əli ibn Ömər ibn İmam Səccad *(ə)* Əhli-beytin haqqını Abbasilərdən geri almaq şüarı altında, Xorasanın Taliqan bölgəsində xila-

[470]Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-167.
[471]Tarixi-Məsudi, V cild, səh-54-55.

fətə qarşı qiyam qaldırdı. Tezliklə Mərv, Sərəxs və Nəsa camaatıda onun ətrafına toplandı.

Bundan xəbər tutan xəlifə Mutəsim, Xorasan valisi Abdullah ibn Tahiri böyük bir ordu ilə Məhəmməd ibn Qasimin üzərinə göndərdi. Baş verən döyüşdə məğlub olan Məhəmməd, Nəsa şəhərinə qaçsa da ələ keçirilərək, Nişapura Abdullah ibn Tahirin hüzuruna aparıldı. Abdullah ibn Tahir tərəfindən üç ay Nişapurda saxlanılan Məhəmməd sonda Bağdada xəlifə Mutəsimin hüzuruna göndərildi. Bağdada gətirilən Məhəmməd ibn Qasim xəlifə tərəfindən həbs edilmiş və bir müddət sonra həbsdən qaçmışdır.[472]

Ümumiyyətlə, Məhəmməd ibn Qasimin həbsdən qaçması və ya həbsdə ölməsi barədə müxtəlif məlumatlar vardır. Bəzilərinə görə o, həbsdən qaçmamış və xəlifə Mutəsimin əmri ilə həbsdə olarkən zəhərlədilib şəhid edilmişdir. Bəzilərinə görə Ramazan ayının sonunda həbsdən qaçmış və bir daha ələ keçirilməmişdir. Bəzilərinə görə isə zindandan qaçan Məhəmməd ibn Qasim Vasitə gələrək orada vəfat etmişdir.

Hind əsilli Zütlərin qiyamı hicri 219-220 (miladi 834-835)

Əslən Hindistandan olan bədəvi zütlərin İraqa nə vaxt daxil olmaları haqqında dəqiq məlumat yoxdur. Onlar əsasən Bəsrə və Vasit şəhərləri ətrafında yaşayırdılar. Tarixi mənbələrə əsasən, İslamdan əvvəl İran hökmdarı Bəhram Gurun hakimiyyəti dövründə Hindistandan gələn on mindən artıq adam hökmdarın icazəsi ilə İraq torpaqlarında yerləşdi. Əvvəlcə Sasani ordusunda xidmət edən zütlər, onların süqutundan sonra İslam ordusunda xidmət etməyə başladılar.

İmam Əli *(ə)* Cəməl döyüşündən qayıdarkən, zütlərdən yetmiş nəfər onunla görüşərək, Hz.Əlini *(ə)* Allah saydıqlarını bildirdilər. Hz.Əli *(ə)* onları düz yola gətirmək üçün nəsihət etsə də, heç bir nəticəsi olmadı. Sonda Hz.Əlinin *(ə)* əmri ilə onları edam etdikdən sonra yandırdılar.[473]

Əməvilər dövründə İraq valisi olan Həccac ibn Yusif əs-Səqəfinin dövründə (694-714), Hindistandan gələn zütlərin bir hissəsi ondan sığınacaq istədi. Zütlərin istəyini yerinə yetirən Həccac ibn Yusif onları Bəsrə və Vasit arasındakı ərazilərdə yerləşdirdi.

Zütlər əvvəlcə hicri 205-206-cı illərdə (miladi 820-822) xəlifə Məmunun dövründə qiyam etdilər. Bundan xəbər tutan xəlifə onların üzərinə böyük bir ordu göndərərək onları məğlub etmişdir. Lakin Məmunun Bizans müharibələri ilə məşğul olması zütlərin yenidən fəallaşmasına şərait yaratmışdır.

Xəlifə Mutəsimin dövründə zütlər Dəclə çayının bir hissəsini ələ keçirərək Bağdada su yolu ilə nəqliyyat və mal gətirilməsinin qarşısını aldılar. Bəsrə ətrafındakı kəndləri qorxu içində saxlayan zütlər, yerli əhalinin əmlakını qarət etməklə yanaşı, yoldan keçən karvanları da soyurdular. Bundan narahat olan xə-

[472] Tarixi-Təbəri, V cild, səh-207; Tarixi ibn Əsir, VI cild, səh-442-443.
[473] Seyyid Mustafa Hüseyn Dəşti, Məarif və məariyf, IV cild, səh-103.

lifə Əhməd ibn Səidin başçılığı ilə zütlərin üzərinə qoşun göndərsə də, bu qoşun zütlər tərəfindən məğlub edildi.

Xilafət ordusunun məğlub olduğunu öyrənən xəlifə bu dəfə zütlərin üzərinə hicrətin 219-cu ili (miladi 834) daha təcrübəli sərkərdə olan Uceyf ibn Ənbəsəni göndərdi. On min nəfərlik ordu ilə Bağdaddan çıxan Uceyf ibn Ənbəsə Vasit şəhəri yaxınlığında düşərgə saldı. Baş verən döyüşdə zütləri məğlub edən Uceyf ibn Ənbəsə iyirmi min nəfərlik əsirlə birlikdə hicrətin 220-ci ili (miladi 835) Bağdada daxil oldu. Xəlifənin göstərişinə əsasən zütləri Bizansla sərhəd bölgələrdə yerləşdirdilər. Sonralar Bizans ordusunun hücumu nəticəsində zütlər tamamilə qılıncdan keçirilmişdir.[474]

Mazyarın üsyanı hicri 224-225-ci illər (miladi 839-840)

Təbəristan hakimlərinin nəslindən olan Mazyarın mənsub olduğu Qarinilər sülaləsi Sasanilər dövründə Təbəristanı idarə edirdilər. Sasinlərin varlığına son qoyan ərəblər Təbəristanı da özlərinə tabe etdilər. Qarinilər sülaləsi yenə də vergi ödəmək şərti ilə Təbəristanı idarə etdilər.

Hicrətin 169-cu ili (miladi 785) Abbasi xəlifəsi Mehdinin dövründə Qarini sülaləsinin lideri Vindadhürmüz xilafətə qarşı üsyan etdi. Bundan xəbər tutan xəlifə Mehdi oğlu Hadini üsyançıların üzərinə göndərdi. Lakin o, üsyançılarla müharibə edərkən, atasının vəfatı ilə əlaqədar olaraq tələsik Bağdada qayıtdı. Bundan istifadə edən Təbəristan hakimləri yenidən hakimiyyəti ələ aldılar.

Sonralar Təbəristan hakimi olan Mazyar, Mutəsimin xilafətinin əvvəllərində mərkəzi hakimiyyətə tabeçilik göstərir, özünü xəlifənin vassalı kimi aparırdı. Sonra xəlifə Mazyara göstəriş verdi ki, xilafətə ödədiyi vergini Xorasan valisi Abdullah ibn Tahirə versin. Lakin Abdullah ibn Tahirlə düz gəlməyən Mazyar vergini ona ödəməkdən imtina etdi. Digər tərəfdən xilafətin məşhur sərkədəsi Afşin Mazyarı Abdullah ibn Tahirə qarşı üsyana həvəsləndirdi. Çünki əvvəldən Xorasan valisi olmaq eşqilə yaşayan Afşinin də Abdullahdan xoşu gəlmirdi. Sonda Afşinin dəstəyinə arxalanan Mazyar müstəqillik elan edərək hicrətin 224-cü ili (miladi 839) xilafətə qarşı üsyan etdi.

Xəlifə Mutəsimin əmrinə əsasən Abdullah ibn Tahir Mazyarın üzərinə böyük bir qoşun göndərdi. Onun göndərdiyi qoşun Mazyarın ixtiyarında olan Sariyə şəhərini mühasirəyə aldı. Uzun mühasirədən sonra təslim olan Mazyar hicrətin 225-ci ili (miladi 840) xilafətin paytaxtı Samirəyə gətirildi. Artıq bu zaman Afşin də Samirə zindanında idi. Çünki onun Mazyara yazdığı məktublar xəlifənin əlinə keçmişdi. Məhkəmədə bu iki nəfərin üzləşməsindən sonra Mazyar xəlifənin əmri ilə edam edilmişdir.[475]

---

[474]Tarixi-Təbəri, V cild, səh-207-208, 321-322; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-164.

[475]Tarixi-Təbəri, V cild, səh-248-260; Tarixi-Məsudi, IV cild, səh-61; Tarixi ibn Əsir, VI cild, səh-494-504, 510.

Mazyarın qətlindən sonra xəlifə Mutəsimin əmrinə əsasən Afşində zindana atıldı. Beləiklə, xilafətin ən şanlı sərkərdəsi Afşin ibn Kavus hicrətin 226-cı ili (miladi 841) Mutəsimin zindanında acından öldü.[476]

Xürrəmilər üsyanının yatırılması

Xəlifə Məmunun dövründən davam edən xürrəmilər üsyanını yatırmaq istəyən xəlifə Mutəsim, Babəkin əleyhinə xilafətin demək olar ki, bütün hərbi gücünü və məşhur sərkərdələri səfərbər etdi. Uzun hazırlıqdan sonra ilk öncə İshaq ibn İbrahim Həmədan xürrəmilərinin üzərinə göndərildi. Hicrətin 218-ci ili (miladi 833) Həmədan yaxınlığında baş verən döyüşdə qalib gələn xilafət ordusu Həmədanı ələ keçirməklə yanaşı altmış min xürrəmini qılıncdan keçirdi. Bu döyüşdə xürrəmilər ilk dəfə olaraq məğlub oldular.

Bu uğursuz döyüşdən sonra Xürrəmilərin bir çoxu ərəblər üzərində qələbənin mümkün olmadığını anlayıb Bizansa gedərək orada xristianlığı qəbul etdilər.

Həmədan döyüşündəki qələbədən sonra xəlifənin əmri ilə Əbu Səid Məhəmməd ibn Yusif adlı sərkərdə xürrəmilərə tabe olan əraziyə göndərildi ki, Zəncanla Ərdəbil arasında yerləşən və Babək tərəfindən dağıdılmış qalaları bərpa etsin. Eyni zamanda yollara nəzarəti ələ keçirməkdə Əbu Səidə tapşırılmışdı. Müaviyənin başçılığı altında olan Xürrəmilər Əbu Səidin əlində olan qalaya hücum edərək xeyli əsir ələ keçirdi. Üsyançıları təqib edən Əbu Səid onları məğlub edərək xeyli əsir ələ keçirdi. Əbu Səid həlak olanların kəsik başlarını və əsirləri xəlifə Mutəsimin hüzuruna göndərdi.

Hicrətin 220-ci ili (miladi 835) xəlifə Mutəsim tərəfindən sərkərdə Afşin Cibal əyalətinin valisi təyin edilməklə bərabər Babəkə qarşı vuruşan qüvvələrin baş komandanı da təyin edildi. Dərhal hərəkətə keçən Afşin öz ordusunu Bəzz qalasna yaxın olan Bərzənddə yerləşdirdi. Afşinin başçılığı altında olan ordunun mərkəz tərəfindən daimi və vaxtlı-vaxtında hərtərəfli təminatını təmin etmək məqsədilə xilafətin mərkəzindən, xüsusilə, Ərdəbildən Bərzəndə qədər olan bərbad yollar yenidən nizamlanaraq hərbi məntəqələr və eləcə də, bərpa olunmuş yollar hərbi məqsəd üçün möhkəmləndirildi.

Olduqca güclü hərbi təcrübəyə malik olan Afşinin ən mühüm tədbirlərindən biri də Xürrəmilərə qarşı əks-kəşfiyyatı gücləndirib casusluq məlumatları toplamaq və eyni zamanda, üsyançılar arasında təfriqə salmaq, daha doğrusu, onların ən yaxşı sərkərdələrini aradan götürmək idi.

Onu da qeyd etmək lazımdır ki, Xürrəmilər bütün bunları görərək öz növbələrində fəaliyyətsiz deyildilər. Bu yerlərə və yollara çox yaxşı bələd olan üsyançılar tez-tez düşmənə qarşı hücuma keçir, onlara mərkəzdən göndərilən

[476]Tarixi-Təbəri, V cild, səh-261-268; Tarixi ibn Əsir, VI cild, səh-510-518; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-292-293.

ərzağı, hərbi sursatları və döyüşçülər üçün göndərilən pul kisələrini ələ keçirirdilər. Bəzən də imkan düşdükcə bir-bir, iki-iki kəşfiyyatda olan ərəb əsgərlərini ələ keçirib öldürürdülər.

Hətta lazım gəldikdə düşmən haqqında lazımi məlumat toplamaq məqsədilə əsir düşmüş kəşfiyyatçıların özlərindən istifadə edərək düşmənə mümkün qədər ağır zərbələr endirirdilər.

Lakin bütün bu səylərə baxmayaraq, üsyançıların sıraları seyrəlməkdə idi. Belə ki, arabir, çox da ciddi olmayan döyüşlər uzandıqca ərəblərə müntəzəm olaraq mərkəzdən göndərilən yardımın hesabına onların üsyançılar üzərində qələbələri, daha doğrusu, hərtərəfli üstünlükləri tez-tez hiss olunan dərəcədə müşahidə olunurdu. Xəlifə Mutəsimin bu dəfə Xürrəmilərə, xüsusilə Babəkə qarşı Afşinin əliylə yaratdığı bu ciddi və olduqca təhlükəli hərbi yürüşünün günbəgün üsyançılar üzərindəki üstünlüyünü görən yerli feodallar, o cümlədən, Babəkin sabiq tərəfdarları və müttəfiqləri olan Səhl ibn Sumbat, İbn Bəis, Əbu Musa və onlarca başqaları tədricən üsyançılardan uzaqlaşaraq, bununla da Babəkə birbaşa açıqdan-açığa xəyanət etmiş oldular.

Babək və onun başçılıq etdiyi Xürrəmilər ərəblərə qarşı axırıncı və həlledici döyüşlərdə Məhəmməd ibn Bəisin göstərdiyi maddi və hərbi yardımdan başqa, demək olar ki, arxadan heç bir kömək almadılar. O da ki, imkanı daxilində Xürrəmilərə ərzaqla, pulla, silahla köməklik göstərməklə bərabər, eyni zamanda, döyüş zamanı olduqca strateji əhəmiyyətə malik Təbriz və Şahi qalalarını da onların ixtiyarına vermişdi. Əslində isə Xürrəmilərə İbn Bəis tərəfindən göstərilən bu məlum köməklər heç də təsadüfi deyildi.

Ərəblərlə Xürrəmilər arasında gedən bu qanlı və həlledici döyüşdə olduqca hərbi əhəmiyyətə malik olan Bəzz qalasının müdafiəçilərinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü aramsız davam edən bu aramsız döyüşdə düşmən əsgərlərin dəfələrlə az olmasına baxmayaraq, Xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi.

Onu da qeyd etmək lazımdır ki, Bəzz qalası döyüşü orta əsr müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlər sırasına daxil olmuşdur.

Hicrətin 221-ci ili (miladi 836) xürrəmilərlə xilafətin məhşur sərkərdəsi Buğa əl-Kəbirin rəhbərlik etdiyi ordu arasında döyüş baş verdi. Türk əsilli Buğa əl-Kəbir paytaxt Samirədən göndərilən ərzaq və pul karvanın başında Bərzəndə gəlmişdi. Sərkərdə Afşinin göstərişinə əsasən o, başçılıq etdiyi ordu ilə Həştadsər məntəqəsində düşərgə saldı. Təyin olunmuş gün bir tərəfdən Afşin, digər tərəfdən Buğa əl-Kəbir hücum edərək, xürrəmilərin mərkəzi olan Bəzz qalasını almalı idilər.

Afşindən xəbərsiz hərəkət edən Buğa əl-Kəbir irəliləyərək, Həştadsər dağının başında qərargah qurdu. Eyni zamanda Afşin də xürrəmilərin bir dəstəsini dağıdıb Həştadsərə yaxınlaşdı. Lakin qışın sərt keçməsindən istifadə edən Ba-

bək, Afşinin düşərgəsinə hücum edərək xeyli ərəb əsgərini qılıncdan keçirdi. Qəfil hücum qarşısında aciz qalan Afşin geri çəkilməyə məcbur oldu. Afşinin geri çəkildiyini öyrənən Buğa əl-Kəbir tələsik geri dönmək əmrini verdi. Bir neçə hissəyə parçalanmış qoşun dərələrin birində xürrəmilərlə qarşılaşdı. Miladi tarixilə 836-cı ildə baş verən II Həştadsər döyüşündə qalib gələn Xürrəmilər xeyli miqdarda xilafət əsgərini qılıncdan keçirdilər. Bu döyüşdə Afşinin qardaşı Fəzl ibn Kavus da yaralandı. Buğa əl-Kəbir ordunun qalıqlarını çətinliklə toplayıb, müharibə meydanından çıxara bildi.

Növbəti ilin əvvəllərində Afşinin qoşunu ilə xürrəmilər arasında daha bir döyüş baş verdi. Xürrəmilərə məhşur sərkərdə Adin başçılıq edirdi. Bu döyüşdə məğlub olan Adin xeyli itki ilə geri dönməyə məcbur oldu.

Həmin il (837) xəlifə Mutəsim döyüş bölgəsinə "Xəyyat" (dərzi) ləqəbli Cəfər ibn Dinarın başçılığı ilə yeni hərbi qüvvələr göndərdi. Bunun ardınca isə xəlifə Mutəsim saray aşpazı əslən Türk olan İytaxı da otuz milyon dirhəm pulla Afşinin yanına göndərdi. İytax pulları təhvil verib geri dönsə də, Cəfər Xəyyat Afşinin xidmətində qaldı.

Xilafətin paytaxtı Samirədən köməkçi qüvvələrin gəlməsindən xəbər tutan Babək, diqqəti özündən yayındırmaq məqsədilə Bizansı xilafət üzərinə hücuma təhrik etmək istədi. Bizansla Abbasilər arasında müharibənin başlanması Babəkə sərf edirdi. Çünki bu zaman xilafət ordusunun bir hissəsi Bizansla müharibəyə göndəriləcək və bu da xürrəmilərin xeyrinə olacaqdı. Bu məqsədlə Babək, Bizans imperatoru Feofilə belə bir məktub yazdı: "Gör xəlifənin vəziyyəti nə yerdədir ki, dərzisi ilə aşpazını da mənimlə müharibəyə göndərib. Artıq onun yanında heç kim qalmayıb və xilafətin sərhədləri bomboşdur."

Bundan istifadə edən Bizans imperatoru Feofil hicrətin 222-ci ili (miladi 837) böyük bir ordu ilə xilafət torpaqlarına hücum edərək bir neçə şəhəri talan etdi.[477]

Lakin bütün bu baş verənlərə əhəmiyyət verməyən otuz minlik xilafət ordusu, hicrətin 222-ci ili (miladi 837) Afşinin və Buğa əl-Kəbirin başçılığı ilə hücuma keçərək Bəzz qalasına daxil oldular. Bir neçə saat davam edən küçə döyüşlərində minlərlə xürrəmi həlak oldu. Bu qarışıqlıqdan istifadə edən Babək, ən yaxın ailə üzvləri ilə birlikdə Bəzzdən çıxıb, ətraf məntəqələrdə gizləndi.[478]

Bir müddət gizlənən Babək qardaşı Abdullahla birlikdə köhnə müttəfiqi olan erməni əsilli Səhl ibn Sumbatın yanına gəlir. Səhlin dəvətini qəbul edən Babək belə qərara gəlir ki, düşmənləri şübhələndirməmək üçün özü bu ilin qış mövsümünü Səhlin yanında keçirsin, qardaşı Abdullah isə keçmiş müttəfiqləri olan, Beyləqan hakimi Yəsai Əbu Musanın mülkündə qonaq olsun. Bu məqsədlə Abdullah Beyləqan hakiminin yanına getdi.

---

[477]Tarixi-Təbəri, V cild, səh-210-212, 216-219; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-173-174.

[478]Tarixi-Təbəri, V cild, səh-220-230.

Afşinin Babək üçün təyin etdiyi məbləği əldə etmək istəyən Səhl ibn Sumbat, gizlicə qasid göndərək, Babəkin onun yanında olduğunu Afşinə xəbər verdi. Qısa müddət sonra Afşinin göndərdiyi adamlar Babəki ələ keçirərək onun düşərgəsinə, Bərzəndə gətirdilər. Bundan xəbər tutan Beyləqan hakimi də eyni yolla Babəkin qardaşı Abdullahı Afşinə təhvil verdi. Miladi tarixilə 837-ci ilin sentyabrında Afşin iki qiymətli əsirlə birlikdə xilafətin paytaxtı Samirəyə yola düşdü.

Dörd ay sonra hicrətin 223-cü ili (miladi 838) Afşin iki qiymətli əsirlə birlikdə Samirəyə xəlifə Mutəsimin hüzuruna gəldi. Həmin ilin mart ayında xəlifənin əmri ilə Babəki saray meydanında edam edərək, başını Xorasana göndərdilər. Başsız bədəni isə Samirədə çarmığa çəkdilər.[479]

Babəkin ardınca qardaşı Abdullahı da xəlifənin əmri ilə edam üçün Bağdada göndərdilər. Bağdad valisi İshaq ibn İbrahim Abdullahı eyni üsulla edam edib, cəsədini şəhər körpüsündən asdırdı.

Məhz cəmiyyətin bugünki tələbi, hüquqi və mənəvi ehtiyacı da buna oxşardır. Bu mənada ki, qoy insanlar azad yaşasınlar. Axı, nədən ötrü bu zavallı insanlar kiminsə əmri, təzyiqi ilə oturub durmalıdırlar? Nədən ötrü kimdənsə yaşamaq naminə minnətlə bir parça çörək pulu qazanmalıdırlar? Axı, insanlar da bu dünyada başqa canlı aləm kimi müstəqil ömür sürməyə qadirdirlər.

İnsan kimliyindən asılı olmayaraq, azad doğulub, azad yaşamalıdır. Bax, budur insan varlığının əsas mahiyyəti!

Xəlifə Mutəsim və Bizansla müharibələr

Müsəlmanlarla Bizans arasında son döyüş hicrətin 218-ci ili (miladi 833) xəlifə Məmunun dövründə baş vermiş və xəlifənin ölümü ilə əlaqədar olaraq bu yürüş yarımçıq qalmışdır. Həmin ildən hicri 222-ci ilə (miladi 837) qədər bu iki dövlət arasında heç bir döyüş baş verməmişdir. Yalnız həmin ildə Babəkin yazdığı məktubdan sonra, Bizans imperatoru Feofil böyük bir ordu ilə Abbasi torpaqlarına hücum etdi. Fərat bölgəsindəki məntəqələri, Şimali Suriya və əl-Cəziräni talan edən Bizans ordusu xeyli əsir ələ keçirdi.[480]

Bundan xəbər tutan xəlifə Mutəsim hicrətin 223-cü ili (miladi 838) böyük bir ordu ilə Bizansa doğru hərəkət etdi. Abbasi ordusunda Əşnas, İytax, Cəfər ibn Dinar Xəyyat, Uceyf ibn Ənbəsə və Afşin kimi sərkərdələr də iştirak edirdi. Bizans sərhəddini keçən xilafət ordusu, Tarsus yaxınlığında olan Selevkiyada düşərgə saldı. Xəlifənin göstərişinə əsasən Afşin Malatya yolundan şimala doğru hərəkət etməli və təyin olunmuş vaxtda Ankaraya çatmalı idi. Xəlifənin başçılıq etdiyi

[479]Tarixi-Təbəri, V cild, səh-230-234; Tarixi-Məsudi, IV cild, səh-55-59; Tarixi-Yəqubi, II cild, səh-473-475; Tarixi ibn Əsir, VI cild, səh-328, 447-450; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-283-285.

[480]Tarixi-Məsudi, IV cild, səh-59-60; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-285-290.

əsas qüvvələr isə Tarsusdan keçib, birbaşa Ankaraya doğru hərəkət edəcəkdi. Bu yolla Mutəsim əvvəlcə Ankaranı, sonra isə Amuriyyəni tutmaq istəyirdi.

Müsəlmanların iki istiqamətdə hərəkət etdiyini öyrənən Bizans imperatoru Feofil də ordunun bir hissəsini Amuriyyədə qoyub, özü isə Afşinlə döyüşmək üçün yola çıxır. Lakin 838-ci ildə baş verən döyüşdə Afşin tərəfindən məğlub edilən imperator Feofil Konstantinopola qayıdır. Amuriyyədə olan Bizans ordusu da daxili ixtilaflar nəticəsində döyüşmədən geri qayıtdı. Bu arada Afşinin başçılığı altında olan xilafət ordusu heç bir müqavimətə rast gəlmədən Ankaraya daxil oldular. Xəlifə Mutəsimin də Ankaraya gəlişi ilə bütün xilafət ordusu bir araya gəldi.

Qısa hazırlıqdan sonra xilafət ordusu Bizansın əsas şəhərlərindən olan Amuriyyəni mühasirəyə aldı. On iki günlük mühasirədən sonra Amuriyyə müsəlmanlar tərəfindən fəth edildi.[481]

Bu qələbədən sonra xəlifə Mutəsim, Bizansa son zərbəni vurmaq üçün İstanbul üzərinə hərəkət etmək istəsə də, ordu daxilində yaranan ixtilaflar səbəbilə paytaxt Samirəyə qayıtdı.[482]

Abbas ibn Məmunun əmisi Mutəsimə qarşı çevriliş cəhdi

Hələ Mutəsimin xilafətinin əvvəlində Abbas ibn Məmun ona qarşı çıxmaq istəsə də, sonradan fikrindən daşınıb ona xəlifə kimi beyət etmişdir. Bu hadisədən sonra bütün imtiyazlardan məhrum edilən Abbas ibn Məmun xəlifənin nəzarəti altında yaşamağa başladı.

Miladi 838-ci ildə, Amuriyyənin fəthindən sonra türk əsilli zadəganların üstünlük qazanması ərəb mənşəli əyanları daha çox narahat etməyə başladı. Ərəb sərkərdələri sarayda və ordudakı nüfuzlarının aşağı düşməsindən, gəlir və qazanclarının azalmasından xeyli pərişan idilər. Bunun qarşısını almaq üçün ərəb əsilli sərkərdələrin bir hissəsi türklərə qarşı birləşərək, gizli ittifaq yaratdılar. Bu ittifaqa Uceyf ibn Ənbəsə, Əmr Fərğani, Haris Səmərqəndi, Əhməd ibn Xəlil də daxil idi. Onların məqsədi başda xəlifə olmaqla, məhşur sərkərdələr Əşnasla Afşini də aradan götürərək, Abbas ibn Məmunu xəlifə təyin etmək idi.

Lakin onların planından xəbər tutan xəlifə bütün dəstə üzvlərini həbs etdirdi. Mutəsim həbsdə olanlara nəzarəti sərkərdələr arasında bölüşdürdü. Afşin Abbasa, İytax Uceyf ibn Ənbəsəyə, Əşnas isə Əhməd ibn Xəlilə nəzarət etməyə başladı. Afşin Abbas ibn Məmuna duzlu xörəklər verdikdən sonra, onu susuz saxlayıb öldürdü. Digər məhbuslar da müxtəlif üsullarla öldürüldülər.[483]

---

[481]Tarixi-Təbəri, V cild, səh-235-243; Tarixi ibn Əsir, VI cild, səh-479-488.
[482] Tarixi-Təbəri, V cild, səh-243-246.
[483]Tarixi-Təbəri, V cild, səh-243-246.

Əbu Hərb Mübərqenin üsyanı 840-842-ci illər (hicri 226-227)

Əslən yəmənli olan Əbu Hərb Fələstində yaşayırdı. Xilafət əsgərlərinin təhqirinə dözməyən Əbu Hərb əsgərlərdən birini öldürərək, dağlara qaçıb xilafətə qarşı üsyan etdi. Tanınmasın deyə, üzünü niqabla örtən Əbu Hərbə "Mübərqe" (niqablı, üzü örtülü) ləqəbini vermişdilər.

Dövlət məmurlarına qarşı mübarizə aparan Mübərqenin ətrafına əsasən əkinçi və maldar kəndlilər toplanırdı. Qiyamçılar arasında Yəmən əsillilər də çox idi. Üsyan hicrətin 226-cı ili (miladi 840-841) başladı.

Bundan xəbər tutan xəlifə Mutəsim üsyançıların üzərinə Rəca ibn Əyyubu min nəfərlik döyüşçü ilə göndərdi. Mübərqenin ətrafında əsasən əkinçilərin toplandığını görən Rəca ibn Əyyub, dərhal döyüşə başlamayıb, əkin-biçin vaxtını gözlədi. Bahar fəsli gələndə kəndlilər Mübərqeni tərk edib, əkin sahələrinə dağılışdılar. Mübərqenin ətrafında cəmi min nəfər qaldı.

Bundan istifadə edən Rəca ibn Əyyub hücuma keçərək Mübərqeni əsir götürdü. Başçısını itirən dəstə də dağılıb getdi. Lakin xəlifə Mutəsim qələbə xəbərini eşidə bilmədi. Çünki bundan bir neçə ay əvvəl, xəlifə xəstə olduğu üçün vəfat etmişdir.

Mutəsim və Əhli-beyt

Digər Abbasi xəlifələri kimi Mutəsim də Əhli-beytə qarşı mənfi münasibətdə idi. Hicrətin 203-cü ili səfər ayının 30-da (miladi 818) İmam Rza *(ə)* xəlifə Məmun tərəfindən şəhid edildikdən sonra, onun oğlu Hz.Məhəmməd Təqi *(ə)* səkkiz yaşında olarkən imamət məqamına yetişdi. Bir ildən sonra Məmun Hz.Təqini *(ə)* Bağdada gətizdirərək qızı Ümmü Fəzllə evləndirdi. Bir neçə il xəlifənin nəzarəti altında Bağdadda yaşayan İmam Təqi *(ə)* sonralar Mədinəyə qayıtdı.

Məmunun vəfatından sonra xəlifə olan Mutəsim, hicrətin 220-ci ili (miladi 835) Hz.Təqini *(ə)* yenidən Mədinədən Bağdada gətirərək nəzarət altına aldı. Başda baş qazi İbn Əbu Duad İyadi olmaqla, digər Abbasi məmurları da xəlifəni Hz.Təqini *(ə)* şəhid etməyə təhrik etdilər. Nəhayət, xəlifənin əmri ilə hicri 220-ci il zilqədə ayının 30-da (miladi 835) İmam Məhəmməd Təqini *(ə)* şəhid etdilər. Müqəddəs məzarı Kazimeyndə (İraq, Bağdad yaxınlığı) babası İmam Musa Kazimin *(ə)* məzarının yanındadır.

Xəlifə Mutəsimin dövründə şəhid edilən Bəni-haşim seyidlərindən biri də Abdullah ibn Hüseyn ibn Abdullah ibn İsmail ibn Abdullah ibn Cəfəri-Təyyar olmuşdur. Abdullah ibn Hüseyn, Abbasilərin rəmzi olan qara paltarı geyinmədiyi üçün həbs edilmiş və bir müddət sonra Samirə zindanında vəfat etmişdir.[484]

[484]Şeyx Abbas Qummi, Tətimmətul-muntəha, səh-204; Əbul Fərəc İsfəhani, Məqatilut-talibiyyin, səh-393; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-163.

Səkkizinci Abbasi xəlifəsi Mutəsim hicrətin 227-ci ili rəbiül-əvvəl ayının 18-də (miladi 842) Samirədə qırx yeddi yaşında vəfat etmişdir.[485]

Hz.İmam Məhəmməd Təqi (ə)

O Həzrətin mübarək adı Məhəmməd, Təqi isə onun ləqəbidir. Atası Əli ibn Musa Rza *(ə)*, anası isə Hz.Peyğəmbərin *(s)* həyat yoldaşı Mariya əl-Qibtiyyənin qohumlarından olan Reyhanə və ya Dürrə adlı bir kənizdir. Tarixi mənbələrdə onun adını Xeyzuran, Səbikə, Zərrə və Sükeynə kimi də qeyd edirlər. Künyəsi Əbu Cəfərdir. İmam Təqi *(ə)* haqqında Hz.Peyğəmbərin *(ə)* buyurduğu kəlamda İmamın *(ə)* anası "Nubiyalı ən yaxşı, ağzı xoş ətirli kəniz" sözləri ilə təsvir edilir. Nubiya Afrikada Misirin cənubunda yerləşən bir vilayətdir.

İmam Təqi *(ə)* hicrətin 195-ci ili rəcəb ayının onunda, miladi 810-cu il Abbasi xəlifəsi Əminin xilafəti dövründə Mədinədə anadan olmuşdur. İmam Təqinin *(ə)* mübarək ömrü cəmi iyirmi beş il olmuşdur. Hz.Fatimədən (s.ə) sonra Əhli-beytin içində İmam Təqi *(ə)* kimi qısa ömürlüsü olmamışdır. O Həzrət müsəlmanlara on yeddi il imamlıq etmişdir.

İmam Rza *(ə)* şəhid edilən zaman İmam Təqinin *(ə)* səkkiz yaşı var idi. İmam Rzanın *(ə)* şəhadətindən sonra Məmun Bağdada qayıdaraq buranı yenidən paytaxt elan etdi. İmam Rzanı *(ə)* şəhid etdiyi üçün xəlifə Məmuna məmləkətin hər yerindən tənələr dolu məktublar gəlirdi. Bundan əlavə ona xəbər çatmışdı ki, müxtəlif məntəqələrin böyükləri Mədinəyə yığışıb İmam Təqinin *(ə)* imamətini təsdiq ediblər. Bu hadisədən qorxuya düşən Məmun İmam Təqinin *(ə)* Mədinədən Bağdada gəlməsini tələb etdi. İmam *(ə)* Bağdada gəldikdə xəlifə Məmun onu böyük nəvaziş və ehtiramla qarşıladı. Xəlifənin bu əməlindən Bəni-Abbasi liderləri narahat oldular. Məmun onları razı salmaq üçün elmi məclis təşkil edib, məşhur alimləri də bu məclisə dəvət etdi. Məclisdə İmama *(ə)* verilən sualların cavabı məclis əhlini razı saldı. Bağdad qazisi Yəhya ibn Əksəm və digər alimlər İmam Təqinin *(ə)* elm və fəzilətini etiraf etdilər. Həmin məclisdə xəlifə Məmun İmamı *(ə)* daha çox nəzarətdə saxlamaq üçün qızı Ümmül-Fəzli ona ərə verdi. Bir müddət sonra İmam Təqi *(ə)* həyat yoldaşı ilə birlikdə Kəbəni ziyarət etmək üçün Hicaza getdi və həcc əməllərini yerinə yetirdikdən sonra Mədinəyə qayıtdı. Məmun həyatda olduğu müddətdə İmam Təqi *(ə)* Mədinədə yaşadı. 833-cü ildə xəlifə Məmunun ölümündən sonra qardaşı Mütəsim Abbasi xəlifəsi təyin edildi. İmam Təqinin *(ə)* nüfuzundan narahat olan Mütəsim onu dərhal Mədinədən Bağdada çağırdı. İmam *(ə)* bu səfərin bəd nəticəsini qabaqcadan bildiyi üçün oğlu İmam Nəqini *(ə)* özünə canişin təyin edərək İlahi elmin sirlərini, Hz.Peyğəmbərin *(s)* və digər peyğəmbərlərin mirasını ona təslim etdi. İmam Təqi *(ə)* Bağdada gəldikdən qısa müddət sonra hicrətin 220-ci ili zilqədə ayının 30-da, miladi 835-ci il xəlifə Mütəsimin əmri ilə həyat yoldaşı Ümmü Fəzl binti Məmun tərəfindən

[485]Tarixi-Təbəri, V cild, səh-270-271.

zəhərləndirilərək Bağdadda şəhid edilmişdir. Müqəddəs məzarı Kazimeyndə babası İmam Kazimin *(ə)* qəbri yanındadır.

İmam Təqinin *(ə)* yüksək elmi məqamını onun öz dilindən söylənilən hədis daha dolğun şəkildə bəyan edir. "Məşariqul-ənvar" kitabında yazılır ki, İmam Rza *(ə)* dünyadan gedəndən sonra Hz.Təqi *(ə)* Peyğəmbər məscidinə gəlib, minbərə çıxaraq belə buyurdu: "Mən Məhəmməd ibn Əliyəm. Mən hər bir kəsin kimə mənsub olduğunu bilirəm, istər dünyaya gələnlərin, istərsə də dünyaya gəlməyənlərin. Mən sizin zahir və batininizdən xəbərdaram. Biz bu biliyə varlıq aləmi yaranmazdan öncə yiyələnmişik və varlıq aləmi fani olduqdan sonra da bu bilik bizimlə qalacaq. Əgər haqsız hakimlər, azğın insanlar olmasaydı və avamlar şəkkə düşməsəydilər, sözümlə hamını heyrətə gətirərdim. Sonra İmam *(ə)* əlini ağzına qoyaraq belə buyurdu: "Sakit ol, necə ki, ata-babaların sükut etdilər."

İmam Təqinin *(ə)* ləqəbləri:

1) Təqi – pəhrizkar;
2) Cavad – səxavətli;
3) Mürtəza – seçilmiş;
4) Qane – əlində olanla kifayətlənən.

İmam Təqinin *(ə)* zövcələri:

1) Ümmül-Fəzl binti Məmun (İmam Təqini *(ə)* zəhərləyən);
2) Süsən (İmam Nəqinin *(ə)* anası);

İmam Təqinin *(ə)* övladları:

1) İmam Əliyyən Nəqi *(ə)*; 2) Musa-Mübərqi; 3) Fatimə; 4) İmamə.

İmam Təqinin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Həsbiyallahu" – Mənim arxalanacağım Allahdır.

İmam Təqinin *(ə)* müasiri olmuş xəlifələr:

1) Məmun (813-833);
2) Mütəsim (833-842).

Əbu Cəfər Harun Vasiq Billah hicri 227-232 (miladi 842-847)

Əbu Cəfər Harun Vasiq ibn Mutəsim hicrətin 196-cı ili (miladi 811) xəlifə Əminin xilafəti dövründə Bağdadda anadan olmuşdur. Anası Bizans əsilli Qəratis adlı cariyə olmuşdur. Atası Mutəsimin vəfatından sonra onun vəsiyyətinə əsasən hicrətin 227-ci ili rəbiül-əvvəl ayının 18-də (miladi 842) Abbasi xəlifəsi seçilmişdir.[486] Onun dövrü demək olar ki, heç bir müstəsna əhəmiyyətə malik hadisə ilə müşayiət olunmamışdır. Bizansla müharibələri və bir neçə üsyanı çıxmaq şərtilə, onun dövrü sabitliklə keçmişdir. Əhli beytə qarşı mülayim rəftarda olan Vasiqin dövründə, Bəni-Haşim seyidlərindən kimsə şəhid edilməmişdir.

[486] Tarixi-Təbəri, V cild, səh-273.

Xəlifə Mutəsimin dövründə olduğu kimi, Vasiqi də türklər öz nüfuzları altında saxlayırdılar. Türk əsilli Əşnas xilafət mərkəzindən qərbdə olan bütün torpaqların valisi, digər türk sərkərdəsi İytax isə Sind vilayəti və Dəclə sahillərinin valisi təyin edildi. Vasiqi idarə edən qüvvələrin başında vəzir Məhəmməd ibn Əbdülməlik əz-Zəyyat ilə baş qazi Əhməd ibn Əbu Duad İyadi dayanırdı.[487]

Hicrətin 229-cu ilində (miladi 843-844) öz hesabdarlarını təftiş edən xəlifə Vasiq, iri məbləğdə oğurluq hallarını üzə çıxardı. Xəlifənin əmrinə əsasən xoşluqla pulu ödəməyənləri şallaqlayıb, əmlaklarını müsadirə etdilər.

Miladi 844-cü ildə (hicri 230) məhşur türk əsilli Əşnas, ondan doqquz gün sonra isə Xorasan valisi Abdullah ibn Tahir vəfat etdi. Xilafət ordusunun baş komandanı olan Əşnas eyni zamanda, əl-Cəzirə, Şam, Misir və Məğribin valisi idi. Onun ölümündən sonra bütün vəzifələri digər türk əsilli sərkərdə İytaxa tapşırıldı. Xorasan valiliyi isə Tahir ibn Abdullaha tapşırıldı.

Tarixi mənbələrə əsasən Əbu Cəfər Vasiqin xilafəti dövründə Abbasi torpaqlarında bir dilənçi belə yox idi.[488]

Üsyanların yatırılması

Vasiqin xilafəti dövründə məmləkətin müxtəlif bölgələrində bir neçə qiyam baş verdi. Üsyanların əksəriyyəti Ərəbistan yarımadasında baş verirdi. İlk öncə Mədinənin ətrafında yerləşən Bəni-Süleym qəbiləsi qarətçiliyə başladı. Üsyançılara Uzeyzə ibn Qəttab Sələmi başçılıq edirdi. Qarətçilər Hicaz bazarlarına basqın edib, malları istədikləri qiymətə zorla alırdılar. Hicrətin 230-cu ilində (miladi 845) üsyançılar Bəni-Kənanə və Bəni-Bahilə qəbilələrinə hücum edərək, xeyli insanı qılıncdan keçirib torpaqlarını ələ keçirdilər.

Mədinə valisinin zəifliyini görən xəlifə Vasiq, oraya türk əsilli sərkərdə Buğa əl-Kəbiri göndərdi. Hicrətin 230-cu ilində (miladi 845) Mədinə kənarında, Bəni-Süleym qərargahı yaxınlığında baş verən döyüşdə Buğa əl-Kəbir üsyançıları məğlub etdi. Bəni-Süleym qəbiləsinin məğlubiyyətindən sonra Buğa əl-Kəbir, üsyançıların müttəfiqi olan Bəni-Hilal və Bəni-Mürrə qəbilələrini də məğlub edərək, hicrətin 231-ci ilində (miladi 845-846) Mədinədə asayişi bərpa etdi.[489]

Bir ildən sonra Ərəbistanın cənubunda, Yəmamə bölgəsində xilafətin əleyhinə üsyan qalxdı. Bu dəfə Bəni-Numeyr qəbiləsi qarətçiliyə başladı. Bundan xəbər tutan xəlifə Vasiq hicrətin 232-ci ilində (miladi 846) Buğa əl-Kəbiri Mədinədən Yəmaməyə göndərdi. Baş verən döyüşdə qarətçiləri məğlub edən Buğa əl-Kəbir ələ keçirdiyi əsirləri də özü ilə götürərək, hicrətin 233-cü ilində (miladi 847) Samirəyə daxil oldu.[490]

---

[487] Siyuti, Tarixul-xüləfa, səh-340-346.

[488] Tarixi-Təbəri, V cild, səh-291-292; Tarixi-Məsudi, IV cild, səh-66-67, 77-81.

[489] Tarixi-Təbəri, V cild, səh-278-279.

[490] Tarixi-Təbəri, V cild, səh-280-281, 288-290; Tarixi ibn Əsir, VII cild, səh-19-20, 27-29.

Əhməd ibn Nəsr Xuzainin üsyanı hicri 231 (miladi 846)

Məmun və Mutəsimin dövründə olduğu kimi, xəlifə Vasiq də Quranın hadis (yaranma) olduğuna inanır və bu əqidəyə qarşı çıxanları təqib edirdi. Quran barəsində qalmaqaldan və xəlifənin təzyiqindən cana doymuş insanlar Əhməd ibn Nəsr Xuzainin ətrafında toplanaraq onu xilafətə qarşı üsyana təhrik etdilər. Əhməd ibn Nəsrin göstərişinə əsasən qiyam hicrətin 231-ci ili şəban ayının 3-də (miladi 846) baş verməli idi. Qiyamın başladığını bildirmək üçün təbil çalınmalı idi.

Lakin qiyamçılardan biri içkili olduğu üçün təbili bir gün qabaq çaldı və nəticədə şəhər böyükləri şübhəyə düşüb araşdırma aparmağa başladılar. Araşdırma nəticəsində əvvəlcə Əhməd ibn Nəsr Xuzainin yaxınları, sonra isə özü tutuldu.

Samirəyə gətirilən Əhməd ibn Nəsr Xuzai və tərəfdarları xəlifə Vasiqin hüzurunda edam edildilər. Xəlifə Quran barədə mübahisələrə elə aludə olmuşdu ki, bu yolda ən qəddar addımlardan da çəkinmirdi. Hicrətin 231-cu ilində (miladi 845) Bizansla müsəlmanlar arasında Tarsus şəhəri yaxınlığında əsir mübadiləsi baş tutdu. Tarixi mənbələrə əsasən, o zaman Bizansda 4400 nəfər müsəlman əsir var idi. Mübadilə nəticəsində yüzlərlə əsir azad edilərək öz ev-eşiyinə qayıtdı. Mübadilə zamanı da əsirlərdən Quranın hadis olmasına inananlar azad edilir, bu fikri qəbul etməyənlər isə yenidən Bizansa geri qaytarılırdı.

Əsirlərin mübadiləsindən qısa müddət sonra Əhməd ibn Səid ibn Səlm ibn Quteybə Anadoluya səfər etsə də xeyli itki verərək geri qayıtdı.[491]

Romaya hücum hicrətin 231-ci ili (miladi 846)

Vasiqin xilafəti dövründə müsəlmanların cənubi İtaliya adalarına hücumları daha da şiddətləndi. Bu hücumlar barədə müsəlman mənbələrində heç bir məlumat verilməsə də, qərb mənbələrində bu döyüşlər ətraflı təsvir olunub. İtaliya torpaqlarına hücumlar Əğləbi hakimləri və Əndəlus əmirlərinin dəstəyi ilə həyata keçirilirdi. Əğləbilər tərəfindən təşkil edilən donanma Aralıq dənizinin demək olar ki, yeganə sahibi idi.

Hicrətin 228-ci ilində (miladi 842-843) Siciliyadakı müsəlman donanmasının başçısı Fəzl ibn Cəfər Həmdani adanın şimalında, Apennin yarımadasında yerləşən Messina şəhərinə hücum etdi. Həm su yolu ilə, həm də quru yolu ilə hücum edən müsəlmanlar şəhəri tez bir zamanda ələ keçirdilər. Sonrakı illər ərzində müsəlmanlar Siciliyanın sahilində yerləşən digər şəhərləri də ələ keçirdilər.

Miladi IX əsrin ortalarında Apennin yarımadası üç hissədən ibarət idi. VI əsrdə yarımadanın şimalını işğal edən german mənşəli lanqobard tayfası, burada Lanqobard krallığının əsasını qoymuşdur. İki əsrdən sonra frank kralı Böyük Karl bu yerləri tutub, Şimali İtaliyanı öz dövlətinə qatdı. Miladi tarixilə

[491]Tarixi-Təbəri, V cild, səh-286-287.

843-cü ildə Böyük Karlın qurduğu dövlət üç hissəyə (Fransa, Almaniya və İtaliya) parçalandıqdan sonra, Şimali İtaliya torpaqları yenidən lanqobard kralların ixtiyarına keçdi.

Yarımadanın cənub hissəsi Apuliya, Neapol, Kalabriya və Siciliya əyalətlərindən ibarət idi. Bu torpaqlar Bizansa tabe olsa da ayrı-ayrı feodallar tərəfindən idarə olunurdu. Feodallar daimi çəkişmə və mübarizə vəziyyətində yaşayırdılar. Belə bir vaxtda cənubi İtaliya feodallarından biri öz rəqibinə qalib gəlmək üçün Siciliyadakı müsəlmanlardan kömək istədi. Bundan istifadə edən müsəlmanlar İtaliyaya daxil olub, Apuliyanın mərkəzi olan Bari şəhərini müqavimətsiz ələ keçirdilər. Bir müddət sonra Neapol konsulu tərəfindən məğlub edilən müsəlmanlar Siciliyaya qayıtdılar.

Miladi tarixilə 844-cü ildə (hicri 229) Fəzl ibn Cəfər Həmdaninin başçılığı ilə yenidən hücum edən müsəlmanlar Neapol və onun ətrafındakı bir neçə şəhəri ələ keçirdilər. Sonra Qaeta limanını mühasirəyə alan müsəlmanlar Fonda şəhərini ələ keçirib, Romanın yaxınlığında yerləşən Ostiya limanından Tibr çayı vasitəsilə şəhərə hücum etməyə hazırlaşdılar. Müsəlmanların hücumunun qarşısını almaq istəyən Papa II Sergiy (844-847) Lanqobard kralı II Levə müraciət etdi. Papanın istəyinə müsbət cavab verən II Levin göndərdiyi hərbi gəmilər Romanın yaxınlığında yerləşən limanlarda lövbər saldılar.

Miladi tarixilə 846-cı ildə (hicri 231) Romanı mühasirəyə alan müsəlmanlar, bir neçə qalanı qarət edərək xeyli qənimət ələ keçirdilər. Lakin müsəlmanlar əmirlər arasında yaranmış anlaşılmazlıqlar səbəbilə şəhərin mühasirəsini yarımçıq qoyub geri qayıtdılar.

Romanın qəfil hücumlar qarşısında zəifliyini görən Roma papası IV Lev (847-855) şəhəri möhkəmlətmək məqsədilə şəhərin ətrafında möhkəm divarlar çəkdirdi. Tibr çayının mənsəbi üzərində polad zəncirlərlə maneə yaradıldı ki, gəmilərin Romaya yaxınlaşması mümkün olmasın. Bununla da kifayətlənməyən Papa özünün şəxsi ordusunu və hərbi donanmasını da yaratdı.

Bu yürüşdən iyirmi dörd il sonra müsəlmanlar hicrətin 256-cı ilində (miladi 870) xəlifə Mühtədinin (869-870) və ya Mötəmidin (870-892) dövründə Romaya ikinci dəfə yürüş etmişlər.

Abbasi xəlifəsi Əbu Cəfər Harun Vasiq hicrətin 232-ci ili (miladi 847) zilhiccə ayının 24-də vəfat etdi və Samirədə özünün tikdirdiyi Haruni qəsrində dəfn edildi.[492]

Əbul-Fəzl Cəfər Mütəvəkkil hicri 232-247 (miladi 847-861)

Əbul-Fəzil Cəfər Mütəvəkkil hicrətin 206-cı ili (miladi 822-823) xəlifə Məmunun xilafəti dövründə Bağdadda anadan olmuşdur. Atası Mutəsim, anası isə Xarəzmdən olan Şüca adlı cariyədir.

---

[492]Tarixi-Təbəri, V cild, səh-290; Tarixi-Məsudi, IV cild, səh-65; İbn Kəsir, əl-Bidayətu vəən-Nihayə, X cild, səh-308-309.

Vasiqin vəfatından sonra vəzir Məhəmməd ibn Əbdülməlik Zəyyat, baş qazi Əhməd ibn Əbu Duad İyadi, baş komandan İytax və məşhur türk sərkərdəsi Vəsif bir yerə toplaşaraq yeni xəlifənin kimliyi ilə bağlı məşvərət etdilər. Vəzir Zəyyat Vasiqin azyaşlı oğlu Məhəmmədin xəlifə seçilməsini istəsə də, digərləri onun xəlifəliyi ilə razılaşmayıb Vasiqin qardaşı iyirmi altı yaşlı Əbul-Fəzl Cəfər ibn Mutəsimi xəlifə təyin etdilər. Xəlifə təyin edilən Əbul-Fəzl Cəfər özünə "əl-Mütəvəkkil ələllah" (Allaha təvəkkül edən) ləqəbini götürdü.[493] Mütəvəkkil məşvərət yolu ilə təyin edilən ilk Abbasi xəlifəsidir.

Bu vaxt Abbasilərin əcdadı Abbas ibn Əbdülmüttəlibin vəfatından 200, ilk Abbasi xəlifəsi Əbul-Abbas Səffahın xəlifə seçilməsindən 100 il keçirdi.

Yeni xəlifə atası Mutəsimin və qardaşı Vasiqin Quran barədə olan əqidələrini bəyənmədiyi üçün mötəzilə əqidəsinə malik olan şəxsləri özündən uzaqlaşdırıb, müxalif cəbhənin (əhli-sünnə) nümayəndələrinə ehtiram göstərdi. Sarayda da kadr dəyişiklikləri edən Mütəvəkkil ilk öncə vəzir Məhəmməd ibn Əbdülməlik Zəyyatı hicrətin 233-cü ili (miladi 847) vəzifəsindən uzaqlaşdırıb həbs etdi. O, bir ay sonra həbsdə vəfat etdi.[494]

Vəzifəsindən uzaqlaşdırılmış şəxslərdən biri də Əhməd ibn Əbu Duad İyadi olmuşdur. Məmunun dövründə vəzifəsindən uzaqlaşdırılan Yəhya ibn Əksəmin yerinə baş qazi təyin edilmişdir. Məmundan sonra xəlifə olan Mutəsim də qardaşının vəsiyyətinə əsasən İbn Əbu Duadı vəzifəsində saxladı. Mutəsimin üzərində böyük nüfuza malik olan İbn Əbu Duad, istədiyi şəxsi xəlifənin gözündə ucaldıb vəzifə sahibi edir, öz düşmənlərini isə asanlıqla aradan götürürdü. Məhz İmam Təqi *(ə)* da İbn Əbu Duadın təhriki ilə Mutəsim tərəfindən şəhid edilmişdir.

Peyğəmbər *(s)* nəslinə etdiyi bu xəyanətin nəticəsində İbn Əbu Duad hicrətin 233-cü ilində (miladi 848) iflic oldu və onun sağ tərəfi tamamilə hərəkətdən qaldı. Buna görə vəzifəsindən istefa edən İbn Əbu Duad yerinə oğlu Əbul-Vəlid Məhəmmədi təyin etdi.

Bir müddət sonra oğurluqda ittiham olunan Əbul-Vəlid Məhəmməd, vəzifəsindən kənarlaşdırılaraq həbs olundu. İbn Əbu Duadın və oğullarının bütün əmlakı müsadirə olundu. Onları hicrətin 237-ci ili (miladi 852) Samirədən Bağdada apararaq həbs etdilər. İki il sonra əvvəlcə Əbul-Vəlid Məhəmməd, ondan iyirmi gün sonra Əhməd ibn Əbu Duad İyadi vəfat etdi.

Əbul-Vəlid Məhəmməddən sonra Mütəvəkkil tərəfindən baş qazi vəzifəsinə Yəhya ibn Əksəm gətirildi. Xəlifə Məmun tərəfindən həbs olunan Yəhya, iyirmi iki illik həbsdən sonra öz vəzifəsinə qayıtsa da, yenə bəxti gətirmir. Cəmi üç ildən sonra vəzifəsini itirən Yəhyanın Bağdaddakı bütün əmlakı və Bəsrədəki mülkləri müsadirə olundu. Həcc ziyarətini başa vurub geri qayıdan Yəh-

[493] Tarixi-Təbəri, V cild, səh-292-293; Tarixi-Məsudi, IV cild, səh-87; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-310-311.
[494] Tarixi-Təbəri, V cild.

ya ibn Əksəm hicrətin 242-ci ilində (miladi 856) Mədinədən dörd mənzil məsafədə, Rəbəzə çölündə vəfat etdi.

Digərlərindən fərqli olaraq xəlifə Mütəvəkkilin dövründə Tahirilər öz nüfuzlarını qoruya bildilər. Xorasan yenə də onların idarəsi altında idi. Miladi tarixilə 844-cü ildə (hicri 230) Abdullah ibn Tahir ölsə də, yerini oğlu Tahir tutmuşdur.

Tahirilərin yaxın qohumu olan İshaq ibn İbrahim də ömrünün sonuna kimi Bağdad hakimi oldu. Onun ölümündən (hicri 235/miladi 849-850) sonra oğlu Abdullah özünü bu vəzifədə doğrultmadığı üçün onun yerinə Mütəvəkkil tərəfindən Məhəmməd ibn Abdullah ibn Tahir təyin edildi. Beləliklə, Abdullah ibn Tahirin bir oğlu Xorasanın, digər oğlu isə Bağdadın hakimi oldu.

Saray əyanlarından xəlifənin ən çox etibar etdiyi şəxslər vəziri Fəth ibn Xaqan, onun qardaşı Yəhya ibn Xaqan (xərac divanının hesabdarı) və Yəhyanın oğlu Ubeydullah (xəlifənin eşikağası) olmuşdur.

Məşhur sərkərdə İytaxın qətli hicri 235 (miladi 849)

Xilafətə türklərin əli ilə gələn Mütəvəkkil, onların əliylədə xilafətdən gedə biləcəyindən qorxurdu. Buna görə də, türklərə böyük nifrət bəsləyən Mütəvəkkil onların hər addımını nəzarət altında saxlayırdı. Xəlifənin ən çox ehtiyat etdiyi şəxs, xilafət ordusunun baş komandanı İytax idi. O, Bağdaddan qərbə doğru torpaqların valisi, məğribli və türk qoşunlarının komandanı, xəlifənin şəxsi qvardiyasının başçısı və poçt işlərinin nəzarətçisi idi. Aradan götürüləcək bütün nüfuzlu şəxslər İytaxın sarayında qətlə yetirilirdi. İytax özünün bircə göstərişi ilə dövlət çevrilişi edə bilərdi.

Bütün bunları götür-qoy edən xəlifə onu Samirədən uzaqlaşdıraraq aradan götürmək qərarına gəldi. Hicri 234-cü ilin (miadi 848-849) sonlarında İytaxın həcc ziyarətinə getmək üçün icazə istəməsi xəlifənin əlinə fürsət verdi. İytaxa nəinki icazə verildi, hətta yol boyu gedəcəyi şəhərlərin idarəçiliyinin ona tapşırıldığı elan olundu. O paytaxdan uzaqlaşan kimi, Mütəvəkkil öz şəxsi qvardiyasının başçılığını digər türk əsilli sərkərdə Vəsifə tapşırdı.

Həcc əməllərini başa vurub geri qayıdan İytax Bağdada çatarkən, xəlifənin göstərişi ilə Bağdad valisi İshaq ibn İbrahim tərəfindən həbs edildi. Bir müddət həbsdə qalan İytax hicrətin 235-ci ili (miladi 849) susuzluqdan vəfat etdi.[495]

Əhli-kitaba qarşı görülən tədbirlər

Hicrətin 235-ci ilində (miladi 850) xəlifə Mütəvəkkil, xristianlara və yəhudilərə qarşı bir çox məhdudiyyətlər qoyulması barədə fərman imzaladı. Fərmana əsasən Əhli-kitabdan olanlar müsəlmanlardan fərqlənmələri üçün sarı rəngli əba geyinməli, öz dini mənsubiyyətlərini bildirən zunnar (belə bağlanan sarıq) bağlamalı, hətta atlarının yəhərinə də fərqləndirici nişanlar taxmalı idilər. Onlara əmr olunurdu ki, uşaqlarının geyiminə sarı rəngli yamaq vursunlar. Kişiləri-

[495]Tarixi-Təbəri, V cild, səh-302-303.

nə yalnız sarı rəngdə əmmamə qoymaq, qadınlarına sarı rəngli çarşab örtmək icazəsi verilirdi.

Hicrətin 239-cu ilində (miladi 853) xəlifə Mütəvəkkil əhli-kitabın hüquqlarını daha da məhdudlaşdıran yeni fərman imzaladı. Bu fərmana görə, əhli-kitabdan olanlara at və yabı minmək qadağan olunurdu. Onlar minik heyvanı kimi yalnız qatırdan və uzunqulaqdan istifadə edə bilərdilər.[496]

Mütəvəkkil və Bizansla aparılan müharibələr

Hicrətin 223-cü ili (miladi 838) xəlifə Mutəsimin Amuriyyə səfərindən sonra Bizansla müsəlmanlar arasında irimiqyaslı döyüşlər baş verməmişdir. On beş il sonra hicrətin 238-ci ili (miladi 853) yenidən müsəlman torpaqlarına soxulan Bizans ordusu, Nil çayının deltasında yerləşən Dumyat şəhərini talan edərək xeyli əsirlə geri qayıtdı.

Üç il sonra hicrətin 241-ci ili (miladi 856) müsəlmanlarla Bizans arasında baş tutan əsir mübadiləsi nəticəsində 785 nəfər müsəlman kişi və 125 nəfər müsəlman qadın əsirlikdən azad edildi.

Hicrətin 242-ci ili (miladi 857) yenidən müsəlman torpaqlarına hücum edən bizanslılar on min nəfətlik əsirlə geri qayıtdılar. Müsəlmanlar onları geri qaytarmaq üçün yola düşsələr də, bizanslılar geri çəkildiyindən heç bir döyüş baş vermədi.

Hicrətin 243-cü ilinin sonlarında (miladi 858) türklərin təzyiqindən xilas olmaq istəyən xəlifə Mütəvəkkil Bağdaddan çıxıb Şama getdi. Lakin havanın soyuqluğunu və rütubəti bəhanə gətirərək iki ay sonra yenidən Bağdada qayıtdı.[497]

Hicrətin 244-cü ili (miladi 858) xəlifə Mütəvəkkilin əmrinə əsasən Bizans üzərinə yürüş edən məhşur sərkərdə Buğa əl-Kəbir Orta Anadoluda, Ankara yaxınlığında yerləşən Səmələ şəhərini fəth etdi. Hətta xəlifə Mütəvəkkilin qətli sırasında da Buğa əl-Kəbir Sumeysat şəhərində öz vəzifəsini davam etdirirdi.

Hicrətin 245-ci ili (miladi 859) Bizans imperatoru III Mixail (842-867) yenidən əsirlərin mübadiləsi təklifi ilə xəlifəyə müraciət etdi. Lakin mübadilə barədə danışıqlar getdiyi bir vaxtda Bizans ordusu Sumeysata hücum etdi və bu hücum nəticəsində beş yüz nəfər müsəlman öldürüldü.

Buna cavab olaraq Bizans üzərinə yürüş edən xilafət ordusu miladi tarixilə 860-cı ildə Lölöə qalasını fəth etdi.

Hicrətin 246-cı ili (miladi 860) müsəlmanlarla Bizans arasında əsir mübadiləsi həyata keçirildi. Bu mübadilə nəticəsində 2300 nəfər müsəlman əsirlikdən azad edildi.

---

[496]Tarixi-Təbəri, V cild, səh-304-305; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-313-314.
[497]Tarixi-Təbəri, V cild, səh-327; Tarixi-Məsudi, IV cild, səh-115.

Afrikada Büccə qövmünün qiyamı

Həbəşilərin bir növü olan Büccə Afrikanın şimal-şərq hissəsində, Sudan və Nubiya (Misirin cənubu) torpaqlarında, Asuanla Qırmızı dəniz arasındakı məkanda məskunlaşmış bir qövmün adıdır. Xəlifə Ömər ibn Xəttabın (634-644) xilafəti dövründə Misiri fəth edən (641) müsəlmanlar büccəlilərlə sülh bağlamışlar.

Hicrətin 216-cı ili (miladi 831) xəlifə Məmunun (813-833) dövründə büccəlilər sülhü pozaraq qiyam etdilər. Xəlifə tərəfindən göndərilən ordu onları məğlub edərək xərac verməyə razı saldılar.

Hicrətin 241-ci ili (miladi 855) xəlifə Mütəvəkkilin dövründə yenidən qiyam edən büccəlilər xəracı ödəməkdən imtina etdilər. Həmsərhəd bölgələrə hücum edən büccəlilər müsəlmanlara əziyyət verməyə başladılar. Misir hakimi vilayətdə baş verən hadisələri xəlifəyə çatdırdı.

Misirdə baş verən büccə qiyamını yatırmaq istəyən xəlifə Mütəvəkkil Məhəmməd ibn Abdullah Qummi adlı sərkərdəni böyük bir ordu ilə Misir torpaqlarına göndərdi. Hicrətin 241-ci ilində (miladi 855) baş verən döyüşdə qalib gələn Məhəmməd ibn Abdullah Büccə şahını təslim olmağa məcbur etdi. Bu qələbədən sonra Məhəmməd ibn Abdullah xəlifə tərəfindən büccə torpaqlarının valisi təyin edildi.[498]

Məhəmməd ibn Bəisin üsyanı hicrətin 234-cü il (miladi 848-849)

Şahi və Təbriz qalalarının hakimi olan Məhəmməd ibn Bəis xəlifə Mutəsim tərəfindən həbs edilmişdir. Hicrətin 234-cü ili (miladi 848-849) həbsdən qaçan Məhəmməd ibn Bəis, vətəni Mərəndə gələrək ixtiyarında olan qəsrləri yenidən özünə qaytardı. Xilafətdən narazı olan qüvvələr də, Urmiya gölünün sahilində yerləşən Şahi qalasını özünə mərkəz seçən Məhəmməd ibn Bəisin ətrafına toplandı.

Azərbaycan valisi Məhəmməd ibn Hatəm ibn Hərsəmənin üsyançıların qarşısında aciz qaldığını görən xəlifə, onu Həmduveyh ibn Əli ibn Fəzl ilə əvəz etdi.

On min nəfərlik ordu ilə hərəkət edən Həmduveyh Məhəmməd ibn Bəisi Şahi qalasında mühasirəyə aldı. Lakin mühasirənin uzandığını görən xəlifə Mütəvəkkil Həmduveyhin köməyinə türk əsilli Buğa Şərabi (və ya Buğa əs-Səğiri) ilə Zirəki göndərdi.

Mühasirə yolu ilə məqsədinə çata bilməyəcəyini görən Buğa Şərabi, İbn Bəisin adamları üçün xəlifədən aman məktubları aldı. Amanda olduqlarını görən qala müdafiəçiləri qapıları açaraq qalanı Buğa Şərabiyə təslim etdilər. Məhəmməd ibn Bəis başda olmaqla, iki yüz nəfərdən artıq silahdaşı əsir olaraq xilafətin paytaxtı Samirəyə göndərildi.

Hicrətin 235-ci ili (miladi 850) Buğa Şərabi Məhəmməd ibn Bəisi iki qardaşı, oğlu və əsir düşmüş qalan silahdaşları ilə birlikdə xəlifənin hüzuruna gə-

[498] Tarixi-Təbəri, V cild; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-205-206.

tirdi. Xəlifənin göstərişi ilə həbs olunan Məhəmməd ibn Bəis bir ay sonra dünyasını dəyişdi.[499]

Bu üsyanın ardınca erməni liderləri xilafətə qarşı üsyan etdi. Muş hakimi ilə Vaspurakan şahzadəsi birləşərək Ərməniyyə hakimi Yusif ibn Məhəmməd və onun yaxın silahdaşlarını hicrətin 237-ci ilində (miladi 852) öldürdülər.

Xəlifə Mütəvəkkil baş verənlərdən xəbər tutan kimi məhşur sərkərdə Buğa əl-Kəbiri Ərməniyyə vilayətinə göndərdi. Erməni zadəganlarının lideri, Vaspurakan şahzadəsi Həmzə oğlu Aşot müqavimət göstərmək istəsə də, məğlub edilib Samirəyə xəlifənin hüzuruna göndərildi və edama məhkum edildi.

Bu qələbədən sonra bir neçə ay sonra Dvin şəhərində istirahət edən Buğa əl-Kəbir Tiflisin hakimi İshaq ibn İsmailin üzərinə hərəkət etdi. Çünki erməni feodallarını xilafət əleyhinə təhrik edən o olmuşdu. Hicrətin 238-ci ilində (miladi 852) baş verən döyüşdə İshaq ibn İsmail məğlub edildi. Onun kəsik başı əvvəlcə Buğa əl-Kəbirin hüzuruna, oradan Samirəyə xəlifə Mütəvəkkilin hüzuruna gətirildi.

Tiflisin süqutundan sonra Girdiman knyazlığı ilə Xaçın hakimi Artrnesex xilafət qüvvələrinə təslim oldu. Bunların ardınca Ktiş qalasına sığınmış Yesai Əbu Musa və Şəki hakimi Səhl ibn Sumbat da həbs edildi.

Ərməniyyə vilayətində dörd illik hərbi əməliyyatdan sonra asayişi bərpa edən Buğa əl-Kəbir hicrətin 241-ci ilində (miladi 855-856) xilafətin paytaxtı Samirəyə qayıtdı.[500]

Hicrətin 240-cı ilində (miladi 854) Suriyadakı Xıms şəhərinin camaatı xilafətə qarşı üsyan etsə də, xəlifənin yeni təyin etdiyi vali Məhəmməd ibn Əbdivehy tərəfindən üsyan yatırılmışdır.[501]

Mütəvəkkiliyyə (və ya Cəfəriyyə) şəhərinin inşası hicri 245 (miladi 859-860)

Xilafətinin sonlarına yaxın hicrətin 245-ci ilində (miladi 859-860) xilafətin paytaxtı Samirə şəhərinin yaxınlığında Mahuzə adlı məntəqədə xəlifə Mütəvəkkilin göstərişinə əsasən daha bir şəhərin əsası qoyuldu. Bu şəhər xəlifənin şərəfinə "Cəfəriyyə" adlandırıldı. Mütəvəkkilin özü və yaxın saray adamları tərəfindən buraya "Mütəvəkkiliyyə" deyilirdi.[502]

Bu şəhərin salınması ilə yanaşı xəlifə Mütəvəkkil Samirə şəhərinin genişləndirilməsi üçün xeyli miqdarda vəsait ayırmışdır. Samirə şəhəri onun dövründə daha da inkişaf edərək çiçəklənmiş, yeni memarlıq abidələri ilə zənginləşmişdir. Mütəvəkkil zamanında inşa edilən Samirə came məscidi gözəlliyinə görə Müqəddəs Pyotr kilsəsindən geri qalmırdı.

---

[499]Tarixi-Yəqubi, II cild, səh-486; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-312.

[500]Tarixi-Təbəri, V cild, səh-313, 316-317; Tarixi-Yəqubi, II cild, səh-489; Tarixi ibn Əsir, VII cild, səh-67-68; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-317.

[501] Tarixi-Təbəri, V cild, səh-318.

[502]Tarixi-Təbəri, V cild; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-209.

Qədim Azərbaycan şəhəri olan Şəmkir də orta əsrə aid ərəb mənbələrində "Mütəvəkkiliyyə" adlandırılır. Şəmkir köçəri tayfaların hücumuna məruz qalıb dağıldıqdan sonra, miladi IX əsrin ortalarında sərkərdə Buğa əl-Kəbir İslamı qəbul etmiş xəzərləri və Bərdə tacirlərinin bir hissəsini bura köçürmüşdü. Həmin vaxtdan inkişaf edən bu şəhərə xəlifənin şərəfinə "Mütəvəkkiliyyə" deyilməyə başladı. Lakin vaxt keçdikcə, bu ad unuduldu və şəhərin əvvəlki adı özünə qayıtdı.[503]

Mütəvəkkil və Əhli-Beyt

Abbasi xəlifələrindən Əhli-beytlə ən qatı düşmənçilik edən Mütəvəkkil olmuşdur. O, həm Hz.Əlinin *(ə)* pak ruhuna, həm də o həzrətin nəslinə qarşı kin-küdurət bəsləyirdi. Onun xilafət dövrü şiə və Ələvilər üçün ən pis dövrlərdən biri sayılır. Mütəvəkkilin şiələrə qarşı həyata keçirdiyi cinayətləri belə sıralaya bilərik:

1. Onun hakimiyyəti dövründə Ələvilərdən bəzisi ya həbs edildi, ya da axtarışda oldu. Buna misal olaraq İmam Həsənin *(ə)* nəslindən olan Məhəmməd ibn Saleh və Məhəmməd ibn Cəfərin adını qeyd etmək olar.[504]

2. Mütəvəkkil hicrətin 236-cı ilində (miladi 850) əmr verir ki, Hz.Hüseynin *(ə)* məqbərəsi və onun ətrafında olan tikililər sökülərək əkin sahəsinə çevrilsin. Eyni zamanda o Həzrətin ziyarətinin qarşısını almaq məqsədilə, yaxınlıqda gözətçilər saxlayırdı. İmamın *(ə)* qəbrini heç bir müsəlman sökməyə hazır olmadığı üçün bu işi əslən yəhudi olan Dizəc adlı şəxs yerinə yetirir. Xəlifə, Hz.Hüseynin *(ə)* qəbrinin ziyarət edilməsini qadağan edərək bildirir ki, əgər bir nəfər ora ziyarətə gedərsə, mütləq cəzalandırılacaq.[505]

Tarixçilər Mütəvəkkilin on yeddi dəfə Kərbəla ziyarətgahını dağıtdığını, lakin hər dəfə camaatın məqbərəni bərpa etdiyini yazırlar. İmam Hüseynin *(ə)* pak məzarına qarşı xəyanətlər hicri 236-cı ildən (miladi 850) Mütəvəkkilin ölümünə qədər (hicri 247/miladi 861) davam etmişdir.[506]

3. Mütəvəkkil xilafəti dövründə İbn Sikkit (Yəqub ibn İshaq) kimi İslam aləminin böyük şəxsiyyətini və Əhli-beytə sadiq olan bir sıra şəxsləri qətlə yetirmişdir. İbn Sikkit Hz.Təqi *(ə)* ilə Hz.Nəqinin *(ə)* vəfalı dostlarından biri olmuş və Mütəvəkkil onu Hz.Əlinin *(ə)* tərəfdarı olduğu üçün edam etdirmişdir. Bir gün Mütəfəkkil öz iki oğluna işarə edərək İbn Sikkitdən soruşur: "Sənin üçün mənim bu iki oğlum (Mütəzz və Müəyyəd) daha əzizdir, yoxsa Əlinin *(ə)* oğlanları Həsən *(ə)* və Hüseyn *(ə)*?" İbn Sikkit tərəddüd etmədən belə cavab verir: "Allaha and olsun ki, mənim nəzərimdə Hz.Əlinin

[503]Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-210.
[504]Əbul Fərəc İsfəhani, Məqatilut-talibiyyin, səh-397, 418.
[505]Tarixi-Məsudi, IV cild, səh-51; Tarixi-Təbəri, V cild, səh-312; Siyuti, Tarixul-xüləfa, səh-347.
[506]Məqatilut-talibiyyin, səh-396.

(ə) nökəri Qənbər, səndən və bu iki oğlundan üstündür." Bu sözlər Mütəvəkkilə elə təsir etdi ki, İbn Sikkitin dərhal edamına fərman verdi.[507]

4. Mütəvəkkil Misir hakiminə əmr edir ki, Misirdə olan bütün Ələviləri İraqa sürgün etsin. Misir hakimi də onun dediklərini yerinə yetirir. Sonra isə Mütəvəkkil onların hamısını Mədinəyə köçürür.[508]

5. Mütəvəkkil şiələrə qarşı o qədər maddi təzyiq göstərir ki, deyilənlərə görə Mədinə şəhərindəki Ələvi qadınların namaz qılmağa təzə paltarları olmamış, əyinlərindəki köhnə paltarı növbə ilə geyib namaz qılırdılar. Onlar Mütəvəkkil ölənə qədər bu cür çətinlik içərisində olmuşlar.[509]

6. Mütəvəkkil Əhli-beytin mülkü olan Fədəki müsadirə edərək, dostlarından biri olan Abdullah ibn Ömər Bazyara bağışlayır.[510]

7. Mütəvəkkil Mədinə valisinə əmr etmişdi ki, adamları şəhərdəki Hz.Əlinin *(ə)* nəslindən olan seyidlərə ehsan və ehtiram etməkdən çəkindirsin. Camaata elan olunmuşdu ki, seyidlərə xums payı verənlər dövlət tərəfindən cəzalandırılacaq. Buna görədə Hz.Əli *(ə)* övladları Mütəvəkkilin dövründə çox ağır şəraitdə yaşayırdılar.

8. Mütəvəkkilin Əhli-beytlə düşmənçiliyi elə bir həddə çatmışdı ki, təlxəyi İmam Əlini *(ə)* təhqir edən söz və hərəkətlərlə xəlifəni güldürürdü.

9. Hz.İmam Nəqini *(ə)* daim nəzarət altında saxlayan Mütəvəkkil, dəfələrlə onu şəhid etməyə çalışsa da, hər dəfə o həzrətin heybət və əzəməti qarşısında aciz qalıb özünü itirir və xidmətçilərə verdiyi qətl fərmanını geri götürürdü.

Mütəvəkkilin Əhli-beytlə düşmənçiliyi bunlarla bitmir. Onun hakimiyyəti dövründə Bəni-Haşimdən olan bir neçə seyid şəhid edilmiş və ya müxtəlif növ təzyiqlərə məruz qalmışdır.

1. Əbu Abdullah Məhəmməd ibn Saleh ibn Abdullah ibn Musa ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)*. Məkkədə Mütəvəkkilə qarşı üsyan edərək, yoldan keçən varlı dövlət adamlarına hücum edirdi. Sonda xəlifənin Məkkə yoluna təyin etdiyi gözətçilər Məhəmməd ibn Salehi tutub Samirəyə gətirdilər. Daim xəlifənin nəzarəti altında olan Məhəmməd, İraqda vəfat etdi və Bağdadda dəfn edildi.

2. Qasim ibn Abdullah ibn Hüseyn ibn İmam Səccad *(ə)*. O da Samirədə Mütəvəkkilin nəzarəti altında yaşayırdı. Qasim Abbasilərin hakimiyyətini tanımadığı üçün Mütəvəkkilin göstərişi ilə şəhid edilmişdir.

3. Əhməd ibn İsa ibn Zeyd ibn İmam Səccad *(ə)*. Xəlifə Harunun dövründə xilafətə qarşı çıxış etmək istəsə də, məğlub olub zindana salındı. Qısa müddət sonra həbsdən qaçıb, Bəsrəyə getdi və orada uzun müddət gizləndi. Mütəvəkkilin xilafəti dövründə dünyasını dəyişmişdir (hicri 240/miladi 854-855).

---

[507] Siyuti, Tarixul-xüləfa, səh-348.
[508] Hz. Mehdinin (ə) qeybə çəkilməsinin siyasi tarixi, səh-82.
[509] Şeyx Abbas Qummi, Tətimmətül-müntəha, səh-238.
[510] Hz. Mehdinin (ə) qeybə çəkilməsinin siyasi tarixi, səh-84.

4.Abdullah ibn Musa ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)*. Məmunun xilafəti dövründən gizli yaşayan Abdullah, Mütəvəkkilin xilafətinin sonlarına yaxın vəfat etmişdir.[511]

Mütəvəkkilin vəliəhdlik məsələsi

Hicrətin 235-ci ilində (miladi 849-850) xəlifə Mütəvəkkil üç oğlunu bir-birinin ardınca özündən sonra vəliəhd təyin etdi. Özündən sonra ilk vəliəhdi olan "Müntəsir" ləqəbli oğlu Məhəmmədə Misir, İfriqiyyə və uzaq Məğrib ölkələri daxil olmaqla bütün Şimali Afrika ərazisi, Hindistan, Bizansla sərhəd bölgələr, Mosul, Samirə, Bağdad, Kufə və Bəsrə daxil olmaqla İraq torpaqları, bütün Ərəbistan yarımadası, Əhvaz, İsfəhan, Qum və Qəzvin də daxil olmaqla İran torpaqlarının ixtiyarını verdi.

İkinci vəliəhdi "Mütəzz" ləqəbli oğlu Əbu Abdullaha Xorasan, Təbəristan, Rey, Azərbaycan, Ərməniyyə və Fars əyalətlərinin ixtiyarını verdi.

Üçüncü vəliəhdi "Müəyyəd" ləqəbli oğlu İbrahimə Dəməşq, Xıms, İordaniya və Fələstinin ixtiyarını verdi.[512]

Onuncu Abbasi xəlifəsi Əbul-Fəzl Cəfər Mütəvəkil hicrətin 247-ci ilində şəvval ayının üçü (miladi 861, 10 dekabr) oğlu Müntəsirin təşkil etdiyi sui-qəsd nəticəsində, xilafətin məşhur sərkərdələri Bağır, Bəğlun, Musa ibn Buğa əl-Kəbir və Harun ibn Süvartəkin tərəfindən öldürüldü.[513]

Əbu Cəfər Məhəmməd Müntəsir hicri 247-248 (miladi 861-862)

Əbu Cəfər Məhəmməd Müntəsir ibn Cəfər hicrətin 222-ci ilində (miladi 837) xəlifə Mutəsimin xilafəti dövründə Samirədə anadan olmuşdur. Anası həbəşili bir kəniz olan Müntəsir, xəlifə seçilərkən iyirmi beş yaşında idi.

Atası Mütəvəkkilin qətlindən dərhal sonra Müntəsir ilk öncə qardaşları Mütəzzlə Müəyyədi və məşhur sərkərdə Vəsifi çağırıb onlardan beyət aldı. Daha sonra digər saray əyanları da beyət etdilər. Lakin onun xilafətini qəbul etməyən Ubeydullah ibn Yəhya on min nəfərlik dəstə ilə çevriliş etmək istəsə də, bu fikrindən daşındı. Çünki onun xəlifə kimi görmək istədiyi Mütəzz xəlifə Müntəsirin əlində idi.[514]

Bu hadisədən sonra Müntəsir Ubeydullah ibn Yəhyanın yerinə Əhməd ibn Xəsibi özünə vəzir təyin etdi.

Atası Mütəvəkkildən fərqli olaraq, həddən artıq mərhəmətli və insaflı olan Müntəsir, Əhli-Beytlə mülayim davranırdı. Onun hakimiyyəti dövründə Əhli-beyt imamlarına və Bəni-Haşim seyidlərinə zülm olunmadı, əksinə həbsdə olan

---

[511]Əbul-Fərəc İsfəhani, Məqatilut-talibiyyin, səh-397; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-214.
[512]Tarixi-Təbəri, V cild, səh-306-309; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-314.
[513]Tarixi-Təbəri, V cild, səh-334-338; Tarixi-Məsudi, IV cild, səh-115-122; Tarixi ibn Əsir, VII cild, səh-95-102; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, X cild, səh-349.
[514]Tarxi-Təbəri, V cild, səh-341.

Əhli-beyt tərəfdarları sərbəst buraxıldı. Müntəsir valilərə tapşırmışdı ki, ələvilərlə mehriban davranaraq onlara ehsan etsinlər. Onun xilafət illərində Fədək torpağı yenidən Əhli-beyt nümayəndələrinə qaytarılmış və Hz.Hüseynin *(ə)* ziyarəti üzərindəki qadağan götürülmüşdür.[515]

Eyni zamanda Müntəsir xəlifə iqamətgahını da atası Mütəvəkkilin inşa etdirdiyi Cəfəriyyə şəhərindən Samirəyə qaytardı. Qısa müddət sonra əhalinin də, Cəfəriyyədən köçürülməsi ilə əlaqədar olaraq, tənəzzülə uğrayan şəhər bir neçə ay ərzində demək olar ki, xarabalığa çevrildi.

Vəsifin Bizans sərhəddinə göndərilməsi

Xilafəti əldə edən Müntəsir, bir neçə ay sonra vəziri Əhməd ibn Xəsibin təhriki ilə sərkərdə Vəsifi, hicrətin 248-ci ilində (miladi 862) Bizans imperatorunun hücumlarının qarşısını almaq üçün Bizansla sərhəd bölgələrə göndərdi. Xəlifənin göstərişinə əsasən Vəsif on minlərlik qoşunla Malatya istiqamətində hərbi səfərə çıxdı. Vəsifin Malatyaya gəlişindən az sonra Müntəsir ona bildirdi ki, göndərildiyi bölgədə ən azı dördü qalıb, bizanslılarla döyüşsün, soyuqlar düşəndə isə istirahətə çəkilsin. Müntəsirin hakimiyyətinin sonuna qədər Bizans sərhəddində qalan Vəsif, Müstəinin xəlifə seçilməsiylə Samirəyə qayıtmışdır.[516]

Müntəsirin qardaşlarını vəliəhdlikdən kənarlaşdırması

Müntəsir Abbasi xəlifəsi təyin edildikdən sonra vəzir Əhməd ibn Xəsib, Vəsif və Buğa Mütəzzlə Müəyyədin vəliəhdliyi ilə razılaşmayıb, xəlifədən tələb etdilər ki, onları vəliəhdlikdən uzaqlaşdırıb, özündən sonra oğlu Əbdul-Vəhhabı vəliəhd təyin etsin. Çünki Mütəzzlə Müəyyəd, Müntəsirdən fərqli olaraq türklərə qarşı mənfi münasibətdə idilər.

Türklərin təzyiqinə tab gətirməyən xəlifə Müntəsir, sonda qardaşlarını vəliəhdlikdən kənarlaşdırmaq qərarına gəldi. Bu məqsədlə xəlifə hər iki qardaşını yanına çağıraraq buyurdu: "Elə zənn edirsiniz ki, sizi vəliəhdlikdən uzaqlaşdırıb, öz oğlumun böyüməsinə kimi gözləmək və onu vəliəhd təyin etmək arzusundayam? Allaha and olsun ki, məndən sonra əmim oğlanlarının hakimiyyəti ələ keçirmələrindənsə, öz qardaşlarımın xilafətə keçmələri mənə daha xoşdur. Amma ətrafımda olan bu əyanlar sizi vəliəhdlikdən kənarlaşdırmağımı məndən tələb edirlər. Qorxuram ki, əgər dediklərini yerinə yetirməsəm, sizi öldürərlər. And olsun Allaha, mənim gözümdə bunların hamısının qanı sizin birinizin həyatına bərabər deyil. Bu üzdən onların istəyini qəbul etməyi məsləhət gördüm".

Hicrətin 248-ci ili (miladi 862) xilafət sarayında təşkil edilmiş məclisdə vəzir Əhməd ibn Xəsib tərəfindən hər iki vəliəhdin istefa kağızı oxundu. Bundan

---

[515]Tarixi-Təbəri, V cild, səh-351-353; Tarixi ibn Əsir, VII cild, səh-114-115, Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-224.

[516]Tarixi-Təbəri, V cild, səh-345; Tarixi ibn Əsir, VII cild, səh-111-112.

sonra elan olundu ki, xilafətin hər yerində xütbələrin sonunda vəliəhd kimi az yaşlı Əbdul-Vəhhabın adına dualar oxunsun.[517]

Vəliəhdlik məsələsindən qısa müddət sonra xəlifə Müntəsir xəstələnərək vəfat edir. Əhməd ibn Mutəsim tərəfindən cənazə namazı qılınan xəlifə Samirə şəhərində dəfn edildi. Tarixi mənbələrə əsasən Müntəsir, məzarının yeri dəqiq bilinən ilk Abbasi xəlifəsidir.[518]

Əbul-Abbas Əhməd Müstəin hicri 248-252 (miladi 862-866)

Əbul-Abbas Əhməd ibn Məhəmməd ibn Mutəsim hicrətin 220-ci ili (miladi 834) xəlifə Mutəsimin xilafəti dövründə Samirədə anadan olmuşdur.

Xəlifə Müntəsirin ölümündən sonra məşhur sərkərdələrdən olan Buğa əl-Kəbir, Buğa əs-Səğir və Otamış bir araya gələrək, yeni seçiləcək xəlifənin kim olacağı barədə məşrəvət etdilər. Türklər, Məğaribilər və İsrövşənəlilər elə bir şəxsi xəlifə seçmək istəyirdilər ki, hakimiyyətə gəldikdən sonra, onlara zərəri toxunmasın. Bir günlük müzakirədən sonra, həmin şəxslər hicrətin 248-ci ili (miladi 862) Müntəsirin əmisi, iyirmi səkkiz yaşlı Əhməd ibn Məhəmməd ibn Mutəsimi xəlifə elan edərək, ona beyət etdilər. Xəlifəliyi qəbul edən Əhməd ibn Məhəmməd özünə "Müstəin" ləqəbini götürdü.[519]

Müstəinin xilafəti ilə razılaşmayan narazı qüvvələr, o cümlədən Mütəzzin tərəfdarları Samirənin mərkəz meydanında toplanaraq qiyam etdilər. Mütəzzin tərəfdarları əsasən fars mənşəli muzdlu əsgərlərdən ibarət idi. Bunlara "şakirilər" (farsca "çakər", yəni nökər sözündəndir) deyirdilər. Hakimiyyəti müdafiə edərək, qiyamçılara qarşı mübarizə aparan dəstəyə isə türklər və məğaribilər (Misir mənşəli əsgərlər) başçılıq edirdi. Üç günlük mübarizədən sonra xəlifənin tərəfdarları qalib gəlmiş və xəlifəyə beyət tamamlanmışdır. Bu hadisə, xalqın türklərə qarşı ilk mütəşəkkil çıxışı idi.

Mütəzz və Müəyyədin həbsi

Xilafəti əldə edən Müstəin onun üçün bu yolda əsas maneə olan Mütəzz və Müəyyədi zərərsizləşdirmək qərarına gəldi. Bu məqsədlə iki sabiq vəliəhdin əmlakı çox ucuz qiymətə onlardan alındı. Keçmiş vəliəhdlər üçün elə miqdarda əmlak saxladılar ki, Mütəzzin illik qazancı iyirmi min dinar, Müəyyədinki isə beş min dinarı aşmasın. Sonra hər iki qardaş xəlifə Müstəinin göstərişinə əsasən Samirədəki Cövsəq qəsrində həbsə alında və onlara nəzarət Buğa əs-Səğirə tapşırıldı.

Hicrətin 248-ci ilində (miladi 862) xilafətin məşhur sərkərdəsi Buğa əl-Kəbir vəfat etdi. Qeyri-ərəb və qeyri-Haşimi olmasına baxmayaraq, Mütəvəkkilin

---

[517]Tarixi-Təbəri, V cild, səh-342-350; Tarixi-Məsudi, IV cild, səh-133-136; Tarixi ibn Əsir, VII cild, səh-112-114.

[518] Tarixi-Təbəri, V cild, səh-351.

[519] Tarixi-Təbəri, V cild, səh-353-354.

xalası ilə evlənmişdi. Bəzi mənbələrdə onun Hz.Əli *(ə)* övladına məhəbbət bəslədiyi və seyidlərə ehsan etdiyi qeyd olunur. Buğa əl-Kəbirin vəfatından sonra onun vəzifələri oğlu Musa ibn Buğa əl-Kəbirə həvalə olundu.

Eyni ildə Xorasan valisi Tahir ibn Abdullah ibn Tahir vəfat etdi və onun yerinə xəlifə Müstəinin göstərişinə əsasən oğlu Məhəmməd Xorasana vali təyin edildi.

Tezliklə xəlifənin yanında mövqeyi zəifləyən vəzir Əhməd ibn Xəsib vəzifəsindən kənarlaşdırıldı. Əvvəlcə dəniz yolu ilə Krit adasına, oradan da Əndəlusa sürgün olunan Əhmədin və övladlarının bütün əmlakı müsadirə olundu. Vəzirlik məqamına təyin edilən türk mənşəli Otamışa, Misir və Məğrib torpaqlarının da ixtiyarı verildi.

Bağdad və Samirədə xilafət əleyhinə qiyamlar

Hicrətin 249-cu ilində (miladi 863) türklərin özbaşınalığını görən Bağdad əhalisi xilafətə qarşı qiyam etdi. Şakirilər (muzdlu əsgərlər) və "əbna" (əsasən xorasanlılardan təşkil olunmuş hərbi dəstə) da qiyamçılara qoşuldular.

Qiyamın digər səbəblərindən biri də Bizansla döyüşlərdə xilafət ordusunun uğursuzluğu idi. Eyni ildə Cəfər ibn Dinar Xəyyatın və Ömər ibn Ubeydullahın başçılığı altında olan xilafət orduları Bizansa qarşı yürüşə göndərildi. Cəfərin başçılığı altında olan ordu uğur qazanaraq bir çox qalaları ələ keçirdi. Malatya üzərinə hərəkət edən Ömər ibn Ubeydullah da uğur qazanaraq Qara dəniz sahilində yerləşən Samsuna qədər irəlilədi.[520] Daha çox uğur əldə etmək istəyən Ömər ibn Ubeydullah Bizans torpaqlarına daxil olsa da, bizanslıların hücumuna məruz qaldı. Baş verən döyüşdə Ömər ibn Ubeydullah başda olmaqla min nəfərə yaxın ərəb əsgəri həlak oldu. Bu məğlubiyyətdən sonra Anadoluda qüvvətlənən Bizans, eyni zamanda İslam dünyası qarşısında da gücləndi.

Bu qələbədən ruhlanan Bizans ordusu xilafət torpaqlarına hücum etməyə başladılar. Bu hücumların qarşısını almaq məqsədilə Azərbaycan və Ərməniyyə valisi Əli ibn Yəhya qoşun toplayaraq döyüşə başladı. Lakin bu döyüşdə də məğlub olan müsəlmanlar, Əli ibn Yəhya başda olmaqla dörd yüz nəfər əsgərini itirdi.

Baş verən hadisələrdə xəlifəni və onun saray əyanlarını günahkar bilən qiyamçılar Bağdad həbsxanasının qapılarını açaraq məhbusları azadlığa buraxdılar. Bağdadın şərqində yerləşən saray və imarətlər qiyamçılar tərəfindən qarət edildi.

Bağdadda baş verən hadisələr paytaxt Samirəyə də öz təsirini göstərdi. Eyni ildə Samirədə də xilafət əleyhinə qiyam başladı. Sonda Buğa əs-Səğirin, Otamışın və Vəsifin başçılığı altında olan ordular tərəfindən əvvəlcə Samirədə, sonra isə Bağdadda baş verən üsyan yatırıldı.

Bağdad və Samirədəki üsyanların yatırılmasından sonra məhşur sərkərdə Otamışın qeyri-məhdud səlahiyyətləri digərlərinin narazılığına səbəb oldu. Xəlifənin vəziri olması nüfuzundan istifadə edən Otamış gəlirləri gizlədib mənimsə-

[520]Tarixi-Təbəri, V cild, səh-357.

yir, xəzinədəki pulları öz ehtiyaclarına sərf edirdi. Onun bütün pulu təkbaşına mənimsəməsi Buğa əs-Səğir və Vəsif kimi sərkərdələrin qəzəbinə səbəb olurdu.

Otamışın etdiyi əməllərlə barışmayan iki sərkərdə onu aradan götürmək qərarına gəldilər. Onların tərəfindən qızışdırılmış ordu və şəhər əhalisi Otamışın sarayını mühasirəyə aldılar. İki günlük mühasirədən sonra hicrətin 249-cu ilində (miladi 863) narazı əsgərlər Otamışın iqamətgahına daxil olub, katibi Şucai ilə birlikdə onu qətlə yetirdilər.[521]

Onun ölümündən sonra xəlifə tərəfindən Vəsif Əhvazın, Buğa əs-Səğir isə Fələstinin valisi təyin edildi. Vəzirlik məqamına isə əvvəlcə Əbu Salih Abdullah ibn Məhəmməd Yəzdadi, sonra isə Məhəmməd ibn Fəzl Cərcərayi təyin edildi.

Bəni-Haşim qiyamları

Hicrətin 250-ci ilində (miladi 864) Hz.Əlinin *(ə)* nəslindən olan Əbul-Həsən Yəhya ibn Ömər ibn Yəhya ibn Hüseyn ibn Zeyd ibn İmam Səccad *(ə)* Kufənin beytül-malını ələ keçirərək xilafətə qarşı qiyam etdi. İraq torpaqlarının valisi Məhəmməd ibn Abdullah ibn Tahirin göndərdiy ordunu da məğlub edən Yəhya ibn Ömər Kufəni bütünlüklə ələ keçirdi.

Kufənin qiyamçıların əlinə keçməsindən narahat olan Məhəmməd ibn Abdullah ixtiyarında olan bütün qüvvələri Yəhyanın üzərinə göndərdi. Kufə yaxınlığında baş verən döyüşdə Yəhya ibn Ömərin öldürülməsi ilə qiyamçılar məğlub oldu. Yəhyanın kəsik başı əvvəlcə İraq torpaqlarının valisi Məhəmməd ibn Abdullahın, sonra isə Samirəyə xəlifə Müstənin hüzuruna göndərildi. Samirədə qısa müddətli nümayişdən sonra Yəhyanın başını geri göndərən xəlifə əmr verdi ki, Yəhya ilə birlikdə şəhid olanların kəsik başlarını Bağdadda torpağa tapşırsınlar, əsirləri isə azadlığa buraxsınlar.[522]

Yəhya ibn Ömərin qiyamının yatırılmasından az sonra digər Bəni-Haşim nümayəndəsi Həsən ibn Zeyd ibn Məhəmməd ibn İsmail ibn Həsən ibn Zeyd ibn İmam Həsən *(ə)* xilafətdən narazı qüvvələri ətrafına toplayaraq Təbəristanda qiyam etdi. Qısa müddət ərzində Təbəristan və Deyləm əyalətlərinin böyük bir hissəsi qiyamçıların əlinə keçdi.

Tərəfdarlarının çoxluğunu görən Həsən ibn Zeyd Təbəristanın mühüm şəhərlərindən olan Amul üzərinə hərəkət etdi. Vali Süleyman ibn Abdullahın göndərdiyi ordunu məğlub edən qiyamçılar şəhəri ələ keçirdilər.

Amul şəhərini ələ keçirən Həsən ibn Zeyd xilafət qüvvələrinin qərargahı olan Sariyə şəhərinə doğru hərəkət etdi. Sariyə yaxınlığında baş verən döyüşdə də Süleyman ibn Abdullahın ordusunu məğlub edən Həsən ibn Zeyd şəhəri ələ keçirdi və Təbəristan valisi Cürcana qaçdı.

Bu qələbədən sonra Rey şəhərini də ələ keçirən Həsən ibn Zeyd Təbəristandan Həmədana kimi uzanan böyük bir ərazinin hakimi oldu. Beləliklə uğur

[521]Tarixi-Təbəri, V cild, səh-357-359; Tarixi ibn Əsir, VII cild, səh-122-124.
[522]Tarixi-Təbəri, V cild, səh-360-362; Tarixi ibn Əsir, VII cild, səh-126-129.

qazanan Həsən ibn Zeyd və onun xələfləri 870-ci ilə qədər Təbəristan torpağında şiə dövləti təsis edərək, bu yerlərdə bir müddət hakimlik etdilər.

Bunun ardınca hicrətin 251-ci ilində (miladi 865) Kufədə daha bir Bəni-Haşim nümayəndəsi Hüseyn ibn Məhəmməd ibn Həmzə ibn Abdullah ibn Hüseyn ibn İmam Səccad *(ə)* qiyam etsə də, Məzahim ibn Xaqanın başçılığı altında olan ordu tərəfindən məğlub edilmişdir. Məğlub olan Hüseyn ibn Məhəmməd Samirəyə gedərək Mütəzzə beyət etmişdir. On yeddi il sonra (hicri 268/miladi 881-882), xəlifə Mutəmidin xilafəti dövründə bir daha qiyam etməyə cəhd göstərdi, lakin məqsədinə nail olmayıb həbs olundu və ömrünün sonuna kimi zindanda qaldı.

Hicrətin 250-ci ilində (miladi 864) Xıms valisi Fəzl ibn Qarinin əleyhinə üsyan baş versə də, bu üsyan Musa ibn Buğa əl-Kəbir tərəfindən yatırılmışdır.

Sərkərdə Bağırın qətli və Müstəinin paytaxt Samirəni tərk etməsi

Bağır ət-Türkinin artmaqda olan nüfuzundan narahat olan Buğa əs-Səğir onu aradan götürmək üçün tədbir görməyə başladı. Digər tərəfdən də sarayda şayiə gəzirdi ki, xəlifə Bağırın vəzifəsini artırıb, onu Buğa əs-Səğirin yerinə qoyacaq. Bunu eşidən Buğa əs-Səğir Vəsiflə birləşərək, Bağırı aradan götürmək qərarına gəldi. Xəlifə Müstəin də onlarla əlbir idi.

Özünə qarşı aparılan əks-təbliğatdan xəbərdar olan Bağır, hicrətin 250-ci ilində (miladi 865) qarşı tərəfi qabaqlayaraq, xəlifəyə və iki sərkərdəyə qarşı sui-qəsd hazırladı. Lakin bundan xəbər tutan xilafət nümayəndələri Bağırı həbs etdilər.

Bağırın həbsindən xəbər tutan tərəfdarları xilafət sarayını mühasirəyə aldılar. Qiyamı yatırmaq məqsədilə xilafət nümayəndələri Bağırı həbsxanada doğrayıb qətlə yetirdilər. Lakin onun ölümü də ordunu sakitləşdirmədi. Türk qoşunu başda xəlifə olmaqla, Bağırın qətlində günahkar olan hər bir kəsi cəzalandırmayınca çəkilib getmək fikrində deyildi. Çıxılmaz vəziyyətdə qalan xəlifə Müstəin, Buğa əs-Səğir, Vəsif, Əhməd ibn Saleh və Şahək əl-Xadim bir qrup mühafizəçinin köməyi ilə gizlicə paytaxt Samirəni tərk edərək Bağdada gəldilər. Bu hadisədən sonra xəlifə Müstəin ömrünün sonuna kimi Samirəyə qayıda bilmədi.[523]

Əbu Abdullah Mütəzzin hakimiyyətə gətirilməsi

Bağdada gələn xəlifə Müstəin, ətrafındakı əyanlarla birlikdə şəhərin valisi Məhəmməd ibn Abdullah ibn Tahirin sarayında yerləşdi. Digər əyanlar da sonrakı günlərdə Bağdada gələrək xəlifə Müstəinə qoşuldular. Bağdaddakı hərbi qüvvələr Məhəmməd ibn Abdullahın qarnizonundan ibarət idi.

Xəlifənin Samirəni tərk etməsindən sonra ordunun adlı-sanlı sərkərdələrindən ibarət nümayəndə heyəti Bağdada gəlib, Müstəinlə görüşərək onun Samirəyə qayıtmasını istədilər. Lakin xəlifə onların istəyini qəbul etməyib Bağdadda qaldı.

---

[523]Tarixi-Təbəri, V cild, səh-367-370.

Xəlifədən rədd cavabı alan türklər özlərinə yeni bir xəlifə seçmək qərarına gəldilər. Bu məqsədlə onlar hicrətin 251-ci ilində (miladi 865) həbsdə olan Mütəzzi azad edərək ona xəlifə kimi beyət etdilər. Xilafətdə yenə də Məmun və Əminin dövründə olduğu kimi, iki xəlifə hakimlik edirdi. Bu dəfə Bağdadda Müstəin, Samirədə isə Mütəzz xəlifə idi.

Mübarizədə qalib gəlmək istəyən hər iki xəlifə əyalətlərə məktub yazıb, valiləri öz tərəfinə çəkirdi. Həm Müstəin, həm də Mütəzz hökumət nümayəndələrinə tapşırırdı ki, camaatdan yığılan vergi və xəracı məhz ona göndərsinlər. Eyni zamanda Musa ibn Buğa əl-Kəbir və Abdullah ibn Buğa əs-Səğirin Mütəzzin tərəfinə keçməsilə, qüvvələr nisbəti az da olsa, onun xeyrinə dəyişdi.[524]

Bütün lazımi tədbirləri həyata keçirən Mütəzz, hicrətin 251-ci ili məhərrəm ayının sonlarında (miladi 865, fevral) qardaşı Əbu Əhmədin başçılığı altında olan əlli min nəfərlik ordunu Bağdad üzərinə göndərdi. Səfər ayının əvvəllərində (mart) Səmmasiya qapısına gələn Əbu Əhməd Bağdadı mühasirəyə aldı. Bir neçə gün tərəflər arasında ciddi döyüşlər baş vermədi. Baş verən döyüşlər kəşfiyyat xarakteri daşısa da, hər iki tərəf xeyli itki verirdi. Bu döyüşlərdə çox vaxt bağdadlılar qalib gəlirdi.

Uzun sürən mühasirədən sonra şəban ayının ortalarında (miladi 865, sentyabr) şəhər divarlarının zəif nöqtəsini tapan türklər şəhərə daxil oldular. Lakin buna baxmayaraq Məhəmməd ibn Abdullah, Vəsif və Buğa əs-Səğirin göstərişi ilə hərəkət edən şəhər müdafiəçiləri türkləri geri çəkilməyə məcbur etdilər.

Bağdadın bir neçə aylıq mühasirəsindən sonra şəhərdə azuqə ehtiyatı tükənmək üzrə idi. Əhalinin çətin vəziyyətə düşməsilə əlaqədar olaraq şəhərdə narazılıq artdı. Camaat Bağdad valisinin sarayı qarşısında yığışıb, ya düşmənlə döyüşməyi, ya da sülh bağlamağı tələb edirdi.

Əhalinin narazılığından sonra qalib gələ bilməyəcəyini anlayan Məhəmməd ibn Abdullah hicrətin 251-ci ili zilqədə ayının sonlarında (miladi 865, dekabr) Əbu Əhmədlə sülh bağlamaq qərarına gəldi. Bir neçə gün davam edən danışıqlarda qət olundu ki, Məhəmməd ibn Abdullah şəhərin qapılarını açsın, Müstəini türklərə təhvil versin və özü də Mütəzzə beyət etsin.

Zilhiccə ayının sonlarında (miladi 866, yanvar) Məhəmməd ibn Abdullah Müstəini təslim olmağa razı saldı. Məhəmməd ibn Abdullah Əbu Əhmədlə danışıq zamanı aşağıdakı şərtlər daxilində Bağdadı və Müstəini ona təhvil verməyə razı olduğunu bildirdi: Məhəmmədə birdəfəlik əlli min dinar və hər il otuz min dinar pul verilsin; Buğa əs-Səğirə Məkkə, Mədinə və Hicazın valiliyi, Vəsifə isə Cəbəl və ətraf məntəqələrin valiliyi verilsin. Əbu Əhmədin bu şərtləri qəbul etməsindən sonra Məhəmməd ibn Abdullah Müstəini razı salaraq, xəlifəlikdən istefa ərizəsinə imza atdırdı.

---

[524]Tarixi-Təbəri, V cild, səh-370-373.

Hicrətin 252-ci ili məhərrəm ayının 23-də (miladi 866, fevralın 13-də) Bağdad şəhərində Müstəinin xəlifəlikdən istefa verdiyi və hakimiyyətin Mütəzzə ötürüldüyü elan olundu. Həmin gün Bağdad məscidlərində Mütəzzin adına dualar oxundu. Müstəinin Məkkəyə getmək istəyini qəbul etməyən Mütəzz onu Vasitə göndərdi. Lakin Müstəinin hər an çevriliş edəcəyindən ehtiyat edən Mütəzz, hicrətin 252-ci ilinin şəvval ayında (miladi 866, oktyabr-noyabr) Vasit şəhərinə bir dəstə əsgər göndərərək onu edam etdirdi.[525]

Əbu Abdullah Məhəmməd Mütəzz hicri 252-255 (miladi 866-869)

Əbu Abdullah Məhəmməd ibn Cəfər hicrətin 228-ci ili (miladi 842) xəlifə Vasiq Billahın xilafəti dövründə Mütəvəkkilin Qəbihə adlı cariyə ilə izdivacından sonra Samirədə anadan olmuşdur.

Mütəzzin xəlifə seçilməsindən bir neçə ay sonra Bağdadda vali Məhəmməd ibn Abdulaha qarşı qiyam qalxdı. Qiyamın səbəbi bundan ibarət idi ki, Məhəmməd ibn Abdullaha tabe olan əsgərlər ondan məvacib tələb edirdilər. Məvaciblərini vaxtında ala bilməyən əsgərlər şəhərin bazar və anbarlarını qarət etdilər. Məhəmməd ibn Abdullah bir neçə günlük mübarizədən sonra yalnız satqınların yardımı ilə qiyam başçılarını ələ keçirib onları dəhşətli işgəncələrlə qətlə yetirdi. Başçıların edamından sonra qiyam yatırıldı.

Buğa əs-Səğirlə Vəsif isə xəlifə Mütəzzin əmrinə əsasən Bağdadda həbs olundular. Lakin Mütəzzin qardaşı Müəyyəd Vəsifin, Əbu Əhməd isə Buğa əs-Səğirin bağışlanmalarını istədilər. Xəlifənin tabeliyində olan digər türk sərkərdələri də Buğa əs-Səğirlə Vəsifin bağışlanmalarını və orduya qaytarılmalarını istədilər. Türklərin nüfuzu altında olan Mütəzz onların istəyini nəzərə alaraq, hicrətin 252-ci ili (miladi 866) hər iki sərkərdəni Samirəyə gətizdirdi. Əvvəliki vəzifələrinə qaytarılan hər iki sərkərdənin bütün əmlakı özlərinə qaytarıldı.

Qardaşı Müəyyədin sarayda nüfuzunun artmasından qorxuya düşən xəlifə Mütəzz onunla bərabər digər qardaşı Əbu Əhmədi də həbs etdirdi. Digər tərəfdən də xəlifə Mütəvəkkilin vəsiyyətinə əsasən Mütəzz xəlifə olandan sonra Müəyyəd onun vəliəhdi sayılırdı. Həbsdə güclü təzyiqlərə məruz qalan Müəyyəd vəliəhdlikdən istefa verməsi barədə olan kağızı imzalamağa məcbur oldu. Bunun ardınca hicrətin 252-ci ili (miladi 866) əvvəlcə Samirə və Bağdadda, daha sonra isə xilafətin digər məntəqələrində Müəyyədin istefası camaata elan olundu.

Bu hadisədən qısa müddətdən sonra hicrətin 252-ci ili rəcəb ayının sonlarında (miladi 866, avqust) Müəyyəd xəlifə Mütəzzin göstərişinə əsasən həbsxanada öldürüldü.[526]

---

[525]Tarixi-Təbəri, V cild, səh-374-409; Tarixi ibn Əsir, VII cild, səh-167-168; Tarixi-Məsudi, IV cild, səh-164-165; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-236.

[526]Tarixi-Təbəri, V cild, səh-376.

Məğribilərlə türklər arasında qarşıdurma

Türklərin nəzarətindən xilas olmaq istəyən xəlifə Mütəzz "məğribi" adlı qoşun hissələrinə arxalanırdı. Bildiyimiz kimi, əsasən misirli döyüşçülərdən təşkil olunmuş məğribilər bilavasitə xəlifənin əmri altında qərar tutmuşdular və siyasi intriqalarda onu müdafiə edirdilər.

Miladi tarixi ilə 866-cı ildə (hicri 252) türklər onların əmlakını yoxlamaq istəyən hesabdarı döydülər. Bundan narahat olan məğribilər, Məhəmməd və Nəsr adlı sərkərdənin başçılığı ilə hücum edərək, türkləri Cövsəq sarayından qovdular.

Qısa vaxt ərzində özlərinə gələn türklər yenidən məğribilərlə döyüşə başladılar. Bu arada şakiri birlikləri də məğribilərin köməyinə gəldi. Bu döyüşdə də məğlub olan türklər geri çəkilməyə məcbur oldular. Dövlət məmurlarının işə qarışması ilə iki tərəf arasında müvəqqəti razılıq əldə olundu.

Lakin məğlubiyyətlə barışmayan türklər, Bayıkbəyin başçılığı ilə gecəyarı hərəkət edərək, məğribilərin başçıları Məhəmmədlə Nəsri qətlə yetirdilər. Başçılarını itirən məğribilər bundan sonra müqavimət göstərməyin faydasız olduğunu anlayıb dağılışdılar. Beləliklə, türk ağalığına qarşı yönəlmiş bu planda uğursuzluqla başa çatdı.

Mütəzz və Əhli-beyt

Hicrətin 252-ci ili rəbiül-əvvəl ayında (miladi 866, aprel) xilafətin özbaşınalığına dözməyən Əhli-beyt nümayəndəsi, İmam Səccadın *(ə)* nəslindən olan Hüseyn ibn Əhməd Kövkəbi xilafətə qarşı qiyam edərək Qəzvin və Zəncan şəhərlərini ələ keçirdi. Daha sonra Deyləm hakimi ilə birləşən Hüseyn ibn Əhməd Kövkəbi Rey şəhərini də ələ keçirdi. Bundan xəbər tutan xəlifə Mütəzz, Kövkəbinin üzərinə məşhur sərkərdə Musa ibn Buğa əl-Kəbiri göndərdi. Hicrətin 253-cü ili (miladi 867) Qəzvin yaxınlığında baş verən döyüşdə məğlub olan Hüseyn ibn Əhməd Kövkəbi Deyləmə qaçdı.

Ümumiyyətlə, Əhli-beytlə düşmən olan Mütəzzin xilafəti dövründə İmam Nəqi *(ə)* başda olmaqla bir neçə seyid xilafətin paytaxtı Samirəyə gətirilmiş, bu şəhərdə ya şəhadətə çatdırılmış, ya da həbsə atılmışdır.

İmam Nəqinin *(ə)* artmaqda olan nüfuzundan narahat olan xəlifə Mütəzz, İmamı *(ə)* Bağdaddan Samirəyə gətirərək nəzarət altında saxladı. Lakin bununla da sakitləşməyən Mütəzz, hicrətin 253-cü ili rəcəb ayının 3-də (miladi 868) İmama *(ə)* zəhər verərək onu şəhid etdi. İmamın *(ə)* müqəddəs məzarı Samirədə yaşadığı evindədir.

Xəlifə Mütəzzin xilafəti dövründə müxtəlif şəhərlərdən Samirəyə sürgün olunaraq zindana salınmış və həbsxananın ağır şəraitinə dözməyərək dünyasını dəyişmiş onlarla nəcib seyidin adı Əbul-Fərəc İsfəhaninin "Məqatilut-talibiyyin" və Şeyx Abbas Qumminin "Tətimmətul-müntəha" əsərlərində qeyd olunmuşdur.

Məhşur sərkərdələr Buğa əs-Səğir və Vəsifin qətli

Hicrətin 253-cü ili (miladi 867) türk, fərğanəli və isrövşənəli dəstələr dörd aylıq maaşlarını qabaqcadan tələb etdilər. Bu dəstələri sakitləşdirmək məqsədilə Buğa əs-Səğir və Vəsif daha bir neçə sərkərdə ilə birlikdə onların yanına getdilər. Buğa əs-Səğir onları sakitləşdirib, bu barədə xəlifə ilə danışacağına söz verdi. Bu söhbətdən dərhal sonra Buğa əs-Səğir və digər sərkərdələr geri qayıtsalar da Vəsif onların yanında qaldı. Lakin Buğa əs-Səğirin yardımçı qüvvələrlə geri qayıdacağından ehtiyat edən qəzəblənmiş əsgərlər Vəsifi (hicri 253/miladi 867) qətlə yetirdilər. Vəsifin qətlindən sonra xəlifə Mütəzz onun bütün səlahiyyətlərini Buğa əs-Səğirə verdi.

Eyni ildə Bağdad darğası Məhəmməd ibn Abdullahın ölümündən sonra xəlifənin göstərişinə əsasən onun yerinə qardaşı Ubeydullah ibn Abdullah təyin edildi.

Vəsifin qətlindən sonra xəlifə Mütəzz bütün fikrini Buğa əs-Səğirdən canını qurtarmaq məsələsinə cəlb etmişdi. Mütəzz yaxşı bilirdi ki, Vəsif kimi onu da yalnız və yalnız türklərin öz əli ilə aradan götürmək olar. Bu arada Buğa əs-Səğirdən xoşlanmayan Bayıkbəylə Saleh ibn Vəsif xəlifənin köməyinə çatdılar. Bayıkbəy Buğa əs-Səğirin saraydakı mövqeyinə paxıllıq etdiyi halda, Saleh ibn Vəsifdə atasının vəzifələrini icra etməyə özünü Buğa əs-Səğirdən daha layiq bilirdi. Mütəzz bu iki nəfərin köməyindən istifadə edərək Buğa əs-Səğirin səlahiyyətlərini azaltmağa başladı.

Baş verənlərdən xəbərdar olan Buğa əs-Səğir ailə üzvləri ilə birlikdə qaçmağa çalışsa da, onu ələ keçirərək xilafətin paytaxtı Samirəyə gətirdilər. Xəlifə Mütəzzin əmri ilə hicrətin 254-cü ili (miladi 868) onun başını bədənindən ayırıb əvəllcə paytaxtda, sonra isə Bağdadda nümayiş etdirdilər. Başsız cəsədini isə türklərin əlindən yanıqlı olan məğribilər yandırdılar.[527]

Mütəzz hakimiyyətə gələrkən, adət üzrə saray əyanları münəccimləri çağırıb, yeni xəlifənin nə qədər hakimiyyətdə olacağını öyrənmək istədilər. Bu zaman əyanlardan biri münəccimlərdən qabaq dedi: “Türklər nə qədər istəsələr, o qədər!” [528]

Buğa əs-Səğir ilə Vəsifin ölümündən sonra canını türklərdən qurtarmaq istəyən Mütəzz, bu dəfə Vəsifin oğlu Salehin nəzarəti altına düşdü.

Bu iki məhşur sərkərdənin ölümündən sonra ordudakı türklər bir neçə aylıq məvaciblərini tələb etdilər. Saleh ibn Vəsif xəzinənin boşalmasında maliyyə işçilərini günahkar bilərək onları həbs etdi. Bundan əlavə xəlifənin ən yaxın məsləhətçiləri olan vəzirlərini və hesabdarlarını da oğurluqda təqsirləndirib həbsə aldı.

Bunun ardınca Saleh ibn Vəsif, Əbu Nəsr ibn Buğa əl-Kəbir və digər sərkərdələrin başçılığı altında olan ordu sarayın qarşısına toplanaraq xəlifəyə öz etirazlarını bildirdilər. Bu ordunun tərkibində türklərdən əlavə, fərğanəlilər və məğribilər də var idi.

---

[527]Tarixi ibn Əsir, VII cild, səh-178; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-241-242.

[528]Doğuşdan günümüzə böyük İslam tarixi, III cild, səh-258.

Xəlifə Mütəzzi zorla otağından çıxaran ordu ondan istefa verməsini tələb etdi. İşgəncə və təhqirlərin sonunda Mütəzz istefa kağızını imzalamağa məcbur oldu. Lakin bununlada sakitləşməyən ordu xəlifəni hicrətin 255-ci ili (miladi 869) içi qaynar su ilə doldurulmuş quyuya ataraq öldürdülər.[529]

Hz.İmam Əliyyən Nəqi (ə)

O Həzrətin mübarək adı Əli, Nəqi isə ləqəbidir. Atası İmam Məhəmməd Təqi *(ə)*, anası isə Süsən adlı bir kənizdir. Rəvayətə görə bu kəniz Mərakeş əhlindən olub, bədəni son dərəcə ağ olduğu üçün Dürrə, özü kök, əzaları ətli olduğundan Səmanə adı ilə məşhur olmuşdur. Künyəsi Əbəl-Həsəni-səlisdir. İmam Nəqi *(ə)* hicrətin 220-ci ili miladi 835-ci ildə atasının şəhadətindən sonra yeddi yaşında imamət məqamına yetişmişdir. İmam Nəqinin *(ə)* imamət müddəti otuz üç il, ümumilikdə isə qırx il yaşamışdır. İmam Nəqi *(ə)* hicrətin 213-cü ili zilhiccə ayının 15-də, miladi 828-ci il Abbasi xəlifəsi Məmunun xilafəti dövründə Mədinənin Sərya adlı məntəqəsində anadan olmuşdur.

İmam Nəqinin *(ə)* dövründə siyasi-ictimai vəziyyət:

1) Xilafətin əzəmət və heybətinin itməsi – İmam Nəqinin *(ə)* dövründə xilafətdə türklərin və qulların nüfuz tapmasının nəticəsi olaraq xilafət öz əzəmətini itirmiş, bu qüvvələr onu istədikləri kimi idarə edirdilər. Xəlifə yalnız simvolik bir məna daşıyırdı. Buna baxmayaraq təhlükə hiss edilirdisə, xəlifə və bütün ətrafındakılar onu dəf etmək üçün ümumi bir razılığa gəlirdilər.

2) Sarayda əyləncələrin çoxalması – Abbasi xəlifələri hakimiyyətdə yaranmış vəziyyətdən istifadə edib kef, əyləncə, eyş-işrətlə məşğul olaraq gecə məclisləri təşkil edirdilər. Hökumət başdan-başa fəsadla dolmuşdu.

3) Haqsızlıq və özbaşınalığın yayılması – Zülm və haqsızlığın yayılması, beytül-malı qarət edib əyləncə və əyyaşlığa sərf etmək camaatı cana yığmışdı.

4) Ələvi qiyamlarının artması – Peyğəmbər *(s)* nəslindən olan ələvilər öz haqlarını qorumaq üçün xilafətə qarşı tez-tez qiyam edirdilər. Lakin bu qiyamların hamısı məğlubiyyətə uğrayırdı. Bu qiyamların məğlubiyyətə uğramasının səbəbi bir tərəfdən qiyam başçılarının, digər tərəfdən isə tərəfdarlarının zəif olması ilə bağlı idi. Qiyam başçılarının hazırladıqları proqramlar kamil olmadığı üçün işlərində çatışmazlıqlar olur və ən əsası isə onların qiyamı tam şəkildə İslami bir qiyam olmurdu.

İmam Nəqi *(ə)* imaməti dövründə yeddi abbasi xəlifəsinin müasiri olmuş və bu xəlifələr tərəfindən İmama *(ə)* böyük zülmlər və ədalətsizliklər edilmişdir. Xüsusilə xəlifə Mütəvəkkil İmam Nəqinin *(ə)* ən qatı düşməni olmuşdur. Mütəvəkkil Bəni-Haşimə qarşı çox kobud rəftar edirdi. Onun vəziri Ubeydullah ibn Yəhya ibn Xaqan da Əhli-beytə qarşı qəddar idi. Mütəvəkkil Əhli-beytə qarşı zülm və haqsızlıqda sanki bütün Abbasi xəlifələrini ötüb keçmişdi. O, Hz.Əli *(ə)*

[529]Tarixi-Təbəri, V cild, səh-340-341; Tarixi-Məsudi, IV cild, səh-166, 183-184; Siyuti, Tarixul-xüləfa, səh-359-360.

və onun övladlarına qarşı misli görünməmiş düşmənçilik edirdi. Əgər bir nəfərin Hz.Əliyə *(ə)* rəğbət bəslədiyindən xəbər tutsaydı, bütün mal-dövlətini müsadirə edib özünü də öldürəcəkdi.[530] Elə buna görə də İmam Nəqi *(ə)* Mütəvəkkilin dövründə öz fəaliyyətini gizli şəkildə edirdi.

Mütəvəkkil İmamı *(ə)* öz nəzarəti altında saxlamaq üçün ata-babalarının yolunu davam etdirmək qərarına gəldi.

Mədinə hakimi Abdullah ibn Məhəmməd Haşimi xəlifəyə göndərdiyi məktubda Hz.Nəqinin *(ə)* Mədinədə topladığı sosial baza haqqında məlumat verərək onu bərk qorxuya salır.[531] Ancaq İmam *(ə)* xəlifəyə bir məktub yazaraq Abdullahın dediklərinin yalan olduğunu bildirərək ondan xəlifəyə şikayət etdi. Bundan narahat olan xəlifə Mütəvəkkil Abdullahı vəzifəsindən çıxarmaqla bərabər İmam Nəqini *(ə)* Samirəyə dəvət etdi. Mütəvəkkilin bundan məqsədi İmam Nəqini *(ə)* Samirəyə gətirərək onu nəzarət altında saxlamaq idi. İmamı *(ə)* xəlifənin göstərişi ilə Mədinədən Samirəyə Yəhya ibn Hərsəmə gətirmişdir. İmam Nəqinin *(ə)* Samirəyə gəlişi üçün təyin edilmiş gün, o Həzrət üçün hələ yer hazırlanmaması bəhanəsi ilə təxirə salınır və o Həzrət bir gecə "Xanus-səvalik" (kimsəsizlər karvansarası) adlanan bir yerdə qalmalı olur. Bu hərəkətdən məqsəd siyasi baxımdan bir növ İmamı *(ə)* zəhmətə salaraq təhqir etmək olmuşdur. Bir neçə gün orada qaldıqdan sonra onu xilafət iqamətgahına yaxın bir yerdə Səid ibn Hacibin evində yerləşdirib nəzarət altında saxladılar. Mütəvəkkilin İmamı *(ə)* bu qədər nəzarət altında saxlamasına baxmayaraq, yenə də onu öz hakimiyyəti üçün ciddi bir təhlükə hesab edir və qorxurdu ki, İmamın *(ə)* dostları onunla əlaqə saxlayıb xilafət əleyhinə qiyam edə bilər. Xəlifənin ətrafında olanlar da, bəzi vaxtlar onu İmamın *(ə)* və dostlarının qiyamından xəbərdar edirdilər. Buna görə də, Mütəvəkkil vaxtaşırı İmamın *(ə)* evini yoxlatdırır, axtarış aparanların hər dəfə əlibaş qayıtmalarına baxmayaraq, xəlifə yenə də İmamdan *(ə)* nigaran idi.

Xəlifə Mütəvəkkilin şiələrə qarşı təzyiq və cinayətləti

1) Mütəvəkkil hicrətin 236-cı ilində, 851-ci il əmr verir ki, şəhidlər ağası İmam Hüseynin *(ə)* məqbərəsi və onun ətrafında olan tikililər sökülərək əkin sahəsinə çevrilsin.[532] Eyni zamanda o Həzrətin ziyarətinin qarşısını almaq məqsədilə, o yaxınlıqda gözətçilər saxlanılsın. İmamın *(ə)* müqəddəs qəbrini heç bir müsəlman sökməyə hazır olmadığı üçün bu işi əslən yəhudi olan Dizəc adlı bir şəxs yerinə yetirir. Mütəvəkkil İmamın *(ə)* qəbrinin ziyarət edilməsini qadağan edərək bildirir ki, əgər bir nəfər onu ziyarətə gedərsə, mütləq cəzalandırılacaq.[533]

---

[530]Məqatilut-talibin, səh-395; Tarixi-ibn Əsir, VII cild, səh-55.
[531]İxtiyari-mərifətir-rical, səh-603-607.
[532] Məasirul-anifə fi məalimul-xilafə, I cild, səh-231.
[533]Tarixi-Məsudi, IV cild, səh-51; Tarixul-xüləfa, səh-347; Şeyx Tusi, Əmali, səh-326-328.

2) Mütəvəkkil öz mənliyini satmış şairlərə külli miqdarda pul verib onları Abbasi hökumətinin qanuni hökumət olması barədə və eləcə də Əhli-beyt *(ə)* əleyhinə şeirlər yazmağa məcbur edirdi.[534]

3) Mütəvəkkilin əmrinə əsasən Misir hakimi, Misirdə olan bütün ələviləri İraqa sürgün edir.[535]

4) Mütəvəkkil şiələrə qarşı o qədər maddi təzyiq göstərir ki, deyilənlərə görə Mədinə şəhərindəki Ələvi qadınların namaz qılmağa yaxşı paltarı olmamış, əyinlərindəki bir ədəd köhnə paltarı növbə ilə geyib namaz qılardılar. Onlar Mütəvəkkilin ölümünə qədər bu çətinlikdə qalmışlar.[536]

5) Mütəvəkkil Misir hakiminə Ələvilərlə aşağıdakı şərtlər əsasında davranmağı əmr edir:

a) Ələvilərdən heç birinə mülk verilməsin, onlara ata minmək və Fustat şəhərindən digər şəhərlərə getmək qadağan edilsin.

b) Ələvilərdən heç birinə bir nəfərdən artıq qul saxlamaq icazəsi verilməsin.

v) Bir ələvi ilə qeyri-ələvi mübahisə edərsə, hakim ilk növbədə qeyri-ələvinin şikayətinə qulaq assın və Ələvinin şikayətini dinləmədən onun əleyhinə hökm versin.[537]

Miladi 861-ci ildə Mütəvəkkilin ölümündən sonra hakimiyyətə gələn oğlu Müntəsir atasının qəsb etdiyi mülkləri yenidən Əhli-beytə qaytarır. Lakin Müntəsirin altı aylıq hakimiyyətindən sonra hakimiyyətə gələn xəlifələr yenidən Əhli-beytə zülmlər etmişlər. Nəhayət İmam Nəqi *(ə)* hicrətin 253-cü ili rəcəb ayının 3-də miladi 868-ci ildə xəlifə Mötəzzin əmri ilə zəhərləndirilərək Samirədə şəhid edilmişdir. Oğlu İmam Həsən Əsgəri *(ə)* onu on ildən artıq yaşadığı evdə dəfn etmişdir.

İmam Əliyyən Nəqinin *(ə)* ləqəbləri:

1) Nəqi – pak, pakizə;
2) Hadi – rəhbər;
3) Mürtəza – seçilmiş;
4) Fəttah – fəth edən;
5) Mütəvəkkil – Allaha təvəkkül edən;
6) Nasih – nəsihətçi;

İmam Əliyyən Nəqinin *(ə)* övladları:

1) İmam Həsən Əsgəri *(ə)*. Anası Hüdeysə adlı xanımdır. 2) Hüseyn; 3) Məhəmməd; 4) Cəfəri-Kəzzab; 5) Aişə.

İmam Nəqinin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "Əl-mülkü-lillah" – Mülk və səltənət yalnız Allaha məxsusdur.

---

[534]İmam Nəqinin (ə) həyatı, səh-292.
[535]On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh-84.
[536]Tətimmətul-müntəhal-amal, səh-238.
[537]On ikinci İmamın qeybə çəkilməsinin siyasi tarixi, səh-84.

İmam Nəqinin *(ə)* müasiri olmuş xəlifələr:

1) Məmun (813-833);
2) Mütəsim (833-842);
3) Vasiq (842-847);
4) Mütəvəkkil (847-861);
5) Müntəsir (861-862);
6) Müstəin (862-866);
7) Mötəzz (866-869).

Əbu Abdullah Məhəmməd Mühtədi hicri 255-256 (miladi 869-870)

Mütəzzin xilafətdən salınmasından sonra Abbasi məmurları hicrətin 255-ci ili (miladi 869) Məhəmməd ibn Vasiq Billaha beyət edərək onu xəlifə təyin etdilər. Rəvayətlərə əsasən sabiq xəlifə Mütəzzdən xeyir-dua və halallıq alandan sonra xəlifəliyi qəbul edən Əbu Abdullah Məhəmməd özünə "Mühtədi" ləqəbini götürdü. Mühtədi hicrətin 227-ci ili (miladi 832) xəlifə Məmunun dövründə Bağdadda anadan olmuşdur.

Lakin Mühtədinin hakimiyyətini qəbul etməyən Bağdad əhalisi Mütəzzin qardaşı Əbu Əhmədin xəlifəliyini dəstəkləyərək, məsciddə onun adına dua oxuyub beyət toplamağa başladılar. Güclü siyasət işlədən xəlifə Mühtədi qiyamı silah gücünə yox, pul gücünə yatırmaq istədi. Bu məqsədlə xəlifənin əmrinə əsasən Bağdada otuz min dinar pul göndərildi. Pulun gətirildiyini eşidən camaat qənimət dalınca getdi. Beləliklə, Bağdaddakı narazı qüvvələrin çıxışı dinc yolla yatırıldı.

Ubeydullah ibn Abdullahın yerinə Bağdad valisi olaraq Süleyman ibn Abdullah təyin edilmişdir. Onun tabeliyində olan əsgərlər məvaciblərini vaxtında ala bilmədikləri üçün xəlifəyə etirazlarını bildirdilər. Onlara qoşulan Bağdad əhalisi də şəhər bazarlarını talan etməyə başladılar. Bundan narahat olan xəlifə Mühtədi Süleyman ibn Abdullahı və ordusunu Bağdaddan qovdu.[538]

Mühtədini Bəni-Abbasın Ömər ibn Əbdüləzizi adlandırırlar. O, hakimiyyətə gəldikdən sonra özündən əvvəlki xəlifələr tərəfindən əsası qoyulmuş bir çox adət-ənənələri ləğv etdi. Musiqi və əyləncə vasitələrini saraydan kənarlaşdırdı, qızıl və gümüş qabları əritdirib, onlardan sikkələr hazırlatdı və kasıblara payladı. Xilafət sarayındakı bütün canlı məxluq təsvirləri də yığışdırıldı.

Məşhur əhli-sünnə alimi İbn Əbil Hədid onun barəsində yazır ki, Hz.Əli *(ə)* öz xilafəti dövründə Beytul-qəsəs adlı bir otaq tikdirmişdi. Camaat öz arzu və istəklərini kağıza yazıb, o evin pəncərəsindən içəri atırdılar. Hz.Əli *(ə)* də o kağızları bir-bir oxuyub, orada yazılanları həll etməklə məşğul olurdu. Hz.Əlidən *(ə)* sonra bu qaydaya əməl edən yeganə xəlifə Mühtədi

[538]Tarixi-Təbəri, V cild, səh-436.

olmuşdur. Mühtədi gecələr yun köynək geyib namaza durar, uzun-uzadı ibadət edər, Allaha yalvarıb ağlayardı.[539]

Bütün bunlara baxmayaraq, Mühtədi Əhli-beytə qarşı mənfi münasibətdə idi. Onun hakimiyyəti dövründə Bəni-Haşimdən olan bir neçə seyid dövlət adamları və valilər tərəfindən tutulub Samirəyə gətirilmiş, burada həbs olunmuşdur.

İmam Həsənin *(ə)* nəslindən olan Məhəmməd ibn Həsəni zəncirləyib Mədinəyə sürgün etmişdilər. O, yolun çətinliyinə dözməyib, Mədinəyə çatmazdan əvvəl dünyasını dəyişdi. Ölümündən sonra onun ayaqlarını kəsib, zəncirləri çıxardılar.

Xəlifənin Bəsrədəki nümayəndəsi İmam Kazimin *(ə)* nəvəsi Cəfər ibn İshaqı qətlə yetirdi. Eyni zamanda İmam Həsənin *(ə)* nəslindən olan Musa ibn Abdullahı zəhərləyib şəhadətə çatdırdıqdan sonra onun başını kəsib xilafətin paytaxtı Samirəyə xəlifə Mühtədinin hüzuruna göndərdi.

Bu illərdə Məkkə zindanında İmam Həsənin *(ə)* nəslindən olan Əli ibn Musa, Mədinədə eyni nəsildən İbrahim ibn Musa həlak oldular.

Əbutalib nəslinin nümayəndəsi İsa ibn İsmail Kufə həbsxanasında vəfat etdi. İmam Həsən *(ə)* soyundan olan Məhəmməd ibn Hüseynlə İmam Kazimin *(ə)* nəticəsi Əli ibn Musa isə Samirə zindanında vəfat etdilər.[540]

Musa ibn Buğa əl-Kəbirin Samirəyə çağırılması

Hicrətin 255-ci ili (miladi 869) Mütəzzin ölümündən sonra anası Qəbihə, öz aqibətinin yaxşı olmayacağını anlayıb bütün var-dövlətini dövlətə təhvil verdi. Axtarış zamanı onun sarayındakı xəzinədən bir milyon dinar dəyərində qızıl pul və daha iki milyon dəyərində dəyərli daşlar və ziynət əşyaları tapdılar. Onun sərvətinin çoxluğunu görən Saleh ibn Vəsif belə demişdi: "Yanında bu qədər var-dövlətin olmasına baxmayaraq, əlli min dinara görə oğlunu ölümə sürüklədi!" (Vaxtilə xəlifə Mütəzz əsgərlərin ehtiyacını ödəmək üçün anası Qəbihədən əlli min dinar borc istəsə də, Qəbihə Mütəzzin istəyini yerinə yetirməmişdir.)[541]

Həmin vaxt xilafətin məşhur sərkərdəsi Musa ibn Buğa əl-Kəbir Rey istiqamətində baş verən üsyanları yatırmaqla məşğul idi. Onun əmri altında olan digər Müflih adlı bir sərkərdə isə xəlifə Müstəinin dövründən Təbəristanda üsyan edən Həsən ibn Zeydi məğlubiyyətə uğratdıqdan sonra onu təqib edərək, Deyləm vilayətinə daxil olmuşdu.

Bu arada xəlifə Mühtədi türk sərkərdələri Saleh ibn Vəsiflə Bayıkbəyin basqısından xilas olmaq üçün Rey vilayətində olan Musa ibn Buğa əl-Kəbiri Samirəyə çağırdı. Musa ibn Buğa əl-Kəbir dərhal Müflihə xəbər yollayıb, yürüşü yarımçıq kəsməyi və Reyə gəlib ona qoşulmağı əmr etdi. Bütün ordusunu

---

[539]İbn Əbil Hədid, Nəhcül-bəlağənin şərhi; Siyuti, Tarixul-xüləfa, səh-361; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-245.

[540]Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-245.

[541]Tarixi-Təbəri, V cild, səh-431-434; Tarixi ibn Əsir, VII cild, səh-199-201; Nuri Ünlü, İslam Tarixi, I cild, səh-278; Siyuti, Tarixul-xüləfa, səh-360.

ətrafına toplayan Musa ibn Buğa əl-Kəbir hicrətin 256-cı ili (miladi 869) Samirəyə daxil oldu. Şəhərə daxil olan Musa ilk öncə xəlifə Mühtədini xilafət sarayından çıxarıb, öz sərkərdələrindən birinin evinə apardı.

Musa ibn Buğa əl-Kəbirin gəldiyini öyrənən Saleh ibn Vəsif saraydan qaçaraq gizləndi. Onun axtarışı bir aya yaxın davam etdi. Nəhayət, hicrətin 256-cı ili (miladi 870) Samirədəki evlərin birində gizlənən Saleh ibn Vəsif ələ keçirilərək edam edildi. Onun kəsik başı xəlifə Mühtədinin hüzuruna göndərildi və xəlifə başın torpağa basdırılmasını əmr etdi.[542]

Saleh ibn Vəsifin qətlindən sonra Musa ibn Buğa əl-Kəbirlə Bayıkbəyin basqısından xilas olmaq istəyən xəlifə Mühtədi, onları hicrətin 256-cı ili (miladi 870) Mütəzzin dövründən Mosul vilayətində davam edən Müsavirin qiyamını (867-877) yatırmaq üçün Mosula göndərdi. Sonra Musa ibn Buğa əl-Kəbirə məktub yazıb tapşırdı ki, bütün səlahiyyətləri Bayıkbəyə təhvil verib, onun itaəti altına keçsin. Eyni zamanda Bayıkbəyə də bir məktub göndərib əmr etdi ki, məktubu alan kimi Musa ibn Buğa əl-Kəbiri və Müflihi öldürsün.

Lakin xəlifənin təklifinin hiylə olduğunu anlayan sərkərdələr sözü bir yerə qoyub, xəlifə Mühtədini cəzalandırmaq üçün əlbir oldular.

Musa ibn Buğa əl-Kəbirin məsləhəti ilə Samirəyə qayıdan Bayıkbəy xəlifənin əmri ilə həbs edilərək edam edildi. Bayıkbəyin ölümündən sonra onun ətrafında olan türklər xəlifəyə öz etirazlarını bildirdilər. Vəziyyətin gərginləşdiyini görən xəlifə, ona qulluq edən türk birliklərini və məğribi, isrövşənəli, fərğanəli dəstələri köməyə çağırdı. Miladi tarixilə 870-ci ildə (hicri 256) xəlifə tərəfdarları ilə qiyamçılar arasında baş verən ilk döyüşdə qiyamçılar məğlub oldu. Növbəti gün bütün türklər, hətta xəlifə Mühtədinin tərəfində olan türklər də mövqelərini dəyişib qarşı tərəfə keçdilər. Bununla da qüvvələr nisbəti qiyamçıların xeyrinə dəyişdi. Baş verən döyüşdə məğlub olan xəlifə qaçmağa çalışsa da ələ keçirildi. Hicrətin 256-cı ili rəcəb ayının 18-də (miladi 870, iyun) xilafətdən uzaqlaşdırılan xəlifə Mühtədi, ağır işgəncələrə tab gətirməyərək dünyasını dəyişdi. Vəfat edərkən 38 yaşı var idi.[543]

Roma üzərinə ikinci yürüş hicri 256 (miladi 870)

Miladi tarixilə 846-cı ildə Vasiqin xilafəti dövründə baş vermiş birinci yürüş kimi, ikinci yürüş haqqında da müsəlman mənbələrində çox şey açıqlanmayıb. Hətta ikinci Roma səfərinin hansı xəlifənin hakimiyyət illərinə təsadüf etdiyi də bilinmir. 870-ci ildə (hicri 256) baş verən bu səfər Mühtədinin xilafətinin sonuna və Mutəmidin xilafətinin əvvəlinə təsadüf edir.

---

[542]Siyuti, Tarixul-xüləfa, səh-363; Tarixi-Təbəri, V cild, səh-458-467; Tarixi ibn Əsir, VII cild, səh-219-226; Tarixi-Məsudi, IV cild, səh-184-185; Nuri Ünlü, İslam Tarixi, I cild, səh-279.

[543]Tarixi-Təbəri, V cild, səh-467-471; Tarixi ibn Əsir, VII cild, səh-228-234; Nuri Ünlü, İslam Tarixi, I cild, səh-279.

İkinci Roma səfəri də Əğləbilər (800-909) tərəfindən təşkil edilmişdir. Bundan qabaq 868-ci ildə (hicri 255) Əğləbilər Malta adasını xristianların əlindən almışdılar. 870-ci ildə (hicri 256) isə Əğləbi hökmdarı Əbul-Qəraniq Məhəmməd öz əsgərlərini Roma papasının iqamətgahı və xristianların mərkəzi Roma şəhəri üzərinə apardı. Kalabriya yarımadasının və Sardiniya adasının ətrafında cəmləşmiş müsəlman gəmiləri irəliləyib Tibr çayının mənsəbində lövbər saldılar. Bundan narahat olan Papa yaxın müttəfiqləri olan Neapol, Qaeta və s. şəhərlərin hakimlərindən kömək istədi. İtaliya ordusu Kayzeri adlı sərkərdənin başçılığı ilə Romanın müdafiəsinə tələsdi.

Mühasirənin uzandığını görən Roma papası VIII İohan (872-882) müsəlmanlarla sülh bağlamaq qərarına gəldi. Nəticədə iyirmi beş min misqal gümüş həcmində illik cizyə ödənişi müqabilində müsəlman əsgərləri Roma mühasirəsindən əl çəkib, İtaliyanı tərk etdilər. Həmçinin bu səfər, müsəlmanların Romaya son səfəri oldu.[544]

Əbul-Abbas Əhməd Mutəmid hicri 256-279 (miladi 870-892)

Xəlifə Mühtədinin qətlindən sonra Abbasi məmurları hicrətin 256-cı ili (miladi 870) Cövsəqdə həbsdə olan Əbul-Abbas Əhməd ibn Mütəvəkkilə beyət edərək onu xəlifə təyin etdilər. Xəlifə təyin edilən Əbul-Abbas Əhməd özünə "Mutəmid əl-Allah" ləqəbini götürdü. O, hicrətin 229-cu ili (miladi 843) xəlifə Vasiqin xilafəti dövründə Samirədə anadan olmuşdur.

Beyətdən sonra Mutəmid özünə vəzir olaraq Ubeydullah ibn Yəhya ibn Xaqanı təyin etdi. Ordunun başında isə Musa ibn Buğa əl-Kəbir dayanırdı. İradəsiz, əyləncə və kef məclislərinə meyilli olan xəlifə Mutəmid, ölkədə baş verən problemləri həll etməkdə aciz idi. Buna görə də təcrübəli və güclü bir dövlət adamının köməyindən istifadə etmək qərarına gəldi. Bu məqsədlə hicrətin 257-ci ili (miladi 871) Mutəmid qardaşı Əbu Əhməd Təlhə ibn Mütəvəkkili Samirəyə çağıraraq, ordunun ixtiyarını ona verdi.

Dövlət işlərinə sürətlə nüfuz edən Əbu Əhməd, qısa müddət ərzində bütün hakimiyyəti öz əlinə aldı. Ordu onun ixtiyarında olduğu üçün, xilafətin də əsl sahibi o idi. "Əmir-ül-möminin" ləqəbini daşıyan Mutəmid, yalnız formal olaraq xəlifə sayılırdı. Bütün dövlət qanunlarını işləyib-hazırlamaq və onların icrasına nəzarət etmək ixtiyarı Əbu Əhmədə məxsus idi. Ordunun başçısı, hərbi əməliyyatların baş komandanı da Əbu Əhməd idi.[545]

Müsavir ibn Əbdülhəmid Şarinin qiyamı hicri 253-263 (miladi 867-877)

Hicrətin 253-cü ili (miladi 867) xəlifə Mütəzzin xilafəti dövründə əslən xəvaric olan Müsavir ibn Əbdülhəmid Tikritdə xilafətə qarşı üsyan etdi. Bundan xəbər tutan Mütəzz türk əsilli Satəkini böyük bir ordu ilə onun üzərinə gön-

[544] Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-248.
[545]Tarixi-Təbəri, V cild, səh-604-605; Siyuti, Tarixul-xüləfa, səh-367.

dərdi. Baş verən döyüşdə məğlub olan Müsavir döyüş meydanından qaçaraq gizləndi.

Mosul bölgəsinə gələn Müsavir, ətrafına adam toplayaraq yenidən qiyam etdi. Hətta Cəlula yaxınlığında xilafət ordusunu məğlub etdilər. 868-ci ildə (hicri 254) isə qiyamçılar sərkərdə Yərcux Türkinin başçılıq etdiyi xilafət ordusunu da məğlub etdilər.

Mütəzzin qətlindən sonra xəlifə olan Mühtədinin əmri ilə hicrətin 256-cı ili (miladi 870) Musa ibn Buğa əl-Kəbirlə Bayıkbəy, Müsavirin qiyamını yatırmaq məqsədilə Mosula doğru hərəkət etdilər. Lakin Mühtədinin hiylə işlətdiyi məlum olduqdan sonra Bayıkbəy Samirəyə qayıtdı və orada qətlə yetirildi. Bu müddət ərzində Musa ibn Buğa əl-Kəbirin ordusu Müsavirin qüvvələrini məğlub etdi, lakin qiyam başçısı yenə də qaçmağı bacardı. Bu arada Samirədə xəlifə dəyişikliyini öyrənən Musa ibn Buğa əl-Kəbir ordusu ilə birlikdə paytaxta qayıtdı. Bundan istifadə edən Müsavir yenidən qiyamın başına keçdi. Yalnız Müsavirin ölümündən (hicri 263/miladi 877) sonra onun başlatdığı hərəkat süqut etmişdir.

İsa ibn Şeyx hərəkatı

Xəlifə Mutəmidin xilafətini qəbul etməyən Fələstin valisi İsa ibn Şeyx xəracı xilafətin paytaxtı Samirəyə göndərməyib özündə saxladı. Daha sonra o, Misirdən gələn xəracı da ələ keçirdi. Bundan xəbər tutan xəlifə Mutəmid türk əsilli Amacur adlı sərkərdəni İsa ibn Şeyxin üzərinə göndərdi. Amacurun Dəməşqdə olduğunu öyrənən İsa ibn Şeyx oğlu Mənsuru Dəməşq üzərinə göndərdi. Dəməşq ətrafında baş verən döyüşdə xilafət ordusu qalib gəldi və Fələstin valisinin oğlu Mənsur başda olmaqla bir neçə sərkərdə də öldürüldü. İsa ibn Şeyx məğlub olmuş ordusunun qalıqlarını toplayıb, Rəmləyə qaçdı. İsa ibn Şeyxi məğlub edən Amacur isə xəlifənin əmrinə əsasən hicrətin 256-cı ili (miladi 870) Dəməşq valisi təyin edildi.

Məhəmməd ibn Vasil hərəkatı hicri 256-261 (miladi 870-875)

Hicrətin 256-cı ili (miladi 870) kürdlərlə əlbir olan Məhəmməd ibn Vasil, Fars bölgəsinin valisini öldürərək, bu torpaqlara sahib oldu. İki ildən sonra Məhəmməd ibn Vasil Fars bölgəsinin xəracını yenidən xəlifəyə göndərərək, ona itaət etdiyini bildirsə də, xəlifə valinin ölümü ilə əlaqədar olaraq onu bağışlamaq fikrində deyildi.

Bu məqsədlə hicrətin 261-ci ili (miladi 874-875) Musa ibn Buğa əl-Kəbir ixtiyarında olan Əbdürrəhman ibn Müflih və Taştemir adlı iki sərkərdəni Məhəmməd ibn Vasilin üzərinə göndərdi. Lakin Ramhörmüz yaxınlığında baş verən döyüşdə xilafət ordusu məğlub oldu, Taştemir həlak oldu və Əbdürrəhman ibn Müflih isə əsir düşdü.

Bu qələbədən sonra Məhəmməd ətraf şəhərlərin fəthinə başladı. Onunla bacara bilməyəcəyini görən Musa ibn Buğa əl-Kəbir şərq torpaqlarının valili-

yindən istefa verərək, Samirəyə qayıtdı. Lakin bir neçə ay sonra Səffari hökmdarı Yəqub ibn Leys Fars bölgəsinə hücum etdi. Miladi tarixi ilə 875-ci ildə baş verən döyüşdə Məhəmməd ibn Vasili məğlub edən Yəqub ibn Leys Fars bölgəsini ələ keçirdi.

Sahib əz-zincin hicri 255-270 (miladi 869-883) üsyanı

"Sahib əz-zinc" ləqəbli şəxsin əsl adı Əli ibn Məhəmməd ibn Əbdürrəhim olmuşdur. Zəncilərin qiyamına başçılıq etdiyi üçün bu ləqəbi almışdır. Bəni-Əbdi Qeys qəbiləsinə mənsub olan bu şəxs, Rey yaxınlığında Vərzənin kəndində dünyaya gəlmişdir.

Hicrətin 249-cu ili (miladi 863) Bəhreynə gələn Əli ibn Məhəmməd özünü Hz.Əlinin *(ə)* nəslindən olan seyid kimi qələmə verdi. Bəhreyn əhli onun Əli ibn Abdullah ibn Məhəmməd ibn Fəzl ibn Həsən ibn Abdullah ibn Abbas ibn Əli ibn Əbutalib *(ə)* olduğuna inanıb, ətrafına toplandı. Əhalinin şiə təmayüllü olmasından istifadə edən Əli ibn Məhəmməd, onları Əhli-beytin haqqını geri qaytarmaq şüarı altında qiyama səslədi. Lakin Bəhreyn valisinin göndərdiyi ordu tərəfindən məğlub edilən Əli ibn Məhəmməd əvvəlcə Əhsaya, oradan da Bəsrəyə qaçaraq Bəni-Zubəyə qəbiləsinin himayəsinə sığınır. Lakin burada da yaxşı qarşılanmayan Əlinin özü qaçsa da, bir neçə tərəfdarı, o cümlədən arvadı və uşaqları Bəsrə valisi tərəfindən həbs edilir.

Hicrətin 254-cü ili (miladi 868) birbaşa Bağdada gələn Əli ibn Məhəmməd, burada özünü Məhəmməd ibn Əhməd ibn İsa ibn Zeyd ibn İmam Səccad *(ə)* kimi təqdim edir. Bir il ərzində Bağdad əhalisində xeyli adam onun tərəfini tutur.

Hicrətin 255-ci ili (miladi 869) Bəsrə valisinin vəzifəsindən uzaqlaşdırıldığını öyrənən Əli ibn Məhəmməd yenidən Bəsrəyə qayıdaraq on dörd il davam edəcək hərəkata başlayır.

Əli ibn Məhəmmədin özünü Əhli-beyt nümayəndəsi adlandırmaqda məqsədi bu idi ki, başladığı hərəkatda uğur qazansın. Onun başladığı qiyam əsas etibarı ilə anarxist və dağıdıcı təbiətə malik idi. Əsasən qaradərili qulları ətrafına toplayan Sahib-üz-zinc, qısa müddət ərzində Ubulla, Abadan və Əhvaz şəhərlərini ələ keçirdi. Xəlifə Mutəmid qiyamçıların üzərinə böyük bir ordu göndərdi. Lakin hicrətin 257-ci ili (miladi 871) baş verən döyüşdə xilafət ordusu məğlub edildi.

Eyni ildə Bəsrə şəhərini ələ keçirən zəncilər, Bəsrə məscidi də daxil olmaqla bütün şəhərə od vurub yandırdılar. Camaatın bütün əmlakı talan edildi, minlərlə şəhər sakini qətlə yetirildi. Zəncilərin əsas dayaq nöqtələri Muxtarə, Mənsurə və Maneə şəhərləri hesab olunurdu.

Xilafətin hərbi əməliyyatlarına cavabdehlik daşıyan Əbu Əhməd Müvəffəq hicrətin 257-259-cu illərində (miladi 871-873) qiyamçıların üzərinə bir neçə sərkərdə yollasa da onları məğlub edə bilmədi. Bütün ümidini Musa ibn Buğa əl-Kəbirə bağlayan Müvəffəq onu hicrətin 259-cu ili (miladi 873) zəncilərlə müharibəyə göndərdi. On ay ərzində aparılan döyüşlərdə xilafət ordusu bəzi

kiçik qələbələr əldə edə bildi. Bu arada Musaya Fars bölgəsində üsyan edən Məhəmməd ibn Vasillə məşğul olmaq əmri verildi. Bunun ardınca Səffarilər Fars bölgəsini ələ keçirib, Bağdad üzərinə hərəkət etdilər. Bu hadisələrlə məşğul olan Musa ibn Buğa əl-Kəbir zəncilərlə döyüşü təxirə saldı. Bundan istifadə edən zəncilər daha da möhkəmləndilər. Xuzistan bölgəsi uğurunda hicrətin 263-cü ilində (miladi 877) zəncilərlə Səffarilər (870-1163) arasında bir neçə döyüş baş verdi. Sonda tərəflər arasında sülh müqaviləsi bağlandı. Bağlanan müqaviləyə əsasən Əhvaz şəhəri Səffarilərin, Xuzistan bölgəsinin bir hissəsi isə zəncilərə verildi.

Bu müqavilədən sonra Səffarilərin hücumundan arxayınlaşan zəncilər yenidən İraq torpaqlarına doğru hərəkət etdilər. Hicrətin 264-cü ili (miladi 877-878) Süleyman ibn Camenin başçılığı altında hərəkət edən zəncilər Vasit şəhərini ələ keçirib, Rüsafəyə basqın etməyə başladılar.

Hicrətin 266-cı ili (miladi 879) Əbu Əhməd Müvəffəq oğlu Əbul-Abbas Əhmədi (gələcək xəlifə Mütəzid) zəncilərə qarşı aparılan hərbi əməliyyatların başçısı təyin etdi. On min nəfərlik dəstə ilə hərəkət edən Əbul-Abbas, Süleyman ibn Camenin başçılığı altında olan zəncilər Vasitdən çıxararaq, onları öz istehkam şəhərlərinə çəkilməyə məcbur etdi. Qısa müddət ərzində zəncilərin dayaq nöqtələrindən olan Mənsurə və Maneə şəhərləri müsəlmanların əlinə keçdi. Eyni vaxtda Əbu Əhməd Müvəffəq də döyüş bölgəsinə gəldi.

Bu şəhərləri itirən zəncilər hərəkatın mərkəzi sayılan Muxtarə şəhərində istehkam qurdular. Bəsrənin qərbində, Dəclə və Fərat çaylarının çoxsaylı qolları arasında yerləşən bu şəhəri, digər tərəfdən də zəncilərin çəkdiyi süni kanallar alınmaz qalaya çevirmişdi. Buna görə də Muxtarə şəhəri xilafət ordusu tərəfindən üç il mühasirədə saxlanmışdır.

Üç illik mühasirədən sonra, hicrətin 269-cu ili (miladi 883) Muxtarəyə daxil olan xilafət orduları Sahib-üz-zincin ailə üzvlərini ələ keçirə bildi. Onun özü isə ən yaxın silahdaşları ilə birlikdə Muxtarənin ucqar məhəllələrindən birində gizlənmişdi. Nəhayət, hicrətin 270-ci ili (miladi 883) hər tərəfdən sıxışdırılaraq mühasirəyə alınmış Sahib-üz-zinc son nəfəsinə qədər vuruşaraq həlak oldu. Əbul-Abbas Əhməd onun kəsik başını Bağdada gətirdi.[546]

Cəməl döyüşdən sonra Hz.Əli *(ə)* Bəsrədə minbərə çıxaraq, zəncilərin qiyamı barədə sadiq səhabəsi Əhnəf ibn Qeysə belə buyurdu: "Ey Əhnəf! Zəncilərin qoşununun başçısını toz-torpaqlı, haray-həşirli, cilov və atları səssiz, öz ayaqları ilə yeri döyəcləyən bir qoşunla qiyam edirmiş kimi görürəm. Ayaqları dəvəquşu ayağına bənzər. Ölənlərinə kimsənin ağlamadığı, yox olanı axtarılmayan qoşunun əlindən vay olsun sizin quzğun qanadları tək qanadlı (tağlı), fil

[546]Tarixi ibn Əsir, II cild, səh-235-237, 241; VII cild, səh-374-390; Siyuti, Tarixul-xuləfa, səh-363-364; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-251-255.

xortumu tək navdanlı, bəzəkli evlərinizə və abad küçələrinizə. Mən dünyanın zahiri və batinini, keçmişini və gələcəyini bilirəm və həqiqətlərini görürəm!"[547]

"Nəhcül-bəlağə"ni şərh edənlər İmamın sözlərini şərh edərək, həqiqətən Sahib-üz-zincin barəsində buyurulduğunu sübuta yetirmişlər. Hz.Əli *(ə)* zəncilərin hücumu zamanı at kişnərtisi və yəhər cingiltisi eşidilmədiyini xəbər verir. Tarixi mənbələrdə, hərəkatın əvvəlində zəncilərin silah və at sarıdan çox çətinlik çəkdikləri qeyd olunur. Onlar cəmi üç silahla silahlanmışdılar. Yeganə atın belində qiyam başçısının özü gəzirdi, onun da yəhər-yüyəni yox idi. Xurma liflərindən at üçün yüyən düzəltmişdilər.

Hz.Əli *(ə)* xütbəsində zəncilərin ayağını dəvəquşu pəncəsinə bənzədir. Məlumdur ki, Afrika irqinə mənsub olanların ayaqları digər insanların ayaqlarına nisbətən enli və pəncəlidr.

Hz.Əli *(ə)* zəncilərin ölülərinə ağlamadıqlarını, itkin düşənləri axtarmadıqlarını buyurur. Həqiqətən, uzaq Afrika sahillərindən Bəsrəyə gətirilmiş qara qulun kimsəsi var idimi ki, öləndə onun üçün ağlasın və ya itəndə çöllərə düşüb axtarsın?[548]

Mutəmid və vəliəhdlik məsələsi

Hicrətin 261-ci ili (miladi 875) Mutəmid kiçik yaşda olan oğlu Cəfəri özündən sonra birinci vəliəhd təyin etdi. "Müvəffəz" ləqəbini alan Cəfər, Şimali Afrika, Misir, Şam, əl-Cəzirə, Azərbaycan və Ərməniyə torpaqlarının idarəçiliyini əldə etdi. Məhşur sərkərdə Buğa əl-Kəbir də onun köməkçisi təyin edildi.

Mutəmidin ikinci vəliəhdi "Müvəffəq" ləqəbli qardaşı Əbu Əhməd Təlhə oldu. Ona da İran, İraq və Ərəbistanın idarəçiliyi verildi.

Vəliəhdlik barədə fərmana bu əlavə olundu ki, əgər Müvəffəz həddibüluğa çatmadan əvvəl Mutəmid ölərsə, hakimiyyət müvəqqəti olaraq Müvəffəqə veriləcək. Lakin Müvəffəz yetkinlik yaşına çatdıqdan sonra xilafət ona qaytarılacaq.

Səffarilərin üsyanı və Tahirilər (819-873) dövlətinin süqutu

Abbasi dövlətinin zəiflədiyi vaxt ortaya çıxan üsyanların ən böyüklərindən biri də Yəqub ibn Leysin qiyamıdır. Səffari dövlətinin qurucusu olan Yəqub ibn Leys hicrətin 257-ci ilində (miladi 870) Sicistanı Tahirilərin əlindən alaraq, bu dövlətin əsasını qoymuşdur. Sonra Əfqanıstana keçib, Bəlx, Herat və Puşəngi özünə tabe edən Yəqub ibn Leys, Hindistan sərhədlərinə qədər irəlilədi. Bu arada Tahirilərin zəifləməsindən istifadə edən Yəqub ibn Leys, Xorasan torpaqlarına daxil olaraq Tahirilərin mərkəzi şəhəri olan Nişaburu mühasirəyə al-

[547]Ayətullah Feyzul-İslam, Nəhcül-bəlağə, 128-ci xütbə, III nəşr, İİR, Mədəniyyət Mərkəzi-2009.

[548]Seyyid Məhəmməd Nəcəfi Yəzdi, Əmir-ül-möminin öngörmələri, səh-121-123; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-256.

dı. Səffarilərlə mübarizə apara biməyəcəyini anlayan sonuncu Tahiri hökmdarı Məhəmməd ibn Tahir Yəqub ibn Leysə təslim oldu. Beləliklə, hicrətin 259-cu ilində (miladi 873) Xorasanı müqavimətsiz ələ keçirən Səffarilər, Tahirilərin 54 illik hakimiyyətinə son qoydu.

Xorasanı ələ keçirən Yəqub ibn Leys xəlifə Mutəmiddən bu ərazilərin hakimliyini istədi. Lakin onunla razılaşmayan xəlifə, ondan Xorasan torpaqlarını tərk etməsini istədi. Xəlifənin məsləhətinə əhəmiyyət verməyən Yəqub ibn Leys Fars bölgəsini də ələ keçirdi. Bu əraziləri ələ keçirən Səffari hökmdarı Yəqub ibn Leys hicrətin 262-ci ilində (miladi 875) yenidən xəlifə Mutəmidin hüzuruna elçilər göndərib, ələ keçirdiyi torpaqların valiliyini təsdiq etməsini istədi. Onunla razılaşan xəlifə Mutəmid, Xorasan, Təbəristan, Cürcan, Rey və Fars bölgələrinin valiliyi ilə birlikdə Bağdad şəhərinin mühafizəsini də Yəqub ibn Leysə verdi. Lakin bununla da razılaşmayan Səffari hökmdarı Yəqub ibn Leys Samirəyə doğru hərəkət etdi.

Bundan narahat olan xəlifə Mutəmid Bağdada gəlib, Əbu Təlhə Müvəffəqin ordusu ilə birləşərək, Səffarilərin üzərinə hərəkət etdi. Hicrətin 262-ci ilinin rəcəb ayının doqquzunda (miladi 876, aprel) iki tərəf Bağdadla Vasit arasında qarşılaşdı. Baş verən döyüşdə xilafət ordusu Səffariləri məğlub etdi və Yəqub ibn Leys döyüş meydanından qaçdı. Səffarilər tərəfindən əsir götürülən son Tahiri hökmdarı Məhəmməd ibn Tahir də sərbəst buraxıldı.

Bir müddət sonra Səffari hökmdarı Yəqub ibn Leysin ölümündən sonra onun yerini tutan qardaşı Əmr ibn Leys xəlifə Mutəmidlə sülh bağladı. Nəticədə xəlifə Mutəmid Əmr ibn Leysin əlində olan torpaqların idarəsini ona verdi.[549]

Bizansla döyüşlər

Xəlifə Mutəmidin xilafəti dövründə bir tərəfdən Orta Anadoluda, digər tərəfdən də Malatya və Sumeysat-Nusaybin bölgələrində Bizanslılarla döyüşlər davam edirdi. Bu döyüşlərdə əldə edilən qələbələr əsasən Tarsus valisi Yazmanın adı ilə bağlıdır. Fəth ibn Xaqanın nökərlərindən olan Yazmanın, Tarsusa nə vaxt gəldiyi dəqiq bilinmir. Hicrətin 269-cu ilində (miladi 882) Tuluni məmurları tərəfindən həbsə alınan Yazman, qısa müddət sonra xalqın istəyi ilə sərbəst edilərək, Tarsusun valisi təyin edilmişdir.

Miladi tarixilə 883-cü ildə (hicri 270) bizanslılar müsəlman torpaqlarına soxularaq, Tarsus yaxınlığında düşərgə qurdular. Lakin baş verən döyüşdə Yazman tərəfindən məğlub edilən Bizans ordusu, silah və azuqələrini düşərgədə qoyub qaçdı. Elə həmin ilin rəcəb ayında (miladı 884) Yazmanın iştirakı ilə tərəflər arasında əsir mübadiləsi baş tutdu.

[549]Tarixi-Təbəri, V cild, səh-480; Tarixi ibn Əsir, VII cild, səh-247; Haig, Səffarilər, İA, X cild, səh-59-60.

Növbəti il hicrətin 272-ci ili (miladi 885) yenidən Bizans üzərinə yürüş edən Yazman xeyli qənimətlə geri döndü. Bu arada Bizans hakimiyyətində bəzi dəyişikliklər baş verdi. Bu vaxta qədər imperator taxtında bir neçə sülalə birbirini əvəz etmişdi: Feodosilər, Yustinianlar, İraklilər, İsavrilər, Amoreylər və Makedoniyalılar. Sonuncu sülalənin ilk hökmdarı I Vasiliy 886-cı ildə vəfat etdi və onun yerini "Müdrik" ləqəbli VI Lev (886-912) tutdu.

Hicrətin 274-cü ilində (miladi 888) Yazmanın başçılığı altında Tarsusdan hərəkət edən müsəlmanlar Bizans sərhəddini keçərək, xeyli qənimət və əsirlə geri döndülər. Bir il sonra hicrətin 275-ci ilində (miladi 888-889) dəniz yolu ilə hərəkət edən Yazman, Bizans donanmasını məğlub edərək, dörd hərbi gəmini ələ keçirdi.

Hicrətin 278-ci ilində (miladi 891) Yazman Bizansa qarşı son hərbi yürüşünə çıxdı. Bizans qalalarından birini mühasirədə saxlayan müsəlmanlar Yazmanın yaralanması ilə əlaqədar olaraq, mühasirəni yarımçıq saxlayıb geri döndülər. Yolda dünyasını dəyişən Yazmanı, Tarsus qapılarında torpağa tapşırdılar.

Yazmanın vəfatından sonra müsəlmanlar uzun müddət Bizansa qarşı səfər etmədilər.[550]

Mutəmid və Əhli-beyt

Digər Abbasi xəlifələrindən fərqlənməyən xəlifə Mutəmid də, Əhli-beytə qarşı mənfi münasibətdə idi. Məhz onun əmri ilə hicrətin 260-cı ili rəbi-ül-əvvəl ayının səkkizində (miladi 874) XI İmam Hz.Həsən Əsgəri *(ə)* xilafətin paytaxtı Samirə şəhərində şəhid edildi. Müqəddəs məzarı Samirədə atası Hz.İmam Nəqinin *(ə)* qəbri yanındadır.

Elə həmin vaxtlarda XII İmam Hz.Mehdi (əc) Allahın izni ilə gözlərdən qeyb oldu. Hz.Mehdinin (əc) 69 il davam edən kiçik qeybət dövrü bu ildə başlamışdır (hicri 260-329/miladi 874-943). Hz.Mehdiyə inam bütün İslam məzhəblərində, hətta bütün dünya dinlərində mövcuddur.

Əhli-şiə məzhəbinə görə, dünyanın xilaskarı-hicrətin 260-cı ili (miladi 874) atasının şəhadətindən sonra beş yaşında ikən qeybə çəkilən Hz.Əbul-Qasim Məhəmməd ibn Həsəndir (əc). O həzrət diridir, Allahın izni ilə onun üçün təyin edilmiş gündə zühur edəcək və öz ilahi missiyasının icrasına başlayacaq. Əhli-sünnə məzhəbində olanlar Hz.Mehdinin (əc) Hz.Fatimə *(ə)* soyundan gələcəyinə inanmaqla yanaşı, onun məhz XI İmamın oğlu olduğunu inkar edir və dünyanın sonuna yaxın normal şəkildə doğulacağını söyləyirlər.

Əhməd ibn Tulun və Abbasilər

Hicrətin 251-ci ilində (miladi 865) xəlifə Müstəinin dövründə Misiri ələ keçirən Əhməd ibn Tulun (868-884) burada Abbasilərin vassalı kimi hakimlik

[550] Ostraqorosky, Bizans Devləti Tarihi, tər. F. İşıltan, səh-220-222.

edirdi. Mutəmidin hakimiyyətinin əvvəllərində xəlifəyə öz tabeçiliyini bidirən Əhməd ibn Tulun, xəracı vaxtlı-vaxtında ödəyirdi.

Belə bir vaxtda zəncilərə qarşı mübarizə aparan Əbu Əhməd Təlhə Müvəffəq Əhməd ibn Tuluna məktub yazıb ondan maddi yardım istədi. Bundan xəbər tutan xəlifə Mutəmid, Əhməd ibn Tuluna bildirdi ki, xəracı Müvəffəqə yox, xəlifəyə təhvil verməlidir. Lakin xəlifənin sözlərinə əhəmiyyət verməyən Əhməd ibn Tulun xəracı Müvəffəqə təslim etdi.

Göndərilən məbləğin az olduğunu düşünən Müvəffəq, tabeliyində olan məhşur sərkərdə Musa ibn Buğa əl-Kəbiri, Misir valisi Əhməd ibn Tulunun üzərinə göndərdi. Şam bölgəsindəki Riqqə şəhərində düşərgə quran Musa ibn Buğa əl-Kəbir on ay sonra Əhməd ibn Tulunla döyüşməkdən çəkinərək, yenidən Samirəyə qayıtdı. Qısa müddət sonra hicrətin 264-cü ilində (miladi 877) Musa ibn Buğa əl-Kəbir Samirədə vəfat etdi.

Hadisələrin onun xeyrinə cərəyan etdiyini görən Əhməd ibn Tulun Şam bölgəsinə doğru hərəkət etdi. O hicrətin 264-265-ci illərində (miladi 877-879) Şam bölgəsini demək olar ki, müqavimətsiz ələ keçirdi. Lakin 879-cu ildə oğlu Abbasın Misirdə çevriliş etdiyini öyrənincə, tələsik Misirə qayıtdı. Oğlu Abbasın qiyamını yatırdıqdan sonra xəbər tutdu ki, Şamda öz yerinə canişin qoyduğu Lölöə xilafət sərkərdəsi Müvəffəqə qoşulub. Dərhal ordusunu toplayaraq Şama qayıdan Əhməd ibn Tulun hicrətin 269-cu ilində (miladi 882) Riqqə şəhərinə daxil oldu.

Bu arada xəlifə Mutəmidin Riqqədə Əhmədlə görüşmək üçün yola çıxdığını öyrənən Müvəffəq, Mosul və əl-Cəzirə valisinin köməyi ilə xəlifəni yarıyoldan qaytarıb, Bağdada gətizdirdi. Bundan sonra Bağdadda nəzarət altında olan xəlifə Mutəmidin vəziyyəti daha da pisləşdi. Xəzinədən əli üzülmüş xəlifə Mutəmid, hətta şəxsi məsrəflərini ödəmək üçün üç yüz dinar pul tapa bilmirdi.

Hicrətin 270-ci ilində (miladi 884) Əhməd ibn Tulunun vəfatından sonra onun yerini oğlu Xumaraveyh tutdu. Həmin vaxt zəncilər üzərində qələbə çalan Müvəffəq, Tulunilərlə müharibə aparmaq üçün oğlu Əbul-Abbas Əhmədi (gələcək xəlifə Mütəzid) qərb torpaqlarının valisi təyin etdi. Onun ilk vəzifəsi Tulunilərin əlində olan Şam bölgəsini geri qaytarmaq idi. Lakin hicrətin 271-ci ilində (miladi 885) baş verən döyüşdə Xumaravehy Əbul-Abbası məğlub etdi və Şam bölgəsi qəti şəkildə Tulunilərin ixtiyarına keçdi. Bundan sonra tərəflər arasında sülh bağlandı. Sülhün şərtlərinə görə, Misir və Şam torpaqları daha otuz il müddətinə Tulunilərin ixtiyarına verildi.

Paytaxtın Samirədən Bağdada qaytarılması

Xəlifə Mütəvəkkilin dövründən başlamış anti-türk siyasəti bir müddət sonra öz bəhrəsini verməyə başladı. Artıq orduya türk birlikləri qəbul edilmir, eyni zamanda da yeni yaradılan qoşun hissələri də, bir qayda olaraq, əsasən ərəblərdən təşkil olunurdu. Bununla bərabər, xəlifə Mutəmidin hakimiyyətinin əv-

vəllərində türklər xilafətdə öz nüfuzlarını qoruyub saxlaya bilirdilər. Bu da vəzir Ubeydullah ibn Yəhya ibn Xaqanın və baş komandan Musa ibn Buğa əl-Kəbirin sayəsində mümkün olurdu.

Lakin siyasət meydanında uğur qazanan Müvəffəq, Musanı getdikcə sıxışdıraraq nüfuzunu zəiflədirdi. Nəhayət, Musa ibn Buğa əl-Kəbir miladi 875-ci ildə (hicri 261) şərq torpaqlarının valiliyindən istefa verməklə, dövlət işlərindən geri çəkildi. İbn Tuluna qarşı mübarizədə də uğur qazanmaması onun nüfuzuna ciddi zərbə vurdu. Bu hadisədən iki il sonra hicrətin 264-cü ilində (miladi 877) Musa ibn Buğa əl-Kəbir, özündən sonra orduda onu əvəz edəcək güclü bir türk sərkərdəsi buraxmadan vəfat etdi.

Hicrətin 276 və ya 279-cu ilində (miladi 890 və ya 892) xəlifə Mutəmidin əmri ilə paytaxtın yenidən Samirədən Bağdada qaytarılması türk nüfuzuna son və həlledici zərbəni vurdu. Əvvəldə də qeyd etdiyimiz kimi, Samirə şəhəri türklərin şərəfinə, xəlifə Mutəsimin əmri ilə miladi tarixilə 836-ci ildə (hicri 221) salınmışdır. Altmış ilə yaxın Abbasilərin paytaxtı olan Samirədə Mutəsim, Vasiq, Mütəvəkkil, Müntəsir, Müstəin, Mütəzz, Mühtədi və Mutəmid kimi, səkkiz Abbasi xəlifəsi yaşamış və hökmranlıq etmişlər.

Hicrətin 278-ci ilində (miladi 891) məhşur sərkərdə Əbu Əhməd Müvəffəq vəfat etdi. Onun ölümündən sonra ordu sərkərdələri və saray əyanları Müvəffəqin oğlu Əbul-Abbas Əhmədə ikinci vəliəhd kimi beyət edərək, ona "Mütəzid" ləqəbini verdilər. Onların təkidi ilə xəlifə Mutəmid də onu ikinci vəliəhd kimi elan etdi.

Qısa müddət ərzində bütün səlahiyyətləri ələ alan Mütəzid, xəlifəyə təzyiq göstərərək, ondan birinci vəliəhdliyi tələb edirdi. Bu təzyiqlərə tab gətirməyən xəlifə Mutəmid hicrətin 279-cu ilində (miladi 892) saray əyanlarının gözü qarşısında oğlu Müvəffəz ləqəbli Cəfəri vəliəhdlikdən kənarlaşdırdığını və Əbul-Abbas Əhməd Mütəzidi yeganə vəliəhd kimi tanıdığını elan etdi.

Sayca on beşinci Abbasi xəlifəsi Əbul-Abbas Əhməd Mutəmid hicrətin 279-cu ilində (miladi 892) əlli yaşında Bağdadda vəfat etmişdir.

Hz.İmam Həsən Əsgəri (ə)

O Həzrətin adı Həsən, Əsgəri isə onun ləqəbidir. Uzun müddət Abbasi xəlifəsinin əmrilə Samirədı Əsgər adlı bir yerdə saxlandığı üçün Əsgəri adlandırılmışdır.[551] Atası İmam Nəqi *(ə)*, anası isə Hüdeysə adlı bir qadın olmuşdur. Tarixi mənbələrdə onun adını Susən, Səmanə və Reyhanə də yazırlar.

İmam Həsən Əsgəri *(ə)* hicrətin 232-ci ili rəbiül-axir ayının 8-də, miladi 846-cı il xəlifə Vasiqin xilafəti dövründə Mədinədə anadan olmuşdur. İyirmi iki yaşında olarkən atası İmam Nəqi *(ə)* şəhadətə qovuşmuşdur. İmam *(ə)* altı il imamlıq etmiş, ümumilikdə isə iyirmi səkkiz il yaşamışdır. İmam *(ə)* son dərəcə həyalı, səxavətli, təmkinli və vüqarlı olmaqla bərabər zöhd və təqvası ilə də ha-

[551] İləluş-şərayi, I cild, səh-230.

mıdan seçilirdi. Səcdə əlaməti onun alnında açıq-aşkar görünürdü. Hamının yanında uca məqamı, böyük ehtiramı var idi. İmamın *(ə)* bütün ömrü ya zindanda, ya da sürgünlərdə keçmişdir. O, iki, ya üç yaşında ikən atası İmam Nəqi *(ə)* ilə birlikdə sürgün olunaraq ömrünün iyirmi ilini atası ilə yanaşı sürgün və zindanlarda keçirmişdir. Buna görə də İmamın *(ə)* tərəfdarları onunla görüşə bilmir və məcbur idilər ki, şəri məsələləri yolda qarşılaşarkən ondan soruşsunlar.

Abbasi xəlifələri İmamlara qarşı əllərindən gələn bütün təzyiqləri həyata keçirirdilər. Bu təzyiqlər İmam Təqi *(ə)*, xüsusən İmam Nəqi *(ə)* və İmam Həsən Əsgərinin *(ə)* Samirədə olduğu dövrdə son həddə çatır. Bu üç İmam onlara verilən təzyiqlərin şiddətindən cavan yaşlarında şəhadətə qovuşmuşlar. İmam Təqi *(ə)* iyirmi beş, İmam Nəqi *(ə)* qırx, İmam Həsən Əsgəri *(ə)* isə iyirmi səkkiz yaşında şəhid olmuşdur. İmam Həsən Əsgəriyə *(ə)* olunan təzyiqlər özündən qabaqkı iki İmama olunmuş təzyiqlərdən çox olmuşdur. Bunun isə iki səbəbi var:

1) İraqda olan şiələr rəsmi xəlifəyə qarşı mənfi mövqedə durur və Abbasi xəlifələrinin heç birini rəsmən xəlifə kimi tanımırdılar. Onların fikrincə, İslamda xəlifəlik məqamı Hz.Əlinin *(ə)* övladlarına məxsusdur. O dövrdə də bu ailənin parlaq nümayəndəsi İmam Həsən Əsgəri *(ə)* idi.

2) Abbasilər və onların davamçıları bir çox rəvayətlərə əsasən bilirdilər ki, bütün azğın hökumətləri tar-mar edəcək vəd edilmiş Mehdi *(ə)* İmam Həsən Əsgərinin *(ə)* nəslindən olacaq. Buna görə də, daim onlar İmam Həsən Əsgərini *(ə)* təqib edirdilər ki, oğlunu ələ keçirib öldürsünlər. Necə ki, Firon Musanı *(ə)* uşaqlığından ələ keçirmək üçün əbəs yerə səy edirdi.

Bu iki səbəbə görə İmam Həsən Əsgəriyə *(ə)* qarşı təzyiqlər həddən artıq çox idi və hər tərəfdən İmam *(ə)* nəzarət altına alınmışdı. Abbasi xəlifəsi İmamdan *(ə)* o qədər narahat idi ki, o Həzrəti həftənin birinci və dördüncü günləri saraya gəlməyə məcbur etmişdi.[552]

Bütün bu təzyiqlərə baxmayaraq İmam *(ə)* bir sıra siyasi-ictimai və elmi fəaliyyətlər göstərmişdir.

1) İslam dininin müdafiəsi üçün həyata keçirilən fəaliyyətlər: Abbasilərin yaratdığı məhdud şəraitə baxmayaraq, İmam *(ə)* çətinliklə də olsa, hər birinin İslam maarifini yaymaqda böyük rolu olmuş şagirdlər yetişdirmişdi. Onların arasında Əhməd ibn İshaq Əşəri Qummi, Əbu Haşim Davud Qasim Cəfəri, Abdullah ibn Cəfər Himyəri, Əbu Əmr Osman ibn Səid Əmri, Əli ibn Cəfər və Məhəmməd ibn Həsən Səffar kimi böyük şəxsiyyətlər də olmuşdur.

2) Nümayəndələr vasitəsilə şiələrlə əlaqə saxlamaq: İmam *(ə)* dövründə bir çox şəhərlərdə şiələrin sayı xeyli artmışdı. Kufə, Bağdad, Nişapur, Qum, Mədain, Xorasan, Rey, Yəmən, Azərbaycan, Samirə və Bəsrə kimi şəhərlər şiələrin mərkəzinə çevrilmişdi. Bu şəhərlər arasında Samirə, Kufə, Bağdad, Qum və Nişapur bir sıra səbəblər üzündən xüsusi əhəmiyyətə malik idi. Bu mərkəzlərin

[552] Mənaqibu-Ali-Əbutalib, IV cild, səh-434.

həm imamət xətti ilə, həm də bir-biri ilə əlaqə saxlamaları üçün mərkəz tələb olunurdu. Belə bir mərkəzə olan ehtiyac artıq İmam Təqinin *(ə)* dövründən hiss olunmağa başlanmışdı. Bu iş İmam Həsən Əsgərinin *(ə)* dövründə də davam etmişdir. Tarixi mənbələrə əsasən, İmam *(ə)* şiələr arasında tanınmış şəxsləri seçib müxtəlif yerlərə nümayəndə göndərmiş, onlarla əlaqə saxlayaraq bütün şiələrə nəzarət edə bilmişdir. Bu nümayəndələr arasında İmamın *(ə)* Nişapur şəhərindəki nümayəndəsi İbrahim ibn Əbduhu nümunə göstərmək olar.

3) Gizli siyasi vəziyyət: İmam Həsən Əsgərinin *(ə)* ən yaxın və səmimi dostlarından olan Osman ibn Səid Əmri yağ satmaq adı altında gizli fəaliyyət göstərirdi. Şiələr şəri vergilərini İmama göndərmək istəyəndə onu Osmana verir, o isə yağ qablarına qoyub onu İmama çatdırırdı.[553] İmamın *(ə)* hamamını qızdırmaq üçün odun daşıyan Davud ibn Əsvəd deyir: Bir gün İmam *(ə)* mənə qalın bir odun verib buyurdu ki, bunu Osman ibn Səidə ver. Mən yolda həmin odunla qatırı vurub yoldan çıxarmaq istədikdə odun sındı və gözüm onun içindəki məktublara sataşdı. Tez məktubları götürüb İmamın yanına qayıtdım. İmam *(ə)* buyurdu: Bir də belə iş görmə. Əgər eşitsən ki, bir nəfər bizi söyür, yenə də işin olmasın, yolunu get. Biz çox pis şəhərdə yaşayırıq. Sən ancaq öz işini gör. Bunu da bil ki, sənin bütün işlərin bizə çatdırılır.[554]

4) Şiələri öz oğlu on ikinci İmamın qeybə çəkilməsi dövrünə hazırlamaq: İmamın yaxın dostlarından olan Əhməd ibn İshaq deyir: İmamın yanına gedib ondan sonrakı İmam barədə soruşmaq istəyirdim. Mən sualımı vermədən İmam *(ə)* mənə buyurdu: "Ey Əhməd! Allah Hz.Adəmi *(ə)* yaratdığı gündən Qiyamətə qədər yer üzünü bir an olsun İlahi hüccətsiz qoymayıb və qoymayacaq. Allah həmin hüccətin hesabına yer üzündəki bəlanı dəf edərək camaata rəhmət yağışı göndərir və yerin altında gizlənmiş nemətləri üzə çıxarır." Mən soruşdum: "Sizdən sonra İmam kim olacaq?" Bunu deyəndən sonra o Həzrət durub o biri otağa keçdi və qucağında sifəti on dörd gecəlik ay kimi parıldayan təxminən üç yaşlı bir uşaqla geri qayıtdı. Sonra isə buyurdu: "Əhməd, əgər Allah və İmamlar yanında hörmətin olmasaydı, bunu sənə göstərməzdim. Onun adı Hz.Peyğəmbərin *(s)* adından, künyəsi Peyğəmərin künyəsindəndir. Dünya zülm və haqsızlıqla dolduğu zaman o gəlib hər tərəfi haqq və ədalətlə dolduracaq. O, uzunömürlü olması baxımından Xızır və Zülqərneyn kimi olacaq. O, uzun müddətli qeybə çəkiləcək və bir çoxları bu barədə şəkk edəcək, təkcə Allahın, onun İmamətinə möhkəm əqidə saxladığı və onun zühurunun tez baş verməsi haqqında dua etməyə nail olan şəxslər azğınlıqdan qurtaracaqlar."[555]

Bütün bu təzyiqlərdən sonra, nəhayət İmam Həsən Əsgəri *(ə)* hicrətin 260-cı ili rəbiül-əvvəl ayının 8-də, miladi 874-cü il Abbasi xəlifəsi Mötəmidin əmri

---

[553] Əl-Qeybət, səh-214.
[554] Mənaqibi-Ali-Əbutalib, IV cild, səh-427.
[555] Kəmaluddin, II cild, səh-384.

ilə Samirədə şəhid edilmişdir. Müqəddəs məzarı atası İmam Nəqinin *(ə)* qəbri yanındadır. Künyəsi Əbu Muhəmməddir.

İmam Həsən Əsgərinin *(ə)* ləqəbləri:

1) Əsgəri; 2) Sirac – haqq yola nur saçan; 3) Hadi – rəhbər; 4) Mövla – ağa.

İmam Həsən Əsgərinin *(ə)* nigahlı zövcəsi olmamış, yalnız Nərcis Banu adlı xüsusi bir kənizi olmuşdur və bu xanımdan Hz.Mehdi *(ə)* doğulmuşdur.

İmam Həsən Əsgərinin *(ə)* üzüyündə bu yazı yazılmışdır: "İnnəllahə şəhidun" – Allah hər bir işə nəzarət edəndir.

İmam Həsən Əsgərinin *(ə)* müasiri olmuş xəlifələr:

1) Mötəzz (866-869);
2) Mühtədi (869-870);
3) Mötəmid (870-892).

Hz.Mehdi Sahibəz-Zaman (ə)

O Həzrətin adı Muhəmməd, künyəsi Əbəl-Qasimdir. Bu ad və künyə Hz.Peyğəmbərə *(s)* məxsusdur və Hz.Peyğəmbər *(s)* özü bu ad və künyəni on ikinci İmama əta etmişdir. Bu ad və künyə xatəmiyyətə xass olduğu üçün həm Xatəmül-Ənbiya, həm də Xatəmül-Övsiya adlanır. Hz.Peyğəmbər *(s)* bu ad və künyənin camaat arasında, məclislərdə deyilməsini haram buyurub. O Həzrətin adının qadağan olunması onun qeybə çəkildiyi ilk mərhələyə qədər olmuş və siyasi məqəd daşımışdır. Lakin onun zühuruna qədər qadağan edilməsi barədə şiə alimləri arasında fikir müxtəlifliyi var.[556] Atası İmam Həsən Əsgəri *(ə)*, anası isə Rum Qeysərinin qızı Nərcis və ya Nərgiz xanımdır. Bu xanım İsanın *(ə)* həvarilərindən olan Şəmunun nəslindəndir. Tarixi mənbələrdə onun adını Reyhanə, Süsən və Səqil kimi də qeyd edirlər.[557] Həddən artıq fəzilətli olduğu üçün İmam Nəqinin *(ə)* bacısı Həkimə özünü onun xadiməsi adlandırmışdır.[558]

Hz.Mehdi *(ə)* hicrətin 255-ci ili şəban ayının 15-də cümə axşamı, miladi 869-cu il abbasi xəlifəsi Mötəmidin dövründə Samirə şəhərində anadan olmuşdur. Anadan olan kimi səcdəyə düşüb kəlmeyi-şəhadətini demiş, şəhadət barmağını asimana tərəf qaldırıb "Əlhəmdulillahi rəbbil-aləmin" oxumuş, sonra "Qəsəs" surəsinin əvvəlinci ayələrini tilavət edib, bütün imamların, eləcə də atası İmam Həsən Əsgəri *(ə)* və özünün imamətinə iqrar etmişdir. İmam Zaman *(ə)* dünyaya gəldikdə onun sağ qoluna "İsra" surəsinin 81-ci ayəsi yazılmışdır: **"Haqq gəldi, batil yox oldu."**

---

[556] Kəmalüddin, səh-648.
[557] Əl-İrşad, səh-346.
[558] Biharul-Ənvar, 51-ci cilid, səh-12.

Hz.Mehdi *(ə)* haqqında Peyğəmbər *(s)* hədisləri

1) Hz.Peyğəmbər *(s)* buyurub: "Mənim övladımdan on iki nəfər hakimlik edər, o övladlarımdan Mehdi *(ə)* adlı bir nəfər çıxar ki, Allah onun işini bir gecədə islah edər."

2) Hz.Peyğəmbər *(s)* buyurub: "Əgər dünyanın sonuna bir gün qalmış olsa belə, Allah o günü o qədər uzadar ki, mənim övladımdan, adı mənim adımdan, künyəsi mənim künyəmdən olan bir nəfəri qaldırar."[559]

3) İbn Abbasdan yetişən hədisdə Hz.Peyğəmbər *(s)* belə buyurur: "Yer üzü zülm ilə dolandan sonra mənim övladımdan Mehdi *(ə)* gəlib yer üzünü haqq və ədalətlə dolduracaq. Məryəm oğlu İsa *(ə)* nazil olacaq və o Həzrətlə namaz qılacaq. Onun səltənəti Şərqə və Qərbə yayılacaq, belə ki, bir başmaq yeri və ya heyvan dırnağı qədər yerdə qalmayacaq."[560]

4) Hz.Peyğəmbər *(s)* buyurdu: "Ümmətimdə Mehdi olacaqdır. Əgər hökuməti qısa müddətli olsa yeddi il və əgər uzun müddətli olsa doqquz il olacaqdır. O zaman ümmətimə verilməmiş bir nemət veriləcəkdir. Yer üzü bütün sərvətlərini aşkar edəcək və heç bir şeyi gizlətməyəcəkdir."[561]

5) Hz.Peyğəmbər *(s)* buyurub: "Biz elə bir Əhli-beytik ki, Allah dünya əvəzində axirəti bizim üçün seçmişdir. Məndən sonra mənim Əhli-beytim şiddətli bəla və zülmlə qarşılaşacaqlar. Sonra şərqdən qara bayraqları olan bir qövm gələcəkdir. Onlar xeyri tələb edəcəklər, amma onlara verilməyəcək. Onlar müharibə edib qələbə çalacaqlar. O zaman onların istədikləri şeyi verəcəklər, amma onlar qəbul etməyəcəklər. Onlar onu (qara bayrağı) mənim Əhli-beytimdən olan bir nəfərə verəcəklər. O da yer üzünü zülmlə dolduğu kimi ədalətlə dolduracaqdır[562]

Şiələrdən fərqli olaraq sünnilər deyirlər ki, İslam Peyğəmbərinin *(s)* həmin şəxsin qeybə çəkildikdən sonra zühur edəcəyi barədə məlumat verdiyi Mehdi hələ doğulmayıb və bundan sonra dünyaya gələcək.[563] Buna baxmayaraq sünni məzhəbinin bir çox tarixçi və hədis yazarları o Həzrətin təvəllüdünü öz kitablarında qeyd etmişlər.

İmam Zamanın *(ə)* qeybə çəkilməsinin siyasi-ictimai səbəbləri

1) İmamın canını qorumaq: Allah on ikinci İmamı qeybə çəkməklə onu ölümdən qorumuşdur. Çünki əgər o Həzrət ömrünün ilk günlərindən camaatın arasında olsaydı, onu mütləq öldürəcəkdilər. Əgər o Həzrət münasib vaxtdan qabaq da zühur etsə, yenə həyatı təhlükədə olar, nəticədə

---

[559]Müsnədi-Əhməd, I cild, səh-99; Tirmizi, Camius-səhih, IX cild, səh-74-75.
[560] Sünəni-Əbu Davud, II cild, səh-422.
[561] Sünəni İbn Mace, II cild, 4086-cı hədis.
[562]Sünəni ibn Mace, II cild, hədis-4082.
[563] İbn Əbli Hədid, Nəhcül-bəlağənin şərhi, VII cild, səh-94.

öz ilahi vəzifələrini yerinə yetirməyə, cəmiyyəti islah etmək sahəsindəki ali məqsədlərini icra etməyə nail olmaz.

2) Zalımlara beyət etməmək: İmam Mehdi *(ə)* heç bir rejimi, hətta təqiyyə üzündən də olsa belə, rəsmi tanımamış və tanımır. Həsən ibn Fəzzal deyir: "İmam Rza *(ə)* buyurdu: "Sanki üçüncü oğlumun ölümündən sonra öz İmamını axtaran, lakin onu tapa bilməyən şiələrimi görürəm." Mən dedim: "Nə üçün o gözlərdən itəcək?" İmam *(ə)* cavab verdi: "Ona görə ki, əlində qılınc qiyam edəcəyi zaman heç kəsə tabe olmasın."[564]

İmam Zamanın *(ə)* qeybət dövrü iki hissəyə ayrılır:

1) Qeybəti-suğra (kiçik qeybət dövrü): Kiçik qeybət dövrü hicrətin 260-cı ilindən 329-cu ilinə qədər (miladi 874-943) davam etmişdir. Təxminən altmış doqquz il davam etmişdir. Bu dövrdə İmam *(ə)* öz şiələri ilə naiblər vasitəsilə əlaqə saxlayırdı. Həmin naiblər bunlardır:

1) Əbu Əmr Osman ibn Səid Əmri: Bəni-Əsəd qəbiləsindən olan Osman, Samirə şəhərində yaşadığı üçün Əsgəri də adlandırılmışdır. Şiələr onu Səmman (yağsatan) deyə çağırırdılar.[565]

2) Məhəmməd ibn Osman ibn Səid Əmri

3) Əbulqasim Hüseyn ibn Ruh Nobəxti: O Abbasi xəlifəsi Müqtədirin (908-932) dövründə beş il həbsdə olmuş, 317-ci ildə azad edilmişdir.

4) Əbulhəsən Əli ibn Məhəmməd Səməri: Məhəmməd Səməri İmam Həsən Əsgərinin *(ə)* səhabələrindən olmuşdur. O, vəfat etdiyi 329-cu ilə qədər İmam Zamanın *(ə)* naibi olmuşdur.

Naiblərin yerinə yetirdiyi vəzifələr bunlar idi:

1) İmamın *(ə)* adını və yerini gizli saxlamaq
2) Vəkillərə rəhbərlik etmək
3) İmama məxsus olan şəri vergilərin toplanıb paylanması
4) Fiqhi suallara cavab vermək
5) İmamın naibi olmaq haqda iddia edənlərlə mübarizə aparmaq

Dördüncü naibin ölümü ilə "Qeybəti-kübra" (böyük qeybət) dövrü başlayır. Bu dövr hicrətin 329-cu ilindən (miladi 943) başlayıb günümüzə qədər davam etmiş və Allahın izni ilə İmam Mehdinin *(ə)* zühuruna qədər davam edəcəkdir.

Hz.Mehdinin *(ə)* ləqəbləri:

1) Mehdi – düz yola hidayət edən
2) Hüccətullah – qələbə çalan, Allahın höccətini tamamlayan
3) Sahib əz-zaman – zamanın sahibi
4) Hadi – yol göstərən
5) Qaim – daim ayaq üstə olub Allahın əmrini gözləyən
6) Müntəzir – Xalqı intizarda qoyan

---

[564] Kəmalüddin, səh-480.
[565] əl-Qeybət, səh-214.

7) Bələdul-əmin – Allahın möhkəm qalası

8) Xatəmül-əimmə – imamların sonuncusu

9) Bəqiyətullah – rəvayət olunub ki, İmam *(ə)* zühur edən zaman arxasını Kəbəyə söykəyəcək və 313 nəfər əshabı onun ətrafında toplanacaq. İlk söyləyəcəyi ayə belədir: "Əgər möminsinizsə Allahın Bəqiyətullahı sizin üçün daha xeyirlidir." (Hud surəsi, ayı-86).[566]

Əbul-Abbas Əhməd Mütəzid-billah hicri 279-289 (miladi 892-902)

Əbul-Abbas Əhməd Mütəzid hicrətin 242-ci ilində (miladi 857) xəlifə Mütəvəkkilin xilafəti dövründə Samirədə anadan olmuşdur. Əmisi Mutəmidin ölümündən sonra Abbasi məmurları hicrətin 279-cu ilində (miladi 892) ona beyət edərək, xəlifə təyin etdilər. Xəlifə seçildikdən sonra Mütəzid Ubeydullah ibn Süleymanı özünə vəzir təyin etdi.

Mütəzid xəlifə olduqdan sonra bir çox valilər paytaxt Bağdada gələrək ona beyət etdilər. Bu valilərdən biri də Əmr ibn Leys Səffari idi. Sistan vilayətinin valisi Əmr ibn Leysin bu görüşdən əsas məqsədi Xorasan üzərindəki hakimiyyətini rəsmiləşdirmək idi. Əmr ibn Leys Səffarinin istəyini nəzərə alan xəlifə Mütəzid hicrətin 279-cu ilində (miladi 892) onu Xorasan valisi təyin etdi. Lakin bir müddət sonra Samanilər (892-999) sülaləsindən olan İsmail ibn Əhməd (892-907) hicrətin 287-ci ilində (miladi 900) Bəlx yaxınlığında baş verən döyüşdə Əmr ibn Leysi məğlub edərək, Xorasan və Maveraun-nəhr torpaqlarını ələ keçirdi.

Misirdə hakimlik edən Tuluni əmiri Xumaraveyh ibn Əhməd ibn Tulun (884-896) da xəlifə Mütəzidlə ünsiyyət taparaq, daha otuz il müddətinə Misir, Şimali Mesopotamiya və Suriyanın bir hissəsinin hakimliyini əldə etdi.[567] Bu torpaqların hakimliyini əldə edən Tulunilər, hər il xilafətə 450 min dinar vergi ödəməli idilər.

Mütəzid hakimiyyətə gəldiyi vaxt mərkəzi hakimiyyətin maddi və iqtisadi cəhətdən zəifləməsindən istifadə edən valilər müstəqillik iddiası etməyə başlamışdılar. Şimali Afrikada Əğləbilər (800-909), Misir və Suriyada Tulunilər (868-905), İran torpağında isə Səffarilər (870-1163) və Samanilər (892-999) çoxdan xəlifənin nəzarətindən çıxmışdılar. Onlarla işgüzar əlaqələr quran xəlifə Mütəzid, həm yerli hakimlərə satdığı səlahiyyətlər hesabına xəzinəni doldurur, həm də bu hakimlərlə bağladığı müqavilələr sayəsində onlar sarıdan arxayınlıq əldə edirdi.

Mütəzidin həyata keçirdiyi islahlar

İlk olaraq xəlifə Mütəzid ordunu üç hissəyə ayırdı. "Xassə" adlanan birinci və xüsusi təyinatlı qoşun hissələri daim xidmətdə idi. Onlar demək olar ki, Bağdaddan kənara çıxmır, xəlifənin və sarayın mühafizəsini təmin edir, dövlət

[566] Şeyx Nuri, Nəcmus-saqib.

[567] Tarixi-Təbəri, V cild, səh-605.

mərasimlərinə qatılır və təhlükəli hallarda işə müdaxilə edirdilər. Bu bölümə piyada və süvarilər daxil idi. Onların məvacibi də digərlərinkindən yüksək idi.

İkinci bölüm "şürtə" (polis) adlanırdı. Bunların vəzifəsi Bağdad və ətraf məntəqələri mühafizə etmək, sabitliyi qorumaq, paytaxta gələn yolları nəzarət altında saxlamaqdan ibarət idi. Piyada və süvarilərdən ibarət olan şürtə birinci bölümə nisbətən daha az məvacib alırdı.

Üçüncü bölüm isə "əskər-üd-dun" (aşağı səviyyəli ordu) və ya "məunə" (yardımçı qüvvə) adlanırdı. Bunlar əyalətlərdə dövlətin nüfuzunu gücləndirməyə xidmət edir, bölgələrdə polis rolunu oynayır, bəzi hallarda da vergi yığımına qatılırdılar. Onların məvacibi əvvəlki bölümlərdən daha az idi.[568]

Xəlifə Mütəzidin daxili siyasətdə həyata keçirdiyi islahatlardan biri də dövlət məmurlarının istirahət vaxtının artırılması oldu. Xəlifənin göstərişinə əsasən cümə günü ilə yanaşı, cümə axşamı da qeyri-iş günü elan edildi.

Vəzir Ubeydullah ibn Süleyman xəzinəni doldurmaq üçün daha bir cəhd etdi. O, miras məsələlərinə baxmaq səlahiyyətini qazilərdən alıb, bunun üçün təşkil edilmiş xüsusi dövlət məhkəmə qurumuna verdi. Bu islahatı həyata keçirməklə, hökumət vərəsəsiz mirasları dövlət hesabına keçirməyi planlaşdırırdı. Lakin bu məqsədlə yaradılmış məhkəmə qurumlarının xərci, gətirdiyi qazancı qat-qat üstələdi. Buna görə də, bir müddətdən sonra miras məsələləri yenidən qazilərə qaytarıldı.[569]

Mütəzidin daxili siyasəti də xilafətin iqtisadi vəziyyətindən asılı olaraq dəyişirdi. Hakimiyyətinin əvvəllərində o, əhli-sünnə yolunu rəhbər tutaraq, hətta kəlam elmi barədə kitabların alış-satışına da qadağa qoydu. Lakin bu cəbhənin lazımi maddi dəstəyini əldə edə bilməyəndə, əhli-şiələrə meyl göstərməyə başladı. Bir çox nüfuzlu və imkanlı qruplaşmaları öz sıralarında birləşdirən şiə ailələrinə xəlifə Mütəzid öz hakimiyyətini möhkəmlətmək üçün vasitə kimi baxırdı.

Xəlifə Mütəzidin apardığı müharibələr

Hicrətin 280-cı ilində (miladi 893) əl-Cəzirə bölgəsinə yürüş edən xəlifə Mütəzid qısa müddət ərzində Mosulda sabitlik yaradaraq, yenidən Bağdada qayıtdı. Növbəti ilin sonlarında (hicri 281, zilqədə/miladi 895) Həmdanilər (903-1003) sülaləsinin sələfi Həmdan ibn Həmdunun yerli xəvaric qruplaşması ilə birləşib, dövlətə qarşı çıxışlar etdiyini öyrənən xəlifə Mütəzid, yenidən Mosul üzərinə yürüş etdi. Baş verən döyüşdə məğlub olan Həmdan təslim oldu.

Bir müddət sonra Mosulda yenidən xəvaricdən olan Harun adlı şəxs xilafətə qarşı qiyam etdi. Bununla əlaqədar olaraq xəlifə Mütəzid, hicrəti 283-cü ilində (miladi 896) Mosul üzərinə üçüncü dəfə yürüş etdi. Bu yürüşdə Həmdan

[568]Doğuştan Günümüze Büyük İslam Tarihi, Çağ Yayınları, III cild, səh-275-276; Nuri Ünlü, İslam Tarihi, I cild, səh-282.
[569]Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-266.

ibn Həmdunun oğlu Hüseyn də iştirak edirdi. Hüseyn, atasının həbsdən azad olunacağı təqdirdə qiyamın başçısı Harunu ələ keçirməyə razı olduğunu bildirdi. Onun səyləri ilə Harun ələ keçirildikdən sonra Mütəzid vədinə əməl edib Həmdanı sərbəst buraxdı.

Hicrətin 285-ci ilində (miladi 899) xəlifə Mütəzid əl-Cəzirə bölgəsində yerləşən Aməd şəhərinə hücum edərək, şəhəri ələ keçirdi.

Bu arada Azərbaycan və Ərməniyyə valisi Əbus-Saca tabe olan sərkərdə Vəsif, valinin əmrindən çıxıb hicrətin 287-ci ilində (miladi 900) Malatya üzərinə yürüş edərək, şəhəri ələ keçirdi. Vəsfin əsas məqsədi Bizansla sərhəd bölgələrdə özünə torpaq qazanıb, vəzifə əldə etmək idi. Buranı ələ keçirən Vəsif Mütəzidin yanına elçi göndərib tələb etdi ki, onu Bizansla həmsərhəd bölgələrə vali təyin etsin. Bundan narahat olan xəlifə böyük bir qoşunla Vəsifin üzərinə hərəkət etdi. Xilafət qüvvələri Bizansa qaçmağa çalışan Vəsifin yolunu kəsib, onu ələ keçirdilər.

Qiyamı yatırandan sonra xəlifə Mütəzid bu bölgədəki iri şəhərləri gəzərək, qayda-qanun yaratdı. Xüsusilə, Tarsusda xəlifənin gördüyü işlər dəhşətli oldu. Tarsusluların Vəsiflə müttəfiq olduqlarını bəhanə gətirən xəlifə Mütəzidin əmri ilə şəhər limanındakı əllidən artıq hərbi gəmi yandırıldı. Xəlifənin bu səhvindən qısa müddət sonra hicrətin 288-ci ilində (miladi 901) xilafət sərkərdələrindən biri Bizansa hücum edib, 160 nəfərdən artıq yüksək rütbəli şəxsi əsir götürərək Bağdada gətirdi.

Buna cavab olaraq, bizanslılar həm dəniz, həm də quru yolu ilə müsəlman torpaqlarına hücum edərək on beş min müsəlmanı əsir götürdülər. Daxili qalmaqallarla məşğul olan xəlifə Bizansa qarşı heç bir tədbir görə bilmədi.

Azərbaycan valisi Məhəmməd ibn Əbus-Sac

IX əsrdə xilafətə qarşı mübarizə şəraitində Azərbaycanda meydana gələn feodal dövlətlərdən biri də paytaxtı Ərdəbil olan Sacilər dövləti (889-942) idi. Yeni sülalənin banisi Əbu Sac Divdad hesab olunur.

Sacilərin banisinin Əbu Sac Divdad hesab edilməsinə baxmayaraq, dövlət onun ölümündən xeyli sonra oğlanları Məhəmmədin və Yusifin dövründə yaranmışdır. Xidmətləri ilə xəlifənin rəğbətini qazandığına görə Məhəmməd ibn Əbu Sac xəlifə Mutəmid tərəfindən 889-cu ildə (hicri 276) Azərbaycanın hakimi təyin olundu. Məşhur tarixçi Təbərinin yazdığına görə, o, "Azərbaycana gəldikdən dərhal sonra özünü müstəqil elan edib, xilafətə tabe olmaqdan boyun qaçırdı."[570] Lakin bəzi mənbələrdə qeyd edilir ki, Məhəmməd ibn Əbu Sac xəlifə ilə əlaqəsini tamamilə kəsə bilmir və tez-tez sazişə girməli olurdu.

Məhəmməd ibn Əbu Sac öz karyerasına xəlifə Mutəmidin dövründə Məkkə və Mədinə hakimi, Məkkə yolunun rəisi kimi başladı. Sonra o, Ənbar şəhərinin, bunun ardınca isə Mosulun hakimi təyin olundu.

[570] Tarixi-Təbəri, V cild.

Məhəmməd ibn Əbu Sac ona qarşı itaətsizlik edən Marağa hakimini məğlub edərək, şəhəri ələ keçirdi. Hicrətin 280-ci ilindən (miladi 893) başlayaraq o, bir neçə dəfə Ərməniyyəyə uğurlu səfərlər təşkil etdi, Naxçıvandan keçərək Dvin hasarlarına qədər çatdı və erməni hakimi I Sumbatın ailə üzvlərini və yaxın qohumlarını əsir götürdü. Qələbədən sonra Məhəmməd öz oğlu Divdadı Ərməniyyəyə hakim təyin edib, özü Gürcüstana gedərək, Tiflisi və digər şəhərləri talan etdi.

Nəhayət, hicrətin 288-ci ilində (miladi 901) Azərbaycanda yayılmış vəba xəstəliyi Məhəmmədin də həyatına son qoydu. İbn Əsir yazır: "901-ci ildə Azərbaycanda yayılan taun xəstəliyindən çoxlu insan tələf olmuşdu. Hətta ölənləri dəfn etmək və onlara kəfən tapmaq belə, mümkün deyildi."[571] Məhəmməd ibn Əbu Sacın ölümündən sonra hakimiyyətə oğlu Divdad gəldi. Lakin onun hakimiyyəti uzun çəkmədi. Həmin ilin avqustunda əmisi Yusif ibn Əbu Sac Divdadı hakimiyyətdən salıb özü xəlifənin Azərbaycan hakimi və canişini oldu.

Təbəristan hakimi Məhəmməd ibn Zeydin şəhadəti

Xəlifə Mütəzidin xilafəti dövründə hicrətin 287-ci ilində (miladi 900) Samani hökmdarı İsmail ibn Əhmədin (892-907) göndərdiyi qoşunla baş verən döyüşdə İmam Həsənin *(ə)* soyundan olan şiə məzhəbli Təbəristan hakimi Məhəmməd ibn Zeyd şəhid olmuşdur. O, xəlifə Müstəinin (862-866) dövründə xilafətə qarşı qiyam qaldırmış Həsən ibn Zeydin qardaşı idi.

Həsən ibn Zeydin (864-883) Amul şəhərində vəfatından (hicri 270/miladi 883) sonra hakimiyyəti ələ keçirən Məhəmməd ibn Zeyd (883-900) təqribən on yeddi il Təbəristan və Deyləm şiələrinin başçısı olmuşdur.

Xəlifə Əbul-Abbas Əhməd Mütəzid tarix kitablarında Əhli-beytə mülayim münasibət göstərən, seyidləri incitməyən, məsum imamların ruhuna, xüsusilə İmam Əlinin *(ə)* adına ehtiramla yanaşan xəlifə kimi xatırlanır. O hələ vəliəhdlik dövründə məhbəsdə olarkən, yuxuda Hz.Əlini *(ə)* görmüş və həzrət ona müraciət edərək belə buyurmuşdu: "Tezliklə hakimiyyət sənə keçəcək. Xəlifə olandan sonra mənim övladlarıma zülm etmə!". Mütəzid yuxuda bu tapşırığa əməl edəcəyinə söz vermiş və öz vədinə sadiq qalmışdır.

Miladi tarixi ilə 897-ci ildə (hicri 284) xəlifə Mütəzid, məscidlərdə xütbə oxuyarkən, Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyana lənət oxunması barədə göstəriş verdi. Lakin onun vəziri Ubeydullah ibn Süleyman bununla camaatın narazılığına səbəb ola biləcəyini və Hz.Əli *(ə)* övladlarının daha da güclənərək, hakimiyyət iddiasını artıracağını bəhanə gətirərək, onu bu əməlindən çəkindirdi.

Apardığı siyasət nəticəsində dövlət xəzinəsini doldurub, əyalətlərdə nisbi sakitlik yaradaraq, Abbasilər dövlətinin süqutunu azda olsa ləngidən Mütəzidə, bəzi tarixçilər II Səffah adını vermişlər.

---

[571] Tarixi ibn Əsir, VII cild.

Abbasi xəlifəsi Əbul-Abbas Əhməd Mütəzid hicrətin 289-cu ili rəbi-ül-axir ayının sonlarında (miladi 902) Bağdadda vəfat etmişdir. Vəfatından qabaq oğlu Əbu Məhəmməd Əlini özündən sonra vəliəhd təyin etmişdir.[572]

Xəlifə Mütəzidin şəxsiyyəti ilə əlaqədar daha ətraflı məlumat əldə etmək üçün bu mənbələrə müraciət edə bilərsiniz: Tarixi-Məsudi, IV cild, səh-231-275; Tarixi ibn Əsir, VII cild, səh-452-515; Siyuti, Tarixul-xüləfa, səh-368-375; Tarixi-Təbəri, V cild, səh-604-638.

Əbu Məhəmməd Əli Müktəfi hicri 289-295 (miladi 902-908)

Xəlifə Mütəzidin ölümündən sonra Abbasi məmurları hicrətin 289-cu ilində (miladi 902) mərhum xəlifənin oğlu Əbu Məhəmməd Əliyə "Müktəfi" ləqəbilə beyət edərək onu xəlifə təyin etdilər.

Müktəfi hicrətin 263-cü ili (miladi 877) xəlifə Mutəmidin xilafəti dövründə Samirədə anadan olmuşdur. O, Mütəzidin Çiçək adlı cariyəsi ilə izdivacından sonra dünyaya gəlmişdir. Müktəfi Hz.Əlidən *(ə)* sonra Əli adını daşıyan ilk xəlifə olmuşdur. Yeni xəlifə özünə vəzir olaraq Qasim ibn Vəhbi götürdü. Vəzifəsindən istifadə edən Qasim ibn Vəhb dərhal keçmiş xəlifənin xidmətçisi olan Bədri hiylə ilə yanına çağıraraq, hicrətin 289-cu ilində (miladi 902) onu edam etdirdi.[573] Çünki vaxtilə Mütəzidin sağlığında Qasim ibn Vəhb hakimiyyəti onun nəslindən alıb, Abbasilərin digər qoluna ötürmək istəyəndə, Bədr bu işin həyata keçməsinə mane olmuşdu. Olub-keçənlərin ortaya çıxmasından ehtiyat edən vəzir Qasim ibn Vəhb Bədri aradan götürdü.

Bədrin ölümündən dərhal sonra onun intiqamını almaq üçün İshaq Fərğani xilafətə qarşı qiyam qaldırdı. Lakin xəlifənin göndərdiyi ordu İshaq Fərğanini məğlub edərək qiyamı yatırmışdır.

Hicrətin 291-ci ilində (miladi 904) vəzir Qasim ibn Vəhbin vəfatından sonra Abbas ibn Həsən Müktəfinin vəziri təyin edildi. Əvvəlki vəzirin xatirəsini əziz tutan xəlifə Müktəfi, onun qızını öz oğlu Əbu Əhməd Məhəmməd üçün aldı.

Tulunilər dövlətinin süqutu

Misir, Şam və əl-Cəzirə torpaqlarında hakimlik edən Tulunilər dövləti öz adın Buxaradan Bağdada göndərilmiş Əhməd ibn Tulun (868-884) adlı türk qulamdan alır.

Onun ölümündən sonra hakimiyyətə gələn oğlu Xumaraveyh (884-896) xəlifə Mütəzidlə (892-902) hicrətin 289-cu ilində (miladi 892) bağladığı müqaviləyə əsasən, iri məbləğdə vergi ödəmək şərti ilə Misir, Şam və Şimali Mesopotamiya ərazilərinə hakim oldu. Bu anlaşma Xumaraveyhin ölümünə qədər qüvvədə qalmış, onun ölümündən sonra isə xələfləri vergini ödəməkdən imtina etmişlər.

---

[572] Tarixi-Təbəri, V cild, səh-638.

[573] Tarixi ibn Əsir, VII cild, səh-517-519; Nuri Ünlü, İslam Tarihi, I cild, səh-284.

Miladi tarixilə 902-ci ildə (hicri 289) Abbasi xəlifəsi təyin edilən Müktəfi Misir, Şam və əl-Cəzirədə hökmranlıq edən Tulunilərin hakimiyyətinə son qoymaq qərarına gəldi. Bu məqsədlə xəlifə Müktəfi hicrətin 291-ci ilində (miladi 904) Məhəmməd ibn Süleymanın başçılığı altında olan böyük bir ordunu Misir bölgəsinə göndərdi. Miladi tarixilə 905-ci ildə Misirin paytaxtı Fustat şəhəri yaxınlığında baş verən döyüşdə Tuluni sərkərdəsi öldürüldü və bununla da xilafət ordusu qalib gəldi. Sülalənin sağ qalanları Bağdada əsir kimi göndərildilər.

Tulunilərin süqutundan sonra Misir bölgəsində İbrahim Xəlici adlı bir şəxs xilafətə qarşı üsyan edərək Misir torpaqlarını ələ keçirdi. Bundan narahat olan xəlifə Müktəfi böyük bir ordunu Misir bölgəsinə göndərdi. Hicrətin 293-cü ili rəcəb ayında (miladi 906) baş verən döyüşdə məğlub olan İbrahim Xəlici əsir kimi Bağdada göndərildi.

Qərmətilərlə müharibələr

Müktəfi xilafəti boyunca qərmətilərlə xeyli müharibələr aparmışdır. Qərməti hərəkatı xəlifə Mütəzidin dövründən başlamışdır. Mütəzidin dövründəki qərməti təzahürləri əsasən, Kufə ətrafında müşahidə edilirdisə, indi onların səsi Suriya və İraq səhralarından gəlirdi. Əvvəlcə onların başçısı Zikrəveyhin iki oğlu Yəhya və "Xallı" ləqəbli Hüseyn, daha sonra isə özü bəzi ərəb qəbilələri ilə birləşərək, ticarət yollarında ciddi təhlükə yaratdılar. Qərmətilərlə baş verən döyüşlərdə minlərlə xilafət əsgəri qətlə yetirildi. Miladi tarixilə 904-cü ildə (hicri 291) Bağdada gətirilmiş "Xallı" və silahdaşlarının əvvəlcə əlləri sonra isə ayaqları kəsildi.[574]

Eyni vaxtda xəlifə Müktəfi Fars bölgəsini ələ keçirən Samanilərə qarşı da mübarizə aparırdı. (Qərmətilər və Samanilər haqqında ətraflı məlumat veriləcək).

Bizansla aparılan müharibələr

Xəlifə Müktəfinin dövründə Bizansla aparılan müharibələrdə nisbətən fasilə yaranmışdır. Bizansla münasibətləri gərginləşdirmək istəməyən xəlifə sülhü qorumağa çalışırdı. Onun hakimiyyəti dövründə Bizansla xilafət arasında bir neçə dəfə əsir mübadiləsi baş tutmuşdur.

Miladi tarixilə 903-cü ildə (hicri 290) Bizans imperatoru VI Levin (886-912) təklifi ilə müsəlmanlarla Bizans arasında növbəti əsir mübadiləsinə hazırlıq görülməyə başlandı.

Lakin növbəti ilin şəban ayında (miladi 904) yüz min nəfərlik Bizans ordusu sərhəd bölgələrinə hücum edərək, qətl-qarət törətdikdən sonra xeyli əsirlə geri qayıtdı. Buna cavab olaraq Bizansa yürüş edən müsəlmanlar Antakya şəhərini fəth etdilər. Bu yürüş nəticəsində beş min nəfər Bizanslı öldürüldü, bir o qədəri də əsir götürüldü. Antakya fəthi müsəlman ordusunun ən böyük qələbələrindən hesab edilir.

---

[574]Tarixi-Təbəri, V cild, səh-642-643; Tarixi ibn Əsir, VII cild, səh-530-532, 541-551; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-275.

Hicrətin 292-ci ilində (miladi 904) Andronikin başçılığı altında Mərəş şəhərinə hücum edən Bizans ordusu xeyli müsəlmanı qılıncdan keçirdi. Həmin ilin şəban ayında (miladi 905) Bizansla müsəlmanlar arasında növbəti əsir mübadiləsi baş tutdu. Bu mübadilə nəticəsində 1500 nəfərə yaxın müsəlman əsirlikdən azad edildi.

Hicrətin 293-cü ilində (miladi 906) bizanslıların növbəti hücumu nəticəsində xeyli müsəlman qılıncdan keçirildi. Buna cavab olaraq xilafət ordusu da Bizansa qarşı yürüşə başladı. Tarsus şəhərindən başlayan hərbi əməliyyatlar nəticəsində beş min nəfər bizanslı əsir götürüldü. Bizans sərkərdəsi Andronik aman istəyib təslim oldu və əlində olan müsəlman əsirləri də təhvil verdi. Konya qalasını ələ keçirən müsəlmanlar başda Andronik olmaqla, bütün əsirləri götürüb Tarsusa qayıtdılar.

Hicrətin 294-cü ilində (miladi 908) müsəlmanlarla Bizans arasında baş tutan əsir mübadiləsi nəticəsində üç min nəfərdən artıq müsəlman əsirlikdən azad edildi.

Xəlifə Əbu Məhəmməd Əli Müktəfi hicrətin 295-ci ili zilqədə ayının 12-də (miladi 908) Bağdadda vəfat etdi. Xilafəti dövründə Rəhəbə şəhərindəki came məscidini və Bağdadda Şatibiyyə sarayını tikdirmişdir.[575]

Əbul-Fəzl Cəfər Müqtədir hicri 295-320 (miladi 908-932)

Müktəfinin ölümündən sonra Abbasi məmurları onun kiçik qardaşı Əbul-Fəzl Cəfər ibn Mütəzidə hicrətin 295-ci ilində (miladi 908) beyət edərək onu xəlifə təyin etdilər. Yeni xəlifə özünə "Müqtədir" ləqəbini götürdü. O hicrətin 282-ci ili (miladi 895) Mütəzidin Şəğab adlı kənizlə izdivacından sonra Bağdadda anadan olmuşdur.

Müqtədirin xəlifə seçilməsində vəzir Abbas ibn Həsənlə, İbn Füratlar nəslinə mənsub Əbul-Həsən Əli ibn Məhəmmədin rolu böyük olmuşdur. Çünki xəlifənin azyaşlı olması, onlara dövləti istədikləri kimi idarə etməyə imkan verəcəkdi.

Xəlifə Müqtədirin dövründə saray əyanları arasında dörd nəfər müstəsna nüfuza və gücə sahib idi. Bunların birincisi xəlifənin dayısı, ordu komandanı Ğərib-ül-xal idi ("xal" sözü dayı mənasını verir).

İkincisi olan Nəsr qoşunun əyalət birlikləri bölümünün ("əsgər-üd-dun") rəhbəri idi. Ona "əmir-ül-möminin bəndəsi" ləqəbi verilmişdi.

Digər iki nəfərin adı Munis idi. Bunları bir-birindən fərqləndirmək üçün birinə "Munisi-fəhl" (igid), o birinə isə "Munisi-xəsiyy" (kosa, saqqalsız) və ya "Munisi-müzəffər" (qalib) ləqəbi vermişdilər. Bunlar polis birliklərinə (şurtə) və xüsusi təyinatlı qoşun hissələrinə (xassə) başçılıq edirdilər. Hicrətin 301-ci ilində (miladi 914) Munisi-fəhl vəfat etdikdən sonra şurtə rəisliyində bir neçə nəfər çalışmış, nəhayət, hicrətin 310-cu ilində (miladi 922) bu vəzifəyə türk mənşəli Nazuk təyin olunmuşdur.[576]

---

[575] Tarixi-Təbəri, V cild, səh-670; Tarixi ibn Əsir, VIII cild, səh-8.

[576] Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-279.

Əbu Abdullah Məhəmməd ibn Mutəmidin xəlifə elan olunması

Bir araya gələn saray əyanları və qazilər sonda belə qərara gəldilər ki, xəlifə Müqtədiri hakimiyyətdən salıb, yerinə Əbu Abdullah Məhəmməd ibn Mutəmidi (və ya Abdullah ibn Mütəzzi) xəlifə təyin etsinlər. Xəlifənin vəziri Abbas ibn Həsən də onlarla bir cəbhədə idi. Bu arada Abbas ibn Həsən fikrini dəyişərək onlardan ayrıldı. Sirrin farş olmasından qorxuya düşən sui-qəsdçilər, vəziri aradan götürmək qərarına gəldilər. Bu işi Hüseyn ibn Həmdan və sərkərdə Vəsif ibn Səbuktəkin öz öhdələrinə götürdülər. Məhz bu iki nəfər hicrətin 296-cı ilində (miladi 908) vəzir Abbas ibn Həsəni qətlə yetirdilər.

Növbəti gün qiyamçılar Əbu Abdullah Məhəmməd ibn Mutəmidi xəlifə elan edərək, ona "Mürtəza" ləqəbini verdilər. Lakin onun xilafəti cəmi bircə gün davam etdi. Munisi-fəhl və Munisi-xəsyyin başçılığı altında olan xəlifə Müqtədirin tərəfdarları qiyamçıları məğlub etdi və Əbu Abdullah Məhəmməd ibn Mutəmid öldürüldü.[577]

Müqtədirin həyata keçirdiyi daxili siyasət

Vəzir Abbas ibn Həsənin ölümündən sonra xəlifə Müqtədir düşünmədən hicrətin 296-cı ilində (miladi 908) İbn Furat nəslinə mənsub Əbul-Həsən Əli ibn Məhəmmədi özünə vəzir seçdi. Bu kürsüyə yiyələnmək uğrunda İbn Furat nəsli ilə İbn Cərrah nəsli arasında ciddi mübarizə gedirdi. İbn Furat nəsli şiə məzhəbinə bağlı idi.

Xəlifə Müqtədirin İbn Furat nəslindən vəzir seçməsinin əsas səbəblərindən biri bu idi ki, əks tərəf yəni, İbn Cərrah nəsli dövlət çevrilişi zamanı Əbu Abdullah Məhəmməd ibn Mutəmidi dəstəkləmiş, hətta İbn Mutəmid bir günlük xilafətində bu nəsildən olan Məhəmməd ibn Davudu özünə vəzir götürmüşdü.

İbn Furat xilafətin iqtisadiyyatını və məhsuldarlığını artırmaq üçün bəzi islahatlara əl atdı. Lakin onun həyata keçirdiyi islahatlar öz bəhrəsini vermədiyi üçün o, hicrətin 299-cu ilində (miladi 912) vəzifəsindən kənarlaşdırıldı.

Onun yerinə Məhəmməd ibn Ubeydullah Xaqani vəzir təyin edildi. Vəzir Məhəmməd qoca olduğundan onun vəzifələrini oğlu Abdullah yerinə yetirirdi. Lakin onlarında hakimiyyəti uzun çəkmədi. Rüşvətxorluqda günahlandırılan ata və oğul on üç aydan sonra hicrətin 301-ci ilində (miladi 913-914) vəzifələrindən uzaqlaşdırılaraq həbsə atıldılar.

Bu dəfə Minisi-xəsiyyin təşəbbüsü ilə İbn Cərrah nəslindən olan Əli ibn İsa xəlifə Müqtədirin vəziri təyin edildi. Dövlətin iqtisadiyyatını dirçəltmək üçün fərqli tədbirlərə əl atan Əli ibn İsa, ticarəti bəzi vergilərdən azad etdi, idxalat və ixracatda nəzərdə tutulmuş bir neçə vergi növünü aradan qaldırdı.

Bu arada xilafətin qərb sərhədlərini Fatimilər (909-1171) narahat edirdi. Onlar hicrətin 303-cü ilində (miladi 915) Trablisi mühasirəyə alıb, İsgəndəriyyəyə basqın etdilər. Fatimilərin qarşısını almağı öhdəsinə götürən Munisi-xə-

[577]Tarixi-Təbəri, V cild, səh-670-672; Tarixi ibn Əsir, VIII cild, səh-14-19.

siyy onları Misir sərhəddindən qovub çıxardı. Bunun ardınca Həmdanilər (903-1003) əl-Cəzirə bölgəsində qarışıqlıq saldılar və Munis onlara qarşı döyüşə getdi. Qazandığı qələbələrə görə Munisə "müzəffər" (qalib) ləqəbini verdilər. Eyni vaxtda qərmətilərlə danışıqlar aparan vəzir, onlarla sərfəli şərtlər əsasında barışıq imzaladı.

Hərbi əməliyyatlara çoxlu vəsait sərf olunduğu üçün vəzirin təlimatları əsasında məmurların məvacibi azaldıldı, zəruri olmayan xərclərin qarşısı alındı. Məmurların narazılığına səbəb olan bu təlimatlar nəticəsində Əli ibn İsa hicrətin 304-cü ilində (miladi 917) vəzifəsindən uzaqlaşdırıldı.

Ondan sonra vəzirlik yenə də İbn Furat nəslindən olan Əli ibn Məhəmmədə verildi. Lakin bu dəfə də işlərində uğur qazanmayan Əli ibn Məhəmməd hicrətin 306-cı ilində (miladi 918) vəzifəsindən kənarlaşdırıldı və onun yerini İbn Cərrah nəslindən olan Hamid ibn Abbas tutdu. Hamid ibn Abbas vəzir olsa da, onun əsas məsləhətçisi yenə Əli ibn İsa Cərrahi idi. Əli ibn İsa əvvəldə olduğu kimi, məsrəfləri azaltmaq və iqtisadiyyatı dirçəltmək istiqamətində iş aparmağa başladı.

Hicrətin 310-cu ilində (miladi 923) Müqtədirin xilafəti dövründə məşhur tarixçi və Quran təfsirçisi Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri vəfat edərkən, onun dəfn mərasimi adına yaraşmayan şəkildə keçdi. Bunun səbəbi isə Təbərinin hənbəlilərlə münaqişədə olması idi.

Hamid ibn Abbas və Əli ibn İsa xilafəti böhrandan çıxara bilmədikləri üçün onların yerinə hicrətin 311-ci ilində (miladi 923) üçüncü dəfə Əli ibn Məhəmməd Furati vəzir təyin edildi. Əli ibn Məhəmməd vəzirliyə keçən kimi, oğlu Möhsini özünə köməkçi götürdü. Lakin bu dəfə də işləri düz gətirməyən Əli ibn Məhəmməd oğlu ilə birlikdə həbs edildi. Onların əlindən yanıqlı olan Munis, Nəsr və Nazukun təhriki ilə xəlifə Müqtədir Əli ibn Məhəmməd Furati ilə oğlu Möhsini edam etdirərək, kəsik başlarını Dəclə çayına atdırdı.

Bundan sonra vəzirlik Abdullah ibn Məhəmməd ibn Ubeydullah Xaqaniyə verildi. Lakin onunla yola getməyən "əsgər-üd-din" bölümünün rəhbəri Nəsrin vasitəçiliyi ilə on səkkiz ay sonra vəzifəsindən azad edildi və onun yerinə Əhməd ibn Ubeydullah Xəsibi vəzir təyin edildi. Sərvət sahibləri ilə yola getməyən Əhməd ibn Ubeydullah Xəsibi də on dörd ay sonra vəzifəsini itirdi.

Nəhayət, hicrətin 315-ci ilində (miladi 927) yenidən Əli ibn İsa Cərrahi vəzir təyin edildi. Bu dəfə Əli ibn İsanın on üç aylıq vəzirliyi müddətində heç kim incidilmədi, heç kəsin əmlakı nahaq yerə əlindən alınmadı.

Miladi tarixilə 928-ci ildə (hicri 316) xəlifənin dayısı Ğərib-ül-xalın israrı ilə İbn Müqlə vəzir təyin edildi. Həddən artıq bacarıqlı olan İbn Müqlə qısa müddət ərzində hökumət işlərini öz əlində cəmləşdirdi.

Bu ilin həcc müvsümündə (miladi 929) Məkkəyə hücum edən qərmətilər Kəbənin divarındakı Həcərül-əsvədi (Qara daşı) götürüb, özləri ilə Bəhreynə apardılar və Həcərül-əsvəd iyirmi ildən artıq onların əlində qaldı (Bu haqda geniş məlumat veriləcək).

Məhəmməd ibn Mütəzidin xəlifə təyin edilməsi

Xəlifə Müqtədir, şürtə rəisliyinin rəhbəri Nazukun yaxınlarının bəzilərini vəzifədən kənarlaşdırdı. Xəlifənin bu hərəkəti ilə barışmayan Nazuk ona qarşı çevriliş etmək qərarına gəldi. Bu barədə ilk öncə Munisi-müzəffərlə məsləhətləşən Nazuk ona dedi ki, guya xəlifə Munisi ordu komandanlığından uzaqlaşdırıb, öz dayısı oğlu Harun ibn Ğəribi bu vəzifəyə təyin etmək istəyir. Deyilənlərə inanan Munisi-müzəffər qiyamçılara qoşuldu. Onlar xəlifə Müqtədirin qardaşı Məhəmməd ibn Mütəzidi xəlifə elan edərək, ona "Qahir" ləqəbini verdilər (gələcək xəlifə Qahir).

Bundan sonra qiyamçılar Nazukdan həm məvaciblərinin artırılmasını, həm də bir neçə aylıq məvacibin qabaqcadan verilməsini tələb etdilər. Əsgərlərin tələbini yerinə yetirə bilməyən Nazuk hicrətin 317-ci ilində (miladi 929) onlar tərəfindən öldürüldü. Sonra əsgərlərin tələbilə Müqtədir yenidən hakimiyyətə gətirildi. Lakin tələb edilən məvacibi almayınca paytaxtı tərk etmək istəməyən əsgərlər, sarayın yaxınlığında düşərgə qurdular. İyirmi min nəfərdən ibarət bu ordu həm Bağdad əhalisini incidir, həm də yersiz müraciətlərlə dövlət adamlarını narahat edirdilər. Bir neçə dəfə xəbərdarlıqdan sonra Bağdadın yeni şürtə rəisi onların üzərinə qoşun yeritdi. Hicrətin 318-ci ilində (miladi 930) baş verən döyüşdə qalib gələn xilafət qüvvələri qiyamçıları paytaxtdan çıxardılar.

Həmin ilin ortalarında vəzifəsindən azad edilən İbn Müqlənin yerinə Əbul-Qasim Süleyman ibn Həsən Cərrahi vəzir təyin edildi. Bu arada Nazukun başçılığı altında çevriliş etmək istəyən əsgərlərlə xilafət qüvvələri arasında yenidən qarşıdurma baş verdi. Vasit kənarında düşərgə quran qiyamçıların üzərinə Munisi-müzəffər göndərildi. Hicrətin 318-ci ilində (miladi 930) də xilafət ordusu qalib gəldi və qiyamçıların başçısı əsir götürüldü.

Munisi-müzəffərin israrı ilə Nazukun yerinə təyin olunmuş Bağdadın yeni şürtə rəisi Yaqut vəzifəsindən kənarlaşdırıldı. Bununla da kifayətlənməyən Munisi-müzəffər hicrətin 319-cu ili (miladi 931) xəlifədən tələb etdi ki, Yaqutu ümumiyyətlə, paytaxtdan çıxarsın. Lakin xəlifə onun tələbini yerinə yetirmədi. Bundan əlavə Munisə xəbər çatdırdılar ki, Yaqut onu aradan götürmək üçün xəlifənin razılığını alıb. Baş verən hadisələrdən narahat olan Munisi-müzəffər əsgərlərini toplayaraq, Bağdadın girəcəyində düşərgə saldı.

Vəziyyətin gərginləşdiyini görən xəlifə Müqtədir Munisin tələbini yerinə yetirərək, Yaqutu ailə üzvləri ilə birlikdə Bağdaddan çıxardı. Bunu öyrənən Munis də əsgərləri ilə birlikdə şəhərə qayıtdı.

Bu ilin rəcəb ayında vəzifəsinin öhdəsindən gələ bilməyən Əbul-Qasim Süleyman ibn Həsən vəzirlikdən kənarlaşdırıldı və onun yerinə Əbul-Qasim Ubeydullah ibn Məhəmməd Kəlvazi vəzir təyin edildi. Lakin bu tədbir də hakimiyyət böhranını aradan qaldıra bilmədi. Yeni vəzir cəmi iki aydan sonra vəzifəsindən kənarlaşdırıldı. Bu dəfə çoxdan bəri vəzirlikdə gözü olan Əbul-Camal Hüseyn ibn Qasim vəzir təyin olundu.

Sarayda baş verən hadisələrdən narahat olan Munisi-müzəffər hicrətin 320-ci ilində (miladi 932) bir daha ordusunu toplayaraq, Bağdad kənarında düşərgə saldı.

Munisi-müzəffərin özbaşınalığından cana doymuş xəlifə Müqtədir də tabeliyində olan əsgərləri döyüşə hazırladı. Xəlifənin dayısı oğlu Harun ibn Ğərib, Yaqut, vəzir Əbul-Camal da xəlifənin tərəfində idilər. Xilafət ordusunun çoxluğundan qorxuya düşən bəzi əsgərlər Munisi-müzəffəri tərk edərək xəlifənin tərəfinə keçdilər.

Ətrafında iki min nəfər qalan Munis Mosula doğru hərəkət etdi. Lakin Mosul valisi olan Həmdanilər (903-1003) Munisi öz torpaqlarına buraxmaq istəmədilər. Hicrətin 320-ci ilində (miladi 932) Həmdanilərlə Munis arasında baş verən döyüşdə qalib gələn Munis Mosulu ələ keçirdi. Mosulun fəthindən sonra ətraf məntəqələr də bir-bir onun ixtiyarına keçirdi.

Bu arada Əbul-Camalın yerinə İbn Furat soyuna mənsub Fəzl ibn Cəfər vəzir təyin edildi. O, Munisi-müzəffərlə görüşərək onu Bağdada dəvət etdi. Fəzli bu hərəkətə təhrik edən əsas səbəb paytaxtda başlayan narazılıq dalğaları idi. Sərhəd bölgələrinin bəzi sakinləri Bağdada gələrək, onların başına gətirilən müsibətləri camaata danışdılar.

Vəziyyətin onun xeyrinə dəyişdiyini anlayan Munis hicrətin 320-ci ilində (miladi 932) Mosuldan çıxıb Bağdada doğru hərəkət etdi. Şəhər kənarına çatdıqda xəlifəyə xəbər yollayıb, barış niyyətilə gəldiyini ona bildirdi.

Lakin saray əyanlarının təhrikilə ordusunu toplayan Müqtədir Munislə döyüşə başladı. Hicrətin 320-ci ilində (miladi 932) baş verən döyüşdə xilafət ordusu məğlub edildi. Döyüşçülər tərəfindən edam olunan xəlifə Müqtədirin kəsik başı Munisi-müzəffərin hüzuruna gətirildi. Munisin göstərişindən sonra kəsik başı bədənlə birlikdə dəfn etdilər. Xəlifə Əbul-Fəzl Cəfər Müqtədir öldürülərkən otuz səkkiz yaşı var idi.[578]

Təbəristan hakimi Utruş

Hicrətin 287-ci ilində (miladi 900) Samanilərə qarşı baş verən döyüşdə Məhəmməd ibn Zeydin şəhadətindən sonra onun yerini "Utruş" (kar) ləqəbli Həsən ibn Əli ibn Həsən ibn Əli ibn Öməri-şərif ibn Səccad *(ə)* tutdu. Eşitmə qabiliyyəti zəif olduğu üçün ona bu ləqəb verilmişdi.

Bir müddət Gilan və Deyləmdə camaat arasında İslam dinini və şiəliyi təbliğ edən Utruş, kifayət qədər tərəfdar topladıqdan sonra hicrəti 301-ci ilində (miladi 913-914) Təbəristana doğru hərəkət etdi.

Baş verən döyüşdə Samaniləri məğlub edən Utruş Təbəristanın əsas şəhəri olan Amulu ələ keçirdi. Bunun ardınca bütün Təbəristan torpağı və hətta Cürcanda ona tabe oldu. Utruş məşhur şiə alimləri seyid Mürtəza və seyid Rəzinin ana tərəfdən ulu babasıdır.

---

[578]Tarixi ibn Əsir, VII cild, səh-237-244.

Təbəristan hökmdarı "Utruş" ləqəbli Həsən ibn Əli hicrətin 304-cü ilində (miladi 916-917) yetmiş doqquz yaşında Təbəristanın Amul şəhərində vəfat etmişdir.

Müqtədirin hakimiyyəti dövründə onlarla möhtərəm seyid həlak olmuşdur. Bunların bir qismi hökumət qüvvələri tərəfindən, bir qismi də ayrı-ayrı qruplaşmalar tərəfindən qətlə yetirilmişdir.

Azərbaycan valisi Yusif ibn Əbu Sac

Divdad ibn Məhəmmədi devirib hakimiyyəti ələ alan Yusif ibn Əbu Sac xilafət xəzinəsinə xərac verməli idi. O hakimiyyəti ələ keçirən kimi xilafətdən ayrılmaq üçün cəhd göstərdi. Ərməniyyəni və Gürcüstanı ələ keçirərək, mötəbər istehkam və qalalarını dağıtdı. Hicrətin 301-ci ilində (miladi 914) dəfələrlə andı pozan Ərməniyyə hakimi I Sumbatı Dvində ələ keçirərək edam etdirdi. Beləliklə, Yusif ibn Əbu Sac hicrətin 302-ci ilinə kimi (miladi 915) Azərbaycanda və Ərməniyyədə öz hakimiyyətini möhkəmləndirə bildi. Dövlətin ərazisi qərbdə Ani və Dvin şəhərlərinə, şərqdə Xəzər dənizinə qədər, cənubda Zəncan, şimalda Dərbəndə qədər uzanırdı.

Yusif ibn Əbu Sac hər il xilafətə yüz iyirmi min dinar xərac verirdi. O, hicrətin 299-cu ilində (miladi 912) İbn Furat nəslinə mənsub Əli ibn Məhəmmədin vəzirlikdən çıxarılmasından sonra Bağdada xərac göndərməyi dayandırdı. Bu hadisə xilafətlə Sacilər arasında müharibəyə səbəb oldu. Hicrətin 305-ci ilində (miladi 918) baş verən döyüşdə Yusif ibn Əbu Sac yeddi min nəfərlik ordu ilə Xaqan ibn Müflihin başçılığı altında olan xilafətin iyirmi min nəfərlik ordusunu məğlub etdikdən sonra Reyə qayıtdı.

Bundan narahat olan xəlifə Müqtədir hicrətin 306-cı ilində (miladi 919) məşhur sərkərdə Munisi-müzəffəri Yusif ibn Əbu Sacın üzərinə göndərdi. Lakin baş verən ilk döyüşdə Yusif ibn Əbu Sac bir daha xilafət ordusunu məğlub etdi. Məğlubiyyətlə barışmayan Munisi-müzəffər yenidən böyük bir ordu toplayaraq, həmin ilin səfər ayında (miladi 919) Ərdəbil yaxınlığında baş verən döyüşdə Yusif ibn Əbu Sacın ordusunu məğlub edərək, özünü əsir kimi xilafətin paytaxtı Bağdada gətirdi. O üç il xəlifənin zindanında saxlanıldı.

Bu müddət ərzində onun nökəri Səbuk Azərbaycanda bütün ixtiyarı öz əlinə alaraq, Yusifin mübarizəsini davam etdirdi. Minisi-müzəffərin göndərdiyi ordu Səbuk tərəfindən məğlub edildi. Xəlifə Müqtədir onu tabe olmağa çağırdıqda, o, Yusif azad edilməyincə, təslim olmayacağını bildirdi.

Sonda Səbukun istəyini qəbul edən xəlifə Müqtədir hicrətin 310-cu ilində (miladi 922) Yusif ibn Əbu Sacı həbsdən azad edərək, Azərbaycan, Ərməniyyə, Rey, Zəncan və Qəzvinin valisi təyin etdi. Lakin Yusif ibn Əbu Sac bunun müqabilində xəzinəyə hər il beş yüz min dinar xərac verməli idi.

Azərbaycana gələn Yusif ibn Əbu Sac bu vilayətləri özünə tabe etdikdən sonra Həmədanı da ələ keçirdi. Yusifin getdikcə artan nüfuzu Bağdadda xəlifə sarayına rahatlıq vermirdi. Ona görə də xəlifə Müqtədir Yusifi aradan götür-

mək məqsədilə hicrətin 314-cü ilində (miladi 926) onu qərmətilər əleyhinə döyüşən xilafət ordularından birinin komandanı təyin etdi.

Hicrətin 315-ci ilində (miladi 927) qərmətilərə qarşı baş verən döyüşdə ordusu məğlub edilən Yusif ibn Əbu Sac əsir edilərək, edam edildi.

Yusif ibn Əbu Sacın ölümündən sonra hakimiyyət əldən-ələ keçdi. Onun sərkərdəsi Deysəm ibn İbrahimin dövründə Azərbaycan yenidən müharibə meydanına çevrildi. Hicrətin 331-ci ilində (miladi 942) Sacilər (889-942) sülaləsini hakimiyyətdə Salarilər əvəz etdi.

Əbu Mənsur Məhəmməd Qahir hicri 320-322 (miladi 932-934)

Xəlifə Əbul-Fəzl Cəfər Müqtədirin qətlindən sonra Abbasi məmurları hicrətin 320-ci ilində (miladi 932) Əbu Mənsur Məhəmməd ibn Mütəzid ibn Təlhə ibn Mütəvəkkilə beyət edərək onu xəlifə təyin etdilər. Yeni xəlifə özünə "Qahir" ləqəbini götürdü. O, hicrətin 285-ci ilində (miladi 897) Mütəzindin Qəbul adlı kənizlə izdivacından sonra Bağdadda anadan olmuşdur.

Hakimiyyəti ələ keçirən xəlifə Qahir ilk olaraq, keçmiş xəlifə Müqtədirin anasını, xanımlarını və uşaqlarını həbs etdirərək onların mallarını müsadirə etdi. Ağır işgəncələrdən sonra keçmiş xəlifə Müqtədirin anası seyidə hicrətin 320-ci ilində (miladi 932) dünyasını dəyişdi.[579] Yeni xəlifə qan tökməyə həris, kobud və qəddar təbiətə malik bir şəxs olmuşdur.

Qahir Müqtədirin dövründən qaçıb gizlənən İbn Müqləyə aman verib, bütün əmlakını özünə qaytardıqdan sonra onu özünə vəzir təyin etdi. Tezliklə saraydakı mövqeyini bərpa edən İbn Müqlə dövlət idarəçiliyini öz əlinə aldı.

Xəlifə Qahir olsa da xilafəti əslində iki nəfər İbn Müqlə və Munisi-müzəffər idarə edirdi. Onların təsirindən qurtulmaq istəyən Qahir hicrətin 321-ci ilində (miladi 932) dövlət vəzifələrinə yeni şəxslər gətirdi. Xəlifənin bu hərəkətini narazılıqla qarşılayan İbn Müqlə ilə Munisi-müzəffər birləşərək onun əleyhinə çevriliş etməyə hazırlaşdılar. Onlar Qahiri xilafətdən salaraq onun yerinə Əbu Əhməd ibn Müktəfini xəlifə təyin etmək istəyirdilər.

Onların planından xəbər tutan Qahir Munisi-müzəffəri edam etdirsə də, İbn Müqlə qaçıb gizləndi. İbn Müqlə ilə Munisi-müzəffərin əmlakını müsadirə edən xəlifə onu məvacib tələb edən əsgərlərin arasında paylayaraq, onları razı saldı. Əbu Əhməd ibn Müktəfini isə Qahirin əmri ilə bir otağa salıb, qapısını hördülər.

Xəlifə Qahirin hakimiyyətdən salınması

Xəlifə Qahiri hakimiyyətdən salmaq fikrindən əl çəkməyən İbn Müqlə qısa müddət ərzində saray xadimlərinə yol taparaq, onların bir çoxunu öz tərəfinə çəkə bildi. İbn Müqlənin təhriki ilə hicrətin 322-ci ilində (miladi 934) sui-qəsdçilər gecəyarı Qahirin otağına daxil olaraq, sərxoş xəlifədən tələb etdilər ki, hakimiyyətdən istefa versin. Sonra Qahirin gözlərinə mil çəkərək onu kor etdilər. Gözlə-

[579]Tarixi ibn Əsir, VIII cild, səh-244-246; Nuri Ünlü, İslam Tarihi, I cild, səh-285.

rini itirən xəlifə on bir il həbsdə qaldıqdan sonra hicrətin 333-cü ilində (miladi 944-945) xəlifə Müstəkfi tərəfindən azadlığa buraxıldı. Qalan ömrünü dilənçiliklə başa vuran Qahir hicrətin 339-cu ilində (miladi 950) Bağdadda vəfat etdi.[580]

Bu günə qədər xalq arasında dolaşan "Burda mənəm, Bağdadda kor xəlifə" atalar sözü məhz Qahirin acı taleyi barəsində yaranmışdır.

Əbul-Abbas Əhməd Razi hicri 322-329 (miladi 934-940)

Qahirin hakimiyyətdən salınmasından sonra Abbasi məmurları Əbul-Abbas Əhməd ibn Müqtədiri hicrətin 322-ci ilində (miladi 934) xəlifə elan edərək ona beyət etdilər. Yeni xəlifə özünə "Razi" ləqəbini götürdü. O, hicrətin 297-ci ilində (miladi 909-910) Müqtədirin Zəlum adlı kənizlə izdivacından sonra Bağdadda anadan olmuşdur.

Razi və Əhli-beyt

Əvvəlki xəlifələrdən fərqli olaraq Razinin Əhli-beytə münasibəti mülayim idi. O, Əhli-beytin haqqı olan Fədək bağlarını Hz.Fatimənin (s.ə) vərəsələrinə qaytardı. Fədəkin Hz.Fatimədən (s.ə) alınmasından Razinin dövrünədək bu bağ artıq onuncu dəfə idi ki, qəsb edilir və sahibinə qaytarılırdı. Belə ki, Müaviyə ibn Əbu Süfyan xilafəti dövründə Fədək torpaqlarını üç hissəyə bölüb, bir hissəsini Mərvan ibn Həkəmə, o biri hissəsini Əmr ibn Osmana, üçüncü hissəni isə oğlu Yezidə bağışladı. Sonralar o biri iki nəfərin payı da Mərvan ibn Həkəmin əlinə keçdi və Mərvan bütün Fədəki oğlu Əbdüləzizə hədiyyə etdi. Sonralar xəlifə olan Ömər ibn Əbdüləziz atasından ona qalmış Fədəki əsl sahiblərinə qaytardı. Sonrakı xəlifə II Yezid ibn Əbdülməlik (720-724) Fədəki yenidən qəsb etdi. Əməvilər xilafətinin sonuna qədər Fədək torpağı Mərvan ibn Həkəmin oğullarının əlində qaldı. Abbasilər hakimiyyətə gələndən sonra Fədək növbə ilə gah Hz.Fatimə (s.ə) soyuna qaytarılır, gah da geri alınırdı. Birinci xəlifə Əbul-Abbas Səffah (750-754) Fədəki Hz.Fatimə (s.ə) soyuna vermiş, ikinci xəlifə Mənsur Dəvaniqi (754-775) geri almışdır. Növbəti xəlifə Mehdi bu torpaqları Hz.Fatimənin (s.ə) nəslinə qaytarsa da, xəlifə Hadi yenidən qəsb etmişdir. Məmun (813-833) xilafəti dövründə yenidən Fədəki Hz.Fatimənin (s.ə) nəslinə qaytarsa da, xəlifə Mütəvəkkil (847-861) yenidən qəsb etmişdir. Fədəkin bundan sonrakı tarixi barədə məlumatlar fərqlidir. Razi hakimiyyətə gələndə Fədək yenə də öz sahiblərindən alınmışdı. Razi onuncu dəfə Fədəki Hz.Peyğəmbərin *(s)* nəslinə qaytarmışdı.[581]

Razinin hakimiyyəti XII imam Hz.Mehdinin (əc) kiçik qeybət dövrünün sonuna təsadüf edir. Altmış doqquz il (hicri 260-329/miladi 874-943) il davam

[580]Tarixi ibn Əsir, VIII cild, səh-248-264; Siyuti, Tarixul-xüləfa, səh-386-390.

[581]Şeyx Abbas Qummi, Tətimmətül-müntəha, səh-262-263; Əllamə Hilli, "Nəhcül-həqq və kəşg-üs-sidq, səh-357-358.

etmiş kiçik qeybət dövründə o Həzrət dörd nəfər seçilmiş şəxs vasitəsilə ümmətlə əlaqə saxlayırdı:

1. Əbu Əmr Osman ibn Səid Əmri
2. Əbu Cəfər Məhəmməd ibn Osman ibn Səid Əmri
3. Əbul-Qasim Hüseyn ibn Ruh Novbəxti
4. Əbul-Həsən Əli ibn Məhəmməd Səməri

"Naib" adlanan bu şəxslər Hz.Mehdi (əc) tərəfdarlarının suallarını imama çatdırır, onun buyurduğu cavabları da ünvanına çatdırırdılar.

Razinin xilafət dövrü üçüncü naib Əbul-Qasim Hüseyn ibn Ruh Novbəxtinin və dördüncü naib Əbul-Həsən Əli ibn Məhəmməd Səmərinin naiblik dövrünə təsadüf edir.

Həmin vaxt Əbu Cəfər Məhəmməd ibn Əli Şəlmağani üçüncü naibə həsəd apararaq özünü İmamın (əc) naibi, sonra isə imamın özü olduğunu söylədi. Daha sonra iddia etdi ki, Allah onda hulul etmişdir. Şəlmağani camaat arasında tənasüx və hulul (Allahın insanda həll olması) əqidələrini yayırdı. İş o yerə çatdı ki, Hz.Mehdi (əc) özü onu məktub vasitəsilə lənətlədi. Nəhayət, hicrətin 322-ci ilində (miladi 934) xəlifə Razinin əmri ilə Əbu Cəfər Məhəmməd ibn Əli Şəlmağani dar ağacından asılaraq öldürüldü.

Məhəmməd ibn Əli ibn Hüseyn Beyzavinin edamı hicri 328/miladi 940

"İbn Müqlə" ləqəbilə tanınan Məhəmməd ibn Əli ibn Hüseyn Beyzavi Şirazi dini və dünyəvi elmlərin mahir bilicisi sayılır, ədəbiyyatı, məntiq və bəlağəti, Quran elmlərini gözəl bilirdi. Onun əsas məharəti xəttatlıq idi. İbn Müqlə kufi xəttinin yazılış qaydaları üzərində dəyişiklik edərək yeni xətt növləri yaratmağa nail oldu. Bu gün müsəlman aləmində geniş yayılmış, Quran nüsxələrinin yazılışında ən çox istifadə edilən nəsx və süls xətləri İbn Müqlənin ixtirası sayılır. Qahirin taxtdan salınmasında xüsusi rolu olduğuna görə, Razi İbn Müqləni özünə vəzir təyin etmişdi. Onun mahir siyasətçi olması Razini çox narahat edirdi. İbn Müqlə hər an Raziyə qarşı sui-qəsd hazırlaya bilərdi. Bütün bunları nəzərə alan xəlifə Razi İbn Müqləni həbs etdirərək, hicrətin 328-ci ilində (miladi 940) edam etdirdi.

Əmir-ül-üməralığın yaradılması

Razinin xilafəti dövründə Misir və Şam bölgəsi İxşidilərin (935-969), əl-Cəzirə və Bizansla sərhəd bölgələr Həmdanilərin (903-1003), Şimali Afrika torpaqları Fatimilərin (909-1171), Xorasan və Mabəraun-nəhr Samanilərin (892-999), Fars vilayəti Büveyhilərin (932-1062), Bəhreyn və cənibi Ərəbistan qərmətilərin əlində idi. Əndəlusda Əməvi sülaləsindən olan xəlifələr hakimlik edirdilər. Xəlifə Razinin ixtiyarında Bağdad şəhəri və ətrafından başqa bir yer qalmamışdı. Miladi X əsrin birinci rübündə (hicri IV) müsəlman torpaqlarının müxtəlif qütblərində hökm sürən üç hakim özünü "əmir-ül-möminin" adlandırırdı. Bağdadda Razi, Əndəlusda Əməvilər sülaləsindən olan III Əbdürrəhman (912-961), Şimali Afrikada isə Fatimilərin sələfi əl-Qaim Ubeydullah Mehdi.

Xəlifə Razi hakimiyyətdə qalmasını təmin etmək üçün "əmir-ül-üməra" statusu təsis etdi. Əmir-ül-ümara məqamının sahibinə dövlət idarəçiliyində qeyri-məhdud səlahiyyətlər verilmişdi. Eyni zamanda bu məqama sahib olan şəxslər siyasi nüfuza, hərbi gücə və maliyyə imkanlarına sahib olmalı idi.

Tarixi mənbələrə əsasən, İslam tarixində bundan əvvəldə əmirül-üməralıq statusu mövcud olmuşdur. II xəlifə Ömər ibn Xəttab (634-644) İran cəbhəsində döyüşən ordunun başçısı Səd ibn Əbu Vəqqasa, Əməvi xəlifəsi I Yezid ibn Müaviyə (680-683) Məkkə üzərinə göndərdiyi sərkərdə Müslim ibn Əqəbəyə bu ləqəbi vermişdir. Xəlifə Müqtədir (908-932) öz sərkərdəsi və qohumu Haruna, xəlifə Qahir (932-934) isə Munisə eyni adı vermişdir. Bu xəlifələrin əta etdikləri əmirül-üməra adı yalnız ordunun baş komandanlığı vəzifəsi ilə məhdudlaşırdı.

Xəlifə Razinin dövründəki əmir-ül-üməra isə ordunun baş komandanı olmaqla yanaşı, baş vəzirdən də yüksəkdə dururdu, mühüm dövlət vəzifələrinə (hətta vəzirliyə) təyinatlar onun istəyi ilə həyata keçirilirdi, xəzinə gəlirlərinə nəzarət və xərclərin istiqaməti də ona tabe idi. Xütbələrdə xəlifədən sonra onun adına dua oxunurdu.

Razinin dövründə əmir-ül-üməranın ilk sahibi hicrətin 324-cü ilində (miladi 936) Bəsrə və Vasit valisi Məhəmməd ibn Raiq Xəzəri oldu. Razini İbn Raiqin tabeçiliyinə keçməyə məcbur edən amillərdən biri də Deyləm vilayəti tərəfindən Bağdadı hədələyən təhlükə idi. Hicrətin 322-ci ilində (miladi 934) Qəzvin valisinin sərkərdələrindən olan Mərdavic ibn Ziyar Deyləmi şəhərə hakim oldu. Rey, İsfəhan, Təbəristan, Cürcan və Həmədanı ələ keçirən Mərdavic Bağdada hücum edərək, Abbasiləri taxtdan salıb, Fars dövləti qurmaq istəyirdi. Onun ölümündən sonra onu qardaşı Vəşmgir əvəz etsə də, onun zəifliyindən istifadə edən Büveyhilər və Samanilər əlindəki torpaqların çox hissəsini ondan aldılar.

Bağdadı hədələyən daha bir təhlükə Əhvaz bölgəsini idarə edən Bəridilər tərəfindən gəlirdi. İbn Raiqin iki illik əmir-ül-üməralıq dövrü asan keçmədi. O hicrətin 326-cı ilində (miladi 938) Bəridilərlə döyüşməli oldu. Növbəti ildə isə İbn Raiq öz vəzifəsini Bəckəmə verdi.

Bəckəmin əmirlik müddəti dövründə Bağdadda qarışıqlıq və nizamsızlıq hökm sürürdü. Bir tərəfdən məvacib ala bilməyən əsgərlər camaatı soyub talayır, digər tərəfdən oğru və soyğunçular şəhərdə tüğyan edirdilər. Bəckəmdən xəlifəyə çoxlu sayda şikayətlər olunmasına baxmayaraq, heç bir müqavimət gücünə malik olmayan xəlifə onun əmirliyi ilə barışmağa məcbur idi. Bəckəmin səyləri nəticəsində Bəridilərin və Büveyhilərin Bağdadı ələ keçirmə cəhdlərinin qarşısı dəfələrlə alınmışdı.

Əbul-Abbas Əhməd Razi hicrətin 329-cu ilində (miladi 940) otuz iki yaşında vəfat etmiş və Rüsafədə dəfn edilmişdir. Razi şeir yazan və cümə günləri məsciddə xütbə oxuyan son Abbasi xəlifəsi olmuşdur.[582]

[582]Tarixi-Məsudi, 1385/1965, IV cild, səh-336-338; Tarixi ibn Əsir, VIII cild, səh-366-368.

Əbu İshaq İbrahim Müttəqi hicri 329-333 (miladi 940-944)

Razinin ölümündən sonra qardaşı Əbu İshaq İbrahim ibn Müqtədir xəlifə elan olunaraq Müttəqi ləqəbini aldı. O hicrətin 297-ci ilində (miladi 908) Müqtədirin Zöhrə adlı kənizlə izdivacından sonra dünyaya gəlmişdir.

Onun hakimiyyətinin ilk ili Bəckəmin əmir-ül-ümərалıq dövrünə düşür. Bəckəmin zəifləməsindən istifadə edən Bəridilər Razinin dövründə bağladıqları müqaviləni pozaraq (sülhə görə Vasit şəhəri Bəridilərə verilmişdi) hücuma keşdilər. Bəckəm onların üzərinə Tüzunu göndərdi. Lakin özü sui-qəsdçilər tərəfindən öldürüldü.

Bu arada Bəridilərlə bacara bilməyəcəyini görən Tüzun İbn Raiqin yanına getdi. Başsız qalan ordunun yarısı Bəridilərin tərəfinə keçdi. Əbu Abdullah Bəridi asanlıqla əvvəlcə Vasiti, sonra isə Bağdadı ələ keçirdi.

Əbu Abdullah Bəridi xəlifənin sərvətini ələ keçirib qaçdıqdan sonra türk mənşəli Kürtəkin özünü əmir-ül-üməra elan etdi. Xəlifə Müttəqi Kürtəkinin şərrindən qurtarmaq üçün İbn Raiqi Bağdada dəvət etdi. Hicrətin 330-cu ilində (miladi 942) Bağdada gələn İbn Raiq Kürtəkinin ordusunu məğlub edərək Bağdadı geri aldı.

Lakin az sonra Əbul-Hüseyn Bəridi böyük bir ordu ilə Bağdada doğru hərəkət etdi. Bu arada Tüzunun Bağdadı tərk etməsi nəticəsində qüvvələr nisbəti Bəridilərin xeyrinə dəyişdi. Məğlub olan İbn Raiq xəlifəni də götürüb Bağdadı tərk etdi.

Xəlifə Müttəqi Bağdadı Bəridilərdən geri almaq üçün Həmdanilərdən kömək istədi. Həmdanilər İbn Raiqdən ehtiyat etdikləri üçün ilk öncə miladi tarixi ilə 942-ci ildə onu aradan götürdülər. Bundan sonra Bağdad uğrunda mübarizə aparan Həmdanilər Bağdadı və Vasiti Bəridilərdən azad etdilər. Bağdadı azad etdiyi üçün xəlifə Müttəqi Həsən Həmdaniyə əmir-ül-üməra vəzifəsini və "Nasir-üd-dövlə" (dövlətin yardımçısı) titulunu verdi. Onun qardaşı Əli Həmədani isə "Seyf-ud-dövlə" (dövlətin qılıncı) adını aldı.

Lakin Həmdanilərdə Bağdadı uzun müddət özlərində saxlaya bilmədilər. Hicrətin 331-ci ilində (miladi 943) Bağdadı özünə tabe edən Tüzun, xəlifə tərəfindən əmir-ü-üməra ləqəbini aldı. Bəridilərə qarşı mübarizə aparan Tüzun Vasit və Tikriti onlardan geri aldı.

Bu arada Tüzunun Bağdadda olmamasından istifadə edən xəlifə Müttəqi yenidən Həmdanilərə sığındı. Lakin Bağdad uğrunda gedən mübarizələrdə məğlub olan Həmdanilər, xəlifə Müttəqi ilə birlikdə son sığınacaqları olan Mosula çəkildilər. Qələbədən sonra Tüzun xəlifənin yanına elçi göndərib onunla barışmaq istədiyini bildirdi. Əmin-amanlıq üçün Tüzundan vəd alan xəlifə Müttəqi hicrətin 333-cü ilində (miladi 944) Bağdada qayıtdı. Lakin xəlifə vəd edilmiş əmin-amanlıqla yox, həbs və işgəncələrlə qarşılaşdı. O, Bağdada daxil olduqdan az sonra hakimiyyətdən salındı. Tüzunun adamları onu istefa verməyə məcbur etdilər. Hicrətin 333-cü ilində (miladi 944) istefa kağızı imzalandıqdan sonra

xəlifə Müttəqinin gözlərinə mil çəkib onu kor etdilər. Bu vəziyyətdə iyirmi beş il həbsdə qalan xəlifə Müttəqi, hicrətin 357-ci ilində (miladi 968) vəfat etmişdir.[583]

Əbul-Qasim Abdullah Müstəkfi hicri 333-334 (miladi 944-946)

Müttəqi hakimiyyətdən salındıqdan sonra Əbul-Qasim Abdullah ibn Müktəfi Abbasi xəlifəsi təyin edildi. O özünə "Müstəkfi" ləqəbini götürdü. Müstəkfi hicrətin 292-ci ilində (miladi 905) Müktəfinin Əmləhun-nas adlı cariyə ilə izdivacından sonra Bağdadda anadan olmuşdur.

Müstəkfini əlində oyuncağa çevirən Tüzun bir an da olsun onu nəzarətindən kənarda qoymurdu. Hicrətin 334-cü ilində (miladi 945) Tüzunun vəfatından sonra əmir-ül-üməralıq vəzifəsini onun sadiq köməkçisi Əbu Cəfər ibn Şirzad tutdu. Onun əmir-ül-üməralıq dövründə Bağdad həm siyasi, həm də iqtisadi baxımdan tənəzzül etmək üzrə idi.

Büveyhilərin Bağdadı ələ keçirməsi

Bağdadın zəifləməsindən istifadə edən Büveyhilər hicrətin 334-cü ilində (miladi 945) böyük bir ordu ilə hücum edərək şəhəri ələ keçirdilər. Büveyhiləri xilaskar kimi qarşılayan xəlifə Müstəkfi, ordunun başçısı Əhməd ibn Büveyhə "Muizz-üd-dövlə" (dövlətə izzət bəxş edən), onun qardaşı Əliyə "İmad-üd-dövlə" (dövlətin sütunu), o biri qardaşı Həsənə isə "Rükn-üd-dövlə" (dövlətin dayağı) ləqəblərini verdi. Muizz-üd-dövlə həmçinin əmir-ül-üməra statusunu aldı.

Şiə məzhəbinə etiqad edən Muizz-üd-dövlə Bağdada daxil olanda xilafəti dağıdıb, şiə dövləti qurmaq fikrində olsa da, sünni dünyasının təzyiqindən ehtiyat edib xəlifəlik məqamını qorumaq qərarına gəldi.

Bağdadın fəthindən qısa müddət sonra Muizz-üd-dövləyə xəbər çatdı ki, xəlifə onun əleyhinə plan hazırlayır. Bunu öyrənən Muizz-üd-dövlə xəlifəni qabaqlamaq qərarına gəldi. Hicrətin 334-cü ilində (miladi 946) Muizz-üd-dövlənin adamları Müstəkfini sürüyə-sürüyə onun yanına gətirdilər. Muizz-üd-dövlənin əmrinə əsasən xəlifə Müstəkfinin gözlərinə mil çəkərək onu kor etdilər. Bu vəziyyətdə üç il həbsda qalan xəlifə Müstəkfi hicrətin 338-ci ilində (miladi 949) vəfat etmişdir.[584]

Xəlifə Müstəkfinin vəfat etməsi ilə Abbasilərin müstəqil hakimiyyətinə son qoyuldu. Büveyhilərin Bağdadı tutmaları Abbasi xəlifələrinin müstəqilliyi tamamilə itirmələri və gah bu, gah da digər hökmdarın əlində oyuncağa çevrilmələri üçün bir başlanğıc oldu. Hicrətin 334-cü ilindən (miladi 946) sonra Abbasilər demək olar ki, bir daha müstəqil siyasət yürüdə bilmədilər. Onlar əvvəlcə Büveyhilərin, daha sonra isə Səlcuqların qeyri-rəsmi vassalı kimi fəaliyyət göstərir, daha çox dini rəhbərlik daşıyırdılar. Hicrəti 590-cı ilində (miladi

[583]Tarixi ibn Əsir, VIII cild, səh-368-419; Siyuti, Tarixul-xüləfa, səh-394-397.

[584]Tarixi-Məsudi, IV cild, səh-355; Tarixi ibn Əsir, VIII cild, səh-420-421, 448-451; Siyuti, Tarixul-xüləfa, səh-397-398.

1194) Səlcuq təsirindən azad olduqdan sonra Abbasi xəlifələrinə öz nüfuz və qüdrətləri qayıtmağa başladı. Lakin qısa müddət sonra hicrətin 656-cı ilində (miladi 1258) Hülakinin başçılığı altında hücum edən monqol qoşunu Abbasilər xilafətinə son qoydu.[585]

Digər Abbasi xəlifələri bunlardır:

23. Əbul-Qasim Müfəzzəl Muti hicri 334-363/miladi 946-974
24. Əbul-Fəzl Əbdülkərim Tai hicri 363-381/miladi 974-991
25. Əbul-Abbas Əhməd Qadir hicri 381-442/miladi 991-1031
26. Əbu Cəfər Abdullah Qaim hicri 422-467/miladi 1031-1075
27. Əbul-Qasim Abdullah Müqtədi hicri 467-487/miladi 1075-1094
28. Əbul-Abbas Əhməd Müstəzhir hicri 487-512/miladi 1094-1118
29. Əbu Mənsur Fəzl Müstərşid hicri 512-529/miladi 1118-1135
30. Əbu Cəfər Mənsur Raşid hicri 529-530/miladi 1135-1136
31. Əbu Abdullah Məhəmməd Müktəfi hicri 530-555/miladi 1136-1160
32. Əbul-Müzəffər Müstəncid hicri 555-566/miladi 1160-1170
33. Əbu Məhəmməd Həsən Müstədi hicri 566-575/miladi 1170-1180
34. Əbul-Abbas Əhməd Nasir hicri 575-622/miladi 1180-1225
35. Əbu Nəsr Məhəmməd Zahir hicri 622-623/miladi 1225-1226
36. Əbu Cəfər Mənsur Müstənsir hicri 623-640/miladi 1226-1242
37. Əbu Əhməd Abdullah Müstəsim hicri 640-656/1242-1258

Bunlardan Muti, Tai, Qadir və Qaimin xilafətinin bir hissəsi Büveyhilərin, Qaimin xilafətinin qalanı, Müktədi, Müstəzhir, Müstərşid, Raşid, Müktəfi, Müstəncid, Müstəzi və Nasirin xilafətinin yarısı Səlcuqların hakimiyyətinə düşür. Zahir, Müstənsir və Müstəsimin dövründə Abbasilər nisbi azadlıq qazansalar da, tezliklə monqollar tərəfindən bu xilafətə son qoyulmuşdur.

Abbasilərin son günləri hicri 640-656 (miladi 1242-1258)

Miladi tarixi ilə 1242-ci ildə Müstənsirin vəfatından sonra oğlu Əbu Əhməd Abdullah "Müstəsim" ləqəbilə son Abbasi xəlifəsi olaraq taxta çıxdı. Müstəsim 1212-1213-cü illərdə anadan olmuşdur. Xəlifə olduqdan sonra özünə vəzir olaraq Müəyyəduddin ibn Əlqəmini götürdü. O, şiə məzhəbindən olduğu üçün əhli-sünnənin düşməni idi. Bu arada Bağdadda şiələrlə sünnilər arasında baş verən qalmaqal nəticəsində sünnilər şiələri çapıb-taladı. Bundan narahat olan İbn Əlqəmi Hülakini Bağdada dəvət etdi. Buna əsasən 1258-ci ildə (hicri 656) Bağdada daxil olan Hülaki Müstəsimi, oğlanlarını, ailəsini və bütün Abbasi ailəsini edam etdirdi.[586]

Abbasilər miladi tarixilə 508 il, hicri tarixilə isə 524 il hakimiyyətdə olmuşlar. Bunlardan onu taxtdan salınmış, doqquzu qətl edilmişdir. Üçü kor edil-

[585]Xudari, Devlətul-Abbasiyye, səh-480-482.
[586]Xudari, Devlətul-Abbasiyye, səh-480-482.

miş (Qahir, Müttəqi, Müstəkfi), dördünün ani olaraq öldüyü xəbər verilir, biri zəhərlənmiş, biri də öz istəyi ilə xilafəti tərk etmişdir.

Abbasilər xilafətinin yıxılma səbəbləri

1. Abbasi xəlifələri içində Müaviyə ibn Əbu Süfyan və Əbdülməlik ibn Mərvan kimi siyasətçilər yox idi.

2. Abbasilər özlərinə sədaqətlə xidmət edən vəzirləri və sərkərdələri heç bir səbəb olmadan aradan götürürdülər. Əbu Müslim Xorasani, Əbu Sələmə, Bərməkilər, Hərsəmə ibn Əyən, Afşin, İytax kimi və s. şəxslər. Bu vəziyyət dəyərli adamları dövlət işlərindən uzaqlaşdırırdı.

3. Hz.Əlinin *(ə)* nəslinə Əməvilər kimi düşmən oldular və nəticədə Əhlibeyt tərəfindən tez-tez üsyanlar baş verdi.

4. Din adamlarına lazımi qədər hörmət etmədilər. Mötəzilə məzhəbini rəsmi məzhəb qəbul edib, əhli-sünnə alimlərinə qarşı sərt davrandılar.

5. Xalqın və alimlərin özlərindən uzaqlaşdığını görüb, qeyri-ərəblərdən ordu təşkil etdilər. Fitnə-fəsad ocağı olan İraqı öz halına buraxıb Samirəyə getdilər.

Abbasilərin siyasi və sosial-iqtisadi vəziyyəti

Asiya və Afrika qitələrində geniş bir ərazini əhatə edən Abbasilər teokratik dövlət idi. Abbasilər xilafətinə bütöv Ərəbistan yarımadası, indiki İran, İraq. Suriya, Fələstin, Əfqanistan, Pakistan, Misir, Şimali Afrika, Orta Asiya və Qafqaz (o cümlədən Azərbaycan) daxil idi. Abbasilər İslam məmləkətinin ərazisini demək olar ki, genişləndirməmişlər. Əməvilərin zamanında olduğu kimi, Abbasilər dövründə də, xilafətin sərhədləri həmin əraziləri əhatə edirdi. Abbasilər, onlardan əvvəl xilafətdən asılı olmuş Təbəristan, İsrövşənə və Kabulistan kimi bölgələrin fəthini başa çatdırmışlar.

Abbasilər xilafəti inzibati baxımdan on iki vilayətə bölünürdü:

1) Kufə və ətrafı; 2) Bəsrə, Dəclə bölgəsi, Oman və Bəhreyn; 3) Hicaz və Yəmamə; 4) Yəmən; 5) Əhvaz, Xuzistan və Sistan; 6) Fars; 7)Xorasan; 8) Mosul; 9) Əl-Cəzirə, Ərməniyyə və Azərbaycan; 10) Şam; 11) Misir və Şimali Afrika; 12) Sind. Bu vilayətlər xəlifənin təyin etdiyi valilərə tabe idi. Əməvilərdən fərqli olaraq, Abbasilər zamanında valilər çox vaxt zadəganlar arasından deyil, döyüşdə fərqlənmiş sərkərdələr arasından seçilirdi. Valilər vəzifə və səlahiyyət baxımından üç qrupa bölünürdü:

1. İstikfa əmirliyi- ordu hazırlamaq, hüquqi vəzifələrə baxmaq, vergi və zəkat yığımını təmin etmək, bidətçilərlə mübarizə aparmaq, şəriət əsasında günahkarları cəzalandırmaq, cümə və gündəlik namazlarında imamlıq etmək və həccə gedənləri yola salmaqla yanaşı onları mühafizə etmək də bu vali tərəfindən həyata keçirilirdi.

2. İstila əmirliyi- bu və ya digər sərkərdə hər hansı bölgənin keçmiş əmirini məğlub edib qovur və özü həmin məntəqəyə sahib olurdu. Belə hallarda xəlifə də məcbur olub, həmin adamı bu bölgəyə vali təyin edirdi.

3. Xüsusi əmirlik – bəzi hallarda xəlifə bölgəyə məhdud səlahiyyətlərə malik vali təyin edirdi. Belə vali hərbi əməliyyatlara və orduya rəhbərliyi, cəmiyyətin idarəsini, sərhədlərin qorunmasını və dini hökmlərin mühafizəsini həyata keçirirdi.

Abbasilər xilafəti mütləq monarx-xəlifə tərəfindən idarə olunurdu. Abbasiləri Əməvilərdən fərqləndirən əsas xüsusiyyələrdən biri-ərəb millətçiliyi ənənəsindən imtina etmələridir. Əməvi xəlifələri öz hakimiyyələrini möhkəmlətmək üçün ərəb təəssübkeşliyindən faydalanır və qəbilə qarşıdurmalarından istifadə edirdilərsə, Abbasi idarəçiliyində fars və türk ünsürü əsas rol oynayırdı. Abbasi xəlifələri əməvilərdən fərqli olaraq, camaat namazlarında imamlıq etmir, cümə xütbələri oxumurdular.

Abbasi xəlifələrinin sağ qolu olan vəzirlər də səlahiyyət baxımından təfvizi və tənfizi olmaqla ikiyə ayrılır. Abbasi vəzirlərinin geniş ixtiyar sahibi olduqları dövrü "təfvizi vəzirlik" mərhələsi, əksinə onların məhdud və nisbi qüdrətə malik olduqları dövrü isə "tənfizi vəzirlik" mərhələsi adlandırırlar. Bu iki vəzirlik arasındakı fərq onların həyata keçirdikləri vəzifələrindədir:

1. Təfvizi vəziri öz işlərini təkbaşına idarə edir, təkbaşına qərar verir, məzalim məhkəmələrinə rəhbərlik edir; tənfizi vəziri bu səlahiyyətlərə malik deyil.

2. Təfvizi vəziri xəlifəyə xəbər vermədən, özbaşına vali təyin edir, tənfizi vəziri isə bu hüquqdan məhrumdur.

3. Təfvizi vəziri səfərbərlik elan edərək müharibəyə başlaya bilər, tənfizi vəziri isə yox.

4. Təfvizi vəziri özünə və başqalarına lazım olan pulu xəzinədən götürüb xərcləyə bilər, tənfizi vəziri isə yox. Fəzl ibn Səhl və qardaşı Həsən ibn Səhl tarixə təfvizi, sonrakılar isə tənfizi vəzirləri kimi daxil olmuşlar.[587]

Məhkəmə sistemi və divanlar

Abbasilər dövründə məhkəmə sistemi əsaslı şəkildə fəaliyyət göstərirdi. Vilayətlərin hər birinə xəlifə tərəfindən qazilər təyin edilmişdi. Bütün bu qazilər "qazi-ül-quzata" (qazilər-qazisinə) tabe idilər. Qazi-ül-quzat Bağdadda otururdu. Baş qazilik məsuliyyətli vəzifə sayıldığı üçün xəlifə bu vəzifəni ən savadlı və imanlı şəxslərə tapşırırdı.

Qazilər dörd məzhəbdən biri əsasında fətva verirdilər. (Hənəfi, Şafii, Maliki və Hənbəli məzhəbləri nəzərdə tutulur. Şiəlik müxalifət əqidəsi sayıldığından və təqib edildiyindən, Cəfəri məzhəbi rəsmi olaraq tanınmırdı). Misir qaziləri şafii, Şimali Afrika qaziləri maliki, İraq qaziləri hənəfi məzhəbinin qanunları əsasında davranırdılar. Qazilərin həll edə bilmədikləri məsələlər

[587]Hitti, İslam tarixi, II cild, səh-490-491; Natiq Rəhimov, İslam Tarixi, II cild, səh-313.

“məzalim məhkəmələri”nə çıxarılırdı. Bu iki məhkəmə arasında olan əsas fərqlər bunlardır:

1. Bəzən iddialı tərəf sifətində çox nüfuzlu şəxslər çıxış edirdi. Qazi belə adamların təzyiqi qarşısında davam gətirib ədalətli hökm verə bilmirdi. Qazidən fərqli olaraq, məzalim məhkəməsinin başçısı ən nüfuzlu dövlət adamlarının da əleyhinə hökm çıxara bilirdi.

2. Qazi məhkəməsindən fərqli olaraq, məzalim məhkəməsində doğru ifadə almaq üçün müttəhimi və şahidləri qorxutmağa və təzyiqə məruz qoymağa icazə verilirdi.

3.Qazinin rəhbərliyi ilə adi məhkəmədə iddiaçılar barışmırsa, onları yalnız özlərinin razı olduqları ədalətli bir şəxsin vasitəçiliyi ilə barışdırmağa icazə verilirdi. Məzalim məhkəməsi isə, bu vasitəçini tərəflərdən razılıq almadan, özü təyin edə bilərdi.

4. Məzalim məhkəməsi şahidlərdən şübhələnəndə, onları ikinci dəfə and içməyə məcbur etmək və zəruri hallarda şahidlərin sayını artırmaq səlahiyyətinə malik idi.

5. Məzalim məhkəməsində əvvəlcə şahidlərin ifadəsi, daha sonra tərəflərin dəlilləri dinlənilə bilərdi. Qazi isə əvvəlcə tərəfləri dinləməli, sonra şahidlərin ifadəsini qəbul etməli idi. Məzalim məhkəməsində ya xəlifənin, ya da valinin özü iştirak edirdi. Özləri iştirak edə bilmədikdə, nümayəndələrini göndərirdilər.

Xilafət ərazisində polis tərəfindən təyin olunan və qazilərin nəzarəti altında işləyən “mühtəsiblər” (hesabçılar) fəaliyyət göstərirdilər. Onlar yaxşı işlərə çağırıb, pis işlərdən çəkindirməklə məşğul idilər. Onların əsas fəaliyyət məkanlarından biri bazarlar idi. Mühtəsiblər ticarətin düzgün aparılmasına nəzarət edir, yeri gəldikdə çəki daşlarının ağırlığını yoxlayır, çəkidə aldatmaların qarşısını alırdılar.

Abbasilər dövründə təşkil edilən divanların ən məşhurları bunlardır:

1. Divan-ul-xərac- bütün bölgələrdən xəracı toplayıb, hesabını aparırdı.

2. Divan-ul-diyat- qanbahalarının (diyə) ödənişinə nəzarət edir və əsasən hökumətin öhdəsində olan qanbahalarını sahiblərinə ödəyirdi.

3. Divanuz-zimam- əsasən İraq ərazisində vergilərin toplanmasını həyata keçirir, digər bölgələrin vergi ödənişlərinə nəzarət edirdi.

4. Divan-ul-cund- orduya nəzarət, ordu tərkibinin hesabı, döyüşçülərin məvacibinin ödənişi və s. məsələlərə nəzarət edirdi. Abbasilər dövründə ordu əsasən altı hərbi hissəyə bölünürdü: 1) Piyadalar; 2) Süvarilər; 3) Oxatanlar; 4) Neft atanlar; 5) Avanqard; 6) Lağımçılar. Əməvilər dövründə ordu əsasən ərəblərdən, Abbasilərdə isə ordu əsasən fars və türklərdən ibarət idi.

5. Divan-ul-məvali- qeyri-ərəb mənşəli qulamların xidmətə götürülməsi və hesabının aparılmasını həyata keçirirdi.

6. Divan-ul-bəridə- xilafətin poçt xidmətlərinə nəzarət edirdi.

7. Divan-ur-rəsail- saray dəftərxanası rolunu oynayır, xəlifənin əmr və fərmanlarını qələmə alıb möhürlətmək və ünvanına göndərmək işinə baxırdı.

8. Divan-ul-həvaic- ehtiyacı olan şəxslərin məktub və ərizələrinə baxır, onları lazımi ünvanlara çatdırır, ərizələrin cavablandırılmasını təmin edir və xahiş olunan problemin həllinə nəzarəti həyata keçirirdi.

Torpaq mülkiyyəti formaları

Abbasilər dövründə mülkiyyətin "iqta" forması daha geniş yayılmışdı. Xəlifə dövlət fondundan şəhər və kəndləri, iri vilayətləri ayrı-ayrı şəxslərə icarəyə verirdi. İqta sahibi müqavilədə nəzərdə tutulmuş müddət boyunca həmin ərazinin sahibi sayılırdı. Lakin onu satmaq və başqasına bağışlamaq ixtiyarına malik deyildi. İqta torpaqlarından xəzinəyə vaxtında vergi daxil olmasaydı, hökumət həmin sahəni alıb, başqasına həvalə edirdi.

"Mülk" adlanan torpaqları isə xəlifə öz ailə üzvlərinə və yaxın adamlarına hədiyyə edirdi. Mülk sahibi həmin torpaqları sata və başqasına bağışlaya bilərdi.

Mülkiyyətin başqa bir növü "vəqf" adlanırdı. Həmin torpaq sahəsini idarə edən şəxs əldə etdiyi gəlirin bir hissəsini vəqf ünvanına – mədrəsə və ya məscidə verir, qalanını özü mənimsəyirdi. Vəqf torpaqlarından vergi tutulmurdu. Hakim sülalənin nümayəndələrinin mülkləri, iqta və vəqf torpaqları xəzinəyə vergi (xərac) ödəməkdən azad idilər. Qalan torpaq sahələrinin sahiblərindən yəni azad kəndlilərdən xərac alınırdı.

Bununla belə, xilafət ərazisindəki bütün torpaq sahiblərindən "üşr" adlı vergi yığılırdı. "Üşr"-əldə edilən məhsulun 1/10 hissəsi həcmində tutulurdu. Bundan əlavə, əhli-kitabdan olanlar "cizyə" adlı canbahası verirdilər. Cizyə, demək olar ki, nəğd pul formasında alınırdı. Bütün imkanlı müsəlmanlar şəriətdə nəzərdə tutulmuş xums və zəkat vergilərini verməli idilər. Xums qızıl-gümüş mədənlərindən, müharibələrdə əldə edilmiş qənimətdən (o cümlədən əsirlərdən), daşınmaz əmlakdan alınırdı. Zəkat isə, zəkat həddinə (buna "nisab" deyilir) çatmış mal-qaradan, əkin məhsulundan və qızıl-gümüşdən tutulurdu. Əkin məhsulunun zəkatı "üşr" vergisi idi.

Xəzinə gəlirinin əsas mənbəyi şəhər sənətkarlığı və ticarət idi. Şəhər sənətkarlığının əsas istiqamətlərindən birini toxuculuq təşkil edirdi. Şam sənətkarları ipək parça toxunuşunda, Misir və Fars ustaları isə kətan istehsalında daha məhşur idilər. Xorasan vilayətində toxunan iplik parçalar hər yerdə məşhur idi. Elm və texnikanın ən böyük nailiyyəti isə kağız idi. Təqibən miladi 800-ci ildə Harunun vəziri, Yəhya Bərməki Bağdadda ilk kağız fabrikini tikdirdi. Bundan sonra Şamda, Şimali Afrika və Əndəlusda da kağız fabrikləri yarandı. Avropa yalnız 1090-cı ildə Siciliya kralı II Rocerin vasitəsilə kağızla tanışlıq əldə etdilər. Başqa bir məlumata görə, XII əsrdə səlibçilər Şərq torpaqlarında ilk dəfə kağızı görərək heyrətə gəlmiş və özləri ilə Avropaya aparmışdılar. Avropada kağız fabrikləri XIV əsrdən başlayaraq qurulmuşdur. Sənətkarlardan da "üşr" vergisi alınırdı.

Aralıq dənizi hövzəsi və Cənubi Avropa ölkələrini Hindistan və Uzaq Şərqlə birləşdirən ticarət yolları xilafət torpaqlarından keçirdi. Qərbdə uzaq məğrib ölkələrindən şərqdə Hindistana qədər, şimalda Qafqaz və Orta Asiya torpaqlarından cənubda bütün Yəmənədək bütün xilafət ərazisi ticarət yolları ilə örtülmüşdü. Həm sahəsinə, həm də əhalisinin sayına, həm də sənayeləşmə dərəcəsinə görə Avropanın ən iri yaşayış məskənlərini üstələyən bu şəhərlərin ən məşhurları bunlardır: İraqda Bağdad, Kufə, Bəsrə; Suriyada Dəməşq və Antakya; Misirdə Fustat və İsgəndəriyyə; İranda Şiraz, İsfəhan və Rey; Xorasanda Nişapur və Mərv; Orta Asiyada Səmərqənd və Buxara; Şimali Afrikada Qeyrəvan və Fas.

Bəsrə və Siraf kimi iri liman şəhərləri dəniz ticarətinin mərkəzi sayılırdı. Müsəlman gəmiləri Bəsrə tabeliyində olan Ubulla limanından Fars körfəzinə, ya da Siraf limanından Ədən körfəzinə daxil olur, Ərəbistan yarımadasından ötərək, Şərqi Afrika sahillərinə və Zənzibar adalarına doğru hərəkət edirdi. Gəmilər buradan Şərqə dönərək, Hindistan, Malayya, İndoneziya və Çinə tərəf hərəkət edirdi.

Xilafət ərazisindən keçən böyük ticarət yollarından biri də məşhur "ipək yolu" idi. Müsəlman tacirləri öz mallarının bir hissəsini Orta Asiyaya gətirərək, oradan "ipək yolu" vasitəsilə Çinə ötürürdülər.

Ticarətdə müsəlmanların tərəf müqabili kimi bütün dinlərin nümayəndələri çıxış edirdilər. Hind okeanındakı dəniz ticarətində aparıcı rol farslara və ərəblərə məxsus idi. Müsəlmanların Qərbdə əsas şərikləri İtaliya və Venesiya tacirləri, eləcə də İspaniya və cənubi Fransadan olan yəhudilər idi.

Yeddi Quran qaresi

Bu qarelər və onların ravilərinin əksəriyyəti ilk Abbasi dönəmində yaşamışlar. Həmin qarelər bunlardır:

1. Abdullah ibn Amir Dəməşqi Əməvilər dövründə hicrətin 118-ci ilində (miladi 736) xəlifə Hişam ibn Əbdülməlikin dövründə vəfat etsə də, onun raviləri Abbasilər dövründə yaşamışlar. Onun birinci ravisi Hişam ibn Əmmar (v. hicri 245/miladi 859-860) həm də gözəl natiq kimi tanınırdı. İkinci ravisi İbn Zəkvan (v. hicri 242/miladi 856-857) öz dövrünün ən mahir Quran bilicilərindən sayılır.

2. İkinci məşhur qare Abdullah ibn Kəsir də Əməvilər zamanında hicrətin 120-ci ilində (miladi 738) xəlifə Hişamın dövründə vəfat etmişdir. İbn Kəsirin birinci ravisi Əhməd ibn Məhəmməd Bizzi əslən İranın Həmədan şəhərindən olub, Məkkədəki Məscidul-həramda azançı işləyirdi. İkinci ravi Məhəmməd ibn Əbdürrəhman Qunbül də Məkkədə yaşayırdı.

3. Üçüncü qare Asim ibn Əbun-Nücud Kufi hicrətin 128-ci ilində (miladi 745) Əməvi xəlifəsi II Mərvan ibn Məhəmmədin xilafəti dövründə vəfat etmişdir. Hazırda Asimin qiraəti müsəlman aləmində ən geniş yayılmış qiraət hesab olunur və dünyanın əksər ölkələrində nəşr olunan Quran nüsxələri onun qiraət

qaydalarına əsaslanır. Onun ravilərindən biri olan Həfs ibn Süleyman Əsədi Kufini öz müəllimi Asimin ögey oğlu hesab edirlər. İkinci ravi Əbu Bəkr Şöbə ibn Əyyaş Əsədi Kufi isə qiraətdə üstünlüyü ilə yanaşı, hədis sahəsində çox səhv etməsilə məşhurdur.

4. Dördüncü qare Əbu Əmr Zəbban ibn Əla Bəsri əslən iranlı idi. Əbu Əmr Bəsri hicrətin 154-cü ilində (miladi 771) xəlifə Mənsurun dövründə vəfat etdikdən sonra iki ravi onun qiraət üslubunu yaşatmışdır. Ravilərin birincisi Həfs ibn Əmr Duri Əzdi qiraət elmi barədə bilikləri toplamağa başlayan ilk şəxsdir. İkinci ravi Əbu Şüeyb Saleh ibn Ziyad Susi isə İranın Şuş şəhərindən idi.

5. Əslən İranlı olan Əbu Əmmarə Həmzə ibn Həbib Zəyyat Kufi hicrətin 156-cı ilində (miladi 773) xəlifə Mənsurun dövründə vəfat etmişdir. Bəzi mənbələrdə həm onun, həm də Asim ibn Əbun-Nücud Kufinin şiə olması barədə məlumatlar vardır. Onun birinci ravisi Əbu Məhəmməd Xələf ibn Hişam Əsədi on yaşında bütün Quranı əzbər bilirdi. İkinci ravi Əbu İsa Xəllad ibn Xalid Şeybani isə Kufədə yaşamışdır.

6. Əslən İsfəhan şəhərindən olan Nafe ibn Əbdürrəhman Mədəni Mədinədə yaşayırdı. O hicrətin 169-cu ilində (miladi 785-786) xəlifə Hadinin xilafəti dövründə vəfat etmişdir. Birinci ravisi Əbu Musa İsa ibn Mina Nafenin ögey oğlu idi. İkinci ravi Osman ibn Səid Misri idi.

7. Əslən İranlı olan Əbul-Həsən Əli ibn Həmzə Kisai hicrətin 189-cu ilində (miladi 805) xəlifə Harunun xilafəti dövründə vəfat etmişdir. Onun birinci ravisi Əbu Haris Leys ibn Xalid Bağdadi, ikincisi isə Həfs ibn Əmr Duri Əzdi olmuşdur.

Fiqh elmi

Hal-hazırda müsəlman dünyasında beş əsas şəriət məktəbi mövcuddur: cəfərilik, hənəfilik, şafiilik, hənbəlilik və malikilik. Dünya müsəlmanları şəriət hökmlərində bu məzhəblərdən birinə tabedirlər. Türkiyədə hənəfilik, İranda cəfərilik, Şimal-qərbi Afrika ölkələrində maliki, Misirdə şafii məzhəbi daha geniş yayılmışdır. Səudiyyə Ərəbistanında hənbəli fiqhi hakimdir.

Hz.Peyğəmbərin *(s)* vəfatından sonra onun ən elmli səhabələri camaatın fiqhi suallarına cavab verirdilər. Səhabələrin istinad etdikləri iki ana mənbə-Quran və sünnə idi. Səhabələrdən sonra onların şagirdləri "tabein" adlanan şəxslər fiqh məsələləri ilə məşğul olmağa başladılar. Tabein zamanında məşhur fiqh alimlərinin əksəriyyəti Mədinədə yaşayırdı. Mədinədə məskunlaşmış yeddi məşhur fəqihin siyahısına Səid ibn Müseyyib Məxzumi, Ubeydullah ibn Məsud, Urvə ibn Zübeyr, Qasim ibn Məhəmməd də daxil idilər. Bunlara "füqəha-us-səbə" deyilirdi. Bu fəqihlərin hamısı hicrətin I və II əsrlərində vəfat etmişlər.

İlk Abbasi dönəmində yaşamış və öz ictihadları əsasında fətva vermiş fəqihlərin ən məşhurları bunlardan ibarətdir: 1) Məhəmməd ibn Əbdürrəhman ibn Əli Leyli; 2) Əbu Əmr Əbdürrəhman ibn Əmr Övzai. O, "əs-Sünən" və "əl-Məsail" kitablarının müəllifidir. 3) Leys ibn Səd. İmam Şafii Leys ibn Sədi

Malik ibn Ənəsdən də yüksək qiymətləndirərək deyirdi: “Leys Malikdən daha güclü fəqihdir; amma tələbələri onun qədrini bilmirlər”.

Əbu Hənifə hicri 80-150/miladi 700-767

Hənəfi məzhəbinin banisi Əbu Hənifənin əsl adı Nöman ibn Sabitdir. O hicrətin 80-cı ilində (miladi 699-700) Kufədə anadan olmuşdur. Babası Kabil ətrafından idi, döyüşlərin birində müsəlmanlara əsir düşərək, İslamı qəbul etmişdir. Əbu Hənifənin əsl-nəsəbi sonuncu Sasani hökmdarı III Yəzdəgirdə çatır.

Əbu Hənifə iki il Mədinədə Hz.İmam Sadiqdən *(ə)* dərs almışdı. Əbu Hənifə sonralar bu iki ili xatırlayaraq deyirmiş: “Əgər həmin iki il olmasaydı, Nöman həlak olardı”. Lakin bu, Əbu Hənifənin Əhli-beyt fiqhindən dönərək, müstəqil məzhəb yaratmasına mane olmadı. Onun fiqhi görüşləri o dövr üçün çox cəsarətli idi. Şəriət hökmlərini əsaslandırarkən, qiyas (müqayisə, bənzətmə) və rəyi (şəxsi fikir), habelə ürfü (adət-ənənələr) mötəbər saydığına görə, onun məzhəbini “rəy məzhəbi” kimi xarakterizə etmişlər. Əbu Hənifəni əhli-sünnə müsəlmanları “İmami-əzəm” (ən əzəmətli imam) adlandırırdılar. O, Zeyd ibn Əlinin *(ə)* və Məhəmməd Nəfsüz-zəkiyyənin qiyamlarını dəstəkləyir və hakimiyyətin Hz.Əli *(ə)* övladına məxsusluğunu müdafiə edirdi. Buna görə də bəzi tədqiqatçılar onun əslində zeydi məzhəbində olduğunu qeyd edirlər.

Əbu Hənifənin şəxsən qələmə aldığı heç bir əsər günümüzə gəlib çatmamışdır. Ona aid edilən “əl-Fiqh-ül-əbsət” və “əl-Alim vəl-mütəəllim” adlı kitablar isə şagirdləri tərəfindən tərtib edilmişdir.

Əbu Hənifənin fiqh məktəbi onun iki bacarıqlı şagirdi Əbu Yusif və Məhəmməd Şeybani tərəfindən inkişaf etdirilmişdir.

“Qazi Əbu Yusif” kimi məşhur olan Yəqub ibn İbrahim bir neçə alimdən dərs aldıqdan sonra Əbu Hənifənin şagirdləri sırasına qoşulmuşdur. Hənəfiliyin yayılmasında onun rolu, hər şeydən əvvəl, qazilər qazisi vəzifəsini daşıması ilə bağlıdır. Əbu Yusif on səkkiz il (Mehdi, Hadi və Harunun dövründə) baş qazi işləmiş, Harunun əmri ilə ən məşhur əsəri olan “Kitab-ül-xərac”ı yazmışdır.

Əbu Hənifənin ikinci məşhur tələbəsi Əbu Abdullah Məhəmməd ibn Həsən Şeybanidir. Onun Hənəfi fiqhi barədə fətvalarından ibarət “əl-Came-üs-səğir” kitabı 1532 şəriət məsələsini əhatə edir. Bunlardan başqa Şeybani “əl-Came-ül-kəbir”, “əz-Ziyadat”, “əl-Məbsut” və s. fiqhi kitabların da müəllifidir.

Malik ibn Ənəs (hicri 99-179/miladi 715-796)

Əslən Yəmənli olan Malik ibn Ənəs hicrətin 99-cu ilində (miladi 715) Əməvi xəlifəsi Süleyman ibn Əbdülməlikin xilafəti dövründə (715-717) Mədinədə anadan olmuşdur. Babası Yəmən hakiminin zülmündən Mədinəyə köçmüş və Qureyşə mənsub Bəni-Teym qəbiləsi ilə qohum olmuşdu. Malik fiqh elmini məşhur Mədinə fəqihi Rəbiət-ürrəydən öyrənmişdi. Rəvayətə görə, nə zaman hədis söyləmək istəsəydi, dəstəmaz alardı. Cavabını bilmədiyi məsələlər

barədə tam qətiyyətlə "bilmirəm" deyirdi. Hz.Peyğəmbərə *(s)* hörmət əlaməti olaraq Mədinədə ata minmir, həmişə piyada gəzirdi.

Malik öz məzhəbini qurarkən, həm hədis əhlinin, həm də rəy əhlinin görüşlərini ümumləşdirdi və orta yolu tutdu. Maliki məzhəbində Quran, sünnə və səhabələrin dedikləri ilə yanaşı, Mədinə alimlərinin fikri də əsas sayılır. Yəni harama aparıb-çıxaran bütün işlər haram, halala aparıb-çıxaran bütün işlər halaldır.

Malik ibn Ənəsin əsərləri arasında ikisi "əl-Müvətta" və "əl-Müdəvvənət-ül-kübra" daha məşhurdur. İkinci əsəri Malik özü yox, tələbələri qələmə almışlar.

Şafii (hicri 152-204/miladi 767-819)

Əbu Abdullah Məhəmməd ibn İdris Mütəllibi Şafii hicrətin 152-ci ilində (miladi 767) xəlifə Mənsur Dəvaniqinin (754-775) xilafəti dövründə Fələstin bölgəsinin Qəzzə məntəqəsində anadan olmuşdur. Rəvayətə görə, Şafinin təvəllüdü Əbu Hənifənin vəfat gecəsinə təsadüf etmişdir. Şafii Qureyş tayfasından, Bəni-Haşimdən idi. Ulu babası Şafe Hz.Peyğəmbərin *(s)* səhabəsi olmuşdur. Bəziləri Şafiini üsuli-fiqh elmi barədə ilk kitabın müəllifi hesab edirlər. Lakin bu mövzuda ilk kitabın Şafiidən əvvəl, Əbu Hənifə və ya Əbu Yusif, ya da Əbu Abdullah Məhəmməd Şeybani tərəfindən yazıldığını iddia edənlər vardır. Şiə alimlərinə görə, üsuli-fiqh mövzusunda kitab yazmış cəfəri alimləri zaman etibarilə Şafiidən daha əvvəl yazmışlar. Hicrətin 146-cı ilində (miladi 763-764) vəfat etmiş Məhəmməd ibn Saib Kəlbi, Qurani-Kərimdəki ehkam ayələrindən çıxan şəriət hökmlərini bir kitabda toplamışdı. Ondan bir qədər sonra yaşamış İmam Kazimin *(ə)* səhabəsi Hişam ibn Həkəm (v. hicri 179/miladi 795-796) üsuli-fiqhin bəzi bəhslərini müstəqil kitabda toplamışdır.

Şafiinin ən məşhur əsərləri bunlardır: "Ehkamul-Quran", "İxtilaf-ül-hədis", "Ədəb-ül-hədis", "Üsul-ül-fiqh", "əs-Sünən", "əl-Müsnəd" və s. Onun fiqhi görüşlərinin əksəriyyəti "əl-Ümm" adlı kitabında toplanmışdır.

Əhməd ibn Hənbəl (hicri 164-241/miladi 780-851)

Əbu Abdullah Əhməd ibn Məhəmməd ibn Hənbəl Şeybani hicrətin 164-cü ilində (miladi 780) xəlifə Mehdinin xilafəti dövründə Bağdadda anadan olmuş və bu şəhərdə də vəfat etmişdir. Babası Hənbəl Əməvi xilafətini devrilməsində əsas rol oynayan şəxslərdən biri olmuşdur. O, təhsil almaq üçün uzun səfərlərə çıxmış, İraq, İran, Bəsrə, Məkkə və Mədinəyə getmiş, 280 nəfər müəllimdən dərs almışdır. İbn Hənbəl üç yüz min, hətta bəzi rəvayətlərə görə bir milyon hədisi əzbər bilirmiş. Onların arasından təqribən otuz minini seçərək, məşhur "Müsnəd" kitabında toplamışdır.

Əhməd ibn Hənbəl mütəşabih ayələri təfsir etməyi bidət sayır, belə məsələlərin əsl şərhini Allahın öz öhdəsinə buraxmağı lazım bilirdi. Qurani-Kərimin qədim (əzəli) olduğuna inandığı üçün, mötəzilələr tərəfindən düşməncəsinə

qarşılanmış, Məmun (813-833) və Mütəsimin (833-842) təzyiqlərinə məruz qalmışdır.

Ənməd ibn Hənbəlin məzhəbi ilk növbədə oğulları Əbul-Fəzl Saleh və Əbu Əbdürrəhman Abdullah tərəfindən davam etdirilmişdir.

Davud Zahiri (v. hicri 270/miladi 883-884)

Əbu Süleyman Davud ibn Əli İsfəhani tarixdə "Zahiri" ləqəbilə məşhurdur. Kufədə doğulsa da Bağdadda fəaliyyət göstərirdi. O şəriətdə yeni bir məzhəb yaratmışdır. Bu məzhəbi "Zahiriyyə" və ya "Davudiyyə" adlandırırlar. Davudu digər fəqihlərdən fərqləndirən əsas cəhət-şəriət hökmlərində Quran ayələrinin zahirini əsas tutması idi. O, müasirləri olan fəqhlərin əksinə olaraq, qiyası qəbul etmir, ictihadı batil sayırdı. Davud bu fikirdə idi ki, Quran və sünnədə hökmü verilməmiş hər bir şey halaldır. Ənməd ibn Hənbəl onu, Quranın yaranma olduğuna inandığına görə sevmirdi.

İbn Əbi Əqil

Əbu Məhəmməd Həsən ibn Əli fiqh aləmində "İbn Əbi Əqil Ümmani" ləqəbilə tanınmışdır. Onun həyatı barədə məlumatlar çox azdır. Məlum olan budur ki, kiçik qeybət dövründə yaşamış, Şeyx Küleyni və Əli ibn Babiveyhin müasiri olmuş, İbn Qövliveyhə dərs demişdi. İbn Əbi Əqil cəfəri fiqhi tarixində üsuli-fiqh qaydaları əsasında şəriət hökmlərini əsaslandırmış və bu barədə bilikləri sistemləşdirmiş ilk alim sayılır. Məhz onun səyləri sayəsində üsuli-fiqhi metodları öz konkret tətbiq sahələrini tapmışdır.

İbn Əbi Əqil öz fiqhi görüşlərini "əl-Mutəməssik bi-həbli Ali Rəsul" kitabında toplamışdır. İbn Əbi Əqil şiə tarixində yeganə fəqihdir ki, az suya (kür miqdarında az su nəzərdə tutulur) nəcasət dəyməsi nəticəsində murdar olmadığını iddia etmişdir.

Fəlsəfə və kəlam elmləri

Fəlsəfə və kəlam demək olar ki, bir elmin müxtəlif adlarıdır. Fərq bundadır ki, kəlam-dini qanunlar çərçivəsində fəaliyyət göstərən fəlsəfədir. Yəni kəlam alimi (mütəkəllim) hər hansı məsələni araşdırarkən, ilk növbədə onun dini dünyagörüşü ilə uyğun gəlib-gəlmədiyini müəyyən edir, dinlə uyuşmayan cəhətləri kənara atır. Fəlsəfə isə bütün dini məhdudiyyətlərdən kənardır. Filosof hətta Allahın yoxluğunu da təsəvvür edə bilər.

Kəlam elminin mövzularından göründüyü kimi, bu elm əsasən sırf dini məsələləri öyrənir: Allahın vahidliyinin isbatı, peyğəmbərin lazımlığı, Allah kəlamının (Quran) əzəli yoxsa yaranma olması, cəbr və ixtiyar, məad, imamın təyini və s. məsələlər.

Fəlsəfə isə daha mücərrəd bəhsləri əhatə edir: aləmin nədən yaranması, baş verən hadisələrin əql tərəfindən tam dərk olunmasının mümkünlüyü, kainatı təşkil edən zərrəciklərin bölünüb-bölünməməsi və s. məsələlər.

İslam dini qətiyyətlə dünyanın Allah tərəfindən yaradıldığını (yəni yaranma olduğunu), yunan fəlsəfəsi isə əzəli olduğunu iddia edirdi.

Bunların müqabilində, "dinsiz" və "kafir" adına tam layiq olan digər bir dəstə də formalaşdı. Onlara "dəhrilər" deyirdilər. Dəhrilərin əqidəsi materialist fəlsəfəsindən ibarət idi. Onlar Allahın varlığını inkar edir, dünyanın ilahi bir qüvvə tərəfindən deyil, özbaşına təkamül nəticəsində yarandığını söyləyirdilər. Dəhrilərin ən məşhur nümayəndələri Əbdülkərim İbn Əbil-Övca və Saleh ibn Əbdul-Quddus idi.

Abbasi dönəmində yaşayıb yaratmış ən məşhur müsəlman filosofları və mütəkəllimləri bunlardır:

1. Əbu Yusif Yəqub ibn İshaq Kindi (v. hicri 240/miladi 854): O böyük ərəb qəbiləsi olan Bəni-Kindənin şeyxinin oğlu idi. Əsil-nəsəbcə sırf ərəb olduğundan, onu "fiylosof-ül-ərəb" (ərəb filosofu) adlandırırdılar. Onun digər ləqəbi "Əbdül-hükəma" (hikmət sahiblərinin atası) idi.

Kindini Şərq məşşailiyinin banisi hesab edirlər. Aristotel fəlsəfəsini əldə əsas tutan Kindi onun on kateqoriyasını (mahiyyət, kəmiyyət, keyfiyyət, münasibət, yer, zaman, vəziyyət, malik olmaq, fəaliyyət göstərmək və iztirab) beş "ulu substansiya" ilə (materiya, forma, hərəkət, məkan və zaman) əvəz etmişdir.

2. Nəzzam (v. hicri 221/miladi 836): Mötəzililiyin ən məşhur nümayəndələrindən biri Əbul-Hüzeyl Əllafın bacısı oğlu və tələbəsi, "Nəzzam" ləqəbli Əbu İshaq İbrahim ibn Səyyar Bəsri idi. O, mötəzilə təriqətində öz adı ilə "nəzzamiyyə" adlandırılan yeni bir cərəyanın əsasını qoymuşdur. Nəzzam böyük günah etmiş şəxsin mütləq cəhənnəmə düşüb, orada əbədi qalacağına və heç zaman bağışlanmayacağına inanırdı.

3. Əbul-Həsən Əhməd ibn Yəhya ibn Ravəndi (v. hicri 245/miladi 859-860): Tarixdə özü haqqında ən mübahisəli təsəvvürlər yaratmış İbn Ravəndi əslən İsfəhan və Kaşan arasında yerləşən Ravənd məntəqəsindən idi. Əvvəlcə mötəzilə əqidəsində olmuş İbn Ravəndi sonralar bu əqidədən dönərək, hansısa səbəblər üzündən ümumilikdə İslam dinindən imtina etmişdir. O Hz.Muhəmmədin *(s)* peyğəmbərliyini inkar edir, dünyanın yaranma deyil, qədim (əzəli) olduğunu iddia edirdi. Lakin ömrünün sonunda etdiklərindən peşman olan İbn Ravəndi, kitablarından imtina etmiş, tövbə edib İslama qayıtmışdı.

4. İbn Qibə (v. hicri 317/miladi 927): Əbu Cəfər Məhəmməd ibn Əbdürrəhman Razi "İbn Qibə" ləqəbilə məşhur idi. O, Əbul-Qasim Kəbidən dərs almışdır. İbn Qibə öz müəlliminin təsiri altına düşərək, əvvəlcə mötəzili əqidəsinə inanırdı. Sonralar on iki imam şiəliyinə keçmiş və Kəbi ilə elmi mübahisələr aparmışdır. Onun şiəlik haqqında ən məşhur kitabı "əl-İnsaf" adlanır. Bu kitabda o, mötəzililiyə qarşı şiə kəlam məktəbinin düzgünlüyünü sübut etmişdir.

5. Maturidi (v. hicri 333/miladi 944-945): Əbu Mənsur Məhəmməd ibn Məhəmməd Maturidi əslən Səmərqənd şəhərindən idi. Kəlam elmindəki məqamına görə ona "imam-ül-mütəkəllimin" (kəlam alimlərinin başçısı) və "imam-ül-

huda" (hidayət rəhbəri) ləqəbləri verilmişdi. Şəriət məsələlərində hənəfi məzhəbinə etiqad bəsləyirdi.

6. Fərabi (v. hicri 339/miladi 950-951): Əbu Nəsr Məhəmməd ibn Tərxan Fərabi Orta Asiyada türk qəbiləsində anadan olmuşdur. Ona "ustad-ul-fəlasifə" (filosofların ustadı) və "məlik-ul-hükəma" (hikmət sahiblərinin hökmdarı) deyirdilər. Aristotelin ərəbcəyə tərcümə edilmiş bir neçə kitabın şərhləri də Fərabiyə məxsusdur. Bu səbəbdən, Şərq aləmində Aristoteli bəşəriyyətin birinci dərəcəli müəllimi saydıqları kimi, Fərabini də "əl-müəllim-üs-sani" (ikinci müəllim) adlandırırdılar.

Farabinin onlarla əsəri qalmışdır ki, bunların əksəriyyəti fəlsəfə, hikmət və əxlaq mövzusundadır. Bu sırada "İhsa-ul-ulum" (elmlərin siyahısı) adlı kitabında o dövrə kimi məlum olan elm sahələrinin təsnifatı verilir. Həmçinin o, "Talimus-sani" əsərini yazmaqla ilk İslam ensiklopediyasının müəllifi sayılır.

Məşhur İslam tarixçilər

1. Əbu Abdullah Məhəmməd ibn İshaq Mütəllibi Mədəni hicrətin 85-ci ilində (miladi 704) Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın xilafət dövründə Mədinədə anadan olmuşdur. O İslam aləmində ilk mükəmməl siyrənin müəllifi sayılır. Bağdada gələn İbn İshaq xəlifə Mənsurla görüşdükdə, xəlifə öz oğlu və vəliəhdi Mehdidən ötrü Hz.Adəmdən *(ə)* öz dövrünə kimi baş vermiş hadisələri əhatə edən bir tarix kitabı yazmağı ona sifariş edir. O da xəlifənin sifarinə əsasən özünün məşhur "Siyrə"sini qələmə alır.

İbn İshaq hicrətin 150-ci ilində (miladi 767) Abbasi xəlifəsi Mənsur Dəvaniqinin xilafəti dövründə Bağdadda vəfat etmişdir.

2. Əbu Abdullah Məhəmməd ibn Ömər ibn Vaqidi Mədinədə anadan olsa da, Bağdadda yaşayıb yaratmış və hicrətin 207-ci ilində (miladi 823) xəlifə Məmunun xilafəti dövründə orada vəfat etmişdir. Hz.Muhəmmədin *(s)* həyatından bəhs edən kitablar arasında Vaqidinin "Məğazi" əsəri xüsusi yer tutur.

Vaqidinin "Məğazi" əsəri Hz.Muhəmmədin *(s)* zamanında baş vermiş döyüşlərin təsvirini əhatə edir. "Məğazi" ilkin tarix mənbələrindən olmaqla yanaşı, məlumatların dəqiqliyi baxımından çox mötəbər sayılır.

3. Əbul-Həsən Əli ibn Məhəmməd Mədaini əslən Bəsrəli olsa da Mədaində yaşayıb yaratmış və hicrətin 215-ci ilində (miladi 830) xəlifə Məmunun dövründə Bağdadda vəfat etmişdir. O, Abbasilər dövlətinin və müsəlman fəthlərinin tarixini, xəlifələrin, məşhur şairlərin və qadınların tərcümeyi-halını, Hz.Peyğəmbərin *(s)* ana-nənələrinin, Əbutalib övladlarından şəhid olanların həyatını qələmə almış, Hz.Peyğəmbərin *(s)*, Hz.Əlinin *(ə)* xütbə və məktublarını toplamışdır.

4. Əhməd ibn Yəhya Bəlazuri: O, Mütəvəkkilin və ondan sonrakı bir neçə xəlifənin himayəsi altında Bağdadda fəaliyyət göstərirdi. Bəlazurinin ən məşhur əsərləri "Futuhul-ul-buldan" ("Şəhərlərin fəthi") və "Ənsab-ul-əşraf"dır ("Şərəfli insanların əsil-nəsəbi").

5. "İbn Əsəm Kufi" kimi tanınan Əbu Məhəmməd Əhməd ibn Əli Kufi: Məşhur şiə tarixçilərindən sayılan İbn Əsəm Kufi hicrətin 314-cü ilində (miladi 926) xəlifə Müqtədirin xilafəti dövründə vəfat etmişdir. Onun "ət-Tarix" və "əl-Futuh" əsərləri dəyərli mənbələrdən sayılır. "ət-Tarix" kitabında Məmunun (813-833) dövründən başlayaraq, Müqtədirin (908-932) xilafətinin sonuna kimi baş verən hadisələri işıqlandırır. "əl-Futuh" kitabı isə İslamın ilk dövrlərindən xəlifə Harunun (786-809) hakimiyyət illərinə kimi baş vermiş fəthlər barədə məlumatları özündə əks etdirir.

6. Əbu Məhəmməd Abdullah ibn Müslim ibn Quteybə Dinəvəri: Əslən Xorasanlı olan İbn Quteybə Dinəvəri İraqda anadan olmuş və hicrətin 276-cı ilində (miladi 889) xəlifə Mutəmidin xilafəti dövründə Bağdadda vəfat etmişdir. Onun "əl-Məarif" əsəri ən qədim tarix mənbələrindən sayılır. Lakin alimə daha çox şöhrət gətirən "əl-İmamə vəs-siyasə" kitabı olmuşdur.

7. Əbu Hənifə Əhməd ibn Davud Dinəvəri (v. hicri 282/miladi 895): Tarix mövzusunda qələmə aldığı "əl-Əxbar-ut-tival" kitabı dünyanın yaranışından Abbasi xəlifəsi Mutəsimin (833-842) hakimiyyətinin sonuna kimi keçən müddət ərzində baş vermiş hadisələri anladır.

8. Əbu Nəsr Məhəmməd ibn Saib Kəlbi: O həm təfsir, həm ənsab, həm də tarix elmlərində bacarıqlı alimlərdən biri idi. Əbu Nəsr, İmam Səccadın *(ə)*, İmam Baqirin *(ə)* və İmam Sadiqin *(ə)* səhabələrindən sayılır. Kəlbi ənsab barədə biliklərini Əbu Saleh adlı alimdən, o da Hz.Əlinin *(ə)* böyük qardaşı Əqil ibn Əbu Talibdən *(ə)* öyrənmişdi.

9. Əbu Mixnəf Lut ibn Yəhya Əzdi (v. hicri 157/miladi 774): Məşhur şiə tarixçilərindən olan Əbu Mixnəf İmam Sadiqin *(ə)* səhabələrindən olmuşdur. Onun Aşura faciəsindən bəhs edən "Məqtəl-ul-Hüseyn" əsəri daha məşhurdur. Əbu Mixnəfin digər əsərləri kimi, bu kitab da itmiş, yalnız bəzi fraqmentləri Təbəri tarixinin səhifələrində iqtibas şəklində günümüzə gəlib-çatmışdır.

10. Əhməd ibn Əbu Yəqub İshaq ibn Vazeh İsfəhani (v. hicri 284/miladi 897): Yəqubi hərtərəfli və ümumiləşdirilmiş tarix kitabı yazmış ilk müsəlman müəllifi sayılır. Onun məşhur "əl-Buldan" (Şəhərlər) kitabı Hz.Adəmin *(ə)* yaradılışından başlayaraq, müəllifin yaşadığı dövrə kimi keçən mərhələni əhatə edir. Kitabın birinci cildində İslama qədərki tarixi hadisələrdən bəhs olunur. Burada qədim peyğəmbərlərin tarixi, Hindistan, Yunanıstan və Roma, İran, Çin, Misir və Nubiya torpaqlarının tarixi və İslamdan əvvəl Ərəbistanda baş verən hadisələr işıqlandırılır. İkinci cild isə Hz.Muhəmmədin *(s)* doğumundan on beşinci Abbasi xəlifəsi Mutəmidin (870-892) hakimiyyətinin əvvəllərinə (hicri 259/miladi 873) qədərki xilafətin tarixini araşdırır.

Yəqubi bu əsərində ("Tarixi-Yəqubi") Qədir-Xumm əhvalatını tam qətiyyətlə təsvir etmiş, bir çox başqa tarixçilər kimi, Xeybər döyüşündə Hz.Əlinin *(ə)* göstərdiyi qəhrəmanlığı xatırlamaqdan boyun qaçırmamış, Hz.Fatimənin (s.ə) vəfatı və dəfni, Əbu Bəkrin xəlifə seçilməsi və Hz.Əlidən *(ə)* beyət tələb olun-

ması hadisələrinə də kitabda yer ayırmışdır. Eyni zamanda onuncu imama kimi hər bir məsum imamın vəfatı kitabda öz əksini tapmışdır.

11. Əbul-Həsən Əli ibn Hüseyn Məsudi (v. hicri 346/miladi 957-958): "Ərəblərin Herodotu" adlandırılan, əslən Bəni-Hüzeyl qəbiləsinə mənsub olan Məsudi Babil şəhərində anadan olmuşdur. O, məşhur səhabə Abdullah ibn Məsudun nəslindən olduğu üçün bu ləqəblə tanınır. Məsudinin "İsbat-ul-vəsiyyə", "ət-Tənbih vəl-işraf" və "Əxbar-uz-zaman" kitabları daha məşhurdur. Sonuncu kitabın yığcamlaşdırılması nəticəsində Məsudiyə dünya şöhrəti gətirmiş "Muruc-uz-zəhəb" kitabı yaranmışdır.

Əsər xilqətin əvvəlindən başlayaraq, iyirmi üçüncü Abbasi xəlifəsi Mutinin (hicri 334-363/miladi 946-974) hakimiyyətə gəlişinə kimi keçən dövrün hadisələrini əks etdirir.

12. Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri (v. hicri 310/miladi 923): Təbəristanın Amul şəhərində anadan olmuşdur. Onun tarix mövzusunda qələmə aldığı ən məşhur əsəri "Tarixi-Təbəri" adı ilə tanınan "Tarix-ur-rusulu vəlmuluk" kitabıdır. Kitabın əvvəlində keçmiş peyğəmbərlərin həyatı və İran şahlarının tarixi barədə məlumat verilir. Daha sonra Hz.Muhəmmədin *(s)* ulu əcdadları barədə qiymətli məlumatlar, xüsusilə Hz.peyğəmbərin *(s)* özünün həyatı bütün incəlikləri ilə təsvir edilib.

Ərəb dilçilik elmi

Abbasilər dövründə ərəb dilçiliyi də inkişaf etmişdir. Bu dövrdə ərəb qrammatikasının ən böyük simaları Bəsrə və Kufə şəhərlərində mərkəzləşmişdilər. Bəsrə və Kufə şəhərləri dilçilik elminin paytaxtı halına gəlmişdi. Bəsrə məktəbi ərəb dilinin klassik qaydalarına sədaqətlə yanaşaraq, dilçilik elmində meydana çıxan hər bir mübahisəni cahiliyyə dövrünün böyük şairlərinin şeirləri və digər klassik mənbələrin köməyi ilə həll edirdi. Bu mənbələrdə öz təsdiqini tapmayan hər bir nəzəriyyə "şaz", yəni nadir və qəribə sayılırdı.

Bundan fərqli olaraq, Kufə məktəbində hər hansı bədəvi ərəb qəbiləsinin ləhcəsi belə, meyar sayılırdı. Kufə nəhv alimləri bu və ya digər nəzəriyyəni sübuta yetirmək üçün bədəvi ərəblərə müraciət edib, onların fikirlərini öyrənməyi və bunun əsasında dilçilik qanunlarında yeniliklər etməyi caiz bilirdilir. İki məktəb arasında ziddiyyətlər hicri II əsrin sonlarında xüsusilə şiddətlənmişdi. Abbasi xəlifələri də Kufə məktəbini dəstəkləyirdilər.

Bəsrə məktəbinin yetirməsi olan qrammatiklər

1. Əbu Əmr İsa ibn Ömər Səqəfi (v. hicri 149/miladi 766): Bəsrə məktəbinin banilərindən sayılan Əbu Əmr Səqəfi ərəb nəhvinin banisi Əbul-Əsvəd Duəlidən dərs almışdır. Ərəb dilinin nəhvi barəsində yetmişdən çox kitabın müəllifi olan Əbu Əmr Səqəfinin yalnız iki kitabı "əl-İkmal" və "əl-Came" dövrümüzə gəlib çatmışdır.

2. Əbu Əmr Zəbban ibn Əla Bəsri (v. hicri 154/miladi 771): Yeddi məşhur qiraət üslubundan birinin yaradıcısıdır.

3. Əbu Əbdürrəhman Xəlil ibn Əhməd (hicri 100-175/miladi 718-791): Ərəb dilinin lüğət tərkibi barədə dərin araşdırmaların nəticəsi olan "əl-Eyn" adlı ilk lüğət kitabının müəllifi və əruz vəzninin elmi əsaslarını işləyib-hazırlamış ilk şəxs sayılır. Elə buna görə də o, kitablarda "Əruzi" ləqəbi ilə xatırlanır.

4. Əmr ibn Osman Sibəveyh (v. hicri 180/miladi 796): Nəhv elmində "əl-Kitab" adlı kitabın müəllifi sayılır.

5. Əbdülhəmid Həcəri Əxfəşi-əkbər (v. hicri177/miladi 793): Böyük qrammatiklər Kisai və Sibəveyhin müəllimidir.

6. Əbul-Həsən Səid ibn Məsədə Bəlxi Əxfəşi-ovsət (v. hicri 215/miladi 830): Əruz, qafiyə, nəhv və s. sahələrdə dəyərli əsərlərin müəllifidir.

7. Əbul-Həsən Əli ibn Süleyman Əxfəşi-əsğər (v. hicri 315/miladi 927).

8. Əbu Ubeydə Müəmmər ibn Müsənna Bəsri (v. hicri 207/miladi 822).

9. Əbu Səid Əbdülməlik Əsməi (v. hicri 216/miladi 831).

10. Əbu Osman Bəkr ibn Məhəmməd Mazini (v. hicri 248/miladi 862): Mazini ərəb qrammatikası tarixində sərf elmini müstəqil şəkildə araşdıran ilk alim sayılır.

11. Əbul-Fəzl Abbas ibn Fərəc Rəyaşi (v. hicri 257/miladi 871).

12. Əbul-Abbas Məhəmməd ibn Yəzid Mübərrid (v. hicri 285/miladi 898): "əl-Kamil fil-lüğət" kitabının müəllifidir.

Kufə məktəbinin yetirməsi olan qrammatiklər

1. Əbu Cəfər Məhəmməd ibn Həsən Rəvvasi: İbn Əbu Sarə ləqəbilə tanınır. Məşhur qrammatiklər Kisai və Fərranın müəllimidir. Nəhv elmi barəsində kitab yazmış ilk kufəli qrammatikdir.

2. Əbul-Həsən Əli ibn Həmzə Kisai (v. hicri 189/miladi 805): Yeddi qiraət alimlərindən biridir.

3.Əbu Abdullah Məhəmməd ibn Ziyad Kufi (v. hicri 150-231/miladi 767-845): İbn əl-Ərabi ləqəbilə tanınır.

4. Əbu Yusif Yəqub ibn İshaq Xuzi Əhvazi (v. hicri 244/miladi 858): İbn Sikkit ləqəbilə tanınır. Onun "İslah-ul-məntiq" kitabı bu gün də yüksək səviyyəli məntiq dərsliyi hesab edilir.

5. Əbul-Abbas Əhməd ibn Yəhya Şeybaniyyə (v. hicri 291/miladi 904): "Sələb" ləqəbilə tanınır. Onun ərəb qrammatikası, ədəbiyyatşünaslıq, ərəb şerinin təhlili, Quran kəlmələrinin izahı və s. sahələrdə onlarla əsəri vardır. Bunların ən məşhuru "əl-Fəsih" kitabıdır.

6. Əbu İshaq İbrahim ibn Məhəmməd (v. hicri 310/miladi 922): Şüşə emalatxanasında işlədiyi üçün tarixdə "Zəccac" (şüşə düzəldən) ləqəbilə qalmışdır.

7. Əbdürrəhman ibn İshaq Nəhavəndi (v. hicri 337/miladi 949): Zəccacın tələbəsi olduğu üçün "Zəccaci" ləqəbilə tanınmışdır.

Xəttatlıq elmi

İlk əsrlərdə ərəb yazısında demək olar ki, yalnız bir xətt-kufi xətti işlənirdi. Lakin bu xətt ağır və ləng yazıldığı üçün dövlət idarələrində aparılan dəftərxana yazıları üçün kufi xətti tamamilə yararsız idi. Bu istiqamətdə xətt islahatı aparmaq tələb edilirdi.

Bu istiqamətdə ilk cəhd göstərən şəxs məşhur ədib və siyasi xadim İbn Müqlə oldu. Abbasi xəlifələrinin bir neçəsinin sarayında vəzir olan, İbn Müqlə adı ilə tanınan Əbu Əli Məhəmməd ibn Əli Beyzavi Şirazi kufi xəttinə dəyişikliklər edərək, nəsx və süls xəttlərini ixtira etdi. Yazılış üçün əlverişli olan bu xətt növü hicrətin 310-cu ilindən (miladi 922) etibarən, ərəb yazısında xüsusilə, Quran və dini mətnlərin yazılışında üstünlük qazandı.

Abbasilər dövründə yaşamış məşhur xəttatlar arasında İbn Müqlədən sonra Həsən ibn Hüseyn ibn Əli Farsi xüsusi yerə malikdir. Farsi nəsx, rüqi və süls xəttlərinin əsasında yeni xətt növü olan təliqi yaratdı. Qısa müddət ərzində təliq xətti dəftərxanalarda işlənən, demək olar ki, yeganə xətt mövqeyini qazandı.

Məşhur coğrafiyaşünas alimlər

Hicri II əsrin sonlarında qədim fars, yunan və roma irsinə aid kitabların müsəlman aləminə yol tapması nəticəsində coğrafiya elmi də öz inkişafını tapdı. Hicri III əsrin əvvəllərindən etibarən, coğrafiya bir elm kimi formalaşdı, ilk müsəlman coğrafiyaşünaslar meydana çıxdı. İlk müsəlman coğrafiyaşünas alimlər bunlardır:

1. Əbu Abdullah Məhəmməd ibn Musa Xarəzmi (hicri 169-232/miladi 783-846): O, xəlifə Məmunun sifarişi əsasında Yer kürəsinin atlasından bəhs edən məşhur "Surətul-ərz" adlı əsərini yazmışdır.

O, riyaziyyat elmində də əsl inqilab yaradaraq, bu elmin "cəbr" adlı bölməsinin əsasını qoymuşdur. Cəbr barədə ilkin məlumatları Xarəzmi özünün "əl-Kitab-ül-müxtəsərfi hesab-il-cəbri vəl-müqabələ" (Cəbr və müqabələ hesabı barədə müxtəsər kitab) əsərində bəyan etmişdir. O, ilk dəfə olaraq, riyazi tənlikləri sadələşdirmək üçün tənliyin bir tərəfindəki kəmiyyətləri əks işarə ilə tənliyin o biri tərəfinə keçirməyi təklif etmişdi. Yəni "bərabər" işarəsindən sağda yerləşən bütün "müsbət" riyazi kəmiyyətlər "mənfi" işarə ilə sol tərəfə keçə bilər və əksinə. Xarəzmi bu üsulu "cəbr" adlandırmışdır. Həmçinin, o, sübut etmişdir ki, tənliyin hər iki tərəfindəki bərabər kəmiyyətləri ixtisar etsək, tənlik yalnız sadələşər və cavabı dəyişməz. Bu üsul isə Xarəzmi tərəfindən "müqabələ" adlandırılmışdır.

"Hind rəqəmləri" adı altında tanınmış rəqəmləri də dünya elminə gətirən Xarəzmi olmuşdur. Məhz onun əsərləri ilə tanışlıqdan sonra avropalılar Roma say siistemindən imtina edərək, hind rəqəmləri ilə hesablamağa başladılar. O, həndəsədə çox işlədilən və çevrə uzunluğunun diametri nisbətini bildirən "pi" ədədi üçün 3, 1416 ədədini müəyyən etmişdir ki, bu da müasir hesabatların nəticələrinə xeyli yaxındır.

2. Əbu Əli Əhməd ibn Ömər ibn Rüstə İsfəhani (v. hicri 290/miladi 903): O, "əl-Əlaq-ün-nəfisə" (Qiymətli boyunbağılar) adlı ensiklopedik əsərin

müəllifidir. Əsər yeddi cilddən ibarət olsa da, yalnız sonuncu cild günümüzə qədər gəlib çatmışdır.

3. Əbu Abdullah Əhməd ibn Məhəmməd ibn əl-Fəqih Həmədani: İbn əl-Fəqih hicri III əsrin sonlarında yaşamış görkəmli ədiblərdən biridir. O, məşhur "Kitab-ül-buldan" adlı əsərin müəllifidir. Bu kitabda Çin, Hindistan, Ərəbistan, Misir, Şam, Bərbər, Mesopotamiya, Fələstin, Bizans və digər ölkələrin coğrafi quruluşu, böyük dənizlər və çaylar barədə ətraflı məlumat verilmişdir.

4. Əbul-Qasim Ubeydullah ibn Abdullah ibn Xordadbeh Xorasani (v. hicri 300/miladi 912): Onun ən məşhur əsəri "əl-Məsalik vəl-məmalik" (Yollar və məmləkətlər) adlanır. Bu kitab Abbasilər xilafətinin tarixini və tarixi coğrafiyasını öyrənmək üçün əvəzsiz mənbələrdən sayılır.

5. Əbu Zeyd Əhməd ibn Səhl Bəlxi (v. hicri 322/miladi 934): Onun ən məşhur əsəri "Süvər-ül-əqalim-il-islamiyyə" kitabıdır. Bu kitab müsəlman vilayətlərinin təsvirinə həsr olunmuş, xəritələrlə bəzədilmişdi.

6. Əbu İshaq İbrahim ibn Məhəmməd İstəxri (v. hicri 340/miladi 951): Onu müsəlman coğrafiyaşünaslarının imamı (başçısı) adlandırırlar. O, on doqquz xəritədən ibarət "Süvər-ül-əqalim" və "əl-Məsalik vəl-məmalik" (Yollar və məmləkətlər) kitablarının müəllifidir.

7. Əbul-Qasim Məhəmməd ibn Həvqəl (v. hicri 367/miladi 977): "əl-Məsalik vəl-məmalik" (və ya "Surət-ul-ərz") əsərinin müəllifidir.

8. Əbu Məhəmməd Həsən ibn Əhməd ibn əl-Haik Həmədani (v. hicri 334/miladi 945): Onun "Sifətu cəzirət-il-ərəb" kitabı Ərəbistan yarımadasının coğrafi quruluşu barədəki ən qədim mənbələrdən sayılır. "əl-Əklil" adlı əsri isə Yəmən hökmdarlarının tarixi və bu torpaqda yaşayan qəbilələrin əsil-nəsəbi haqqındadır.

Tibb elmi

Hicri III əsrin əvvəllərinə kimi müsəlman aləmində təbibliklə əsasən, əhli-kitabdan olan şəxslər məşğul olurdular. Xristian və yəhudilər böyük ehtiramla xilafət paytaxtına və digər iri şəhərlərə dəvət edilərək, işlə təmin olunurdular. Bu dövrdə yaşamış məşhur xristian təbibləri bunlardır: İsa ibn Masiveyh, Yuhənna ibn Masiveyh, Sabit ibn Qürrə, Sənan ibn Sabit ibn Qürrə, Sabit ibn Sənan ibn Sabit ibn Qürrə, İbrahim ibn Sənan ibn Sabit ibn Qürrə, Əbul-Həsən Əli ibn Rəbbin Təbəri.

Əbu Bəkr Məhəmməd ibn Zəkəriyyə Razi (v. hicri 320/miladi 932): O, tibb elmində yüksək məqama çatmış ilk müsəlman mənşəli alimlərdən hesab edilir. Onu "təbib-ül-müslimin" (müsəlmanların təbibi) və "Cəlinus-ul-ərəb" ərəblərin Qaleni) adlandırırdılar. Belə deyirlər ki, tibb elmini Qalen yaratmış, Razi toplayıb sistemləşdirmişdir, İbn Sina isə təkmilləşdirmişdir. İbn Zəkəriyyə Razinin ən məşhur kitabı "əl-Havi fit-tibb" adlanır.

Sufilik (təsəvvüf)

Bəziləri "sufi" sözünün "səfa" kökündən qaynaqlandığını yazırlar. Bu fikrə görə, sufinin qəlbi batini səfaya malik olduğundan, ona bu ad verilib.

Bəziləri "sufi" sözünün kökündə "səff" (cərgə, səf) kəlməsinin durduğunu söyləmişlər. Guya sufi Allaha hamıdan artıq yaxındır və onun hüzurunda, bəndələrin lap ilk cərgəsində qərar tutub.

"Sufi" sözünü "sufan" adlı əncirə bənzər meyvəsi olan səhra bitkisi ilə də əlaqələndirənlər var. Onların əqidəsincə, sufilər bu bitkinin meyvəsi ilə kifayətləndikləri üçün, belə adlandırılmışlar. Digər bir nəzəriyyəyə görə, bu söz "əshab-us-süffə" anlayışından törəmişdir.

Müasir tədqiqatçıların fikrincə, bu nəzəriyyələrin heç biri tam qüvvətli deyildir. "Sufi" sözünün "səff", "səfa", "süffə" köklərindən yarandığını iddia etmək ərəb dili qaydalarına ziddir. Çünki bu sözlərə mənsubiyyət bildirən "i" hərfi artırılarsa, "səffi", "səfai" və "süffi" şəklinə düşməlidir.

Sufilik mövzusuna toxunmuş müəlliflərinin əksəriyyətinin fikrincə, "sufi"-ərəb dilindən tərcümədə "yun" mənasını bildirən "suf" sözündən yaranmışdır və "yun geyim geyinən" deməkdir. Sufilərə ona görə bu ad verilib ki, onlar bəzəkli və rahat geyimlərdən imtina edir, heyvan yunundan toxunmuş kobud, qaba paltar geyinirdilər.

"Sufi" ləqəbilə tanınmış ilk şəxs Əbu Haşim Kufi (v. hicri 150/miladi 767) olmuşdur. İbn Xəldunun "Müqəddimə", İbn Cövzinin "Təlbisi-İblis" kitablarında da "sufi" anlayışının hicri II əsrdən bəri məlum olduğu qeyd edilir. Yazılı şəkildə "sufi" kəlməsinə ilk dəfə görkəmli alim Cahizin (v. hicri 255/miladi 869) "əl-Bəyan vət-təbyin" əsərində rast gəlinir ki, bu adı Əbu Haşim Kufiyə aid etmişdir.

Sufiliyin inkişaf tarixi üs əsas mərhələyə bölünür:

1. Zöhd mərhələsi. Hz.Peyğəmbərin *(s)* şəxsən nümayiş etdirdiyi, sonralar böyük səhabələr tərəfindən davam etdirilmiş həyat tərzi sufiliyin ilkin mərhələsinin əsasını təşkil edirdi. Bu mərhələ hicri II əsrin sonlarına qədər davam etmişdir. İslamın ilk əsrində bu mərhələnin ən böyük simaları sırasında Hz.Peyğəmbərdən *(s)* sonra ilk dörd xəlifəni, "əshab-us-süffəni", Uveys Qəranini və s. qeyd etmişlər.

2. Təsəvvüf mərhələsi. Hicri III-IV/miladi IX-X əsrlərdə "sufi" termini meydana çıxdı. Təsəvvüf digər islamı elmlərdən ayrılaraq, müstəqil bir təlim kimi formalaşdı. Bu dövrdə təsəvvüf nəzəriyyəsinə aid ilk əsərlər yazılmağa və ilk sufi terminləri meydana çıxmağa başladı. Bu mərhələdə Bəsrə, Kufə və Xorasanla yanaşı, Nişapur, Misir, Bağdad və Şamda da sufi mərkəzləri fəaliyyət göstərirdi.

3. Təriqət mərhələsi. Hicri VI/miladi XI əsrdə sufi müəssisələri-təriqətlər meydana çıxdı. Bu mərhələ boyunca sufi ədəbiyyatının ən gözəl nümunələri yaradıldı. Mövlana Rumi, Sədi, Hafiz kimi şairlər yaşayıb-yaratdılar.

İslami mənbələrdə sufiliyi tənqid edən hədis və rəvayətlər də az deyildir. Bu rəvayətlər bütövlükdə irfan və təsəvvüfə qarşı deyil, zaman keçdikcə bu hə-

rəkat daxilində özünü biruzə verməyə başlamış mənfi təzahürlərə qarşı yönəlmişdir. Hicri II/miladi VIII əsrdən etibarən, tədricən təsəvvüf qayda-qanunlar çərçivəsini aşaraq, İslama yabançı olan müxtəlif dəb və ənənələri əhatə etməyə başladı. Sufilikdə ifrat zöhd, tərki-dünyalıq və bədənə əziyyətin təbliği ön plana keçdi, yun paltar geyinmək, xanəgahda yaşamaq, çilləyə oturmaq və s. bu kimi qaydalar sufilərin rəmzinə çevrildi. Əksər sufilər dini düşüncə tərzi ilə uyuşmayan, açıq-aşkar və ya pərdəaltı küfr mənaları ifadə edən sözlər söyləməyə başladılar. Belə bir şəraitdə məsum imamlar başda olmaqla, İslamın qeyrətini çəkən şəxslər bu cür sufilərə qarşı müharibə elan etdilər.

Hz.İmam Sadiqin *(ə)* hüzurunda sufilərdən söhbət düşəndə belə buyurmuşdu: "Onlar bizim düşmənlərimizdir. Kim onlara meyl etsə, qiyamətdə onlarla birlikdə məşhərə gətiriləcək. Tezliklə elə adamlar peyda olacaqlar ki, bizi sevdiklərini iddia edəcək, lakin onlara sarı meyl edib, özlərini onlara bənzədəcəklər. Özlərinə onların ləqəbini götürəcək, onların sözlərini şərh edib əsaslandırmaqla məşğul olacaqlar. Hər kim onlara meyl etsə, bizdən deyil və mən belə adamlardan bizaram. Hər kim onları rədd və inkar etsə, Peyğəmbərin hüzurunda kafirlərlə cihad etmiş kimidir.

Başqa bir hədisdə İmam Rzanın *(ə)* belə buyurduğu rəvayət edilir: "Hər kimin yanında söhbət düşsə və o, sufiliyi ürəyi və dili ilə inkar etməsə, bizdən deyil. Hər kim inkar etsə, Peyğəmbərin hüzurunda kafirlərlə cihad etmiş kimidir."

Yenə İmam Rzadan *(ə)* belə rəvayət olunur: "Heç kim riyakarlıq, azğınlıq, ya da axmaqlıqdan savayı bir səbəb üzündən təsəvvüfə üz tutmayıb"[588]

İlk Abbasi dönəmində yaşamış ən məşhur sufilər bunlardır: Əbu Haşim Sufi-tarixdə adlandırılan ilk sufidir; Rabiə Ədəviyyə; Sufyan Səvri; İbrahim ibn Ədhəm; Davud Tai; Şəqiq Bəlxi; Füzeyl ibn İyaz; Məruf Kərxi; Bişr Hafi; Hatəm Əsəmm; Haris Mühasibi; Zunnun Misri; Səriyy Səqəti; Bəyazid Bistami; Səhl ibn Abdullah Tustəri; Cuneyd Bağdadi; Hüseyn ibn Mənsur Həllac; Əbu Bəkr Cəfər ibn Yunis Şibli.

İlk Abbasi dönəmində Azərbaycan

Ərəb istilasından sonra Azərbaycan torpaqlarını üç müxtəlif adla ifadə edirdilər: Azərbaycan, Arran və Ərməniyyə. İstiladan əvvəl Azərbaycanın paytaxtı Ərdəbil idi və Sasani mərzbanının iqamətgahı burada yerləşirdi. Sonra ərəblər paytaxtı Marağaya köçürdülər. Yusif ibn Əbu–Sac isə yenidən paytaxtı Ərdəbilə qaytardı.

Arran xəzər dənizi ilə Araz çayı arasında yarımadaya bənzəyirdi. Kür çayı isə Azərbaycan vilayətini iki hissəyə bölürdü. Arranın paytaxtı Bərdə şəhəri idi. Əsas şəhərlərin sırasına Beyləqan, Şəmkir, Şamaxı, Şirvan, Bakı, Şabran, Dərbənd, Gəncə, Qəbələ və Şəki daxil idi.

[588]Şeyx Abbas Qummi, Səfinət-ül-bihar, II cild, səh-57-58; Müqəddəs Ərdəbili, Hədiqət-uş-şiə, səh-567.

Ərməniyyə vilayətinə gəlincə, bura indiki Ermənistan və Gürcüstan torpaqları idi. Vilayətin paytaxtı Dvin (Dəbil) şəhəri idi. Miladi 789-cu ilə kimi bəzən Arranı da Ərməniyyəyə qataraq eyni vilayət hesab edirdilər. Həmin tarixdə paytaxt Bərdəyə köçürüldü və Ərməniyyə Azərbaycana və Arrana birləşdirilmiş oldu.

Abbasilər dövründə Azərbaycan və Ərməniyyə valiliyinə görkəmli şəxslər təyin edilirdilər. Miladi 751-752-ci illərdə (hicri 134) ilk Abbasi xəlifəsi Əbul-Abbas Səffahın (750-754) zamanında onun qardaşı və gələcək xəlifə Mənsur Dəvaniqi (754-775) Azərbaycan, Ərməniyyə və Cibal bölgələrinin valisi təyin edilmişdi.

Xəlifə Mehdi (775-785) bu ənənəni davam etdirərək, 778-786-cı illərdə oğlu Harunu Azərbaycan valisi təyin etmişdi. Bəzi vaxtlarda isə xəlifənin ən yaxın qohumları Azərbaycana vali təyin edilirdi. Harun ər-Rəşid (786-809) xilafəti dövründə qardaşı Ubeydullahı, Mutəmid (870-892) isə oğlu Müvəffəzi Azərbaycana vali təyin etmişdi. Miladi 792-ci ildə isə Harun tərəfindən Fəzl ibn Yəhya Bərməki Azərbaycana vali təyin edilmişdi.

Abbasilər dövründə Ərməniyyə valiləri sırasında xilafətin məşhur sərkərdəsi Hatəm ibn Hərsəmə ibn Əyənin və Məhəmməd ibn Hatəmin də adları qeyd olunur. Fasilələrlə uzun müddət Azərbaycanda hakimlik edənlərin arasında Yezid ibn Məzyəd Şeybaninin də adı var idi. Həmçinin, məşhur sərkərdə Həsən ibn Qəhtəbə Tai də iki dəfə-əvvəcə Səffahın, daha sonra Mənsurun zamanında Azərbaycanı idarə etmişdi.

Babəkin başçılığı altında baş vermiş xürrəmilər hərəkatı zamanı, bir qayda olaraq üsyançılarla döyüşə gedən sərkərdə, eyni zamanda Azərbaycan valisi təyin edilirdi. Bu arada Əbu Musa İsa ibn Məhəmməd ibn Əbu Xalid, "Züreyq" ləqəbli Sədəqə ibn Əli Əzdi, İbrahim ibn Leys, Abdullah ibn Tahir, Əli ibn Hişam və nəhayət, Babəklə müharibənin qalibi məşhur Afşin Azərbaycan valisi oldular. Afşin müharibəni bitirib, xilafətin paytaxtı Samirəyə qayıdanda, öz yerinə Azərbaycana vali olaraq qohumu Mingicevri qoydu. Bu dövrün sonlarına yaxın miladi 898-ci ildə (hicri 285) Məhəmməd ibn Əbu-Sac Azərbaycan valisi təyin edilmişdir. Miladi 901-ci ildə (hicri 288) onun yerini qardaşı Yusif ibn Əbu-Sac tutmuşdur.

Adı çəkilən valilər arasında Şirvanşahlar (861-1538) dövlətinin banisi olan Yezid ibn Məzyəd Şeybani xüsusilə seçilirdi. O, Bəni-Şeyban qəbiləsinin başçısı Mən ibn Zaidənin oğlu idi.

Azərbaycan, Ərməniyyə və Arran valiliyinə təyinat almış Yezid ibn Məzyəd burada sakitliyi bərpa etdikdən sonra vəzifəsindən kənarlaşdırıldı. Lakin bununla xilafətin əsas sərkərdələrindən hesab edilən Yezid ibn Məzyəd, miladi 794-795-ci illərdə (hicri 178-179) əl-Cəzirə vilayətində üsyan edən Vəlid ibn Tərifi məğlub edərək, bu vilayətdə sakitliyi bərpa etdi. Bu qələbədən sonra o, yenidən miladi 799-cu ildə (hicri 183) xəlifə Harun ər-Rəşid (786-809) tərəfindən Azərbaycan valisi təyin edildi.

İki illik valilikdən sonra miladi 801-ci ildə (hicri 185) Bərdə də vəfat edən Yezid ibn Məzyədin yerini oğlu Əsəd tutdu. Xəlifə Harunun ölümündən sonra miladi 809-cı ildə (hicri 193) xəlifə təyin edilən Əmin Əsəd ibn Məzyədi Məmuna qarşı aparılan hərbi əməliyyatlarda iştirak etmədiyi üçün onu vəzifəsindən uzaqlaşdırdı.

Məmunun hakimiyyətinin əvvəllərində Azərbaycan, Gürcüstan və Arranı yenidən üsyanlar bürüdü. Bu üsyanlara son qoymaq istəyən xəlifə miladi 820-ci ildə (hicri 205) Yezid ibn Məzyədin oğlu Xalidi bu yerlərin valisi təyin etdi. Bu ərazilərdə sakitliyi bərpa edən Xalid altı ildən sonra vəzifəsindən kənarlaşdırıldı. Sonrakı xəlifə Mutəsimin dövründə yenidən bu ərazilərə vali təyin edilən Xalid, xəlifənin ümidini doğrultmadığı üçün vəzifəsi ilə vidalaşmalı oldu.

Miladi 842-ci ildə (hicri 227) Xalid ibn Yezid xəlifə Vasiq (842-847) tərəfindən Tiflis hakimi İshaq ibn İsmayılın üzərinə göndərildi. Qısa müddət sonra onun ölümü ilə əlaqədar olaraq yerini Əli ibn Xalid tutdu.

Əli ibn Xalidin mübarizədə zəif olduğunu görən xəlifə Vasiq miladi 844-cü ildə (hicri 230) Azərbaycan valiliyinə Xalid ibn Yezidin digər oğlu, əl-Cəzirə hakimi Məhəmməd ibn Xalidi təyin etdi. Lakin Məhəmməd ibn Xalid də İshaq ibn İsmayıla məğlub olaraq geri çəkildi. Bu arada Vasiqin ölümündən sonra xəlifə olan Mutəvəkkil (847-861) miladi 852-ci ildə (hicri 238) Tiflis hakimi İshaq ibn İsmayılın üzərinə məşhur sərkərdə Buğa əl-Kəbiri göndərdi. Tiflisi ələ keçirən Buğa əl-Kəbir burada sakitliyi bərpa etdi.

Bundan sonra Dərbənd şəhəri xəlifə Mütəvəkkil tərəfindən iqta olaraq, Məhəmməd ibn Xalidə verildi. Miladi 856-cı ildə (hicri 242) Dərbəndi özünə tabe edən Məhəmməd ibn Xalid Azərbaycan, Ərməniyyə, Arran və Dərbənd hakimliyini əldə etdi.

Gəncə şəhərinin banisi hesab edilən Məhəmməd ibn Xalid, xəlifə Mütəvəkkil tərəfindən Gəncənin ilk hakimi vəzifəsinə də təyin edildi. Onun səyləri nəticəsində inkişaf edən Gəncə qısa müddət ərzində Azərbaycanın ən iri ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrildi.

Miladi 861-ci ildə (hicri 247) xəlifə Mütəvəkkil qətlə yetirildikdən sonra xilafət ərazisində yaranmış qarışıqlıqdan istifadə edən Məzyədilər qolunun daha bir nümayəndəsi Heysəm ibn Xalid ibn Yezid Şirvan torpaqlarını ələ keçirib, müstəqillik elan etdi. Özünü "şirvanşah" adlandıran Heysəm ibn Xalid hökumətlə əlaqəni kəsdi.

Məzyədilər müsəlman fəthlərindən sonra Şirvan torpaqlarında müstəqil dövlət yaradan ilk sülalə sayılır. Onlar formal olaraq, Bərdədə oturan valiyə tabe idilər, lakin bununla belə, Şirvan torpaqlarını demək olar ki, müstəqil şəkildə idarə edirdilər.

Miladi 880-ci ildə Heysəm ibn Xalidin vəfatından sonra onu oğlu Məhəmməd ibn Heysəm (881-912) əvəz etdi. Bundan sonrakı beş il ərzində daha iki şirvanşah hakimiyyət taxtında bir-birini əvəz etmişdir.

Bu müddət ərzində Layzan bölgəsini (indiki Lahıc) ilk şirvanşah Heysəmin qardaşı Yezir ibn Xalid idarə edirdi. Özünü "layzanşah" adlandıran Yezid əslində qardaşına tabe idi. 917-ci ildə Yezidin ölümündən sonra onun varisi Əbu Tahir Yezid ibn Məhəmməd qərara gəldi ki, şirvanşahların zəifləməsindən istifadə edib, onların torpaqlarını ələ keçirsin. Bu məqsədlə o, Şirvana hücum edib, Heysəmin nəslindən olanların hamısını qılıncdan keçirib, Şirvanla Lazyan ərazilərini birləşdirdi. Məzyədilər bundan sonra təqribən daha yüz il hakimiyyətdə qaldılar və 1027-ci ildə onları Şirvanşahların başqa bir sülalasi Kəsranilər (1027-1382) əvəz etdi. Kəsranilərdən sonra Şirvanşahları Dərbəndlilər sülaləsi (1382-1538) idarə etməyə başladı.

Abbasilər dövründə Azərbaycanda hökm sürmüş digər sülalələr bunlardır:

1. Sacilər dövləti (879-941);
2. Salarilər dövləti (941-981);
3. Rəvvadilər dövləti (981-1054);
4. Şəddadilər dövləti (971-1066).

V FƏSİL

ABBASİ TORPAQLARINDA QURULAN DÖVLƏTLƏR

1. Əğləbilər dövləti hicri 184-296/miladi 800-909

Abbasi xəlifəsi Harun ər-Rəşidin (786-809) dövründə Şimali Afrikada xilafətə qarşı tez-tez üsyanlar baş verirdi. Həmin vaxt xəlifə Harun Bizansla müharibə apardığı üçün Şimali Afrikaya vaxt ayıra bilmirdi. Xəlifə Harun bu üsyanları yatırmaq üçün İbrahim ibn Əğləb ət-Təmimini Şimali Afrikaya vali təyin etdi. Qısa müddət ərzində Şimali Afrikada asayişi təmin edən İbrahim ibn Əğləb paytaxtı Qeyrəvan olan Əğləbilər dövlətinin əsasını qoydu. Bir müddət sonra İbrahim və oğulları Trablusqərb, Tunis, Cəzair və Fasın da bir qisminə sahib oldular. Tunis tərsanələrində gəmilər düzəldən Əğləbilər Ağdənizdə fəaliyyətə başlayaraq bir çox döyüşlərdə Bizans ordusunu məğlub etdilər.

Ağdənizdə fəthlərə başlayan Əğləbilər xəlifə Məmunun (813-833) dövründə miladi 826-cı ildə (hicri 211) Qazi Əsad ibn Furatın başçılığı altında olan ordu və Kritdə məskunlaşan müsəlmanların köməyi ilə Siciliya üzərinə hərəkət edərək Palermonu ələ keçirdilər. Burada yollar və kanallar çəkərək kənd təsərrüfatı və sənətkarlığın hər növünü inkişaf etdirdilər.

Siciliyanın ardınca Sardiniya, Korsika və Maltanı fəth edən Əğləbilər İtaliyaya keçərək Romanı bir neçə dəfə mühasirəyə alsalar da, fəth edə bilmədilər (846-cı il xəlifə Vasiqin və 870-ci il xəlifə Mutəmidin dövründə). Bu arada bəzi İtaliya şəhərlərini ələ keçirən Əğləbilər abadlıq işləri apararaq elm mərkəzləri təşkil etdilər. Beləcə elmin İtaliya vasitəsilə Avropaya keçməsini təmin etdilər.

Əğləbilər dövləti Tunis, Qərbi Liviya və Siciliyada 108 il 8 ay 13 gün hökmranlıq etmişlər. Bu müddət ərzində heç bir zaman müstəqillik iddiasında olmamış, Abbasilərə tabe olaraq Abbasi xəlifələrinin adına xütbə oxumuşlar. Şəcərə baxımından ərəb olan Əğləbilər Hənəfi qoluna mənsub olmuşlar. Əğləbilər dövlətini on bir hökmdar idarə etmişdir və həmin hökmdarlar bunlardır:

1. İbrahim ibn Əğləb (800-812);
2. I Abdullah ibn İbrahim (812-817);
3. I Ziyadətullah (817-838);
4. əl-Əğləb (838-841);
5. I Məhəmməd (841-856);
6. Əhməd (856-863);
7. II Ziyadətullah (863-864);
8. II Məhəmməd (864-875);

9. II İbrahim (875-902);
10. II Abdullah (902-903);
11. III Ziyadətullah (903-909).

Əğləbilərdə hakimiyyət atadan oğula keçirdi. Şiə təmayüllü dövlət olan Fatimilər (909-1171) son Əğləbi hökmdarı III Ziyadətullahı miladi 909-cu ildə (hicri 296) məğlub edərək bunların varlığına son qoymuşdur.[589]

Samanilər dövləti hicri 279-389/miladi 892-999

Samanilər Əməvi dövlətinin son illərində islam dinini qəbul edən Saman adlı İranın tanınmış şəxsiyyətlərindən birinə mənsubdurlar. Samanilər şiə əqidəsində olan Samanilər dövlətini qurmuş və Yaxın Şərqin tarixində mühüm rola malik olmuşlar. Bəzi qaynaqlara görə isə Samanilər sünni-hənəfi məzhəbli olmuşlar.[590] İranda məşhur şəxs olan Saman oğluna Xorasan valisi Əsəd ibn Abdullah əl-Qəsrinin adını verərək onu Əsəd adlandırdılar.

Samani hökmdarları "əmir" ünvanı ilə tanınırdı. Dövlətin paytaxtı Buxara şəhəri olmuşdur. Mavəraun-nəhr, İran (Azərbaycan və Fars xaric olmaqla), Rey və Qəzvin Samanilərə tabe idi.

Xəlifə Məmunun (813-833) zamanında etibar qazanan Samani ailəsi, onun dövründə daim dövlət vəzifəsində çalışdılar. Xəlifə Məmun hicrətin 204-cü ili (miladi 819) Əsədin oğulları Əhməd ibn Əsədi Fərqanəyə, Nuh ibn Əsədi Səmərqəndə, Yəhya ibn Əsədi Çaş və Eşrusnaya və İlyas ibn Əsədi də Herata vali təyin etdi. Xorasan və Məşriq bölgələrinin idarəsi Tahir ibn Hüseynin əlinə keçincə Əsəd ibn Samanın oğullarının ixtiyarında olan valilikləri tanıdı. Əhməd ibn Əsədin ölümündən sonra yerinə oğlu Nəsr keçdi və Fərqanəyə hökmdarlıq etdi.

Miladi tarixi ilə 875-ci ildə (hicri 261) Abbasi xəlifəsi Mutəmid (870-892) bütün Mavəraun-nəhr məmləkətinin idarəsini ona verdi. O da Səmərqənd şəhərini ölkənin mərkəzi halına gətirdi, qardaşı İsmayılı isə Buxaraya əmir təyin etdi. Lakin gözlənilmədən miladi tarixilə 888-ci ildə (hicri 275) bu iki qardaş arasında döyüş baş verdi və bu döyüşdə Nəsr İsmayılın ordusu tərəfindən əsir götürüldü. Ancaq qardaşını bağışlayan İsmail yenidən Səmərqənd valiliyini ona verdi. 892-ci ildə (miladi 279) Nəsrin ölümündən sonra liderlik İsmayıla keçdi.[591]

Bu arada İmam Əlinin *(ə)* nəslindən və Təbəristan şahzadəsi olan Məhəmməd ibn Zeyd Xorasana hücum etdi. Bundan xəbər tutan İsmail ona qarşı Məhəmməd ibn Harunun başçılığı altında olan böyük bir ordunu göndərdi. Miladi 900-cü ildə (hicri 287) baş verən döyüşdə Məhəmməd ibn Zeydin ordusunu məğlub edən Məhəmməd ibn Harun Təbəristana daxil oldu.

---

[589]Yılmaz Öztuna, İslam dövlətləri, Ankara-1989, I cild, səh-212; Əbdürrəhman Şərəf, Zübdətul-Kısas, I cild, səh-331-337.
[590] Yılmaz Öztuna, İslam dövlətləri, Ankara-1989, I cild, səh-711.
[591]İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, VII cild, səh-381.

Çox keçmədən Məhəmməd ibn Harun İsmayıla qarşı mübarizəyə başladı. Bundan xəbər tutan İsmail onun üzərinə hərəkət etdi. İki tərəf arasında Rey yaxınlığında baş verən döyüşdə məğlub olan Məhəmməd ibn Harun qaçaraq Deyləm torpaqlarına sığındı. Miladi 908-ci ildə (hicri 295) Reyə daxil olan İsmail qısa müddət sonra vəfat etdi.[592]

İsmayıl ibn Əhmədin ölümündən sonra 908-ci ildə yerinə oğlu Əhməd ibn İsmail keçdi. Miladi 914-cü ildə (hicri 301) Əhməd öz adamları tərəfindən öldürülüncə onun da yerinə oğlu Nəsr keçdi. Lakin Nəsr azyaşlı olduğu üçün ailəsi onun hakimiyyət mövqeyini idarə edə biləcək yaşda olmadığını görərək atasının əmisi İshaq ibn Əhmədi Xorasan valiliyinə gətirdilər. Ancaq Abbasi xəlifəsi əl-Müqtədir (908-932) vaxtilə babasının rəhbərliyi altında olan bu bölgəyə Nəsrin vali olmasını təsdiqlədi. Dövlət idarəsinə isə onun adına Məhəmməd ibn Abdullah əl-Ceyhani baxırdı.

Bununla razılaşmayan İshaq ibn Əhməd ilə oğlu İlyas ibn İshaq Nəsr ibn Əhmədə qarşı qiyam qaldıraraq Buxaraya doğru hərəkət etdilər. Lakin Səmərqəndə hakimi olan Nəsr ibn Əhmədin orduları tərəfindən məğlub edildilər.

Miladi 943-cü ildə (hicri 331) Nəsr ibn Əhmədin ölümündən sonra yerinə oğlu Nuh (943-954) keçdi. Bu vaxt Büveyhi oğullarından Ruknuddövlə ilə Nuh ibn Nəsrin arası pozuldu. İki tərəf arasında baş verən döyüşdə Nuh ibn Əhməd məğlub oldu. Amma miladi 945-ci ildə (hicri 333) Nuh ibn Nəsr yenidən itirilmiş torpaqları geri qaytardı. Çox keçmədən Nuh ibn Nəsrin Əbu Əli ibn Muhtac adlı sərkərdəsi ona qarşı qiyam etdi. Bu qiyam öz növbəsində ölkədə qarışıqlığa səbəb oldu. Bundan istifadə edən İbrahim ibn Əhməd ibn İsmail üsyançı Əbu Əlinin köməyi ilə miladi 947-ci ildə (hicri 335) Nişapur, Mərv və Buxara şəhərlərini ələ keçirdi. Bu səbəblə Nuh ibn Nəsr böyük bir ordu ilə onların üzərinə getdi. Bundan xəbər tutan İbrahim ibn Əhməd üsyançı Əbu Əlidən ayrılaraq qardaşı oğlu Nuh ibn Nəsrlə müqavilə bağladı.

Bu qalmaqallar nəticəsində Samanilər dövləti zəiflədi və bundan istifadə edən Büveyhilər (932-1062) Rey şəhərinə və əl-Cəbəl məmləkətinə sahib oldular.

Bu arada üsyançı Əbu Əli ilə müqavilə bağlayan Nuh ibn Nəsr onunla birlikdə Rey və əl-Cəbəl ətrafında itirilmiş torpaqları Büveyhilərdən geri aldı və Büveyhi hökmdarı Ruknuddövlə Nuh ibn Nəsrə cizyə ödəməyə məcbur oldu.

Miladi tarixilə 954-cü ildə (hicri 343) Nuh ibn Nəsrin ölümündən sonra yerinə oğlu Əbdülməlik ibn Nuh (954-961) keçdi. 961-ci ildə Əbdülməlikin ölümündən sonra yerinə qardaşı Əbu Saleh Mənsur ibn Nuh (961-977) keçdi. Əbu Salehin hakimliyi ilə razılaşmayan Sicistan xalqı ona qarşı qiyam qaldırdı və bu qiyam yeddi il davam etdi.

Miladi tarixilə 967-ci ildə (hicri 356) Büveyhi hakimi Ruknuddövlə ilə Əbu Saleh Mənsur ibn Nuh arasında baş verən döyüş 972-ci ilə (hicri 361) qədər davam etdi. Sonda Büveyhi hakimi Ruknuddövlənin Əbu Saleh Mənsura

[592] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XI cild, səh-130, 149.

yüz min dinar, oğlu Adududdövlənin də əlli min dinar pul ödəmələri şərtilə iki tərəf arasında sülh bağlandı. Eyni zamanda Əbu Saleh Mənsur ibn Nuh Adududdövlənin qızı ilə evləndi. Miladi tarixi ilə 977-ci ildə (hicri 366) Əbu Saleh Mənsur ibn Nuhun ölümündən sonra yerinə II Mənsur adı ilə oğlu Əbul-Qasim Nuh ibn Mənsur (977-997) Samani hakimi təyin edildi.

Əbul-Qasimin yaşının az olmasından istifadə edən Samani ordusunun Xorasandakı baş sərkərdəsi öz müstəqilliyini elan etdi. Eyni vaxtda Curcanı ələ keçirən Büveyhi hakimi Adududdövlə ilə də Əbul-Qasim arasında qarşıdurma yarandı. Samanilərin məğlub olması bu ailədən olan bəzi şəxslərin baş qaldırmasına səbəb oldu. Əbul-Qasimin dövrü hərb və üsyanlarla keçdi. Bu səbəbdən də Büveyhioğulları və Türklər Samanilərin torpaqlarına göz dikmiş oldular.[593]

Miladi tarixi ilə 993-cü ildə (hicri 383) Samani dövlətinin sərkərdələrindən bəziləri əmirləri Əbul-Qasimə qarşı qiyam edərək türk şahzadəsi Harun ibn Süleyman Qanunu Mavəraun-nəhr torpaqlarını zəbt etməyə təhrik etdilər. Harunun şahzadəliyi Samani dövlətinin şərqinə düşür və Çin sərhədlərinə qədər uzanırdı. Harun ibn Süleyman Mavəraun-nəhr bölgəsi üzərinə gedərək Samaniləri məğlub edib Buxaraya daxil oldu. Lakin Harun ibn Süleymanın ölümü Əbul-Qasimin Buxaranı yenidən ələ keçirməsinə səbəb oldu.

Miladi 994-cü ildə (hicri 384) Əbul-Qasim qiyam qaldıran sərkərdələri məğlub etmək üçün Qəznə hökmdarı Səbuktəkindən (977-997) kömək istədi. Baş verən döyüşlərdə məğlub olan üsyançılar Curcana qaçdı.

Miladi tarixi ilə 997-ci ildə Əbul-Qasim II Mənsurun ölümündən sonra yerinə oğlu Mənsur ibn Nuh (997-999) keçdi. Bundan istifadə edən türklər əvvəlcə Səmərqəndi, ardından da Faiq əl-Xassanın köməyi ilə Buxarını ələ keçirdilər. Bu arada Qəznəli Mahmudla (998-1030) Mənsur ibn Nuhun arası Xorasana görə pozuldu. Çünki Qəznəli Mahmud Xorasanı istəmiş, Mənsur ibn Nuh isə onun bu istəyini rədd etmişdir. Bundan sonra Faiq əl-Xassə ilə Bəktuzun hökmdar Mənsur ibn Nuhu həbs edərək gözlərinə mil çəkib, onu kor etdikdən sonra yerinə kiçik qardaşı Əbdülməlik ibn Nuhu keçirdilər.

Bundan istifadə edən Qəznəli Mahmud Samani torpaqlarına hücum edərək Buxara ilə Nişapuru ələ keçirib Samani idarəsinə son qoydu. Bu hadisədən qısa müddət sonra miladi tarixi ilə 1005-ci ildə (hicri 395) Samanilər dövlətinin varlığına son qoyuldu.[594]

Samani hökmdarları və hakimiyyət müddətləri:

1. Nəsr ibn Əhməd (874-892)
2. Əbu İbrahim İsmail (892-907)
3. Əbu Nəsr Əhməd (907-914)
4. əl-Məlik Səid Nəsr (914-943)

---

[593] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XI cild, səh-484, 547.

[594] Mahmud Şakir, Hz. Adəmdən bu günə İslam tarixi, V cild, səh-184.

5. əl-Məlikul-Hamid Əbu Məhəmməd I Nuh (943-954)
6. əl-Məlikul-Müəyyəd Əbul-Fəvaris Əbdülməlik (954-961)
7. Əbu Saleh Mənsur (961-977)
8. əl-Məlikur-Razi Əbul-Xaas Mənsur II Nuh (977-997)
9. Əbul-Haris II Mənsur (997-999).[595]

Samanilər dövlətinin ən güclü vaxtı əl-Məlik Səid Nəsr ibn Əhmədin (914-943) dövrü olmuşdur. Ondan sonra şərqdən Qaraxanilər və cənubdan Qəznəlilərin hücumu, bundan başqa valilərin üsyanı dövləti zəiflətdi və miladi 999-cu ildə (hicri 389) bu dövlətin varlığına son qoyuldu.

İslamiyyətin, Mavəraun-nəhr və Türküstanda yayılmasında və Qaraxanilərin müsəlman olmasında Samanilərin böyük rolu olmuşdur.

Tulunilər dövləti hicri 254-292 (miladi 868-905)

IX əsrin ikinci yarısının əvvəllərində Abbasilərin əlində olan Misir əyaləti Türklərin əlinə keçdi. Əyalətin valiləri, komandanları, vali müavinləri əsasən türklərdən təşkil olunurdu. Belə bir şəraitdə Tulunilər ilk müsəlman türk dövlətinin əsasını qoydular.

Dövlətin əsasını Abbasi xəlifəsi Müstəinin (862-866) dövründə 865-ci ildə Misiri ələ keçirən Əhməd ibn Tulun qoymuşdur.[596] Orduları əsasən türklərdən təşkil olunan Tulunilərdə ərəb mədəniyyəti hakim idi. Rəsmi dil ərəb dili, məzhəbləri isə Abbasilərin məzhəbi olan sünni-hənəfi idi. Paytaxtları Fustat şəhəri olmuşdur.

Sahibuz-zinc (869-883) üsyanını yatırmaq üçün xeyli pul xərcləyən Əbu Əhməd Təlhə Müvəffəq (xəlifə Mutəmidin qardaşı) Misir valisi Əhməd ibn Tulundan yardım istədi. Bundan xəbər tutan Abbasi xəlifəsi Mutəmid (870-892) Əhməd ibn Tuluna bildirdi ki, xəracı xəlifəyə ödəsin. Buna əhəmiyyət verməyən Əhməd ibn Tulun bir milyon iki yüz min dinarı Müvəffəqə təslim etdi. Müvəffəq isə bu məbləğin az olduğunu düşünərək, Misir valis Əhməd ibn Tulunun üzərinə Musa ibn Buğa əl-Kəbiri göndərdi. Lakin onunla döyüşməkdən çəkinən Musa Samirəyə qayıtdı və 877-ci ildə orada vəfat etdi.

Hadisələrin onun xeyrinə cərəyan etdiyini görən Əhməd ibn Tulun Şamı ələ keçirmək üçün hərəkətə keçdi. 877-879-cu illərdə Əhməd ibn Tulun Şamı demək olar ki, müqavimətsiz ələ keçirdi. Lakin 879-cu ildə oğlu Abbasın Misirdə çevriliş etdiyini öyrənincə geri qayıtdı. Abbasın qiyamını yatırdıqdan sonra Əhməd bu dəfə də Şamda canişin qoyduğu Lölöənin Müvəffəqə qoşulduğunu öyrəndi. Yenidən Şama qayıdan Əhməd 882-ci ildə Riqqəyə daxil oldu.

Miladi 884-cü ildə Əhməd ibn Tulunun ölümündən sonra yerinə oğlu Xumaraveyh (884-896) keçdi. Bu arada zəncilər üzərində qələbə çalan Müvəffəq oğlu Əbul-Abbas Əhmədi qərb torpaqlarının valisi təyin etdi. Əbul-Abbasın ilk

[595] Yılmaz Öztuna, İslam devlətləri, I cild, səh-711.
[596] Tarixi ibn Əsir, VII cild, səh-187.

vəzifəsi Şam bölgəsini Abbasilərə qaytarmaq idi. Lakin 885-ci ildə baş verən döyüşdə Xumaraveyh Əbul-Abbası məğlub etdi və Şam bölgəsi qəti şəkildə Tulunilərin əlinə keçdi. Bundan sonra tərəflər arasında sülh bağlandı və sülhə görə Misir və Şam torpaqları daha otuz il müddətinə Tulunilərə verildi.

Misir və Şamın ardından sonralar, Fələstin, Şimali Mesopotamiya, Livan, Xatay, Liviya da Tulunilərin əlinə keçmişdir.

902-ci ildə Abbasi xəlifəsi təyin edilən Müktəfi (902-908) Misir, Şam və əl-Cəzirədə hökmranlıq edən Tulunilərin hakimiyyətinə son qoymaq qərarına gəldi. Bu məqsədlə xəlifə Müktəfi 904-cü ildə Məhəmməd ibn Süleymanın başçılığı ilə böyük bir ordunu Misirə göndərdi. Misirin paytaxtı Fustat şəhəri yaxınlığında 905-ci ildə baş verən döyüşdə Tuluni sərkərdəsi öldürüldü və bununla da müharibənin taleyi həll oldu. Sülalənin sağ qalan üzvləri xilafətin paytaxtı Bağdada əsir olaraq göndərildi.

Tulunilər sülaləsinin hakimiyyət illərini Misirin "qızıl dövrü" adlandırırlar. Bu illər ərzində Misir tərəqqi edib çiçəklənmiş, ölkənin iqtisadiyyatı inkişafın yüksək həddinə çatmışdır. Tuluni ordusu türk, yunan və zənci mənşəli qullardan ibarət idi. Şam bölgəsini və Aralıq dənizi sahillərini nəzarətdə saxlamaq üçün Tulunilər güclü donanma yaratmışdılar. Fustatda irimiqyaslı tikinti işləri həyata keçirilmiş, bütöv hərbi kvartal salınmış, memarlıq sənətinin incisi sayılan Tulunilər məscidi inşa edilmişdir.[597]

Tulun əmirləri və hakimiyyət müddətləri:

1. Əhməd ibn Tulun (868-884)
2. Xumaraveyh ibn Əhməd (884-896)
3. Ceyş (896)
4. Harun (896-904)
5. Şeyban (904-905).[598]

İxşidilər dövləti hicri 322-358/miladi 934-969

Tulunilərin süqutundan sonra Abbasilər 934-cü ilə qədər Misiri idarə edə bildilər. Bu ildən etibarən Misir İxşidilər adlı yeni bir türk xanədanının idarəsi altına keçdi. 934-cü ildə Misiri ələ keçirən türk əsilli Məhəmməd ibn Tuqac İxşidilər dövlətinin əsasını qoydu. O, Abbasi xəlifəsi Razinin (934-940) vəziri İbn Furatın qızı Xədicə ilə evlənmişdi. Misir valisi olmazdan əvvəl Məhəmməd ibn Tuqac 928-ci ildə Rəmlənin, 930-cu ildə isə Şamın valisi olmuşdur.

Rəsmi dilləri ərəb dili olan İxşidilər Hənəfi məzhəbinə mənsub idilər. Otuz dörd il on ay on gün hakimiyyətdə olan bu xanədan Misir, Fələstin, Suriya, Antakya, Qilikya, Livan, Ürdün və Hicaz hakimi olmuşdur. Paytaxtı Fustat şəhəri olan bu xanədan Abbasilərə tabe idi. 941-ci ildə Şamı, 942-ci ildə Hicazı ələ keçirən İxşidilər 944-cü ildə Hələbi, Xımsı, Antakyanı və bütün Suriyanı özlə-

[597] Həsən İbrahim Həsən, İslam Tarixi, tər. IV cild, səh-26-36; Altundağ, Tulunilər, İA. XII/I, 430-439.
[598] Yılmaz Öztuna, İslam dövlətləri, I cild, səh-320.

rinə tabe etdilər. Bu arada İxşidilər 945-946-cı illərdə Şama hücum edən Həmdaniləri də məğlub edərək Şam torpaqlarından uzaqlaşdırdılar.

Bu xanədan hökmdar Kafurun (966-968) dövrünə qədər öz qüdrətini qoruya bilmişdir. Kafurun ölümündən sonra İxşidilərin zəifləməsindən istifadə edən Şimali Afrikadan gələn şiə təmayüllü Fatimilər 969-cu ildə Misiri ələ keçirərək İxşidilərin hakimiyyətinə son qoydular.[599]

İxşidi əmirləri və hakimiyyət müddətləri:

1. Əbu Bəkr Məhəmmədul-İxşid ibn Tuqac (934-946)
2. Əbul-Xaas Ənucur ibn Məhəmməd (946-960)
3. Əbul-Həsən Əli ibn Ənucur (960-966)
4. Əbul-Misk Kafur (966-968)
5. Əbul-Fəvaris Əhməd (968-969)
6. Əbu Məhəmməd əl-Hüseyn (969-970) – Fatimilərin Misiri tutmasından sonra özünü Şamda hökmdar elan edən əl-Hüseyn bir ilə yaxın Suriya, Livan və Fələstində hakimlik etmişdir.[600]

Fatimilər dövləti hicri 297-567/miladi 909-1171

Miladi tarixi ilə 909-cu ildə (hicri 297) Ubeydullah əl-Mehdi tərəfindən əsası qoyulan Fatimilər Şimali Afrika, Misir, Suriya və digər bölgələrdə hökm sürən şiə təmayüllü bir dövlət olmuşdur. Xanədan adını Hz.Peyğəmbərin *(s)* qızı Fatimədən *(ə)* götürür. Bu dövlətin qurucuları Fatimə *(ə)* və Əli *(ə)* yolu ilə Hz.Peyğəmbərin *(s)* soyundan gəldiklərini iddia edirlər. Ümumi məlumatlara görə onların nəsəbləri Hz.Əli *(ə)* övladına aid deyil. Onlar saxta olaraq özlərini övladi-Əlidən *(ə)* saymışlar.[601] Fatimilər şiəliyin ismaililik qoluna mənsub idilər. Bu təriqətə görə İmam Sadiqdən *(ə)* sonrakı imam onun oğlu İsmayıldır. Ancaq bunlar İsmayılın atası hələ həyatda ikən vəfat etməsi üzərində fikir ayrılığına düşmüş və bir qismi onun ölmədiyini, bunun Abbasilərin şərindən çəkinmək üçün edilmiş bir təqiyyə olduğunu iddia etmişlər. Xəlifə Mənsurun (754-775) Mədinədəki valisi də buna şahidlik etmişdir.

Ümumiyyətlə ismaililik təriqətinin ortaya çıxması barədə müxtəlif fikirlər mövcuddur. Bu fikirlər həm müsəlman, həm Avropa və rus, həm də ismaililərin öz müəllifləri tərəfindən müxtəlif cür izah edilməkdədir. Rus və Avropa şərqşünasları ismaililiyin ortaya çıxmasını daha çox Abbasilər dövründə baş vermiş sinfi ziddiyyətlərlə əlaqələndirirlər. Həqiqətəndə bu dövrdə xilafət məmurları ilə sadə xalq kütləsi arasında böyük bir uçurum əmələ gəlmiş, yerli feodallar güclənmiş və əhalinin üzərinə qoyulan vergilər artmışdır. Bütün bunlar xilafət ərazisində müxtəlif məzhəblərin meydana çıxmasına səbəb olmuşdur. Amma bizcə bunun digər səbəblərida vardır ki, bununda başında cəmiyyətin elit

[599] İhşidilər, İA V/2, 945.
[600] Yılmaz Öztuna, İslam dövlətləri, I cild, səh-321.
[601] Yılmaz Öztuna, İslam dövlətləri, I cild, səh-323.

təbəqəsinə mənsub, xüsusilədə xilafət sarayında olan bəzi məmurların əli ilə yaradılır və müdafiə olunurdu. Düzdür bu faktı sübut etmək çətindir. Çünki bunun açıq-aşkar dəlili yoxdur. Amma buna baxmayaraq əqli yolla isbat etmək mümkündür ki, böyük məzhəbləri parçalamaq və onların ardıcılları arasında ixtilaf salmaq üçün bu ən yaxşı yoldur. Şiə məzhəbi də Əhli-beyt *(ə)* tərəfdarı olduğundan və həmişə xilafətə qarşı əks cəbhədə dayandıqlarından onun içərisində ixtilaf toxumlarının ali hakimiyyət tərəfindən səpilməsi mümkün görülə bilər.

Afrikada ortaya çıxan Fatimi dövlətinin əsası İsmaililik hərəkatına dayanır. Bu hərəkat altıncı İmam Sadiqin *(ə)* oğlu İsmailin ətrafında başladılan mübahisələrlə ortaya çıxmışdı. Dəqiq məlumatlara görə İmam Sadiqin *(ə)* böyük oğlu olan İsmail hələ atasının sağlığında miladi 762-ci ildə vəfat etmiş və İmam *(ə)* onu şəxsən dəfn etmişdir. Hətta İmam Sadiq *(ə)* cənazəni aparanlara cənazəni yerə qoymalarını göstəriş vermiş və meyitin kəfənini açaraq ora toplaşanlara göstərmiş və onun öldüyünü dəlil olaraq hamıya isbatlamışdı.

İsmaililər İmam Sadiqin *(ə)* oğlu İsmayılı xələf təyin etdiyini qəbul edirlər. İsmail hicri 145-ci ildə (miladi 762) hələ atası həyatda ikən vəfat edincə İmamiyyə şiəsi İmam Sadiqin *(ə)* ikinci oğlu Musa əl-Kazimi *(ə)* yeddinci imam olaraq qəbul etmişdilər. İmam Sadiqin *(ə)* oğlu İsmailin imamətini qəbul edənlər iki qrupa ayrılır. Bunlar İsmailin ölümü ilə əlaqədar ortaya çıxmış və İmam Sadiqin *(ə)* hicrətin 148-ci ilində (miladi 765) vəfatından sonra İmamiyyədən ayrılmışlar. "əl-İsmailiyyətul-Xalisa" və "İsmailiyyətul-Vaqifə" adları ilə tanınan birinci qrup İsmailin atasının sağlığında öldüyünü inkar etməkdə, onun İmam Sadiqdən *(ə)* sonra yeddinci imam olduğuna, bir gün Mehdi və ya Qaim olaraq dönəcəyinə, atasının onu qorumaq məqsədilə öldüyünü söylədiyinə və bunun bir təqiyyə olduğuna qəti olaraq inanmaqdadırlar.[602]

İkinci qrup isə İsmailin atasının sağlığında vəfat etdiyini qəbul edib İsmailin oğlu Məhəmmədin imamətini tanımaqda və onu İsmailin xəlifəsi olmağa layiq görməkdədir. Bu qrup eyni zamanda Məhəmmədi İmam Sadiqin *(ə)* hələ həyatda ikən oğlu İsmailin yerinə təyin etdiyinə də inanmaqdadır. Bu qrupa görə İmam Həsəndən *(ə)* qardaşı Hz.Hüseynə *(ə)* intiqalından sonra imamətin qardaşdan qardaşa keçməsi caiz olmayıb, irəlidəki nəsillərə intiqalı lazımdır.[603]

Fatimi qaynaqlarında İsmailin nəsəbi Ubeydullah əl-Mehdi ibn Hüseyn ibn Əhməd ibn Abdullah ibn Məhəmməd ibn İsmail ibn Cəfər əs-Sadiq *(ə)* şəklindədir. Lakin Ubeydullah əl-Mehdi Yəmənə göndərdiyi bir məktubda soyunun İsmail ibn Cəfər əs-Sadiqə *(ə)* söykənməsini inkar edir və ulu babasının İsmailin böyük qardaşı Abdullah olduğunu, Cəfəri İsmaili deyil Abdullahı özünə varis olaraq təyin etdiyini söyləməkdədir.[604]

---

[602] Şəhristani, əl-Miləl vən-Nihəl, I cild, səh-144.
[603] İdris ibn Həsən, Uyunul-əxbar, Beyrut-1986, V cild, səh-160, 161.
[604] Diyanet İslam Ansiklopedisi, İsmaililik maddəsi, səh-53, 55.

İsmaililər öz əqidələrini lazımi səviyyədə təbliğ edirdilər. İsmaili təbliğatçılarından İbn Xavşəb Yəməndə bu əqidəni yaymağa başlayanda Əbu Abdullah əş-Şiini də Şimali Afrikaya göndərdi. Əbu Abdullah Bərbəri Qutamə qəbiləsinin hörmətini qazanaraq orada İsmaililiyin əsasını qoydu. İmam Ubeydullah əl-Mehdi Abbasilərin itaətindən qurtarmaq üçün ya Yəmənə ya da Şimali Afrikaya gedəcəkdi. Miladi 903-cü ildə (hicri 291) əvvəlcə Rəmləyə gedən Mehdi, oradan da Misirə getdi. Misirdə Abbasi valisinin ona görə sıxıntı çəkdiyini hiss edincə, tərəfdarları ilə birlikdə Şimali Afrikaya doğru hərəkət etdi. Bu arada Əbu Abdullah Şimali Afrikadakı Əğləbilər (800-909) dövlətini yıxmaq üzrə idi və bu Mehdinin istəyinə uyğun idi. Abbasilərdən uzaq dayanmaq istəyən Mehdi uyğun olmayan zamanda onlarla qarşılaşmaq istəmirdi. Lakin İfriqiyyədəki adamları ilə əlaqə saxlaya bilməyən Mehdi Sicilmasəyə getdikdə, şəhərin əmiri tərəfindən həbs edildi. Bu arada 909-cu ildə (hicri 296) Əğləbilərin paytaxtı Riqqəni ələ keçirən Əbu Abdullah son Əğləbi əmiri III Ziyadətullahı (903-909) şəhərdən çıxardı. Miladi tarixi ilə 910-cu ildə Ubeydullah əl-Mehdi Əbu Abdullah ilə birlikdə Riqqəyə daxil olduqdan sonra "Mehdi-lidinillah" və "Əmir-əlmöminin" ləqəbləri ilə xəlifə elan edildi. Onlar özlərini müsəlmanların qanuni xəlifəsi hesab edirdilər. Şiə-İsmailiyyə əqidəli olmalarına baxmayaraq heç vaxt əsarətləri altında olan sünnüləri şiələşdirməmişlər. Fatimilər Şimali Afrikada malikilik, Misirdə isə safeilik məzhəbinin ardıcıllarını heç vaxt təqib etməmişlər.

Miladi tarixi ilə 921-ci ildə Mehdiyyə şəhərini inşa etdirən Fatimilər buranı özlərinə paytaxt etdilər. Lakin sonrakı xəlifələr 948-ci ildə Qeyrəvan yaxınlığında Mənsuriyyə şəhərini qurmuş və burada yerləşmişlər. 973-cü ildə isə xəlifə əl-Muiz (953-975) Tunisdən Misirə köçmüş və bundan sonra Fatimilər xilafəti iki yüz il burada hakimlik etmişdir. Onlar bura köçməzdən dörd il əvvəl fatimi komandanı Cövhər Misiri fəth etmişdir. Qahirə şəhərini inşa etdirən Fatimilər onu "Misirul-Qahirə" adlandırmışlar. Fatmilər Afrika dövründə (909-973) bir çox çətinliklərlə qarşılaşdılar. Şimali Afrika əhli sünnə ilə xaricilər arasında paylaşmışdı. İsmaili məzhəbi bölgədə olan qarışıqlığı daha da artırdı. Qərbdəki Zenata ilə şərqdəki Sənhacə qəbilələri bir-birləri ilə mübarizə halında idilər. Bölgədə eyni zamanda şərq əsilli iki xanədan da var idi. Bunlar Tahərtdəki xarici Rüstəmilərlə (761-909) Fasdakı şiə təmayüllü İdrisilər (789-926) dövləti idi. Xəlifə Ubeydullah əl-Mehdi Afrika xalqının və Maliki alimlərinin müqavimət və etirazları ilə qarşılaşdı. Maliki alimləri Qeyrəvanda və Afrikanın digər şəhərlərində məskunlaşmışdılar.

Mehdi Afrikaya ayaq basdığı andan burada Fatimi xəlifəliyinin hədəflərini reallaşdıra bilməyəcəyini anladı. Çünki əldəki imkanlar çox az idi və Maliki alimləri də onlara qarşı müqavimət göstərirdi. Fatimilər islam dünyasına hakim ola bilmək üçün şərqə hakim olub xüsusilə Misiri ələ keçirməkdən və şərqə doğru yayılmaqdan başqa çarələrinin olmadığını bilirdilər. Xəlifə Mehdi səltənətinin əvvəllərində 913-919-cu illərdə Misirə səfər etsə də oranı fəth edə

bilməmişdi. Bu sınaqlar oğlu və xələfi Qaim Biəmrullah əl-Fatimi (934-946) zamanında da davam etsə də, heç bir nəticə alınmadı. Sünni Afrikalılar keçici bir müddət üçün Fatimi dövlətini təhdid edən xarici Əbu Yezid ən-Nukkarini dəstəklədilər. Ancaq bu hərəkət 947-ci ildə Fatimi xəlifəsi Mənsur Billah (946-953) tərəfindən aradan qaldırıldı. Mənsur Billahın Əbu Yezid üzərində zəfər qazanmasından sonra Fatimilər Mehdiyyəni tərk edərək yeni paytaxt Sayrəl-Mənsuriyyəyə (Səbrə) yerləşdilər. Bura Mənsur Billah tərəfindən Suruşrəvan yaxınlarında Əbu Yezidi dəstəkləyən malikilərə nəzarət etmək üçün qurulmuşdu.

Fatimilərin şərqə doğru genişlənmə düşüncəsi ancaq Fatimi xəlifəsi Muiz Lidinillahın (953-975) tərəfindən həyata keçirildi. əl-Məğribul-Əqsada Fatimi nüfuzunun genişlənməsini təmin edən Fatimi komandiri Cövhər əs-Siqillinin bacarıqları 968-ci ildə xəlifənin diqqətini çəkmiş və onun hərbi dahiliyi sayəsində Misiri ələ keçirə biləcəyini anlamışdı. İxşidilərin (935-969) son güclü valisi Kafurun ölümündən sonra Misirdə baş verən daxili çaxnaşmalar Fatimilərin xeyrinə oldu. Şimali Afrikada Əğləbiləri (800-909), Rüstəmiləri (761-909) və İdrisiləri (789-926) ortadan qaldıran Fatimilər 914, 921 və 935-ci illərdə Misiri ələ keçirməyə çalışmış, lakin buna nail ola bilməmişlər. 958-ci ildə dördüncü və böyük Fatimi hökmdarı əl-Muiz Lidinillah (953-975) Misiri ələ keçirmək üçün edilən böyük planı həyata keçirmədən əvvəl Afrika və Məğrib üzərində böyük nüfuza sahib oldu. Bu işi həyata keçirən Cövhər köhnə Rüstəmi bölgəsindəki müqavimətləri tamamilə yox edərək əvvəldən İdrisilərin paytaxtı olan Fası ələ keçirdi. Beləcə, Atlantik sahillərinə qədər olan bölgə qəti bir şəkildə itaət altına alındı.

Miladi tarixi ilə 968-ci ildə (hicri 358) Muiz Lidinillah Riqqə yaxınlığında əksəriyyəti bərbəri qəbilələri və Saqləbilərdən ibarət yüz min nəfərlik süvari topladı. Cövhər əs-Siqillinin başçılığı altında olan bu ordu 969-cu ildə Misiri ələ keçirdi. Çox keçmədən Misir Abbasi xəlifələrini tanımayan yeni hökmdara tabe oldu, pullar dəyişdirildi və Cümə namazlarında Fatimi hökmdarı Muizzin adına dualar oxunmağa başlandı. Namazda öz növbəsində şiələrin qıldığı şəkildə qılınmağa başlandı. Sonra Cövhər Fələstini və Suriyanın bir hissəsini ələ keçirmək üçün hərəkət etdi. Qahirəni yeni paytaxt etdiyi sıralarda Fatimi imperatorluğu Fasdan Suriyaya qədər uzanır və Abbasi iqtidarı ən böyük rəqibi tərəfindən yıxılmağa lap az qalmış kimi görünürdü. Misirin fəthindən üç il sonra 972-ci ildə Qahirə yaxınlığında baş verən döyüşdə Fatimilər Misirə hücum edən qərmətiləri çətinliklə məğlub edərək Misirdən çıxardı.

Fatimilərin Misiri ələ keçirmələri sadəcə bir hökumətin yerinə başqa bir hökumətin qurulmasından ibarət deyildi. Bu hərəkat dərin təsirləri olacaq dini, siyasi və ictimai bir inqilab demək idi. İslam tarixində ilk dəfə Bağdada bağlı olmayan bir hökumət Misirə hakim olurdu. Fatimilərin Misirə girməsi ilə birlikdə İslam aləmində oynadıqları rolda əsaslı bir şəkildə dəyişdi. Fatimilər Misiri ələ keçirib orada müstəqil bir xəlifəlik qurmalarına baxmayaraq, İslam alə-

minin hamısına heç bir zaman hakim ola bilmədilər və özlərini ümmətin əksəriyyətindən ayrı tutdular. İslam aləminə hökm etmək üçün mərkəz qəbul etdikləri Qahirə Səlib yürüşləri və Monqol istilası sırasında olduğu kimi sonrakı dönəmdə də əhəmiyyətli rol oynamışdır.

Cövhər əs-Siqilli Misiri tutduqdan sonra xəlifə Muiz Lidinillahın təlimatı ilə Fustatın şimal-şərqində yeni bir şəhər inşa etdirdi. Cövhərin Muiz Lidinillahın naibi sifətilə misirə hakimlik etdiyi dörd illik müddət (969-973) ərzində Misir Fatimi tarixinin ən əhəmiyyətli dövrlərindən biri sayılır. Xütbələrdən və sikkələrdən Abbasi xəlifəsinin adı çıxarılıb onun yerinə Fatimi hökmdarı Muiz Lidinillahın adı həkk edilmişdir. Abbasilərin şüarı olan qara rəng qaldırılaraq məsciddəki xətiblərə Fatimilərin şüarı olan ağ rəng geydirilmişdir.

İqtisadi sahədə isə Cövhər bütün gücünü dağılan körpülərin təmiri üçün istifadə və xərac vergisi olaraq adam başına 3,5 dinarı 7 dinara çıxarmışdır. Torpaq sahiblərindən alınan vergilərdə artmışdır. Misir pul vahidini islah edərək nizamını Fatimilərin İfriqiyyədə istifadə etdikləri nizam səviyyəsinə çıxarmış və yüksək qiymətli yeni dinarları tədavülə buraxdırmışdır. Bu dinarlar "ət-dayaniril-Muizzi" olaraq tanınmış, daha əvvəl Misirdə istifadə edilən və "ət-dayanirir-Radi" və "ət-dayaniril-Əbyaz" deyə bilinən köhnə dinarları ləğv etmişdir. Fatimilərin Suriyanı ələ keçirmələri Misir fəthinin davamı idi. Bura Fatimi ordusunu Bağdada gətirərək Büveyhi idarəsinə və Abbasi xilafətinə son verəcək səfərin hərəkət nöqtəsi olacaqdı. Lakin 971-ci ildə (hicri 360) Dəməşqdə qərmətilərlə edilən döyüşdə Fatimilərin Suriya əmiri Cəfər ibn Fəllahın öldürülməsi bütün bu proyektlərin həyata keçməsinə mane oldu. Hətta bu döyüşdən sonra qərmətilər Misirə doğru irəliləyərək Qahirəni təhdid etdilər.

Sərkərdə Cövhərin dəvəti ilə Misirə gələn xəlifə Muiz Lidinillahın ilk işi Cövhəri vəzifədən kənarlaşdırmaq oldu. Yerinə yəhudi təbliğatçısı Yəqub ibn Gillisi gətirərək Misirdəki Fatimi idarəsinin təşkil edilməsini ona buraxdı. Usluc ibn Həsəni də maliyyə məsələlərində İbn Gillisənin köməkçisi təyin etdi. Muiz Lidinillah ilə Əziz Billahın (975-996), Cövhər və Yəqub ibn Gillisin səyləri iki əsr davam edəcək olan Fatimi dövlətinin təməllərini qoydu. Fatimilər Suriyanı ələ keçirməyi digər ölkələrə sahib olmanın zəmanəti kimi görür və xüsusilə Bağdadı ələ keçirmək istəyirdilər. Çünki Bağdad sünni müsəlmalığın mərkəzi idi. Bu siyasəti həyata keçirmək üçün xəlifə Əziz Billah şərq bölgələrindən əsgər toplamağa başladı.

Əziz Billah dövrünün sonlarında Fatimilər dövləti olduqca genişləndi. Fatimi təbliğatçıları Suriya və Şimali Afrikadan sonra Yəmən və Mosulda da təbliğat aparmağa başladılar. Eyni zamanda Əziz Billah Bizans imperatorunun elçisinə hər cümə Konstantinopoldakı məsciddə öz adına xütbə oxunmasını şərt qoymuşdu. Miladi tarixi ilə 996-cı ildə (hicri 386) Əziz Billahın ölümündən sonra Fatimilərdən doqquz adam xəlifəliyə namizəd idi və bunların başında Hakim Biəmrullah gəlirdi.

Hakim Biəmrullahın (996-1021) dövrü ziddiyyətli bir dövr olmuşdur. Xəlifə tez-tez verdiyi bir qərarı qısa müddət sonra dəyişərdi. Fatimilər dövründə yaşanan dini tolerantlığa baxmayaraq nə zimmilər nə də əhli-sünnə mənsubları Hakim Biəmrullahın təzyiqindən xilas ola bildilər. Onun dövründə Misir-Bizans əlaqələri də pozuldu.

Miladi tarixi ilə 1021-ci ildə (hicri 411) Hakim Biəmrullahın ölümündən sonra Fatimi taxtını əz-Zahir (1021-1036) ələ keçirdi.

əz-Zahirdən sonra hakimiyyətə əl-Mustansir Billah (1036-1094) gəlmişdir. Onun dövründə Fatimilər geniş ərazilərə malik oldular. Misir, Cənubi Suriya bölgəsi, Şimali Afrika, Sicilya, Afrikanın Qırmızı dəniz sahilləri, Hicaz və Yəmən bu dövlətin sərhədlərinə daxil idi. Ayrıca Məşriqdə sünnilərin idarəsində olan çoxlu şəhər hakimi də Mustansirə tabe oldu. Lakin bu böyük dövlət qısa müddət ərzində kiçilməyə başladı. Mustansirin ölümündən sonra ismaililərin siyasi nüfuza malik bir qrupu Misirdə Nizara qarşı çıxmağa başladı. Nizar ölən xəlifənin böyük oğlu və varisi idi. Bir qrupda xəlifənin digər oğlu Mustəlinin (1094-1101) xəlifə olmasını istədi. Nəticədə Nizar öldürüldü və onun tərəfdarları olan nizarilər Yəmənə sığındılar. Sonradan Hindistana gələn nizarilər orada öz əqidələrini yaymağa başladılar. Hindistanda onların Xoca və Boxara adlı iki təriqəti vardır. Boxara özlüyündə Süleymaniyyə və Davudiyyə adlı iki hissəyə bölünür.

Fatimilərin çökməkdə olduğu 1045-ci ildə (hicri 436) vəzir Əbul-Qasim Əli ibn Əhməd əl-Cərcərainin ölümü ilə daha aydın oldu. Fatimilərlə Abbasilər arasındakı qarşıdurmada ilk dəfə Bağdadda hazırlanan bir şəcərə problemi ilə ortaya çıxdı. Bu şəcərədə Fatimilərin soyuna dil uzadılmışdı. Fatimilərə qarşı Səlcuqlardan kömək istəyən Abbasilər bir tərəfdən Fatimilərlə Bizanslılar arasındakı əlaqəni pozmağa çalışır, digər tərəfdən də Afrika valisi Muiz ibn Badisi Fatimi hakimiyyətini tanımamağa çağırırdılar. Buna əsasən Muiz ibn Badisi 1051-ci ildə (hicri 443) Fatimilərlə olan bütün əlaqələri kəsib, Afrikada xütbələri Abbasilər adına oxumağa başladı. Səlcuqlular isə Bizansla müqavilə bağlayıb onların Misirə Buğda göndərmələrini dayandırdılar.

Buna cavab olaraq Fatimilər hərbi, siyasi və iqtisadi vasitələrlə Abbasilərə təsir etməyə başladılar. Bu vaxt şərqə gedən iki ticarət arasındakı rəqabəti qızışdırmağı planlayan "şərq strategiyası"na üstünlük verdilər. İsmaililik məzhəbini Hindistana gedən dəniz və quru yolu vasitəsilə Hindistanda yaymağa başladılar. Fatimilər bu yolla bir tərəfdən iqtisadi canlılıq təmin edərək xilafətlərini gücləndirmək, digər tərəfdən də Abbasi xəlifəliyini zəiflətmək istəyirdilər. Fatimilər Aslan Bəsasirinin Abbasi xəlifəsinə başlatdığı qiyamı dəstəkləmiş və Aslan Bağdadı tutaraq xütbəni Fatimi xəlifəsinin adına oxutmuşdur. Abbasi xəlifəsi Qaim Biəmrullahı (1031-1075) da 1058-ci ildə bir il müddətinə həbs etmişdir. Ancaq islam dünyasında ifrat sünniliyi təbliğ edən Səlcuqlu Türkləri Toğrul Bəyin başçılığı ilə Abbasi xəlifəliyini Fatimilərin əlinə düşməkdən qur-

tardı. Nəticədə Fatimilər Suriya bölgəsindəki yerlərini itirdilər və bu ərazilər 1075-ci ildə (hicri 468) Səlcuqluların əlinə keçdi.

Misir bu dövrdə böyük bir böhrana düşdü. Müxtəlif hərbi qruplar arasında meydana gələn qarşıdurmalar da daxili qarışıqlığa səbəb oldu. Hadisələrin mənfi istiqamətdə inkişafı xəlifə Mustansir Billahı ordu komandiri Bədr əl-Cəmalini köməyə çağırmağa məcbur etdi. 1074-cü ildə Misirə gələn Bədr əl-Cəmali anarxiyanı idarə altına almağa, dinclik, təhlükəsizlik və sabitliyi yenidən təsis etməyə müvəffəq oldu.

Buna qarşılıq olaraq xəlifə səlahiyyətlərini Bədr əl-Cəmaliyə verdi. Beləcə Fatimilər tarixində yeni bir dövr başladı. "Vəzirlərin nüfuz əsri" adı verilən bu dövrdə dövlətin işlərini əmirlər idarə edirdilər. Bədr əl-Cəmali və xələfləri Əfdal və Məmun əl-Bataihinin qurduqları nizam Fatimi dövlətini yıxılmaqdan qurtardı və dövlətin ömrünü bir əsr daha uzatdı.

Atasının yerinə vəzirlik məqamına keçən Əfdal ibn Bədr xəlifə Mustansirin kiçik oğlunu "Mustəli Billah" (1094-1101) ləqəbilə xəlifə təyin etdi. Əfdal tərəfindən reallaşdırılan bu siyasi inqilab İsmaililəri Mustəliyyə və Nizariyyə olaraq ikiyə böldü. Misir, Suriya, Yəmən və Hindistandakı İsmaililərin əksəriyyəti Mustəlinin imamlığını tanıdı. İran İsmaililəri isə Həsən Sabbağın başçılığında Nizarın (Mustansirin oğlu) imamlığını tanıdılar. Bu qrupa eyni zamanda "əl-İsmailiy-yətul-cədidə" də deyilir.

Miladi tarixi ilə 1101-ci ildə Mustəlinin ölümündən sonra vəzir Əfdal onun yerinə Əbu Əli Mənsuru (1101-1130) keçirərək ona "Amir Biahkamillah" ləqəbini verdi. Bu vaxt Əbu Əlinin beş yaşı var idi. Beləcə iyirmi il boyunca ölkənin tək hakimi olan Əfdal ibn Bədr ilk iş olaraq iş mərkəzini Qahirədən Fustata köçürdü. Onun zamanında divanlarda işləyən xristianların sayı artdı. Suriya bölgəsinə xaçlıların hücumu onun dövründə başlasa da Əfdal ibn Bədr bu hücumlara əhəmiyyət verə bilmədi. Hətta Səlcuqlulara qarşı Xaçlılarla razılaşmağa belə çalışdı. Lakin sonunda dövlət Suriyadakı şəhərlərini itirmə təhlükəsiylə qarşı-qarşıya gəldi. Bu şəhərlərin başında Qüds, Akka, Sur və Sayda idi. Amir Biahkamillah yetkin bir gənc olunca Əmr Məhəmməd ibn Fateh ilə əməkdaşlıq edərək 1121-ci ildə (hicri 515) Əfdal ibn Bədri aradan götürdü. Onun ölümündən sonra Amir Biahkamillah 1122-ci ildə Bataihini "əl-Məmun Tacul-xilafə" ləqəbilə vəzir təyin etdi. Ayrıca əmirlərin, ustadların və mütəfəkkirlərin "Amin" olan ləqəblərini "Məmuniyə" çevirərək ona şərəf və etibar qazandırdı. Xəlifə Amir ilə vəzir Məmunun dövrü (1122-1125) Fatimilərin Misirdəki ən parlaq dövrü oldu.

Məmun ilə arasındakı ittifaqa baxmayaraq ölkədə təkbaşına söz sahibi olmaq istəyən Amir 1125-ci ildə Məmunu vəzifədən götürərək həbs etdirdi, üç il sonra isə edam etdirdi. Ancaq dövləti təkbaşına idarə edə bilmədiyi üçün biri müsəlman, digəri isə Samiri dinli iki adamı divanda işə təyin etdi. Əbu Nəcah ibn Qana adlı rahibi də müstəvfi təyin etmək məcburiyyətində qaldı. Bu rahibin dövründə müsəlmanlar həbs edilir və təhqirə məruz qalırdılar. Bu vəziyyət isə

müsəlmanların üsyanına səbəb oldu. Amirin xilafəti uzin çəkmədi və Rovza adasına gedərkən Nizarilər tərəfindən 1130-cu ildə öldürüldü.

Amirin varis buraxmadan ölməsi yeni bir böhrana səbəb oldu. Çünki Fatimi dövləti tarixində daha əvvəl imamətə varis axtarılması kimi bir məsələ ilə qarşılaşmamışdı. Fatimi tarixində ilk dəfə İsmaililərin təbiri ilə "Əmanətçi İmam" (əl-imamul-mustəvda) təyin edildi. Bu imam Amirin əmisinin oğlu Əbul-Meymun Əbdülməcid oldu. Qohumlar içində ən böyüyü olan Əbul-Meymuna doğumu gözlənən vəliəhdin zamini olaraq beyət edildi. Əsgərlər isə Bədr əl-Cəmalinin nəvəsi Əbu Əli Əhməd ibn Əfdalı vəzirlik məqamına gətirdilər. Əbu Əli də Əbdülməcidi həbs etdirərək İmamiyyənin gözlənilən on ikinci imamı adına təbliğata başladı və İsmaili məzhəbinə aid fəaliyyətləri dayandırdı. Gözlənilən imam adına pul kəsib üzərinə "Allahus-saməd əl-İmam Muhəmməd" ibarəsini yazdırdı. Lakin bir il sonra 1131-ci ildə Əbu Əli öldürüldü. Amir Biahkamillahın tərəfdarları Əmr Əbdülməcidə yenidən beyət etdilər. Qısa müddət sonra özünü xəlifə elan edən Əbdülməcid özünə "əl-Hafiz Lidinillah" (1130-1149) ləqəbini götürdü.

Fatimi dövləti son qırx il içində sürətli bir geriləməyə düşmüşdür. Belə ki, xilafətin nüfuzu yalnız Misirdə qaldı. Hafiz Lidinillah və xəlifələrin imamətini tanımayan digər tabeləri onlardan ayrıldılar. Beləcə bu son qırx il içində Fatimilər Qahirədə məhəlli bir xanədan kimi hökm sürdülər.

Hafiz Lidinillah oğlu Həsəni öldürərək ondan xilas olunca 1135-ci ildə Erməni Bəhramı vəzirlik məqamına gətirməyə məcbur oldu və ona "Seyful-İslam Tacul-xüləfa" ləqəbini verdi. Bundan istifadə edən Bəhram Ermənistandan irqdaşlarını Misirə yerləşdirdi. Sayları otuz min olan ermənilər bir çox kilsələr tikdilər. Misirlilər bundan qorxmağa başladılar. Divandakı bir çox vəzifəli adamlar da xristian idi. Bəhramın qardaşı Basak da Kus valiliyinə təyin edildi.Vali Kusdəki müsəlmanlara zülm edib onları qarət etməyə başladı. Müsəlmanlar bu vəziyyət qarşısında nüfuzlu bir dövlət adamı olan Rizvan ibn Velahşadan kömək istədilər. Xəlifə Hafiz Lidinillah da əmrlərin təzyiqinə boyun əyərək onu 1137-ci ildə "əs-Seyyidul-əcəlul-əfdal-cüyuş" ləqəbi ilə vəzir təyin etdi.

Rizvan ilk iş olaraq xalqının əksəriyyəti sünni olan İsgəndəriyyədəki sünni fəaliyyətlərə rəhbərlik etdi. 1138-ci ildə İsgəndəriyyədə Misirin ilk İslam mədrəsəsini yaratdı. Ancaq xəlifənin əsgərlərinin təzyiqi ilə buradan qaçaraq Sərhad valisi Əmirud-dövlə gümüştəkin əl-Atabəyiyə sığındı. Hafiz Lidinillah Rizvandan sonra vəzirlik məqamını boş saxladı və ölümünə qədər (1149) rəhbərliyi öz əlində saxladı. Hafizdən sonra bütün valilər vəzirlik məqamına göz dikib bunun uğrunda rəqabətə başladılar.

Bu vaxt sünnilərdən də vəzirlik məqamına gətirilənlər də oldu. Adil ibn Səllar bunlardan biri olmuşdur. Vəzirlik uğrundakı bu çəkişmələr ölkə daxilində və hətta sarayda qalmaqallara səbəb olurdu. 1144-cü ildə (hicri 539) Misirə gələn Əmr Usamə ibn Münqiz bu intriqaların yoluna qoyulmasında böyük rol oynamış və intriqalar 1153-cü ildə (548) vəzir İbn əs-Səlların ölümü, Abbas əs-

Sanhacinin vəzirlik məqamına gəlməsi və oğlu Nəsrin xəlifə Zafir Biəmrillahı (1149-1154) öldürməsiylə sona çatmışdır. Xaçlılar bu qarışıqlıqları fürsət bilərək Fatimilərin Suriyadakı son qalası olan Əsqalanı da 1153-cü ildə işğal etdilər.

Xəlifə Zafirin öldürülməsindən sonra Abbas əs-Sanhaci onun kiçik oğlu "Faiz Lidinillahı" (1154-1160) xəlifə təyin etdi. Saraydakı qadınlar Talail ibn Ruzziqə sığınaraq ondan xilafəti qurmasını istədilər. Bu eşidən Abbas və oğlu Nəsr Suriyaya qaçdılar. Talail ibn Ruzziq Fatimilərin güclü vəzirlərinin sonuncusudur. Onun mövqe ehtirası elə bir həddə çatmışdı ki, xəlifə Faiz Lidinillahın 1160-cı ildə varis buraxmadan ölməsi üzərinə yerinə "Azid Lidinillah" ləqəbiylə onun nəvəsi Əmr Abdullahı keçirmiş və xilafətə Ruzziq oğullarının ortaq olması ümidilə qızını xəlifə ilə evləndirmişdir. Fatimi dövlətinin son on ili vəzirlik mövqeyində gözü olan valilər arasındakı daxili çəkişmələr və xarici hücumlardan qaynaqlanan döyüşlərlə keçmişdir.

Şavər ibn Mucir və Dirqam ibn Amir arasındakı mübarizədə Şavər Dəməşq əmiri Nurəddin Mahmuda sığındı. O da Əsəduddin Şirkuh əl-Mənsurun əmrindəki ordunu Misirə göndərdi. Lakin Şavərin Nurəddinə verdiyi sözü yerinə yetirməyərək Şirkuhdan Misiri tərk etməsini istəməsi üzərinə Əsəduddinin ordusu Bilbisi zəbt etdi və şərq vilayətlərini idarəsi altına aldı. Şavər xaçlılara sığınaraq Şirkuha qarşı onlardan yardım istədi. Bu vəziyyət Nurəddin ilə Kral Amariy ordularının Misir üzərindəki arzularını təhrik etdi. Sonunda Şavər öldürüldü və Nurəddinin ordusu Misirə daxil oldu. 1169-cu ildə Əsəduddin Şirkuh Fatimi vəzirliyinə təyin edildi, lakin iki ay sonra vəfat etdi. Bunun üzərinə xəlifə Azid (1160-1171) onun qardaşı oğlu Səlahəddin Əyyubini vəzirlik məqamına gətirdi. Beləcə Misirdə və Orta Şərqdə yeni bir dövr başlamış, Misirdə Fatimilər adına xütbələrə son verilmiş və Abbasilər adına xütbə oxunmağa başlanmışdır.

Beləliklə, Fatimilər böyük bir imperatorluq qurmuş və bunu uzun illər idarə edə bilmişlər. Onların idarəsi altında Tunis, Cəzair, Fas, Liviya, Siciliya, Sardiniya, Korsika, Malta, Misir, Suriya, Livan, Fələstin, Hicaz, İordaniya, Yəmən və s. bölgələr daxil olmuşdur. Atlantik okeanından Oman dənizinədək olan və həmçinin İtaliya və İspaniya torpaqlarınadək gedib çıxan bu imperiyaya Hindistanın Pəncabında tabe olan dövlət belə var idi.

Fatimi xəlifələri və onların hakimiyyət müddətləri:

1. əl-Mehdi (910-934)
2. əl-Qaim (934-946)
3. əl-Mənsur (946-953)
4. əl-Muiz (953-975)
5. əl-Əziz (975-996)
6. əl-Hakim (996-1021)
7. əz-Zahir (1021-1036)
8. əl-Mustansir (1036-1094)
9. əl-Mustəli (1094-1101)

10. əl-Amir (1101-1130)
11. əl-Hafiz (1130-1149)
12. əz-Zafir (1149-1154)
13. əl-Faiz (1154-1160)
14. əl-Azid (1160-1171)[605]

Büveyhilər dövləti hicri 320-454/miladi 932-1055 (1062)

Büveyhilər dövləti miladın X əsrində meydana gəlmiş şiə təmayüllü bir dövlət olmuşdur. Bu dövlətin banisi Sasani imperatorlarının soyundan olan Əbu Şuca Büveyhidir. Məşhur İslam tarixçisi İbn Kəsir onlar haqqında yazır: "Bunlar Əbu Şucanın oğulları idilər. Əbu Şucanın şəcərəsi belədir: Əbu Şuca Büveyh ibn Qabaxosrov ibn Təmmam ibn Qum ibn Şirzil əl-Əsğər ibn Şirgedeh ibn Şirqil ibn Sisan ibn Bəhramgur əl-Məlik ibn Yəzdəgird əl-Məlik ibn Sabur Ziləktaf əl-Farisi.[606]

Qərbdəki bərbəri üsyanı, Bağdadın Deyləmdən gələn Büveyhilər tərəfindən zəbt edilməsi ilə eyni dövrə düşdü. Deyləmlilər də Türklər kimi Bağdadın daxil olduğu İslam dünyasına pullu əsgər təmin edən vəhşi dağlılar idi.

Deyləm, İranın şimalında Gilan əyalətinin bir hissəsini təşkil edən, Xəzər dənizi ilə Qəzvin arasındakı dağlıq bölgənin və bu bölgədə yaşayan qövmün adıdır. Deyləmin sərhədlərini tam olaraq təsbit etmək olduqca çətindir. Çünki bu sərhədlər Deyləm xalqının bu bölgəyə sonradan ilhaq etdikləri torpaqlar səbəbi ilə zaman-zaman dəyişmişdir. Büveyhilərin zirvədə olduğu IV (X) yüzillikdə Deyləm adı Xəzər dənizinin cənubundakı bütün əyalətləri əhatə etməkdə idi. İslam alimi İstəxri Deyləmin cənubda Qəzvin, Azərbaycan və Reyin bir hissəsi ilə şərqdə Təbəristan və Reyin digər hissəsi, şimalda Xəzər dənizi, qərbdə Azərbaycanın bir hissəsi və Arran bölgələri ilə məhdudlaşdırıldığını ifadə edir və əsl Deyləmin dağlıq bölgədən ibarət olduğunu deyir. "Hududul-aləm"də Təbərinstan, Cibal, Gilan və Cürcan da Deyləmin sərhədləri içində göstərildikdən sonra Deyləmi-Xassə adı verilən əsl Deyləmin şərqdə Təbəristan, cənubda Cibal, şimal-qərbdə Gilan və şimal-şərqdə Xəzər dənizi ilə sərhəd olduğu yazılmaqdadır. Məqdisi isə Xəzər dənizinin ətrafındakı sahənin tamamını, Kumisi, Cürcan və Təbəristanı, hətta Volqa sərhədlərində Xəzərlərin hökm sürdüyü bölgəni də Deyləmə daxil edir. Deyləm hökmdarları Alamut qalası yaxınlığındakı Rudbar şəhərində otururdular. Gerçək mənada Deyləm, Elburus dağlarının Xəzər dənizinə baxan yamacları üzərindəki bölgədədir. Deyləmdə qış ayları soyuq, yaz ayları isə ilıq keçir. Bölgə taxıl və meyvə yetişdirməyə əlverişlidir.

Etnik mənşələri qəti olaraq təsbit edilməyən Deyləmlilərin adlarına yazılı qaynaqlarda ilk dəfə miladdan əvvəl ikinci əsrdə rast gəlinir. Ehtimalla çox köhnə tarixlərdən bəri İranda yaşayan, lakin İranlı olmayan bir qövmə mənsub-

[605] Yılmaz Öztuna, İslam dövlətləri, I cild, səh-326.
[606] əl-Bidayətu vən-Nihayə, Çağrı yayınlar, XI cild, səh-303, 304.

durlar. Deyləmlilərin Dabbə ibn Ud adlı ərəb qəbiləsindən olduqlarına dair rəvayətlər də vardır. Bu rəvayətə görə Dabbənin oğlu Basil İrana getmiş, orada İranlı bir qadınla evlənmiş və doğulan uşaqlarına Deyləm adını vermişlər. Ancaq bu rəvayət tam doğru qəbul edilməmişdir. İran qaynaqlarında Deyləm adı ilk dəfə Sasani xanədanın qurucusu I Ərdəşirin (225-240) həyatından bəhs edilərkən keçir. Sasanilər dövrünün əvvəllərində Deyləmlilərdən ehtiyat edilirdi. Ancaq bu qövm çox keçmədən özünü göstərərək Sasanilərə yaxınlaşdı və onların içərisində ordu komandanlığına qədər yüksələnlər oldu. Necə ki, I Xosrov (531-579) dövründə bir Deyləm birliyi Gürcüstana təşkil edilən bir səfərə qatıldığı kimi, digər bir birlik də Həbəşilərə qarşı Yəməni müdafiə etmək məqsədilə oraya göndərildi və birlik Həbəşiləri qovduqdan sonra Yəməndə qaldı. Sasanilər döyüşçü bir qövm olan Deyləmliləri heç bir zaman tam olaraq hakimiyyət altına ala bilmədilər, onlara qarşı cənubda Qəzvin, şimal-şərqdə Kəlar və Şalus qalalarını tikmək məcburiyyətində qaldılar.

Büveyhi xanədanlığı adını, Deyləmli bir qəbilənin rəisi olan Əbu Şuca Büveyhidən götürür və bu şəxsin Əli, Həsən və Əhməd adlı oğullarının səyləri nəticəsində qüvvət qazanmışdır.

Əbu Şucanın adı çəkilən oğlanları Deyləmilər dövlətində, ordu sıralarında pullu xidmət etmişlər. Orduda göstərdikləri yüksək xidmətləri müqabilində yüksək vəzifələr əldə etmiş və nəhayət Xəzər dənizinin qərbində özlərinin müstəqil olduqlarını elan etdilər. Xəzər dənizinin qərbində olan Deyləmilər dövləti qarətçi bir siyasət apardığından əhali tez bir zamanda Büveyhilərin tərəfinə keçmişdir.

Tarixdən məlumdur ki, Deyləmilər ordularını pullu xidmətlə qurmuşdular. Onların ordusunda türk və yerli əsgərlər qulluq edirdilər. Əbu Şucanın Əli və Həsən adlı oğulları həmin ordunun tərkibində yüksək rütbəli hərbçi olduqlarından dövlətin etibarını qazanmışdılar. Mərdəviclə Məqan arasında baş verən döyüşdə Mərdəvicin güclü olduğunu görən Əli ibn Şuca Büveyhi onun tərəfinə keçdi. Bundan razı olan Mərdəvic Əlini Kərəç valiliyinə təyin etdi. Tez bir zamanda Əlinin güclənməsindən qorxuya düşən Mərdəvic ona verdiyi imtiyazları geri almaq istəsə də bacarmadı.

Əli ibn Əbu Şuca Kərəçdə hakimiyyətini möhkəmlədərək Şiraz, Əhvaz və Ərrəcanı tutdu. Həmin ərazilərin xəracını toplayaraq böyük bir ordu ilə Mərdəvicin üzərinə getdi. Lakin Mərdəviclə sülh bağlayan Əli ibn Əbu Şuca qardaşı Əhmədi onun sarayında girov qoydu. Buna görə Mərdəvic Əli ibn Büveyhini Ərracan valiliyinə təyin etdi. Şimali İranın böyük bir hissəsini Sasanilərin əlindən alaraq, ərazisini Cənubda İsfəhan və Həmədana qədər genişlədən Mərdəvic ibn Ziyarın 935-ci ildə öldürülməsindən sonra, torpaqları bu üç qardaşın əlinə keçdi. Bundan istifadə edən qardaşlar, idarə altına aldıqları bölgəni genişləndirməyə davam etdilər: Əli İsfəhan və Farsda öz gücünü gücləndirdi, Həsən Rey və Həmədanı ələ keçirərkən, Əhməd cənub-şərqdə Kirmanı və cənub-qərbdə Xuzistanı itaət altına aldı. Beləliklə, 935-ci ildə Əli ibn Əbu Şuca özünü bütün

farsın hökmdarı olduğunu elan etdi və bütün fars torpaqlarını öz hakimiyyəti altında birləşdirdi.

Bundan sonra Abbasi xəlifəsi Razi (934-940) onun hakimiyyətini tanıdı və ona valilik möhürünü verdi. Qısa müddət sonra Əli ibn Əbu Şuca xəlifədən üstün olduğunu və ona tabe olmadığını elan etdi. Bununla razılaşan xəlifə onun müstəqilliyini tanıdı. Büveyhi hökmdarı Əli qardaşı Həsənlə birlikdə Rey, Həmədan və İraq ərazisini də zəbt etdi. O, qardaşı Əhmədi Səffarilərin (867-1500) əlində olan Kirman vilayəti üzərinə göndərdi. Kirmanı, Əhvazı və Xuzistanı öz torpaqlarına qatan Büveyhilər sərhədlərini qərbə tərəf genişləndirməyə başladılar. Əhməd ibn Əbu Şuca Beveyh 945-ci ildə Abbasilərin paytaxtı olan Bağdada gəldi. Heç bir müqavimətə rast gəlməyən Əhməd ibn Əbu Şuca Bağdada asanlıqla ələ keçirdi. Əhmədi qarşılayan Abbasi xəlifəsi əl-Müstəkfi (944-946) ona Əmiril-üməra (baş komandan) ünvanı və Muizuddövlə (dövləti gücləndirən) ləqəbini verdi. Onun ardınca qardaşları Əli ibn Əbu Şuca İmaduddövlə (dövlətin dirəyi), Həsən ibn Əbu Şuca isə Ruknuddövlə (dövlətin dəstəyi) ünvanlarını aldılar. Beləliklə, 935-ci ildə Qərbi İranı, 945-ci ildə isə Bağdadı tutan Büveyhilər Abbasi xilafətinin siyasi hakimiyyətinə son qoymuş oldular.

Büveyhilər dövləti öz sərhədlərini genişləndirərək xilafətdən üstün bir hala gəldilər. Muizzuddövlə Əhməd 946-cı ildə Abbasi xəlifəsi Müstəkfinin gözlərinə mil çəkib onu kor etdikdən sonra yerinə qardaşı oğlu Mutini (946-974) xəlifə təyin etdi. Bundan sonra hakimiyyətə gələn İzududdövlə (967-978) xəlifə Mutini hakimiyyətdən uzaqlaşdırıb yerinə Tai Lillahi (974-991) Abbasi xəlifəsi təyin etdi. Büveyhilər şiə inancına bağlı idilər və bu səbəblə sünni xəlifələrin söykəndikləri dini təlimləri qəbul etmirdilər. Onlar abbasiləri hakimiyyətdə saxlamaqla öz siyasi məqsədləri üçün istifadə edir və bununla da öz varlıqlarını davam etdirirdilər. Xəlifəliyi dini bir müəssisə olaraq qəbul edən, lakin digər istiqamətlərdən müstəqil olan vilayət hökmdarları bu təsdiqi camaatla qılınan Cümə namazlarında və digər mərasimlərdə oxunan xütbələrə iqtidarda olan xəlifənin adından bəhs edərək göstərirdilər. Lakin Bağdadda oxunan xütbə ayrıca siyasi hakimiyyətin də simvolu idi. Xəlifənin bu imtiyazına da gizli şəkildə təcavüz edilir və paytaxtdakı məscidlərin minbərlərindən oxunan xütbələrdə xəlifənin adı ilə birlikdə yeni əmirin adı da istifadə edilməyə başlayırdı. Büveyhilər Bağdadda kəsilən mədən pullarının bir üzünə öz adlarını həkk etdirirdilər. Şiəlik, Büveyhilər tərəfindən Bağdadda 1055-ci ilə qədər qorundu və təşviq edildi.

Büveyhilərin ən üstün və güclü dövrü Adududdövlənin (978-983) dövrünə təsadüf edir. O, Bağdadda öz adına xəstəxana tikdirdi və onun bütün xidmətlərini pulsuz etdi. Bundan başqa o, elm və mədəniyyətin yayılmasını, memarlıq sənətinin genişləndirilməsinə şərait yaratdı. Onun vaxtında suvarma sistemləri genişləndirilmiş, Büveyhilərin paytaxtı Şirazda, həmçinin Bağdadda və digər bölgələrdə tikinti işləri aparılmışdır. Adududdövlənin ölümündən sonra oğlu Samsamuddövlə (983-987) Büveyhi hakimi təyin edildi. Abbasi xəlifəsi Tai

Lillah ona Şəmsulmillət (millətin günəşi) ləqəbini verdi. Adududdövlənin oğlanları Samsamuddövlə, Şərəfuddövlə və Bəhauddövlə arasında çıxan hakimiyyət davasında Şərəfuddövlə Samsamuddövləni həbs etdirdi. Büveyhi taxtına çıxan Şərəfuddövləni (987-989) Bağdadda qarşılayan xəlifə Tai Lillah ona əmirlik tacını verdi. 989-cu ildə ölən Şərəfuddövlənin yerinə qardaşı Bəhauddövlə (989-1012) keçdi. Bu arada zindandan qaçan Samsamuddövlə böyük bir ordu toplayaraq qardaşı Bahauddövlənin üzərinə getdi. Ağır döyüşdən sonra iki qardaş arasında sülh bağlansa da, bu sülh uzun çəkmədi. Nəhayət 998-ci ildə baş verən döyüşdə Samsamuddövlə öldürüldü.

Büveyhi Bəhauddövlə ilə abbasi xəlifəsi Tai Lillah arasında olan münasibətlər də pisləşmişdi. Bəhauddövlə xəlifəni vəzifədən uzaqlaşdırıb onun taxt-tacını yandırdı və xilafətin bütün xəzinələrini ələ keçirdi. O, Tai Lillahın yerinə abbasi xəlifəsi olaraq Qadir Billahi (991-1031) təyin etdi. İyirmi beş illik hakimiyyətdən sonra 1012-ci ildə ölən Bəhauddövlə Nəcəfdə dəfn edildi. Onun yerinə Büveyhi hakimi təyin edilən oğlu Sultanuddövlə (1012-1021) dərhal qardaşları ilə siyasi çəkişmələrə başladı. Buna görə qardaşı Qivamuddövlə Qəznəli Mahmuda sığındı.

Bu dəfə Sultanuddövlə Bağdaddan ayrılaraq yerinə qardaşı Muşərəfuddövləni (1021-1025) buraxdı. Daha sonra ona qarşı cəbhə açaraq oğlu Əbu Qəlicar əmrində göndərdiyi bir qüvvətlə Bağdada dönmək istəsədə alınmadı. Muşərəfuddövlə ölüncə Bağdada onun üçüncü qardaşı Cəlaluddövlə (1025-1044) hakimlik etməyə başladı. Bəsrədən gələn Cəlaluddövlə ilə qardaşı oğlu Əbu Qəlicar arasında ixtilaf yarandı. Ancaq qısa vaxt ərzində Bağdadda vəziyyət onun lehinə sabitliyə qovuşdu.

1044-cü ildə Cəlaluddövlənin ölümündən sonra yerinə oğlu Məlikuləziz ləqəbli Firuz keçdi. Lakin Cəlaluddövlənin yeznəsi olan Əbu Qəlicar (1044-1048) ordu sərkərdələrini pulla öz tərəfinə çəkdi və Bağdadda hakimiyyəti ələ keçirdi. Səlcuqlu hökmdarı Toğrul Bəyin (1038-1065) tərəfinə keçən Əbu Qəlicar 1046-cı ildə İsfəhan müharibəsində də qalib gəldi. 1048-ci il Əbu Qəlicarın ölümündən sonra yerinə oğlu Məlikurrahim (1048-1056) keçdi. 1055-ci ildə Bağdadı işğal edən Toğrul Bəy Məlikurrahimi də həbs etdi və Büveyhilər dövlətinə son qoydu. Rey qalasında dörd il həbsdə qalan Məlikurrahim 1059-cu ildə öldü. Lakin buna baxmayaraq Büveyhilərin Fars qolu 1062-ci ilə qədər hakimiyyətini davam etdirdi. Buna görə də bəzi müəlliflər Büveyhilərin hakimiyyət dövrünün 1062-ci ildə sona yetdiyini yazırlar.[607]

Büveyhilər Bağdadda xilafətin müqəddəratına hakim olmaqla birlikdə, öz adlarına qurduqları məhəlli əmirlikləri də təmsil edirdilər. Büveyhioğullarının böyüyü Əmiruluməra Əli Əbul-Hüseyn Əyhamuddövlə Fars bölgəsinə hakimlik edirdi. Qardaşı Əhməd ibn Əbu Şuca Muizuddövlə də onun adına İraq, Əh-

[607]Nuri Ünli, İslam Tarihi, ikinci nəşr, İstanbul-1997, I cild, səh-293.

vaz və Kirmanı naibi olaraq idarə edirdi. Digər qardaşı Əbu Əli əl-Həsən Ruknuddövlə isə Rey, Tiaməzan və İsfəhan şəhərlərinə hakimlik edirdi.

Əmirul-uməra ünvanı daşıyan büveyhi hökmdarlarının başında olan administrativ təşkilat divanlardan ibarət idi. Büveyhi dövlətində başlanğıcda "katib" ünvanı ilə vəzifə yerinə yetirən vəzirin çox əhmiyyəti yox idi. Buna baxmayaraq vəzir divanların başçısı idi. Ancaq onun ən əhəmiyyətli vəzifəsi, təməlini Deyləmli və Türk əsgərlərinin meydana gətirdikləri ordunun maaşını təmin etmək və maliyyə işlərində əmirul-uməranın vəkili olaraq vəzifə həyata keçirmək idi. Vəzir işlərində bir növ katiblik edərək köməkçi olan "sahibi divan" ünvanlı məmurlar var idi. Abbasilərdə mövcud olan "Divanul-vizarə", "Divanur-rəsail", "Divanul-bərid", "Divanun-nəfaqat" və "Divanul-ceyş" Büveyhilər dövründə də eyni vəzifələri yerinə yetirirdi. Məhəlli idarələr valilərin və bəzən əsgəri komandir olaraq da vəzifə yerinə yetirən vergi amillərinin əlində idi.

Büveyhilər dövründə Elm və Mədəniyyət

Büveyhi hökmadarı Muizuddövlə (945-967) və vəziri Əbu Məhəmməd əl-Muhəlləbi dövründə Bağdad ədəbi mərkəzə çevrildi. Muhəlləbi vəzir olduğu zaman bəzi alim və şairlər onun ətrafında toplaşmışdılar. Bunlar arasında Bənul-Münəccim deyilən şairlər ailəsi də var idi. Əbul-Fərac əl-İsfəhani və Əbu İshaq İbrahim ibn Hilal əs-Sabi də o dövrün qabaqcıl müəlliflərindən olmuşlar.

Büveyhi hakimi Adududdövlə (978-983) elm adamlarına dəyər verər, onları mükafatlandırardı. Adududdövlənin ətrafındakı elm adamlarından biri olan Əbu Əli əl-Faras onun üçün "əl-İzah vət-Təkmilə" adlı bir qrammatika kitabı yazmışdı. Əbu Səid əs-Sirafi ilə İbn Cini də o dövrün məşhur qrammatikaçılarından idilər. Adududdövlənin Bağdadda qurduğu xəstəxana çevrəsində böyük bir tibb mərkəzi inkişaf etdi. Burada Cəbrail ibn Buhtişi kimi səlahiyyətli həkimlər vəzifədə oldular. Bu sahənin qabaqda gələn isimlərindən Əli ibn Abbas əl-Məcusi Adududdövlə adına "Kamiliş-Şmaatit-Tibbiyyi" adlı bir əsər yazmışdı. Adududdövlə dövrünün ərəb müəlliflərindən biri də Qazi Əbu Əli əl-Muhassan ət-Tənuhi idi. "Təcaribul-İlm" adlı əsərin müəllifi İbn Miskəveyh o dönəmin məşhur filosof və tarixçilərindən olmuşdur. Adududdövlənin himayə etdiyi şairlər arasında Əbul-Həsən ibn Abdullah əs-Sələmi, İbn Nubatə əs-Səidi və Əli ət-Təbəri də olmuşdur. Adududdövlə dövrünün məntiq, fəlsəfə və kəlam sahəsində irəli gələn alimləri arasında İbn Sina, Əbu Süleyman əs-Sicistani, Əbul-Həsən əl-Amiri və Bəqıllanı sayıla bilər.

Büveyhilərdən Şərəfuddövlə (987-989) də elmi mövzularla maraqlanırdı. O, Fars bölgəsində vali olarkən Şirazda yeni bir kitabxana tikdirmişdi. Onun zamanının qabaqda gələn alimləri Əbu Səhl ibn Rüstəm əl-Kuhi, Əbu Əhməd əs-Saqani və Əbul-Vəfa Muhəmməd əl-Buzcani idi. İbn-Nədim də məşhur əsəri olan "əl-Fihrist"i 377-ildə (987-988) Büveyhilərin idarəsi altında olan Bağdadda təltif etmişdir.

Quran və hədis sahəsindəki məşhur alimlər arasında Şeyx Səduq, Əbu Əhməd Muhəmməd ibn Hüseyni İsfəhani, Əbu Əhməd Muhəmməd ibn Hüseyn Cürcani, Əbul-Həsən Əli ibn Ömər Dəraqutni, Əbu Nəsr İsmail ibn Həmmadi Cövhəri, Əbu Abdullah Məhəmməd ibn Abdullah, fiqh, üsul və təfsir alimləri arasında da Əbul-Həsən Abdullah ibn Hüseyn Kərxi, İmam Əbu Bəkr Əhməd ibn İbrahim Cürcani, Əhməd ibn Hüseyn ibn Təbəri qabaqcıl alimlərdən sayılırdı. Şiə hədis ədəbiyyatının özül əsəri olan "Mən la yəhzuruhul-Fəqih" əsəri, həmçinin İbn Qövliveyhin "Kamiluz-Ziyarət" əsəri məhz bu dövrdə yazılmışdır. Məşhur şiə alimlərindən olan Şeyx Müfid (v. 1022) və Seyid Murtəza (v. 1044) da Büveyhilər dövründə yazıb-yaratmışlar.

O dövrün məşhur təbiblərindən olan İbn Sina da Büveyhi saraylarında işləmiş və məşhur əsəri "əl-Qanun fit-Tibb"i orada tamamlamışdır.

Göründüyü kimi Büveyhilər dövründə elm və mədəniyyət özünün ən inkişaf etmiş mərhələsinə çatmışdır. Büveyhilər farsca danışmış, lakin onların rəsmi yazışmaları ərəb dilində olmuşdur.[608]

Büveyhilər dövlətində hökmranlıq etmiş şəxslər və hakimiyyət illəri:

A) Bağdad Əmirul-uməraları (945-1056):

1) Muizzuddövlə Əhməd ibn Büveyh (945-967)
2) İzududdövlə Əbu Mənsur Bəxtiyar (967-978)
3) Adududdövlə Əbu Şuca ibn Ruknuddövlə (978-983)
4) Səmsamuddövlə Əbu Qəlicar ibn Adududdövlə (983-987)
5) Şərəfuddövlə Əbul Fəvaris ibn Adududdövlə (987-989)
6) Bəhauddövlə Əbu Nəsr Firuz ibn Adududdövlə (989-1012)
7) Sultanuddövlə Əbu Şuca ibn Səmsamuddövlə (1012-1021)
8) Muşərəfuddövlə Əbu Əli ibn Səmsamuddövlə (1021-1025)
9) Cəlaluddövlə Əbu Tahir ibn Bəhauddövlə (1025-1044)
10) İmaduddövlə Əbu Qəlicar Mərzuban ibn Sultanuddövlə (1044-1048)
11) əl-Məlikur-Rahim Əbu Nəsr ibn İmaduddövlə (1048-1056).[609]

B) Şiraz Məlikləri (934-1055):

1) İmaduddövlə Əbulhəsən Əli ibn Büveyh (934-949)
2) Adududdövlə (949-983)
3) Şərəfuddövlə (983-989)
4) Əbu Əli ibn Şərəfuddövlə (989-990)
5) Səmsamuddövlə (990-998)
6) Bəhauddövlə (998-1012)
7) Sultanuddövlə (1012-1021)
8) Muşərəfuddövlə (1021-1025)

---

[608]Əli Əsgər Fəqihi, Ali-Buyə və Əvzauz-Zamani-İşan, Tehran-1978.
[609]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-716, 717.

9) İmaduddövlə (1025-1048)
10) Xosrov Firuz (1048-1055).[610]

C) Cəbəl Məlikləri (932-1029):
1) İmaduddövlə (932-947)
2) Ruknuddövlə ibn Büveyh (947-976)
3) Muəyyiddövlə Əbu Mənsur ibn Ruknuddövlə (976-984)
4) Fəxruddövlə Əbu Qəlicar ibn Ruknuddövlə (984-997)
5) Məcduddövlə ibn Fəxruddövlə (997-1029).[611]

Ç) Kirman Məlikləri (936-1056):
1) Muizzuddövlə (936-949)
2) Adududdövlə (949-983)
3) Səmsamuddövlə (983-998)
4) Bəhauddövlə (998-1012)
5) Qivamuddövlə Əbul Fəvaris (1012-1028)
6) İmamuddövlə (1028-1048)
7) Fuladus-Sutun Əbu Mənsur ibn İmaduddövlə (1048-1056).[612]

D) Umman Məlikləri (974-1012):
1) Adududdövlə (974-983)
2) Səmsamuddövlə (983-998)
3) Bəhauddövlə (998-1012).[613]

İdrisilər dövləti 789-926 (974, 985)

İdrisilər Hz.Peyğəmbərin *(s)* və Hz.Əlinin *(ə)* soyundan gələn və İmam Həsənin *(ə)* beşinci nəvəsi I İdrisin adına adlanmış şiə təmayüllü bir dövlət olmuşdur. İdrisin şəcərəsi belədir: İdris ibn Abdullah Məhz ibn Həsəni-müsənna ibn İmam Həsən *(ə)* ibn Hz.Əli ibn Əbu Talib *(ə)*. İdrisilər 789-926-ci illər (və ya 985) arasında Fasda hakimiyyətdə olmuş ilk İslam xanədanıdır.[614] Bu xanədanın qurucusu İmam Əlinin *(ə)* oğlu İmam Həsənin *(ə)* nəslindən olub, soyu Fas şəriflərinin bir qolunu meydana gətirən İdris ibn Abdullah Məhzdir. O, Fəxx döyüşündən sonra Məğribin mərkəzi Tancaya getmək məcburiyyətində qalmışdı. Daha sonra Vəlilədə Əvrəbə adlı Bərbəri qəbiləsinin dəstəyi ilə özünə dini və siyasi lider olaraq beyət edilmiş, beləcə Vəlilə mərkəz olmaqla İdrisilər dövlətinin əsası qoyulmuşdur.

---

[610]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür-bakanlığı-1989, I cild, səh-717.
[611]Yılmaz Öztuna, İslam Devletləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-717.
[612]Yılmaz Öztuna, İslam Devletlri, Ankara kultur bakanlığı-1989, I cild. səh-718.
[613]Yılmaz Öztuna, İslam Devletləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-718.
[614] Diyanət İslam Ansiklopedisi, XXI cild, İdrisilər maddəsi.

Hicrətin 169-cu ilində (miladi 786) xəlifə Hadinin dövründə baş verən Fəxx faciəsindən sağ çıxan İdris ibn Abdullah Məhz Hicazdan qaçaraq əvvəlcə Misirə oradan da Məğribə gedib, yerli xalqın dəstəyi ilə hicrətin 172-ci ilində (miladi 786) İdrisioğulları dövlətinin əsasını qoymuşdur. Fəxx Məkkə ilə Mədinə arasında, Məkkədən 5,5 km. Məsafədə yerləşən bir məntəqənin adıdır. İslam peyğəmbəri Hz.Muhəmməd *(s)* və onun pak Əhli-beyti *(ə)* burada dəhşətli bir faciənin baş verəcəyini qabaqcadan xəbər vermişlər. İmam Baqir *(ə)* buyurur: "Hz.Peyğəmbər *(s)* bu məntəqədən keçərkən, orada dayanıb namaz qıldı. Hz.Peyğəmbər *(s)* namazın birinci rəkətini bitirib ikinci rəkətə keçərkən birdən-birə ağlamağa başladı. Namazı bitirdikdən sonra səhabələr ondan ağlamağının səbəbini soruşdular. Hz.Peyğəmbər *(s)* buyurdu: "Cəbrail *(ə)* gəlib mənə xəbər verdi ki, sənin övladlarından biri burada şəhid olacaq. Onunla birlikdə olanların iki şəhid qədər savabları vardır".[615] Həmçinin İmam Sadiq *(ə)* həccə səfər edən zaman burada mənzil salmış və namaz qılmışdı. Yanındakılar bunun səbəbini soruşduqda həzrət buyurmuşdur: "Burada əhli-beytimizdən bir nəfər şəhid ediləcəkdir. Onların ruhları bədənlərindən əvvəl cənnətə gedəcəkdir."[616] İmam Cavad *(ə)* Fəxx faciəsi haqqında belə buyurmuşdur: "Biz əhli-beytin Kərbəladan sonra Fəxxdən böyük qətlgahı yoxdur".[617]

Şimali Afrikada yerləşən Məğribdə əsasən bərbər tayfaları yaşayırdılar. İdris əvvəlcə Tunis ərazisində təbliğat aparmışdı. Təbliğat nəticəsində xeyli insan onun ətrafına toplaşmış və onu özlərinə lider seçmişlər. Burada xəlifə olan İdris ilk öncə xarici dəstələrlə vuruşmalı olmuşdu. Çünki burada xarici əqidəsinə mənsub olan çoxlu sayda xaricilər yaşayırdı və onlar İdris üçün ən böyük maneə idi. Xarici dəstəsini məğlub edən İdris quruculuq işləri ilə məşğul oldu və Fas şəhərini saldıraraq buranı İdrisilər dövlətinin paytaxtı elan etdi. Qısa müddət ərzində inkişaf edən Fas dünyanın ən məşhur şəhərləri arasına daxil oldu.[618] Xilafətin müxtəlif bölgələrində olan insanlar, xüsusilə seyidlər və əhli-beyt tərəfdarları bu şəhərə üz tutdular. İdrisilər dövlətinin varlığına son qoymaq istəyən Abbasi xəlifəsi Harun ər-Rəşid (786-809) casuslarından birini Fas şəhərinə göndərərək hicrətin 177-ci ilndə (miladi 793) I İdrisi zəhərləyərək şəhid etdi. Onun ölümündən sonra yerinə hələ anasının bətnində olan oğlu II İdris (793-828) keçdi. İlk sıralarda dövlətin idarəsinə Raşid adlı bir şəxs baxırdı. Raşidin ölümündən sonra Əbu Xalid adlı bir nəfər II İdrisə böyüyüb idarəni ələ alana qədər baxdı və onu yetişdirdi. Sonra İİ idris Darul-Qaytun deyilən mövqedə əl-Aliyə şəhərini qurdu. Hicrətin 213-cü ilində (miladi 828) II İdrisin ölümündən sonra yerinə oğlu Məhəmməd ibn İdris (828-836) keçdi.

II İdris vəzirlik, katiblik və qazılıq kimi vəzifələri quraraq dövlətini ərəb-islam dövləti tərzində təşkilatlandırdı və həyata keçirdiyi fəthlərlə ölkənin sər-

---

[615] Hüseyn Dərgahi, Mənahilul-Əbrar fi təlxisi Biharil-Ənvar, VIII cild, səh-356.
[616] Hüseyn Dərgahi, Mənahilul-Əbrar fi Təlxisi Biharil-Ənvar, VIII cild, səh-356-357.
[617] Şeyx Abbas Qummi, Müntəhal-Amal, II cild, səh-313.
[618] Yılmaz Öztuna, İslam Devlətləri, Ankara-1989, I cild, səh-209.

hədlərini genişləndirib İdrisiləri Məğribi-Əqsanın ən güclü dövlətlərindən birinə çevirdi. 817-818-ci illər Kordovada və 824-826-cı illərdə Tunisdə meydana gələn üsyanlar nəticəsində qaçaraq Fasa gələn ərəblərin dövlətin ali orqanlarında vəzifələndirilməsiylə İdrisilərin ərəb xarakteri gücləndi. Dövlətin sərhədləri şərqdə Şelif çayına (Cəzair) və Cənub Fasda Susa qədər uzanmaqda idi. Ancaq onun vəfatından dərhal sonra xanədan parçalandı. Vəliəhd olaraq yerinə keçən böyük oğlu Məhəmməd ölkəni on iki qardaşından səkkizi ilə paylaşdı. Məhəmmədin dövründə İdrisi ailəsi arasında anlaşılmazlıq yarandı. İsa ibn İdris dövlətin başında olan qardaşı Məhəmməd ibn İdrislə döyüşə girdi.

İsa ibn İdris qardaşı Məhəmmədə qarşı apardığı mübarizədə şərq tərəfdə vali olan digər qardaşı Qasim ibn İdrisdən faydalanmaq istədi. Lakin Qasim onun istəyini rədd etdiyi üçün o, Miknasın valisi olan digər qardaşı Ömərdən kömək istədi. Ömərdən kömək alan İsa iki qardaşını da Əzmur və şərq tərəfində məğlubiyyətə uğratdı.[619]

Məhəmməd Tilisman və ətrafını Süleyman ibn İdrisə buraxıb paytaxt Fas və ətrafını özünə ayırdı. Bu tətbiq qısa müddətdə mərkəzi nüfuzu zəiflətdi və hər biri muxtariyyət arzusunda olan məhəlli əmirliklərin ortaya çıxmasına zəmin hazırladı. Məhəmmədə qarşı ilk üsyan edən Azammur, Taməsna, Şala və Seleyə hakimlik edən qardaşı İsa oldu. Məhəmməd bu üsyanı yatırmağı qardaşı Qasimə tapşırdı. Lakin Qasim bu işi qəbul etmədiyi üçün Məhəmməd bu işi Rif bölgəsinin hakimi qardaşı Ömərə tapşırdı. Ömər əvvəlcə İsanı, sonra isə Qasimi məğlub edərək onlara aid torpaqları ələ keçirdi. 835-ci ildə Ömərin ölümündən sonra Məhəmməd ona aid olan torpaqları üç oğlu arasında bölüşdürdü. 836-cı ildə Məhəmmədin ölümündən sonra yerinə doqquz yaşlı oğlu I Əli (836-849) keçdi. Yetkinlik yaşına çatdıqdan sonra idarəçiliyi ələ alan I Əli hicrətin 234-cü ilində (miladi 849) öldü.Yerinə keçən qardaşı I Yəhya (849-863) idarəçiliyi ilə dövlətin gücünü artırdı. Paytaxt Fas onun dövründə xeyli inkişaf etdi. Fasda və digər mərkəzlərdə abadlıq fəaliyyətləri və ticari həyat da əhəmiyyətli inkişafa nail oldu. I Yəhyanın ölümündən sonra yerinə keçən oğlu II Yəhya (863-866) zamanında ölkədə sabitlik pozuldu və baş verən qarışıqlıqlar ölkəni dağılmağa doğru sürüklədi. Başı əyləncəyə qarışan II Yəhyaya qarşı üsyan edən Əbdürrəhman ibn Əbu Səhl onu saraydan qaçmağa məcbur etdi. II Yəhya bir müddət sonra hicrətin 252-ci ilində (miladi 866) vəfat etdi.

Onun ölümündən sonra hakimiyyəti II Əli ibn Ömər (866-?) ələ keçirdi. Beləcə hakimiyyət eyni ailənin Ömər ibn İdris qoluna keçdi. II Əli bir müddət sonra qüvvətli bir xarici üsyanı ilə qarşılaşdı. Sufriyyə xaricilərindən Abdurrəzzaq əl-Fihri bəzi mərkəzləri ələ keçirərək II Əlini də məğlub etdi. II Əli Əvrəbə qəbiləsinə sığındı. Fasa daxil olan Abdurrəzzaq xalqın beyətini aldı. O təslim olmayan Karaviyyin xalqına qarşı Yəhya ibn Qasim ibn İdrisi şəhərə çağırdı. Fasa gələrək xariciləri paytaxtdan çıxaran III Yəhya (?-904) həm şəhər xalqının

[619]Mahmud Şakir, Hz. Adəmdən bu günə İslam Tarixi, IV cild, səh-366.

həm də Əndəlusluların beyətini aldı. Ancaq əmisi Ömərin uşaqları ilə apardığı taxt mübarizəsində öldürüldü. İdrisilərin yeni imamı Yəhya ibn İdris ibn Ömər qısa müddət ərzində əmin-amanlığı bərpa etdi. İdrisilərin ən güclü hökmdarı olan IV Yəhya (904-922) ədaləti, fəziləti və cəngavərliyi ilə birlikdə dini elmlərdə dərin bilik əldə etmiş bir elm adamı idi. İrdisilər ən geniş sərhədlərə onun dövründə nail oldular. Onun sarayı Əndəlus və digər İslam ölkələrindən gələn alim və şairlərlə dolu idi.

İdrisilər IV Yəhyanın son zamanlarında iki xarici təhlükə ilə qarşılaşdılar. Yəhyanın səltənətinin ilk illərində Şimali Afrikada qurulmuş Fatimilər (909-1171) güclərini artırmış, Cəzairi aldıqdan sonra bütün Məğribi ələ keçirmək üçün İdrisi torpaqlarına göz dikmişdilər. Digər tərəfdən Əndəlus Əməvi dövləti (756-1032) bölgə üzərinə güclü ordular göndərməyə başlamışdı. Miladi X (hicri IV) əsrin başından etbarən İdrisilərə aid şəhərlər bir-bir bu iki dövlətdən birinin əlinə keçməyə başladı. İdrisi əmirləri bəzən müqavimət göstərərək, bəzən də qüvvətli olan tərəfə itaət edərək varlıqlarını qorumağa çalışırdılar.

Fatimi komandiri Məsalə ibn Habbus əl-Miknasiyə məğlub olan IV Yəhya sonda Fatimilərə itaəti və onlara vergi ödəməyi qəbul etmək məcburiyyətində qaldı. Məsalə Fasa ikinci gəlişində onu qarşılamağa gələn IV Yəhyanı həbs etdirərək İdrisi rəhbərliyinə son qoydu və Reyhan əl-Qutamini Fas valisi təyin etdi. IV Yəhyanın taxtdan uzaqlaşdırılmasından üç ay sonra İdrisi ailəsindən Haccam ləqəbli I Həsən ibn Məhəmməd ibn Qasim həyata keçirdiyi bir üsyanla 922-ci ildə Fatimi valisini Fasdan çıxarıb hakimiyyəti ələ keçirdi. Sonra I Həsən (922-925) Musanın üzərinə gedərək onu məğlub etdi. Lakin təkrar baş verən döyüşdə Musaya məğlub olaraq Fasa sığındı. Lakin orada buraxdığı vəkilin xəyanətilə üzləşən I Həsən şəhərə buraxılmadı və Fatimilərlə əlbir olan vəkil tərəfindən həbs edildi. Beləliklə, 925-ci ildə İdrisilərin mərkəzi yenidən Fatimilərin əlinə keçdi.

Fatimi valisi Musa ibn Əbuləfviyə üç il ərzində İdrisilərə aid torpaqların az qala hamısını hakimiyyəti altına aldı. 929-cu ildə müqavimət göstərən İdrisilər Rif dağındakı Həcərunnəsr qalasına sığındı. Qalanı mühasirə edən Musa uğursuz olduğunu anlayıb oradan ayrıldı və eyni ildə Fatimilərdən ayrılıb xütbəni Əndəlus Əməvi xəlifəsi III Əbdürrəhman (912-961) adına oxutdu. Daha sonra üzərinə göndərilən Humeyd ibn Yəsal əmrindəki Fatimi ordusu tərəfindən məğlub edildi və Fas şəhərinə çəkildi. Bunu fürsət bilən Həcərunnəsr qalasındakı İdrisilər Musanın buraxdığı qüvvələri məğlub edərək 935-ci ildə bölgəyə gələn Fatimi ordusuna qoşuldular və onların köməyi ilə Fas şəhəri xaric ataları-na aid torpaqların böyük bir hissəsini geri aldılar. Bu zaman İdrisilərə liderlik edən Qasim ibn Məhəmməd ibn Qasim (937-948) paytaxt olaraq Həcərunnəsri seçdi. Ömər ibn İdris övladından olan Rif və Səbtə İdrisiləri isə Səbtəni mərkəz seçərək eyni bir idarəni qurdular və Əndəlus Əməvilərinə bağlı olduqlarını elan etdilər. 948-ci ildə vəfat edən Qasim ölümünə qədər Fatimilərə tabe olaraq hakimlik etdi. Ölümündən sonra yerinə oğlu Əbuleyş Əhməd (948-954) keçdi.

Əbuleyş Fatimilərdən ayrılaraq Əndəlus Əməvi xəlifəsi III Əbdürrəhmana tabe olduğunu bildirsə də Tancanı ona verməkdən imtina etdi. Lakin buna baxmayaraq Əməvi qüvvələri şəhəri zəbt etdi. Əbuleyşin əlində sadəcə Ədayla Basra qaldı. Baş verən hadisələrdən sonra Əbuleyş hakimiyyəti qardaşı II Həsənə (954-985) verdi. Fatimilər tərəfindən Məğrib səfərinə göndərilən Cövhər əs-Siqilli 960-cı ildə Fasa hücum edərək şəhəri ələ keçirdi. Bu qələbədən sonra bütün Məğrib qısa müddət olsa da Fatimilərə tabe oldu. II Həsən də Fatimilərə tabe olmaq məcburiyyətində qaldı. Lakin Fatimi ordusunun geri çəkilməsindən sonra II Həsən yenidən Əndəlus Əməvilərinə bağlılığını bildirdi. On bir il sonra 971-ci ildə Fatimi komandiri Buluqın ibn Ziri qarşısında aciz qalan II Həsən onunla birlikdə Əndəlus Əməvilərinə qarşı vuruşdu. Buna görə onu cəzalandırmaq istəyən Əndəlus Əməvi hakimi II Hakəm (961-976) Qalib ibn Əbdürrəhman əs-Siqlabi onun üzərinə göndərdi. 974-cü ildə baş verən döyüşdə II Həsən məğlub oldu və Həcərunnəsr qalası da Əndəlus Əməvilərinə təslim oldu. 975-ci ildə Qalib II Həsənlə birlikdə Kordovaya döndü və Məğribdə xütbə Əndəlus Əməvi xəlifəsi adına oxunmağa başladı. İki il sonra Əndəlusdan çıxarılan II Həsən Misirə gedərək Fatimilərə sığındı. 984-cü ildə Fatimi xəlifəsi əl-Əziz (975-996) tərəfindən Məğribin Əhsa valiliyinə təyin edilən II Həsən böyük bir ordu ilə ailəsinə aid torpaqları geri qaytarmaq üçün Məğribə göndərildi. Səbtə ətrafında baş verən döyüşdə Əndəlus Əməvi ordusuna məğlub olan II Həsən aman istədi və onun itaətini qəbul edən ordu komandiri II Həsəni Kordovaya aparmaq üçün yanına çağırdı. Lakin 985-ci ildə yolda Hacib ibn Əbu Əmr əl-Mənsur tərəfindən göndərilən adamlar tərəfindən öldürüldü. II Həsənin ölümü ilə Məğribi Əhsada hökm sürən İdrisi xanədanı sona çatmış oldu. Daha sonra bu ailədən Ömər ibn İdrisin nəslindən olan Əli ibn Hammud Əndəlusda Əməvi dövlətinin zəifləməsindən istifadə edib Hammudilər xanədanını qurmuşdur.

İdrisilər heç vaxt abbasilərlə hərbi toqquşmaya girmədilər. Bunun əsas səbəbi isə onların ərazisi ilə xilafət torpaqları arasında Əğləbilər (800-909) dövləti yerləşirdi. Bu dövlətin yaranmasında xəlifə Harunun rolu olmuşdur. Çünki Əğləbilər sanki İdrisilərlə Abbasilər arasında bir sipər idi. Abbasi ordusunun Afrikada qulluqda olan sərkərdəsi İbrahim ibn Əğləb (800-812) Haruna məktub yazaraq onun Qərbi Afrikaya vali təyin olunmasını istədi. Belə olduğu halda o, xilafət xəzinəsinə ildə qırx min dinar pul ödəyəcəyini vəd etdi. Harun bunun İdrisilərin xilafət üzərinə edə biləcəkləri hücum üçün bir manea olacağını düşünərək Qərbi Afrika torpaqlarını İbrahim ibn Əğləbə bağışladı. Beləliklə burada yüz ildən artıq mövcud olmuş Əğləbilər dövləti yarandı. Əğləbilər əslində abbasilərin tam tabeçiliyində idilər və heç vaxt müstəqillik iddiasında olmamışlar. Onlar hakimiyyətləri boyunca abbasilər adına xütbə oxumuş sünni-hənəfi dövləti olmuşdur. Əğləbilər dövlətinin varlığına Fatimilər tərəfindən son qoyulmuşdur.

İdrisi hökmdarları və səltənət müddətləri:
1) İdris (789-793)
2) II İdris (793-828)
3) Muhəmməd əl-Muntəsir (828-836)
4) I Əli (836-849)
5) I Yəhya (849-863)
6) II Yəhya (863-866)
7) II Əli (866-?)
8) III Yəhya (?-904)
9) IV Yəhya (904-922)
10) I əl-Həsən (922-925)
11) əl-Qasim (937-948)
12) Əhməd (948-954)
13) II əl-Həsən (954-985).[620]

Tahirilər dövləti hicri 203-257/miladi 819-873

Tahirilər ilk muxtar Abbasi valiləri olaraq İranın qərbində deyil, şərqində Xorasanda meydana çıxmışdır. Sünni-Hənəfi məzhəbinə mənsub olan Tahirilər, ərəbləşmiş iranlıdır. Bəni-Tahir 819-873-cü illər ərzində Xorasanı əllərində saxlamışlar. Abbasilərə məxsus olan bu vilayət çox geniş bir ərazini əhatə edirdi. Əvvəlcə Reydə, sonra Mərvdə yerləşən Tahirilər 828-ci ildən etibarən ölkəni Nişapurdan idarə etmişlər. Tahiri rəisləri özlərinə "əmir" ünvanı götürmüşlər. Tahirilər Xorasandan başqa Ərəb imperatorluğunun bir çox əyalətlərində də valilik etmişlər.

A) Xorasan valiləri:
1) Əbu Əyyub I Tahir Zul-Yəmineyn (819-822)
2) Təlhə ibn Tahir (822-828)
3) Əbul-Abbas Abdullah ibn Tahir (828-844)
4) II Tahir ibn Abdullah (844-862)
5) Muhəmməd ibn II Tahir (862-873)
6) III Tahir (873-875)
7) əl-Hüseyn (875).

B) Bağdad valiləri:
1) İshaq (829-850)
2) Muhəmməd (850-851)
3) II Muhəmməd (851-852; 862-867)
4) III Muhəmməd (852-862; 884-889)
5) Əbu Əhməd Ubeydullah (867-869; 879-884)
6) Süleyman (869-879).[621]

[620]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-210.

829-889-cu illərdə də İraqı idarə etmişlər. Xanədanın atası əl-Hüseyn ibn Təlhə ibn Ruzayq Əsadil-Xuzai ibn Mahan ibn Mai-Xusrəv ibn Bəhramdır. Xanədanın qurucusu isə Tahir ibn Hüseyndir (776-822).

Bu sülalənin varlığına Abbasi xəlifəsi Mutəmidin (870-892) dövründə Səffarilər tərəfindən son qoyulmuşdur. Ətrafına xeyli adam toplayan Səffari hökmdarı Yəqub ibn Leys Əfqanistana keçib, Bəlx, Herat və Puşəngi özünə tabe edib, Hindistan sərhədlərinə qədər irəlilədi. Tahirilərin zəifləməsindən istifadə edən Yəqub ibn Leys 873-cü ildə böyük bir ordu ilə Tahirilərin mərkəzi Nişapur üzərinə hərəkət etdi. Sonuncu Tahiri hökmdarı Məhəmməd təslim oldu. Xorasanı müqavimətsiz ələ keçirən Səffarilər Tahirilərin 54 illik hakimiyyətinə son qoydular.[622]

Qərmətilər 869-1070 (899-1030)

Müsəlman tarixçilərinin verdikləri məlumatlara görə ifrat (ğulati) şiə əqidəsinə mənsub dövlətlərdən biri də qərmətilər dövlətidir. Bəzi İslami qaynaqlarda qərmətilərin şiə-ismailiyyə qoluna mənsub olduqları göstərilir.[623]

Miladın IX-XI əsrlərində ən çox hərbi-siyasi fəaliyyətlə məşğul olan qərmətilər Kufədəki İsmaili təbliğatçısı Həmdan ibn Əşas Qərmətə (v. 906) nisbətlə bu adı almışdır. Lakin görkəmli lüğət alimi ibn Mənzur onları ayrı bir qövm olaraq tanıdır. Məşhur İslam tarixçisi Təbəri hicrətin 255-ci ilinin (miladi 869) hadisələrini izah edərkən qərmətiliyi Zəncilər üsyanının dəvətçisi kimi tanıdır.[624]

Görkəmli şiə alimi Əllamə Hairi qərmətilərin batiniyyə firqəsindən olduqlarını, Həmdan Qərmətə nisbət edildiklərini və Məcus oğullarından olduqlarını qeyd edir.[625] Həmçinin müəllif onların şiə olmadıqlarını, əksinə məcusilik dinində olduqlarını, Qurani-Kərimi və Hz.Peyğəmbərin *(s)* hədislərini öz istəklərinə əsasən izah etdiklərini qeyd etmişdir. Əllamə Hairi qərmətilərin ilk dəfə Əhvaz ətrafında ilk liderləri Meymun ibn Disan tərəfindən məcusilik əqidəsi əsasında təbliğ edildiyini və ondan sonra bu işi onun oğlu Abdullahın davam etdirdiyini, onların dəhrilər kimi haramı halal bildiklərini və ibadətləri tərk etdiklərini yazır. "Tarixi-Kufə" əsərinin müəllifi isə qərmətilərin Məhəmməd ibn İsmaili imam bildiklərini və xaricilərə mənsub olduqlarını göstərir. Lakin qərmətilərin Vaqifiyyə firqəsinə mənsub olduqlarını, başçılarının Əbu Səid əl-Xubai əl-Qərməti olduğunu, ondan sonra qara daşı Kəbədən aparan, məkkəliləri qətlə yetirən oğlu Əbu Tahir Süleyman ibn Tahir tərəfindən əqidələrinin təbliğ olunduğunu da qeyd edir.[626]

---

[621]Yılmaz Öztuna, İslam Devlətləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-707.
[622]Tarixi-Təbəri, V cild, səh-152.
[623]Diyanet İslam Ansiklopedisi, Karmatilər maddəsi.
[624]Tarixi-Təbəri, IX cild, səh-419.
[625] Dairətul-Məarif, Beyrut-1413/1993, XIV cild, səh-331.
[626]Tarixi-Kufə, səh-80.

Kəlmə olaraq mənşəyi, hərəkat olaraq isə ortalığa çıxma tarixləri dəqiq bilinməyən qərmətilər haqqında müsəlman alimlərinin ümumi fikri budur ki, qərmətilər 869-cu ildə (hicri 255) abbasilərə qarşı təşkil edilən Zəncilər üsyanı əsasında ortaya çıxmışdır. Zəncilər üsyanının baş verməsinin əsas səbəblərindən biri Cənubi İraqla Qərbi İranın və onlara qonşu olan yerlərdə çoxlu qulların olması göstərilir. Bu qullar xilafət məmurlarının əkin sahələrini becərməklə, bataqlıqları qurutmaqla, yeni kanallar çəkməklə və digər ağır işləri görməklə məşğul olurdular. Bu qullar əsasən Şərqi Afrikadan gətirilmiş zəncilər idi. Hərəkatın qurucusu olaraq qəbul edilən Həmdan Sabisilyə mənsub olub Kufə yaxınlığındakı Dur kəndindəndir və böyük ehtimalla 877-878-ci illərdə Abdullah ibn Meymunun yaxud oğlu Əhmədin davamçılarından Hüseyn əl-Əhvazinin təlqinləri ilə İsmailiyyə hərəkatına qoşulmuş, onun ölümündən ya da Səvad bölgəsini tərk etməsindən sonra İsmailiyyənin o bölgədəki təbliğatçısı olmuşdur. Ancaq qərmətilər hərəkatı onunla məhdudlaşmamış, o dövrdə baş verən bütün qiyamlar qərmətilərə aid edilmiş, bəzən də Fatimi-İsmaili hərəkatı qərmətilər olaraq dəyərləndirilmişdir. Həmdanın əsl dəstəkçiləri Kufəyə yerləşən Bəni-Şeyban və Bəkir ibn Vailə mənsub ərəb qəbilələri idi. Bunların köməyi ilə Həmdan hərəkatını davam etdirmək üçün tərəfdarlarından müxtəlif adlar altında pul yığdı. Bunun ardınca özünə bağlı olan hər kəndə bir təbliğatçı təyin etdi və əhalinin mal və əmlakının idarəsini bu təbliğatçıya verdi.

Zəncilərin qaldırdıqları üsyan tez bir zamanda Cənubi İraqı və onun qonşusu olan İranın Xuzistan vilayətini bürüdü. Gündüzlər istirahət edib gecələr isə hücuma keçib xilafət qoşunlarını məğlubiyyətə uğradan üsyançıların səs-səsası bütün xilafət ərazisinə yayıldı. Həmdan Qərmət Ubeydullah əl-Mehdinin 899-cu ildə Sələmiyyədə imamətin (xilafətin) özünə və babalarına aid olduğunu irəli sürməsilə yeni İsmailiyyə doktrinasıyla əlaqəni kəsdi. Qərmətilər 900-902-ci illərdə (hicri 287-289) Suriyada xilafətə qarşı qiyam qaldırdılar və onların qiyamı xəlifə Mutəzid Billah (892-902) tərəfindən yatırıldı.

İraq və Suriyada qərmətilər üsyanlarını təşkil edən təbliğatçılardan Zikrəveyh ibn Mihrəveyh 902-ci ildə (hicri 289) Sahibuşşamə adıyla tanınan oğlu Hüseyni Bəni-Kəlbi özlərinə qoşmaq üçün Suriya çölünə göndərdi. Hüseyn Bəni-Uleys və Bəni-Əsbağın qollarının dəstəyini qazandı. Zikrəveyhin oğullarından Sahibunnaqə deyə tanınan Yəhya 903-cü ildə (hicri 290) Dəməşq ətrafında öldürüldükdə yerinə qardaşı Sahibuşşamə keçdi. Məhəmməd ibn İsmayılın nəslindən olduğu iddiası ilə Əmirul-muminin və Mehdi ünvanlarını mənimsəyən yeni qərmətilər lideri Hələbə etdiyi uğursuz hücumdan sonra Xıms, Mərrətünnüma və Bələbəkkəni ələ keçirdi. Lakin növbəti il Sələmiyyə yaxınlarında onu təqib edən Muhəmməd ibn Süleymanın əmrindəki abbasi ordusu tərəfindən məğlub edildi və Hüseyn ibn Həmdan ibn Həmdinin səyləri ilə tutularaq xilafətin paytaxtı Bağdadda edam edildi. 906-cı ildə (hicri 293) Zikrəveyh Bəni-Kəlb arasında qərmətiliyi yenidən yaymaq üçün Əbu Qanim Abdullah ibn Səid adlı təbliğatçısını göndərdi. Özünə Nəsr adını verən Əbu Qanim və adam-

ları Busra, Əzrit, Təbəriyyə və Hit ərazilərini yandıraraq Dəməşqə hücum etdilər. Lakin orada uğur qazana bilməyib Kufəyə daxil olsalarda tezliklə şəhərdən çıxarıldılar. Eyni ildə Zikrəveyh və tərəfdarları Qadisiyyə yaxınlığında abbasi ordusunu məğlub edərək Xorasan karvanlarına və həccdən dönən İran hacılarına hücum edib bir çox adamı öldürdülər. Nəhayət Zikrəveyh və adamları 907-ci ildə (hicri 294) qəti məğlubiyyətə uğradıldı. Zikrəveyh və tərəfdarlarından bir çoxu öldürüldü. Beləliklə, Suriyadakı qərməti üsyanları xəlifə Müktəfi Billahın (902-908) təyin etdiyi Məhəmməd ibn İshaq və Hüseyn ibn Həmdan adlı sərkərdələr tərəfindən yatırıldı. Lakin Zikrəveyhin Səvadda (İraqda) olan bəzi tərəfdarları onun ölmədiyinə və bir müddət sonra dönəcəyinə inanmağa davam etdilər. 907-908-ci illərdə (hicri 295) Səvad qərmətiləri arasında aktiv olan Hind əsilli Əbu Xətim əz-Zutti ət yeməyi qadağan etdiyi üçün tərəfdarları Baqliyyə adı ilə xatırlanmış və bu ad daha sonra Səvadda olan Qərmətilərin hamısını əhatəsinə aldı.

Qərmətilərin abbasi xilafətinə və sünni məzhəbinə qarşı apardıqları gərgin mübarizə ilk başlanğıcda dini təriqət hərəkatı xarakterini aldı. Fanatik olan qərmətilər sünni xəlifələrinə qarşı mübarizə apardıqları kimi eyni zamanda qərmətiliyi qəbul etməyən hər kəsə qarşı vuruşurdular. Xəlifənin verdiyi fərman əsasında ələ keçirilən hər bir qərməti dəhşətli şəkildə öldürülürdü. Hətta mənbələrə görə onları xalqın gözü qarşısında çarmığa çəkirdilər.[627] Lakin görülən bu cəza tədbirləri heç də üsyançıları qorxutmur, əksinə onların mübariz ruhunu və qəzəbini daha da artırmışdır. Onlar müsəlmanların stayiş obyektlərinə hörmət etmirdilər. Yəməndəki İsmaili camaatı 909-cu ildə (hicri 297) Afrikada Fatimi xəlifəliyini quran Ubeydullah əl-Mehdiyə sadiq qaldığı halda təbliğatçı Əli ibn Fəzl Sənada 911-ci ildə (299) son işğalından sonra Ubeydullah əl-Mehdini tanımadığını və şəriəti ləğv etdiyini açıqlamaqla yanaşı özünün Mehdi olduğunu irəli sürmüşdür.[628] Bundan sonra Ubeydullah əl-Mehdiyə sadiq qalan ibn Xəvşəblə mübarizəyə başlasa da 915-ci ildə (hicri 303) ölmüş və qərmətilər hərəkatı Yəməndə sürətlə yayılmışdı.

Rey bölgəsindəki İsmaili camaatı parçalanmadan əvvəl buradakı ilk təbliğatçı olan Xələf əl-Həllaca mənsub Xələfiyyə adı ilə tanınmışdır. Ubeydullah əl-Mehdinin ortaya çıxışı ilə onun imamətini tanımayan bu camaat Məhəmməd ibn İsmailin qaim olaraq geri dönəcəyi inancını davam etdirdi. Rey təbliğatçılığı Xələfdən sonra oğlu Əhməd və onun ardından Əhmədin seçmə şagirdi Qiyas tərəfindən davam etdirildi. Qiyas xalq üzərində təsirli olan fəqihlərlə ixtilafa düşdüyü üçün 903-cü ildən sonra Xorasana qaçmaq məcburiyyətində qaldı. Burada təbliğat nəticəsində Əmir Hüseyn ibn Əli əl-Mərvəzinin qərmətiliyə girməsini təmin etdi. Ayrıca Mərvərruz, Taleqan, Meymənə, Qarcistan, Gur və Heratda bir çox şəxslər Əmir Hüseynin vasitəsilə qərmətilərə qoşuldu. Bu iştiraklarda bölgə-

[627] Yevgeni Belyayev, Müsəlman təriqətləri, Bakı-1991, səh-61.
[628] Diyanet İslam Ansiklopedisi, Karamite maddesi.

dəki hərəkatın öz adına mənsubla Məmuniyyə adlanmasına gətirib çıxaran Fars bölgəsi təbliğatçısı Abdənin qardaşı Məmunun böyük rolu oldu.

Bəhreyn qərmətiləri Əbu Səid əl-Cənnabinin ölümündən sonra (912) 923-cü ilə qədər abbasilərə qarşı əhəmiyyətli bir fəaliyyət apara bilmədilər. Onlar Əbu Səidin Mehdi olduğuna inanır və onun nə vaxtsa qayıdacağını, cəmiyyətdə bərabərlik və ədalət quracağını gözləyirdilər. Onların belə bir düşüncəyə qapılmaları yavaş-yavaş qərmətilərin passiv mübarizəyə keçməsinə səbəb olurdu. Lakin bu vaxt liderliyi ələ keçirən Əbu Tahir əl-Cənnabi Cənubi İraqa bir silsiləvari terror hərəkatı başlatdı və 930-cu ilin (hicri 317) həcc mövsümündə həyata keçirdiyi Kəbə basqınında minlərlə adamı öldürərək Həcərül-əsvədi Bəhreyndəki Həcərə apardı. Həcərül-əsvəd iyirmi ilə qədər orada qaldı. Əbu Tahirin Məkkəyə hücumu ərəfəsində hacıların əmlakları əllərindən alındı, zəvvarlar ağır işgəncələrə məruz qaldılar. Hətta onların bir hissəsi qul edilmişdir. Qərmətilər Məkkədə həmin gün ən azı otuz min adamı qətlə yetirdilər.[629] Omanı ələ keçirən Əbu Tahir növbəti il Bəhreynin idarəsini İsfəhandan gətirdiyi və xalqa Mehdi deyə tanıtdığı bir İranlıya təhvil verdi. Ancaq yeni Mehdi özünün köhnə İran kəsralarının nəslindən gəldiyini və İran dininin islahatçısı olduğunu söyləyərək ərəblərin əleyhinə düşüncələr ortaya qoyunca vəzifəyə gətirilməsindən səksən gün sonra Əbu Tahir tərəfindən öldürüldü. Bu hadisə Bəhreyn qərmətiləri arasında böyük bir qarışıqlığa səbəb oldu və bir çox təbliğatçı Əbu Tahirlə əlaqəsini kəsdi. 944-cü ildə onun ölümündən sonra qardaşları abbasilərə qarşı sülhsevər bir siyasət yeritdilər.

Fatimi xəlifəsi Muiz Lidinillah 953-cü ildə xəlifə olunca, Fatimi dəvətinə müxalif olan şərqdəki qərməti-İsmaili cəmiyyətini təkrar məzhəb halına salmaq istədi. Bu səbəblə İsmaili doktrinasını onların istəyi ilə yenidən ələ aldı. Bu təşəbbüs uğurlu oldu və Yeni Əflatunçu İsmaililəri baş nümayəndəsi Əbu Yəqub əs-Sicistani Fatimi dəvətini qəbul etdi. Sicistani Muizzin dövründə yazdığı əsərlərlə Fatimilərin fikrini dəstəklədi. Bu fəaliyyətlərin sonunda Xorasan, Maveraun-nəhr, Sis və Sinddəki qərmətilər Fatimi dəvətini dəstəkləməyə başladılar. Bununla birlikdə Deyləm, Azərbaycan və Cənubi İraq qərmətilərin iddialarını inkar edərək Fatimi-İsmailiyyəyə müxalifətlərini davam etdirdilər. Muiz Lidinillah bütün səylərinə baxmayaraq Bəhreyn qərmətilərindən beyət ala bilmədi.

Bəhreyn qərmətiləri ilə Fatimilər arasındakı gizli düşmənçilik Fatimilərin 969-cu ildə (hicri 358) Misiri zəbt etmələri ilə açıq bir mübarizəyə çevrildi. Suriyaya olan maraqlarını daha əvvəl ortaya qoyan qərmətilər 964-cü ildə (353) Təbəriyyənin üzərinə gedərək buranı İhşidin əlindən almaq istədilər. Lakin bunu bacara bilməyəcəklərini anlayınca Seyfuddövlədən kömək istədilər. O da qərmətilərə lazım olan köməyi göndərdi. Bunun ardıca qərmətilər 968-ci ildə (hicri 357) Dəməşqə daxil oldular. Miladi 970-ci ildə (hicri 359) qərmətilər Omandan təmizləndilər.

---

[629]Yevgeni Belyayev, Müsəlman təriqətləri, Bakı-1991, səh-61.

Qərmətilər miladın 971-ci ilində (hicri 360) yenidən Dəməşqə qayıtdılar. Həmin vaxt buranın idarəsi Ubeydilərin əlində idi. Hüseyn ibn Əhməd ibn Bəhramın başçılığı altında olan qərmətilər şəhərə daxil oldu. Bu vaxt Dəməşq şəhərinin valisi Cəfər ibn Fəllah idi. Büveyhioğlu İzududdövlə ona silahla kömək etdi. Qərmətilər buradan Rəmləyə keçərək şəhəri aldılar və Qahirəyə doğru irəlilədilər. Lakin məğlubiyyətə uğrayaraq yenidən Şama qayıtdılar.

968-ci ildə Suriyanın böyük bir hissəsini ələ keçirən Qərmətilər Dəməşqi ixşidilərdən alaraq Rəmləni yandırdılar. 970-ci ildə İxşidi və Fatimi ordularına məğlub olan qərmətilər Dəməşq və Rəmləni itirdilər. Lakin 971-ci ildə Büveyhilər və Həmdanilər tərəfindən dəstəklənən Həsənin başçılığı altında olan qərmətilər bu iki şəhəri yenidən ələ keçirməklə yanaşı Qahirəni dağıtdılar. 972-ci ildə Rəmləni təkrar işğal edən Həsən bir il sonra Misirə hücum edərək Qahirəni yenidən mühasirəyə aldı. Lakin müttəfiqi Həsən əl-Cərrahla anlaşa bilmədiyi üçün Muizzin oğlu və gələcək xəlifə Əziz Billaha (975-996) məğlub olaraq mühasirəyə son qoydu.

Qərmətilər vaxtilə apardıqları Həcərül-əsvədi Həcər bölgəsində əllərində iyirmi iki il saxladıqdan sonra Fatimilərin sayəsində Kəbəyə gətirərək yerinə qoydular. Bu hadisə İslam dünyasında xalq tərəfindən danışılan bir hadisə halına gəlmişdi. Ayrıca İslam torpaqlarının çoxu qərmətilər və şiələr tərəfindən idarə edildiyi üçün qərmətilərin Həcərül-əsvədi qaçırmasından sonra müxalif tərəfin şiələrə qarşı əks fikir formalaşdırması və bunula da şiələri azğın məzhəb kimi tanıtmaq ehtimalı vardı. Buna görə də Fatimilər İslam dünyasındakı bu nifrətin, şiələr əleyhində bir gün ölkənin hər yerində ümumi bir üsyana, ümumi bir qiyama çevrilməsindən ehtiyat etdilər. Bu səbəbdən onlar qərmətilərə təzyiq edərək müqəddəs daşın yerinə qaytarılmasını təmin etdilər.

İraq Büveyhi hökmdarı Adududdövlənin (978-983) ölümündən sonra Cənubi İraqda güclərini ortaya qoymaq istəyən Bəhreyn qərmətiləri 983-984-cü illərdə Bəsrəyə hücum edərək buranın əhalisi üzərinə vergi qoydular və iki il sonra da Kufəni ələ keçirdilər. Lakin nəticədə Büveyhilər qarşısında məğlub olaraq geri çəkildilər və bir daha İraqda hakim ola bilmədilər. Miladi tarixi ilə 992-ci ildə (hicri 382) Uqayl qəbiləsinin Muntəfiq qolunun lideri Əsfar qərmətiləri qəti məğlubiyyətə uğratdı. Bu məğlubiyyətdən sonra tamamilə öz bölgələrinə çəkilən və artıq həcc karvanlarına hücum edə bilməyən qərmətilər məhəlli üsyanlar nəticəsində 1067-ci ildə (hicri 459) Bəhreyndəki, ondan sonra da Qatifdəki hakimiyyətlərini 1069-1070-ci illərdə (hicri 462) itirdilər.

Beləliklə IX əsrdə meydana gələn qərmətilər abbasilərə qarşı bir çox üsyanlar qaldırmışlar. Tarixdən də məlumdur ki, onlar 890-906-cı illərdə Cənubi Mesopotamiyada, 894-899-cu illərdə Bəhreyndə, 900-902-ci illərdə isə Suriyada üsyanlar qaldıraraq xilafətə böyük ziyanlar vurmuşlar. 899-cu ildə Bəhreyni ələ keçirən qərmətilər burada XI əsrin ortalarınadək azad əkinçiləri və sənətkarları vergidən azad etmişlər. Əsas kütləsini kəndlilər, bədəvilər və sənətkarlar təşkil edən qərmətilər Qəznəvilər (963-1187) tərəfindən amansızcasına tə-

qib edilmiş və XII əsrdə tarix səhnəsindən silinmişlər. Qəznəvi sultanı Mahmud Qəznəvi (998-1030) qərmətiləri və İsmaililəri amansız təqib edirdi. 1029-cu ildə onun qoşunları Rey şəhərinə hücuma keçdi və burada baş verən döyüşdə çoxlu sayda yerli qərmətilər qılıncdan keçirildi. Sultan Mahmud Qəznəvi Xorasanda, Multanda və Pəncabda qərmətilərin kökünü kəsmək üçün mühüm tədbirlər həyata keçirdi.

Yaxın və Orta Şərqdə mühüm dini-siyasi və ictimai hərəkat olan qərmətilik islamda bir çox bidətlərin banisi olmuş, islam ehkamlarının dəyişdirilməsinə cəhd göstərmişlər. Təbliğatlarında zülm və təzyiqləri qaldıraraq yerinə ədalət və bərabərliyi qoyacağını vəd edən qərmətilik hərəkatı bu iş üçün xüsusi bir proqram tətbiq edə bilmədiyi kimi cəmiyyətə torpaq mülkiyyəti vermə qanununu da uzun müddət davam etdirə bilmədi. Əbu Səid əl-Cənnabi ölkə ilə əlaqədar əhəmiyyətli qərarların verilməsini qabaqda gələn dövlət vəzifələrinin meydana gətirdiyi bir məclisə tapşırmışdı. Bu məclisin ən əhəmiyyətli üzvü olan Həsən ibn Sənbər güclü bir ailənin lideri və Əbu Səid əl-Cənnabinin qayınatası idi. Əbu Səidin ölümündən sonra yerinə böyük oğlu Səid keçdi. Daha sonra Əbu Səid əl-Cənnabinin nəvələri "əs-Sadatur-Ruəsa" adı ilə məclisə girdilər.

Əbu Səid zamanından cəmiyyətdə Hz.Peyğəmbərin *(s)* peyğəmbərliyinə inanılıb islamın gətirdiyi içki qadağasını ortadan qaldırmaqla yanaşı namaz, oruc və digər ibadətlərdən imtina edilmiş və Məkkədən Lahsaya gələn hacılar üçün zəngin bir iranlının tikdirdiyindən başqa bütün məscidlər dağıdılmışdı.[630] Onlar Əbu Səid öldükdən sonra təkrar dünyaya dönəcəyi əqidəsini də qəbul edirdilər.[631]

Qərmətilərin Multan və Sind bölgəsindəki hakimiyyətinə Muizzuddin Muhəmməd son qoydu. 1173-cü ildə Qəznəli Qiyasəddin Muhəmməd tərəfindən verilən sultan ünvanı ilə buranı idarə edən Muizzuddin Muhəmməd 1175-1176-cı illərdə (hicri 571) Multan və Yuxarı Sind Krallığının torpaqlarını ələ keçirdi. Muizzuddin Muhəmməd 1182-ci ildə (hicri 578) Sində daxil olaraq Aşağı Sind bölgəsini qərmətilərdən təmizlədi.

Qərmətilərin dini doktrinası Batiniyyənin dini anlayışları ilə paralellik ifadə edir.

Qərmətilərin inanc əsasları

Qərməti doktrinasında nur əhəmiyyətli bir yer tutur. Başlanğıcda və sonda tək və vahid olan Allahın şəxsi "parıltılı nur" ilə "qahir nur"un etdiyi ülvi bir nurdur. Qahir nurdan külli ağıl və kainatın nəfsi ortaya çıxır. Kainatın nəfsi nəbi, imam və seçmələrin ağılları kimi bəşəri ağıllara qaynaqlıq edər, digər ağıllar isə yox olmağa məhkumdur. Parıltılı nur ikinci dərəcədə olub göydəki fələklər və yerdəki cisimlər kimi müxtəlif görünüşlər verə bilən qaranlıqla əlaqədar nuru yaxud maddəni meydana gətirər. Külli ağıl sabiq yaradıcı vəziyyətin-

[630] Diyanet İslam Ansiklopedisi, Karmatilər maddəsi.
[631] Nasir Xosrov, Səfərnamə, nəşr; M. Qənizadə, Berlin-1340, səh-123-126.

dədir. İmam külli ağılın süfli aləmdəki nümayəndəsidir, bundan ötəri ibadət Allahın özü ilə hicablandığı, digər bir ifadə ilə şəklə bürünən və ilahi xüsusiyyətlər daşıyan imama təsis edilmişdir.

Qərmətilərə görə peyğəmbər qüdsi və saf qüvvət intiqal edən adamdır. Vəhy gətirən isə Cəbrail deyil peyğəmbər üzərinə daşan ağıldır. Quran Muhəmmədin *(s)* külli ağıldan gələn məlumatları ortaya qoyduğu öz ifadələrindən meydana gələr. Bu baxımdan Quranın Allahın kəlamı deyə adlandırılması məcazi mənadadır.

IX əsrin sonlarında qərmətilərin inkişaf etdirdiyi əsl doktrinaya görə Muhəmməd ibn İsmail əl-Məktum yeddinci natiq olaraq zühur etmişdir. Bünövrəsində təzadlar daşıyan bu doktrina dünyanın yaranmasından etibarən insanlığın dini tarixini kəşf, fitrət və sətr dövrələrini ehtiva edən yeddili bir sistem çərçivəsində mütaliə etmişdir. Kəşf dövründə yaxşılıq hakim olduğu üçün zahir şəriətə ehtiyac yoxdur. Bunun ardınca gələn fitrət dövründə yaxşılıq xalq içərisindəki gücünü itirir və şəriət məhvə uğrayır. Sətr dövrəsində isə peyğəmbər vəhyi dərk edib şəriəti ortaya qoyur və qəyyumunu təyin edir. Bu son dövrdə imamlar gizli qalarlar. Xalq onların ortaya çıxışına hazır olunca zühur edib əvvəlki şəriəti ləğv edər və yeni dövrü başladarlar. Bu dövrlər ruhların maddədən qurtarıb külli nəfsə dönməsinə qədər təkrarlanacaqdır. Hər yeddili dövrə peyğəmbər yaxud qərmətilərin ifadəsi ilə "natiq" lə başlar. Natiqdən sonra gələn altı imam isə natiqin kitab və şəriətinin zahiri və batini gerçəkliklərini mühafizə ilə öhdəçiliklidir. Hər nəbinin dövründəki altı imamı izləyən yeddinci adam gələcək dövrənin natiqi mərtəbəsinə yüksəlib əvvəlki şəriəti ləğv edər və yeni bir dövrəni başladar. İlk peyğəmbər Hz.Adəmdən *(ə)* sonra gələn yeddi qəyyum və ya imamın sonuncusu Hz.Nuhdur *(ə)*. Nuh natiq olması hesabı ilə Adəm *(ə)* dövrünün qanunlarını ortadan qaldıraraq yeni bir dövrün əsasını qoymuşdur. Nuhdan *(ə)* sonra gələn vəsilərin yeddincisi olan İbrahim də natiq olması səbəbindən köhnə dövrəni ləğv edib yeni bir dövrü tətbiq etmişdir. Daha sonra sıra ilə Musa *(ə)*, İsa *(ə)* və Muhəmməd *(s)* dövrəsi üçün də eyni vəziyyət başlamışdır. Peyğəmbərin *(s)* ardından gələn Əli *(ə)*, Həsən *(ə)*, Hüseyn *(ə)*, Zeynulabidin *(ə)*, Muhəmməd Baqir *(ə)* və Cəfər əs-Sadiqdən *(ə)* sonra yeddinci adam olan imaməti özünə intiqal edən Muhəmməd ibn İsmail əl-Məktum yeni dövrün natiqi, yəni peyğəmbəri olaraq özündən əvvəlki bütün şəriətlərin hökmlərini ortadan qaldırmış, əvvəlki dinlərin gizli həqiqətlərini elan və ifşa etmiş, yeddinci və son natiq, eyni zamanda Qaim və Mehdi olması səbəbindən qiyamətə qədər sürəcək son dövrənin əsasını qoymuşdur. O, yeni bir şəriət gətirməmiş, lakin özünə gələn ilahi vəhy daha əvvəlki peyğəmbərlərə göndərilən xəbərlərin hamısının kənarındakı batini gerçəkləri ehtiva etmişdir. Bu dövrdə yaşayanlar artıq hər hansı bir şəriətə möhtac olmayacaq, çünki son dövrün qaimi olan Muhəmməd ibn İsmail bütün aləmi idarə edib mənəvi ehtiyaclarını qarşılayacaqdır.[632]

[632]Diyanet İslam Ansiklopedisi, Karmatilər maddəsi.

Qərmətilərin namazı günəşin çıxmasından əvvəl və batmasından sonra olmaq üzrə qılınan iki rükətdən ibarətdir. Namaz qılan kimsə, hər rükətdə Əhməd ibn Məhəhəmməd ibn Hənəfiyyəyə nazil olduğuna inanılan istiftah surəsini oxuyur. Qiblə Beytul-Müqəddəsdir.[633] Oruc yalnız Novruz və Mihrican günlərində olmaq üzrə ildə iki gün tutulur. Bununla belə Əbu Səid əl-Cənnabidən sonra namaz və orucun tamamilə ləğv edildiyi deyilir. Zəkat ümumiyyətlə imamın haqqı olaraq anlaşılmış, müəyyən nisbətdə və ildə bir dəfə yığılmışdır. Həcc ziyarəti zahiri və batini olmaqla iki hissəyə ayrılmışdır. Bunlardan başqa qərmətilərin qüsl almayıb yalnız namaz dəstəmazı kimi dəstəmaz almaları, içkini halal, azı dişli və pəncəli heyvanları haram saydıqları, özlərinə müxalif olanların cizyəyə bağlanmasını lazım gördükləri nəql edilən məlumatlar vardır.[634]

Səffarilər dövləti 867-1500 (və ya 1163)

Abbasilər dövründə qurulan xanədanlardan biri də Səffarilərdir. Xanədanın qurucusu Yəqub ibn Leysdir (867-879). 867-ci ildə Heratı Tahirilərdən (819-873) alan Yəqub, bir il sonra Xorasanın mərkəzi Nişapuru ələ keçirərək bütün Xorasana hakim olmuşdur. Sonra Sistan, Fars, Kirman, Xuzistan əyalətlərini ələ keçirərək İranın bir qisminə hakim oldu, hətta Hindistanda Belucistan və Sind əyalətlərinə də hakim oldu. Yəqub ibn Leys Xuzistandakı Cindişapur şəhərini Səffarilərin paytaxtı elan etmişdir.

868-903-cü illərdə Səffarilər Abbasilərə tabe olaraq bütün İranın valisi olmuşlar. 868-ci ildən sonra bir əmirlik kimi Sicistanda əsrlərlə öz hakimiyyətlərini davam etdirmişlər. Sicistan əmirləri olaraq Abbasilərə, Qəznəlilərə, Kirman səlcuqlarına, Gurlulara, Xarəzmşahlara, İlhanlılara, Qaraqoyunlulara və Ağqoyunlulara tabe olmuşlar. 879-cu ildə Yəqubun ölümündən sonra onun yerinə qardaşı Əmr ibn Leys (879-902) keçmişdir. O, Nişapurda oturaraq Abbasilərin adından Xorasan, İsfahan, Sistan, Kirman, Fars, Belucistan və Sind əyalətlərini idarə etmişdir.

Sünni-Hənəfi məzhəbinə mənsub olan Səffari xanədanına Şah İsmail Xətai 1500-cü ildə son qoymuşdur.

Səffari əmirləri bunlardır:

1) Əbu Yusif Yəqub ibn Leys (867-879)
2) Əmr ibn Leys (879-902)
3) Tahir ibn Muhəmməd ibn Əmr (902-909)
4) Leys (909-912)
5) Muaddil (912-913)
6) II Əmr ibn Yəqub (913-932)
7) Əbu Cəfər Əhməd ibn Muhəmməd (932-955)

---

[633]Tarixi ibn Əsir, VII cild, səh-447.
[634]Tarixi ibn Əsir, VII cild, səh-448, 449.

8) Xələf ibn Əbu Cəfər (955-1009)
9) Muhəmməd ibn Tahir (1009-1068)
10) Bahauddövlə II Tahir (1068-1087)
11) Bahauddin Tahir ibn Nəsr (1087-1088)
12) Mehrban ibn Tahir (1088-1089)
13) Tacuddin Əbul Fəzl (1089-1164)
14) Şəmsuddin (1164-1165)
15) İzzul-Muluk III Məhəmməd (1165-1167)
16) Hərb ibn III Məhəmməd (1167-1215)
17) I Şah ibn Nasuriddin (1215-1221)
18) II Şah ibn Bəhram-Şah (1221)
19) Rukniddin (1221-1222)
20) Şəhabuddin (1222-1225)
21) Əli ibn Nasuriddin (1225-1229)
22) II Əli ibn Məsud (1229-1254)
23) Nasruddin ibn Əbul-Fəth (1254-1328)
24) Şah Nusrət (1328-1330)
25) Qutbəddin IV Məhəmməd (1330-1346)
26) Tacuddin ibn Qutbəddin IV Məhəmməd (1346-1350)
27) I Sultan Mahmud (1350-1352)
28) İzzuddin ibn Rukniddin (1352-1382)
29) I Qutbəddin ibn İzzuddin (1382-1386)
30) II Şah-Şahan Tacuddin (1386-1402)
31) II Qutbəddin ibn Şah-Şahan (1402-1419)
32) Şah-Şahan Şəmsəddin (1419-1438)
33) Nizaməddin Yəhya (1438-1480)
34) Şəmsəddin Mahmud ibn Yəhya (1480-1490)
35) II Sultan Mahmud (1490-1500).[635]

Rüstəmilər dövləti 761-909

Xəvaric məzhəbinin İbadiyyə qoluna mənsub olan Rüstəmilər Qərbi Cəzairdə öz krallıqlarını qurmuşlar. Xanədan, Qeyravanda yerləşən Ərəbləşmiş İranlıdır. Bu xanədanın qurucusu Əbdürrəhman ibn Rüstəm Əğləbdir (761-784). Rüstəmilərin paytaxtı olan Tahərt şəhəri 761-ci ildə Əbdürrəhman tərəfindən salınmışdır. Bu xanədan zaman-zaman Cənubi Tunis xaric olmaqla bütün Tarabulus ölkəsinə də hakim olmuşdur.

Rüstəmi əmirləri bunlardır:

1) Əbdürrəhman ibn Rüstəm Əğləb (761-784)
2) Əbdul-Vəhhab ibn Rüstəm (784-823)

[635]Yılmaz Öztuna, İslam Devlətləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-709.

3) Əbu-Saidil-Əflah (823-871)
4) Əbu Bəkr (871-?)
5) Məhəmməd (?-894)
6) Yusif (894-?)
7) Yəqub (?-? + 906-908).[636]

İlk xarici-İbadi məzhəbinin lideri Əbul-Xəttab Əbdul-Əla ibn Səmhil-Maafiriyyil-Himyəriyyil-Yəmənidir. O, qısa müddətdə Tarabulus, Tunis və Şərqi Cəzairə hakim olmuşdur. İbadilər və Sufrilər, Sünnilərə olduqca yaxın Xarici məzhəbləridir. Xaricilərin ən ifrat məzhəbi Əzraqilərdir.

Rüstəmilərin varlığına şiə təmayüllü Fatimilər (909-1171) tərəfindən 909-cu ildə son qoyulmuşdur.

Həmdanilər dövləti (903-1003 və ya 905-1004)

Həmdanilər 903-1003-cü illərdə həm Şimali Suriyada, həm də Şimali İraqda hökm sürən şiə təmayüllü bir dövlət olmuşdur. Dövlətin adı qurucusu Həmdan ibn Hamidin adından götürülmüşdür. Bölgənin tarixində mühüm rol oynayan Həmdanilər ərəblərin ən böyük qəbilələrindən olan Rəbianın Tağlib qoluna mənsubdurlar. İslamiyyətdən əvvəl xristian olan Tağliblilər Təhamədən şimala köç etmiş, sonralar xəlifə Ömər ibn Xəttabın (634-644) zamanında cizyə ödəyən qəbilə daha sonra müsəlman olmuşdur.

Həmdanın nəsəbi belədir: Həmdan ibn Həmdun ibn Haris ibn Loğman ibn Raşid ibn Müsənna ibn Rafi ibn Haris ibn Qutayf ibn Mərciyə ibn Cariyə ibn Malik ibn Ubeyd ibn Ədiyy ibn Usamə ibn Malik ibn Bəkr ibn Xudeyb ibn Əmr ibn Qənm ibn Tağlib ibn Vail ibn Casit ibn Hinb ibn Əfsa ibn Dumi ibn Cədilə ibn Əsəd ibn Rəbiə ibn Nizar ibn Məad ibn Ədnan.[637]

Xanədana adını verən Həmdan Riqqə bölgəsindən köç edərək Mosula yerləşdi. 868-ci ildə (hicri 254) xaricilərə qarşı etdikləri döyüşlərdə öz hərbi güclərini isbat etdilər. Daha sonra Həmdan 885-ci ildə (hicri 272) Mardin qalasını ələ keçirdi. 892-ci ildə (hicri 279) abbasi xəlifəsi Mutəzid Billah (892-902) şəhəri onun əlindən almaq üçün şəxsən özü səfər etsə də uğur qazana bilmədi. Xəlifə ikinci dəfə türk sərkərdələri ilə birlikdə hərəkət edərək Mardin və Erdimüşt üzərinə gedincə Həmdan yerinə oğlu Hüseyni buraxıb şəhərdən qaşdı. Onun gedişindən sonra qala xəlifəyə təslim edildi. Bir müddət sonra Həmdanın özüdə həbs edildi. Həmdan 896-cı ildə oğlu Hüseyn xəvaric ordusunu məğlub etdikdən sonra sərbəst buraxılmışdır. Eyni ildə Hüseyn ibn Həmdan Cibalda Bəkr ibn Əbdüləziz ibn Əbu Duləfə və qərmətilərə qarşı səfərə çıxdı. 905-ci ildə isə Abbasilərin baş komandanı Muhəmməd ibn Süleymanla birlikdə Misir səfərinə qoşularaq Tulunoğullarını məğlub edərək bölgənin təkrar ələ keçirilməsində böyük rol oynadı.

---

[636]Yılmaz Öztuna, İslam Devlətləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-206.
[637]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-458.

Miladi 908-ci ildə (hicri 295) yenidən Suriyada qərmətilər üzərinə gedən Hüseyn ibn Həmdan 909-cu ildə (hicri 296) İbn Mutəzzi taxta çıxarmaq üçün hazırlanan uğursuz plana qoşulduğu üçün qaçmaq məcburiyyətində qaldı. Bir müddət sonra Hüseyn digər qardaşı İbrahimin vasitəsilə bağışlanaraq Qum və Kaşan, 910-cu ildə isə Diyari Rəbia valiliyinə təyin edildi. Bundan istifadə edən Hüseyn ibn Həmdan müstəqilliyini elan edərək yığdığı vergiləri Abbasi xəlifəsinə göndərmədi. Xəlifə Müktəfi Billah (902-908) Əmirul-üməra İbn Raikin komandanlığı altında olan ordunu ona qarşı göndərsə də uğur qazana bilmədi. Daha sonra əmir Munis əl-Muzəffərə məğlub olan Hüseyn əsir düşdü. Həmdani əmirlərinə etibarı qalmayan xəlifə onunla birlikdə qohumlarını da həbs etdirdi. Lakin 918-ci ildə (hicri 306) xəlifə Müqtədir (908-932) özünə qarşı hazırlanan sui-qəsddə Huseyn ibn Həmdanı, öz vəziri ibn Furatı (Əbul-Həsən Əli ibn Məhəmməd) və Azərbaycandakı valisini günahkar bilərək Hüseyni edam etdirdi, digərlərini isə vəzifədən uzaqlaşdırdı.[638]

Hüseyindən fərqli olaraq qardaşları Əbulhica Abdullah, İbrahim və Səid xəlifəyə sadiq qaldıqları üçün Əbulhica 905-ci ildə (hicri 293) Mosul, İbrahim 919-cu ildə (hicri 307) Diyari Rəbia və Səid 924-cü ildə (hicri 312) Nəhavənd valiliyinə təyin edilmişdir. Bunlardan Əbulhica bir tərəfdən üsyançı qrupları itaət altına alarkən digər tərəfdən qardaşı Hüseynə qarşı icra edilən əməliyyatları idarə edirdi. Əbulhica sonralar Bağdadda qalmağı üstün tutaraq oğlu Həsəni yerinə vəkil qoydu. 913-cü ildə (hicri 301) Mosul valiliyindən götürülən Əbulhica Əmirul-üməra Munisə itaət etdiyindən növbəti il həmin vəzifəyə gətirildi. 919-cu ildə (hicri 307) üsyan edən Azərbaycan valisi Yusif ibn Əbu Sacı itaət altına almaq üçün göndərilən Munisin əmrində olan orduda yer aldı. Daha sonra Xorasan və Dinavər valiliyinə təyin edildi və 925-ci ildə (hicri 313) Mosul ilə Cizrə bölgəsindəki Bazab və Qarda onun idarəsinə verildi. Qardaşı İbrahimin ölümündən sonra vali olduğu Diyari Rəbianın idarəçiliyi yenə qardaşlarından olan Davuda tapşırıldı. Əbulhica da qardaşı Hüseyn kimi qərmətilərə qarşı mübarizə apararaq 927-ci ildə (hicri 315) Bağdadı onların hücumundan qorudu. Bu arada Dinavər valiliyindən uzaqlaşdırılınca Bağdada gedərək Munis və Sahibuş-şürtə Nazukun yardımı ilə 929-cu ildə (hicri 317) xəlifə Müqtədir Billahı (908-932) taxtdan salıb yerinə Qahir Billahı (932-934) taxta çıxardı. Buna qarşılıq olaraq yeni xəlifə Hulvan, Dinavər, Həmədan və Girmanşahın rəhbərliyini 929-cu ildə (hicri 317) Əbulhicaya verdi. Ancaq qısa müddət sonra Qahir Billah xəlifəlikdən uzaqlaşdırıldı və Müqtədir Billah yenidən xəlifə elan edildi. Həmdanilərin gerçək qurucusu olan Əbulhica da bu qarışıqlar əsnasında öldü. 929-cu ildə Həmdanilər dövlətinin əsasını qoymuş Əbulhica ibn Həmdan ibn Həmdunun ölümündən sonra Həmdanilər Mosul və Hələb olaraq iki qola ayrıldı.

[638]Diyanet İslam Ansiklopedisi, XV cild, Hamdanilər maddəsi.

Həmdanilərin Mosul qolu

Mosul qolunun qurucusu Əbulhicanın oğlu Nasiruddövlə Həsəndir. Əbulhicanın ölümündən sonra xəlifə Müqtədir Billah Mosulun rəhbərliyini ondan alaraq əmiləri Nəsr və Əbul-Əla Səidə verdi. Nasirddövləyə isə Diyari Rəbianın qərbi ilə Nusaybin, Sincar, Habur və Ərzənin rəhbərliyini verdi. Lakin bununla razılaşmayan Həsən 935-ci ildə əmisi Səidi öldürərək Mosulu geri aldı. Bundan qəzəblənən yeni xəlifə Razi Billah (934-940) vəziri ibn Müqləni Mosula göndərərək şəhəri ələ keçirdi. Lakin eyni ildə xəlifənin ordularını məğlub edən Həsən Mosulla birlikdə Diyari Rəbia, Diyanmudar və Diyarbəkri ələ keçirdi. Nasiruddövlə Həsən 942-ci ildə (hicri 330) xəlifənin səlahiyyətlərini əlindən almaq və özünü də Mosuldan uzaqlaşdırmaq istəyən ibn Raiqi aradan götürdü. Buna görə xəlifə onu "Nasiruddövlə" ünvanı ilə Əmirul-üməra təyin etdi, köməkçisi qardaşı Əliyə də "Seyfuddövlə" ünvanını verdi. Mosul əmiri Nasiruddövlə türk əsilli sərkərdə Təkini də təsirsiz hala gətirdi. Beləcə 947-ci ildə (hicri 335) Mosul və Cəzirədə sabitlik yarandı.

Miladi 948-ci ilin əvvəlləri (hicri 336) Nasiruddövlə ilə Büveyhi hökmdarı Muizzuddövlənin (945-967) arası pozulduğu üçün Muizzudövlə Mosul üzərinə hərəkət etdi. Bundan xəbər tutan Nasiruddövlə Nuseybinə qaçdı. Bundan istifadə edən Muizzuddövlə Həmdanilərin bütün torpaqlarını ələ keçirməyə çalışdı. Nəticədə Mosul xalqı Büveyhilərin zülmünə məruz qaldı və Muizzuddövlənin əlindən gördükləri təzyiqlər onları çətinliyə saldı. Amma bu arada yaranan şərtlər onların işinə yaradı. Çünki Ruknuddövlə xorasanlılara qarşı mübarizədə qardaşı Muizzuddövlədən yardım istədi. Buna görə Muizzuddövlə Həmdan əmiri Nasiruddövlə ilə sülh bağladı. Sülhə görə Nasiruddövlə hər il Muizzuddövləyə 8000 dirhəm vergi verməklə yanaşı, Cümə xütbələrində Büveyhioğulları İmaduddövlə, Muizzuddövlə və Ruknuddövləyə dua oxudacaqdı. 957-ci ildə (hicri 345) Muizzuddövlə bəzi üsyanları yatırmaq üçün Bağdaddan Əhvaza doğru hərəkət etdi. Bunu fürsət bilən Nasiruddövlə də Bağdada girərək şəhəri ələ keçirdi. Muizzuddövlə işini bitirib Bağdada dönüncə Həmdanilər şəhəri tərk etdilər. Lakin Nasiruddövlə sülhün şərtlərini yerinə yetirməkdən imtina etdi. Buna görə Muizzuddövlə Mosula doğru hərəkət edərək Nasiruddövlə ilə döyüşü başladı. Lakin Nasiruddövlə vergiləri xilafətə aid xəzinəyə ödəyəcəyi vədini verdi. Onun bu sözü verməsinə baxmayaraq Muizzuddövlə növbəti il yenə Nasiruddövlənin üzərinə getdi və Mosula daxil oldu. Nasiruddövlənin Nuseybinə qaçmasına baxmayaraq Muizzuddövlə onun ardınca getdi. Nasiruddövlə bu dəfə qardaşı Seyfuddövlənin müstəqil olaraq hökmranlıq etdiyi Hələb şəhərinə qaçdı. Seyfuddövlənin vasitəçiliyi ilə Muizzuddövlə ilə Nasiruddövlənin arası düzəldi. Eyni zamanda Seyfuddövlə qardaşı Nasiruddövlənin hər il Bağdada xilafət xəzinəsinə iki milyan doqquz yüz min dirhəm vergi ödəyəcəyini, həmçinin qardaşının borclarını da şəxsən özünün ödəyəcəyinə söz verdi.

Nasiruddövlə bir ilə yaxın Bağdadda qaldıqdan sonra yerini türk komandiri Tüzünə buraxıb Mosula getdi. Tüzün ilə razılaşa bilməyən xəlifə Müttəqi Billah

(940-944) 943-cü ildə Mosula gedib Həmdanilərə sığındı. Buna cavab olaraq Tüzün Həmdanilərin üzərinə gedərək onları Mosulu tərk etmək məcburiyyətində qoydu. Nasiruddövlə xəlifəni daha əmin yer olaraq Mosuldan Riqqəyə göndərdi. Bu arada Nasiruddövlə ilə Tüzünün arası düzəlincə xəlifə Müttəqi İxşidi əmiri Məhəmməd ibn Tuğcdan kömək istədi. Lakin bu kömək baş tutmadı. Bir neçə ay sonra xəlifə Müttəqi Billah Tüzünün dəvəti ilə Riqqədən Bağdada doğru hərəkət etdi, lakin yolda gözlərinə mil çəkilərək 944-cü ildə xəlifəliyinə son qoyuldu. Nasiruddövlə vəd verdiyi vergini ödəməyincə Tüzün ilə yeni xəlifə Müstəkfi Billah (944-946) onun üzərinə gedərək vergini verməyə məcbur etdilər.

Muizzuddövlə ilə Nasiruddövlə arasındakı mübarizə 956-957-ci illərdə (hicri 345) yenidən canlandı. Həmdanilər Muizzuddövlənin Bağdadda olmamasından istifadə edərək şəhəri zəbt etmək istədilər. Muizzuddövlə onlardan verdikləri zərər və ziyanı ödəmələrini istəməklə kifayətləndi. Lakin illik vergi mövzusunda Həmdanilərlə razılaşa bilmədiyindən Mosul və Nusaybini ələ keçirib Rahbə üzərinə getdi. 964-cü ildə (hicri 353) Mosulu ələ keçirən Muizzuddövlə şəhərin rəhbərliyini Nasiruddövlənin oğlu Əbu Tağlib Qəzənfərə verdi. Bu hadisələrdən sonra Erdmüştdə olan Nasiruddövlə 969-cu ildə (hicri 358) öldü.

Qəzənfər Diyarbəkri ələ keçirmək istəyən Bizanslıları məğlub edərək Domestikos Meliası əsir götürdü. Bunun üzərinə Büveyhi əmiri Bəxtiyarın təklifi ilə xəlifə Muti Lillah (946-974) "Uddətuddövlə" ləqəbini verdi. Qəzənfər ilə Bəxtiyar Bağdadı ələ keçirmək istəyən Büveyhi hökmdarı Adududdövləyə qarşı döyüşə başladılar. Lakin məğlub olduqlarını görən Qəzənfər Bizansa sığınmaq məcburiyyətində qaldı. Bir müddət sonra geri dönsə də Rəmlə əmiri Mufərric ibn Dağfələ tərəfindən 979-cu ildə (hicri 369) öldürüldü. Onun ölümü ilə Həmdanilərin əl-Cəzirə və Mosuldakı hakimiyyətlərinə son qoyuldu. Qəzənfərin qardaşları Əbu Abdullah Hüseyn və Əbu Tahir İbrahim 990-cı ildə (hicri 380) Uqaylilər tərəfindən aradan qaldırıldı. Digər qardaşı Zülqərneyn isə Fatimilərə (909-1171) sığındı və 1010-cu ildə (hicri 401) Dəməşq valiliyinə təyin edildi.

Həmdanilərin Hələb qolu

Hələbdəki Həmdanilərin əmiri Seyfuddövlə idi. Nasiruddövlə Həsən qardaşı Seyfuddövlə Əlini Nusaybinə vali təyin etmişdi. Nasiruddövlənin razılığı ilə 944-cü ildə (hicri 333) Hələb şəhərinə daxil olan Seyfuddövlə xəlifə Müstəkfi Billah (944-946) və qardaşı Nasiruddövlə adına xütbə oxutdu. Növbəti ildə isə Dəməşqi ələ keçirdi. İhşidilərlə Həmdanilər arasındakı mübarizə Məhəmmədin ölümündən sonra Kafurun dövründə də bir müddət davam etdi və sonda əldə edilən anlaşmaya görə bütün Şimali Suriya Həmdanilərin ixtiyarına verildi. Bu tarixdən etibarən Seyfuddövlə Bizansla davamlı münaqişəyə başladı.

949-cu ildə (hicri 337) böyük bir ordu ilə Bizans torpaqlarına daxil olan Seyfuddövlə məğlubiyyətə uğradı və bizanslılar Həmdani ordusunun əlində olan döyüş sursatlarının hamısını götürdülər.

951-ci ildə (hicri 339) yenidən böyük bir ordu ilə Bizans torpaqlarına daxil olan Seyfuddövlə qalib gələrək xeyli əsir götürdü. Lakin geri qayıdarkən rumlular onu məğlub edərək əsirləri geri aldılar.

954-cü ildə (hicri 342) edilən səfərdə isə Seyfuddövlə uğur qazandı. Növbəti il isə Zabatra və Malatya şəhərlərinə basqın edildi. Buralar əsasən İslam torpaqlarının strateji nöqtələri idi. Seyfuddövlə bu döyüşdə Damastukun oğlu Konstantini məğlub edərək adamlarının çoxunu öldürdü. Maraş yaxınlarında isə Damastukun özünü məğlub edərək kürəkənini və qızının oğlunu əsir aldı.

Bundan cəsarətlənən Seyfuddövlə 957-ci ildə (hicri 345) yenidən Bizans torpaqlarına daxil olaraq böyük bir zəfər qazandı və Hələbə çoxlu qənimətlə qayıtdı. Buna cavab olaraq Bizanslılar böyük bir ordu ilə müsəlman şəhərlərinə daxil olaraq xeyli insanı qılıncdan keçirdilər. Eyni zamanda dəniz yolu ilə Tartus şəhərinə hücum edərək mindən artıq adamı qılıncdan keçirdilər.

960-cı ildə (hicri 348) Rəha və Tartusa daxil olan bizanslılar xeyli insanı qətlə yetirərək mal-qaranı qarət etdilər.

Buna cavab olaraq 961-ci ildə (hicri 349) Bizans torpaqlarına daxil olan Seyfuddövlə bir neçə qalanı fəth etdi. Lakin geri qayıdarkən bizanslılar onun yolunu kəsərək əsgərlərinin çoxunu öldürdülər. Bu hadisədə 300 süvari ilə birlikdə Seyfuddövlədən başqa kimsə xilas ola bilmədi.

963-cü ildə (hicri 351) erməni hökmdarı Nikofor (Domestikos) Hələbə daxil olaraq Seyfuddövlənin sarayını ələ keçirdi. Doqquz gün Hələbdə qalan Nikoforun ordusu bütün çirkin əməlləri həyata keçirdilər.

Bu ilin hadisələrini şərh edən məşhur tarixçi İbn Kəsir yazır: "Bu ildə Bizanslılar Nikoforun əmrində iki yüz min döyüşçü ilə Hələbə daxil oldular. Seyfuddövlə yanında hazır olan döyüşçülərlə ona qarşı çıxsa da məğlub oldu.

Seyfuddövlənin sarayını ələ keçirən Nikofor oradakı qadınlar, uşaqları və digərlərini əsir götürdü. Sonra Hələb qalasını mühasirəyə aldı. Şəhər xalqının göstərdiyi mübarizə nəticəsində çoxlu sayda rumlu əsgər öldürüldü. Lakin qəfil hücuma keçən Bizanslılar xeyli insanı qılıncdan keçirməklə bərabər on minlərlə insanı da əsir götürdülər.[639]

Aynzərbədə sərhəd nöqtələrini yenidən təmir edən Seyfuddövlə sərkərdələrindən birini Bizanslıların üzərinə göndərdi. Böyük bir ordu ilə Bizans torpaqlarına daxil olan sərkərdə çox keçmədən Seyfuddövləyə qarşı baş qaldırıb, Hərran şəhərində müqavimətə başlayaraq Azərbaycana getdi. Buranı Əbul-Vərd adlı bir bədəvinin köməyi ilə ələ keçirdi. Lakin qısa müddət sonra Seyfuddövlə onun üzərinə gedərək onu ortadan qaldırdı.

Bu hadisədən qısa müddət sonra 968-ci ildə (hicri 356) Seyfuddövlə öldü, yerinə oğlu Səduddövlə Əbul Məail keçdi. 969-cu ildə dayısı ilə ədavətə düşən Əbul Məail onu öldürdü. Amma atasının azad etdiyi kölələrdən Karaveyh onu məğlub edərək Hələbi ələ keçirdi. Lakin yenidən hücuma keçən Əbul Məail

[639]İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, Çağrı yayınlar, XI cild, səh-410, 413.

Fərat çayını keçib Hama üzərinə gedərək şəhəri ələ keçirdi. Sonra Xımsa gələn Əbul Məail bizanslıların 971-ci ildə xaraba qoyduqları sahələri yenidən qurdu. Bizanslıların gücündən qorxan Karaveyh onlarla yaxşı dolanmağa cəhd edirdi. 972-ci ildə Karaveyh ilə Əbul Məail barışdığı üçün Hələbdə vəziyyət nisbətən sabitliyə qovuşdu. Bu dövrdə şiəlik daha da artmağa və geniş təbliğ olunmağa başladı. Əməvi və Abbasi dövründə təqib olunan şiəlik Büveyhilər və Həmdanilər dövründə daha rahat şəkildə fəaliyyət göstərirdi. Başlanğıcda uğur qazana bilməyən Səduddövlə sonralar əhəmiyyətli zəfərlər qazandı və komandir Bardas Phokasın oğlu Konstantinosu əsir götürdü.[640]

991-ci ildə (hicri 381) Səduddövlənin ölümündən sonra yerinə Əbul-Fəzail Saiduddövlə keçdi. Bu arada Fatimilər Hələbi mühasirəyə alsalar da Bizans imperatoru II Basileiosun köməyə gəlməsilə geri çəkildilər. Çoxdan Həmdani hakimiyyətini ələ keçirməyi planlayan Hacib Lulu 1002-ci ildə (hicri 392) kürəkəni Saiduddövləni zəhərləyərək aradan götürdü və iki ilə qədər onun oğulları adından dövləti idarə etdi. Daha sonra onlardan Əbul-Həsən Əli ilə Əbul Məali Şərifi Misirə sürgün etdi, digər qardaşları Əbulhica isə ölkəni tərk edərək Bizans imperatoruna sığındı. Beləcə Həmdanilərin Hələb qoluna son verən Lulu idarəni təkbaşına ələ keçirmiş oldu. 1008-ci ildə (hicri 399) ölümündən sonra yerini oğlu Mənsur tutdu və Fatimi xəlifəsinin adına xütbə oxutdu. Xəlifə ona "Murtazauddövlə" ləqəbini verdi.

Misirdə Abbasi xilafəti (1261-1517)

Monqol xanı Hülakinin başçılığı altında olan ordu 1258-ci ildə (hicri 656) Bağdadı tutaraq Abbasi xilafətinə son qoyduqdan sonra İslam aləmi üç il dörd ay xəlifəsiz qaldı. Abbasilərin monqollar tərəfindən kütləvi şəkildə qırıldığını görən otuz beşinci xəlifə Zahir Billahın (1225-1226) oğlu və otuz altıncı xəlifə Mustansir Billahın (1226-1242) qardaşı Əhməd Misirə gedərək Məmlük hökmdarı Ruknəddin Bəybarsa sığındı. Bir müddət sonra 1261-ci ildə (hicri 659) Əhməd Mustansir Billahı "Əbul-Qasim" adı ilə xəlifə elan etdi. Beləcə Qahirədə Abbasi xəlifələri dövrü başladı. Bunlar Bağdad Abbasiləri kimi hökmdar deyildilər. Sadəcə dünya müsəlmanlarının ən böyük lideri və bütün sünni müsəlmanlarının mənəvi başı idilər. Bu vəziyyət 1517-ci ildə Yavuz Sultan Səlimin Mərci-Dabıq müharibəsində Məmlük sultanını öldürməsi və son xəlifəni əsir etməsinə qədər davam etdi. Meydan müharibəsinin cümə günü Hələb Ulu Camisində Yavuz Sultan Səlim, öz adına "Xədimul-Hərəmeyniş-Şərifeyn" deyərək xütbə oxutdurdu. Bundan sonra xilafət Ərəblərdən Türklərə, Osmanlılara keçdi.

Misir Abbasi xilafətini on yeddi xəlifə idarə etmişdir və həmin xəlifələr bunlardır:

1. Əbul Qasim Əhməd əl-Mustansir ibn Zahir (1261, altı ay)
2. I əl-Hakim (1261-1302)

[640]Diyanet Ansiklopedisi, XV cild, Hamdaniler maddesi.

3. I əl-Müstəkfi ibn I əl-Hakim (1302-1340)
4. I əl-Vasiq ibn Əhməd ibn I əl-Hakim (1340, dörd ay)
5. II əl-Hakim ibn I əl-Müstəkfi (1340-1352)
6. I əl-Mutəzid ibn I əl-Müstəkfi (1352-1362)
7. I Mutəvəkkil ibn əl-Mutəzid (1362-1377; 1377-1383; 1389-1406)
8. əl-Mutəsim ibn İbrahim (1377-15 gün; 1386-1389)
9. II Vasiq ibn İbrahim (1383-1386)
10. əl-Mustəin (1406-1414)
11. II Mutəzid (1414-1441)
12. II Müstəkfi (1441-1451)
13. əl-Qaim (1451-1455)
14. əl-Mustəncid ibn I Mütəvəkkil (1455-1479)
15. II Mütəvəkkil (1479-1497)
16. əl-Mustəmsik (1497-1509)
17. III Mütəvəkkil (1509-1517).

Məmlüklər (1250-1517)

"Məmlük" ərəb dilində "kölə" deməkdir. Bu ifadə daha çox ağ dərili qullar üçün işlədilir. Kəlimənin ərəbcədə cəmi "memalik"dir. Səlcuqlu dövlətində, hökmdarın sarayında və ətrafında istifadə etdiyi "xassə" əsgərlərə məmlük deyilirdi.

Məmlük kölələrinin əksəriyyəti Kırım, Qafqaz, Qıpçaq ölkəsi (Qaradənizin şimalı), Anadolu, Maveraun-nəhr bölgələrindən gətirilən Türk kölələrindən təşkil olunurdu. Əyyubi məliklərindən Saleh Nəcməddin Əyyub (1240-1249) bir çox türk kölə alaraq ordusunu bunlarla doldurmuşdu. Səlahəddin Əyyubi oxuma-yazma ilə yanaşı bunlara hərb sənətini də öyrədirdi.

Səlahəddin Əyyubi kölələrdən təşkil olunan əsgərlərini Nil çayı üzərində Ravza adasında tikdirdiyi qalalarda yerləşdirdiyi üçün bunlara "əl-Məmalikul-Bəhriyə" (Dəniz Məmlükləri) deyilirdi.

Məmlüklər arasından generallığa qədər yüksələnlər, hökmdarın adına nisbət edilir və onun mənəvi oğlu sayılırdı. Misir imperatorluğunda Əyyubilərin yerini alan ilk sultanlar, Səlahəddin Əyyubinin oğullarından, onun tərəfindən satın alınmış, tərbiyə edilmiş, yetişdirilmiş Türk məmlükləridir. Aybək, Kutuz, Bəybars, Kalavun Əyyubi sultanının mənəvi oğullarıdır və bunu göstərmək üçün adlarının sonunda "as-Salihi" nisbəsini daşıyırlar. Sultan Aybək, Sultan Kutuz, Sultan Bəybars, hətta Sultan Kalavun və Sultan Məhəmməd Türk tarixinin dahiləri arasında böyük şəxsiyyətlərindəndirlər.

Bəybars, Xaçlı dövlətlərinin Şərqi Ağdəniz sahillərində əldə etdikləri bütün yerləri geri almış və Yaxın Şərqdə xristian hakimiyyətinə son qoymuşdur. Sələfi Kutuz isə, monqol təklükəsini bitərəf etmiş, Monqollar Misiri də aldıqları təqdirdə İslam tarixinin ən zəif inkişaf mərhələsinə girməsinin qarşısını almışdır.

Məmlük dövləti 266 il altı ay davam etmişdir. Paytaxtı Qahirə şəhəri olan bu dövlətin rəsmi yazı dili ərəbcə olsa da, ordu və saray dili türk dili olmuşdur. Sultanların məzhəbi sünni-hənəfidir. Dövlətin ərazisi əsasən Misir, Suriya, Livan, Ürdün (İordaniya), Fələstin, Hicaz, Sudan və Fərata qədər Anadolunu əhatə edirdi. 1388-ci ildə Həbəşistan, 1336-cı ildə Cəlayirlilər, 1311-1317-ci illərdə Həfsilər, uzun müddət Kipr krallığı, Qaramanoğulları və Dülqədiroğulları, Ramazanoğulları, bir neçə dəfə Yəmən Məmlüklərə tabe olmuşdur. Beləcə bu dövlətin ərazisi Cəzairdən İrana və Orta Anadoludan Həbəşistana qədər uzanırdı. 1260-cı ildə Suriya (Şam, Hələb, əl-Ərəşə qədər Fələstin) Əyyubilərdən Məmlüklərə keçmişdir.

Məmlüklərə yeni yazılan türk dilli kitablarda "Köləmənlər"də deyilir. Dövlətin rəsmi adı "əd-Dövlətit-Türkiyyə" Türk dövlətidir. Məmlük tarixi iki yerə ayrılır: Türk Məmlükləri və Çərkəs Məmlükləri. "Məmalikul-Bəhriyyə" (Bəhri Məmlükləri) də deyilən Türk məmlüklərinin sayı iyirmi dörddür. Bunlar 1250-ci ildən 1382-ci ilə qədər hakimiyyədə olmuşlar. Bu iyirmi dörd sultanın ilk ikisi oğuz türkü, qalan iyirmi ikisi isə Qıpçaq türküdür.

"Məmalikul-Burciyyə" Burcu Məmlükləri də deyilən Çərkəs məmlüklərini iyirmi sultan idarə etmişdir. Çərkəs məmlükləri 1382-ci ildən 1517-ci ilə qədər hakimiyyətdə olmuşlar. Bu sultanlardan biri Abbasi xəlifəsi yəni ərəb irqindəndir. Çərkəs məmlükləri dövründə də dövlətin türk xarakteri dəyişməmişdir. Çərkəs sultanlarından yalnız biri türk dilini bilməmiş, digərləri isə türk dilindən ana dili kimi istifadə etmişlər. Əsasən bu dövrdə də ordu türk qalmış və türkcədən istifadə etmişdir. Türk dövrü 133, Çərkəs dövrü isə 134 il davam etmişdir. Məmlüklər, XIX əsrin əvvəllərində Kavalalı Məhməd Əli Paşa tərəfindən ailə rəisləri məhv edilincəyə qədər, Osmanlı dövründə də nüfuzlarını, torpaqlarını qorumuşlar. Osmanlı dövründə Misirdə şəhər valiləri əsasən məmlüklərdən seçilmiş, ancaq Misir valiliyi bir məmlükə verilməmiş, İstanbuldan göndərilmişdir. XVI əsrin ən böyük fatehlərindən Vəziri-azam Özdəmiroğlu Osman Paşa ilə atası Özdəmir Paşa Misir Məmlüklərindəndir. Bunlar Həbəşistan, Yəmən, Qafqaz, Qərbi İran kimi ölkələri Osmanlı imperatorluğuna qazandırmış böyük əsgərlərdir.

Məmlük tarixinin yüksəliş dövrü, Türk sultanları dövrüdür. Çərkəs sultanları dövründə dövlət zəifləməyə başlamışdır. Nəhayət Yavuz Sultan Səlim imperatorluğu bütünlüklə ortadan qaldırıb Osmanlı dövlətinə qatmışdır. O anda belə Məmlük dövləti, Türkiyə və İrandan sonra dünyanın üç böyük və güclü imperatorluğundan biri idi. Məmlük sultanları və səltənət müddətlər:

1. Bəhriyyə Məmlükləri və ya Türk məmlükləri:

1) Məlikul-Muizziddin Aybək (1250-1257)
2) Məlikul-Mənsur Nurəddin Sultan Əli (1257-1259)
3) Məlikul-Muiz Seyfəddin Sultan Kutuz (1259-1260)
4) Məlikul-Qahir əl-Həcc Ruknəddin Bəybars (1260-1277)

5) Məlikus-Səid Nasiruddin Bərəkəxan (1277-1279)
6) Məlikul-Adil Bədrəddin Süləmiş(1279)
7) Məlikul-Mənsur Seyfəddin Kalavun (1279-1290)
8) Məlikul-Əşrəf Səlahəddin Xəlil (1290-1293)
9) Məlikun-Nasir Nasiruddin Məhəmməd (1293-1294; 1299-1309)
10) Məlikul-Adil Zeynuddin Ketbuğa (1294-1296)
11) Məlikul-Mənsur Hüsaməddin Laçın (1296-1299)
12) Məlikul-Muiz II Ruknəddin Bəybars (1309-1310)
13) Məlikul-Mənsur Seyfəddin Əbu Bəkr (1341)
14) Məlikul-Əşrəf Əlauddin Kiçik (1341)
15) Məlikun-Nasir Şəhabuddin Əhməd (1341-1342)
16) Məlikun-Nasir İmaduddin İsmail (1342-1345)
17) Məlikul-Muiiz Seyfəddin Şaban (1345-1346)
18) Məlikul-Muiiz Seyfəddin Hacı (1346-1347)
19) Məlikun-Nasir Nasiruddin Həsən (1347-1351; 1354-1361)
20) Məlikus-Saleh Səlahəddin Saleh (1351-1354)
21) Məlikul-Mənsur Səlahəddin Muhəmməd (1361-1363)
22) Məlikul-Əşrəf Nasiruddin Şaban (1363-1377)
23) Məlikul-Mənsur Əlaəddin Əli (1377-1381)
24) Məlikus-Saleh Səlahəddin Hacı (1381-1382; 1389-1390).[641]

2. Burcuyyə məmlükləri və ya Çərkəs məmlükləri

1. Məlikuz-Zahir Əbu Səid Seyfəddin Barkuk (1382-1389; 1390-1399)
2) Məlikun-Nasir Nasiruddin Fərəc (1399-1405; 1405-1412)
3) Məlikul-Mənsur İzzuddin Əbdüləziz (1405-1406)
4) Məlikul-Adil Müstəin Billah (1412, altı ay)
5) Məlikul-Müəyyid Seyfəddin Şeyx (1412-1421)
6) Məlikul-Muizziddin Şihabəddin Əhməd (1421)
7) Məlikuz-Zahir Seyfəddin Tatar (1421)
8) Məlikus-Saleh Nasiruddin Muhəmməd (1421-1422)
9) Məlikul-Əşrəf Seyfəddin Barsbəy (1422-1438)
10) Məlikul-Əziz Cəmaləddin Yusif (1438)
11) Məlikuz-Zahir Seyfəddin Çokmak (1438-1453)
12) Məlikul-Mənsur Fəxruddin Osman (1453)
13) Məlikul-Əşrəf İnal (1453-1461). İstanbulun fəthini bütün Məmlük imperatorluğunda bir həftə rəsmi şənlik elan edərək şənlənmişdir.
14) Məlikul-Müəyyəd Əbul-Fəth Şəhabəddin Əhməd (1461)
15) Məlikuz-Zahir Xoş Qədəmin-Nasiri Bilbay (1461-1467)
16) Məlikuz-Zahir Yelbay (1467)
17) Məlikuz-Zahir Təmir-Buğa (1467-1468)

[641]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı 1989, I cild, səh-347.

18) Məlikul-Əşrəf Əbun-Nasir Seyfəddin Kayıtbəy (1468-1496)
19) Məlikun-Nasir Əbus-Səadət Muhəmməd (1496-1498)
20) Məlikuz-Zahir Kansu (1498-1500)
21) Məlikul-Əşrəf Canbulat (1500-1501)
22) Məlikul-Adil Tumanbəy (1501)
23) Məlikul-Əşrəf Seyfəddin Kansu (1501-1516)
24) Məlikul-Əşrəf Əbun-Nasir Tumanbəy (1516-1517).[642]

Bəhriyyə Məmlükləri (1250-1382)

Səlib yürüşlərinin davam etdiyi ərəfədə Nəcməddin Əyyub 1249-cu ildə (hicri 647) Mənsura şəhərində vəfat etdi. Onun türk əsilli arvadı Şəcərüd-Dür Nəcməddin Əyyub vəfatını gizli saxlayaraq Xısn-Keyfada vali olan oğlu Turan Şaha xəbər göndərdi. Lakin onun tədbirləri yetərli olmadığı üçün əsgərlər Nəcməddin Əyyubun ölümünü öyrəndilər. Turan Şah 1250-ci ildə taxtı ələ keçirdi. Lakin Şəcərüd-Dür və Türk komandirlərinə qarşı sərt davrandığı üçün onlar tərəfindən öldürüldü və Şəcərüd-Dür sultan elan edildi. İzzəddin Aybəyi isə "Atabəyul-əsakir" elan etdilər. Ancaq başda xəlifə olmaqla Misir alimləri bunu qəbul etmədiyi üçün Aybəylə evlənən Şəcərüd-Dür səltənəti ona verdi.[643]

Hakimiyyəti əldə edən İzzəddin Aybək (1250-1257/hicri 648-655) həm xaçlılara qarşı həm də İslam dünyasını məhv edən Monqollara qarşı mübarizəyə başladı. Əvvəlcə Aybək onu qəbul etməyən Suriya Əyyubilərini 1251-ci ildə Abbasiyyə yaxınlığında məğlub etdi. Daxili və xarici düşmənlərini məğlub edən Aybək yeni arvad aldığı üçün 1257-ci ildə (hicri 655) birinci xanımı Şəcərüd-Dür tərəfindən öldürüldü. Onun yerinə oğlu Nurəddin Əli əl-Məlik əl-Mənsur (1257-1259/hicri 655-657) keçdi. Naibus-səltənə vəzifəsi Seyfəddin Kutuza verildi. Kutuz, Aktayın ölümündən sonra Suriyaya qaçan Bəhriyyə məmlükləri ilə mübarizə apararaq onları məğlub etdi. 1259-cu ildə isə Aybəyin oğlunu bitərəf edərək özünü sultan elan etdi. Bu arada Suriya monqolların hücumuna məruz qaldı. İlhanlılar Hülakinin başçılığı ilə Diyarbəkri ələ keçirdikdən sonra Hələbə daxil olaraq kişiləri qətlə yetirdilər. Şam, Baləbək və Hama monqolların əlinə keçdi.

Hülakinin Qaraquruma dönməsindən istifadə edən Məmlüklər Kutuzun əmri altında Suriyaya gələrək 1260-cı ildə (hicri 658) Ayn-Calut adlı məntəqədə monqolları məğlub edərək Suriyanı özlərinə tabe etdilər. Ayn-Calut müharibəsindən qayıdarkən Salihiyyə adlı məntəqədə Bəybars və adamları 1260-cı ildə Kutuzu öldürdülər və Bəybars əl-Məlik əz-Zahir əl-Bunduqdari (1260-1277/hicri 658-676) özünü sultan elan etdi.

Monqollara qarşı mübarizə aparan Bəybars, xaçlıları da məğlub etdi. Qilikya Erməni krallığının zərərlərini ortadan qaldırdı və bəzi Çukurova qəsə-

[642]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-348-349.
[643]Yiğit İ, İslam tarixi, Memlükler, İstanbul-1991, səh-15, 17.

bələrini zəbt etdi. 1277-ci ildə Anadoluya daxil olan Bəybars Elbistanda monqol ordularını məğlub edərək Kayseriyə daxil oldu. Lakin Səlcuqlulardan dəstək görməyən Bəybars Şama dönərək 1277-ci ildə (hicri 676) burada vəfat etdi.

Bəybarsın vəfatında sonra yerinə oğlu Bərəkə Xan (1277-1279/hicri 676-678) keçdi. Lakin təcrübəsiz olduğu üçün iki il sonra əmirlər tərəfindən taxtdan salındı. Seyfəddin Kalavun taxta Bəybarsın yeddi yaşlı oğlu Bədrəddin Sulamışı çıxardı. Yüz gün sonra isə onu hakimiyyətdən uzaqlaşdıraraq hakimiyyəti özü ələ keçirdi (1279-1290/hicri 678-689). Əvvəlcə üsyanları yatırdıqdan sonra, xaçlılar, monqollar və ermənilərin Suriya bölgəsində həyata keçirdiyi təxribata görə Xıms üzərinə gedən Kalavun 1281-ci ildə (hicri 680) Mengu Timur əmrindəki ordunu məğlub etdi. Xaçlıları dəfələrlə məğlub edən Kalavun 1290-cı ildə (hicri 689) vəfat etdi.[644]

Onun ölümündən sonra oğlu Xəlil əl-Əşrəf (1290-1293/hicri 689-693) taxta çıxdı. Onun dövründə Sur, Sayda, Hayfa, Antartuş və Ağdəniz sahilləri xaçlılardan təmizləndi. 1293-cü ildə Xəlil əl-Əşrəfin ölümündən sonra qardaşı Nasiruddin Məhəmməd (1293-1295/hicri 693-694) taxta çıxtı. Azyaşlı olduğu üçün Zeynəddin Ketboğa (1294-1296) onu taxtdan salaraq hakimiyyəti ələ keçirdi. Bir müddət sonra isə Laçın əl-Mənsur (1296-1299) onu taxtdan salaraq hakimiyyəti ələ keçirdi. Daxili asayişi bərpa edə bilmədiyi üçün Laçın və onun yol göstərəni Məngu Temur 1299-cu ildə (hicri 698) əmirlər tərəfindən öldürüldülər. Ardından 1299-cu ildə Nasiruddin Məhəmmədi (1299-1309) ikinci dəfə hakimiyyətə gətirildi.

Elxanilərin (1256-1344) Suriyaya edilən hücumlarının qarşısını almaq məqsədilə səfərə çıxan ən-Nasir 1299-cu ildə Qazan xanla etdiyi döyüşdə məğlub oldu.

Köləmən ordusu Nasirin əmrində 1303-cü ildə Kutlu Şahın başçılığı altında olan yüz min nəfərlik monqol ordusunu Mərc-Suffar adlı məntəqədə məğlub etdi. 1309-cu ildə Nasir hakimiyyətdən imtina etdiyi üçün Bəybars əl-Çaşngiri əl-Müzəffər (1309-1310) ləqəbilə hakimiyyətə gətirildi. Lakin on bir ay sonra Nasiruddin Məhəmməd 1310-cu ildə (1310-1341) üçüncü dəfə hakimiyyəti ələ keçirərək Elxani hökmdarı Olcaytunun (1304-1316) Suriya hücumunu bitərəf etdi, üsyanları yatırdı və 1315-ci ildə Malatyanı geri aldı. Otuz illik hakimiyyətdən sonra 1341-ci ildə vəfat edən Nasiruddin Məhəmmədin yerini növbə ilə tutan oğulları Seyfəddin, Əlaəddin, Şəhabəddin, İmaməddin bacarıqlı olmadıqları üçün dövlət xeyli zəiflədi. Səkkiz qardaşın səkkizi də 1341-1361-ci illərdə (hicri 741-762) bir-birinin ardınca hakimiyyətə gəlib getdilər. Daha sonra Nasiruddin Məhəmmədin nəvələrinin (1361-1382) dövrü başladı. Bu dövrdə Burcu Məmlüklərinin hakimiyyəti ələ keçirməsinə qədər davam etdi.[645]

---

[644]Nuru Ünlü, İslam Tarihi, I cild, səh-525.

[645]Yiğit, Məmlüklər, səh-77-97.

Burciyyə Məmlükləri (1382-1517)

Burcu sultanlığının əsası çərkəs əsilli Sultan Kalavun tərəfindən qoyulmuşdur. Məmlük hökmdarı Kalavun (1279-1290) səltənətin öz soyundan gələnlərə qalması üçün çərkəs əsilli kölələr alaraq ordusunu çoxaltmağa başladı. Sayları gündən-günə artan çərkəs əsilli məmlüklər yüz il sonra hakimiyyəti ələ keçirməyi bacardılar.

Nasuriddin Məhəmmədin az yaşlı oğlanlarının və nəvələrinin dovründə (1341-1382) Bəhriyyə Məmlüklərinin zəifləməsindən istifadə edən Çərkəs məmlükləri hakimiyyəti ələ keçirdilər. Burcu əmirlərinə sultan deyilirdi. İlk sultanları Zahir Barkuk (1382-1389; 1390-1399) iki dəfə hakimiyyətə gəlmiş və 1399-cu ildə (hicri 801) vəfat edənə qədər hakimiyyətdə qalmışdır.

Osmanlı dövləti ilə Misir məmlükləri arasındakı ilk təmas da Barkuk zamanında olmuşdur. I Murad (1359-1389) və Yıldırım Bəyazidin (1389-1403) dövründə başlayan münasibətlər sonralar daha da genişlənmişdir. Bununla əlaqədar olaraq Osmanlı sultanı Fatih İstanbulu fəth edəndə Məmlük əmiri Əşrəf İnal bir həftə Misirdə şənlik etmişdir. Lakin daha sonra Dülqədiroğulları və Qaramanoğlu məsələsindən pozulan bu münasibətlər II Bəyazid (1481-1512) dövründə altı il davam edəcək Osmanlı Köləmən müharibələrinə səbəb olmuşdur.

1514–cü ildə Yavuzun Çaldıranda Səfəvi hökmdarı Şah İsmaili məğlub etməsindən sonra Köləmən hökmdarı Seyfəddin Qansu Qavri (1501-1516) Şah İsmaillə ittifaqa girdi. Bundan narahat olan Yavuz Misir səfərinə hazırlaşdı. 1516-cı ildə (hicri 922) Misirə gələn Yavuz Mərci-Dabıq adlı məntəqədə məmlükləri məğlub edərək Qansu Qavrini öldürdü. Bu qələbədən sonra Suriya bütünlüklə Osmanlıların əlinə keçmişdir. Qansunun yerinə keçən Tumanbəy (1516-1517) Reydaniyyədə məğlub olmasına baxmayaraq Misirdə Yavuza qarşı mübarizə aparmışdır. Sonda 1517-ci ildə (hicri 923) yaxalanaraq edam edilmişdir. Onun ölümündən sonra Misirdə Məmlük hakimiyyətinə son qoyulmuşdur.[646] Misirin fəthi ilə buraya tabe olan Hicaz da Osmanlı torpaqlarına qatılmışdır. Misirdə olan son Abbasi xəlifəsi III əl-Mütəvəkkil əl-Allahda İstanbula gətiriləndən sonra xəlifəlik Osmanlı sultanlarına keçmişdir.

[646] Yiğit, Məmlüklər, II cild, səh-181-185.

VI FƏSİL

ƏNDƏLÜS ƏMƏVİ DÖVLƏTİ
(hicri 138-422/miladi 756-1031)

Əndəlüs Əməvi dövlətinin qurulması

Miladi 732-ci ildə baş verən Puatye döyüşündən sonra Əndəlüsdə vəziyyət yaxşı deyildi. Əməvi dövlətinin mərkəzi hakimiyyətinin zəifləməsinə uyğun olaraq Əndəlüsündə parlaq dövrü geridə qalmışdı. Bura Yəmənlilər ilə Müzarilər arasındakı ixtilaf səbəbindən bir müddət valisiz qalmış və daxili qarışıqlığa düçar olmuşdur. Daha sonra 747-ci ildə (hicri 129) sonuncu Əməvi xəlifəsi II Mərvan ibn Məhəmməd (744-750) Müzar qəbiləsindən Yusif ibn Əbdürrəhman əl-Fihrini buraya vali gətirdi.

Miladi 749-cu ildə (hicri 132) hakimiyyəti ələ keçirən Abbasilər xəlifə Əbul-Abbas əs-Səffahın əmri əsasında Şamda və digər şəhərlərdə Bəni-Umeyyəyə qarşı qətliama başladılar. Bu qətliamdan sağ çıxmağı bacaran Əbdürrəhman ibn Müaviyə ibn Hişam ibn Əbdülməlik ibn Mərvan ibn Həkəm Şamdan Fələstinə qaçdı. Orada bir müddət qaldıqdan sonra Misir yolu ilə Afrikaya gəldi. Onunla düz gəlməyən Şimali Afrika valisi Əbdürrəhman ibn Həbibdən qorunmaq üçün Zenata qəbiləsiində gizləndi. Sonra Əndəlüsə gələn Əbdürrəhman ibn Müaviyə orada olan Əməvi tərəfdarlarına məktub yazaraq vəziyyəti onlara bildirdi. Bu vaxt Əndəlüs valisi Yusif ibn Əbdürrəhman əl-Fihri idi. Miladi 755-ci ildə (hicri 138) əməvilərdən bir qrupu Əbdürrəhman ibn Müaviyəni Əndəlüsə gətirdilər.

Yəmənlilərlə bərabər Sumeyl qəbiləsi bir tərəfdən Əndəlüs valisi Yusifdən narazı olduqları üçün, digər tərəfdən də siyasi rəqabət üzündən Əbdürrəhmanı dəstəklədilər. Bir tərəfdən Əbdürrəhman Əməvilərdən olduğu üçün, digər tərəfdən də Əndəlüs sahibsiz olduğu üçün camaat ona beyət edirdi. Kordovaya gələn Əbdürrəhman burada Yusif ibn Əbdürrəhmanı məğlub edərək Əndəlüs Əməvi dövlətinin əsasını qoydu.[647] Əndəlüs Əməvi xilafətini on altı xəlifə idarə etmişdir.

I Əbdürrəhman ibn Müaviyə hicri 138-172/miladi 756-788

Miladi 759-cu ildə (hicri 142) Əndəlüs valisi Yusif ibn Əbdürrəhman əl-Fihri yenidən ordu toplayaraq Əbdürrəhman ibn Müaviyəyə qarşı vuruşsa da məğlub olaraq öldürüldü.[648]

---

[647] Tarixi ibn Əsir, V cild, 489-496; Ziya Paşa, Tarixi-Əndəlus, səh-39-41.
[648] Tarixi ibn Əsir, V cild, səh-498-499.

Abbasi xəlifəsi Mənsur Dəvaniqi və Əbdürrəhman ibn Müaviyə

Əndəlüsə hakim ola bilməyən Abbasi xəlifəsi Mənsur Dəvaniqi (754-775), Əndəlüsü özünə bağlamaq və Əbdürrəhmanı bitərəf etmək üçün Şimali Afrika valisi Əla ibn Muğisi Əndəlüsə səfərə göndərdi. İspaniya sahillərinə gələn Əla ibn Muğis abbasi xəlifəsi Mənsurun adına xütbələr oxumağa başladı. Bundan xəbər tutan Əbdürrəhman ibn Müaviyə Kordova qüvvələrini ona qarşı toplamağa başladı. Bu arada Yusif ibn Əbdürrəhmanın tərəfdarları Əbdürrəhmandan intiqam almaq üçün Əla ibn Muğisi dəstəkləyərək Abbasilərin tərəfini tutdular. Miladi 763-cü ildə (hicri 146) İşbiliyə şəhəri yaxınlığında baş verən döyüşdə Əla ibn Muğisin ordusu məğlub edildi, onların bir qismi Afrikaya keçərkən öldürüldü. Əbdürrəhman bunlardan bəzisinin başını xəlifə Mənsurun hüzuruna xilafətin paytaxtı Bağdada göndərdi. Abbasi xəlifəsi Mənsur Əndəlüs əmiri Əbdürrəhmana qarşı mübarizə aparmaq üçün fransa kralı Pepenlə müqavilə bağladı. Həmin illərdə Fransa kralı Pepen müdafiəsiz Nabron və ətraf məntəqələri işğal etmişdi. Bu arada Şimali İspaniyadakı üsyanları yatırmaqla məşğul olan Əbdürrəhman, Pepenlə müqavilə bağladı.[649]

Mənsur Əndəlusu özünə tabe etmək üçün xeyli mübarizə aparsa da, uğur qazana bilmədi və sonda ümidini itirərək, fikrindən döndü. O, Əbdürrəhman ibn Müaviyənin cəsarəti və igidliyini daim etiraf edərək deyirdi: "Belə cəsur düşmənlə aramızda dəniz maneə yaratdığı üçün Allaha şükürlər olsun. Əbdürrəhman Qureyş soyunun şahinidir; Afrika çöllərində illərlə təkbaşına dolanıb əcələ meydan oxudu, bir ovuc adamla dənizi keçib heç tanımadığı ölkəni fəth etdi".[650]

Əndəlüsdə baş verən digər hadisələr

Yəmənlilər daha öncə İşbiliyə döyüşündə öldürülən Əla ibn Muğisin intiqamını almaq üçün Mutrinin başçılığı ilə İşbiliyəni (Sevilya) yenidən ələ keçirsələr də Əbdürrəhman bu üsyanları yatırıb asayişi bərpa etdi. Afrikadan İspaniyaya gələn Bərbəri və digər qəbilələrin üsyanlarının qarşısını almaq üçün Əndəlüs əmiri Əbdürrəhman gəmilər inşa etdirib sahilləri nəzarət altına aldırdı.[651]

Əmir Əbdürrəhman bu üsyanları yatırmaqla məşğul olarkən, Şimal bölgəsindəki xristianlar müsəlman torpaqlarına hücum edərək yağma və talanlar həyata keçirməyə başladılar. Lakin Əbdürrəhman ibn Müaviyə qureyş qəbiləsinin cihad ruhuna yaraşan şəkildə hərəkət edərək yeni qurduğu dövlətin işlərini tənzimə salmağa başladı. Etibar etdiyi tərəfdarlarını münasib məmuriyyətlərə təyin etdi. Bütün bunlardan sonra Əbdürrəhman ibn Müaviyə dərəbəylik halında olan məmləkətdə bunlarla mücadilə etdi. Ərəb rəislərinin arasında birliyin olmaması Əbdürrəhmanın işini asanlaşdırırdı. Daxili və xarici sabitliyi bərpa

[649]Tarixi ibn Kəsir, V cild, səh-575, 588, 589; Ziya Paşa, Tarixi-Əndəlus, səh-42-42.
[650] Hasan İbrahim Hasan, İslam Tarixi, tər. İ. Yiğit, III cild, səh-42-43.
[651]Tarixi-Əndəlüs, səh-43.

edən Əbdürrəhman ibn Müaviyə özünə "əmir" titulu götürərək xütbə oxudu və Kordovada öz adına pul kəsdirdi.

Fransa kralı Şarlmanla döyüş

Miladi 777-ci ildə (hicri 160) Yusif ibn Əbdürrəhman əl-Fihrinin oğlu ilə şimal-şərqi İspaniyada hökmranlıq edən ərəb əmirləri Avropanın böyük imperatoru Şarlmanı Əbdürrəhman ibn Müaviyəyə qarşı müharibəyə təşviq etmək üçün Fransaya getdilər. Onların təklifini qəbul edən Fransa imperatoru Şarlman miladi 778-ci ildə (hicri 161) şimal-şərqi İspaniyaya hücum edərək Saraqosaya qədər olan əraziləri ələ keçirdi.

Bu arada Fransada hakimiyyətinə qarşı üsyan baş verdiyini öyrənən imperator Şarlman sürətlə geri qayıtmaq məcburiyyətində qaldı. Geri qayıdarkən Preney keçidində Əbdürrəhmanın ordusu tərəfindən hücuma məruz qalan imperator Şarlmanın ordusu çoxlu itki verməklə bərabər, komandirini də itirdi.

Beləcə Əbdürrəhman ibn Müaviyə ölkəsini istila etməyə gələn Avropanın ən güclü imperatorunu məğlub etməklə bərabər digər rəqiblərinin də ürəyinə qorxu salmış oldu.[652]

Əbdürrəhman ibn Müaviyənin həyata keçirdiyi islahatlar və vəfatı

Həyatın bütün çətinliklərini görən Əbdürrəhman ibn Müaviyə, gözəl əxlaqlı, şücaət və ədalət sahibi idi. O, İspaniyada xalqın çoxdan gözlədiyi asayişi bərpa etdi. Onun hakimiyyəti dövründə bir çox sahədə inkişaf nəzərə çarpmağa başladı. Əbdürrəhman ibn Müaviyənin xilafəti dövründə həyata keçirdiyi islahatları belə sıralamaq olar:

1. Xəlifə ünvanı əvəzinə əmir ünvanı götürdü.
2. Kordovanı paytaxt edərək ölkəni altı əyalətə ayırdı.
3. Müsəlman və xristianlar arasındakı irqi və dini ayrıseçkiliyə son qoydu.
4. Kənd təsərrüfatını inkişaf etdirdi.
5. Müsəlman və xristianların vergilərini qaydaya saldı, hər kəsin təhlükəsizliyini təmin etdi.
6. Ölkənin bir çox yerlərində limanlar qurdurdu. Bir çox şəhərlərdə kanallar, çeşmələr və hamamlar tikdirdi.
7. İspaniya müsəlmanlarının əlində olan Sardiniya və Siciliya adalarının idarə sistemini tənzimlədi. Bu adalar vasitəsilə İspaniya ilə Bizans arasındakı dəniz ticarətini gücləndirdi.
8. Məktəb, məscid, xəstəxanalarla yanaşı kitabxanalarda inkişaf etdirildi. Kordovadakı sarayında elm və dövlət adamları, şairlər və sənətkarlardan meydana gələn məclislər qurdu. Əbdürrəhmanın dövründə məktəblər pulsuz fəaliy-

[652]İbn Xəldun, Kitabul-İber, Liviya, 1958, IV cild, səh-252-269; Hitti, İslam Tarixi, III cild, səh-799-800.

yət göstərirdi. Gələcəkdə Avropanın heyran qalacağı məşhur məktəblərin təməlləri onun dövründə atıldı.

Əbdürrəhman ibn Müaviyə ömrünün sonuna qədər elmi yaymaqla yanaşı əhalinin təlim tətbiyəsi ilə də məşğul olmuşdur. Vəfatından bir az öncə altı əyalət valilərini, onların yardımçılarını, divan məmurlarını və vəzirini çağırıb oğlu Hişamı özünə vəliəhd təyin edərək, onun üçün beyət almışdır. Otuz iki il hakimiyyətdə qalan Əbdürrəhman ibn Müaviyə miladi 788-ci ildə (hicri 172-ci il rəbiül-axir ayının 24-də) vəfat etmişdir. Vəfatından əvvəl həyata keçirdiyi islahatların oğlu tərəfindən də həyata keçirilməsini oğlu Hişama vəsiyyət etmişdir.[653]

I Hişam ibn Əbdürrəhman hicri 172-180/miladi 788-796

Miladi 788-ci ildə (hicri 172) Əbdürrəhman ibn Müaviyənin ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu I Hişam Əndəlüs Əməvi xilafətinin əmiri təyin edildi. I Hişam Əbdürrəhmanın Zənata qəbiləsindən evləndiyi bərbəri qızından dünyaya gəlmişdi. Buna görə də I Hişamın özündən böyük ərəb əsilli qardaşları Süleyman və Abdullah onun hakimiyyətini qəbul etmədilər. Bu zaman Süleyman Məridada, Abdullah da Tuleytulada vali idilər.

I Hişam qiyam edən qardaşlarını məğlub etsə də, onları bağışladı. Lakin gələcəkdə özü üçün təhlükəli gördüyü qardaşı Süleymanı İspaniyadan sürgün edərək Tancada qalmağa məcbur etdi.[654]

Franklarla və Xristianlarla müharibələr

Müsəlmanlar arasındakı daxili çəkişmələrdən istifadə edən şimaldakı xristianlar və franklar müsəlman torpaqlarına hücuma keçdilər. I Hişam bu hücumların qarşısını almaq üçün miladi 793-cü ildə (hicri 177) iki ordu hazırladı. Əbdülməlik ibn Əbdülvahid ibn Muğisin başçılığı altında olan ordu Kataloniyaya hücum edərək Fransaya daxil oldu. Ardından da Nabronu və bəzi yerləri ələ keçirdi. Orbiyana çayı sahilində Franklara qarşı baş verən döyüşdə Kont de Tuloz məğlub edildi. İkinci ordu da uğur qazanaraq miladi 795-ci ildə (hicri 179) Qaliçyalıları məğlub edərək onları sülhə məcbur etmişdir.[655]

İspaniyada ərəb dilinin yayılmasını istəyən I Hişam açdıqları məktəblərdə xristianlara da ərəbcə dərslərin keçirilməsinə göstəriş verdi. Qısa müddət ərzində ərəb dili inkişaf etməyə, latın dili isə unudulmağa başlandı. Hətta I Hişamın göstərişinə əsasən Tövrat və İncil də ərəbcəyə tərcümə olundu. Təməli atası I Əbdürrəhmanın dövründə qoyulan Kordova məscidinin inşasını başa çatdırdı. O, Kordova küçələrində tənha gəzər, əhalinin şikayətlərini dinləyər, onlarla görüşüb dərdlərinə çarə qılardı. Xəstələri xəstəxanada, kasıbları isə evlərində zi-

[653] Tarixi-Əndəlüs, səh-42-47.
[654] Tarixi ibn Əsir, VI cild, səh-116-117.
[655]Tarixi ibn Əsir, VI cild, səh-123, 124, 135, 144; Tarixi-Əndəlüs, səh-48-49.

yarət edərdi. Bütün bu yaxşı xüsusiyyətlərinə görə onu Əməvi xəlifəsi Ömər ibn Əbdüləzizə (717-720) bənzədirdilər. Onun dövründə Əndəlüs Əməvi dövlətində hakim məzhəb maliki məzhəbi idi.[656]

I Hişam ibn Əbdürrəhman hicrətin 180-ci ilində (miladi 796) vəfat etmişdir. Vəfat etdiyi zaman oğluna əhali ilə ədalətli davranmağı vəsiyyət etmişdir.

I Həkəm ibn Hişam hicri 180-206/miladi 796-822

Miladi 796-cı ildə (hicri 180) I Hişamın ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu I Həkəm ibn Hişam Əndəlüs əmiri təyin edildi. O, şair və gözəl nitqə sahib olmaqla bərabər zalım hökmdarlara bənzəməyə çalışırdı.

Məlum olduğu kimi I Hişamın dövründə Əndəlüsdə fəqihlər böyük nüfuz qazanmışdı. Hakimiyyəti ələ keçirən I Həkəm atasının əksinə olaraq bu nüfuzu aradan götürmək istədi və nəticədə ölkə daxilində daxili çəkişmələr baş verdi.

Üsyan və daxili çəkişmələr

I Həkəmin əmir seçilməsindən dərhal sonra əmiləri Süleyman və Abdullah ona qarşı üsyan etdilər. Bir çox bərbəri əsgəri ilə Tancadan İspaniyaya daxil olan Süleyman Valensiyanı ələ keçirib, orada əmirliyini elan etdi. Bunu görən I Həkəmin qardaşı Süleyman da İspaniyanın qərb torpaqlarını ələ keçirib, üsyan etməklə bərabər əmisi Abdullaha tabe oldu. Tuleytula şəhərinin valisi Abdullah əmirə qarşı mübarizə aparmaq üçün Franklarla müqavilə bağladı. Bundan istifadə edən Franklar Kataloniya və Navar bölgəsini ələ keçirdilər.

Əvvəlcə Frankları məğlub edən I Həkəm sonra Valensiya və Tuleytulanın cənubunda birləşən əmilərinin üzərinə hərəkət etdi. Miladi 800-cü ildə (hicri 184) baş verən Mursiya döyüşündə I Həkəm üsyançıları məğlub etdi və əmisi Süleyman öldürüldü. Digər əmisi Abdullah Valensiyaya qaçaraq I Həkəmdən sülh istədi. Əmir I Həkəm sülhü qəbul edib əmisini bağışlasa da ehtiyat edərək onun iki oğlunu zamin olaraq yanında saxladı.[657]

Əndəlüsdəki fəqihlər I Hişamın dövründə böyük nüfuz və şöhrət qazanmışdılar. I Həkəm nəşəli, kef məclislərini sevdiyi üçün alimlərin və fəqihlərin məclislərindən xoşlanmazdı. Nəticədə başda Yəhya ibn Yəhya olmaqla digər fəqihlər də I Həkəmin əleyhinə təbliğat aparmağa başladılar. Yerli əhali I Həkəmə qarşı üsyan etdikdə fəqihlər də onları dəstəklədilər.

Miladi 797-ci il (hicri181) Əbul-Həccac künyəsi ilə tanınan Bəhlul ibn Məzruq Əndəlüsün ucqar bölgələrində üsyan edərək Saraqosiyanı ələ keçirdi. Bunu öyrənən I Həkəm əmisi Abdullahı onun üzərinə göndərdi.

Ubeydə ibn Hümeyd isə Tuleytula da əmisinə qarşı üsyan etsə də, I Həkəm bu üsyanı Amrus ibn Yusifin vasitəsilə yatırdı. Miladi 807-ci ildə (hicri 191) Tu-

---

[656]Tarixi ibn Əsir, VI cild, səh-148.

[657] Tarixi ibn Əsir, VI cild, səh-149; Tarixi-Əndəlüs, səh-50.

leytula xalqının tez-tez üsyan etdiyini görən I Həkəm onlara qarşı Amrus ibn Yusifi göndərdi. O, hiylə ilə Tuleytula əhlini bitərəf edərək asayişi bərpa etdi.[658]

Marida da baş verən üsyanı yatırmaq üçün gedən I Həkəm bu dəfə Kordovalıların üsyan etdiyini öyrənib sürətlə geri qayıtdı. Bu üsyanı yatıran I Həkəm üsyançıların əksəriyyətini öldürdü. Sağ qalanları isə İspaniyadan sürgün etdirdi. Bunların bir qismi Fasa gedərək İdrisilərə (789-926) sığındı, qalanları isə Misirə gedərək İsgəndəriyyəni ələ keçirdilər. 826-cı ildə Misirdəki üsyanları yatıran Məmun İsgəndəriyyəni yenidən ələ keçirdi. Bunu görən Əməvilər şəhəri tərk edərək Krit adasını ələ keçirdilər.[659]

İyirmi ilə yaxın davam edən bu üsyanlar nəticəsində qonşu xristian dövlətləri Əndəlüs torpaqlarına hücum etməyə başladılar.

Xristianlara qarşı aparılan döyüşlər

Əndəlüs Əməvi xilafətinin daxilindəki qarışıqlıqdan istifadə edən xristian dövlətləri Əndəlüs torpaqlarına hücum etdilər. Fransa kralının oğlanları Lui və Şarl Əndəlüsün şimal vilayətlərinə hücuma başladılar. Qaliçyalı Alfons da Araqonu istila etmək üçün hərəkət etdi. Bu hücumların qarşısını almaq üçün I Həkəm Əbdülkərim ibn Muğisi Frank məmləkətlərinə göndərdi. Bu səfərdə uğur qazanan Əbdülkərim ucqar bölgələrdə olan bəzi şəhərləri geri qaytardı.

I Həkəm də ordusunun bir qismini Tuleytulada buraxıb yerdə qalanı ilə Qaliçyaya doğru hərəkət etdi. Baş verən döyüşdə Qaliçyalılar məğlub edildi, Franklarda Preney keçidinə qədər geri çəkildi.

Lakin buna baxmayaraq daxildəki üsyanlar Franklarla digər xristianların Əndəlüsə hücumlarını asanlaşdırırdı.

Əndəlüsdə maaşlı əsgərlik təşkilatını quran, silah hazırlayan, ətrafına çoxlu hizmətçi, yaxın və tərəftar toplayan, özü üçün çoxlu kölə saxlayan ilk kişi I Həkəm olmuşdur. Sarayın qapısında bütün gün hazır olan bu kölələrə ərəbcə bilmədikləri üçün dilsizlər deyilirdi. Əndəlüs əmirləri içində dəbdəbə və lüks içində yaşayan ilk şəxs də I Həkəm olmuşdur.

Əmir I Həkəm hicrətin 206-cı ili zilhiccə ayının 26-da (miladi 822-ci il mayın 22-də) əlli iki yaşında vəfat etmişdir.[660]

II Əbdürrəhman ibn Həkəm hicri 206-238/miladi 822-852

Miladi 822-ci ildə (hicri 206) I Həkəmin vəfatından sonra onun vəsiyyətinə əsasən oğlu II Əbdürrəhman Əndəlüs Əməvi əmiri təyin edildi. I Həkəmin vəfatından sonra əmisi Abdullah ibn Əbdürrəhman yenidən hakimiyyət uğrunda mübarizəyə qalxsa da, sonda bacarıqsız olduğunu anlayıb bu fikrindən daşındı. II Əbdürrəhman dövründə İspaniyada İslam mədəniyyəti sürətlə inkişaf etdi.

---

[658]Tarixi ibn Əsir, VI cild, səh-178.
[659]Tarixi ibn Əsir, VI cild, səh-273-276; Tarixi-Əndəlüs, səh-52.
[660]Tarixi ibn Əsir, VI cild, səh-377-378; İbn Xəldun, əl-İbər, IV cild, səh-217.

Kordova ilə digər şəhərlər arasında poçt təşkilatı quruldu. Dəniz limanları və silah emalatxanaları inşa edildi. Bağdadla əlaqələr gücləndirildi. Oradan Əndəlüs Əməvi dövlətinin paytaxtı Kordovaya pulla sənətkarlar gətirildi. Əmirin dəvəti ilə məşhur musiqişünas Ziryab Bağdaddan Kordovaya gələrək saray və şəhər xalqının rəğbətini qazandı. Bu tarixdən etibarən İspaniya Ərəblərinin milli səciyyələri arasında olan musiqi daha da inkişaf etmişdir.

Xristianların hücumu

Fransa və şimaldakı xristianlar II Əbdürrəhmanın əmisi və digərlərinin üsyanlarından istifadə edərək müsəlman torpaqlarına hücum etməyə başladılar. Lion rəisi II Alfons Araqon və ətraf məntəqələrə hücum etməyə başladı. Onunla eyni zamanda digər xristianlarda ərəb torpaqlarına hücum etdilər. Bunları öyrənən II Əbdürrəhman onların üzərinə ordu göndərərək məğlub etməklə bərabər Lionu da talan etdirdi. Bu müharibələr iki il davam etdi. Sonda xristianlar Əndəlüs əmirinə sülh təklif etdilər. Nəticədə cizyə vermək və əsirləri mübadilə etmək şərtilə iki tərəf arasında sülh bağlandı. Eyni zamanda 823-cü ildə (hicri 208) Kataloniya və Navarlılar kimi Franklar da məğlub olaraq geri çəkildilər.[661]

Miladi 845-ci ildə (hicri 230) bəzi şəxslərin təhriki ilə yenidən hücuma keçən Norman dəstələri İşbiliyə şəhərini ələ keçirdilər. Lakin Əndəlüs əmiri II Əbdürrəhman onlarla sülh bağladığı üçün xristianlar geri çəkildilər.[662]

Əndəlüs xristianlarının II Əbdürrəhmana qarşı çıxışı

I Əbdürrəhmanın dövründən bu günə qədər Əndəlüs Əməvilərindən razı qalan İspaniya xristianlarının bir qisim fanatikləri II Əbdürrəhmanın hakimiyyətinin sonlarına yaxın ona qarşı mübarizəyə başladılar. Çünki bunlar İspaniyalıların ərəb dilini öyrənməsinə, yüksək məmuriyyətlərə gəlməsinə və latıncanı unutmalarına çox qızır və bunları dinsizliklə günahlandırırdılar. Keşişlər də bunları bu işə təşviq edirdilər. Bundan cəsarətlənən xristianların bir qismi Hz.Peyğəmbəri və İslamı təhqir etməklə bərabər hətta məscidlərdə də müsəlmanların namaz qılmasına mane olmağa başladılar. Nəticədə xristianların bir qismi II Əbdürrəhman tərəfindən həbs edildi, bəziləri də cəzalandırıldı.[663] Xristianlarla eyni vaxtda iki ərəb qəbiləsi Yəmənlilər və Müzarilər arasındakı qəbilə qarşıdurmaları da Əndəlüs Əməvi xilafətini xeyli zəiflətdi. Bu qarşıdurmalar 828-ci ilə (hicri 213) qədər davam etmişdir. Müstəqillik əldə etmək üçün Tuleytulada baş verən üsyanlar qan bahasına yatırıldı.[664]

---

[661]Tarixi ibn Əsir, VI cild, səh-386-394; Tarixi-Əndəlüs, səh-58.
[662]Tarixi ibn Əsir tərcümə, VII cild, səh-21, 23.
[663] Seyyid Əmir Əli, Musavvər İslam Tarixi, tər, M. Rauf, səh-297, 298.
[664]Tarixi ibn Əsir, VI cild, səh-444, 451, 475.

Dördüncü Əndəlüs əmiri II Əbdürrəhman ibn Həkəm hicrətin 238-ci ilində (miladi 852) vəfat etmişdir.

Əmir I Məhəmməd hicri 238-273/miladi 852-886

II Əbdürrəhmanın vəsiyyətinə əsasən onun ölümündən sonra miladi 852-ci ildə (hicri 238) oğlu Məhəmməd Əndəlüs əmiri təyin edildi. Onun dövründə ölkədə daxili qalmaqallar yenidən canlanmışdır.

Daxili və xarici çəkişmələr

II Əbdürrəhmanın ölümü ilə Mazarablar qəbiləsi yenidən yerli xristianlarla əlbir olub üsyan etdilər. Bundan xəbər tutan yeni hökmdar Məhəmməd onların üzərinə böyük bir ordu göndərdi. Bu zaman Tuleytula xristianları Lion kralı I Ordonaya müraciət edərək ondan yardım istədilər. Kral Ordono, Komte du Bierzonun başçılığı ilə böyük bir ordunu Tuleytula xristianlarının köməyinə göndərdi. Əndəlüs müsəlmanları Tuleytula və Lion ordusunu Vadi Salit adlı yerdə qarşıladılar. Miladi 868-ci ildə (hicri 254) baş verən döyüşdə xristian ordusu məğlub edildi.[665]

Frankların hücumu

Daxili çəkişmələrdən istifadə edən Fransızlar və Normanlar Əndəlüs torpaqlarına tez-tez hücum edirdilər. Bu hücumların qarşısını almaq üçün əmir I Məhəmməd 860-cı ildə (hicri 246) bir tərəfdən Fransızlar, digər tərəfdən də altmış gəmi ilə Malaqa ətrafına gəlmiş Normanların üzərinə hücuma keçdi. Baş verən döyüşdə hər iki düşmən ordusu məğlub edilərək Əndəlüs sahillərindən uzaqlaşdırıldı.

Qaliçya, Lion və Navarda yaşayan xristianlar məğlub edilmiş, Baskların məmləkəti Nabara işğal edilmiş, paytaxt Pamplona ətraf məntəqələrlə birlikdə yenidən müsəlmanların əlinə keçmişdir. Qısa müddət sonra yenidən Şimali İspaniyaya hücum edən xristianlar müsəlmanlara xeyli ziyan vurmaqla bərabər bir neçə şəhəri o cümlədən, Lusitaniyanı yandırdılar. Xristianları cəzalandırmaq üçün əmir I Məhəmməd Kordova süvariləri və Marida ordusu ilə miladi 865-ci ildə (hicri 251) onların üzərinə hərəkət etdi. Xristianlara qarşı baş verən döyüşdə Lion hökmdarının təslim olmasından sonra digərləri də sülh bağladılar.

Eyni zamanda Araqonda Bəni-Kasi qəbiləsi xristianların yardımı ilə əmir I Məhəmmədə qarşı üsyan etdi. 868-ci ildə Maridalılar da Əbdürrəhman ibn Mərvan ibn Yunisin başçılığı ilə üsyan etdilər. Lion rəisi II Alfonsdan yardım

[665]Tarixi ibn Əsir, tər, VII cild, səh-67, 68; Tarixi-Əndəlüs, səh-60, 61.

alan üsyançılar I Məhəmmədin ordusunu məğlub etdilər. Əmir I Məhəmməd məcburən bu əraziləri Əbdürrəhman ibn Mərvana bağışladı.[666]

Ömər ibn Həfsin üsyanı

I Məhəmmədin dövründə baş vermiş ən böyük üsyanlardan biri cənub-şərqi Əndəlüsdəki Ömər ibn Həfsin üsyanı idi. Ronda ilə Malaqa arasındakı dağlıq ərazi bütünlüklə Ömər ibn Həfsin nəzarəti altında idi.

Saraqosa, Kartagena və Laridanı nəzarət altına alan I Məhəmmədin oğlu Munzir Araqonda hökmranlıq edən İsmail ibn Musanı da təslim olmağa məcbur etdi. Qısa müddət sonra Saraqosa yenidən Baskların əlinə keçdiyi üçün Ömər ibn Həfs dağlara qaçdı. Miladi 886-cı ildə (hicri 273) Münzir yenidən buraya səfər edərək baskları məğlub etdi.

Əmir I Məhəmməd miladi 886-cı il avqustun 6-da (hicri 273 səfər ayının 29-da) vəfat etdi. Əndəlüs idarəsini tənzimləyən, ilk dəfə ciddi qanunlar qoyan I Məhəmməd olmuşdur.

Münzir ibn Məhəmməd hicri 273-275/miladi 886-888

Miladi 886-cı ildə I Məhəmmədin ölümündən sonra oğlu Münzir Əndəlüs əmiri təyin edildi. Bu vaxt məmləkət üsyan və qalmaqallar içində idi.

Əndəlüsün böyük bir hissəsi demək olar ki, dövlətə bağlı deyildi. Frenklər də Qotda müstəqillik əldə etdilər. Lionun böyük bir hissəsi Araqon və Kataloniya xristianların əlində idi. Şimaldakı komandanlar düşmənlə əlbir olmuş, cənubda da Ömər ibn Həfsənin üsyanı davam edirdi.

Əmir seçilən Münzir dərhal üsyançılara qarşı mabarizəyə başladı. Əvvəlcə Arşudunanı ələ keçirən Münzir ardından Ömər ibn Həfsənin sığındığı Bobastronanı mühasirəyə aldı. Lakin qısa müddət sonra miladi 888-ci ildə (hicri 275) Münzir ibn Məhəmməd zəhərləndirilərək öldürüldü.[667]

Abdullah ibn Məhəmməd hicri 275-300/miladi 888-912

Miladi 888-ci ildə Münzir ibn Məhəmmədin vəfatından sonra qardaşı Abdullah ibn Məhəmməd Əndəlüs əmiri təyin edildi.

Abdullah ibn Məhəmməd hakimiyyətə gəldiyi vaxt Əndəlüs əmirliyi başdan-başa qarışıqlıq içində idi. Hər tərəf üsyançılarla dolu idi. Bir tərəfdə İşbiliyə və əl-Virada ərəblərlə İspaniyalı müsəlmanlar arasında qarşıdurma, digər tərəfdən də Yəmənlilərlə Müzarilər arasındakı qəbilə düşmənçiliyi davam edirdi. Bundan əlavə Mədinəlilərlə Şamlılar arasında da düşmənçilik var idi. Abdullah ibn Məhəmməd bunlarla mübarizə aparmaq məcburiyyətində idi. Çətinliklə də olsa miladi 899-cu ildə (hicri 286) Abdullah ibn Məhəmməd bu üsyanları yatır-

[666]İmaduddin, Əndəlüsün siyasi tarixi, tər. Yusif Yazar, Ankara-1990, səh-135, 140.
[667]İbn Xəldun, əl-İbər, IV cild, səh-287, 288; Nuri Ünlü, İslam Tarihi, İstanbul-1997, I cild, səh-315.

dı. Lakin buna baxmayaraq baş verən bu üsyanlar Əndəlüs Əməvi dövlətini xeyli zəiflətdi.

Bundan istifadə edən Ömər ibn Həfs Kordovanı ələ keçirmək üçün hərəkət etdi. Ömərlə döyüşmək məcburiyyətində qalan Abdullah ibn Məhəmməd miladi 891-ci ildə (hicri 278) onunla Polay adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə məğlub olan Ömər döyüş meydanından qaçdı. Bu qələbə nəticəsində Polay, Arxidonia, Elvira və digər məntəqələr yenidən əmir Abdullahın nəzarəti altına keçdi. Miladi 901-ci ildə yenidən bəzi yerləri ələ keçirən Ömər ibn Həfs Abdullah ibn Məhəmmədlə sülh bağladı.

İyirmi dörd il hakimiyyətdə olan Abdullah ibn Məhəmməd 68 yaşında miladi 912-ci ildə (hicri 300) vəfat etmişdir.[668]

III Əbdürrəhman ibn Məhəmməd hicri 300-350/miladi 912-961

Əmir Abdullahın nəvəsi olan III Əbdürrəhman 890-cı ildə (hicri 277) anadan olmuşdur. III Əbdürrəhman hakimiyyətə gəldiyi zaman məmləkətin hər yerində daxili qarışıqlıq və özbaşınalıq hökm sürürdü. Onun şəxsiyyətinin böyüklüyü Əndəlüs Əməvi dövlətini parçalanmaqdan qorumasındadır. Çətin bir vaxtda hakimiyyətə gələn III Əbdürrəhman çətinliklə də olsa ölkəni parçalanmaqdan qorumuşdur. O, həqiqi bir dövlət məmuru olduğunu daxildə və xaricdə apardığı siyasətlə sübuta yetirdi.

Daxili asayişin bərpa olunması

Hakimiyyəti ələ keçirən III Əbdürrəhmanın ilk işi daxili qalmaqallara son qoyub, asayişi bərpa etməsi oldu. Mərkəzi hökumətdən ayrılan şəhərləri bir-bir özünə tabe etdi. İştica, Elvira, Ceyan və Arxidonia şəhərləri 912-ci ildə onun hakimiyyətini tanıyaraq dövlətə vergi verməyə başladılar. İşbiliya şəhərində qiyam edən Əbdürrəhman ibn Həccac və oğlu Məhəmməd də 913-cü ildə III Əbdürrəhmana təslim olaraq onun hakimiyyətini tanıdı.

Əmir I Məhəmmədin dövründə miladi 880-cı ildən (hicri 268) Cənubi Əndəlüsdə qiyam edən Ömər ibn Həfs Regio bölgəsini tamamilə ələ keçirmişdi. Ömərə qarşa əməliyyata başlayan III Əbdürrəhman Regio bölgəsini qarış-qarış ələ keçirməyə başladı. Miladi 917-ci ildə (hicri 305) Ömər ibn Həfsin ölümündən sonra Regio bölgəsi tamamilə III Əbdürrəhmana tabe edildi və bölgədəki otuz yeddi illik qiyama son qoyuldu.

İki illik mübarizədən sonra hicrətin 320-ci ilində (miladi 932) Tuleytulanın da təslim olması ilə ölkənin təhlükəsizliyi tam təmin edilmiş oldu.

[668]Hitti, İslam Tarixi, III cild, səh-816, 819; Ziya Paşa, Tarixi-Əndəlüs, səh-67, 70.

Xarici düşmənlərlə mübarizə

Daxili asayişi bərpa edən III Əbdürrəhman xarici düşmənlərə qarşı mübarizəyə başladı. Şimal bölgəsində Əməvi dövlətinin qurulmasından bəri davamlı mübarizə edən, üsyanları dəstəkləyən, müsəlmanların məskunlaşdığı ərazilərə hücum edərək bir çox ziyanlar vuran Lion krallarının, Basklıların, Araqonluların və Kastiliyalıların cəzalandırılmasının vaxtı gəlmişdi. Çünki bunlar zalım və mədəniyyət düşməni olmaqla İslamın amansız bəlası idilər. Ələ keçirdikləri yerlərdə müsəlmanları amansızcasına qılıncdan keçirirdilər. 914-cü ildə (hicri 301) Lionlular hökmdar II Ordononun başçılığı ilə Maridanı aldıqdan sonra Alaneji ələ keçirdilər. Burada kişiləri edam edərək, qadın və uşaqları əsir götürdülər. Navar kralı Şanşo Todola və Elbinara ətrafını talan etdi. Bundan xəbər tutan III Əbdürrəhman 918-ci ildə (hicri 306) Xəcib Bədrini xristianlara qarşı göndərdi. 920-ci ildə (hicri 308) isə III Əbdürrəhman özü şəxsən xristianlara qarşı səfərə çıxdı. Navarı ələ keçirən III Əbdürrəhman bürclərini yandırdı. 921-ci ildə (hicri 309) Şanşo ilə II Ordono yenidən birləşərək III Əbdürrəhmana qarşı mübarizəyə başladılar. Lakin 929-cu ildə (hicri 317) onları məğlub edən III Əbdürrəhman Şanşonun mərkəzi Pampelonu və digər yerləri öz itaətinə keçirdi. 934-cü ildə (hicri 322) bu bölgənin valisi Məhəmməd ibn Hişam xristianların dəstəyi ilə yenidən üsyan etsədə III Əbdürrəhman bu üsyanı da yatırdı.

Miladi 939-cu ildə (hicri 327) Lion kralı II Ramiro ilə Navar kraliçasının hazırladığı ordu ilə qarşılaşan III Əbdürrəhman iyirmi yeddi ildə ilk dəfə məğlub oldu. Lakin tezliklə Tota adlı Navar kraliçası nəvəsini Kordovaya gətirərək ondan müalicəsi üçün kömək istədi. III Əbdürrəhmanın sarayında müalicə olunaraq sağalan Şişman Şanşo, onun köməyi ilə itirdiyi taxtı 960-cı ildə yenidən geri qaytardı.

III Əbdürrəhman və Fatimilər

Miladi 909-cu ildə (hicri 297) Ubeydullah Mehdi Şimali Afrikadakı Əğləbilər (800-909) dövlətinə son qoyaraq, şiə təmayüllü Fatimilər (909-1171/hicri 297-567) dövlətinin əsasını qoydu. Misir və Hicazı ələ keçirən Fatimilər Əndəlüs Əməvilərinə qarşı mübarizəyə başladılar.

Şimaldakı xristianlara qarşı mübarizə aparan III Əbdürrəhman digər tərəfdən də Fatimilərə qarşı sərhəd məntəqələri möhkəmlətməyə başladı. Eyni zamanda Abbasi xəlifələrinin nüfuzunun azaldığını görən III Əbdürrəhman Fatimilərin təbliğatını zəiflətmək üçün özünü xəlifə elan edərək miladi 929-cu ildə (hicri 316) "Əmirəl-möminin" və ya "ən-Nasirlidin Allah" ləqəbini götürdü.

Əndəlüs sərhədlərində asayişi bərpa etmək üçün hərəkətə başlayan III Əbdürrəhman 931-ci ildə (hicri 319) Səbtəni ələ keçirib buraya öz nümayəndələrindən birini vali təyin etdi. Ardından Şimali Afrikanın bir çox yerlərini o cümlədən Cəzair və Oranı Fatimilərdən geri alaraq özünə tabe etdi.

Dəniz döyüşlərində də Fatimilərə qalib gələn III Əbdürrəhman Aralıq dənizinin qərbini ələ keçirdi.

Səqalibə ordusu

Ərəblər arasında baş verən qalmaqallarla bərabər Bərbərilərin vəziyyətindən də narahat olan III Əbdürrəhman özünü qorumaq üçün "Səqalibə" və ya "Slav" adlı ordu təşkil etdi. Bu ordunu Venediq və Cenəvizli tacirlər tərəfindən digər məmləkətlərdən əsir olaraq alınan əsgərlər təşkil edirdi. Bu əsgərlər Frank, İtalyan, Skandinaviya, Rus və s. millətlərdən olsalar da İslamı qəbul etmişdilər. Bundan narahat olan ərəblər şimal xristianlarına qarşı baş verən Xəndək müharibəsində məğlub olmuşlar.[669]

III Əbdürrəhmanın dövründə mədəniyyət və elmin inkişafı

III Əbdürrəhman hakimiyyəti dövründə həyata keçirdiyi islahatlara görə Əndəlüs Əməvi dövlətinin ikinci qurucusu adlanır. İspaniya onun dövründə qızıl dövrünü yaşamışdır. O, əhali ilə mehriban davranmış, alimlərə böyük dəyər vermişdir. Ölkədə sənaye, ticarət və kənd təsərrüfatı qeyri-adi dərəcədə inkişaf etmişdir.

Kordova

Əndəlüs Əməvi dövlətinin paytaxtı olan Kordova yarım milyon əhalisi, yeddi yüz məscidi ilə qərbin ikinci şəhəri sayılırdı. Dəbdəbə baxımından Kordova Bağdad və İstanbuldan sonra Avropanın ən iri mədəniyyət mərkəzinə çevrilmişdi. Bu şəhər 113000 evi, 21 xarici məhəlləsi, 70 kitabxanası, məscid və sarayları ilə ziyarətçiləri heyran edirdi.

III Əbdürrəhmandan yeddi yüz il sonra da London küçələri zülmət qaranlıq içində olanda, Kordova küçələrini lampalar işıqlandırırdı. Bu dövrdə Kordovada üç yüz dövlət hamamı fəaliyyət göstərir, burada əhali və Kordovanın elm adamları yuyunma imkanına malik idilər.

Kordovanın şöhrəti o qədər yayılmışdı ki, Lion, Navar, Barselpna və digər Avropa kralları cərrah, təbib, memar və dərzi ehtiyaclarını bu şəhər vasitəsilə qarşılayırdılar.[670]

Mədinətuz-Zəhra

Mədinətuz-Zəhra xəlifə III Əbdürrəhmanın inşa etdirdiyi Avropanın ən böyük saraylarından sayılır. III Əbdürrəhman Kordovadan bir az aralıda miladi 937-ci ildə əz-Zəhra adlı cariyəsinin adını daşıyan əz-Zəhra adlı sarayı inşa etdirməyə başladı. Özündən sonra gələn iki xəlifə dövründə inşası tamamlanan bu saray möhtəşəm memarlıq abidələrindən oldu. Bu möhtəşəm saray 4300 mərmər sütun

---

[669]Ziya Paşa, Tarixi-Əndəlüs, səh-70-91; Hitti, İslam Tarixi, III cild, səh-821-826.

[670]Tarixi ibn Əsir, VIII cild, səh-535, 536; Hitti, İslam Tarixi, III cild, səh-831.

üzərində qurulmuşdu. Mərmərlər Numidia və Kartaca şəhərlərindən, sütunlar və qızıl heykəllər isə Bizansdan gətirilmişdir. Hovuzların ortasında qızıldan düzəlmiş heyvan heykəlləri və bunların ağzından sular fərvarə vuraraq axırdı.[671]

Sənaye, kənd təsərrüfatı və ticarət

Bu dövrdə İspaniya ticarət baxımından Avropanın ən zəngin ölkələrindən biri idi. Kordovada on üç minə qədər toxuma işçisi və inkişaf etmiş dəriçilik sənayesi var idi. Dəri aşılama sənəti Fasda və Kordovada inkişaf etmişdi. Maroken və Kordovan adını alan bu dərilər İngiltərə və Fransaya da keçmişdir. Yun və İpək parçaların toxunması təkcə Kordovada deyil Malaqa, əl-Məriyyə və digər şəhərlərdə də həyata keçirilirdi.

Qərbi Asiyadan bəzi aqrar üsullar öyrənən Əməvilər, su kanalları vasitəsilə kənd təsərrüfatını inkişaf etdirərək müxtəlif cür meyvələr yetişdirə bilirdi.

Ölkədə istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarının bir qismi limanlar vasitəsilə xaricə ixrac edilirdi. Bu mallar İsgəndəriyyə, İstanbul, Şam, Məkkə və Bağdada qədər göndərilirdi.

Təhsil

III Əbdürrəhmanın dövründə Kordova eyni zamanda bir elm mərkəzi idi. Kordova mədrəsəsi ən məşhur elm müəssisələrindən biri idi. Burada Avropadan və digər yerlərdən gələn xristian və müsəlman tələbələr dərs alırdı. III Əbdürrəhmanın oğlu II Həkəm də elm adamlarını himayəsi altına alaraq Kordovada pulla fəaliyyət göstərən iyirmi yeddi məktəb inşa etdirmişdi.[672]

III Əbdürrəhmanın vəfatından sonra sənədləri arasından belə bir yazı tapılmışdır: "Əlli il hökmdar oldum. Sərvət, şan-şöhrət və istədiyim hər şeyə qovuşdum. Hamısından bezdim. Digər hökmdarlar mənə hörmət edərək məndən çəkinirlər. Allah insanların istədikləri şeyləri həmişə mənə verdi. Bu uzun xoşbəxtlik günlərində həqiqi xoşbəxt olduğum günləri saydım. Cəmi on dörd gün elədi. Ey fani insanlar! Baxın böyüklüyü, dünya və həyatı bununla müqayisə edin"

III Əbdürrəhman miladi 961-ci ildə (hicri 350) vəfat etmişdir.

II Həkəm ibn III Əbdürrəhman hicri 350-366/miladi 961-976

Miladi 961-ci il III Əbdürrəhmanın ölümündən sonra onun vəsiyyətinə əsasən II Həkəm Əndəlüs Əməvi xəlifəsi təyin edildi. O özünə "əl-Müntəsir-billah" yəni Allahdan kömək istəyən ləqəbini götürdü.

III Əbdürrəhmanın vəfatından xəbər tutan Lion və Navar xanlıqları onunla bağladıqları andlaşmanı pozaraq İslam torpaqlarına hücum etməyə başladılar. Şanşo, Qarsiya və Kastil qrafı Ferdinand Qonzales II Həkəmin zəif olduğunu

[671]Ziya Paşa, Tarixi-Əndəlüs, səh-76, 77.
[672]Hitti, İslam Tarixi, tər. S. Tuğ, III cild, səh-834, 839.

düşünərək hərəkətə keçdilər. Bundan xəbər tutan II Həkəm Qonzales üzərinə hərəkət edərək onu qaçmağa məcbur etdi. Bu arada II Həkəmi ziyarətə gələn Ordona "Müsəlmanlara qarşı daima sülh içində olacağı" şərtilə onunla sülh bağladı. Bu andlaşmadan sonra II Həkəm onu böyük bir ordu ilə Lion və Qaliçya məmləkətinin başçısı Şanşonun üzərinə göndərdi. Bundan xəbər tutan Şanşo xəlifədən üzr istəyərək beyətini təzələdi. Bir müddət sonra Ordono öldü. Bundan cəsarətlənən Şanşo Navar xanlığı, Kastilya və Kataloniyanın köməyinə arxayın olaraq yenidən sülhü pozdu. Bunu öyrənən II Həkəm Qalibin başçılığı ilə Kastilya üzərinə ordu göndərərək San Estevan qalasını ələ keçirdi. Qalib Saraqosiya valisi Yəhya ilə birləşərək Baskların məmləkətini işğal etdi, Navar lideri Qarsiyanı məğlub edərək bəzi şəhərləri ələ keçirdi. Miladi 966-cı ildə (hicri 355) Kastil, Lion və Navar kralları təslim oldu. Səbtəni ələ keçirən Fatimilərin hücumunun qarşısını almaq üçün 972-ci ildə Afrikaya səfər edən II Həkəm Tancanı ələ keçirmişdir. 974-cü ildə isə Şimali Afrikanın qərb bölgələrini Əndəlüsə tabe etmişdir.

II Həkəm və elm

II Həkəm Əndəlüs Əməvi hökmdarlarının alimi hesab edilir. Hakimiyyəti dövründə elmə və alimlərə kifayət qədər vaxt ayıra bilmədiyi üçün kitabxana işini qardaşı Əbdüləzizə, alimlərin və filosofların himayəsini isə digər qardaşı Münzirə tapşırmışdı.

O dövr alimlərindən tarixçi İbn Quteybə, Əbu Aliyyul-Qali və Münzir ibn Saidi qeyd edə bilərik.[673]

Məhəmməd ibn əl-Uzri kimi saray başhəkimi, Əbu Bəkr əz-Zübeydə və Əbu İbrahim kimi alimlərdə Kordova mədrəsəsinin müəllimləri idilər.

II Həkəmin dövründə təhsil və tədris qurumlarıda xeyli inkişaf etmişdi. Bu mədrəsələrə yalnız İspaniyadan deyil, Avropanın digər bölgələrindən, Afrikadan müsəlman, yəhudi və xristian tələbələr də gəlib təhsil alırdılar. Kordovada iyirmi yeddi məktəb pulsuz fəaliyyət göstərirdi. Belə məktəblərdə kasıblar da təhsil alma imkanı əldə edirdilər. Sevilya, Malaqa və s. şəhərlərdə belə məktəblər mövcud idi. Bu dövrdə qızıl dövrünü yaşayan Kordovada Kordova Universitetinə bağlı olan bir çox kitabxanalar fəaliyyət göstərirdi.

Kordova məscidi

Bu məscidin təməli I Əbdürrəhman tərəfindən atılmış, inşası isə oğlu I Hişam tərəfindən tamamlanmışdır. III Əbdürrəhman və II Həkəmin dövründə bu məscid daha da gözəlləşmişdir.

II Həkəmin tikdirdiyi minbər üçün otuz altı min fildişi, qaraçöhrə ağacı və digər ətirli ağaclardan istifadə edilmişdi. Bunlar eyni zamanda qiymətli daşlarla bəzədilmişdi. Minbərin inşası yeddi il davam etmişdir.

---

[673] Ziya Paşa, Tarixi-Əndəlüs, səh-92, 93.

İspaniyalılar tərəfindən məscid kilsə halına gətirilincə əlavələrlə məscidin əsas tənasübü pozulmuşdu.[674]

II Həkəm hicrətin 366-cı ilndə (miladi 976) altmış bir yaşında vəfat etmişdir.

II Hişam hicri 366-399/miladi 976-1009

II Həkəmin ölümündən sonra yerinə oğlu II Hişam keçdi. On iki yaşlı xəlifə özünə "əl-Müəyyəd" ləqəbini götürdü. Xəlifənin yaşı az olduğu üçün dövləti anası Sübh və vəzir Məhəmməd ibn Abdullah ibn Məhəmməd ibn Əbu Amir idarə edirdi.

II Hişamın kiçik olduğunu nəzərə alan Əbu Amir Məhəmməd 978-ci ildə "Mədinətuz-Zahirə" adlı şəhər inşa etdirərək xəlifəni orada həbs etdi. Səqalibəni ordudan ayıran Əbu Amir Məhəmməd onları Şimali Afrikadan gətirilən bərbərilər, Kastil, Navar və Liondan olan xristian əsgərlərlə əvəz etdi. Muzdla döyüşən bu əsgərlər tamamilə Əbu Amirə bağlı idilər.

Təşkil etdiyi ordu ilə Əbu Amir Məhəmməd şimalda yaşayan xristianların üzərinə səfərlər etməyə başladı. 981-ci ildə Lion kralığına edilən səfərdə Əbu Amir Zamoranı ələ keçirməklə bərabər dörd min əsir götürdü. Buna cavab olaraq Lion kralı III Ramiro Əbu Amirə qarşı Kastilya qrafı Fernandes və Navarra kralı ilə birləşdi. Yenidən Lion üzərinə hərəkət edən Əbu Amir kral III Ramironu məğlub edərək Kordovaya qayıtdı. Bu qələbədən sonra Əbu Amirə "əl-Mənsur billah" ləqəbi verildi.

Kordovanın tək hakimi olan Əbu Amir xristian krallarını məğlub edərək sərhədlərini xeyli genişləndirdi. Hicrətin 374-ci ilində (miladi 985) Kataloniyaya səfər edən Əbu Amir qraf Borralı məğlub edərək Barselonanı talan etdi.

Bu arada Lion kralı II Bermuda İslam ordusunu Liondan çıxardı. Bununla barışmayan Əbu Amir Liona səfər edərək buranı xarabaya çevirdi.

Hicrətin 387-ci ilində (miladi 997) yarımadanın şimal-qərbinə edilən səfərdə Santiyaqoda ən məşhur məbəd ələ keçirildi.

Hicrətin 392-ci ilndə (miladi 1002) Kastilya səfərindən qayıdan Əbu Amir xəstələnərək öldü. Ölümündən əvvəl yerinə vəzir olaraq Əbdülməliki təyin etmişdi. Əbu Amirin vəfatından sonra onun yerini "əl-Müzəffər" ləqəbli Əbu Mərvan Əbdülməlik tutdu. O da atası kimi II Hişamı dövlət işlərindən kənar tutaraq dövləti özü idarə etdi. Hakimiyyətdə olduğu yeddi il (1002-1009) ərzində Əndəlüsün rifahı davam etdi. Ticarət, sənaye, kənd təsərrüfatı xeyli inkişaf etdi, Şimali Afrikadan gətirilən bərbərilərlə ordunu gücləndirdi, Şimaldakı xristianlara qarşı səfərlər edən Əbdülməlik 1003-cü ildə Kataloniyaya, 1005-ci ildə Pamplonaya, 1007-ci ildə ildə isə Kastiliyaya səfər edərək onları məğlub etdi.

[674]İbn Xəldun, əl-İber, IV cild, səh-316, 317.

Hicrətin 399-cu ilində (miladi 1008) Əbdülməlik qardaşı Əbdürrəhman tərəfindən zəhərləndirilərək öldürüldü. Onun ölümündən sonra Amirilərin hakimiyyəti zəifləməyə başladı.[675]

Əbdülməlikin ölümündən sonra qardaşı Əbdürrəhman vəzirliyi ələ keçirdi. Atası və qardaşından fərqli olaraq içki düşkünü olmaqla bərabər İslamın əksinə hərəkətlər edirdi. 1008-ci ildə Əbdürrəhman xəlifə II Hişamı məcbur etdi ki, onu özündən sonra vəliəhd elan etsin.

Əbdürrəhman Lion krallığına qarşı səfərdə olarkən Kordovalılar II Hişamı hakimiyyətdən kənarlaşdırıb yerinə II Məhəmməd ibn Hişam ibn Əbdülcabbar ibn III Əbdürrəhmanı (1009-1010) "əl-Mehdi" ləqəbi ilə Əndəlüs əmiri təyin etdilər.

Dənizçilik

Dənizçiliyə xüsusi diqqət yetirən Əndəlüs Əməvi dövləti əl-Cəzirə, əl-Minkar, əl-Məriyyə, Tartus və Taraqon limanlarında çoxlu gəmi saxlayırdı. Hər il Kartaca, İşbiliyə dəzgahlarında inşa olunan gəmilər dənizə buraxılırdı. Tacirlərdən bir çoxu ticarət gəmiləri ilə şərqin mallarını İspaniyaya gətirirdilər. Bəzi dəniz piratları da düşmən məmləkətlərinə basqın edirdilər.

820-ci ildə Ağdənizdə Balear adalarını ələ keçirən ərəblər ardınca Korsikanı zəbt edərək buranı hicrətin 225-ci ilindən 235-ci ilinə qədər (miladi 840-850) öz əllərində saxladılar.

Norman və Skandinav qovmlərinin basqınlarının qarşısını almaq üçün sahillərin mühüm yerlərinə gəmilər yerləşdirilmişdir.[676]

Əndəlüs Əməvilərinin zəifləməsi

Hakimiyyəti ələ keçirən II Məhəmməd Amirilərin paytaxtı olan Mədinətuz-Zahirəni tamamilə məhv edərək hicrətin 399-cu ilində (miladi 1009) Əbdürrəhmanı da edam etdirdi. Onun ölümü ilə Amiri diktatorluğuna son qoyuldu.

Kordovada sözü keçən üç əsas qüvvə var idi. Bunlar Kordova xalqı, Bərbərilər və Səqalibələr idi. Bu tarixdən etibarən Əndəlüs Əməvi dövlətinin yıxılmasına qədər Kordova daxili qalmaqallarla parçalanmağa başladı.

Bu dövrdə Amirilər tərəfindən Əndəlüsə gətirilən İfriqiyyə bərbəriləri II Məhəmmədə qarşı mübarizə aparmağa başladılar. Bunu öyrənən II Məhəmməd onları ordudan ayırdı. Buna cavab olaraq Bərbərilər hakimiyyətdən narazı olan Kordova əhalisini də özlərinə qoşaraq xəlifəyə qarşı üsyan edib Süleyman ibn Həkəm ibn Süleyman ibn III Əbdürrəhmanı (1010-1019) "əl-Müstəin" ləqəbi ilə hakimiyyətə gətirərək ona beyət etdilər. Sonra Kastilya kralının yardımı ilə Kordova üzərinə hərəkət edərək II Məhəmməd əl-Mehdini məğlub etdilər. Məğlub olduğunu görən II Məhəmməd Tuleytulaya çəkildi. Məğlubiyyətlə ba-

[675] Ziya Paşa, Tarixi-Əndəlüs, I cild, səh-109, 110.
[676] İbn Xəldun, əl-İber, IV cild, səh-323, 324.

rışmayan II Məhəmməd sərdar Vazehlə Barselona və Urgel qraflarından yardım alaraq Kordovaya hücum edib Süleymanı məğlub edərək Bərbəriləri paytaxtdan çıxardı.

Yenidən ordu toplayan bərbərilər Cəzireyi-Hadrada II Məhəmmədi məğlub edərək Kordovanı mühasirəyə aldılar. Bu arada 1010-cu ildə hakimiyyətdən narazı olan kordova əhli II Məhəmmədi öldürərək yerinə II Hişamı ikinci dəfə hakimiyyətə gətirdilər.

Sərkərdə Vazehi özünə vəzir təyin edən II Hişam bərbərilərlə sülh bağlamaq istəsə də bərbərilər bunu qəbul etmədi. Bu arada Kordova əhli Vazehi öldürdü və Kordovanın mühasirəsi hicrətin 403-cü ilinə qədər (miladi 1013) davam etdi. Sonda Kordova təslim oldu və şəhərə daxil olan Süleyman dörd il hakimiyyəti əldə etməklə bərabər bütün səlahiyyətləri bərbərilərə verdi.

Güclü təzyiqə məruz qalan Kordova əhli İdrisilərdən (789-926) olan Səbtə və Tanca valisi Əli ibn Hammuddan kömək istədilər. Hicrətin 406-cı ilində (miladi 1016) Kordovanı ələ keçirən Əli ibn Hammud öz xəlifəliyini elan edərək Süleymanı öldürdü. Qısa müddət sonra onun hərəkətlərini bəyənməyən Kordova əhli üsyan edib Əli ibn Hammudu öldürərək 1017-ci ildə IV Əbdürrəhman ibn Məhəmmədi (1017-1019) "əl-Mürtəza" ləqəbilə hakimiyyətə gətirdilər.[677]

1017-1027-ci illər (407-417) ərzində Əndəlüs Əməviləri ilə hammudilər arasındakı mübarizə davam etdi. Bu dövrdən etibarən Əndəlüs Əməvi dövləti sürətlə zəifləməyə başladı. Artıq Əndəlüsdə kiçik bəyliklər (təvafi-muluk) yaranmağa başladı. Əməvilərdən IV Əbdürrəhman əl-Mürtəza (1017-1019), V Əbdürrəhman əl-Müstəzhir (1019-1023), III Məhəmməd (1023-1025) və Yəhya (1025-1027) bir-birinin ardınca hakimiyyəti ələ keçirsələr də asayişi bərpa edə bilmədilər.[678]

Qısa müddət sonra III Hişam əl-Mütəd (1027-1031) Əndəlüs Əməvi əmiri təyin edildi. Lakin III Hişam da Kordovada asayişi bərpa edə bilmədi. Bundan narahat olan Kordava əhli vəzir Hakəmi öldürdülər. Bundan xəbər tutan III Hişam 1031-ci ildə şəhərdən qaçdı və bununlada Əndəlüs Əməvi xilafətinə son qoyuldu.[679]

Təvaifi-muluk

Əndəlüs Əməvi dövlətinin yıxılmasından sonra ölkənin müxtəlif yerlərində kiçik bəyliklər meydana çıxmağa başladı. Sayları iyirmidən artıq olan bu kiçik bəyliklərin hakimiyyət müddəti qısa olmuşdur. Bu bəyliklərin ortaya çıxmasına valilərin, vəzirlərin və sərkərdələrin bir-biri ilə rəqabət aparması səbəb olmuşdur. Hicrətin 420-ci ilində (miladi 1029) yalnız Əndəlüsdə bir çox kiçik bəylik-

[677]İbn Xəldun, əl-İber, IV cild, səh-324, 327.
[678]Ziya Paşa, Tarixi-Əndəlüs, I cild, səh-115, 125; İmaduddin, Əndəlüs, səh-240, 242.
[679]Ziya Paşa, Tarixi-Əndəlüs, I cild, səh-125, 128; İbn Xəldun, əl-İber, IV cild, səh-327, 330.

lərdən başqa hər biri krallıq vəziyyətində olan altı hökumət təşəkkül tapmışdı. Bunlar Kordova, İşbiliyə, Karmona, Əsisə, Malaqa, əl-Cəzirə və Qırnata hökumətləri idi. Tuleytula ayrı bir hökumətin mərkəzi olmuşdu. əl-Qaro ilə Lozitaniyanın kralları Lizbon və Badayoz şəhərlərində əyləşirdi. Şimalda Saraqosa, Tartus hökuməti yerləşirdi.

Ən məşhur bəyliklər bunlardır: Qrinadada Bəni-Ziri (972-1148), Tuleytulada Bəni-Zunun (1009-1085), Malaqada Bəni-Hanimud (1016-1057), Daniyə məlikliyi (1017-1075), Saraqosada Bəni-Tucib (1019-1023) və Bəni-Hud (1023-1141) məlikləri, Balansiyada Bəni-Amir (1021-1085), İşbiliyədə (Sevilyada) Bəni-Abbad (1023-1091), Mərsiyədə Bəni-Hud bəyliyi (1228-1269).

Bunların arasında ən güclüsü İşbiliyədəki (Sevilya) Abbadilər idi.[680]

Abbadilər hicri 414-484/miladi 1023-1091

Hirə dövlətinin Ləxmi soyundan gəldiyini iddia edən Abbadilərin ilk hökmdarı Abbad əl-Mütəziddir. Özü şair olan Abbad əsasən şair və sənətkarları himayə etmişdir. Özündən sonra hakimiyyətə gələn oğlu əl-Mutəmid (1068-1091) Kordovanı ələ keçirsədə, digər müsəlman məlikləri kimi xristian krallara xərac verməyə məcbur idi. Əvvəllər Qalisiya kralı Qarsiaya, sonra isə onun yerini tutan VI Alfonsa vergi ödəyirdi.

Bütün bunlara baxmayaraq xristian kralların arasındakı qalmaqallar davam etdiyi ərəfədə əl-Mutəmid rahat bir həyat yaşamışdır. Lakin bu rahatlıq uzun çəkmədi. VI Alfons Qalisiya və Navar krallıqlarını özünə tabe edib müsəlmanlara qarşı təzyiqə başlayınca, xristianlarda müsəlman torpaqlarına hücum etməyə başladı. Bunu görən İşbiliyə əmiri əl-Mutəmid Şimali Afrikada dövlət quran Murabitlər hökmdarı Yusif ibn Tafşindən (1061-1106) kömək istədi.[681]

Murabitlər hicri 483-541/miladi 1091-1146

Bu dəvəti qəbul edən Yusif ibn Tafşin (1061-1106) İspaniyaya doğru hərəkət etdi. Hicrətin 479-cu ilində (miladi 1086) Batalyus yaxınlığında əz-Zəllaqa adlı yerdə baş verən döyüşdə Yusifin ordusu VI Alfonsun ordusunu məğlub etdi. Bu döyüşdən sonra İspaniyaya Şimali Afrikadan olan Murabitlər hakim oldu. 1090-cı ildə Qırnatanı, növbəti il isə İşbiliyə və bəzi şəhərlər onların əlinə keçdi. 1091-ci ildə Tuleytula ilə Bəni-hudun əlində olan Saraqosadan başqa bütün İspaniyanı özlərinə tabe edən Murabitlər Abbadiləri ortadan qaldırdı. Əndəlüsün on üç müsəlman kralı Yusifə tabe oldu.

"Əmirul-müslimin" adlanan Murabit hökmdarları Abbasi xəlifəsinə bağlı olaraq Əndəlüsdə dinar adlı öz pullarını da kəsdirirdilər. Onların dövründə ticarət və yazıda ərəb dilindən istifadə olunurdu.

---

[680] Ziya Paşa, Tarixi-Əndəlüs, II cild, səh-137.

[681] İbn Xəldun, əl-İber, IV cild, səh-336, 350.

1106-cı ildə Yusifin ölümündən sonra yerinə oğlu Əli (1106-1145) keçdi. O VI Alfonsun oğlu Sançonun başçılığı altında olan ordunu məğlub etmiş, Saraqosa və Əndəlüs əmirlərinə qarşı mübarizə apararaq İspaniyanı öz əlində saxlamışdır. Əli ilə oğlu Tafşin əhali ilə yaxşı münasibətdə olmadığı üçün onlara qarşı tez-tez üsyan baş verirdi.

Bu arada Balansiyanı ələ keçirən Alfons Mureysəyə hücum etdi. Buna cavab olaraq Murabitlər də xristianlar yaşayan yerlərə hücum etdilər. Bundan narahat olan Alfons 1133-cü ildə İşbiliyə və ətraf məntəqələri ələ keçirərək talan etdi. 1145-ci ildə Murabit hökmdarı Əlinin ölümündən sonra yerinə oğlu Tafşin (1145-1146) keçdi. Şimali Afrikada sürətlə inkişaf edən Müvəhhidlər Murabitlərə aid yerləri ələ keçirdikləri üçün Afrikada onların əlində Oran və Telamsandan başqa yer qalmamışdı. 1146-cı ildə Murabitlərin varlığına Müvəhhidlər tərəfindən son qoyulmuşdur.[682]

Müvəhhidlər hicri 540-646/miladi 1146-1248

Bu dövlətin də əsası Şimali Afrikadan olan bir bərbər tərəfindən qoyulmuşdur. Məsmudə qəbiləsinə mənsub olan Məhəmməd ibn Tumərt (1078-1130) öz siyasi və dini hərəkətini Atlas dağları ilə Şimali Afrikada yaymağa başlamış və ardıcıllarına "Müvəhhidi" (Allahın birliyinə sarılanlar) deyilmişdir.[683]

1130-cu ildə Məhəmməd ibn Tumərtin ölümündən sonra yerinə Zenata qəbiləsinə mənsub Əbdul-Mumin ibn Əli (1130-1163) keçdi. Hakimiyyəti ələ keçirən Əbdul-Mumin tövhid inancını yaymaq üçün cihada başladı. Əvvəlcə 1144-1146-cı illərdə Telamsan yaxınlığında Murabitlərin ordusunu məğlub edərək Fasın Səbtə, Tanca, 1147-ci ildə Mərakeş şəhərini fəth etməklə Murabitlər xanədanına son qoydu.

1146-cı ildə əl-Qaro valisinin istəyi ilə Əbdul-Mumin İspaniyaya ordu göndərdi. Bu ordu beş il ərzində müsəlmanların idarəsində olan İspaniya torpaqlarını ələ keçirdi.[684]

Əbdul-Mumin 1152-ci ildə Cəzayiri, 1158-ci ildə Tunisi, 1160-cı ildə Trablusqərbi zəbt etdi. Beləliklə tarixdə ilk dəfə və son dəfə Şimali Afrika və İspaniya müsəlman bir dövlət idarəsində birləşmiş oldu.

Ancaq İspaniyada Murabitlərin zəifləməsilə vəziyyət müsəlmanların əleyhinə dəyişdi. Lion və Kastil kralı Qovadiyana və Siyera-Morana ətrafını talan edərkən, Portuqaliya kralıda İngilis və Finlandiya gəmilərinin köməyi ilə 1147-ci ildə Lizbon şəhərini ələ keçirdi. 1152-ci ildə isə Kordovanı tutmaq istəsədə bacarmadı.

Müvəhhidlər 1163-cü ildə Kastilya və Araqondan yardım alaraq İspaniyada baş verən üsyanları yatırdılar. Eyni ildə Əbdul-Mumin vəfat etdi.

---

[682]İbrahim Həsən, Tarixi İslam, Misir, 1967, IV cild, səh-118, 125.
[683]Ziya Paşa, Tarixi-Əndəlüs, II cild, səh-186, 193.
[684] Ziya Paşa, Tarixi-Əndəlüs, II cild, səh-193, 199.

Xristianlarla müharibələr

Daxili asayişi təmin edən Müvəhhidlər xristian krallıqlarına qarşı mübarizəyə başladılar. Bunlar Araqon, Kataloniya, Lion, Kastilya və Portuqaliya krallıqları idi. Bunların ən təhlükəlisi Portuqliya krallığı idi. Əbu Yəqub Yusif və oğlu Yəqub bunlara qarşı bir çox səfərlər etdi. Əbu Yəqub Yusif əl-Mənsur 1184-1199-cu illər arasında (580-595) cihad elan edərək əl-Arak müharibəsində Alfonsun ordusunu məğlub etmişdir. Bunun ardınca Kalatarava, Madrid və Salamanka alınmışdır. Bu uğurları əldə edən Yəqub əl-Mənsur elm, sənət və ədəbiyyatı himayə etməklə bərabər, İslami hökmlərə tam riayət etmiş, bir çox mədrəsələr və məktəblər təsis edərək dəyərli hədiyyələrlə alimləri təltif etmişdir. Onun dövründə Əndəlüs parlaq dövrünü yaşamışdır. Bundan əlavə Müvəhhidlərdən Yusif İşbiliyədə bir çox binalar və məscidlər, körpülər, su kəmərləri inşa etdirmişdir. Yəqub əl-Mənsur Alfons üzərində qazandığı qələbə naminə Mərakeşdə böyük bir məscid inşa etdirmişdir. Bunlardan əlavə Yəqub bir çox xəstəxanalar, yetimxanalar, əlillər üçün sığınacaq və karvansaraylar inşa etmişdir.[685]

Yəqub əl-Mənsurdan sonra Müvəhhidlər taxtına Məhəmməd ən-Nasir keçdi. 1211-ci ildə Məhəmməd ən-Nasir Afrikada hazırladığı ordu ilə sərhəd bölgələrində yerləşən bir çox şəhərləri ələ keçirən xristianlara qarşı səfər etsə də heç bir nəticə əldə etmədi. Papa İnosan Qüdsdən qovulmanın intiqamını almaq üçün İspaniya müsəlmanlarına qarşı xaçlı səfərləri elan etmişdir. İki ordu 1212-ci ildə Siyerra-Morena dağlarının ətəyində Xısn əl-Uqban da qarşılaşdı. Xaçlı ordusu Kastilya, Lion, Navarra, Araqon, Portuqaliya və Avropa xristianlarından ibarət idi. Baş verən bu döyüşdə xristianlar müsəlmanlar üzərində parlaq qələbə qazanmışdır. Bu məğlubiyyətdən sonra 1212-ci ildə Əndəlüsdəki Müvəhhid hakimiyyəti faktiki olaraq sona çatdı. Xaçlı ordusu ələ keçirdiyi məntəqələrdə müsəlmanları qılıncdan keçirdi. Marrakuşa qayıdan Məhəmməd ən-Nasir 1213-cü ildə vəfat etdi.

Müvəhhidlər taxtına çıxan İdris əl-Məmun hicri 624-629/miladi 1227-1232-ci illər arasında Afrikada baş verən üsyanları yatırsada Əndəlüs daxilində heç nə edə bilmədi. İşbiliyədə Bəni-Hud, Valensiyada Bəni-Zəyyan, Qranadada isə Bəni-Əhmər səltənəti quruldu.[686]

Bu qarışıqlıqdan istifadə edən katoliklər müsəlman xanlıqlarını bir-bir aradan götürürdülər. İbn Əhmər Kastil kralı III Ferdinando ilə İbn Huda qarşı mübarizə apardığı kimi, İbn Hudda xristianlarla əlbir olub otuzdan çox qalanı onlara buraxdı. Hicrətin 635-ci ilində (miladi 1238) ərəb rəislərindən olan İbn Hudun ölümündən sonra Əndəlüsdə tək islam dövləti olaraq Bəni Əhmər qaldı (1232-1492). Kastil kralı III Fernando 1236-cı ildə Kordovanı, 1241-ci ildə Malaqanı, 1246-cı ildə Mursiyanı, 1248-ci ildə İşbiliyəni (Sevilya) ələ keçirdi. 1238-ci ildə Araqon kralı yəhudilərin yardımı ilə Valensiyanı ələ keçirmişdi.

---

[685] Ziya Paşa, Tarixi-Əndəlüs, III cild, səh-302, 314.

[686] Ziya Paşa, Tarixi-Əndəlüs, III cild, səh-314-321.

Bəni Əhmər isə bəzi torpaqları Kastil krallığına buraxaraq və illik vergii ödəmək şərti ilə torpaqlarını qoruya bildi. XIII əsrin ortalarından etibarən İspaniyadakı xristian dövlətlərinin iki planı var idi. Birincisi ölkənin xristianlaşması, ikincisi İspaniyanın birləşdirilməsi.

Bəni-Əhmər dövləti hicri 629-898/miladi 1232-1492

Xəzrəc qəbiləsinə mənsub olan bu dövlətə Qranada və Bəni-Nasri əmirliyidə deyilir. Əhli-sünnənin maliki qoluna mənsub olan bu dövlətin torpaqları Siyerra de-Elvira və Serraniya de-Ronda çevrəsində əl-Məriyyədən Cəbəllü-tarixə qədər uzanırdı. Bəni-Əhmər dövlətini iyirmi kral idarə etmişdir.

Bəni-Əhmər dövlətinin əsasını qoyan Məhəmmədul-Əhmər əl-Qalib billah (hicri 629-671/miladi 1232-1273) çətinliklə də olsa xristianların hücumlarının qarşısını ala bildi. Valilərini özü seçən Məhəmməd onların müstəqillik arzularının həyata keçməsinə imkan vermədi. Qranada müsəlmanlar üçün səltənət mərkəzi idi. Katolik xristianlarının hakimiyyətini bəyənməyən müsəlmanlar Qranadaya gəlirdilər.

Qranadalıların zövq və əyləncələri şöhrət qazanmışdı. Əhali bəzən hökmdar tərəfindən böyük şənliklərə, ziyafətlərə dəvət edilirdi. Kənd təsərrüfatı və sənaye inkişaf etmiş, ümumi sərvət artmış, hər kəs səadət içində yaşamışdır. Toxuculuq sənayesi ilə yanaşı ipəkdə inkişaf etmişdir.[687]

Məhəmməd əl-Qalib hakimiyyəti dövründə Qranadada dünyanın ən məşhur saraylarından olan "əl-Həmra" sarayını inşa etdirmişdir. Saray qızıl rəngli daşlardan inşa edildiyi üşün belə adlanmışdır. Qranada şəhəri on ilə yaxın dünyanın ən böyük mədəniyyət, elm və ticarət mərkəzlərindən biri olmuşdur.

Məhəmməd ibn əl-Əhmərin Kastiliyaya tabe olaraq vergi ödəməsi əhaliyə mənfi təsir göstərirdi. Bu arada əhali də Kastiliyalılar kimi geyinməyə və yaşamağa başladı. Bu vəziyyəti öz xeyrinə dəyişmək istəyən Məhəmməd işğal altında olan şəhərlərdə yaşayan müsəlmanlara xeyli yardım etdi. O hicrətin 671-ci ilində (miladi 1273) yetmiş doqquz yaşında vəfat etmişdir. Məhəmməd ibn əl-Əhmər Nəsrilərin qurucusu və İspaniyanın bacarqlı hökmdarlarından biri olmaqla yanaşı, ağıllı siyasət və davranışı ilə əhali tərəfindən çox sevilmişdir.

Məhəmmədin ölümündən sonra yerinə oğlu Əbu Abdullah II Məhəmməd (hicri 671-701/miladi 1273-1302) keçmişdir. O alim və fəqih olduğu üçün alimləri və elmi himayə edirdi. Xristian krallarına qarşı mübarizə aparmaq üçün Mərinilərlə ittifaqa girdi. 1274-cü ildə Kastilya ordusu Nuno Qonzalesin başçılığı ilə Qranadanı işğal etmək üçün hücuma keçdi. Lakin II Məhəmməd Mərinilərin köməyi ilə onları məğlub etdi. Bir müddət sonra II Məhəmməd Araqon kralının oğlu Şançonun başçılığı altında olan xristian ordusunu məğlub edərək sərkərdəni öldürdü. Otuz il hakimiyyətdə olan II Məhəmməd hicrətin 701-ci ilində (miladi 1302) vəfat etmişdir.

---

[687] İbn Xəldun, əl-İber, IV cild, səh-366, 369.

II Məhəmmədin ölümündən sonra yerinə oğlu III Məhəmməd (hicri 701-708/miladi 1302-1309) keçmişdir. O, hakimiyyətdə olduğu müddətdə üsyançılara və düşmənlərə qarşı mübarizə aparmışdır. 1305-ci ildə Araqonluların təhriki ilə əl-Məriyyə valisi Süleyman üsyan etsə də məğlub olaraq həbs edilmişdir. Daha sonra Cəbəllü-Tariki ələ keçirən xristianlar əl-Cəzirəni mühasirəyə almışlar. Bu hadisələr qarşısında tab gətirməyən III Məhəmməd taxtdan salınaraq həbs edilmişdir.

III Məhəmməddən sonra Bəni Əhmər hakimiyyətinə ən-Nəsr ibn Məhəmməd (hicri 708-713/miladi 1309-1314) sahib olmuşdur. Onun hakimiyyəti dövründə Qranada xristianların hücumuna məruz qalmışdır. Daha çox Kastil və Araqon kralları Qranadaya hücum edirdilər. Bu hücumların qarşısını almaq istəyən ən-Nəsr xristian krallıqlarına xərac vermək şərti ilə razılığa gəlmişdir. Lakin taxt uğrunda gedən mübarizələr nəticəsində o hicrətin 713-cü ilində (miladi 1314) hakimiyyəti Əbul-Vəlid I İsmail ibn Fərəc ibn İsmailə (hicri 713-725/miladi 1314-1325) buraxdı.[688]

1314-cü ildə hücuma keçən xristianlar Qranadanın bəzi torpaqlarını ələ keçirdilər. Bu hadisədən üç il sonra I İsmail Elvirada xristianları məğlub etdi. Hicrətin 719-cu ilində (miladi 1319) Kastil kralının oğlu Don Pedro Qranadanı işğal etmək üçün hərəkətə keçdi. Onunla birlikdə bu orduda iyirmi beş xanlıqda iştirak edirdi. Baş verən müharibədə Don Pedro və bir çox xanlar öldürüldü. I İsmail qalib olaraq Qranadaya qayıtsa da, qısa müddət sonra 1325-ci ildə qardaşı oğlu Məhəmməd ibn İsmail tərəfindən öldürüldü, yerinə Əbu Abdullah IV Məhəmməd (hicri 725-733/miladi 1325-1333) keçdi. IV Məhəmməd on iki yaşında olduğu üçün onu İbn əl-Məhruq himayə edirdi. Qısa müddət ərzində hakimiyyəti ələ alan IV Məhəmməd Qranadaya hücum edən Kastiliyalıları Şimali Afrikadakı Bəni Mərindən aldığı yardımçı qüvvələrlə məğlub etdi. Geri qayıdarkən yenidən xristianların hücumuna məruz qalan IV Məhəmməd hicrətin 733-cü ilində (miladi 1333) öldürüldü.

IV Məhəmmədin vəfatından sonra yerinə qardaşı Əbul-Həccac I Yusif (hicri 733-755/ miladi 1333-1354) keçdi. Onun zamanında Fəsdə krallıq edən Əbul-Həsən bütün Əndəlüsü ələ keçirmək istəsə də Tərifə qalası yaxınlığında I Yusiflə bərabər xristianlar tərəfindən məğlub edildi. Bu məğlubiyyətdən sonra Şimali Afrikalı müsəlmanlar bir daha Əndəlüsə müdaxilə edə bilmədilər. Daha sonra Kastiliyalılarla on illik sülh bağlandı. Elmə böyük dəyər verən I Yusif hicrətin 755-ci ilində (miladi 1354) sarayında namaz qılarkən öldürülmüşdür.

I Yusifin ölümündən sonra hakimiyyətə oğlu V Məhəmməd (hicri 755-793/ miladi 1354-1391) sahib olmuşdur. Onun dövründə məmləkətin hər yerində elm, sənət və sənaye inkişaf etmişdir. 1359-cu ildə qardaşı İsmail hakimiyyəti ondan aldıqda o, Fəsə gedərək elmlə məşğul olmuşdur. Lakin qısa müddət-

[688]Ziya Paşa, Tarixi-Əndəlüs, III cild, səh-266-281.

dən sonra V Məhəmməd hakimiyyəti yenidən ələ keçirmişdir. V Məhəmmədin dövründə kənd təsərrüfatı və ticarət xeyli inkişaf etmişdir.

1391-ci ildə V Məhəmmədin ölümündən sonra yerinə oğlu Əbu Abdullah II Yusif (hicri 793-794/miladi 1391-1392) gəlmişdir. Kastilya səfərində uğur qazanmadığı üçün yerinə kiçik oğlu VII Məhəmməd (hicri 794-810/miladi 1392-1408) keçdi.

Onun zamanında Kastilya xristianları Qranadaya hücum etdilər. Baş verən döyüşdə hər iki tərəf xeyli itki vermişdir. 1408-ci ildə VII Məhəmmədin ölümündən sonra hakimiyyətə gələn III Yusif (hicri 810-827/miladi 1408-1423) ilk olaraq Kastiliyalılarla sülhü təzələdi. İki il sonra Kastıliyalılara qarşı baş verən döyüşdə III Yusif yenidən məğlub olsa da sülhü təzələyərək Qranadanı bir müddət idarə etdi. 1423-cü ildə III Yusifin ölümündən sonra yerinə oğlu VIII Məhəmməd əl-Əmir (hicri 827-848/miladi 1423-1444) keçmişdir. Ondan narazı olan Qranadalılar onu şəhərdən qovaraq yerinə Yusif ibn əl-Əhməri gətirdilər. Lakin 1433-cü ildə VIII Məhəmməd yenidən hakimiyyəti ələ keçirmişdir. 1444-cü ildə Kastilya xristianlarının köməyi ilə Qranadaya hücum edən İbn İsmail VIII Məhəmmədi məğlub edərək hakimiyyəti ələ keçirib 1454-ci ildə özünü sultan elan etdi (1454-1465).[689]

Yeni hökmdar Kastil kralı IV Henriyə elçi göndərərək sülh təklif etsə də, Kastil kralı bu təklifi qəbul etmədi. Qranadaya hücum edən Kastil kralı şəhəri talan etdi. Sonra illik on iki min qızıl dinar və Kastiliyalılara tabe olmaq şərti ilə sülh bağlanmışdır. Bu müqaviləyə görə Cəbəlli-Tarik Kastiliyalıların əlinə keçmişdir. Bu anlaşma İbn İsmailin vəfatına qədər 1465-ci ilə qədər davam etmişdir.[690]

İbn İsmailin vəfatından sonra yerinə böyük oğlu Əbu Həsən Əli (hicri 870-887/miladi 1465-1482) keçmişdir.

Araqon taxtını Ferdinandın, Kastil taxtını İzabellanın ələ keçirməsindən sonra xristianların Qranadaya hücumları daha da artdı. 1482-ci ildə Ferdinand və İzabella Qranadanın cənub-qərbində yerləşən əl-Hamma qalasını ələ keçirərək xeyli sayda insanı qılıncdan keçirdilər. Əbul Həsən Əli iki dəfə qalanı qurtarmağa çalışsa da bacarmadı. Əl-Hammanın ələ keçməsi Qranada dövlətinin yıxılmasının başlanğıcı demək idi.

Əbul Həsən Əlinin əl-Hamma səfərində olduğundan istifadə edən oğlu Əbu Abdullah XI Məhəmməd üsyan edərək miladi 1482-ci ildə Qranada taxtını ələ keçirdi. Bunun ardınca xristianlar da Qranada qalasını bir-bir ələ keçirdikdə Əbul Həsən Əli Malaqada vali olan qardaşı Zağalın yanına getdi.

Araqon kralı Ferdinand ilə Kastil kralı İzabella Malaqa şəhərinə hücum etsələr də Zağal və qardaşı Əbul Həsən Əli tərəfindən məğlub edildilər. Eyni vaxtda 1485-ci ildə Kastil şəhərlərindən olan Lusanaya hücum edən Əbu Abdullah Ferdinand tərəfindən əsir götürüldü. Bunun ardınca Əbul Həsən Əli

---

[689]Musavvar İslam Tarixi, tər, M. Rauf, səh-553-557.

[690]Ziya Paşa, Tarixi-Əndəlüs, III cild, səh-315-320.

Qranada taxtını yenidən ələ keçirsə də onu qardaşı XII Məhəmməd əz-Zağala buraxaraq İlliryaya getdikdən sonra orada vəfat etdi. Əllərində əsir olan Əbu Abdullahdan istifadə edən Ferdinand və İzabella onu hicrətin 891-ci ilində (miladi 1486) kiçik bir dəstə ilə Qranadaya göndərdilər. Onun Beyza şəhərini ələ keçirməsindən sonra Qranada da yenidən qanlı müharibələr başladı. XII Məhəmməd qardaşı oğluna sülh təklif etsə də rədd cavabı aldı. Bu qalmaqallardan istifadə edən Kastil orduları Elvira, Alora, Ronda və digər şəhərləri ələ keçirdilər. 1486-cı ildə Loxsanı, bir il sonra isə Malaqanı ələ keçirdilər.

Katolik Ferdinand ələ keçirdiyi şəhərlərin əhalisinin bir qismini əsir olaraq satdı, bəzilərini isə sürgün etdi. Əbu Abdullahı da aldadan Ferdinand 1489-cu ildə Beyzanı ələ keçirdi. Şəhər əhalisini evlərindən çıxarıb mal və əşyalarını qəsb etdilər. Bütün bunlardan sonra XII Məhəmməd də boyun əyməyə məcbur oldu. Ferdinand Qranada şəhərinin ətrafını talan etdikdən sonra Kordovaya döndü. XII Məhəmməd Ferdinanda qarşı Şimali Afrika hökmdarlarından yardım istəsə də, onun təklifi qəbul olunmadı. Sonda mübarizəni buraxıb Telemsana gedən XII Məhəmməd orada vəfat etdi.

Miladi 1490-1491-ci illərdə Ferdinand və İzabella 80 min nəfərlik ordu ilə Qranada şəhərini mühasirəyə aldılar. Qranadalı müsəlmanlar Osmanlılardan, Afrikalılardan və Köləmənlərdən yardım istədilər.

Lakin heç bir yerdən yardım ala bilməyən Qranadalılar hicrətin 897-ci ilində (miladi 1492) təslim oldular. Əbu Abdullah, ailəsi və anası əl-Hamra sarayından çıxıb şəhərdən uzaqlaşdılar. Padol dağlarına çatdıqda Əbu Abdullah Qranadaya baxaraq ağlamağa başladı. Bunu görən anası ona dedi: "Kişilər kimi müdafiə edə bilmədiyin məmləkətinə indi qadınlar kimi baxıb ağla."

Fasa gedən Əbu Abdullah orada hicrətin 940-cı ilində (miladi 1533) vəfat etmişdir.[691]

Qranadanın təslim olmasından sonra hicrətin 903-cü ilində (miladi 1498) kraliça İzabellanın şəxsi keşişi Kardinal Fransisko Ximines böyük bir qüvvə ilə İspaniyaya gələrək müsəlmanları qılınc gücünə xristianlaşdırmağa başladı. Qranadada ərəbcə yazılmış İslami əsərlər yandırıldı.

1501-ci ildə Kastilya və Lionda yaşayan müsəlmanların ya xristian olmaları ya da İspaniyanı tərk etmələri barədə kral tərəfindən fərman imzalandı. 1526-cı ildə belə bir fərman Araqonda da imzalandı. 1556-cı ildə II Filip İspaniyada qalan müsəlmanların öz dillərini, dini müəssisələrini və həyat tərzlərini tərk etmələrini istədi. Son olaraq 1609-cu ildə III Filip tərəfindən müsəlmanların İspaniyadan çıxarılması barədə fərman imzalandı.[692] Beləliklə üç milyondan artıq müsəlman ya sürgün edilmiş, ya da məhv edilmişdir. Bunların bir qismi Şimali Afrikaya getmiş, bir qismi də Osmanlı dövlətinin təşəbbüsü ilə Anadoluya gətirilərək Mora və Çukurovaya yerləşdirilmişdir.

---

[691]Hitti, İslam Tarixi, III cild, səh-874-880; Müsəvvər İslam tarixi, səh-560-569.

[692] Hitti, İslam Tarixi, III cild, səh-880-882; İmaduddin, Əndəlüs, səh-349-366.

Bəni Əhmər dövlətini idarə edən hökmdarlar və onların hakimiyyət müddətləri:

1) I Məhəmməd (1231-1273)
2) II Məhəmməd (1273-1302)
3) III Məhəmməd (1302-1309)
4) ən-Nəsr (1309-1314)
5) I İsmail (1314-1325)
6) IV Məhəmməd (1325-1333)
7) I Yusif (1333-1354)
8) V Məhəmməd (1354-1359)
9) II İsmail (1359-1360)
10) VI Məhəmməd (1360-1362)
11) II Yusif (1391-1392)
12) VII Məhəmməd (1392-1408)
13) III Yusif (1408-1417)
14) VIII Məhəmməd (1417-1427; 1429-1431; 1432-1445)
15) IX Məhəmməd (1427-1429)
16) IV Yusif (1431-1432)
17) X Məhəmməd (1445-1455)
18) Səd (1455-1465)
19) Əbul Həsən Əli (1465-1482)
20) XI Məhəmməd (1482-1483; 1487-1492)
21) XII Məhəmməd (1483-1487).[693]

Əndəlüsdə mədəniyyət

İspaniyanın fəthindən sonra müsəlmanlar orada Avropanı heyrətə gətirən bir çox əsərlər ərsəyə gətirdilər. Qrammatika və ədəbiyyat sahəsində dəyərli yazıçılar yetişdi. Bunlardan Kordovalı İbn Əbdi Rəbbih (860-940) və İbn Həzmi (944-1064) kimi alimləri qeyd edə bilərik.

Şeir sənəti də Əndəlüsdə güclü inkişaf etmişdi. Əndəlüs Əməvi hökmdarlarından başqa əl-Mutəmid ibn Abbadda dövrünün böyük şairlərindən sayılır. Bundan başqa Əhməd ibn Zeydin (1003-1071) və Vəlladə (v. 1087) ilə Valensiyalı Əbu İshaq ibn Həfəcə (v. 1139) kimi bir çox şairləri qeyd edə bilərik.

Kordova, Malaqa, İşbiliyə (Sevilya) və Qranada kimi şəhərlərdə bir çox mədrəsələr fəaliyyət göstərirdi. Bu mədrəsələrdə İslami elmlərlə yanaşı astronomiya, riyaziyyat və tibbi elmlərdə öyrədilirdi.

Tarixçi olaraq Əndəlüsdə yaşayan İbn Qutiyyənin (v. 977) adını qeyd edə bilərik. Onun ən məşhur əsəri "Tarix iftitahil-Əndəlüs"dür. Bu əsərdə ilk İslam fəthlərindən başlayaraq III Əbdürrəhmanın (912-961) dövründə baş verən hadisələrdən bəhs olunur. Başqa bir tarixçi isə Əbu Mərvan Həyyan ibn Xələfdir

[693]Yılmaz Öztuna, İslam Devletleri, Ankara-kültür bakanlığı, I cild, səh-198.

(987-1076). Onun günümüzə qədər gəlib çatmış ən məşhur əsəri "əl-Muktəbis fi Tarix ricalil-Əndəlüs"dür. O dövrün tanınmış tarixçilərindən olan Əbdürrəhman ibn Xəldunun (1332-1406) isə ən məşhur əsəri "Kitabul-İbər və divanul-Mubtədə və Xəbər fi Əyyamil Arab vəl-əcəm vəl-bərbər" adlı əsəridir.

Tanınmış coğrafiyaçılardan on birinci əsrin məşhur coğrafiyaçısı əl-Bəkrini və on ikinci əsrin alimi əl-İdrisini qeyd etmək olar. Əbu Ubeyd Abdullah ibn Əbdüləziz əl-Bəkrinin "əl-Məsalik vəl-Məmalik" əsəri dövrümüzə qədər gəlib çatmışdır.

Əndəlüslü səyyahlardan İbn Cübeyr, Əbul-Husayn Məhəmməd ibn Əhməd, Əbu Həmid Məhəmməd əl-Mazini və Məhəmməd ibn Abdullah ibn Bətutini qeyd edə bilərik. İbn Bətuti (1304-1377) bütün İslam dünyasını başdan-başa gəzmişdir.[694]

[694]Hitti, İslam Tarixi, III cild, səh-883-889; İbn Xəldun, əl-İbər.

VII FƏSİL

QARAXANLILAR DÖVLƏTİ (840/848-1212)

Qaraxanlı Türk xənadanı, Açina-oğulları Türk böyük-xaqanlıq xənadanından, bilavasitə Göytürklərdən gəlməkdədir. 848-ci ildə Göytürkxanı olan Kül Bilgə "Qadir-Xan" ləqəbi ilə Türk-böyük-xəqanlıq taxtına oturmuşdu. 744-cü ildə Göytürklərin əlindən çıxan bu taxta 104 il ərzində Doqquz-Oğuz-on-Uyğur xənadanı oturmuşdu. Lakin uyğur xənadanın Göy-Tanrı dinini buraxaraq Mani dinini qəbul etməsi ilə Uyğur xaqanları dünyəvi siyasətlə uyğunlaşa bilmədilər. Qırğız türklərinin Türk imperatorluğunun ana yurdu sayılan Monqolustandan Uyğurları bugünkü Qərbi Türkistana sürgün etmələri ilə Türk böyük xaqanlığını çox pis vəziyyətə saldılar. Bu sürgündən sonra Uyğurlar məhəlli bir krallıq halına düşdülər və böyük-xaqanlıq Qaraxanlılara keçdi.

Qaraxanlılar, bu gün "Türkistan" dediyimiz ölkəyə yerləşdilər. Bura daha əvvəl Türk xaqanları üçün kənar bir yer olduğu halda indi ilk dəfə mərkəz halına gəlirdi.

Qaraxanlıların ilk hökmdarı Kül Bilgə Qadir Xan haqqında tarixi mənbələrdə geniş məlumat yoxdur. Oğlanları Bazir Arslan Xan və Oğulcaq Qadir Xandır.[695]

Xənadanın üçüncü xaqanı olan Satuq Buğra Xan (924-955) iyirmi dörd yaşında taxta çıxan kimi İslam dinini və Sünni-Hənəfi məzhəbini, Türk imperatorluğunun rəsmi dini elan etdi. Amma bu, türklərin İslam dini ilə ilk tanışlığı deyildi. Ən azı iki əsrdən bəri milyonlarca türk müsəlman olmuş, İslam dünyasında böyük rollar oynamış, xilafət ordusunu əllərində tutmuş, xəlifələri taxtdan salmış, Misirdə Tulunoğullar (868-905), İxşidilər (934-969) kimi Türk xənadanları hakimlik etmişlər.

Volqa Bulqar xanı Almış Xan, Satuq Buğra Xan ilə eyni illərdə İslam dinini və Sünni-Hənəfi məzhəbini rəsmi din olaraq elan etmişdi. Qaraxanlı Satuq Buğra Xanın "Əbdülkərim" islami adı ilə Müsəlmanlığı dövlət dini elan etməsi, "Böyük Türk Xaqanlığı" dediyimiz Türk imperatorluğunda cərəyan edirdi. Başqa türk dövlətləri də var idi. Amma bütün diqqətlər, Açina-Oğullarından və Göytürklərdən gələn Qaraxanlılarda idi. O ana qədər "xaqan" adını dayıyan heç bir Türk hökmdarı nə İslam dinini dövlət dini elan etmiş, nə də şəxsən müsəlman olmuşdu. Bu hadisədən 130 il sonra Səlcuq hökmdarı Toğrul Bəyin Bağdada gəlib İslam dünyasını rəsmən himayəsinə alması məhz 924-cü ildə baş verən hadisənin nəticəsidir.

---

[695]Qaraxanlıların şəcərəsi üçün bax: İslam Ansiklopedisi, VI cild, səh-264-265.

Qaraxanlı dövləti 840-cı ildən 1212-ci ilə qədər, yəni 372 il davam etmişdir. 848-ci ildə Böyük Türk xaqanlığının taxtını işğal edən Qaraxanlılar 192 il sonra bunu 1040-cı ildə Səlcuqlara versələr də Səlcuqlara tabe olaraq, öz həyatlarını davam etdirdilər. İlk iki xaqan zamanında (848-926=76 il) Göy Tanrı dinində olan dövlət, 924-cü ildən etibarən müsəlmanlığı qəbul etmişdir.

848-ci ildən 1042-ci ilə qədər Qaraxanlılarda bir xaqan var idi. Qarluqların Çığıl boyu məliklərindən olan Qaraxanlı hökmdarına (böyük xaqan) "Arslan Qara-Xaqan" deyilirdi. Vəliəhdlər isə "Arslan İliğ" ünvanını daşıyırdı. Böyük xaqan olmayan xaqanlara "Tamqac Buğra Qara-Xaqan" deyilirdi. 1042-ci ildə Qaraxanlı dövləti Qərbi Qaraxanlılar və Şərqi Qaraxanlılar olmaqla iki yerə ayrıldı.

1042-ci ildən 1210-cu ilə qədər (168 il) davam etmiş Şərqi Qaraxanlıya Balasaqun, Talas, İsficab, Şaş, Şərqi Fərqanə, Kaşğar, Yarkənd və Hoton daxil idi. Paytaxtları 1042-1130-cu illər arasında "Qara Ordu" deyilən Balasaqun, 1130-1210-cu illər arasında isə Kaşğar olmuşdur.[696] Şərqi Qaraxanlılar 1089-cu ildən 1157-ci ilə qədər (68 il) Səlcuqlara tabe olmuşlar. Şərqi Qaraxanlılara 1210-cu ildə Nayman Türk xənadanı tərəfindən son qoyulmuşdur.

1042-ci ildən 1212-ci ilə qədər (170 il) davam etmiş Qərbi Qaraxanlıya Maveraun-nəhr ilə Hocəndə qədər Fərqanə daxil idi. Paytaxtları 1042-1053-cü illər arasında Özkənd (bugün ki, Daşkənd, Fars, Şaş), 1053-cü ildən sonra Səmərqənd olmuşdur. Şərqi Qaraxanlıların ortaq-xaqanı Tarazda, Qərbi Qaraxanlıların ortaq-xaqanı isə Buxarada otururdu. 1089-1094-cü illərdə bu xaqanlıq Səlcuqlara birləşdirildi. 1094-1157-ci illərdə Səlcuqlara tabe olaraq həyatlarını davam etdirdilər. Ancaq 1141-ci ildən etibarən Qaraxıtay (Buddist Monqol) istilası başladı. 1157-1207-ci illər arasında hər iki şöbə qəti şəkildə Qaraxıtaylara tabe oldu. 1207-ci ildə Xarəzmşahlara tabe edilən Qərbi Qaraxanlılar 1212-ci ildən etibarən Xarəzmşahlara birləşdirildi.

Bir Qaraxanlı qolu da 1141-1222-ci illər arasında (81 il) Fərqanədə səltənət qurmuşdur. Bunlara Fərqanə xaqanları deyilirdi. Qaraxanlıların bu qoluda İslamı yeni qəbul edən bölgədə olduqları üçün bir çox məscid, mədrəsə və məktəb tikdirərək İslam dinin yaymağa çalışmışlar. Qaraxanlılar dövlətində İslam ədəbiyyatının ilk ən gözəl əsərləri meydana gətirilmişdir. Bunlar arasında Yusif Xas Xacib tərəfindən yazılan "Kutadqu-Bilik" adlı əsərlə, Mahmud Kaşğarinin "Divani Lüğətit-Türk" adlı əsəri qeyd edilə bilər.

Qaraxanlıların Böyük Xaqanları:

1) Kül Bilgə Qadir-Xan (848-?)
2) Bazir Arslan-Xan (?-924)

---

[696] Genç Qaraxanlı Dövləti Teşkilatı, səh-48-51

3) Əbdülkərim Satuq Buğra Xan (924-955)
4) Baytas Musa Xan (955-975)
5) Əbul-Həsən Əli Arslan Qara Tonqa Xan (975-998)
6) Əhməd Toqan Xan (998-1017)
7) Mənsur Xan (1017-1024)
8) II Əhməd Toqan Xan (1024-1026)
9) Yusif Harun Qadir-Xan (1026-1032).[697]

Qaraxanlıların Şərqi xaqanları (1042-1210):

1) Şərəfud-dövlə Əbi Şuca Süleyman Xan (1032-1042 böyük xaqan; 1042-1056)
2) I Məhəmməd Buğra Xan (1056-1057)
3) I İbrahim Xan (1057-1059)
4) Arslan Təkin Toğrul Qara-xaqan Mahmud Xan (1059-1075)
5) Ömər Xan (1075, bir neçə ay)
6) Nasirul-Haqq Əbi Əli Tabqac-Buğra Qara-xaqan Həsən Harun Xan (1075-1103)
7) Nurud-dövlə Əhməd Harun Xan (1103-1129)
8) Qara Arslan-Xaqan II İbrahim Xan (1129-1159)
9) II Məhəmməd Xan (1159-1160)
10) Yusif Xan (1160-1205)
11) Əbul-Fəth III Məhəmməd Xan (1205-1210).[698]

Qaraxanlıların Qərbi xaqanları (1042-1212):

1) Aynud-dövlə I Məhəmməd Xan (1042-1052)
2) Buri-Təkin I İbrahim Tamqac Xan (1052-1068)
3) Məlikil-Məşriq I Nəsr Xan (1068-1080)
4) Xızır Xan (1080-1081)
5) I Əhməd Xan (1081-1089; 1094-1095)
6) Yəqub Xan (1089)
7) Ruknəddin I Məsud Tamqac-Xan (1095-1097)
8) Qadir-Tafac-Xaqan Süleyman Xan (1097)
9) Əbul-Xaas Mahmud I Tanğac-Xan (1097-1099)
10) Harun Cəbrail-Xan (1099-1102)
11) Qazi Əlauddin II Məhəmməd Tabqac-Xan (1102-1130)
12) II Əhməd Qadir-Xan (1130-1132)
13) Kök-Saqun Kılıç Qara-Xaqan Həsən Xan (1130-1132)
14) II İbrahim Tabqac Buğra-Xan (1132)
15) Ruknəddin II Mahmud Xan (1132-1141)

---

[697]Yılmaz Öztuna, İslam Devletləri, Ankara kültür bakanlığı-1989, I cild, səh-628-629.
[698]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-629.

16) III İbrahim Tamqac-Buğra Xan (1141-1156)
17) Kök-Saqun Əli Çağrı-Xan (1156-1160)
18) II Məsud Kılıc Tamqac-Xan (1160-1178)
19) IV İbrahim Kılıc Tamqac-Xan (1178-1204)
20) Osman Xan (1204-1212).[699]

Qaraxanlıların Fərqanə xaqanları (1141-1222):
1) Hüseyn Alp-Kılıc Xan (1156, bir neçə ay)
2) Toğrul Mahmud Toğan Xan (1156-1165)
3) IV İbrahim Xan (Qərbi xaqan, 1165-1178)
4) Nəsr Tuğrul-Xan (1178-1182)
5) Cəlalud-Dünya Məhəmməd Xan (1182-1184)
6) Cəlalud-Dünya Uluğ Sultan Xan (1184-?)
7) Hüsamud-Dünya Kutluğ Toğan Xan
8) İmadud-Dövlə Uluğ Xan
9) I Məhəmməd Arslan Xan
10) II Məhəmməd Arslan Xan (?-1212).[700]

[699]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-629-630.
[700]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-630.

VIII FƏSİL

QƏZNƏVİLƏR DÖVLƏTİ (963-1187)

Müsəlmanların Hindistan fütuhatı əməvilər dövründə, xəlifə I Vəlid ibn Əbdülməlikin (705-715) xilafəti zamanında Məhəmməd ibn Qasimin başçılığı ilə Sindin fəthi ilə başlamışdır.

Türklərin Hindistan fəthi isə erkən çağlarda Ağhun müsəlman türklərin Hindistana ayaq basması ilə X əsrin ikinci yarısında (950-ci illər) başlamışdır.

X əsrdə Maveraun-nəhr və Xorasana hakim olan Samani (892-999) idarəsi altında olan şəhərlərdə çoxlu Türk və Türk şəhərləri var idi. Abbasi dövlətində olduğu kimi, Türklər Samani dövlətində də yüksək vəzifələr əldə etmişlər.

Bu şəxslərdən biri də Qəznə dövlətinin əsasını qoymuş Alp-Təkindir. O, 907-913-cü illərdə (hicri 295-301) kölə olaraq Samani əmiri Əhməd ibn İsmailə satılmışdır. Əhmədin xassa ordusuna daxil olan Alp Təkin qısa müddət sonra Əbdülməlik ibn Nuhun (954-961) dövründə Samani dövlətində söz sahibi olmuşdur. Onun gücünün artmasından narahat olan Əbdülməlik onu Xorasan ordusunun komandanı təyin edərək Buxaradan uzaqlaşdırdı. 961-ci ildə Nişapura gələn Alp Təkin vəzifəsinə başladı.

961-ci ilin noyabrında Əbdülməlik ibn Nuh vəfat etdi və Alp Təkin məsləhət gördü ki, oğlanlarından biri taxta çıxsın. Lakin xənadan mənsubları Mənsur ibn Nuhu (961-977) taxta çıxararaq ona tapşırdılar ki, Alp Təkini öldürsün. Bundan xəbər tutan Alp Təkin 962-ci ildə (hicri 351) Buxaraya gələrək Samani əmiri Mənsurun ordusunu məğlub edərək Qəznəyə daxil oldu. 963-cü ildə şəhərin hakimi Əbu Bəkr Ləviki məğlub edərək Qəznəni ələ keçirən Alp Təkin Qəznəvilər dövlətinin əsasını qoydu.[701] Alp Təkinin dövləti qurmasından sonra Mənsur ibn Nuh böyük bir ordunu onun üzərinə göndərsə də bu ordu Qəznə qapılarında məğlub edildi.

963-cü ildə Alp Təkinin vəfatından sonra yerini oğlu Əbu İshaq İbrahim (963-966) tutdu. Bundan istifadə edən Əbu Bəkr Ləvik Qəznəni geri aldı. Lakin Samanilərdən yardım alan Əbu İshaq 965-ci ildə (hicri 354) Qəznəni yenidən ələ keçirdi. 966-cı ildə (hicri 355) Əbu İshaq İbrahim vəfat etdi və Alp Təkinin köləsi olan Bilgə Təkin (966-975) hökmdar seçildi. O, Qəznə taxtını Samanilərdən qorumaqla bərabər bir çox fəthlərdə də iştirak etdi. Bilgə Təkin on illik hakimiyyətdən sonra 975-ci ildə (hicri 364) Gərdiz qalasının mühasirəsində şəhid edilmişdir.

---

[701] Merçil Ərdoğan, Qezneliler Devleti Tarihi, TTK Ank, 1989, səh-1-4.

Bilgə Təkinin vəfatından sonra hakimiyyəti Alp Təkinin digər köləsi Piri Təkin (975-977) ələ keçirdi. Lakin əhalinin narazılığından istifadə edən Səbuq Təkin (977-997) 977-ci ildə Piri Təkini məğlub edərək hakimiyyəti ələ keçirdi.

943-cü ildə (hicri 331) anadan olan Səbuq Təkin 12 yaşında əsir düşmüş, sonralar Alp Təkin tərəfindən satın alınaraq onun nəzarəti altında yetişmişdir. Hakimiyyəti ələ keçirən Səbuq Təkin Bust, Toxarıstan, Zəmindavar, Şərqi Gur və Kusdar bölgələrini də ələ keçirərək hakimiyyət sahəsini daha da genişləndirdi.

Daxili işləri yoluna qoyan Səbuq Təkin Hindistana səfərlər etməyə başladı. Buna mane olmaq istəyən Brahman xənadanına mənsub Caypal adlı hökmdarı məğlub edərək Lamgan bölgəsini talan etdi.

Buna cavab olaraq Caypal böyük bir ordu ilə Qəznəyə doğru hərəkət etdi. İki tərəf arasında baş verən döyüş nəticəsiz qaldı. Qışın yaxınlaşması ilə əlaqədar olaraq Caypalın irəli sürdüyü sülh təklifini Səbuq Təkin oğlu Mahmudun müxalifliyinə baxmayaraq qəbul etdi. Əldə olunan sülhün şərtlərinə görə: Caypal bir milyon dirhəm və əlli fil verəcək, bəzi qala və qəsəbələr Qəznəlilərə veriləcək və bunlar yerinə yetənə qədər Caypal girov verəcək.[702]

Lakin məmləkətinə geri qayıdan Caypal iki tərəf arasında bağlanan sülhü pozdu. Buna cavab olaraq Hindistana yenidən səfər edən Səbuq Təkin Lamgan bölgəsindən keçərək bir çox yerləri ələ keçirdi. Bir çox hind racaları ilə razılığa gələn Caypal yüz minlik ordu ilə Qəznəyə doğru hərəkət etdi. İki ordu Qəznənin cənubunda qarşı-qarşıya gəldi. Bu döyüşdə qalib gələn Səbuq Təkin Lamgan, Kabil, Cəlilabad bölgələrini ələ keçirdi və bu bölgədə yaşayan Qalac türkləri ilə Əfqanlar da Səbuq Təkinə itaət etdi. Beləliklə İslamiyyət bu bölgələrə daxil oldu.

Bu qələbə ilə çoxlu qənimət əldə edən Səbuq Təkin Əfqanistan və Belucistanın böyük bir hissəsini ələ keçirdi.

Bu arada Qaraxanlılar ilə də müqavilə bağlayan Səbuq Təkin Bəlxə döndü və Qəznəyə çatmamış miladi 997-ci ildə (hicri 387) vəfat etdi. Onun vəfat etdiyi vaxt qardaşı Buğracuq Herat və Puşəng valisi, oğlu Mahmud Xorasan ordusunun komandanı, digər oğlu İsmail isə Qəznə və Bəlx hakimi idi. Səbuq Təkinin vəsiyyətinə əsasən Alp Təkinin qızından olan oğlu İsmail ondan sonra taxta çıxmalı idi. Lakin bununla razılaşmayan Mahmud qardaşına müharibə elan etdi. Miladi 998-ci ildə (hicri 388) baş verən döyüşdə İsmaili məğlub edən Mahmud (998-1030) hakimiyyəti ələ keçirdi.[703]

Hakimiyyəti ələ keçirən Qəznəli Mahmud Abbasi xəlifəsi əl-Qadir Billahı (991-1031) xəlifə kimi tanıyaraq xütbəni onun adına oxutdurmuşdur. Buna cavab olaraq xəlifə əl-Qadir-Billah miladi 999-cu ildə (389) ona "Yəminul-Dövlə və Əminul-Millə" ləqəbini vermişdir.

---

[702] Tarixi ibn Əsir, VIII cild, səh-683-687.

[703] Bayur, Hindistan Tarihi, I cild, səh-135-136.

Eyni vaxtda Qaraxanlı hökmdarı Nəsr ibn Əli Buxaraya daxil olub bütün Samani ailəsini Özkəndə göndərərək bu dövlətin varlığına son qoydu. Qəznəlilərin işə qarışmasından sonra Amu-Dərya sərhəd olmaqla Samani torpaqları bu iki dövlət arasında bölüşdürüldü.

Səffari (867-1500) əmiri Xələf ibn Əhmədin (955-1009) Qohistanı işğal etməsi ilə Sistan səfrinə çıxan Mahmud Xələfi məğlub edib onunla illik vergi bağladıqdan sonra 1000-ci ildə (hicri 390) Qəznəyə döndü.

Sultan Mahmudun Hind səfərləri

Bu səfərləri etməkdə Sultan Mahmudun məqsədi Hindistan kimi zəngin ərazini ələ keçirərək bu bütpərəst məmləkətlərdə İslamı yaymaq idi.

Sultan Mahmud Hindistana ilk səfərini 1000-ci ilin sentyabrında etdi. Kabilin şərqindəki bəzi qalaları ələ keçirdikdən sonra 1001-ci ildə (hicri 391) Hindistan düzənliyinə endi. Əvvəllər atası Səbuq Təkinlə mübarizə aparan Caypalın mərkəzi şəhəri Vayhənd üzərinə hərəkət etdi. Hindistana etdiyi ikinci səfərdə Caypalı məğlub edən Sultan Mahmud xeyli qənimət ələ keçirdi. Bunu qəbul edə bilməyən Caypal 1002-ci ildə (hicri 392) özünü öldürdü.[704]

Sultan Mahmud üçüncü (1004-1005) Hind səfərini 1004-cü ildə Bəhatiyə racası Bəci Rayın üzərinə etmişdir. Bəci məğlub edərək bir çox şəhərləri ələ keçirən Sultan Mahmud bu yerlərdə məscidlər tikdirərək müəllimlər təyin etdi. Bu səfəri başa vuran Mahmud 1005-ci ildə (hicri 395) Qəznəyə döndü.

Sultan Mamud dördüncü (1006) Hind səfərini dinsiz biri olan Əbul-Futuh Davuda qarşı etdi ki, bununla sünni müsəlmanları qorusun, İslamı yaysın və bütpərəstliyi aradan qaldırsın. 1006-cı ildə (hicri 396) Pəncab racası Anandpalı məğlub edərək Multana daxil olan Sultan Mahmud Əbul-Futuh Davudu məğlub etdi, tərəfdarlarını cəzalandırdı, onlarla illik vergi vermək şərti ilə müqavilə bağladı. Caypalın müsəlmanlığı qəbul edən qohumu Suhpalı da Multana vali təyin edərək Qəznəyə qayıtdı. Çünki Qaraxanlı hökmdarı Nəsr ibn Əli Xorasana daxil olmuşdu.

Beşinci Hind səfəri (1008) Multan valisi Suhpala qarşı edilmişdir. Sultan Mahmudun Qaraxanlılar ilə mübarizə aparmasından istifadə edən Suhpal İslam dinindən çıxaraq yenidən hinduizmi qəbul etmişdi. Bundan xəbər tutan Sultan Mahmud 1008-ci ildə (hicri 398) Hindistana gedərək Suhpalı məğlub etdi. Bunun ardınca Qərmətiləri də cəzalandıran Sultan Mahmud Qəznəyə döndü.[705]

Altıncı Hind səfəri 1008-1009: Pəncab racası Anandpal İslamiyyətin Hindistanda yayılmasından və Pəncabın mühasirəsindən narahat olaraq bir çox Hind racası ilə razılaşaraq 1008-ci ilin sonlarında Mahmudun üzərinə getdilər. Bundan xəbər tutan Mahmud həmin ilin dekabrında Qəznədən çıxdı. İndus ça-

[704] Nuru Ünlü, İslam Tarihi, I cild, səh-374.
[705] Tarixi ibn Əsir, IX cild, səh-206-207.

yını keçərək Vayhənd yaxınlığındakı ovalıqda Hind ordusu ilə qarşılaşdı. Bu döyüşdə hindliləri məğlub edən müsəlmanlar Pəncab daxil olmaqla bir çox yerləri müqavimətsiz ələ keçirdilər. Üç günlük mühasirədən sonra Mahmud Naqarkut məbədini də ələ keçirdi. Qalaya əsgər və komandan təyin edən Mahmud 1009-cu ildə (hicri 399) Qəznəyə döndü.

Yeddinci Hind səfəri 1009-cu il: Narayana səfər edən Mahmud buranın racasını məğlub edərək şəhəri aldı və xeyli qənimətlə Qəznəyə döndü. Raca elçilər göndərərək "cizyə vermək, fidyə vermək və əlli fil ilə iki min əsgəri yardıma göndərməyə" razı olduğunu bildirdi. Sultan Mahmudda bu təklifləri qəbul etdi və bununla da Hindistanla Xorasan arasında ticarət başladı.

Səkkizinci Hind səfəri 1010: 1006-cı ildə edilən səfərdə Sultan Mahmud Multanın uzaq bölgələrini ələ keçirə bilmədiyi üçün 1010-cu ildə (hicri 401) yenidən Multan üzərinə hərəkət etdi. Heç bir müqavimətə rast gəlmədən bütün Multanı ələ keçirən Mahmud Əbul-Futuhu Qəznəyə gətirərək həbs etdirdi. Gurək qalasında həbs olunan Əbul-Futuh orada öldü.

Doqquzuncu Hind səfəri 1013-1014: Sultan Mahmud bu səfərini Nardana bölgəsinə etmişdi. Buranın racası Triloçanpal olsada hakimiyyət oğlu Nidarın əlində idi. Nidar Mahmuda itaət etməyərək ona qarşı çıxdı. 1013-cü ildə Sultan Mahmud bu racalarının üzərinə getsədə qışın yaxınlaşması ilə əlaqədar olaraq geri qayıtmışdır. Yenidən 1014-cü ildə (hicri 404) Nardana gələn Sultan Mahmud ata ilə oğlu məğlub edərək Nardanı ələ keçirdikdən sonra Kəşmir üzərinə gedərək xeyli qənimət ələ keçirdi. Bu qələbədən sonra İslamiyyət Hindistanda yayılmağa başladı.[706]

Onuncu Hind səfəri 1014: Sultan Mahmud bu səfəri Hindlilər tərəfindən müqəddəs sayılan, içində bir çox məbəd və büt olan Tanesar şəhərinə etmişdir. Qarşısına çıxan bütün orduları məğlub edən Sultan Mahmud şəhəri ələ keçirərək talan etdi və bütləri sındırdı.

On birinci Hind səfəri 1014: Sultan Mahmud bu səfəri Kəşmir racasını cəzalandırmaq üçün etmişdi. Çünki o, doqquzuncu Hind səfərində Nardan racalarına kömək etmişdi.

On ikinci Hind səfəri: Kəşmiri, Sirsavanı, Baranı və Mahuranı ələ keçirən Sultan Mahmud zəngin bir ölkə olan Kanavc üzərinə hərəkət edərək şəhəri ələ keçirdi. Sultan Mahmud bu səfərdə üç milyon dirhəm pul, 55 min əsir, 350 fil olaraq qənimət ələ keçirdi.

Sultan Mahmud on üçüncü Hind səfərini ona qarşı birləşən racalara qarşı etmiş və bir çox racanı məğlub edərək yeni bölgələr ələ keçirmişdir.

On dördüncü Hind səfəri: Kəşmir üzərinə gedən Sultan Mahmud Laxkot qalasını ələ keçirmədən geri dönmüşdür.

---

[706]Mərcil, Qəznəlilər Dövləti Tarixi, səh-18-22.

On beşinci Hind səfəri: On üçüncü Hind səfərində itaət etməyən racalar üzərinə on beşinci Hind səfərini edən Sultan Mahmud onları itaət altına almışdır.[707]

On altıncı Hind səfəri 1025-1026: Sultan Mahmudun Hindistana etdiyi ən mühüm səfərlərindən biri də Somxat səfəridir. Bura Hindistanın qərb sahilindəki Katxi yarımadasında yerləşən bir şəhərdir. Burada Sivaya aid müqəddəs bir məbəd və büt var idi. Bu bütə on min kənd vəqf edilmişdir. Buradakı büt bütün bütlərin böyüyü idi.

Sultan Mahmud bu inancı yıxmaq və qənimətləri ələ keçirmək üçün yola çıxdı. Əvvəlcə Multana, oradan Tar çölünü keçərək 1026-cı ildə Somxata çatır. Üç günlük mühasirədən sonra şəhəri ələ keçirən Sultan Mahmud məbədin üzərində azan oxutdurduqdan sonra bütü dörd yerə bölüb Qəznəyə götürür. Ələ keçirdiyi qənimətləri iki yüz min at və qatıra yükləyərək 1026-cı ilin noyabrında Qəznəyə döndü.

Sultan Mahmud on yeddinci Hind səfərini Somxatdan qayıdarkən yol kəsən Çatlar qövmünə qarşı edərək onları bitərəf etdi.[708]

Sultan Mahmud və Qaraxanlılar

Qaraxanlı əmiri Nəsr ibn Əlinin Buxarını ələ keçirib Samani dövlətinə son qoymasından sonra Ceyhun çayı sərhəd olmaqla bu iki dövlət arasında dostluq əlaqələri qurulmuş, hətta Sultan Mahmud Nəsr Xanın qızı ilə evlənmişdir. Lakin çox keçmədən 1006-cı ildə Mahmudun Multan səfərində olmasından istifadə edən Nəsr Xan Xorasanı işğal etmişdi.

Bundan xəbər tutan Sultan Mahmud dərhal Multan səfərindən qayıdıb Qaraxanlı ordusunu məğlub edərək Xorasanı geri almışdır.

Lakin Xorasandan əl çəkmək istəməyən Nəsr Xan Hotan hakimi Yusif Qadir Xandan aldığı ordu ilə birləşərək Xorasana doğru hərəkət etdi. İki ordu Bəlx yaxınlığındakı Qatar ovalığında qarşılaşdı. Miladi 1008-ci ildə (hicri 398) baş verən döyüşdə Qəznə ordusu qalib gəldi. 1013-cü ildə (hicri 403) Nəsr ibn Əlinin ölümündən sonra onun yerini tutan Əbu Mənsur Arslan Xan Qəznəlilərlə sülh bağladı.

Daxili qalmaqalları yoluna qoyan Qaraxanlı hökmdarları Yusif Qadir Xan ilə Mənsur Xorasanı ələ keçirmək üçün yenidən ordu toplasalar da bu ordu da Bəlx yaxınlığında 1019-cu ildə (hicri 409) Sultan Mahmud tərəfindən məğlub edildi. Eyni ildə Xarəzmə doğru hərəkət edərək paytaxt Gurgənci ələ keçirib Məmunilər xənadanına son qoydu.

Həyatının böyük bir hissəsini döyüş meydanlarında keçirən Sultan Mahmud 1030-cu ildə (hicri 421) Qəznədə vəfat etmişdir.

Sultan Mahmud vəfatından qabaq Qəznə dövlətini iki oğlu Məhəmməd ilə Məsud arasında bölmüşdü. Qəznə, Xorasan, Bəlx və şimali Hindistanı Məhəm-

[707]Mərcil, Qəznəlilər Dövləti Tarixi. Səh-22-26.
[708]Kafəs oğlu, Mahmud Qəznəvi, İA, VII cild, səh-174-180.

mədə, Rey, İsfəhan və Cibalı isə Məsuda vermişdi. Lakin Məsudun bununla razılaşmaması üzrə bütün ölkəni oğlu Məhəmmədə buraxmışdı.

Sultan Mahmudun ölümündən sonra qardaşı Məhəmmədin hökmdarlığı ilə razılaşmayan Məsud 1030-cu ildə (hicri 421) onu taxtdan salaraq Qəznə taxtını ələ keçirdi.

Sultan Məsud 1030-1040 (hicri 421-432)

Məsudun taxta çıxmasından sonra Məkran və Kirman fəth edildi. Bu arada Əli Təkinin Səlcuqlulardan aldığı dəstəklə Qəznəli torpaqlarına etdiyi hücumun qarşısını Altıntaş almağa çalışırdı. Məsudun apardığı yalnış siyasət ordunu birbirinə vurdu, hətta türkmənlərdə hökumətə qarşı baş qaldırdı. Xarəzmşah Harun müstəqilliyini elan etdi. Sultan Mahmud dövründə itaətə alınan Yəbqulu Türkmənlər düzənliyə enib kəndləri talamağa başladılar.

Bütün bunlardan narazı olan xalq 1040-cı ildə (hicri 432) üsyan edərək Məsudu taxtdan uzaqlaşdırıb yerinə ikinci dəfə Məhəmmədi gətirdilər.

Bu vaxt atasının taxtdan uzaqlaşdırııb öldürüldüyünü xəbər alan Mevdud vəzirinin tövsiyəsi ilə Qəznəni ələ keçirmək üçün hərəkət etdi. İki ordu Kabul çayı sahilində Cəlalabadda qarşılaşdı. 1041-ci ildə (hicri 432) baş verən döyüşdə qalib gələn Mevdud Qəznə taxtını ələ keçirdi.

Sultan Mevdud 1041-1049 (hicri 432-441)

Hakimiyyətdə özünə rəqib buraxmaq istəməyən Mevdud, Hindistanda vali olan qardaşı Məcdudu da vəzifəsindən kənarlaşdırdı. Şimalda Səlcuqlularla doqquz il mübarizə apararaq onların Qəznəyə girməsinə mane oldu.

Hindistanda da mərkəzi hakimiyyətin zəifləməsi ilə komandanlar arasında rəqabət başladı. Bundan istifadə edən bəzi racalar hərəkətə keçib bir çox yerləri geri aldılar. 1049-cu ilin sonunda (hicri 441) Xorasan və Sicistan üzərinə səfər hazırlığında olan Mevdud vəfat etdi. Onun ölümü ilə Qəznəlilər dövlətində taxt uğrunda mübarizə başladı və on il davam edən (1049-1059) müharibənin sonunda İbrahim ibn Məsud taxtı ələ keçirdi.

Sultan İbrahim ibn Məsud 1059-1099 (hicri 451-492)

İbrahim ibn Məsudun Səlcuqlularla bağladığı müqaviləyə əsasən Hindiquş dağları iki dövlət arasında sərhəd olmuşdur.

Daha sonra Hindistana səfərlər edən İbrahim ibn Məsud 1079-cu ildə (hicri 472) Cənubi Pəncab bölgəsindəki Acudxan qalasını, ardındanda şimal-şərqi Pəncabı ələ keçirdikdən sonra 1080-ci ildə (hicri 472) Qəznəyə qayıtdı. Onun dövründə Qəznə xoşbəxt günlərini yaşadı. Adil bir hökmdar olan İbrahim ibn Məsud qırx illik hakimiyyətdən sonra 1099-cu ildə (hicri 492) vəfat etmişdir.

İbrahimin vəfatından sonra taxta oğlu III Məsud (1099-1115/hicri 492-508) çıxdı. Səlcuqlu hökmdarı Sultan Səncərlə dostluq əlaqələrini davam etdirən III Məsud 1115-ci ildə Hindistana səfər edərkən vəfat etdi. Onun ölümündən sonra

yerini oğlu Şirzad (1115-1116) tutdu. Lakin bir il sonra qardaşını öldürən Arslanşah (1116-1118) Qəznə taxtını ələ keçirdi. III Məsudun digər oğlu Bəhramşah (1118-1157) Səlcuq hökmdarı Sultan Səncərə sığınaraq, onun köməyi ilə Arslanşahı öldürüb hakimiyyəti ələ keçirdi.

Qəznə dövlətinin daxilində baş verən bu qalmaqallar dövləti xeyli zəiflətdi və zəifləmə nəticəsində Qəznəlilərə tabe olan Gurlular (1187-1206) öz müstəqilliklərini elan etdilər. Gurlu hökmdarı Əlaəddin Hüseyn 1151-ci ildə (hicri 546) Qəznəni ələ keçirərək əhalini qılıncdan keçirdi. 1157-ci ildə Bəhramşahın ölümündən sonra taxta çıxan Xusrəv-Şah (1157-1160) Qəznəni oğuzlara buraxıb Lahora getdi və bir müddət sonra 1160-cı ildə (hicri 555) vəfat etdi. Taxtı ələ keçirən son Qəznə hökmdarı Xusrəv Məlik (1160-1187) heç bir şeylə yadda qalmamışdır. 1173-cü ildə (hicri 568) Qəznəni alan Gurlu hökmdar Muizud-Din Məhəmməd Hindistanın bir çox yerlərini ələ keçirərək Lahoru mühasirəyə aldı. 1181-ci ildə Xusrəv Məlik Gurlulara tabe olsa da Muizzud-Din onu ələ keçirib 1186-cı ildə (hicri 582) Gura göndərərək Qəznəvi dövlətinə son qoydu.

Qəznəli xənadanında xənadan və ordu dili Türk dili olmuşdur. Ədəbiyyat və dövlət işlərində fars dili işlədilirdi. Dövlətin rəsmi dili isə ərəb dili idi.

Qəznəlilər miladi 963-cü ildən 999-cu ilə qədər Samanilərə tabe olmuş, 999-1118-ci illər (118 il) arasında isə müstəqil olmuşlar. 1118-1157-ci illərdə (39 il) Səlcuqlu hökmdarı Sultan Səncərə tabe olmuşlar. 1157-1187-ci illər arasındakı son otuz illərini müstəqil keçirsələr də bu dövrdə də Gurlular tərəfindən təzyiqə məruz qalaraq bir çox torpaqlarını itirmişlər. 1163-cü ildə Qəznə, 1176-cı ildə Multan, 1180-cı ildə isə Pişəvəri itirərək Gurlulara tabe olmuşlar.

Əfqanistan, Türkmənistan, Xəzrəm, İranda Kirman, Xorasan, Semnan-Damgan, Larıstan, İsfəhan, Rey, Həmədan, Yəzd, Qəzvin, Kaşan, Mazandaran, Əştər-Abad, Ceylan, Hindistanda Sind, Belucistan, şərqi və qərbi Pəncab, Racastan, Malva, Patanistan, Gucerat, Dehli, Aqra, Ud və Allahabad Qəznə dövlətinin tərkibində idi. Qəznəli Mahmud dövründə dünyanın ən qüdrətli dövləti olan imperatorluq 1040-cı ildə baş verən Dəndənakən müharibəsindən sonra bunu Səlcuqlulara buraxmış, bütün İran və Türkistan torpaqlarını Səlcuqlara vermişlər.

Qəznəli hökdarları və hakimiyyət müddətləri:

1) Alp Təkin (955-963)
2) Əbu İshaq İbrahim (963-966)
3) Bilgə Təkin (966-975)
4) Piri Təkin (975-977)
5) Səbuq Təkin (977-997)
6) İsmail (997-998)
7) Sultan Mahmud (998-1030))
8) Məhəmməd (1030; 1040-1041)
9) I Məsud (1030-1040)

10) Məvdud (1041-1049)
11) II Məsud (1049)
12) Əbul-Həsən Əli (1049)
13) Əbdürrəşid (1049-1052)
14) Fərruxzad (1052-1059)
15) Sultan İbrahim (1059-1099)
16) III Məsud (1099-1115)
17) Şirzad (1115-1116)
18) Arslanşah (1116-1118)
19) Bəhramşah (1118-1157)
20) Xusrəv-Şah (1157-1160)
21) Xusrəv-Məlik (1160-1187).[709]

[709]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-825-826.

IX FƏSİL

ƏYYUBİLƏR DÖVLƏTİ

hicri 567-648/miladi 1171-1250

Misirdə Fatimi dövlətinin süqutundan sonra onların yerini xənadan olaraq Əyyubilər tutdu. Xənadanın hansı irqdən olması ixtilaflıdır. Mənşəcə kürd olmaları həqiqətə daha yaxındır. Əyyubilər, Zəngilərin yəni Mosul atabəylərinin zabitləri və sərdarları olaraq tarix səhnəsinə çıxmışlar. İlk Əyyubilər və xənadanın bəzi qolları Türkləşmişdir. Əsasən bir türkmən dövlətinin (Zəngilərin) xidmətində məşhurlaşmışlar. Ancaq Misirdə xənadanlıq qurunca, ələ keçirdikləri ölkələrdə Türk Səlsuqlu sistemini tətbiq etməklə bərabər ərəbləşmişlər. Hətta heç türkcə bilməyən Əyyubi xanlarıda yetişmişdir. Ərəb dili və mədəniyyəti olmuş, sadəcə dövlət, ordu və saray təşkilatında Türk sistemi tətbiq edilmişdir. Əyyubilərin məzhəbinin şafei olması, ailə mənşəyinin Türk olmadığını, Türk dövlətlərinin zabitləri olaraq sonradan türkləşmiş olduqlarını ortaya qoyan bir dəlildir.[710]

Səlahəddin Əyyubinin atası Nəcməddin Əyyuba nisbət edilən Əyyubilər miladi XII əsrdə İraqa gəlmiş, İraq Səlcuqlarının tanınmış əmirlərindən olan Bəhruz əl-Xadinin xidmətinə girib Təkritdə vali olmuşlar. Həmin vaxtlarda 1138-ci ildə (hicri 532) Səlahəddin Yusif dünyaya gəlmişdir. Daha sonra Mosula gedən Əyyubilər zəngilərin hizmətinə girmişlər. Bir il sonra 1139-cu ildə (hicri 534) Nəcməddin Əyyub Zəngi hökmdarı Nurəddin tərəfindən Bəəlbəkə vali olaraq təyin edilmiş və bundan sonra ailənin şöhrəti yüksəlməyə başlamışdır. Nəcməddin Əyyubun qardaşı Əsəduddin Şirkuh isə Nurəddin Mahmudun ordu komandanı təyin edilmişdir. Bu hadisədən sonra Əyyubun oğlanları və yaxınları əmir səviyyəsinə qədər yüksəldilər. Əsəduddin Şirkuhun miladi 1164-1167-ci illərdə (hicri 559-562) Misirə etdiyi üç səfər Səlahəddinə şöhrət qazandıraraq tarix səhnəsinə çıxardı.

Bu arada səlibçilərin Misirə hücum etməsi ilə Fatimi xəlifəsi əl-Azid (1160-1171) və vəziri Şavər Zəngi hökmdarı Nurəddin Mahmuddan yardım istədi. Buna əsasən Nurəddin yeddi min nəfərlik ordunu Əsəduddin Şirkuhun başçılığı ilə Misirə göndərdi. Miladi 1168-ci ildə (hicri 564) göndərilən bu orduda Səlahəddin Əyyubda iştirak edirdi. 1169-cu ildə Misirə daxil olan bu ordu Fatimi vəziri Şavəri öldürərək Əsəduddin Şirkuhu Fatimi vəziri təyin etdi. Əsəduddin Şirkuh

[710]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-331-332.

vəzir olsa da onun vəzifəsini qardaşı oğlu Səlahəddin Əyyub idarə edirdi. Qısa müddət ərzində Misirdə hakimiyyət sünnilərin əlinə keçdi. 1169-cu ildə vəzir Şirkuhun ölümündən sonra onun yerini Səlahəddin Əyyub tutdu.

Bunun ardınca Dumyata gələn xaçlıların Səlahəddin Əyyub tərəfindən məğlub edilməsi onun şöhrətini daha da artırdı. Bundan istifadə edən Səlahəddin Fatimi xəlifəsi əl-Azid ilə bəzi qiyamçı əsgərlərin də imkanlarını əllərindən alaraq şiə azanını qadağan etməklə yanaşı Fatimi qazilərinin yerinə sünni qazilərini təyin etdi. Bunun ardınca Zəngi hökmdarı Nurəddin Mahmuddan gələn məktuba əsasən miladi 1171-ci ildə (hicri 566) Abbasi xəlifəsinin adına xütbə oxunaraq Fatimi dövlətinə son qoyuldu. Eyni ildə Səlahəddin Əyyubi Əyyubilər dövlətinin əsasını qoydu.

Səlahəddin Əyyubinin ən böyük əməli xaçlıların əlində olan müsəlman torpaqlarını geri qaytarması olmuşdur. Misiri aldıqdan sonra Suriya, Cəzirə və Şimali İraqda sakitliyi bərpa edən Səlahəddin Əyyubi xaçlılarla mübarizəyə başladı. Səlahəddinin Dəməşqdə olmasından istifadə edən xaçlılar Məhazət Beyt-əl-Əhzan yaxınlığında toplanaraq kral IV Boudinin başçılığ ilə hücuma keçmək istəsədələr 1179-cu ildə (hicri 574) Fərrux-Şah tərəfindən Təl əl-Hərra yaxınlığında məğlub edildilər. Xaçlıların geri çəkilməsindən istifadə edən Fərrux-Şah Beyt əl-Əhzan qalasını yandıraraq müsəlman əsirləri azad etdi.

Miladi 1182-ci ildə Suriyaya gələn Səlahəddin Əyyubi Təbəriyyə və Beysan səfəri ilə Beysan, Cinin və Laçunu ələ keçirərək talan etdi. Məğlub olan xaçlılar Kəvkəb qalasına sığındı. Daha sonra Beyrutu dörd gün mühasirədə saxlayan Səlahəddin Əyyubi geri qayıtdı. Fərrux-Şahın ölümü və Səlahəddinin Mosul səfərində olmasından istifadə edən xaçlılar Dəməşq və Səvad bölgəsinə hücum etdilər. Buna cavab olaraq Cəzirə və Hələbi ələ keçirən Səlahəddin Əyyubi hücumlarını davam etdirərək Kərək şəhərini də tutdu.

Xəttin döyüşü və Qüdsün azad edilməsi (1187)

Səlahəddin Əyyubinin Diyarbəkr, əl-Cəzirə, Mosul və Şamdakı tərəfdarlarından yardım istəməsi ilə xaçlılar da Raymon və Qüds kralı Guy de Lusiqnanın əmri altında toplanmağa başladılar. Səlahəddinin Təbəriyyə tərəfə gəldiyini öyrənən xaçlılar da oraya doğru hərəkət etdilər. Baş verən döyüşdə məğlub olan xaçlılar kral Guy de Lusiqna ilə birlikdə Xəttin təpəsinə sığındılar. Lakin burada da məğlub olan xaçlıların bəziləri qətl edildi, qalanları isə əsir götürüldü. Bundan istifadə edən Səlahəddin hücumlarını davam etdirərək 1187-ci ildə (hicri 583) Təbəriyyəni və Aqqanı fəth etdi. Ardından Nasıra, Xayfa, Nablus, Cinin, Sayda və Beyrut şəhərlərini ələ keçirən Səlahəddin Qüds krallığına aid olan bütün yerləri ələ keçirdi. Daha sonra Əsqəlan, Yafa, Rəmlə, Beyti-Ləxm, Qəzzə və Darumu ələ keçirən Səlahəddin 1187-ci ildə Qüdsü də fəth etdi. Qüdsün fəthindən sonra Sur xaric olmaqla bütün Fələstin xaçlılardan təmizləndi. Almaniya imperatoru Fredrix Barbarossa, Fransa kralı Filipe Aqusto və İngiltərə kralı Riçardın başçılığı ilə təşkil olunmuş III xaçlı səfəri də heç bir nəticə əl-

də etmədən Fələstini tərk etdi. Bu məğlubiyyətdən sonra xaçlılar Aqqa şəhərini mühasirəyə aldılar. İki illik mühasirədən sonra 1191-ci ildə şəhər xaçlılara təslim edilmişdir.

Demək olar ki, bütün ömrünü hərb meydanlarında keçirən Səlahəddin Əyyubi məmləkəti oğlanları və sərkərdələrinə buraxaraq 1193-cü ildə (hicri 589) Dəməşqdə vəfat etmişdir.

Onun vəfatından sonra oğlanlarının bir-biri ilə hakimiyyət uğrunda mübarizə aparmasından istifadə edən Səlahəddinin qardaşı Məlik Adil 1200-cü ildə ölkəyə sahib oldu. 1218-ci ildə Adilin ölümündən sonra Əyyubilər sürətlə zəifləməyə başladı. Nəticədə 1250-ci ildə (hicri 648) sonuncu Əyyubi hökmdarı Turan-Şahın Məmlüklər tərəfindən öldürülməsi ilə Əyyubi xənadanına son qoyuldu.

Təxminən səksən il hakimlik edən Əyyubi xənadını on iki məlikliyə bölünür:

1. Misir məlikliyi – 1171-1250

2. Şam məlikliyi – 1193-1260. 1240-1249-cu illərdə Anadolu Səlcuqlarına, 1250-1260-cı iilərdə isə Məmlükləri tabe olmuşlar.

3. Hələb məlikliyi – 1193-1260. 1216-1249-cu illərdə Anadolu Səlcuqlarına, 1250-1260-cı illərdə Məmlüklərə tabe olan Hələbi 1260-cı ildə Elxanilər ələ keçirmişdir.

4. Bəəlbəkk məlikliyi – 1179-1245

5. Kərək məlikliyi – 1188-1263. 1250-1263-cü illərdə Məmlüklərə tabe olmuşlur.

6. Sincar və ya Meyyafariqin məlikliyi – 1200-1231; 1244-1259. 1231-1244-cü illərdə Monqollara, 1250-1259-cü illərdə Məmlüklərə tabe olmuş və 1259-cu ildə isə Elxanilərə tabe edilmişdir.

7. Xısn-Keyfa və Amid məlikliyi-1232-1524. Ən son ortadan qaldırılan Əyyubi əmirliyidir. 1232-1249-cu illərdə Anadolu Səlcuqlarına, 1250-1465-cü illər arasında Məmlüklərə, 1465-1500-cü illərdə Ağqoyunlulara, 1515-1524 cü illərdə isə Osmanlılara tabe olmuşlar. Xısn-Keyfa bugun ki, Həsənkefy, Amid isə Diyarbəkr şəhəridir.

8. Yəmən məlikliyi – 1173-1229

9. Busrə məlikliyi – 1218-1246

10. Xama məlikliyi – 1178-1299; 1310-1341. 1250-ci ildən etibarən Məmlüklərə tabe olmuşlar.

11. Xums məlikliyi – 1178-1263. 1250-ci ildən etbarən Məmlüklərə tabe olmuşlar.

12. Banyas və Sübeybə məlikliyi – 1212-1260. 1250-ci ildən etibarən Məmlüklərə tabe edilmişdir.

Əyyubi xənadanının hakim olduğu ölkələr bunlar olmuşdur: Misir, Liviya, Cənubi Tunis, Nubya, Yəmən, Hicaz, Ürdün, Fələstin, Livan, Suriya, Cənub-şərqi Anadolu.

Misir sultanları (1171-1254):
1. Məlikun – Nasir Əbul-Müzəffər Səlahəddin Yusif (1171-1193)
2. Məlikul – Əziz Əbul-Fəth İmaduddin Usman (1193-1198)
3. Məlikul – Mənsur Nasiruddin Məhəmməd (1198-1200))
4. Məlikul – Adil I Seyfəddin Əbu-Bəkr Əhməd (1200-1218)
5. Məlikul – Kamil Nasiruddin Əbul-Məali Məhəmməd (1218-1238)
6. Məlikul – Adil II Seyfəddin Əbu-Bəkr (1238-1240)
7. Məlikus – Saleh Nəcməddin Əyyub (1240-1249)
8. Məlikul – Miazzam Qiyasəddin Turan-Şah (1249-1250)
9. Xanım Şəcərüd – Dür (1250)
10. Məlikul – Əşrəf Müzəffəriddin Musa (120-1254).[711]

Şam məlikləri (1193-1250):
1. Məlikul – Əfzəl Əbul-Həsən Nurəddin Əli (1193-1196)
2. Məlikul – Adil I Seyfəddin Əbu-Bəkr Əhməd (1196-1218)
3. Məlikul – Müəzzəm Şərəfid-Dür İsa (1218-1227)
4. Məlikün – Nasir Səlahəddin (1227-1229)
5. Məlikul – Əşrəf Müzəffərid-Dür Əbul-Fəth Musa (1229-1237)
6. Məlikus – Saleh İmaduddin İsmail (1237-1238)
7. Məlikul – Kamil Nasiruddin Əbul-Məali Məhəmməd (1238)
8. Məlikul – Adil II Seyfəddin Əbu-Bəkr (1238-1240)
9. Məlikus – Saleh Nəcməddin Əyyub (1240-1249)
10. Məlikul – Müazzəm Qiyasəddin Turan-Şah (1249-1250).[712]

Hələb məlikləri (1193-1260):
1. Məlikuz – Zahir Qiyasəddin Əbu-Mənsur Əbul-Fəth Qaazi (1193-1216)
2. Məlikul – Əziz Qiyasəddin Əbil-Müzəffər Məhəmməd (1216-1236)
3. Məlkun – Nasir Əbul-Müzəffər Səlahəddin Yusif (1236-1260).[713]

Bəəlbəkk məlikləri (1139-1245):
1. Əbuş – Şükr Nəcməddin Əyyub (1139-1149)
2. Məlikul – Müəzzəm Şəmsid-Dövlə Fəxruddinturan-Şah (1173-1179)
3. İzzuddin Fərrux – Şah (1179-1182)
4. Məlikul – Mücahid Məcduddin Bəhram Şah (1182-1230)
5. Məlikul – Əşrəf Əbul-Fəth Müzəffəriddin Musa (1230-1237)
6. Məlikus – Saleh İmaduddin İsmail (1237-1245).[714]

---

[711]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-334.
[712]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-334.
[713]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-335.
[714]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-335.

Kərək məlikləri (1188-1263):
1. Məlikul – Adil I Seyfəddin Əbu-Bəkr Əhməd (1188-1196)
2. Məlikul – Müəzzəm Şərəfid-Dür İsa (1196-1218)
3. Məlikun – Nasir Səlahəddin (1218-1239)
4. Məlikul – Muğis (1239-1263).[715]

Meyyafariqin məlikləri (1200-1259):
1. Məlikul – Əşhəd Nəcməddin Əyyub (1200-1210)
2. Məlikul – Əşrəf Əbul-Fəth Müzəffəriddin Musa (1210-1220)
3. Məlikul – Müzəffər Şəhabəddin Qaazi (1220-1231)
4. Məlikul – Kamil Nasiruddin Əbul-Məali (1244-1259).[716]

Xısn-Keyfa məlikləri (1232-1524):
1. Məlikus – Saleh Nəcməddin Əyyub (1232-1239)
2. Məlikul – Müəzzəm Qiyasəddin Turan-Şah (1239-1249)
3. Məlikul – Müvəhhid Təqiyyiddin Abdullah (1249-1283)
4. Məlikul – Kamil Əbu-Bəkr I Məhəmməd (1283)
5. Məlikul – Adil Muciriddin Məhəmməd
6. Məlikul – Adil Şəhabəddin Qaazi
7. Məlikus – Saleh II Əbu-Bəkr (1378)
8. Məlikul – Adil Fəxruddin I Süleyman (1378)
9. Məlikul – Əşrəf Şərəfuddin I Əhməd (1433)
10. Məlikus – Saleh I Səlahəddin Xəlil (1433-1452)
11. Məlikun – Nasir (1452)
12. Məlikul – Kamil II Əhməd (1452)
13. Məlikul – Adil Xələf (1462)
14. Məlik II Xəlil
15. Məlik II Süleyman (1524)
16. Məlik Hüseyn (1524).[717]

Yəmən məlikləri (1174-1232):
1. Məlikul – Müəzzəm Şəmsud-Dövlə Turan-Şah (1174-1180)
2. Məlikul – Əziz Seyful-İslam Əbul-Fəvaris (1180-1197)
3. Məlikul – Muizz Muizziddin İsmail (1197-1202)
4. Məlikun – Nasir Əyyub (1202-1214)
5. Məlikul – Müzəffər Süleyman Sufi (1214-1215)
6. Məlikul – Məsud Səlahəddin Yusif (1215-1229; 1229-1232).[718]

---

[715]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-335.
[716]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-335.
[717]Yılmaz Öztuna, İslam Devletleri, I cild, səh-335, 336.
[718]Yılmaz Öztuna, İslam Devletleri, I cild, səh-336.

Busrə məlikləri (1218-1246):
1. Məlikul – Muşənnər Müzəffəriddin (1218-1230)
2. Məlikus – Saleh İmaduddin İsmail (1230-1246).[719]

Xama məlikləri (1178-1341):
1. Məlikul – Müzəffər I Təqiyyiddin Şahan-Şah (1178-1191)
2. Məlikul – Mənsur I Nasiruddin Əbul-Məali Məhəmməd (1191-1221)
3. Məlikul – Nasir Səlahəddin Kılıc Arslan (1221-1229)
4. Məlikul – Müzəffər II Təqiyiddin Mahmud (1229-1244)
5. Məlikul – Mənsur II Nasiruddin Məhəmməd (1244-1284)
6. Məlikul – Müzəffər III Təqiyyiddin Mahmud (1284-1299)
7. Məlikul – Müəyyəd Əbul-Fida İsmail (1310-1331)
8. Məlikul – Əfzəl Nasiruddin Məhəmməd (1331-1341).[720]

Xums məlikləri (1178-1263):
1. Məlikul – Qahir Nasiruddin Məhəmməd (1178-1186)
2. Məlikul – Mücahid Səlahəddin Şirkuh (1186-1240)
3. Məlikul – Mənsur Nasiruddin İbrahim (1240-1246)
4. Məlikul – Əşrəf Müzəffəriddin Əbul-Fəth Musa (1246-1263).[721]

Banyas məlikləri (1212-1260):
1. Məlikul – Əziz İmaduddin Usman (1212-1233)
2. Məlikuz – Zahir Qaazi (1233)
3. Məlikus – Səid Fəxruddin əl-Həsən (1233-1260).[722]

[719]Yılmaz Öztuna, İslam Devletleri, I cild, səh-336.
[720]Yılmaz Öztuna, İslam Devletlei, I cild, səh-336.
[721]Yılmaz Öztuna, İslam Devletleri, I cild, səh-336.
[722]Yılmaz Öztuna, İslam Devletleri, I cild, səh-336.

X FƏSİL

BÖYÜK SƏLCUQLU İMPERATORLUĞU (1038-1157)

Səlcuqlular, Əməvilər və Abbasilərdən sonra İslam tarixində ikinci böyük imperatorluq hesab edilir. Əhli-Sünnənin Hənəfi məzhəbinə malik olan Səlcuqlar, bu məzhəbi daha da inkişaf etdirmişlər. Dilləri türk dili olmuşdur. Rəsmi yazışmalarda ərəb dilindən, ədəbi dil olaraq isə daha çox Fars dilindən istifadə edilirdi.

İmperatorluq şahzadələrinə "məlik" (kral), ölkə hökmdarlarına "sultan" (böyük kral), Səlcuqlu sultanlarının tabe olduqları xanədanın başçısına isə "sultanul-azam" (ən böyük imperator) deyilirdi. Sultan və sultanul-azam arasında "sultanul-müəzzəm" (böyük imperator) ləqəbi var idi. 1037-1043-cü illər arasında Nişapur, 1043-1074-cü illər arasında isə Rey şəhəri Səlcuqların paytaxtı olmuşdur. Alp Arslanın ölümündən sonra oğlu Məlik Şah və onun oğlanları Bərqyəruq və Məhəmməd Tapar zamanında 1074-1118-ci illərdə İsfəhan şəhəri Səlcuqların paytaxtı olmuşdur. Məlik Şahın kiçik oğlu Sultan Səncər isə 1118-1157-ci illərdə Mərvi paytaxt elan etmişdir. Anadolu Səlcuqlularının paytaxtı isə 1074-cü ildən 1097-ci ilə qədər İznik şəhəri olmuşdur. 1097-ci ildə İznikin Bizanslılar tərəfindən işğalından sonra paytaxt Konyaya köçürülmüşdür.

Kirman Səlcuqlarının (1041-1187) paytaxtı Bərdəsir, Suriya Səlcuqlarının (1078-1122) paytaxtı Şam, İraq Səlcuqlarının (1118-1194) paytaxtı əvvəlcə İsfəhan, sonra isə Həmədan olmuşdur.

Səlcuqlu dövləti Egey dənizi ilə Çin, Qafqaz ilə Hind okeanı, Orta Hindistan ilə Qırmızı dəniz arasında yerləşirdi.

Yaxın və Orta şərqin ən qüdrətli dövləti olan Səlcuq imperiyasının yaranması səlcuqların adı ilə bağlıdır. Səlcuqlar oğuzların Üç ox qolunun Qınıq boyundan idilər. Oğuzlar X əsrdə Xəzər dənizinin şərqindən Sır-Dəryanın orta bölgələrinə qədər uzanan ərazilərdə yaşayırdılar. Oğuz dövlətinin başında Yəbqu ünvanını daşıyan hökmdar dayanırdı və Oğuzlar bu dövlətə tabe idilər.[723] Səlcuğun atası Dukaq Oğuz dövlətində ən nüfuzlu sərkərdələrdən biri idi. Dukaqın ölümündən sonra oğlu Səlcuq gənc olmasına baxmayaraq Oğuz dövlətinin ordu komandanı təyin edildi. Bu arada müsəlman olmayan Səlcuq 960-cı ildə Oğuz türkləri ilə birlikdə dövlətin paytaxtı Yeni-kənd şəhərindən müsəlman şəhəri olan Cəndə köçdü.[724] Yeni dindən təsirlənən və müsəlman olmadıqları

[723] Köymen, Büyük Selçuklu İmperatorluğunun Kuruluş Devri, səh-2-5.
[724] Kafesoğlu, Selçuklar, İA, X cild, səh-355.

təqdirdə heç bir dəyərlərinin olmayacağını anlayan Səlcuq ailəsi ilə birlikdə İslamı qəbul etdi.[725]

İslam dinini qəbul edən Səlcuq Oğuz Yəbqusuna illik verməyərək onun ordusunu məğlub edib "qazi" ləqəbini aldı. Bu döyüşlərin birində oğlu Mikayıl ölmüş və onun oğlanları Toğrul və Çağrını babaları Səlcuq böyütmüşdür.

Səlcuqluların hərbi dəstəyi ilə Qaraxanlıları (848-1212) məğlub edən Samanilər (892-999) buna qarşılıq olaraq Nur-Buxara adlı otlaq ərazini 992-ci ildə (hicri 382) Səlcuqlara vermişlər.[726] Bir əsrdən çox yaşayan Səlcuq 1009-cu ildə Cənddə vəfat etmiş və orada dəfn edilmişdir. İbn Əsirə görə Səlcuq 107 il yaşamışdır.[727] Onun ölümündən sonra Səlcuq ailəsinin başçısı Arslan Yəbqu olmuşdur. Arslan Yəbqunun cəsarətindən ehtiyat edən Qəznəli Mahmud (998-1030) onu hiylə ilə yanına çağıraraq Hindistandakı Qalinçar qalasında həbs etdirdi. Yeddi il bu qalada həbsdə qalan Arslan Yəbqu 1025-ci ildə (hicri 416) vəfat etdi.[728]

Qərbi Qaraxanlı hökmdarı Buğra Xan Toğrul Bəylə Çağrı Bəyi aradan götürməyə çalışsa da istədiyinə nail ola bilmədi. Hər an təhlükə hiss edən Toğrul Bəy səlcuq türkləri ilə Səmərqən tərəflərinə köç etdi. Bu arada 1018-1021 ci illərdə üç min atlı ilə Şərqi Anadolu səfərinə çıxan Çağrı Bəy bu məntəqəyə Xorasan, Rey və Azərbaycan yolu ilə gəlib, Van hövzəsi və Vaspuraqan adlı Erməni krallığına daxil olaraq bəzi qalaları ələ keçirdikdən sonra xeyli sayda insanı qılıncdan keçirmişdir. Bu məntəqələrdə üç il qalan Çağrı Bəy əldə etdiyi qənimətlərlə Maveraun-nəhr məntəqəsinə gəlmişdir.

Bu uğurlardan sonra oğuzların bir qismi Çağrı Bəyə sığındı. Siyasi vəziyyəti nəzərə alan Toğrul və Çağrı qardaşları Maveraun-nəhrdən Xarəzmə köç etmək məcburiyyətində qaldılar. Burada da Alp Qara və Məlik-Şahın hücumlarına məruz qalan Səlcuq türkləri 1035-ci ildə Xorasana köç etmək məcburiyyətində qalmışlar. 1034-cü ildə (hicri 425) Səlcuqları məğlub edən Məlik-Şah səkkiz min Türkməni qılıncdan keçirmişdir.[729]

Beləliklə yetmiş ildə dördüncü dəfə köç edən Səlcuqlar, Cənddən Maveraunnəhrə, Maveraaun-nəhrdən Xarəzmə, Xarəzmdən də Xorasana köç etmişlər.

Xorasana gələn Səlcuqlar Mərv, Sərəxs, Nasa və Bavard məntəqələrində məskunlaşdılar. Səlcuq türklərinin Xorasanda məskunlaşmasından narahat olan Qəznəli Sultan I Məsud (1030-1040) onları Xorasandan çıxarmaq üçün Bəytoğdun başçılığı altında olan böyük bir ordunu Xorasana göndərdi. Lakin 1035-ci ildə baş verən döyüşdə Səlcuq türkləri Sultan Məsudun ordusunu məğlub edərək bu ərazilərdə yerləşdilər. Bu məğlubiyyətdən sonra Səlcuqlularla ittifaqa girən Sultan Məsud Farava məntəqəsini də onlara verdi. Lakin sayları gündən-günə artan

---

[725] İbn Əsir, əl-Kamil, IX cild, səh-474; Kafesoğlu, Selçuklar, İA, X cild, səh-355.
[726] Köymen, Büyük Selçuk İmperatorluğunun Kuruluş Devri, I cild, səh-32, 44-45.
[727] İbn Kəsir, əl-Bidayətu və-Nihayə, XII cild, səh-48.
[728] İbn Əsir, əl-Kamil, IX cild, səh-475; Ravendi, Rahatus-Sudur, I cild, səh-90.
[729] İbn Əsir, əl-Kamil, IX cild, səh-477; Turan, Selçuklular, səh-57.

Səlcuq türkləri Bəlx və Sərəxs məntəqələrini də ələ keçirdilər. Bundan narahat olan Sultan Məsud Hacibin başçılığı altında olan böyük bir ordunu Səlcuqların üzərinə göndərdi. 1038-ci ildə (hicri 429) Sərəxs yaxınlığında baş verən döyüşdə də Çağrı Bəyin başçılığı altında səlcuqlular Qəznəliləri məğlub etdilər.[730] Bu qələbədən sonra Toğrul Bəy dövlətin rəsmi rəisi olaraq Nişapurda "Sultanul-Muazzam" ünvanı ilə öz adına xütbə oxutdurarkən, Mərvdə Çağrı Bəy "Məlkul-Muluk", əmiləri Musa İnanc isə Yəbqu da Yəbqu ünvanı ilə Sərəxsdə öz adlarına xütbə oxutdurdular. Daha sonra üç min atlı ilə Nişapura daxil olan Toğrul Bəy Sultan Məsudun taxtına oturmuşdur.[731] Lazımi tədbirləri həyata keçirən Toğrul Bəy əhalinin şikayətlərini dinləmək üçün "Divani-Məzalim" təşkilatını qurdu.

Dəndənəkan döyüşü 1040-cı il (hicri 431)

Məğlubiyyətlə barışmyan Qəznə hökmdarı Sultan Məsud Səlcuqluları Xorasandan çıxarmaq üçün böyük bir ordu ilə Bəlxdən Sərəxsə doğru hərəkətə keçdi. 1039-cu ildə baş verən döyüşdə məğlub olan Səlcuqlular geri çəkilərək, Qəznəvi ordusu ilə partizan müharibəsi apararaq onları zəiflətdilər. Ani hücumlar qarşısında tab gətirməyən Sultan Məsud Herata çəkildi.

Bir müddət burada qalan Sultan Məsud yenidən Nişapura daxil oldu. Lakin 1040-cı ildə Dəndənakan yaxınlığında baş verən döyüşdə Səlcuqlular tərəfindən məğlub edilən Sultan Məsud döyüş meydanından qaçdı. Bu qələbədən sonra Xorasan bütünlüklə Səlcuqlulara tabe edildi.

Dəndənəkan döyüşündən sonra bütün Səcuqlu bəylərinin qatıldığı bir qurultayda Toğrul Bəy sultan elan edildi. Toğrul Bəyin göstərişi ilə Çağrı Bəy mərkəz Mərv olmaqla, Sərəxs və Bəlx şəhərlərinin daxil olduğu Ceyhun və Qəznə arasındakı bölgənin, Musa İnanc Yəbqu isə mərkəz Herat olmaqla Bust və Sistan ərazisinin həvalisi oldu. Bundan əlavə Toğrul Bəyə tabe olmaq şərti ilə İbrahim Yınala Qohistan, Kutalmışa Gurgən və Damgan, Qavurda da Kirman həvalisi verildi.

1034-cü ildə Xarəzmdə Məlik-Şah tərəfindən həyata keçirilən qətliamı unutmayan Toğrul Bəy qardaşı Çağrı Bəylə birlikdə 1043-cü ildə Xarəzm üzərinə gedərək, Məlik-Şahı məğlub edib əsir götürməklə bərabər bu bölgəni özlərinə tabe etdilər.[732]

1042-ci ildə Qohistana təyin edilən İbrahim Yınal tərəfindən Rey şəhəri fəth edildi. Burada yaşayan Arslan Yəbqu Oğuzları Şərqi Anadoluya qaçdılar. Paytaxtı Nişapurdan Reyə köçürən Toğrul Bəy burada yeni saray inşa etdirdi.

Toğrul Bəyə itaət etməyən Yəbqulu türkmənlər Şərqi Anadoluya daxil oldular. Digər Oğuzlular isə Diyarbəkr istiqamətində Mərvanilər ərazisinə, Mey-

[730] İbn Əsir, əl-Kamil, IX cild, səh-480.
[731] İbn Əsir, əl-Kamil, IX cild, səh-457-459, 480-481; Köymən, Büyük Selçuklu, Kuruluş Devri, səh-263-265.
[732] Turan, Selçuklular Tarihi, səh-70; İbn Əsir, əl-Kamil, IX cild, səh-504-506.

yafariqin, Mardin və Cizrəyə qədər irəlilədilər. Lakin Mərvanilər və Mosul hakimləri tərəfindən məğlub edilən Oğuz türkləri geri dönərək Azərbaycana daxil oldular.[733] Digər qrupların Şərqi Anadoluda irəliləməsindən narahat olan imperator Kontantinos (1042-1052) Ermənіləri və Gürcüləri basqı altında saxlamaq üçün Türklərə qarşı hərəkətə keçdi. Bundan xəbər tutan Toğrul Bəy, Kutalmış və əmisi Musa İnanc Yəbqunun oğlu Həsəni Azərbaycana göndərdi. Səlcuq ordusu Gəncə yaxınlığında Bizansı ordusunu məğlub etdi. Kutalmış Araz çayı boyunca fəthlərini davam etdirərkən, Həsənin başçılığı altında olan Səlcuq ordusu Vaspuraqan ərazisində məğlub edildi və sərkərdə Həsən öldürüldü.[734]

Həsənqala döyüşü 1048-ci il (hicri 440)

Səlcuqlu bəylərindən olan Həsən ilə birlikdə bir çox türkmənin Vaspuraqan məntəqəsində öldürülməsindən xəbər tutan Toğrul Bəy ögey qardaşı olan İbrahim Yınal ilə Kutalmışı Bizansa qarşı səfərə göndərdi. Ərzuruma qədər irəliləyən Səlcuq ordusu qarşısında tab gətirməyən Bizans sərkərdəsi Katakalon Gürcülərdən kömək istədi. Bunu nəzərə alan Gürcü şahzadəsi Liparid on səkkiz min nəfərlik ordu ilə onun köməyinə getdi. 1048-ci ildə Həsənqala ətrafında baş verən döyüşdə Bizans ordusunu məğlub edərək Səlcuqlular Gürcü şahzadəsi Liparidi əsir götürdülər.

Ərzurumu işğal edən İbrahim Yınal başda Liparid olmaqla, digər əsirləri və qənimətləri Reyə Toğrul Bəyin hüzuruna göndərdi. Həsənqala döyüşü Səlcuqlularla Bizans arasında baş verən ilk ciddi döyüş hesab edilir.

Səlcuqlulara qarşı mübarizədə uduzan Bizans imperatoru Konstantinos, digər tərəfdən də Peçənəklərin hücumuna məruz qaldığı üçün Toğrul Bəyə sülh təklif etdi. Səlcuqlu nümayəndəsi Şərif Nasiruddin ibn İsmailin başçılığı ilə İstanbulda aparılan müzakirələr nəticəsində iki tərəf arasında sülh bağlandı. Sülhün şərtlərinə əsasən Məsləmə ibn Əbdülməlikin İstanbulda tikdirdiyi məscid təmir olunmalı, qəndillər taxılmalı, məscidin mehrabında Səlcuqluların simbolu olan ox və yay işarəsi vurulmalı, İmam və müəzzin təyin edildikdən sonra xütbə Səlcuq hökmdarı Toğrul Bəyin adına oxunmalı idi.[735]

Həsənqala döyüşündə qalib gələn İbrahim Yınal Toğrul Bəydən Cibal bölgəsinin hakimliyini istəsə də rədd cavabı aldı. Bununla razılamayan İbrahim Yınal 1049-1050-ci illərdə üsyan etsədə məğlub edildi.

Daxili asayişi bərpa edən Toğrul Bəy Anadoluda Oğuzlara yer qazanmaq üçün hərəkətə keçdi. Bu arada Səlcuqlara xərac vermək istəməyən İmperator, Gürcü kralı Baqratla ittifaqa girərək böyük bir ordunu Gəncəyə göndərdi və buranı mühasirədə saxlayan Kutalmış Təbrizə çəkildi. Bununla əlaqədar olaraq

---

[733] Turan, Selçuklular Tarihi ve Türk, səh-80.

[734] Kafesoğlu, Selçuklular, İA, səh-365.

[735] Ebul-Ferac Gregory, Ebul-Ferac Tarihi, ter. Ö. R. Doğrul, Ankara-1945-1950, I cild, səh-304; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-59.

1054-cü ildə Azərbaycana gələn Toğrul Bəy Bargiri və Ərcişi aldıqdan sonra Malazgirdi mühasirəyə aldı. Digər tərəfdən də Səlcuqlular Ərzuruma qədər irəlilədilər. Lakin qışın yaxınlaşması ilə əlaqədar olaraq Toğrul Bəy mühasirəni dayandırıb geri qayıtdı.[736]

Səlcuqlular tərəfindən Bağdadın ələ keçirilməsi

Abbasi xəlifəsi Qaim Biəmrullahın (1031-1075) dəvəti ilə Toğrul Bəy Bağdada doğru hərəkət etdi. Onun Nəhrəvana gəlişindən xəbər tutan Büveyhi lideri Arslan Basasiri Rəhbəyə qaçdı. 1055-ci ildə (hicri 447) Bağdada daxil olan Toğrul Bəy ehtiramla qarşılandı və xütbə onun adına oxundu. Altmış min nəfərlik ordu ilə Büveyhilərə qarşı qətliama başlayan Toğrul Bəy xeyli sayda şiəni qılıncdan keçirdikdən sonra Büveyhi hökmdarı Məlikur-Rahim Firuzu (1048-1056) və onun adamlarını həbs etdirdi və Büveyhilərin Bağdaddakı 110 illik (945-1055) hökmranlığına son qoyuldu.[737] Asayişi bərpa edən Toğrul dövlət işlərini ələ aldıqdan sonra Aytəkini Bağdad hakimi təyin etdi.

Bu arada Bağdaddan Rəhbəyə qaçan Büveyhi lideri Arslan Basasiri Fatimi xəlifəsi Müstənsirin (1036-1094) və Ərəb əmirlərinin dəstəyi ilə Toğrul Bəyə qarşı böyük bir ordu hazırladı. Onlara qarşı Toğrul Mosul Ərəb əmiri ilə Kutalmışı göndərdi. 1057-ci ildə (hicri 448) Sincar yaxınlığında baş verən döyüşdə məğlub olan Kutalmış xeyli itki verdi.

Bundan xəbər tutan Toğrul 1057-ci ildə böyük bir ordu ilə Bağdaddan hərəkət etdi. Qısa müddət ərzində Şimali İraq şiələrdən təmizləndi və Arslan Basasiri yenidən Misirə qaçdı. İbrahim Yınalı Mosul valisi təyin edən Toğrul Bəy Bağdada qayıtdı.

Şiələr üzərində qazanılan bu qələbədən sonra 1058-ci ildə (hicri 449) Abbasi xəlifə Qaim Biəmrullah Səlcuqlu hökmdarı Toğrul Bəyin başına tac qoyaraq ona "Şərq və Qərb sultanı" ünvanını verdi. Bununla da İslam dünyasında hökmranlıq türklərin əlinə keçmişdir.

Toğrul Bəyə qarşı baş verən üsyanlar

Toğrul Bəyin Büveyhi lideri Arslan Basasirini məğlub etmək üçün Mosul səfərinə çıxmasından istifadə edən məşhur sərkərdə Kutalmışın qardaşı Rəsul-Təkin Bəsrə v Əhvaz məntəqələrini ələ keçirərək üsyan etdi. Lakin qısa müddət sonra ələ keçirilən Rəsul-Təkin Toğrul tərəfindən bağışlanmışdır.

Bunun ardınca Mosul valiliyini buraxıb Cibala gedən İbrahim Yınal üsyan etmək istəsə də xəlifə Qaim Biəmrullahın və Toğrul Bəyin elçiləri onu bu fikrindən daşındırdılar. İbrahim Yınalın Mosulu tərk etməsindən istifadə edən Arslan Basasiri və Mosulun keçmiş əmiri Qureyş şəhəri mühasirəyə aldılar.

---

[736] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-65; İbn Əsir, əl-Kamil, IX cild, səh-598-599.

[737] Köymən, Səlçuklu Devri, səh-177.

Bununla əlaqədar olaraq Toğrul Bəy ikinci Mosul səfərinə çıxdı. Toğrulun gəldiyindən xəbər tutan Arslan Basasiri şəhəri talan edərək qaçdı.[738]

1058-ci ildə (hicri 450) yenidən üsyan edən İbrahim Yınal Həmədana getdi. Fatimi xəlifəsi Müstənsir və Büveyhi lideri Arslan Basasiri ona yardım edəcəklərinə və sultan kimi tanıyacaqlarına söz verdilər.

Bu üsyanı yatırmaq istəyən Toğrul Bəy qardaşı Çağrı Bəydən yardım istədi. Qardaşı oğlanları Alp Arslanın, Qavurdun və Yaqutinin köməyi ilə 1059-cu ildə (hicri 451) baş verən döyüşdə İbrahim Yınalı məğlub edən Toğrul Bəy onu öldürdü.

Toğrul Bəyin Bağdadda olmamasından istifadə edən Büveyhi lideri Arslan Basasiri 1058-ci ildə (hicri 450) Bağdada daxil olaraq xəlifə sarayı daxil olmaqla bir çox yerləri talan etmiş, Fatimi xəlifəsi Müstənsirin adına xütbə oxutmuş və azanı şiə azana çevirmişdir. Sonra isə Bəsrə və ətrafını ələ keçirmək üçün hərəkətə keçmişdir. Lakin İbrahim Yınalı məğlub edən Toğrul Bəyin Bağdada doğru hərəkət etdiyini öyrəndikdə 1059-cu ildə (hicri 451) şəhərdən qaçmışdır.[739]

Arslan Basasirini təqib edən Toğrul Bəy Hillədə onunla qarşılaşdı. Burada baş verən döyüşdə məğlub edilən Arslan Basasiri 1060-cı ildə öldürüldü.

Bu hadisədən qısa müddət sonra Toğrul Bəyin xanımı Altuncan Xatun Cürcanda, qardaşı Çağrı Bəy isə Sərəxsdə yetmiş yaşında vəfat etdi.

Şahzadə Kutalmışın üsyanı 1061-ci il

Atası Arslan Yəbqunun ölümündən sonra Səlcuqlu hizmətinə girən Kutalmış İbrahim Yınaldan sonra qardaşı Rəsul-Təkinlə birlikdə 1061-ci ildə (hicri 453) Toğrula qarşı üsyan edərək Girdqulh qalasına sığındı. Toğrulun əmrinə əsasən Xamur Təkin onun üzərinə göndərilsə də Kutalmış tərəfindən məğlub edildi. Onun məğlubiyyətindən sonra Amidul-Mülk Künduri Kutalmışı Girdqulh qalasında mühasirəyə aldı. Lakin bu arada Toğrul Bəyin vəfatı ilə əlaqədar olaraq Amidul-Mülk mühasirəni dayandırıb geri qayıtmışdır.[740]

1062-cü ildə Bağdadda Abbasi xəlifəsi Qaim Biəmrullahın qızı seyidətun-Nisa ilə evlənən Toğrul Bəy Reyə qayıtdı.[741] Reyə döndükdün qısa müddət sonra xəstələnən Toğrul Bəy 1063-cü ildə (hicri 455) yetmiş yaşında vəfat etdi və inşa etdirdiyi türbədə dəfn edildi.

Ədalətli və dindar hökmdar olan Toğrul Bəyin "Özümə bir saray tikdirdiyim halda onun yanında Allahın evini (məscid) tikdirməsəm utanaram" sözləri onun dindarlığının bariz nümunəsidir.[742]

---

[738]İbn Əsir, əl-Kamil, IX cild, səh-639-640; Sibt ibn Cevzi, Miratuz-Zamandan seçmələr, səh-29.

[739]İbn Əsir, əl-Kamil, IX cild, 646; İbn Ədim, Buğyədən Seçmələr, səh-2-3; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-77-78.

[740]Yınanç, Türkiye Tarihi Selçuklular Devri, səh-53.

[741] Sibt ibn Cevzi, Miratuz-Zamandan Seçmələr, səh-92.

[742]Bundari, İraq və Xorasan Səlcuqları, tər. K. Burslan, səh-25.

Sultan Alp Arslan Əbu Şuca Məhəmməd ibn Davudun hakimiyyəti 1064-1072 (hicri 456-465)

1063-cü ildə vəfat edən Toğrul Bəy övladı olmadığı üçün özündən sonra qardaşı oğlu Süleyman ibn Çağrı Bəyi vəliəhd elan etmişdi. Həmin vaxt Cibal bölgəsində Kutalmışa qarşı mabarizə aparan vəzir Amidul-Mülk Toğrulun ölümündən xəbər tutan kimi Reyə qayıdıb Süleyman ibn Çağrı Bəyi sultan elan etdi. Lakin bununla razılaşmayan əksər Səlcuqlu liderlərinin Alp Arslanın sultan olmasını istəməsi üzərinə Yağı-Siyan ilə Ərdəmdə Qəzvində onun adına xütbə oxutdular. Bundan əlavə Cibal bölgəsində üsyan edən Kutalmış böyük bir ordu ilə hərəkət edərək Reyi mühasirəyə aldı. Baş verən hadisələr qarşısında aciz qalan vəzir Amidul-Mülk Alp Arslanın Reyə gəlməsini istədi.

Bu arada Huttalan əmirinin və əmisi Musa İnanc Yəbqunun üsyanını yatıran Alp Arslan sürətlə Reyə doğru hərəkət etdi. Onun böyük bir ordu ilə Nişapura doğru hərəkət etdiyindən xəbər tutan Kutalmış Reyin mühasirəsini yarımçıq saxlayaraq Alp Arslana doğru hərəkət etdi. İki səlcuq şahzadəsi Damgan adlı məntəqədə qarşılaşdı. 1064-cü ildə (hicri 456) baş verən döyüşdə Kutalmış öldürüldü və ordusu məğlub edildi. Qardaşı Rəsul-Təkinlə oğlu əsir götürüldü.[743] 1064-cü ildə Səlcuqlu taxtına oturan Alp Arslan əmisi Toğrul Bəyin vəziri Amidul-Mülkün yerinə öz vəziri Nizamul-Mülkü gətirdi.

1064-cü ildə Reydən Azərbaycana gələn Alp Arslan Naxçıvanda ordusunu iki yerə ayırdı. Sultanın başçılığı altında olan ordu Gürcüstana səfər edərkən, oğlu Məlik-Şah və vəziri Nizamul-Mülkün başçılığı altında olan ordu da Bizans sərhədlərinə doğru hərəkət edərək Sürmari və Məryəm-Nişin qalalarını ələ keçirdilər.[744]

Gürcüstana daxil olan sultan Alp Arslan isə Kangarn, Kartlı, Tiflis-Çorux ətrafı ilə bərabər Qars və Ani bölgəsini də ələ keçirdi.[745]

Sultan Alp Arslanla eyni vaxtda səlcuqlu komandanlarından olan Salar, Hacib Gümüş-Təkin, Afşin və Əhməd Şah kimi şəxslər də Anadolu fəthini davam etdirirdilər. Salar Xorasan, Urfa, Sivərək istiqamətində irəliləyərkən, Hacib Gümüş-Təkin, Əhməd və Afşin də Fəratı keçib Adıyaman ilə Malatyanı ələ keçirdikdən sonra Qilikya bölgələrinə enmişlər. Kayseriyə daxil olan digər səlcuqlu orduları şəhəri talan etdi.[746]

Alp Arslanın Türkistan səfəri

Mərvə qayıdan Alp Arslan oğlu Məlik-Şahı Qaraxanlı hökmdarı İbrahim Tamqaç Xanın (1052-1068) qızı Terkən Xatunla evləndirdi. Bu işləri yoluna

---

[743] əl-Hüseyni, Əhbarud-Dövlə, səh-21-22; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-90.

[744] İbn Əsir, əl-Kamil, X cild, səh-38; əl-Hüseyni, Əhbarud-Dövlə, səh-24.

[745] əl-Hüseyni, Əhbarud-Dövlə, səh-26-27.

[746] Köymən, Selçuklu Devri Türk Tarihi, səh-259-260.

qoyan Alp Arslan Şərq səfərinə çıxaraq 1065-ci ildə Türkistana daxil oldu. Aral və Xəzər dənizi sahillərini dolaşan Alp Arslan Xəzər dənizi sahilində yerləşən Manqışlaqda Qıpçaq rəisini məğlub edərək onu itaət altına aldı. Oradan Cəndə gələn sultan atası Səlcuqun məzarını ziyarət etməklə bərabər Cənd hakiminin də itaətini qəbul etdi. Bu işləri tamamlayan Alp Arslan əvvəlcə Xarəzmə, oradan da Gurgəncə gəlib, burada məscid inşa etdirdikdən sonra Mərvə döndü. 1066-cı ildə Nişapura gələn Alp Arslan Kirman məliki Qavurdun üsyanın yatırdı.[747]

1068-ci ildə (hicri 460) ikinci Qafqaz səfərinə çıxan Alp Arslan Gürcü kralı Bağradı məğlub edərək bir çox şəhər və qalaları ələ keçirdi. Lakin Qaraxanlı hökmdarı İbrahimTamqaç Xanın ölümü ilə əlaqədar geri qayıdan Alp Arslan Qafqazdakı işlərini sərkərdələrinə buraxdı.

Anadolu səfərlərinə Bizansın münasibəti

Sultan Toğrul Bəydən sonra Alp Arslanın iki dəfə Anadoluya səfər etməsi və bunun ardınca sərkərdələrin Kayseriyə qədər əraziləri talan etməsi nəticəsində imperator Duqasın ölümündən sonra hakimiyyətə gələn Roman Diogen oğuz, bolqar və franklardan ibarət böyük bir ordu ilə 1068-ci ildə (hicri 460) ən çox hücuma məruz qalan Antakya bölgəsinə səfər etdi. Bundan xəbər tutan türkmənlər geri çəkildilər. Niksar və Sivası türklərdən təmizləyən imperator Roman Diogen Hələbə doğru hərəkət etdi. Bunu öyrənən Hələb əmiri Mahmud geri çəkildi. Lakin bu arada Afşinin Anadoluya daxil olaraq Amorionu ələ keçirdiyini öyrənən imperator Roman Diogen bu səfərdən əliboş geri qayıtdı.[748]

1069-cu ildə edilən ikinci səfərdə də heç bir nəticə əldə edə bilməyən imperator Roman Diogen, 1070-ci ildə Manuel Komnenosun başçılığı altında olan böyük bir ordunu Sivas istiqamətinə göndərdi. Lakin bu ordunu məğlub edən Yağı-Siyan, ardınca Afşinin gəldiyini öyrənincə Bizans sərkərdəsi Manuelə təslim olaraq onunla birlikdə İstanbula gəldi. Bunun ardınca Qərbi Anadoluya gələn Afşin Dənizli yaxınlığındakı Honaz şəhərini ələ keçirdi.[749]

Anadolu və Suriya səfəri

Alp Arslanın ilk hədəfi Misirdə hakimlik edən Fatmilərin (909-1171) varlığına son qoymaqla İslam dünyasındakı ikitirəliyi aradan qaldırmaq və vaxtilə İslam torpağı olan, lakin sonralar Bizanslılar tərəfindən ələ keçirilən bölgələri geri qaytarmaq idi. Misir vəziri Nasirud-Dövlə Həmdan da səlcuq sultanı Alp Arslanı Misirə dəvət edirdi.[750]

---

[747] İbn Əsir, əl-Kamil, X cild, səh-49.
[748] Sibt Cevzi, Miratuz-Zamandan Seçmələr, səh-139.
[749] Nuri Ünlü, İslam Tarihi, I cild, səh-413.
[750] İbn Ədim, Buğyətut-Tələb, tər. A. Sevim, səh-13.

Bu məqsədlə 1070-ci ilin avqustunda *(hicri 462)* Alp Arslan böyük bir ordu ilə Azərbaycana gəldi. Buradakı qitələri və Anadolu sərhəddində ki, mücahidləri də yanına alaraq, Van gölünün şimalından keçərək Malazgirdə gələrək buranı fəth etdi.[751] Daha sonra Erciş və Diyarbəkr də səlcuqların əlinə keçdi.

Yoluna davam edən Alp Arslan əl-Cəzirə bölgəsinin bəzi ərazilərini ələ keçirdikdən sonra Urfanı bir aydan çox mühasirədə saxlasa da ələ keçirə bilmədi və sonda illik xərac olaraq əlli min dinar aldıqdan sonra mühasirəyə son verdi.[752] 1071-ci ildə Hələbə gələn Alp Arslan buranı da ələ keçirdi.

Bu arada Bizans imperatoru Roman Diogenin böyük bir ordu ilə şərqə doğru hərəkət etdiyini öyrənən Alp Arslan sürətlə Əhlata qayıtdı. Buraya gələn sultana sərkərdə Afşindən belə bir xəbər gəldi: "Rum ölkələrini istila edərək böyük bir qənimətlə geri qayıtdım, onlar bizimlə döyüşməyə qadir deyillər."[753]

Malazgird döyüşü hicri 463-cü il (miladi 1071)

Anadolunu Türklərdən geri alaraq, İslam ölkələrini ələ keçirmək məqsədilə Bizans imperatoru Roman Diogen Balkanlardan, Kapadokya, Qilikya və Trabzon bölgələrindən, Erməni, Slavyan, Bolqar, Alman, Frank, Gürcü, Xəzər, Peçenək, Oğuz və Qıpçaqlardan ibarət böyük bir ordu topladı. İbn Əsirə görə bu ordunun sayı yüz min olmuşdur.[754] Niyyətini gizli saxlamaq istəyən imperator Diogen Hələbdə olan Alp Arslanın yanına elçi göndərib, ələ keçirdiyi bölgələrin geri qaytarılması şərti ilə ona sülh təklif etsə də onun təklifi qəbul olunmadı.

Ayasofyada oxunan ayindən sonra 1071-ci ildə Sivasa gələn imperator Roman Diogen ermənilərdən olunan şikayətlə əlaqədar olaraq şəhəri talan etdirərək, xeyli ermənini edam etdirdi.[755]

İrana daxil olmaq və Türkləri əzmək niyyətində olan imperator Diogen Normandiyanın əsilzadələrindən olan Ursəli böyük bir qüvvə ilə Əhlata göndərdi. Malazgirdi ələ keçirən Ursəl xeyli əsgəri qılıncdan keçirdi. Lakin qısa müddət sonra bu ordunu məğlub edən Əmr Sundukun başçılığı altında olan səlcuq ordusu sərkərdə Basilosu əsir götürməklə bərabər Bizansın zəfər nişanı olan "Böyük qızıl xaçı" da ələ keçirdi.

Bundan xəbər tutan sultan Alp Arslan əlli min nəfərlik ordu ilə Malazgirdə gəldi. Cümə günü əsgərlərini toplayan Alp Arslan səcdəyə düşüb Allaha dua etdikdən sonra belə dedi: "Ya Rəbb! Səni özümə vəkil tutur və əzəmətin qarşısında üzümü yerə sürtərək sənin uğrunda döyüşürəm. Ey Tanrım! Niyətim təmizdir, mənə yardım et; sözlərimdə yalan varsa bəni xar et" sözləri ilə ima-

---

[751] Yınaç, Türkiye Tarihi, səh-69; Urfalı Mateos, Vekayi-name, tər. Səh-138.
[752] İbn Əsir, əl-Kamil, X cild, səh-64; Əbul-Fərəc, Tarix, I cild, səh-320.
[753] Əhməd ibn Mahmud, Səlcuq-namə, E. Merçil, İstanbul-1997, I cild, səh-91-92; Turan, Selçuklular Tarihi və Türk, səh-134.
[754] İbn Əsir, əl-Kamil, X cild, səh-65.
[755] Urfalı Mateos, Vekayi-name, tər. Səh-141.

nının güclü olduğunu bildirərək başını qaldırdı.[756] Sonra əsgərlərinə xitab edərək əlavə etdi: "Burada Allahdan başqa sultan yoxdur; əmir və qədər onun əlindədir. Bu səbəblə mənimlə birlikdə olub və ya olmamaqda azadsınız."[757]

Miladi 1071-ci il 26 avqustda Malazgird yaxınlığında baş verən döyüşdə Bizans ordusunu məğlub edən Səlcuq Alp Arslan imperator Roman Diogeni əsir götürdü. Lakin imperator Diogenlə mülayim rəftar edən Alp Arslan onunla əlli il müddətinə sülh bağlayaraq azad etdi. Sülhə görə Bizans Səlcuqlara illik vergi olaraq 360000 dinar verəcək, Antakya, Urfa, Əhlat, Malazgird Səlcuqlara veriləcək, İslam əsirləri azad ediləcək və bunlardan əlavə Bizans yeri gəldikdə Səlcuqlulara hərbi yardımda edəcəkdi.[758]

Azad edilən imperator Roman Diogen Tokata çatdıqda Mixail Duqasın VII Mixail adı ilə imperator seçildiyini öyrəndi. Tokatda topladığı iki yüz min dinarı Alp Arslana göndərərək əlində başqa bir qüdrətin qalmadığını məktub vasitəsilə ona bildirdi. Oradan Qilikyaya gələn Diogenin gözlərinə mil çəkilərək kor edildi.[759]

Bu hadisədən xəbər tutan Alp Arslan Anadolunun fəthinin tamamlanması haqqında qərar verdi. Buna görə sərkərdələrinə "Bu gündən etibarən Bizansla olan sülh müqaviləsi başa çatmışdır. Artıq xristianlar öldürüləcək və məmləkətləri istila ediləcəkdir. Onlara əsla mərhəmət göstərməyin" deyərək Anadolunun fəthinin tamamlanmasını əmr etmişdir.[760]

İslam tarixinin ən mühüm hadisələrindən olan Malazgird zəfəri türklərin Anadolunu tamamilə fəth edərək oraya yerləşməsinə səbəb olmuşdur. Bu döyüş nəticəsində Anadolunun qapıları türklərin üzünə açılmış və Anadolu tamamilə fəth edilərək türkləşdirilmişdir. Eyni zamanda islamla xristianlığın hesablaşması adlanan bu döyüş Alp Arslana İslam dünyasında şöhrət qazandırmışdır.

Alp Arslanın Şərq səfəri

Alp Arslan yeznəsi olan Qaraxanlı hökmdarı Şəmsul-Mülk Nəsr Xan (1068-1080) ilə sultanın oğlanları İlyas və Ayaz arasındakı münasibətlərin gərginləşməsi və nəticədə Qaraxanlı hökmdarının Alp Arslanın qızı olan yoldaşını qardaşlarına casusluq etməsi bəhanəsiylə öldürməsi səbəbilə iki yüz min nəfərlik ordu ilə Maveraun-nəhr səfərinə çıxdı. Ceyhun çayını keçib 1072-ci ildə (hicri 465) Türkistana daxil olan Alp Arslan Bərzəm qalasını mühasirəyə aldı. Bir müddət müqavimət göstərən qala komandiri Yusif Xarəzmi məğlub edilərək sultanın hüzurana çıxarıldı. Yusif Xarəzmi danışıq zamanı gizlətdiyi bıçaq-

---

[756] Əli Sevim, Anadolunun fəthi, səh-64-65.
[757] İbn Əsir, əl-Kamil, X cild, səh-66.
[758] İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-101; Kafesoğlu, Malazgird, İA. səh-247.
[759] İbn Əsir, əl-Kamil, X cild, səh-181; İbn Kəsir, əl-Bidayətu vən-Nihayə, XII cild, səh-101.
[760] Nuri Ünlü, İslam Tarihi, I cild, səh-421; Urfalı Mateos, Vekayi-name, tər. səh-144; Əhməd ibn Mahmud, Səlcuq-namə, I cild, səh-81-108.

la Alp Arslanı ağır yaraladı.[761] Aldığı yaradan öləcəyini anlayan Alp Arslan özündən sonra oğlu Məlik-Şahı vəliəhd elan edərək 1072-ci ildə *(hicri 465)* qırx üç yaşında vəfat etmiş və Mərvdə dəfn edilmişdir.[762]

Məlik-Şah ibn Alp Arslanın hakimiyyəti hicri 465-485 (miladi 1072-1092)

1072-ci ildə sultan Alp Arslanın ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu Məlik-Şah səlcuq hökmdarı elan edildi. Onun hakimiyyəti dövründə Səlcuqlu dövləti ən geniş ərazilərə sahib olduğu kimi İslam dünyasıda ən məsud dövrlərindən birini yaşamışdır. Lakin onun hakimiyyəti ilə barışmayan əmisi Kirman məliki Kavurt Bəy üsyan etdi. Bununla əlaqədar olaraq Reyə gələn Məlik-Şah bu bölgədəki türkmənləri öz tərəfinə çəkdi. 1073-cü ildə *(hicri 465)* Həmədan yaxınlığında baş verən döyüşdə məğlub olan Kavurt Bəy oğlanları ilə birlikdə həbs edildi.[763] Bir müddət sonra Məlik-Şahın əmri ilə Kavurt Bəy öldürüldü, oğlanları isə gözlərinə mil çəkilərək kor edildi.[764]

Bu qarışıqlıqlardan istifadə edən Qaraxanlı hökmdarı Şəmsül-Mülk Nəsr Xan, Tirmiz və Bəlx bölgəsini istila etdi. Bu əraziləri xilas etməyə gələn Məlik-Şahın qardaşı Ayaz Ceyhun çayını keçərkən əsgərləri ilə birlikdə çayda boğuldu. Baş verən hadisələrdən xəbər tutan Məlik-Şah bu bölgəyə gələrək 1074-cü ildə (hicri 467) Tirmiz və Bəlxi Qaraxanlılardan azad etdi.[765]

Bu arada Toxaristanı ələ keçirən Qəznəvilər də Məlik-Şahın əmisi Osmanı əsir götürmüşdülər. Lakin Məlik-Şahın gəldiyindən xəbər tutduqda Osmanı sərbəst buraxıb sultana sülh təklif etdilər.[766]

Suriya və Anadolu fəthləri

Şərqdə asayişi bərpa edən Məlik-Şah qərbə gələrək xalası Cövhər Xatunun üsyanını yatırdı. Sonra Azərbaycan bölgəsindən Anadoluya və Suriyaya gələn Məlik-Şah burada Kutalmışın oğullarının başçılığı ilə davam edən Yəbqulu Türkmənlərinin fəthlərini dayandırmaq qərarına gəldi.

Alp Arslanın dövründə Suriyaya qaçan Yəbqulu Türkmənləri Qınıq boyundan olan Atsız Bəyin başçılığı ilə fəaliyyətə başladılar. Suriyadakı qarışıqlıqdan istifadə edən Atsız 1076-cı ildə *(468)* Şamı mühasirəyə alaraq özünə tabe etdi. Ardından Yafa və Xımsı da ələ keçirən Atsız xütbəni Abbasilərin adına oxutduraraq, şiə azanına son qoydu.[767]

---

[761] Bundari, İraq və Xorasan Səlcuqları, tər. K. Burslan, səh-44.
[762] İbn Əsir, əl-Kamil, X cild, səh-73-74; Ravəndi, Rahatus-Sudur, I cild, səh-118-119.
[763] İbn Əsir, əl-Kamil, X cild, səh-78.
[764] Mərçil, Kirman Səlcuqları, İstanbul-1980, I cild, səh-60-61.
[765] İbn Əsir, əl-Kamil, X cild, səh-92; İbn Cevzi, Miratuz-Zamandan seçmələr, səh-172.
[766] Turan, Səlcuqlular Tarixi, səh-153-154.
[767] İbn Əsir, əl-Kamil, X cild, səh-99-100.

Atsızın Suriyadakı hökmranlığına son qoymaq istəyən Məlik-Şah qardaşı Tutuşu 1078-ci ildə *(hicri 471)* Suriyaya göndərdi. Misir və Qüds səfərlərindən məğlub qayıdan Atsız xeyli zəifləmişdi. Bundan istifadə edən Misirlilər Şamı mühasirəyə aldıqda Atsız Tutuşdan yardım istədi. Bu təklifi qəbul edən Tutuş Misirliləri Şamdan çıxardıqdan sonra Atsızı öldürərək bu bölgələri öz idarəsinə keçirdi.

1075-ci ildə *(hicri 468)* Azərbaycan bölgəsinə daxil olan Məlik-Şah, Qarabağda Bizans elçisini qəbul etdikdən sonra Arran və Şirvan əyalətlərini böyük sərkərdələrdən olan Sav-Təkinin ixtiyarına buraxaraq öz adına xütbə oxutdu.

Anadoluya göndərilən Əmir Porsuq Anadolu Səlcuqlu sultanı Süleyman Şahın (1075-1086) qardaşı Mənsuru öldürdüyü üçün geri çağırıldı.

Diyarbəkir əmiri Nizamuddinin ölümündən sonra onun yerini tutan oğlu Əmir Mənsurun əhalini incitməsi ilə əlaqədar olaraq, bu məntəqələri ələ keçirən Məlik-Şah Mərvani əmirliyinə son qoydu.

Antakya və Xorasan səfəri

Məlik-Şahın Şərəfuddövlə Müslimin üsyanını yatırmaq üçün Mosul səfərində olmasından istifadə edən Xorasan məliki olan qardaşı Tukuş üsyan edərək Mərv və Sərəxs şəhərlərini ələ keçirdi. Qışı İsfəhanda keçirən Məlik-Şah 1085-ci ildə (hicri 477) Tukuş üzərinə getdi. Məşhur sərkərdələr Bozan, Porsuq və Kumacla Tukuşu Venec qalasında məğlub edən Məlik-Şah onun gözlərinə mil çəkdirərək kor etdi.

Məlik-Şahın şərqdə səfərdə olmasından istifadə edən Anadolu Səlcuqlu sultanı Süleyman Şah 1085-ci ildə Hələbə gələrək Şərəfuddövlə Muslimi öldürsə də, daha sonra Tutuş tərəfindən məğlub edilərək öldürülmüşdür.

Suriyadakı işləri yoluna qoymaq üçün Əmir Porsuq, Bozan və Aksunqurla 1086-cı ildə (hicri 479) Mosula gələn Məlik-Şah Hərranıda ələ keçirdi. Sonra sultanın əmri ilə Urfa üzərinə gedən Bozan 1087-ci ildə (hicri 480) buranı fəth etdi. Suriyadakı işləri qaydasına qoyan Məlik-Şah Urfanı Bozana, Hələbi Aksunqura, Mosul və ətraf əraziləri Çökərmişə, Antakyanı da Yağı-Siyana buraxdı.

Sonra 1087-ci ildə Bağdada gələn sultan Məlik-Şah qızı Məhmələk Xatunla abbasi xəlifəsi Müktədi Billahın (1031-1075) toy məclisində iştirak etdi. İraqda olduğu müddətdə Məlik-Şah Hz.Əli *(ə)* ilə Hz.Hüseynin *(ə)* müqəddəs məzarlarını ziyarət etdi.

Türkistan səfəri

Şərq səfərini tamamlayan Məlik-Şah Səlcuqlu dövlətinin mərkəzi olan İsfana qayıtdı. Türkistan bölgəsində hökmranlıq edən Qərbi Qaraxanlı hökmdarı Əhməd Xan (1081-1089; 1094-1095) əhalinin sərvətini müsadirə edincə, varlı təbəqə Səlcuq hökmdarı Məlik-Şaha şikayət edərək onu Türkistan səfərinə təşviq etdilər.

Bununla əlaqədar olaraq böyük bir ordu ilə hərəkətə keçən Məlik-Şah Buxaranı ələ keçirdikdən sonra 1088-ci ildə (hicri 481) Səmərqəndi də ələ keçirib Əhməd Xanı əsir alaraq İsfəhana göndərdi.

Lakin İsfəhana qayıdan Məlik-Şah Qaraxanlılara bağlı olan Çiğıl və Yağma qövmlərinin tez-tez üsyan etmələrini nəzərə alaraq Əhməd Xanı yenidən Qaraxanlı hökmdarı təyin etdi.

Sultan Məlik-Şahla vəziri Nizamül-Mülkün yaxınlığına həsəd aparan bir çox şəxslər onların arasını vurmağa çalışırdı. Onların başında Məlik-Şahın xanımı Qaraxanlı Tərkən Xatun ilə onun vəziri Tacul-Mülk Əbul-Qənəim gəlirdi.

Tərkən Xatun oğlu Mahmudu Məlik-Şahın böyük oğlu Bərkyarukun yerinə vəliəhd edərək Səlcuqlu taxtını, nəvəsi xəlifə Müktədinin oğlu olan Cəfəri isə Müktədidən sonra vəliəhd edərək Abbasi taxtını ələ keçirmək istəyirdi. Lakin bu istəklərini həyata keçirməkdə vəzir Nizamül-Mülk ona mane olurdu.[768]

İsfəhanda sultanla vəzir arasında baş verən münaqişədən sonra Məlik-Şah Bağdada getdi. Sultandan sonra yola çıxan vəzir Nizamül-Mülk 1092-ci ildə (hicri 485) Nəhavənd yaxınlığında yanına gələn bir nəfər tərəfindən bıçaqlanaraq öldürüldü.[769] Onun ölümündən sonra sultan Məlik-Şahın əmrinə əsasən Tacul-Mülk vəzir təyin edilmişdir.

Bu arada nəvəsi Cəfərin abbasi xəlifəsi Müktədidən sonra vəliəhd elan olunduğunu öyrənən Məlik-Şah xəlifədən on gün ərzində Bağdadı tərk etməsini istədi. Lakin bu müddət başa çatmamış vəzir Nizamül-Mülkün ölümündən otuz beş gün sonra 1092-ci ildə (hicri 485) Sultan Məlik-Şahda qəflətən vəfat etdi. Onun zəhərləndirilərək öldürüldüyü və bu hadisədə xanımı Tərkən Xatunun da əli olduğu haqqında məlumatlar vardır.[770] Bəzi mənbələrdə onun xəstələnərək öldüyü qeyd olunur.[771] Tabutu İsfəhana gətirilən Məlik-Şah orada dəfn edilmişdir.[772]

Onun ölümündən sonra sərhədləri şərqdə Çin səddinə, qərbdə Aralıq dənizinə, şimalda Qafqaza, Xəzər və Qara dənizə qədər uzanan Səlcuq dövləti zəifləməyə başladı.

Səlcuqluların durğunluq dövrü hicri 485-511 (miladi 1092-1118)

Sultan Məlik-Şahın qəfil ölümü ilə Səlcuqlu dövləti daxili çəkişmələrə məruz qaldı. Həmin vaxt Səlcuqlu sultanlığına iki namizəd oldu. Bunlardan biri sultan Məlik-Şahın böyük oğlu Ruknəddin Əbul-Müzəffər Bərkyaruk, digəri isə sultanın Tərkən Xatundan doğulan oğlu Mahmud. Bu qarışıqlıqdan istifadə edən Tərkən Xatun çoxlu pul paylayaraq İslam dünyasının hər yerində beş yaşlı oğlu Mahmudun adına xütbə oxutduraraq onu Səlcuqlu sultan elan etdirdi. Digər

---

[768] İbn Əsir, əl-Kamil, X cild, səh-205.

[769] İbn Ədim, Buğyətut-Tələb, səh-85; İbn Əsir, əl-Kamil, X cild, səh-205.

[770] İbn Əzraq, Tarixi Meyyafariqin, səh-229; İbn əl-Cevzi, əl-Müntəzəm, IX cild, səh-74; Kafesoğlu, Melik-Şah Devri, səh-208.

[771] İbn Xəlliqan, Vefeyat, IV cild, səh-374; Qəzvini, Güzidə, səh-439.

[772] Turan, Səlcuqlular Tarixi və Türk İslam Mədəniyyəti, səh-173.

tərəfdən də bir dəstə adam göndərərək Bərkyaruku İsfəhanda həbs etdirdi. Bunu görən Nizamül-Mülkün adamları onu həbsdən azad edərək eyni ildə İsfahanda sultan elan etdilər. Bununla da hakimiyyət uğrunda mübarizə başlandı.

Tərkən Xatunun göndərdiyi ordu Berucird adlı məntəqədə Bərkyaruk tərəfindən məğlub edildi və vəzir Tacul-Mülk öldürüldü.[773] Bu məğlubiyyətdən sonra Tərkən Xatunun Gəncə məliki İsmailin başçılığı ilə göndərdiyi ordu da Bərkyaruk tərəfindən məğlub edildi. İsmail Bərkyarukun tərəfinə keçmək istəsə də sərkərdələr tərəfindən öldürüldü. Bu hadisələrdən sonra 1094-cü ildə (hicri 487) Tərkən Xatun, bir ay sonra isə oğlu Mahmud çiçək xəstəliyinə tutularaq öldü.[774]

Bu arada sultanlıq iddiasında olan Suriya məliki Tacuddövlə Tutuş ətrafına adam toplayaraq Hələbə doğru hərəkət etdi. Məşhur sərkərdələrdən olan Qasımuddövlə, Aksunqur, Urfa valisi Bozan və Antakya valisi Yağı-Siyan da onun tərəfini tutdu. Bundan istifadə edən Tutuş Cəzirə bölgəsində yerləşən Nusaybin, Mosul, Rəhbən, Rəqqəni, Diyarbəkr bölgəsi ilə Təbrizi də özünə tabe edərək, bu məntəqələrdə xütbəni öz adına oxutdu. Ardınca Bərkyaruk üzərinə hərəkət edən Tutuş Rey məntəqəsində onunla qarşılaşdı. Lakin məşhur sərkərdələr Bozan və Aksunqurun Bərkyarukun tərəfinə keçməsi ilə ordusu zəifləyən Tutuş 1093-cü ildə (hicri 486) Suriyaya qayıtdı.[775] Ətrafına ordu toplayan Tutuş 1094-cü ildə (hicri 487) əvvəlcə Bozanı, sonra isə Aksunquru məğlub etdi.

Həmədan yaxınlığında baş verən növbəti döyüşdə Tutuş tərəfindən məğlub edilən Bərkyaruk İsfəhana qaçdı. İsfəhanda vəzir Nizamul-Mülkün tərəfdarlarını ətrafına toplayan Bərkyaruk böyük bir ordu ilə 1095-ci ildə (hicri 488) Rey məntəqəsində Tutuşu məğlub etdi və Tutuş intiqamçılar tərəfindən öldürüldü.[776]

Bərkyarukun qərbdə Tutuşla mübarizə aparmasından istifadə edən əmisi Arslan Arqun şərqdə bütün Xorasanı ələ keçirərək ona qarşı qiyam etdi. Lakin ətrafında adamlarla yaxşı rəftar etmədiyi üçün qısa müddət sonra köləsi tərəfindən öldürüldü.[777] Onun ölümündən sonra Bərkyaruk qardaşı Səncəri 1097-ci ildə Xorasan valisi təyin etdi.

Azərbaycan (Gəncə və ətrafı) valisi olaraq digər qardaşı Məhəmməd Taparı, atabəy olaraq isə Qutluğ Təkini təyin etdi. Lakin Qutluğ Təkini öldürən Məhəmməd özünə Nizamul-Mülkün oğlu Müəyyədul-Mülkü vəzir təyin etdi. Qısa müddət sonra özündə güc toplayan Məhəmməd Tapar yeni vəzirin təhriki ilə Arranı ələ keçirərək Bərkyarukun üzərinə hərəkət etdi. Baş verən döyüşdə məğlub olan Bərkyaruk Xuzistana doğru çəkildi və Bağdadda xütbə Məhəm-

---

[773] İbn Əsir, əl-Kamil, X cild, səh-334.
[774] Ravəndi, Rahatus-Sudur, I cild, səh-139; Tarixi Əbul-Fərəc, I cild, səh-135.
[775] A. Sevim, Suriya Səlcuqları, Ankara-1965, səh-104, 111.
[776] Köymən, Səlcuqlu Dövrü, səh-76-77.
[777] İbn Əsir, əl-Kamil, X cild, səh-262-264.

məd Taparın adına oxundu. 1100-cü ildə (hicri 493) Bağdadı yenidən ələ keçirən Bərkyaruk xütbəni öz adına oxutdu.[778]

1101-ci ildə (hicri 494) Həmədan yaxınlığında baş verən növbəti döyüşdə Məhəmməd Tapar məğlub oldu və əsir edilən vəziri Müəyyədul-Mülk öldürüldü.[779] Məğlub olan Məhəmməd Tapar Səncərin yanına gedib onunla əlbir olaraq Bərkyaruka qarşı ordu topladı. Eyni ildə onların Bağdada gəlməsi ilə əlaqədar olaraq Bərkyaruk Vasitə doğru çəkildi. Nəhavənd yaxınlığında baş verən üç günlük döyüşdən sonra Məhəmməd Tapar məlik, Bərkyaruk isə sultan oldu.[780] Bu hadisədən bir il sonra 1102-ci ildə (hicri 495) Rey yaxınlığında baş verən növbəti döyüşdə məğlub olan Məhəmməd Tapar Qəzvin istiqamətində qaçaraq İsfəhana keçdi. Məhəmməd Taparı ələ keçirmək istəyən Bərkyaruk yüz minlik ordu ilə İsfəhanı mühasirəyə aldı. Altı aylıq mühasirədən sonra Məhəmməd Tapar 150 nəfərlik süvari ilə şəhərdən qaçdı.[781]

1103-cü ildə (hicri 496) Xoy yaxınlığında baş verən döyüşdə yenidən məğlub olan Məhəmməd Tapar Təbrizə qaçdı. Nəhayət 1104-cü ildə Bərkyarukun Məhəmməd Tapara sülh təklif etməsi ilə iki tərəf arasında sülh bağlanmışdır. Azərbaycan, Diyarbəkr, əl-Cəzirə və Mosulun Məhəmməd Tapara verilməsi ilə dövlət faktiki olaraq iki yerə bölünmüşdür. Anadolu Səlcuqluları da üçüncü dövlət olaraq meydana çıxmışdır.[782]

Bu andlaşmadan qısa müddət sonra 1104-cü ildə (hicri 498) Bərkyaruk xəstələnərək Berucirddə vəfat etdi və onun yerinə beş yaşlı oğlu II Məlik-Şah sultan elan edildi.

İki qardaş arasında baş verən mücadilə nəticəsində dövlət xeyli zəiflədi. Bundan istifadə edən Abbasilər Bağdad və ətraf məntəqələri yenidən ələ keçirdilər. Eyni zamanda Suriya və Anadolunu ələ keçirmək istəyən xristianlar müsəlmanlara qarşı xaç yürüşlərini tərtib etmişlər.

Sultan Məhəmməd Tapar 1105-1118 (hicri 498-511)

II Məlik-Şahın az yaşlı olmasından istifadə edən Məhəmməd Tapar bütün rəqiblərini məğlub edərək 1105-ci ildə (hicri 498) hakimiyyəti ələ keçirdi. Hakimiyyəti ələ keçirən Məhəmməd Tapar 1090-cı ildə (hicri 483) Alamud qalasını ələ keçirən batinilərin lideri Həsən Sabbaha qarşı amansız mübarizəyə başladı. 1107-ci ildə (hicri 500) batinilərin əlində olan Şahdiz qalasını ələ keçirən səlcuqlu ordusu Anuş-Təkinin başçılığ ilə batini lideri Həsən Sabbahın sığındığı Alamud qalasını mühasirəyə aldı. Məhəmməd Tapar dövründə batinilərə qarşı dödr səfər edilsə də Alamud qalası ələ keçirilməmişdir. Çünki bu səfərlərə Məhəmməd Taparın ölümü ilə son qoyulmuşdur.

---

[778] Özaydın, Muhammed Tapar Devri, TTK Ankara-1990, səh-11-17.
[779] İbn Əsir, əl-Kamil, X cild, səh-304.
[780] əl-Hüseyni, Əhbar, səh-53.
[781] İbn Əsir, əl-Kamil, X cild, səh-334-335.
[782] İbn Əsir, əl-Kamil, X cild, səh-369-371.

Bir müddət Bağdadda qalan Məhəmməd Tapar Suriya bölgəsində fəaliyyətə başlayan xaçlılara qarşı ordu göndərdi. Lakin səlcuq ordusunda olan dağınıqlıqdan istifadə edən xaçlılar Urfa və Antakyada qraflıqlar qurmaqla yanaşı Suriya sahillərini də ələ keçirdilər. Bu arada ilk xaçlı səfərində Anadolu sahillərini türklərdən təmizləyən Bizans hücuma keçdi. Çökərmişin Urfaya etdiyi səfərdən sonra Suriya və Ürdün bölgəsindəki əraziləri ələ keçirən xaçlıların əhaliyə zülm etməsi və Tuğ-Təkinin yardım istəməsi ilə əlaqədar olaraq sultan Məhəmməd Tapar Əmir Cavlinin başçılığı altında olan böyük bir ordunu xaçlıların üzərinə göndərdi. Bunun ardınca Seyfud-Dövlə Sədəqə ilə Çökərmiş Cavlıya köməyə göndərildi. Lakin Çökərmişin yardım etməməsi ilə bu hücum nəticəsiz qaldı. Üç ildən artıq Trablusu müdafiə edən İbn Əmmara da daxili ixtilaflar nəticəsində yardım edilmədi.

Bu qarışıqlıqdan istifadə edən Gürcü kralı David (1089-1125) qırx min nəfərlik ordu ilə Gəncə qapılarına qədər irəlilədi. Bu hücumların qarşısını almaq istəyən Məhəmməd Tapar 1110-cu ildə göndərdiyi ordu ilə bir çox yerləri ələ keçirdi.[783]

Şiələri himayə edən Seyfud-Dövlə Sədəqənin getdikcə artmaqda olan nüfuzundan ehtiyat edən Məhəmməd Tapar onu da edam etdirdi.

Çox adil və əxlaqlı bir hökmdar olan sultan Məhəmməd Tapar 1118-ci ildə (hicri 511) 37 yaşında vəfat etmişdir. Ölümündən əvvəl özündən sonra oğlu Mahmudu vəliəhd elan etmişdir.[784]

Əbul-Haris Sultan Səncər 1118-1157 (hicri 512-552)

1118-ci ildə Məhəmməd Taparın ölümündən sonra onun vəsiyyətinə əsasən on üç yaşlı oğlu Mahmud Səlcuq sultanı elan edildi. Bununla razılaşmayan əmisi Səncər eyni vaxtda Xorasanda öz sultanlığını elan etdi. Bundan sonra Mahmudu taxtdan salmaq üçün onun üzərinə getdi. 1119-cu ildə *(hicri 513)* Rey yaxınlığında baş verən döyüşdə Mahmudu məğlub edən Sultan Səncər onu Reyin qərbinin sultanı elan etmişdir. Reydə daxil olmaqla şərq bölgəsini özünə tabe edən Səncər isə "Sultanul-azam" ləqəbini götürmüşdür.[785]

Sultan Səncərin Şərq fəaliyyəti

916-cı ildə Çinin cənubunda Lieo xanədanının əsasını qoyan Qaraxitaylar Balasaqun sərhədlərinə gəlib burada yerləşsələrdə Kaşğar yaxınlığında Kaşğar hökmdarı Arslan Əhməd Xan tərəfindən 1128-ci ildə *(hicri 522)* məğlub edildilər.[786]

Baş verən hadisələrdən narahat olan sultan Səncər Qaraxitayların hücumunun qarşısını almaq üçün tədbirlər görməyə başladı. Şərqdən etdikləri səfərdə uğur qazana bilməyən Qaraxitaylar şimaldan Qırğız ölkəsini keçərək Qaraxanlı torpaqlarına daxil oldular. Qaraxanlı hökmdarı ilə Qarluq və Qanqlı qövümləri arasında

---

[783] əl-Hüseyni, Əhbar, səh-57.

[784] Mateos, Vekayi-namə, səh-262-264; Özaydın, Məhəmməd Tapar Dövrü, səh-150-153.

[785] Bundari, İraq və Xorasan Səlcuqları, səh-122-123; İbn Əsir, əl-Kamil, X cild, səh-551-553.

[786] Köymən, Səlcuqlar, İkinci imperatorluq, səh-323-324.

olan düşmənlik səbəbi ilə köməyə gələn Qaraxitay hökmdarı Gur-Xan Balasaquna daxil olaraq, Kaşğarı və Hötəni ələ keçirdikdən sonra Tarım hövzəsində yerləşdi.

Buddist və şaman dininə mənsub olan Qaraxitaylar əvvəlcə Şərqi Qaraxanlı, sonra da Qarluqların köməyi ilə Qərbi Qaraxanlı torpaqlarını ələ keçirdilər. Səmərqənd hökmdarı Mahmudun Qarluqlardan şikayət etməsi ilə əlaqədar olaraq, bu məntəqəyə gələn Sultan Səncər onları itaət altına alaraq təzyiq göstərməyə başladı. Bundan narahat olan Qarluq, Çığıl və Yağma qövmləri Qaraxitay hökmdarı Gur-Xanı Sultan Səncərə qarşı döyüşə təşviq etdilər.

İki ordu 1141-ci ildə *(hicri 536)* Səmərqənd yaxınlığında Qətvan adlı məntəqədə qarşılaşdı. Baş verən döyüşdə otuz mindən artıq əsgərini itirən Sultan Səncər məğlub olaraq Sistan məliki Tacuddinin vasitəsi ilə Bəlxə qaçdı.[787]

Bu məğlubiyyət nəticəsində Səlcuqlu dövləti xeyli zəiflədi. Qaraxitay hökmdarı Gur-Xana tabe olan Xarəzm valisi Atsız Qətvan döyüşündən bir ay sonra Xorasan şəhərlərini ələ keçirməyə başlamışdır. Bunun ardınca Gur hökmdarı Əlaəddin də Səlcuqlu torpaqlarına hücum etmişdi.

Bu döyüşdən sonra Səlcuqlu dövləti Ceyhun çayından Çin sərhəddinə qədər olan ərazilərini itirdi. Türkistan bölgəsi müsəlmanlığı qəbul etdikdən sonra ilk dəfə Buddist bir qövmün hakimiyyəti altına düşdü. Qısa müddət sonra, əvvəlcə Naymanlar, ardından da Çingiz və Monqollar İslam dünyasını tamamilə istila edib tarixin ən böyük təxribatlarını həyata keçirdilər.

Xarəzimşah valisi Atsız ilə Gurlu hökmdar Əlaəddinin fəaliyyəti

Sultan Səncərin Qətvan döyüşündə məğlub olmasını fürsət bilən Atsız 1141-ci ildə (hicri 536) Xorasana gələrək, heç bir müqavimətə rast gəlmədən Sərəxsi ələ keçirdi. Ardından Səlcuqlu dövlətinin mərkəzi olan Mərvə gəlib öz adına xütbə oxutduran Atsız xeyli əsirlə Xarəzmə qayıtdı.[788]

Xorasan istilasından bir il sonra hakimiyyəti yenidən ələ keçirmək istəyən Sultan Səncər hicrətin 538-ci ilində (miladi 1143-1144) ikinci Xarəzm səfərinə çıxdı (ilk səfər 1138-ci ildə edilmişdir). Bundan narahat olan Atsız Sultan Səncərdən üzr istəyərək Mərvdən gətirdiyi səlcuq xəzinələrini olduğu kimi geri qaytarmışdır. Lakin bir müddət sonra Sultan Səncəri öldürmək istəyən Atsız məqsədini həyata keçirə bilmədi. Bununla əlaqədar olaraq Sultan Səncər 1147-ci ildə (hicri 542) üçüncü Xarəzm səfərinə çıxaraq Xəzərəsb qalasını ələ keçirdi.

Atsızı məğlub etdikdən sonra Sultan Səncər Gur hökmdarı Əlaəddinə qarşı fəaliyyətə başladı. Çünki Qətvan məğlubiyyətindən sonra Heratı ələ keçirən Əlaəddin Bəlxə doğru irəliləyirdi. Bu hücumların qarşısını almaq istəyən Sultan Səncər 1152-ci ildə (hicri 547) Əlaəddin Cahan-suzun üzərinə gedərək onu məğlub edib itaət altına aldı.[789]

---

[787]Turan, Səlcuqlular Tarixi, səh-191; İbn Əsir, əl-Kamil, XI cild, səh-81.
[788]Kafəsoğlu, Xarəzmşahlar Dövlətinin Tarixi, səh-54-55.
[789]İbn Əsir, əl-Kamil, XI cild, səh-164-166; Ravəndi, Rahatus-Sudur, I cild, səh-173.

Oğuzların hücumu və Səlcuqlu dövlətinin süqutu

Oğuzlar tərəfindən əsası qoyulan Böyük Səlcuqlu dövlətinə elə oğuzlar tərəfindən də son qoyulmuşdur. Qarluq və digər qövmlərin təzyiqi nəticəsində Maveraun-nəhrdən köç edən oğuzlar Bəlxdə məskunlaşdılar. Əvvəlcə Sultana bağlılıqlarını bildirən oğuzlar dövlətə müəyyən qədər vergidə ödəyirdilər. 1141-ci ildə baş verən Qətvan döyüşündə səlcuq ordusunun məğlubiyyətindən sonra oğuzlar sərbəst yaşamağa başladılar. Bundan narahat olan Bəlx hakimi Əmir Kumac oğuzları özünə tabe etmək üçün hərəkətə keçdi. Lakin baş verən döyüşdə məğlub olan Əmir Kumac oğlu ilə birlikdə öldürüldü.[790]

Baş verən hadisələrdən narahat olan Sultan Səncər əmir və komandirlərin təşviqi ilə oğuzlara qarşı müharibə elan etdi. 1153-cü ildə baş verən döyüşdə səlcuqları məğlub edən oğuzlar Sultan Səncəri də əsir götürdülər.[791] Bu məğlubiyyət eyni zamanda Səlcuqlu imperiyasının sonu oldu. Bütün Xorasanı başda Səlcuqların mərkəzi olan Mərv şəhərini talan edən oğuzlar əhaliyə zülm etdilər.

Üç il ağır işgəncələr altında oğuzların əsiri olan Sultan Səncər 1156-cı ildə qaçsa da, qısa müddət sonra 1157-ci ildə (hicri 552) Mərv şəhərində vəfat etmiş və özünün inşa etdirdiyi türbədə dəfn edilmişdir.[792]

Böyük Səlcuqlu Xaqanları:

1. Məhəmməd Toğrul-Bəy (1038-1063)
2. Məhəmməd Alp-Arslan (1063-1072)
3. Cəlalud-Dövlə I Məlik-Şah (1072-1092)
4. Mahmud (1092-1093)
5. Rüknüd-Dövlə Bərkyaruk (1093-1104)
6. II Məlik-Şah (1104-1105)
7. Məhəmməd Tapar (1105-1118)
8. Sultan Səncər (1118-1157).[793]

İraq Səlcuqları (1118-1194)

Məhəmməd Taparın ölümündən sonra sultan olan Səncər Azərbaycanı, sərhədlərini genişləndirib Əcəm və Ərəb İraqını da qataraq, bu ərazilərin ixtiyarını qardaşı oğlanlarına verdi. Beləcə Məhəmməd Taparın oğlanları və nəvələri əvvəlcə atalarının baş şəhəri olan İsfahanda, sonralar isə Həmədanda, Qafqaz dağları və Xəzər dənizi ilə Bəsrə körfəzi arasındakı sahədə "sultan" adı ilə səltənətlərini davam etdirdilər. Sultan Səncərin ölümünə qədər ona bağlı olan İraq Səlcuqları onun ölümündən sonra 1194-cü ilə qədər müstəqil olaraq səltənətlərini davam etdirdilər. Bu xanədanında varlığına Xarəzm-Şah Təkəş tərəfindən son qoyulmuşdur.

---

[790] Ravəndi, Rahatus-Sudur, I cild, səh-174.
[791] Bundari, İraq və Xorasan Səlcuqları, səh-253-254; Ravəndi, Rahatus-Sudur, I cild, səh-176-177.
[792] İbn Əsir, əl-Kamil, XI cild, səh-222.
[793] Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-484.

İraq Səlcuqlu sultanları:
1. II Mahmud (1118-1131)
2. Davud (1131-1132)
3. II Toğrul-Bəy (1132-1134)
4. Məsud (1134-1151)
5. III Məlik-Şah (1151-1153)
6. II Məhəmməd (1153-1159)
7. Süleyman-Şah (1159-1161)
8. Arslan-Şah (1161-1177)
9. III Toğrul-Bəy (1177-1194).[794]

Suriya Səlcuqları (1078-1122):
1. Tutuş (1078-1095)
2. Rizvan ibn Tutuş (1095-1113)
3. Alp-Arslan ibn Rizvan (1113-1114)
4. Sultan-Şah ibn Rizvan (1114-1122).[795]

Kirman Səlcuqları (1041-1187):
1. Qara-Arslan Qavurt ibn Çağrı bəy (1041-1073)
2. Kirman-Şah ibn Qavurt (1073-1074)
3. Sultan-Şah ibn Qavurt (1074-1084)
4. I Turan-Şah ibn Qavurt (1084-1097)
5. İran-Şah ibn Turan-Şah (1097-1101)
6. I Arslan-Şah ibn Kirman-Şah (1101-1142)
7. Məlik-Şah ibn Arslan-Şah (1142-1156)
8. Toğrul-Şah ibn Məlik-Şah (1156-1170)
9. Bəhram-Şah ibn Toğrul-Şah (1170-1175)
10. II Arslan-Şah ibn Toğrul-Şah (1175-1177)
11. II Turan-Şah ibn Toğrul-Şah (1177-1183)
12. Məhəmməd-Şah ibn Bəhram-Şah (1183-1187).[796]

Anadolu Səlcuqlar (1075-1318):
1. Süleyman-Şah (1075-1086)
2. Əbul-Qasim (1086-1092 və ya "Fitrət dövrü")
3. I Qlınc Arslan (1092-1107)
4. Məlikşah (Şahinşah) (1107-1116)
5. I Məsud (116-1155)
6. II Qılınc Arslan (1155-1192)

---

[794]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-485.
[795]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-489.
[796]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-490.

7. I Qiyasəddin Keyxusrəv (ilk hökmdarlığı 1192-1196)
8. Rüknəddin Süleyman (1196-1204)
9.İzzəddin III Qılınc Arslan (1204-1205)
10. I Qiyasəddin Keyxusrəv (ikinci hökmdarlığı 1205-1211)
11. İzzəddin Keykavus (1211-1220)
12. Əlaəddin Keyqubad (1220-1237)
13. II Qiyasəddin Keyxusrəv (1237-1245)
14. II İzzəddin Keykavus (1245)
15. II İzzəddin Keykavus, IV R. Q. Arslan
16. Əlaəddin Keyqubad (1248-1257)
17. IV Rüknəddin Qılınc Arslan (1257-1265)
18. III Qiyasəddin Keyxusrəv (1265-1284)
19. II Məsud (1284-1293)
20. III Əlaəddin Keyqubad (1293-1294)
21. II Məsud (1294-1308).[797]

Səlcuqlu vəzirləri:

1. Əbul-Xaas Əli ibn Abdullah əl-Cüveyniyyil-Buzqani (1044)
2. Əbul-Fəth Razi
3. Əbu Abdullah əl-Hüseyn Mikail ibn Əli (1055)
4. Əbu-Əhməd Dehistani (1055)
5. Əbu-Nəsr Məhəmməd ibn Mənsur (1055-1063)
6. Nizamül-Mülk (1063-1092)
7. Tacul-Mülk Əbil-Qənaim Mərzuban (1092-1093)
8. Müəyyədül-Mülk Ubeydullah ibn Nizamül-Mülk (1093)
9. İzzul-Mülk Əbi Abdullah əl-Hüseyn ibn Nizamül-Mülk (1093-1094)
10. Müəyyədul-Mülk Əbi-Dövlə (1094-1096)
11. Əbul-Fəzl Əsad Məcdil-Mülk Qummi (1096-1099)
12. Fəxrul-Mülk Əli ibn Nizamil-Mülk (1099-1100)
13. Əmidul-Azz Cəlalid-Dövlə Əbdil-Cəlil ibn Əli (1100-1101)
14. Xatirul-Mülk Əbi-Mənsur Məhəmməd ibn əl-Hüseyn (1101-1104; 1110-1118)
15. Sadul-Mülk Nəsriddövlə (1104-1107)
16. Nizamül-Mülk II Əbi-Nəsr Əhməd ibn Nizamül-Mülk (1107-1110)
17. Ziyaül-Mülk ibn Nizamil-Mülk (1110)
18. Əbu Cəfər Məhəmməd ibn Əli ibn Nizamil-Mülk (1118-1119)
19. Şihabul-İslam Əbil-Məhasin Əbdirr-Rəzzaq III Nizamil-Mülk (1119-1121)
20. Əbul-Fəth Şərəfiddövlə Əbu-Tahir (1121)
21. Nizamuddövlə Məhəmməd ibn Süleyman (1121-1123)
22. Osmanul-Qummi (1123)

[797] Nuri Ünlü, İslam Tarihi, İstanbul-1997, I cild, səh-452.

23. Muinul-Mülk Əbi-Nəsr Əhməd (1123-1127)
24. Nasrüddövlə Əbul-Xaas (1127-1132)
25. Qivamül-Mülk Əbil-Qaiim (1132-1135)
26. Nasiruddövlə Tahir ibn Fəxrul-Mülk (1135-1157)
27. Nizamül-Mülk IV Əli Qivamiddövlə.[798]

Bağdad Şahnələri (general):
1. Əmir Porsuq Bəy (1059-1064)
2. Əmir Aytəkin Süleymani Bəy (1064-1072)
3. Əmir Sadud-Dövlə Cövhər Ayın Bəy (1072-1093)
4. Əmir Yelbərəd Bəy (1093)
5. Əmir Aytəkin Cab Bəy (1093-1095)
6. Əmir Yusif ibn Abuk Bəy (1095-1101)
7. Əmir Artuqoğlu Nəcmud-Dövlə İlqazi Bəy (1101-1102; 1104-1105)
8. Əmir Gümüştəkin Candar Kaysari (1102-1104)
9. Əmir Mücahidud-Dövlə Bəhruz Bəy (1105; 1127; 1135-1142)
10. Əmir Aksunqur Porsuqi Bəy (1105-1126)
11. Əmir İmadud-Dövlə Zəngi Bəy (1126-1127)
12. Əmir Mahmud ibn Məhəmməd (1127)
13. Əmir Məsuud ibn Məhəmməd Bəy
14. Əmir Bəqa Bəy Mahmudi (1135).

Səlcuq Atabəylikləri
Şam Atabəyləri (1104-1154):

Böyük Səlcuqlu sultanına tabe olaraq əlli il müddətində Suriyanı idarə etmişlər. Əhli-sünnənin Hənəfi qoluna mənsub olan bu atabəyliyin mərkəzi Şam şəhəri idi. Suriya ilə bərabər Livanın da böyük bir qismi onlara tabe idi. Şam atabəyləri və hakimiyyət müddətləri:

1. Tuğ-Təkin (1104-1128)
2. Tacul-Mülk Böri (1128-1132)
3. İsmail (1132-1135)
4. Mahmud (1135-1139)
5. Məhəmməd (1139-1140)
6. Abak (1140-1154).[799]

Belatanus atabəyləri (Xumartəkinilər) (1188-1287):

Belatanus, Lazıkiyyə yaxınlığında, Suriyada Ağdəniz sahilində yerləşən bir qaladır. 1031-1188-ci illərdə xristianların və xaçlıların əlində olan bu qala 1188-ci ildə Səlahəddin Əyyubi tərəfindən fəth edilərək Bədruddin Xumartəkin

[798]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-491-492.
[799]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-497.

bəyin oğlu Nasiruddin I Məngubars bəyə verilmişdir. Əhli-sünnənin Hənəfi qoluna mənsub olan bu atabəylik 1250-ci ilə qədər Əyyubilərə, sonralar isə Məmlüklərə tabe olmuşdur. Belatanus atabəyləri və hakimiyyət müddətləri:

1. Nasiruddin I Mengubars ibn Bədruddin Xumartəkin (1188-1227)
2. Ruknuddin II Mengubars (1227-1262)
3. İzzuddin Əhməd ibn Müzəffəruddin Osman (1262-1273)
4. Ruknuddin III Mengubars (1273-1287).[800]

Ərbil atabəyləri (1144-1233):

Mosulun şərqində yerləşən Ərbil, hal-hazırda Türkiyədə bir şəhərdir. Bu şəhəri paytaxt seçən atabəylərə "Bəytəkinlilər" də deyilir. Türk əsilli olan Ərbil atabəyləri əhli-sünnənin Hənəfi qoluna mənsubdur. Bu xanədan Ərbil, Mosul, Kərkük, Haqqari, Sincar, Təkrit və Hərranı əhatə edirdi. 1168-1190-ci illərdə xanədanın əsas paytaxtı Hərran olduğu halda, Ərbildə də xanədanın digər məliki Yusif hakimlik edirdi. Ərbil atabəyləri və hakimiyyət müddətləri:

1.Əli Kiçik (1144-1168)
2.Yusif (1168-1190)
3.Kök Böri (1168-1233).[801]

Mosul atabəyləri (1122-1262):

Oğuzların Əvşar boyundan olan bu xanədan əhli-sünnənin Hənəfi qoluna mənsubdur. 1157-ci ilə qədər Səlcuq sultanı Səncərə, onun ölümündən sonra qısa müddət ərzində İraq Səlcuqlarına tabe olmuşlar. Sonralar öz müstəqilliklərini əldə etsələr də Abbasi xəlifələri ilə birlikdə öz adlarına da xütbə oxumuşlar. Xanədan ikisi krallıq, ikisidə xanlıq olmaqla dörd şöbədən ibarətdir:

1. Mosul krallığı (1122-1262) – 1185-ci ildə Əyyubilərə tabe edilmişdir. 1128-ci ildən 1146-cı ilə qədər Hələb daxil olmaqla, Urfa, Hərran, Xabur, Nasibin, Süruc, Xama, Xums, Bəəlbəkk, Rəqqa bu xanədanın idarəsi altında idi.

Mosul məlikləri:

1. Qasimuddövlə Əbi-Səid İmadiddövlə Zəngiyyil-Arəc (1122-1146)
2. Seyfuddövlə I Qaazi (1146-1149)
3. Qutbuddövlə Məvdud (1149-1170)
4. Seyfuddövlə II Qaazi (1170-1176)
5. İzzuddövlə I Məsud (1176-1193)
6. əl-Məlikil-Adil Əbil-Haris Nuriddövlə I Arslan-Şah (1193-1211)
7. əl-Məlikil-Qahir İzziddövlə II Məsud (1211-1218)
8. Nuriddövlə II Arslan-Şah (1218-1219)
9. əl-Məlikil-Qahir Nasiruddövlə Sultan Mahmud (1219-1234)
10 .Bədruddövlə Lulu (1234-1259)

---

[800]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-498.
[801]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-498.

11. əl-Məlikus-Salih Ruknuddövlə İsmail (1259-1261)
12. əl-Məlikul-Mücahid İshaq (1261-1262)
13.əl-Məlikul-Muiz Əlaiddövlə Əli (1262).[802]

2. Şam (sonralar Hələb adlanmışdır) krallığı 1146-1183: Mosul şöbəsindən ayrılan bu məliklik 1175-ci ildə Əyyubilərə tabe olmuşdur.

Şam məlikləri:
1. əl-Məlikil-Adil Əbil-Xaas Nuriddin Mahmud (1146-1174)
2. əl-Məlikis-Salih Qutbiddövlə İsmail (1174-1181)
3. Əbul-Fəth İmadiddövlə II Zəngi (1181-1183).[803]

3. Sincar xanlığı 1170-1220: Əlli il hakimiyyətdə bu xanlığı aşağıdakı əmirlər idarə etmişdir:
1. Əbul-Fəth İmaduddövlə II Zəngi (1170-1197)
2. Qutbuddövlə Məhəmməd (1197-1219)
3. İmaduddövlə Şah-Nişan (1219)
4. Cəlaluddövlə Mahmud Ömər (1219-1220).[804]

4. Cəzirətubni Umər (Cəzirə-i İbn-i Ömər) xanlığı 1180-1250): 1208-ci ildə Əyyubilərə tabe olan bu xanlığı aşağıdakı əmirlər idarə etmişdir:
1. Muizzuddövlə Sancar-Şah (1180-1208)
2. Muizzuddövlə Mahmud (1208-1241)
3. Məsud (1241-1250).[805]

Fars atabəyləri (və ya Salqurlular) 1137-1286

Oğuzların Salur boyundan olan bu xanədan əhli-sünnənin Hənəfi qoluna mənsubdur. Paytaxtı Şiraz şəhəri olan Fars atabəyləri 1157-ci ilə qədər Böyük Səlcuqlu sultanlarına tabe olmuşlar. 1157-ci ildən 1194-cü ilə qədər İraq Səlcuqlarına, 1194-1218-ci illər arasında müstəqil olaraq, 1218-1231-ci illər arasında Xarəzm-Şahlara, 1231-1286-cı illər arasında isə Elxanilərə tabe olaraq hakimlik etmişlər. Əsasən Fars əyalətində hakimlik edən atabəylik zaman-zaman Kirman, Umman, Hörmüz və 1236-cı ildən etibarən Bəhreyni də özlərinə tabe etmişlər.

Fars məlikləri və hakimiyyət müddətləri:
1. Boz-Aba ibn Salqur (1137-1147)
2. Muzəffəruddövlə Sunqur (1147-1161)
3. Muiz Zəngi (1161-1178)
4. Muiz Teklə (1178-1198)
5. Əbu-Şuca Muiz Təhəmtən Nasiri Əmiril-Muminin I Səd (1198-1226)

---

[802]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-499.
[803]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-499.
[804]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-500.
[805]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-500.

6. Muiz Əbi-Bəkr Qutluğ-Xan (1226-1260)
7. Muiz II Səd (1260)
8. Muiz Adududdövlə I Məhəmməd (1260-1262)
9. Muiz II Məhəmməd-Şah (1262-1263)
10. Muiz Səlcuq-Şah (1263-1264)
11. Muzəffəruddövlə Abış Xatun (1264-1286).[806]

Azərbaycan atabəyləri (və ya Eldənizlər) 1146-1225

Qıpçaq qrupuna mənsub olan bu xanədanın paytaxtı Gəncə şəhəri olmuşdur. Ərazi baxımından Şimali və Cənubi Azərbaycanı əhati edirdilər. 1146-1194-cü illər arasında İraq Səlcuqlarına, 1194-1217-ci illər isə arasında müstəqil olaraq hakimlik etmişlər. 1217-ci ildə Xarəzm-Şahlara tabe olan xanədanlığa, elə 1225-ci ildə Xarəzm-Şahlar tərəfindən son qoyulmuşdur.

Azərbaycan məlikləri:

1. Şəmsəddin Məhəmməd Eldəniz (1146-1175)
2. Şəmsul-İslam vəl-Muslimin Nusrətid-Dünya Atabəyi Azam Əbi Cəfər Məhəmməd Pəhləvani Cahan (1175-1186)
3. Muzəffərud-Dünya Məlik Qızıl-Arslan Osman (1186-1191)
4. Nusrətud-Dünya Əbi-Bəkr (1191-1210)
5. Məlik Muzəffərud-Dünya Özbək Pəhləvan (1210-1225).[807]

Qarabağ bəyləri 1155-1189

İraq Səlcuqlarının atabəyi olan Eldənizlərə tabe olan Qarabağ bəyliyini aşağıdakı əmirlər idarə etmişdir:

1. Seyfud-Dünya Muiz ibn Məhəmməd (1155-1160)
2. Bəybars ibn Seyfud-Dünya (1160-1189)
3. Əbdülməlik ibn Bəybars (1189).[808]

Əhər bəyləri 1191-1226

Eldənizlərə tabe olan Əhər bəyliyi iki əmir tərəfindən idarə olunmuşdur:

1. Piş-Təkin ibn Məhəmməd (1191-1210)
2. Nusrətud-Dünya Mahmud ibn Piş-Təkin (1210-1226).[809]

Xorasan atabəyləri (Kumaclar) 1157-1187

Hənəfi qoluna mənsub olan bu xanədanlığı aşağıdakı əmirlər idarə etmişdir:

1. Ayaba (1157-1174)
2. Əbu-Bəkr Toğan-Şah ibn Ayaba (1174-1185)
3. Səncər-Şah ibn Toğan-Şah (1185-1187).[810]

---

[806]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-504.
[807]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh 506.
[808]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-507.
[809]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-507.

XI FƏSİL

SƏFƏVİLƏR DÖVLƏTİ (1501-1736

Səfəvilər dövləti Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutur. 200 ildən çox bir tarixi dövr ərzində təkcə Azərbaycanı və qonşu ölkələri deyil, Yaxın və Orta Şərqin çox geniş ərazilərini idarə edən Azərbaycan Səfəvilər sülaləsi türk dövlətçiliyinin tarixinə parlaq səhifələr həkk etmişdir. Digər böyük türk imperiyaları kimi Səfəvilər dövləti də uzun müddət onun hakimiyyəti altında yaşamış xalqlara əmin-amanlıq gətirmiş, təkcə Azərbaycan türklərinin deyil, bu dövlətin tərkibinə daxil olan başqa xalqların, o cümlədən İran xalqlarının maddi və mənəvi mədəniyyətinin qorunub saxlanmasında, daha da tərəqqi etməsində olduqca mühüm rol oynamışdır.

Dövlətçilik tariximizə dair aparılmış tədqiqatlar aydın sübut edir ki, xarici ölkələrin (o cümlədən, vaxtı ilə Azərbaycan imperiyalarının tərkibinə daxil olan ölkələrin!) bir çox «araşdırıcıları» özlərinə «tarix yaratmaq» məqsədilə ya xalqımızın dövlətçilik tarixinə sahib çıxmağa çalışmış, ya da bu şanlı tarixi saxtalaşdırmaq üçün dəridən-qabıqdan çıxmışlar.

Ən böyük müsəlman xanədanlarından biri də Səfəvilər dövlətidir. Əməvilər, Abbasilər, Səlcuqlular, Osmanlılar xaric, digər İslam xanədanlarının ən əhəmiyyətliləri arasına Səfəvilər, Əyyubilər və Fatimilər daxildir. Səfəvilər dövləti XVI əsr boyunca Osmanlıdan sonra dünyanın ikinci, XVII əsrdə isə Osmanlı və Hindistan Teymurilərindən sonra dünyanın üçüncü qüdrətli dövləti olmuşdur. Səfəvilərin banisi Şeyx Səfiəddin İshaq əl-Musəvi əl-Ərdəbili (1252-1334) hesab edilir. Rəvayətə görə Şeyx Səfiəddin yeddinci İmam Misa ibn Cəfər Kazimin *(ə)* nəslindəndir, bu da öz növbəsində Hz.Əlinin *(ə)* və Hz.Muhəmmədin *(s)* qızı Hz.Fatimənin (sə) iyirmi altıncı nəslidir.

İ. P. Petruşevski Səfəvilərin tarixini dörd dövrə bölür:

Birinci dövr – XIII əsrin sonlarından 1447-ci ilə qədər davam edir. Bu dövrdə Səfəvi şeyxləri şiəliyi yayır, xalq kütlələrinin antifeodal hərəkatına başçılıq etməyə çalışırlar. Lakin bu dövrdə Səfəvilərin hakimiyyəti Ərdəbil mahalından kənara çıxmır.

İkinci dövr – 1447-1501-ci illər. Bu dövrdə Səfəvilər özlərini müstəqil ruhani feodalları kimi təqdim edir və Azərbaycanın siyasi həyatında mühüm rol oynayırlar.

---

[810]Yılmaz Öztuna, İslam Devletleri, Ankara kültür bakanlığı-1989, I cild, səh-508.

Üçüncü dövr – 1501-1587-ci illər. Həmin illərdə Səfəvilərin hakimiyyəti yaranır, möhkəmlənir və onlar Azərbaycanın iqtisadi-siyasi və mədəni həyatında mühüm rol oynayırlar.

Dördüncü dövr isə 1587-1736-cı illəri əhatə edir. Bu dövrdə Səfəvi dövlətinin mərkəzi Təbrizdən İsfəhana köçürülür.[811] Bu bölgü əsasında belə nəticəyə gəlirik ki, Səfəvilərin Ərdəbil hakimiyyəti dövrü 1501-ci ilə qədər, bütün Azərbaycanda hakimiyyət dövrü isə 1736-cı ilə qədər davam etmişdir.

XVII əsrdə Yaxın Şərqdə böyük bir imperiyaya çevrilən Səfəvilər dövləti Azərbaycandan başlayaraq müasir İran, şərqi Türkiyə, Əfqanıstan, Ermənistan, Cənubi Türkmənistan, İraq və qərbi Pakistan ərazilərini əhatə etmişdir. Səfəvilər müasir Azərbaycan milli kimliyinin və dövlətçiliyinin formalaşmasına mühüm təsir göstərmişlər. Belə ki, onlar tarixdə ilk dəfə 12-imam şiə təriqətini rəsmi dövlət dini, Azərbaycan türkçəsini isə rəsmi dövlət dili səviyyəsinə çıxarmışlar. Səfəvi adı Şah I İsmayılın babası Şeyx Səfiəddindən (1252-1334) gəlir. Bir sıra Səfəvi mənbələrində, o cümlədən də "Aləm-ara"da Səfəvi əcdadlarının tarixçəsi Şeyx Səfiəddinin yeddinci əcdadı olan və XI əsrdə yaşadığı güman edilən Firuzşah Zərrinkülahın həyatının təsviri ilə başlayır, onun yeddinci şiə imamı Musa əl-Kazimin *(ə)* nəslindən gəldiyi bildirilir.[812] Şeyx Səfiəddin Gilandakı Zahid Gilaninin tələbəsi olmuş və o öldükdən sonra zahidiyyə təriqətini səfəviyyə təriqətinə çevirmişdi. Sünnilərin şiələri təqib etdiyi üçün təqiyyə etdi və sünni kimi tanındı. Şeyx Əli dövründə təqiyyə aradan götürüldü. Daha sonra Şeyx Cüneyd dövründə Azərbaycanda hakimiyyəti ələ keçirmək üçün mübarizəyə başladılar. Şeyx Cüneyd 1459-cu ildə Şirvana hücum etdi və Samur çayı sahilində məğlubiyyətə uğradı, özü isə şəhid oldu. Daha sonra hakimiyyətə keçən Şeyx Heydər bu mübarizəni davam etdirdi. Şeyx Heydər dövründə onun müridləri Qızılbaş adlanmağa başladı. Buna səbəb onların şiə olduqlarını bildirmək üçün başlarına 12 zolaqlı qırmızı çalma qoymaları səbəb oldu. Daha sonra Şeyx Heydər 1483, 1487 və 1488-ci illərdə Şirvana hücumlar etdi. Sonunca səfərdə Şeyx Heydər şəhid edildi və Qızılbaşlar Ərdəbilə döndülər. Bu mübarizə daha sonra Şeyx Əli və nəhayət Şeyx İsmail tərəfindən davam etdirildi.

1499-cu ildə Şeyx I Şah İsmail öz tərəfdarlarını toplamaq üçün hərəkətə başladı. 1499-cu ildə Ərçivanda, daha sonra isə Çuxursəəddə məskən salaraq öz tərəfdarlarını topladı. 1500-cü ildə Ərzincana doğru hərəkət etdi. Anadolu, İraq və Suriyada olan tərəfdarları da ona qoşulduqdan sonra 1500-cü ildə 7 minlik orduyla Şirvana daxil oldu. Bəzi Səfəvi mənbələrinə görə, Şah İsmail Bayram bəy Qaramanlunu bir qədər döyüşçü ilə ordunun əsas hissəsindən ayıraraq, Qoyun-ölümü mövqeyindən Kür çayını keçməyə göndərmiş, lakin onlar çayı keçməkdə çətinlik çəkmişdir. Arxadan ordu ilə gələn Şah İsmail özünü at-

[811] Azərbaycan Tarixi, Çıraq nəşriyyatı, Bakı-2009, I cild, səh-410.
[812] Namiq Musalı, I Şah İsmayilin hakimiyyəti, səh-87.

la birgə suya vuraraq çayı keçmiş, onun ardınca bütün ordu hərəkət edərək, çayı keçməyə müyəssər olmuşdu. Bəzi mənbələrə görə isə, Şah İsmail Qara Piri bəy Qacarı iki min nəfərlik dəstə ilə Kür çayı üzərindən körpü salmağa göndərsə də, Şirvanşah Fərrux Yasar buna mane olmaq üçün həmin mövqedə üç min nəfərlik qoşun yerləşdirdiyindən qızılbaşların körpü salmaq cəhdi baş tutmadı. Həmin məntəqəyə gələn Şah İsmail "Həzrəti-Pərvərdigarın pak zatına təvəkkül edərək, özünü ordu ilə birlikdə sonsuz dəryaya vuraraq çayı keçdi."[813] Həmin il Şah İsmail Cabanı adlı məntəqədə baş verən döyüşdə Şirvanlıları məğlub etdi və Şirvanşah Fərrux Yasar qaçarkən öldürüldü. Şirvanşahın oğlu Şeyxşah xəzinəsini Gülüstan qalasında gizlədib, oranın müdafiəsini qulamı Xosrova tapşıraraq Şahdağ dağlarına çəkildi.

1500-cü ildə Bakını özünə tabe edən Şah İsmail Gülüstan qalasını mühasirəyə alsa da, Azərbaycan sultanı Əlvənd Mirzənin yaxınlaşmasını eşidib mühasirəni dayandırdı və Sultan Əlvəndə qarşı hərəkətə başladı. Şah İsmailin Şirvanı ələ keçirdiyini öyrənən Əlvənd Şirvana yürüş etmək üçün otuz minlik ordu topladı. Səfəvi ordusunun Kürü keçib irəlilədiyini öyrənən Əlvənd Mirzə, onların qarşısını kəsmək üçün Osman sultan Türkman adlı sərkərdənin başçılığı ilə on minlik ordu göndərdi. Bundan xəbər tutan Şah İsmail Ağqoyunlu ordusunun üzərinə Qara Piri bəy Qacarın və İlyas bəy Halvaçıoğlunun başçılığı ilə beş minlik ordunu göndərdi. İki tərəf arasında baş verən döyüşdə Osman və onun oğlu Məhəmməd də daxil olmaqla beş min Ağqoyunlu əsgəri öldürüldü və səfəvilər xeyli qənimət ələ keçirdilər.[814] Göndərdiyi ordunun səfəvilər tərəfindən məğlub edildiyini öyrənən Əlvənd Mirzə Naxçıvanı tərk edib, Şərura doğru çəkildi. 1501-ci ildə Şərur yaxınlığında baş verən döyüşdə Sultan Əlvənd Mirzənin otuz minlik ordusu Şah İsmail tərəfindən məğlub edildi və Sultan Əlvənd Mirzə Diyarbəkirə qaçıb, Mərəş və Əlbistan torpaqlarının hakimi Əlauddövlə Zülqədərə sığındı. Şərur qələbəsindən sonra Şah İsmail və tərəfdarları Təbizə daxil oldular. 1501-ci ildə I Şah İsmail Azərbaycan şahı elan edildi və beləliklə Azərbaycanda hakimiyyət Səfəvi sülaləsinə keçdi. Bununla da paytaxt Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu.

Təbrizə daxil olmanın ilk günlərindən, yəni 1501-ci ilin payızında islamın şiə təriqəti, dəqiq deyilərsə, imamilər (on iki imamın - ər "isna əşəri") təriqəti dövlət dini elan edildi. Cümə günü Şah İsmail özü şəxsən Təbrizdəki cümə məscidinə gedərək, şiə böyüklərindən olan Mövlana Əhməd Ərdəbiliyə minbərə çıxıb, 12 imam adına xütbə oxumağı əmr etdi, özü isə minbərin aşağısında dayanıb qılıncını sıyırdı. Xütbə oxunan zaman əhali arasında çaxnaşma düşdü.".[815]

Şirvanşah Fərrux Yəsar və Sultan Əlvənd Mirzə üzərindəki qələbədən sonra Şah İsmail, Səfəvi şeyxlərinin hələ XV əsrin ikinci yarısından etibarən uğ-

[813] Namiq Musalı, I Şah İsmailin hakimiyyəti, səh-130.
[814] Aləmara, Sahib, səh-55-57.
[815] Əhsanut-təvarix (Seddon), səh-61.

runda mübarizə apardıqları ilkin məqsədə – Azərbaycanın şiəlik bayrağı altında feodal birləşdirilməsi xarakteri daşıyan hədəfə nail olaraq, Təbrizdə Azərbaycan şahı kimi taxta çıxdı.

Səfəvi hökmdarı Şah İsmailin hərbi-siyasi fəaliyyətinin 1503-1508-ci illəri əhatə edən ikinci mərhələsi Ağqoyunlu imperiyasına daxil olan bütün ərazilərin ələ keçirilməsindən ibarət olmuşdur. Bu məqsədlə Şah İsmail Ağqoyunlu valilərinə məktub yazaraq, onlardan itaət göstərməyi tələb etmiş və tabe olacaqları təqdirdə vali olduqları ərazilərin onların ixtiyarında qalacağına söz vermişdi. Valilərin bir qismi itaət etsə də, qalanları Şiraza – Sultan Muradın, yaxud Qara-Həmidə – Əlvənd Mirzənin yanına qaçıb, onlara sığındılar.

Bundan istifadə edən Əlvənd Mirzə Mərəş və Əlbistan hakimi Əlauddövlə Zulqədərlə birlikdə səfəvi hökmdarı Şah İsmailə qarşı ittifaq yaradaraq, ondan iyirmi minlik qüvvə alıb, Azərbaycan üzərinə yürüş etmək üçün hazırlıqlara başladı. Əlvənd Mirzənin Ərzincanda qoşun toplamasından xəbər tutan Şah İsmail 1502-ci ildə Təbrizi tərk edərək Ərzincan üzərinə hərəkət etdi. Şah İsmailin on iki minlik ordu ilə onun üzərinə gəlmək üçün Van istiqamətində irəlilədiyini öyrənən Əlvənd Mirzə digər yolla Təbrizə daxil olaraq yeddi min nəfəri edam etdirdi. Əlvən Mirzənin paytaxt Təbrizə daxil olaraq xeyli insanı edam etdirdiyini öyrənən Şah İsmail dərhal geri qayıtdı. Şah İsmailə müqavimət göstərə bilməyən Əvənd Mirzə ordusu ilə birlikdə Diyarbəkrə qaçdı.

Beləliklə, Əlvənd Mirzə üzərindəki ikinci qələbədən sonra Şah İsmailin hərbi-siyasi fəaliyyətinin 1499-1502-ci illəri əhatə edən və Azərbaycanın birləşdirilməsi məqsədi güdən ilk mərhələsi başa çatdı. Məhz bundan sonra Şah İsmail bütövlikdə keçmiş Ağqoyunlu ərazilərini ələ keçirməkdən ötrü mübarizəyə başladı və 1503-1508-ci illəri əhatə edən bu kampaniya onun hərbi siyasi fəaliyyətinin ikinci mərhələsini təşkil etmişdir.

Səfəvilər dövləti sosial-iqtisadi baxımdan daha çox inkişaf etmiş Azərbaycan ərazisində yarandı. Bu dövlətin iqtisadi əsasını zəngin Azərbaycan vilayətləri təşkil edirdi. Bunların hesabına Səfəvilərin hakim dairələri öz dövlətlərinin qüdrətini artırmaq üçün maddi vəsait toplayırdılar.

Səfəvi dövlətində əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Hərbi komandanlıq, maliyyə idarələri, vilayətlərin idarə olunması demək olar ki, bütün saray vəzifələri Azərbaycan əyanlarının əlində idi. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycanlı idi. Ordu da, əsasən, Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmada Azərbaycan türkcəsindən istifadə olunurdu.

İran, İraq və Şərqi Anadolunun tabe edilməsi

1503-cü ildə I Şah İsmail müridi Qənbər ağanı Ağqoyunlu hökmdarı Murad ibn Yəqubun yanına göndərdi və İraqi Əcəm vilayəti üzərində hakimiyyətinin tanınmasını tələb etməklə bərabər ona tabe olmağı təklif etdi. Lakin onun

Şirazda apardığı danışıqlar heç bir nəticə verməsə də sultan Murad, Osmanlı dövlətinə güvənərək, Şah İsmailə itaət etməkdən imtina etdi. Rədd cavabı alan Şah İsmail 1503-cü ildə 13 minlik orduyla Həmədana doğru hərəkət etdi. Döyüşdən öncə Murad öz ordusunun hazırlıqlarını tamamlayaraq, Şirazı tərk edib, İsfəhana, oradan da Bəhmənzar yolu ilə Cərfədqana gəldi. Şah İsmail isə öz ordusu ilə Sultaniyyə şəhərinə gəlib, oradan da Həmədan üzərinə hərəkət etdi. Bu arada Muradın İsfəndiyar sultan Türkman adlı sərkərdənin başçılığı altında göndərdiyi beş minlik ordu səfəvi sərkərdələri Şah İsmailin qardaşı İbrahim Mirzə və İlyas bəy Halvaçıoğlu tərəfindən məğlub edildi. Bu toqquşmadan sonra tərəflər Alamaqulağı deyilən yerdə qarşılaşdı. 1503-cü ildə baş verən döyüşdə 70 minlik ordusu olmasına baxmayaraq Murad məğlub oldu və Şiraza qaçdı.

Almaqulağı düzündə Sultan Muradın məğlubiyyəti İranda hökmranlıq edən Ağqoyunlu əmirləri arasında daxili qalmaqallara səbəb oldu. Eyni ildə Kirman hakimi Əbulfəth bəy Bayandur Şiraza yürüş edib, Muradın oradakı valisi, Aybə sultanın qardaşı Yaqubcan bəyi Beyzaya qaçmağa məcbur etdi. Şiraz və Kazerunu ələ keçirmiş Əbulfəth bəy Firuzabada da sahib oldu, lakin orada dağdan yıxılaraq öldü. Onun ölümündən sonra sərkərdələrindən Şeyx Həsən bəy Şirazda, Mahmud bəy isə Kirmanda hakimiyyəti ələ keçirdilər. Bu arada əvvəllər Əbərqu hakimi olsa da, Rəis Məhəmməd Kərrəyə məğlub olub Əbulfəth bəyə sığınmış Şeyx Əli bəy qiyam qaldırıb Şiraza hücum etsə də, məğlub olaraq Əbərquya qaçdı və orada Kərrə tərəfindən öldürüldü. Beyzaya qaçmış Yaqubcan İsfəhanda türkmən tayfasından ordu toplayaraq, Şiraza hücum etdi və Şeyx Həsən bəyi qətlə yetirib, orada yenidən hakimiyyəti ələ keçirdi.[816]

Bu qarışıqlıqdan istifadə edən qızılbaşlar 1503-cü ildə Qum, Kaşan və İsfahanı, 1504-cü ildə Gülxəndan, Firuzğux, Ust qalalarını, 1505-ci ildə Yəzd və Kirmanı ələ keçirdilər. Bunun ardınca Şah İsmail öz qoşunu ilə birgə Qərbə doğru hərəkət etməyə başladı və 1507-cı ildə Van və Ərzincanı, 1508-ci ildə isə Şah İsmail Ərəb İraqını, Xorasan istisna olmaqla bütün İranı və indiki Ermənistanı özünə tabe etdi. 1506-1508-ci illərdə səfəvilər Bağdad şəhəri daxil olmaqla Diyarbəkri, Xilat, Bidlis, Ərciş və Ərəb İraqını fəth etdilər. Səfəvi dövləti şərqdən Şeybani xanın Özbək dövləti və qərbdə Osmanlı Türkiyəsi ilə həmsərhəd oldu.

Şah İsmayılın qərbdə hərbi əməliyyatlar keçirməsindən istifadə edən Özbək xanı Məhəmməd Şeybani Xorasanı işğal etdi və şaha təhqiredici məktublar göndərərək onu hədələdi, Azərbaycana və İraqa gələcəyini bildirdi. Şah İsmail isə cavabında özünün Xorasana gələcəyini bildirdi və ona əziyyət çəkməməyi məsləhət gördü. I Şah İsmail 1510-cu ildə Xorasana doğru hərəkət etdi və 1510-cu il dekabrın 1-də baş verən Mərv döyüşündə Məhəmməd xan Şeybanini məğlub edərək Xorasanı ələ keçirdi. Döyüşdə Məhəmməd Şeybani xan özü də

[816] Cahanguşa-yi xaqan, səh-176-181.

öldürüldü. Beləliklə, Şah İsmail Herat, Mərv və Bəlx şəhərləri daxil olmaqla Xorasanı ələ keçirdi. 1510-cu ildə Amu-Dəryadan Fərat çayına qədər geniş ərazi Şah İsmailin hakimiyyəti altına keçdi. Daha sonra Anadoluya dönən Şah İsmail Ağqoyunlular dövründə Azərbaycana tabe olan Şərqi Anadolunu ələ keçirmək üçün hərəkətə keçdi. 1512-ci ildə Qaraman və Malatyanı özünə tabe edən Şah İsmail daha sonra Təbrizə döndü.

Osmanlı-Səfəvi müharibələrinin yenidən başlanması

Osmanlı İmperiyasının Azərbaycanı işğal etmək planı II Mehmed (1451-1481) və II Bəyazid (1481-1512) dövründə baş tutmadı. Azərbaycan sultanları Uzun Həsən və Yaqub onları dayandırıdı və sülhə məcbur etdi. Ancaq osmanlılar Azərbaycanı və qonşu ölkələri ələ keçirmək niyyətlərindən əl çəkmədilər. Səfəvilər isə Gürcüstanı, Ermənistanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər. 1512-ci ildə Şah İsmailin sərkərdəsi Ərzincan hakimi Rumlu Nurəli yerli qızılbaşların köməyi ilə Kiçik Asiyada Qarahisar və Malatya şəhərlərinə yiyələndi. Eyni vaxtda məşhur səfəvi sərkərdəsi Məhəmməd xan Ustaclı Diyarbəkri ələ keçirdi və Şah İsmailin göstərişi ilə Sultan Səlimə hədələyici məktub yazdı. 1512-ci ildə taxta çıxan I Səlim (1512-1520) Avropa dövlətləri ilə sülh bağladı və bütün qüvvələrini Azərbaycana qarşı səfərbər etdi. Osmanlı sultanı hərbi əməliyyata başlamazdan əvvəl bir neçə tədbir həyata keçirdi: 1) Avropa ölkləri ilə – Moskva dövləti, Macarıstan, Venesiya, Moldaviya və Valaxiya ilə sülh müqaviləsi bağladı. Beləliklə, qərbdə müvəqqəti olaraq hərbi əməliyyat dayandı. 2) Yardım üçün Maveraunnəhrin özbək padşahı Ubeydulla xanın razılığını aldı. 3) Ölkə daxilində Səfəvi dərviş təriqətinin tərəfdarları olan yeddi yaşından yetmiş yaşa qədər bütün şiə kişi cinsini siyahıya aldırdı. 4) Sultan Səlim öz işğalçılıq niyyətini pərdələmək üçün 1514-cü ilin yazında Ədirnədə fövqaladə divan çağırdı. Bu divanda sünni üləmalar Qızılbaşları (şiələri) kafir elan etdilər və onlarla müharibənin doğru olduğuna fətva verdilər. Daha sonra I Səlimin əmri ilə Anadoluda 40-70 min arasında şiə qılıncdan keçirildi. Sultan Səlimin vəzirləri Şah İsmail ilə müharibənin son dərəcə təhlükəli olduğunu da bildirdilər. 1514-cü ildə Osmanlı ordusu I Səlimin rəhbərliyi ilə Səfəvilərin ərazilərinə daxil oldu. Lakin Şah İsmail Osmanlılara qarşı bir başa əməliyyata keçmədi və ordular uzun müddət qarşılaşmadi.

Fars mənbələrinə görə, döyüşdən əvvəl hərbi şurada osmanlıların taktikası ilə tanış olan Məhəmməd xan Ustaclı və Rumlu Nurəli düşmən üzərinə gecə hücuma keçməyi Şah İsmailə məsləhət gördülər. Lakin səfəvi sərkərdəsi şamlı Durmuş xan bu təklifin əleyhinə çıxdı, gecə hücumunu qorxaqlıq adlandırdı. Bu çıxışı bəyənən Şah İsmail belə dedi: "Mən karvan basan quldur deyiləm, qoy Allahın məsləhət bildiyi kimi olsun".[817]

[817] Azərbaycan tarixi, I cild, səh-425, "Çıraq" nəşriyyatı Bakı-2009.

Şah İsmailin göstərişi ilə səfəvi ordusu 1514-cü ildə Çaldıran düzündə Osmanlı ordusunu qarşıladı. Əvvəlki döyüşlərdən (1402-ci ildə Ankarada Teymur-İldırım Bəyazid və 1473-cü ildə Otluqbelidə Uzun Həsən-Fateh Sultan Əhməd arasında olan döyüşlər) fərqli olaraq bu dəfə üz-üzə gələn iki ordu sadəcə din düşmənçiliyi ruhunda tərbiyə edilib bir-birinə qarşı qoyulan və şəhid olmağa hazır olan silahlı fanatiklər idilər. Bu isə Çaldıran vuruşmasını tarixin ən qanlı döyüşlərindən birinə çevirdi. Osmanlı sultanı I Səlim üçün böyük zəfər sayılan Çaldıran döyüşü, əslində türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə strateji qələbəsi idi. Döyüşun taleyini Osmanlı yeniçəriləri həll etdi və onların qətiyyəti sayəsində Osmanlılar zəfər qazandı. Döyüş nəticəsində Qızılbaşlar məğlub oldular və Osmanlılar Təbrizi tutdular. Ancaq əhalinin müqaviməti və Səfəvi ordusunun toplanması sultanı 6 gün sonra Təbrizi tərk etməyə məcbur etdi. Sultan Şərqi Anadolunu ələ keçirdi və İstanbula döndü. Elə bu vaxt Azərbaycana artilleriya gətirməli olan Portuqaliya İran körfəzinə hücum etdi və Səfəfvilərin Hind okeanına çıxışını bağladı. Şah bəzi qızılbaşları cənuba, portuqaliyalılara qarşı vuruşmağa, Qara xanı isə Diyarbəkiri almağa göndərdi. Amma Qara xan 1516-cı ildə Mardinin cənubunda Qoçhisarda baş verən döyüşdə məğlub olaraq şəhid edildi. Nəticədə şimalda Xarput və Bitlisdən Rakkiyə qədər, cənubda isə Mosul türklərin əlinə keçdi. Həmçinin portuqaliyalıları körfəzdən çıxarmaq mümkün olmadı.

Çaldıran döyüşünün nəticəsi olaraq Türkiyə Ərzurum şəhəri ilə birlikdə Qərbi Anadolu və Şimali Mesopotamiyaya yiyələndi. Bağdad daxil olmaqla Ərəb İraqı səfəvilərin əlində qaldı. Lakin Türkiyə Azərbaycanı, indiki Ermənistanı, Gürcüstanı ələ keçirmək iddiasından əl çəkmirdi.

İki türk sülaləsi arasında baş vermiş bu amansız döyüş bütün türk-müsəlman aləmi üçün fəlakətli nəticələrə gətirib çıxardı. Əslən Cənubi Azərbaycandan olan H. Rzazadə məsələni düzgün qiymətləndirərək yazır: "Çaldıran döyüşü eyni dinə inanan və eyni dildə danışan Səfəvi və Osmanlı ordularına və islam dünyasına böyük ziyan vurdu. Göründüyü kimi, bu döyüşün qalibləri avropalılar oldular. Biz Şah İsmayılın və onun tərəfdarlarının igidliklərini yüksək qiymətləndiririk və bu azərbaycanlı dahinin üstün xüsusiyyətləri ilə fəxr edirik. Lakin, eyni zamanda, bu savaşın hər iki tərəf üçün ziyanlı nəticələrinə görə təəssüflənirik".[818]

Gürcüstanın tabe edilməsi

Gürcüstan XVI əsrdə bir neçə çarlığa parçalanmışdı. Çarlıqlar arasında müharibə gedirdi. Bu müharibədə İmeretiya çarı Mənuçöhr tərəfindən məğlub edilən Mesxiya çarı IV Kvarkvare (1516-1535) 1516-cı ildə Səfəvi hökmdarı Şah İsmailə müraciət etdi və taxtının qaytarılacağı təqdirdə Səfəvilərə itaət edə-

[818]H. Rzazadə, Negah-i müxtəsər be zindəgi-yi Şah İsmail-i Səfəvi, "Ərdəm", 1/4.1381, səh-21-22.

cəyini bildirdi. Buna görə Şah I Şah İsmail 1517-ci ildə Əli xan Rumlunu (Div sultanı) orduya əmir təyin edərək Şüraqel yolu ilə Gürcüstana göndərdi. Əli xan bütün Gürcüstanı tabe etdi və Şahın yanına döndü. Ancaq İmeretiya çarı Mənuçöhr Osmanlıya müraciət etdi və osmanli əsgəriylə birlikdə Mesxiya çarı Davidi ölkədən qovdu. Bu səbəbdən Əli xan yenidən Gürcüstana daxil oldu və gürcü və osmanlı əsgərlərini Dəbil (Divin) yaxınlığında məğlub etdi.

1521-ci ildə Kaxetiya çarı Levan xanın (1520-1574) Şəkiyə basqın etməsi ilə əlaqədar olaraq Şəki hakimi Həsən bəy kömək üçün Şah İsmailə müraciət etdi. Səfəvi hökmdarının əmrinə əsasən Əli xan Rumlu Qanıx (Alazan) və Kibri (İori) çaylarını keçərək Zəyəm və Hərəm qalalarına hücum etdi. Səhvini başa düşən Kaxetiya çarı Levan və Gürcüstanın digər hakimləri Kvarkvare, David bəy və Mənuçöhr səfəvi sərkərdəsi Əli xan Rumlunun, oradan da Naxçıvanda olan Şah İsmailin yanına gəldilər. Gürcü hakimləri Şah İsmaillə danışaraq ona tabe olduqlarını, xəzinəsinə hər il vergi verəcəklərini bildirdilər. Bundan əlavə Kartli çarı David Səfəvilərə ildə 300 yük ipək bac və xərac verməyi öhdəsinə götürdü. Bundan sonra bütün gürcü çarları Şah I İsmayılın yanına gələrək tabeçilik göstərdilər.

Luristan və Xuzistan əmirliklərinin tabe edilməsi

Səfəvi hökmdarı Şah İsmailin başçılığı altında olan böyük bir ordu 1508-ci ildə İraqdan İranın cənub-qərb bölgələrinə daxil oldu. Çünki bu məntəqədə Səfəvi hakimiyyətini tanımayan iki müstəqil əmirlik mövcud idi: Məlikşah Rüstəmin başçılığı ilə mərkəzi Xürrəmabad olan Luristan əmirliyi və paytaxtı Hüveyzədə yerləşən, Sultan Fəyyaz tərəfindən idarə olunan Xuzistandakı Müşəşə əmirliyi. Şah İsmail Hüveyzə üzərinə gedərkən Məlikşah Rüstəmə qarşı Əmir Nəcməddin Məsud, Bayram bəy Qaramanlı və Hüseyn bəy Lələ başda olmaqla on min nəfərlik ordu göndərmiş, özü isə əsas qüvvələrlə birgə Müşəşə ordusunu məğlub edib, Hüveyzəni tutmuşdu. Daha sonra Məlikşah Rüstəm onun Şüştər yaxınlığındakı düşərgəsinə gəlib itaətini bildirmişdi.[819]

Lurların bələdçiliyi ilə Xuzistana daxil olan səfəvilər ilk döyüşdə ərəb ordusunu məğlub etdilər. Bu döyüşdə başda ərəb sərkərdələri Nuəm ibn Numan və Sultan Məni olmaqla beş ərəb əsgəri qətlə yetirildi. Vahiməyə düşən Sultan Fəyyaz ordusunun qalıqlarını götürüb, Hüveyzə şəhərinə çəkildi. Hüveyzə yaxınlığında baş verən döyüşdə ərəb ordusu yenidən məğlub edildi və Sultan Fəyyaz öldürüldü. Bu qələbə nəticəsində Xuzistanı özlərinə tabe edən Səfəvi ordusu xeyli qənimət ələ keçirərək Təbrizə qayıdarkən, səfəvi hökmdarı Şah İsmail tərəfindən Sultan Fəyyazın qohumlarından olan Sultan Vəhhab Xuzistana vali təyin edildi. Bununla da Müşəşə hökmdarlarının Xuzistandakı müstəqil hakimiyyətinə son qoyuldu və Səfəvilərin vassalı olmuş Müşəşə hakimlərinin dövrü başladı.

[819]Həbibus-siyər, səh-496-499; Namiq Musalı, I Şah İsmailin hakimiyyəti, Bakı-2011, səh-173.

Səfəvilərin 1517-ci ildə edilən üçüncü səfərindən sonra Şirvanşah II İbrahim Şeyxşah (1502-1524) özünü tamamilə Səfəvilərdən asılı hesab edərək, Səfəvi hökmdarı Şah İsmailə çoxlu sayda qiymətli hədiyyələr göndərdi. Səfəvilərin paytaxtı Təbrizdə böyük hörmətlə qarşılanan II İbrahimin oğlu Sultan Xəlil Şah İsmailin qızı Pərixan xanımla nişanlandı. 1521-ci ildə isə II İbrahim özü Marağa düşərgəsinə gələrək Şah İsmaillə görüşdü. Bu hadisədən iki il sonra 1523-cü ildə Şah İsmail II İbrahim Şeyxşahın qızı ilə evləndi.

1524-cü ildə II İbrahim Şeyxşahın ölümündən sonra Şirvan taxtına II İbrahimin oğlu və Şah İsmailin qızı Pərixanın əri II Xəlilullah (1524-1535) keçdi. Həmin vaxt Şirvana doğru irəliləyən Şah İsmail bu hadisəni öyrəndikdə yolu dəyişərək Şəkiyə gəldi və burada Şəki hakimi Həsən bəy tərəfindən böyük hörmətlə qarşılandı.

Şəkidən geri qayıdarkən yolda Kaxetiya çarı Levanın (Ləvənd) böyük qoşunla Şəkiyə hücum etməsi və Şəki hakimi Həsən bəyin öldürülməsi xəbərini aldı. Baş verən hadisədən narahat olan Şah İsmail Kaxetiya çarını cəzalandırmağı qərara aldı. Lakin Şah İsmailin qəflətən vəfat etməsi bu işin həyata keçməsinə mane oldu. Səfəvi hökmdarı I Şah İsmail Ərdəbildən Təbrizə gedən yolda, Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Sayıngədiyi adlı məntəqədə 1524-cü il mayın 23-də 38 yaşında vəfat etdi.[820]

I Şah Təhmasibin hakimiyyətə gəlməsi və ölkədə baş verən hərc-mərclik

1524-cü ildə Şah I İsmail vəfat etdi və oğlu Təhmasib (1524-1576) şah oldu. Yeni hökmdarın az yaşlı olması və mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən səfəvi əmirləri itaətdən boyun qaçırdılar. Hakimiyyət əslində I Təhmasibin qəyyumu olan və rumlu tayfasının başçısı Əli xan Rumlu (Div Sultan) tərəfindən idarə olunurdu. Lakin bununla barışmayan ustaclı tayfasının əmirləri Köpək Sultan və Abdulla xan hər vasitə ilə Əli xan Rumluya mane olmağa çalışırdılar. Ustaclı əmirlərinin Təbrizdəki gücündən ehtiyat edən Əli xan Rumlu Xorasını özbəklərin basqınından qorumaq bəhanəsi ilə Təbəristana gələrək ordu toplamağa başladı. Rumlu liderinin dəvəti ilə İsfəhan hakimi Çuxa Sultan Təkəli, Həmədan hakimi Qaraca Sultan Təkəli, Məşhəd hakimi Burun Sultan Təkəli, Şiraz hakimi Əli Sultan Zülqədər və başqaları öz qoşunları ilə birlikdə həmin məntəqəyə gəldilər. Onlarla əlbir olan Əli xan Rumlu ustaclı əmiri Köpək Sultana qarşı ittifaq bağladı. Əli xan Rumluya qoşulmayan Şamlı tayfasını iki məşhur əmiri-Herat hakimi Durmuş xan və Astrabad hakimi Zeynal xan onun planını müdafiə etdilər. Ustaclı tayfasından olan bəzi əmirlər də Əli xan Rumlunun tərəfini saxladı. Nəhayət ətrafına kifayət qədər tərəfdar toplayan Əli xan Rumlu ustaclı əmiri Köpək Sultana məktub yazaraq mərhum şahın idarəsinə tabe olmağa və onun vəkalət hüquqlarını tanımağa çağırmaqla

[820] N. Fəlsəfi, Çənd məqale-yi tarixi və ədəbi, səh-86.

bərabər Təbrizə doğru hərəkət etdi. 1526-cı ildə Səksəncik adlı məntəqədə iki tərəf arasında döyüş baş verdi və bu döyüşdə Əli xan Rumlu qalib gəldi.

Bir il sonra öz ordusu ilə birlikdə Xalxal vasitəsi ilə Rəştdən Ərdəbilə gələn Köpək Sultan, yerli hakim Bədəncan Rumlunu öldürərək Əli xan Rumlunun yerləşdiyi Çuxur-Sədə gəldi. 1527-ci ildə Naxçıvanda Arpaçay sahilində baş verən döyüşdə Köpək Sultan yenidən məğlub olaraq öldürüldü. Üçüncü rəqibdən yaxa qurtaran Əli xan Rumlu tezliklə Çuxa Sultan Təkəli ilə mübarizə aparmalı oldu. Nəhayət 1527-ci ildə məhz Çuxa Sultan Təkəlinin göstərişi ilə Əli xan Rumlu öldürüldü və bununla da Rumlu tayfasının hakimiyyətinə son qoyuldu.

Dövlətin idarəsini ələ alan təkəli Çuxa Sultanın dövründə I Təhmasibin yalnız şahlıq titulu qalmışdı. Vilayətləri öz qohumları arasında bölüşdürən Çuxa Sultan, onların hər birinə xanlıq titulu və sultanlıq dərəcəsi vermişdi. Lakin tezliklə Çuxa Sultanın və təkəli tayfasının nüfuzu son dərəcə azaldı. Bu, 1529-cu ildə Zirabad yaxınlığında özbəklərlə vuruşmadan sonra baş verdi. Burada təkəli əmirləri döyüş meydanından qaçdıqlarına görə səfəvi qoşunu az qala məğlub olacaqdı.[821]

Özbəklərə qarşı baş verən döyüşdə qəhrəmanlıq göstərən Hüseyn xan Herat hakimliyinə yiyələndi. Lakin səfəvi ordusu Xorasanı tərk edən kimi Ubeydulla xan yenidən Heratı mühasirəyə aldı. Hüseyn xanın özbəklərin əlinə düşməsini istəyən təkəli tayfasının əmiri Çuxa Sultan səfəvilərə köməyi gecikdirdi. Onun məqsədini anlayan Hüseyn xan dərhal Ubeydulla xanla danışıqlara başladı. Danışıqlar nəticəsində Hüseyn xana müqavimətsiz şəhəri tərk edib Sistandan keçərək Şiraza getməyə icazə verildi.[822]

1531-ci ildə Hüseyn xan qardaşı Sam Mirzə ilə birlikdə şahın İsfəhandakı qərargahına gəldilər. Hüsey xandan canını qurtarmaq istəyən Çuxa Sultan onu öldürmək qərarına gəldi. Lakin həmin gecə Çuxa Sultan zülqədər tayfasından olan bir nəfərin atdığı ox nəticəsində qətlə yetirildi. Onun ölümündən sonra təkəli əmirləri hakimiyyətə oğlu Şah Qubadı gətirdilər. Lakin təkəli əmirlərinin hakimliyi ilə barışmayan ustaclı, rumlu, zülqədər və əfşarlar mübarizəyə başladılar. Həmədan yaxınlığında baş verən döyüşdə məğlub olan təkəlilərin bir çoxu Şah Təhmasibin əmri ilə qılıncdan keçirildi. Sağ qalanlar isə Bağdada qaçaraq Məhəmməd xan Şərafəddinə sığındılar. Lakin öz məqamını itirmək istəməyən Məhəmməd xan, onların bəzilərini edam etdirərək kəsik başlarını saraya şahın hüzuruna göndərdi.[823]

Bu hadisədən qısa müddət sonra Cənubi Azərbaycan hakimi olan Üləma bəy Təkəli vəkil vəzifəsini tutmaq üçün mübarizəyə başladı. Lakin müqavimətə rast gələn Üləma bəy Təbriz şəhərini talan edərək təkəli tayfasının bir hissəsi

---

[821] Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, Bakı-1993, səh-61.
[822] Əhsən ət-təvarix, səh-221-222.
[823] Tarix-i cahan-ara, səh-285; Məhəmməd Mehdi Şirazi, səh-269-271.

ilə Türkiyəyə getdi və sonralar Sultan Süleymanın (1520-1566) Azərbaycana etdikləri yürüşlərdə iştirak etdi.

Təkəli əmirlərinin hökmranlığı (1527-1531) 1531-ci ildən etibarən şamlı feodallarının hakimiyyəti ilə əvəz edildi. Çuxa Sultanın ölümündən sonra ən qüdrətli feodala çevrilən Hüseyn xan Şamlı, vəkil və əmir əl-üməra vəzifələrinə yiyələndi. Əvvəlki sələflərindən geri qalmayan Hüseyn xan da yaxşı vilayətləri şamlı əmirləri arasında bölüşdürərək şaha dövlət işlərinə qarışmağa imkan vermədi. Lakin 1534-cü ildə şaha qarşı sui-qəsddə təqsirləndirilən Hüseyn xan Şamlı Şah Təhmasibin əmri ilə edam olunmuşdur. Onun ölümü ilə qızılbaş tayfalarının on illik (1524-1534) ağalığına son qoyuldu. Qazi Cahan Qəzvininin vəkil vəzifəsinə təyin edilməsi isə I Şah Təhmasibin mərkəzi hakimiyyəti gücləndirmək və möhkəmləndirmək qətiyyətini göstərirdi.

Osmanlı-Səfəvi müharibəsinin II dövrü

Şah I Təhmasibin hakimiyyəti dövründə 1528-ci ildə özbəklər Xorasana hücum etdilər. Həmin il şah ordusuyla şərqə doğru hərəkət etdi və özbəkləri Herat yaxınlığında darmadağın etdi. Şahın şərqə səfərindən istifadə edən Luristan bəylərbəyi Zülfüqar xan üsyan qaldırdı və 1528-ci ildə dayısının hakim olduğu Bağdadı ələ keçirərək Ərəb İraqını özünə tabe etdi. Sonra Zülfüqar şəhərin açarlarını türk sultanına göndərərək onun tabeliyinə keçdi.[824]

Bununla əlaqədar Şah I Təhmasib 1529-cu ildə Bağdadı mühasirəyə aldı və Zülfüqar xan öldürüldü. Həmin il Bağdadı üsyançılardan təmizləyib Məhəmməd xan Türkməni Bağdad bəylərbəyi təyin etdi. 1531-ci ildə Təbriz bəylərbəyi Üləma xan Təkəli xəyanət edərək öz əsgərləriylə Osmanlıya qaçdı. Daha sonra Üləma xan Sultan I Süleymanı Azərbaycana yürüşə təhrik etdi. Buna əsasən 1534-cü ildə Osmanlı sultanı I Sultan Süleyman yüz min nəfərlik ordu ilə Azərbaycan sərhədlərini keçdi. Üləma ilə əlaqəsi olan bəzi qızılbaş əyanları Səfəvilərə xəyanət edərək əks tərəfə qoşuldular. Qısa vaxt ərzində Təbriz daxil olmaqla Cənubi Azərbaycanın bir çox yerləri türklərin əlinə keçdi.[825] Şah I Təhmasib Qəzvinə çəkildi və sultanla sülh bağlamaq üçün öz elçisini göndərdi, ancaq sultan onun təklifini qəbul etmədi. Lakin Azərbaycanda ciddi müqavimətə rast gələn I Sultan Süleyman, digər tərəfdən də qışın sərt keçdiyini və ərzaq çatışmamazlığını nəzərə alaraq ölkəni tərk edərək ordusu ilə birlikdə Bağdada çəkildi. Bu arada Şah Təhmasib Sultan Süleymanın Bağdadı almasına cavab olaraq Van və Qarsı mühasirəyə aldı. Bunun qarşısını almaq istəyən Sultan Süleyman Üləma paşanı Vana göndərdi, lakin baş verən döyüşdə Üləma bəy məğlub olaraq qaçdı və beləliklə Van və Qars ələ keçirildi. Buna cavab olaraq Sultan Süleyman 1535-ci ildə ikinci dəfə Azərbaycana daxil olaraq Təbrizi ələ keçirdi. Şah Təhmasib yenə də danışıq üçün Sultan Süleymana müraciət

[824] Şərəfnamə, II cild, səh-174-175.
[825] Əhsən ət-təvarix, səh-247.

etdi. Lakin bu müraciət Sultan Süleyman tərəfindən rədd edildi. İki tərəf arasında baş verən döyüşlər türklərə uğur gətirmədi. Osmanlı ordusu qızılbaşları Bitlisə qədər təqib etdilər. Ərciş qalasının müdafiəsində Sinan paşa və xeyli türk əsgəri öldürüldü. Bundan xəbər tutan I Sultan Süleyman İbrahim paşanın başçılığı altında olan böyük bir ordunu Ərcişdə müdafiə olunanların köməyinə göndərdi. Lakin bu dəstə də səfəvilər tərəfindən məğlub edildi. Beləliklə, Van və Ərciş ərazisi Şah Təhmasib tərəfindən ələ keçirildi. Daha sonra Sultan Süleyman əhalinin müqaviməti və orduda baş verən aclıq üzündən Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Bundan istifadə edən Şah Təhmasib ölkənin birləşdirilməsini davam etdirmək üçün 1538-ci ildə qardaşı Əlqas Mirzənin rəhbərliyi ilə otuz minlik ordunu Şirvanı tabe etmək üçün göndərdi. Surxab, Qorci və Qəbələ qalaları səfəvilər tərəfindən tutuldu. Sonra qızılbaşlar Gülüstan və Buğurd qalasına doğru hərəkət etdilər. Şirvan əyanları Buğurd qalasına sığınmışdılar. Dörd aylıq mühasirədən sonra Buğurd qalası ələ keçirildi, Şirvanşahların və yerli əyanların, o cümlədən Hüseyn bəyin xəzinəsi müsadirə edildi. Şirvanşah II Xəlilullahın (1524-1535) ölümündən sonra onun yerini tutan yaxın qohumu Şahrux (1535-1538) əsir alınaraq Təbrizdə gizli edam olundu. Əlqas 1538-ci ildə Şirvanşahlar dövlətinin bütün qalalarını ələ keçirdi, Şirvan bəylərbəyliyi hakimiyyətdən salındı və Şah Təhmasibin göstərişinə əsasən Əlqas Mirzə Şirvanın ilk bəylərbəyisi oldu.

Şirvanın Azərbaycan Səfəvi dövlətinin tərkibinə daxil edilməsi Azərbaycan xalqının tarixində müsbət rol oynadı. Ölkənin cənub və şimal vilayətlərinin Səfəvilərə birləşdirilməsi gələcəkdə Azərbaycanın iqtisadi və mədəni inkişafına təkan verdi.

Lakin Əlqas Mirzə 1547-ci ildə qardaşına xəyanət edərək müstəqillik üçün mübarizəyə başladı. Bununla əlaqədar Şah I Təhmasib Şirvana daxil oldu və bütün qalaları özünə tabe etdi. Əlqas Mirzə isə Krıma, oradan da İstanbula qaçdı və Üləma paşayla birlikdə öz vətəninə qarşı yürüşlərdə iştirak etdi. Əlqas Mirzədən sonra Şah Təhmasibin oğlu İsmail Mirzə (II Şah İsmail) Şirvan bəylərbəyi təyin edildi. Bunun ardınca eyni ildə Şirvanda baş verən Burhan Mirzənin və Abdullah xanın da qiyamı amansızlıqla yatırıldı. Beləliklə, Səfəvi hökmdarı I Şah Təhmasib 1547-ci ilin payızında Şirvanın idarə aparatını qiyamçılardan və Əlqas Mirzənin yaxın tərəfdarlarından təmizləyib Təbrizə qayıtdı.[826]

1546-cı ildə Budaq xan Qacar Şah Təhmasibdən əmr alaraq tabeliyindəki əsgərlərlə Baburilərin hakimiyyətində olan Qəndəharı Azərbaycan sərhədlərinə qatdı.

1548-ci ildə Sultan I Süleyman, Osmanlı imperiyasının tabeliyində olan bütün ölkələrdən-Macarıstan, Valaxiya, Bosniya, Serbiya, Moreya, Moldaviya, Anadolu, Məntəşə eli, Qaraman, Mərəş, Hələb, Suriya, Misir, Hicaz, Yəmən, Diyarbəkir, Ərəb İraqı və Kufədən toplanmış böyük bir ordu ilə üçüncü dəfə Azər-

[826]Əhsən ət-təvarix, səh-322-323, 325; Tarix-i cahan-ara, səh-297.

baycana hücum etdi və Təbrizi aldı. Bu zaman Azərbaycanın cənubunda qızılbaş tayfaları əmirlərinin arasında çəkişmələr qüvvətlənmiş, Şirvanda isə Səfəvilərin əleyhinə qiyam qalxmışdı. Bütün bunları nəzərə alan I Şah Təhmasib dövlətin paytaxtını şərqə, Türkiyə sərhədlərindən uzaqlara, Qəzvinə köçürdü. Lakin yenə də Azərbaycanda möhkəmlənə bilməyən Sultan Süleyman böyük tələfat verərək, dörd gündən sonra Təbrizi, sonra isə Azərbaycanın digər şəhərlərini tərk edərək ordusu ilə birlikdə Kürdüstandan Vana çəkildi. Van qalasını ələ keçirən Sultan Süleyman buranın ixtiyarını İsgəndər paşaya verərək Diyarbəkirə döndü. İbrahim xan və Məhəmməd bəy Türkmən Sultanın geri çəkilən ordusunun ardınca hərəkət edərək, onları Şəbüstər yaxınlığında məğlub etdilər.[827]

I Sultan Süleymanın geri çəkilməsindən sonra I Şah Təhmasib Xoya daxil olduqda İbrahim xan, Çaldıran adlı məntəqədə isə Kirman hakimi Şahqulu Sultan və Mahmud xan Əfşar da öz dəstələri ilə birlikdə ona qoşuldular. Osman Çələbinin başçılığı altında olan beş minlik türk ordusunu məğlub edən səfəvilər Qars qalasını dağıtdılar.

Səfəvilərin əsas qüvvələrini məqsəddən yayındırmaq istəyən Sultan Süleyman Əlqas Mirzəni və Üləma bəyi müxtəlif istiqamətlərə göndərdi. Əlqas Mirzə beş minlik nəfərlik qoşunla Şəhrizurdan İraqa tərəf, Üləma bəy isə Ərzurum və Sivas paşaları ilə otuz minlik qoşunla, Sultanın əmrinə əsasən Ərzurumu müdafiə etmək üçün göndərildi. Bitlisi sürətlə keçən Sultan Süleyman isə Diyarbəkirə gəldi.

Üləma bəyin Tərcanda olmasını öyrənən Şan Təhmasib Sufiyadan keçib, onun arxasınca hərəkət etdi. Lakin Üləma bəyin qorxudan qaçması ilə əlaqədar olaraq Şah Təhmasib Tərcandan Ərzincana doğru irəlilədi. Bayburt yaxınlığında İsmail Mirzənin başçılığı altında olan Səfəvi ordusu Məhəmməd Paşa Tək oğlunun başçılığı altında olan Osmanlı ordusunu məğlub edərək Ərzincanı ələ keçirdi. Bu arada İrəvana gələn Şah Təhmasib Üçkilsədə düşərgə saldı.

Şah Təhmasibin Ərzincanda olmasından istifadə edən Əlqas Mirzə beş min nəfərlik dəstə ilə Kürdüstandan Həmədana, sonra Qum üzərinə hərəkət edərək oradan da Kaşana daxil oldu. Səfəvi ordusunun yaxınlaşmasından xəbər tutan Əlqas Mirzə tələsik İsfəhana doğru hərəkət etdi. Bəhram Mirzənin və İbrahim xanın başçılığı altında olan Səfəvi ordusunun Kaşana çatdığını öyrənən Əlqas Mirzə təqibçilərdən canını qurtarmaq üçün Farsa tərəf hərəkət etdi. Şiraz-İsfəhan yolunda yerləşən Yezdxas qalasını ələ keçirən Əlqas Mirzə müdafiəçiləri qılıncdan keçirdikdən sonra Bəhbəhana, Dizfula daxil oldu. Oradan da Bayat qalasını keçərək Bağdadın hüdudlarına çatdı.[828]

1549-cu ildə Əlqas Mirzə ilə I Sultan Süleymanın arası pozuldu. O, əvvəllər Həmədanda tutduğu Bəhram Mirzənin ailəsini Şah Təhmasibə qaytardı və Sultan Süleymanın tələbi ilə İstanbula qayıtmaqdan imtina etdi. Buna görə də Məhəm-

---

[827] Əhsən ət-təvarix, səh-330.

[828] Təzkireyi şah Təhmasib, səh-622-628; Tarixi aləm arayi Abbasi, I cild, səh-71-75.

məd paşanın otuz minlik ordusu Əlqas Mirzənin üzərinə göndərildi. Osmanlı sultanından xilas olmaq istəyən Əlqas Mirzə Surxab bəyin hakim olduğu Mərivan qalasına qaçdı. Bundan xəbər tutan Şah Təhmasib Bəhram Mirzəni iyirmi minlik qoşunla Surxabın yanına göndərdi. Bəhram Mirzə Əlqası Mərivan qalasından gətirərək Şah Təhmasibə təhvil verdi. Şah Təhmasib üsyankar qardaşını Qəhqəhə qalasına saldırdı və 1549-cu ildə Əlqas Mirzə zindanda öldürüldü.

1550-ci ildə Səfəvi şahı Şah I Təhmasib Sultan I Süleymana elçi göndərərək sülh təklif etdi, amma sultan yenə də bu təklifi qəbul etmədi. Belə olduqda Şah Təhmasib 1552-ci ildə osmanlı ərazilərinə daxil olaraq müdafiədən fəal hücum əməliyyatlarına başladı. Digər tərəfdən də Ərzurum hakimi İsgəndər paşanın başçılığı altında olan osmanlı ordusunun Səfəvilərin əlində olan Çuxursəəd vilayətinə basqını, Səfəvi ordusunun Osmanlı torpaqlarına soxulmasına bəhanə oldu. Eyni ildə Səfəvi ordusu Van, Qars, Vostan, Bitlis, Pasin, Muş və Ədilçəvazı ələ keçirdi. Bu məntəqələrdə baş verən döyüşlərdə çoxlu sayda türk və kürdü qılıncdan keçirən səfəvilər xeyli qənimətlə geri qayıtdılar.[829] Sonra Şah I Təhmasib Ərzurum hakimi İsgəndər paşanı cəzalandırmaq üçün oğlu Şahzadə İsmayili Ərzuruma göndərdi. Ərzurum yaxınlığında baş verən döyüşdə İsgəndər paşanı məğlub edən Şahzadə İsmail Ərzurumu ələ keçirdi. Məşhur osmanlı əyanları Trabzon hakimi Mustafa bəy, Mərəş hakimi Kəbir İsa, Sultanın qullarağası Məhəmməd bəy, İsgəndər paşanın qardaşı Ramazan bəy, Malatya hakimi Xeyrəddin bəy və bir çox başqaları əsir alındılar.[830] 1553-cü ildə Naxçıvana qayıdan Şah I Təhmasib danışıqlar aparmaq üçün əmir Şəmsəddin Dilcanini sultan I Süleymanın yanına göndərdi. Lakin sultan I Süleyman Səfəvi hökmdarının bu təklifinə rədd cavabı verdi. Sultan I Süleyman 1554-cü ildə sonuncu dəfə Azərbaycana hücum etdi, ancaq bu dəfə də uğur əldə edə bilmədi. Əhalinin müqaviməti, Qızılbaşların ardıcıl qələbələri sultana Azərbaycanı ələ keçirməyə imkan vermədi. Nəhayət Sultan I Süleyman öz elçisi Məhəmməd paşanı Şah I Təhmasibin yanına göndərərək sülh danışıqlarına başlamağa razı olduğunu bildirdi və 1555-ci il mayın 29-da Amasyada Osmanlılarla Səfəvilər (Azərbaycan) arasında sülh müqaviləsi bağlandı. Müqaviləyə görə şərqi Anadolu, İmeretiya, Quriya, Ərəb İraqı Osmanlıya, Kartli, Kaxetya və Mesxiya Azərbaycana verildi.[831] Qərbi Ermənistan Osmanlıların, Şərqi Ermənistan (indiki Ermənistan) isə Səfəvilərin hakimiyyəti altında qaldı.

Bundan sonra şah şərqə döndü. Belə ki, əfqan əmiri Şirxan Baburi hökmdarı Humayun şahı məğlub edərək Hindistanı ələ keçirmiş və Humayun şah Azərbaycana sığınmışdı. Humayun şahın kömək üçün müraciətinə cavab olaraq şah 12 minlik ordunu Budaq xan rəhbərliyində ona verdi. Qızılbaşlar əfqanları ölkədən qovub çıxardılar və Humayun şah yenidən hakimiyyəti ələ keçirdi.

---

[829] Əhsən ət-təvarix, səh-358-361.
[830] Tarixi aləm aray-i Abbasi, səh-75-77; Əhsən ət-təvarix, səh-361-367.
[831] Tarixi aləm aray-i Abbasi, səh-87.

Şirvanda Səfəvilər əleyhinə üsyanlar

1547-ci ildə yenidən Səfəvilərə qarşı üsyan edən Burhanəli Sultan və Burhan Mirzə Qaytaqdan hücum edib Gülxan adlı məntəqədə düşərgə saldı. Şah I Təhmasibin göndərdiyi Şahzadə İsmail və Göyçə Sultan Qacarın başçılığı ilə göndərdiyi səfəvi ordusu qiyamçıları məğlub etdi. Məğlub olan Burhan Qaytağa qaçdı. Şirvan hakiminin Cənubi Azərbayycanda Osmanlı türkləri ilə döyüşə getməsindən istifadə edən Burhan yenidən Şirvana soxularaq, Şamaxını və digər əraziləri müqavimətə rast gəlmədən ələ keçirdi.

Türk mənbələrinə görə, Burhan Ədilcəvazda Azərbaycana hərəkət edən Sultan I Süleymanın yanına gəlmiş, onun tərəfindən Şirvan hakimi kimi tanınmış və osmanlı qoşunlarının dəstəyi ilə Şirvanı Səfəvilərdən geri almağa getmişdi.[832]

Osmanlıların Cənubi Azərbaycandan geri çəkilməsindən sonra Şah I Təhmasib Şirvan bölgəsini qiyamçılardan təmizləmək üçün Abdulla xan Ustaclını Şirvana hakim təyin etdi. 1549-cu ildə Kür çayını keçən Abdulla xan Əli Şaban adlı yerdə düşərgə saldı. Qiyamçılar isə Buğurd dərəsində düşərgə salmışdılar. Bu vaxt üsyançıların başçısı Burhan öldü və onun yerini qohumu Mehrab tutdu. Bu qarışıqlıqdan istifadə edən Abdulla xan hücum edərək qiyamçıları məğlub etdi və Mehrab yaxın adamları ilə birlikdə döyüş meydanından qaçdı.

Lakin yenə də Şah hakimiyyətini qəbul etmək istəməyən şirvanlılar Mehrabın yerinə yaxın qohumlarından olan Qurbanəlini gətirdilər. Qurbanəlinin başçılığı altında olan qiyamçılar bu dəfə Xəzər dənizinin Derav adlı adalarının birində möhkəmləndilər. 1550-ci ilin əvvələrində adaya daxil olan Səfəvilər Qurbanəlini və adamlarının bir çoxunu məhv etdilər.[833]

Bu qiyamın əsas məqsədi Şirvanşahlar dövlətini yenidən bərpa etmək idi. Öz məqsədlərinə çatmaq istəyən qiyamçılar Osmanlıların gücündən istifadə edirdilər. Osmanlılar da öz növbəsində şirvanlıların əli ilə Səfəviləri Şivandan sıxışdırıb çıxararaq Xəzər sahilinə çıxmağa can atırdılar.

Şəkinin Səfəvilərə birləşdirilməsi

Ən yaxın müttəfiqi olan Şirvanı itirən Şəki hökmdarı Dərviş Məhəmməd xan öz müstəqilliyini qoruyub saxlamaq üçün Səfəvi hökmdarı I Şah Təhmasiblə yaxınlıq etməyə başladı. O, Səfəvi hökmdarı I Şah Təhmasibin bacısı, şirvanşah II Xəlilullahın dul qalmış qadını Pərixan xanımla evləndi. Lakin onun ölümündən sonra iki tərəf arasında olan əlaqələr yenidən pisləşdi.

Buna görədə Osmanlı Sultanı Süleyman Azərbaycandan geri çəkilən kimi Səfəvi hökmdarı I Şah Təhmasib 1548-ci ildə Kiş qalasına sığınmış Dərviş Məhəmməd xanı cəzalandırmaq üçün Qarabağdan Sevindik bəy Əfşarı 2500 qorçu ilə Şəkiyə göndərdi. Şəkini talan edən Səfəvi ordusu xeyli qənimətlə geri qayıtdı.[834]

---

[832]Cəmi əd-duval, ərəb mətni, səh-33-34; rusca tərcüməsi, səh-174.

[833]Tatixi cahan-ara, səh-299-300; Əhsən ət-təvarix, səh-326-327, 340-341.

[834] Əhsən ət-təvarix, səh-334, Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, səh-78, Bakı-1993.

Şah Təhmasib nəhayət, 1551-ci ildə Şəkinin müstəqilliyinə son qoymaq qərarına gəldi. Ərəşdə düşərgə salan Səfəvi hökmdarı öz qasidini Şəki hökmdarı Dərviş Məhəmməd xanın yanına göndərərək onun yanına gəlməsini tələb etsə də, Şəki hakimi şahın tələbini rədd etdi. Bunu bəhanə edən səfəvilər Şəkiyə hücum etməyə başladılar. Hücumdan qorunmaq istəyən Şəki hökmdarı əyanları ilə birlikdə Kiş və "Gələsən-görəsən" qalalarına sığındılar. Qorçubaşı Sevindik bəy, Bədr xan və Şahqulu Soltan Ustaclı Kiş qalasının üzərinə göndərildilər. Abdulla xan Ustaclıya və Kaxetiya çarı Levana "Gələsən-görəsən" qalasının fəthi tapşırıldı.

Baş verən döyüşdə müqavimət göstərməyin faydasız olduğunu görən Kiş qalasının rəisi Mahmud bəy qapı açarlarını şaha təhvil verərək təslim oldu. Kişin süqutundan xəbər tutan Sıqnax müdafiəçiləri də mübarizəni dayandırıb şaha təslim oldular. Çıxılmaz vəziyyətdə qalan Şəki hökmdarı Dərviş Məhəmməd xan gecə dörd yüz nəfərlik dəstəsi ilə "Gələsən-görəsən" qalasından çıxıb qaçmağa cəhd göstərdi. Lakin Abdulla xan Ustaclı və Kaxetiya çarı Levanın dəstələri tərəfindən ələ keçirilərək edam olundu. Onun kəsik başı Səfəvi hökmdarı I Şah Təhmasibə göndərildi.

Beləliklə, Şəkinin müstəqilliyinə son qoyuldu və I Şah Təhmasib tərəfindən Toygün bəy Qacar Şəki hakimi təyin olundu.[835]

I Şah Təhmasibin ölümü və hakimiyyət uğurunda mübarizə

Şah I Təhmasib 1576-cı ildə öldü və oğlu II İsmail digər qardaşları Məhəmməd və Heydərə qalib gələrək Səfəvi şahı oldu. Şah II İsmail (1576-1577) dövrü sakitlik içində keçdi. Ancaq onun hakimiyyəti uzun sürmədi və 1577-ci ildə sui-qəsd nəticəsində öldürüldü. II İsmailin ölümündən sonra ölkədə ikihakimiyyətlilik yarandı. Qəzvində şirvanşah II Xəlilulahın dul arvadı Pərixan xanım dayısı Şamxal Sultanın köməyi ilə hakimiyyəti ələ keçirdi. Bütün Səfəvi əmirləri ona tabe oldular. Pərixan xanım gələcək şahın Şirazdan gəlişini eşidəndə müqavimətsiz tabe olmaq istəmədi. Dayısı Şamxal müqavimət göstərmək üçün öz adamlarını saraya topladı. Lakin Səfəvi əmirləri Pərixan xanımı tərk edərək Məhəmməd Xudabəndənin (Mirzə) tərəfinə keçdilər. Beləliklə, 1578-ci ildə Qəzvinə gələn Məhəmməd Xudabəndə (1578-1587) Səfəvi hökmdarı təyin edildi.

Hakimiyyəti ələ keçirən Məhəmməd Xudabəndə Pərixan xanımı bacısı və dayısı Şamxal Sultan ilə birlikdə edam etdirdi. Pərixan xanımın əşyalarını Lələ Xəlil xan Əfşara hədiyyə etdi. Məhəmməd Xudabəndə gələcək taxt-tac varisi II İsmailin bir yaşlı Şahşoca oğlunu da öldürdü.

Məhəmməd Xudabəndənin dövründə dövlət qızılbaş tayfa başçıları arasında bölünmüşdü. Hər bir tayfa başçısı ölkəni istədiyi kimi idarə etdiyindən Mə-

[835]Əhsən ət-təvarix, səh-348-351; Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, Bakı-1993, səh-79; Azərbaycan tarixi, I cild, Bakı-2009, səh-435.

həmməd Xudabəndənin yalnız şahlıq adı qalmışdı. Əmir xan Türkmən Təbriz, Piri Məhəmməd xan Ustaclı isə Ərdəbil əyalətlərinin hakimliyi vəzifəsini ələ keçirdi. Çuxursəəd bəylərbəliyi isə Məhəmməd Toxmaq Ustaclıya verildi. İmamqulu xan Qacar yenidən Qarabağ hakimi, Araz xan Rumlu Şirvan bəylərbəyi təsdiq edildi. Kirman hakimliyi Vəli xan Əfşara, Kaşanın idarəsi Məhəmməd xan Türkmənə, Qəzvin vilayəti Sultan Hüseyn xan Şamlıya, Fars vilayəti isə zülqədər tayfasının əmirlərinə verildi.[836]

Səfəvi tayfalarının hərəkətləri, əyanlar arasındakı çəkişmələr, mərkəzi hakimiyyətə tabe olmamaq cəhdləri Səfəvilər dövlətinə, onun müdafiə qüdrətinə sarsıdıcı zərbə endirdi.

Bu qarışıqlıqdan istifadə edən Van vilayətinin Osmanlı hakimi Xosrov paşa 1577-ci ildə kürd tayfalarını Səfəvilərə qarşı üsyana qaldırdı. İlk öncə Salmas və Tasuq hakimi Qazi bəy ayağa qalxdı. Xosrov paşa 1555-ci ildə I Şah Təhmasiblə Sultan I Süleyman arasında imzalanmış Amasya sülhünün şərtlərini pozaraq, kürdlərlə birlikdə Xoy üzərinə hücum etdi. İki tərəf arasında baş verən döyüşdə xoy hakimi Mahmud Sultan Rumlu həlak oldu. Xoyun ardınca kürd qiyamçıları Göyərçinlik qalasını və Urmiyanı ələ keçirərək Hüseyncan Xunuslunu öldürdülər.

Kürdlərin qiyamını yatırmaq üçün Azərbaycan hakimi təyin edilmiş Əmir xan Türkmən Təbrizdə on beş minlik ordu toplayaraq sərhəddə doğru hərəkət etdi. Səfəvi ordusu qarşısında tab gətirməyən kürd qiyamçıları qalalara sığındılar. Lakin dağıntılar səbəbindən Əmir xan və əmirlər kürdlər yenidən qayıdana qədər burada möhkəmlənə bilmədilər. Xoy, Salmas və Urmiya əhalisi buranı tərk etdilər. Bu məntəqələr kürdlərin hakimiyyətinə tabe oldu. Osmanlıların hücum edəcəyindən ruhlanan Sulduz və Miyanədə (Marağa yaxınlığında) yaşayan mükri kürd tayfası da Əmir bəyin başçılığı ilə Marağaya yaxınlaşaraq I Şah Təhmasibin xüsusi ilxısı olan on min seçmə ərəb atını apardılar. Azərbaycan hakimi Əmir xan Türkmən onların qarşısında aciz qaldı.

Kürd qiyamı ilə eyni vaxtda Osmanlıların təhriki ilə Burhan oğlu Əbu Bəkrin başçılığı ilə Şirvanda Səfəvilərin əleyhinə üsyan qalxdı. Ətrafına ləzgi və qarabörk tayfalarından üç min nəfərlik qoşun toplayan Əbu Bəkr türk sultanı III Murada (1574-1595) müraciət etdi və Səfəvilərin qovulmasından sonra onun vassalı olacağına söz verdi. Vahid etiqadı (sünniliyin) qorumaq adı ilə bir qrup şirvanlı və Əbu Bəkr İstanbula gəldi. Osmanlı türkləri Şirvana hücum edənə qədər Əbu Bəkr Türkiyədə qaldı.

Çıldır döyüşü və onun nəticələri

Səfəvilər əleyhinə baş verən kürd qiyamı və Şirvandakı üsyanlardan istifadə edən Osmanlı sultanı III Murad (1574-1595) ciddi müharibəyə hazırlaşdı.

---

[836]Əhsən ət-təvarix, səh-361-367; Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, Bakı-1993, səh-129.

Bu arada Osmanlılar 1555-ci ildə bağlanmış Amasya sülh müqaviləsini pozaraq Azərbaycan sərhəddini keçdilər. 1578-ci ildə Qızılbaşlar İmamqulu xan Qacar rəhbərliyində Çıldır düzündə Osmanlıları qarşıladılar. Ancaq Qızılbaşlar məğlub oldular və Məhəmməd xan Toxmaq Çuxursəədə, İmamqulu xan isə Qarabağa çəkildilər.

Səfəvi ordusunda birliyin olmaması, qızılbaş əmirlərinin həddindən artıq özlərinə arxayın olmaları, türklərlə döyüşə əhəmiyyət verməmələri, qüvvələr nisbətinin fərqi 1578-ci ildə baş verən Çıldır döyüşündə onların məğlubiyyətinə səbəb oldu. Bu döyüşdə Səfəvilər Mustafa Lələ paşanın başçılığı altında olan yüz minlik osmanlı ordusuna qarşı on beş min nəfərlə döyüşürdülər.

Çıldır qalibiyyətindən sonra Osmanlı ordusunun rəhbəri Lələ paşa Gürcüstana doğru hərəkət etdi. Bu vaxt gürcü feodalları arasında ixtilaflar davam edirdi. Onlardan bəziləri Səfəvilərə, bəziləri isə Osmanlılara qoşulmaq istəyirdilər. Çıldır döyüşü Səfəvilərin Gürcüstandakı nüfuzuna zərbə vurdu və gürcü feodallarının Osmanlılara meylini artırdı. Bu səbəbdən idi ki, Osmanlı sərkərdəsi Mustafa Lələ paşa Şirvana yürüş edərkən və geri qayıdarkən Mesxi şahzadəsi Mənuçöhr və onun qardaşı Kvarkvare ona bələdçilik etdilər.[837]

Şirvan səfərindən qayıdan Mustafa Lələ paşa Kartli çarı Simona və Kaxetiya çarı Aleksandrın yanına elçilər göndərib onlardan tabe olmalarını istədi. Kartli çarı Simon Mustafa Lələ paşanın təklifini rədd edib, Osmanlılara qarşı mübarizəyə başlasa da Kaxetiya çarı Aleksandr türklərə tabe oldu. Lələ paşanın başçılığı altında olan Osmanlı qoşunu 1578-ci ildə Tiflisi və Qorini ələ keçiridi. Zəyəm və Geram hakimləri də türklərə tabe oldular. Gürcüstanın türklərə tabe edilməsindən sonra Şəki hakimi İsa xan Səfəvilərin tərəfinə keçdi.[838]

1578-ci ildə Alazan çayını keçən Lələ paşanın başçılığlı altında olan Osmanlı ordusu burada Qızıbaşlarla qarşılaşdı. Çayın sahilində baş verən döyüşdə Əmir xanın başçılığı altında olan Səfəvi ordusu Osmanlıları məğlub edərək xeyli qənimət və əsir ələ keçirdi. Bu qələbədən sonra Şirvanı tərk edən Əmir xan Qarabağa qayıdaraq Səfəvi şahzadəsi Həmzə Mirzənin əsas qüvvələrini gözlədi. Bu arada onun oğlu Sultan Murad xan qızılbaş dəstələri ilə yenidən Alazan (Qanıq) çayını keçərək türklərə zərbə vurdu. Lakin türklər tərəfindən mühasirəyə alınan bu dəstə üç min nəfər itki verərək məğlub edildi. Bundan sonra Əmir xan öz qoşunlarının qalıqları ilə Təbrizə qayıtmağı daha düzgün çıxış yolu hesab etdi.[839] Bunu fürsət bilən Lələ paşa Şirvanı ələ keçirdi. Osmanlı ordusu Şirvana daxil olduğu zaman qızılbaş Şirvan hakimi Araz (və ya Aras) xan Rumlunun üsyanı baş verdi. Bundan xəbər tutan Mustafa Lələ paşa tələsik Alazan çayını keçərək Ərəşə daxil oldu.[840] Ərəşə daxil olan Lələ paşa buraya

[837]Şərəfnamə, II cild, səh-157.
[838]Tarixi aləm arayi Abbasi, səh-234.
[839]Tarixi aləm aray-i Abbasi, səh-235.
[840]Müənəccimbaşı, Səhaif əl-əxbar, III cild, səh-541.

Qaytas paşanın başçılığı ilə beş min nəfərlik hərbi dəstə yerləşdirdi. Osmanlı ordusunun qarşısında tab gətirməyəcəyini anlayan Şirvan hakimi Araz xan Rumlu Kürün cənubunda yerləşdi. Bu vaxt Əbu Bəkr Mirzə də ləzgi və şirvanlılardan ibarət olan üç minlik dəstə ilə Şirvana daxil oldu. Türk ordusu demək olar ki, heç bir müqavimətə rast gəlmədən Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyanı ələ keçirdi. Bu ərazilərin ələ keçirilməsi Azərbaycanın və Ermənistanın xeyli köçəri kürd tayfalarının və Şimali Azərbaycan sünnü əyanlarının türklərin tərəfinə keçməsinə səbəb oldu. Digər tərəfdən də Səfəvilərin ağır zülmündən cana doymuş Şirvan əhalisi onlara qarşı qiyam qaldırdılar. Osmanlıların şəhərə daxil olmasından sonra qiyam qaldıran dərbəndlilər Səfəvi hakimi Çıraq xəlifəni üç yüz nəfər tərəfdarı ilə birlikdə məhv etdilər.[841]

Şirvanı bütünlüklə ələ keçirən Mustafa Lələ paşa buranı mahallardan ibarət olan iki bəylərbəyliyinə – Şamaxı və Dərbənd bəylərbəyliklərinə böldü.

Şamaxı vilayətinə aşağıdakı mahallar daxil idi: 1) Lahıc, 2) Ağdaş, 3) Qəbələ, 4) Salyan, 5) Zərdab, 6) Şəki, 7) Bakı, 8) Sədə-ru, 9) Qara Ulus, 10) Axtı və İxır, 11) Diku, 12) Sirhan, 13) Osmani, 14) Xudavərd, 15) Mahmudabad. 16) Ərəş.

Dərbənd vilayətinə isə bu mahallar daxil idi: 1) Dəmirqapı Dərbənd, 2) Şabran, 3) Axtı, 4) Quba, 5) Məskir, 6) Kürə, 7) Çıraq, 8) Restov. Şirvan dövlətinin müstəqilliyinə son qoyan Mustafa Lələ paşa buraya Osman paşanı hakim təyin etdi.

Şivandan Ərzuruma doğru hərəkət edən Mustafa Lələ paşa, Tiflis ərazisində Qarabağ bəylərbəyi İmamqulu xan və Kartli çarı Simonun birgə hücumuna məruz qalaraq iyirmi min nəfər itki verdi və qızılbaşlar xeyli qənimət ələ keçirdi.

Mustafa Lələ paşanın Şivanı tərk etməsindən sonra, Osman paşa Gəncəyə və Salyana hücum etsə də Araz xan Rumlunun güclü müqavimətinə rast gələrək Şamaxıya çəkilərək Krım tatarlarının gəlişini gözlədi. Bu dəfə Qaytas paşanın başçılığı altında olan osmanlı ordusunu məğlub edən İmamqulu xan Ərəşi geri aldı. Qaytas paşa öldürüldü, sərkərdə Əbdürrəhman bəy isə əsir düşdü. Bundan xəbər tutan Mustafa Lələ paşa ölkəni tamamilə tabe etmək üçün Şirvan hakimi Osman paşaya kömək etməyi Əbu Bəkr Mirzəyə tapşırdı və vətənə qayıtdıqdan sonra Şirvana hakim təyin edilməsi barədə sultandan xahiş edəcəyini ona vəd etdi.

Bu qarışıqlıqdan istifadə edən Səfəvi hökmdarı Məhəmməd Xudabəndənin oğlu Həmzə Mirzə otuz minlik qoşunla əks hücuma keçib, Ərdəbildən Qarabağa gəldi. Burada əmirlərin və vəzir Mirzə Soltanın qoşunu ilə birlikdə Kürü keçib Şirvanı türklərdən azad etməyi qərara aldı.

Bundan xəbər tutan Araz xan Rumlu öz işini ehtiyatlı tutmaq üçün Şamaxını mahasirəyə almaq məqsədi ilə Kürü keçərək Şamaxıya gəldi. Lakin sultan

[841]Azərbaycan tarixi, I cild, səh-446, Bakı-2009.

qoşunu, Krım tatarları, ləzgilər, qarabörklər və Əbu Bəkr Mirzənin Şirvan üsyançıları tərəfindən qızılbaşlar məğlub edildi və Araz xan Rumlu əsirlərlə birlikdə edam edildi.

Araz xan Rumlunun edamından sonra Osman paşa Şamaxıya, Adil Gəray isə Əbu Bəkrlə birlikdə Araz xanın düşərgəsini qarət etmək üçün cənuba, Muğan düzünə tərəf hərəkət etdilər. Bu vaxt Həmzə Mirzə, Mirzə Salman və əmirlər Qarabağdan təcili hərəkətə başladılar və Qoyun Ulumu keçidindən Kürü keçərək Şirvana daxil olub, Osman paşanı Şamaxı qalasında mühasirəyə aldılar. Mühasirə zamanı Adil Gərayın başçılığı altında olan Krım tatarlarının Osman paşaya yardıma gəlməsindən xəbər tutan Mirzə Salman Vəli Xəlifə Şamlını 42 min nəfərlik dəstə ilə Şamaxı yaxınlığında qoyaraq digər əmirlərlə cənuba, tatarlara qarşı hərəkət etdi.[842] Tərəflər 1578-ci ildə Ağsu çayı sahilində, Mollahəsən adlı yerdə qarşı-qarşıya gəldilər. Baş verən döyüşdə Krım tatarlarının başçısı Adil Gəray və Qaytas paşanın ölümündən sonra onun yerinə Ərəş hakimi təyin edilən osmanlı sərkərdəsi Piyalə bəy qızılbaşlara əsir düşdü. Adil Gərayın əsir düşməsindən sonra tatarların bəzisi döyüş meydanından qaçsa da, əksəriyyəti qılıncdan keçirildi. Aras xan Rumlunun məğlubiyyətindən sonra tatarların ələ keçirdiyi qənimətləri Səfəvilər geri qaytardılar.

Mollahəsən adlı yerdə Krım tatarlarını məğlub edən Mirzə Salman Şamaxı üzərinə hərəkət etdi. Bu arada tatarların məğlubiyyət və Adil Gərayın əsir düşməsi xəbərini alan Osman paşa kənardan edilə biləcək köməkdən məhrum olduğunu görüb Şamaxını tərk edərək Dərbəndə qaçdı. Səfəvilər onu Şabrana qədər təqib etdilər. Şirvan türklərdən azad edilsə də, onların dayaq nöqtəsi olan Dərbənd alınmadı.

Mollahəsən qələbəsinə baxmayaraq, Səfəvilər Şirvanda möhkəmlənə bilmədilər. Dərbənddən başqa heç bir dayanacaq yerləri olmayan türklər ləzgi və Dağıstan hakimlərinin köməyi ilə Şirvandakı qızılbaş əmirlərini narahat edirdilər.

Krım tatarlarının Şirvana və Qarabağa basqını

Krım xanı Məhəmməd Gəray Türkiyə sultanının təkidi ilə 1579-cu ildə hərbi qənimət əldə etmək üçün yüz minlik qoşunla Baxçasaray və Şimali Qafqazdan Şirvana doğru irəlilədi. Osman paşa onu Dərbənddə qarşıladı. Oktyabrən 23-də Şamaxıya çatan tatar qoşunu buradan Şirvanın müxtəlif rayonlarına dəstələr göndərib Şimali Azərbaycanı qarət etdi. Lakin qızılbaşların əks qüvvəsinin gəlişini eşidən Krım tatarları Azərbaycanı tərk etdilər. Tatarların Krıma geri qayıtması və qızılbaşların Şirvana daxil olması Dərbənddə yerləşdirilən türk qarnizonunu qorxuya saldı.

Qızılbaş əmirləri Mirzə Salmanla birlikdə Qarabağdan Şirvana gəlib, bir neçə günlük mühasirədən sonra Şamaxını ələ keçirə bildilər.

---

[842] Tarixi aləm aray-i Abbasi, səh-237.

Əmir xan Türkmən də öz qoşunu ilə Xaçmazda toplanan şirvanlılara və dağıstanlılara doğru irəlilədi. Lakin bu yürüş də aralarında birlik olmayan qızılbaşlar üçün uğursuz oldu. Bu eyni zamanda qızılbaş tayfaları arasında parçalanmaya da səbəb oldu. Şahrux xan tərəfindən müdafiə olunan şamlı və ustaclı əmirləri Əmir xana qarşı açıq etirazlarını bildirdilər. Əmir xan isə ona qarşı yönəldilmiş cinayətin baş sərkərdə Mirzə Salman tərəfindən təşkil edildiyini elan etdi. Yaranmış vəziyyətdən istifadə edərək şirvanlıları birlikdə darmadağın edib Osman paşanı Dərbənddən sıxışdırmaq əvəzinə, qızılbaş əmirləri iki düşmən cəbhəyə parçalandılar. Lakin bu dəfə də qorçubaşı Qulu bəy Əfşar müdriklik göstərərək iki tərəf arasında qan tökülməsinin qarşısını aldı. Lakin buna baxmayaraq iki cəbhə arasında olan düşmənçilik gündən-günə şiddətlənirdi.

Bu dövrdə Azərbaycanda vəziyyət son dərəcə ağır idi. Aramsız müharibələr, əkin sahələrinin tapdaq altında qalaraq məhv edilməsi, 1578-1579-cu illərdə türk-tatar və qızılbaş qoşunu tərəfindən törədilmiş talanlar, soyğunçuluq, quraqlıq – bütün bunlar Şirvanda, Qarabağda, Cənubi Azərbaycanda aclıq və xəstəlik törətdi. Bəzi yaşayış yerləri, hətta vəhşi heyvanların məskəninə çevrilmişdi.

Bu dövrdə Azərbaycanın əməkçi əhalisinin həyatı yerli sakinlərdən birinin, həmin hadisələrinin şahidi və müasiri, ermənidilli salnaməçi olan Ovanes Tsaretsinin məlumatlarında öz parlaq təsvirini tapmışdır. O belə yazırdı: 1579-cu ildə Atrpatakanda və bütün Ağvanqda dəhşətli və böyük xəstəlik başlandı. Bu xəstəlik nəticəsində bütün tayfalardan çoxlu sayda insan tələf oldu. İş o yerə çatdı ki, xeyli ev sahibsiz, ata və ana isə uşaqsız qaldı. Belə müsibətli vəziyyətə düşən Ağvanq ölkəsinin əhalisi ölənlər üçün göz yaşı axıdır, sağ qalanlara, xəstələrə, habelə özünə can yandırır və ağır düşüncəyə dalırdı: "Ah, görəsən təsadüfi ölümdən canımız qurtaracaqmı".

Ovanes Tsaretsinin söylədikləri ölkənin həm şimal vilayətlərinə (Qarabağa, Şirvana), həm də Azərbaycanın cənub hissəsunə aid idi.

Qızılbaş əyanları arasında çəkişmələr

Xaçmaza yürüş nəticəsində Əmir xanla Şahrux xan arasında ədavət yarandı. Ustaclı və şamlı tayfalarının başçısı Piri Məhəmməd xan Ustaclının və Hüseynqulu soltan eşikağasıbaşı Şamlının başçı olduqları ustaclı və şamlı tayfaları Şahrux xanın tərəfini saxlayaraq türkmənlərə qarşı çıxdılar. Lakin Qulu bəy çətinliklə də olsa bu tayfaların silahlı toqquşmasının qarşısını ala bildi. Əmirlərin Şirvan yürüşündən Təbrizə qayıtmasından sonra qızılbaş tayfaları arasında ziddiyyətlər daha da kəskinləşdi. Bu hadisəni yaxşı dərk etmək üçün Xorasandakı vəziyyətə qısaca nəzər salaq.

II Şah İsmail şamlı əmiri Əliqulu xanı Herata hakim təyin etdi. Onu bu vəzifəyə təsdiqləyən Şah Məhəmməd Xudabəndə isə Əliqulu xanı öz oğlu Abbas Mirzənin (gələcək I Şah Abbasın) lələsi təyin etdi. Xorasanın nominal canişini Abbas Mirzə hesab olunsa da, bütün işləri Əliqulu xan Şamlı idarə edirdi.

1578-ci ildə Əliqulu xan Mürşüdqulu xan Ustaclı ilə birlikdə Abbası guya təhlükə gözlədiyinə görə, anası Mehdi Ülyaya verməkdən imtina edib onu taxtın varisi kimi saxladılar və dövləti onun adından idarə etməyə başladılar. Əliqulu xanın güclənməsi eyni zamanda Məşhəd hakimi Murtuzqulu xan üçün də təhlükə yaradırdı. (İsgəndər Münşiyə görə, Məşhəd hakimi Murtuzqulu xan Pornak Türkmən "Xorasanın yarısının bəylərbəyi" idi və Xorasanın o biri yarısını idarə edən Herat hakimi Əliqulu xan Şamlıya tabe olmurdu.) Türkmən və təkəli tayfa əmirləri Əliqulu xanı müdafiə edir, onu özlərinə hakim seçərək "xanlar xanı" hesab edirdilər. Beləliklə, Xorasanda bir-biri ilə düşmənçilik edən Herat və Məşhəd dəstəsi yarandı.[843]

Bu qruplar arasında gedən mübarizədə Əliqulu xan Şamlının qohumlarının məğlubiyyəti Xorasanda qızılbaş qiyamçı tayfalarını sakitləşdirmədi, əksinə Əliqulu xanla və şamlı əmirləri ilə danışıq aparmaq imkanını əldən çıxardı və Xorasanın yarısının Səfəvi dövlətinin tərkibindən çıxmasına və bir il sonra-1581-ci ildə şahzadə Abbasın Xorasan əmirləri tərəfindən şah elan edilməsinə gətirib çıxardı.

Səfəvi-Osmanlı münasibətləri və Azərbaycan uğrunda mübarizə

Vəziyyətin son dərəcə ağır olmasına baxmayaraq Səfəvilər Şirvanı türklərə güzəştə getmək istəmirdilər. Bununla əlaqədar olaraq 1580-cı ildə Təbrizdə Şirvana yeni yürüş etmək qərara alındı. Bu yürüşü həyata keçirmək Salman xana və ustaclı əmirlərinə tapşırıldı. Arabsar yolu ilə keçən qızılbaş qoşunu Həmşəhr (Bakıxanovun qeyd etdiyinə görə, bu, Firdovsinin "Şahnamə" əsərində Ərəbşəhr kimi adı çəkilən qədim şəhərlərin xarabalıqları idi. "Gülüstani-İrəm", Bakı, 1951, səh-110-111) yaylağında dayandı.

1580-cı ildə Hacı Maqsud bəy Zülqədərin başçılığı altında Ərzuruma gələn qızılbaş nümayəndə heyətini avqustun 15-də türkiyə Sultanı III Murad İstanbulda qəbul etdi. Görüş zamanı Səfəvi hökmdarı Məhəmməd Xudabəndənin məktubu sultana verildi. Məktubda ilk qızılbaş səfiri Vəli bəy Ustaclının türk sərhədçiləri tərəfindən tutulub saxlanması və həbs olunmasından narazılıq bildirilir, Osmanlı qoşunlarının soyğunçuluq və talanla məşğul olması, müsəlman qadın və uşaqlarının əsir aparılması barədə narazılıq bildirilir, sülhü bərpa etmək, sakitliyi və ibadət üçün təhlükəsizliyi təmin etmək arzusu bildirilirdi.

Lakin itiriləni geri qaytarmaqla yanaşı Şirvanı da öz əllərində saxlamaq istəyən Osmanlı türkləri bütün imkanlardan istifadə edirdilər. Dərbənddə saxlanılan Osman paşanın ağır vəziyyəti III Muradı narahat etdiyi üşün üçüncü vəziri Sinan paşanı böyük bir orduya komandan təyin edərək, Şirvana yeni yürüşə göndərdi. Ərzurumda xeyli qoşun toplayan Sinan paşa öz səfirini hədələyici məktubla Səfəvi sarayına göndərdi.

[843]Tarix-i aləm aray-i Abbasi, səh-243-247.

Qızılbaş əmirləri, xüsusilə də Şahrux xan əmirlər arasında birliyin olmamasına baxmayaraq Sinan paşanın iddialarına rədd cavabı verdi: "Biz yalnız I Şah Təhmasibin 1555-ci ildə bağladığı Amasya sülh müqaviləsinin şərtlərinə razıyıq və öz torpağımızın bir qarışını da vermərik, nə qədər ki, yüz mindən bir nəfər qızılbaş sağdır. Sənin və onlarla sənin kimilərin gəlişindən qorxmuruq. Elə zənn etməyin ki, indi də Lələ paşa zamanındakı kimidir. O bizim üstümüzə gələndə, bizim şahımız İraqda idi. Azərbaycan əmirləri həmin vaxt öz aralarında düşmənçilik edirdilər. İndi isə bütün qızılbaş qoşunları Azərbaycanda, şahın yanında döyüşə hazır vəziyyətdədirlər. Şirvan ölkəsinin osmanlıların tabeliyində olması fikrində də yanılırsınız. Şirvan yenə də qızılbaş əmirlərinin əlindədir. Rumluların hakimiyyəti yalnız Dərbənd qalasının dörd divarı ilə məhdudlaşır. Həqiqətən də, əgər o vaxt qızılbaşlar arasında birlik olsaydı, onların qoruduğu ölkəyə düşmənin daxil olmağa cəsarəti çatmazdı.[844]

Qızılbaşlardan qəti cavab alan Sinan paşa bir qədər yumşalaraq ikinci dəfə daha mülayim məktub göndərdi. Bununla əlaqədar olaraq Qızılbaşların cavab məktubu da dostluq məktubu oldu.

Sinan paşanın təklifinə əsasən qışı keçirmək üçün tərəflər öz yerlərində qaldılar. Lakin bu və ya digər ərazinin kimə mənsub olmasını aydınlaşdırmaq üçün Şirvana nümayəndə göndərilməsi məsləhət bilindi. Bu məqsədlə türklər tərəfindən Ömər ağa Şirvana göndərildi. Sinan paşa Ərzuruma, Səfəvi şahı Məhəmməd Xudabəndə isə qışlamaq üçün Naxçıvan yaylaqlarından Qarabağa doğru hərəkət etdi.

Elə bu vaxt Şirvan üçüncü dəfə Qazi Girey və Səfi Gireyin başçılığı altında olan Krım tatarlarının hücumuna məruz qaldı. Bu dəfə tatarlar Dərbənddən keçərək Şirvana daxil olmuşdular. Bu hücum zamanı qızılbaş qoşunu Şirvanda yox idi. Çünki Salman xan əmirlərlə Kürü keçməmişdi və Qarabağ yaylağında idilər. Şirvan dönükləri Salman xanın düşərgəsinin yerini belə tatarlara demişdilər. Krım tatarlarının qəfil hücumuna məruz qalan Qızılbaşlar hətta silahlanmağa və bir yerə cəmləşməyə də imkan tapmadılar. Ona görə də qızılbaşların çoxu qaçmaqla canını qurtardı, müqavimət göstərən az bir hissəsi isə qəhrəmanlıq göstərərək həlak oldu. Qızılbaş düşərgəsini talan edən tatarlar elə həmin gün də geri qayıtdılar. Bu məqamdan istifadə edən Osman paşa tatarların köməyi ilə türk dəstəsini Bakıya daxil edib, qalanı möhkəmləndirdi.

Səfəvi şahı Qarabağa çatanda Salman xanın tatarlar tərəfindən məğlub edildiyini öyrəndi. Bununla əlaqədar olaraq Məhəmməd Xudabəndə təcili olaraq qışladığı Qızılağacdan Mirzə Salman, Əmir xan, Qulu bəy qorçubaşını, Şahrux xan, Pirməhəmməd xanı və digər əmirləri Mollahəsən adlı məntəqəyə göndərərək türk və tatarları qarşıladı. Baş verən döyüşdə məğlub olan türk və tatarlar geri çəkilməyə başladılar. Türklər yenidən Dərbənddə möhkəmləndilər, tatarlar isə Dağıstan yolu ilə Krıma qayıtdılar.

---

[844]Tarix-i aləm aray-i Abbasi, səh-261-262.

Qızılbaş qoşunlarının Şirvana gəlməsindən xəbər tutan Salman xan tələsik Kür çayını keçərək qoşunla birlikdə Bakıya gələrək şəhəri mühasirəyə aldı. Düşmən ordusunu Şabrana qədər təqib edən Əmir xan Türkmən də geri qayıdaraq, Bakını mühasirəyə alan Salman xanla birləşdi. On səkkiz gün türklərin müqavimətini qırmağa çalışan qızılbaşlar heç bir nəticə əldə etmədən sonda mühasirədən əl çəkdilər. Səfəvi qoşunu Şirvanı tərk edib Qarabağa qayıtdığı üçün həmin qış Şirvanda bir nəfər olsun belə qızılbaş qalmadı. Bununla əlaqədar olaraq Osman paşanın qoşunu Şirvanın bəzi rayonlarını ələ keçirdi.

Ömər ağanın Şirvana gəlməsi ərəfəsində Səfəvi sarayında onu qabaqlamaq üçün Şirvanın tutulmuş ərazisini təcili geri qaytarmaq qərara alındı. Bu əməliyyatın həyata keçirilməsi Qarabağ hakimi İmamqulu xan Qacara həvalə olundu. Peykər bəy Ziyad oğlu Qacar Şirvana yeni hakim təyin olundu.

Qızılbaş nümayəndələri ilə Şirvanı gəzən Osmanlı nümayəndəsi Ömər ağa Dərbəndlə Bakıdan başqa heç bir yerin türklər tərəfindən tutulmamasından əmin olduqdan sonra, onu müşayiət edən səfəvi Şahqulu Sultan Tebet oğlu Zülqədərlə birlikdə "əsl həqiqət barədə" məlumat vermək və sülh danışıqları aparmaq üçün Ərzuruma, Sinan paşanın yanına gəldilər.

Lakin Sinan paşa ilə Osman paşa arasındakı münasibətlərin gərgin olması sülh danışıqlarının aparılmasına mane oldu. Şahqulu Sultanı məktubla geri göndərən Sinan paşa Səfəvilərə təklif etdi ki, danışıq aparmaq üçün Sultan sarayına layiqli əmirlərdən birini göndərsinlər. Bununla əlaqədar olaraq Qum hakimi İbrahim xan qiymətli hədiyyələrlə İstanbula göndərildi. Sülh danışığı üçün İstanbula gələn İbrahim xanın cəhdləri heç bir nəticə vermədi. Çünki Osman paşa və onun tərəfdarları sultanı Sinan paşaya, onun təmkinli, sülhsevər tədbirləri əleyhinə qaldırmışdı. Yeddi il Osmanlı paytaxtında qalan İbrahim xan yalnız I Şah Abbasın dövründə vətənə qayıtdı.[845]

Yalnız Sinan paşa İstanbula, Məhəmməd Xudabəndə isə Qəzvinə qayıtdıqdan sonra iki tərəf arasında razılıq əldə olundu. Qısa müddət sonra Sinan paşa baş komandanlıq vəzifəsindən kənarlaşdırıldı və onun yerinə Fərhad paşa baş komandan təyin edildi.

1581-ci ilin yazında Qazi Girey və Səfi Gireyin başçılığı altında olan Krım tatarları dördüncü dəfə Şirvana basqın etdilər. Bununla əlaqədar olaraq İmamqulu xan Qacar kömək üçün Şirvan bəylərbəyi Peykər xana qızılbaş dəstəsi göndərdi. Bundan xəbər tutan Osman paşa da öz növbəsində tatarlara kömək üçün Dərbənddən xüsusi türk qoşunu gördərdi. İki tərəf arasında döyüş Şamaxı ilə Şabran arasında baş verdi. Baş verən döyüşdə türk və tatarların birləşmiş qoşunu məğlub oldu və Qazi Girey əsir alındı. Səfi Girey ilə Əbu Bəkr Mirzə isə aradan çıxdı.

Elə həmin ildə Peykər xan vəfat etdi və onun yerinə Xəlifə Ənsar Qarabağlı Şirvan hakimi təyin edilsə də Şirvanda heç bir uğur əldə edə bilmədi. 1582-ci ildə onun ölümündən sonra Şah Qarabağdan İraqa gedib Xorasana yü-

[845]Tarix-i aləm aray-i Abbasi, səh-264-265.

rüş etdikdən sonra "qızılbaş əmirlərindən heç biri Şirvanda qala bilmədi". Bundan istifadə edən Osman paşa yenidən Dərbənddən Şamaxıya daxil olub Şirvanda türk hakimiyyətini bərpa etdi.

1583-cü ildə İmamqulu xan Kürü keçərək Şirvana daxil oldu. Şamaxıda olarkən Yəqub bəyin Niyazabad ərazisində qoşun topladığını öyrənən İmamqulu xan Rüstəm xanı türklərə qarşı göndərdi. İki dəstə arasında baş verən döyüşdə osmanlı ordusu məğlub edildi və Yəqub bəy öldürüldü. Məğlub olan osmanlı ordusu qızılbaşlar tərəfindən Dərbəndə qədər təqib edildi. Bu arada köməyə gələn Osman paşa Samur çayı sahilində Baştəpə adlı məntəqədə qızılbaşlarla döyüşə girdi. İki tərəf arasında baş verən döyüş gecələr də məşəl işığında davam etdirildiyi üçün bu döyüşə tarixdə "məşəl döyüşü"də deyilir. Dörd gün davam edən döyüşdə məğlub olan qızılbaşlar döyüş meydanını tərk etmək məcburiyyətində qaldılar. Bu məğlubiyyətdən sonra Şirvan tamamilə Osmanlıların əlinə keçdi.[846]

80-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan qızılbaş əyanları ilə İran feodal nümayəndələri arasında olan mübarizə son dərəcə kəskinləşdi. Həmin vaxtlarda Mirzə Salman yeganə şəxs idi ki, İran feodal nümayəndəsi kimi vəzirliyini saxlaya bildi.

İlk dəfə I Şah Təhmasibin hakimiyyətinin sonlarında saraya gələn Mirzə Salman saray təsərrüfatına başçı ("naziri-büyutat") təyin edilmişdi. II Şah İsmailin (1576-1577) ölümündən sonra Məhəmməd Xudabəndənin və onun arvadının etibarını qazanan Mirzə Salman fəxri "etimad əd-dövlə" ("dövlətin etimadı") adı ilə "yüksək divan vəziri" vəzifəsinə layiq görülmüşdü. Daha da irəli gedən Mirzə Salman öz qızını taxt-tacın varisi Həmzə Mirzəyə verməyə, böyük oğlu Mirzə Abdullanı isə şahzadənin vəziri təyin etməyə nail oldu. Həddən artıq uğur qazanan Mirzə Salman qızılbaş əmirlərini bir-birinə qarşı qaldıraraq onları zəiflətməyə çalışırdı. Hətta 1582-1583-cü illərdə şah Xorasan qiyamçılarına qarşı yürüş edəndə Mirzə Salman şah qoşunları tərəfindən əsir alınmış bir sıra ustaclı və şamlı əmirlərini edam etdirdi.

Mirzə Salmanın fitnələrindən xəbər tutan qızılbaş əmirləri onu 1583-cü ildə Heratda öldürərək, var-dövlətini müsadirə etdilər.[847]

Fərhad paşanın başçılığı ilə türklərin Azərbaycana yürüşü

1583-cü ildə Fərhad paşa səksən minlik ordu ilə Ərzurumdan çıxıb Qars keçərək Çuxursəəd vilayətinə daxil oldu. Osmanlı türklərinin üstün olduğunu görən Çuxursəəd bəylərbəyi Məhəmməd xan Toxmaq Ustaclı kömək üçün Qarabağ və Cənubi Azərbaycan hakimləri İmamqulu xan Qacara və Əmirxan Türkmənə müraciət etdi. Lakin Qarabağ və Cənubi Azərbaycan hakimləri hələ Xorasanda olan şahın yardımı olmadan türk qoşununun qarşısına çıxacaqların-

[846]Tarixi-Peçevi, II, səh-79-82.
[847]Şərəfnamə, II cild, səh-268-269.

dan əmin olmadıqları üçün Məhəmməd xanın çağırışını cavabsız qoydular. Çünki Təbrizin kürdlərin hücumundan qorunmasını daha vacib bilən qızılbaş əmirləri oradan uzaqlaşmaq istəmirdilər. Buna da görə də İrəvanı tərk edən Məhəmməd xan Naxçıvana çəkildi. İrəvanı və Şirvanı ələ keçirən Fərhad paşa burada qala tikdirdikdən sonra qarnizon yerləşdirib geri qayıtdı.

Bundan sonra Təbriz vilayətinin bəylərbəyi Əmir xan Türkmən öz səfiri Qasım bəyin vasitəsilə türklərin İrəvanı tutması xəbərini şah sarayına yetirdi və şahdan Azərbaycana gəlməyi xahiş etdi. Bununla əlaqədar olaraq 1584-cü ilin yayında şah öz qoşunu ilə birlikdə Qəzvindən Təbrizə doğru hərəkət etdi.

Həmin dövrdə bütün Şirvan və Çuxursəəd vilayəti osmanlı türklərinin əlində idi. Şah Məhəmməd Xudabəndə bütün qüvvələri səfərbərliyə alıb, düşmən hücumunun qarşısını almaq və düşmənin ölkənin içərilərinə doğru irəliləməsinə mane olmaq əvəzinə 1585-ci ilin qışında və yazında öz vaxtını Təbrizdə fitnə-fəsadlara və əyləncələrə sərf etdi.

Türkmən və təkəli tayfalarının qiyamının başlanması

Türkmən tayfası ilə düşmən olan saray adamlarından bir çoxu, o cümlədən şamlı və ustaclı tayfalarının nümayəndələri Əmir xanın şahzadə Həmzə Mirzə ilə yaxınlaşması ilə razılaşmayaraq onların dostluğunu pozmağa çalışırdılar. Onlar Əmir xanın əleyhinə təbliğat apararaq sübut etməyə çalışırdılar ki, guya Əmir xan Təbrizdə qala tikdirərək hakimiyyətə qarşı çıxmaq niyyətindədir. Əmir xanın ətrafında olanlar xalqı istismar edir, Təbriz əhlini soyub və talayırlar. Bütün bu söz-söhbətlər Həmzə Mirzəyə öz təsirini göstərdi və o belə qərara gəldi ki, Əmir xanı Azərbaycanın cənub hissəsinin hakimliyindən uzaqlaşdırsın. Eyni zamanda Əmir xanın Həmzə Mirzə ilə ünsiyyətdən qaçması onu daha da pis vəziyyətdə qoydu. Beləliklə, şahzadə Həmzə Mirzə ilə Əmir xan arasında düşmənçilik yarandı. Nəticədə Həmzə Mirzənin göstərişi ilə Əmir xan Qəhqəhə qalasına salındı və onun əmlakı müsadirə olundu. Əmir xanın hakimiyyətdən getməsində böyük rolu olan Əliqulu bəy Fəth oğlu Ustaclı isə Təbriz və Azərbaycanın cənub hissəsinin hakimi təyin olundu. Ustaclı və şamlı tayfaları şahzadə Həmzə Mirzənin köməyi ilə yenidən türkmən və təkəli tayfalarını yüksək vəzifələrdən sıxışdırıb çıxardılar.

Bu hadisələrdən xəbər tutan Kaşan hakimi Məhəmməd xan Türkmən Həmədan hakimi Vəli xan Təkəli ilə Əmir xanın düşmənlərindən intiqam almaq məqsədi ilə Təbrizə doğru hərəkət üçün razılığa gəldilər.

Bunun ardınca 1585-ci ildə Əmir xanın Qəhqəhə qalasında öldürülməsi türkmən və təkəli tayfalarının ümumi qiyamına səbəb oldu.[848]

Baş verən bütün bu hadisələr Səfəvilər dövlətini xeyli zəiflətdi və türk qoşunlarının gələcək fəthləri üçün şərait yaratdı.

Bütün Azərbaycanı ələ keçirmək niyyətində olan Türkiyə sultanı Osman paşanı Şirvandan geri çağıraraq onu böyük bir ordu ilə şərq yürüşünün başçısı

[848]Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər dövləti, Bakı-1993, səh-166.

təyin etdi. Ərzurumda Azərbaycana doğru yürüşə hazırlaşan Osman paşa 1585-ci ilin avqustunda Pasinabad, Çaldıran, Xoy, Mərənd, Sufiyan və Təbriz istiqamətində hərəkətə başladı.

Səfəvi şahı Məhəmməd Xudabəndə Qarabağdan cənuba doğru hərəkət edib, Bazarçaydan keçərək Naxçıvana yola düşdü. Bu arada Osman paşanın Mərənddən Təbrizə doğru hərəkət etdiyini öyrənən Məhəmməd Xudabəndə Həmzə Mirzəni iyirmi min nəfərlik dəstə ilə ona qarşı göndərdi. 1585-ci ildə Məhəmməd Toxmağın başçılığı altında olan qızılbaş dəstəsi Sufiyan rayonu ərazisində türklərlə qarşılaşdı. Baş verən döyüşdə əvvəlcə uğur qazanan qızılbaşlar, sonra türklərin böyük üstünlüyü qarşısında tab gətirməyərək geri çəkilməyə məcbur oldular.

Növbəti gün Osman paşa Maqsud bəy Zülqədərin müşayiəti ilə Təbrizin şimalından axan Ağsu çayını keçdi. Maqsud bəy təbrizlilərə müraciət edərək bildirdi ki, canlarının sağ qalmasını istəyirlərsə Osman paşaya tabe olsunlar. Təbrizlilərin mənfi cavab vermələri ilə əlaqədar olaraq Osman paşa sentyabrın 20-də Təbrizə qarşı hərbi əməliyyata başladı. Müdafiəsiz qalan Təbriz Osmanlı ordusuna təslim oldu. Müqavimət göstərməyin mənasız olduğunu görən Pirqeyb xan və Hüseynqulu sultan öz dəstələri ilə şəhəri tərk edərək şah qərargahı ilə birləşdilər. Təbriz əhlinin xeyli hissəsi isə şəhərin kənarında, Surxab dağında yerləşən qızılbaş düşərgəsinə çəkildi. Şəhər əyanları özlərini və əmlaklarını talandan qorumaq üçün qazi Kamran bəy Övhədi və şeyxülislam Məhəmməd Əlini Osman paşanın yanına göndərsələr də heç bir faydası olmadı.

Şəhərin "Qeysəriyyə" bazarı talan edildi, bazar isə yandırıldı. Osman paşa Təbrizi tutduqdan sonra məşhur "Həştbehişt" sarayının yerində qala tikdirdi.

Təbriz Osmanlı istilası zamanı "islam şəhərləri arasında" tayı-bərabəri olmayan, əhalisi sıx və abad bir şəhərdən əhalinin tərk etdiyi ölü bir şəhərə çevrildi.

Amansız cəza tədbirlərinə baxmayaraq təbrizlilərin ara verməyən mübarizəsi, şəhər ətrafında yerləşdirilmiş düşmən hissələrinə qızılbaşların dəfələrlə etdikləri hücumlar istilaçılarının mənəvi ruhuna ciddi zərbə vurmuşdu. Təbrizin süqutundan sonra şah qoşunları qərargahında qərara alındı ki, düşmənin şəhər ətrafında yerləşmiş canlı qüvvəsinə zərbələr endirilsin. Bu qərara əsasən türklərə ilk hücum edən Qulubəy Əfşar oldu. Qızılbaş dəstəsi ilə Fəxusfənc çayını keçən Qulubəy Təbrizə yaxınlaşdı. Bundan xəbər tutan Osman paşa Cığal oğlunu ona qarşı göndərdi. Baş verən döyüşdə iki mindən artıq itki verən Osmanlı ordusu məğlub edildi və Cığal oğlu döyüş meydanından qaçdı.

Qısa müddət sonra Həmzə Mirzə türklərə qarşı döyüşə başladı. Osman paşanın göstərişinə əsasən Qaraman hakimi Murad paşa və Diyarbəkir hakimi Məhəmməd paşanın başçılığı altında olan böyük bir ordu Həmzə Mirzənin üzərinə göndərildi. Fəxusfənc çayı sahilində baş verən bu döyüşdə də qızılbaşlar parlaq qələbə qazandılar və Murad paşa ilə Məhəmməd paşa qızılbaşlar tərəfindən əsir götürüldü. Məhəmməd paşa aldığı yaradan tezliklə öldü. Həmçinin bu

döyüşdə Trabzon (Trapezund) paşası və bir sıra digər osmanlı sərkərdələri də həlak olmuşlar.

Baş verən bu hadisələr sonda türkləri geri qayıtmağa məcbur etdi. Osman paşanın xəstələnməsi və ölümü ilə əlaqədar olaraq Cığal oğlu Sinan paşa Osmanlı ordusunun baş komandanı təyin edildi. Türklər geri çəkilərkən Təbrizdə tikdikləri qalada Cəfər paşanın başçılığı altında birillik ərzaq ehtiyatı və döyüş sursatı olan yeddi min nəfərlik türk qoşunu yerləşdirdilər. Oktyabrın 29-da türklər öz baş qərargahları olan Çərandabdan çıxaraq geriyə doğru hərəkət etdilər. Türkləri təqib edən Həmzə Mirzə Şəmbi-Qazanda onlara çataraq ağır zərbə endirdi.

Təbrizə qayıdan Həmzə Mirzə şəhəri dağılmış vəziyyətdə gördü. Səfəvilərin şəhərə daxil olmasından xəbər tutan əhali şəhərə qayıdaraq qoşunla birlikdə Təbrizi meyitlərdən təmizləməyə, dağılmış evləri təmir etməyə başladı. Şah və onun əyan-əşrafı 1585-1586-cı ilin qışını Təbrizdə keçirdi. Lakin bununla yanaşı Səfəvilər Təbrizdəki türk qarnizonunun onlar üçün böyük təhlükə olduğunu çox yaxşı başa düşürdülər. Elə buna görə də Həmzə Mirzə türk qarnizonunun yerləşdiyi qalanı ələ keçirmək üçün özünə sadiq olan əmirlərlə birlikdə bir neçə dəfə cəhd etdi. Lakin güclü artileriya və toplarla silahlanmış türklər qızılbaşları hər dəfə geri çəkilməyə məcbur edirdilər. Qala uğrunda gedən mübarizədə qızılbaşlar özlərinin ən yaxşı sərkərdələrindən olan Zülqədər tayfasının başçısı Şahrux xan Möhrdarı itirdilər.

Digər tərəfdən də Səfəvi Qulubəy Əfşarın xəyanət edərək türklərə tərəf keçməsi qalanın ələ keçirilməsinə mane olurdu. (Qulubəy Əfşar Məhəmməd xan Türkmən və başqaları ilə birlikdə şahzadə Həmzə Mirzənin anasının ölümündə iştirak etmişdi. Buna görə də şahzadə tez-tez anasının qatillərini hədələyərək onlardan intiqam alacağını bildirir və Qulubəy də şahzadənin bu niyyətindən xəbərdar idi). Qulubəyi məhv etmək fikrində olan Həmzə Mirzə onun yerinə Təhmasibqulu Sultanı qorçubaşı təyin edərək göstəriş verdi ki, Qulubəyi aradan götürsün. Qardaşı oğlu Cabbarqulu vasitəsilə şahzadənin planından xəbər tutan Qulubəy özünü qorumaq üçün düşmən tərəfinə keçmək məcburiyyətində qaldı.[849] Belə olan halda ümidi hər yerdən üzülən Həmzə Mirzə günün günorta çağı istehkamı ələ keçirmək üçün qızılbaş əmirlərinə qalaya hücum etmək əmrini verdi. Minlərlə insanın həyatı bahasına başa gələn qızılbaş hücumu bir neçə gün davam etdi.[850]

Elə bu vaxt türkmən və təkəli tayfalarının Təbrizə yaxınlaşdığını öyrənən Həmzə Mirzə qalada yerləşdirilən Osmanlı qarnizonu ilə mübarizəni dayandırmağa məcbur oldu.

Dövlət əleyhinə çıxış edən Məhəmməd xan Türkmənə və Vəli xan Təkəliyə fars hakimi Hümmət xan Zülqədər də qoşuldu. Beləliklə, Şah Məhəmməd Xu-

[849]Tarix-i aləm aray-i Abbası, səh-319-320.
[850]Tarix-i aləm aray-i Abbasi, səh-330-331.

dabəndə və oğlu Həmzə Mirzə türkmən, təkəli və zülqədər tayfaları ilə mübarizə aparmaq məcburiyyətində qaldı. Qiyamçıların sayının həddən artıq çox olmasından ehtiyat edən şah və Həmzə Mirzə onlarla döyüşməkdən çəkinərək, barışıq əldə etməyə çalışırdılar. Danışıqlar aparmaq üçün göndərilən Həbib bəy Zülqədəri öldürüb, bir neçə vasitəçini isə girov saxladılar. Təbriz yaxınlığında yerləşən Səndabad (və ya Seyidabad) adlı məntəqəyə çatdıqda şah ordusunda xidmət edən türkmən və təkəli tayfalarından olan döyüşçülər də qiyamçıların düşərgəsinə gedərək, öz tayfalarına qoşulmağa başladılar. Eyni zamanda Həmzə Mirzədən narazı olan qüvvələr də onu tərk etdilər. Vəziyyətin son dərəcə təhlükəli olduğunu görən Şah Məhəmməd xan Xudabəndə və Həmzə Mirzə vaxtilə Əmir xan Türkmənin tikdirdiyi Təbriz qalasnıda gizləndilər. Qiyamçılar şahzadə Həmzə Mirzəyə məktub yazaraq, Əmir xanın qatillərinin və ilk növbədə Əliqulu xan Fəthoğlunun onlara təhvil verilməsini tələb etdilər. Onların bu hərəkətindən narahat olan Həmzə Mirzə qiyamçılara qarşı döyüşmək əmrini verdi. Lakin döyüş baş vermədi. Çünki şah ordusuna qoşulan qiyamçılar onlarla birlikdə Təbrizdəki osmanlı qalasına hücum etməyə razı olduqlarını bildirməklə bərabər, öz tələblərini də Əmir xanın qatillərini saraydan çıxarmaq və onların ucqar vilayətlərə göndərilməsi ilə məhdudlaşdırdılar. Şahzadə Həmzə Mirzə qiyamçıların təklifini rədd etdi və bu da Təbrizdə şah düşərgəsində zülqədər, əfşar və qacar tayfalarından olan bir dəstə əyanın narazılığına səbəb oldu. Onlar bildirirdilər ki, Əliqulu xan Fəthoğlu və Məhəmməd Sarızolağa görə qızılbaş tayfaları arasında baş verən düşmənçiliyə dözmək olmaz. Qorçular döyüşçülərin müşayiəti ilə Əliqulu xanın evinə daxil olaraq oranı talan etdilər. Sonra isə Həmzə Mirzənin iqamətgahına gələrək onu hədələməyə başladılar. Qorçuların özbaşınalığından hiddətlənmiş Həmzə Mirzə saraydan çıxaraq qalmaqal salanların əsas başçısına ölümcül zərbələr endirdi. Bunu görən digərləri dağılışdılar.

Eyni vaxtda şah Məhəmməd Xudabəndəni sıxışdıran türkmən və təkəli əmirləri onu taxtdan salmaq üçün silahlı mübarizə aparmağa başladılar. Qiyamçılar Həmzə Mirzənin kiçik qardaşı on yaşlı Təhmasibi oğurlayıb öz düşərgələrinə gətirdilər. Əmirlər də az yaşlı Təhmasibi şah elan etmək üçün tələsik onunla birlikdə dövlətin paytaxtı Qəzvinə doğru hərəkət etdilər.

Növbəti gün şahzadə Təhmasibin yoxa çıxmasını öyrənən şamlı və ustaclı əmirləri şah Məhəmməd Xudabəndəni onu qaçırmaqda ittiham etdilər. Həmzə Mirzə öz atasından incidi. Bu şübhənin yaranmasına səbəb, şah Məhəmməd Xudabəndənin anasının türkmən tayfasından olması idi.

Qiyamçıların planının həyata keçməsinə mane olmaq istəyən Həmzə Mirzə dərhal fəaliyyətə başladı. O, Məhəmməd xan Toxmaq Ustaclını və İmamqulu xan Qacarı Təbrizdə saxlayaraq atası Şah Məhəmməd Xudabəndəni və digər qardaşı Əbutalib Mirzəni qorumaqla yanaşı Təbrizdəki osmanlı qalasının mühasirəsini davam etdirməyi də onlara tapşırdı. İsmail qulu xan isə Xalxal və Tarom yolu ilə qiyamçıları qabaqlayıb Həmzə Mirzənin qoşunu gələnə qədər paytaxtı qorumaq üçün Qəzvinə göndərildi. Həmzə Mirzə isə üç min nəfərlik dəstə

ilə İsmail qulu xanın ardınca Qəzvinə doğru hərəkət etdi. Yolda olarkən Həmzə Mirzə Ərdəbilə gəldi ki, Şeyxavənd tayfasından olan qədim səfəvi müridlərinin hesabına ordusunun sayını artırsın. Lakin Tarom ərazisində Qızılüzən çayının daşması nəticəsində ordusunun bütün azuqəsi məhv oldu. Eyni vaxtda Həmzə Mirzəyə xəbər çatdı ki, qabaqcadan göndərilən İsmailqulu xan qiyamçılara müqavimət göstərmədən Qəzvini tərk edərək Deyləmə çəkilmişdir. Bununla əlaqədar olaraq Qəzvinə maneəsiz daxil olan qiyamçılar şahzadə Təhmasib Mirzəni atasının varisi elan edib, şah sarayında yerləşdirdilər. Həmzə Mirzənin yanında olan digər əmirlərin əmlakıda qiyamçılar tərəfindən qarət edildi.

Müseyib xan Şərafəddin oğlu Təkəli Təhmasib Mirzənin vəkili, Məhəmməd xan Türkmən isə lələsi və əslində ölkənin tam hakimiyyətə malik hökmdarı oldu. Təhmasibin taxta çıxması ilə əlaqədar olaraq İsfahana və İraqa xəbərlər göndərildi.

Taromda İsmailqulu xanın, Sultaniyyədə isə Rey və Kürdüstan əmirləri ilə yanaşı əfşar və bayar tayfalarının qoşunu da Həmzə Mirzənin qoşununa birləşdi.Yeddi min nəfərlik ordu ilə Həmzə Mirzənin yaxınlaşdığını eşidən qiyamçılar on min nəfərlik ordu ilə Qəzvindən çıxıb onu qarşılamağa getdilər. Sainqala adlı məntəqədə baş verən döyüşdə qiyamçılar məğlub oldu, başçıları Məhəmməd xan Türkmən və Müseyib xan Təkəli əsir düşdü, Vəli xan isə öldürüldü. Qiyamçıların əlində olan Təhmasib Mirzə isə Əlamut qalasına salınaraq həbs olundu. 1586-cı ildə qiyamı çətinliklə yatıran Həmzə Mirzə Qəzvindən Təbrizə doğru hərəkət etdi. Təbrizdəki türk hərbi qarnizonuna qarşı mübarizə aparmaq istəyən Həmzə Mirzə Səfəvilərə sadiq olan tayfaları yenidən öz ətrafına toplamaq istəsədə bu cəhdi baş tutmadı. Türkmən və təkəli tayfalarının bir hissəsi qılıncdan keçirilmiş, bir hissəsi isə Osmanlı Türkiyəsinə keçmişdi. İsfahan, Yəzd və Kirman vilayətlərində yaşayan Əfşar tayfası rəhbərləri Qulubəyin xəyanəti nəticəsində Həmzə Mirzədən ehtiyat edir və bu bəhanə ilə Təbrizə gəlməkdən imtina edirdilər. Xorasanın şam və ustaclı əmirləri Həmzə Mirzəyə qarşı çıxaraq qardaşı Abbas Mirzəni dəstəklədilər. Bütün bu baş verənlərdən sonra Həmzə Mirzə ətrafında olan on minlik ordu ilə Təbrizə doğru hərəkət etdi.

Təbrizə gələn Həmzə Mirzə yenidən türklərin müqavimətini qıraraq Osmanlı ordusu gələnə qədər qalanı almağa cəhd göstərdi. Elə bu vaxt Fərhad paşanın başçılığı altında olan Osmanlı ordusunun Təbrizə yaxınlaşdığını öyrənən Həmzə Mirzə mühasirəni dayandırıb Üzümdül və Dizmar istiqamətində geri çəkilməyə başladı. Şəhərə daxil olan Fərhad paşa qalanı sursat və illik ərzaqla təmin edərək geri qayıtdı. O, Təbrizdə olarkən Əliqulu xana və əmirlərə öz səfirlərini göndərərək onlara sülh təklif etdi.

Həmzə Mirzə əmirlərin müqavimətinə baxmayaraq, yalnız Təbrizin Səfəvilərdə qalması şərtilə sülhün bağlanmasına razılıq verdi. Çünki Həmzə Mirzə himayəsində olan kiçik qüvvə ilə osmanlılar tərəfindən zəbt olunmuş yerləri – Şirvanı, Şəkini, Ermənistanı və Cənubi Azərbaycanın xeyli hissəsini geri qay-

tarmaq iqtidarında deyildi. Əksinə, mübarizə davam etdirilsəydi Azərbaycanın şərq vilayətləri ilə yanaşı İraqda əldən gedə bilərdi. Bu ərazilərin əldə saxlanması üçün Səfəvilərə sülh lazım idi.

Şah Məhəmməd Xudabəndə və Həmzə Mirzə İmamqulu xan Qacarın hakimiyyəti altında olan Qarabağa doğru irəlilədilər. Gəncədə olarkən osmanlı elçisi Vəli bəyi qarşılayan Həmzə Mirzə ona söz verdi ki, yaxın vaxtlarda öz oğlu Heydər Mirzəni təcrübəli elçinin müşayiəti ilə İstanbula göndərəcək.

Bundan sonra eşikağası Əhməd bəy Ustaclı Fərhad paşanın yanına gedərək, şahın təklif edilmiş şərtlərlə sülh bağlamaq arzusunda olduğunu bildirdi. Yaranmış sakitlikdən istifadə edən Həmzə Mirzə daxili işləri qaydaya salıb, mərkəzi hakimiyyəti möhkəmləndirərək yenidən mübarizəyə başlayıb, türkləri ölkədən qovmaq qərarına gəldi. Lakin bu arzusunu həyata keçirmək ona nəsib olmadı. Həmzə Mirzə 1586-cı ildə Gəncədən bir qədər aralıda əslən Xoy ermənisi olan öz dəlləyi Xudaverdi tərəfindən öldürüldü.[851]

Azərbaycan Səfəvilər dövlətinin süqutu

Şahzadə Həmzə Mirzənin ölümündən sonra baş verən ara müharibələri və feodal hərc-mərcliyi Səfəvilər dövlətinin fəlakətinə səbəb oldu.

Şah Məhəmməd Xudabəndə dövlət işlərini ələ alaraq ölkəni daxili parçalanmadan və Türklərin istilasından qurtarmağa cəhd etdi. Lakin oğlanları ilə qızılbaş əyanlarının əlində oyuncağa çevrilən Məhəmməd Xudabəndənin buna gücü çatmadı.

Qızılbaş əmirləri arasında da düşmənçilik davam edirdi. Həmzə Mirzənin ölümündən xəbər tutan əmirlər dərhal Səfəvi Şahı Məhəmməd Xudabəndəni oğlu Əbutalib Mirzəni varis kimi tanımağa məcbur etdilər. Əbutalib Mirzə kiçik yaşda olduğu üçün hakimiyyət əslində onun lələsi Əliqulu Fəthoğlu Ustaclı ilə İsmailqulu xan Şamlının əlinə keçdi. Onlar da bu məqamdan istifadə edərək yüksək vəzifələri öz qohumları arasında bölüşdürdülər.[852]

Əbutalib Mirzənin varis təyin edilməsi və saraydakı vəzifələrin bölüşdürülməsi əyalətlərdə qiyamların qalxmasına səbəb oldu. Qızılbaş əmirlərindən bəziləri Məhəmməd Xudabəndəyə tabe olsa da, əksəriyyəti Qəzvin saraydın üz çevirib Xorasan əmirlərinin tərəfinə keçərək şahlığa Abbas Mirzənin namizədliyini irəli sürdülər. Zülqədər tayfasının başçıları da özlərini Abbas Mirzənin tərəfdarları elan etdilər. Həmin dövrdə Azərbaycanın cənubunda özbaşınalıq və hərc-mərclik o həddə çatmışdı ki, feodallar şahın fərmanı və hökmü ilə razılaşmadan vilayətlərdə hakimiyyəti zor gücünə ələ keçirməyə başlamışdılar. Bu vilayətlərlə yanaşı Səfəvi dövlətinin digər vilayətlərində də – İraq, Fars, Kirman, Gur və Xuzistanda hərbçilərin özbaşınalığı nəticəsində rəiyyətin vəziyyəti son dərəcə ağırlaşmışdı.

---

[851] Tarix-i aləm aray-i Abbasi, səh-346-350.

[852] Tarix-i aləm aray-i Abbasi, səh-350-352.

Səfəvi dövlətinin həddən artıq zəifləməsindən istifadə edən Təbrizdəki türk qalasının başçısı Cəfər paşa Təbrizdən çıxaraq şəhər ətrafı ilə yanaşı Cənubi Azərbaycanın bir çox rayonlarını ələ keçirdi.

Kürd əmirlərinin köməyindən istifadə edən Cəfər paşa Ərdəbildən Təbrizə doğru hərəkət edən qızılbaş dəstəsini məğlub edərək geri çəkilməyə məcbur etdi. Səfəvilərin məğlubiyyətindən xəbər tutan Qaradağ hakimi Xəlifə Ənsarın oğlu Şahverdi türklərə tabe olduğunu bildirdi. Bu xəyanət nəticəsində Ordubad, Mərənd, Dizmar və digər vilayətlərdə Cəfər paşanın əlinə keçdi. Bunun ardınca 1588-ci ildə otuz minlik qoşunla Bağdaddan Həmədana doğru hərəkət edən Sinan paşa Nəhavəndi demək olar ki, müqavimətsiz ələ keçirdi. Nəhavənd uğrunda gedən döyüşlərdə qızılbaşların başçısı Həmədan bəylərbəyi Qorxmaz xan Şamlı əsir düşdü.

Eyni zamanda türk qoşunları Məhəmməd xan Ziyad oğlu Qacarın əlində olan Qarabağı ələ keçirdi. Gürcüstandan hərəkət edən Fərhad paşa isə Gəncə və Bərdəyə daxil olaraq burada qarnizon yerləşdirdi. Türklər tərəfindən məğlub edilən Qacar və iyirmi dörd tayfaları Arazın cənub sahilinə çəkildilər. Bunun ardınca Naxçıvanda türklər tərəfindən tutuldu.[853]

Baş verən bu hadisələrin sonunda, 1586-1589-cu illərdə demək olar ki, bütün Azərbaycan sultan III Muradın orduları tərəfindən ələ keçirildi. Bu arada özbəklərin Xorasana hücum etməsi türklərin Azərbaycanda irəliləyişini daha da asanlaşdırdı. Qəzvində hakimiyyətə gələn Səfəvi şahı I Şah Abbas (1587-1629) ərazinin qalan hissəsini itirməmək üçün sultanın təklif etdiyi ağır sülh şərtləri ilə razılaşmalı oldu. 1590-cı ildə iki tərəf arasında bağlanan İstanbul sülhünə görə Azərbaycandan əlavə, nəinki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri-Nəhavənd, Luristan, Şəhrizur Türkiyəyə verildi. Bundan əlavə Xorasanın özbəklərdə qalmasına razılıq verən I Şah Abbas səfərə çıxmadı.

XVII əsrin əvvəllərinə qədər davam edən Osmanlılar tərəfindən Azərbaycanın istilası zamanı Azəbaycan nəhayətsiz müharibələrdə tamamilə talan edildi və ölkənin iqtisadiyyatı zəiflədi. Türklərin iyirmi ilə yaxın ölkədə ağalıq etməsi onun sərvətlərinin talan edilməsinə, iqtisadiyyatın ölməsinə gətirib çıxardı. Buna görə də Azərbaycan I Şah Abbas tərəfindən geri alınsa da Səfəvilər dövləti özünün əvvəlki sosial-iqtisadi rolunu saxlaya bilmədi.

Daxili və xarici müharibələr nəticəsində Azərbaycan feodal əyanları və qızılbaş tayfaları xeyli zəiflədi. Feodallar əvvəlki kimi Səfəvi dövlətinin hər yerində öz mövqelərini qoruyub saxlaya bilmədilər və sonda Azərbaycan Səfəvilər dövləti süqut etdi.

I Şah Abbasın islahatları

1587-ci ildə Məhəmməd Xudabəndənin özbəklərə qarşı müharibə aparmasından istifadə edən Şah I Abbas qızılbaş və fars əyanlarının köməyi ilə Qəz-

[853]Şərəfnamə, II cild, səh-291-292.

vini tutaraq hakimiyyəti ələ keçirdi. Şah I Abbas hər şeydən əvvəl orduya xüsusi əhəmiyyət verirdi. Çünki itaətsiz feodallara qarşı mübarizə aparmaq, xalq hərakatını boğmaq və yürüşlər üçün qüdrətli və nizami orduya ehtiyac var idi. Bütün bunları nəzərə alan Şah I Abbas hakimiyyətə gələndən sonra Səfəvilərin itirilmiş ərazilərini geri qaytarmaq və sarsılmış qüdrətini bərpa etmək üçün sülh islahatlara başladı.

İlk öncə tayfaların üsyankar hərəkətlərini yatırmaq üçün onların özbaşına silah gəzdirmək hüququnu ləğv etdi: qoşuna daxil olmaq hüququ iranlılara verildi. Qızılbaş tayfa başçılarının irsi vəzifə tutmaları ləğv edildi. Bu vəzifəni yalnız şahın rəğbətini qazanmış istənilən şəxs tuta bilərdi. Qeyri türk əsasən farslar üzərində hakimiyyəti möhkəmləndirmək üçün paytaxtı onların sıx yaşadığı İsfahana köçürdü. Ordunu yenidən təşkil etdi.

Səfəvi şahının apardığı hərbi islahat nəticəsində müxtəlif dərəcəli qoşun növü yarandı. Onların qarşılıqlı fəaliyyəti və əlaqəsi Səfəvi dövlətinə daxili sakitlik və xarici işğal sahəsində uğurlar qazandırdı. Orduda qızılbaşlarla yanaşı qulamlar, tüfəngçilər və topçular dəstəsi də yer aldı. Qulamlar əsasən erməni, gürcü, çərkəz mənşəli gənclərdən toplanır, zorla islamlaşdırılır və sarayda xüsusi şəraitdə tərbiyə olunurdular. Tüfəngçilər xüsusi siyahı ilə ölkənin müxtəlif vilayətlərindən toplanırdı. Onların içərisində əsasən azərbaycanlılar üstünlük təşkil edirdilər. Onlara tüfəngçi ağası başçılıq edirdi. Topçulardan əsasən düşmənin möhkəmləndirilmiş mövqeyini ələ keçirmək və qala mühasirəsi vaxtı istifadə olunurdu.

Şah I Abbas həyata keçirdiyi islahatlarla Azərbaycan köçəri əyanlarının nüfuzunu məhdudlaşdırmağa başladı. Bununla bərabər iranlılardan ibarət şiə ruhani və məmurlarının dövlət işlərində iştirakını gücləndirdi. İri torpaq sahiblərinin sıxışdırılması, edam olunmuş feodalların torpaqlarının ələ keçirilməsi hesabına şah öz şəxsi torpaqlarını xeyli genişləndirdi. Bu mübarizədə xeyli feodal hakim və əmirlər məhv edildi. Hakimiyyətə qarşı çıxan təkəli tayfasına amansız divan tutuldu. Yeni şah dövlətin maliyyə vəziyyətini yaxşılaşdırmaq məqsədilə yüksək dövlət vəzifələrinə yiyələnmiş bütün şəxslərdən peşkəş adı ilə xəzinəyə müəyyən məbləğ verilməsini tələb etdi.

Həyata keçirilən bu islahatlar nəticəsində qızılbaş əyanlarının qüdrəti sarsılsa da, mərkəzi hakimiyyət xeyli gücləndi. Şah Abbas Səfəvilər dövlətinin keçmiş qüvvəsini bərpa edə bildi. Azərbaycan bu dövlətin aparıcı qüvvələrindən birinə çevrildi. Dövlətin mərkəzi aparatını və mülki bürokratiyanı möhkəmləndirən Şah I Abbas İngiltərə, Fransa, İspaniya, Roma papası və Moskva knyazlığı ilə diplomatik əlaqələr yaratmaq məqsədilə danışıqlar aparmağa başladı.

Səfəvilərin qonşu dövlətlərlə münasibətləri

Ərəb xilafətinin tənəzzülü və səlcuq yürüşləri dövründən başlayaraq müsəlman şərqinin böyük bir hissəsində siyasi hakimiyyət türklərin əlinə keçmişdi. Misirdən tutmuş Hindistan və Xətaya qədər geniş bir ərazidə hökmranlıq edən

türk sülalələri daim bir-biri ilə rəqabət aparmış, bu isə tez-tez hərbi toqquşmalara səbəb olmuşdur. XVI əsrin əvvəllərində islam şərqində dörd türk xanədanı söz sahibi idi: Osmanlılar, Məmlüklər, Səfəvilər və Şeybanilər. Şah İsmailin babası Uzun Həsənə məxsus məmləkəti bütünlüklə ələ keçirməsindən sonra Səfəvilər dövləti qərbdə Osmanlılar və Məmlüklər, şərqdə isə Şeybanilərlə həmsərhəd olmuşdu. Səfəvi dövlətinin genişlənməsi və inkişaf etməsi Azərbaycan, İran, İraq ərazilərini ələ keçirmək istəyən Şeybanilərə və Osmanlılara sərf etmirdi. Şah İsmailin qonşu dövlətlərə qarşı apardığı siyasət, babası Ağqoyunlu Uzun Həsənin apardığı xarici siyasətlə eyni idi. Uzun Həsən də şərqdəki Teymurilər və qərbdəki Osmanlılarla müharibələr aparmış, hərbi müttəfiqlik yaratmaq məqsədi ilə Qərbi Avropa dövlətləri, xüsusilə də Venesiya ilə sıx əlaqələr saxlamış, Gürcüstana hərbi səfərlər etmişdir. Bütün bunlarla yanaşı Səfəvilər sülaləsi hakimiyyətə gəldikdən sonra qonşu dövlətlərlə münasibətlərdə bütün bu siyasi cəhətlərlə bərabər, dini-ideoloji amil də dövriyyəyə daxil olmuşdu.

Sünni cərəyanının bayraqdarı olan Osmanlılar və Şeybanilər rəsmi şiə məzhəbli Səfəvilər dövlətini təkcə hərbi-siyasi baxımdan deyil, ideoloji cəhətdən də özləri üçün ciddi rəqib hesab edirdilər.

Eyni zamanda, Səfəvilər də şiə təbliğatı aparmaqla özlərinə rəqib hesab etdikləri qonşu sünni sülalələrinin hakimiyyətini sarsıtmağa çalışır, şiə əqidəsindən onlara qarşı ideoloji silah kimi istifadə edirdilər. Seyid olduqlarını iddia edərək, hakimiyyət məsələsində "vilayət" prinsipini sərt şəkildə ortaya qoyan Səfəvilər özlərindən başqa islam şərqindəki digər müsəlman sülalələrinin hakimiyyətini qeyri-qanuni sayırdılar.

Tarixi faktlardan da məlumdur ki, bu münaqişələrin başlanmasında ilk addım məhz Osmanlı və Şeybani dövlətləri tərəfindən atılmışdır və həmin dövlətlərin Səfəvi ərazisinə olan işğalçılıq iddiaları müharibələrin baş verməsində mühüm rol oynamışdır.

Azərbaycan Səfəvilər dövləti yarandığı ilk dövrdən başlayaraq beynəlxalq münasibətlər sisteminə ciddi təsir göstərirdi. Ağqoyunlu məmləkətinin fəthindən sonra Şah İsmailin hərbi-siyasi fəaliyyətində yeni bir mərhələ başlamışdı ki, bu da özündə qonşu dövlətlərin mümkün hücumlarından qorunmaq və həmin dövlətlərin ərazisi hesabına öz qurduğu dövlətin sərhədlərini genişləndirmək planlarını ehtiva edirdi.

Səfəvilər dövlətinin Teymurilər və Şeybanilər ilə münasibətləri

Səfəvilər dövlətinin yaranması ilə eyni vaxtda Orta Asiyada Şeybanilər dövləti də yüksəlməkdə idi. Həmin sülalənin banisi Çingiz xanın nəslindən olan Şeybani xan Teymurilər xanədanını devirmək istəyirdi. 1500-1501-ci illərdə onun iyirmi minlik qoşunu Buxaranı və Səmərqəndi ələ keçirdi və Maveraunnəhrin Teymuri hökmdarı Sultan Əli mirzə qətlə yetirildi. Səmərqənd əhalisinin Şeybani üsuli-idarəsindən narazı olmasından istifadə edən Əndican vilayətinin hakimi Babur Səmərqəndi müvəqqəti ələ keçirsə də, tezliklə Şeyba-

ni xan tərəfindən məğlub edilərək Əndicana qaçdı.[854] 1504-cü ildə Şeybani xanın otuz minlik qoşunla Əndicana doğru hərəkət etdiyini öyrənən Babur Əndicanı tərk edib, Xorasanın Teymuri hökmdarı Sultan Hüseyn Bayqaranın razılığı ilə Kabildə məskunlaşdı.

Orta Asiyanı ələ keçirən Şeybani xan Xorasan Teymurilərini hədələməyə başladı. Belə bir şəraitdə Şeybanilərə qarşı müttəfiq axtaran Bayqara Səfəvilərə müraciət etdi. Bundan istifadə edən qızılbaşlar Şah İsmayılın başçılığı altında Bayqaranın ərazisindəki Təbəs mahalına hücum edib, Ağqoyunlu qüvvələrini darmadağın etdilər və onların komandanı olan Murad bəy qətlə yetirildi. Şah İsmayılı bu yürüşə çıxmağa vadar edən bir sıra ciddi səbəblər var idi. Birincisi, o, başda Bədiüzzaman (Bayqaranın oğlu) olmaqla, Bayqaranın siyasətinə tabe olmayaraq Səfəvilərə qarşı özbaşınalıq edən Teymuri şahzadələrinə xəbərdarlıq etmək idi. İkincisi isə Səfəvilərin təqibindən qaçaraq keçmiş Yəzd hakimi Murad bəy Türkmanın rəhbərliyi ilə Təbəsə sığınmış Ağqoyunlu qoşunlarını məğlub etməkdən ibarət idi. Həmin ərəfədə Murad bəyin Təbəsdəki hərəkətlərindən, orada qoşun toplayıb Səfəvi ərazisi olan Kirmana basqın etməsindən narahat olan Bayqara ona Təbəsi tərk etmək göstərişini vermişdi.

Şah İsmayılın Teymuri ərazisinə daxil olmasından Təbəs hakimi Əmir Məhəmməd Vəli bəy vasitəsilə xəbər tutan Bayqara vəziri Xoca Nizamülkü əlli nəfərlik elçi ilə şahın düşərgəsinə göndərdi.

Bayqaranın elçilərini hörmətlə qarşılayan Şah İsmail onlara ziyafət verdi. Sonra isə üzünü Bayqaranın vəzirinə tutaraq, yürüşün məqsədini və özünün Bayqaraya münasibətini açıqladı. Həmçinin Şah İsmail Xorasanı Bayqaranın və oğullarının torpağı kimi tanıyaraq ona öz səmimi dostluğunu izhar etdi. Daha sonra Teymuri elçiləri ilə birlikdə öz elçisi Mənsur bəy Qıpçağı Herat sarayına göndərən Şah İsmail Bayqara ilə mehriban münasibətlər qurdu.

1506-cı ildə Bayqaranın ölümündən sonra Xorasanda hakimiyyət uğrunda hərc-mərclik yarandı. Onun oğlanları Bədiüzzaman mirzə və Müzəffər Hüseyn mirzə özlərini şərikli hökmdar elan etsələr də, digər şahzadələr onların hakimiyyətini qəbul etməyərək öz müstəqilliklərini elan etdilər. Bundan faydalanmaq istəyən Şeybani xan Molla Mahmud adlı elçisini Herata göndərərək Teymuri şahzadələrindən öz vassallığı altına keçmələrini istədi. Lakin bununla razılaşmayan Bədiüzzaman elçinin öldürülməsinə göstəriş verdi. Bununla əlaqədar olaraq Şeybani xan 1507-ci ildə qırx minlik ordu ilə Herata doğru hərəkət etdi. Murğab çayı vadisində, Badğis mahalında baş verən döyüşdə Teymurilərin ordusunu məğlub edən Şeybani xan Heratı ələ keçirdi. 1508-1509-cu illərdə Xorasanın digər ərazilərini də ələ keçirən Şeybanilər Səfəvilər dövlətinin sərhədlərinə çıxdılar. Başda Bədiüzzaman olmaqla digər Teymuri şahzadələri də Şah İsmayıla sığındılar. Sultaniyyə şəhərində Bədiüzzamanla görüşən Şah İsmail onu Şeybaninin hücumu barədə vaxtında xəbər vermədiyinə görə mə-

[854] Namiq Musalı, I Şah İsmayılın hakimiyyəti, səh-182.

zəmmət etdi. Səfəvi sarayında hörmətlə qarşılanan Bədiüzzaman sonralar Şah İsmayıla qarşı çıxdığı üçün Təbrizdəki Şənbi-Qazan (Şam-Qazan) məqbərəsində məhbus edilmişdi. 1514-cü ildə baş verən Çaldıran döyüşündən sonra Osmanlılar Təbrizə daxil olduqda Sultan Səlimin tərəfinə keçən Bədiüzzaman ona qoşulub, Türkiyəyə getmişdi.

Yarandıqları vaxtdan etibarən iki dövlət arasındakı münasibətlər düşmənçəsinə idi. Bu münasibətlər ilk növbədə hər iki dövlətdə başlıca siyasi güc olan türk hərbi-köçəri əyanlarının işğalçılıq səyləri ilə bağlı idi. İki türk sülaləsi arasındakı toqquşma əsasən Xorasana hakimlik etmək uğrunda gedirdi.

Alman şərqşünası A.Müller qeyd edir ki, ilk vaxtlar Şah İsmail yalnız Ağqoyunlu səltənətinin ələ keçirilməsi və onların əvvəlki siyasətinin davam etdirilməsi haqqında düşünürdü. Lakin tezliklə Xorasanı fəth edən Şeybani xan onu rahat buraxmaq istəməmiş, sülh təşəbbüsü göstərən İsmayılın göndərdiyi elçilərə təhqiramiz cavablar verərək onları geri qaytarmış və məhz özbək xanının bu hərəkətləri iki dövlət arasındakı münaqişələrin alovlanmasına səbəb olmuşdur.[855]

Teymuri şahzadələrini məğlub etdikdən sonra Maveraunnəhr, Xorasan və Bədəxşanın sahibinə çevrilən Şeybani xan 1509-1510-cu illərdə Səfəvi dövlətinin tərkibində olan Kirman vilayətinə basqın etmək üçün ordu göndərdi. Təbəsdən keçərək Kirmana hücum edən özbəklər oranın hakimi Məhəmməd xan Əfşar başda olmaqla 500 qızılbaş döyüşçüsünü qətlə yetirərək əyaləti talan etdilər. Daha sonra Şeybani xanın bacısı oğlu Canvəfa altı minlik qoşunla Musa bəy Şamlının qoruduğu Yəzd şəhərinə hücum etdi. Lakin bu şəhəri tutmaq özbəklərə nəsib olmadı və beş minlik qızılbaş qoşununun hadisə yerinə gəlib çatması nəticəsində özbəklər Səfəvi ərazisini tərk edib Xorasana çəkildilər.

Bu hadisələrdən sonra Şah İsmail qızılbaş ordusu ilə Təbrizi tərk edib, Təbriz-Qəzvin-Tehran-Xəvar yolu ilə hərəkət edərək Xorasana doğru yürüşə başladı. Səfəvilərlə Şeybanilər arasında mühüm sərhəd məntəqəsi sayılan Pülkörpüdə Həsən bəy Halvaçıoğlunun başçılığı altında olan qızılbaşlar burada olan Bayaqu Bahadırın başçılığı altında olan özbəkləri məğlub etdilər. Özbəklərdən dörd yüz nəfər öldürülsə də Bayaqu yüz nəfərlə Simnana qaçdı. Şah İsmayılın göstərişinə əsasən Mirzə Məhəmməd Talışı min nəfərlik dəstə ilə Simnana doğru hərəkət etdi. Bundan xəbər tutan Bayaqu Herata çəkilməyi məsləhət görsə də, Şeybani xanın kürəkəni Seyid Məhəmməd döyüşməyi üstün tutdu. Simnan yaxınlığında baş verən döyüşdə özbəklər yenidən məğlub oldular. Bu qələbədən ruhlanan Mirzə Məhəmməd Damğan üzərinə yürüşə başladı. Lakin bundan xəbər tutan Şah İsmail ona yürüşü dayandırmağı əmr etdi. Damğana gələn şah Mirzə Məhəmmədi özbaşınalıq etdiyi üçün danladı.

Uzun mühasirədən sonra Rüstəm Bahadırın idarə etdiyi Damğanı ələ keçirən qızılbaşlar, onun ardınca Bistam və Məzinanı da ələ keçirdilər. Bu məntə-

[855] A. Müller, İslam Tarixi, III cild, səh-382, Sankt-Peterburq-1896.

qələrin ələ keçirilməsindən sonra Şah İsmail Hüseyn bəy Lələni və Mirzə Məhəmmədi iki minlik dəstə əhalisi əsasən şiələrdən ibarət olan "darülmöminin" (möminlər məkanı) Səbzəvar şəhərinə göndərib, özü isə onların ardınca hərəkət etdi. Səbzəvarda Seyid Xocanın başçılığı altında olan üç minlik özbək qoşununu məğlub edən qızılbaşlar şəhəri ələ keçirdilər. Oradan Nişapura gələn Seyid Xoca əmisi oğlu Hadi Xocanın qüvvələri ilə birləşib Məşhədə çəkildi.

Səbzəvarı tutduqdan sonra Nişapur şəhərini döyüşsüz ələ keçirən Şah İsmail iki-üç gün orada qaldıqdan sonra şiələrin müqəddəs şəhəri Məşhədə doğru hərəkət etdi. Səfəvilərin yaxınınlaşdığını öyrənən özbək sərkərdələri Canvəfa, Seyid Xoca və Hadi Xoca müqavimət göstərmədən Məşhədi tərk edib, Şeybani xanla birləşmək məqsədilə Herata getməyi qərara aldılar. Məşhədə daxil olan Şah İsmail İmam Rzanın *(ə)* müqəddəs məzarını ziyarət etdi, məqbərəyə qızıl və gümüş qəndillər və şamdanlar bağışladı.

Məşhədin fəthindən sonra Şah İsmail orduya Şeybani xanın yerləşdiyi Herat şəhəri üzərinə yürüş etməyi əmr etdi. Bu arada Heratdakı vəziyyət özbəklər üçün heç də ürək açan deyildi. Simnandan qaçan Bayaqu qızılbaşların sərhəddi keçməsi haqqında məlumat gətirən kimi Şeybani xan dərhal qardaşı oğlu Ubeydulla xana, öz oğlu Məhəmməd Teymur xana, Urgənc hakimi Barsil xana və Türküstanın digər əmirlərinə məktub yazıb, onları köməyə çağırdı. Qızılbaşların Məşhədin ardınca Cam şəhərinə də yiyələndiklərini öyrənən Şeybani xan Heratda qalmağın mümkün olmadığını anlayıb, Mərv qalasına sığındı. Şeybani xanın Mərvə sığındığını öyrənən Şah İsmail Herat üzərinə getməyərək, dərhal Mərvə yönəldi.

1510-cu ildə Mərvdən üç fərsəx cənubda yerləşən Mahmudabad adlı yerdə Səfəvi və Şeybani orduları arasında həlledici döyüş baş verdi. Pusquya salınmış özbək ordusu Səfəvilər tərəfindən darmadağın edildi və Şeybani xan öldürüldü. Mərv qələbəsi Səfəvilər dövlətinin nüfuzunu xeyli gücləndirdi. Bu qələbədən sonra Osmanlı və Misir sultanları Şah İsmayılın gücündən qorxuya düşdülər.

Xorasan yürüşünün əvvəlində Damğana yiyələndikdən sonra Şah İsmail paytaxtı Sari şəhəri olan Şərqi Mazandaranın hökmdarı Ağa Rüstəmə xəbər göndərərək ondan təslim olmasını istədi. Lakin Şeybani xana güvənən Ağa Rüstəm şahın istəyini rədd etdi. Mərv döyüşündə qalib gələn Şah İsmail Şeybani xanın kəsilmiş əlini onun hüzuruna göndərdi. Bu mənzərədən dəhşətə gələn və Şah İsmayılın ondan intiqam alacağından qorxuya düşən Ağa Rüstəm ah çəkib özündən getmiş və qorxudan ölmüşdü. Onun yerinə keçən oğlu Ağa Məhəmməd Səfəvilərə itaət etdi. Beləliklə, Xorasanın və Heratın fəthindən sonra Şah İsmayılın ərazisi Amudəryadan İran körfəzinə, Əfqanıstandan Fərat çayına qədər uzanırdı.

Şeybani xanın məğlubiyyətindən sonra Mərkəzi Asiyanın bir sıra hakimləri Şah İsmayıla itaət etdilər. Şah İsmail Herat ətrafında olarkən Sistan vilayətinin hakimi Məlik Sultan Mahmud beş yüz nəfərlik bir heyətlə onun hüzuruna gələrək, itaətini bildirdi və Səfəvilərin vassalına çevrildi. Mərv qələbəsindən sonra

Şah İsmail Kabildə hökmranlıq edən Teymuri şahzadəsi Ömərşeyx mirzənin oğlu Babur şahla da mehriban münasibətlər qurdu. 1510-1511-ci illərdə Bəlx vilayətinin qızılbaşlar tərəfindən tutulmasından xəbər tutan Buxara hakimi Ubeydulla xan və Səmərqənd hakimi Məhəmməd Teymur sultan Şah İsmayıla tabe olduqlarını bildirdilər. Şah İsmayılın özbək elçiləri ilə danışıqlarının nəticəsi olaraq, Səfəvilər və Şeybanilər arasında Ceyhun (Amudərya) çayı sərhəd elan olunmaqla sülh bağlandı.[856]

Fəth olunmuş ərazilərdə öz mövqeyini möhkəmlətmək istəyən Şah İsmail Mərvi Abdal bəy Dədəyə, Heratı Hüseyn bəy Lələyə, Bəlxi isə yeznəsi Bayram xan Qaramanluya verərək, bu məntəqələrdə qarnizonlar yerləşdirdi. 1511-ci ildə özbəklərlə bağlanan sülh Şah İsmail üçün əlverişli idi. Çünki həmin vaxt Osmanlı dövlətində maraqlı hadisələr cərayan edirdi. Belə bir şəraitdə Şah İsmail Orta Asiyada ilişib qalmaq istəmirdi. Lakin sonrakı hadisələr sübut etdi ki, iki dövlət arasında bağlanan sülh, əslində özbək xanları üçün formal xarakter daşıyırdı.

1511-ci ildə Daşkənd hakimi Qara Gəskən Bahadır Səfəvilərin vassalı olan Xan-Mirzəyə məxsus Bədəxşan vilayətini ələ keçirdi. Lakin Şah İsmayılın əmri ilə Bəlxdəki qızılbaş əmiri Bayram xan Qaramanlunun göndərdiyi ordu özbəkləri məğlub edərək həmin ərazidən çıxardı. Özbəklərin Bədəxşan vilayətinə hücum etməsindən istifadə edən Babur Türküstanın fəthi üçün Şah İsmayıldan icazə istədi. Buna əsasən Şah İsmail Əlişəkər bəy Türkman Baharlu, Zeynal xan Şamlı, Məhəmməd sultan Sufioğlu Ustaclı və Badincan sultan Rumlu və Bayram xanın başçılığı altında olan beş minlik ordunu Baburla birlikdə Türküstanı fəth etmək üçün göndərdi.

Şurqan ərazini ələ keçirən ordu Ceyhun çayını keçərək Türküstana daxil oldu. Səmərqənd yaxınlığında baş verən döyüşdə qızılbaş və cığatay qoşunları Ubeydulla xan, Məhəmməd Teymur sultan və Canıbəy sultanın başçılıq etdiyi 60 minlik özbək ordusunu məğlub etdilər və 1511-ci ildə Səmərqənd şəhəri Baburun əlinə keçdi. Maveraunnəhr məntəqəsinin ələ keçirilməsindən sonra əhalinin narazılığını nəzərə alan Babur qızılbaş əmirlərinə çoxlu hədiyyələr verərək, onları geri qaytardı.

Səfəvi ordusunun Maveraunnəhri tətk etməsindən istifadə edən Ubeydulla xan Dəşti-Qıpçaqdan keçərək, Orta Asiyanın mərkəzinə soxuldu. 1512-ci ildə Buxara yaxınlığında Quli-Malik gölü ətrafında baş verən döyüşdə Babur məğlub edildi və Maveraunnəhr yenidən özbəklərin əlinə keçdi. Bu məğlubiyyətdən sonra Kabilə qaçan Babur yenidən Şah İsmayıldan kömək istədi. Buna əsasən qızılbaş ordusunu Türküstana göndərən Şah İsmail eyni zamanda Babura da Bəlxə gedərək onlara qoşulmasını tapşırdı.

Maveraunnəhrdə olan qızılbaş zabiti Məhəmmədcan bəyin 1512-ci ilin əvvəllərində Şah İsmayıla verdiyi məlumatdan aydın olur ki, Babur Səmərqənq və Buxara ətrafındakı qələbələrdən sonra təkəbbürlük edərək, Səfəvilərlə ittifa-

[856] Aləmara-Sahib, səh-392-396.

qı pozmaq istəyirdi. Qumda olarkən Baburun dönük çıxmasından xəbər tutan Şah İsmail vəkil Əmir Nəcmi Sanini onu cəzalandırmaq üçün Xorasana yolladı. Orta Asiyaya göndərilən Nəcmi Saninin qarşısına ilkin olaraq özbək xanlarını məğlub etmək və artıq Səfəviləri təmin etməyən Baburu hakimiyyətdən kənarlaşdırıb, onun yerinə Xan-Mirzəni təyin etmək tapşırığı qoyulmuşdu.

Yürüşün əvvəlində uğur əldə edən qızılbaşlar yol üstündəki bəzi qalaları ələ keçirib, irəliləməyə nail oldular. Lakin sonradan Nəcmi Saninin əmirlərin məsləhətlərinə qulaq asmaması, əsgərlərə qarşı yersiz cəzalar verməsi, dinc sakinləri zülmə məruz qoyması həm qızılbaş, həm də cığatay ordusu arasında narazılıqlara səbəb oldu. Nəcmi Sani Qərşi qalasının mühasirəsi zamanı bacısı oğlu Məhəmməd Kazımı da edam etdirdi. Qərşi qalası alındıqdan sonra isə Şeyxüm mirzə başda olmaqla qalanın bütün qarnizonu və dinc əhalisi onun əmri ilə edam olundu. Nəcmi Sani bu hərəkəti ilə yerli əhalini qorxudacağını və onları daha asan tabe edəcəyini düşünürdü. Lakin onun bu planı tamamilə əks nəticə verdi. Bu əməliyyat həm qızılbaş ordusunun bir sıra əmirləri arasında narazılıq doğurdu, həm də yerli əhalinin Səfəvilərə və onların müttəfiqi olan Babura qarşı qəzəbini artıraraq, onların daha qəti surətdə Şeybanilərin tərəfinə keçməsini təmin etdi.

1512-ci ildə qızılbaşlar Buxara üzərinə hərəkət edərək Qicduvan qalasını mühasirəyə aldıqda Babur Nəcmi Saniyə geri çəkilməyi məsləhət görsə də, Nəcmi onun sözlərinə qulaq asmayaraq mühasirəni davam etdirdi. Mühasirə nəticəsində qızılbaş ordusunda qəhətlik o həddə çatdı ki, əsgərlərin qolunda qüvvət qalmadı. Bundan istifadə edən Ubeydulla xan, Məhəmməd Teymur sultan və Canıbəy sultan altmış minlik özbək ordusu ilə qızılbaşlara həmlə etdilər. Baş verən döyüşdə Babur öz qoşunları ilə döyüş meydanından qaçdıqdan sonra səfəvi ordusu tam məğlubiyyətə uğradı. Bayram xan və qardaşı Əlican sultan başda olmaqla minlərlə qızılbaş döyüşçüsü həlak oldu. Nəcmi Sani isə əsir düşərək, Ubeydulla xan tərəfindən qətlə yetirildi.

Bu qələbədən sonra qızılbaşları təqib edən özbəklər Xorasana daxil oldular. Bayram xanın oğlu Husam bəy Qaramanlu Bəlxdə möhkəmlənə bilmədiyi üçün Fəryaba qaçaraq, orada kürəkəni Ağa Məhəmmədin oğlu Ağa Əhmədlə birləşərək Murğab çayı sahilinə çəkildi. Burada qızılbaşlarla onları təqib edən Bayaqu Bahadır arasında baş verən döyüşdə Bayaqu Bahadır öldürüldü və Husam bəy oradan Maruçaqa getdi.

Qicduvan döyüşündən sonra Hüseyn bəy Lələ və Zeynal xan Şamlı üç minlik dəstə ilə Herata gəldilər. Bundan xəbər tutan özbəklər təxminən qırx gün sonra şəhəri mühasirəyə aldılar. Lakin iki aylıq mühasirədən sonra otuz minlik özbək ordusunun sərkərdələri olan Ubeydulla xan ilə Canıbəy arasında ədavət baş qaldırdı və onlar bir-birinin bəhsinə olaraq, 1513-cü ildə mühasirədən əl çəkib, öz ölkələrinə doğru hərəkət etdilər. Qırx minlik ordu ilə Ceyhun çayını keçib Herata doğru irəliləyən Məhəmməd Teymur xan yolda Ubeydulla xanla rastlaşıb, onu yenidən Herata getməyə razı saldı və qüvvələrini birləşdirən iki özbək xanı Herata doğru yürüşə başladılar. Özbək qoşununun qarşı-

sında tab gətirə bilməyəcəyini anlayan Hüseyn bəy Lələ Heratı tərk edib, Səfəvilərin vassalı olan Sistan hakimi Məlik Mahmudun ölkəsinə gedib, oradan da Kirman və Yəzddən keçməklə İsfahana gəldi. Onunla birlikdə Heratın müdafiəsində iştirak edən Zeynal xan Şamlı isə Astrabada qaçdı. Özbək xanı Ubeydulla isə heç bir müqavimətə rast gəlmədən Məşhədi də ələ keçirdi. Beləliklə, 1513-cü ilin əvvəlində Xorasanın əksər ərazisi yenidən özbəklərin əlinə keçdi.

İsfahanda olarkən baş verən hadisələrdən xəbər tutan Şah İsmail qırx minlik ordu ilə Xorasana doğru hərəkət etdi. Şah İsmayılın yaxınlaşmasından xəbər tutan özbəklər bir sıra şəhərləri tərk edib qaçdılar və qızılbaşlar Məşhədə qədər heç bir müqavimətə rast gəlmədilər. Məşhəddən Herata qaçan Ubeydulla xan, oradan Məhəmməd Teymur sultanı da götürüb Maveraunnəhrə çəkildi. Xəlil xanın Herata daxil olmasından sonra Div sultanın qoşunları Səfəvilərə tabe olmaq istəməyən Qərcistan və Badğis vilayətlərini də fəth etdilər.

Lakin şərq sərhədlərində sabitliyin yaranmasını istəyən Şah İsmail özbək xanlarının Xoca Əbdürrəhimin başçılığı ilə göndərdikləri üç yüz nəfərlik elçi heyətinin sülh təklifini qəbul etdi. Uzun müzakirələrdən sonra Ceyhun çayı Səfəvi və Şeybani dövlətləri arasında sərhəd elan olundu və Xorasan Səfəvilərin ixtiyarında qaldı.

1514-cü ildə baş verən Çaldıran döyüşündə Səfəvilərin Osmanlılara məğlub olmasından sonra özbəklərin Səfəvi torpaqlarına həmlələri davam etsə də heç bir nəticəsi olmamışdır. Şah İsmayılın şərq sərhədlərində yürütdüyü siyasət nəticəsində Xorasanda Səfəvi hakimiyyəti bərqərar olmuş və Ceyhun çayına qədər uzanan ərazilər qızılbaşların nəzarəti altına keçmişdir.

Şah İsmayılın vəfatından və qızılbaş tayfalarının ara müharibələri ilə əlaqədar olaraq ölkədəki qarışıqlıqdan istifadə edən Ubeydulla xan Xorasan üzərinə dəfələrlə basqınlar etdi. Özbək xanlarının Xorasana yürüşləri sonrakı illərdə (1521, 1524, 1526, 1527, 1528, 1529, 1531, 1534, 1535, 1536, 1537, 1543, 1545, 1548, 1550, 1555, 1558, 1559-60, 1563-64, 1566-67, 1569-1570-ci illərdə) də davam etmişdir.

Səfəvilər dövlətinin Osmanlılar və Məmlüklərlə münasibətləri

Səfəvi-Osmanlı münasibətləri barədə əvvəldə məlumat verdiyimiz üçün biz burada yalnız Səfəvilərin qərb qonşusu olan Məmlüklərlə olan münasibətlərindən danışacağıq. 1258-ci ildə Bağdadın monqol qoşunları tərəfindən işğalından sonra Abbasi xəlifələri nəslinə Qahirədə sığınacaq vermiş Məmlüklər bundan istifadə edərək, özlərini bütün müsəlman aləminin lideri hesab etməyə başladılar. Məmlüklər Qahirəni bütün islam dünyasının baş şəhəri sayır, peyğəmbərin vəsiyyət və tövsiyələrinə yalnız orada düzgün əməl olduğunu iddia edirdilər.[857] Bu baxımdan şiəliyə əsaslanan Səfəvilər dövlətinin meydana gəlib sürətlə böyüməsi Məmlük dövlətini narahat edirdi.

[857] Ş. F. Fərzəlibəyli, Azərbaycan və Osmanlı imperiyası, səh-88.

1507-1508-ci illərdə Səfəvilərin Şərqi Anadoludakı keçmiş Ağqoyunlu ərazilərində möhkəmlənməsi və Diyarbəkrin qızılbaş valisi Məhəmməd xan Ustaclının uğurlu fəaliyyəti Anadoluda xüsusi maraqları olan Məmlük əyanları arasında narahatlıqlar doğurmuş və Qahirə sarayında Məmlük hökmdarı Qansu Qavrinin iştirakı ilə müzakirələrin açılmasına səbəb olmuşdur. Həmin vaxt Anadoludakı Osmanl-Səfəvi sərhəddi Sivas bölgəsində Suşəhri məntəqəsindən keçir, ondan sonra isə Fərat boyunca Məmlük-Səfəvi sərhəddi başlayırdı: Divriği, Darəndə, Malatya, Ayıntab Məmlüklərin, Kəmax qalası ilə Xarput və Urfa şəhərləri də Səfəvilərin sərhəd məntəqələrini təşkil edirdi.[858]

1511-ci ildə Sədan Həbəşinin başçılığı altında olan üç yüz nəfərlik Məmlük ordusu Diyarbəkr ərazisinə daxil olsa da, burada Dəli Duraq ləqəbli qızılbaş sərkərdəsi Murad bəy Ustaclı tərəfindən məğlub edilmişdir. Döyüşün əvvəlində Murad bəy Ustaclı Sədanı öldürmüş, həbəşlərdən 180 nəfər qətlə yetirilmiş, iyirmi nəfər əsir düşmüş, qalanları isə öz ölkələrinə qaçmışlar. Əsirlərlə mülayim rəftar edən Şah İsmayıl, Misirə geri qayıtmaq istəyən üç əsirə hədiyyələr verərək, onları öz ölkələrinə yola salmışdır. Səfəvi hökmdarı Şah İsmayılın bu alicənablığını görən Məmlük hökmdarı Qansu Qavri 1512-ci ildə şah Qumda olarkən onun yanına elçi göndərdi. Qumda Şah İsmayılın hüzuruna gələn Məmlük elçisi öz sultanı adından şahı Xorasanın fəthi münasibətilə təbrik etməklə yanaşı, sərhəd pozuntularına görə də üzrxahlıq etmişdi.[859]

Qərbdə Osmanlılar, şərqdə özbəklərlə münaqişə vəziyyətində olan Səfəvilər dövləti üçün Məmlüklərlə müharibə aparmaq sərf etmirdi və Şah İsmayılın Məmlük əsirlərini hörmətlə azad etməsi, hökmdar Qansu Qavriyə mülayim tərzdə məktub yazması, məhz bu dövlət ilə gərginləşə biləcək münasibətləri yumşaltmaq məqsədi güdürdü. 1514-cü ildə baş verən Çaldıran döyüşündən sonra Səfəvilərlə Məmlüklər arasında artmaqda olan Qsmanlı təklükəsinə qarşı hərbi əməkdaşlıq yaradılsa da, tezliklə Qansu Qavrinin müttəfiqlik şərtlərinə etinasızlığından bu koalisiya pozulda. Nəticədə, 1517-ci ildə Osmanlılar Sultan Səlim Yavuzun başçılığı ilə Məmlük dövlətinə son qoyub, onun ərazisini bütünlüklə öz torpaqlarına qatdılar.

Suriyada Sultan Səlimlə Qansu Qavri arasında döyüş gedərkən Şah İsmail altmış minlik ordu ilə Məmlüklərə kömək etmək üçün Diyarbəkrə doğru hərəkət etmiş, lakin Osmanlı hökmdarının Diyarbəkrlə Suriya arasında yerləşən əl-Birə adlı yerdə ordu yerləşdirməsi üzündən geri qayıtmışdır. Məmlük dövlətinin süqutundan sonra Osmanlıların xidmətinə keçmiş Məmlük sərkərdələri olan Qəzzalilər nəslinin bəzi nümayəndələri Osmanlılara asi olaraq, Səfəvilərə sığınmışlar.

---

[858]F. Sümer, Safevi Devletinin kuruluşu, səh-38.

[859] Bicə, Cahangüşa-yi xaqan, səh-485.

Səfəvi sülaləsinin mənşəyi haqqında

Şeyx Səfiəddin Ərdəbilinın etnik mənşəyi məsələsi indiyədək tarixçilər arasında mübahisə mövzusu olmuşdur. Bu məsələni aydınlaşdırmağın mürəkkəbliyi onunla əlaqədardır ki, Səfəvilərin uzaq əcdadları barədə məlumatları özündə əks etdirən yeganə mənbə Təvəkkül ibn İsmail ibn Bəzzazın "Səfvət əs–səfa" ("Saflığın saflığı") adlı agioqrafik əsəridir. Səfəvi tarixçiləri Şeyx Səfiəddini yeddinci şiə imamı Musa Kazimın 21-ci nəslindən hesab edirdilər. Lakin Əhməd Kəsrəvi "Səfvət əs–səfa" əsərinin müqayisəli tədqiqi ilə məşğul olmuş və belə bir nəticəyə gəlmişdir ki, Səfəvilərin əcdadları heç də seyidlər (Məhəmməd peyğəmbərin) nəslindən olanlar deyillər və onların nəsil şəcərəsini sonralar Səfəvi tarixşünasları uydurmuş və İbn Bəzzazın əsərinin mətninə daxil etmişlər. Əhməd Kəsrəvi Şeyx Səfinin ərəblərlə əlaqəsinin olmadığını sübut etdikdən sonra onu türk də hesab etmir və kürd mənşəli olduğunu söyləyir. Digər İran müəllifləri onun Səfəvilərin kürd mənşəli olduğu barədəki ehtimalını şəksiz həqiqət kimi qələmə verir və bununla da bütün Səfəvilər sülaləsini iranlılaşdırmağa səy göstərirlər. Bəzi Avropa müəllifləri də bu fikiri müdafiə edirlər. Türk müəllifi Zəki Vəlidi Toqan da Səfəvilərin mənşəyinə həsr olunmuş məqaləsində onların kürd mənşəli olduğunu əsaslandırmağa cəhd göstərir, "kürd əsilli şeyxin" nəslinin sonradan "tamamilə türkləşdiyini" yazır.

Lakin V.V.Bartoldun sülalənin türk mənşəli olması barədə söylədiyi fikir daha mötəbərdir və mənbə məlumatları ilə təsdiq edilir. Alim bu sülalənin eponimi və banisi Şeyx Səfiəddin və onun nəslindən bəhs edərkən göstərirdi ki, "bu Ərdəbil şeyxləri, şübhəsiz, fars deyil, türk mənşəlidirlər". İ.P.Petruşevski də eyni fikri söyləmişdir: "İlk Səfəvi şeyxləri Ərdəbildə yaşamışlar, onların doğma dili Azərbaycan dili olmuşdur". Hanna Sohrveydə görə "Səfvət əs-Səfa" əsərində hamı Səfiyə türk kimi müraciət edir: "Ey piri-türk" (ey türk müqəddəsi), "türk gənci", "türk oğlu" və bu səbəbdən də onun türk olduğu şübhə doğurmur". M.Abbaslı Şeyx Səfiəddinin türk mənşəli olması haqda zəngin material toplamışdır.

Səfəvilər sülaləsinin əzəldən kürd, yaxud İran mənşəli olması haqqındakı ehtimal daha mötəbər mənbələrin məlumatlarına əsaslanmır. Həm də Şeyx Səfiəddinin türk etnosuna mənsub olması, çətin ki, şübhə doğura bilər.

Mədəniyyət

Səfəvilər dövlətinin əsas mülkyyət forması divani (dövlət) və xassə (hökmdar) torpaqları idi. Sonralar Səfəvilərin yürütdüyü mərkəzləşdirmə siyasəti ilə əlaqədar divani torpaqlar hesabına şərti torpaq mülkiyyət forması tiyul geniş yayıldı. Mülk və vəqf torpaqları toxunulmaz hesab edilirdi. Kəndli və sənətkarların vəziyyəti çox ağır idi. Onlar müxtəlif mükəlləfiyyət daşıyır, çoxlu (30-dan çox) vergi ödəyirdilər. I Şah İsmayılın dövründə nisbətən azaldılan vergilər sonralar tədricən yenə də artmağa başladı. Əhalinin ağır vəziyyəti I Təhmasibi malcəhət, tamğa kimi bəzi vergiləri ləğv etməyə məcbur etdi. Lakin bu islahat-

lar Səfəvilər dövlətini bürüməkdə olan böhranın qarşısını ala bilmədi. Feodal istismarının güclənməsi, vergilərin ağırlığı sinfi ziddiyyətlərin kəskinləşməsinə, üsyanlara səbəb oldu (məsələn, Təbriz üsyanı).

Səfəvilər dövlətinin iqtisadi və mədəni həyatında Azərbaycan şəhərləri, xüsusilə müstəsna rol oynayırdı. Təbriz Asiya və Avropanın bir çox şəhərləri ilə geniş ticarət əlaqələri saxlayırdı. Şamaxı və Ərəşdə istehsal olunan ipək parçalar Avropa ölkələrinə ixrac edilirdi.

Səfəvilər dövlətinin başında dünyəvi və dini hakimiyyəti öz əlində cəmləşdirən şah dururdu. Səfəvilər bütün ölkə ərazisində və ələ keçirdikləri torpaqlarda şiəliyi rəsmi din elan etmişdilər. Ali komandan əmir əl-üməra, qorçi (şahın şəxsi qvardiyasının komandanı) dəstələrinin başçısı isə qorçibaşı adlanırdı. Dövlət aparatında vəzir, dini idarələrə və vəqf məsələlərinə sədr, maliyyə işlərinə mustuofi əl-məmalik nəzarət edirdi. Səfəvilər dövləti bəylərbəyilərin idarə etdiyi ayrı-ayrı bəylərbəyliklərinə bölünmüşdü. Qızılbaş əmirlərindən seçilən bəylərbəyilər şahın tələbi ilə öz dəstələri ilə hərbi səfərlərdə iştirak etməli idilər. Səfəvilər dövlətinin daimi ordusu yox idi. Ordu müharibə ərəfəsində bəylərbəyilər hesabına saxlanan süvari dəstələrindən təşkil olunurdu. Müharibələrdə ən çox 120-150 min döyüşçü iştirak edirdi. Şahın xidmətində 4-6 min nəfərlik daimi qorçi dəstəsi vardı. Səfəvi ordusu odlu silahla pis təchiz olunmuşdu.

Qızılbaş tayfalarının qüdrətli siyasi birliyə çevrilməsi, Azərbaycanın cənub və şimal torpaqlarının nisbətən mərkəzləşmiş vahid dövlət şəklində birləşməsi, məhsuldar qüvvələrin yüksəlişi, şəhərlərin sənətkarlıq və ticarət mərkəzlərinə çevrilməsi obyektiv olaraq Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafına şərait yaradırdı. Azərbaycan dilinin istifadə dairəsi genişləndi. Sarayda Həbibi, Sürüri, Şahi, Matəmi, Tufeyli, Qasimi və başqa Azərbaycan şairləri, həmçinin ozan-aşıqları yaşayıb-yaradırdılar. "Xətayi" təxəllüsü ilə yazan I Şah İsmail Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsidir. Səfəvilərin saray kitabxanası bir növ "incəsənət akademiyasına" çevrilmişdi. Burada mahir xəttatlar, rəssamlar, cildçilər, nəqqaşlar və başqaları işləyir, Sultan Məhəmməd və Behzad kimi görkəmli miniatür ustaları fəaliyyət göstərirdi.

Şəhərlər, sənətkarlıq və ticarət

Səfəvilər dövrünə aid Dəmirqapı, Şamaxı, Gəncə, Naxçıvan, İrəvan, Lənkəran, Təbriz, Ərdəbil, Urmiya, Xalxal, Xoy, Sufiyan, Sultaniyyə, Sərab, Səlmas, Tarom, Qəzvin, Marağa və Miyanə kimi Azərbaycan şəhərlərinin adları qeyd olunur. Tarix boyunca bir çox dövlətlərin paytaxtı olmuş Təbriz şəhəri "darüssəltənə" ("sultanlıq məkanı") adlandırılır. 1501-ci ildə Şah İsmail Təbrizi tutub Səfəvilərin paytaxtı elan edərkən şəhərdə təxminən üç yüz minə yaxın əhali yaşayırdı. 1555-vi ildə şahın sarayı Qəzvinə köçürüldükdən sonra da Təbriz çox böyük şəhər olaraq qalmışdır. Həmin vaxt Səfəvilər dövlətinə daxil olan şəhərlər arasında əhalisinin sayına görə Təbriz birinci yeri tuturdu. Şəhərdə hökmdar sarayı ilə yanaşı, Həsən padşah məscidi, Şah Qazan günbəzi və s. məşhur tikililər var idi.

Səfəvi şeyxlərinin vətəni olan və dövlət daxilində dini mərkəz kimi mühüm yer tutan Ərdəbil şəhəri "darülirşad" ("irşad məkanı") adlanırdı. Azərbaycan şəhərləri Səfəvilər dövlətinin iqtisadi həyatında mühüm rol oynayırdılar. Şəhərlərin iqtisadi strukturunda aparıcı rol sənətkarlıq və ticarətə məxsus idi. Şəhərlərdə ərbablar, tacirlər, ruhanilər, sənətkarlar, dükançılar, baqqallar və s. yaşayıb fəaliyyət göstərirdilər. Səfəvilər dövlətində orta əsr sənətkarlığının bütün növləri təmsil olunmuşdu. Mənbələrdə həmin dövrdə toxuculuq, xalçaçılıq, dəmirçilik, zərgərlik, misgərlik, gön-dəri emalı, pinəçilik, dulusçuluq, çörəkbişirmə, dəyirmançılıq, inşaatçılıq, parfümeriya istehsalı və s. kimi sənətkarlıq sahələrinin inkişaf etdiyi göstərilir.

Şəhər idarəsinin başında darğa dayanırdı. O, əhalini oğurluqdan, qarətdən, qalmaqaldan, sitəmkarlıqdan, qətl hadisələrindən, şəriətə zidd olan qumar, şərab içmək və digərlərinin hüquqlarına təcavüzdən çəkindirirdi. Şəhərdəki bütün hüquq-mühafizə dəstələrinə ümumi komandanlıqda darğaya məxsus idi. Şəhər idarəçiliyində ikinci şəxs kələntər hesab olunurdu. O, şəhərin iqtisadi həyatına nəzarət edirdi. Şəhər məhəllələrinin başçıları isə "rəis" adlanırdı. Məhəllə rəislərinin və əsnaf ağsaqqallarının təyin olunması kələntərin səlahiyyətinə daxil idi. Şəhər idarəetmə vəzifələrindən biri də "sahibi ehdas" adlanırdı. O, "şəbgərdən" adlanan və gecələr şəhərdə asayişi qoruyan patrul dəstəsinin komandiri hesab olunurdu.

XV əsrin sonlarında aparılan feodal ara müharibələri, iqtisadiyyatın bütün sahələrinə olduğu kimi, ticarətə də ağır zərbə vurmuşdu. Müsəlmanlardan və ya kafirlərdən ibarət olmasından asılı olmayaraq, hər hansı bir tacir karvanının qarət edilməsinə qarşı sərt cəza tədbirləri görülür, tacirləri öldürənlər edam olunurdular. Səfəvi ərazisində yerli tacir karvanları ilə yanaşı, xaricdən gələn tacir karvanlarına da rast gəlmək olurdu. Səfəvilər dövlətinin Osmanlı dövləti, Avropa ölkələri, Hindistan, eləcə də Xətay və Çinlə ticari münasibətləri olmuşdur. Karvan-ticarət yollarının öyrənilməsindən məlum olur ki, XVI əsrdə Azərbaycan ticarət yollarının inkişaf etmiş şəbəkəsinə malik ölkələrdən birinə çevrilmişdi.

Səfəvilər dövründə dinar, dirhəm, əşrəfi (çəkisi 3,45 qram olan qızıl sikkə), şahı (gümüş pul), tümən kimi pul vahidlərindən istifadə olunurdu. Şah İsmail hakimiyyətə gəldikdən dərhal sonra Təbriz şəhərində üzərində "Əliyyən-vəliyullah" ("Əli Allahın dostudur") sözləri həkk olunmuş sikkələr zərb edilib, dövriyyəyə buraxılmışdı.

Səfəvilər dövlətini idarə etmiş hökmdarlar və hakimiyyət illəri:

1. Əs-Sultanil Adilil-Kamilil-Hədiyyil-Vəli Əbul-Müzəffəris-Sultanil-Qaazi fi-Səbilillah I Şah İsmaili Səfəvi ibn Heydər ibn Cüneyd ibn İbrahim ibn Əlaid-Din Əli ibn Musa Sədrid-Din ibn İshaq Səfiyyəddin ibn Cəbrail Əminid-Din (hakimiyyət illəri – 1501-1524, həyatı – 1487-1524).

2. I Şah Təhmasib Əbul-Müzəffər (Əbil-Fəth) Bahadir Xan ibn I İsmail (hakimiyyət illəri – 1524-1576, həyatı – 1514-1576).

3. II Şah İsmail ibn I Təhmasib (hakimiyyət illəri – 1576-1577, həyatı – 1534-1577).

4. Şah Məhəmməd Xudabəndə ibn I Təhmasib (hakimiyyət illəri – 1577-1587, həyatı – 1532-1595).

5. I Şah Abbas ibn Məhəmməd Xudabəndə (hakimiyyət illəri – 1587-1629, həyatı – 1571-1629).

6. I Şah Səfi Sam Mirzə ibn Məhəmməd Baqir Səfi Mirzə ibn I Abbas (hakimiyyət illəri – 1629-1642, həyatı – 1608-1642).

7. II Şah Abbas ibn I Səfi (hakimiyyət illəri – 1642-1666, həyatı – 1632-1666).

8. II Şah Səfi Süleyman ibn II Abbas (hakimiyyət illəri – 1666-1694, həyatı – 1647-1694).

9. I Şah Hüseyn ibn II Səfi (hakimiyyət illəri – 1694-1722, həyatı – 1670-1729).

10. II Şah Təhmasib ibn I Şah Hüseyn (hakimiyyət illəri – 1722-1732, həyatı – 1704-1740).

11. III Şah Abbas ibn II Təhmasib (hakimiyyət illəri – 1732-1736, həyatı – 1731-1740).[860]

I Şah İsmailin zövcələr:

1. Taclı Bəyim binti Yaqub (Ağqoyunlu sultanı).
2. Taclı Xatun binti Xuləfa bəy
3. Bihruzə Xatun
4. Məlikə Xatun binti Süleyman
5. Fülanə Xatun binti Şeyx-Şah (Şirvan-Şah)
6. Xanbəyi Xatun
7. Taclı Xatun binti İsa bəy Mosullu Türkmən
8. Fülanə Xatun binti Əbdi bəy Şamlı Türkmən
9. Fülanə Sultan binti Sultan Əhməd ibn II Bəyazid.

I Şah İsmailin qızları:

1. Pərixan Bəyim
2. Mehin Banu Bəyim
3. Fərəngiz Bəyim
4. Zeynəb Bəyim
5. Fülanə Bəyim
6. Xeyrun-Nisə Bəyim.

I Şah İsmailin oğlanlar:

1. I Şah Təhmasib
2. Əbun-Nəsr Sam Mirzə
3. Əbul-Fəth Bəhram Mirzə

[860]Yılmaz Öztuna, İslam Devletleri, Ankara-1989, I cild, səh-775-776.

4. Əlqass Mirzə
5. Söhrab Mirzə
6. Rüstəm Mirzə.

Səfəvilərin Gürcüstan valiləri:
1. İsa Xan-1615
2. Əliqulu Xan-1616
3. Peykər Xan-1616
4. Qarçıqay Xan-1624
5. Səlim Xan-1633
6. Mürsüz Əli Xan-1659
7. Şah Nevaz Xan və Bezan Xan-1675
8. Fülan Xan-1683
9. Abbasqulu Xan-1688
10. Kəlbi Əli Xan-1695-1703.

Hakimiyyət iyerarxiyası

Vəkil – İdarəçilik sistemində şahdan sonra ikinci vəzifə hesab olunurdu və mənbələrdə tam formasında "vəkil-i nəfs-i nəfis-i humayun" ("hökmdarın nəfis zatının vəkili") deyə qeyd edilirdi. Vəkil vəzifəsinə təyin edilən şəxs həm dünyəvi, həm də dini cəhətdən şahın köməkçisi hesab edilirdi. Vəkil vəzifəsini əvvəlcə I Şah İsmayılın lələsi Hüseyn bəy Şamlı tutsa da, 1507-ci ildə onu Əmir Nəcm Rəşti əvəz etmişdir.

Əmirulüməra – ən yüksək hərbi vəzifə hesab olunurdu. Səfəvilər dövründə əmirulüməra, yəni "əmirlər əmiri" mahiyyətcə Səfəvi qoşunlarının baş komandanı idi. Əmirulüməra ilə yanaşı "üməra-yi əzəm" (böyük əmirlər) və "üməra-yi namdar" (adlı-sanlı əmirlər) adlandırılan əmirlər qrupu da var idi. Səfəvi şahı bir sıra mühüm tədbirlər və hərbi əməliyyatlar ərəfəsində onlarla məsləhətləşirdi.

Əmir-i divan – Səfəvi ordusunda baş qərargahın rəisi hesab olunurdu. Baş komandanın müavini hesab olunurdu.

Qorçubaşı – şahın şəxsi qvardiyasının komandanı sayılırdı. Qorçubaşıya tabe olub, müxtəlif qızılbaş tayfalarını təmsil edən döyüşçülər "qorçu" adlanırdılar.

Sədr – ən ali ruhani vəzifə sayılırdı. Onlar antifeodal bidətçi hərəkatlarının qarşısının alınması, kökünün kəsilməsi, şiəliyin yayılması və möhkəmlənməsi üçün məsuliyyət daşıyırdılar. İlk sədr Şah İsmayılın müəllimi Mövlanə Şəmsəddin Lahicani olmuş və 1504-cü ildə isə onu Qazı Mir Məhəmməd Kaşiyə əvəz etmişdir.

Vəzir – mülki bürokratiyanın başçısı rolunda çıxış etsə də, Şah İsmail zamanında onun vəzifələri xeyli məhdud idi. Səfəvilərin ilk vəziri Şəmsəddin Zəkəriyyə Keçəçi təyin olunsa da, 1504-cü ildə Qəvaməddin Mahmudxan Deyləmi də onun şəriki olmuşdur.

Bəylərbəyi – əyalətlərə təyin olunmuş hakimlərə verilən titul idi və bəzən irsi xarakter daşıyırdı.

Lələ – Səfəvi şahzadələrini tərbiyə edənlər lələ adlanırdı.

Eşikağasıbaşı – şah divanının bütün yasavullarının, eşikağasılarının, qapıçılarının və carçılarının rəisi olub, şah məclislərinin təşkil və tərtibində məsul idi. Eşikağasıbaşının tabeçiliyində yasavul və eşikağası adlanan məmurlar olurdu. Şahın hüzurunda əmr və fərmanları icra edən yasavullar, yürüşlər zamanı süvari halda şahı müşayiət edir, bəzən vacibi xəbərlərin, fərmanların, məktubların çatdırılması üçün qasid və ya çapar kimi göndərilir, qızıl və gümüş çomağa malik olurdular. Yasavullar özlüyündə söhbət yasavulları və qur-yasavulları olaraq iki qrupa bölünürdülər. Söhbət yasavulları xüsusi məclislərdə eşikağasıbaşının yerinə xidmət edir, ümumi məclislərdə isə hökmdarın bərabərində dayanırdılar və məclisə eşikağasılar xidmət edirdilər.

Qur-yasavulları isə gecələr saray çevrəsini mühafizə edir, şah yolla gedərkən izdihamın qarşısını alır, divanbəyinin apardığı məhkəmə iclasları zamanı asayişi qoruyur, edam hökmlərini, əmlakın müsadirəsini, xanların şəxsi həbsini və s. həyata keçirirdilər.

Eşikağası adlanan məmurlar isə ümumi məclislərdə xidmət göstərir və divan eşikağasıbaşısına tabe idilər.

Möhrdar-i möhr-i humayun – şahın möhürünü daşıyan bu şəxslər etibarlı və hörmətli olmaqla yanaşı, məclislərdə şaha yaxın yerdə əyləşərdilər.

Divanbəyi – bu vəzifəni daşıyan şəxs həftənin dörd günü sədrin iştiakı ilə keşikxanada dörd başlıca cinayətin (ölüm, zorlama, göz çıxartma və diş sındırma) istintaqını aparır, həftənin digər iki iş günündə isə öz evində ictimai hüquqla əlaqədar olan mülki işlərə baxırdı.

Xəlifətul-xüləfa – xəlifətul-xüləfa bütün xəlifələrin başçısı hesab olunur və şah tərəfindən təyin edilirdilər.

Ələmdarbaşı – müharibə və təmtəraqlı mərasimlər zamanı şahın döyüş bayraqlarını qaldıran ələmdarların rəisi idi.

Təvaçıbaşı – müharibədən qabaq dövlətin tabeliyində olan əyalətlərə gedərək, hərbi qüvvə toplayan əmirlər idilər.

Çərxçibaşı – döyüş zamanı ordunun ön dəstəsi "çərxçi", onun komandanı isə "çərxçibaşı" adlanırdı.

Əmirşikarbaşı – şahın ov işlərini təşkil edən şəxslərə deyilirdi. Hərbi yürüşlər zamanı öz tabeliyində olan dəstə ilə qaravulda dayanmalı idi.

Mehtər-i rikabxane-yi mübarəkə – şah ordusunun at tövləsinin və ilxısının, cilovdar, qatır və mehtərlərin rəisi funksiyasını həyata keçirirdi.

Mustovfi-yi məmali-i məhrusə – maliyyə işlərini həyata keçirirdi.

Münşiül-məmalik – onlar bütün şah məktublarında, fərmanlarında və digər rəsmi sənədlərdəki formulanın həyata keçirilməsini təmin edirdilər.

Naziri-büyutat – şahın və onun ailə üzvlərinin, həmçinin çoxsaylı saray əyanlarının tələbatlarını ödəməkdən ötrü yaradılmış müxtəlif tipli karxanaların ümumi başçısı vəzifəsini həyata keçirirdi.

Qazı – mülki və məişət məsələlərinə baxan dini hakim rolunda çıxış edirdi.

Şeyxülislam – və ya axund adlanan bu şəxs öz evində şəriət məsələlərinə baxır, həmçinin "əmr be məruf" (doğru yola dəvət), "nəhy əz münkər" (pis yoldan çəkindirmək) kimi dini hökmlərin icrasını da yerinə yetirirdilər.

XII FƏSİL

SƏLİB YÜRÜŞLƏRİ

Birinci xaç yürüşü (1096-1099): İslamın zühurundan və qısa zamandan sonra şərqi xiristian dünyasının təmsilçisi olan Bizansın əlindən Suriya, Fələstin, Misir, Cənubi Afrikanın alınması xiristian dünyasını qorxuya salmışdı. Müsəlmanların İspaniyanı ələ keçirərək orada dövlət qurmaları, Cənubi Afrikada qurulan Əğləbilər (800-909) dövlətinin Siciliyanı ələ keçirərək Romanı mühasirəyə almaları, xiristianları müsəlmanlara qarşı müharibəyə təhrik edirdi.

Malazgird döyüşündən sonra Anadolunun sürətlə Türkləşməsi, Süleyman şahın mərkəzi İznik olmaqla öz dövlətini qurması və Boğaz sərhədlərinə qədər öz hakimiyyətini genişlətməsi Bizansı narahat edirdi.

Həm İspaniyadan, həm də Anadoludan Avropa və xristianlığın təhdid altında olması, xristianlığın müqəddəs şəhərləri olan Urfa, Antakya və Qüdsün müsəlmanların əlində olması onlar üçün fəlakət idi.[861]

Bütün bunları nəzərə alan papalar cahil Avropalıları müsəlmanlara qarşı müharibəyə təhrik etməyə başladılar. Müsəlmanlara qarşı edilən savaşlara papalar tərəfindən "Müqəddəs döyüş" adı verildi və bu savaşda öldürülənlərin Allah qatında günahlarının bağışlanacağı elan olundu.

Əndəlüs hökmdarı III Əbdürrəhmanın (912-961) İspaniyadakı uğurları papaları narahat etdi və buna görə "İspaniyadakı müsəlmanlara qarşı edilən müharibə müqəddəs müharibə adını aldı və papalar bu müharibənin idarəsini öz əllərinə aldılar." Papa VII Qreqori bütün xristian hökmdarlarını bu səfərə qatılmağa dəvət etdi. Eyni zamanda Papa üsyançıların müsəlmanlardan aldıqları hər bir ərazidən istədikləri kimi istifadə edə biləcəklərini elan etdi.

İspaniyanın ardından papalar üzlərini Bisansa və Anadoluya gələn Türklərə çevirdilər. Papa Qriqori Bizansa kilsənin seçilən sərkərdələrindən ibarət mütəşəkkil bir ordu göndərəcəkdi. Papanın idarəsi altında olan bu ordu Türkləri Anadoludan qovacaqdı. 1095-ci ildə Fransanın Klermon şəhərində xalq kütlələrinin böyük bir izdihamı qarşısında Roma papası II Urba çıxış etdi. O, izdiham iştirakçılarına müraciət edərək onları "qılınca qurşanmağa" və şərq ölkələrinə doğru hərəkət edib "İsanın qəbrini kafirlərin (yəni müsəlmanların) əlindən xilas etməyə" çağırdı. Xristianlara görə, guya Hz.İsa Fələstindəki Qüds (Yerusəlim) şəhərində dəfn olunmuşdur. Papa II Urba vəd etdi ki, Şərqə yürüşdə iştirak edənlərin hamısının bütün günahlarını bağışlayacaqdır.

---

[861]Runciman S, Xaçlı Səfərləri Tarixi, tər. Fikrət İşıltan, TTK Ank. 1986, I, səh-16-67.

Tarixi mənbələrə görə, izdiham iştirakçıları papanın nitqini dəfələrlə "Allahdan buyuruq belədir!" nidaları ilə yarımçıq kəsmişdilər. Bir çoxu elə oradaca dərhal "müqəddəs torpağa" getməyə hazır olduqlarını nümayiş etdirmək üçün paltarlarına qırmızı parçadan xaç tikdilər. Buna görə də Şərqə yürüşlərin iştirakçılarını xaçlılar və ya səlibçilər, həmin yürüşləri isə xaç yürüşləri adlandırmağa başladılar.[862]

Xaçlı səfərlərinin həyacanı bütün Avropanı bürümüşdü. Başda Pierri Hermitə olmaqla bir çox krallar əhalini bu səfərə qatılmağa çağırırdılar. Pierri Hermit və onun vaazları aclıq və yoxluq içində olan kəndliləri döyüşə çağırmaqla bərabər onlara başa salmağa çalışırdılar ki, Hz.İsanın dönüşü yaxındadır.

Bu şəkildə müsəlmanlara qarşı döyüşə təhrik edilən xristianlar Cəbəlli-Tariqdən tutmuş Balkanlara qədər olan bütün bərbər qövmlər çəyirtkə sürüləri tək müsəlman torpaqlarına soxuldular.[863] Pierri Hermitlə yola çıxanlar əsasən kəndlilər və şəhərlilərdən ibarət idi. Belqrada gələn üsyançılar ətraf məntəqələri talan etməyə başladılar. Macarlar tərəfindən ələ keçirilən qiyamçıların bir hissəsi öldürüldü, bir hissəsi isə kilsədə diri-diri yandırıldı.

Avqustun altısında bütün xaçlı ordusu boğazdan keçirildi. Anadoluya daxil olan bu ordu ətraf məntəqələrlə yanaşı rumluların da mallarını talan etdilər. İznik yaxınlığına qədər əraziləri talan edən xaçlılar xristian əhalini də ağır işgəncələrə məruz qoyaraq bir çoxunu öldürdülər. Sentyabrın sonlarına doğru Rinaldo altı min almanla İznikə doğru hərəkət etdikdə ətraf məntəqələri talan etsə də, fransızlardan fərqli olaraq xristian əhali ilə mülayim rəftar etdi.

Pierri Hermit İstanbula getdiyi üçün onu gözləyən üsyançılar, İzmitdən irəliləməyə başladılar. Lakin türklər tərəfindən məğlub edilən üsyançılar xeyli itki verərək geri çəkildilər.[864] Beləliklə, xalqın iştirak etdiyi xaçlı səfəri sona çatdı.

Lakin əsil xaçlılar arxadan hərəkət edirdi. İkinci səfərə qatılanlar bunlardır:

Fransa kralı I Henrinin oğlu Huqo, Tuluz hakimi Raymond de Seint, Loren hakimi Qodefriyo və qardaşları, Robert Ansa, Herrmann de Cannae, Albered de Caqnano, Toranto hakimi Bohemond və s. kral və şahzadələr iştirak edirdi.

I Qılınc Arslanın (1092-1107) qardaşı Davud, Pierri Hermitin arxasından gələn üsyançıları qarşılayaraq qılıncdan keçirmişdir. Bu qələbədən ruhlanan türklər elə zənn etdilər ki, arxadan gələn xaçlı ordusunu da məğlub edəcəklər. Yüz mindən artıq olan xaçlı ordusu imperatorla müqavilə bağladı. Müqaviləyə əsasən imperator Aleksis onları ərzaqla təmin edəcək, Anadoluya keçirəcək və xaçlılar da ələ keçirdikləri əraziləri imperatora təhvil verəcəkdilər.

İznikə gələn xaçlılar şəhəri mühasirəyə alaraq əhalini sıxışdırmağa başladılar. Malatya səfərində olan I Qılınc Arslan geri qayıtsa da, heç bir nəticə əldə edə bilmədiyi üçün şəhəri xaçlılara buraxdı.

1097-ci ildə İzniki ələ keçirən imperator Aleksis təslim olanlarla mülayim rəftar edərək, fidyə yolu ilə sərbəst buraxılacaqlarını bildirdi. Əsirlər arasında

---

[862]Runciman, Xaçlı Səfərləri Tarixi, tər. Fikrət İşıltan, TTK Ank. I cild, səh-84-85.
[863] Runciman, Xaçlı Səfərləri Tarixi, tər. Fikrət İşıltan, I cild, səh-91-92.
[864] Xaçlı Səfərləri Tarixi, I cild, səh-93-103.

Qılınc Arslanın zövcəsi də var idi. Beləcə İznik Orxan Qazinin fəthinə qədər Bizansın əlində qaldı. İznikin xaçlılar tərəfindən ələ keçirilməsi Avropada böyük sevincə səbəb olmuşdur.

Qılınc Arslan xaçlıları Anadoluda dayandırmaq üçün Danişmənd Gümüş Təkini və Kayseri əmiri Həsəni köməyə çağırdı. İki tərəf Əskişəhər yaxınlığında Dorilayon ətrafında qarşılaşdı. Lakin 1097-ci ildə tərəflər arasında baş verən döyüşdə məğlub olacağını anlayan Qılınc Arslan geri çəkildi. Xaçlıların bir qismi Anadoludan və Konya üzərindən Çukurovaya, digər bir qismi isə Kayseri üzərindən Mərəş və Göksuna daxil oldular.

Xaçlılardan ayrılan Baudoinde şərqə doğru hərəkət edərək Təll-Bəşiri və Ravəndəni ələ keçirdi. Bundan xəbər tutan Urfa hakimi Toros onu Urfaya dəvət etdi. Toros bu dəvətlə Türk hücumlarından qurtulacağını zənn edirdi. Torosun dəvətini qəbul edən Baudoinde 1098-ci ildə Urfaya gəldi. Onu dostluqla qarşılayan Toros ona qiymətli hədiyyələr verdi. Ətrafdakı xristian əmirləri də onun yanına gələrək hazırladıqları ordu ilə Sumaysat üzərinə hücum edib ətrafı talan etsələr də, sonda məğlub olaraq Urfaya qayıtdılar. Torosun öldürülməsindən sonra Urfa Baudoindeyə verildi və burada ilk xaçlı krallığı quruldu.[865]

Antakyanın xaçlılar tərəfindən tutulması 1098-ci il

1084-cü ildə Süleyman Şah (1075-1086) tərəfindən fəth edilən Antakya sonralar Məlik Şah (1107-1116) tərəfindən Yağı Sinaya iqta edilmişdi. Xristianlar tərəfindən müqəddəs şəhər hesab edilən Antakyanın imperator Aleksisdə ələ keçirilməsini istəyirdi. Xaçlıların Çukurovaya daxil olduğunu öyrənən Yağı-Siyan müdafiə tədbirlərini görməklə yanaşı, xəyanətindən ehtiyat etdiyi xristianları da şəhərdən çıxardı.[866] Bundan əlavə müsəlman əmirləri olan Hələb məliki Rizvan, Dəməşq məliki Dukaq, Atabəy-Tuğ-Təkin, Xıms əmiri Cənahud-Dövlə Hüseyn, Gurboğa, Sökməndən yardım istəyərək onları cihada dəvət etdi. 1097-ci ilin sonunda başlanan döyüşdə yardımçı qüvvələr xaçlılar tərəfindən məğlub edildi. Bərkyarukun Gurboğanın başçılığı ilə xaçlılar üzərinə göndərdiyi ordu Urfanı mühasirəyə alsa da heç bir nəticəsi olmadı. Sonda Atabəy-Tuğ-Təkinin, Xıms hakimi Cənahud-Dövlənin, Sincar hakimi, Arslantaş və Sökmənin başçılığı altında olan ordu birləşərək Antakyaya doğru hərəkət etdi.[867]

İslam ordusunun gəldiyini öyrənən xaçlılar 1098-ci ildə birləşərək Bohemondu özlərinə başçı seçdilər. 1098-ci ilin yayında erməni əsilli Firuzun köməyi ilə şəhərə daxil olan xaçlılar Yağı-Siyanın ailəsini və xəzinələrini ələ keçirməklə yanaşı müsəlmanları öldürüb, şəhəri talan etdilər.[868]

Antakyanın xaçlıların əlinə keçdiyini öyrənən Gurboğa 1098-ci ildə böyük bir ordu ilə hərəkətə keçərək şəhəri mühasirəyə aldı. Mühasirə nəticəsində xaçlı-

[865]Urfalı Mateos, Vekayi-name, Ankara-1987, səh-193-195.
[866] Tarixi ibn Əsir, X cild, səh-274.
[867] Özaydın, Fetret və İntikal Devri, səh-177-178.
[868]Tarixi ibn Əsir, X cild, səh-275; Mateos, Vekayi-name, səh-197.

lar arasında aclıq və qıtlıq baş qaldırdı. Lakin qısa müddət sonra müsəlman əmirləri arasında yaranmış ixtilafdan istifadə edən Bohemond 1098-ci ildə böyük bir qüvvə ilə hücuma keçərək müsəlmanları məğlub etməklə yanaşı xeyli qənimət ələ keçirdi. Antakyanın fəthindən sonra xaçlılar Qüdsə doğru hərəkət etdilər.[869]

Qüdsün xaçlıar tərəfindən ələ keçirilməsi 1099-cu il

Antakyanın xaçlılar tərəfindən zəbt edildiyi və Türklərin qılıncdan keçirildiyi bir vaxtda Qüds Fatimilər (909-1171) dövlətinin əlində idi. 1096-cı ildə xaçlılar şimaldan Anadoluya doğru hərəkət edərkən Fatimilər də əl-Əfdal ibn Bədrul-Cəmali əmrində cənubdan hərəkət edib, qırx günlük mühasirədən sonra Qüdsü özlərinə təslim etmişlər.[870]

Antakyanın ardınca Maarratun-Numanı da ələ keçirən xaçlılar, Aqqa mühasirəsindən sonra Qüdsə doğru hərəkət edərək, şəhəri mühasirəyə aldılar. Həmin vaxt şəhəri İftixarud-Dövlə müdafiə edirdi. Qırx günlük mühasirədən sonra 1099-cu ildə şəhərə daxil olan xaçlılar bir çox müsəlmanı qılıncdan keçirdilər. Xaçlılar tərəfindən Məscidul-Əqsada yetmiş minə yaxın müsəlman öldürüldü.[871]

Qüdsün ələ keçirilməsindən sonra burada Latın krallığının əsasını qoyan xaçlılar buraya kral olaraq Qodefroyini təyin etdilər.

İkinci xaç yürüşü (1147-1149)

İmaduddin Zənginin Urfanı xaçlılardan geri almasından sonra Qüds Latın krallığı Antakya yolu ilə xəbər göndərib xaçlılardan yardım istədi. Bununla əlaqədar olaraq Papa Eugenus Fransa kralı VII Lui başda olmaqla, Fransanın bütün əsilzadə və inanmışlarına xitab edərək onları şərqi xristian aləminə yardım etməyə çağırdı. Əziz Bernardın səyləri nəticəsində Alman kralı III Konrad da müsəlmanlara qarşı yürüşə hazırlaşdı.

1147-ci ilin mayında kral III Konrad böyük bir ordu ilə Regensburqdan hərəkət edərək Almaniyanı tərk etdi. Bohemya kralı Vladislav və Baloniya kralı IV Boleslav da onunla birlikdə hərəkət edirdi. Almanlarla yanaşı Slavyanlar və Fransızca danışan Lorenlilər də orduya qatılmışdı. 1147-ci ildə İstanbula gələn bu orduya bir ay sonra Kral Luinin də ordusu qatıldı.

Fransızların gəlişini gözləməyən kral III Konrad Anadoluya daxil oldu. İznikə gələn III Konrad ordusunda zəif olanları Dənizli üzərindən Antalyaya göndərdikdən sonra özü də Əskişəhər üzərindən hərəkətə keçdi. Lakin 1147-ci ildə Türklərin qəfil hücumuna məruz qalan III Konrad xeyli itki verərək İznikə qaçdı.[872]

Qadıköyü keçən fransız ordusu İznikə gəlib III Konradla birləşdi. 1148-ci ildə Antalya yolunda xəstələnən III Konrad əvvəlcə İstanbula, oradan da Bizans gəmiləri vasitəsilə ordusu ilə birlikdə Fələstinə gətirildi.

---

[869]Tarixi ibn Əsir, X cild, səh-277; Tarixi Əbul Fərəc, II cild, səh-339-340.
[870]Tarixi ibn Əsir, X cild, səh-282.
[871]Tarixi ibn Əsir, X cild, səh-384; Tarixi Əbul Fərəc, II cild, səh-340.
[872]Turan, Selçuklular Zamanında Türkiyə, İstanbul-1971, səh-184.

Dəfələrlə Türklərin hücumuna məruz qalan Fransız kralı VII Lui çətinliklə 1148-ci ilin fevralında Antalyaya çatsa da qıtlıqla üzləşdi. Bizans valisindən kömək alan kral VII Lui gəmilər vasitəsilə Süveydiyyəyə doğru hərəkət etdi. Ordunun qalan hissəsi Selefkiyə yolu hərəkət edərək Antakyaya çatdıqda xaçlıların uşaq və qadınlarına Türklər tərəfindən yardım edildi. Bu yardım nəticəsində üç mindən artıq xristian Türklərin tərəfinə keçdi.

Nurəddin Mahmudun fəaliyyəti

Atasının vəfatından sonra vəzir Şirkuhun köməyi ilə Nurəddin Mahmud Hələbdə idarəni ələ keçirdi. II Xaçlı səfərinə qoşulan VII Lui ilə III Konrad Suriya və Fələstindəki xaçlılarla birləşərək 1148-ci ildə Şamı mühasirəyə alsalar da Nurəddin Mahmud və Mosul əmiri Seyfəddin Qazinin köməyə gəlməsi ilə xaçlılar heç bir uğur əldə edə bilməmişlər. Xaçlı sərkərdə Raymondu öldürən Nurəddin Mahmud Antakyanın bəzi kiçik qalalarını ələ keçirməklə bərabər Xıms, Rəqqa və Rəhbəni də ələ keçirdi. Şamı ələ keçirən Nurəddin Mahmud, III Boudounidə Təbəriyyə yaxınlığında məğlub edərək Antakyadakı xaçlı xanlıqlarının bir qism torpaqlarını ələ keçirdikdən sonra 1164-cü ildə buranın əmiri III Bohemondu Tripolidəki müttəfiqi III Raymond ilə birlikdə əsir etdi.

1171-ci ildə Fatimilərin süqutundan sonra Misirdə Əyyubilər dövlətinin əsasını qoyan Səlahəddin xaçlılara qarşı cihada böyük önəm verdi. 1174-cü ildə Nurəddin Mahmudun ölümündən sonra Suriyanı da özünə tabe edən Səlahəddin burada İslam birliyi meydana gətirdi. 1187-ci ildə baş verən Xəttin döyüşündə xaçlıları məğlub edən Səlahəddin Əyyubi Qüdsü və onun ətrafını xaçlılardan geri alaraq İslam torpaqlarına qatdı. Xaçlıların əlində Antakya, Trablusşam və Tir şəhərləri qalmışdı. Xaçlılara qarşı mübarizəni davam etdirən Səlahəddin Əyyubi 1188-ci ildə onların Surdan Bələbəkə doğru irəliləmələrinin qarşısını alaraq Trablusa doğru hərəkət edib Antakya ətrafındakı bu yerlərlə bərabər, Lazkiyə, Cəbələ, Kərək, Şəvbək və Safəd kimi yerləri də ələ keçirdi. Bu yürüşdə İmadud-din Katib, İbn Şəddad və İbn Əsir kimi tarixçilər də iştirak edirdi.[873]

Üçüncü xaç yürüşü (1187-1191)

1187-ci ildə Səlahəddin Əyyubinin Qüdsü xaçlılardan geri alması Avropanı bütünlüklə müsəlmanlara qarşı qaldırdı. Vaxt itirməyən yeni papa VIII Qreqorus bütün qərb xristianlarını yardıma çağıran bir bəyannamə imzaladı. Bu bəyannamədə Urfanın geri qaytarılması, hər kəsin tövbə etməsi nəticəsində günahlarının bağışlanacağı və cənnətdə özünə xəzinələr qazanacağı vəd edilirdi. Lakin bu bəyannamənin imazalanmasından iki ay sonra papa VIII Qreqorus vəfat etdi.

Papanın ölümündən sonra qərbin ən böyük hökmdarı olan Fredrix Barbarossa bu səfərə dəvət edildi. 1189-cu ilin mayında Rugenburqdan yola çıxan Alman imperatoru Fredrix Barbarossa qışı Ədirnədə keçirdi. 1190-cı ilin martında Çanaq-qala boğazını keçən imperator ordusu ilə birlikdə Anadoluya daxil oldu. Balışəhər

[873]Şeşen R, Salahaddin Eyyubi ve Devlet, İstanbul-1987, səh-95-130.

üzərindən Əlaşəhərə gəlib, oradan da Səlcuqlular dövlətinin ərazilərinə soxuldu. Həmin vaxt II Qılınc Arslanın oğulları hakimiyyət uğrunda bir-biri ilə mübarizə apardığı üçün Səlcuqlu dövləti xeyli zəifləmişdi. Hətta II Qılınc Arslanın böyük oğlu Məlik şah Konyanı işğal edərək atasını gözündən kənara qoymurdu. Ulu-Borlu bölgəsinə daxil olan xaçlıların aclıq və soyuqdan əziyyət çəkdiklərini görən Türkmənlər qəfil hücum edərək onların xeylisini qılıncdan keçirdilər. Ağşəhərə daxil olan imperator Barbarossanın ordusu ilk dəfə olaraq Səlcuq ordusu ilə qarşılaşdı. Səlcuq ordusunun başında Məlik şah dayanırdı. Səlcuq ordusunu məğlub edərək Konyaya daxil olan xaçlılar xeyli qənimət ələ keçirməklə bərabər çoxlu sayda insanıda qılıncdan keçirdilər. Əlaəddin təpəsindəki qalada olan II Qılınc Arslan ilə oğlu Fredrix Barbarossaya sülh təklif etdilər. Sülhə görə beş gün Konyada qalan xaçlı ordusu sərbəst şəkildə Qaraman istiqamətində yoluna davam etdi. Silifkiyə ovalığına daxil olan imperator Barbarossa eyni adlı çayda boğuldu.[874]

İmperatorun ölümündən sonra yerinə oğlu Skvaben keçsə də atası kimi bacarıqlı deyildi. Bundan istifadə edən əsilzadələrin bir qismi Avropaya döndü, bəziləri isə gəmi ilə Silifkidən Suriyaya getdilər. Suriya ətrafında hücuma məruz qalan xaçlı ordusunun qalıqları böyük çətinliklə Antakyaya çatdı. Böyük çətinliklərlə üzləşən xaçlı ordusu Qüdsə doğru hərəkət etmək istəməsə də, Bohemond və onun komandanları azsaylı alman xaçlıları ilə Antakyadan yola çıxdılar.

İngiltərə kralı Riçard ilə Fransa kralı Filip ittifaq bağlayaraq Mesinada birləşdilər. 1191-ci ildə Fransızlar Suriya sahillərinə gəlsələr də İngilislər fırtına səbəbindən Kiprə sığındılar. Kipr valisi İzaq Komnenos İngilis gəmilərinə hücum edərək xeyli qənimət ələ keçirdi. Bununla əlaqədar olaraq iyirmi beş gün ərzində Kipri ələ keçirən kral Riçard əhalidən vergi almaqla bərabər əsgərlərini qalalarda yerləşdirdi. Bundan sonra Suriya sahillərinə gələn iki kral Aqqanı mühasirədə saxlayan xaçlı ordusuna qoşuldu.

1191-ci ildə baş verən döyüşdə Səlahəddin Əyyubinin ordusunu məğlub edən xaçlılar nəhayət, iki il davam edən mübarizədən sonra Aqqa şəhərini ələ keçirdilər.[875]

Aqqanı ələ keçirən xaçlılar Əsqəlana daxil olsalar da Qeysəriyyə adlı məntəqədə baş verən döyüşdə xeyli itki verərək əvvəlcə Arsufa, oradan da Yafaya gəldilər. Qüdsü geri almaqdan ümidini kəsən xaçlılarla müsəlmanlar arasında 1192-ci ildə sülh bağlandı. Bu müqavilədən sonra İngilis kralı Riçard məmləkətinə geri qayıtdı, Səlahəddin Əyyubi isə Şamda xəstələnərək vəfat etdi.

1197-ci ildə İtaliyadan hərəkət edən digər xaçlı ordusu isə Suriya sahillərindəki şəhərləri ələ keçirərək, bu məntəqələrdə ticarət koloniyaları qurmağa başladılar. Bir daha Qüdsü geri ala bilməyən frankların, bir müddət sonra Suriya və Fələstin sahillərində heç bir dayanacaq nöqtəsi qalmadı. İki yeni krallıq-Kipr krallığı və Qilikya Erməni krallığı quruldu.

---

[874]Turan, Selçuklular Zamanında Türkiye, səh-224; Runciman, Haçlı Seferleri Tarihi, ter. Işıltan, Ankara-1987, III cild, səh-13.

[875] Şeşen, Salahaddin Eyyubi ve Devlet, İstanbul-1987, səh-131-161.

Dördüncü xaç yürüşü (1199-1204)

Müqəddəs papalıq taxtına oturan III İnnokenti yeni bir xaçlı səfərinə girişdi. Ağdəniz dövləti qurmaq məqsədini gizlətməyən papa III İnnokenti bütün katolik məmləkətlərinə məmurlar göndərdi. Qısa müddət ərzində iki yüz min nəfərə xaç verməyi bacaran III İnnokenti Sampagne və Boluva krallıqlarını da xaçlı səfərlərinə təşviq edirdi. Arzı-müqəddəsə qədər irəliləmək istəyən bu ordu Venedikdən donanma istəmiş və bunun müqabilində Venedik senatlığına 85000 alman pulu ödənilmişdi. Xaçlıların yeganə qayəsi Misir müsəlmanlarına hücum etmək idi. Səfəri İstanbul üzərinə etməklə başlamaq istəyən xaçlılar Venediktə toplanmışdı. Venedik və bütün qərb xristianları Bizansla düşmən idi. Öz gücünün yüksəlməsini istəyən Venedik senatlığı Bizansı zəiflətmək üçün xaçlıları İstanbula doğru tələsdirirdi. Bu arada İstanbulda üsyan edən III Aleksios imperator İsakı taxtdan salıb gözlərini kor etdikdən sonra oğlu Aleksios ilə birlikdə həbs etdirmişdir. 1201-ci ildə həbsdən qaçan Aleksios əvvəlcə papa III İnnokentidən, sonra isə qohumu olan Alman imperatoru Filipdən yardım istədi. Bundan əlavə hakimiyyəti geri qaytara bilərsə xaçlılara da iki yüz min alman pulu və on min əsgər verəcəyini vəd etmişdi. Bunu fürsət bilən Venedik senatlığı əsgərləri İstanbul üzərinə yönəltdi. 1203-cü ildə İstanbula daxil olan xaçlılar III Aleksiosu məğlub edərək şəhəri və onun xəzinələrini ələ keçirdilər. Gözləri kor edilən İsak həbsdən azad edilərək oğlu IV Aleksios ilə birlikdə imperator elan edildi. Lakin xaçlılara verdiyi vədi yerinə yetirməyən Aleksios çətinliklə üzləşmişdi. Onun ölümündən sonra Bizanslılar Serb kralı Stepan ilə evlənmiş Eudokiyanın həyat yoldaşını özlərinə imperator seçmişlər. Yeni imperator xaçlıların səkkiz gün ərzində şəhəri tərk etmələri barədə sərancam imzaladı. Buna əhəmiyyət verməyən xaçlılar 1204-cü ilin 13 aprelində İstanbulu zəbt edərək Venedik senatlığına təslim etdilər. Üç günlük talandan sonra İstanbulda "İstanbul Latın İmperatorluğu" quruldu və Flandre kralı Baodini yeni krallığın imperatoru təyin edildi. Ayasofiyada tac qoyma mərasimindən sonra bütün su yolları, boğazlar və İstanbulun böyük bir hissəsi Venedik senatlığının nəzarətinə keçdi.

İstanbul Latın İmperatorluğu Anadoluya önəm vermədiyi üçün burada bir çox müstəqil bəyliklər quruldu. 1205-ci ildə Trakyada başlayan üsyan nəticəsində Latın birlikləri məğlub edildi.

1259-cu ildə müttəfiq Latın qüvvələrini məğlub edən İznik imperatoru VIII Mixail Venedik senatlığını zəiflətmək üçün Cenova ilə müqavilə bağladı. Bu müqavilədən sonra 1261-ci ildə İstanbulu ələ keçirən VIII Mixail təm-təraqla şəhərə daxil oldu.[876]

Beşinci xaçlı səfəri (1216-1221)

Dördüncü xaçlı səfərindən heç bir şey əldə edə bilməyən papa III İnnokentinin əsas məqsədi Qüdsü ələ keçirmək idi. Yeni papa Honorius 1217-ci ildə Macar kralının ordusu ilə Dalmaçyaya gəldi və burada Avstraya əmiri Leo-

[876] Ostrogorosky, Bizans Devleti Tarihi, səh-390-416.

poldda ordusu ilə birlikdə ona qoşuldu. Papa iyul ayının sonunda İtaliya və Siciliyada toplanan xaçlıların Kiprə getmələri barədə göstəriş verdi. 1217-ci ildə əldə etdikləri gəmilərlə İtaliyadan ayrılan Macar kralı Andreass, Avstrya əmiri Leopold və Kipr kralı Huqo Aqqaya çatdılar. Dərhal hərəkətə keçən xaçlılar Beysan keçidini ələ keçirdilər. Bir müddət sonra kral Andreass ordusunu Antakya üzərindən İstanbula apardı. 1218-ci ildə Misirə hücum etmək istəyən xaçlılar Dimyat şəhərini mühasirəyə aldılar. Böyük çətinliklə Dimyatı ələ keçirən xaçlılar şəhəri talan etdilər.

Bu arada Əyyubi məliki Məlik Kamil (1218-1238) Qüdsü verərək Dimyatı xaçlılardan geri almaq istəsə də, xaçlılar buna razı olmamışlar. Bundan sonra Mənsuriyyəni də ələ keçirmək istəyən xaçlılar məğlub edilmiş və 1221-ci ildə Dimyatı da geri qaytararaq öz vətənlərinə dönmüşlər.[877]

Altıncı xaçlı səfəri (1246-1248)

Alman xaçlılarının gəlməsi ilə altıncı xaçlı səfəri edilsə də, Dimyatdakı məğlubiyyətdən sonra xaçlılar Aqqaya çəkilmişlər. Bu arada Suriya və əl-Cəzirəyə qədər uzanan Əyyubi dövləti də daxili rəqabət nəticəsində xeyli zəifləmişdi. Əyyubi dövlətinin zəifləməsindən istifadə edən xaçlılar 1229-cu ildə vaxtilə Səlahəddin Əyyubinin ələ keçirdiyi Beyrut, Safəd, Təbəriyyə, Əsqəlan və Qüdsü geri aldılar.

1229-cu ildə Məlik Kamil ilə II Frederik arasında bağlanan müqaviləyə əsasən Qüds xristianlara verilmiş, Aqqa isə iki dövlət arasında sərhəd elan olunmuşdur. Qüds yalnız 1244-cü ildə Nəcməddin Əyyubun yardım istəməsi ilə əlaqədar olaraq, Xarəzmşahlar tərəfindən geri alınmışdır.[878]

Yeddinci xaçlı səfəri (1248-1254)

Fransa kralı IX Lui ilə birləşən bir çox xristianlar 1249-cu ildə Dimyata hücum edərək müqavimətsiz şəhəri ələ keçirdilər. Dimyatın ardınca Qahirəni ələ keçirmək istəyən IX Luinin ordusu 1250-ci ildə məğlub edildi və kral ailəsi ilə birlikdə əsir götürüldü. Bir ay sonra fidyə ödəmək və Dimyatı yenidən inşa etmək şərtilə sərbəst buraxıldı. 1250-1254-cü illərdə bu bölgədə qalan IX Lui Aqqa, Hayfa, Qeysəriyyə və s. liman şəhərlərini təmir etdirmişdir.[879]

Fransaya qayıdan IX Lui intiqam almaq məqsədilə 1270-ci ildə oğulları ilə birlikdə Tunisə doğru hərəkət etsə də Kartacada mühasirəyə alınmış və uzun sürən mühasirədən sonra burada vəfat etmişdir.

1270-ci ildə edilən xaç səfərindən sonra papalar bir əsr boyunca Qüdsü müsəlmanlardan almağa çalışsalar da, bu çalışmalar nəticəsiz qalmışdır.

Xaçlı səfərlərindən sonra İslam dünyası ilə tanış olan xristianlar həm elmi, həm də mədəni tərəfdən xeyli inkişaf etmişdir.

---

[877]Runciman, Haçlı Seferleri Tarihi, III cild, səh-117-149.
[878]Runciman, Haçlı Seferleri Tarihi, III cild, səh-194-195.
[879]Hitti, İslam Tarihi, tər. Tuğ, İstanbul-1981, IV cild, səh-1050-1054.

XIII FƏSİL

OSMANLI DÖVLƏTİ (1299-1924)

Osmanlı dövlətinin qurulması

Anadolu Səlcuqlu dövləti süqut edərkən yeni türk dövləti yaranmaqda idi. Bu dövlət altı yüz iyirmi iki il mövcud olmuş və qurucusunun adı ilə adlanmışdır. Osmanlı dövlətini quran ailənin ilk dövrü haqqında məlumatlar qarışıqdır. Osmanlılar oğuzların sağ qolu Gurhan qolunun Qayı boyuna mənsubdurlar.[880]

Osmanlı türk imperiyası türklərin tarixdə qurduğu 16 müstəqil dövlətdən ən uzun ömürlüsü və ən geniş torpaqlara sahib olanıdır. 622 il davam edən bu böyük imperiya Aralıq dənizi və Qara dənizi əhatə edən Asiya, Avropa və Afrika qitələrində yüz illər boyu hökm sürüb. Müxtəlif irq və dinlərdən olan bir çox xalqı torpaqları ilə birlikdə bir dövlətdə birləşdirib. Tarixdə belə geniş torpaqlara bu qədər uzun hökmranlıq edən digər quruluş Roma imperiyası və Britaniya imperiyası olmuşdır. Osmanlı türk imperiyasında 36 sultan hökmranlıq etmiş və XVI əsrin əvvəllərindən etibarən xəlifəlik adı ilə də İslam dünyasının dini hökmranlığını öz üzərinə götürmüşdür.

Osmanlı ailəsi Malazgird döyüşündən sonra Anadoluya gəlmişdir. Bir müddət Əhlat tərəflərdə yaşadıqdan sonra Qayı boyunun bir qismi, Əlaəddin Keyqubadın dövründə Ankaranın qərbinə gələrək Qaracadağ ətrafında məskunlaşmışdılar. Bir qismi isə Ankaranın şərqində Artuqlu dövlətini qurmuşdur.

Osmanlı türk imperiyasının əsası 1299-cu ildə müasir Türkiyənin Biləcik əyalətinin Söğüt şəhərində Osman bəy tərəfindən Osmanoğulları Bəyliyi kimi qoyulmuşdur. Bəzi tarixçilərə görə, Osmanlı Dövlətinin qurucusu Osman Bəyin atası Ər-Toğrul Qazi, onun atası Gündüz Alp (və ya Süleyman Şah) onun atası Kaya Alp, onun atası Gündüz Alpdır. Bu adlı-şanlı ailə Oğuz türklərinin 24 boyunun ən nüfuzlularından olan Kayı əşirətinin başçısı idi. Osman bəyin atası Ər-Toğrul Qazi, Səlcuk sultanı Ələddin tərəfindən Bizans sərhəddinə "uc bəyi" olaraq təyin edilmişdi. Ər-Toğrul Qaziyə yurd kimi verilən ərazi bugünkü Bursa, Kütahya və Biləcik vilayətlərinin sərhədlərinin birləşdiyi yerdir. Sonradan Söğüt qəsəbəsi Bizansdan alınaraq mərkəz edilib. Səlçuklu Dövlətində uc bəyliklərinin vəzifəsi dövlətin sərhəddini qorumaq və xristianlara qarşı cihad etməkdən ibarət idi. Ər-Toğrul bəyin başçılığı altında olan Osmanlılar bir müddət sonra Söyüd və Domanic məntəqələrini də ələ keçirdilər.

---

[880]Körpülü Fuat, Osmanlı İmperatorluğunun Kuruluşu, səh-122-130.

1299-cu ildə Ər-Toğrulun ölümündən sonra bəyliyin başına gələn Osman bəy 1299-cu ildə Osmanlı dövlətinin müstəqilliyini elan etdi. O, 1258-ci ildə Söyüddə anadan olmuşdur. 1301-ci ildə Yenişəhər ilə Yundhisarı aldı və Yenişəhəri dövlətin paytaxtı elan etdi. Bundan sonra Yenişəhərin ətrafındakı kənd və qəsəbələri ələ keçirən Osman bəy, 1303-cü ildə İzniki ələ keçirdi və Bursa hakiminin topladığı birliyi dağıtdı. 1326-cı ildə Bursanı fəth edən Osman bəy eyni ildə öldü.

Qəbilə rəislərindən olan Şeyx Ədəbalının qızı ilə evlənən Osman bəy, onların nüfuzundan istifadə edərək daim bəyliyini gücləndirməyə çalışmış və buna nail olmuşdur. Bu nailiyyətlərdə Anadolu Səlcuqlu dövlətinin yıxılması, Bizansda davam edən hakimiyyət mübarizələrinin əhəmiyyətli rolu vardır.

Tarixi mənbələrə görə 1320-ci ildən sonra Osmanlı ailəsini Osman bəyin oğlu Orxan bəy idarə etmişdir.

Orxan bəyin hakimiyyəti (1326-1361)

Atasının vəsiyyətini unutmayan Orxan bəy, 1326-cı ildə Bursanı fəth etdikdən sonra onu Gümüşlü Kümbət adlanan yerdə dəfn etdirmişdir. Paytaxtı Bursaya köçürən Orxan bəy buranın ardınca Kandıranı ələ keçirib, İzniki mühasirəyə almışdır. Bir müddət sonra Bizans ordusunu məğlub edən Orxan bəy İzniki də fəth etmişdir. 1330-cu ildə İznikin ən böyük kilsəsini məscidə çevirən Orxan bəy, burada əlavə olaraq mədrəsə və imarətlər də inşa etdirmişdir.

1337-ci ildə İzmiti ələ keçirən Osmanlılar burada türkləri yerləşdirməyə başlamışlar. Karesi bəyliyində baş verən daxili çəkişmələrdən istifadə edərək Balakəsiri ələ keçirən Orxan bəy, buranın ardınca 1354-cü ildə Süleyman paşanı göndərərək Ankaranı da ələ keçirdi.[881]

1321-ci ildə Trakyaya keçərək bəzi kəşfiyyat yürüşləri edən Osmanlılar, Bizans dövlətində baş verən daxili çəkişmələrdən istifadə edərək Kantakuzenlərə Gelibolu qalasına əvəz olaraq kömək etdilər. Sonralar Süleyman paşa Gelibolu yarımadası və limanını da ələ keçirmişdir. Osmanlılar Bolayır, Təkirdağ, Malkara, Keşan və Çorlunu da ələ keçirmək məqsədilə İstanbul-Ədirnə yolunu kəsdilər. 1357-ci ildə Süleyman paşanın vəfatından sonra bu bölgənin komandirliyinə Orxan bəyin oğlu Murad təyin edilmişdir.

Süleyman paşanın ölümündən dörd il sonra 1361-ci ildə Orxan bəy 38 yaşında vəfat etmişdir. Onun vəfatından sonra oğlu Murad Osmanlıların başçısı təyin edilmişdir.

Sultan I Muradın hakimiyyəti (1361-1389)

Osmanlı sultanı təyin edilən I Murad Xudavəndigar ilk növbədə onun hakimiyyətini qəbul etməyən qardaşlarına qarşı mübarizə apararaq daxili təhlükəsizliyi təmin etdi. Ahilərlə apardığı mübarizədə itirdiyi Ankaranı və əldən çıxmış bir çox əraziləri 1362-ci ildə yenidən geri aldı.

---

[881] Öztunar Yılmaz, Türkiyə Tarihi, I cild, səh-8-31.

Osmanlı ordusu Malkara və İpsalanı, Dədəağac qəsəbə və limanını ələ keçirərkən, Lələ Şahin paşa da 1363-cü ildə böyük bir ordu ilə Ədirnəni fəth etdi. Osmanlı komandirlərindən olan Filibe və Zağra isə Gümülcüneyi fəth etdilər.

Bizanslılar Trakyada itirdiyi torpaqları geri qaytara bilməyəcəyini anladıqda, Osmanlılarla sülh müqaviləsi bağlamaq məcburiyyətində qaldılar. Bundan sonra Anadoludan gətirilən xeyli sayda türk köçəriləri bu ərazilərdə yerləşdirildi.

Fəthlərlə yanaşı, əsgərlərin dini məsələlərinə də baxmaq üçün qazı-əsgərlik komitəsi yaradıldı. Orxan bəyin dövründə qurulan piyada və süvari ordusu kifayət etmədiyindən, qazı-əsgər Cəndərəli Qaraxəlil Xeyrəddin əfəndinin məsləhəti ilə, müharibədə ələ keçirilən xristian uşaqlarından istifadə edilərək "yeniçəri dəstəsi" yaradıldı.[882]

Serb sındığı müharibəsi 1364-cü il

Osmanlılar tutduqları ərazilərdə abadlıq işləri apardığı bir vaxtda, serblər, bolqarlar, əflaqlar, bosniyalılar və macarlar Macar kralı Layoşun başçılığı altında Ədirnəni geri qaytarmaq üçün böyük bir ordu ilə hərəkətə keçdilər. Həmin vaxt Osmanlı sultanı I Murad paytaxt Bursada idi. Lələ Şahin paşanın məsləhəti ilə Hacı Elbəy on min dərviş ilə onların üzərinə göndərildi. 1364-cü ildə baş verən bu döyüşdə xristianlar türklər tərəfindən məğlub edildi.

Osmanlıların qalib gəldiyini eşidən Sultan I Murad Bursada memarlıq işlərinə başlayaraq Çəkirgədə bir imarət, mədrəsə və bundan əlavə Biləcikdə də bir məscid inşa etdirdi. 1365-ci ildə isə Sultan I Muradın göstərişinə əsasən Osmanlıların paytaxtı Bursadan Ədirnəyə köçürüldü.

Şərqi Trakyadan sonra Sofiyaya qədər olan ərazini, Makedoniyanı və Kavalanı ələ keçirən Türklər burada öz qüvvələrini yerləşdirdilər. Eyni vaxtda Serblərlə sülh bağlayan Osmanlılar, bundan istifadə edərək bəzi ərazilərdən vergi alıb, öz büdcələrini formalaşdırdılar.

Sultan I Muradın oğlu Yıldırım Bəyazid Gərmiyan bəyinin qızı ilə evləndiyi üçün gəlinin cehizi olaraq Kutahya, Emet və Tavşanlı Osmanlılara verilmişdir. Bundan əlavə Osmanlılar Hamidoğlu bəyliyindən səksən min qızıl əvəzində Akşehir, Yalvaş, Bəyşəhir və Seydişəhəri satın aldılar. Beləliklə bütün cəhdlərdən istifadə edən Osmanlılar müəyyən yollarla Anadolu birliyini qurmağa çalışırdılar.

Qısa fasilədən sonra hərbi fəthlərə yenidən başlayan Osmanlılar Bolqarıstanı tutmaq üçün Sofiya və Serbiyanın girişi olan Albaniya və Nişə getmək üçün Manastırı tutmalı idilər. Bununla əlaqədar olaraq 1380-1386-cı illər arasında adı çəkilən bu şəhərlər Osmanlılar tərəfindən ələ keçirildi. Albaniyaya hücum etməyən Osmanlılar oraya kəşfiyyat dəstələri halında daxil olaraq, bu bölgə və ərazi haqqında geniş məlumat topladılar. Kəşfiyyat dəstələrinin geri dönməsindən sonra hücuma keçən Osmanlılar ələ keçirdikləri bütün ərazilərə

[882] Uzunçarşılı İ. Hakkı, Osmanlı Tarihi, I cild, səh-161-166.

Anadoludan gətirdikləri köçəri türkləri yerləşdirməyə başladılar. Bu hərəkatlar XV-XVI əsrə qədər davam etmişdir.

Anadolunu ələ keçirən Osmanlılar yerli əhali ilə mülayim rəftar etmiş, onların inanc və həyat tərzlərinə toxunmadan onlardan cüzi miqdarda vergi almışdılar. Ağır vergilərdən əziyyət çəkən yerli xalq, bu səbəbdən Osmanlılara rəğbət bəsləmişdir. Türklər Anadoluda nümayiş etdirdikləri bu tolerantlığı Balkanlarda da davam etdirirdilər. Osmanlıların bu rəftarı nəticəsində Bizansa tabe olan ərazilər asanlıqla ələ keçirilirdi. Bundan əlavə Ortodoks xristianları olan bu bölgənin xalqı, Katolik olan macarların zülmünə məruz qaldıqları üçün Osmanlıların idarəsini qəbul edirdilər. Osmanlı fəthlərinin ən bariz xüsusiyyəti, bu fəthlərin yağmalama məqsədi güdməməsindədir.

Sultan II Muradın dövründə Rumelini gəzərək, türklərlə xristianların yaşayışı ilə yaxından tanış olan Bertrandon De La Buroquiere belə deyir: "rahat həyat tərzi keçirən türklər, xristian kəndlilərinin əksinə olaraq heç vaxt ayaqyalın gəzməz, dizə qədər olan çəkmələr geyinərlər. Türklər tezdən qalxaraq işlərinə erkən başlayarlar. Serb, rum və bolqarların əksinə olaraq türklər, evlərinin özlərinə aid olan hissəsində heyvan saxlamazlar. Heç bir türk yaxşıca yuyunmadan evdən çıxmaz, bir heyvanın toxunduğunu yeməz, bir toyuq kəsmək istədikdə onu bir müddət təmiz qida ilə bəsləyərlər. Mərhəmət sahibi olan türklər, hərbdə məcbur qaldıqda insan öldürər. Təbiət etibarilə sakit olmasına və əməklə sərtləşməsinə baxmayaraq türklər şeir qabiliyyəti yüksək, elmə meyilli insanlardır." Səyyah türklərin əxlaqi baxımdan da balkanlardan üstün olduqlarını belə qeyd edir: "Osmanlıda gördüyüm hər iş və münasibətdə, türklərdə rumlara nisbətən daha çox dostluq duyğusunun olduğunu gördüm. Türklərə rumlardan daha çox etimad etdim. Türklər hər yerdə qüvvətli cəngavər, qənaətkar işçi, namuslu tacir, sadiq dost və himayəçilərdir. Qısacası doğru və səmimi kimsələrdir".[883]

Karamanoğullarının məğlub edilməsi və I Kosova döyüşü (1389)

Osmanlıların Rumelidə olmasından istifadə edən Karamanoğulları 1386-cı ildə Bəyşəhəri ələ keçirdi. Buna qarşılıq olaraq sultan I Murad böyük bir ordu hazırlayaraq Konya üzərinə hərəkət etdi. Karamanoğullarının sərkərdəsi Əlaəddin bəy qonşu bəyliklərdən də kömək istəmişdi. 1387-ci ildə Konya yaxınlığında baş verən döyüşdə Karamanoğulları məğlub edildi və Əlaəddin bəylə sülh müqaviləsi bağlandı. Anadolu bəyliklərinin ən güclüsü olan Karamanoğullarının məğlub edilməsindən sonra Osmanlıların şöhrəti daha da artdı.

Karamanoğullarının müttəfiqi Bosniya krallığının Uc bəyliklərindən Şahin paşanın başçılıq etdiyi ordu tərəfindən məğlub edilməsi Xorvat, Macar, Serb və Balkan krallarının Osmanlılara qarşı birləşmələrinə səbəb oldu. Dərhal Bolqarıstana daxil olan I Murad bu ölkəni həmin ittifaqdan ayırdı. 1389-cu ildə Ko-

[883] Uzunçarşılı İ. Hakkı, Osmanlı Tarihi, I cild, səh-181-186.

sova ətrafında baş verən döyüşdə Osmanlılar birləşmiş xristian qüvvələrini məğlub etdilər.

Lakin döyüşdən sonra müharibə meydanını gəzən I Murad, serb əsilli Miloş Obliç tərəfindən xəncərlə ağır yaralandı. Aldığı yaradan vəfat edən Osmanlı sultanı I Muradı, Bursaya gətirərək Çəkirgədə tikdirdiyi türbədə dəfn etdilər. Otuz illik hamiyyəti ərzində heç vaxt məğlub olmayan sultan I Murad tarixdə Qazi-hökmdar, Murad Xudavəndigar kimi adlarla yad edilir. Atasının qurduğu kiçik bir dövlətin təməllərini daha da möhkəmləndirərək böyük bir dövlətin hazırlıqlarını tamamlamış oldu. Məşhur tarixçi Gibbonsun dediyi kimi: "Osman bəy ətrafına bir qəbilə toplamış, Orxan bir dövlət qurmuş, lakin imperatorluğu isə Sultan Murad qurmuşdur".[884]

Yıldırım Bəyazidin hakimiyyəti (1389-1402)

Sultan I Muradın vəfatından sonra onun vəsiyyətinə əsasən oğlu Yıldırım Bəyazid Osmanlı sultanı təyin edildi. Sultan I Muradın vəfatından sonra Anadoluda vəziyyətin pisləşdiyini öyrənən Yıldırım Bəyazid dərhal Serb və digər Balkan dövlətləri ilə müqavilə imzalayaraq Anadoluya doğru hərəkət etdi. Karamanoğlu Əlaəddin bəy Bəyşəhəri işğal etməklə kifayətlənməyərək, Saruhan, Aydın, Məntəşə və Gərmiyan bəylərini də Osmanlılara qarşı qaldırdı. Anadoluya daxil olan Yıldırım Bəyazid adı çəkilən ərazilərlə bərabər Antalyanı da geri qaytardı. Sonra Karamanoğullarının üzərinə hərəkət edərək Konyanı mühasirəyə aldı. Karamanoğlu Əlaəddin bəy digər bəyliklərdən gözlədiyi köməyi ala bilmədiyi üçün Osmanlılara sülh təklif etdi. Osmanlı sultanı Yıldırım Bəyazid də Tuna ərazisindəki vəziyyəti nəzərə alaraq, 1391-ci ildə bu sülh təklifini qəbul etdi.

Karamanoğlu Əladinin üsyanından sonra Əflaq şahzadəsi Mircanın da üsyanını yatıran Yıldırım Bəyazid, 1394-cü ildə Selanik və ətraf ərazilərini Osmanlı torpaqlarına qatdı.

İstanbulun mühasirəsi

Bizans imperatorunun oğlu Manuelin icazə almadan İstanbula geri dönməsi və Macar kralından kömək istəməsi Yıldırım Bəyazidin İstanbulu mühasirəyə almasına səbəb oldu. Bunu görən Manuel, Papa, Fransa və Macar kralларından kömək istədi. Əslində Balkanları Osmanlılardan xilas edəcək şəxs Macar kralı Sigismund idi. Bolqarıstana səfər edərək bir çox yerləri ələ keçirən Sigismund, Osmanlı ordusunun gəldiyini eşidərək dərhal geri çəkilmişdi. Bundan əvvəlki Macar kralları da ortodoks məzhəbinə tabe olan bu yerləri katolikləşdirmək üçün çox qan axıtmışdılar. Buna görə də balkan xalqları türklərə rəğbət bəsləyirdilər.

[884]Gibbons, Osmanlı İmperatorluğu Kuruluşu, səh-157.

Həmin vaxt Osmanlılar Anadoluda bir tərəfdən Karamanoğlu, digər tərəfdən də Qeysəri və Sivasda olan Ertana bəyliyini məğlub edərək 1393-cü ildə Qazı Burhanəddin bəyliyini quran Əhmədlə məşğul idilər.

1396-cı il Niğbolu müharibəsi və Bizansla müqavilə

Osmanlıların Bosniya və Albaniyaya qədər irəliləməsi xristianları təşviqə saldı. Türklər tərəfindən gələn təhlükəni daha çox hiss edən macarların təşviqi ilə fransız, alman, belçika, isveçrə və ingilislərdən təşkil olunmuş yüz minlik ordu 1396-cı ilin may ayında hərəkətə keçdi. Bu ittifaqın məqsədi beş ildir mühasirəsi davam edən İstanbulu azad etmək idi. Sigismundun əmri ilə iki hissəyə ayrılaraq hərəkət edən ordu, keçdiyi yerlərdə ortodoks məzhəbinə aid olan hər bir insanı öldürürdü.

Niğbolunu mühasirəyə alan xristianlar Vidin və Orsavanı ələ keçirdikdən sonra Qüdsü də ələ keçirmək qərarına gəldilər.

Bundan xəbər tutan Osmanlı sultanı Bəyazid xristianlara qarşı vuruşmaq üçün Ədirnədə səksən min nəfərlik ordu topladı. Niğbolu ətrafında baş verən döyüşdə xristianları məğlub edən Osmanlılar xeyli əsir ələ keçirdilər. Xristianların ələ keçirdikləri ərazilər geri qaytarıldı. Bolqarıstan krallığına son qoyan Osmanlılar, Macarıstanın daxilinə doğru hərəkət edərək xeyli qənimət ələ keçirdilər.[885]

Niğbolu zəfərindən sonra İstanbulu aclığa məhkum edərək ələ keçirmək istəyən Bəyazid şəhəri mühasirəyə aldı. Bu arada Monqol xanı Əmir Teymurun ortaya çıxması İstanbul mühasirəsinin dayanmasına, Bizansla müqavilənin imzalanmasına səbəb oldu. Müqaviləyə görə, Bizans illik vergini artıracaq, Sirkəcidə bir türk məhəlləsi quraraq ora qazi təyin edəcəkdi.

Eyni vaxtda Bəyazidin Niğbolu səfərində olmasından istifadə edən Karamanoğlu Əlaəddin bəy Ankaranı ələ keçirdi. Bununla əlaqədar olaraq Konya üzərinə hərəkət edən Bəyazid 1397-ci ildə Əlaəddini ələ keçirərək öldürdü. Bununla da Karamanoğullarına aid olan Konya, Larendə, Niğdə, Dəvəli, Qarahisar Osmanlıların əlinə keçdi. Bu məntəqələrin ardınca Samsun, Sivas və Malatya da Bəyazid tərəfindən tutuldu.

Ankara müharibəsi (1402) və Yıldırım Bəyazidin vəfatı

Əvvəlcə Səmərqənd valisi Əmir Qazanın üsyanında iştirak edən Əmir Teymur, 1368-ci ildə Bəlx əmiri olduqdan sonra sərhədlərini genişləndirmişdir. Ən böyük rəqibi Qızıl Orda dövlətini zəiflətməklə bərabər, Rusiyanın Moskva knyazlığının böyüməsinə şərait yaratmışdır.

Hərbi yürüşləri davam etdirən Teymur, yeddi ilə İranı ələ keçirdikdən sonra Hindistana da səfərlər təşkil etdi. 1399-cu ildə geri qayıdan Əmir Teymur Azərbaycan və Bağdad əmirlərini ələ keçirmək istədikdə, onlar qaçaraq Os-

[885]Danışmend İ. Hami, İzahlı Osmanlı Tarihi Kronolojisi, I cild, səh-104-107.

manlı sultanı Yıldırım Bəyazidə sığındılar. Əmir Teymur onları geri istəsə də, Bəyaziddən rədd cavabı alır. Bununla əlaqədar olaraq Anadoluya daxil olan Əmir Teymur, Sivası ələ keçirərək şəhərin kişilərini qılıncdan keçirdi. 1401-ci ildə isə Suriya və Malatyanı ələ keçirdi. Bütün səlahiyyətləri əllərindən alınan Anadolu bəyləri Teymuru Bəyazidə qarşı səfərə təşviq edirdilər

Bütün bunlardan sonra Əmir Teymur Orta Asiyadan Anadoluya doğru irəliləməyə başladı. Osmanlı ordusu ilə Əmir Teymurun ordusu 1402-ci ildə Ankara yaxınlığında qarşılaşdı. Baş verən döyüşdə Osmanlılar məğlub edildi və Sultan Bəyazid əsir götürüldü.[886]

Osmanlıların Ankara döyüşündə məğlub olması və Bəyazidin əsir düşməsi dövlətin əlli il geriləməsinə səbəb oldu. Bundan əlavə Osmanlıların bu döyüşdə məğlub olması Bizans imperatorluğunun ömrünü yarım əsrə qədər uzatmış oldu. Anadolunun işğalından sonra burada səkkiz ay qalan Teymur, xəzinələri ələ keçirərək şəhərləri talan etmişdir. Yeddi ay Teymurun əsiri olan Osmanlı Sultanı Yıldırım Bəyazid, 1403-cü ildə üzüyündəki zəhəri içərək özünü öldürmüşdür.

Ankara döyüşündə Osmanlıların məğlub olması, Teymurun Anadolunu talan etməsinə və xəzinələri ələ keçirməsinə səbəb olmuşdur. Beləliklə Teymur Osmanlı dövlətini zəiflətdiyi kimi, ərazilərini də oğlanları arasında bölüşdürərək daha da zəiflətməyi düşündü. Bəyazidin oğlanları hakimiyyət uğrunda mübarizə apardıqları vaxtda belə, balkanlar Osmanlılara qarşı üsyan etmədilər. Onlar bu hərəkətləri ilə Osmanlı idarəsindən razı qaldıqlarını bildirdilər.

Taxt uğrunda gedən mübarizə

Ankara məğlubiyyətindən sonra Süleyman Çələbi ilə vəzir Çandarlı Əli paşa Bursadakı xəzinənin bir qismini ələ keçirərək Ədirnəyə gəldilər. İsa Çələbi Bursada, Məhməd Çələbi isə Amasyada hökmdar oldu. Bizansla müqavilə bağlayan Süleyman Çələbi bəzi torpaqları və iki qardaşını onlara girov verdi. Musa Çələbinin Bursaya gəlişindən sonra digər qardaşı İsa Çələbi şəhərdən qaçdı. Daha sonra ordu toplayan İsa Çələbi Musanı məğlub edərək şəhəri ələ keçirdi. Amasyada təklükəsizliyi təmin edən Məhməd Çələbi ordu toplayaraq Bursaya doğru hərəkət etdi. Baş verən döyüşdə İsa Çələbinin ölümündən sonra Bursa ələ keçirildi.

Süleymanın Bursaya gəlişindən sonra Məhməd Çələbi Amasyaya çəkildi. Burada Musa Çələbi ilə razılığa gələn Məhməd Çələbi onu Rumeliyə göndərdi. Musanın Rumeliyə gəldiyindən xəbər tutan Süleyman Çələbi Ədirnəyə qayıtdı. Əflaqa qədər gedib ordu toplayan Musa, Süleymana qarşı baş verən döyüşdə məğlub olaraq qaçdı. Lakin bir müddət sonra 1410-cu ildə yenidən baş verən döyüşdə qardaşı Süleymanı məğlub edən Musa Çələbi onu öldürdü.

---

[886] Hoca Sadəddin, Tacut-Tevarix, I cild, səh-234-246.

Baş verən hadisələrdən sonra Osmanlı dövlətini bir bayraq altında birləşdirmək istəyən Məhməd Çələbi qardaşı Musa ilə mübarizəyə başladı. Bu məqsədlə Bizansla müqavilə bağlayıb Rumeliyə doğru hərəkət etsə də, baş verən döyüşdə məğlub oldu. Məğlub olaraq Bizansa sığınan Məhməd Çələbi 1411-ci ildə yenidən Anadoluya keçdi. 1412-ci ildə yenidən Rumelidə qardaşı Musaya qarşı döyüşən Məhməd yenə də məğlub oldu. Lakin 1415-ci ildə baş verən üçüncü döyüşdə Musanı məğlub edən Məhməd onu öldürərək üç illik hakimiyyətinə son qoydu. Beləliklə Musanın ölümündən sonra Məhməd Çələbi Osmanlıları bir bayraq altında birləşdirməyi bacardı.

Məhməd Çələbinin hakimiyyəti (1413-1421)

Məhməd Çələbinin hakimiyyətə gəlməsindən xəbər tutan Serb, Əflaq, Venedik və digər dövlət nümayəndələri onu təbrik edərək, onunla olan müqavilələrini yenilədilər. Bunların əksinə olaraq Karamanoğlu II Məhməd, şahzadələr arasındakı mübarizədən istifadə edərək Bursanı ələ keçirib talan etdkdən sonra Bəyazidin qəbrini də yandırdı. Lakin qısa müddət sonra Musa Çələbinin gəldiyini öyrənərək geri çəkildi.

Məhməd Çələbi hakimiyyətə gələndə dövlətin bir çox ərazisi itirilmiş, Yıldırım Bəyazidin qurduğu Anadolu birliyi tamamilə dağılmışdı. Dövləti yenidən birləşdirmək istəyən Məhməd Çələbi, Aydınoğlu bəyliyini yenidən quran Cüneyddən İzmiri geri alaraq onu Niğboluya sancaq bəyi təyin etdi. Sonra Konyaya doğru hərəkət edən Məhməd Çələbi, 1414-cü ildə Karamanoğlu ilə sülh müqaviləsi imzaladı.

Şeyx Bədrəddinin üsyanı 1419-1420-ci illər

Osmanlı dövlətində baş verən qarışıqlıqdan istifadə edərək üsyan edən Şeyx Bədrəddinin əsas məqsədi şeyxlikdən şahlığa çıxmaq idi. Babası Əbdüləziz Rumeli fəthləri zamanı şəhid edilmişdir. Əbdüləzizin vəfatından sonra oğlu İsrail Rum bəyinin qızı ilə evlənmiş və bu evlilikdən də Şeyx Bədrəddin dünyaya gəlmişdir. Təhsilini Bursa, Konya, Suriya və Misirdə tamamlayan Şeyx Bədrəddin, sonralar Qəzvinə gedərək batini əqidə ilə geri qayıtmışdır. Misirdən Anadoluya gəlib öz batini fikirlərini yayaraq hər millət və dindən ətrafına tərəfdar toplamağa başlamışdı. Yıldırım Bəyazidin oğlu Musa Çələbi Rumeli hökmdarı olduğu zaman onu qazi-əsgər seçmiş və bu da onun şöhrətinin artmasına səbəb olmuşdur.

Musa Çələbinin ölümündən sonra hakimiyyəti tam ələ alan Məhməd Çələbi, onu vəzifəsindən azad edərək İznikə göndərdi. Bununla əlaqədar olaraq Bədrəddinin xəlifələri olan Börklücə Mustafa və əslən yəhudi olan Torlak Kamal, Manisa və Karaburunda bir-birinin ardınca üsyan etsələr də bu üsyanlar vəzir Bəyazid paşa və şahzadə Murad tərəfindən çətinliklə yatırıldı. Həmin vaxt şeyx Bədrəddin həccə getmək bəhanəsilə İznikdən Əflaqa, oradan da Dəliormana getdi. Anadoludakı üsyanların yatırıldığını öyrənən şeyx Bədrəddin

Dəliormanda üsyan etdi. Lakin bu üsyanda Bəyazid paşa tərəfindən yatırıldı. Ələ keçirilən Şeyx Bədrəddinin özü Sərəzə gətirildi. 1420-ci ildə mühakimə olunan Şeyx Bədrəddinin alimlər tərəfindən ölümünə fətva verildikdən sonra Sərəzdə asılaraq öldürüldü.

Onun fiqhə dair Camiul-Füsuleyn, Lətaiful-İşarat, Kitabut-Təhsil, təsəvvüflə əlaqədar olaraq isə Varidat və Məsərrətul-Qülub adlı əsərləri məşhurdur.[887]

Şeyx Bədrəddinin üsyanından sonra Yıldırım Bəyazidin oğullarından sonra Mustafa Çələbi Bizans imperatorunun təşviqi ilə qardaşı Məhməd Çələbiyə qarşı üsyan etsə də, bu üsyan da yatırılmışdır.

Bu üsyanların yatırılmasından sonra Ədirnəyə gələn Məhməd Çələbi qısa müddət sonra 1421-ci ildə vəfat etmişdir. Səkkiz il hakimiyyətdə olan Məhməd Çələbi, bu müddət ərzində parçalanma halında olan Osmanlı dövlətini birləşdirməklə bərabər, Əski camenin inşasını tamamlamış, Bursada Yaşıl came, mədrəsə, imarət və türbə tikdirmişdir.

Sultan II Muradın hakimiyyəti (1421-1451)

Məhməd Çələbinin vəfatından sonra Osmanlı məmurlarının razılığı ilə oğlu II Murad sultan elan olundu. Bundan xəbər tutan Bizans imperatoru əsirlikdə olan II Muradın əmisi Mustafa Çələbi ilə razılığa gələrək onu üsyana təşviq etdi. Bizans imperatorunun sözü ilə üsyana başlayan Mustafa Çələbi, Ədirnəyə gəlib Osmanlı xəzinələrini ələ keçirərək özünü hökmdar elan etdi. Axınçı bəylərini də öz tərəfinə çəkən Mustafa Çələbi, üzərinə göndərilən II Muradın ordularını məğlub edərək Bəyazid paşanı öldürdü. Daha sonra Ədirnə və Gelibolunu ələ keçirən Mustafa Çələbi, Anadolunu ələ keçirmək üçün Niğbolu bəyi ilə birləşərək Bursaya doğru hərəkət etdi. Bundan narahat olan II Murad vəzir İbrahim paşa, Hacı İvaz paşa və Mikayıloğlu Məhmədin köməkliyi ilə böyük bir ordu Mustafa Çələbinin üzərinə getdi. Ulubat yaxınlığında baş verən döyüşdə Mustafa Çələbi məğlub edilərək öldürüldü. Əmisinin ölümündən sonra 1422-ci ildə Ədirnəyə daxil olan II Murad taxta oturdu.

İstanbulun mühasirəsi

Mustafa Çələbinin üsyanının yatırılmasını öyrənən Bizans imperatoru öz təbriklərini II Murada çatdırmaq üçün elçilərini göndərdi. Lakin bir müddət Bizans elçilərini həbsdə saxlayan II Murad onları sərbəst buraxarkən belə demişdi: “Gedin imperatora Konstantinopola hücum edəcəyimi söyləyin”.

Lakin bu mühasirədən çıxış yolu tapan Bizans imperatoru II Muradın qardaşı Kiçik Mustafa Çələbini yanına çağırıb, onu dəstəkləyəcəyini bildirərək yenidən Anadoluya göndərdi. Beləliklə Bizansın təşviqi ilə Kiçik Mustafa qardaşı II Murada qarşı üsyan etdi. Əvvəlcə Bursaya gələn Kiçik Mustafa oradan da İznikə gələrək burada yerləşdi. Qardaşının üsyan etdiyindən xəbər tutan II Murad

[887]Bilal Dindar, Bedreddini Simavi, DİA, V cild, səh-331-334.

mühasirəni yarımçıq qoyaraq geri qayıtdı. İznikə gələn II Murad qardaşını ələ keçirərək edam etdirdi.

1427-ci ildə bu üsyanlara son qoyan II Murad, Çandarlızadə İbrahim paşanı baş vəzir təyin etdi. Bizansla müqavilə bağlayan II Murad, Anadolu birliyini qurmaq üçün Məntəşə və İzmiri Osmanlı torpaqlarına birləşdirdi.

Karamanoğlunun Antalya səfəri

Ankara mühasirəsindən sonra öz bəyliklərini yenidən quran Karamanoğlu Məhməd bəy ilə Hamidoğlu Osman bəy Antalyaya hücum etmək qərarına gəldilər. Bundan xəbər tutan Antalya bəyi Həmzə bəy, Hamidoğlu bəyliyinə qəfil hücum edib Osman bəyi öldürərək onun ordusunu məğlub etdi. Eyni zamanda Osmanlı sultanı II Muradın Mustafa Çələbinin üsyanı ilə məşğul olmasından istifadə edən Karamanoğlu Məhməd bəy Antalyanı mühasirəyə alsa da baş verən döyüşdə yaralanaraq vəfat etdi. Onun ölümündən sonra II Murad Məhməd bəyin oğlu İbrahim bəyi Karamanoğlu bəyi təyin edərək Konya taxtını da ona verdi. Bundan sonra 1430-cu ildə Selaniki mühasirəyə alan II Murad şəhəri Bizanslılardan geri aldı.

1433-1434-cü illərdə Karamanoğlunun müttəfiqi olan Serb və Macarlar Osmanlılara aid olan torpaqlara hücum etsələr də, bu hücumların qarşısı II Murad tərəfindən alındı. Bundan əlavə Belqrad şəhərini altı ay mühasirədə saxlayan II Murad heç bir nəticə əldə etmədən 1439-cu ildə geri qayıtdı.

Səlib yürüşləri və Ədirnə-Segedin müqaviləsi

Osmanlı torpaqlarına soxulan Polşa və Macar kralının başçılığı alında olan səlibçilərin qarşısını almaq istəyən Rumeli bəylərbəyi Qasım paşa onları Morova çayı sahilində qarşıladı. Lakin baş verən döyüşdə Osmanlı ordusu məğlub edildi. Bundan narahat olan Sultan II Murad dərhal Anadoludan hücuma keçən Karamanoğulları ilə müqavilə bağlayaraq geri qayıtdı. Lakin 1443-cü ildə İzladi Dərbəndində baş verən döyüşdə Osmanlılar yenidən məğlub oldular. Bunun ardınca Yalvacda baş verən döyüşdə üçüncü dəfə məğlub olan II Murad kədərli halda Ədirnəyə qayıtdı. Bundan istifadə edən Karamanoğlu Osmanlı torpaqlarına hücum edərək bəzi yerləri talan etdi.

Karamanoğlu İbrahim bəyin bu hərəkətinin İslama uyğun olmadığını düşünən II Murad bu barədə dörd məzhəb imamından fətva istədi. Buna cavab olaraq dörd məzhəb alimləri Karamanoğlu İbrahim bəyi məhkum etdi. İbn Hacər əl-Əsqəlani, Karamanoğlunun öldürülməsinin vacibliyini bildirdi. Buna uyğun olaraq II Murad Karamanoğlu torpaqlarına daxil oldu. Bundan qorxuya düşən İbrahim bəy qaçdı. Karamanoğlu İbrahim bəyin arvadı olan II Muradın bacısı sultanın yanına gələrək onu müqavilə bağlamağa razı saldı. Buna əsasən 1444-cü ildə iki tərəf arasında müqavilə imzalandı. Müqavilədən sonra Ədirnədə hakim buraxdığı oğlu Məhmədə taxtı verən II Murad Bursaya qayıtdı.

Varna müharibəsi 1444-cü il

Sultan II Muradın hakimiyyəti on üç yaşlı oğlu Məhmədə buraxması Avropanı hərəkətə gətirdi. Papa 1444-cü ildə iki tərəf arasında bağlanan Ədirnə-Segedin müqaviləsinin pozulmasını istəyir, lakin Macar kralı Ladislas İncilə əl basaraq and içdiyini bildirirdi (Eyni zamanda II Murad da Qurani-Kərimə əl basaraq and içmişdi). Səlibçilərin birləşməsini istəyən Papa, müşriklərlə içilən andın keçərli olmadığını bildirdi. Yalnız bundan sonra müqavilənin pozulduğunu qəbul edən səlibçilər yenidən birləşdilər.

Kral Ladislasın əmrindəki ordu sərhəddi keçərək Varna istiqamətində irəliləməyə başladı. Çanaqqala boğazı papanın əmri ilə Venedik gəmiləri tərəfindən tutulduğundan Osmanlı sultanı II Murad əlli min nəfərlik ordusu ilə İstanbul boğazına gələrək, atası Yıldırım Bəyazidin tikdirdiyi Güzəlcə hisardan qarşı tərəfə Ceneviz gəmiləri ilə hər əsgərə bir qızıl verməklə keçə bildi. Bundan sonra vəziri və oğlunu Ədirnədə qoyan II Murad sürətlə Varnaya gəldi. Səlib qoşununun başında kral Ladislas, Jan Hunyad və papanın təmsilçiləri var idi. Ədirnə-Segedin müqaviləsi də Osmanlı ordusunun qarşısına qoyulmuşdu. Səlibçilərin ani hücumu ilə əlaqədar olaraq Osmanlı ordusu geri çəkilmək məcburiyyətində qaldı. Lakin qısa müddət ərzində kral Ladislasın və papanın təmsilçilərinin öldürülməsi ilə səlibçilər qaçmağa başladı və 1444-cü ildə baş verən Varna müharibəsi çətinliklədə olsa türklərin qələbəsi ilə başa çatdı.

II Kosova müharibəsi 1448

Osmanlı sultanı II Muradın, İsgəngər adı ilə məşhur olan Alban şahzadəsinin üsyanını yatırmaqla məşğul olmasından istifadə edən Macar kralı Jan Hunyad, Osmanlılara zərbə vurmaq üçün əflaq, bohemya və polşalılardan ibarət 90 minlik ordu ilə sərhəddi keçdi. Bundan xəbər tutan II Murad tələsik İsgərdərlə müqavilə bağlayaraq Kosovaya gəldi. 1448-ci ildə baş verən II Kosova müharibəsində Osmanlılar qalib gəldi və on yeddi min səlibçi öldürüldü.

Kosova döyüşündən bir il sonra 1449-cu ildə oğlu Məhmədi Dulqadiroğlunun qızı ilə evləndirən II Murad iki il sonra, 1451-ci ildə Ədirnədə vəfat etsə də Bursada dəfn olundu.

Fateh Sultan Məhmədin hakimiyyəti (1451-1481)

1451-ci ildə sultan II Muradın ölümündən sonra onun vəsiyyətinə əsasən oğlu Fateh Sultan Məhməd Osmanlı sultanı təyin edildi. Hakimiyyətinin əvvəllərində Karamanoğlunun Osmanlı ərazilərinə hücumu ilə əlaqədar olaraq ilk səfərini onlara qarşı edən Sultan Fateh, onları məğlub edərək bəzi ərazilərini ələ keçirdi. Eyni vaxtda Macarlarla Osmanlılar arasında müqavilə imzalandı.

Sonra Sultan Fateh Bəyazidin tikdirdiyi Güzəlcəhisarın qarşısına bir qala tikdirmək istədi. Bununla o, boğazın üst hissəsinin təhlükəsizliyini təmin etmək istəyirdi. Lakin Bizans imperatoru elçilər göndərərək buna mane olmağa çalışdı. Bununla əlaqədar olaraq Sültan Fateh imperatorun elçilərinə belə dedi:

“Mən şəhərdən heç nə götürmürəm. Şəhərin xəndək xaricində heç bir yeri yoxdur. Buna görə də burada qala tikdirməyimə mane ola bilməzsiniz. Macar kralı bizim üstümüzə hücum etdikdə, franklar Çanaqqala boğazına gələrək boğazı tutmuşdular. Buna görə atam, buranı Allahın izni ilə keçə bilmişdir. Bütün bu çətinliklərə necə dözdüyünü yaxşı bilirsiniz. İmperatorunuz bu vəziyyətə sevinərkən, müsəlmanlar əziyyət çəkirdilər. Atam boğazı bir çox çətinliklərə sinə gələrək keçə bilmişdi. Boğazı keçən kimi də Anadolu qalasının qarşısında başqa bir qala tikdirəcəyinə and içmişdi. Ancaq o bunu yerinə yetirmədən dünyasını dəyişdi. Allahın izni ilə bunu mən yerinə yetirmək istəyirəm. Nə üçün buna mane olmaq istəyirsiniz? Məmləkətimdə istədiyimi edə bilmərəmmi? Gedin imperatora deyin ki, indiki padşah köhnə padşahlardan deyil. Onların edə bilmədiklərini bu asanlıqla edəcəkdir. Bundan sonra bu məsələ üçün gələnin başı bədənindən ayrılacaqdır.[888] Bu xəbərdarlıqdan sonra Sultan Fateh təxminən altı min işçinin köməyi ilə üç hissəli bir qala tikdirdi. Rumeli adı ilə məşhur olan bu qalanın sayəsində boğaza nəzarət ələ keçirildi.

İstanbulun fəthi 1453

İstanbulun fəthinə hazırlaşan Osmanlı ordusu 1453-cü ildə şəhər qalalarının önünə gəldi. Ertəsi gün qılınan cümə namazından sonra Sultan Fatehin göstərişinə əsasən şəhər qurudan və dənizdən mühasirəyə alındı. Maddi qüvvə ilə yanaşı mənəvi gücə də əhəmiyyət verən Sultan Fateh, İstanbulun mühasirəsinə böyük mütəsəvvif Ağşəmsəddinlə, Ağbıyik Dədə kimi böyük vəliləri də gətirmişdi. Bundan əlavə əsgərlərin mənaviyyatını yüksəltmək üçün, bir çox şeyx və dərviş də bu döyüşə qatılmışdı. İstanbulun fəthi bütün İslam tarixi boyu həm dini, həm də dünyəvi bir vəzifə olmuşdur.[889]

İstanbul qalaları Mərmərə, Xəlic daxil olmaqla köhnə İstanbulu hər tərəfdən əhatə edirdi. Köhnə qala divarlarının önündə ikinci bir qala divarları da tikilmiş, onun da qabağındakı qala isə 6-7 metr dərinlikdə və 7 metr genişlikdə xəndəklə əhatə olunmuşdu. Öndəki qalanın hündürlüyü 8,5 m, qalınlığı isə 2 m idi. Arxasındakı ikinci qala isə ondan daha yüksək və geniş idi. Xəlicin ətrafındakı qala divarları isə o birilərə nisbətən zəif idi. Oranın girişi qalın zəncirlərlə bağlanmışdı.

Böyük toplar Topqapı və Ədirnə qapıları arasında yerləşdirilmişdi. Osmanlı donanması Baltaoğlu Süleyman bəyin əmrində 150 gəmidən ibarət idi. Sultan Fateh Xəlicə nəzarəti əlində saxlamaq üçün Dolmabağçadan başlayaraq Bəyoğluna qədər təkərlər üzərində apardığı 80-90 ədəd gəmini Qasımpaşadan Xəlicə endirdi. Bundan xəbər tutan Bizans təşvişə düşdü. Hüzuruna çıxan son Bizans elçilərindən birinə “mənim qüdrətimin çatdığı şeyə, sizin xəyalınız belə çatmaz” demişdi. Xəlic yaxınlığındakı körpü və gəmilərlə Xəlic qalaları da top

[888] Abbas Qurbanov, İslam tarixi, II cild, səh-309-310.
[889] Danışmənd, İ. Hamdi, İzahlı Osmanlı Tarihi Kronolojisi, I cild, səh-238-239.

atəşinə tutulsa da, bunun heç bir nəticəsi olmadı. Sultan Fateh elçi göndərərək şəhərin tərk edilməsini, imperatorun ailəsi və xəzinələri ilə çıxıb getməsini, qəbul etdiyi təqdirdə əhalinin də sərbəst olduğunu, ancaq şəhər müharibə yolu ilə alınarsa əhalinin əsir ediləcəyini bildirdi. Bunun əvəzində İmperator nə qədər istəsə vergi verəcəyini və mühasirəni dayandırmasını Sultan Fatehdən istəmişdi. Buna cavab olaraq Fateh "burdan getməyim doğru deyil. Ya mən şəhəri alaram, ya da şəhər məni alar" deyə cavab vermişdi.

Uzun sürən mühasirədən sonra 1453-cü ildə bütün ordu və donanmanın hücumu nəticəsində Konstantinopol Osmanlılar tərəfindən fəth edildi. Son Bizans imperatoru Konstantin isə öldürüldü. Fəthdən sonra Konstantinopol İstanbul adlandırıldı və bu tarixdən etibarən qədim Bizans imperatorluğuna son qoyuldu.

Bu fəthdən sonra Fateh ləqəbini alan II Məhməd iyun ayının səkkizinə qədər İstanbulda qalaraq Ayasofiya məbədini məscidə çevirdi.[890]

Eyni ildə Yeddiqüllədə həbs olunan vəzir Xəlil paşa Bizansdan rüşvət aldığı və fəthə mane olmaqla ittiham olunaraq edam olundu. Xəlil paşanın edamından sonra Osmanlı dövlətində müxtəlif millətlərdən olan vəzirlər dövrü başladı.

İstanbulun fəth edilməsi və Şərqi Roma imperiyasının dağılması İslam aləminin sevincinə səbəb oldu. Məmlük sultanı Məlikul-Əşrəf İnal (1453-1461) elçi göndərərək sultan Fatehi təbrik etdi. Qahirədəki Abbasi xəlifəsi əl-Qaimin (1451-1455) əmrilə şəhidlərin ruhlarına dua edildi.

İstanbulun fəthi Avropanın təşvişə düşməsinə və kədərlənməsinə səbəb oldu. Bu fəth eyni zamanda Avropanın zəifliyinə bir işarə idi. Bu səbəbdən papa türklərə qarşı yeni səlib yürüşü təşkil etmək istəyirdi. 1454-cü ildən başlayaraq türklərə qarşı əlinə silah alan hər bir xristianın cənnətlə müjdənələcəyi elan edildi. Türklərə qarşı baş tutacaq mübarizə üçün vergilər toplanmağa başlandı. Bütün xristian dünyasına müqəddəs xaç vergisi qoyuldu. Bundan əlavə hər hansı bir müsəlmana silah, ərzaq və başqa əşyalar satan xristiana işgəncələr veriləcəkdi. Lakin bütün bunlara baxmayaraq papa V Nikolayın cəhdləri heç bir nəticə vermədi. Serblər, Trabzon-Rum imperatorluğu, Sakız və Midillidəki Geneviz bəyləri 1454-cü ilin əvvəlində elçilər göndərərək sultan Fatehi təbrik edib, onun hakimiyyətini qəbul etməklə yanaşı vergi də ödədilər.

Sultan Fatehin Serbiya səfərləri

İstanbulun fəthindən sonra sultan Fateh Ədirnə-Segedin (1444) müqaviləsi nəticəsində Serblərə verilən bəzi qalaların geri qaytarılmasını istədi. Lakin rədd cavabı alan sultan Fateh Serbiyaya yürüş edərək bəzi qalaları ələ keçirdi. Fatehin geri qayıtmasından sonra Serb despotu yenidən hücum etsə də osmanlı komandiri tərəfindən məğlub edildi. Bununla əlaqədar olaraq 1454-cü ildə yenidən Serbiyaya qayıdan sultan Fateh əlli min nəfəri əsir götürərək geri qayıtdı.

[890]Lamrtin, Türkiyə Tarihi, II cild, səh-455.

1455-ci ildə ikinci dəfə Serbiyaya səfər edən sultan Fateh gümüş mədənləri ilə məşhur olan Novoberda və Tirbicə şəhərlərini ələ keçirdi. Bir il sonra Osmanlı ordusu Belqradı mühasirəyə aldı. Lakin Macar kralı Jan Hunyadın köməyə gəlməsilə məğlub olan osmanlılar geri çəkilmək məcburiyyətində qaldılar. 1456-cı ildə baş verən döyüşdə sultan Fateh ayağından yaralandı. Macar kralı Jan Hunyad isə aldığı yaradan iyirmi gün sonra öldü.

Osmanlı donanmasının uğurları

Osmanlı sultanı Yıldırım Bəyazidin (1389-1402) dövründə sahillərin müdafiəsi məqsədilə yaradılan Osmanlı donanması sultan Fatehin dövründə daha da inkişaf etdi. Mərkəzi Gelibolu olmaqla İzmit, Gəmlik və İstanbulda dəniz limanları quruldu. Bu donanma vasitəsilə Ege dənizində İmroz, Midilli, Taşoz, Limni və digər adalar alındıqdan sonra Trabzon üzərinə donanma göndərildi. Bu adaların ələ keçirilməsindən sonra Osmanlı dövləti ilə Venediklilər arasında yeddi illik müharibə baş verdi. 1470-ci ildə Osmanlı torpaqlarına daxil olan Venediklilər imam və qazılar daxil olmaqla iki min müsəlmanı Əğriboz adasına əsir apardılar. Baş verən hadisələrdən sonra Əğriboz adasının fəthinə qərar verildi. 1470-ci ildə sultan Fatehin qurudan, Mahmud paşanın dənizdən hərəkət etməsilə ada fəth edildi. Bu adanın fəthi Avropanın narahatlığına səbəb olmuşdur.

Bu uğurlardan sonra sultan Fateh Cənubi Qara dəniz səfərinə başladı. İlk öncə Boluya gələn sultan Fateh Ceneviz bəyinə xəbər göndərərək ondan təslim olmasını istədi. Çünki Amasra onların əlində idi. Sultan Fatehin təklifini qəbul edən Ceneviz bəyi təslim oldu və 1460-cı ildə şəhər müqavimətsiz Osmanlılar tərəfindən fəth edildi.

Ceneviz bəyliyinin süqutundan sonra sultan Fatehin Sinopu almaq fikrində olduğunu öyrənən Candaroğlu İsmayəl bəy də 1461-ci ildə Osmanlılara təslim oldu və bu bəyliyin varlığına son qoyuldu.

Bu arada əsası 1204-cü ildə qoyulan Trabzon-Rum imperatorluğunun Avropadan kömək istəməsi sultan Fatehin qəzəbinə səbəb oldu. İmperatorun qızı Dəspinə Ağqoyunlu hökmdarı Uzun Həsənin arvadı idi. Buna əsasən sultan Fateh bu imperatorluğun varlığına son qoymaq qərarına gəldi. Bundan əlavə kral David illik vergini verməkdən də imtina etməklə yanaşı Uzun Həsən vasitəsilə verdiyi vergiləri də geri istəmişdi.

Baş verən bu hadisələrdən sonra Osmanlı donanması Mahmud paşanın əmrindəki üç yüz gəmi ilə dənizdən, sultan Fateh isə qurudan Trabzon şəhərini mühasirəyə aldı. Çıxılmaz vəziyyətdə qalan Rumlular 1461-ci ildə təslim oldular və 257 il hökmdarlıq edən imperatorluğun varlığına son qoyuldu.

Albaniyanın ələ keçirilməsi

Sultan II Muradın dövründən 1441-ci ildən Albaniyada üsyan edən İsgəndər bəyin üsyanını yatırmaq istəyən sultan Fateh oraya qoşun göndərdi. Lakin bütün cəhdlərə baxmayaraq üsyan davam edirdi. Çünki Osmanlı ordusu gələnə

qədər dağlara çəkilən İsgəndər bəy, onlar geri qayıdan kimi əraziləri yenidən ələ keçirirdilər. Bundan əlavə İsgəndər bəy Napoli krallığından da kömək alırdı. Sultan Fateh 1465-1467-ci illərdə İsgəndər bəyin üzərinə səfər etsə də bu səfərlərin heç bir nəticəsi olmadı. Yalnız 1468-ci ildə İsgəndər bəyin ölümündən on bir il sonra 1479-cu ildə Albaniyaya üçüncü dəfə səfər edən sultan Fateh, bu bölgəni tamamilə ələ keçirə bildi.

Osmanlı-Ağqoyunlu münasibətləri və Otluqbeli müharibəsi

Tarix boyu Osmanlıların düşmənləri ilə müttəfiqlik edən Karamanoğullarından Pir Əhmədin, Osmanlı üzərinə hücum etməsi ilə əlaqədar olaraq sultan Fateh bu əraziyə ordu göndərərək Konya və Karamanı ələ keçirdi. 1466-cı ildə baş verən döyüşdə məğlub olan Karamanoğlu Pir Əhməd döyüş meydanından qaçdı. Bundan sonra Karaman səfərinə göndərilən Rum Məhməd paşa bir çox ailəni məhv etməklə yanaşı came və türbələri də yağmaladı. 1470-ci ildə Karaman səfərinə çıxan İshaq paşa bəzi yerləri ələ keçirdi.

Baş verən hadisələrdən sonra Karamanoğulları Ağqoyunlu hökmdarı Uzun Həsəndən kömək istədilər. 1471-ci ildə Karamana səfər edən Gedik Əhməd Alaiyyə və ətrafını ələ keçirdi. Bir müddət sonra Karamanoğulları Uzun Həsənin köməyi ilə Konyanı geri alsalar da, Mahmud paşanın əmrindəki Osmanlı ordusu onları məğlub edərək geri çəkilməyə məcbur etmişdir.

Bu arada özünü Asiyanın ən böyük hömdarı kimi görən Ağqoyunlu hökmdarı Uzun Həsən 1472-ci ildə Osmanlılara tabe olan Tokatı ələ keçirərək talan etdirdi. Bunun ardınca sultan Fatehin yanına elçi göndərən Uzun Həsən ondan Anadolu və Trabzonu da istədi. Sultan Fatehin buna rədd cavabı verməsi iki tərəf arasında müharibəyə səbəb oldu.

1473-cü il avqustun 11-də baş verən Otluqbeli müharibəsində top və tüfənglə silahlanmış Osmanlı ordusu Ağqoyunlu ordusunu məğlub etdi. Bu döyüşdən Uzun Həsənin məqsədi sultan Fatehi məğlub edərək İstanbulu tutmaq idi. Lakin Avropadan istədiyi toplar gəlmədiyindən döyüşdə məğlub oldu.

Sultan Fatehin Ağqoyunlu hökmdarı Uzun Həsənlə müharibə etməsindən istifadə edən Avropa dövlətləri İzmir, Antalya və Midillini ələ keçirərək yandırdılar. Osmanlı-Səlib döyüşləri 1478-ci ilə qədər davam etmişdir.

Şimali Qara dəniz və İtaliya səfərləri

1460-cı ildə Ceneviz bəyiliyinə son qoyan sultan Fateh Azak və Kəfəni tutaraq Qaradənizi özününküləşdirmək üçün 1475-ci ildə Gedik Əhməd paşanı yetmiş min əsgər və üç yüz gəmi ilə şimali Qaradəniz səfərinə göndərdi. Eyni ildə hər iki məntəqə Osmanlılar tərəfindən tutuldu. 1477-ci ildən başlayaraq Krım xanlığı da Osmanlılara tabe oldu.

1479-cu ildə İtaliya səfərinə göndərilən Gedik Əhməd Zanta, Kefaloniya və Ayamavra adalarını ələ keçirdi. 1480-ci ildə səfərinə davam edərək İtaliyada Otranto və ətraf əraziləri fəth etdi.

Lakin 1481-ci ildə sultan Fatehin ölümü ilə əlaqədar olaraq İtaliya səfərləri dayandırıldı və türklər Otrantonu cəmi on üç ay əllərində saxlaya bildilər.

Eyni zamanda Rodosu da ələ keçirmək istəyən sultan Fateh 1479-cu ildə Məsih paşanı kəşfiyyat məqsədilə Rodosa göndərdi. Bundan bir il sonra 1480-cı ildə böyük bir ordu ilə Rodosu mühasirəyə alan Osmanlılar adanı ələ keçirə bilmədilər.

Otuz il Osmanlı dövlətini idarə edən sultan Fateh 1481-ci ildə 51 yaşında vəfat etdi. O, sadəcə İstanbulun yox, eyni zamanda Şərqi Roma və Trabzon-Rum kimi iki nəhəng imperatorluğun, Krım, Karaman, Serbiya və Bosniya krallıqlarının və on bir bəyliyin yəni on yeddi dövlətin fatehidir.

Sultan Fatehin ani ölümü siyasi böhrana səbəb oldu. Sultanın ölüm xəbərini eşidən Yeniçərilər İstanbula hücum etdilər və nəticədə vəzir İshaq paşanın təşviqi ilə böyük vəzir Karamanı Məhməd paşa öldürüldü.

II Bəyazidin hakimiyyəti (1481-1512)

Sultan Fatehin sağlığında Bəyazid adlı oğlu Amasyada, Cem adlı oğlu isə Konyada vali idi. Fatehin ölümündən sonra böyük vəzir Karamanı Məhməd paşa hər iki şahzadəyə xəbər göndərdi. Lakin Cemin yanına gedən xəbərçi yolda İshaq paşanın adamları tərəfindən öldürüldü və nəticədı Amasyadan gələn Bəyazid Osmanlı taxtını ələ keçirərək İshaq paşanı özünə vəzir təyin etdi. Bundan xəbər tutan Cem, Bursaya gələrək dövlətin bölüşdürülməsini istədi. Lakin təklifinin rədd edilməsilə iki qardaş arasında hakimiyyət uğrunda mübarizə başladı. Baş verən mübarizədə məğlub olan Cem, Misirə qaçaraq Köləmən hökmdarı Kayıt bəyə sığındı. Növbəti il yenidən Anadoluya gələn Cem, Konyaya hücum etsə də yenidən məğlub oldu. 1482-ci ildə Rumeliyə keçmək məqsədilə Rodos krallığına sığındı.

Bundan istifadə edən Rodoslular ondan siyasi məqsədlər üçün faydalanmağa başladılar. Rodosun türklər tərəfindən tutulmaması üçün Sultan Cemi Fransaya göndərdi. II Bəyazid Rodoslulara ildə 45 min qızıl vermək şərtilə onun buraxılmasına mane oldu. Yeddi il sonra Fransadan İtaliyaya gətirilən Cem papaya təslim edildi. Papa IV Aleksandr üç yüz min qızıl əvəzində Cemə zəhər verərək onu yenidən Fransa kralına verdi. 1495-ci ildə vəfat edən Cem, dörd il sonra vəsiyyətinə əsasən Bursaya gətirilərək orada dəfn edildi.

II Bəyazidin dövründə baş verən hadisələr və onun vəfatı

1484-cü ildə Boğdan hücum edərək Kili və Akkirman qalalarını ələ keçirən II Bəyazid Krım xanlığı ilə qurudan əlaqə qurmuş oldu.

Eyni ildə Karamanoğullarının və Cemin Məmlüklərə sığınması iki tərəf arasında altı illik (1484-1490) müharibəyə səbəb oldu. Lakin hər iki tərəfə faydası olmayan bu müharibə sərhədlərin əvvəlki kimi qalmasını bildirən müqavilənin imzalanması ilə nəticələndi. Məmlüklər o dövrdə Osmanlılardan sonra ikinci böyük dövlət idi.

1494-cü ildə Osmanlılara xidmət edən Kamal donanmanı yeniləyərək Ən-dəlüsdəki müsəlmanlara kömək etməyə çalışdı. Osmanlılara 17 il xidmət edən Kamal 1510-cu ildə vəfat etmişdir.

1501-ci ildə Karamanoğullarının son üsyanını yatıran II Bəyazid onların varlığına son qoydu.

1509-cu ildə Amasya, Tokat, Sivas, İstanbul, Ədirnə, Çorum və ətraf əyalətlərdə qırx beş gün davam edən zəlzələ baş verdi. Kiçik qiyamət adlanan bu İstanbul zəlzələsində 109 məscid, 1070 ev dağıldı, beş min nəfər isə öldü. Bəyazid məscidinin qübbəsi dağıldı. Atik Əli paşa və Fateh camesinin də qübbəsində çatlar əmələ gəldi. Bununla əlaqədar olaraq Anadoludan İstanbula 37 min, Rumelidən isə 29 min işçi və üç min memar gətirildi. Bu gərgin fəaliyyət nəticəsində bütün dövlət binaları və məscidlər qısa müddət ərzində yenidən təmir olundu.

1512-ci ildə əsgərlərin istəyi ilə hakimiyyəti oğlu Səlimə verən II Bəyazid Dimetokaya yola düşdü. Lakin yolda olarkən vəfat edən II Bəyazidin cənazəsi İstanbula gətirilərək camenin yanındakı türbədə dəfn edildi.

Yavuz Sultan Səlimin hakimiyyəti (1512-1520)

1501-ci ildə Səfəvilər dövlətinin əsasını qoyan Şah İsmail Xətai Anadoluda yaşayan ələvilərə dai və xəlifə adı ilə təbliğçilər göndərərək onları öz tərəfinə çəkməyə, bununla da Anadolunu ələ keçirməyə çalışırdı. Anadoluda Şeyx Bədrəddinin üsyanları səbəbilə çoxlu qanlar axıdılmışdı. Eyni zamanda Antalya tərəflərdə üsyan edən Şahqulu bir çox yerləri ələ keçirmişdir.

Baş verən bu hadisələr müqabilində Osmanlı sultanı Yavuz Səlimlə Səfəvi hökmdarı Şah İsmail arasında gərginlik yaranmışdı. Artıq Osmanlı qaziləri tərəfindən Səfəvilərlə müharibə etmək barəsində fətva da verilmişdi. Lakin müharibəyə başlamazdan əvvəl lazımi tədbirlər görən Sultan Səlim, Anadoludakı şah tərəfdarlarının siyahısını tutaraq onlardan qırx minini həbs etdirməklə yanaşı bir qismini də edam etdirdi. Beləliklə bütün üsyanları yatıran Sultan Səlim Anadolunu böyük təhlükədən xilas etmiş oldu.

Çaldıran döyüşü 1514-cü il

Ağqoyunlu dövlətinin varlığına son qoyaraq Azərbaycan, İran və İraqa hakim olaraq Ceyhun vadisinə qədər olan yerləri tutan Şah İsmayıl, bütün bu uğurların ardınca Anadolunu da ələ keçirməyə çalışırdı.

Bununla əlaqədar olaraq yüz min nəfərlik ordu ilə səfərə çıxan Sultan Səlim Su şəhərinə qədər gəldi. Lakin bundan sonrakı ərazilər Səfəvilər tərəfindən yandırıldığı üçün Osmanlı ordusu böyük çətinliklə üzləşdi. Osmanlı ordusunda yer alan Yeniçərilərin təklifi ilə Həmdəm paşa Sultan Səlimdən geri qayıtmasını istədi. Həmdəmin təklifi ilə razılaşmayan Sultan Səlim dərhal onu edam etdirərək bütün bu təkliflərin qarşısını aldı. Anadolunu keçən Osmanlı ordusu Van gölünün yaxınlığındakı Çaldıran adlı məntəqədə dayandı. Çünki Şah İsmayılın başçılığı altında olan Səfəvi ordusu da bu məntəqədə idi.

1514-cü ildə iki türk dövləti arasında baş verən Çaldıran döyüşündə 500 ədəd top və tüfənglə silahlanmış Osmanlı ordusu Səfəviləri məğlub etdi. Bu qələbədən ruhlanan Sultan Səlim daha da irəli gedərək Türkistan türkləri ilə əlaqə qurmaq istəyirdi. Lakin Yeniçərilərlə yanaşı digər əsgərlərin də irəli getmək istəməməsi onun istəyini həyata keçirməsinə mane oldu.

Mərcidabıq müharibəsi 1516-cı il

Osmanlılarla Məmlük dövləti arasında dostluq münasibətlərinin olmasına baxmayaraq, Osmanlılar məğlubiyyətlə barışmaq istəmirdilər. Osmanlıların Çaldıran düzündə Səfəvilər üzərində qələbə qazanması Suriya və Misirdə sevinclə qarşılandı. Lakin bundan narahat olan Məmlük hökmdarı Sultan Məlikul-Əşrəf Seyfəddin Kansu Qavri (1501-1516) Səfəvilərlə müttəfiqliyə başladı. Bununla əlaqədar olaraq Sultan Səlim böyük bir ordu ilə Məmlük hökmdarı Kansu Qavrinin üzərinə hərəkət etdi.

1516-cı ildə Hələb yaxınlığında iki tərəf arasında baş verən Mərcidabıq döyüşündə Osmanlı ordusu qalib gəldi və Məmlük hökmdarı Kansu Qavri döyüş meydanından qaçarkən Hələbdə öldü. Kansu Qavrinin ölümündən sonra Məmlük taxtını ələ keçirən Məlikul-Əşrəf Əbun-Nasir Tumanbəy (1516-1517) mübarizəyə başlasa da Ridaniyə adlı məntəqədə Sultan Səlim tərəfindən məğlub edilərək öldürüldü. Bu qalibiyyətdən sonra Suriya, Liviya və İordaniyanı ələ keçirən Sultan Səlim 1517-ci ildə Məmlük dövlətinin varlığına son qoydu.

Suriya və Misirin alınmasından sonra Sultan Səlim Köləmən bəylərini və Misir Abbasi xəlifəsi Mütəvəkkil Ələllahı İstanbula gətirərək ondan xilafəti təslim aldı.

İstanbula qayıtdıqdan sonra bir müddət dövlət işləri ilə məşğul olan Sultan Səlim müalicə olunmaq üçün Ədirnəyə doğru hərəkət etdi. Çorlu adlı məntəqədə qırx gün müalicə olunan Sultan Səlim 1520-ci ildə 51 yaşında vəfat etdi.

Sultan Süleyman Qanuninin hakimiyyəti (1520-1566)

Sultan Süleyman hakimiyyətə gələrkən Osmanlı dövlətində sakitlik hökm sürürdü. Bundan istifadə edən Sultan dərhal fəthlərə başladı. O baş vəziri Piri paşanın məsləhətilə ilk Macarıstan səfərini Belqraddan başladı. Uzun mühasirədən sonra şəhəri ələ keçirən Sultan Süleyman bununla mərkəzi Avropaya gedən yolu Osmanlıların üzünə açmış oldu.

Belqradın fəthindən sonra Osmanlı ordusu Senjan krallığının əlində olan Rodosu ələ keçirmək üçün hərəkətə keçdi. Rodos adası Anadoluya yaxın olduğu üçün bu adalardan Osmanlı ərazilərinə tez-tez hücumlar edilirdi. Bu hücumlar zamanında dəniz ticarətinə ciddi ziyan dəyirdi. Bütün bunları nəzərə alan Sultan Süleyman Müslihiddinin başçılığı altında olan 400 hərbi və 300 minik gəmini Rodos adasına göndərdi. Sultanın özü isə quru yolu ilə Marmarisə gələrək oradan Rodosa keçdi. Altı aylıq mühasirədən sonra 1522-ci ildə Rodos Os-

manlılar tərəfindən fəth edildi. Səfərdən qayıtdıqdan sonra Sultan Süleyman, Piri Məhməd paşanın yerinə İbrahim ağanı özünə vəzir təyin etdi.

Moxaç müharibəsi 1526-cı il

Belqradın Osmanlılar tərəfindən fəth edilməsinə baxmayaraq Macarıstan hələ də hücumlarını davam etdirirdi. Osmanlılara qəti zərbə vurmaq istəyən Macar kralı II Layoş alman, çex, italiya və ispaniyalılardan ibarət 150 minlik ordu ilə Moxaç adlı məntəqəyə gəldi. Bundan xəbər tutan Osmanlılar da 100 mindən artıq olan bir ordu ilə həmin məntəqəyə gəldilər. 1526-cı ildə Moxaç adlı məntəqədə baş verən döyüşdə Macarlar məğlub oldu. Bu qələbənin ardınca Budini də fəth edən Osmanlılara Qazan və Astarxan xanlıqları da tabe oldular.

Avstriya səfərləri

Almaniya-Avstriya imperatoru olan Şarlkenin qardaşı Ferdinandın Macar torpaqlarına hücumu və özünü kral elan etməsi ilə əlaqədar olaraq Sultan Süleyman Avstriya səfərinə çıxdı. 1529-cu ildə Avstriyaya daxil olan Sultan paytaxt Vyananı mühasirəyə aldı. Lakin mühasirə toplarının Belqradda qalması ilə əlaqədar olaraq şəhəri 19 gün mühasirədə saxlayan Sultan Süleyman mühasirəni dayandıraraq geri qayıtdı.

1531-ci ildə ikinci Avstriya səfərinə çıxan Sultan Süleyman yenə də imperator Şarlken və onun qardaşı Ferdinandla rastlaşmadı. 1533-cü ildə iki dövlət arasında sülh müqaviləsi imzalandı. Sultan Süleymanın dövründə 1541-1543-cü illərə qədər davam edən Avstriya-Almaniya səfərləri nəticəsində bir çox yerlər Osmanlılar tərəfindən fəth edilmişdir.

Preveze dəniz müharibəsi 1538-ci il

Aralıq dənizində güclənərək Əlcəzairi ələ keçirən Barbaros Xeyrəddin paşa Sultan Süleymanın istəyi ilə bütün ordusu və gəmiləri ilə Osmanlılara tabe oldu və bunun müqabilində Sultan Süleyman tərəfindən 1534-cü ildə "Kapitani-dərya" elan edildi. Balear adalarına qədər irəliləyən Xeyrəddin paşa, 1538-ci ildə Andre Dorianın əmrindəki Avropa dövlətlərindən toplanmış böyük bir xristian donanmasını Prevezedə məğlub etdi.

Bu qələbədən sonra 1541-ci ildə Şarlken, Osmanlılara aid olan və Xeyrəddin paşanın əmrindəki Əlcəzairə hücum etsə də məğlub oldu. Bu qələbələrin ardınca Xeyrəddin paşanın oğlu Həsən paşa ilə dostu Saleh paşa Mərakeş və Liviyanı Osmanlılara tabe etmişdir.

Dənizdə qazanılan uğurlardan biri də Cərbə zəfəri olmuşdur. 1560-cı ildə Sultan Süleymanın əmrinə əsasən Piyayə paşanın başçılığı altında olan Osmanlı donanması xristianların əlində olan Cərbə adasına doğru hərəkət etdi. Baş verən dəniz döyüşündə xristian donanması məğlub edildi. Bu qələbədən sonra Osmanlı gəmiləri Qırmızı dəniz və Hind okeanında da üzməyə başladı.

Osmanlı-Səfəvi münasibətləri

Səfəvi şahı Təhmasibin (1524-1576) şərqə səfərindən istifadə edən Luristan bəylərbəyi Zülfüqar xan üsyan qaldırdı və 1528-ci ildə dayısının hakim olduğu Bağdadı ələ keçirərək şəhərin açarlarını türk sultanı Sultan Süleymana göndərərək onun tabeliyinə keçdi.[891] Bununla əlaqədar Şah I Təhmasib 1529-cu ildə Bağdadı mühasirəyə aldı və Zülfüqar xan öldürüldü. Həmin il Bağdadı üsyançılardan təmizləyib Məhəmməd xan Türkməni Bağdad bəylərbəyi təyin etdi. 1531-ci ildə Təbriz bəylərbəyi Üləma xan Təkəli xəyanət edərək öz əsgərləriylə Osmanlıya qaçdı. Daha sonra Üləma xan Sultan Süleymanı Azərbaycana yürüşə təhrik etdi. Buna əsasən 1534-cü ildə Osmanlı sultanı Sultan Süleyman yüz min nəfərlik ordu ilə Azərbaycan sərhədlərini keçdi. Üləma ilə əlaqəsi olan bəzi qızılbaş əyanları Səfəvilərə xəyanət edərək əks tərəfə qoşuldular. Qısa vaxt ərzində Təbriz daxil olmaqla Cənubi Azərbaycanın bir çox yerləri türklərin əlinə keçdi.[892] Şah Təhmasib Qəzvinə çəkildi və sultanla sülh bağlamaq üçün öz elçisini göndərdi, ancaq sultan onun təklifini qəbul etmədi. Lakin Azərbaycanda ciddi müqavimətə rast gələn Sultan Süleyman, digər tərəfdən də qışın sərt keçdiyini və ərzaq çatışmamazlığını nəzərə alaraq ölkəni tərk edərək ordusu ilə birlikdə Bağdada çəkildi. Bu arada Şah Təhmasib Sultan Süleymanın Bağdadı almasına cavab olaraq Van və Qarsı mühasirəyə aldı. Bunun qarşısını almaq istəyən Sultan Süleyman Üləma paşanı Vana göndərdi, lakin baş verən döyüşdə Üləma bəy məğlub olaraq qaçdı və beləliklə Van və Qars ələ keçirildi. Buna cavab olaraq Sultan Süleyman 1535-ci ildə ikinci dəfə Azərbaycana daxil olaraq Təbrizi ələ keçirdi. Şah Təhmasib yenə də danışıq üçün Sultan Süleymana müraciət etdi. Lakin bu müraciət Sultan Süleyman tərəfindən rədd edildi. İki tərəf arasında baş verən döyüşlər türklərə uğur gətirmədi. Osmanlı ordusu qızılbaşları Bitlisə qədər təqib etdilər. Ərciş qalasının müdafiəsində Sinan paşa və xeyli türk əsgəri öldürüldü. Bundan xəbər tutan Sultan Süleyman İbrahim paşanın başçılığı altında olan böyük bir ordunu Ərcişdə müdafiə olunanların köməyinə göndərdi. Lakin bu dəstə də səfəvilər tərəfindən məğlub edildi. Beləliklə, Van və Ərciş ərazisi Şah Təhmasib tərəfindən ələ keçirildi. Daha sonra Sultan Süleyman əhalinin müqaviməti və orduda baş verən aclıq üzündən Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Bundan istifadə edən Şah Təhmasib ölkənin birləşdirilməsini davam etdirmək üçün 1538-ci ildə qardaşı Əlqas Mirzənin rəhbərliyi ilə otuz minlik ordunu Şirvanı tabe etmək üçün göndərdi. Surxab, Qorci və Qəbələ qalaları səfəvilər tərəfindən tutuldu. Sonra qızılbaşlar Gülüstan və Buğurd qalasına doğru hərəkət etdilər. Şirvan əyanları Buğurd qalasına sığınmışdılar. Dörd aylıq mühasirədən sonra Buğurd qalası ələ keçirildi, Şirvanşahların və yerli əyanların, o cümlədən Hüseyn bəyin xəzinəsi müsadirə edildi. Əlqas 1538-ci ildə Şirvanşahlar dövlətinin bütün qalalarını ələ

[891] Şərəfnamə, II cild, səh-174-175.
[892] Əhsən ət-təvarix, səh-247.

keçirdi, Şirvan bəylərbəyliyi hakimiyyətdən salındı və Şah Təhmasibin göstərişinə əsasən Əlqas Mirzə Şirvanın ilk bəylərbəyisi oldu.

Lakin Əlqas Mirzə 1547-ci ildə qardaşına xəyanət edərək müstəqillik üçün mübarizəyə başladı. Bununla əlaqədar Şah Təhmasib Şirvana daxil oldu və bütün qalaları özünə tabe etdi. Əlqas Mirzə isə Krıma, oradan da İstanbula qaçdı və Üləma paşayla birlikdə öz vətəninə qarşı yürüşlərdə iştirak etdi. Əlqas Mirzədən sonra Şah Təhmasibin oğlu İsmail Mirzə (II Şah İsmail) Şirvan bəylərbəyi təyin edildi. Bunun ardınca eyni ildə Şirvanda baş verən Burhan Mirzənin və Abdullah xanın da qiyamı amansızlıqla yatırıldı. Beləliklə, Səfəvi hökmdarı Şah Təhmasib 1547-ci ilin payızında Şirvanın idarə aparatını qiyamçılardan və Əlqas Mirzənin yaxın tərəfdarlarından təmizləyib Təbrizə qayıtdı.[893]

1548-ci ildə Sultan Süleyman, Osmanlı imperiyasının tabeliyində olan bütün ölkələrdən-Macarıstan, Valaxiya, Bosniya, Serbiya, Moreya, Moldaviya, Anadolu, Məntəşə eli, Qaraman, Mərəş, Hələb, Suriya, Misir, Hicaz, Yəmən, Diyarbəkir, Ərəb İraqı və Kufədən toplanmış böyük bir ordu ilə üçüncü dəfə Azərbaycana hücum etdi və Təbrizi aldı. Bu zaman Azərbaycanın cənubunda qızılbaş tayfaları əmirlərinin arasında çəkişmələr qüvvətlənmiş, Şirvanda isə Səfəvilərin əleyhinə qiyam qalxmışdı. Bütün bunları nəzərə alan Şah Təhmasib dövlətin paytaxtını şərqə, Türkiyə sərhədlərindən uzaqlara, Qəzvinə köçürdü. Lakin yenə də Azərbaycanda möhkəmlənə bilməyən Sultan Süleyman böyük tələfat verərək, dörd gündən sonra Təbrizi, sonra isə Azərbaycanın digər şəhərlərini tərk edərək ordusu ilə birlikdə Kürdüstandan Vana çəkildi. Van qalasını ələ keçirən Sultan Süleyman buranın ixtiyarını İsgəndər paşaya verərək Diyarbəkirə döndü. İbrahim xan və Məhəmməd bəy Türkmən Sultanın geri çəkilən ordusunun ardınca hərəkət edərək, onları Şəbüstər yaxınlığında məğlub etdilər.[894]

Sultan Süleymanın geri çəkilməsindən sonra Şah Təhmasib Xoya daxil olduqda İbrahim xan, Çaldıran adlı məntəqədə isə Kirman hakimi Şahqulu Sultan və Mahmud xan Əfşar da öz dəstələri ilə birlikdə ona qoşuldular. Osman Çələbinin başçılığı altında olan beş minlik türk ordusunu məğlub edən səfəvilər Qars qalasını dağıtdılar.

Səfəvilərin əsas qüvvələrini məqsəddən yayındırmaq istəyən Sultan Süleyman Əlqas Mirzəni və Üləma bəyi müxtəlif istiqamətlərə göndərdi. Əlqas Mirzə beş minlik nəfərlik qoşunla Şəhrizurdan İraqa tərəf, Üləma bəy isə Ərzurum və Sivas paşaları ilə otuz minlik qoşunla, Sultanın əmrinə əsasən Ərzurumu müdafiə etmək üçün göndərildi. Bitlisi sürətlə keçən Sultan Süleyman isə Diyarbəkirə gəldi.

Üləma bəyin Tərcanda olmasını öyrənən Şah Təhmasib Sufiyadan keçib, onun arxasınca hərəkət etdi. Lakin Üləma bəyin qorxudan qaçması ilə əlaqədar olaraq Şah Təhmasib Tərcandan Ərzincana doğru irəlilədi. Bayburt yaxınlığında İsmail Mirzənin başçılığı altında olan Səfəvi ordusu Məhəmməd Paşa Tək oğlunun

---

[893] Əhsən ət-təvarix, səh-322-323, 325; Tarix-i cahan-ara, səh-297.

[894] Əhsən ət-təvarix, səh-330.

başçılığı altında olan Osmanlı ordusunu məğlub edərək Ərzincanı ələ keçirdi. Bu arada İrəvana gələn Şah Təhmasib Üçkilsədə düşərgə saldı.

Şah Təhmasibin Ərzincanda olmasından istifadə edən Əlqas Mirzə beş min nəfərlik dəstə ilə Kürdüstandan Həmədana, sonra Qum üzərinə hərəkət edərək oradan da Kaşana daxil oldu. Səfəvi ordusunun yaxınlaşmasından xəbər tutan Əlqas Mirzə tələsik İsfəhana doğru hərəkət etdi. Bəhram Mirzənin və İbrahim xanın başçılığı altında olan Səfəvi ordusunun Kaşana çatdığını öyrənən Əlqas Mirzə təqibçilərdən canını qurtarmaq üçün Farsa tərəf hərəkət etdi. Şiraz-İsfəhan yolunda yerləşən Yezdxas qalasını ələ keçirən Əlqas Mirzə müdafiəçiləri qılıncdan keçirdikdən sonra Bəhbəhana, Dizfula daxil oldu. Oradan da Bayat qalasını keçərək Bağdadın hüdudlarına çatdı.[895]

1549-cu ildə Əlqas Mirzə ilə Sultan Süleymanın arası pozuldu. O, əvvəllər Həmədanda tutduğu Bəhram Mirzənin ailəsini Şah Təhmasibə qaytardı və Sultan Süleymanın tələbi ilə İstanbula qayıtmaqdan imtina etdi. Buna görə də Məhəmməd paşanın otuz minlik ordusu Əlqas Mirzənin üzərinə göndərildi. Osmanlı sultanından xilas olmaq istəyən Əlqas Mirzə Surxab bəyin hakim olduğu Mərivan qalasına qaçdı. Bundan xəbər tutan Şah Təhmasib Bəhram Mirzəni iyirmi minlik qoşunla Surxabın yanına göndərdi. Bəhram Mirzə Əlqası Mərivan qalasından gətirərək Şah Təhmasibə təhvil verdi. Şah Təhmasib üsyankar qardaşını Qəhqəhə qalasına saldırdı və 1549-cu ildə Əlqas Mirzə zindanda öldürüldü.

1550-ci ildə Səfəvi şahı Şah Təhmasib Sultan Süleymana elçi göndərərək sülh təklif etdi, amma sultan yenə də bu təklifi qəbul etmədi. Belə olduqda Şah Təhmasib 1552-ci ildə osmanlı ərazilərinə daxil olaraq müdafiədən fəal hücum əməliyyatlarına başladı. Digər tərəfdən də Ərzurum hakimi İsgəndər paşanın başçılığı altında olan osmanlı ordusunun Səfəvilərin əlində olan Çuxursəəd vilayətinə basqını, Səfəvi ordusunun Osmanlı torpaqlarına soxulmasına bəhanə oldu. Eyni ildə Səfəvi ordusu Van, Qars, Vostan, Bitlis, Pasin, Muş və Ədilçəvazı ələ keçirdi. Bu məntəqələrdə baş verən döyüşlərdə çoxlu sayda türk və kürdü qılıncdan keçirən səfəvilər xeyli qənimətlə geri qayıtdılar.[896] Sonra Şah Təhmasib Ərzurum hakimi İsgəndər paşanı cəzalandırmaq üçün oğlu Şahzadə İsmayili Ərzuruma göndərdi. Ərzurum yaxınlığında baş verən döyüşdə İsgəndər paşanı məğlub edən Şahzadə İsmail Ərzurumu ələ keçirdi. Məşhur osmanlı əyanları Trabzon hakimi Mustafa bəy, Mərəş hakimi Kəbir İsa, Sultanın qullarağası Məhəmməd bəy, İsgəndər paşanın qardaşı Ramazan bəy, Malatya hakimi Xeyrəddin bəy və bir çox başqaları əsir alındılar.[897] 1553-cü ildə Naxçıvana qayıdan Şah Təhmasib danışıqlar aparmaq üçün əmir Şəmsəddin Dilcanini Sultan Süleymanın yanına göndərdi. Lakin Sultan Süleyman Səfəvi hökmdarının bu təklifinə rədd cavabı verdi. Sultan Süleyman 1554-cü ildə sonuncu dəfə Azər-

[895]Təzkireyi şah Təhmasib, səh-622-628; Tarixi aləm arayi Abbasi, I cild, səh-71-75.
[896] Əhsən ət-təvarix, səh-358-361.
[897] Tarixi aləm aray-i Abbasi, səh-75-77; Əhsən ət-təvarix, səh-361-367.

baycana hücum etdi, ancaq bu dəfə də uğur əldə edə bilmədi. Əhalinin müqaviməti, Qızılbaşların ardıcıl qələbələri sultana Azərbaycanı ələ keçirməyə imkan vermədi. Nəhayət Sultan Süleyman öz elçisi Məhəmməd paşanı Şah Təhmasibin yanına göndərərək sülh danışıqlarına başlamağa razı olduğunu bildirdi və 1555-ci il mayın 29-da Amasyada Osmanlılarla Səfəvilər (Azərbaycan) arasında sülh müqaviləsi bağlandı. Müqaviləyə görə şərqi Anadolu, İmeretiya, Quriya, Ərəb İraqı Osmanlıya, Kartli, Kaxetya və Mesxiya Azərbaycana verildi.[898] Qərbi Ermənistan Osmanlıların, Şərqi Ermənistan (indiki Ermənistan) isə Səfəvilərin hakimiyyəti altında qaldı. Bu müqavilə Səfəvi hökmdarı Şah Təhmasibin ölümünə qədər davam etmişdir.

46 il Osmanlı dövlətini idarə edən Sultan I Süleyman Qanuni 1566-cı ildə sonuncu 13-cü səfəri olan Sigetvar səfərinə çıxdı. Lakin qalanın mühasirəsi davam etdirilərkən Sultan Süleyman vəfat etsə də onun ölümündən qısa müddət sonra qala Osmanlılar tərəfindən fəth edilmişdir.

II Səlimin hakimiyyəti (1566-1574)

Sulta Süleyman Qanuninin ölümündən sonra onun qabiliyyətsiz oğlu II Səlim Osmanlı sultanı elan edildi. Hakimiyyəti ələ keçirən II Səlim bütün dövlət işlərini baş vəzir Sokullu Məhməd paşaya buraxdı. II Səlimin dövründə Yəmən yenidən işğal olundu. 1568-1569-cu illərdə Misir donanması ilə Qurdoğlu Xızır Xeyrəddin İndenoziya səfərinə çıxdı. 1569-cu ildə Şimali Sumatra, Sinqapur, Cənub-qərbi Malaziya Osmanlılara tabe edildi.

Kiprin fəthi və Osmanlıların İnəbaxtı yaxınlığında məğlubiyyəti

Məlum olduğu kimi Kipr ilk dəfə üçüncü Raşidi xəlifəsi Osman ibn Əfvanın (644-656) xilafəti dövründə 653-cü ildə Abdullah ibn Səd ibn Sərəhin və Müaviyə ibn Əbu Süfyanın başçılığı altında olan islam donanması tərəfindən fəth edilmişdir. Anadolu və Suriyaya yaxın olan bu ada Venediklərin əlində idi.

Osmanlı taxtını ələ keçirən II Səlim baş vəzir Sokullunun etirazına baxmayaraq adanın fəthinə qərar verdi. Sultanın əmrinə əsasən Müəzzinzadə Əli paşanın başçılığı altında olan donanma 1570-ci ildə adaya doğru hərəkət etdi. Bu səfər də uğur qazanan Əli paşa 1571-ci ildə adanı bütünlüklə ələ keçirdi. Kipri azad etmək istəyən Avropalılar Don Juanın başçılığı altında olan donanmanı Osmanlıların üzərinə göndərdi. İnəbaxtı yaxınlığında baş verən döyüşdə Osmanlı donanması, Avropa donanması tərəfindən məğlub edildi. Müəzzinzadənin ölümü ilə nəticələnən bu döyüşdə Osmanlılar 190 gəmi itirdi. Lakin cinahlardan birinə rəhbərlik edən Uluç Əli paşa 40 gəmini qurtardığı üçün "Kapitani-dərya" ünvanını aldı.

Bir müddət sonra Əli paşanın başçılığı ilə yenidən səfərə çıxan Osmanlı donanması Aralıq dənizində ispanları məğlub edərək öz güclərini göstərə bildilər. Eyni vaxtda Tunis də Osmanlıların hakimiyyətini tanıdı.

---

[898] Tarixi aləm aray-i Abbasi, səh-87.

Ədirnədə Səlimiyyə camesini tikdirərək adını əbədiləşdirən Sultan II Səlim 1574-cü ildə 57 yaşında vəfat etmişdir.

III Muradın hakimiyyəti (1574-1595)

Sultan II Səlimin vəfatından sonra Manisada olan oğlu III Murad İstanbula gələrək Osmanlı taxtını ələ keçirdi. Sokullunu baş vəzir vəzifəsində saxlayan III Murad atasından fərqli olaraq onun müstəqil qərarlar verməsinin qarşısını aldı.

Əlcəzair bəylərbəyi Ramazan paşa vasitəsilə Mərakeş hakimi Əbdülməliki dəstəkləyən Osmanlılar, bunun əksinə olaraq özlərinə qarşı çıxan və köhnə sultanı dəstəkləyən Portuqaliya kralı Sebastiyanın əmrindəki ordunu məğlub edərək qırx min nəfəri əsir götürdülər. Bunun ardınca 1578-ci ildə Mərakeş Osmanlılara tabe edildi.

Eyni ildə Səfəvilərin Şərqi Anadolu bəylərini öz tərəflərinə çəkməsi səbəbilə iki tərəf arasında yenidən müharibə başladı. Həmin vaxt Səfəvi hökmdarı Məhəmməd Xudabəndə (1578-1587) idi. Bu müharibə 1578-ci ildən 1590-cı ilə qədər davam etmişdir. Yalnız Səfəvi hökmdarı Şah Abbas (1587-1629) hakimiyyətə gəldikdən sonra iki tərəf arasında 1590-cı ildə İstanbul sülh müqaviləsi bağlanmışdır. İki tərəf arasında bağlanan İstanbul sülhünə görə Azərbaycandan əlavə, nəinki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri-Nəhavənd, Luristan, Şəhrizur Türkiyəyə verildi. Bundan əlavə Xorasanın özbəklərdə qalmasına razılıq verən I Şah Abbas səfərə çıxmadı.

Osmanlı dövlətinin durğunluq dövrü və III Muradın vəfatı

1579-cu ildə baş vəzir Sokullu Məhməd paşanın öldürülməsilə Osmanlı dövləti, 1683-cü ildə baş verən II Vyana müharibəsinə qədər durğunluq dövrünə qədəm qoydu.

Eyni vaxtda davam edən Səfəvi-Osmanlı müharibəsində Mustafa Lələ paşanın başçılığı altında olan Osmanlı ordusu 1578-ci ildə baş verən Çıldır müharibəsində Səfəviləri məğlub edərək Tiflisi ələ keçirdi. Bundan beş il sonra 1583-cü ildə baş verən Məşəl döyüşündə Osman paşanın başçılığı altında olan Osmanlı ordusu Səfəviləri məğlub edərək İrəvanı ələ keçirdi. Bu qələbədən sonra 1584-cü ildə İstanbula qayıdan Osman paşa şəhərin sədrəzəmi təyin edildi. Sonralar cənub cəbhəsinə yollanan Osman paşa Təbriz yaxınlığında vəfat etdi və 1585-ci ildə Diyarbəkirdə dəfn olundu.

Osmanlı sultanı III Murad isə 1595-ci ildə 49 yaşında vəfat etmişdir. Onun dövründə Osmanlı dövlətinin sərhədləri daha da genişlənmişdir.

III Məhmədin hakimiyyəti (1595-1603)

III Muradın vəfatından sonra III Məhməd Osmanlı sultanı elan olundu. 1590-cı ildə Avstriya-Almaniya ilə müqavilənin yenilənməsinə baxmayaraq 1593-cü ildə Bosniya valisi Telli Həsən paşanın Siska qalasını mühasirə etməsi əsnasında körpünün yıxılması nəticəsində Həsən paşa və 18 min döyüşçünün

həlak olması, Avstriya ilə Osmanlı dövləti arasında müharibənin yenidən başlamasına səbəb oldu. Bununla əlaqədar olaraq Avstriyaya səfər edən Sinan paşa uğur qazandı. Lakin məğlubiyyətlə barışmayan Avstriya, Əflaq və Boğdanlarla müttəfiq olaraq üç istiqamətdən Osmanlı torpaqlarına hücum etdilər. III Məhmədin taxta çıxdığı il yəni 1595-ci ildə həmin müttəfiq ordular, hücuma keçərək Esterqon və Vişiqradı ələ keçirdilər.

Bununla əlaqədar olaraq müəllimi Səadəddinin təkidi ilə 1596-cı ildə Avstriya səfərinə çıxan III Məhməd Əyri qalasını ələ keçirdi. Bu məğlubiyyətin əvəzini çıxmaq istəyən Avstriya imperatorunun qardaşı böyük bir ordu ilə Osmanlıların üzərinə hərəkət etdi. Lakin Xaçova adlı məntəqədə baş verən döyüşdə yenidən xristian ordusu məğlub oldu. Xaçova qələbəsinin ardınca Kanijə qalası da Osmanlıların əlinə keçdi və 1600-cü ildə qalanın müdafiəsi Tiryəki Həsən paşaya tapşırıldı.

Məğlubiyyətlə barışmayan Avstriya imperatoru Osmanlılara zərbə vurmaq üçün iki böyük ordu hazırladı. Ordunun biri Belqrada, digəri isə Kanija qalasını müdafiə edən Tiryəki Həsənin üzərinə göndərildi. İki ay səkkiz günlük mühasirədən sonra 1601-ci ildə ani hücuma keçən Tiryəki Həsən Ferdinandın başçılığı altında olan xristian ordusunu məğlub edərək 10 top, 14 min tüfəng, 60 min çadır və çoxlu ərzaq ələ keçirdi. Bu qələbədən sonra Tiryəki Həsənə vəzir rütbəsi verildi. O, I Əhmədin hakimiyyəti dövründə Budində vəfat etmişdir.

Osmanlı sultanı III Məhməd isə 1603-cü ildə vəfat etmişdir. Hakimiyyət uğrunda apardığı mübarizədə 19 qardaşını və 16 yaşlı oğlu Mahmudu öldürmüşdür.

I Əhmədin hakimiyyəti (1603-1617)

III Məhmədin ölümündən sonra hakimiyyətə gələn I Əhmədin dövrü daxili çəkişmələrlə keçmişdir. Avstriya-Osmanlı müharibəsi I Əhmədin dövründə də davam etmişdir. Lələ Məhməd Esterqonu geri almış və bundan sonra iki dövlət arasında davam edən on üç illik müharibə 1606-cı ildə bağlanan müqavilə ilə sona çatmışdır.

1614-cü ildə I Əhməd Malatyaya səfər etsə də şəhəri ələ keçirə bilməmişdir.

1590-cı ildə III Muradın hakimiyyəti dövründı bağlanan İstanbul müqaviləsi ilə son qoyulan Osmanlı-Səfəvi müharibəsi 1603-cü ildə I Əhmədin hakimiyyətə gəlməsilə yenidən başlandı. 9 il davam edən bu müharibənin sonunda iki tərəf arasında sülh imzalansa da, üç il keçmədən müharibə yenidən başlandı. Nəhayət iki tərəf arasındakı müharibə 1618-ci ildə bağlanan Ərdəbil müqaviləsi ilə başa çatdı. Müqaviləyə əsasən Qafqazın bir hissəsi Səfəvilərə verildi.

Osmanlıların iki cəbhədə Avstriya və Səfəvilərlə müharibə aparması nəticəsində mərkəzi hakimiyyət xeyli zəifləmişdi. Digər tərəfdən də Anadoluda iqtisadi vəziyyətin pisləşməsi daxili üsyanların meydana çıxmasına səbəb olmuşdu. İlk üsyançılar Əbdülhəlim, qardaşı Dəli Həsən və Tavil Əhməd idi. Bu üsyanları xeyli qan tökməklə yatıran Quyuçu Murad otuz min insanın həyatına

son qoymuşdur. Tarixi mənbələrdə onun 65 min insanı öldürdüyü qeyd olunur. Öldürdüyü insanları quyuya doldurduğu üçün ona quyuçu ləqəbi verilmişdir.

14 il hakimiyyətdə olan Osmanlı sultanı I Əhməd 1617-ci ildə 28 yaşında vəfat etmişdir. Məşhur Sultan Əhməd camesini tikdirməklə adını əbədiləşdirmişdir.

I Əhmədin ölümündən sonra Kösəm Sultanın təşviqi ilə ağıldankənar **I Mustafa (1617-1618)** Osmanlı sultanı elan olundu. Lakin üç aylıq hakimiyyətindən sonra taxtdan salındı və yerinə I Əhmədin oğlu Osman gətirildi.

II Osmanın hakimiyyəti (1618-1622)

Gənc olmasına baxmayaraq dərhal islahatlara başlayan II Osman, dövlət işlərini yaxşı qavrasa da əsasən müəllimi Ömər əfəndi ilə anasının təsiri altında idi. 1621-ci ildə Lehistan səfərinə çıxan II Osman, arxasında şahzadə buraxmamaq üçün qardaşı Məhmədi edam etdirdi. Səkkiz aydan artıq davam edən Lehistan səfərində Lehistan və Xorasan qalası yaxınlığında baş verən döyüş nəticəsiz qaldı və iki tərəf arasında müqavilə imzalandı. Müqavilədən sonra İstanbuldan həccə getmək istəyən II Osmanın əsas məqsədi dağılmış Yeniçəri ordusunu yeni bir ordu ilə əvəz etmək idi. Bundan xəbər tutan Yeniçərilər 1622-ci ildə üsyan edərək II Osmanı taxtdan salıb, onun yerinə I Mustafanı ikinci dəfə taxta gətirdilər.

Yeddiqüllədə həbs edilən II Osman, I Mustafanın vəziri Davud paşanın əmri ilə öldürüldü. Bununla əlaqədar İstanbul və Anadolulada üsyan edən şəxslər II Osmanın qatillərini öldürdülər. 1622-ci ildə isə I Mustafa yenidən taxtdan salındı və onun yerinə I Əhmədin böyük oğlu IV Murad Osmanlı sultanı elan olundu.

IV Muradın hakimiyyəti (1623-1640)

11 yaşında hakimiyyətə gələn IV Murad, dövlət işlərini yaxşı idarə edə bilmədiyi üçün dövləti Kösəm Sultan idarə edirdi. IV Muradın hakimiyyətə gəlməsindən 9 il sonra 1632-ci ildə Rəcəb paşanın vəzirliyi dövründə Xusrəv paşanın ölümü ilə əlaqədar olaraq yenidən üsyan edən yeniçərilər bir çox şəxsi öldürməklə yanaşı Sultanın da taxtdan salınmasını istədilər. Lakin IV Murad üsyan başçılarını bir-bir aradan götürməklə yeniçəri üsyanına son qoydu.

Dövlət işlərini yoluna qoyan IV Murad, Süleyman Qanunidən sonra ilk Osmanlı sultanı olaraq 1635-ci ildə böyük bir ordu ilə səfərə çıxdı. Sultanın bu səfərə çıxmaqdan əsas məqsədi, Anadoludan keçərkən dövlətə qarşı üsyan edən bütün üsyançı dəstələri məhv etmək olmuşdur.

Üsyanların yatırılmasından sonra İrəvana gələn Osmanlı ordusu qalanı tezliklə ələ keçirdi. Sultanın geri qayıtması və əlavə ordunun göndərilməməsi ilə əlaqədar olaraq 1636-cı ildə İrəvan Osmanlılardan geri alındı.

1638-ci ildə Bağdada səfər edən IV Murad, qırx günlük mühasirədən sonra şəhəri ələ keçirə bildi. Bağdad uğrunda gedən döyüşlərdə baş vəzir Təyyar paşa öldürüldü.

IV Muradın hakimiyyəti dövründə baş verən önəmli hadisələrdən biri də Səfəvilərlə Osmanlılar arasında 1639-cu ildə bağlanan Qəsri-Şirin sülh müqaviləsidir. Bu mqavilə nəticəsində Qars, Axıska, Van və Şəhrizor Osmanlılara verilmişdir. Qəsri-Şirin müqaviləsinin bağlanmasından sonra Səfəvilərlə Osmanlılar arasında davam edən 16 illik (1623-1639) müharibəyə son qoyulmuşdur.

İrəvan və Bağdad fatehi adı ilə tarixdə qalan IV Murad, 1640-cı ildə 29 yaşında olarkən vəfat etdi və I Əhmədin türbəsində dəfn edildi.

I İbrahimin hakimiyyəti (1640-1648)

IV Muradın vəfatından sonra padşah nəslinin sağ qalan yeganə nümayəndəsi I İbrahim Osmanlı sultanı elan edildi. Bundan sonrakı Osmanlı sultanları onun nəslindən gəlmişdir. Onun sultan elan olunması Yeniçərilərə və Kösəm Sultana sərf edirdi. Dövləti müstəqil surətdə idarə edən baş vəzir Qara Mustafa paşa rüşvətə qarşı mübarizə apardığı üçün 1644-cü ildə öldürüldü. Onun ölümündən sonra vəzir təyin edilən Sultanzadə Məhməd paşa I İbrahimin bütün istəklərini yerinə yetirir, ona hədiyyələr verərək onu mədh edirdi. Sultanzadə Məhməd paşanın həyata keçirdiyi islahatlar nəticəsində Osmanlı dövləti üç əsr geri düşmüşdür.

Həddən artıq əsəbi bir insan olan I İbrahim hakimiyyəti dövründə heç bir səbəb olmadan bir çox şəxsiyyətləri edam etdirmişdir. Ölkədə israf son həddə çatdığı üçün dövlət xəzinəsi boşalmışdı. Baş verən bu hadisələr müqabilində 1648-ci ildə I İbrahim taxtdan endirilərək öldürüldü və yerinə oğlu IV Məhməd gətirildi.

IV Məhmədin hakimiyyəti (1648-1687)

IV Məhmədin hakimiyyətə gəlişindən sonra dövlətin daha da zəifləməsi İstanbul xalqının üsyan etməsinə səbəb oldu. Bundan əlavə IV Məhmədin anası Xədicənin dövlət işlərinə qarışmasından narahat olan Kösəm Sultan, onu taxtdan endirməyə qərar verdi. Bundan xəbərdar olan Xədicə, 1651-ci ildə saray nümayəndələri ilə əlbir olaraq Kösəm Sultanı öldürdü. Kösəm Sultanın ölümündən sonra Ocaq ağaları üsyan etsələr də, üsyan tezliklə yatırıldı və üsyançıların əksəriyyəti edam olundu. Kösəm Sultanın öldürülməsindən sonra bir çox vəzirləri sınaqdan keçirən Xədicə sultan sonda 1656-cı ildə Körpülü Məhməd paşanı vəzir təyin etdi.

Bu hadisələrlə eyni vaxtda Avropadan köməkçi dəstə alan Hüseyn paşa Qrit döyüşünü davam etdirirdi. Qritin bir çox yerlərini ələ keçirən Hüseyn paşa, iki kilsəni məscidə çevirmiş, əhaliyə dini azadlıq verərək, orada böyük nüfuz qazanmışdır. Onun qazandığı uğurlardan narahat olan Körpülü Məhməd paşa 1658-ci ildə sui-qəsd təşkil edərək onu aradan götürdü.

1654-cü ildə Çanaqqala yaxınlığında baş verən döyüşdə Venediklər Osmanlılar tərəfindən məğlub edilmişdir. Bundan iki il sonra Egey dənizində fırtınaya düşən Osmanlı donanması məhv olmuşdur.

Edel və Lehistan məsələlərini də həll edən Körpülü Məhməd Anadoluya doğru hərəkət etdi. Lakin onun islahatları ilə barışmayan Anadolunun bəylərbəyi və sancaqbəyiləri ona qarşı üsyan etdilər. Anadolunu üsyanını xeyli qan tökməklə yatıran vəzir, üsyan başçılarını edam etdirdi.

Quyuçu Muraddan sonra Anadoluda ən çox insan öldürən Körpülü Məhməd paşa 1661-ci ildə vəfat etdi. Tarixi mənbələrdə onun 36 min adam öldürdüyü qeyd olunur. Onun ölümündən sonra vəsiyyətinə əsasən oğlu Körpülüzadə Fazil Əhməd paşa vəzir təyin edildi. Bu şəxs 1661-ci ildən 1676-cı ilə qədər Osmanlı dövlətində vəzirlik etmişdir.

I Əhmədin hakimiyyəti dövründə Osmanlılarla Avstriyalılar arasında 1605-ci ildə bağlanmış Zitvatoruq müqaviləsindən 56 il keçmişdi. Avstriyanın yenidən müharibəyə hazırlaşmasından xəbər tutan Fazil Əhməd paşa, 120 min nəfərlik ordu ilə səfərə çıxdı. Bu səfərdə 37 günlük mühasirədən sonra Uyvar qalasını ələ keçirən Osmanlı ordusu, Avropanın mərkəzinə doğru irəlilədi.[899] Qışı Belqradda keçən baş vəzir, Avstruyalıların inşa etdirdiyi yeni qalanı tutaraq dağıtdı. Bunu etməkdə Körpülüzadənin əsas məqsədi Yanıqqalanı ələ keçirərək Vyananı nəzarət altına almaq idi. Lakin Raab çayını keçərkən körpünün sınması nəticəsində on min əsgərini itirən Körpülüzadə, 1667-ci ildə Vasvar müqaviləsini imzalayaraq geri dönmək məcburiyyətində qaldı. Sülhə görə ələ keçirilən ərazilər Osmanlılarda qalmalı və Avstriya 200 min qızıl florin verməli idi.[900]

Qrit müharibəsinin sona çatması

1645-ci ildən davam edən Qrit müharibəsinə də Fazil Əhməd paşa son qoymuşdur. Bütün hazırlıqlarını tamamlayan Körpülüzadə, 1666-cı ildə bütün Avropanın dəstək olduğu Qritə səfər etdi. 1667-ci ildə buranın mərkəzi Qandiyyəni mühasirəyə alan Körpülüzadə, qalanı 1669-cu ilə qədər mühasirədə saxlasa da ələ keçirə bilmədi. Qala müdafiəçisi Morosininin sülh təklif etməsi nəticəsində iki tərəf arasında müqavilə imzalandı. Bununla da Qandiyyə qalası türklərin əlinə keçdi. Nəhayət bu müqavilə nəticəsində iki tərəf arasında 25 ildən (1645-1669) artıq davam edən Venedik-Osmanlı-Qrit müharibəsi başa çatdı. Bu müharibə nəticəsində Osmanlılardan 130 min nəfər şəhid olmuşdur.

Qrit zəfərindən sonra Lehistanın Osmanlılara aid Ukraynaya ordu göndərməsi iki tərəf arasında müharibəyə səbəb oldu. Bununla əlaqədar olaraq səfərə çıxan sultan IV Məhməd Tuna-Dnestr çaylarını keçərək Lumberqi ələ keçirdi. 1672-ci ildə Lehistanın sülh təklif etməsilə iki tərəf arasında Buçaş müqaviləsi imzalandı. Sonradan kral seçilən Jan Sobiyeskinin Hotini ələ keçirməsilə müqavilə pozuldu. Bundan sonra Lehistan səfərini davam etdirən Osmanlılar bir çox ərazini ələ keçirdilər. Sonda 1676-cı ildə imzalanan Zoravno müqaviləsinə

---

[899] Məhmət Raşid, Tarixi-Raşid, I cild, səh-41-48.

[900] Məhmət Xalifə, Tarixi-Gilmani, səh-158-191; Silahdar Məhmət Ağa, Tarixi-Silahdar, I cild, səh-235.

əsasən iki tərəf arasındakı müharibəyə son qoyuldu. Müqavilə nəticəsində Ukrayna və Podolya Osmanlılara, Qaliçiya və Lublin Lehistana verildi. Zoravno müqaviləsi 1683-cü ilə qədər davam etmişdir.

15 illik vəzirliyi müddətində ömrünün çox hissəsini döyüşlərdə keçirən Körpülüzadə Fazil Əhməd paşa 1676-cı ildə 42 yaşında olarkən vəfat etdi. Onun ölümündən sonra Merzifonlu Qara Mustafa Paşa baş vəzir təyin edildi.

Onun vəzirliyi dövründə Baltik dənizi Lehistanın, Qara dəniz də Osmanlıların əlində idi. Bu arada Rusiyanın Osmanlılara aid olan Ukraynanı özünə tabe etməyə çalışması iki tərəf arasında müharibəyə səbəb oldu. Bununla əlaqədar olaraq Ukraynaya səfər edən baş vəzir mərkəz Cehrinə ilə birlikdə bəzi yerləri də ələ keçirdi. Osmanlıların hücumu qarşısında aciz qalan ruslar sülh təklif etdilər. 1681-ci ildə iki tərəf arasında bağlanan Ədirnə müqaviləsinə görə Ukrayna iki dövlət arasında bölüşdürüldü və Rusiya Krıma illik vergi verməyə razı oldu.

Bu müqavilədən bir il sonra Papanın təşviqi ilə bütün Avropa türklərə qarşı birləşdi. 1682-ci ildə Avstriyaya müharibə elan olundu. Bununla əlaqədar olaraq Avstriyaya səfər edən baş vəzir Merzifonlu, onları məğlub edərək paytaxt Vyananı ələ keçirdi. Lehistan kralı Sobiyeski böyük bir ordu ilə Avstriyalıların köməyinə gəldi. Alamandağı yaxınlığında baş verən ikinci döyüşdə Osmanlı ordusu məğlub olaraq geri çəkildi. Vyana məğlubiyyəti türk tarixinin dönüş nöqtəsi hesab olunur. 1071-ci ildə baş verən Malazgird döyüşündən başlayan türk qələbələri 612 il sonra Vyana məğlubiyyəti ilə başa çatdı. Vyana məğlubiyyətindən sonra türklərin geriləmə dövrü başladı.

Vyana məğlubiyyətilə barışmayan Merzifonlunu sevməyənlər, onu Belqradda edam edərək yerinə Qara İbrahim paşanı baş vəzir təyin etdilər.

Bu hadisədən qısa müddət sonra IV Məhmədin səhlənkarlığı ilə barışmayan əhali 1687-ci ildə onu taxtdan salaraq yerinə qardaşı Süleymanı gətirdilər. Ən böyük səhvi Merzifonlunu edam etdirməsi olan IV Məhməd, 1693-cü ildə 46 yaşında vəfat etmişdir.

II Süleymanın hakimiyyəti (1687-1691)

Bacarıqlı və dindar olmasına baxmayaraq II Süleyman dövlətin geriləməsinin qarşısını ala bilmədi. Baş vəzir Fazil Mustafa paşa dövlət işlərini qaydaya salmaq üçün könüllü əsgərlik təşkil etməklə yanaşı vergiləri də azaltdı.

1690-cı ildə səfərə çıxan baş vəzir Niş, Samandara və Belqradı ələ keçirdi. Belqradın ardınca Budini də ələ keçirmək istəyən Fazil Mustafa paşa 1691-ci ildə Avstriya komandiri Ludviqin başçılığı altında olan 50 min nəfərlik ordu ilə qarşılaşdı. Krım ordusunun gəlişini gözləmədən hücuma keçən Osmanlı ordusu məğlub edildi və baş vəzir Fazil Mustafa paşa öldürüldü.

Bu hadisədən qısa müddət sonra Osmanlı sultanı II Süleyman da 1691-ci ildə vəfat etdi və yerinə qardaşı **II Əhməd (1691-1695)** gətirildi.

Onun hakimiyyəti dövründə baş vəzir olan Bozuklu Mustafa paşa bəzi islahatlar apararaq orduya qatılmayanların adlarını siyahıdan sildirdi. Araşdırma

nəticəsində həmin şəxslərin əksəriyyətinin öldüyü, lakin onların adından başqalarının maaş aldıqları ortaya çıxdı.

Heç bir səfərə çıxmayan sultan II Əhməd 1695-ci ildə 52 yaşında Ədirnədə vəfat etmişdir.

II Mustafanın hakimiyyəti (1695-1703)

II Əhmədin ölümündən sonra hakimiyyətə gələn II Mustafa, hökmdarlığının üçüncü günü baş vəzirə göndərdiyi məktubda özündən əvvəlki sultanlar kimi əyləncəyə dalmayacağını, onların buraxdığı səhvləri təkrarlamayacağını və səfərdə iştirak edəcəyini bildirdi. Onun göstərişi ilə Ərzurumdan gətirilən Feyzullah əfəndi şeyxülislam təyin edildi.

1695-ci ildə səfərə çıxan II Mustafa Lipve qalasını ələ keçirdikdən sonra Erdel ordusunu məğlub etdi. Bunun ardınca Luqos qalasını da ələ keçirən II Mustafa ikinci dəfə Avstriya səfərinə çıxdı. Tamışvara kömək edən sultan II Mustafa 1696-cı ildə Avstriya ordusunu məğlub etdi.

1697-ci ildə yenidən Avstriya səfərinə çıxan II Mustafa Belqrada gəldi. Lakin burada Şahzadə Ojenin başçılığı altında olan Avstriya ordusu Osmanlıları məğlub etdi və baş vəzir öldürüldü.

II Mustafanın taxtdan salınması

Şeyxülislam təyin edilən Feyzullah əfəndinin dövlət işlərinə müdaxiləsi yeniçərilərin üsyanına səbəb oldu. İstanbulda üsyana başlayan qiyamçılar 1703-cü ildə Ədirnəyə gələrək II Mustafanı taxtdan salmaqla bərabər Feyzullah əfəndini də öldürdülər. Bundan sonra yeniçərilərin istəyi ilə II Mustafa hakimiyyəti qardaşı III Əhmədə verdi. II Mustafa səfərlərə çıxan son Osmanlı sultanı olaraq tarixə düşmüşdür. Həmçinin onun vəfatından sonrakı dövr Osmanlı dövlətinin geriləmə dövrü adlanır.

III Əhmədin geriləmə dövrü (1703-1730)

1703-cü ildə hakimiyyətə gələn III Əhməd yeniçərilərin üsyanını yatırdıqdan sonra səfərlərə başladı. 1711-ci ildə Osmanlı ordusu baş vəzir Baltaçı Məhməd paşanın başçılığı ilə hərəkətə keçdi. Çünki Çar Pyotr Boğdan və Ehistandan ordu toplayaraq Tunanı tutmaqla bərabər, Boğdan və Əflaqı da Osmanlılara qarşı üsyana təşviq etmək istəyirdi. Lakin Prut çayı sahilində baş verən döyüşdə məğlub olan ruslan Osmanlılara sülh təklif etdi. Müqaviləyə əsasən Azak qalası türklərə təslim ediləcək, yeni tikilən qalalar söküləcək və Krıma illik vergi veriləcəkdi. Buna baxmayaraq mühasirədən azad olan Rus çarı müqavilənin heç bir maddəsini əməl etmədi.

Avstriyanın İspaniyaya qarşı müharibə aparmasından istifadə edən Osmanlılar 1714-cü ildə Venedikə qarşı müharibə elan etdi. 1715-ci ildə qurudan və dənizdən hücuma keçən Osmanlılar Venediki ələ keçirdilər. Buna cavab olaraq Venedikdə itirdiyi əraziləri geri qaytarmaq istəyən Avstriyalılar dərhal mübari-

zəyə başladılar. 1715-ci ildə Tameşvar, 1716-cı ildə isə Şahzadə Ojen Osmanlı ordusunu məğlub edərək Belqradı ələ keçirdi. 1718-ci ildə iki tərəf arasında bağlanan Pasarovça müqaviləsinə əsasən Əflaq, Tameşrav və Samandıra Avstriyaya verildi.

1718-ci ildən 1730-cu ilə qədər olan dövr Osmanlı tarixində **"Lalə dövrü"** adlanır. Bu dövrdə cəmiyyət əyləncəyə daha çox meylli olmuşdur. Sultan III Əhmədin qızının əri və vəziri olan İbrahim paşa müharibələrdən xoşlanmayan, əyləncəyə həvəskar bir şəxs idi. Onun şeirə, sənətə və musiqiyə xüsusi rəğbəti var idi. Elmi söhbətlərdən xoşlanan İbrahim paşa, milli kitabxanaya dəyərli əsərlər gətirtmişdir. Ayninin 24 cildlik tarix əsərini tərcümə etdirmişdir. Doğulduğu kənddə iki came, bir mədrəsə, imarət, məktəb, bir neçə bulaq və bunlara aid vəqflər qurdurmuşdur. İstanbulda isə Darul-hədis mədrəsəsi və kitabxana, dərs otaqları və hamam tikdirmişdir. Bunlardan əlavə 1725-ci ildə İznikdən ustalar gətirərək İstanbulda çini qablar istehsal edən fabrik inşa etdirmişdir.

III Əhmədin və İbrahim paşanın əyləncəyə meylli olmasından istifadə edən İngiltərə, Rusiya və Fransa ermənilər türklərə qarşı qaldıraraq Türkiyənin altı bölgəsini (Sivas, Ərzurum, Bitlis, Van, Diyarbəkr, Elazı) ələ keçirərək böyük ermənistan qurmaq istəyirdilər. Onlar bu məqsədlərinə çatmaq üçün qadın və uşaqları belə öldürməkdən çəkinmirdilər.

Səfəvilərlə müharibə və III Əhmədin taxtdan salınması

Səfəvilərin zəifləməsindən istifadə edən Əfqan Uveysi Səfəvilərə aid olan bəzi torpaqları ələ keçirmişdi. Bundan əlavə 1722-ci ildə Dağıstan da Səfəvilərdən ayrılaraq Osmanlılara tabe olmuşdur. Bu qarışıqlıqdan istifadə edən Osmanlılar 1723-cü ildə Səfəvilərə qarşı müharibəyə başladılar. Bu müharibə nəticəsində Tiflis, Qori, Cənubi Azərbaycan, Luristan, Kirmanşah, Həmadan Osmanlıların əlinə keçdi. İranın böyük hissəsini əlində saxlayan Nadir şah Əfşar Osmanlılara qarşı mübarizəyə başlayaraq 1730-cu ildə Nəhavənd, Həmadan və Kirmanşahı Osmanlılardan geri aldı. Bu uğursuzluqdan sonra İstanbulda siyasi böhran başladı və İbrahim paşanın düşmənləri olan yeniçərilərin üsyanı başladı.

Üsyanın səbəblərindən biri də yeniçərilərdən ümidini kəsən İbrahim paşanın, Fransadan yeni ordu gətirərək təlimlərə başlaması idi. Yeniçərilərə Patron Xəlil başçılıq edirdi. Qırxa yaxın dövlət nümayəndəsinin başını istəyən üsyançılar, bəzi yerlərin təyinlərini də dəyişdilər. Qısa vaxt ərzində İbrahim paşanın başı üsyançılara göndərildi. Lakin bununlada kifayətlənməyən üsyançılar III Əhmədin taxtdan salınmasını tələb etdilər. Buna əsasən III Əhməd 1730-cu ildə hakimiyyəti qardaşı II Mustafanın oğlu I Mahmuda buraxdı.

I Mahmudun hakimiyyəti (1730-1754)

I Mahmudun hakimiyyətə gəlməsilə üsyan daha da geniş vüsət aldı. İstanbul qazisi Divanə İbrahim əfəndinin fətvasına əsasən üsyançılar 120-yə yaxın köşkün yandırılmasını tələb etdilər. Üsyançıların qarşısında aciz qalan sultan

onların istəyi ilə razılaşdı. Lakin bununlada kifayətlənməyən üsyançılar dövlət işlərinə müdaxilə etməyə başladılar. Bütün bu hadisələrdən sonra sultan I Mahmudun əmrinə əsasən Patron Xəlil, Muslu Beşə, Çinar Əhməd, Qarailan, Əmr Əli başda olmaqla 18 üsyançı öldürüldü və yeniçəri üsyanı yatırıldı.

Bu üsyanın yatırılmasından sonra səfərə çıxan Osmanlı ordusu Nadir şahın aldığı Urmiya, Kirmanşah və Həmədanı geri qaytardı. 1732-ci ildə bağlanan müqaviləyə əsasən Araz çayı iki tərəf arasında sərhəd elan olundu. Bundan bir il sonra Bağdadı mühasirəyə alan Nadir şah, xeyli itki versə də şəhəri ələ keçirə bilmədi. Lakin sonralar Nadir şahın itirdiyi əraziləri geri qaytarmasından narahat olan Osmanlılar ona sülh təklif etdilər. Nəticə 1737-ci ildə Qəsri-Şirin müqaviləsi əsas alınaraq iki tərəf arasında yeni bir müqavilə imzalandı.

1736-cı ildə iki tərəfdən hücuma keçən ruslar Azakı ələ keçirərək Krıma daxil oldular. Bir çox əraziləri talan edən ruslar, Bağçasaraydakı kitabxanaları da yandırdılar. Lakin Osmanlı ordusunun gəlişindən xəbər tutan ruslar geri çəkildi. Digər tərəfdən Osmanlı ilə ruslar arasında sülhə nail olacağı vədi ilə Osmanlıların başını qatan Avstriya, onlarla birləşərək Vidin, Niş, Əflaq və Bosniya tərəfdən hücuma keçdilər. Nişi müqavimətsiz ələ keçirən Avstriya ordusu Osmanlı sərkərdəsi Həkimoğlu Əli paşa tərəfindən Bosniya yaxınlığında məğlub edildi. Nəticədə iki tərəf arasında Belqrad sülh müqaviləsi imzalandı. Bunun ardınca 1739-cu ildə Fransız elçilərinin vasitəsilə Rusiya ilə Avstriya arasında müqavilə imzalandı.

İyirmi dörd il Osmanlı dövlətini idarə edən Sultan I Mahmud 1754-cü ildə vəfat etmişdir.

III Osmanın hakimiyyəti (1754-1757)

III Osmanın hakimiyyət dövrünü demək olar ki, İstanbulda baş verən yanğınlar əhatə etmişdir. 1755-ci ildə baş verən yanğın nəticəsində şəhərin 2/3-si yanmışdır. 1756-cı ildə baş verən yanğında isə iki min ev, min dükan, iki yüz məscid, yetmiş hamam və bir çox insan da tələf olmuşdu. İnşası I Mahmud dövründə tamamlanan came III Osmanın dövründə Nuri-Osmaniyyə adı ilə istifadəyə verilmişdir.

Hakimiyyəti dövründə nəzərə çarpacaq hər hansı bir xarici hadisə baş verməyən və həyatını sarayda keçirən iyirmi beşinci Osmanlı sultanı III Osman 1757-ci ildə vəfat etmişdir.

III Mustafanın hakimiyyəti (1757-1774)

Hakimiyyətə ələ keçirən III Mustafa dərhal İstanbulda olan Baron De Totun vasitəsilə toplar düzəltməklə yanaşı yeni gəmilər də inşa etdirdi. Onun dövründə Avropada Avstriya, Fransa və Lehistan durğunluq dövrünü keçirirdi. Bunlardan fərqli olaraq hökmdarı II Yekatirina olan Rusiya isə inkişaf etməkdə idi.

1739-cu ildə bağlanan müqaviləyə əsasən Ruslar Osmanlılara müharibə elan etməsə də, öz düşmənçiliklərini davam etdirirdilər. Gürcüstanda Ortodoksların

üsyanından istifadə edən Ruslar Osmanlı ərazilərinə təcavüz etdilər. Bununla əlaqədar olaraq 1768-ci ildə Osmanlılar Ruslarla müharibə etmək məcburiyyətində qaldılar. 1769-cu ildə baş verən döyüşdə Osmanlıları məğlub edən Ruslar Hotin qalasını ələ keçirdilər. Bunun ardınca Tunanın şimalında olan bütün əraziləri ələ keçirən Ruslar 1771-ci ildə 90 min nəfərlik ordu ilə Krımıda ələ keçirdilər. Bununlada Krımda Osmanlıların 296 illik hakimiyyətinə son qoyuldu. (Krım 1475-ci ildə Sultan Fateh tərəfindən ələ keçirilmişdir).

1773-cü ildə misirlilər Rusların təşviqi ilə Osmanlılara qarşı üsyan etsələr də, bu üsyan tezliklə yatırıldı. Baş verən bu hadisələrin sonunda Rusiya ilə Osmanlı arasında Kiçik Qaynarça müqaviləsi imzalandı. Müqaviləyə əsasən Krım Osmanlılardan ayrılaraq müstəqillik əldə etdi və bundan əlavə Osmanlı dövləti üç il ərzində Rusiyaya 750 min axça hərbi təzminat verməli oldu.

Bu müqavilədən qısa müddət sonra 1774-cü ildə III Mustafa vəfat etmişdir.

I Əbdülhəmidin hakimiyyəti (1774-1789)

Kiçik Qaynarça müqaviləsindən sonra Osmanlıların zəifləməsindən istifadə edən Kərim xan 1776-cı ildə Bəsrəni ələ keçirsə də, üç il sonra Bəsrə geri alındı. Digər tərəfdən 1780-ci ildə əlbir olan Rusiya ilə Fransa Osmanlı dövlətini bölüşdürmək barədə razılıq əldə etdilər. Rusiyanın Krımı yenidən işğal etməsinə göz yuman Osmanlılar, Krım ətrafı əraziləri də Ruslara vermək məcburiyyətində qaldılar. Avstriya ilə Rusiya Osmanlı dövlətini parçalamaq üçün razılığa gələrkən, İsveç və Prussiya da Osmanlıları Krımı geri almağa çağırırdı. Lakin Osmanlı dövləti döyüşə hazır deyildi.

Dövlətin zəifləməsindən istifadə edən Avstriya Osmanlılara müharibə elan etsə də, bu müharibədə məğlub oldu. Digər tərəfdən hücuma keçən Ruslar Yaş qəsəbəsini ələ keçirdilər. Buna cavab olaraq Qazi Hüseynin başçılığı altında olan Osmanlı donanması Qaradənizdə rus donanmasını məğlub etdi. Lakin məğlubiyyətlə barışmayan ruslar Özi qalasını mühasirəyə alaraq Həmid Hüseyn paşanı məğlub edib qalanı ələ keçirdilər. Sonda İsveçlə müqavilə imzalayan Osmanlılar, rus donanmasının Aralıq dənizinə girməsinin qarşısını aldılar.

Özi qalasının işğalından sonra xəstələnən sultan I Əbdülhəmid 1789-cu ildə 65 yaşında vəfat etdi.

III Səlimin hakimiyyəti (1789-1808)

III Səlimin hakimiyyəti dövründə Osmanlıların zəifləməsindən istifadə edən Ruslar Bəndər qalasını da ələ keçirdilər. Avstriyada öz növbəsində iyirmi günlük mühasirədən sonra 1789-cu ildə Belqradı ələ keçirdi. Rusiya və Avstriyanın güclənməsini istəməyən Prussiya Osmanlılarla müqavilə imzaladıqdan sonra Avstriya da türklərlə müqavilə imzalamaq məcburiyyətində qaldı. Prussiyanın müdaxiləsi ilə iki tərəf arasında köhnə sərhədlər qalmaq şərtilə əlli illik

Ziştove müqaviləsi imzalandı. Rus orduları isə Kili və Tuna qalaları ilə yanaşı bir çox yerləri ələ keçirərək qətliamlar törətdilər.

Osmanlı dövlətinin bu məğlubiyyətlərindən sonra islahatlar aparmaq istəyən dövlət adamları Fransadan kömək almaq qərarına gəldilər. Bu arada İtaliya cəbhəsində qələbələr qazanan Napaleon Bonapart 1798-ci ildə İsgəndəriyyə limanına gələrək Misiri işğal etdi. Misirin ardınca Suriyanı da ələ keçirmək istəyərkən Akka yaxınlığında məğlub olaraq əvvəlcə Misirə, oradan da Fransaya qayıtdı. Buna baxmayaraq Osmanlı ordusunu məğlub edən Fransa Maltanı ələ keçirdi. Lakin sonradan iki dövlət arasında yenidən dostluq münasibətləri yarandı.

Ölkə daxilində islahatlara başlayan III Səlim Nizami-Cədidi qurdurdu. Bu idarənin qurulması ilə ölkə avropalaşmağa başlayırdı. Alimlərin çoxu o cümlədən dini liderlər, Nizami-Cədidin yəni avropalaşmağın əleyhinə idi. Bununla əlaqədar olaraq ölkəni üsyanlar bürüdü. Üsyançılara Qabaqçı Mustafa başçılıq edirdi. Digər tərəfdən bu üsyanı vəliəhd Şahzadə Mustafa və şeyxülislam Topal Ataullah da dəstəkləyirdi. Baş verən üsyanların yatırılmasını istəyən III Səlim Nizami-Cədidin ləğv olunduğunu elan etdi. Bununlada sakitləşməyən üsyançıların istəyi ilə şeyxülislam Ataullah əfəndinin fətvası əsasında 1808-ci ildə III Səlim taxtdan endirildi.

IV Mustafanın hakimiyyəti (1808-1809)

Osmanlı sultanı olan IV Mustafa dərhal ordudakı yeniçəriləri və Nizami-Cədidə bağlı olanları öldürməyə başladı. Onun zülmündən amanda qalmaq istəyənlər Ələmdar Mustafa paşanın yanına qaçaraq ona sığındılar. Bununla əlaqədar olaraq ruslara qarşı apardığı müharibələrdə şöhrət qazanan Ələmdar Mustafa paşa, İstanbula gələrək Qabaqçı Mustafanın üsyanını yatırdı.

Ələmdar Mustafa paşanın yenidən III Səlimi hakimiyyətə gətirmək istədiyini öyrənən IV Mustafa dərhal əmisini edam etdirərək, qardaşı II Mahmudun da öldürülməsinə göstəriş verdi.

Baş verən hadisədən xəbər tutan Ələmdar Mustafa paşa 1809-cu ildə IV Mustafanı taxtdan endirərək yerinə II Mahmudu gətirdi.

II Mahmudun hakimiyyəti (1809-1839)

II Mahmud hakimiyyətə gəldiyi vaxt Osmanlı dövləti həddən artıq zəifləmiş, Anadolu və Rumeli üsyançıların, Məkkə və Mədinə isə vəhhabilərin əlinə keçmişdi. Misirdə də Məhməd Əli paşa mübarizəsi davam edirdi. Dövlətin təhlükəsizliyini təmin etmək istəyən II Mahmud hərəkətə keçərək bir çox üsyançıları öldürüb, İstanbulun asayişini təmin etdi. Eyni vaxtda baş vəzir Ələmdar Mustafa paşa, Anadolu və Rumelinin bütün əyanlarını İstanbula çağıraraq "Məşvərəti-ammə" adlı toplantı keçirdi. Toplantı nəticəsində bu qərarlar qeydə alındı: Sultanın əmrləri mütləq şəkildə yerinə yetiriləcək, baş vəzirin əmri də qanun çərçivəsində sultanın əmri kimi yerinə yetiriləcək. Bu qərarın qəbul olunmasına şeyxülislam fətva verdikdən sonra sultan da təsdiqlədi.

Bu toplantıdan sonra dərhal islahatlara başlayan Ələmdar Mustafa paşa, Səqbanı-Cədid adlı hərbi təşkilat təşkil edərək təlimlərə başladı. Həyata keçirdiyi islahatlar sayəsində qürurlanan Ələmdar Mustafa paşa tezliklə ətrafındakıları itirdi. Bundan istifadə edən düşmənləri tezliklə baş vəzirin sarayını mühasirəyə aldılar. Qurtula bilməyəcəyini anlayan Ələmdar Mustafa paşa silah anbarını partladaraq özünü öldürdü. Bu partlama nəticəsində 400 yeniçəridə onunla birlikdə həlak olmuşdu.

II Mahmudun hakimiyyəti dövründə baş verən Osmanlı-Rus müharibəsi üç il davam etmişdir. Bu müharibə nəticəsində ruslar Basarabya, Boğdan, Əflaq və Şimali Bolqarıstanı ələ keçirdilər.

Otuzuncu Osmanlı sultanı II Mahmud 1839-cu ildə 54 yaşında vəfat etmişdir.

Əbdülməcidin hakimiyyəti (1839-1861)

Əbdülməcidin hakimiyyəti dövründə dövlətin ən böyük problemi Məhməd Əli paşa problemi idi. Ordu Nizip yaxınlığında məğlub olduqdan sonra Əhməd paşa Osmanlı donanmasını İsgəndəriyyədə Məhməd Əli paşaya təslim etmişdi. Bu hadisə ilə eyni vaxtda 1839-cu ildə Londonda səfir olan Mustafa Rəşid paşa gənc sultana hazırladığı tənzimat proqramını yayınlatdı. Bununla da Osmanlı dövlətinin Tənzimat dövrü başlandı. Bu Osmanlının avropasayağı idarə formasını alması demək idi. Bu hərəkat Avropanın sevincinə səbəb olsa da, müsəlmanlar və bəzi xristianlar tərəfindən yaxşı qarşılanmadı. Fərman İslam dövləti olan Osmanlının prinsiplərinə zidd idi. Cumhuriyyət və yenilənmə tarixində əhəmiyyətli yeri olan bu fərmanın dövlətin yıxılmasında böyük rolu olmuşdur. Fərmanın lazımi şəkildə tətbiq olunmaması nəticəsində 1845-ci ildə sultan tərəfindən yeni bir fərman yayınlandı. Bu fərman nəticəsində hər din və məzhəb mənsublarının məmur ola biləcəyi, qeyri-müsəlmanların da cizyə verməyərək əsgər gedəcəyi bildirilmişdi.

Rusiya çarı I Nikolay ingilislərlə birləşərək Osmanlı dövlətini parçalamaq istəsə də onun təklifi ingilislər tərəfindən rədd edildi. Bundan sonra ruslar 1853-cü ildə Prut çayını keçərək Əflaq və Boğdanı ələ keçirdilər. Qaradənizdə baş verən döyüşdə Osmanlı donanması ruslar tərəfindən məğlub edildi. İngiltərə və Fransa Osmanlıların tərəfini tutaraq ruslara qarşı döyüşə başladı. Avstriyaya qarşı üsyan edərək, Osmanlı Dövlətinə sığınan Macar mültəcilər, Avstriya və Rusiyanın bütün basqılarına rəğmən, onlara təslim edilmədi.

1853-cü ildə Kırım döyüşü başladı. Osmanlı Dövləti Tuna boyunda tək başına, Kırımda isə Fransa və İngiltərə ilə birləşərək, Rusiyaya qarşı döyüşdü. 1856-cı ildə Paris müqaviləsi ilə döyüş sona çatdı. Müqavildən sonra Rusiyaya müharibə elan edən Avstriya, Əflaq və Boğdanı ələ keçirdi. 1860-cı ildə Fransa birlikləri Livana və Suriyaya köməyə gəldi. Livan üçün yeni bir nizamnamə hazırlandı.

Bu hadisədən bir il sonra sultan Əbdülməcid 1861-ci ildə 39 yaşında vəfat etdi.

Əbdüləzizin hakimiyyəti (1861-1876)

Hakimiyyətinin ilk on ilini tənzimat və islahatların davamı, yeni müəssisələrin qurulması ilə keçirən Əbdüləziz, böyük bir donanmanın qurulmasına nail olmuşdur.

1863-cü ildə Misirə səfər edən Əbdüləziz burada baş qaldıran üsyanlara son qoydu. 1867-ci ildə Fransa və İngiltərəyə dəvət edilən Əbdüləziz gəmi ilə Tulona, oradan da Parisə gəldi. Rəsmi görüşlər etdikdən sonra Londona gedən sultan, kraliça Viktoriya ilə görüşdü. Geri qayıdarkən Brüssel, Vyana, Budapeşt və Tuna yolu ilə gəldi. Sultan xaricdə olduğu müddətdə Osmanlı dövlətini Əli paşa idarə etmişdir.

1869-cu ildə Fuad paşa, bundan iki il sonra 1871-ci ildə Əli paşa vərəmdən vəfat etdi. 41 il dövləti idarə edən Əli paşa, həmin dövrdə Avropanın ən böyük diplomatlarından hesab olunurdu. Bu şəxsin vəfatından sonra Əbdüləzizin hakimiyyəti zəifləməyə başladı. Əvvəlcə vəzirliyə Mahmud Nədim, ondan sonra isə Mithad paşa gətirildi. Lakin bu iki şəxsin bacarıqsız olması ilə əlaqədar olaraq Osmanlı dövləti getdikcə zəifləməyə başladı.

Bu geriləməni aradan qaldırmaq istəyən Mütərcim Rüşdü paşa, Hüseyn Avni paşa, Mithad paşa və şeyxülislam birləşərək Süleyman paşa və Qeysərəli Əhməd paşanın köməyi ilə 1876-cı ildə Əbdüləzizi taxtdan salaraq Topqapı sarayına göndərdilər. Bir müddət sonra Fəriyə sarayına göndərilən Əbdüləziz 1876-cı ildə vəfat etdi.

Osmanlı dövlətinin süquta uğraması

1876-cı ildə Əbduləziz taxtdan endirilərək, yerinə V Murad (1876) keçirildi. V Muradın ruhi xəstəlikləri vardı. 90 gün sonra onun da yerinə II Əbdülhəmid (1876-1909) keçdi. Serbiya Osmanlı Dövlətinə qarşı müharibə elan etdi. Sonra Monteneqro da bu müharibədə Serbiyaya qatıldı. Osmanlı orduları, Abdülkərim Nadir Paşa və Muxtar Paşa ordusundakı, Serbiya və Qaradağ ordularını məğlub etdilər. Serb ordusu, Cərnayəvin istəyi ilə Prins Milanı kral elan edərək, döyüşə yenidən başladı. Osmanlı ordusu, Serbləri təkrar məğlub etdi. Osmanlı Dövləti, Rusiyanin istəyinə əsasən döyüşləri dayandırdı. 23 dekabr 1876-cı ildə İstanbulda konfrans başladı. Həmin gün, Osmanlı Dövləti I Məsrutiyət elan etdi. Konfrans bir qərar qəbul etmədən dağıldı. Sonra 1877-1878-ci illər Osmanlı Rus döyüşü başladı. Döyüşlər, Balkanlarda və Anadolu cəbhəsində aparılırdı. Ruslar, Ayastefanos və Ərzuruma qədər irəlilədilər.

Öncə Ayastefanos, sonra da Berlin Anlaşmaları imzalandı. Abdülhəmid Xan, Məclis-i Məbusani dağıdaraq idarəçiliyi əlinə aldı. Berlin Konqresi başlamamışdan öncə də İngiltərə Kipri işğal etdi. Avstriya Bosniya-Hersoqovinanı, Fransa Tunisi, İngiltərə də Misiri aldı. Cənubi Rumeli əyaləti də Bolgarıstana qatıldı (1885). Albay Bassos Ordusunda 10.000 yunan, Giridə hücuma keçdi. Girid müsəlmanları öldürülməyə başlandı. 1891-ci ildə Albay Bassos, adanı

Yunan kralı adından ələ keçirdiyini elan etdi. Yunanıstan Rumeli sərhəddindən Osmanlıya hücum etdi və cavab olaraq Osmanlı Dövləti Yunanıstana qarşı müharibəyə başladı. Ədhəm Paşanın rəhbərliyi altında olan Osmanlı ordusu bir çox döyüşdə Yunan ordularını məğlub etdi. Yunanıstan sülh istəmək məcburiyyətində qaldı və 1897-ci ildə İstanbul Sülhü imzalandı. Bir müddət sonra Girid də Osmanlı Dövlətindən ayrılmış oldu. Makedoniyada 1902-ci ildə etirazlar başladı. II Abdülhəmid Xan, Hüseyin Hilmi Paşanı Saloniki, Manastır və Kosova müfəttişi təyin etdi. 1908-ci ildə Məşrutiyət yenidən elan edildi. Çox keçmədən də II Abdülhəmid Xan taxtdan endirildi və V Məhməd Rəşad (1909-1918) Osmanlı sultanı elan olundu. Bu isə Osmanlı İmparatorluğunun yıxılması üçün atılan son addım oldu. İtaliya, Trablusqara hücum etdi. Oniki ada İtalyan donanması tərəfindən işğal edildi.

Trablusqar və Oniki-ada İtaliyaya verildi. Osmanlı orduları, dörd Balkan dövləti qarşısında məğlubiyyətə uğradı. Balkan dövlətləri Çatalcaya qədər gəldilər. 30 May 1913-cü ildə Londonda imzalanan anlaşmaya görə; Midya-Ənəz xətti Osmanlı Dövlətinin sərhəddi oldu. Ədirnə, Bolqarıstanda qaldı. Girid də əldən çıxdı. Bir müddət sonra Osmanlı Dövləti, Kırklareli və Ədirnəni geri aldı.

Balkan döyüşlərindan sonra, I Dünya Müharibəsi başladı. Osmanlı Dövləti, Almaniyanın tərəfində Fransa, İngiltərə və Rusiyaya qarşı döyüşə başladı (11 noyabr 1914). Döyüş 4 il davam etdi. Anadoluda Ruslara, İraq, Suriya, Fələstin və Misirdə İngilislərə qarşı döyüşdü. Almaniya, Avstriya və Bolgarıstan ilə birlikdə Osmanlı Dövləti də, İngiltərə-Fransa qarşısında məğlub oldu. 30 oktyabr 1918-ci ildə Mudros müqaviləsi imzalanaraq döyüşlərə son verildi. Bu arada 1918-ci ildə V Məhməd Rəşad öldü və yerinə VI Məhməd Vahidəddin sultan oldu. Bu zaman düşmənlər İstanbula soxuldu. Qars erməni hərbi dəstələri, Ərdahan gürcü hərbi dəstələri, Antalya İtaliya, İzmir Yunanıstan, Urfa, Antep, Maraş və Adana Fransa tərəfindən işğal edildi. Qafqaz cəbhəsi xaric, bütün cəbhələrdə məğlub olan Osmanlı dövləti sülh istədi. Müttəfiqlərin istəyi ilə Mondra müqaviləsi imzalandı.

Bu arada Anadolu bölgəsində yeni bir dövlət idarəçiliyi yaradıldı. 23 aprel 1920-ci ildə Böyük Millət Məclisi toplandı. Əldə qalan torpaqların müdafiəsi və qorunmasını Məclis öz üzərinə götürdü. 1909-cı ildə II Əbdülhəmid xanın taxtdan endirilməsindən sonra, dövlət idarəsində heç bir funksiyası olmayan padşahlıq, 1 oktyabr 1922-ci ildə ləğv edildi. 1924-cü ilin 3 martında isə xilafət ləğv edildi. Osmanlı Xanədanının bütün üzvlərinin ölkədən xaric edilməsi haqqında qanun çıxarıldı və Osmanlı sultan ailəsinin bütün üzvləri o cümlədən son xəlifə Əbdülməcid də yeni Türkiyə dövlətini tərk etdilər. Osmanlıların səltənəti bir tək sülalədən gələn tarixin ən uzun ömürlü səltənəti olmuşdur.

Osmanlı Dövləti qurucusu olan Osman Bəyin idarə etməyə başladığı 1281-ci il tarixindən səltənətin ləğv edildiyi tarix olan 1922-ci ilə qədər tam 641 il

davam etmişdir. Osmanlılar ayrıca Yavuz Sultan Səlimin 1516-cı ilində xəlifəlik almasından 1924-cü ilədək xəlifəliyin ləğvinə qədər 407 il Müsəlmanların xəlifəsi funksiyasını daşımışdır. Ancaq o da həqiqətdir ki, xəlifəlik və ya səltənət II Əbdülhəmidin taxtdan endirilməsi ilə təsirini tamamən itirmiş bir hala gəlmişdi. Bu vəziyyəti nəzərə alsaq, Osmanlıların xəlifəliyi 393 il davam etmişdir və II Əbdülhəmid ilə sona çatmışdır. II Əbdülhəmid, Əbü Bəkrdən sonra 98-ci xəlifə, bu gün son xəlifə olaraq bildiyimiz Əbdülməcid isə 101-ci xəlifədir.

Osmanlı ordusu

Osmanlı qoşunlarının əsas hissəsi sipahi adlandırılan atlı feodal qoşunlarından ibarət idi. Bu qoşun hərbi xidmət əvəzində sultandan torpaq almış döyüşçülərdən ibarətdir. Sultanın daimi piyada qüvvələri isə yeniçəri adlanırdı. Müharibə türk feodallarının əsas məşğuliyyəti olduğu üçün onların güclü sultan hakimiyyətinə ehtiyacı var idi. Sultan qeyri-məhdud hakimiyyətə malik hökmdar idi.

I Şah İsmayılın Osmanlı sultanları ilə məktublaşmaları

Səfəvilər dövlətinin yaranması ilə Yaxın və Orta Şərqin təkcə hərbi-siyasi deyil, həm də dini tarixində yeni dövr başlandı. Osmanlı dövləti özünün şərq sərhədlərində, Ağqoyunlular dövlətinin ərazisində daha böyük Səfəvilər imperiyasının yaranmasını narahatlıqla müşahidə edirdi. Bu narahatlığı şərtləndirən hərbi-strateji və iqtisadi səbəblərlə yanaşı, daxili siyasi amillər də mövcud idi. Belə ki, Osmanlı imperatorluğu ərazisində çoxsaylı tərəfdarlara malik olan qızılbaşlar hərəkatı meydana çıxdığı ilk vaxtlardan Osmanlıların daxili siyasi bütövlüyünü təhdid etməyə başlamışdı. Səfəvilər Anadolunun köçəri türk oymaqlarının nəzərində yeganə ümid yeri, Şah İsmail isə gəlişi çoxdan gözlənilən Mehdi Sahib-əz-Zaman sayılırdı.

Bununla belə, Osmanlı sultanı II Bəyazid (1481-1512) Səfəvilərə qarşı güc tətbiq etmək iqtidarında deyildi. Başı Venesiya ilə müharibəyə (1499-1502) qarışan II Bəyazid, məşhur qızılbaş şahına qarşı çıxmaqla Kiçik Asiyada yaşayan çoxsaylı şiə əhalisini öz əleyhinə qaldıracağından qorxurdu. Bu səbəbdən o, qızılbaşlar əleyhinə sərt siyasət yürütməyin tərəfdarı olan yaxın ətrafının və Trabzon valisi olan oğlu Şahzadə Sultan Səlimin mövqeyi ilə hesablaşmırdı.

İlk vaxtlar Ağqoyunlu şahzadələri Əlvənd Mirzə, Qasım bəy və Murad Mirzəni qızılbaşlar əleyhinə birləşməyə çağıran II Bəyazid sonradan Ağqoyunlu dövlətinin artıq mövcud olmamağı faktı ilə barışmalı oldu və Səfəvilərlə diplomatik münasibətlər qurmaq təşəbbüsü ilə çıxış etdi. 910 (1504-1505)-cu ilin qışında Sultan Bəyazid Məhəmməd Çavuş Balabanın başçılıq etdiyi elçi heyətini bəxşiş və ərməğanlarla Şah İsmayılın yanına

göndərdi. İsfahanda yeni tikilmiş "Nəqşi-Cahan" sarayında təntənəli qəbul mərasimi düzənləyən 17 yaşlı İsmail bununla öz dövlətinin əzəmətini Osmanlı elçilərinə nümayiş etdirdi.

Məhəmməd Çavuş Balaban özü ilə II Bəyazidin iki məktubunu gətirmişdi. Məktubların birində Osmanlı sultanı Səfəvi şahını Ağqoyunlu Murad Mirzə üzərində qazandığı qələbə münasibətilə təbrik edir, digərində isə onu İslam dünyasında təfriqə salmamağa, sünniləri təqib etməməyə çağırır, dövlət idarəçiliyi ilə bağlı gənc İsmayıla bəzi tövsiyələr verirdi. Məktubunda İsmayıla "Əmir" kimi müraciət edən II Bəyazid ona "möhtərəm oğul", "ali məqamlı övlad" deyə xitab edirdi. Osmanlı sultanının gənc Səfəvi şahına nəsihətlər verməsini təqdir edən O.Əfəndiyev Sultan Bəyazidin buna mənəvi haqqının çatdığını xüsusi vurğulayır: "Çünki bu sırada Sultan Bəyazid 57 yaşında olub, 23 ildir Osmanlı imperatorluğunu yönəltməkdə idi. 14 yaşında taxta çıxan Şah İsmayılın isə dövlət idarəsi haqqında, əlbəttə, heç bir təcrübəsi yox idi".

Sultan II Bəyazid Səfəvilərlə ən azı müharibə etməmək siyasətinə hakimiyyətinin sonunadək sadiq qaldı. Məhəmməd Çavuş Balabanın missiyasından sonra iki dövlət arasında elçi mübadiləsi və məktublaşma prosesi başladı. Lakin bu dostluq zahiri xarakter daşıyır, Azərbaycan və İranda sünnilərin, Anadoluda qızılbaşların təqib edilməsi davam edirdi.

Bu iki türk dövləti arasında diplomatik münasibətlər qurulduqdan bir neçə il sonra Şərqi Anadoludakı Ağqoyunlu torpaqlarına göz dikən Maraş və Əlbistan hakimi Əlaüddövlə Zülqədəroğluna (1479-1515) qarşı yürüşə hazırlaşan Şah İsmail Sultan II Bəyazidə məktub göndərdi. O, yürüş üçün Ərzincan-Ərzurum yolunu seçdiyini, Əlaüddövlənin ölkəsinə basqın etmək üçün Osmanlı torpaqlarından keçmək məcburiyyətində qaldığını bildirdi və II Bəyazidə onun hakimiyyəti altında olan ərazilərə daxil olacağı konkret tarixi (12 rəbi-üs-sani 913 / 21 avqust 1507) göstərdi. Üstəlik, İsmail qızılbaş ordusuna Osmanlı təbəələrinə heç bir ziyan vurmamaq və qorxaraq ev-eşiyini tərk edənlərin geri qaytarılması barədə göstəriş verdiyini onun nəzərinə çatdırdı.

Şah İsmayılın bu yürüş zamanı Diyarbəkiri Səfəvilər dövlətinə birləşdirməsini O.Əfəndiyev çox önəmli hadisə kimi qiymətləndirir: "Babası Uzun Həsənin vətəni Diyarbəkirin Qızılbaş dövlətinin hakimiyyəti altına girməsi çox önəmli idi. Çünki İsmail özünü Ağqoyunlu dövlətinin qanuni varisi sayırdı".

Şah İsmail Zülqədər bəyliyinə yürüş zamanı Osmanlı torpaqlarından keçərkən Sultan II Bəyazidə verdiyi sözə sadiq qalmış, qızılbaşların qorxusundan yurd-yuvasını tərk edənləri geri dönməyə çağırmış, yerli əhalinin satmaq istədiyi malların alınmasına göstəriş vermişdi. O, şəxsən aldığı malların pulunu ödəmiş, Osmanlı təbəələrindən aldığı əşyaların pulunu verməyən bir qızılbaşı dərhal edam etdirmişdi. Onun bu cür davranışı Səfəvi-Osmanlı münasibətlərində yeni gərginliyin yaranmasının qarşısını almış, Bəyazid onu qızılbaşlara qarşı hücuma təhrik edən yaxın ətrafının və oğlu Şahzadə Sultan Səlimin fikirlərini növbəti dəfə rədd etmişdi. Lakin həm Osmanlı sultanının, həm də Səfəvi şahı-

nın cəhdlərinə rəğmən, iki dövlət arasındakı münasibətlər gərginləşməyə doğru gedirdi.

914 (1508)-cü ildə Trabzon valisi Şahzadə Sultan Səlim Səfəvilərin vassalı olan Gürcüstana yürüş edərək, oranı qarət etdi. "Bədayə-ül-vəqayə" ("Heyrətamiz hadisələr") əsərinin müəllifi Qoca Hüseynin yazdığına görə, bu dövrdə II Bəyazidin xəstəliyindən istifadə edən vəzirlər əhaliyə zülm etməyə başlamışdılar. Məhz bu səbəbdən "Anadolunun bəzi yerlərində, Rum və Qaraman səmtlərində olanlar bir-bir Əcəmə (Səfəvilərə – C.C.) məktublar göndərib" kömək istəyirdilər. Bunun qarşısını almaq istəyən Şahzadə Səlim qoşun toplayaraq Gürcüstana yürüş etdi. Onun bu hərəkəti Şah İsmayılın hiddətinə səbəb olsa da, Səfəvi şahı Osmanlı dövləti ilə hərbi münaqişəyə yol verməmək üçün Sultan Səlimdən "şikayət etmək və padşaha təminati-dostanəsini bildirmək məmuniyyətiylə" İstanbula elçi heyəti göndərdi. Qızılbaş elçilərini qəbul edən Sultan Bəyazid Səlimə "əmri-ali göndərib buyurdular ki, ancaq öz sancağını mühafizəyə məşğul olub ziyadəyə təcavüz etməsin".

Ancaq Sultan Səlim atasının sözünü saya salmayaraq, bir müddət sonra Səfəvilərlə növbəti sərhəd münaqişəsinə girdi. Bu dəfə o, Ərzincan şəhərini hədəf seçdi. "Bədayə-ül-vəqayə" müəllifi yazır ki, Trabzon valisi Səlim 913 (1509)-cü ildə hücum edərək, Şah İsmayılın nəzarətində olan Ərzincanı tutdu. Lakin Sultan II Bəyazid oğluna şərq vilayətlərinə həmsərhəd ərazilərə hücumlara razılıq vermədiyini bildirərək, Səlimin Səfəvilər dövlətinə təcavüzlərinə müvəqqəti də olsa, ara verdi. Qoca Hüseyn qeyd edir ki, Səlim kimi təhlükəli bir rəqiblə üzləşdiyini görən Şah İsmail II Bəyazidə elçi göndərib "dil-ağız eylədi" və onunla sülh bağladı. O.Əfəndiyev bu xüsusda daha inandırıcı məlumat verərək yazır ki, Sultan Səlim Ərzincanı zəbt etdikdən sonra Sultan Bəyazid elçilərini dərhal Təbrizə göndərərək, savaş çıxmasına əngəl oldu. F.Kırzıoğlu isə qeyd edir ki, Sultan Səlim zəbt etdiyi Ərzincanı və başqa yerləri atasının göstərişi ilə qızılbaşlara geri qaytarmalı oldu.

Səfəvi-Osmanlı, daha dəqiqi, Sultan Səlim-Şah İsmail münasibətlərinin gərginləşməsində Anadoluda baş verən Şahqulu üsyanı böyük rol oynadı. Təkə vilayətindən başlayan üsyana Təkəlu tayfasından Şahqulu adlı bir şəxs rəhbərlik edirdi. Onun atası Həsən Xəlifə Şah İsmayılın atası Şeyx Heydərin müridlərindən olmuşdu. "Bədayə-ül-vəqayə" müəllifinin yazdığına görə, Şahqulu Sultan Bəyazidin xəstəliyi və şahzadələr arasında hakimiyyət uğrunda başlayan mübarizə nəticəsində Osmanlı dövlətində meydana gələn hərc-mərclikdən istifadə edərək üsyana başladı, özünə tərəfdar topladıqdan sonra "kəndusini qızılbaş şahına mənsub göstərib və namını Şahqulu qoyub xüruc eylədi".

917-ci ilin Aşura günündə (19 aprel 1511-ci ildə) Şahzadə Sultan Qorqudun xəzinəsini ələ keçirməklə üsyana başlayan Şahqulu qısa müddət ərzində qazandığı zəfərlərlə tərəfdarlarının sayını artırdı. Hətta Sultan Bəyazidin xəstəliyindən istifadə edərək ölkədə rüşvətxorluğa rəvac verən vəzirlərin özbaşınalığından bezən minlərlə Osmanlı əsgəri də üsyançılara qoşuldu. Görünür, məhz

bunun nəticəsi idi ki, Şahqulu əvvəlcə Anadolu bəylərbəyi Qaragöz Paşanın, daha sonra isə II Bəyazidin vəziri Əli Paşanın başçılıq etdiyi Osmanlı ordusunu ağır məğlubiyyətə uğratdı, onların özlərini isə öldürə bildi. Lakin 917-ci il rəbiül-axır ayında (2 iyul 1511-ci ildə) Gökçay adlı yerdə Əli Paşanın başsız qalmış ordusu ilə baş verən döyüşdə Şahqulunun özü də öldürüldü.

Şahqulunun ölümündən sonra başsız qalan üsyançıların bir qismi Azərbaycana üz tutdu. Həmin vaxt İraqda olan Şah İsmail bu xəbəri eşitdikdə, təcili olaraq Azərbaycana qayıtdı. Yolboyu qarət və soyğunçuluqla məşğul olan Şahqulu tərəfdarları qarşılaşdıqları böyük bir karvanı qarət etdilər, bu karvanla yola çıxan min nəfərə yaxın adamı qətlə yetirdilər. Qoca Hüseynin yazdığına görə, öldürülənlər arasında dövrünün böyük şeyxlərindən "Ənbiyanamə" əsərinin müəllifi İbrahim Şəbüstəri də vardı. Üsyançılar oğlu ilə Həccə gedən Şeyx İbrahim Şəbüstərini işgəncə ilə öldürmüşdülər. Bu hadisə Səfəvi şahının səbrini daşırdı.

Osmanlı mənbələrində verilən məlumata görə, Şah İsmail Təbrizə çatan üsyançılara qarşı hiylə işlədərək, onların şərəfinə ziyafət hazırladı. Onun məqsədi Şahqulu tərəfdarlarını arxayınlaşdırmaq və bir yerə toplaşmalarına imkan vermədən parçalamaq idi. Lakin qəfildən şah bu tədbirinə aldanan üsyançıların Şahqulu tərəfindən sərdar təyin olunan başçısını sorğu-suala tutdu, ondan "babam Sultan Bəyazid xanın saye-ye himayətində bunca zaman rifah içində olmuş ikən niyə itaətdən çıxıb xüruc etdin?", "məmləkətini yaxıb-yıxmaq nə lazım idi?", "bizimlə Sultan Bəyazid xan arasında babalıq və oğulluq riayəti məlumun idi?" deyə soruşdu. Daha sonra üsyançıları müsəlmanların karvanını soymaqda və icazəsiz qızılbaş tacı qoymaqda ittiham edən Şah İsmayıl, Osmanlı mənbələrinin verdiyi məlumata görə, onların sərdarlarını və vəzirlərini qaynar qazana atdırdı, bir hissəsini qətlə yetirdi, bəyəndiklərinə isə vəzifə verdi.

Yuxarıda qeyd etdik ki, "Bədayə-ül-vəqayə" müəllifi Şahqulunun özünü "qızılbaş şahına mənsub" göstərdiyini vurğulamış, dolayısı ilə onun niyyətini şübhə altına almışdır. Şah İsmayılın Şahqulu tərəfdarlarını "babam Sultan Bəyazid xana" qarşı üsyan qaldırmaqda ittiham etməsi və onları cəzalandırması haqda Türkiyə mənbələrində əksini tapan məlumatlar deməyə əsas verir ki, bu dövrdə II Bəyazid kimi, Səfəvi şahı da Osmanlılarla münasibətləri kəskinləşdirməkdə qətiyyən maraqlı deyildi. Hətta Trabzon valisi Sultan Səlimlə Diyarbəkir hakimi Məhəmməd xan Ustaclu arasında tez-tez baş verən sərhəd münaqişələri də iki böyük hökmdarı müharibəyə başlamağa təhrik edə bilmirdi. O.Əfəndiyev haqlı olaraq qeyd edir ki, bu iki türk dövlətlərinin münasibətləri ciddi siyasi və məzhəb fərqlərinə rəğmən, bu dönəmdə barış ortamında davam etmişdi.

Bununla belə, iki ölkə arasındakı münasibətlər gərginləşməkdə idi. Bunu Şahqulu üsyanından sonra Sultan II Bəyazidin Şah İsmayıla yazdığı məktub da sübut edirdi. "Öz təzə məzhəbini qəbul etdirmək üçün müsəlmanların qanını tökmə!" nəsihəti ilə başlayan məktub bu sözlərlə bitirdi: "Rum ölkələrini istila etməkdən ümidinizi kəsin və yaxşısı budur ki, İran, Turan və Hindistan tay-

falarının hökmdarlarının vücudunu məhv etməyə ciddi-cəhd göstərib o yerlərdə qüdrətli bir səltənət yaradın və bundan elə rəftar etməyin ki, Allah yolunda cihad etməklə və Allah kəlamını yüksəklərə ucaltmaqla məşğul olan Osmanlıların qaziləri naçar olub intiqam qılıncını qınından çıxarmağa məcbur olsunlar, İrana üz tutsunlar və onu əvvəlkindən daha artıq viran etsinlər. Bizdən fəqət deməkdir, vəssalam!". Fikrimizcə, bu məktub qızılbaş sərkərdəsi Nurəli Xəlifənin 20 minlik qoşunla Osmanlı ərazilərinə soxularaq əvvəlcə Qarahisar və Niksar qalalarını, daha sonra isə Toqatı tutmasından və Şahzadə Sultan Əhmədin vəziri Sinan Paşanın başçılıq etdiyi qoşunu məğlub etməsindən sonra göndərilmişdir (Qeyd edək ki, F.Kırzıoğlu səhvən Nurəli Xəlifənin Anadoluya Sultan Səlim taxta çıxdıqdan sonra göndərildiyini yazır). Məktubun üslubundan da görünür ki, Sultan Bəyazid Səfəvilərin onun başçılıq etdiyi dövlətin hansısa ərazisinə təcavüzündən narazı qalmışdı. Başqa sözlə, təcavüz baş verməsəydi, II Bəyazid Şah İsmayılı təcavüzdən əl çəkməyə çağırmazdı. Bu da onu düşünməyə əsas verir ki, Səfəvi şahı Sultan Bəyazidin hakimiyyətinin sonuna yaxın Osmanlı dövləti ilə olan əski barışçı siyasətini dəyişdirmiş, ancaq Osmanlı sultanı əvvəlki siyasətini qoruyub saxlamışdı.

Hicri 918-ci il səfər ayının 7-də (24 aprel 1512-ci ildə) atası II Bəyazidi devirən Sultan Səlimin (1512-1520) taxt-taca yiyələnməsi ilə Osmanlı-Səfəvi münasibətlərində yeni mərhələ başladı. Sultan Səlim atasının Səfəvilərə qarşı siyasətini büsbütün dəyişdi və müharibə yolunu tutdu.

Osmanlı imperiyasında massonluq

Ümumiyyətlə, istər Osmanlı İmperiyası, istərsə də Türkiyə Respublikası dövründə massonluğun fəaliyyəti haqqında aparılmış tədqiqatlara və araşdırmalara istinad edərək Türkiyədəki massonların fəaliyyət tarixini 5 dövrə bölmək olar:

1.XVIII əsrin əvvəlləri-1909-cu il;
2.1909-1923-cü illər;
3.1923-1935-ci illər;
4.1935-1948-ci illər;
5.1948-ci ildən bu günə kimi.

Türkiyəli massonların özləri öz tarixlərini araşdırarkən qeyd edirlər ki, Türkiyədə massonluğun meydana gəlib inkişaf etməsi və fəaliyyəti əslində, əsnaf cəmiyyətlərinə, fütüvvətnamələrə, hətta bektaşilik kimi Anadoludan qaynaqlanan təriqətlərə bağlıdır. Ancaq bu fikirlər o qədər də əsaslı deyildir. Çünki massonluğun əvvəl Osmanlı imperiyasına, bu imperiyanın dağılmasından sonra yerində dünyəvi prinsiplərə uyğun qurulmuş Türkiyə Respublikasına Qərbdən "idxal malı" olaraq gəldiyi və təməllərinin "yadellilər" daha sonralar da «azlıqlar» əlilə atıldığını aydın görmək olar. Onu da qeyd etmək lazımdır ki, Türkiyəyə xas masson və yaxud bir Türkiyə massonu anlayışı da yoxdur. Xarici vətəndaş olan hər hansı bir masson da Türkiyədəki masson lojaların birində "qar-

daş" kimi fəaliyyət göstərə bilər. Elə buna əsasən də biz Türkiyə masson tarixi, ya da Türkiyə massonluğu demək əvəzinə daha doğru və həqiqi olaraq Türkiyədəki massonluq və tarixi demək olar.

1. XVIII əsrin əvvəllərindən – 1909-cu ilə qədər Osmanlı İmperiyasında massonların fəaliyyəti.

Türkiyədə massonluq tədqiqatçılarından sayılan və bu mövzuda bir neçə əsərin müəllifi olan Kəmaləddin Apak (33 dərəcəli masson) bu məlumatları verməkdədir: «İstanbulda ilk masson lojası XVIII əsrin əvvəllərində, 1723-cü ildə Sultan III Əhməd dövründə açılmışdır. Türkiyədəki ilk masson dərnəyi olan bu loja Fransa Böyük Lojasına bağlı olub Qalatada Cüməaxşamı bazarında Ərəb Came ətrafında imiş. Qalata ilə Azapqapı arasındakı bölgədə o zamanlar fransızlar, xüsusilə venesiyalı və genuyalı levantenlər (Şərqdə anadan olmuş avropalılar) yaşadıqlarından bu lojanın bunlar tərəfindən idarə edildiyi zənn edilməkdədir. Təəssüf ki, adını müəyyən edə bilmədiyimiz bu loja Sultan III Səlim (1789-1807) dövrünə qədər fəaliyyət göstərmiş və sonralar bağlanmışdır. Bu lojanın bağlanmasına əsas səbəb 1789-cu ildə baş vermiş Böyük Fransa inqilabı olmuşdur.

Bu inqilabda yəhudi diasporunun çoxluq təşkil etdiyi masson lojaları da fəal iştirak etmiş və əslində Böyük Fransa inqilabının əsas səbəbkarı olmuşlar. Bunu bilən Sultan III Səlim gələcəkdə Osmanlı imperiyası üçün təhlükə ola biləcəyini ehtimal etdiyindən ehtiyatlı olmağı üstün tutmuş və bu lojanı bağlatdırmışdır.

Qarşıya belə bir sual çıxır. Türkiyədə ilk türk masson kim olmuşdur? 1720-ci illərdə, yəni Sultan III Əhməd dövründə Fransaya səfir olaraq göndərilən İyirmi Səkkiz Mehmet Çələbi öz oğlu Səid Çələbi ilə birlikdə bir qədər Parisdə qalmışdır. Ata-oğul burada o zaman Avropa massonluğunun inkişafının və yayılmasının şahidi olmuşdular. Onlar mənimsədikləri yeni ideyalarla İstanbula döndükdən sonra Səid Çələbi İbrahim Mütəffərikə ilə Türkiyədə ilk mətbəə açmaqla bərabər İstanbulda Fransa Böyük Lojasına bağlı bir masson lojasının qurulmasında da fəal iştirak etmişdir. Onu da qeyd etmək lazımdır ki, İbrahim Mütəffərikə əslən macar olmuşdur. Yuxarıdakı məlumatlardan belə nəticəyə gəlmək olur ki, Türkiyədə türk olaraq ilk masson İyirmi Səkkiz Mehmet Çələbizadənin oğlu Səid Çələbidir. Səid Çələbi sonralar Sutan I Mahmud dövründə (1732) İsveçə, 1741-ci ildə isə Fransaya səfir olaraq göndərilmiş və nəhayət Sultan III Osman dövründə (1755) beş ay yarıma qədər sədri-əzəm də işləmişdir. O, 1761-ci ildə Maraşda vəfat etmişdir.

İlk Türkiyə massonlarından biri də mərmi ustası Əhməd Paşa (1675-1742) olmuşdur. Əslən fransız olan bu şəxs Fransada kral XIV Lüdovik (1638-1715; 1643-1715-ci illərdə Fransa kralı) dövründə işlətdiyi bir günah üzündən əvvəl Avstriyaya getmiş, 1729-cu ildə isə Osmanlı dövlətinin xidmətinə girmişdir. O,

Sultan III Əhməd dövründə paşa adına layiq görülmüş və ilk Mühəndisxanə Bərri Hümayunu (Hərbi Mühəndis və Topçuluq Məktəbi) qurmuşdur.

XIX əsrin əvvəllərinə qədər davam edən bu ilk 100 illik dövründə İstanbulda Fransa, İtaliya və Polşa Böyük Lojalarına tabe olan bir neçə masson dərnəyi də qurulmuşdur. Bunların qurucuları həmişə xarici vətəndaş və Şərqdə anadan olmuş avropalılar olmuşdur.

Osmanlı imperiyasını hərbi yolla dağıda bilməyən Avropa ölkələri onu daxildən parçalamaq və sarsıtmaq məqsədilə iqtisadiyyatını pozmaq istəyirdilər. Onlar bu planlarını reallaşdırmaq üçün imperiya ərazisində yaşayan qeyri-müsəlmanlardan və qeyri-türklərdən ibarət masson lojaları qurmağa çalışırdılar. Əslində bu masson lojaları Qərb dövlətlərinin bir casusluq qərargahı rolunu oynamışdılar. Bu lojalar cəlb etdikləri əsl türklərdən öz məqsədlərində istifadə etmək üçün onlara dövlətin yuxarı pillələrində vəzifələr tutmağına kömək edirdilər.

Türkiyədəki massonluğun fəaliyyətinin genişlənməsi daha çox XIX əsrin 50-ci illərindən sonrakı dövrlərə aiddir. 1853-1856-cı illərdə baş vermiş Krım müharibəsində Rusiyaya qarşı Türkiyə Avropa ölkələri ilə müttəfiq olmuşdur. Bu yaxınlaşma nəticəsində Qərbi Avropa ölkələrinin çoxunun Osmanlı imperiyasının paytaxtı olan İstanbulda səfirlikləri açılmışdır. Bu dövrdə İstanbulda açılan bütün masson lojalarının qurucuları yuxarıda qeyd etdiyimiz xarici ölkələrin səfirlikləri olmuşdur. İstanbulda İngiltərənin səfiri olmuş Lord Radinq özü də masson olmuşdur. Onun masson olması türk dövlətinin məşhur şəxslərindən bəzilərinin də bu lojalara cəlb olunmasına səbəb olmuşdur. O, Qalata ətrafında Şotlandiya Böyük Lojasına bağlı bir masson dərnəyi qurmuşdur. Lord Radinq buraya o dövrdə Osmanlı dövlətinin sədri-əzəmi olmuş Mustafa Rəşid paşanı da cəlb etməyə nail olmuşdur.

Bu dövrlərdə ingilislərdən cəsarət alan fransızlar da dərhal fəaliyyətə keçdilər və nəticədə Bəyoğlunda bir masson lojası qurdular. Radinqdən sonra ingilislərin İstanbulda səfiri olan Ser Heny Bulver də Böyükdərədə öz adı ilə bir masson lojası qurmuşdur. Almanlar da bu illərdə İstanbulda iki masson lojası açmışlar. Ermənilər və yunanlar da topladıqları bəzi türkləri aralarına alaraq öz siyasi məqsədlərinə çatmaqda bir vasitə olacağını düşünərək masson lojaları qurmuşdular. Xüsusilə ermənilərin qurduqları «Ser» lojasının Türk siyasi tarixində çox mühüm bir yeri vardır. Osmanlı imperiyasını daxildən və xaricdən yıxmaq üçün işbirliyi qurmuş qeyri-müsəlmanlar və bunların toruna düşmüş Osmanlı dövlətinin vətəndaşı olan bəzi müsəlmanlar (buraya imperiyanın əsas milləti sayılan bəzi vətən xaini olan türklər də daxildir) da ya bu lojaların üzvü olmuşdurlar, ya da bu lojaların təlimatlarına uyğun fəaliyyət göstərmişdilər. Yarıdəli olan vəliəhd Murad əfəndi də bu lojada masson olmuşdur. Massonlar və xüsusilə də ingilis massonları onun massonluğundan öz hesablarına böyük mənfəətlər gözləyirdilər. Hələ 1867-ci ildə Sultan I Əbdüləziz Avropaya etdiyi səyahət zamanı vəliəhd Murad əfəndi də onunla bərabər Avropada olmuşdur. Bu zaman Murad əfəndi Londonda o zaman İngiltərə vəliəhdi şahzadə Edvard-

la da görüşüb tanış olmuşdur. Edvard bu zamanlar Şotlandiya Böyük Lojasının ustadı idi. Bu şəxs Murad əfəndiyə massonluqla bağlı ilk təkliflərini o zaman etmişdir. Hələ Murad əfəndiyə Avropaya getməmişdən əvvəl Namiq Kamal, Ziya Paşa və Kapilyon adlı bir erməni tərəfindən də massonluğa qoşulmaq təklif olunmuşdur. Türkiyəyə qayıdan Murad əfəndi bir müddətdən sonra Edvarddan bir məktub alır. İngilis şahzadəsi məktubunda aşağıdakıları yazmışdır: *«Buradakı görüşümüz zamanı sizə gizli bir əhəmiyyətdən bəhs etmişdim. Mən bu əhəmiyyət haqqında bəzi məlumatları vermiş və hətta sizdən də bu əhəmiyyətə daxil olmağınızı xahiş etmişdim. O zaman yalnız bir tövsiyədən ibarət olan bu təklifimi indi sizə yenə də tövsiyə edirəm. Bu barədə sizə müraciət ediləcəkdir. Rədd etməməyinizi xahiş edirəm".* Bu məktubdan qısa bir müddətdən sonra Murad əfəndinin yanına loja ustadı gələrək Böyük Lojadan aldığı məktubu göstərir və ona xüsusi bir mərasimlə 18-ci dərəcənin veriləcəyini söyləyir. Əvvəldən hər növ təkliflərlə bu vəziyyətə öyrədilmiş olan vəliəhd Murad əfəndi bu təklifi məmnuniyyətlə qəbul etdiyini bildirir. Ona verilən dəvətdən bir neçə gün sonra Murad əfəndi Beşikdaş Sarayının tənha bir otağında ətrafı qeyri-müsəlman dörd massonla dövrələnmiş olduğu halda massonluğa rəsmən qəbul edilmiş oldu. Kim olmuşdur bu qeyri-müsəlman massonlar? Bunlar – loja ustadı Kleanti İskaliyeri və massonlardan Kiritli d-r. masson Volonaki, d-r. Yakis və Eyamonda Eşamelos qardaşları olmuşdur. Məhz bu qeyri-müsəlmanlar Böyük Türk-İslam dövlətinin vəliəhdinin döşünə haşiyə və önlük taxdılar (massonluq simvolları və rəmzləri). Bu barədə bir iddia da var ki, vəliəhdin massonluğa qəbul edilməsi mərasimi şair Ziya paşa tərəfindən hazırlanmışdır. Bu iddianı masson şair Ziya paşanın nəvəsi ustad massonlardan olan doktor Fəxrəddin İşıq irəli sürmüşdür. Torpaqları dünyanın üç qitəsinə yayılmış Osmanlı imperiyası sarayının o günlərdə necə xəyanətlərlə əhatə olunmuş olduğunu başqa heç bir misal bu qədər gözəl anlada bilməz. Padşahlığa hazırlanan bir türk vəliəhdi daxili və xarici düşmənlərin işbirliyi ilə o dövrdə tam bir xəyanət şəbəkəsi halında çalışan massonluğa daxil edilir və ilk başlanğıcda 18-ci dərəcə verilir. Ancaq nəinki Türk dünyasının, həm də İslam aləminin ən böyük şəxsiyyətlərindən sayılan Sultan II Əbdülhəmidin hakimiyyətə gəlişi müəyyən bir dövr bu xəyanətlərin qarşısının alınmasına imkan yaradır.

O dövrlərdə qeyri-müsəlmanlar tərəfindən yaradılmış bu masson lojaları Türk dünyasının o zamankı məşhur şəxslərindən olan Böyük Rəşid paşanı (o, əvvəl Londonda səfir, sonra sədriəzəm olmuşdur. İngiltərənin İstanbuldakı səfiri olan Lord Radinqin Qalata ətrafında qurduğu masson lojasının üzvü idi), Fuad Paşanı (fransızların İstanbulun Bəyoğlu deyilən yerində qurduqları masson lojasının üzvü), Midhət paşanı (ingilislər Midhət paşaya daha çox diqqət yetirmiş və ondan böyük faydalar ummuşdular. Bu paşa öz hərəkətləri ilə dövlətə çox böyük ziyan vurmuşdur. Ancaq Sultan II Əbdülhəmidin sayıqlığı nəticəsində onun bu zərərli fəaliyyətinin qarşısı alınmış və sürgünə göndəril-

mişdir), Əhməd Vefik Paşanı, Namiq Kamalı, şairlərdən Ziya Paşa və Şinasini də cəlb edə bilmişdilər.

İstanbulda çoxlu masson lojalarının açılmasına baxmayaraq İngiltərə, Fransa, İtaliya və Yunanıstan massonları daha çox Selanikdə fəaliyyət göstərməyə üstünlük verirdilər. O dövrlərdə Osmanlı dövlətinə qarşı qeyri-müsəlmanların xain əməllərinin planları Selanikdə cızılırdı. Bunu hiss edən Sultan II Əbdülhəmid Selanikdəki massonlara qarşı müəyyən tədbirlər həyata keçirərkən onlar İstanbula sığınmışdılar. Sarayın təzyiqi və gördüyü tədbirlər nəticəsində İstanbulda da massonluq fəaliyyətləri iflic vəziyyətinə salınmışdır. Ancaq, Rumeli və Makedoniyada, xüsusilə Selanik və ətrafında masson lojaları qızğın fəaliyyətdə idilər. Sarayın İstanbuldakı nəzarəti Selanik, Kosova və Manastır vilayətlərində o qədərdə güclü deyildi, çünki burada güclü əcnəbi nəzarəti var idi.

Avropa dövlətləri və Rusiya tərəfindən həmişə (XIX əsrin axırı—XX əsrin əvvəlləri) hərbi, siyasi və iqtisadi təzyiqlərə, təcavüzlərə məruz qalan Osmanlı dövləti özünü qorumağa çalışdığı bir vaxtda bu masson əfəndilər xarici düşmənlərlə işbirliyi yaradaraq birgə fəaliyyət göstərmişdilər. Bu bölgədə açılan lojalardan «Makedoniya», «Makedoniya Rizorta» və «Veritas» Türkiyə əleyhinə o qədər qatı fəaliyyət göstərirdi ki, bəzi Türk massonları onların bu işlərindən bağlı olduqları Böyük lojalara şikayət etmək məcburiyyətində olmuşdular. Bütün bu lojalar Yunan Komitəçilərinin nəzarəti və əmrləri ilə fəaliyyət göstərirdi. Bunlardan Afina Böyük Lojasına bağlı «Makedoniya» lojasının ustadı bir yunan idi. Bu Lojaya Osmanlı dövlətinin o zamankı maliyyə naziri Reşid Ərər də daxil olmuşdur. Bu zaman qarşıya belə bir sual çıxır. Ustadı yunan özü isə Afina Böyük Lojasına bağlı olan bir loja mənsubu nazir Rəşid Ərər hansı fəaliyyəti ilə dövlətin hər zaman məruz qaldığı maliyyə böhranlarını aradan qaldırmağa çalışar? Bildiyimiz kimi, Yunanıstan bütün tarix boyu həmişə Osmanlı dövlətinin həm hərbi, həm də iqtisadi qüdrətini sarsıtmağa çalışmışdır. Hamıya aydındır ki, maliyyə iqtisadiyyatın şah damarıdır. Buradan bizə hər şey aydın olur, yeni mənsub olduğu lojanın ustadı yunan olan və daima onun əmri ilə işləyən maliyyə nazirindən Osmanlı dövləti üçün bir əməli iş gözləmək sadəlövhlük olar.

Massonların əleyhinə ilk və ciddi təqib, təzyiq Sultan II Əbdülhəmid xan dövründə edilmişdir. Bu zaman İstanbuldakı masson dərnəklərinin hamısı və Makedoniyadakıların bir hissəsi bağlanmış və dağıdılmışdır. Çünki, Sultan II Əbdülhəmid xan türk massonları ilə ingilis, fransız, erməni və yunan massonlarının dövlət əleyhinə birgə fəaliyyət göstərdikləri haqda kifayət qədər isbat edilmiş məlumatlara malik idi. Bu dövrlərdə artıq masson lojaları «İttihad və Tərəqqi» Cəmiyyətinin qurulmasını reallaşdırdılar. Beynəlxalq massonluq türk dövləti əleyhinə apardıqları bütün fəaliyyətlərini «Hürriyyət», «Tərəqqi» və ya «Mədəniyyət» sözləri altında gizləyərək «İttihad və Tərəqqi»çilərin əli ilə gerçəkləşdirməyə çalışırdılar. «İttihad və Tərəqqi»nin demək olar ki, liderlərinin hamısı masson olmaqla «Makedoniya», «Makedoniya Rizorta» və «Veritas» lo-

jalarının ustadları idilər. Bu ustadlar arasında sonralar Osmanlı Məclisi Məbusanına Selanikdən deputat seçilmiş Emanuel Karasso ən nüfuzlu türk və müsəlman düşmənlərindən olmuşdur. Onun ustad olduğu «Veritas» lojasında o dövrün dənizçilik naziri Camal Paşa, sədri-əzəm və daxili işlər naziri olan Tələt Paşa da var idi. Bu lojadan «İttihad və Tərəqqi» Cəmiyyəti də idarə olunurdu. Hökuməti devirmək, müxtəlif bölgələrdə etnik zəmində dövlət əleyhinə iğtişaşlar törətmək planları da bu lojalarda, xüsusilə də «Veritas» lojasında hazırlanırdı. Hal-hazırda onların bütün bu hərəkətləri sənədlər vasitəsi ilə isbat olunmuşdur.

Yuxarıda barələrində söz açdığımız massonlar öz məqsədlərini və istəklərini Sultan II Əbdülhəmid xana çatdırmaq üçün təşkil olunmuş nümayəndə heyətinin başında qatı türk və müsəlman düşməni olan masson ustadı Emanuel Karasso dururdu. O, bütün həyatı boyu bu fürsəti gözləmiş və Sultanın qarşısına tam bir intiqam hazırlığı ilə çıxmışdır. Əbdülhəmid xan qarşılamağa məcbur olduğu heyətin içindəkiləri və xüsusilə Emanuel Karassoya heyrətlə baxaraq və bu tarixi anın cavabını qavramayan heyətdəki türklərdən birinə alçaq səslə: *«Aranıza bu adamları nə üçün qatdınız? Sizdən belə bir qərarı dinləmək məni incitməzdi, amma bu adamların məndən intiqam almasına necə alət oldunuz?»* demişdir. Nümayəndə heyəti Saraydan qayıdarkən Tələt paşa yanındakılara: «Böyük günah işlətdik deyə söyləmişdir. Emanuel Karasso bu görüşdən iki gün sonra Selanikə gələrək konstitusiyanın və parlamentin bərpa olması ilə əlaqədar keçirilən böyük masson yığıncaqlarına da rəhbərlik etmişdir. Ayrıca olaraq Selanikdə massonlarla «İttihad və Tərəqqi»nin müştərək hazırladığı böyük bir rəsmi keçid keçirilmişdir. Massonlar bu rəsmi keçidə haşiyə və önlüklərini taxmış vəziyyətdə bayraqları ilə və ən öndə «Veritas» lojasının ustadı Emanuel Karasso olmaqla gəlmişdilər. Bununla da kifayətlənməyən Karasso masson bayrağı altında orada toplanan minlərlə adama nitq söyləmişdir.

Bütün bunlar massonluğun tam mənası ilə siyasətlə məşğul olduğunu və əsasən Osmanlı dövlətini sarsıtmağa çalışan xarici qüvvələrin casusu kimi fəaliyyət göstərmələrinə bir işarədir.

Lənətlərə layiq işlərini gizli-gizli görməyə çalışan massonlar «İttihad və Tərəqqi»nin güclü yardımları ilə artıq Türkiyədə istədikləri kimi fəaliyyət göstərirdilər. Bu hal Osmanlı dövlətinin yıxılmasına qədər davam etmiş və onlar beləliklə qarşılarına qoyduqları vəzifələrinin bir hissəsinə nail olmuşdular.

İstanbul və Makedoniyadakı masson fəaliyyətləri Anadolu daxilində o qədər də rəğbət qazana bilmədiyindən burada lojalar yarana bilməmişdir. Yalnız onlar İzmirdə bir neçə masson lojası qurmağa nail ola bilmişdilər. Bu lojalar xaricdəki Böyük Lojalara bağlı olduqlarından İzmirin Yunanıstana verilməsinə çalışmışdılar.

Sultan II Əbdülhəmid xanın hakimiyyətinin məhdudlaşdırılması və Konstitusiyanın elanı Osmanlı imperiyasında massonluğun genişlənib böyüməsinə və rəsmi bir mahiyyət almasına geniş bir şərait yaratmışdır. Massonlar konstitusiyanın elanından bir ay sonra (avqust 1908) Osmanlı Masson Lojalarının Ali

Şurasını qurmaq üçün ilk yığıncaqlarını keçirməyə başladılar. Osmanlı dövlətinin məşhur massonları birinci yığıncaqlarını Osmanlı təbəəsi olan Mkırtıç Tokatlıyanın mehmanxanasında keçirdilər. Onlar öz fikirlərini dərhal Avropa ölkələrindəki Masson Lojaları Ali Şuralarına çatdırmış və hamısından icazə almışdırlar. Yalnız İngiltərə və Skandinaviya Ali Şuraları müstəqil Osmanlı Ali Şurasının qurulmasına tərəfdar olmadıqlarını bildirmişlər. Aparılan hazırlıqlar başa çatdıqdan sonra 1909-cu il martın 3-də Osmanlı İmperiyasında fəaliyyət göstərən Masson Lojalarının Ali Şurasını rəsmi şəkildə qurmaq üçün bir iclas keçirildi. Bu iclasda rəsmi şəkildə təsdiq olunan Ali Şurada vəzifələr aşağıdakı kimi qurulmuşdur:

– Süvren Qrankomandor: Əziz Həsən paşa (əslən misirli olan şahzadə);
– Müavin: Mehmet Cavid (sonralar maliyyə naziri olmuşdur)
– Ümumi Böyük Müfəttiş: Mehmet Tələt (sədri-əzəm Tələt Paşa)
– Ümumi Böyük Xətib: Midhət Şükrü Bleda
– Ümumi Böyük Xətib: Davud J. Kohen.

Osmanlı İmperiyasında fəaliyyət göstərən massonların Osmanlı Ali Şurası qurulan zaman Türkiyədə 33 dərəcəli 21 nəfər masson olmuşdur:

1. Tələt Paşa (sədri-əzəm);
2. Midhət Şükrü Bleda (deputat);
3. Mehmet Cavid bəy (maliyyə naziri);
4. D-r. Rza Tevfik (deputat);
5. Mehmet Akif (deputat);
6. Nəsim Nazelyah (deputat);
7. Mişel Noradunyan (tacir);
8. Davud Koğen (sığortaçı);
9. Mehmet Qalib;
10. Osman Adil (vəkil);
11. Fuad Xulusi Dəmirəlli (hakim);
12. Asim (Məclisi Məbusanın Baş Katibi);
13. Rəhimi (İzmir valisi):
14. Hüseyn Cavid Yalçın (qəzetçi);
15. Osman Tələt (vəkil):
16. Qalib Paşa (Jandarma Ümumi Komandanı);
17. Sarim Kibar (tacir).
18. Katibzadə Səbri (tacir).
19. Emanuel Karasso (deputat).
20. Mehmet Əli Baba (D-r. polkovnik).
21. Faiq Süleyman Paşa (dəstə komandanı).

Osmanlı imperiyasında respublika qurulana qədər (1923) 33 dərəcəli massonların sayı daha da artmışdır. 1908-1923-cü illərdə 33 dərəcə almış şəxslər aşağıdakılardır:

1. D-r. İbrahim Müslim (1920);

2. D-r. Cak Suhami (1921);
3.Viktor Alqiranti (tacir);
4. Moiz Fresko (tacir);
5. Saim Hüsnü Opat (şəhər əmanət şirkətləri komissarı);
6. Tevfik Hamdi (divan maliyyəçisi);
7. Arsen Arseyan (gömrük işçisi);
8. İsmail Faiq Başar (kənd təsərrüfatı mühəndisi);
9. D-r. İlyas Modyano (polkovnik);
10. D-r. İsmail Xurşid;
11. Sərvət Yesari (kassasiya məhkəməsi üzvü);
12. Deqat (vəkil);
13. D-r. Besim Ədhəm;
14. Xalid Həbbab (şəhər əmanət məmuru);
15. Zəki Dərviş (polis məktəbi müdiri);
l6. Moris Mayer (tacir).

Osmanlı Ali Şurası qurulduqdan dörd ay sonra (9 iyul 1909) Türkiyədəki bütün lojalara və massonlara xitabən fransız dilində bir direktiv göndərilir. Burada Böyük Məşriqin qurulması üçün əməli fəaliyyətə keçildiyi bildirilir. Bu mövzuda 1909-cu il iyulun 13-də Qalatadakı Norondunyan karvansarayında keçirilən yığıncaqda İspaniya, Fransa və İtaliya Böyük Lojalarına bağlı 14 masson ustadı iştirak etmişdir. Bu 14 nəfərdən yalnız biri türk-müsəlman, 6 nəfəri isə yəhudi olmuşdur. Bu yığıncaqda Osmanlı İmperiyasının Böyük Məşriqinin qurulması üçün son toplantının 1909-cu il avqustun 1-də bazar günü keçirilməsi qərara alındı. Bəyoğlunda Haçapulos karvansarayının üstündəki bir evdə keçirilən toplantıda Osmanlı dövlətində rəsmən yaradılmış 7 lojadan 14 nəfər iştirak etmişdir. Burada hər lojadan 2 nəfərin iştirakı prinsipinə riayət olunmuşdur. Bu Lojalar aşağıdakılardır:

1. "Vətən", 2. "Mühibbani Hürriyyət", 3. "Vəfa", 4. "Şəfəq", 5. "Rəsnə", 6. "Tərəqqi və İttihad Həqiqi Muhipləri", 7. "Uhuvvəti Osmaniyyə".

Bu toplantıda gizli səsvermə ilə keçirilən seçkidə ilk Böyük Məşriqin rəhbərliyinə aşağıda adları çəkilən massonlar seçildi:

1. Ustadı Əzəm (Böyük Ustad): Tələt paşa;
2. Böyük Ustad müavini: Qalib paşa (jandarma ümumi komandanı);
3. Birinci Böyük Nazir: Mehmet Əli paşa (d-r. polkovnik);
4. Birinci Böyük Nazir müavini: Edvard De Nari;
5. Böyük nazir: Osman Fəhmi (əczaçı, rəsnəli Niyazi bəyin qardaşı);
6. İkinci Böyük Nazir müavini: Nadra Muiran;
7. Böyük Xətib: D-r. Rza Tevfik;
8. Böyük Xətib müavini: Mişel Norodunyan;
9. Böyük Katib: Osman Tələt (vəkil);
10. Böyük Katib müavinləri: Solon Kazanova, Errera Dairo, Feyzi Menahem;
11. Böyük xəzinədar: Sarim Kibar;

12. Böyük xəzinədar müavini: D-r. İlyas Modyano;
13. Böyük İdarə məmuru: D-r. Cak Suhami.

Bu kadrlar diqqətlə tədqiq edilərsə aydın olacaq ki, bütün müavinliklər adətən türk və müsəlmanlara nəzarət etmək üçün yunan, erməni və yəhudilərə verilmişdir. Çünki bu heyəti seçənlərin əksəriyyəti qeyri-müsəlmanlardı. Böyük Məşriq qurulduqdan sonra onun Osmanlı Masson Ali Şurası ilə münasibətlərini təsbit edən bir müqavilə imzalamış və beləliklə Osmanlı dövlətindəki massonluq rəsmən tanınaraq yerləşmişdir. Bu tarix Sultan II Əbdülhəmid xanın taxtdan salındığı, konstitusiyanın elan edildiyi və 10 ildən sonra imperiyanın yıxılması naminə görüləcək çirkin işlərin bünövrəsinin qoyulduğu ildir.[901]

[901]Mirzə Ənsərli, Türkiyədə masonların və sionistlərin fəaliyyəti kitabı.

XVI FƏSİL

HZ.PEYĞƏMBƏRİN QIZI HZ.FATİMƏ

Hz.Fatimə (s.ə)

Hz.Fatimə (s.ə) Amul-fil ilindən qırx beş il sonra, Hz.Peyğəmbərin *(s)* bəsətindən beş il sonra 615-ci ildə cəmadiəl-axir ayının 20-də cümə günü Məkkədə anadan olmuşdur. Bu zaman Hz.Peyğəmbərin *(s)* qırx beş yaşı var idi. Anası Hz.Xədicə binti Xuveyliddir. Beş yaşında olarkən 620-ci ildə anası Xədicə vəfat etmişdir. Hicrətin II ilində Hz.Əli *(ə)* ilə ailə qurmuş və bu izdivacdan Hz.Həsən, Hz.Hüseyn, Hz.Zeynəb, Hz.Ümmü Gülsüm adlı övladları dünyaya gəlmiş, Möhsün adlı oğlu isə ana bətnində altı aylıq olarkən siqt olaraq düşmüşdür.

Hz.Fatimə (s.ə) atası Petğəmbərdən *(s)* yetmiş beş gün sonra hicrətin on birinci ilində cəmadiəl-axir ayının üçündə (və ya cəmadiəl-əvvəl ayının on üçündə) miladi 632-ci ildə on səkkiz yaşında Mədinədə şəhid edilmişdir. Məzarının yeri dəqiq bilinmir. Üç yerdən birində olduğu güman edilir: 1) Atasının qəbri yanında; 2) Bəqidə; 3) Atasının qəbri ilə minbəri arasında.

Hz.Fatimənin (s.ə) asimanda adı Mənsurə, yerdə isə Fatimədir. Fatimə "kəsən", "ayıran" mənasındadır. Yəni Hz.Fatimə (s.ə) öz şiələrini Cəhənnəmdən, düşmənlərini isə öz məhəbbətindən və Cənnətdən uzaqlaşdıracaq. Axirətdə öz dostlarına kömək edəcəyi üçün göylərdə ona Mənsurə deyilir. İmam Sadiqdən *(ə)* rəvayət edilir ki, Hz.Fatimənin Allah yanında doqquz adı var:

1) Fatimə; 2) Siddiqə-yəni məsum, günah etməyən; 3) Mübarəkə-yəni elmli, fəzilətli; 4) Tahirə-yəni nöqsanlardan pak olan; 5) Zəkiyyə-xeyir işlərdə nümunə; 6) Raziyyə-Allahın qəzasına razı olan; 7) Mərziyyə-Allah və onun dostlarının bəyəndiyi; 8) Mühəddisə-mələklə danışan; 9) Zəhra-həm zahiri, həm də mənəvi cəhətdən nurani.

Hz.Fatimənin *(ə)* künyələri:

1) Ümmül-əimmətul-məsumin-məsum imamların anası;
2) Ümmül-Həsəneyn-Həsən və Hüseynin anası
3) Ümmül-kitab
4) Ümmül-əbiha-atasının anası

Hz.Fatimənin (s.ə) ləqəbləri

1) Bətul-yəni heyz, nifas və digər şeylərdən pak olan
2) Xeyrun-nisa-qadınların ən yaxşısı
3) seyidətun-nisail-aləmin-dünya qadınlarının xanımı
4) İbnətul-Muxtar-Peyğəmbər qızı
5) Əzra-pakizə

6) Bəzətin-nübuvvə-Peyğəmbərin bədəninin bir parçası

7) Dürrətul-beyza-ağ dürr

Hz.Fatimənin (s.ə) üzüyündə bu yazı yazılmışdır: "Allahu vəliyyu isməti"- Allah mənim ismətimin vəlisidir.

Hz.Zəhranın (s.ə) təvəllüdü

Xanım Fatimə *(ə)* besətin beşinci ili, cəmadius-sani ayının iyirmisində, Hz.Peyğəmbər *(s)* qırx beş yaşında ikən Məkkədə dünyaya göz açmışdır. Şeyx Səduq "Əmali" kitabında Müfəzzəl ibn Ömərdən belə nəql edir:

Ömər deyir ki, bir gün İmam Sadiqdən *(ə)* soruşdum: Fatimə (s.ə) dünyaya necə gəlmişdir? İmam *(ə)* buyurdu: Xədicə Hz.Peyğəmbərlə *(s)* evlənəndən sonra Məkkə qadınları İslama qarşı olan düşmənçilikləri üzündən Xədicədən uzaqlaşdılar, belə ki, nə Xədicənin evinə gedir, nə də yolda onu görəndə salam verir, hətta başqa qadınların belə onunla görüşməsinə mane olurdular ki, bütün bunlardan Xədicə çox kədərlənir və bu çirkin əməllərin Hz.Məhəmmədə *(s)* zərər yetirəcəyindən qorxurdu.

Bir gün Hz.Peyğəmbər *(s)* evə daxil olanda Xədicənin kiminləsə söhbət etdiyini eşidir və bu barədə Xədicədən soruşduqda, o belə cavab verir: "Bətnimdəki uşaq mənimlə söhbət edir və o, mənim munisimdir".

Bu minvalla Xədicə hamiləlik dövrünü başa vurdu və Hz.Fatimə *(ə)* pak-pakizə bir halda dünyaya gəldi. Dünyaya gəldiyi zaman ondan saçan nur bütün Məkkə evlərini işıqlandırdı. On nəfər behişt hurilərindən, əllərində cənnətdən gətirdikləri teşt və kövsər suyundan doldurulmuş kuzə ilə evə daxil oldular. Xədicənin qarşısında duran qadın Fatiməni götürüb kövsər suyu ilə yudu, ətirli iki parçadan biri ilə onu bələdikdən sonra dindirdi. Fatimə dil açıb Allahın birliyinə, Muhəmmədin *(ə)* isə onun rəsulu olmasına şəhadət verərək belə dedi: "Şəhadət verirəm ki, yeganə Allahdan başqa Allah yoxdur. Atam Allahın rəsulu, peyğəmbərlərin başçısıdır. Ərim övliyaların sərvəri və iki övladım isə behişt cavanlarının ağasıdır".

Hz.Fatimənin *(ə)* fəzilətləri

"Kisa" və "Mübahilə" əhlindən biri sayılan Hz.Fatimə *(ə)* ən çətin dövrdə Allah yolunda hicrət edən, şərəfinə "Təthir" ayəsi nazil olan şəxsiyyətlərdəndir. Cəbrayıl da onlarla birlikdə olmasına fəxr etmişdi. Allah onların paklıq və doğruluğuna şəhadət vermişdir. O, imamların anası olmaqla yanaşı, Hz.Peyğəmbər *(s)* nəslinin ondan doğulub qiyamətə kimi davam edəcək yadigarıdır. Bu nurlu vücud əvvəldən axıra hər iki dünya qadınlarının xanımıdır. O, sözündə və danışığında Hz.Məhəmmədə *(s)* ən çox oxşayan şəxs idi. Onun əxlaq və həyat tərzi Hz.Peyğəmbərin *(s)* əxlaq və həyat tərzini xatırladırdı. Yerişi sanki Peyğəmbərin *(s)* yerişi idi. O, həmişə atasının yanına gələndə Həzrət onu mehribanlıqla qarşılayar, əlindən öpər, nə zaman behişt ətrini duymaq istəsə idi, onu iyləyər və buyurardı:

“Fatimə mənim bədənimin bir parçasıdır. Kim onu sevindirsə, məni sevindirib, kim ona pislik etsə, mənə pislik edibdir”.

“Fatimə cənnət qadınlarının rəhbəridir”.[902]

“Allah Fatimənin qəzəbilə qəzəblənər, razılığı ilə razı qalar”.[903]

“Cənnət qadınlarının ən üstünü dörddür: Xədicə binti Xuveylid, Fatimə binti Muhəmməd (s), Məryəm binti İmram və Asiya binti Məzahim”.[904]

“Fatimə mənə hamıdan əzizdir”.

Hz.Peyğəmbərin *(s)* Hz.Fatiməyə (s.ə) sonsuz məhəbbətini ifadə etdirən “ya həbibətə əbiha” – kimi kəlamlarını misal göstərmək olar ki, bu da “ey atasının dostu və məhbubu” mənasındadır.

Furat ibn İbrahim öz təfsirində Hz.Əlinin *(ə)* dilindən belə söyləyir:

Bir gün Peyğəmbər *(s)* Fatimənin (s.ə) yanına gəldikdə xanımın kədərli olduğunu hiss etdi. Hz.Peyğəmbər *(s)* bir az qiyamət günü barədə danışıb bu məqama yetişəndə belə buyurdu: “Ey Fatimə, behişt qapısına yetişən zaman o vaxta qədər heç bir kəslə görüşməyən və səndən sonra da görüşməyəcək on iki min behişt hurisi səni qarşılayar. Onların əlində nurdan ibarət silah olar. Bu hurilər yəhəri sarı qızıl və qırmızı yaqut, yüyəni təzə mirvaridən olan işıq saçan dəvələrə minərlər. Hər dəvənin üstündə də sıx-sıx düzülmüş parlaq incilərlə bəzədilmiş “sundus” süfrəsi açılar. Behiştə gələn zaman cənnət əhli sənin qədəmlərindən şad-xürrəm olar. Əhli-beyt tərəfdarları üçün istədikləri şey həmişə və elə o dəqiqə hazır olar. Allah övliyaları behiştdə yerləşdirən zaman Hz.Adəm *(ə)*, ondan sonra isə bütün peyğəmbərlər səni ziyarət etməyə gələrlər.”

Bu hədisi ibn Abbas Hz.Əlidən *(ə)* nəql etmişdir. Hədis uzun olduğundan yuxarıdakı ondan bir parçadır.[905]

Hz.Fatimənin (s.ə) zöhd və təqvası

Seyyid ibn Tavus Əbu Cəfər Əhməd yazdığı “Zöhdünnəbi” kitabında qeyd edir ki, bu iki ayə (“Hicr” 43, 44) nazil olan zaman: **“Cəhənnəm bütün yolunu azmışların qayıdacaq yeridir. Onun yeddi qapısı vardır ki, hər qapıdan da müəyyən olunmuş dəstələr keçər.”**

Hz.Peyğəmbər *(s)* bərkdən ağladı. Əshabı da bunu görcək ağlamağa başladı. Ancaq səhabələr Həzrətin ağlamağının səbəbini bilmirdilər və Hz.Məhəmmədin *(s)* halı elə dəyişmişdi ki, heç kəs ondan söz soruşmağa cürət etmirdi.

Peyğəmbər *(s)* həmişə Fatiməni (s.ə) görəndə xoşhal olardı. Buna görə də səhabələrdən biri Fatimənin (s.ə) hüzuruna gələrək onu atasının yanına çağırmaq üçün evə daxil olanda gördü ki, Fatimə *(ə)* dəyirmanda arpa üyüdə-üyüdə bu ayəni oxuyur: **“O şey ki, Allah yanındadır, xeyir və əbədidir.”**

---

[902] Səhihi-Buxari, fəzail fəsli.

[903] Vəsailuş-şiə

[904] Əllamə Nuri, Müstədrəkul-vəsail.

[905] Hədisin şərhi “Rəyahinəş-şəriət” adlı kitabda I cild, səh-225-228-də qeyd olunmuşdur.

Həmin şəxs xanıma salam verərək Hz.Peyğəmbərin *(s)* halından onu agah edir. Hz.Fatimə (s.ə) cəld ayağa qalxıb on iki yerdən xurma lifi ilə yamaqlanmış köhnə çadrasını başına örtüb yola düşür. Evdən çıxanda Salman onu görüb ağlayır və deyir:

"Vay halınıza! Rum və Kəsra qeysərləri sundus, ipək parçalardan hazırlanmış libaslar geyib gəzdikləri bir halda, Peyğəmbərin *(s)* qızı on iki yerdən yamaqlanmış nimdaş çadra örtür!?

Hz.Fatimə (s.ə) Peyğəmbərin *(s)* hüzuruna gəlib ərz etdi:

"Ey Allahın Rəsulu, Salman mənim libasıma təəccüb edir. Bununla belə səni haqqa məbus edən Allaha and olsun ki, beş ildir, Əlinin *(ə)* evində gecələr qoyun dərisindən olan fərşin üstündə yatır, gündüzlər isə dəvəmizə ələf veririk. Daha bilmir ki, bizim mütəkkəmiz də xurma lifindəndir.

Bu zaman Peyğəmbər *(s)* Salmana buyurdu: "Mənim qızım qabaqcıllardan və Allah dərgahında ön səfdə duranlardandır.

Belə olduqda Fatimə *(ə)* söylədi: "Atacan, qurbanın olum, ağlamağının səbəbi nədir?"

Hz.Peyğəmbər *(s)* Cəbrayılın nazil etdiyi yuxarıdakı iki ayəni xanım Zəhra üçün də oxudu. Hz.Fatimə (s.ə) cəhənnəm adını eşidən kimi üzü üstə yerə düşüb təkrar-təkrar dedi: "Vay olsun, vay olsun o şəxsə ki, cəhənnəmə daxil olar.

Salman Farisi ayəni eşidən kimi dedi: "Kaş qoyun olardım, sahibim məni kəsib dərimi soyardı, amma mən cəhənnəm sözünü eşitməyəydim."

Əbuzər belə dedi: "Kaş anam məni bu dünyaya gətirməzdi və mən də cəhənnəm adını eşitməzdim."

Hz.Əli *(ə)* buyurdu:

"Kaş yırtıcılar bədənimi didib parçalayardılar, kaş anam məni doğmayaydı və cəhənnəm adını eşitməzdim." Sonra əlini başına qoyub ağlaya-ağlaya dedi: "Səfərin uzaqlığından, qiyamət səfərinin azuqəsinin azlığından Allah özü bizi qorusun."

Hz.Peyğəmbərin *(s)* Hz.Fatimənin (s.ə) gələcəyi haqqında söylədikləri

Şeyx Səduq ibn Abbasdan etdiyi bir rəvayətdə Hz.Peyğəmbərin *(s)* Əhlibeytinə yetişəcək müsibətlər barədə qabaqcadan xəbər verdiyini belə nəql edir: "Qızım Fatimə (s.ə) əzəli və əbədi olaraq iki dünya qadınlarının xanımıdır. O mənim cismimin bir parçasıdır, gözümün nuru, qəlbimin meyvəsi və vücudumda olan ruhumdur. O "Hövrau-Unsiyyə"dir. Mehrabda Allah qarşısında ibadət etməyə başladığı vaxt nuru ulduz kimi səma mələkləri üçün parlayar. Bu zaman Allah mələklərinə buyurar:

"Ey mələklər, mənim qarşımda ibadət üçün dayanmış kənizlərimin sərvəri olan kənizimə tamaşa edin. Görün, mənim qarşımda bədəni necə əsir. O, bütün varlığı ilə mənə ibadət edir. Sizi şahid tuturam ki, onun şiələrini cəhənnəm atəşindən amanda saxlayacağam."

Bu sözdən sonra Hz.Peyğəmbər *(s)* belə buyurdu: "Mən Fatiməyə *(s)* baxanda yadıma məndən sonra ona üz verəcək müsibətlər düşür. Sanki qəm və kədərin onun evinə necə varid olmasını, ona ediləcək hörmətsizliyi, haqqının əlindən alınmasını, öz irsinə yetişə bilməməsini, qabırğasının sındırılmasını, boynunda olan və hələ dünyaya gəlməmiş uşağın siqt olunmasını, onun "Ya Muhəmmədahu" çığırmağını elə indidən görürəm. O, bir cavab eşitmir, lakin görmək istəyir. Heç kim də ona kömək etmir, həmişə məndən sonra hüznlü, qəmli və gözü yaşlıdır, hərdən belə fikirləşir ki, vəhy evindən kəsilib, mənim ayrılığıma mübtəla olubdur. Gecələr hölvnak durur, ona görə ki, gecə namazı vaxtı mənim "Quran" oxumağımı eşidərdi. İndi isə eşitmir. Sonra atasının sağlığında necə əzizlənib, nəvaziş edildiyini xatırlayıb qəmli-qəmli, için-için ağlayır. Bu zaman Allah mələkləri onun munisi edər. Mələklər Hz.Məryəmlə həmsöhbət olduqları tək onunla da elə həmsöhbət olarlar.

Ey Fatimə, Allah səni seçdi və pak etdi. Səni bütün xanımların xanımı etdi. Ey Fatimə, Allahına ibadət və səcdə et. Allah dərgahında rukuda olanlara ruku elə.

Sonra elə bil görürəm ki, o, dərddən və qubardan xəstələnib, qulluğa ehtiyacı vardır. Tanrı İmaran qızı Məryəmi ona baxmağa göndərər. Bu vaxt o, Allah ilə belə dərdləşər: "İlahi, həyatdan doyub yorulmuşam. Dünyapərəst insanların əlindən artıq cana gəlmişəm. Məni atama qovuşdur."

Allah da onu mənə yetirər. O, mənim Əhli-beytimdən qəmli, kədərli, haqqı qəsb olunmuş və öldürülmüş halda mənə yetişəcək ilk şəxsdir. Bu vaxt Allaha yalvarıb deyərəm: "İlahi, ona zülm edən şəxsləri öz rəhmətindən uzaq et. Onun haqqını qəsb edənləri cəzalandır. Onu kədərləndirənləri xar elə. Qızımı hamilə ikən zərbə ilə vurub uşağını hələ dünyaya gəlməmiş məhv edənləri isə əbədi olaraq cəhənnəm atəşinin sakini et."

Bu zaman mələklər deyərlər: "Amin! İlahi, bu duanı müstəcəb elə.

Mühacir və ənsar qadınlarından Hz.Fatimənin (s.ə) görüşünə gələnlər və Həzrətin onlara söylədiyi xütbə

Əllamə Təbərsi Süveyd ibn Qüflənin dediklərini belə qeyd edir:

"Hz.Fatimə (s.ə) ölüm yatağında olarkən mühacir və ənsar qadınlarından bir qrupu onun yanına gəlib dedilər:

Ey Peyğəmbər *(s)* qızı, bu xəstəliklə səhəri necə açdınız?

Hz.Fatimə (s.ə) Allaha həmd və səna etdikdən, eləcə də atası Peyğəmbərə *(s)* salam göndərdikdən sonra buyurdu:

"And olsun Allaha! Səhəri sizin dünyanı, sizin kişiləri bəyənmədiyim halda açdım. Sizin kişiləri düşmən bilirəm, çünki onları öz dilimin altında yoxlayıb, ağzımdan tulladım və onları sınaqdan sonra tanıdım.

Sizin kişilərin əvvəllər İslamın inkişafı yolundakı fəallığı, sonradan isə bu məsələdə süst olmaları, iman gətirdikdən sonra dindən çıxıb dünyəvi həvəslərə aludə olaraq azğınlaşmaları çox çirkindir.

Nə qədər çirkindir bu dəstə və onlar üçün İlahi əzab. Vay olsun onlara ki, rəhbərlik və imamlıq məqamını möhkəm risalət dağlarından aldılar, nübuvvət və hidayət köklərini və Cəbrayılın nazil olduğu yeri haqqın sahibindən məhrum etdilər.

Bilin ki, sizin kişilərin əməlləri, İslam üçün aşkar bir ziyandır. Çünki onlar Əlidən *(ə)* üz çevirdilər. And olsun Allaha! Əlinin *(ə)* qılıncı meydanda iti və kəsərli olub. O, ölümdən qorxmurdu, öz qüdrətli əlləri ilə düşmən cəngavərlərini fəlakət torpağına atıb məhv edirdi. Allaha and olsun! Əgər onlar ümmətin idarəsini Əliyə *(ə)* tapşırsaydılar, o, hər yolundan azanı hidayət edərdi. Əli *(ə)* aşkar hüccətdən qaçanları qaytarardı. O camaatı haqqa tərəf elə sövqləndirərdi ki, haqqa üz tutanların nə ağzı yaralanar, nə də yorulardı. Əli *(ə)* onları çoxlu, həm də ətirli şəlalələrə varid edərdi. O şəlalələrin suyu və ətrafı saf, pak olardı.

Bəli, Hz.Əli *(ə)* onları məhz bu cür sularla sirab edərdi. Hz.Əli *(ə)* özü onların dünyasından bəhrələnmədiyi bir halda nəsihət edərdi. Məqamını öhdəsinə götürsəydi, doğru və yalançı, təqvalı və həris insanlar bir-birindən fərqlənərdilər.

"Və əgər şəhərlərdə və kəndlərdə yaşayan camaat iman gətirib təqvalı olsalar yerin və göyün bərəkətləri onlar üçün açılar (onlara verilər). Amma onlar (həqiqətləri) inkar etdilər, biz də onları öz əməllərinin cəzasıyla cəzalandırdıq".[906]

"Və bu dəstədən o kəslər ki, zülm etdilər, öz pis əməllərinin cəzasına çatacaqlar və heç vaxt İlahi əzabın cəngəlliklərindən qaça bilməyəcəklər".[907]

Zəmanəyə bax! Ey kaş biləydim ki, bu camaat nəyə və kimə arxalanıb belə ailəyə təhqir və zülm edib pis yol seçdilər?!

Onlar bizə zülm etdilər və bizə kömək etmədilər. And olsun Allaha, möhkəm qanadları buraxıb toyuq qanadlarına yapışdılar. Kül olsun elə başlara ki, sahibləri yaxşı iş gördüklərini güman edirdilər, amma cahil tamahkardırlar.

"İtaət etmək üçün haqqa hidayət edən şəxs layiqlidirmi, ya özü hidayət olmayan şəxs? Məgər ki (başqası tərəfindən) hidayət oluna? Sizə nə olub? Necə də (batil) hökm verirsiniz?"[908]

Bilin! Canıma and olsun, sizin bu hərəkətiniz çox çəkməz, vaxt gələr ki, sona yetər. Cəza vaxtı çatdıqda azğınlar öz layiqli cəzalarını alarlar. Gələcək nəsillər isə özlərindən qabaq yaşayanların aqibətinə baxar, ibrət götürər.

Fitnə və bəla gözləyin, özünüzü iti qılınclar, zalımlar səltənəti, ümumi hərc-mərcliyə hazırlayın. Zalımlar sizi çalıb-çaparlar, sizin üçün çox az bir şey qoyarlar. Sizin cəmiyyətinizi qətlə yetirərlər. O vaxt düzgün rəhbərlik xəttindən ayrıldığınız üçün həsrət çəkərsiniz. Sizin qəlbləriniz kor olubdur."

---

[906] Əraf surəsi, ayə-96.
[907] Zümər surəsi, ayə-51.
[908] Yunis surəsi, ayə-35.

Hz.Fatimənin (s.ə) görüşünə gələnlər Həzrətin sözlərini öz ərlərinə çatdırdılar. Mühacir və ənsar böyüklərindən bəziləri üzr istəmək üçün Hz.Fatimənin (s.ə) hüzuruna gəlib belə ərz etdilər:

Ey dünya qadınlarının Xanımı! Əgər Əli *(ə)* xilafət məqamını tez bildirsəydi, biz ona beyət edərdik və başqa heç kimin ardınca getməzdik. Amma Əbu Bəkr qabağa düşdü, nəticədə, biz də ona beyət etmişik.

Hz.Fatimə (s.ə) onların cavabında buyurdu:

"Məndən uzaqlaşın. Artıq sizin üçün üzr gətirməyə bir bəhanə qalmayıbdır. Göstərdiyiniz süstlük, laqeydlik və günahınızdan sonra üzrxahlığa yer yoxdur. Niyə əvvəldən aldandınız?[909]

Hz.Fatimənin (s.ə) vəsiyyəti

Qəttal Nişapuri "Rövzətul-vənzin" kitabında belə yazır: "Hz.Fatimə (s.ə) qırx gün yataqda xəstə oldu və ondan sonra dünyasını dəyişdi. Ölümün yaxınlığını hiss etdikdə Ümmü Əyməni, Əsma binti Umeysi və Hz.Əlini *(ə)* istədi. Onlar Xanımın (s.ə) yanına gəlikdə o, Hz.Əliyə *(ə)* belə buyurdu:

"Ey əmim oğlu! Ölüm xəbəri mənə çatıb. Elə bilirəm ki, az bir müddətdən sonra atam Peyğəmbərə *(s)* qovuşacağam. Ürəyimdə olanı sənə vəsiyyət edirəm".

Hz.Əli *(ə)* buyurdu: "Ey Peyğəmbərin *(s)* qızı, istədiyini vəsiyyət elə."

O vaxt Əli *(ə)* Hz.Fatimənin (s.ə) baş tərəfində oturmuşdu. Evdə olanlara isə buyurdu: "Bizi tək buraxın."

Onlar tək qaldıqdan sonra Hz.Fatimə (s.ə) buyurdu:

"Ey əmim oğlu! Mənimlə evləndiyin gündən məndən xəyanət və yalan görməmisən. Mən heç vaxt sənə qarşı çıxmamışam."

Hz.Əli *(ə)* buyurdu:

"Xeyr, heç vaxt səndən elə şeylər görməmişəm. Sən həmişə ayıq, sevimli və əziz olmusan. Sənin Allah dərgahında olan xofun səni öz müxalifin kimi məlamət etməkdən daha çoxdur. Səndən ayrılmaq mənə çox çətindir. Amma nə edək ki, ölümə çarə yoxdur. And olsun Allaha! Elə bil, Peyğəmbərin *(s)* şəhadət müsibəti mənim üçün yenidən təkrarlanır. Səndən ayrılmaq və sənin yoxluğun çox böyük bir müsibətdir.

"Allah tərəfindən gəlmişik, Allaha doğru da qayıdacağıq".

Bu, çox acı bir müsibətdir.

"Bu müsibətin rahatlığı yoxdur və ürək yandıran, sağalmayandır".

Sonra bir müddət birlikdə ağladılar. Hz.Əli *(ə)* Hz.Fatimənin (s.ə) başını qucaqlayıb buyurdu:

"Nə istəyirsən, vəsiyyət elə. Sənin vəsiyyətinə əməl edərəm, sənin işini öz işimdən qabağa salaram."

Hz.Fatimə (s.ə) buyurdu:

---

[909]Ehticavi-Təbərsi, I cild, səh-147.

“Əmim oğlu, Allah özü sənin mükafatını versin. Məndən sonra bacım Zeynəbin qızı Ümamə ilə evlənərsən. Mənim üçün tabut düzəlt. Mənə zülm edənlərdən və haqqımı tapdalayanlardan heç biri mənim cənazəmin yanına gəlməsinlər, mənim üçün namaz qılmasınlar. Onlara itaət edənlər də gəlməsinlər. Məni gecə camaat yuxuya gedəndən sonra dəfn edərsən”.

“Misbahul-ənvar” kitabında İmam Sadiqin *(ə)* atasından eşitdiyi bir rəvayətdə belə deyilir: “Fatimə (s.ə) ehtizar vaxtında Hz.Əliyə *(ə)* belə vəsiyyət etmişdi:

“Mən səni Allaha tapşırıram və vəsiyyət edirəm ki, övladlarımla yaxşı rəftar edəsən.” Sonra qızı Ümmü Gülsümü bağrına basdı və Hz.Əliyə *(ə)* buyurdu: “Bu qızım həddi-buluğa çatanda evin bütün əşyaları onun olsun və Allah onun köməyi olsun”.

Hz.Fatimənin (s.ə) ağladığını görən Hz.Əli *(ə)* ondan ağlamağının səbəbini soruşdu.

Hz.Fatimə (s.ə) buyurdu: “Məndən sonra sənə yetişəcək azar və əziyyətlərə görə ağlayıram.”

Hz.Əli *(ə)* buyurdu: “Ağlama, and olsun Allaha, onun yolunda bu çətinliklər mənim üçün asandır.”

Sonra Hz.Fatimə (s.ə) buyurdu: “Ümmü Sələmə, Ümmü Əymən və Fizzədən başqa heç kəsə mənim dünyadan getməyim haqda xəbər vermə. Kişilərdən də iki oğlum, Peyğəmbərin *(s)* əmisi Abbas, Salman, Miqdad, Əbuzər və Hüzeyfəyə xəbər ver. Sənə də mən öləndən sonra məni görməyi halal edirəm. Dediyim qadınlarla mənə qüsl ver, məni gecə dəfn elə, qəbrimi ziyarət edəndə də heç kəsə demə.”

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Qurani-Kərim. Bakı-Qismət-2010. Ərəb dilindən tərcümə edənlər: Z. M. Bünyadov və V. M. Məmmədəliyev.
2. İbn Əbil Hədid, Nəhcül-Bəlağənin şərhi, tarixsiz.
3. Əbu Abdullah Məhəmməd ibn Səd, ət-Təbəqatul-Kubra, Beyrut-1398/1978.
4. Əbdülməlik ibn Hişam, əs-Sirətun Nəbəviyyə, Beyrut-1391/1971, Qahirə-1987.
5. Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir əş-Şafii, Tarixi ibn Kəsir, tarixsiz.
6. Əbdürrəhman Şərəf, Zubdətul-Qisas, İstanbul-1915.
7. Anonim, Anadolu Selçuklu Tarihi III, ter. F. Nafız Uzluk, Ankara-1952.
8. Əbu Abdullah Məhəmməd ibn İsmail Buxari, əl-Camius-Səhih, ər-Riyad-1999, İstanbul-1315.
9. Qəzvini, Asarul-Bilad, Beyrut, 1960.
10. Əbu Cəfər Məhəmməd ibn Cərir, Tarixul-Uməmu vəl-Muluk, Beyrut-1407/1987.
11. Cahiz, Mənaqib-u Cundul-Xəlifə və Fəzailul-Ətrak, tər. Ramazan Şeşen, İstanbul, 1967.
12. seyid Cəfər Sübhani, İslam tarixi, Bakı-2005.
13. Əbu Abdullah Məhəmməd ibn Ömər ibn Vaqidi, Məğazi, Beyrut-1404/1984.
14. Əllamə Məclisi, Biharul-Ənvar, Beyrut-1403/1983.
15. Muhəmməd Həmidullah, İslam Peyğəmbəri, tər. Sait Mutlu, cild I-II, İstanbul, 1966.
16. Hakim Nişapuri, Mustədrəku alə Səhiheyn, Darul-kutubil-ilmiyyə, Beyrut.
17. Əhməd ibn Əbu Yəqub İshaq ibn Vazeh İsfəhani, Tarixi-Yəqubi, Beyrut-1993.
18. Həsən əl-Yəzdi, Camiut-Təvarix, Fatih, Ktb. nr. 4307.
19. Şeyx Müfid, əl-İrşad, Müəssətu Əhli-Beyt, Beyrut-1993.
20. Əhməd ibn Hənbəl, Müsnədi-Əhməd, Muəssisətu Qurtubə, Misir-1313.
21. Məhəmməd ibn İsa ət-Tirmizi, əs-Sünən, Qahirə1965, Dəməşq-2004.
22. Cəlaləddin Siyuti, əd-Durrul mənsur.
23. Hakim Həsqani, Şəvahidut-tənzil, Beyrut-1393/1974.
24. İbn Əzrəq, Tarixi-Faruki, nəşr. Dr. Bədəvi, Qahirə-1959.
25. Müttəqi-Hindi, Kənzul-Ummal, Muəssisətur-Risalət, Beyrut çapı, tarixsiz.
26. Əbul-Hüseyn Müslim ibn əl-Həccac əl-Quşeyri, əl-Camius-Səhih, Qahirə-1955, ər-Riyad-2000.
27. Darəmi, Sünəni-Darəmi.

28. Beyhəqi, əs-Sünənul-Kubra, Heydərabad-1352.
29. Bahəuddin İsfəndiyar, Tarixi-Təbətistan, nəşr, A. İqbal, Tahran, hş. 1320.
30. Əli ibn Məhəmməd əş-Şeybani, Usdul-ğabə, M. İbrahim əl-Bənna nəşri, Qahirə, 1970.
31. Nəsai, Xəsaisun-Nəsai.
32. Xətib Bağdadi, Tarixi-Bağdad.
33. Əhməd ibn Hüseyn əl-Beyhəqi, Məcməuz-Zəvaid, Qahirə.
34. Ebul-Fida, əl-Melikul-Müeyyed İmaduddin İsmail, El-Muhtasar fi Tarihil-Beşer, neşr. Edip Arif, Beyrut, 1956-1961.
35. Əhməd ibn Hacər əl-Heytəmi, əs-Səvaiq-muhriqa, Beyrut-1993.
36. Əli ibn Məhəmməd ibn Həbib Mavərdi, əl-Əhkamus-Sultaniyyə, tər. Əli Şəfəq, İstanbul-1976.
37. Mahmud Əsad, Tarix-i Din-i İslam, nəşr, Kazancı, İstanbul-1983.
38. Şeyx Əbdurrauf Mənavi Misri, Feyzul-Qədir.
39. Tarixi ibn Əsakir, Beyrut çapı, 1908.
40. Süleyman Nədvi, Əsr-i Səadət, tər. Ö. Rza, İstanbul 1347/1927.
41. Genç Reşad, Karahanlı Devlet Teşkilatı, İstanbul-1981.
42. Handmir, Habibus-Siyer fi Ahbarı-Efrad-ı Beşer, Tahran hş. 1333.
43. Levis Bernard, Tarihte Araplar, ter. Hakkı Dursun Yıldız, İstanbul-1979.
44. Əli ibn Məhəmməd ibn Əsir əş-Şeybani, əl-Kamil fit-Tarix, Beyrut-1385/1965.
45. Əhməd ibn Yəhya Bəlazuri, Futuhul-Buldan, tər. M. Fayda, Ankara-1987.
46. Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir, əl-Bidayətu vən-Nihayə, Beyrut-1966 və 1981.
47. Əbul-Həsən Əli ibn Hüseyn Məsudi, Murucuz-Zəhəb, Misir-1964, Beyrut-1989.
48. Əbu Abdullah Məhəmməd ibn Ömər əl-Vaqidi, Futuhuş-Şam, Beyrut, tarixsiz.
49. Abdulkerim Özaydın, Muhammed Tapar Devri Büyük Selçuklu İmparatorluğu, TTK, Ankara-1990.
50. Muhibbəddin Təbəri, Zəxairul-uqbə, Muəssisətul-qudsi, Qahirə.
51. Tarixul-Xəmis.
52. Əhməd ibn Yəhya Bəlazuri, Ənsabul-Əşraf, nəşr Əbdüləziz əd-Duri, Beyrut-1978.
53. Merçil Erdoğan, Müslüman Türk Devletleri Tarihi, İstanbul-1985.
54. Əbdulvəhhab Nəccar, əl-Xuləfai-Raşidin, Darul-Fiker, tarixsiz.
55. Səbt ibn Cövzi Hənəfi, Təzkirətul-Xəvass .
56. Məhəmməd ibn Yəqub Küleyni, Usuli-Kafi, Beyrut-2008.
57. Süleyman Bəlxi, Yənabiul-Məvəddət.
58. Məhəmməd ibn Yusif Gənci Şafii, Kifayətut-talib.
59. İbn İshaq, İhqaqul-həqq.
60. İmam Qəzzali, Ehyaul-Ulum.

61. Muhammed Rıza, el-Faruk Ömer b. Hattab, Beyrut, 1407/1987.
62. Yaqut əl-Həməvi, Mucəmul-Buldan, cild I-V, Beyrut-1955-1957.
63. İzzəddin Hənbəli, Kəşful-Ğummə.
64. Muntəxəbut-təvarix.
65. İbn Hacər Əsqəlani, Fəthul-bari.
66. Carullah Zəməxşəri, Rəbiul-əbrar.
67. Carullah Zəməxşəri, əl-Kəşşaf, Beyrut-1995.
68. Əbu Həyyan Əndəlusi, əl-Bədrul-muhit.
69. Məhəmməd ibn Əhməd əl-Qirtəbi, Təfsiri-Qirtəbi, Beyrut-1996.
70. Qazi Nəsruddin Beyzavi, Ənvarut-tənzil.
71. Fəzl ibn Həsən ət-Təbərsi, Məcməul-Bəyan, Beyrut-1997.
72. Cəlaluddin Siyuti, əl-İtqan.
73. Əbu Nəim İsfəhani, Hilyətul-övliya.
74. Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir, Təfsirul-Quranil-Əzim, Beyrut-1989.
75. Həbib Əbu Bəkr ibn Şəhabəddin, Rəşfəzus-Sadi, Misir çapı.
76. Sələbi, Mənaqib.
77. Cəlaluddin Siyuti, Tarixul-Xüləfa, Qahirə-1969.
78. Hafiz Təbarani, Mucəmul-Kəbir, Dehli çapı.
79. Zəhəbi, Təzkirətul-huffaz.
80. Fəzl ibn Həsən ət-Təbərsi, Ehticac.
81. İbn Məğazəli, Mənaqib.
82. Mirseyid Əli Həmədani Şafii, Məvəddətul-qurba.
83. Şeyx Tusi, Təhzibul-Əhkam, Beyrut-2008.
84. Məhəmməd ibn İsa ət-Tirmizi, Mənaqib.
85. Nuri Ünlü, İslam Tarihi, İstanbul-1997.
86. İbn Cavad Əfdaluddin, İslam Tarixi, İtanbul-1326/1328.
87. Şəhristani, əl-Miləl vən-Nihəl, Misir-1961.
88. Xudari, Dövləti-Əməviyyə, Darul-Fiker, tarixsiz.
89. İbn Şəhr Aşub, Mənaqibu Ali ibn Əbu Talib, Beyrut-1985.
90. Əllamə Hairi, Dairətul-Məarif, Beyrut-1993.
91. Şeyx Səduq, Kəmaluddin və Təmamun-Nimət.
92. Əl-Qumi, Nəfsul-Məhmum.
93. Şeyx Abbas Qummi, İmam Hüseynin həyatı.
94. Əllamə Məclisi, Cəlalul-uyun.
95. Şeyx Küleyni, Rəsail.
96. Əbulqasim Cəfər ibn Məhəmməd ibn Qəvləviyyə, Kamiluz-ziyarət, Qum-1424 h.
97. Safiyud-Din Məhəmməd ibn Təqtəqa, əl-Fəxri fil-Adabis-Sultaniyyə vəl-Duvəlil-İslamiyyə, Qahirə, 1927.
98. Yusif Hikmət Bayur, Hindistan tarixi, Ankara-1946.
99. Ziya Paşa, Tarixi-Əndəlus, c. I-III, İstanbul-1276.
100. Qamusur-Rical.

101. İxtiyari-mərifətir-rical.
102. Təbsirətul-əvam.
103. Böyük İslam Tarihi, Çağ yayınlar.
104. Ostrogorsky, Bizans Devleti Tarihi, çevirən: Fikret Işıltan, Ankara-1991.
105. Şeyx Abbas Qummi, Müntəhal-Amal.
106. Seyid ibn Tavus, Təraif.
107. Hitti, İslam Tarixi, tər. S. Tuğ, İstanbul-1980-1981.
108. Bartold, Bərməkilər.
109. Seyid ibn Tavus, Əl-ənvarul-bəhiyyə.
110. Natiq Rəhimov, İslam Tarixi, Bakı-2005.
111. Şeyx Səduq, Məaniyyul-əxbar.
112. Əmini, əl-Qədir.
113. Şəhid Məhəmməd Baqir Sədir, Fədək fit-tarix.
114. Mühəqqiq seyid Əli, İmam Rzanın həyatı.
115. seyid Mustafa Hüseyn Dəşti, Məarif-məariyf.
116. Şeyx Abbas Qummi, Tətimmətul-müntəha.
117. Əbul Fərəc İsfəhani, Məqatilut-talibiyyin, Beyrut-1987.
118. Ayətullah Feyzul-İslam, Nəhcül-bəlağə, III nəşr, İİR, Mədəniyyət Mərkəzi-2009.
119. Seyid Məhəmməd Nəcəfi Yəzdi, Əmirul-möminin öngörmələri.
120. Süleyman ibn Əşas Əbu Davud əs-Sicistani, əs-Sünən, Misir-1952.
121. Məhəmməd ibn Yəzid ibn Macə, Sünəni ibn Macə, I nəşr, 2004.
122. Əllamə Hilli, Nəhcül-həqq və kəşg-üs-sidq.
123. Xudari, Devlətul-Abbasiyyə, Darul-Fiker, tarixsiz.
124. Şeyx Abbas Qummi, Səfinətul-bihar.
125. Müqəddəs Ərdəbili, Hədiqət-uş-şiə.
126. Yılmaz Öztuna, İslam Devletleri, Ankara-1989.
127. Mahmud Şakir, Hz.Ademden bugüne İslam Tarihi, Kahraman Yayınları.
128. Həsən İbrahim Həsən, Tarixul-İslam, Qahirə-1964.
129. İdris ibn Həsən, Uyunul-əxbar, Beyrut-1986.
130. Diyanet İslam Ansiklopedisi.
131. Əli Əsgər Fəqihi, Ali-Buyə və Əvzauz-Zamani-İşan, Tehran-1978.
132. Yevgeni Belyayev, Müsəlman-təriqətləri, Bakı-1991.
133. Nasir Xosrov, Səfərnamə, nəşr: M. Qənizadə, Berlin-1340 və Moskva-1933.
134. Yiğit İ, İslam tarihi, Memlükler, İstanbul-1991.
135. İbn Xəldun, Kitabul-İber, Liviya-1958.
136. İmaduddin, Əndəlusun siyasi tarixi, tərcümə: Yusif Yazar, Ankara-1990.
137. İbrahim Həsən, Tarixi-İslam, Misir-1967.
138. İslam Ansiklopedisi.
139. Merçil Ərdoğan, Qezneliler Devleti Tarihi, TTK, Ankara-1989.
140. İbrahim Kafesoğlu, Selçuklu Tarihi, İstanbul, 1972.

141. Köymən, Büyük Selçuk İmperatorluğunun Kuruluş Devri, Ankara-1963.
142. Ravəndi, Rahatus-Sudur və Ayətus-Surur, TTK yayınları, Ankara-1957-1960.
143. Əbul-Fərəc Gregori, Tarix, tərcümə: Ö, R. Doğrul, Ankara-1945-1950.
144. Yınanç, Türkiyə Tarihi Selçuklular Devri, İstanbul-1944.
145. Bundari, İrak və Horasan Selçukları, tərcümə: K. Burslan, TTK yayınlar, Ankara-1943.
146. Sədrəddin əl-Hüseyni, Əhbarud-Dövlə, tər. Necati Lugal, Ankara-1943.
147. Sibt ibn Cevzi, Miratuz-zamandan seçmələr, tər. Ali Sevim, Ankara-1968.
148. Əhməd ibn Mahmud, Səlcuqnamə, E. Merçil, İstanbul-1997.
149. Merçil, Kirman Selçuqları, İstanbul-1980.
150. A.Sevim, Suriya Selçukları, Ankara-1965.
151. Özaydın, Muhammed Tapar Devri, TTK, Ankara-1990.
152. Azərbaycan tarixi, Çıraq nəşriyyatı, Bakı-2009.
153. H.Rzazadə, Negahi-müxtəsər be zingdefe-yi Şah İsmail-i Səfəvi, "Ərdəm", 1/4. 1381.
154. Namiq Musalı, I Şah İsmailin hakimiyyəti, Bakı-2011.
155. Oqtay Əfəndiyev, Azərbaycan Səfəvilər Dövləti, Bakı-1993.
156. A.Bakıxanov, Gülüstani-İrəm, Bakı-1951.
157. A.Müller, İslam Tarixi, Sankt-Peterburq-1896.
158. Ş.F.Fərzəlibəyli, Azərbaycan və Osmanlı İmperiyası.
159. Runciman, Xaçlı Səfərləri, TTK, Ankara-1986.
160. Urfalı Mateos, Vekayi-name, Ankara-1987.
161. Turan, Selçuklular Zamanında Türkiyə, İstanbul-1971.
162. Şeşen R, Salahaddin Eyyubi ve Devlet, İstanbul-1987.
163. Körpülü Fuat, Osmanlı İmperatorluğunun Kuruluşu.
164. Öztuna Yılmaz, Türkiyə Tarihi, İstanbul-1963-1967.
165. Uzunçarşılı İ. Hakkı, Osmanlı Tarihi, TTK yayınları, Ankara-1954-1983.
166. Gibbons, Osmanlı İmperatorluğu Kuruluşu, tərcümə: Rağib Hulusi, İstanbul-1928.
167. Danişmend İ. Hami, İzahlı Osmanlı Tarihi Kronolojisi, İstanbul-1971.
168. Mehmet Halife, Tarihi-Gilmani, İstanbul-1976.
169. Silahtar Mehmet Ağa, Tarihi-Silahtar, İstanbul-1928.
170. Süleyman Duyğu, Genel Tarih, Ankara 1977-1978.

MÜNDƏRİCAT

ÖN SÖZ 3
GİRİŞ 5

BİRİNCİ FƏSİL. MƏKKƏ VƏ MƏDİNƏ DÖVRÜ
1. İslam tarixi haqqında ümumi məlumat 7
2. Dinlər haqqında ümumi məlumat 8
3. Milli və ilahi dinlər 10
4. Müqəddəs kitablara iman 11
5. Peyğəmbərlərə iman 11
6. İslamiyyətdən əvvəl Ərəbistan 12
7. Əshabi-Uxdud hadisəsi 15
8. Yalançı Peyğəmbərlər hərəkatı 16
9. Hz.Peyğəmbərin *(s)* ataları 17
10. Hz.Peyğəmbərin (s) həyatı 18
11. Gizli və açıq dəvət 22
12. Müşriklərin islama düşmən olmasının səbəbləri 24
13. Əbu Talibin imanı 24
14. Hicrətlər 25
15. Merac və İsra hadisələrə 29
16. Qəzvə və səriyyələr 29

HİCRƏTİN BİRİNCİ İLİ BAŞ VERƏN HADİSƏLƏR
1. Məscidun-Nəbi inşa edildi 29
2. İlk cümə namazı qılındı 30
3. Mühacir və ənsarlar arasında qardaşlıq elan olundu 30
4. Yəhudilərlə müsəlmanlar arasında müqavilə imzalandı 30
5. Hz.Peyğəmbər *(s)* Aişə binti Əbu Bəkrlə evləndi 30

HİCRƏTİN İKİNCİ İLİ BAŞ VERƏN HADİSƏLƏR
1. Kəbə müsəlmanların qibləsi oldu 30
2. Ramazan orucu müsəlmanlara vacib buyuruldu 31
3. Fitrə vacib oldu 31
4. İlk bayram namazı qılındı 31
5. Zəkat vacib oldu 31
6. Əbva qəzvəsi 31
7. Buvav qəzvəsi 31
8. Zil-Əşirə qəzvəsi 31
9. Birinci Bədr qəzvəsi 31
10. Böyük Bədr qəzvəsi və ya II Bədr döyüşü 32
11. Bəni-Qaynuqa qəzvəsi 32
12. Hz.Həmzə səriyyəsi 32
13. Ubeydə ibn Haris səriyyəsi 32

14. Səd ibn Əbu Vəqqas səriyyəsi 33
15. Bətən-Nəxləyə səriyyəsi 33
16. Zeyd ibn Haris səriyyəsi 34
17. Hz.Peyğəmbərin *(s)* qızı Ruqiyyə vəfat etdi 34
18. Hz.Əli *(ə)* ilə Hz.Fatimə (s.ə) evləndi 34

HİCRƏTİN ÜÇÜNCÜ İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Məhəmməd ibn Məsləmə səriyyəsi 34
2. Hz.Peyğəmbər *(s)* Həfsə binti Ömər və Zeynəb binti Hüzeymə ilə evləndi 34
3. Osman ibn Əffan Hz.Peyğəmbərin *(s)* qızı Ümmü Gülsüm ilə evləndi 34
4. Suyuq qəzvəsi 34
5. Uhud döyüşü 35
6. Həmraul-Əsəd qəzvəsi 36
7. Qərqərətəlkədr qəzvəsi 36
8. Ənmar qəzvəsi 37
9. Bəhran qəzvəsi 37
10. İmam Həsən *(ə)* anadan oldu 37

HİCRƏTİN DÖRDÜNCÜ İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Bəni-Əsəd səriyyəsi 37
2. Rəci faciəsi 37
3. Biri-Maunə faciəsi 37
4. Üçüncü Bədr qəzvəsi 38
5. Bəni-Nəzir qəzvəsi 38
6. Hz.Peyğəmbərin *(s)* xanımı Zeynəb binti Hüzeymə vəfat etdi 39
7. Hz.Peyğəmbər *(s)* Ümmü Sələmə ilə evləndi 39
8. Hz.Əlinin *(ə)* anası Fatimə binti Əsəd vəfat etdi 39
9. İçki haram buyuruldu 39
10. İmam Hüseyn *(ə)* anadan oldu39

HİCRƏTİN BEŞİNCİ İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Bəni-Müstəliq qəzvəsi 39
2. Hz.Peyğəmbər *(s)* Zeyd ibn Harisin arvadı Zeynəb binti Cahşla evləndi 40
3. Təyəmmüm vacib oldu 40
4. Hicab vacib oldu 40
5. Hz.Əlinin *(ə)* qızı Zeynəb anadan oldu 40
6. Xof namazı vacib oldu 40
7. Xəndək qəzvəsi 41
8. Bəni-Qureyzə qəzvəsi 43
9. Dumətul-Cəndəl qəzvəsi 44

HİCRƏTİN ALTINCI İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Zatur-riqa qəzvəsi ... 44
2. Bəni-Ləhyan qəzvəsi ... 44
3. Zi-qərəd qəzvəsi ... 45
4. Məhəmməd ibn Müslim səriyyəsi ... 45
5. Hz.Əli *(ə)* səriyyəsi ... 45
6. Hüdeybiyyə sülhü ... 45
7. Xeybərin fəthi ... 46
8. Fədəkin Hz.Fatiməyə (s.ə) verilməsi ... 48
9. Hz.Peyğəmbər *(s)* Səfiyyə binti Haris və Meymunə ilə evləndi ... 48
10. Qadınlara iddə təyin olundu ... 48
11. Vadi-əl-Qura qəzvəsi ... 48

HİCRƏTİN YEDDİNCİ İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Umrə ziyarəti ... 49
2. Əmr ibn As və Xalid ibn Vəlid islamı qəbul etdi ... 49
3. Mutə döyüşü ... 49
4. Hz.Peyğəmbər *(s)* Ümmü Həbibə binti Əbu Süfyanla evləndi ... 49
5. Zatus-Səlasil döyüşü ... 49
6. Hz.Peyğəmbərin *(s)* Nəcran xristianları ilə mübahilə etməsi ... 50
7. Hz.Peyğəmbər *(s)* Mariya əl-Qibtiyyə ilə evləndi ... 51
8. Hz.Əlinin *(ə)* qızı Ümmü Gülsüm anadan oldu ... 51

HİCRƏTİN SƏKKİZİNCİ İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Məkkənin fəthi ... 51
2. Hüneyn döyüşü ... 53
3. Taifin mühasirəsi ... 54
4. Ovtas döyüşü ... 54
5. Hz.Peyğəmbərin *(s)* oğlu İbrahim anadan oldu ... 55
6. Hz.Peyğəmbərin *(s)* qızı Zeynəb vəfat etdi ... 55
7. Yəhudi şair Kəb ibn Züheyr islamı qəbul etdi ... 55
8. Hz.Peyğəmbər *(s)* umrə ziyarətini yerinə yetirdi ... 55

HİCRƏTİN DOQQUZUNCU İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Təbuq qəzvəsi ... 55
2. Bətni-Əqəbə hadisəsi ... 57
3. Həcc vacib oldu ... 57
4. Münafiq Abdullah ibn Ubey vəfat etdi ... 57
5. Həbəşistan kralı Nəcaşi vəfat etdi ... 57
6. Hz.Peyğəmbərin *(s)* oğlu İbrahim vəfat etdi ... 57
7. Məscidul-Ziranın uçurulması ... 57
8. Bəraət ayələti nazil oldu ... 57
9. Hz.Əlinin *(ə)* iştirakı ilə Teyy müharibəsi baş verdi ... 58

HİCRƏTİN ONUNCU İLİ BAŞ VERƏN HADİSƏLƏR

1. Vida həcci ... 58
2. Usamə bin Zeydin Bizansa qarşı göndərilməsi ... 58
3. Hz.Peyğəmbərin *(s)* vəfatı ... 58
4. Vəhylər ... 58
5. Qurani-Kərim ... 59
6. Sünnə ... 61
7. Təfsir elmi ... 62
8. Hədis elmi ... 63
9. Mübarək gün və gecələr ... 64
10. Hz.Peyğəmbərin *(s)* xanımları ... 65

İKİNCİ FƏSİL RAŞİDİLƏR DÖVRÜ (632-661)

I. ƏBU BƏKRİN XİLAFƏT DÖVRÜ (hicri 11-13/miladi 632-634)

1. Əbu Bəkr ibn Əbu Quhafə ... 67
2. Səqifə hadisəsi və Əbu Bəkrin xəlifə seçilməsi ... 68
3. Əbu Bəkrin xilafəti dövründə baş verən hadisələr ... 69
4. Əbu Bəkrin xilafəti dövründə Sasanilərə qarşı baş verən hadisələr ... 70
5. Vəlәcə və Ulleysdə baş verən döyüşlər ... 70
6. Hirə şəhərinin fəthi ... 71
7. Müsənna ibn Harisin İraqdakı fəaliyyəti ... 71
8. Əbu Bəkrin Bizansa qarşı apardığı mübarizə ... 72
9. Əbu Bəkrin ailəsi ... 72

II. ÖMƏR İBN XƏTTABIN XİLAFƏT DÖVRÜ
(hicri 13-23/miladi 634-644)

1. Öməri ibn Xəttab ... 73

ÖMƏRİN DÖVRÜNDƏ SASANİLƏRƏ QARŞI BAŞ VERƏN DÖYÜŞLƏR

1. Körpü döyüşü ... 74
2. Büveyb döyüşü ... 74
3. Qadisiyyə döyüşü ... 75
4. Mədainin fəthi ... 75
5. Cəlula döyüşü ... 75
6. Cəzirənin fəthi ... 76
7. Əhvazın fəthi ... 76
8. Bəyreyndən İrana açılan cəbhə ... 77
9. Nəhavənd döyüşü ... 77

ÖMƏRİN DÖVRÜNDƏ BİZANSA QARŞI EDİLƏN DÖYÜŞLƏR

1. Əcnadeyn döyüşü ... 79
2. Fihl döyüşü ... 79
3. Şamın fəthi ... 79

4. Mərc əl-Rum döyüşü ... 79
5. Xımsın fəthi ... 80
6. Fələstinin fəthi ... 80
7. Hicazda qıtlıq ... 80
8. Amaves taunu ... 81
9. Misirin fəthi ... 81
10. İsgəndəriyyənin fəthi ... 81
11. Problemlərin meydana çıxması ... 82
12. Ömər ibn Xəttabın ailəsi ... 83

III. OSMAN İBN ƏFVANIN XİLAFƏTİ (hicri 23-35/miladi 644-656)

1. Osman ibn Əfvan ... 83
2. Osmanın dövründə baş verən fəthlər ... 85
3. Osman ibn Əfvanın ailəsi ... 87

IV. HZ. ƏLİ İBN ƏBU TALİBİN *(ə)* XİLAFƏTİ (hicri 35-40/miladi 656-661)

1. Hz.Əli (ə) ... 87
2. Hicrət gecəsi ... 91
3. Hicrətdən sonra Hz.Əli (ə) ... 92
4. Hz.Əli *(ə)* Bədr döyüşündə ... 93
5. Hz.Əli *(ə)* Uhud döyüşündə ... 93
6. Hz.Əlinin *(ə)* imaməti haqqında ... 94

HZ. ƏLİNİN *(ə)* XƏLİFƏLİK DÖVRÜ

1. Hz.Əlinin *(ə)* xəlifə seçilməsi ... 97
2. Naqisin döyüşü ... 98
3. Siffeyn döyüşü ... 100
4. Nəhrəvan döyüşü ... 104
5. Hz.Əlinin *(ə)* şəhadəti ... 107
6. Hz.Əlinin *(ə)* ailəsi ... 108
7. Hz.Əli *(ə)* Qurani-Kərimdə ... 109
8. Hz.Adəmin *(ə)* tövbəsi ... 132
9. Hz.Əli *(ə)* haqqında Peyğəmbər *(s)* hədisləri ... 132
10. Hz.Cəbrailin *(ə)* möhürlənmiş kitabı Hz.Peyğəmbərin *(s)* vəsisi Hz.Əli *(ə)* üçün gətirməsi ... 139

V. İMAM HƏSƏNİN *(ə)* XİLAFƏTİ (miladi 661) ... 140

III FƏSİL ƏMƏVİLƏR XİLAFƏT (661-750)

1. Bəni-Umeyyənin soyu ... 145
2. I Müaviyə ibn Əbu Süfyan ... 146
3. Müaviyənin İslama zidd olan hərəkətləri ... 146
4. Müaviyənin Hz.Əlinin *(ə)* tərəfdarları ilə sərt rəftarı ... 148
5. Müaviyənin atası bəlli olmayan Ziyad ibn Əbihini özünə qardaş seçməsi ... 148

6. Müaviyənin xalqla rəftarı 149
7. Müaviyənin dövründə baş verən fəthlər 150
7.1. Türkistan fəthləri 150
7.2. Anadolu və İstanbul səfərləri 151
7.3. Şimali Afrikanın fəthi 152
8. Xəvaric üsyanı 153
9. I Yezid ibn Müaviyənin xilafəti 153
10. Hz.Hüseynin *(ə)* İraqa yola düşməsi 154
11. Məkkə və Mədinədə üsyanlar 155
12. Hərrə faciəsi 156
13. Məkkənin mühasirəsi 157
14. İmam Hüseyn (ə) 157
15. İmam Hüseynin *(ə)* şəhadəti haqqında hədislər 159
16. İmam Hüseynin *(ə)* Mədinədən Məkkəyə gəlməsi 162
17. İmam Hüseynin *(ə)* Məkkəyə daxil olması və Kufə
əhlindən gələn məktublar 164
18. İmam Hüseynin *(ə)* Müslim ibn Əqili Kufəyə göndərməsi 166
19. Müslim ibn Əqilin Kufəyə gəlməsi və camaatın onunla beyəti 167
20. İmam Hüseynin *(ə)* Kərbəlaya tərəf yola düşməsi 170
21. İmam Hüseynin *(ə)* Hürr ibn Yezid Riyahi ilə görüşməsi 173
22. İmam Hüseynin *(ə)* Kərbəlaya daxil olması 173
23. Tasua gününün hadisələri və Şimr ibn Zilcövşənin
Kərbəlaya daxil olması 176
24. Vəhəb ibn Abdullah və Müslim ibn Ovsəcənin şəhadəti 178
25. Həbib ibn Məzahir və Səid ibn Abdullahın şəhadəti 179
26. Züheyr ibn Qeynin, Nafe ibn Hilalın, Əbdürrəhman
və Abdullah Qifarinin şəhadəti 179
27. Hənzələ ibn Əsəd Şibaminin, Şuzəbin, Abbasın və Əbu Şəsə
Bəhdəli Kindinin şəhadəti 180
28. Covnun, Həccac ibn Məsruq və Əmr ibn Qərəzə ibn Kəb Ənsari
Xəzrəcin şəhadəti 180
29. Aşura günü Haşimi övladlarının şəhadəti 181
30. Abdullah ibn Müslim ibn Əqilin şəhadəti 181
31. Qasim ibn İmam Həsənin *(ə)* şəhadəti 182
32. Hz.Əbulfəzl Abbas ibn Əlinin *(ə)* şəhadəti 182
33. Hz.Hüseynin *(ə)* şəhadəti 183
34. İmam Hüseynin *(ə)* şəhadətindən sonra baş verən hadisələr 185
35. Şəhidlərin başlarının Kufəyə göndərilməsi 186
36. Şəhidlərin dəfni 186
37. Əhli-beyt əsirlərinin İbn Ziyadın sarayına daxil olması 187
38. Əsirlərin Şama daxil olması 188
39. Əhli-beytin Yezidin sarayına daxil olması 189

40. Yezidin Əhli-beyti Mədinəyə yola salması 192
41. Əhli-beytin Mədinəyə daxil olması 194
42. İmam Hüseynin *(ə)* inqilabının səbəbləri 195
43. Hədisi-Şəriflərdə İmam Hsüeynə *(ə)* ağlamağın səbəbi 196
44. II Müaviyə ibn Yezid 197
45. I Mərvan ibn Həkəm 198
46. Təvvabin üsyanı 199
47. Əbdülməlik ibn Mərvan 199
48. Muxtar əs-Səqəfinin üsyanı 200
49. Həcca ibn Yusif əs-Səqəfinin Məkkə səfəri 201
50. Şimali Afrika hadisələri 203
51. Bizansla müharibələr 203
52. Əbdürrəhman ibn Məhəmməd ibn Əşəsin qiyamı 204
53. I Vəlid ibn Əbdülməlik 205
54. Türkistan və Qərb fəthləri 205
55. Anadolu səfərləri 206
56. Şimali Afrika və İspaniyanın fəthi 206
57. Həccacın ölümü 208
58. İmam Zeynul-Abidin (ə) 208
59. Süleyman ibn Əbdülməlik 211
60. İstanbulun mühasirəsi 212
61. Ömər ibn Əbdüləziz 213
62. Ömər ibn Əbdüləzizin həyata keçirdiyi islahatlar 213
63. II Yezid ibn Əbdülməlik 216
64. Mühəlləbilər 216
65. Maveraunnəhrdəki vəziyyət 216
66. Hişam ibn Əbdülməlik 217
67. Türkistan hadisələri 217
68. Xəzər türkləri ilə mübarizə 218
69. İspaniyanın vəziyyəti 219
70. Anadolu döyüşləri 219
71. Zeyd ibn Əlinin qiyamı 220
72. Hz.İmam Məhəmməd Baqir (ə) 222
73. II Vəlid ibn II Yezid 224
74. III Yezid ibn I Vəlid 225
75. İbrahim ibn I Vəlid 226
76. II Mərvan ibn Məhəmməd 227
77. Əməvi xilafətinin təhlili 227
78. Əməvilər xilafətini yıxan səbəblər 229

IV FƏSİL ABBASİLƏR XİLAFƏTİ (750-1258)

1. Bəni-Abbasın soyu 231
2. Xorasan üsyanı və Abbasilərin hakimiyyətə gəlməsi 232

3. Əbul-Abbas Səffah 233
4. Əbul-Abbasın Əməvilərdən intiqam alması 235
5. Abbasilər xilafətinə qarşı üsyanlar 236
6. Talas döyüşü 236
7. Paytaxtın Haşimiyyəyə köçürülməsi 237
8. Əbu Cəfər Mənsur Dəvaniqi 238
9. Abdullah ibn Əlinin üsyanı 238
10. Əbu Müslim Xorasaninin öldürülməsi 240
11. Ravəndilər üsyanı 240
12. Hicrətin 138-ci ili (miladi 756) baş verən hadisələr 241
13. Hicrətin 139-cu ili (miladi 756-757) baş verən hadisələr 241
14. Hicrətin 140-cı ili (miladi 757-758) baş verən hadisələr 242
15. Hicrətin 141-ci ili (miladi 758) baş verən hadisələr 242
16. Hicrətin 142-ci ili (miladi 759) baş verən hadisələr 243
17. Hicrətin 143-cü ili (miladi 760-761) baş verən hadisələr 243
18. Hicrətin 144-145-ci ili (miladi 762-763) baş verən hadisələr 243
19. Hicrətin 146-cı ili (miladi 763) baş verən hadisələr 245
20. Afrika və Əndəlüsdə fəthlər 246
21. Hz.İmam Sadiq (ə) 247
22. İmam Sadiqin *(ə)* Əbu Hənifə ilə elmi münazirəsi 247
23. İmam Sadiqin *(ə)* kəlamlarından 248
24. Əbu Abdullah Məhəmməd Mehdi 249
25. Hicrətin 159-cu ili (miladi 776) baş verən hadisələr 249
26. Hicrətin 160-cı ili (miladi 777) baş verən hadisələr 249
27. Hicrətin 161-ci ili (miladi 777-778) baş verən hadisələr 250
28. Müqənnenin üsyanı 250
29. Hicrətin 162-ci ili (miladi 778-779) baş verən hadisələr 251
30. Hicrətin 163-cü ili (miladi 780) baş verən hadisələr 251
31. Hicrətin 164-cü ili (miladi 781) baş verən hadisələr 251
32. Hicrətin 165-ci ili (miladi 782) baş verən hadisələr 222
33. Mehdi və Əhli-beyt 252
34. Musa ibn Məhəmməd Hadi 253
35. Fəxx şəhidi Hüseyn ibn Əlinin şəhadəti 253
36. Əbu Cəfər Harun ər-Rəşid 255
37. Hicrətin 174-cü ili (miladi 790) baş verən hadisələr 257
38. Hicrətin 176-cı ili (miladi 792) Yəhya ibn Abdullahın qiyamı və Harunun Əhli-beytə münasibəti 258
39. Hicrətin 177-ci ili (miladi 793) baş verən hadisələr 260
40. Hicrətin 178-ci ili (miladi 794) baş verən hadisələr 260
41. Hicrətin 179-cu ili (miladi 795) baş verən hadisələr 261
42. Hicrətin 180-ci ili (miladi 796) baş verən hadisələr 261
43. Hicrətin 181-ci ili (miladi 797) baş verən hadisələr 262

44. Hicrətin 182-ci ili (miladi 798) baş verən hadisələr 262
45. Hicrətin 183-cü ili (miladi 799) baş verən hadisələr 262
46. Hicrətin 186-cı ili (802-803) baş verən hadisələr 263
47. Hicrətin 187-ci ili (miladi 803-804) baş verən hadisələr 264
48. Hicrəti 190-cı ili (miladi 806) baş verən hadisələr 266
49. Hicrətin 191-ci ili (miladi 807) baş verən hadisələr 267
50. Hicrətin 192-ci ili (miladi 808) baş verən hadisələr 267
51. Şimali Afrikada vəziyyət 267
52. Avropa ilə əlaqələr 268
53. Hz.İmam Musa Kazim (ə) 269
54. Əbu Abdullah Məhəmməd Əmin 271
55. Əminin qardaşlarını vəliəhdlikdən uzaqlaşdırması 271
56. Xilafət uğrunda mübarizə 273
57. Tahir ibn Hüseynin və Hərsəmə ibn Əyənin Bağdadı ələ keçirməsi ... 274
58. Əbul-Abbas Abdullah Məmun 275
59. Əbu-Səraya və Əbu Abdullah Məhəmməd Təbatəbanın üsyanı 275
60. Məhəmməd ibn Cəfər Sadiqin *(ə)* qiyamı 276
61. Hərsəmə ibn Əyənin edamı 276
62. Xəlifə Məmunun Bağdada qayıtması 277
63. Tahirilər 278
64. Nəsr ibn Şibs əl-Uqeylənin üsyanı 278
65. Məmun tərəfindən şəhid edilmiş Əhli-beyt nümayəndələri 279
66. Xilafət əleyhinə üsyanlar və Krit adasının fəthi 281
67. Əbdus Fihrinin üsyanı 282
68. Xəlifə Məmun və Bizansla aparılan müharibələr 283
69. Xürrəmilər hərəkatının başlanması 284
70. Məmun və elm 291
71. Hz.Əli ibn Musa Rza (ə) 292
72. Əbu İshaq Məhəmməd Mütəsim 296
73. Həmədanın xürrəmilərdən geri alınması 297
74. Samirə şəhərinin inşası və paytaxt elan olunması 298
75. Məhəmməd ibn Qasimin qiyamı 298
76. Hind əsilli zütlərin qiyamı 299
77. Mazyarın üsyanı 300
78. Xürrəmilər üsyanının yatırılması 301
79. Xəlifə Mütəsim və Bizansla müharibələr 305
80. Abbas ibn Məmunun əmisi Mütəsimə qarşı çevriliş cəhdi 305
81. Əbu Hərb Mübərqenin qiyamı 306
82. Mütəsim və Əhli-beyt 306
83. Hz.İmam Məhəmməd Təqi (ə) 307
84. Əbu Cəfər Harun Vasiq Billah 308
85. Üsyanların yatırılması 309

86. Əhməd ibn Nəsr Xüzainin üsyanı 310
87. Romaya hücum 310
88. Əbul-Fəzl Cəfər Mütəvəkkil 311
89. Məşhur sərkərdə İytaxın qətli 313
90. Əhli-kitaba qarşı görülən tədbirlər 313
91. Mütəvəkkil və Bizansla aparılan müharibələr 314
92. Afrikada Büccə qövmünün üsyanı 315
93. Məhəmməd ibn Bəisin üsyanı 315
94. Mütəvəkkiliyyə (və ya Cəfəriyyə) şəhərinin inşası 316
95. Mütəvəkkil və Əhli-beyt 317
96. Mütəvəkkilin vəliəhdlik məsələsi 319
97. Əbu Cəfər Məhəmməd Müntəsir 319
98. Vəsifin Bizans sərhəddinə göndərilməsi 320
99. Müntəsirin qardaşlarını vəliəhdlikdən kənarlaşdırması 320
100. Əbul-Abbas Əhməd Müstəin 321
101. Mütəzz və Müəyyədin həbsi 321
102. Bağdad və Samirədə xilafət əleyhinə qiyamlar 322
103. Bəni-Haşim qiyamları 323
104. Sərkərdə Bağırın qətli və Müstəinin paytaxt Samiräni tərk etməsi ... 324
105. Əbu Abdullah Mütəzzin hakimiyyətə gətirilməsi 324
106. Əbu Abdullah Məhəmməd Mütəzz 326
107. Məğriblilərlə türklər arasında qarşıdurma 327
108. Mütəzz və Əhli-beyt 327
109. Məşhur sərkərdə Buğa əs-Səğirin və Vəsifin qətli 328
110. Hz.İmam Əliyyən Nəqi (ə) 329
111. Xəlifə Mütəvəkkilin şiələrə qarşı təzyiq və cinayətləri 330
112. Əbu Abdullah Məhəmməd Mühtədi 332
113. Musa ibn Buğa əl-Kəbirin Samirəyə çağırılması 333
114. Roma üzərinə ikinci yürüş 334
115. Əbul-Abbas Əhməd Mutəmid 335
116. Müsavir ibn Əbdulhəmid Şarinin qiyamı 335
117. İsa ibn Şeyx hərəkatı 336
118. Məhəmməd ibn Vasil hərəkatı 336
119. Sahib əz-Zincin üsyanı 337
120. Mutəmid və vəliəhdlik məsələsi 339
121. Səffarilər üsyanı və Tahirilər dövlətinin süqutu 339
122. Bizansla döyüşlər 340
123. Mutəmid və Əhli-beyt 341
124. Əhməd ibn Tulun və Abbasilər 341
125. Paytaxtın Samirədən Bağdada qaytarılması 342
126. Hz.İmam Həsən Əsgəri (ə) 343
127. Hz.Mehdi Sahib əz-Zaman 346

128. Hz.Mehdi *(ə)* haqqında Peyğəmbər hədisləri 347
129. İmam Zamanın *(ə)* qeybə çəkilməsinin siyasi-ictimai səbəbləri 348
130. Əbul-Abbas Əhməd Mütəzid-billah 349
131. Mütəzidin həyata keçirdiyi islahatlar 349
132. Xəlifə Mütəzidin apardığı müharibələr 350
133. Azərbaycan valisi Məhəmməd ibn Əbu Sac..... 351
134. Təbəristan hakimi Məhəmməd ibn Zeydin şəhadəti..... 352
135. Əbu Məhəmməd Əli Müktəfi 353
136. Tulunilər dövlətinin süqutu 353
137. Qərmətilərlə müharibələr..... 354
138. Bizansla aparılan müharibələr 354
139. Əbul-Fəzl Cəfər Müqtədir 355
140. Əbu Abdullah Məhəmməd ibn Mutəmidin xəlifə elan olunması 356
141. Müqtədirin həyata keçirdiyi daxili siyasət..... 356
142. Məhəmməd ibn Mütəzidin xəlifə təyin edilməsi 358
143. Təbəristan hakimi Utruş 359
144. Azərbaycan valisi Yusif ibn Əbu Sac..... 360
145. Əbu Mənsur Məhəmməd Qahir..... 361
146. Xəlifə Qahirin hakimiyyətdən salınması 362
147. Əbul-Abbas Əhməd Razi 362
148. Razi və Əhli-beyt..... 362
149. Məhəmməd ibn Əli ibn Hüseyn ibn Beyzavinin edamı 363
150. Əmir-ul-üməralığın yaradılması 363
151. Əbu İshaq İbrahim Müttəqi 365
152. Əbul-Qasim Abdullah Müstəkfi 366
153. Büveyhilərin Bağdadı ələ keçirməsi..... 366
154. Abbasilərin son günləri..... 367
155. Abbasilər xilafətini yıxan səbəblər 368
156. Abbasilərin siyasi və sosial-iqtisadi vəziyyəti..... 368
157. Məhkəmə sistemi və divanlar..... 369
158. Torpaq mülkiyyət formaları 371
159. Yeddi Quran qaresi..... 372
160. Fiqh elmi..... 373
161. Əbu Hənifə 374
162. Malik ibn Ənəs 374
163. Şafii 375
164. Əhməd ibn Hənbəl..... 375
165. Davud Zahiri..... 376
166. İbn Əbi Əqil..... 376
167. Fəlsəfə və kəlam elmləri..... 376
168. Məşhur İslam tarixçiləri 378
169. Ərəb dilçilik elmi..... 380

170. Bəsrə məktəbinin yetirməsi olan qrammatiklər 380
171. Kufə məktəbinin yetirməsi olan qrammatiklər 381
172. Xəttatlıq elm i382
173. Məşhur coğrafiyaşünas alimlər 382
174. Tibb elmi 383
175. Sufilik 384
176. İlk Abbasi dönəmində Azərbaycan 385
V FƏSİL ABBASİ TORPAQLARINDA QURULAN DÖVLƏTLƏR
1. Əğləbilər dövləti (800-909) 389
2. Samanilər dövləti (892-999) 390
3. Tulunilər dövləti (868-905) 393
4. İxşidilər dövləti (934-969) 394
5. Fatimilər dövləti (909-1171) 395
6. Büveyhilər dövləti (932-1062) 404
7. İdrisilər dövləti (789-926) 410
8. Tahirilər dövləti (819-873) 415
9. Qərmətilər (869-1070) 416
10. Səffarilər dövləti (867-1500) 423
11. Rüstəmilər dövləti (761-909) 424
12. Həmdanilər dövləti (903-1003) 425
13. Misirdə Abbasi xilafəti (1261-1517) 430
14. Məmlüklər (1250-1517) 431
VI FƏSİL ƏNDƏLÜS ƏMƏVİ DÖVLƏTİ (756-1031)
1. Əndəlüs Əməvi dövlətinin qurulması 437
2. I Əbdürrəhman ibn Müaviyə 437
3. Abbasi xəlifəsi Mənsur Dəvaniqi və Əbdürrəhman ibn Müaviyə 438
4. Əndəlüsdə baş verən digər hadisələr 438
5. Fransa kralı Şarlmanla döyüş 439
6. Əbdürrəhman ibn Müaviyənin həyata keçirdiyi islahatlar və vəfatı 439
7. I Hişam ibn Əbdürrəhman 440
8. Franklarla və xristianlarla müharibə 440
9. I Həkəm ibn Hişam 441
10. Üsyan və daxili çəkişmələr 441
11. Xristianlara qarşı aparılan müharibələr 442
12. II Əbdürrəhman ibn Həkəm 442
13. Xristianların hücumu 443
14. Əndəlüs xristianlarının II Əbdürrəhmana qarşı çıxışı 443
15. Əmir I Məhəmməd 444
16. Daxili və xarici çəkişmələr 444
17. Frankların hücumu 444
18. Ömər ibn Həfsin üsyanı 445
19. Münzir ibn Məhəmməd 445

20. Abdullah ibn Məhəmməd 445
21. III Əbdürrəhman ibn Məhəmməd 446
22. Daxili asayişin bərpa olunması 446
23. Xarici düşmənlərlə mübarizə 447
24. III Əbdürrəhman və Fatimilər 447
25. Səqalibə ordusu 448
26. III Əbdürrəhmanın dövründə mədəniyyət və elmin inkişafı 448
27. Kordova 448
28. Mədinətuz-Zəhra 448
29. Sənaye, kənd təsərrüfatı və ticarət 449
30. Təhsil 449
31. II Həkəm ibn III Əbdürrəhman 449
32. II Həkəm və elm 450
33. Kordova məscidi 450
34. II Hişam 451
35. Dənizçilik 452
36. Əndəlüs Əməvilərinin zəifləməsi 452
37. Təvaifi-muluk 453
38. Abbadilər 454
39. Murabitlər 454
40. Müvəhhidlər 455
41. Xristianlarla müharibələr 456
42. Bəni-Əhmər dövləti 457
43. Əndəlüsdə mədəniyyət 461

VII FƏSİL QARAXANLILAR DÖVLƏTİ

1. Qaraxanlılar dövləti (840-1212) 463

VIII FƏSİL QƏZNƏVİLƏR DÖVLƏTİ

1. Qəznəvilər dövləti (963-1187) 467
2. Sultan Mahmudun Hind səfərləri 469
3. Sultan Mahmud və Qaraxanlılar 471
4. Sultan Məsud 472
5. Sultan Mevdud 472
6. Sultan İbrahim ibn Məsud 472

IX FƏSİL ƏYYUBILƏR DÖVLƏTİ

1. Əyyubilər dövləti (1171-1250) 475
2. Xəttin döyüşü və Qudsün azad edilməsi 476

X FƏSİL SƏLCUQLULAR DÖVLƏTİ

1. Böyük Səlcuqlu imperatorluğu (1038-1157) 481
2. Dəndənakan döyüşü (1040) 483
3. Həsənqala döyüşü (1048) 484
4. Səlcuqlular tərəfindən Bağdadın ələ keçirilməsi 485
5. Toğrul bəyə qarşı baş verən üsyanlar 485
6. Şahzadə Kutalmışın üsyanı 486

7. Sultan Alp Arslan Əbu Şuca Məhəmməd ibn Davudun hakimiyyəti.... 487
8. Alp Arslanın Türkistan səfəri 487
9. Anadolu səfərlərinə Bizansın münasibəti 488
10. Anadolu və Suriya səfəri 488
11. Malazgird döyüşü (1071) 489
12. Alp Arslanın Şərq səfəri 490
13. Məlik-Şah ibn Alp Arslanın hakimiyyəti 491
14. Suriya və Anadolu səfərləri 491
15. Antakya və Xorasan səfəri..... 492
16. Türkistan səfəri..... 492
17. Səlcuqluların durğunluq dövrü..... 493
18. Sultan Məhəmməd Tapar 495
19. Əbul-Haris Sultan Səncər..... 496
20. Sultan Səncərin Şərq fəaliyyəti 496
21. Xarəzmşah valisi Atsız ilə Gurlu hökmdar Əlaəddinin fəaliyyəti..... 497
22. Oğuzların hücumu və Səlcuqlu dövlətinin süqutu..... 498
23. İraq Səlcuqları 498
24. Səlcuq Atabəylikləri 501

XI FƏSİL AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ

1. Səfəvilər dövləti (1501-1736) 505
2. İran, İraq və Şərqi Anadolunun tabe edilməsi 508
3. Osmanlı-Səfəvi müharibələrinin yenidən başlanması 510
4. Gürcüstanın tabe edilməsi 511
5. Luristan və Xuzistan əmirliklərinin tabe edilməsi..... 512
6. I Şah Təhmasibin hakimiyyətə gəlməsi və ölkədə baş verən hərc-mərclik..... 513
7. Osmanlı-Səfəvi müharibəsinin ikinci dövrü..... 515
8. Şirvanda Səfəvilər əleyhinə üsyanlar 519
9. Şəkinin Səfəvilərə birləşdirilməsi..... 519
10. I Şah Təhmasibin ölümü və hakimiyyət uğrunda mübarizə 520
11. Çıldır döyüşü və onun nəticələri..... 521
12. Krım tatarlarının Şirvana və Qarabağa basqını 524
13. Qızılbaş əyanları arasında çəkişmələr 525
14. Səfəvi-Osmanlı münasibətləri və Azərbaycan uğrunda mübarizə..... 526
15. Fərhad paşanın başçılığı ilə türklərin Azərbaycana yürüşü..... 529
16. Türkmən və təkəli tayfalarının qiyamının başlanması 530
17. Azərbaycan Səfəvilər dövlətinin süqutu..... 535
18. I Şah Abbasın islahatları..... 536
19. Səfəvilərin qonşu dövlətlərlə münasibətləri 537
20. Səfəvilər dövlətinin Teymurilər və Şeybanilər ilə münasibətləri..... 538
21. Səfəvilər dövlətinin Osmanlılar və Məmlüklərlə münasibətləri..... 544
22. Səfəvi sülaləsinin mənşəyi haqqında..... 546
23. Mədəniyyət..... 546

24. Şəhərlər, sənətkarlıq və ticarət 547
25. Səfəvilər dövlətini idarə etmiş hökmdarlar və hakimiyyət illəri 548
26. Hakimiyyət iyerarxiyası 550
XII FƏSİL SƏLİB YÜRÜŞLƏRİ
1. Səlib yürüşləri..... 553
2. Antakyanın xaçlılar tərəfindən tutulması (1098) 555
3. Qüdsün xaçlılar tərəfindən ələ keçirilməsi (1099) 556
4. İkinci xaç yürüşü (1147-1149) 556
5. Nurəddin Mahmudun fəaliyyəti 557
6. Üçüncü xaç yürüşü (1187-1191) 557
7. Dördüncü xaç yürüşü (1199-1204) 559
8. Beşinci xaç yürüşü (1216-1221) 559
9. Altıncı xaç yürüşü (1246-1248) 560
10. Yeddinci xaç yürüşü (1248-1254) 560
XIII FƏSİL OSMANLI DÖVLƏTİ (1299-1924)
1. Osmanlı dövlətinin qurulması 561
2. Orxan bəyin hakimiyyəti (1326-1361) 562
3. Sultan I Muradın hakimiyyəti (1361-1389) 562
4. Serb sındığı müharibəsi (1364) 563
5. Karamanoğullarının məğlub edilməsi və I Kosova döyüşü (1389) 564
6. Yıldırım Bəyazidin hakimiyyəti (1389-1402) 565
7. İstanbulun mühasirəsi..... 565
8. 1396-cı il Niğbolu müharibəsi və Bizansla müqavilə 566
9. Ankara müharibəsi (1402) və Yıldırım Bəyazidin vəfatı 566
10. Taxt uğrunda gedən mübarizə 567
11. Məhəmməd Çələbinin hakimiyyəti (1413-1421) 568
12. Şeyx Bədrəddinin üsyanı (1419-1420) 568
13. Sultan II Muradın hakimiyyəti (1421-1451) 569
14. İstanbulun mühasirəsi..... 569
15. Karamanoğlunun Antalya səfəri..... 570
16. Səlib yürüşləri və Ədirnə-Segedin müqaviləsi 570
17. Varna müharibəsi (1444) 571
18. II Kosova müharibəsi (1448) 571
19. Fateh Sultan Məhmədin hakimiyyəti (1451-1481) 571
20. İstanbulun fəthi (1453) 572
21. Sultan Fatehin Serbiya səfərləri..... 573
22. Osmanlı donanmasının uğurları 574
23. Albaniyanın ələ keçirilməsi..... 574
24. Osmanlı-Ağqoyunlu münasibətləri və Otluqbeli müharibəsi 575
25. Şimali Qara dəniz və İtaliya səfərləri 575
26. II Bəyazidin hakimiyyəti (1481-1512) 576
27. II Bəyazidin dövründə baş verən hadisələr və onun vəfatı..... 576
28. Yavuz Sultan Səlimin hakimiyyəti (1512-1520) 577

29. Çaldıran döyüşü (1514) 577
30. Mərcidabıq müharibəsi (1516) 578
31. Sultan Süleyman Qanuninin hakimiyyəti (1520-1566) 578
32. Moxaç müharibəsi (1526) 579
33. Avstriya səfərləri 579
34. Preveze dəniz müharibəsi (1538) 579
35. Osmanlı-Səfəvi münasibətləri 580
36. II Səlimin hakimiyyət (1566-1574) 583
37. Kiprin fəthi və Osmanlıların İnəbaxtı yaxınlığında məğlubiyyəti..... 583
38. III Muradın hakimiyyəti (1574-1595) 584
39. Osmanlı dövlətinin durğunluq dövrü və III Muradın vəfatı 584
40. III Məhmədin hakimiyyəti (1595-1603) 584
41. I Əhmədin hakimiyyəti (1603-1617) 585
42. II Osmanın hakimiyyəti (1618-1622) 586
43. IV Muradın hakimiyyəti (1623-1640) 586
44. I İbrahimin hakimiyyəti (1640-1648) 587
45. IV Məhmədin hakimiyyəti (1648-1687) 587
46. Qrit müharibəsinin başa çatması (1645-1669) 588
47. II Süleymanın hakimiyyəti (1687-1691) 589
48. II Mustafanın hakimiyyəti (1695-1703) 590
49. II Mustafanın taxtdan salınması 590
50. III Əhmədin geriləmə dövrü (1703-1730) 590
51. Səfəvilərlə müharibə və III Əhmədin taxtdan salınması 591
52. I Mahmudun hakimiyyəti (1730-1754) 591
53. III Osmanın hakimiyyəti (1754-1757) 592
54. III Mustafanın hakimiyyəti (1757-1774) 593
55. I Əbdülhəmidin hakimiyyəti (1774-1789) 593
56. III Səlimin hakimiyyəti (1789-1808) 593
57. IV Mustafanın hakimiyyəti (1808-1809) 594
58. II Mahmudun hakimiyyəti (1809-1839) 594
59. Əbdülməcidin hakimiyyəti (1839-1861) 595
60. Əbdüləzizin hakimiyyəti (1861-1876) 596
61. Osmanlı dövlətinin süquta uğraması 596
62. Osmanlı ordusu 598
63. I Şah İsmayılın Osmanlı sultanları ilə məktublaşması 598
64. Osmanlı imperiyasında massonluq 602

XIV FƏSİL HZ.PEYĞƏMBƏRİN QIZI HZ.FATİMƏ

1. Hz.Fatimə (s.ə) 611
2. Hz.Zəhranın (s.ə) təvəllüdü 612
3. Hz.Fatimənin (s.ə) fəzilətləri 612
4. Hz.Zəhranın (s.ə) zöhd və təqvası 613
5. Hz.Peyğəmbərin (s) Hz. Fatimənin (s.ə) gələcəyi haqqında 614

6. Mühacir və ənsar qadınlarından Hz.Fatimənin (s.ə) görüşünə gələnlər və Həzrətin onlara söylədiyi xütbə 615
7. Hz.Fatimənin (s.ə) vəsiyyəti..... 617
İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI 619
MÜNDƏRİCAT..... 624

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Dizayner: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 28.10. 2017
Şərti çap vərəqi 80. Sifariş № 685.
Kağız formatı 70x100 1/16. Tiraj 500 .

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4